*Firudin Ağasıoğlu*

# Doqquz Bitik

## AZƏRBAYCAN TÜRKLƏRININ İSLAMAQƏDƏR TARIXI

III Bitik

# AZƏRBAYCANDA QURULAN QƏDİM DÖVLƏTLƏR

Bakı – 2014

Elmi redaktor: *Prof. Dr. Yusif Yusifov, Dos. Dr. Mirheydər Mirzəyev*
Redaktor: *Prof. Dr. Ramiz Əskər, Həlimə Rzaquliyeva*

**Firudin Ağasıoğlu**. Azərbaycan türklərinin İslamaqədərki tarixi. (Doqquz Bitik); III Bitik: Azərbaycanda qurulan qədim dövlətlər. Bakı, 2014, «Ağrıdağ» nəşriyatı, 310 s.

«Altay» nəzəriyəsinin əksinə olaraq, «Urmu teoriyası» baxışı ilə türk etnosunun mənşəyini Ön Asiyada müəyyənləşdirən 9 cildlik «Azərbaycan türklərinin İslamaqədərki tarixi» («9 Bitik») adlı əsər müəllifin bu sahədə apardığı 30 illik tədqiqatın nətcəsi kimi ortaya çıxmışdır. Bütovlükdə türk xalqlarının tarixini yeni konsepsiya ilə ortaya qoyan bu əsər tarixi qaynaqlar, tarixi coğrafiya, Azərbaycanda qurulan qədim dövlətlər, tarixi onomastika, tarixi etnoqrafiya, həmçinin folklor və mifologiyada tarix, azər türkcəsinin tarixi və azər türklərinin soykökü kimi ayrı-ayrı cildlərdə verilən mövzuları əhatə edir.

Azərbaycanın ən qədim dövlətlərindən bəhs olunan III cilddə İslamaqədər Ön Asiyada, o cümlədən Azərbaycanda quralan türk dövlətləri, türk dövlətçilik gələnəyi, ordu və dövlət məsələləri yer almışdır. Bu cilddə türkologiyada ilk dəfə olaraq, bir neçə türk dövlətinin varlığı ortaya çıxarılmışdır.

(Müəllif hüquqları agentliyi. Şəhadətnamə № 5797)

© Ağasıoğlu
© «Ağrıdağ.» nəşriyatı, 2014

BAŞLIQLAR

1. Dövlət qurumları ………………………………………………………. 4
M.ö. III-II minillərdəki qurumlar……………………………..……. 12
M.ö. I minildən İslamaqədərki qurumlar………………..………. 16

2. Türklərin dövlət qurumu…………………………..……………….. 22
Dövlət düzəni və atributları…………………………..……………… 25
Dövlətçilik gələnəyi……………………………………..…………… 61

3. Ordu və dövlət……………………………………….……………… 76
Türklərin ordu sistemi……………………………………….……… 85
Savaş taktikası………………………………….……………………… 103
Atlı türklər və süvari döyüşçülər……………………………………… 107

4. İslamaqədər Ön Asiyada qurulan türk dövlətləri ……..…….. 111
Subar eli (ölkəsi)……………………………………..……….……….. 120
Subar bəyliyi……………………………………..……..…..……... 126
Doğu Subar bəylikləri…………………………...…………..……... 133
Aratta eli…………………………………………………..……….…. 151
Lulu eli…………………………..……………………..…………..…… 161
Qut eli…………………………..……………………..……..……...….. 173
Turuk (Türk) bəyliyi……………………………...…..………………. 198
Kuman bəyliyi………………………………………..…………..……… 204
Azərbaycanda kiçik bəyliklər (m.ö. IX-VII əsrlər)……..……....…. 214
Mana eli………………………………………..………………………. 269
Qamər bəyliyi……………………………………………………..…. 286
Saqa eli……………………………………………………….………… 301
Mada eli……………………………………..…………………………. 344
Azərbiqan eli (Kiçik Mada, Atropaten) ………..……………….…. 367
Alban (Aran) eli………………………..……………………..……….. 400

*Ədəbiyyat*………………………………………………………………….. 480

# 1. DÖVLƏT QURUMLARI

Türk dövlətləri haqqında yazılan əsərlərdə dövləti quran, onun yaranmasında əsas qüvvə olub, ağırlığı çiynində daşıyan xalqın tarixi deyil, hakimiyyəti yönətən sülalə-xanədanların, onların idarəsi altında olan ölkə və bölgələrin tarixi verilir. Belə tarix kitabları dövləti quran türk boylarını, dövlətin etnik özəyini gözardı edib, arxa plana keçirir. Türk mədəniyyətini dərindən duya bilməyən yabançı alimlərin bu münasibətini siyasi baxış kimi də düşünmək olar, lakin bir-iki alimi çıxmaq şərtilə, türk xalqlarının öz içindən çıxan və özəlliklə azər tarixçilərinin bu münasibətini anlamaq olmur. Türk xalqlarının tarixinə eyni münasibəti qüdrətli Osmanlı imperiyasının varisi olan Türkiyədə də görmək olur. Belə ki, türk boylarının bugünə qədər qurduğu və adına 16 *imperiya*, 50-dən artıq *dövlət*, 50-dən artıq *şahlıq-bəylik*, bir neçə *atabəylik*, 20-dən artıq *xanlıq*, 10-dan artıq *sultanlıq* və 15-dən artıq *respublika* (cümhuriyət) sözü qoşulan 150-dən yuxarı dövlət qurumu bəllidir. Lakin bu dövlətlərin əksəriyətinin adını çəkən çağdaş Türkiyə tarixçiləri Doğu və Güney-Doğu Anadolu, İkiçayarası və Azərbaycanda m.ö. III minildən üzübəri türk, protoazər və azər boylarının qurduğu Aratta dövləti, bir neçə Subar bəyliyi, Qut imperiyası, Lulu dövləti, Turuk (Türk) və Kuman bəyliyi, Mana dövləti, Mada imperiyası, Saqa, Alban-Aran dövlətləri və onlarla bəylik, xanlıq, sultanlıq qurumlarının və hətta Səfəvi dövlətinin adını belə çəkmirlər.[1]

Burada qədim dünya dövlətləri sırasında türk dövlət qurumlarının önəmli yeri və özəlliyi haqqında bilgi vermək nəzərdə tutulduğundan, ilk dövlət qurumlarının yaranma səbəbləri və yaranma şəraiti fonunda qədim türk dövlətlərinin etnik dayaqları, coğrafiyası, başqa dövlətlərlə oxşar və fərqli cəhətlərinin müqayisəsi, siyasi hakimiyyət növləri, dövlət atributları, dövlət-xalq, dövlət-ordu anlamları, türk dövlətçilik gələnəkləri kimi bəzi məsələlər üzərində dayanmaq və ölkə, əhali, hakimiyyət atributları ilə ortaya çıxan Dövlətin inzibati və etnik coğrafi sınırları, etnik demoqrafiyası, monarx, oliqarx və ya demokratik mahiyətli siyasi hakimiyyəti, unitar, federativ və ya konfederativ quruluşu, bəylik, xanlıq, şahlıq və imperiya tutumlu ölçülərini diqqətə almaq lazım gələcəkdir.

---

[1] Halbuki, tanınmış türk tarixçisi F. Sümerin sözləri ilə desək, Səfəvi dövləti Səlcuq və Orta Asiya türk dövlətlərindən daha «türk» idi.

Ön Asiyada neolitin son çağları və eneolit boyunca ibtidai icma quruluşunun dağılması prosesi gerçəkləşdikcə sosial durumda istehsal və mülkiyət diferensiallaşması baş verirdi; ilkəl toplum üçün xarakterik olan kollektiv əməklə «yalnız ehtiyacı təmin etmək həddində» ümumi bölünməz qida məhsulunun əldə olunması prinsipləri pozulurdu.[2] Artıq təbii coğrafi şəraitdən asılı olaraq, əkinçilik və maldarlığın yaranması, peşə və sənətlərin ayrılması, demoqrafik və sosial səbəblər, dini-ritual tədbirlər dövlət qurumlarının yaranmasına səbəb olurdu.

Hələ erkən eneolit çağında birinin başqası hesabına yaşaması mümkün deyildi, çünki eyni Ata kultuna tapınan soy-uruq sosial qurumunda kollektiv əməklə əldə olunan hər şey ümumi mülkiyət sayılırdı. Hətta iki və daha artıq soyun siyasi quruma çevrilən ərazi birliyi də hələ ilkin dövlət forması ala bilməmişdi. Gündəlik tələbatdan artıq məhsul yığımı və istehsalı ilə ortaya çıxan sosial təbəqələşmə, qohum və qonşu soyların qovuşmasından yaranmış ərazi birliyinin sosial-iqtisadi problemlərini nizamlamaq üçün soy, dini və hərbi başçılara verilən görəvlər get-gedə siyasi mahiyət qazanıb, dövlətin yaranmasına təkan vermişdir.

Qədim dövlət qurumlarının yaranması sivilizasiyanın inkişaf mərhələlərilə bağlı olmuşdur. Müasir Nepal, Banqladeş, Hindistan və Pakistan ölkələrini əhatə edən Hind yarımadasında mədəniyyət Sumer və Misirdən sonra yaransa da, III minilin ortalarına aid Harappa və Moxenco-Daro şəhərlərinin nümunəsində görünən qədim *Harappa mədəniyəti* Çindən ən azı minil öncə başlanmışdı.[3] Batıda Misir, doğuda Hind-Çin mədəniyyətlərindən xeyli fərqlənən Ön Asiya mədəniyəti ilə bağlı olan ilk türk dövlətlərinin yaranması isə daha qədim idi, çünki prototürklər İkiçayarası, Azərbaycan, Güney-Doğu Anadolu ərazilərində yaşayırdılar.

İlk siyasi qurumlar məhz mədəni inkişaf yoluna çıxan bölgələrdə görünməyə başlayır. Dağlıq bölgələrdən fərqli olaraq, toplumda varlı və yoxsul təbəqələşməsi özünü Sumer və Misir kimi ölkələrdə daha qabarıq göstərirdi, çünki əsl gerçək mədəniyyət IV-III minillərdə daha çox böyük çayların yaxasında yaranırdı. Belə ki, Elam mədəniyəti Kerxe və Karun çayları, Sumer mədəniyəti İkiçayarası (Mesopotamiya) adlanan Dəclə-Fərat çayları arasında, Misir mədəniyəti Nil çayı və Pakistan mədəniyəti Hind çayı yaxasında ortaya çıxmış, Çin mədəniyəti isə II minilin ortasında Xuanxe çayı yaxasında inkişaf etmişdir.

---

[2] ИПО, 1988.

[3] ИДМ, I, 169.

Misirdə Nilin stabil daşma dövrü olması suvarma işini yaxşı təşkil etməyə imkan verirdi, İkiçayarasında isə Fərat və Dəclə stabil olmayan daşqınları ilə vaxtaşırı kanal və bəndləri dağıtdığı üçün insan əməyinə burada daha böyük tələbat vardı. İkiçayarasında ilk məskunlaşma VI-V minillərdə başlansa da, artıq IV minildə burada böyük arx və kanalların çəkilməsilə müşayiət olunan mədəniyyət formalaşırdı. Kanal çəkmək bir soyun gücü daxilində deyildi, bunun üçün qonşu qəbilələrin birliyi və yaxın bölgələrdən əsir alınmış adamların qul əməyi lazım idi.[4] Bu isə siyasi qurumun yaranmasına aparan təşkilatlanma, təşkilatçı zümrənin ortaya çıxması şəklində gerçəkləşirdi.

Qədim dövlətlərin yaranması üçün toplumun mifoloji dünyagörüşündə tanrıya və ya tanrılara inamla bağlı *din*, toplumun mədəni-iqtisadi səviyəsi və doğal durumu ilə bağlı etnik ərazi olan *ölkə* və real güc kimi *ordu* faktoru önəmli rol oynayırdı. Türk etnosunun dövlətçilik gələnəyi başqa xalqların dövlət qurma prinsiplərindən fərqlənir, çünki sadalanan hər üç faktorun türklərdə özünəməxsus özəlliyi vardı. Üstəlik, *sosial qurum* təməli üzərində formalaşan ədalətli türk dövlət qurumunun əsasında yazılmamış qanunlar, toplumun inamla qoruduğu **törə** dururdu.

Bir çox xalqlarda dini inanc, mifik dünyagörüş tanrıların vəzifələri, iyerarxiyası fonunda *Kosmik dövlət* inamı yaratmışdır. Belə «dövlətlər» məkan baxımından Göydə və ya «tanrıların yurdu» sayılan Asər ölkəsində, Baqastan, Sumeru, Olimp kimi yüksək yerlərdə olsa da, tanrılar buradan insanların gündəlik yaşamına müdaxilə edirdi. Yerdə öz dövlətini quran xalqların çoxu Kosmik dövlət modelindən istifadə etmiş və müxtəlif ölkələrdə *teokratik* dövlət sistemləri yaranmışdır. Misirə nisbətən astrologiya ilə daha çox ilgilənən Sumerdə uzmanların *Kosmik dövlət* adlandırdığı ilk Sumer dövlətçilik gələnəyi məbəd hakimiyətini önə çıxarmışdır.[5]

Fərd tanrısal gerçəkliyi əks etdirən doğal çevrə içində yer almış cəmiyətin bir hissəsidir. Lakin bu iyerarxiya həlqələri arasında mövcud

---

[4] Minlərlə əsir və qul əməyilə yaranan tarixi abidələr coğrafi durumdan və istifadə olunan materialdan asılı olaraq, uzun və ya qısa ömürlü olur. Belə ki, daş və ya daşlaşan özəl məhluldan qurulan Piramidalar günümüzə qədər qaldı, İkiçayarasında gün altında qurudulmuş kərpicdən tikilən məbədlər (zikkurat) isə dağıldı.

[5] Bütün dəyərlərin yalnız tanrının keyfiyəti olduğunu düşünən yəhudilərdə isə tanrının (Yahve) özəl adı yoxdur, çünki onların inancında kosmos tanrıda deyil, tanrı kosmosda əks olunur. Musa tanrıdan soruşur: *İsrailoğulları məndən soruşsa ki, tanrının adı nədir, nə deyim*? Tanrı Musaya deyir: -*Varlıq Mənəm* (Çıxış, 3.13-14).

əlaqə-münasibət etnosdan-etnosa fərqlənir və bu fərq hökmdar ilə xalq arasında olan münasibətdə və dövlət düzənində özünü göstərir:

Çoxtanrılı Sumerdə ensi xalqın «çobanı» (toplumun sahibi) idi.

Çoxtanrılı Misirdə fironun özü «tanrı» idi.

Təktanrılı Türklərdə isə bəy (elbəy) azad fərdlərin başçısı idi.

Sumer inanışına görə, yerdəki dövlət gələnəyi göydəki tanrıların siyasi qurumunu əks etdirir və tanrı insanları yaradıb ki, onlara qulluq etsin. Sırasına görə, tanrılar iyerarxiyasında göy tanrısı *Anu*, sonra ildırım və tufan tanrısı *Enlil*, sonra yer, su tanrısı *Enki* gəlir, «yüksək şuraya» daxil olan yeddi tanrı toplanıb, hər hansı bir məsələyə aid qərar qəbul edir və onun icrasına nəzarət Enlilə tapşırılır. Anu tanrının təsvirində çar atributlarının hamısı vardır; əlində əsa, çoban çomağı, başında tac görkəmi onun tanrıların çarı olduğunu bildirir. Sumerlər yerdə, göydə, bütöv kosmosda hər şeyin özəl tanrısı olduğuna inanırdılar; Kosmosdakı bütün canlı və cansızlar baş tanrı Anunun iradəsi ilə təbiət qanunları düzənində idarə olunur. Məsələn, qamış adi bitki olsa da, göz görə-görə böyüyür; qamış tütəkdən xoş musiqi çıxır; ondan düzələn qələmlə hikmətli yazılar yazılır və əlbəttə, bütün bu olaylar «qamış tanrısı Nidaba tərəfindən tənzimlənir».

Tanrılar yığıncağında protokol qaydalarına əməl olunur, burada qəbul olunmuş qərarların icrası Yerdəki şəhər-məbəd tanrılarına tapşırılırdı. Bu məbudların heykəlcikləri də adətən çar qiyafəsində olurdu. Belə ki, tac, skipetr, çoban çomağı, baş çalması kimi çar atributlarının əksəri $^{D}$Api adlı məbudun görkəmində vardı.[6]

Hər yeni il başlananda tanrılar yığılıb, insanların bu il üçün taleyini müəyyənləşdirir, qərar qəbul edirdilər, çünki özünə qulluq etmək üçün «tanrı bu insanları yaratmışdı». Bu, məbəd hakimiyətinin devizi idi: tanrı insanı yaradıb ki, ona qulluq etsin.[7]

---

[6] ВПФ,133.

[7] Sumer inancında dörd əsas tanrı bunlar idi: 1. *Anu* baş tanrı (ata) sayılırdı. Sumer dilində An sözünün «göy» anlamı olduğu kimi, qədim türklər də *tanrı* sözünün kökündə duran Tan sözü «göy» anlamı daşıyırdı; 2. *Enlin* (Anunun oğlu) baş tanrının qərarlarını icra edən və tufan ağası sayılırdı. Epitetləri belə idi: böyük hökmdar, Göydəki tanrıların müşaviri, Yerdə tanrılara yol göstərən, rifahı düşünən bəy, dediyi sözə heç bir tanrı qarşı çıxa bilməz və sairə; 3. *Enki* Yerin tanrısı sayılırdı, epiteti isə *Ninmax* «ulu xatun» idi; 4. *Ninxursaq* «Ana Torpaq» erkək olub, Nin-tu «doğan» epiteti ilə işlənirdi. Türk inan cında isə «Ana torpaq» *Yer-Sub* adı ilə verilirdi.

Misirdə stabilliyin təminatçısı kimi firon «tanrının oğlu» sayılırdı. Sumerdə isə ensi (çar) tanrıların qərarı ilə təyin olunmuş sadə adam idi, əlinə çoban çomağı, hakimiyyət simvolu (skipetr) verilən bu adam istənilən vaxt dəyişdirilə bilirdi. Ensi tanrıların qulu sayılan xalqı («sürünü») saxlamaq üçün təyin edilmiş «tanrı çobanı» idi. Misirdə astrologiya uzmanları fironun qərarını yerinə yetirirdi, Sumerdə isə ensi astroloji fala baxmaq ilə hərəkət edirdi. Özünü tanrı sayan Misir fironlarından fərqli olaraq, Sumerdə tanrının yerdə təyin etdiyi baş kahin, baş nazir, baş komandan vəzifələrini daşıyan ensi (çar) hər addımını tanrılarla məsləhətləşirdi.




Sumerlərin «Kosmik dövlət» modelindən fərqlənən türk dövlətinin dünyəvi modeli sosial-siyasi quruma kökləndiyi üçün burada tanrı ilə insanoğlu arasındakı münasibətlər də fərqlidir. Belə ki, Göyü «tək tanrı» sayan türklər digər varlıqların tanrısı yox, *iyəsi* (yiyəsi) «hami ruhu» olduğunu düşünmüşlər. Doğrudur, vaxtilə İkiçayarası mədəniyyətilə sıx əlaqədə olmuş bəzi türk boyunda sumer teonimləri ilə müəyyən paralellik görünür, lakin bunlar lokal xarakter daşıdığı üçün ümumtürk mahiyəti qazana bilməmişdir.[8] Göy (=tanrı) yalnız dövlət başçısı seçimində insanların işinə qarışır, həmin vəzifəyə layiq olana *qut* verir.

Qədim türklər teokratik dövlət deyil, dünyəvi (sivil) dövlət qurmuşlar, çünki «kosmik dövlət» düzənini yerdə tətbiq edən sumerlərdən fərqli olaraq, türklər sosial qurumdakı düzəni siyasi quruma transfer etmişlər. Dağlardan enib Sumer ölkəsinə gələn türklər (qutlar) sumerlərin gözündə «dindar» deyildi. Ona görə də, sumer yazısında qutlar «ibadətə öyrənməmiş», «dini qayda-qanunlara düzgün əməl etməyi bilməyən adamlar» kimi verilir.[9]

---

[8] Belə ki, Arattada tanrıca *İnanna* tapınağı, V əsr yazarı Pomponi Melanın qeyd etdiyi «günaykokratumen» (*Gün-Ay-Gök yaratu men*) boyadı, hun elbəyi (şanyu) məktubunun «Göy-Yer doğan, Gün-Ay hunlara şanyu seçən» sözlərilə başlaması və ya Göytürk yazılarında «ölkə iyəsi» anlamında işlənən *Yer-Sub* kultu kimi tanrı və iyə adları haqqında «V Bitik»də geniş bilgi verilmişdir.

[9] Mirzəyev, 2003, 7.

Oğuz xanın Ay-kağandan doğulması motivi, onun 6 oğlunun (3+3) Ay, Gün, Ulduz və Göy, Dəniz, Dağ adları daşıması diqqəti çəkir.[10] Türk dövlət sistemində 12 sayı müəyyən iz buraxmışdır.[11] Belə ki, Ön Asiyada 12 boydan təşkil olunmuş dövlət motivinin doğuya getmiş türklərdə artıq oğuz-türkman boylarının 12 sağ və 12 sol qollara ayrılması və Oğuzun 24 nəvəsi (6 x 4) ilə ikiqat artmış, əslində ilkin motiv pozulmuşdur. Görünür, Mete çağında hunların 24 bəyliyə ayrılması fikri də bununla bağlıdır. Əlbəttə, bu rəqəm qədim mifoloji inama kökləndiyi üçün gerçəkliyi tam əks etdirmir.[12]

Misirdə olduğu kimi, Sumer, Bizans dövlətlərində hökmdar=tanrı modeli məqbul sayılırdı, türklərdəsə bu mümkün deyildi. Belə ki, 448-də Atillanın elçiləri Bizans imperatoru Theodorosun «tanrı» sayıldığını eşidəndə gülmüş və «bir insanı necə tanrı saymaq olar?» demişdilər. Başqa xalqların qurduğu dövlətdə hakimiyyət simvolu hökmdara verilən çoban çomağı *skipetr* idisə, türk hökmdarının hakimiyyət-erklik simvolu *yay* idi.

Türk dövlətləri tarixində yurda, vətənə bağlılıq və torpaq sevgisi böyük önəm daşıyan **ölkə** məfhumu ilə bağlı idi. Dilimizdə *toparlanmaq* sözü ilə eyni kökdən olan «torpaq» (< topraq) sözü el və elatın toparlandığı məkanda qiymətli olurdu, yer və torpaq sözləri yurd, oba, ölkə və el tərkibində qutsallıq qazanırdı, istər dağda, yaylaqda, istərsə şəhər-kənd, aranda torpağa (Yer-Sub) bağlılıq türkün yaşam atributu idi.

Türklərin etnik tarixindən danışarkən onların yaşam tərzi diqqətə alınmalıdır. «Türk tarixi yalnız göçəbə gövmlərin tarixi olmayıb, ən fəal ünsür göçəbələr olmaqla bərabər, bu tarix göçəbə, yarıyerləşik və yerləşik gövmlərin münasibətləri tarixidir».[13] Görkəmli tarixçi Z.V.Toğanın bu sözlərinə əlavə etmək lazımdır ki, türk tarixi köçəri və oturaq boyların

---

[10] Oğuzun ikinci arvadının göldəki ağacda olduğunu və *Göy* (Gök) sözünün burada *Köl* (göl) olması ehtimalını irəli sürən İ. Kafesoğlu 6 oğulun adındakı semantik sistemi göz önünə alır (Kafesoğlu, 1989, 242); Dədə-Qorqud abidəsində «altı bölük», «altı başı» və Göytürk yazılarında «altı bağ (bölük) budun» deyimləri, 6 boy bölgüsü Oğuzoğullarının sayı ilə bağlıdır (Әлиjаров, 1991).

[11] Qədim Ön Asiyada 12 boydan təşkil olunmuş dövlət motivi türk (həmçinin etrusk), yəhudi və başqa xalqlarda görünür. Bir ilin 12 aya və 365/366 günə bölünməsi ilə bağlı Dədə-Qorqud eposunun 12 qola (boya) ayrılması və burada «366 alp» deyiminin işlənməsi diqqəti çəkir. Sinoloq E. Şavan (*Chavannes*) də çinlilərin 12 heyvan təqvimini türklərdən aldığını qeyd etmişdir.

[12] Марков, 1976, 45.

[13] Togan, 1981, 299.

münasibətindən əlavə, həm də **oturaq** türklərin tarixidir. Azər türklərinin əksəri ən qədim çağlardan oturaq idi. İlkin Atayurddan çıxıb quzey və doğu ölkələrdə özlərinə ikinci Atayurd quran digər türklərin də əksəri yeni yurdda oturaq, uzaqbaşı, yarımoturaq yaşam tərzinə önəm vermişdir.

Atlı türklər Avrasiyanın müxtəlif bölgələrində oturaq yaşama keçən yatuq, tat, oturaq, arançı dedikləri soydaşlarına nisbətən otlaqdan-otlağa keçərək **bozqır** yaşamına üstünlük verirdilər.[14] Bəzən bu bozqırın sınırları bir neçə ölkənin hüdudlarını aşan böyük məkan, bəzən də yaxın yurdları əhatə edən bölgələr olurdu. Oturaq və ya bozqır yaşamından asılı olmayaraq, torpağa münasibət və yurd sevgisi türkün canında idi.

Batı Hun və Doğu Hun dövlətlərində olduğu kimi, ayrı-ayrı ərazidə eyni xalq eyni vaxtda iki dövlət qura bilər, yaxud Ağqoyunlu və Qaraqoyunlu dövlətində olduğu kimi, eyni xalqın qurduğu dövlətdə siyasi iqtidar çevriliş, hakim soyun dəyişməsi, sui-qəsd və sair səbəblərlə dəyişə bilər. İkinci halda söhbət *yeni dövlətin* yaranmasından deyil, bir xalqın qurduğu dövlətdə hakimiyyət dəyişməsindən gedə bilər. Belə ki, ölkə daxilində baş verən hakimiyyət dəyişmələri dövlətin davam etməsini dayandırmırsa, bu dəyişmə həmin dövlətin tarixində «filan sülalənin hakimiyyət illəri» şəklində təsbit edilir. Əksər ölkə və xalqların tarixində bunun örnəyi vardır.

Dövlətin qurulması üçün vacib olan şərtlərdən biri də gücə, qüvvəyə dayanan **ordu** amilidir. Ordu müharibə (savaş) üçün lazım idi, savaşlarsa müxtəlif məqsəd və səbəbdən yaranırdı. Belə ki, qonşu dövlətlər, siyasi qurumlar arasında savaş çox vaxt hegemoniya uğrunda olurdu. Məsələn, Umma və Laqaş şəhər-dövlətləri arasında hegemonluq üzrə münaqişə iki əsr davam etmişdi.[15] Hegemoniya uğrunda savaşda bir tərəfin qalib gəlməsi isə mərkəzləşmiş dövlətin yaranmasına səbəb olurdu. Bəzi savaşlar isə ərazi konfliktindən və bəziləri də yağma məqsədilə baş verirdi. Tarix boyu savaşdan-savaşa bərkiyən türk əsgəri, özəlliklə, bozqır atlı türklərin döyüşçüləri bacarıqlı hərbiçi kimi yetişirdi. Türklərdə formalaşan savaşçı boylar qurumu birlikdə böyük dövlət və imperiyalar qura bilirdi. Sumer şəhər-dövlətlərində əsas qüvvələri təmsil edən xalq kütləsi (qara camaat) deyil, luqal və ona tabe olan qoşun, kahinlər, məmurlar və oliqarxlar idisə, türk toplumunda qüvvə xalq-ordu-dövlət birliyində idi.

---

[14] «Bozqır türk dövləti hər hansı bir ailənin qılınc zoru ilə meydana gətirdiyi yığınlar topluluğu deyil, fəqət idarəçilərlə işbirliyi yapan geniş xalq kütlələrinin (sosio-politik kümələrin) qeyrətləri, iştirakı ilə gerçəkləşən bir siyasi təşəkküldür» (Kafesoğlu, 1989, 233).

[15] Cooper, 1983. 48-49.

Müxtəlif xalqların qurduğu dövlətlərdə hakimiyyətlə xalq arasında olan münasibətin xarakteri, dövlətin demokratiya və ya monarxiya institutları ilə idarə olunması, hakimiyyətin yönətim üsulu da dövlətçilik tarixi baxımından diqqətə alınmalıdır. Belə ki, bir neçə uruğun ərazi birliyini təmin etmək üçün ümumi yığıncaqda hərbi və dini başçının seçilməsi ilə formalaşan ilk dövlət qurumları ona görə *hərbi demokratiya* adlanır ki, burada savaşlar və savaşa hazırlıq xalqın yaşamında davamlı funksiyaya çevrilir. Hərbi demokratiyanı *savaşçı boylar qurumu* formasında yaşayan qədim türk boylarının çoxu hələ m.ö. III minilin ortalarında demokratiyanın bəsit formasını sağlam demokratiyaya çevirə bilmişdilər.Tarixdə mövcud olmuş dövlətlərə baxsaq, görərik ki, bəziləri varlılarla kasıblar arasında bitərəf mövqe tutan *monarxiya* dövləti idi, bəziləri isə Afina, Roma və orta əsrlərin feodal dövlətlərində olduğu kimi, varlıları kasıblardan qoruyan dövlət idi. Dünyada ilk dəfə ərazicə ən böyük əsl mərkəzləşmiş monarxiya dövlətini I Sarqon yaratdı. Sarqonilər monarxiyası oliqarx hakimiyyətinə böyük zərbə vurdu. Bu durum Misirdə də vardı.

Ön Asiyada m.ö. I minilə qədər türklərin monarxiya qurumuna keçməsi haqqında dəqiq bəlgə yoxdur, çünki sağlam demokratik qurumlu Qut elindən sonra Turuk, Kuman və Subar bəyliklərində dövlət qurumu haqqında ötəri və dolayı bəlgələr vardır, lakin artıq Mana çağından monarxiya sistemilə qarşılaşırıq. Ancaq sonrakı dövrlərdə qurulan bəzi türk dövlətlərində monarxın hakimiyyəti bölgələr üzrə paylaşdığını, yəni konfederativ sistemin tətbiq olunduğunu görürük. Turklərdə *seçimli monarx* qurumu olduğunu nəzərə alanda onun etruskların 12 bəylik əsasında qurulan monarxiya ilə eyni xarakterdə olduğunu düşünmək olur.

Dövlətin millət üçün olduğunu söyləyən mühafizəkar, sosial rifahı dəstəkləyən sosialist, insan azadlığını önə çəkən liberal yanaşmalardan fərqli olaraq, çox vaxt imperialist siyasi yönümlü ideologiyada fanatizm önə çıxır.[16] Dövlət əsasən ölkə, xalq və siyasi hakimiyyət ilə gerçəkləşsə də, üzərində durduğu ayaqlardan biri ideologiyadır. Yazılmamış əxlaq və dövlətçilik qanunlarına sözsüz itaət etməsi ilə seçilən türk toplumunda hər şeydən üstün tutulan **törə** dövlətin ideoloji əsasını təşkil edirdi. Beləliklə, qonşu xalqların dövlətçilik gələnəyindən fərqlənən etnik özəlliyi əsasında xalq, ölkə, tanrı qutu (seçim), siyasi hakimiyyət, ordu və törə ilə qurulan türk dövlətləri mahiyyətcə başqa dövlətlərdən xeyli fərqlənirdi.

---

[16] Komunist və ya faşist rejimlərində vicdan əzabı çəkmədən oğul atasının üzünə dura bilir, dövlət isə bunu hakim ideologiya naminə dəstəkləyib təbliğ edir.

**M.ö. III-II minillərdəki qurumlar**

Yer üzərində 2 milyon illik yaşı olan İnsanoğlunun bugünkü *insan* görkəmini aldığı çağlar o qədər də uzaq tarix deyil, insanların mağaradan çıxaraq, əkin-biçin və heyvandarlıqla məşğul olduğu dönəmdən isə aşağı-yuxarı 10 minil vaxt keçmişdir. İlk tayfa-qəbilə birliyi ilə qurulan «dövlət» qurumunun yaşı cəmi 5-6 minildən artıq deyildir. Keçən bu müddət ərzində müxtəlif etnoslar tərəfindən ayrı-ayrı bölgələrdə qurulmuş dövlətlərin fərqli özəllikləri olmasına baxmayaraq, onların yaranma səbəbi eyni və ya oxşar ehtiyacdan doğmuşdur. İbtidai icma quruluşunun dağılması ilə bəlli ərazi daxilində yaşayan toplum üzvləri arasında iqtisadi, sosial, mənəvi münasibətləri və qonşu bölgə insanları ilə barış, ya savaş olaylarını tənzimləmək zərurətindən doğan bütöv siyasi qurum *hakimiyyət* və *dövlət* anlayışlarını ortaya çıxarmışdır.

İlk çağlarda bəsit formalı bu qurumlar sınaqlardan çıxa-çıxa gəlişmiş, zaman keçdikcə mükəmməl idarəetmə təcrübəsi əldə olunmuşdur. Müxtəlif etnosların ayrı-ayrı bölgələrdə qurduğu dövlətlərin fərqli idarəetmə qanunları və qurumları (institutları) formalaşmışdır. İcma quruluşundan sonra ailə, nəsil, qəbilə və tayfa birlikləri yeni sosial-siyasi formalar alsa da, bu qurumlar minillərlə davam edən yaşarı özəlliyini bugünəcən bəzi etnoslarda saxlaya bilmişdir. Dünyanın ayrı-ayrı regionunda siyasi-ictimai qurumların təkmilləşmə axarı zaman fərqilə getmişdir, belə ki, bir sıra ölkədə tayfa-nəsil bölgüsü qədim çağlarda aradan çıxdığı halda, bəzi ölkələrdə hələ də davam edir. Özəlliklə, belə bölgü yarımköçəri yaşamı ilə seçilən boylarda daha qabarıq görünür.

Boy qurumunda artıq soy-uruq sistemi pozulur; uruqlar, soylar bir-birinə qarışır; yeni ərazi birliyi, bölgə (yerli-özgə) sistemi ortaya çıxır. Soy-uruq sistemindəki qanunlar burada işləkliyini itirir, yeni boy qurumu qanunu işləyir; müharibələr, yerdəyişmələr yeni-yeni qovuşma və ayrılmalarla müşahidə olunur. Sumerdə III minil boyu davam edən «kosmik dövlət» siyasi-iqtisadi baxımdan «milli» dövlət idi. Yeni yaranmaqda olan şəhər-dövlət idarəçiliyi yaşlı adamların iştirak etdiyi ümumxalq toplantısı ilə idarə olunurdu. Gündəlik yönətim ağsaqqallar şurasına aid idi, kritik dönəmdə bu şura üzvlərindən birinə müvəqqəti «çar» statusu verilirdi ki, bu da primitiv demokratiyanın örnəyi idi. [17]

---

[17] ВПФ, 124-125.

İslamaqədərki çağlarda Azər türklərinin iştirakı və ya öndərliyi ilə qurulan qədim dövlətlərin mahiyətini anlamaq üçün protoazər boylarının və bütövlükdə Türk etnosunun dövlətçilik gələnəyi ilə tanış olmaq lazım gəlir. III-II minlillərdə yaranmış türk dövlətlərinin mahiyəti o çağlarda mövcud olmuş qonşu dövlətlərlə müqayisədə açıla bilir. Türklərin ilkin Atayurdunu da içinə alan Ön Asiyada ilk *dövlətlər* yaxın yaşayış məskənlərini əhatə edən şəhərə aid olub, «şəhər-dövlət» kimi tanınırdı. Bunun örnəyi regionda qonşu xalqların qurduğu Sumer, Akad, Elam, Het və sair dövlətlərin ilk mərhələsində aydın görünür. Sonralar yaxın şəhər-dövlətlərin birliyi *bölgə dövləti*, bunların da birliyi *ölkə dövləti*, müəyyən tarixi şəraitdə qonşu ölkələri tutub, öz sınırına salan dövlətin də *imperiya* atributları yaranırdı. Lakin Ön Asiyada yranan bu sistemlə paralel dağlıq bölgə və ölkələrdə yaşayan yarımköçəri boyların qalabəylik, dərəbəylik, bəylik, ellik və imperiya xarakterli hakimiyətləri olmuşdur.

Ön Asiyada yaranmış hər iki dövlət sisteminin oxşar cəhətləri var: şəhər-qala, bölgə-ölkə əhalisi baş kahin və hökmdar tərəfindən idarə olunur və çox vaxt eyni adam həm baş kahin, həm də hökmdar vəzifəsini daşıyırdı, bölgə başçılarının da daxil olduğu tayfa və soy başçılarından ibarət ağsaqqallar şurası ilə birlikdə dövləti idarə edən hökmdarın çıxardığı qərar toplumun iradəsini əks etdirirdi. Əslində, uruq-boy birləşməsi (ittifaqı) ilə ortaya çıxan bu qədim siyasi quruma sonralar irokez, german və keltlərin tarixində rast gəldiyimiz kimi, əksər xalqlar öz tarixində hərbi, daha doğrusu, primitiv demokratiya adlanan bu siyasi qurumu yaşamışdır.

Ön Asiyada sumerlər siyasi hakimiyətdə *primitiv demokratiya* mərhələsini yaşayandan sonra irsi və mərkəzləşmiş dövlət qurumuna keçmişlər. Lakin sumerlərin quzey-doğu qonşuluğunda prototürk boyları irsi və mərkəzləşmiş siyasi hakimiyətə gec keçdiyindən, onların qurduğu ilkin primitiv demokratiya uzun müddət davam etmiş və təkmilləşərək *sağlam demokratiya* halına çata bilmişdir. Məhz m.ö. III və II minillərdə yaranan Aratta, Subar, Turuk, Kuman kimi türk dövlətləri, özəlliklə, Qut dövləti (m.ö. 2200-2109) bu durumu çox aydın sərgiləyir.

İstehsal vasitələrinin bütöv icmaya, yaxud azad fərdlərə, feodala, quldara və ya məbədə məxsus olmasından asılı olaraq, istehsal gücünün səviyəsi ilə ortaya çıxan fərqlərin sosial xarakteri formalaşır. Toplumda bu xususi mülkiyət formalarının yaratdığı sosial xarakterli istehsal tipləri dövlət qurumunda müəyyən formada əks olunur. Çin və Hind ölkələrində III-II minilliyə aid yazılı bəlgələr olmadığı üçün orada dövlət qurumunun

keçdiyi təkamül formaları haqqında bilgi olduqca azdır.[18] Yalnız arxeoloji kultur və mifoloji ədəbiyatın verə biləcəyi məlumatla kifayətlənmək olur ki, bu da qədim dövlət tarixinin hələ tam öyrənilməmiş sahəsi kimi qalır. Sumer və Misir dövlətlərinin ilkin mərhələsilə qədim Türk dövlətinin ilkin mərhələsi arasında isə oxşar cəhətlər olsa da, etnik dünyagörüş, yaşam tərzilə bağlı yaranan dövlət atributlarında köklü fərqlər vardır. Belə ki, möhtəşəm məbədləri, çoxlu qulları və yazı kulturu ilə seçilən Sumer və Misir dövlətlərindən fərqli olaraq, türklərin qurduğu dövlətlərdə bunlar görünmür və əksinə, Türk dövlətlərində olan insan azadlığı, mülkiyyət hüququ, demokratik seçim və toplumda fərdlərin hüquq bərabərliyi Sumer və Misir dövlətlərində yoxdur.

Hər il eyni vaxtda Nil çayının daşıb, əkin üçün münbit şərait yaratması Misir xalqının yaşamında stabil rifah durumu, normal inkişaf xətti formalaşdırmışdı. III minilliyin son əsrlərində başlanan və m.ö. II minilin ilk yarısında Ön Asiyadan savaşcıl boyların Misirə gəlişi ilə yerlərdə güclənən separatizmə qədər davam edən dövlət quruculuğu məbəd və möhtəşəm piramidaların tikilməsinə imkan vermiş, burada qul əməyindən maksimum istifadə olunmuşdur. Misirdə mərkəzləşmiş hakimiyyətə keçidin daha tez gerçəkləşməsi nəticəsində fironu «tanrı» sayan misirlilər onun hər bir qərarını icra etməyi qutsal vəzifə hesab edir və yerlərdə fironu əvəz edən məmurlar onun adıyla iş görürdülər.[19] Çünki toplumda hökmdar (firon) Ra tanrının oğlu və müqəddəs varlıq sayılırdı.

Misir dövlətində xeyli məmur vardı və bunların çoxu mirzələr idi. Sonrakı bürokratik aparatın xarakterik cəhətləri o çağlardan formalaşmağa başlamışdı. Hətta məmura tövsiyə xarakterli bir yazıda belə deyilir: «Rəis ilə bir stol arxasında oturanda sifətinə təvazökar görkəm verməli, yalnız ona təklif olunanı götürməli, ancaq rəis güləndə gülməlidir, onda rəis məmnun olub, onu qiymətləndirər» və yaxud: «şikayətçini dinləyərkən məmur sakit və təmkinlə dinləməlidir, çünki şikayətə gələn istədiyi məsələnin düzəlməsindən daha çox öz sözlərinə diqqətlə qulaq asılmasına önəm verir».[20]

---

[18] ИДМ, I. 44.

[19] Çoxtanrılı Misirdə tanrıları onların məbəddə qoyulan tapınaq simvolu quş, inək, öküz, adam və sair fiqurlar təmsil edirsə, sosiumda firon əvəz edir. Çünki fironun anası adi insan olsa da, o, Ra tanrının oğlu sayılır. Tanrının yerdə baş kahini olan firona hakimiyyət simvolu skipetr verilmiş və o, Misir xalqının üzərində çoban təyin edilmişdir.

[20] ВПФ, 102

Türklərdə isə sosial təbəqələşmə III-II minillərdə fərqli idi. Əgər qonşu xalqların əksərində yüksək mənsəb əldə etmək üçün bəlli soydan olma şərti vardısa, türk toplumunda hər kəs xidmət və bacarığına görə cəmiyətdə mövqe qazana bilirdi. Bunun örnəyi «Kutadğu Bilik» abidəsində aydın əks olunmuşdur.[21] Belə ki, azad fərdlərdən ibarət olan türk toplumunda sadə xalqın hamısı (*türk kara kamuğ budun*) bərabərhüquqlu idi.[22] Qara budunun əməyi böyük kanal çəkilişinə, məbədlərin salınmasına deyil, boy daxilində fərdlərin təsərrüfatına yönəlik idi. Əli silah tutan hər bir fərd həm əsgər, həm də heyvandar və ya əkinçi, sənətkar idi. Belə əmək bölgüsü ayrıca məmurlar ordusunun yaranmasına imkan vermirdi.

Misir, Sumer və Elam dövlətlərindən fərqli olaraq, III-II minillər boyu Güney-Doğu Anadolu və Azərbaycanda qurulan dövlətlər daha çox hərbi birləşmələr şəklində ortaya çıxır və müəyyən müddətdən sonra belə birliklər dağılırdı. Qonşu ölkələrdən bac-xərac və ya vergi almaq türklər üçün böyük önəm daşıyırdı və bu, bəzi yarımköçəri türk boylarının həyat amalına çevrilmişdi. Qonşu xalq bac-xəracı vaxtında verməyəndə, yaxud vermək istəməyəndə belə boylar yağma üsuluna əl atırdılar, sosial qurumun verdiyi təpərə görə isə onların gücü qarşısında heç kim dayana bilmirdi. II minilin başlarında Turuk bəyliyinin, ortalarında isə subar (mitan) və qafqazdilli hurri boylarının hərbi ittifaqı ilə qurulmuş Mitan dövlətinin örnəyində bunu açıq görmək olur. Bu gələnəyi Altaya köçən saqa və hun boyları da saxlamışdı.

Ön Asiyada II minilin ortalarında Elam, Babil-Kassi, Hurri, Het və Misir dövlətləri öz qüdrətinə görə seçilirdisə, artıq həmin minilin sonunda bunlardan yalnız Misir dövləti gücünü bir müddət saxlaya bilmişdi, o biriləri isə dağılıb siyasi meydandan çıxmışdı. Ön Asiyada I minilin əvvəlində Asur, Urartu, Friqiya kimi dövlətlər, Azaq dənizi yaxalarında isə Saqa boyları konfederasiyası yeni güc mərkəzinə çevrilməkdə idilər.

---

[21] KB, Metin, 1991, 408-410; ГБ, 1994, 302-304: *tapuğçı tetig erse qılqı bütün ötügke yarar bu qopar terk qutun* «Xidmətçi ağıllı və dürüst təbiətli olsa, hökmdara ərzi-halçı olar» (4045); *atım ersiq erse bolur oq yaçı köni erse qılqı bolur tamğası* «Yaxşı nişançı və cəsur isə ox-yayçı olar, doğru təbiətli isə damğaçı olar» (4046); *bitig bilse saqış ağıçı bolur* «Yazı və hesabı bilsə, xəzinədar olar» (4048); *qayuqa ögelik tegir ög bolur qayu kök ayuqluq öze at alur* «Kimi ağlı ilə ögəliyə yüksəlir, kimi gök-ayuqluq ilə şöhrət tapır» (4067); *qayu yawğu yuğruş bolur ilbegi qayu atı teñsiz bolur er ögi* «Kimi yabqu, kimi yuğruş, elbəyi, kimi də ünvanının tayı-bərabəri olmayan ər-ögi olur» (4069).

[22] Валитова, 1963, 113.

**M.ö. I minildən İslamaqədərki qurumlar**

I minilin əvvəlində Ön Asiya dövlətlərinin iqtisadi yüksəlişi dəmirin ortaya çıxması ilə başlayır. Ölkələrarası siyasi, diplomatik əlaqələrin genişlənməsi, karvan yolları işləkliyinin artması ilə ticarətin önəm qazanması yeni geosiyasi durumların yaranmasına səbəb olurdu. Əgər I minilə qədər qurulmuş türk dövlətlərinin özəlliyini Sumer, Akad-Asur, Elam, Kassi və Hurri kimi qonşu dövlətlər və türklərin təmasda olduğu uzaq Misir dövləti ilə müqayisə etmək lazım gəlirsə, artıq sonrakı İslamaqədər çağları əhatə edən dövrdə ətrafda mövcud olan Asur, Urartu, Əhəməni, Yunan, Roma, Bizans, Selevki, Sasani və Çin dövlətləri və yaranmaqda olan Xilafət ilə müqayisə etmək lazım gəlir. Həm də diqqətə alınmalıdır ki, atlı türk dövrü II minilin ortalarından başlansa da, bozqır atlı türkləri yalnız I minilin başlarından Avrasiyanın hegemon xalqına çevrilmişlər.

I minilin başlarında İkiçayarasının quzeyində qurulmuş Subar bəyliyi, Azərbaycanın batı bölgəsi Mosuldan quzeydə davam edən Kuman bəyliyi və mərkəz bölgələrdə ortaya çıxan çoxlu kiçik bəyliklər, Mana, Mada dövlətləri, həmin minilliyin ortalarından sonra yaranan Azərbiqan (Atropaten) və İslamaqədər davam edən Alban (Aran) dövlətləri yerli oturaq türklərin qurduğu siyasi qurumlar idi. Azərbaycanda yarımköçəri bozqır atlı türklərin m.ö.VII əsrdə qurduğu dövlət yalnız sonrakı İrəvan xanlığının ərazilərini və Borçalını əhatə edib, Alazan (*Ala-üzən*) çayı yaxalarına qədər uzanan Saqa çarlığı idi.

İnsanoğlunun keçmişə münasibəti «*indi*» və «*o vaxtlar*» deyimi ilə hər zaman qarşılaşdırılmışdır və həmişə *keçmiş* daha ədalətli durumu ilə dəyərləndirilmişdir. Əlbəttə, bütün insanlığa xas olan bu hal kerçəkliyi əks etdirmir, sadəcə, nəsillər arasında nostalgiya hissi yaşlılara məxsus olduğu kimi, bütövlükdə keçmişi ideallaşdırmaq hissi də insanoğlu üçün xarakterikdir. Mifoloji baxımdan, keçmiş zamanın özü də dövrlərə bölünür. Qədim hind düşüncəsinə görə, insanlar dörd dövrdə yaşamışlar. Güya bərabərlik, xoşbəxtlik və dövlətsiz olub, «mükəmməl» sayılan ilk dövrdən fərqlənən sonrakı dövrlərdə insanların rifahı get-gedə pisləşir, nəhayət «günahlı», «qaranlıq» dövr (m.ö. I minilin əvvəli) adlanan çağ başlayır.[23] Bu dövrlər yunan mifologiyasında *qızıl*, *gümüş*, *mis* və *dəmir dövrü* kimi yer alır.

---

[23] Hind mifologiyasında bu dövrlər *Krita, Treta, Dvapara, Kali* adlanır (ИДМ, I. 337).

Atlı türklər kimi saqa boylarının ilk köçləri II minilin ortalarından başlansa da, onların aktiv siyasi tarix səhnəsinə çıxması, sözün hərfi mənasında, *dəmir* dövrü ilə başlanır. Konkret bir dövrü deyil, III minildən İslamaqədərki çağları əhatə edən «Oğuz zamanında» deyimi hər dəfə işləndiyi konteksdə müəyyən tarixi dövrə aid olur. Türklərdə Oğuz xanın İbrahim peyğəmbər çağında yaşaması inancı vardı.[24] Lakin Oğuz obrazı bir məqamda Ayın oğlu (*onu Ay-kağan doğdu*) kimi verilib, III minilin ilk yarısında yaşamış ökuz (oquz) epitetli Bilqamıs ilə eyni (Zülqərneyn) obrazdırsa, başqa bir konteksdə Kara-xanın oğlu kimi, oğuz boylarının soybabasıdır. Bu baxımdan, Dədə Qorqud hekayələrində *oğuzlar dövrü* anlamında işlənən «ol zaman» deyimində arxaik qat II minilin ortalarına, sonrakı qatlar isə bir-birini əvəz edən Saqa, Hun, Xəzər və Səlcuqlar çağını əhatə edir və «Koroğlu» eposunda olduğu kimi, «Oğuznamələr» də bu müxtəlif tarixi qatlara aid olayları eyni tarixi müstəvidə təqdim edir. Ona görə də, eyni oğuz bahadırı həm arxaik qatda, həm də islamlaşma çağı olaylarında iştirak etməli olur.

Türklərin dövlətçilik tarixində önəmli rolu olmuş müxtəlif çeşidli dini inancların da ayrı-ayrı zamanlarda ortaya çıxdığını görmək olur. Belə ki, III minildən İslamaqədər davam edən «bir tanrı» inamlı *Tanrıçılıq* ilə yanaşı, bəzi bölgələrə başqa etnosların gətirdiyi *zərdüşti, məzdəki, mani, musəvi* (yəhudi) və *xristian* dinləri də olmuşdur.[25] Azərbaycanda bir çox türk boyu əsas türk dini olan Tanrıçılığı (Gök-Tanrı) saxlasa da, bəzi türk boylarının, daha doğrusu, hun, alban, aran, ermən, xəzər, qıpçaq boyları içində bəzi ailə və soyların m.s. I minildə musəvi, xristian dinlərini qəbul etməsi bəllidir, lakin azər türklərinin zərdüşti, məzdəki və mani dininə tapınması haqqında tarixi bəlgə yoxdur.[26] İslamlaşma çağında ulu peyğəmbərimiz Məhəmmədin (s.ə.s.) dinini qəbul etmiş türklər tanrıçı, musəvi və xristian türklərlə iç-içə dini tolerantlıq mühitində yaşamışlar. Xəzər dövlə-

---

[24] KCN, I. 11; Bü görüşün arxeoloji bəlgəsi kimi, II minilin ortalarında meqalit tikililər, Oğuz qalaçaları diqqəti çəkir.

[25] Dədə Qorqud hekayələrində *təkur* (xan) və *məlik* (bəy) titulları ilə adı keçən Qara-Tikan, Sunu-Sandal, Qıpçaq, Şöklü, Qara-Aslan, Qara-Təkur, Buğacıq, Baybecan bəy və onların boyu xristianlığı qəbul etmişdilər.

[26] Yerli *Od* kultu və *Asar* tanrıya inama dayanan, lakin pers mühitində formalaşdığı üçün türk gələnəyindən fərqlənən *zərdüştilik*, zərdüştiliyə dayanıb, atəşpərəstliyi önə çıxaran və mal-mülk bərabərliyi, hətta arvadları bölüşdürmək adətini təbliğ edən *məzdəki* dini də türklər üçün yad idi. Çünki etnik kökü baxımından, Məzdək fars (əcəm) idi və bunu Nizamülmülk xüsusi qeyd edir: «Məzdək *əcəmdir*» (Siyasətnamə, 158).

tində dörd dinə tapınan ayrı-ayrı türk boylarının bir yerdə yaşaması bunun bariz nümunəsidir. Tolerantlıq «din ayrı qardaş» deyimində də qalmışdır.

Əvvəlki minilllərdə daha sadə görkəmi olan Misir məbədləri artıq m.ö. I minildən başlayaraq möhtəşəmliyi ilə seçilir və idarəçilikdə onun funksiyasının genişlənməsi görünür. Artıq hər beş adamdan biri, əkilən torpağın isə üçdə biri məbədə aid idi. Çoxtanrılı Roma-Yunan tapınaq və məbədləri də böyük imtiyaza malik idi. Bu durum xristianlıq çağında Bizans dövlətinin məbədlərə verdiyi böyük önəmlə daha da artmışdı. Türk toplumundan fərqli olaraq, bu dövlətlərdə dini institutlar başqa dinlərə qarşı barışmaz mövqe tutur və sadə xalqı yox, oliqarx və hakim zümrəni müdafiə edirdi. Türklərin yeni-yeni ölkələr fəth etməsində başqa etnik boylara və başqa dinlərə tolerant münasibəti də öz bəhrəsini verirdi, hətta 475-də rumlu çinovnik və feodalların talançı xislətinin artıq dözülməz hal almasından bəhs edən yepiskop Salvian Marselli qeyd edirdi ki, rumlular belə «varvarların (türklərin) zəbt etdiyi torpaqlara qaçır».

Dövlətçilik baxımından Ön Asiya xalqlarından xeyli geridə qalan Avropa xalqlarında boy-soy qurumundan dövlət qurumuna keçid və hakimiyyətin irsi ötürülməsi m.ö. I minildə gerçəkləşdi. Aqressivliyilə seçilən *Asur,* aqressiv olsa da, işğal etdiyi ölkələrdə tikinti aparıb, kanallar çəkən *Urartu* və həmin minilliyin ortalarına qədər mədəniyyət mərkəzi sayılan *Babil* dövlətindən uyğun bölmələrdə bilgi verilmiş və bu dövlətlərdə irsi hakimiyyət olması göstərilmişdir. Aşırı şovinizmi ilə seçilən Əhəmənilər və bir neçə əsr sonra onu təqlid etməyə çalışan Sasanilər də hakimiyyəti seçimlə deyil, irsi yolla varisə verirdi: «*Ərdəşir Babəkandan başlamış əcəm şahlarının axırıncısı olan Yəzdgürdün dövrünə qədər şah oğlu şah ola bildiyi kimi, vəzir oğlu da vəzir olmalı idi*».[27] Sosial qurumu dövlət quruluşuna transfer edərək insan azadlığına önəm verən türklərin dövlətçilik fəlsəfəsinin əsasında seçim dururdusa, Yunan-Roma dövlətlərinin yaranmasında da ailə (klan) və boy qurumları önəm daşımış və Bizans çağında bu gələnək hakimiyyətin irsi ötürülməsi şəklində davam etmişdir.

Müasir *genetika, geneologiya* terminlərinin kökündə dayanan «soy» anlamlı *genos* (yunan), *gens* (latın) sözü «qadın» anlamı ilə bağlıdır.[28] Olsun ki, qədim türkcənin *kün* (xalq) sözünə bənzəsə də, german dillərin-

---

[27] Siyasətnamə, 142; Bu sözləri yazan Nizamülmülk həmin gələnəyin türk dövlətçiliyinə gətirilməsində həm də şəxsi marağı vardı: özü bir neçə türk hökmdarının baş vəziri olmuşdu və özündən sonra bu vəzifənin oğluna keçməsi üçün çalışırdı.

[28] Müqayisə et: *gine* (yunan), *gin* (hay), *jena* (rus), *zənən* (fars).

dəki *künne, kuni* (qotlarda), *kona/kuna* (qədim skandinavlarda) formaları da **gen* kökü ilə bağlıdır və «başçı» anlamlı *köniq* sözü də bu yuvaya girir. Lakin burqund, lanqobard german boylarında soy *fara*, soy üzvü isə *faramanni* adlanırdı. Diqqəti çəkən məqamlardan biri də budur ki, həmin fara sözü «getmək, köçmək» anlamlı *bara* (fara<*bara) ilə izah olunur.[29] Bu da türkcə *bar*- (varıb-getmək) feilinə uyğun gəlir.

Roma dövlətinin m.ö. VI əsrin sonuna qədər «çar dövrü» adlanan çağlarında sosial-siyasi qurumlar bəzi terminlərdə əks olunmuşdur: patriarxal yönlü *familiya* adlanan soyların başında *pater-familias* və ya *dominus* «sahib» dururdu, «uruqbaşı» və «uruq» anlamlı *patrisi* termini böyük familiyaların birliyini göstərir, demokratik seçimlə hərbi başçı, baş kahin və hakim vəzifəsini daşıyan *reks* çar sayılırdı. Bəlli soylara daxil olmayan gəlmələr (*plebs*) və kasıblar çox vaxt sahibkardan (*patron*) asılı olurdu. Sonrakı monarxsız Respublika (*res-publica* «xalq işi») çağında isə *senat* (senex «qoca») adlanan 300 nəfərlik ağsaqqallar şurası, *komisiy* adlanan xalq məclisi və iqtidarın başında *konsul* vardı. Beləliklə, Roma şəhərini quran etrusklarda hakimiyət seçimlə idi, latınlar da bu ənənəni respublika çağında saxladılar; konsullar seçki ilə senat və xalq məclisində seçilirdilər.

İlk Roma dövlətində etrusk gələnəyi kimi «imperium», hökmdar üzərində xalq nəzarəti vardısa, artıq Roma imperiyası vaxtında bu dövlətə tabe olan ərazilər o qədər genişləndi ki, Avropa, Afrika və Asiyanın bir çox bölgəsi bu imperiyanın idarə olunmasına vergi verməli oldu. Təbii ki, belə imperiyanın başında duran *konsul* demokratik institutlardan vaz keçməli idi və belə də oldu.

Yunan toplumunda isə «soy» anlamında *genos*, «uruq» anlamında *fratri* (qardaşlıq), «boy» anlamında *fili*, «bodun» anlamında *demos* termini işlənirdi.[30] Eyni atadan törəyənlərin genos qurumunda daxili evlənməsi qadağan idi, burada oğulluğa götürmə, soydaşların vərəsəlik hüququ, başçının seçimi, ərazi, iş və qəbiristanlıq ümumiliyi, hərbi və dini başçı *filobasiley* vardı. Fili qurumunda demos mühüm məsələləri *aqora* adlanan toplantıda müzakirə edirdi, ağsaqqallar şurası *bule* adlanırdı. Yunanlarda soy-boy bölgüsü dövlət yaranandan sonra sosial təbəqə bölgüsü ilə əvəzlənir; xalq soylulara və əkinçi, sənətkar, əsgər zümrəsinə ayrılır.

---

[29] Энгельс, 1982, 156.

[30] Sonra «xalq» anlamı qazanan *demos* qabaqlar *damos* şəklində idi (ИДМ, 1982, 293).

Afinada şura yaranandan sonra soy-uruq qurumu boy təşkilatında pozuldu. Əvvəlki qonşu boyların ittifaqı indi mərkəzi şura ilə idarə olunurdu. Görünür, bu çağlarda aparıcı mövqeyə Afina əhalisi çıxıb baş el olmuşdur və latınların *reks* sözündən fərqlənən el-başı anlamındakı *basil* (*basiley*) sözü *patrike* sözünü əvəz etmişdir. Soylu, əkinçi, sənətkar və əsgər kimi müxtəlif təbəqəyə ayrılan cəmiyətdə yalnız soylular hakimiyətə iddia edə bilərdi.

Avropa xalqları mərkəzləşmiş dövlət yaradana qədər boylar birliyi (*Confederation de tribus*) mərhələsini yaşamışlar. Belə ki, Sezarın germanları boy-soy bölgüsü ilə məskunlaşdırması bəllidir. Boy bölgüsü Şotlandiyada XVIII əsrin ortalarına qədər davam etmişdir. Avropada dövlətçilik boy qurumu > ərazi təşkilatı > dövlət mərhələlərini ayrı-ayrı bölgələrdə müxtəlif çağlarda keçirmişdir.

Yunan toplumunda boy qurumunun dağılmasına səbəb olan dövlət qurumunun yaranması ilə kəndlinin öz torpağında arendatora çevrilməsi prosesini dəqiq şərh edən F. Engels yazır: «Əvvəllər, soy-uruq qurumlu toplumda belə çevriliş mümkün deyildi».[31] Yunanıstanda m.ö. VI əsrdə müəyyən reformalar həyata keçirildi və varlı-kasıb qarşıdurması bir az səngidi.[32] «İntellekt dövrü» adlanan bu çağlarda xeyli alim, yazar, filosof yetişdi, «7 müdrik»dən biri də atası türk (saqa), anası yunan olan Anaxars idi.[33] Yunanıstanda dövlət qulları müxtəlif ərazilərdə yerləşdirilir və onlara xüsusi təsərrüfat yaratmağa imkan verilirdi. Bu növ qulların istehsalı dövlətdə hakim təbəqənin məhsulla təmin olunmasına yönəlmişdi. Belə təsərrüfatla məşğul olanlar *ilot* adlanırdı.[34] Bu termin, yəqin ki, türklərin *elat* sözü ilə bağlıdır.

Əgər Afina dövlətinin yarandığı çağlardan başlayaraq davam edən varlı-kasıb qarşıdurmasına səbəb aşağı təbəqənin müflisləşməsi ilə mülkiyət hüququnu itirmək idisə, türk toplumunda istehsalçı öz istehsal etdiyi məhsulun sahibi idi. Boy qurumu bu adil düzəni yaşadırdı. İrokez toplu-

---

[31] Энгельс, 1982, 126.

[32] Afinada m.ö.594-də Solonun reforması ilə torpağı icarəyə götürənlərin borcu ləğv olundu, 509-da isə zadəganlara böyük təpki göstərildi. 4 boylu Afina dövlətində 400 nəfərdən ibarət şura yarandı (4x100). Əhali varına-mülkünə (gəlirə!) görə gəliri çox, orta, az olanlar və kasıblar üzrə 4 növə bölündü və 3 bölgəyə ayrılmış Yunanıstanın (Attika) ayrıca başçısı (demarx), hesabdarı, 30 hakimi və kahini olan hər bölgəsində özünüidarə üsulu tətbiq edildi.

[33] Azər xalqı, 2000, 98-102.

[34] ИДМ, I, 41.

munu öyrənən etnoqraflar da bunu boy qurumu ilə izah edir. Tarixdə bəlli türk dövlətlərinin çoxu məhz boyadı ilə tanınır.

Dövlətin xarakterik cəhətlərinə təsir edən boy-soy qurumları kimi, ailə, evlənmə və toplumda qadının statusu və ona münasibət məsələləri, həmçinin irsi hakimiyət gələnəyi olan dövlətlərdə kimin varis ola bilməsi də dövlət qurumunda müəyyən rol oynayır. Etnik mentalitet ilə bağlı olan bu məsələlər ayrı-ayrı xalqlarda müxtəlif xarakter daşıyır. Məsələn, türk xalqlarında olduğu kimi, germanlar da qadına hörmət edirdilər, lakin çin, yunan və semit xalqlarında qadına belə münasibət yox idi. Soylu, sənətkar, əkinçi və ya çoban olmasından asılı olmayaraq, hər bir türk potensial əsgər idi və orduda özəl yeri vardı. Qazandığı nüfuz və bacarığına görə hər kəsin hakimiyətə iddialı ola bildiyi türk toplumuna irsi hakimiyət yad idi. Mana dövləti çağında isə artıq bu gələnək pozulmuşdu.

Dəmir dövrü dövlətlərində pulun ortaya çıxması da xarakterik haldır. Yunan və Kiçik Asiya şəhərlərində qızıl və gümüşdən kəsilmiş sikkələr m.ö. VII əsrdən işə düşür. İkiçayarasında pul (sikkə) Selevki çağından işləndi. Əvvəllər isə mübadilə və ödəniş üçün müxtəlif həcmli qəlibdən çıxmış gümüş işlənirdi. Bəzi çağlarda gümüşlə bərabər, qızıl və qurğuşundan da istifadə olunurdu.[35]

IV-II minillərdə ticarət alış-verişi mal mübadiləsi (barter üsulu) ilə aparılırdı. Əvvəllər əmtəə mübadiləsi xırdabuynuzlu heyvan, davar sayı ilə tənzimlənirdisə, sonralar mal dəyişmə ticarəti pulu ortaya çıxardı, ilk pul tacirin silahı idi. Pul istehsalçının istehsal etdiyi malın, ümumiyətlə istehsalın «ağası» oldu. Pulu icad edənlər düşünmürdü ki, **pul** kulta çevriləcək. Kağız puldan öncə türklərdə *çek* işləndiyini qeyd edən Z.V. Togan, ümumiyətlə ticarətdə işlənən müxtəlif ölçülü metal külçə, sonralar isə pul-sikkə ölçü vahidlərinin Ön Asiyadan Hind və Çin ölkələrinə keçdiyini yazır.[36] İlk sikkə Lidiyada Krez (m.ö. 560-546) çağında basılmışdır.

Müxtəlif dillərdə pul anlamlı sözlərin heyvan dərisi ilə bağlı olması anlaşılır. Belə ki, latın dilində *pekus* «qaramal», *pekuniya* «pul»; qədim hindcə *rupa* «qaramal», *rupi* «pul» mənalı sözlərdir. Türkcənin *dəri* sözü qədim pers pulu *darik* (yunanca *draxm*) sözündə görünürsə, davar//tavar və *tənqə* sözləri rus dilində *tovar, denqi* sözlərində təkrar olunur. Tənqə sözünə Persopol yazılarında da *danaka* şəklində rast gəlmək olur.[37]

---

[35] Оппенхейм, 1990, 69.

[36] Togan, 1981, 121-123;

[37] İtil bulqarlarında belə ölçü vahidi *tiyin* (sincab dərisi) olmuşdur.

# 2. TÜRKLƏRİN DÖVLƏT QURUMU

Müxtəlif ölkələrdə dövlət qurumları əsasən oxşar səbəbdən ortaya çıxsa da, dövlət qurma yolunu zaman fərqi ilə keçən ölkələrdə formalaşan qurumların yerli gələnək cizgisi də özünü göstərir. Bu xüsusiyəti nəzərə almadan qədim mətnlərdəki məlumatı düzgün şərh etmək mümkün deyildir. Tekstoloji araşdırmanı haqqında danışılan etnosun zaman-məkan mühiti prizmasından baxmaqla aparmaq və irəli sürülən fikirləri onun dili, folkloru, dünyagörüşü və etnik gələnəkləri süzgəcindən keçirmək lazım gəlir. Bu baxımdan qədim Azərbaycanda siyasi qurumların yaradıcıları olan prototürklərin tarixi onların yaşadıqları zaman kəsiyi, ətraf mühit, həyat tərzi, qonşularla əlaqəsi və sonrakı durumların retrospektiv proyeksiyasında aydın seçilən tarixi gələnəkləri kontekstində üzə çıxır.

*İlkəl toplum* (ibtidai icma) quruluşunda qohum *oğuş* (ailə) birlikləri şəklində formalaşan *soylar* (nəsillər) toplumu olaraq **uruq** (qəbilə) ayrıca soyadı, başçısı, bəlli ərazisi, inanc və tapınaq törəni, törəsi olan qurumlar idi. Burada soy böyükləri mühüm məsələləri çözmək üçün başçı ilə gənəşirdilər. Yurd yerlərini nadir hallarda tərk edən uruqlar qapalı mühitdə yaşayırdılar, evlənmə ilə qohumlaşan yaxın uruqlar arasında törən, köç, müdafiə məsələləri və digər problemlər müştərək həll edilirdi.

Vahid etnoqrafik mühitdə yaşayıb, eyni dialektdə danışan bir neçə uruğun birliyi **boy** (tayfa) qurumunu formalaşdırırdı. Boyların birliyi isə **budun** (< bodun) adlanırdı. Buduna daxil olan uruqlara ayrılıqda *ok*, əraziləri ilə birlikdə isə *boy* deyilirdi. Boyun damğası, onqonu, gənəşmə yeri (*dərnək*), soylu bəylərdən seçilən başçısı (*bəy*), inanc və törənlə məşğul olan kahini (*qam*), yaylaq-qışlaq yerləri, yurd və obaları, böyük və kiçik kəndləri, qalaları olurdu. Budun qurumunda isə inanc gələnəyinə və tapınaqlara böyük qam (*başqam, qamata*) nəzarət edirdi, boy ağsaqqalları və soylu bəylər, alp-ərənlər (bahadırlar) mühüm məsələlər barədə gənəşib qərar qəbul etmək üçün qurultay formasında *toy* adlanan toplantıya yığılırdılar.

İlk dövlət özəyi olan budunun başında seçki ilə boy bəylərindən biri dururdu. Lakin seçilmiş böyükbəy hakimi-mütləq deyildi, mühüm qərarları yalnız boyları təmsil edən bəylərin, kahinlərin rəhbəri böyük qamın, ağsaqqallar şurasının, ərən başçıları və digər dövlət adamlarının razılığını toyda alandan sonra qəbul edə bilirdi. Müəyyən müddətə seçilən böyükbəy hərbi-demokratik qurumun bu törəsini pozanda dərhal hakimiyətdən

uzaqlaşdırılırdı. Bu səbəbdən, elitadan tutmuş qara camaata qədər bütöv əhalinin nəzarəti altında olan böyükbəy fikrini sərbəst deyə bilən bəylərin, xalq təmsilçilərinin (*toyquların*) istəyinə uyğun hərəkət etməyə məcbur idi.[38]

Sonrakı mərhələdə **ellik** və **el** adlanan bodunlar birliyi artıq klassik anlamda dövlət quruluşu olub, əvvəlki qurumlardan köklü şəkildə fərqlənirdi. Elin başında hamının hörmət və itaət etdiyi qanuna (*törə*) əsasən, cəmiyət tərəfindən dəstəklənib, müəyyən müddətə seçilən *elbəyi* dururdu. Ağıllı vəzir olan bilginlərin daşıdığı *bilgə* titulu şərəfli sayıldığından bu ünvanı layiqli hökmdarlara da verirdilər. Dini məsələlərə *başqam* və ya *qamata* rəhbərlik edirdi. Elin dövlət atributlarından sayılan tuğ, yay, gerb səviyəli damğa, ordu və müəyyən çağlarda keçirilən toy qurumu, ağsaqqallar məclisi olurdu. Elbəydən (kağandan) sonra müəyyən hakimiyyət görəvlisi və savaş vaxtı ordu hissələrinə başçılıq edən yabqu, şad, tarxan, eltəbər titullu dövlət adamları və ayquçi, elçi, tudun, inancu, buyuruq və sair ünvanlı dövlət məmurlarının varlığı el qurumunun xarakterik cəhətidir. Bu qurumda elbəyin xatunu *yincu* da dövlət işlərində iştirak edir, oğlu *tegin* bir boya və ya qoşuna rəhbər təyin olunanda ona *şad* ünvanı verilirdi. Dövlət törənlərində hər kəsin protokola uyğun öz yeri, hökmdarın hüzurunda sağ, sol, qarşı, arxa duruşların sıralanma protokolu vardı.

Göründüyü kimi, əsl dövlət quruluşu El qurumunda özünü göstərir ki, bu da sağlam demokratiya prinsipinə əsaslanan oliqarxiya və monarxiya yönümlü iki əsas növə ayrılır. Hər növün öz üstün və zəif cəhətləri vardı. Belə ki, İslamaqədərki çağlarda türk xalqları Avrasiyanın müxtəlif guşələrində dəfələrlə hər iki el növünü sınaqdan keçirmişlər. Azərbaycanda isə qədim qut, saqa boy və bodunlarının qurduğu el mana, mada, alban bodunlarının qurduğu eldən fərqlənmişdir.

Deyilənlərdən aydın olur ki, qədim çağlara aid işlətdiyimiz «dövlət» sözü bir-birindən qabarıq şəkildə fərqlənən anlamları bildirir. Ona görə də onun ümumi anlamını özündə saxlamaqla, digər məna çalarlarını və ümumiyyətlə, dövlət qurumu ilə bağlı terminologiyanı uyğun sözlərlə ifadə etmək lazım gəlir. Çünki dövlətin özəyi sayılan *ailə* qurmundan *dövlət*

---

[38] Qədim türk dövlət adlarının əsasında *qut-i, man-a, mad-a, saq-a, xəz-ər* (azər), *subar, hun* (kun), *tur-uk* (türk) və sair bu kimi boy adlarının durması da göstərir ki, ayrı-ayrı boylar birləşib dövlət quranda dövlətin adı konfederasiyaya öndərlik edən boyun adı ilə adlanırdı. Diqqəti çəkən məsələlərdən biri də budur ki, Çin qaynaqları hun dövlətçiliyində görünən *lulu, küti* sözlərini titul kimi təqdim edir.

quruluşunacan mövcud olmuş tarixi-siyasi qurumların hüquqi-idarə formaları, coğrafiyası, etnik bazası və digər ictimai-inzibati atributları bir çox halda bir-birindən fərqli özəlliyə malik olur, lakin çağdaş dövlətçilik terminologiyası nəinki bunu dəqiq əks etdirə bilmir, hətta bəzi hallarda yanlış təsəvvür yaradır. Bunu açıq görmək üçün ərəb dilindən alıb işlətdiyimiz *tayfa* və *qəbilə* sözlərinin «Azərbaycan dilinin izahlı lüğəti»ndə verilmiş şərhinə baxmaq kifayətdir:

***Tayfa*** - 1. Sinifli cəmiyyətdən əvvəlki *birlik; qövm*;
2. *Xalq, millət*;
3. *Qohum*, *qəbilə, qohum-əqrəba*;
4. Danışıqda «*tacir, şofer tayfası*» kimi işlənən *qrup, dəstə*;

***Qəbilə*** - 1. İbtidai cəmiyyətdə: bir soydan törəmiş və bir rəisin idarəsi altında birlikdə yaşayan *köçəri tayfa, nəsil, əşirət, oymaq*;
2. Məcazi mənada: *tayfa, xalq, millət.*

Verilən örnək çox aydın göstərir ki, belə alınma terminlərin əksəri turk dövlət qurumunun özəlliyini ifadə etmək gücündə deyildir. Qədim türk dövlətçilik terminləri isə həm işarə etdiyi məfhumun qavranılması üçün anlaqlı, həm də leksik anlam baxımından çox aydındır. Ona görə də, *ailə, nəsil, qəbilə, tayfa, xalq, millət, şəhər, vilayət, məmləkət, hökmdar, şah, çar, canişin, satrap, vali, sərkərdə, dövlət, hakimiyyət* və sair bu kimi alınma sözlərlə yanaşı, burada *ocaq, otaq, soy, bod (boy), bodun, el, ellik, oba, yurd, bölgə, ölkə, elçi, elbəy, bəy, qalabəyi, bəylərbəyi, xan, xaqan, xatun, tegin, şad, yabqu, tarxan, buyruk, törə, tuğ, bitikçi* və sair qədim türk sözlərinin də işlənməsinə geniş yer verilmişdir.

Türklərin dövlətçilik gələnəyində işlək olmuş terminologiyanın, heç olmasa, imkan daxilində öyrənilməsi bir sıra məsələlərə aydınlıq gətirər. Belə ki, dövlətçilik kontekstində təkcə *el* sözünün daşıdığı «xalq», «ölkə» və «dövlət» mənaları qədim türk dövlətçilik gələnəyinin başqa xalqların dövlət sistemindən köklü şəkildə fərqləndiyini aydın göstərir. Ona görə də *el* sözünün terminoloji tutumunu başqa dillərə bir sözlə tərcümə etmək çətinlik yaradır. Eyni durum *ata, baba, dədə* və bu qəbildən olan qan qohumluğu ilə yaranıb sonralar sosial və dövlət qurumlarının ortaya çıxması ilə yeni mənalar qazanmış sözlərdə də özünü göstərir. Necə ki, ilkin anlamı ilə ailə başçısını bildirən *ata* sözü sonralar Qorqut-ata, Qam-ata, ata-man və ata-bəy sözlərində «övliya», «baş kahin», «komandan», «tərbiyəçi» anlamı ilə işlənmişdir. Şəxs adlarındasa bu sözün sadalanan mənaları yoxdur: Ata, Atakişi, Ataxan və sairə.

**Dövlət düzəni və atributları**

Türk dövlətçilik sistemində termin və titul (ünvan) məsələsi haqqında türkologiyada müəyyən araşdırmalar vardır, lakin bunlarda türk termin və titulları m.ö. III əsrdən (Mete çağından) başlanaraq tədqiq olunur.[39] Halbuki bu dövlətçilik terminlərinin çoxu hələ dövlət yaranmamışdan xeyli əvvəl sosial termin kimi işlənmiş və m.ö. III əsrdə yox, III minilliyin ortalarından sonra yaranmaqda olan türk dövlətlərində ikinci anlam qazanmışdır. Hətta qan qohumluğu ilə bağlı bəzi terminlərdə, yuxarıda *ata* sözülə əlaqədar qeyd etdiyimiz kimi, dini inanc kontekstində üçüncü bir dini anlam çaları da formalaşmışdır.

Dövlətin təşkil olunması üçün vacib olan şərtlər sırasında öncə xalq, ərazi, güc faktoru önəm daşıyır və bunlar siyasi təşkilatlanma ilə birlikdə dövlətin əsasını təşkil edir. Güc (erklik) haqqında ordu ilə bağlı bölmədə danışacağıq, lakin nəzərə almaq lazımdır ki, bu klassik üçayaq üzərində duran türk dövlət düzənində ordu ilə xalq ayrılmaz bir bütövlük mahiyətindədir.

Türk dövlət düzənində siyasi qurumun sosial quruma dayandığını söyləmişdik. Buna görə siyasi qurumun (dövlətin) sosial bazasını təşkil edən insan və ailədən tutmuş, xalq və millətə qədər müxtəlif varlığı bildirən terminləri nəzərə almaq lazım gəlir. Türk dillərində işlənən minlərlə qohumluq termini üzərində tədqiqat aparan Yong-Söng Li bunu özəlliklə vurğulayır ki, qohumluq terminlərinin zənginliyilə türk dilləri başqa dillərdən fərqlənir.[40] Hər türk öz soykökündə yeddiarxa dönəni tanımalı, 7-ci babasınacan adlarını bilməli idi. Azər türkləri nəvə-nəticə sistemində 7-ci nəsili təmsil edənə qədərki törəmələri də fərqləndirmişlər.[41]

Dövlət düzəninin yarandığı məkan (ölkə) və bu düzəni gerçəkləşdirən siyasi təşkilatlanma, hakimiyyət seçimi və bürokratiya məsələlərilə bağlı türk dövlətçilik tarixində işlənmiş terminologiya olduqca zəngindir. İslamaqədər bu terminlərin əksəri türkcədir və hətta bunlardan bəzisi qə-

---

[39] Donuk, 1988; Kafesoğlu, 1989; Ögel, VII, 1991; Əскəр-Гыпчаг, 1996; Əsgər, 2003.

[40] «Əqrəbalık adları baxımından türk dilləri dünyanın ən zəngin dillərindən biridir. Bir çox dillərdə, örnəyin hindavropa dillərində iki, hətta üç əqrəbalık adı tək bir sözcüklə ifadə edildiyi halda, əski və orta türkcədə və günümüz türk dillərində hər türlü əqrəbalık üçün ayrı terminlər qullanılmış və qullanılmaqdadır» (Li, 1999, 319).

[41] Belə ki, azər dilində 2-ci nəvə (torun), 3-cü nəticə və 4-cü ilə 7-ci nəsil arasında *kötücə* (kötükcə), *yadıca, yeticə, xədicə, cücüxcə, ötücə* terminlərinin işlənməsi qeyd olunmuşdur (Джафаров, 1971, 38-40).

dim çağlarda başqa xalqların dilinə də keçmişdir. Lakin Azərbaycanda dövlətçilik terminlərinin bir qismi Ərsaq, Sasani və Səlcuq dövlətləri çağında fars, islamlaşma dövründə isə ərəb sözləri ilə əvəz olundu.

Beləliklə, türk dövlət düzənini təşkil edən dörd əsas ünsür - sosial, inzibati, siyasi və hərbi qurumlardır. El sözünün bildirdiyi üç qurumu şərti olaraq $el_1$ (*xalq*), $el_2$ (*ölkə*), $el_3$ (*dövlət*) şəklində nömrələyib, sxemlə göstərsək, qurumların bir-birilə bağlı olduğunu görərik:




Buradakı hər qurumun özünəməxsus özəl atributları vardır ki, onları qurumun fərqləndirici və ya təşkiledici əlamətləri saymaq olar. Məsələn, türk dövlətçilik törəsinə görə $el_3$ qurumunun əlamətləri belədir:




**1) Sosial qurum**

İnsan (adam) və apa, ata, dədə, baba, kañ, qağa, ana, oğul, qız kimi ailə daxilində qan qohumluğu ilə seçilən *qandaşlar* və oğuş, soy, oq, uruq, boy, budun və el qurumları ilə bağlı terminlərin hamısından geniş danışmaq imkanı olmasa da, hər halda, bəzilərini burada gözdən keçirmək mümkündür.

**Kişi** (insan). Türkcə cins fərqi qoymadan, hər fərdin, insanoğlunun *kişi* adlanması bəllidir. Başqa türk dillərindən fərqli olaraq, azər dilində bu sözün ilkin anlamından uzaqlaşıb yalnız «ər» (erkək) bildirməsinə baxmayaraq, bəzi dialekt və yazılı abidələrdə ilkin anlamını saxlamışdır. Belə ki, Dədə Qorqud boylarında «qız kişi», «xatun kişi» deyimləri vardır.[42]

Kişi sözünün «insan» anlamı və boyadına qoşula bilməsi (ku-kişi, az-kişi, altay-kişi) onun prototürk çağında yaranmış sözlərdən olduğunu göstərir. Sumercə titul bildirən *luqal-kişi* dəqiq tərcümə olunmasa da, onun akad dilinə keçmiş *şarkişşatum* (insanların çarı) forması «toplumun çarı» anlamında işlənir.[43] Hələ nəşr olunmamış «Enki və Ninxursaq» mifində isə *Turkiş ölkəsi* deyimi vardır.[44]

**Apa.** Prototürk çağından işlənən apa//aba sözünün soydaxili termin kimi, ailədə böyüklərə müraciət bildirən qohumluq termini olması şübhə doğurmur. Ə. Əsgər və M. Qıpçaq bu terminin «böyük» anlamı daşıdığını qeyd etmişlər.[45] Müxtəlif türk dillərində xeyli fonetik formaları yaranmış bu termin hələ də ailədə böyüklərə şamil edilir və qədimə getdikcə onun həm «baba», həm də «nənə» anlamı bildirməsi aydınlaşır.[46] Göytürk yazılarında *ecüm-apam* deyimi «əcdad» anlamını aydın göstərir.[47]

Sumer yazısında da *aba* sözü «əcdad», «ata», «qoca» anlamında işlənmişdir.[48] Bu sözün sumer-akad dillərində işlənməsi göstərir ki, *aba* qədim Ön Asiya izoqlosudur.[49] Əfrasiyab adında olduğu kimi, bəzi qut elbəylərinin (*İnim-aba-keş, Yarlaq-ab*) adında da görünən *-aba, -ab* morfemi çox güman ki, həmin *aba* sözüdür, çünki qohumluq bildirən apa/aba sözü mifoloji kontektsdə yeni çalar qazandığı kimi, sonralar türk dövlət qurumunda da titul kimi işlənmişdir.

---

42 KDQ, 1962, 59, 115.

43 ИДВ, 1983, 241.

44 Крамер 2002, 310; Ola bilər ki, bu *Turkiş* adı sonralar *Tukriş* forması almışdır.

45 Әскәр-Гыпчаг, 1996, 55; Vedidə bəzi soylar *əbə* sözünü «ata» anlamında işlədirdi.

46 Rësënen, 1969, 1; ЭСТЯ, I. 1974, 54-57; ДТС, 1, 47.

47 Saqa soykökü əfsanəsini qələmə alan Herodot qeyd edir ki, saqalar (skitlər) Papayın (Babanın) arvadına «ulu ana» anlamında *Api* deyir.

48 Дьяконов, 1967, 430.

49 Sumer dilindən akad dilinə keçən *abkallu* «müdrik» sözü ilə yanaşı, akad dilində *abu* «əcdad», «ata» və *abi* «baba» sözləri də vardır (Липин, II, 1957, 14); $^{d}$Enlil luqal kurkura *aba* dingiréneke$_4$ (Tanrıların abası, ölkələrin ağası Enlil) sumer cümləsində *aba* «predok» kimi verilir (Дьяконов, 1967, 429); Akad şəhərinin məbudu da $^{d}$Aba idi.

Nəcati Gültəpe doğru olaraq, türklərdə ailə təşkilatı ilə ilgili *apa* sözünün dövlətdə ünvan şəklində işlənməsini ən əski nümunə kimi qeyd edir.[50] *Apa tarkan* (baş komandan) titulunu Tonyukuk, İni İl kağan, Kültegin kimi tarixi şəxslər daşımışlar. Göytürk yazısındakı Apa tarkanın Çin qaynağında (*Apa ta-kan*) «baş komandan» kimi verilməsi diqqəti çəkir.[51]

**Ata**. Qandaş terminləri sırasında *ata* sözünün özəl yeri vardır. Belə ki, hələ ilkəl toplumda ailə başçısının hər hansı bir adla fərqləndirilməsi lazım idi və çox güman ki, bu anlamda elə *ata* sözü işlənmişdir. Sonralar inancla bağlı törəyə nəzarət, dini törənə başçılıq edənlərin də *ata* termini ilə bildirilməsi bəllidir: mada boylarında *Qam-ata*, hunlarda isə *Ata-qam* adları işlənirdi. Karaim mifologiyasında isə *Karğal-ata* adı teonimdir.[52]

Ən qədim çağlardan işlənib, forma və mənasına görə *adam* sözünə və *Adəm* adına bənzəyən Ada //Ata sözü Ön Asiyada bir neçə hökmdarın adında görünür. Bunun türkcə qandaş *ata* sözü olub, sonralar başçı titulu kimi işlənməsinə şübhə yoxdur. Hətta lulu boylarının Arzizu bölgəsində adı çəkilən başçıların m.ö. IX əsrin əvvəlində *Ata*, VIII əsrin sonuna yaxın *Dada* (Dədə) adlanması bəllidir.[53] Saqa türklərinin də m.ö. IV əsrdə *Ata* (yunanca *Atey*) adlı hökmdarı vardı.

Beləliklə, qan qohumluğu ilə bağlı işlənən qədim *apa* və *ata* terminlərinin sonralar dövlət qurumunda titul anlamı ilə işləndiyini görmək olur və bu prinsip təkcə həmin sözlərdə deyil, **baba, dədə, qaqa** sözlərində də özünü göstərir. Qan qohumluğu (qandaş) terminologiyasından Tanrıçılıq dinində qam inancına transfer olunan *ata*, *dədə* sözləri Qorqud Ata və Dədə Qorqud deyimlərində göründüyü kimi, *baba* sözü də «Baban yeri uçmaq olsun» (KDQ) alqış-duasında və *Baba-dağ* kimi qutsal dağların adında əks olunmuşdur. Bu qandaş sözlərin bölgə-ölkə başçılarının adı kimi işlənməsi isə artıq onun dövlətçilik ünvanı (termini) olduğunu göstərir. Belə ki, m.ö. II-I minilliklərdə subar boylarının yayıldığı bölgələrdə Dədə (Dada) adının işlənməsini diqqətə alan yazarlar onun subar sözü olduğunu yazmışlar.[54] Eyni durumu bir neçə bölgə bəyinin adında görünən Kaka//Kaki adına da aid etmək olar. Belə şəxs adının Mada ölkə-

---

[50] Gültepe, 2002, 896.

[51] Donuk, 1988, 2.

[52] Azər xalqı, 2000, 135-143.

[53] Грантовский, 1970, 124.

[54] Меликишвили, 1954, 92.

sində yayılması da bəllidir: *Ka-ki-ia* $^{LU}$*ma-da-a*.[55] Sonralar kaka (qağa) sözü «qardaş», «dayı», «əmi» anlamı ilə fars, əfqan dillərinə keçmişdir.

**Oğuş** (ailə, soy). Qədim türk dövlətində toplumun özəyi sayılan və ilk sosial birlik olan ailə qurumunun önəmli yeri vardır. Ailə tipinin dəyişməsi sosial modelin dəyişməsinə səbəb olduğu kimi, belə dəyişmə dövlət yapısında da müəyyən fərq yarada bilir.

Göytürk yazılarında «soy», «ailə» anlamında işlənən *oğuş* sözündə gördüyümüz *oğ* (oq) kökünün *oğul* «evlad» sözündə də təkrar olunması onun prototürk dilində «ailə» anlamı daşımasına şübhə yeri qoymur. Belə ki, həmin kökdən *oquş* (ailə) sözü yaranana qədər *oq* sözü «ailə» anlamı bildirmiş, sonralar isə ümumiləşdirici termin kimi «soy, qəbilə» anlamı daşımışdır.[56] Daha sonralar isə bir siyasi təşkilata bağlı olan qəbiləyə «oq» deyilmişdir. Qeyd edək ki, sumer dilində də *ùğ* sözü «qəbilə» anlamında işlənmişdir.[57] Oğlan sözü də etrusklardan *klan* (oklan) şəklində latın dilinə, oradan da başqa Avropa dillərinə keçmişdir.

Oğuş qurumunda evlənmə olayı önəm daşıyır, belə ki, evlənmənin dövlətçilik gələnəyinə özəl təsiri vardır. Əgər qədim fars hökmdarı öz ana-bacısı ilə evlənə bilirdisə, türklərdə belə adət yox idi. Türk ailəsində boyük oğul evlənib ailədən çıxır (*ev-lən-ir*), ata evi kiçik oğula qalır. Qızgəlin isə ər evinə köçürülür. Qohumlaşan valideyinlərin *quda* adlanması gələnəyi azərlərdə olduğu kimi, bəzi doğu türklərdə də görünür. Soyların qohumlaşması xaotik deyil, müəyyən ənənəyə dayanırdı. Məsələn, Xəzər xaqanının arvadı (xatun) barsil boyundan olurdu.[58] Deməli, xaqan xəzər, xatun isə barsil soyundan olanda bunların oğlu xaqan seçilə bilərdi.

İqtisadi və demoqrafik amillərdən asılı olaraq, bəzi xalqlarda tək ərarvad (*monoqami*), çoxarvadlıq (*poligine*) və ya çoxərlik gələnəyi yaranmışdır. Türk törəsi ədalətsiz sosial quruma yol vermədiyi üçün toplumda cütlük əsasına dayanan ailələr mövcud olmuşdur. «Oğuz çağı» gələnəyini sərgiləyən Dədə Qorqud boyları bunu aydın əks etdirir. Yalnız sonralar

---

[55] Грантовский, 1970, 130-131.

[56] Nağıllarda işlənən «az getdi, uz getdi» deyimində görünən *uz* sözünün us//uş variantları da «çox» anlamında ulus//ülüş sözlərində vardır. Bu baxımdan, *oğuş* sözünün etimologiyası oq «ailə» + us «çox», yəni qandaş ailələrin soyu, klanı kimi yozula bilər. Görünür, fonetik cəhətdən *oq* sözündən fərqlənən və *ög* «ana», *ögey* (ata-ana), *ögə* «üzv» sözlərindəki **ög* kökü isə kənardan ailə üzvlərinə qatılanları bildirmişdir.

[57] Дьяконов, 1967, 50.

[58] Kırzıoğlu, 1992, 42.

varlı bəylər, feodallar, xan və xaqanlar çoxarvadlı ola bilirdi. Bu haldasa varis əsas xanımın böyük oğlu olurdu.[59]

Elam, Misir, Het dövlətlərində hakimiyət varisi çarın oğlu yox, qız nəvəsi (qızının oğlu) olurdu. Bu isə bacı-qardaş, hətta ata-qız evlənməsi olayını ortaya çıxarmışdı. Hetlər bu gələnəyi yalnız m.ö.1500-cü illərdə dəyişdi, yeni qanuna görə, çarın oğlu onun yerini tuta bilərdi. Əhəməni çağında farslar arasında olan analoji evlənmə isə etnik özəlliyə dayanırdı.

**Soy.** Oğuşların böyüməsi və nəsillərin dəyişməsilə qandaşların da sayı artır. Belə qandaşları bir-birinə bağlayan xətt onların kötüyü sayılan ulu babanın adı olur. Belə ki, şəkilçiləşmiş sözlər *familiya* bildirən şəxs adına qoşulub, Teymurlu, Teymurgil, Teymuruşağı, Teymuroğlu şəklində işlənə bildiyi kimi, *soy* sözcüyü də həmin funksiyanı (Teymursoy) daşıya bilir. Azər dilində eyni soydan törəyən qandaşların *toxum* adlanması və toxumların toplumuna *uruq-turuq* deyilməsi bəllidir.

**Uruq.** Göytürk yazısında *uruqsırat,* azər dilində *uruq-turuq* deyimində qalan *uruq* (ur-uq) sözü ən qədim prototürk leksemi kimi diqqəti çəkir. Türk dillərində soy, nəsil, tayfa və qəbilə anlamında işlənən uruq sözü ilkəl sosial qurumda öğuşların (soyların) birliyi şəklində ortaya çıxmışdır. Belə ki, «qandaş» anlamında yaranan bu söz hamilə olmaq, doğmaq, törəmək anlamı bildirən *ur-* feilindən yaranmış və yaxın anlamları ilə bir çox türk dilində saxlanmışdır.[60] Sumer dilində *kürü tökmək, artmaq, qohumluq* anlamında işlənən *ur* sözü də qədim sumer-türk leksik paralellərindəndir.[61] Sumer dilində *uru* sözünün də «icma», «kənd//şəhər» anlamında işlənməsi diqqəti çəkir.[62] Bu dildəki *dumu-uru* (oğul-icma) deyimi «icma oğlu» anlamında işlənir.

**Bod // Boy**. Uruqların birləşməsi ilə ortaya çıxan *bod* sosial qurumu həm də ilk siyasi qurum idi.[63] Boy qurumunda başçının böyük imtiyazları yox idi, lakin toplumda ona olan sayqı böyük idi. Mədəni ölkədə adi bir polisin avtoriteti boy qurumundakı bütün yetkililərdən çox olsa da, indi

---

[59] Ola bilsin ki, bəzi bozqır türk boylarında iqtisadi nədənlə *leviratus* (dul qalan ögey ana, qardaşarvadı ilə evlənmə olmuşdur (Kafesoğlu, 1989, 216). Lakin əsasən oturaq olan azər türklərində bu durum olmayıb. Oğuz toplumunda dölalma olayına da pis baxırdılar, hətta dölalmanı söyüş, təhqir kimi işlədirdilər (KDQ, 1962, 39).

[60] ЭСТЯ, I, 1974, 605.

[61] Мəммəдов, 1983, 9.

[62] ИДВ, 1983, 171.

[63] İ. Kafesoğluna görə, siyasi birliyə girən boylar *ok* adlanırmış (Kafesoğlu, 1989, 215).

ən böyük dövlət xadimi, ən qüdrətli monarx boy qurumunda başçıya olan hörMete, sayqıya həsəd apara bilər. Hələ prototürk çağlarından bod//bud şəklində işlənən bu sözün d~y və d~t dialekt fərqlərinə uyğun *boy//but* fonetik variantları yaranmışdır.[64]

Qədim çağlardan etnonim yaradan şəkilçiyə *(-but, -pıt, -bit*) çevrilən *bud* sözcüyü bəzi etnotoponimlərdə donuq şəkildə qalmışdır. Belə ki, m.ö. I minildə Xəzərə axan *Qızılbud* çayadında və çağdaş Culfadakı *Soltanbud* dağadında qalmış *bud* sözcüyü *Ağcabədi* adında *-bədi* şəklini almışdır. Halbuki Klavdi Ptolemey (II əsr) Azaq yaxalarında Azar şəhəri ilə yanaşı, «ağca boyu» adını əks etdirən toponimi *Aksabit* (ağca-bit) şəklində vermişdir.[65] Qırğızların kırkoğul boyları içində *uzunbut* boyadında *but* fonetik variantı işlənirsə, Qarabağda *Qasapet* («qas boyu») kəndinin adında *-pet* fonetik variantı görünür.[66]

Akad-asur mixi yazılarında *bod* sözünün *bat* şəklində verilməsi təbiidir: *Saqbat, Bit-Saqbat.*[67] Lakin həmin yazılarda bəzi bölgəadının *bit* formantı ilə (*Saqbit, Bit-Saqbit*) işlənməsinin müxtəlif səbəbləri ola bilər. Belə ki, bu sözcüyü türklərdən alıb, «filan boyun evi, yurdu» anlamında boyadlarının əvvəlinə *Bit* şəklində qoşan (Bit-Sangi) akad-asur samiləri yerli türklərdə boyadlarının sonuna qoşulan *but* sözcüyünü də avtomatik olaraq, *bit* şəklində yazmışlar və yaxud *bit* formasının özü elə bəzi türk bölgələrinin *barsbit, saqbit* şəklində işlənən dialekt xüsusiyəti imiş.

Bod sözündən sonralar *-un* şəkilçisilə daha böyük sosial-siyasi qurumu bildirən *bodun//budun* termini yarandığı kimi, *boy* variantına da «xalq» anlamına yaxın olan *kun* sözü qoşulub **bokun** (*boy-kun) sözünü yaratmışdır. Bəzi uzmanlar boqun//bukun sözünün soy, nəsil və ya ulusu, oymağı olan adam anlamı daşıdığını yazır.[68] A. S. Amanjalov m.ö. V əsrə aid runik yazıdan danışarkən budun sözünün *boqun* variantını da qeyd

---

[64] Çoxmənalı *bud* sözünün anlamlarından biri də bədən üzvünə (qol-bud) aid «bud» mənasıdır ki, bu da altay dilində *but* şəklində dağ qollarının və tatar dilində *botı* şəklində çay qollarının adına qoşulur: Kök-but, Sarı-but, Kayınqdu-but (Молчанова, 1979, 33); Karayılqa-botı, Xəsən-botı, Akbaş-botı (Гарипова, 1991, 50).

[65] АИОСК, 1990, 149.

[66] Olsun ki, Lerik bölgəsində *Girəvud*, *Cəngəvud* adlarındakı *vud* elementi də *bud* sözünün fonetik variantıdır. Etnonim yaradan bu sözcük qədim türk şəxs adlarına da qoşulub onun hansı soydan olduğunu əks etdirmişdir: saqa bəyi *Sparqapit*, xəzər xatunu *Parspit.*

[67] Грантовский, 1972, 183.

[68] Hassan, 2000, 36.

etmişdir.[69] Beləliklə, qədim bod sözündən sonralar dövlətçilik terminologiyasında işlənən boy, bat, but kimi fonetik variantlar, bukun və budun sözləri törəmişdir.

**Bodun**. Qədim türklərdə boyların birliyi *bodun* (*budun*) adlanırdı. Bu terminin mənasında «bütün» (bütöv) çaları vardır. Hindavropa xalqlarının doğu qolunda da analoji durum vardır. Belə ki, bu qanunauyğunluq qədim fars dilində patriarx, boy və bölgə başçısı anlamında *vis-pati* və soy anlamında *vis* (Avesta) şəklində işlənən terminlərin rus dilindəki *ves* «bütün» sözü ilə eyniliyində aydın görünür.

Antik dövr qaynaqlarında bodun//budun sözü ayrıca boyadı kimi də verilmişdir. Mada boyları sırasında ayrıca *budi* (bud) boyunun adını çəkən Herodot saqaların qonşuluğunda, Tanais çayından doğuda isə ayrıca *budin* boyunu qeyd edir.[70] Tanais çayı yaxasında boyları sadalayan K. Ptolemey də hunlarla qonşuluqda *bodin* boyunun adını çəkir.[71] Göytürk yazılarında bu söz 𐰉𐰆𐰑𐰣 𐰔 (az budun) 𐰉𐰆𐰑𐰣 𐱅𐰇𐰼𐰚 (türk budun), 𐰉𐰆𐰓𐰆𐰣 𐱅𐰇𐰼𐰏𐰾 (türgiş budun), kimi etnonimlərə qoşulub «xalq» anlamında geniş işlənir.[72]

**Kün** // **kun**. Türk dövlətçilik terminologiyasında *kün* sözünün də «xalq», «millət» anlamı vardır. İndi azər dilində bu söz ayrılıqda işlənməsə də, **el-gün** deyiminin tərkibində qalmışdır. Çin qaynağı (m.ö.176) müxtəlif boyları toparlayan Meteyə aid bir deyimi belə verir: «Ox və yay çəkə bilən bir ailə kimi birləşdirə bildim. İndi onlar *kun* (hun) oldular».[73] Sonralar xun//hun kimi xatırlanan bu boylar bəzi qaynaqlarda orta əsrlərəcən kun adlanmışdır: «türklərdən digər bir qisminə *kun* deyilir» (Mərvəzi).

**El**. Yuxarıda bu sözün sosial qurumda daşıdığı anlamı $el_1$ ilə qeyd etmişdik. Sosial qurum sistemində həmin sözdən törəyən *elat, ellik, el-gün* kimi sözlər də iştirak edir.[74] El sosial qurumu ilə yaranan türk dövlət quruluşu boy və budun ilə yaranan siyasi quruluşdan ərazi və hakimiyyət strukturlarına görə, daha əhatəli və böyük olur. El sözünün sonrakı inzi-

---

[69] Аманжолов, 1978, 83.

[70] Herodot, I. 101; IV. 21.

[71] АИОСК, 1990, 148.

[72] Orkun, 1994.

[73] De Groot, 1921, 76.

[74] Sosial qurum müstəvisində işlənən «Elin sözü düz olar», «Palaza bürün, elnən sürün», «El gücü, sel gücü» kimi xalq deyimləri el sözünün geniş məna tutumunu sərgiləyir.

bati qurum ($el_2$) və siyasi qurum ($el_3$) anlamları $el_1$ anlamından yaranmış və el sözü fərqli anlam daşıyan üç termin şəklində formalaşmışdır.

**2) İnzibati-ərazi qurumu**

Ərazisinin böyük və ya kiçik olmasından asılı olmayaraq, hər hansı bir dövlətin formalaşdığı məkan onun ayrılmaz atributuna çevrilir. Dövlətin mövcud sınırları bəzən genişlənib, bəzən darala bilər, lakin dövlətin inzibati-ərazi qurumları kənd-şəhərdən tutmuş, bölgə, vilayət, ölkə, hətta tabe ölkələr də *dövlətin torpağı* sayılır. Dövlətlər arasında müharibələrin çoxu qədim çağlardan (elə indi də) məhz «torpaq» iddiası ilə başlanırdı.[75] Ümumiyətlə, hələ dövlətöncəsi çağlardan qutsal sayılan Yerin (torpağın) yaşam üçün gərəkliyi dövlət qurumunda daha böyük önəm daşıyırdı.

**Yer-Sub**. Qədim türklər yaşadıqları coğrafi çevrədə bəsləndikləri dağ, çay, örüş-otlaq, yaylaq-qışlaq yerlərini qutsallaşdırıb*Yer-Sub* deyimi ilə bildirmişlər**.** Öncə iyə adı (Yerin, suyun iyəsi) kimi formalaşan bu söz Göytürk çağında həm də «ölkə» anlamının epiteti kimi işlənmişdir.

Oğuş, oq, uruq, boy, budun və el sosial qurumlarında ocaq, otaq, ev, oba, yurd, yaylaq, qışlaq, bölgə, ölkə kimi «ərazilər» dövlətdə özəl status qazanır, hakimiyət bu məkanların qorunmasında sorumlu olurdu. Dövlətdə önəm daşıyan torpaqların *sınırı* (sərhədi) məfhumuna da əlavə məsuliyət yüklənirdi. Çox vaxt sınır məfhumu *ağız*, *yaxa, uc* sözləri ilə də bildirilir və Uc bəyliyi, sınır bölgələr təpərli bəkçilərə (*Bəkil* - KDQ) tapşırılırdı.

Sasani və Xilafət çağlarında *şəhər, vilayət, vətən* tipli onlarla sözün azər dilinə keçməsi bəllidir, lakin daha qədim çağlarda *ev, oba* və *ur//or* köklü sözlərin (*uru*, *urban, orbis, ordu*) sumer, akad, urartu, latın, yunan, ərəb, fars və türklərlə kontaktı olan başqa xalqların dilinə keçdiyini də görmək olur.[76] Ordu-Balıq, Altun Ordu, Ordubad adlarında işlənən *ordu* sözü *uram, yurd* sözləri kimi ur//or kökündən yaranmışdır və ilk çağlarda hərbi qarnizonun oturduğu yer, yerləşdiyi qala anlamını daşımışdır. Hərbi qarnizon üçün Urartu çarı Sardurinin Güney Azərbaycanda tikdirdiyi qalanın adına (Sardurix-urda) yerli azərlər məhz *ordu* sözünü hələ m.ö.VIII

---

[75] Məncə, türk dillərində *torpaq//toprak* şəklində işlənən bu sözün qədim forması **top-ur-aq* tərkibilə yaranmışdır: yuxarıda uruq sözündən danışarkən qeyd etdiyimiz *ur-* feili *topa*, *toplu* sözlərilə eyni kökdən olan *top sözünə qoşulub, «artmaq» anlamına yaxın **topur-* sözünü yaratmış, buradan da feildən isim düzəldən *-aq* şəkilçisilə *topuraq sözü yaranmışdır. Bu halda, *topoqraf, toponim* kimi sözlərin kökü də (**topo-*) türkizm sayıla bilər.

[76] Olsun ki, dilimizdəki *koma* və *dam* sözü qədimdə hindavropa xalqlarından alınmışdır.

əsrdə qoşmuşdu. Beləliklə, **ordu** sözünün türk dövlətçilik tarixində həm ərazi-inzibati qurum, həm də hərbi qurum (qoşun) anlamları yaranmışdır.

Qədim çağlarda ocaq evin içində olurdu. Bu baxımdan, *otaq* və *ocaq* sözlərinin kökündə «od» (ot) sözünün durması (*od-aq) mümkündür. Bu sözlərdən sonralar **ocaq** inanc, **otaq** isə dövlətçilik terminləri sırasında yer tutmuşdur. «Bir yerə ağ otaq, bir yerə qızıl otaq, bir yerə qara otaq qurdurmuşdu» (KDQ).

Akad, sumer, elam dövlətçilik gələnəyində m.ö. III minilin son əsrlərindən başlayaraq ortaya çıxan «dünyanın dörd tərəfinin hökmdarı» ünvan-titulu həmin çağlarda (arxaik «Oğuz zamanı») türk hökmdarlarının da *acun* (cahan) dövlətini qurmaq istəyinə təkan vermişdir. Bu istəyi ilk dəfə Akad, Sumer və Elam dövlətlərini də idarəsi altına alan qut elbəyi Elolmuş (m.ö. 2179-2174) gerçəkləşdirə bilmişdir.[77] Sonralar Oğuz-xan, Əfrasiyab, Atilla, daha sonralar isə Əmir Teymur *acun bəyi* sanını almaq üçün saysız ölkələr fəth etmişlər.

Dövlətçilik terminologiyasında öncə *tört bulunq* adlanan 4 bucaq, sonralar isə 8 bucaq atributları dövlətin ərazi tutumluluğuna işarə edir və Günəş çıxan yerdən batan yerə qədər hökmü keçən Oğuz-xanın «Günəş bayrağımız, Göy üzü otağımızdır» deməsi, Batı Göytürk xaqanının 598-də Bizansa göndərdiyi məktubunu «7 iqlimin, 7 irqin hökmdarından Roma imperatoruna» sözlərilə başlaması imperiyanın ərazi genişliyinə işarədir. Öncə 4 bölgədən təşkil olunan Hun dövlətinin Mete çağında 8 bölgəyə ayrılması və yaxud «24 sancaq bəyi» (KDQ) deyimi türk boy qurumunun inzibati-ərazi bölgüləri üzrə təşkilatlanmasıdır.[78]

**Ev**. Qədim türkcə **eb* formasında işlənən bu söz ilkin çağlarda bir oğuşun (ailənin) yaşadığı məkandır. Ev sözünün sumer dilində qarşılığı *E* sözüdür: *E-qal* «böyük ev» (məbəd, saray). Məncə, *eb* ilə eyni kökdən olan *oba* sözü sonralar oğuşların ümumi yurdu anlamı ilə işlənmişdir. Bu baxımdan, urartu dilinə keçən eb//oba sözü «bölgə» anlamında işlənən *ebani* (eba-ni) sözünün kökündə durur.

**Oba**. Öncə bir oğuşun, soyun, uruğun yaşam məskənini bildirən və türk inanc sistemində ataların ruhu dolaşan məkan kimi qəbul olunan *oba*

---

[77] AT, 1994, 70-71; Azər xalqı, 2000, 127.

[78] Oğuz-xan soyunun Gün-Ay-Yıldız və Gök-Dağ-Dəniz adlı oğlanlarının *bozok* və *üçok* qolları ilə ikiyə ayrılması 12+12 (6 oğul x 4 torun =24 boy) sistemini ortaya çıxarmışdır. İtaliyaya köçən etrusklar isə bu mifik bölgünün 12 boy sistemini saxlamışdı.

sözü həm də «qəbilə», «boy» anlamında işlənmişdir.[79] Upa (Oba) adında məskən yerləri qədim çağlardan işlənir. Ola bilər ki, *ova* və *yuva* sözləri də bu kökdəndir. Kumanova (kuman-oba), Kemerova (qamər-oba) kimi yer adları bütöv Avrasiyada görünür. Yunan dilində m.ö. I minildə uruq, boy və kənd anlamında işlənən *oba* sözü vardı və Sparta 5 *obadan* ibarət idi.[80]

**Ulus**. Qədim türkcə torpaq payı anlamında işlənən **ülüş** sözü ərazi ilə bağlıdır.[81] Monqol dilinə keçib, *ulus* şəklini alan bu söz türk dillərinə yeni anlamda (xalq, vətən) qayıtmışdır. Hətta çağdaş Anadolu türkcəsində «millət» mənasında işlənən ulus sözü artıq azər türkcəsində də gündəliyə gəlməkdədir.

**Ölkə**. Bəzi yazarlar bu sözün monqol mənşəli olduğunu söyləsələr də, inandırıcı arqument gətirmirlər. Sözün morfoloji quruluşu və monqol dilindən öncə saqa boyları içində *Olkabas* (ölkə-bas) kimi şəxsadlarının tərkibində işlənməsi sözün türkmənşəli olduğunu göstərir. Burada *ölkə* sözünü dövlətin əhatə etdiyi ərazi anlamında, bəzi məqamlarda «region» anlamında istifadə olunan **bölgə** sözünü isə əsasən «rayon» anlamında işlədirik. Nəzərə almaq lazımdır ki, bölgə sözünün inzibati-ərazi (rayon) anlamında dövlətçilik termini kimi işlənməsi son illərdə gerçəkləşib.

**El.** Yuxarıda $el_2$ şəklində ayırdığımız bu sözdə «ölkə» anlamı qədim dövlət qurumu ilə bağlı ortaya çıxmışdır. Dövləti dağılmış xalqın//ölkənin yenidən dövlət qurması Tonyukuk yazısındakı «*El yenə el oldu*» (D. 56) deyimində aydın əks olunmuşdur. Əgər xaqanlara verilən ünvanlar sırasında «xalqı toplayan» anlamında İltəris adı işlənirsə, Elalmış, Eltutmuş titullarındakı *el* sözü də ərazi qurumu ilə bağlı «ölkə» anlamına dayanır.

### 3) Siyasi qurum

Sosial və ərazi qurumlarına aid sözlərin dövlət qurumunda siyasi təşkilatlanma ilə yaranan yeni məna tutumu formalaşır. Belə ki, dövlət qurumunda artıq *ordu* sözünün «qərargah», «paytaxt» anlamı ilə yanaşı, «qoşun» anlamı da işə düşdüyü kimi, siyasi təşkilatlanmada inanc, törə, gənəşmə qurumları, seçim qaydaları, başçı statusu yeni ölçülərlə gerçəkləşir, hakimiyyət və bürokratiya atributları ortaya çıxır.

---

[79] Orkun, 1994, 820.

[80] Сергеев, 1948, 151; Oliva, 1971, 78; Яйленко, 1990, 11.

[81] Z. V. Toğan **ülüş** termini altında ayrı-ayrı boyların *yurdu*, hakim sülalə üzvlərinə ayrılıb *incu* adlanan torpaq payı, ayrı-ayrı məmur və bəylərə verilən *ərazi*, orduya verilən *çerig yurdu* anlamlarının olduğunu qeyd edir (Togan, 1981, 285).

Hər hansı bir bölgə və ya ölkədə boy və budunların siyasi təşkilatlanması sosial qurumların siyasi yük altına girməsi ilə gerçəkləşir və bu prosesdə dövlətçiliyə xas olan törə, seçim, hakimiyət, bürokratiya, protokol kimi elementlər hərəkətə gəlir. Ayrılıqda **oq** sosial qurumu siyasi təşkilata çevrilə bilmir, yalnız **boy** qurumu daxilində asılı tərəf statusunda iştirak edir. Göytürk yazılarında «təşkilatsız» anlamında *oqsız* sözünün işlənməsi də göstərir ki, *üç-oq, boz-oq* kimi deyimlər artıq dövlətdaxili siyasi qurumlardır. Boy qurumu ilə yaranan dövlət təbii ki, bölgə bəyliyi şəklində olub, **budun** qurumu ilə yaranan böyük dövlətdən fərqlənirdi. Budun qurumlu dövlət əski çağlardan **el** adlanmış və bu termin işləndiyi kontekstdən asılı olaraq, bəylik, xanlıq, xaqanlıq kimi dövlət və imperiya tutumlu anlamlar daşımışdır.

**El**. Qədim türk dilində *el~il* dialekt fərqi ilə görünən *el*$_3$ sözü türk dövlətçilik sistemində geniş işləndiyindən müəyyən məna çalarları qazanmışdır. Ümumiyyətlə, *el* sözünün daşıdığı mənalarda «xalq-ölkə-dövlət» sintezi (el$_1$- el$_2$- el$_3$) təkcə türk dövlətçilik gələnəyində deyil, dünya dövlətçilik tarixində unikal haldır.

Bugün azər dilində el-oba, el-gün deyimləri işləndiyi kimi, keçmiş çağlara aid yazılarda da el-bodun, el-kün, el-kün bodun, el törü ifadələrinə rast gəlmək olur. Ümumiyyətlə, el sözü hər üç mənası ilə türk dövlətçilik terminologiyasında geniş işlənir. Belə ki, müxtəlif ranqlı hökmdarları (*elbəy, elbəyi, eliq, elçi*), yüksək rütbəli məmurları (*elşad, elxan, eltəbər*) və müxtəlif qurumları (*elat, eltut, eltüz, el-uluş, ellig*) bildirən sözlərin kökündə el sözü durur və bu sözün daşıdığı anlamlara sevgisi olan türklər uşaqlarına Elsevər, Elxan, Elçin, Elşad, Elbəy, Günel, Elgün adlarını qoyur.[82] Göytürk elində dövləti itirib, elsiz olmaq - *ilsirəmək* ən böyük bədbəxtlik sayılırdı.

**Törə**. Türk inanc, sosial və ərazi qurumlarında formalaşmış əxlaq normaları, qanun və qaydalar dövlət qurumuna transfer olunmuşdur. Törə (el-törə, törü) adlanan bu «yazılmamış qanunlar» qədim türk dövlətçilik gələnəyinin özəyini təşkil edirdi. Türk törələrinin müəyyən çağlarda yazıya köçürülə bilməsini də istisna etmək olmaz. Belə ki, Qut elbəyi *Kurum* ilə adaş olan bulqar hökmdarı Kurum xan törələri yazıya almış, Bizanslı

[82] Çox güman ki, m.ö. I minilin ilk yarısında Asur qaynaqlarının Mana ölkəsinin güneyində qeyd etdiyi *Ellipi* bəyliyinin adında «siyasi təşkilatı olan» anlamında *elli* sözü və lulu-bi, kas-pi adlarında olduğu kimi, cəmlik bildirən *-pi* şəkilçisi vardı.

tarixçinin dediyi kimi, ortaya «yazılı qanunlar» çıxarmışdır.[83] Müəyyən çağlarda iqtisadi, sosial-siyasi və coğrafi durumla bağlı törədə bəzi dəyişikliklər özünü göstərsə də, etnik dəyərlərdən yoğrulmuş qanunlar dəyişməmişdir. Bu durumu dəyərləndirən M. Kaşğari yazırdı: «Dövlət dağılsa da, törə qalar».[84]

Hər bir fərdin inanc, iqtisadi, sosial və siyasi hüquqlarını cəmiyət və dövlət daxilində qoruyan *törə* türk etnosunun mentalitetində qabarıq görünən ədalət prinsiplərinə söykənir. Bu səbəbdəndir ki, qaynaqlar törə sözündəki «ədalət və qanun» anlamını önə çəkir («Kutadğu Bilig»). Törə ilə yanaşı, türk dillərində **yasa** sözü də vardır. Bəzi uzmanlar *yasa* sözünü monqol dilindən türklərə XIII əsrdən keçdiyini yazırlar.[85] Əslində isə, bu sözü türklərdən alan monqollar onu *çasa* şəklində işlətmişlər.[86]

**Hakimiyət.** Çox vaxt dövlət anlayışı ilə hakimiyət anlayışı qarışıq salınır. Halbuki hakimiyəti təmsil edən **hökumət** dövləti yönətən siyasi iqtidar kimi, dövlətdə mövcud olan çoxsaylı atributlardan biridir. Siyasi təşkilat sayılan hakimiyət hökm edənlə itaət edən arasındakı münasibətdə özünü göstərir. Bu münasibət isə hər iki tərəfin törəyə uyğun qarşılıqlı anlaşma şəraitində mümkün olur.

Törəyə görə, hökmdara tanrı tərəfindən verilən *qut* (kut) qutsal sayılmış və başçı seçimində siyasi hakimiyət simvolu olan qut tanrı vergisi kimi dəyərləndirilmişdir. Bu baxımdan, sözün qutsal anlamı onun qədim çağlarda teonim kimi işləndiyini ortaya çıxardır ki, bu da qədim türk yazısında özünü göstərir.[87] Qut teoniminin (iyəadı) *qud, quday, xuda* fonetik variantları da vardır. [88] Bu sözün qədimliyi onun hat dilində işlənməsində görünür. Belə ki, Qut eli çağında Orta Anadoluda yaşayan hatların dilin-

---

[83] Moravçik, 1983, I. 320.

[84] MK, II. 25.

[85] Kafesoğlu, 1989, 234 (175-ci qeyd).

[86] Türkcə *yasaq* sözü, *yasavul* termini, «alın yazısı», «yazıya pozu yoxdur» kimi deyimlərdə «yasaq» anlamı Kültegin yazısındakı «tengri *yasar*, kişi oğlu kop öliğli töremis» deyimində əks olunmuş, burada «insanoğlu ölmək üzrə törəmişdir» deyimi *tanrı yasası*, tanrı yazısı kimi verilmişdır. Belə tanrı yasasını şairimiz də «Ölüm haqdır, çıxmaq olmaz əmrdən» misrası ilə ifadə etmişdir.

[87] Orkun, 1994, I. D. 29.

[88] KDQ-da *qoca* sözü titul bildirən termin kimi işlənir. Görünür, sonralar sosial-siyasi qurumlarda terminoloji səciyə daşıyan qoca//xoca sözü də *qod* kökündəndir. Bu sözün türkmənşəli olduğunu özəlliklə vurğulayan F. Rəşidəddin yazır: «Türkcə yaşlılara *xoca* deyirlər, bu söz fars və ərəbcə deyil, türkcədir» (Ряшидяддин, 1992,15).

də «ruh» anlamında işlənən *qut* sözü qədim qaynaqda əks olunmuşdur.[89] Abidələrdə **seçim** ilə bağlı geniş işlənən *tanrı qutu* deyiminin ilkin simvolik *hakimiyət* anlamı sonralar «gerçəklik» kimi qəbul edilmişdir.

Hakimiyətin qutlu sayılması *tanrı* sözünün ilkin anlamı ilə bağlıdır. Belə ki, türklərdə göy//səma anlamı *tañ* (teñ, dan, tanq) sözü ilə, göyün sahibi, iyəsi isə *tañ-eri (tanqeri, tenqer, tanrı) deyimi ilə bildirilmişdir. Bu türk sözü sumer dilində *dingir*, çin dilində *t'ien* şəklində işlənmişdir. Etrusklar isə bunu *Tin* teonimi formasında İtaliyaya aparmışlar.

**Qut** (kut). Göydən tanrının işıq (nur) vasitəsilə insanlara göndərdiyi uğurlu *ruha* (cana) inanan qədim türklər bu olayı *qut* (kut) adlandırmışlar. Qutlu soydan birinin başçı seçilməsi ilə gerçəkləşən seçimi xalq etsə də, bu, toyda seçilən xaqanın *tanrı qutu* alması kimi dəyərləndirilirdi. Sonralar *qut* sözü «ruh» anlamında şamanizm termini kimi işlənmişdir

Qut sözü türk onomastikası üçün də doğmadır.[90] Belə ki, Kut Tənri xatunı, Kutan, Kutluğ, Qutqan, Kutlu//Qutlu, Kutadmış, Qutalmış kimi türk şəxs adlarında görünən bu sözün ruh, can, uğur, müqəddəs anlamları türk dillərində bugün də işlənir. Azər dilində *qut* sözü «matı-qutu qurudu», «ye, ürəyində qutun olsun» deyimlərində qalmışdır. KDQ-da «Bu ad, bu yigidə *qutlu* olsun» və Manas eposunda «Kuyruğuna *kut* düşmüş, *kutlu* kula at kiminki» deyimləri *qut* sözünün qutsal anlamını yaşadır. Güney Azərbaycanda qutların birbaşa davamçısı olan qaşqaylar içində *qutlu* boyu vardır.[91] Təsadüfi deyil ki, ilk türk dövlətlərindən biri Qut (*Quti*) adlanır.

Çin yazılarında **quduxeu** şəklində verilən hun titulunun bütövlükdə forma və mənası bəlli olmasa da, onun kökündə qut sözünün durması şübhə doğurmur, çünki *qutluq* titulu da çincə *qu-du-lu* şəklində verilir.[92] Çin

---

[89] ДА, 1985, 44.

[90] Qut sözünü *Xotan, Kotanlı* tipli toponimlərlə; doğu-german boyadı *qot* ilə; türk-german *Qut/Qud/Qod* və türk-iran *Kuday/Xudu* teonim paralelləri ilə; qohumluq termini *quda* və yağış çağırmaq üçün oxunan *Qodu-Qodu* nəğməsilə də müqayisə edib, müəyyən yozum vermək olar. Lakin bunların bir qismi osetlərə keçən *Kutiyev* soyadı kimi, yuxarıda göstərilən qutsal anlamlı *qut* sözü ilə bağlıdır. Osmanlı dönəmi arxivlərində Kutlu, Kutlubəyli, Kutlucalı, Kutlulu, Kutluoba, Kutluyurd (OAC, 556-557) etnonim və toponimləri aydın göstərir ki, *qut* sözü boyadı kimi geniş işlənmişdir.

[91] Ибраһимов, 1988, 42; Qədim türk inanc sistemində yaranmış *qut* sözü vaxtilə türklərlə kontaktda olmuş hat və hetlərin (*kut*), sami xalqlardan yəhudilərin (*qod, qodeş*), arameylərin (*qodh*), ərəblərin (*qüds, qüdrət*), germanların (*qod, qud*) dilinə keçmişdir.

[92] Әскәр-Гыпчаг, 1996, 59.

qaynağında *qut* titul kimi qeyd olunub.[93] «Hökmdarlar iqtidarı tanrıdan alırlar» deyimini bizə çatdıran «Kutadğu Bilig» abidəsinin adında işlənən *kutadğu* sözünün özü də hakimiyyət, iqtidar anlamı ilə bağlıdır.

**Seçim**. Qut alıb başçı seçilən şəxs dağınıq boyları toplayıb xalqın gücünü artırmalı, acı doyurub, çılpağı geyindirməli, xalqın iqtisadi durumunu yüksəltməli, ədaləti, törəni, asayişi təmin etməli idi. Əks təqdirdə, başçıya verilən tanrı qutu geri alınırdı. Göründüyü kimi, çoxlu problem üzrə sorumlu olan başçı (bəy, elbəy, xaqan) vəzifəsinin məsuliyyəti böyük idi, üstəlik, başçı onu seçən xalq qarşısında hesabat verməyə borclu idi. Bu səbəblə, türklər hər kəsi deyil, problemləri çözməyə qadir olan təcrübəli kişilərdən başçı seçirdilər, çünki «Təcrübəli insan elin-günün işini bilir» (Kutadğu Bilig). Beləliklə, türk dövlətçilik gələnəyində qut o kəsə verilir ki, o, ədalətli, cəsur və ağıllı olsun, toplumun qəbul etdiyi törəyə uyğun gələnəksəl dəyərləri, qanunları qoruya bilsin, bir sözlə, tanrı verən qüdrətlə başqalarından fərqlənən xarizmatik tip olsun.[94]

Çin salnamələrində hun hökmdarlarının epiteti «Gün və Ayın verdiyi Göy (tanrı) qutu» ifadələri ilə verilməsi və İşbara kağanın məktubundakı «Atam kağan ilə anam xatunu Tanrı taxta oturtdu» deyimi aydın göstərir ki, türklər xaqan seçimini *tanrı qutu* saymışlar. Türk toplumunda hər kəs bacarığına görə ünvan alır: *Qayusi alur xil bolur xilbaşı, qayusi at-adğır öze ilbaşı* «kimisi manqa alıb manqabaşı olur, kimisi at-ayqır üstə elbaşı».[95] Doğu türklərlə iç-içə yaşayan bəzi monqol uruq və boylarında da başçı seçimi irsi olmamışdır.[96]

---

[93] Çin dilində işlənən türkizmlərdən biri də hun məmur titulu olan ***kūti*** terminidir (HWC, 1984, 122); «Qutadğu Bilig»də *qut* sözü üçün bax: Əskər, 2003, 34-41.

[94] Qədim türk tarixindən danışan bəzi çağdaş tarixçilər dövlətin başında iki hökmdarın bulunduğunu yazırlar. Türkiyə tarixçiləri buna «cifte krallıq» deyir. Lakin diqqətə almaq lazımdır ki, Xəzər elində olduğu kimi, qədim türklərdə dövlət başçısı «ulu xaqan» törə və dini məsələlər üzrə sorumlu olub, hökumət işlərinə qarışmırdı, «xaqan» isə dövlətin deyil, hökumətin başçısı idi; bugünkü terminlərlə desək, biri prezident, digəri baş nazir idi. Döğrudur, İtaliyada reks (çar) vəzifəsini təkhakimiyyətli duruma çevirən uzurpator Məğrur Tarkvini qovulduqdan sonra reks vəzifəsi iki bərabərhüquqlu konsulla əvəz edilmişdir. İrokez toplumunda da iki başçı olmuşdur. Qədim yunan və latın dövlətlərinin tarixində belə ikihakimiyyətlik görünsə də, bunu türklərə şamil etməyə əsas yoxdur. Dövlət başçısı seçimindən fərqlənən dini rəhbər seçimindən isə «V Bitik»də bilgi verilir.

[95] KB (Metin), 1991, 410; ГБ, 1994, 303.

[96] Miladdan öncəki əsrdə hunlara tabe olan tatar-xan soyundan *uxuan* uruqlarının başçı seçimi haqqında Çin qaynağı yazır: «Kim güclü, cəsurdursa, mübahisəli problemləri həll edə bilirsə, onu başçı seçirlər; onlarda irsi əvəzlənmə yoxdur» (Бичурин, 1950, I. 142).

**Başçı**. Türk dövlətçilik tarixində bəy, elbəy, yabğu, tanhu//şanyü, yanzi, xaqan, xan, sultan və sair başçı ünvanları vardır. Bu sırada geniş yer tutan *baş // başı* sözləri daha çox dini və hərbi rütbələrlə bağlı terminlərdə görünür: baş-qam, baş-qan, baş-buğ, on/yüz/min-başı və sairə. Son vaxtlar Turkmən elinin başçısı anlamında *türkmənbaşı* ünvanının rəsmən işlənməsi *baş* sözünün yenidən turk dövlətçilik terminologiyasına qayıtmasını sərgiləyir. KDQ-da «altı başı», «doqquz qoca başı» ünvan vardır.

Baş sözünün leksik anlamı və fonetik variantları bir neçə tarixi bəlgənin yozulmasına yardım edir. Belə ki, azər dilində *başlıq* sözü *başdığ* şəklində tələffüz oluna bildiyi kimi, *başlaq, başluq* sözlərinin də *başdaq* (maşdak), *başduq* (maşduk) deyimləri mümkündür. Bu baxımdan, Mana çağında bəzi bölgəbəyi adının mixi yazıda *Maşdaku* və *Maşduku* şəklində yazılması təbiidir.[97] Burada asur dilindəki adlıq hal *-u* şəkilçisini çıxanda yerdə *maşdak* (başlaq) və *maşduk* (başluq) sözləri aydın görünür.

Rus dilinə keçib *başka* («baş») şəklində işlənən baş sözü yunanlara da keçmişdir. Avestada ev, ailə, uruq və boy başçılarını bildirən sözlərin sonuna *pati* sözü qoşulduğu kimi, hindavropa dillərində başçı anlamında *pater, patrik* sözlərinin işləndiyi bəllidir. Mütəxəssislərin yazdığına görə, *basileus* yunan dilinə başqa xalqların dilindən keçmişdir.[98] Qədim türk dövlətçilik terminologiyasına aid olan *elbaşı* (il-başı) ünvanı yunan dilində *bas-il* (baş-il) formasında ortaya çıxmış, «başçı» anlamında *basileus* şəklində işlənmişdir. Basileus yunan xalqı və ya xalqın seçdiyi bir qurum tərəfindən seçilirdi.[99] F. Engels qeyd edir ki, *basil* ilkin tutumunu dövlət qurulandan sonra itirdi, dövlət başına soylu arxontlar seçildi.[100]

**Bağa**. Göytürk yazılarında «*kanım baqa tenrikən*» deyimi və yazılı bəngü daşların bağa üzərində dikəldilməsi, Azərbaycanda isə basırıqlara

---

97 Дьяконов, 1956, 221.

98 «Güman ki, Asur çarları adətən yunan dilindəki *basileus* kimi, akad dili üçün yad söz olan *şarru* terminini könülsüz qəbul edirdilər» (Оппенхейм, 1960, 79).

99 Basiley sözünü *patriê* adlandıran Fukidid onun soy qurumunda yarandığını və bu titulu daşıyanın sınırlı imtiyazları olduğunu qeyd edir. Aristotelə görə, alplıq (bahadırlıq) çağlarında *basileya* azad insanların öndərliyi idi, *basiley* isə hərbi başçı, hakim və baş kahin idi; bu sözdə sonrakı hakimiyət çaları hələ yox idi. Herodot Saqa çarlığını quran boyu «οι βασιλειοι Σκυθαι» (bas-il saqalar) adlandırır.

100 F. Engels alman dilində «uruq başçısı» anlamını bildirən *köniq* (kuninq) termininin *kuni//künne* sözündən törədiyini və çağdaş *köniq* sözündəki «korol» (kral) anlamının qədim yunanlarda işlənən *basiley* (basil) ilə uyğun gəlmədiyini vurğulasa da, basiley sözünün *köniq* ilə tərcüməsini mümkün sayır (Энгельс, 120, 125).

bağa (tısbağa) qoyulması, m.ö. I minilin başlarından yazılı qaynaqlar *baq* və *baqa* sözünü teonim (Baq-Maştu, Baq-Bartu) kimi qeyd etməsi, burada Arbaq (ər-baq) və Subar bəyliyində Baq-Teşub (m.ö.VII əsr) adları, tanrı yurdu anlamında işlənən *Baqa* dağadı (Baqastan >Bisutun) aydın göstərir ki, öncə teonim (iyəadı), totem, kahin, etnonim və etnotoponim kimi işlənən *baq // baqa* sözü sonradan titula çevrilmişdir. Göytürklərdə *Kutluq bağa tarkan, Tonyukuk boyla bağa tarkan,* uyğurlarda xaqan olan *Tun bağa tarkan* (779-789), türkişlərdə *bağa tarkan,* bulqarlarda *baqan* titulu vardı. Beləliklə, dövlət adamlarının ünvanında «**baqa tarkan**» deyiminin işlənməsi dövlətçilikdə *bağa* sanının önəm daşıdığını göstərir.

Qədim türk yazılarındakı *bağa* titulu qədim türk inanc sistemindən qalma söz idi.[101] Sonralar onun **bayat** variantı da türk yazılarında teonim anlamında işlənmişdir. Ön Asiyadan *baqa* teonimini doğu və quzey yönlərə aparan türk boylarından bu sözü alan slavlar onu *boq* (tanrı) şəklində işlətdiyi kimi, bu sözdən törəyən *baqatur* (bahadır), *bayan, boyla, boyar* (bayər), *boyarin* sözləri də bir çox xalqın dilinə keçmişdir.

**Bəy.** Başçı ünvanları sırasında *bəy* sözünün özəl yeri vardır. Belə ki, prototürk çağından ***baq** sözü ilə homogen olan **beq** sözünün sonralar dialektlər üzrə *bay, bəy, bey, biy* fonetik variantları və «başçı», «varlı», «kübar» anlamları ortaya çıxmışdır. Görünür, bu sözün ilk başçı anlamı *boy* (bod) sosial qurumunda yaranmışdır.

Türk dövlətçilik terminologiyasında *bəy* sözünün iştirakı ilə *elbəyi* (elbeq), *atabəy*, *bəylərbəyi* kimi xeyli başçı titulu bildirən söz yaranmışdır. KDQ-da Qazan xan «bəylərbəyi», Yegnək isə «bəylərbaşı» titulu ilə verilir. Elxanilər dövlətində *bəylərbəyi* ən böyük vəzir rütbəsi idi. Öğuz, Alp Ər Tunqa kimi türk böyükləri *acun bəyi* (dünya hökmdarı) titulu ilə yaddaşlarda yaşayırdı. Böyükbəy, kiçikbəy, qalabəyi kimi titullarda da görünən bəy sözü həm də siyasi qurumun adında (*bəylik*) iştirak edir, heç kimə tabe olmayan «siyasi qurumsuz» bölgə isə *dərəbəylik* adlanır.

---

[101] İlk forması *baq* olan bu söz öncə teonim (*baqa*), totem (*bağa*), kahin (*bağıçı, maq*), etnonim (*baq//maq*) kimi işlənmiş, sonralar onun *bayat*, *baxşı, bahadır, baxıcı, mağ, bəg,* kimi çoxlu fonetik və semantik variantları yaranmışdır (Azər xalqı, 2000, 241-242). İranşünas E. A. Qrantovski yazır: «(Ümumiyətlə) *tanrılar* anlamını verən qədim fars formulu *baqaha* idi. Lakin daha qədim çağda yaranan *baqa-* sözü (irandilli) midiyalıların və perslərin İrana gəlişindən öncə işlənmişdir» (Грантовский, 1970, 156).

M. Kaşğari **bekec** sözünün anlamını «xan oğlunun sanı» kimi izah edir.[102] Bu baxımdan, Herodotun qələmə aldığı saqa soykökü mifindəki qardaşların adını vaxtilə Elbəkcə və Ərbəkcə şəklində bərpa etməyimiz bir daha öz təsdiqini tapır. Elbək adı yayğın olduğu kimi, qədim yazılar Arbak//Ərbək adını da qeyd edir. Çin qaynağında *Ərbək şad* adı vardır.

**Böyük**. Bəzən danışıqda işlənən «əlin böyüklərin ətəyindədir» və yaxud ironiya ilə «nə böyük adamsan?» deyimlərində donuq şəkildə olsa da, *böyük* sözü qədim ünvan (vəzifə) anlamını saxlamışdır. Böyükkişi, Böyükağa kimi şəxsadları vardır, lakin N. A. Baskakovun Xəzər xaqanının adı kimi verdiyi Böyük, əslində, xaqanın özəl adı deyil, onun tituludur.[103] İbn Fədlan bunu belə izah edir: «Xəzərlərin hökmdarı *Xaqan* adlanır. Gəzinti üçün ancaq dörd ayda bir dışarı çıxır. Buna *Böyük Xaqan*, vəkilinə isə *Xaqan Bəy* deyirlər».[104]

Başçı titulunda işlənə bilməsi üçün *böyük* sözünün leksik anlamında potensial imkanı vardır. Sumer dilində də «çar» anlamında *lu-qal* deyimi işlənir ki, bunun hərfi tərcüməsi «böyük adam» deməkdir. Bu baxımdan, m.ö.714-də Mana ölkəsində bölgə bəylərindən birinin *Böyük* adlanması diqqəti çəkir. E. A. Qrantovski mixi yazıda bir neçə fonetik variantla əks olunmuş bu titulu, doğru olaraq, **Pāyuka* formasında bərpa etmişdir.[105] Qədim Azərbaycanda təkcə *böyük* sözü deyil, yuxarıda qeyd etdiyimiz kimi, bölgə başçılarının adında görünən **dədə**, **ata, kaka** (qağa), **aqa** sözləri də titul kimi işlənmişdir.

**Tanhu // şan-yü**. Çin yazılarında hun elbəyinin titulu kimi verilən *tanhu//şanyü* ünvanı vardı. Hun dilində «imperator» anlamı ilə işlənən bu sözün genişlik, ucalıq, ululuq bildirməsi və onu işarə edən çin heroqlifinin *tanhu, taniu, jenuye, şanu, şanyu, şanyü* variantları ilə oxunması bəllidir.[106] Hər halda, bu ünvanın leksik məna çalarlarını diqqətə alanda onun *tanrı* sözülə eyni kökdən (*tañ) ola bilməsi ehtimalını istisna etmək olmaz.

**Yanzi** // **yanzu**. III-II minillərdə subar boylarının yaşadığı ərazilərdə sonralar (m.ö. I minilin əvvəli) yaranmış Allabria, Namru, Xubuşkia kimi bölgələrdə bölgəbəyi vəzifəsini daşıyanlar asur qaynaqlarında *yanzi* titulu ilə yad olunur. Bu titul Kassi sülaləsinin hakimiyəti çağında da işlək olmuş-

[102] MK, I. 357.

[103] Баскаков, 1985, 44.

[104] İbn Fadlan, 1975, 76.

[105] Грантовский, 1970, 259.

[106] Kafesoğlu, 1989, 59.

dur.[107] Morfoloji quruluşuna görə, *tanhu, yabğu, yincu* kimi türk titullarına bənzəyən *yanzi,* ola bilsin ki, «canişin» anlamlı **yan-cı* sözüdür.

**Yabqu**. Göytürk elində xaqandan sonra ikinci rütbə sayılan *yabqu* titulu vardı və adətən, yabqular xaqanın qandaşları olan Aşina soyundan seçilir və Batı-Göytürk elini yabqu idarə edirdi. Bugünkü terminologiya ilə desək, töräyə görə, xaqan taxtına oturmağa hüququ olmayan yabğu «vitse-prezident» idi. Lakin Göytürklərdən öncə Kuşan hökmdarı Kudzulu Kadfiz *yavuga* titulu daşıyırdı. Xəzər elində isə bu titul *cabqu-xan* (yabğu-xan) şəklində işlənmişdir.

G. Klauson yabqu sozünün türkmənşəli (*yabqu* <**davqu*) olduğunu yazmışdır. Buna etiraz edən Riçard Fray manixey boybəyinin *ymq* (yamqu) sözülə bildirildiyini və Buxarada bu sözün *jamūk* şəklində işləndiyini əsas gətirərək yazır: «Görünür, türklər öz titulaturasını iranlılardan aldığı üçün, olsun ki, *yabqu* (yavuqa) da irandilli sözdür».[108] Doğrudur, bu termin ilk dəfə Mana çağında Güney Azərbaycanda ortaya çıxmışdır, lakin indi «İran» adlanan Manada irandillilər yox idi.

Mana elində *karsi* boyunun m.ö. IX əsrdə qızıl boylarının (*qızıl-but*) ərazisində yaşaması buradakı Karsibut (*karsi-but*) qalasının adında əks olunmuşdur. Daha öncə, Babil çarı I Navuxodonosor yazısında adı keçən *Karziyabku* (karsi-yabqu) soyunun m.ö. II minilin sonlarında Diala (Turna) çayı yaxasında olması bəllidir.[109] Göründüyü kimi, qədim Azərbaycanda yabqu sözü irandilli etnosun İrana gəlməsindən çox əvvəl işlənmiş, yalnız Alp Arslan (XI əsr) çağında bu tituldan imtina edilmişdir.[110]

**Kañ** (kang//kan//xan). Türk dövlətçilik gələnəyində bəy sanından sonra aktiv terminlərdən biri olan *xan* sözü xanlıq, xanlarxanı, elxan, uluxan, xanım kimi titulların tərkibində iştirak edir. Sosial qurumdan siyasi quruma transfer olunan *xan* sözü şəxs adlarında da özünü göstərir: Xanış, Xanlar, Xankişi, Elxan, Arı-kan (Atillanın arvadı), Ayxan, Ataxan və s.

---

[107] Kassi-akad sözlüyündə *ya-an-zi* ilə yanaşı, *nu-la* sözü də *şarru* «çar» mənasında verilmişdir. Kassi dilində bu sözlər eyni məna daşıyırsa, onda bunlardan birini, daha doğrusu, subar bölgələrində işlək olan *yanzi* sözünü kassilər qonşu türklərdən ala bilərdilər. Lakin kassi və türk dilində *yanzi* sözü sumerlərdən alınma *ensi* sözü də ola bilər. Əlbəttə, bu ehtimalların elmi yozumu üçün ayrıca araşdırmaya ehtiyac vardır.

[108] Фрай, 1972, 275.

[109] Дьяконов, 1956, 136-137.

[110] Togan, 1981, 194.

Monqol alimi T. A. Bertaqayev yazır ki, *xan* sözü *kaqan* terminindən kaqan//kağan > kaan > kan/xan fonetik dəyişməsi ilə yaranmışdır.[111] Doğrudur, belə fonetik dəyişmə mümkündür, lakin «Monqolların gizli tarixi» adlı əsərin elə özündə hər iki terminin yanaşı işlənməsi (Çingiz *kaqan kan* boldu) bu yozumun yanlış olduğunu göstərir. Həm də diqqətə almaq lazımdır ki, qan//kan sözünün işlənmə tarixi çox qədim yazılarda əks olunmuşdur: qut elbəyi Tirikan (m.ö.XXII), etrusk teonimi Tarkan.

Əslində, *xan* sözü *xaqan* sanından daha qədimdir və onun qədim sosial qurumda ata-baba anlamı ilə «qam-qan» (qam-ata) inanc terminində işlənməsi (Qamqan oğlu Bayındır xan) bunu aydın göstərir.[112] İlkin ərəb qaynaqları İbrahim peyğəmbərin *Kan-tura* soyundan olan arvadından törəyənləri türk saydığından azər türklərinə *bəni-qantura* demişlər. Bu baxımdan, ilkin praforması *qañ şəklində bərpa olunan bu söz *xaqan* (ka-qan) sanı tərkibində də görünür. Kore dilində kan və kaqan sözləri *kwan* və *ke-kwan* şəklində işlənir.[113] Güman etmək olar ki, xaqan sanı redublikasiya ilə xan sanınından yaranmışdır: *qa-qañ > *qagañ > qagan//kagan.

**Kaqan** (xaqan // kağan). Türklər xan sanından yuxarı olan kaqan sanını «imperator» anlamında işlətmişlər. Kağan sanını Çin qaynaqları *kexan* şəklində verir.[114] Bu titulun hunlarda m.ö. işlənməsi bəllidir.[115] K. Şiratori bu sanın 394-402-ci illər arasında yarandığını yazır.[116] Halbuki xaqan titulu 293-cü ilə aid pəhləvi yazısında qeyd olunmuşdur: «Türk *xaqanı* və başqa ölkələrin başçıları ehtiramlı salamlarla onun sarayına gəldilər».[117]

Xaqan sanı hun boyları vasitəsilə Çindən tutmuş Skandinav ölkələrinə qədər yayılmışdır. Belə ki, Skandinav saqalarında *xakon* formasında işlənən bu titul «Xakon oğlu Xakon haqqında saqa» epik əsərinin adında da əks olunmuş, hətta, Xakon Maqnussonun adında olduğu kimi, XIV əsrə qədər davam etmişdir.[118] İlk rus hökmdarı (839-da) *kaqan* ünvanı daşıyırdı.

---

[111] Бертагаев, 1976, 45.

[112] Bu, qut adlarında da görünür: Ulu-kan (*hu-lu-uk-ka-an*), Tiri/Tirig-qan (Balkan, 1992).

[113] Togan, 1981, 16.

[114] Бичурин, I. XLVIII-L.

[115] Kafesoğlu, 1989, 255.

[116] Shiratori 1945, 504.

[117] Turk (ī) **xākān** ud abārīg gil-xwadāyān ī kustag kustag pad drōd (ī) šīrēnag ō dar āmad hēnd (Karnamak, XVIII, 22).

[118] ДГС, 1986, 89-92, 147.

İ. Hassan yazır ki, xan sözünün işləndiyi ən əski deyimlər inanc sisteminə ilişkin bəlgələrdir.[119] Yazarın bu doğru müşahidəsi kan sözülə yaranan kaqan sanının tarixini də m.ö. XIII-XII əsrlərə, yəni Əfrasiyab çağına qədər qədimə çəkir. Türklərin ən böyük sanı *xan* olduğunu yazan M. Kaşğari əlavə edir: «Əfrasiyab oğullarına da *xan* deyilir; Əfrasiyab isə *Xakan*'dır. Bu adın verilməsi tarixinə aid uzunca bir hekayə vardır».[120]

**Katun** (xatun). Türk dillərində *qadın* sözünün titula çevrilməsi qut alıb başçı seçilən kağanın xanımı ilə bağlı ortaya çıxmışdır. Törəyə görə, xatun bəlli soydan olmalı idi. O, dövlət məclisində iştirak edir və xarici elçiləri ayrılıqda qəbul edə bilirdi. Bu gələnək İslamdan sonrakı çağlarda da görünür. Qaraxanlı İlig xanın nəvəsi və Sultan Məlikşahın (1072-1092) xanımı olan Türkan xatun dövlətdə böyük nüfuz sahibi olan vəzir Nizamülmülkü vəzifədən saldıra bilmişdi. Sultan Toğrul bəyin (1040-1063) xanımı Altuntac xatun isə Səlcuqlu dövlətini xilas etmək üçün doğma oğlunu zəncirə vurdurmuşdu.

Görünür, türk elində başçı ölərkən yeni başçı seçilənə qədər xatunu bir müddət onun yerini tuta bilirdi. Alban eli çağında (527-də) sasanilərə yardım etmək istəyən «iç hun» boyundan 20 minlik qoşunu Azərbaycanda məhv edən «kişi kimi təpərli və ağıllı» Buğarıq//Boğarıq (βωαρήξ) xatun *Balaq* (βαλάχ) adlı subar başbuğu öləndən sonra onun dul qalmış xanımı idi. Buğarıq xatundan minil öncə massaqet (başsaqet) çarının dul qalmış xanımı Tomiris də m.ö. 530-da Pers şahı Kuruşu (Kiri) öldürmüşdü.[121]

Qədim Azərbaycanda yayğın olan Araz, Kuər, Qut ( Xutu-ini), Turan iyə adları Urartu yazılarında teonim (dingir) determinatıvilə verildiyi kimi, *Arubanı* adı da teonim kimi təqdim olunmuşdur. Burada «təmiz-saf xanım» anlamı *aru-banı* tərkibi ilə verilmişdir. Görünür, xanım adlarının tərkibində işlənən **banu** sözü qədim inancla bağlı termin olmuşdur, lakin *katun* titulu ilə paralel işlənən **yincu** sanının «inci» sözündən yaranması mümkündür. Bəzi boylarda xatunlarla bağlı **el-bilgə** və **tərkən** sanı da işlənmişdir.[122]

**İnal**. M. Kaşğarinin yazdığına görə, anası xatun soyundan, atası isə adi adam olan gənclər *inal* adlanır.[123] Törəyə görə, inallar müxtəlif sanlar

---

[119] Hassan, 2000, 229.

[120] MK, III. 157.

[121] Herodot, I. 205.

[122] İltəriş xaqanın xatunu (Kültegin və Bilgə xaqanın anası) kimi Uyğur xaqanı Moyun Çorun xatunu da *elbilgə* sanı daşıyırdı.

[123] MK, I. 122.

alsa da, yalnız yabqu sanına qədər yüksələ bilərmiş. Görünür, hansı yol-lasa taxta çıxarılan İnel kağanın 716-da vəzifəsindən uzaqlaşdırılması da bununla bağlıdır.[124]

Sonralar *yınal* (inal) sanına Xarəzmşah Atsızın qardaşı Yınal-Tegin adında rast gəlirik. Təkcə *inal* sanının deyil, onun kimi «güvəncli» anlamı daşıyan **inanç** və **inançu** sanlarının da **in* (in-am, in-anmaq) kökündən yaranması bəllidir. Bu sanların ilkin leksik anlamında «güvəniləsi adam» məfhumu dövlətdə inal, inanc, inancu sanı daşıyanların hökmdara yaxın adamlar olduğunu göstərir. İnanc sanının sülalə tituluna çevrilməsi olayı da vardır. Belə ki, Atabəylər çağında Rey bölgəsinin xanı *İnanc,* onun qızı *İnanc xatun,* nəvəsi *Kutluq-İnanc* adlarını daşımışdır.[125]

Bu sanlar sırasına **inaq** titulunu da daxil etmək olar. Uzmanlar inaq sanını «boy öndəri» anlamında işləndiyini və inaqların dövlət şurasının üzvü olduğunu qeyd etmişlər.[126] Lakin Dədə Qorqud boylarında protokola uyğun olaraq, inaqların qapıda və ya həyətdə (eşikdə) durmaları onların müşavir yox, inallarla eyni statusda olduğunu göstərir.[127] Qut elbəyi *İnim-Abakeş*, Göytürk kağanı *İnim Kültegin* adlarında *inim* sözü kökünə görə *inel* sanına oxşasa da, buradakı *ini* kökü «kiçik qardaş» anlamı daşıyır.

**Elig**. Göytürk yazısında *elig* şəklində verilən və əski türk qaynaqla-rında ilig-bəg, ilig-kan, ulug-ilig kimi titulların tərkibində görünən *elig* (ilig) hökmdar, prins, kral anlamı bildirmişdir.[128] El-li, el-lig sözlərinin leksik anlamı da bu yozuma haqq qazandırır. Atillanın oğlu *İlek* də «kral» anlamlı ad daşıyır. Xarəzmşaha qarşı birgə vuruşan türkmən və qara-xitay qoşununun başbuğu İlig-Turkman adlanırdı.[129] Bu sanın «türkmən-başı» anlamında *ilig-turkman* deyimi göstərir ki, boy-budun başçısı kimi sosial qurumda formalaşan *ilig* termini siyasi qurumda dövlətin (elin)-başçısı statusu ilə «hökmdar» sanı anlamı qazanmışdır.

**Elçi**. Morfoloji quruluşu (*el-çi*) şəffaf olan bu sözün məna tutumuna tarixboyu müxtəlif anlamlar yüklənmişdir: 1) diplomat, qasid; 2) boy, bu-dun, el sosial qurumlarının təmsilçisi, başçısı; 3) boy, budun və el siyasi

---

[124] Donuk, 1988, 16.

[125] Буниятов, 1986, 36-37, 51.

[126] Donuk, 1988, 16 (119-cu qeyd).

[127] «Sağda oturan sağ bəylər, solda oturan sol bəylər, *eşikdəki inaqlar*, dibdə oturan xas bəylər! Qutlu olsun dövlətiniz! - dedi» (KDQ, 1962, 62).

[128] Donuk, 1988, 19-20.

[129] Буниятов, 1986, 37.

qurumlarının başçısı. Bu son anlamda elçi sanı dövləti təmsil edən adam (dövlətçi) və «hökmdar» tituluna tay gəlir. Türk dialektlərində elçi//ilçi fonetik variantları ilə işlənən bu söz boy qurumu çağından bəllidir. Belə ki, Sumer qaynağında «*Qutiumdan gələn iliş*» deyimi vardır.[130] Bu yazıda Qut elindən (Qutium) gələn adamın *elçi* (> eliş) adlanması açıq sərgilənir. Burada elçi sözünün qasid, diplomat və ya başçı anlamı aydın görünmür, lakin Qut eli çağından bir neçə əsr əvvəl Ulu Sarqona qarşı vuruşan 17 quzey boyundan biri məhz *turki* boyu adlanır, boyun başçısı isə *İlşunail* adını daşıyırdı.[131] Buradakı *Elçu-Nail* deyimi isə *elçi* sanının «boybaşı» anlamını aydın göstərir. Xan//xaqan titulunun sinonimi kimi hərfi mənası «dövlətçi bəy» olan **elçibəy** sanının da kökü *elçi // ilçi* sanına dayanır.

**Elbəy**. Leksik mənasına görə «xalq//ölkə//dövlət başçısı» anlamları daşıyan *elxan*, *elkağan* titulları ilə bir sırada dayanan *elbəy* sözünün yaranma tarixi daha qədim olmalıdır. Göytürk elinnin başçısı Bumın 552-də *il-kagan* titulunu qəbul etmişdir.[132] Z. V. Togan türk dövlətçiliyi baxımından «Kutadğu Bilig» əsərinin əhəmiyətindən danışarkən, buradakı ilbeglərin zənginlikdən uzaq yaşam tərzini Antik çağ yazarlarının m.ö. I minilin ortalarında təsvir etdiyi Argim-pay ilbegləri durumuna uyğun gəldiyini göstərir.[133] Herodot və Rəşidəddinin qələmə aldığı saqa və oğuz soykökünə aid miflərində üç qardaşın böyüyü saqalarda Elbəg, oğuzlarda isə Eltegin adlanır. Bu *el-bəg* = *el-tegin* paralelliyi *elbəg* sanının «vəliəhd» və «prins» anlamını göstərir. Lakin daha qədim çağlarda *el* və *bəg* sözlərinin sosial qurumda daşıdığı məna yükü *elbəg* deyiminin dini başçı anlamını ortaya qoyur. Əslində, belə də olmalıdır; m.ö. III minilliyin ortalarında boy başçısının eyni zamanda dini başçı sayılması olayı yayğın idi.

Türk toplumunda Elxan kimi, Elbeg şəxsadı da geniş yayılmış, bu adın müxtəlif fonetik variantları yaranmışdır: İlbeg, Elbeg (peçeneq), Elbay, Elbəy, Elbəyi. Burada sadəliyi ilə seçilən diləyatımlı *elbəy* variantını *el* siyasi qurumu (dövlət) başçısı anlamında «çar» sanına paralel işlədirik.

**Eltəbər**. Göytürk dövlətinə tabe olan karluq, az, uyğur və ediz boylarının başında *eltəbər* sanı daşıyanların durması göstərir ki, onlar boy və budun başçıları və ya hökmdarın təmsilçisi kimi bölgələrə təyin olunan canişinlər idi. Bu titulun *el* sözü və *təpər* (təpmək) feilindən düzəldiyini

[130] Balkan, 1992, 42.

[131] Memiş, 2002, 70-71.

[132] Kafesoğlu, 1989, 93.

[133] Togan 1981, 85.

yazan P. B. Golden onun «Alban tarixi»ndə *ilutuer*, İbn Fədlanın əsərində isə *yıltavar* şəklində verildiyini qeyd edir.[134] Lakin hat (və ya qaşqay) dilindən hetlərə hökmdar titulu kimi keçmiş *tabar* sözü *təp-* feilindən yox, *tap-* (tapmaq) feilindən yaranmışdır. Bu baxımdan, eltəbər sanının «el təpər» deyil, «el tapar» anlamında yozumu semantik cəhətdən özünü doğruldur. Het çarları hətta *tapar* sanını *tabarna* şəklində sonralar sülalə tituluna çevirmişdilər.[135] Bu titulu etrusklar *Teberi* adında saxlamışlar.

Mərvəzi yazır ki, türk hökmdarı xaqan, bulqar hökmdarı isə eltəbər (*vıltıvar*) titulu daşıyır.[136] Mərkəzi hakimiyyətin tabeliyindən çıxan bu və ya digər bölgədə eltəbərin yeni dövlət başçısı kimi fəaliyyət göstərməsi də mümkündür. Hətta VII əsrin ortalarında uyğurların *eltəbər* sanı daşıyan başçısı bəzi ətraf əraziləri ələ keçirib, Çin imperatoru tərəfindən tanınan dövləti «Uluq İl-teber» titulu ilə idarə etmişdir.[137]

**Bilgə.** Türk dövlətçilik tarixində önəmli titullardan biri də Göytürk yazılarında keçən *bilgə* sanıdır. M. Kaşğari bilgə sözünün bilikli, ağıllı və hakim anlamında işləndiyini qeyd edir.[138] Bilgə kağan xatununun *İl-Bilgə* adlanması göstərir ki, bəzi hökmdar xatunları *El-bilgə* titulu daşıya bilmişlər. Bilgə sanı türk toplumu içində xidmətləri olan yabançıya da verilə bilirdi. Necə ki, Göytürklərə sığınıb, Çinin quzeyində dövlət quran general Lianq Shi-tu *qurdbaşlı* bayraq və *Tardu Bilgə kağan* ünvanı (sanı) almışdır. Qədim türk antroponimiyasında geniş yer alan Bilgə adı günümüzə qədər işləkliyini itirməyib.[139]

Ən qədim türk dövlət titullarından olub, *bil-* feilindən düzələn və «bilikli» (filosof) anlamı daşıyan *bilgə* sanı, görünür, subar boylarından sumerlərə də keçmişdir. Belə ki, III minilin ortalarında bu san bəzi sumer çarlarının adına qoşulmuşdur. Millətin mövcud durumu və gələcək təhlükəsizliyi üçün sorumlu olub, bu sahədə müstəsna xidməti olan dövlət adamına verilən bu titulu m.ö. XXV-XXIV əsrə aid bir sumer yazısında görmək olur: «*Eanatumu ensi Laqaşa pa bilga Entemena ensi Laqaşakea*» deyimindəki *bilga* sözünü İ. M. Dyakonov «əcdad» (predok) anlamı ilə

---

134 *իլութուէր* - *ilutuer*, يلطوار - *yıltavar* (Golden, 1980, 147-150).

135 Heroqlif yazı ilə Tabarna möhürləri və üzərində «Böyük kral Tabarnanın möhürü» deyimi olan möhür bunu aydın göstərir (Kınal, 1987, 198-199); ИДМ, I. 204.

136 Şeşen, 1975, 106.

137 Kafesolğlu, 1989, 123.

138 MK, I. 11.

139 Aldığım ödüllər içində «Türk törə öcağı»nın verdiyi *Bilgə* sanının özəl qıvancı vardır.

tərcümə edir, halbuki həmin mətnin əvvəlində əcdad anlamında *aba* sözü işlənmişdir.[140] Təxminən XXVII əsrdə Uruk şəhər-dövlətinin başçısı olan məşhur sumer qəhrəmanı Bilqamesin (~Bilgemeş) adını da həmin yazar *biliqa-mes* şəklində verib, onu «alp əcdad» (predok-geroy) anlamı ilə şərh edir. Halbuki, sumer dilini yaxşı bilən, «Bilqamıs» eposunu akad dilinə «Gilqamış» adı ilə çevirən katiblər Bilqamesin «hər şeyi görən, hər şeyi bilən» anlamı daşıdığını yazmışlar.[141] Çox güman ki, o, Uruk şəhərinin ensisi olandan sonra *bilqa-mes* sanını almışdır. Eyni gələnək Göytürk yazılarında 𐱅𐰇𐰼𐰚 𐰋𐰃𐰠𐰏𐰀 𐰴𐰀𐰍𐰣 «*türk bilgə kağan*»ların aldığı ad-san sistemində təkrar olunmuşdur.

**Şad**. Türk törəsinə görə, hökmdarın oğlu orduya və ya bir asılı bölgəyə başçı təyin olunanda ona *şad* sanı verilirdi. Elbəy oğlunun vəliəhd olması üçün öz millətindən olan xatundan doğulması gərəkirdi. Bu törə irsi hakimiyətə keçən bəzi türk boylarında işlək olsa da, artıq Göytürk elinin sonlarında və Uyğur elində pozulmuşdu. Hələ m.ö. 654-də qamər (kimmer) elbəyi Tuğdamı *umman-manda çarı* adlandıran asur qaynağında onun oğlu *Sandak şat-ər* haqqında gərəkli bəlgə vardır.[142]

Aşina soyundan 439-da *Bilgə-Şad*, 576-da Bizanslı elçi Valentinosla görüşən Göy-Türk dövlətinin prinsi *Türk-Şad,* 704-də türgeşlərə qarşı vuruşan *Börü-Şad* adları tarixi qaynaqlardan məlumdur. Qətran Təbrizinin (1012-1088) Təbriz yaxınlığındakı *Şadi-abad* kəndində doğulduğu bəllidir.[143] Vedi bölgəsindəki *şadılı* boyndan bir soyun Goranboya köçməsi ilə burada *Şadılı* kənd adı ortya çıxmışdır. Bütün bu bəlgələr onu göstərir ki, şad titulu boyadına (etnonimə), o da etnotoponimə çevrilə bilir.

Göytürk yazısında «*şada-pıt* bəylər» deyimi vardır.[144] Burada *şada* (şadı) sözünə qoşulan 𐰯𐰃𐱃 (pıt//put) sözcüyü *bud* («boy») sözünün şəkilçiləşmiş variantı olsa da, «başlayu ulayu şadıput beglər» deyimində işlənməsi *şadıput* sözünün kontekstdə *şada məxsus boy* anlamı deyil, potensial şad sanı ala biləcək soylu (əsl) bəylər zümrəsinə aid olanlar anlamı önə

[140] Дьяконов, 1967, 336, 429-431; Bəzi sumeroloqlar isə mətndəki *Pa-bil-ga* ifadəsini «böyük bilgə» kimi verirlər (Tosun-Yalvaç, 1981, 6. sətr 35).

[141] Эпос о Гильгамеше («О все видавшем»). М.-L. 1961.

[142] Qaynaqda Asur çarının sözləri belə verilir: «Mən Tuqdammenin gücünü dağıdıb onu meydanda əvəz edən - belindən gəlmiş oğlu *Sandakşatru* əzəcəyəm» (Дьяконов, 1956, 285); Digər sənəddə Tuqdamme artıq *«Saka və Gutium çarı»* adlanır (Алиев, 1979, 11).

[143] Saqa boyundan bir neçə Bospor çarının daşıdığı *Perisad* və «Məcmə üt-təvarix»də qeyd olunan Feridunun vəziri *Pirşad* adında da *şad* titulu vardır.

[144] Orkun, 1994, 71-72.

çəkilmişdir. Anadolu və Qafqazdakı *şadili, şadiyan, şadan* boylarından danışan F. Kırzıoğlu bu etnonimləri Araz çayı yaxalarına hakim olan xəzərlərin başbuğ ünvanı *şad* ilə bağlayır.[145] Burada etnonimlərin şadsoyu (şadı) yozumu doğrudur, lakin bu bölgələrdə *şad* sanının və *şadı, şadılı* etnoniminin işlənmə tarixi Xəzər elinin tarixindən çox qədimdir. Hələ sumer yazılarında *şatammu* titulu «idarə edən» anlamında işlənmişdir.[146]

Göründüyü kimi, sumer yazısında qeyd olunmuş Aratta elində *şatam* sanından başlamış, Asur-Urartu qaynaqlarında verilən qamər boyuna aid *Sandak-Şatər*, qızıl boyuna aid *Piri-Şat*, Persopol yazısında *Yamak-Şad* adları, *Şadeli, Bit-Şedi* və sair etnotoponimlər qeyd olunmuşdur.[147] Çin qaynaqlarında *Şato* eli haqqında geniş bəlgə olduğu kimi, *Ərbək-şad* şəxsadı da vardır.[148] Fars boyları türk onomastikasında geniş yayılan şad sözünü alıb, şəxs adlarında işlətmişlər.

**Tegin**. Türklərin «prins» (şahzadə) anlamında işlətdiyi *tegin* sanının tigin, tekin, təkin fonetik variantları vardır. Yuxarıda qeyd etdiyimiz kimi, teginlər vəzifəyə təyin olunanda onlara şad sanı verilirdi. Necə ki, Kültegin 16 yaşından şad olub, orduda və savaşlarda iştirak edirdi. Bilgə kağan isə kağan olana qədər 19 il türk budunu uğrunda şad sanı ilə çalışmışdır.

Qaraxanlı elində böyük xaqanın *Arslan-xan* sanı ilə dövləti idarə etdiyini və tegin sanının *yınal-tegin, yığan-tegin* çeşidləri olduğunu qeyd edən İ. Kafesoğlu yazır ki, vəzifəcə yüksəlmə tegin > ilig > buğra-xan >arslan-xan xətti ilə gedirdi.[149] Bu sanın mənşəyi haqqında M. Kaşğarinin maraqlı şərhi vardır. O yazır ki, öncə «qul» anlamı olan *tigin* sözü sonralar xaqan oğullarına *unqun* (san) olmuşdur. Belə ki, Əfrasiyab oğullarının atalarına, böyüklərə öz sayqısını göstərmək üçün özləri haqqında «qul (tigin) bunu etdi, onu etdi» deyimini işlətməsi getdikcə tigin sözünü titula çevirdi. Bu sözün «gözəl üzlü» anlamı daşıması isə «Şəcəreyi-Tərakimə» kitabında verilmişdir.[150]

**Tarkan**. Azərbaycanda qədim çağlardan bəlli olan *tarkan* sanı yazılı qaynaqlarda əks olunmuşdur. Çin qaynağında *ta-kan* şəklində keçən tarkan titulu etrusklarda *Tarkon*, yunanlarda *Tarxon* adlarında görünür. Asur və Uratru yazılarında da bu sözə rast gəlmək olur. Anadoluda Melid (müasir Malatya) çarının adı *Tarxun-azi* kimi verilir və bu bölgədən quzeydə isə

---

[145] Kırzıoğlu, 1968, 109.

[146] «правитель, заведующий, смотритель» (Липин, 1957, 208); Çin qaynağında İstemi xaqan *Şatemi* adlanır (Гумилев, 1993, 26, 4-cü qeyd).

*Tarxuna* dağının adı çəkilir.[151] Koman bölgəsində olan Tarxuna dağından doğuda bir *Tarxan-abe* dağı da vardı.[152] Kuman, qaşqay və urmu boylarının yaşadığı ərazidəki bu dağların adı I Tiqlat-palasar (1115-1077) yazısında keçir. Oğuznamədə isə *Turkun* və *Turkan* dağadları qoşa çəkilir.[153]

F. Simokatta 589-da Hörmüzdün ətraf bölgələrdən topladığı qoşuna theroxanı başçı qoymasını yazır və qeyd edir ki, *theroxan* (tarxan) titulu rumlarda *magistr* sanına uyğun gəlir.[154] Tarxan sözünün «bəy», «knyaz» və «elbəyin canişini» anlamı ilə işlənməsi də bəllidir. Bu ünvanın «*tərkən katun kutunğa*» deyimində görünməsi isə onun hökmdar qadın üçün də keçərli olduğunu sərgiləyir.[155]

Ön Asiyanın qədim çağ qaynaqlarında qeyd olunan *tarkan* sanının sonralar göytürk, bulqar, xəzər, oğuz, uyqur, qırğız, qaraqoyunlu, kuman və sair türk boyları içində geniş yayıldığını görmək olur. Protokola görə, xan və xaqanın sol tərəfində dayanan tarkanlar törəyə görə, vergidən azad olub, yağmadan pay alır, hakim soydan olan qızla evlənə bilir, ona *suyurqal* torpaq payı da verilirdi.[156] Göründüyü kimi, sonralar monqollara da keçən bu titulun daşıyıcıları - tarxanlar böyük imtiyaz sahibi idilər.[157]

Ayrı-ayrı kökdən törəyib, müxtəlif anlam daşıyan *diri-qan (*tirikan*), *turuq-an (*turxan, türkan*) və *darı-qa (*darğa*) > *daruqa* (fars) sözlərindən fərqli olaraq, tarkan//tarkun sözlərinin kökü eynidir və bu kökə ayrı-ayrı anlamlı *qan* («xan»), *qun* («kun») sözlərinin qoşulması ilə yaranmışlar:

*tar-qan (*tarkan, tarxan, tərkən*) > *ta-kan* (çin), *dargan, tarxan* (monqol)

*tar-qun (*tarkun, tarxun*) > *tarquin, tarkon* (etrusk), *tarxon* (yunan)

---

147 Дьяконов, 1956, 160; Грантовский, 1970, 195-198; ТУ, 142; ХПИДВ, II, 40; АВИИУ, №78.

148 Әскәр-Гыпчаг, 1996, 77.

149 Yazar buradakı xaqan//arslan-xan, yabğu//buğra-xan, şad//ilig-xan paralelliyini də qeyd etmişdir (Kafesoğlu, 1989, 343).

150 MK, I. 355, 413-414; Şəcərei-Tərakimə, 2000, 84.

151 Меликишвили, 1954, 169; Арутюнян, 1970, 40-41, 314; ТУ, 179-180.

152 ТУ, 179; Çeçen feodalları XVIII əsrə qədər *turqan* titulu daşımışdır (ТДЯК, 69-71).

153 Ряшидяддин, 1992, 14.

154 Симокатта, IV. II. 2.

155 MK, I. 376.

156 Donuk, 1988, 40-47.

157 Gültepe, 2002, 897.

**Seçkili qurumlar.** Yuxarıda başçı statusu ilə bağlı titullardan və *tanrı qutu* adlanan seçimdən örnəklər verdik, lakin bu seçimlərdən fərqli olan daha bir seçki növü vardır ki, bu da *seçimli qurumla* bağlıdır. Belə ki, hələ qədim türk toplumunda müəyyən məsələlərin çözümünü gənəşmək üçün keçirilən yığıncaqların toplantı yeri - qurumu *yığınaq, dərnək, kəngəş, toy,* sonralar isə *qurul* sözünün monqol variantı ilə *qurultay* adlanmışdır. Bu qurumlar ilkəl toplumdan dövlət qurumuna qədər müxtəlif çeşidlərlə görünsə də, artıq el qurumunda mühüm siyasi təşkilata çevrilmişlər. Seçkili qurumları və qurum üzvləri olan seçkinləri bildirən sözləri (*qoca, toyqu, ayquçi*) yazılı qaynaqlar qeyd etmişdir. Sonralar hökmdar sarayı atributlarından biri kimi, daha çox *divan* sözü işlənmişdir: Bayındır xanın divanı, Qazan xanın divanı (KDQ).

**Kəngəş.** Hələ sosial soy-boy qurumunda formalaşan «ağsaqqallar şurası» mühüm məsələləri gənəşib həll etmək üçün bir yerə toplanırdılar.[158] Qədim türkcə *kəngəş* (kəñəs) adlanan bu toplantı qurumunun adı sumer dilində də işlənmişdir: *Luqal-kinqiniş-dudu* «çar öz gənəşməsində ustadır» kimi Sumer şəxsadında gördüyümüz kəngəş sözünün bəzi sumer deyimlərində aydın etimologiyası vardır.[159]

Sumercə ùğ «uruq» + ken «dairə» sözləri ilə yaranan *ùğken* deyimi «xalq toplantısı» anlamı ilə tərcümə olunur.[160] Sumer dilində *uken* «xalq yığıncağı», «məclis» anlamı daşıyır, xalq yığıncağının başçısı *kengal* isə «məclis başqanı» (ken+böyük) anlamını bildirir.[161] Sumer deyimlərindəki *ken* «gen» (dairə) sözü bu qədim türk terminini «konuşma» sözü ilə deyil, «bir dairəyə toplaşma» anlamında *geñ//*keñ-eş şəklində bərpa etməyə imkan verir. Bu baxımdan, Avropa dillərində asamblea, senat sözləri ilə yanaşı, *konqres* sözünün işlənməsi də diqqəti çəkir.

**Dərnək**. Dədə Qorqud kitabında *dərnək* termini «yığıncaq, toplantı» anlamında işlənir, dərnəkdə toplaşanların sonra yemə-içmə məclisi qurduğunu da görmək olur. M. Kaşğari bu sözü *tərnək* və *tərik* şəklində işlədir: «*Tərnək* - işləri konuşmaq üçün ulusun toplandığı yer»; «Alp orduda,

---

[158] Sumer dilində «başbuğun müşaviri və ya elçisi» anlamında *súkkal* titulu işlənirdi (ИДВ, 1983, 206); Bu sumer sözünün ağsaqqal deyimindəki *saqqal* sözünə bənzəməsi diqqəti çəksə də, çox güman ki, bu, təsadüfi oxşarlıqdır.

[159] Bu baxımdan, Mada onomastikası sırasında görünən *Kingiştilenzax* adı diqqəti çəkir (Алиев, 1960, 96). Burada *kingiş-tilençak* tərkibinin olması mümkündür.

[160] Дьяконов, 1967, 50.

[161] ИДВ, 1983, 172; Latınca *konsilium*, rusca *sovet* sözlərinin mənşəyi də maraqlıdır.

savaşda, bilgə isə *tərikdə* - toplantıda sınanır».[162] Bugün dərnək sözü siyasi terminologiyadan çıxsa da, ictimai qurum adlarında işlənir.

**Qoca.** Tarixçi Priskos 448-də Atilla çağında batı hunlarda «seçkinlər məclisi» (*loqades*) olduğunu yazırdı. Xəzər dövlətində ağsaqqal qurumu «yaşlılar məclisi» vardı. Dədə Qorqud boylarında «9 qoca» qurumu, etrusk çağı Romada isə 300 kişilik *senat* (senex «qoca») olduğunu görürük.

**Toy qurumu**. Müasir dünya dövlətlərində gördüyümüz bir və iki palatalı parlament (Milli Məclis) qurumu tarix boyu təkmilləşmə və uzun inkişaf yolu keçmişdir. Hələ Sumer çağında «İkipalatalı Parlament» bəsit xalq məclisi qurumu kimi ortaya çıxmışdı. XIII əsrdən monqol sözü olan *qurultay* (xuriltay) deyimi dəbə düşənə qədər türklər minillər boyunca *kəñəş, dərnək, yığnaq* və *toy* sözlərini işlətmişlər. Əslində, qurultay sözü də monqol dilinə keçən türkcə *qurul* sözündən yaranmışdı. Sadalanan bu sosial-siyasi qurumlar sırasında «parlament» anlamında olan *Toy qurumu* özəl yer tutur. Toya seçilmiş *toyqular* (deputatlar) yığışır. Türkmənlərin «Koroğlu» dastanında «qeñeş-toy» deyimi vardır.[163]

Bugün azər dilində «evlənmə törəni» anlamında işlənən *toy-düyün* deyimindən fərqli olaraq, *toy* sözünün qədimdə «qurultay» anlamı vardı. Toyun çağırılması, onun keçirilməsi dövlət tədbiri idi və dövlət mərasiminə qatılmayan seçkinlər törəni pozan, dövləti «tanımayan» şəxs kimi cəzalanırdı. Toyun baş tutması elin və törənin yaşadığını göstərən siyasi aksiya sayılırdı. Çağrılma müddətinə və məqsədinə görə toyun müxtəlif formaları olurdu.

«Xanlar-xanı Xan Bayındır yılda bir kərə toy edüp, Oğuz bəglərini konuqlar idi».[164] Xəzər xaqanı isə ildə 3 kərə (hər 4 aydan bir) xalqla görüşürdü və bu, müəyyən mərasimlərlə bağlı idi. Hunlar da yeni ili qutlayıb şölən vermək və dövlət sorunlarını çözmək üçün ildə 3 dəfə (1, 5, 9-cu aylarda) toplanırdı. Çin qaynağına görə, göytürklər Bahar bayramında Yer tanrısı (Po-teng-ning-li) dağlarında Göy tanrısına qurban verirlər.[165] Qurultay tipli toydan fərqli olaraq, yeyib-içmə şülənli yağmalı toy elbəyin gücünü, ədalətini və həm də əliaçıq olduğunu nümayiş etdirirdi. Bu tip toylarda toplanmış mal-mülk paylanardı. Qazan xan «3 ildən bir» evini yağmaladardı.

---

[162] MK, I. 388, 477.

[163] Гёр-оглы, 797.

[164] KDQ, I. 77.

[165] Ögel, 2000, 880.

**Toyqu//toyqun**. Çin yazılarında *taı-kuan* «deputat» şəklində keçən *toyqu* sözünün Göytürk yazılarında 𐱃𐰆𐰖𐰍𐰣 [toyğun], 𐱃𐰖𐰍𐰆𐰣 [toyğun] və 𐱃𐰆𐰖𐰍𐱃 [toyğut] yazılış formalarına rast gəlirik.[166] Cəmlik şəkilçisi ilə işlənən bu son variant göstərir ki, *toy* kökündən yaranmış bu sözün əsası *toyqu* idi. İ. Kafesoğlu *toyqun* terminini «toy üyesi» kimi izah edir.[167] Bu baxımdan, bölgə və boyları təmsil edən seçilmiş toyqularla yanaşı, toyda səsvermə hüququ olan xaqan, apa, yabqu, xatun, şad, tigin, iltəbər, tarxan, külçor və tudun kimi dövlət adamları, məmurlar da «toyqu» ola bilirdi.

Deyilənləri nəzərə alanda, m.ö. II-I minillərdə qədim Azərbaycan bölgələrində bir neçə tarixi şəxsiyətin *toyqu* titulu daşıması aydın görünür. Belə ki, Kərkük bölgəsində II minilin ortalarına aid sənəd *Taiuki* (Tayuki) adını qeyd etmişdir.[168] Asurlar tərəfindən tutulub, m.ö.715-ci ildə Suriyaya sürgün edilən *Dayukku* Mana elinin Maday bölgəsində başçı idi, daha doğrusu, asur qaynağının göstərdiyi kimi (*šakin Mât Mannâi*), Mana elinin burada canişini idi.[169] Herodot da *Deiokes* adlı bir mada bəyindən bəhs edir. Herodot yazır ki, yurddaşlarından böyük sayqı görüb, öncə «hakim» (δικαστής) olan Deyok (Δηϊόκης) sonra Mada dövlətini qurdu və Akbatana (Həmədan) şəhərini saldı.[170]

Bəzi tədqiqatçılar yanlış olaraq, Dayukku ilə Deyokun eyni şəxs olduğunu yazır. Doğrudur, hər iki şəxs eyni titulu (*toyqu*) daşıyır, lakin bunlardan birincisi çox uzaq ölkəyə sürgün olunmuşdu, Mada dövlətini quran isə ondan ən azı yarım əsr sonra ortaya çıxmışdır. Uzmanlar bu adların titul bildirdiyini və «landgraf» (G. Hüsing), «changeur de loi» (J. Oppert) anlamı daşıdığını yazmışlar. Həm də J. Oppertin müəyyən etdiyi «qanun dəyişən» anlamı *toyqu* (deputat) sözünə tam uyğun gəlir. Beləliklə, sürgün olunan Mana canişini Dayuku və yarğıc (hakim) Deyokun daşıdığı ad, əslində, onların özəl adları deyil, *toyqu* tituludur. Bu tip adları m.ö.VIII əsrin sonlarında Mada bölgə bəyləri *Maştuku* və *Maşdayukku* da daşıyır.[171] Bəzi yazarlar bu adların subarlara aid olduğunu yazmışlar.[172] Hər iki adda «baş vəkil» anlamı daşıyan *baş-toyqu* deyimi aydın görünür.

---

[166] Orkun, 1994, 52-55.
[167] Kafesoğlu, 1989, 249.
[168] König, 1934, 57; Меликишвили, 1954, 111.
[169] Дьяконов, 1956, 179; Грантовский, 1970, 249-252.
[170] Herodot, I. 96-98.
[171] Дьяконов, 1956, 27; Грантовский, 1970, 258.
[172] Nyberg, 1938, 44, 334-336.

**Ayquçi.** Parlamenti (*toy*) və millət vəkili - deputatı (*toyqu*) olan bir siyasi qurumda *spiker* titulu da olmalıdır. Bəzi araşdırıcılar türk dövlətçilik terminologiyasında yer tutan *ayquçi* titulunun məsləhətçi, vəzir, başbakan, başmüşavir və ya məclis başqanı anlamı daşıdığını söyləmişlər.[173]

Göytürk yazısında keçən *ayukı* sözünün də «hökumət» anlamı daşıdığı ehtimal olunur.[174] Göytürk elində Kutluğ adlı birinin ayrıca *ayquçi* vəzifəsi daşıması, Tonyukukun isə *ayquçi* ilə bərabər, həm də *bilgə* sanı daşıması bəllidir. «Onda *ayquçi* yenə mən idim» deyən Tonyukuka aid yazıda 𐰖𐰸𐰆𐰲𐰽𐰃𐰽 𐰋𐰃𐰠𐰏𐰀 𐰼𐱅𐰃 (ayquçisi bilgə idi) deyimi göstərir ki, türk elində ayquçi mühüm vəzifədir. Bu sözün leksik anlamı onun morfoloji tərkibində (ayqu-çi) çox aydın görünür: KDQ-dakı *aydur* «dedi» sözünün kökü olan *ay-* feili türk dillərində danışmaq, söyləmək, izah etmək, bəlli etmək anlamlarında işlənmişdir.[175] Deməli, ayquçi titulu «sözçü» anlamında (müşavir, vəzir) yox, məhz «söyləyən», «danışan» anlamında bir termindir və bunun ingiliscəyə hərfi tərcüməsi elə *spiker* sözü ilə verilə bilir, çünki *ayquçi* və *spiker* eyni modellə yaranmışdır. Fərq bundadır ki, birinci termin çox-çox əvvəllər, ikincisi isə çox sonralar ortayı çıxıb.

Tonyukuk yazısından bəlli olur ki, ayquçi bilikli adam olanda elin işləri yaxşı gedir. Qaynaqların tekstoloji təhlili göstərir ki, elbəyin, xaqanın verdiyi qərarı ayquçi toyda səsə qoyub, rədd edə bilir. Özəlliklə, türk törə qanunlarının dəyişməsi məsələsi gündəmə gəldiyi hallarda belə sərt qərar qəbul olunurdu. Beləliklə, türk dövlətçilik tarixində «parlament» gələnəyi vardı və onun başında elbəy deyil, *ayquçi* dururdu. Ola bilsin ki, *ayuki* sanı toyqulardan fərqli olaraq, «millət vəkili» kimi sarayda daimi fəaliyət göstərənlərə aiddir, bu halda ayquçi həm də ayukilərin başqanı sayıla bilər.

**Bürokratiya**. Türk dövlətçilik sistemində san (titul) ilə vəzifə məfhumunu ayırmaq lazım gəlir; eyni sanı olan adamlar müxtəlif vəzifələrdə işləyə bildiyi kimi, eyni vəzifəyə müxtəlif san almış adamların təyin olunduğunu da görmək olur. Bu baxımdan, qədim abidələrdə rast gəldiyimiz «iç buyuruq başı inançu bağa tarkan» kimi deyimlərdə san (bağa-tarkan), özəl şəxsadı (İnançu) və onun tutduğu vəzifə (iç buyuruq-başı) asanlıqla seçilir.

---

[173] Donuk, 1988, 2-3; Әскәр-Гыпчаг, 1996, 54.

[174] Kafesoğlu, 1989, 251.

[175] ЭСТЯ, I. 99-100; Bu kökə feildən isim düzəldən (vurğu, asqı) *-qu* şəkilçisi və peşə-sənət bildirən *-çi* şəkilçisi qoşulmuşdur (ay-qu-çi). Aytmaq feilini azər türklərindən alan Qafqaz avarları «atalar sözü» anlamında *aytıv* sözünü işlədirlər (ТДЯК, 1982, 139).

Qədim Misirdə mərkəzləşmiş hakimiyyət bürokratiya institutuna əsaslanırdı. Nil suyundan səmərəli istifadə etmək üçün ekonomik və texniki işləri yürüdən mirzələrdən ibarət katiblər ordusu yaranmışdı. Qədim Çin səddinin tikilməsində də çoxlu bürokrat iştirak edirdi. Burada katiblərin irsi sülaləsi (vərəsəlik) yaranmışdı, məmurlar imtahanla işə götürülürdü. İkiçayarası dövlətlərdə də bürokratlar çox idi. Araphada (Kərkük) hurri kaloniyasının arxivi bir ailədən olan mirzələrin bir neçə nəslini davamlı əks etdirir. Qədim türklərdə isə ilk dönəmlərdə bürokratik institut zəif inkişaf etmişdi. Bu, daha çox yaşam tərzi, özünəməxsus dövlətçilik gələnəyi ilə bağlı idi. Lakin sonralar, III minilin sonlarından başlayaraq, sumer-akad yazılarında bəzi titulların türkcə olduğunu və getdikcə bu terminlərin sayca artdığını görmək olur. Çin qaynaqlarına görə, əski türk elində 28 çeşiddə məmur (çinovnik) vardı.[176] Əlbəttə, titulların bu sayı çinlilərə məlum olanları idi və batı türklərdə işlənən titulları da nəzərə alanda artıq türklərdə böyük məmur ordusu olduğunu görmək olur.

Ayrıca çarı (*ensi*) olan Subar, Aratta və Qut eli çağında elçi, bilgə, şat, damğaçı (*tamkar*) kimi bir neçə titul bildirən söz görünsə də, bu türk ellərində bürokratlar az idi. Qutlar İmperiyanı saxlamaq üçün zəbt etdiyi Sumer, Akad və Elamda yerli çinovniklərdən istifadə edirdilər. Mana eli çağında isə artıq bürokratların sayı çoxalmışdı. Hunlar m.ö. 220-də qurduğu dövləti əraziyə görə öncə12, sonra 24 bölgəyə ayırmışdı. Əlbəttə, bu ərazilərin idarə olunmasında məmurların əməyi böyük idi.

Məmur titullarının leksik təhlili göstərir ki, dərəbəyliyin qarşısını alan bürokratiya institutu m.ö. I minilin əvvəlindən başlayaraq, dövlət qurumunda sistem halına düşür. Göytürk və Uyğur ellərində 9 nazir vardı və bunlar **buyuruq** adlanırdı. *Buyuruq bəglər* «buyuran, buyuruq verən» anlamında yozulur. Bunlardan bəzisi ölkədaxili işlərlə məşğul olduğu üçün *İç-Buyuruq* ünvanı daşıyırdı. *Buyuruq-çor* ünvanı daşıyanlar isə, güman ki, ordu və savaş işinə baxırmış. Bilgə Kağan Türk dövlətinin yıxılmasında fərsiz, biliksiz «yablak buyurukları» qınayır.

Dövlətə bağlı bölgə və şəhərlərdən toplanan vergi üzərində nəzarəti **tudun** həyata keçirirdi.[177] Batı Göytürk elində doğu və batı sınır bölgələrdə oturan iki *tudun* vardı. Üzüm vergisi yığan **borçı**, baş xəzinədar isə

---

[176] Koça, 2002, 834.

[177] «Bilqamıs» eposunda Şuruppak şəhərinin prinsi *Ubar-tutu* adlanırdı.

**ağıcı-ulugı** adlanırdı.[178] Elin sınırlarının və ordugahın qorunmasından sorumlu olanlara **bəkçi**, **qaravul, karağu, çavuş, gözətçi** deyilirdi.[179] Türk elində ədalət, qanun-qayda törə ilə yürüdülürdü. Ciddi və önəmli qanun pozuntusu olaylarına xaqanın başqanlığı ilə baxılsa da, **Yarqu** (yüksək dövlət məhkəməsi) qurumu, **yarquçi** və **yarqan** titulu daşıyan məmur bu işlə məşğul olurdu. Peşə-sənət terminləri sırasında «həkim-loğman» anlamında olan **emçi, otaçı, sagun** sözləri vardır. Kam//qam institutunda bəzi qamların (şamanların) da loğmanlıq etdiyini görmək olur. Təbii ki, bugün tibb elminin yenidən üz tutduğu «türkəçarə» üsulları ilə toplumun sağlıq durumu ilə məşğul olan bu həkimlərdən bəzisi dövlət qurumunda rəsmi görəv daşıyırdı.

Qədim türklərdə «Dövlət qılıncla qurulur, qələmlə idarə olunur» atasözü dövlət dəftərxanasında yazı işlərinin mühüm əhəmiyət daşıdığını aydın göstərir. «Kutadğu Bilig»də **bitikçi ılımğa** titulunu daşıyan məmurun xarici işlər naziri statusu vardır. Xaqan ən gizli fikrini, dövlət sirrini ona açmalı olurdu. Uyğur elində bitikçinin fəaliyəti genişlənmişdi, çünki şəhərlərdə yaşayan uyğurlar yazı-pozu ilə daha çox məşğul olurdu. Görünür, **uluğ bitikçi** titulu «baş katib» imiş. Türk bitikçilərinin sırasında şərəfli yer tutan Ulu xan Ata bitikçi isə Oğuznamələri toplayaraq yazıya almışdır.[180] Saraylarda müxtəlif dillərdə yazıb-oxuya bilən çoxlu **dilmanc** «tərcüməçi» olurdu. Saqa elbəyinin 7 dilmancı vardı. Bu titul rus dilində *tolmaç* forması aldığı kimi, **tarquman** da samilərdə *tərcüman* olmuşdur.

Batı-Göytürk elbəyi Sulu kağan Kültekinin yas törəninə *Makaraç-tamğaçı* və *Oğuz Bilgə-tamğaçı* adlı kişiləri təmsilçi kimi göndərmişdi.[181] Buradan görünür ki, xaqanın tuğra(q) - fərmanını yerlərə ötürən, xaqanın yarlıq və buyruqlarını hazırlayan **tamğaçı** (pres-sekretar) yüksək rütbə idi. Qaynaqlar **yazığçı** titulunu da «katib» və «qasid» kimi verir.

---

[178] Donuk, 1988, 66, 73.

[179] Bəzən belə titul daşıyanlar ondan soyadı kimi istifadə edir və sonralar belə titullar boy adına çevrilirdi. Belə ki, çin qaynağı tszyüy-tsyüy (gözətçi) Mensun barədə qeyd edir ki, onun əcdadları syünnularda nəsildən-nəsilə gözətçi vəzifəsi daşıdığı üçün o, daşıdığı tütulu özünün soyadına çevirdi (МПИКНК, 1989, 114).

[180] «Ulu xan Ata bitikçinin sözü» adlı Oğuznamənin orta fars dilinə hələ VI əsrdə tərcümə edildiyi «Dürər üt-tican və təvarix qürər əz-zəman» əsərində verilir (Короглы, 1976, 38).

[181] «On-ok oğlum türgiş Kağanda Makaraç-tamğaçı, Oğuz Bilge-tamğaçı kelti» (Orkun, 1994, 52); Damğa sözünün sumer, akad və slav dillərinə keçməsi, Part elində işlənməsi haqqında «Qonşu xalqlar» bölməsində geniş bilgi verilmişdir.

Beləliklə, türk dövlətçilik gələnəyində çoxlu məmur titulu vardı və bunların sırasına qaynaqlarda qeyd olunmuş *erkin, eşikağası, cikşi, cuki, köruk, tutuq, yırçı, yuğruş, yula, üge, alumçı, ovçubaşı* kimi onlarla titulu və məmurların savaş vaxtı hərbi titullarını da əlavə etmək lazım gəlir.[182]

Bəzi tədqiqatçılar türk toplumunda işlənən dövlətçilik terminologiyasının, titulların başqa xalqlardan alındığını yazırlar, halbuki bu sözlərin türk dillərində şəffaf etimologiyası vardır. Doğrudur, Part, Sasani çağı və İslamdan sonrakı dövrlərdə türk dilinə çoxlu yabançı dövlətçilik terminləri daxil olmuşdur. Lakin yuxarıda gözdən keçirdiyimiz qədim terminlər türkmənşəlidir, onların şəffaf morfoloji tərkibi və aydın leksik mənaları vardır:

1) Söz kökləri qohumluq terminlərindən (ata, dədə, aba, kañ, inal, katun), bəlli isim və feillərdən (el, bod, bəy, şad, çor, ulu, alp, kül//köl, kün; ay-, bak-, bit-, bil-) ibarətdir.
2) Peşə-sənət bildirən *-cı* şəkilçisi ilə yaranan terminlər: ayquçi, yarqucı, bəkçi, bitikçi, borçı, ağıcı, emçi, otaçı, gözətçi, yincu, qorçi, tamğaçı, yazığçı, elçi və s.
3) Türk dillərinin sözyaradıcılığında aktiv iştirak edən *-un, -uq, -qa, -qu, -uş, -la, -al, -aq* şəkilçiləri ilə yaranan terminlər: bodun, katun, tudun, tekin, erkin; uruq, tutuq, ayuk, buyuruq, bitik, çerik, böyük, ilig; bilgə, damğa; toyqu, ayqu(çi), yab-qu, yarqu; yuğruş, uluş, oğuş, alış(malıq), çavuş; boyla; inal; inaq və s.
4) İki sözün birləşməsi ilə yaranan terminlər: el-bəg, ata-bəy, şat-ər, el-bilgə, kül-çor, ulukan və sair. Mixi yazılarda qeyd olunmuş ən qədim qut adlarında «kan//qan» sözü onların titul anlamını önə çəkir: Ulu-kan, Bin-qan, Teri-kan, Tiri-qan, Tiriq-kan.[183]

Göründüyü kimi, ən qədim çağlardan İslamaqədər müxtəlif dillərdə yazılmış qaynaqlarda keçən, o cümlədən, Göytürk və başqa türk yazılarında geniş işlənən türk dövlətçilik terminlərinin əksəriyəti türkcədir. Bu terminlərin bəzisi sosial qurumda bir, siyasi qurumda isə əlavə mənalar daşıyır. Türk dövlətçilik terminlərinin özəlliyi bundadır ki, dilçilik elminin müəyyən etdiyi «terminlər təkmənalı sözdür» ölçüsünə sığmır, çoxmənalı sözlər kimi işlənir. Yuxarıda **el** (dövlət) sözünün elə özündə xalq, ölkə və

---

[182] Erklik (güc), alp, alpağut, ərən, bahadır, çor, başbuğ, qorçu, qorçubaşı, tuğ, tuğraq, bayraq, uran (parol), yelmə kimi termin və titullardan «Ordu» bölməsində bəhs olunur.

[183] Balkan, 1992, 40-47.

dövlət anlamları olduğunu söyləmişdik. Hətta bu sıraya el sözünün bəzi kontekstdə bildirdiyi təşkilat və hakimiyət (erkinlik, egemenlik) anlamını da əlavə etmək olar. Türk böyüklərinin daşıdığı şəxsadı + titul modeli və bu modeldə titul (san) + titul (vəzifə) düzümü kimi, «Mən - Qutluq bağa tarkan ögə - buyuruq mən» tipli titulaturada özəl adı, sanı, vəzifəni və bu düzümə qoşula bilən tituldan yaranmış soy, boy adını seçmək çətin olur.

Sonrakı bölmələrdə geniş işlətdiyimiz belə termin səciyəli sözlərin zaman, məkan və dövlət atributları kontekstində daşıdığı məna tutumunda ilkəl toplum quruluşundan sonrakı çağlarda cəmiyətin inkişafı və siyasi qurumların təkmilləşməsilə bağlı, təbii olaraq, müəyyən fərqlər yaranmışdır. Ona görə də, aşağıda verilən bəzi sözlər kimi, hər terminin sosial və ya siyasi quruma aid olması işləndiyi mühit və kontekst daxilində aydınlaşır:

| Sosial qurum | Siyasi qurum |
|---|---|
| *kişi* «adam» | *kün* «adamlar», «toplum» |
| *apa* «əcdad» | *apa* «böyük», *apa tarkan* «baş komandan» |
| *ağa-ini* «böyük-kiçik» | *ağa «böyük», ini* «kiçik» ünvanları |
| *eb* (ev), *ocaq, oğuş* (ailə) | *oba, otaq, bölgə, ölkə, ordugah* |
| *soy* «nəsil, qandaş» | *soylu* «seçimə qatılan» |
| *oq, uruq* «qəbilə» | boz-oq, üç-oq, on-oq «uruqlar birliyi» (*boy*) |
| *bod* (boy) «tayfa» | *bodun* «boylar birliyi» |
| *bodun* «xalq» | *bodun* «dövlət quran el» |
| *el* (el-kün) «millət» | *el* «dövlət», «ölkə» |
| *bəy* «boy-bodun başçısı» | *elbəy, elçibəy, kan, kağan* «dövlət başçısı» |

Toplum, məkan və başçı məfhumu bildirən terminləri sosial-siyasi qurumların dinamikası fonunda təxmini zaman ardıcıllığı ilə horizontal və zaman yaxınlığı ilə vertikal xətlər üzrə düzsək, təxmini sıralanma belə görünər:

| | | | | | |
|---|---|---|---|---|---|
| Toplum: | oğuş | oq, uruq | bod (boy) | bodun | el, el-gün |
| Məkan: | ev | ocaq | yurd, oba | bölgə | ölkə |
| Başçı: | ata | baba | dədə | bəy | elbəy (xan, xaqan) |

Burada hər vertikal kəsik tarixin müəyyən çağına aid olsa da, dövlət qurumundan danışarkən zaman ölçülərini anaxronizm olayından xilas etmək olmur, çünki həmin terminlər yarandığı gündən başlayaraq, minillər boyu davam etmiş, toplum və məkan iyerarxiyasında məfhumların hər

biri özündən böyük məfhumun içində təmsil olunmuşdur. Hər halda, minillərin sınağından çıxmış türk dövlətçilik gələnəyinin özəlliyini də nəzərə almaq lazım gəlir.

Belə ki, Urmu gölü hövzəsində ölkə, bölgə, şəhər-qala başçılarını asur mənbələri də fərqləndirir: boy başçısı olan bəylər *naşiku*, şəhər-qala başçıları və mərkəzləşmiş hakimiyəti olmayan ölkənin böyükbəyi *bêl âli*, mərkəzləşmiş hakimiyəti olan elbəy *şarru* «çar» terminlərilə verilmiş, bu son anlamda bəzən yerli termin kimi *yanzi* sözü işlənmişdir. Ona görə də, müəyyən məqamlarda sözün daha aydın informasiya verə biləcək leksik mənasına söykənib, uyğun kontekstdə «bəy» sözünə köklənən *qalabəyi, dərəbəyi, ulubəy, atabəy, kiçikbəy, böyükbəy, elbəy* kimi titullardan istifadə etmişik.

Yuxarıda qeyd etdik ki, türk dövlətçilik terminləri sırasında xeyli alınma sözlər vardır. Bu sözlərin hansı dönəmdə alınması məsələsi nəzərə alınmalıdır. Məsələn, batı samilər çara *malikum,* doğu samilər *şarrum* deyirdi. Deməli, qalabəyi, bölgəbəyi anlamında *məlik* termini Azərbaycana aramey dili və ya suriyani xristianlıqla gəlmişdir.

Türk dövlət düzənindən danışarkən sosial-siyasi qurumlarla yanaşı **dövlət simvolu** (*imi*) sayılan atributları və protokol qaydaları üzərində də dayanmaq lazım gəlir. Belə ki, türk dövlətinin əsas simvolu olan Yay qədim türk dünyagörüşünə görə, yağışdan sonra günəş şüalarının yaratdığı rəngli «Göy qurşağı» timsalında tanrının göndərdiyi hakimiyət bəlgəsidir. Hələ III minildə Aratta elbəyi ona hakimiyət simvolu kimi *əsa* (skipetr) göndərən sumerlərin hədiyəsini rədd edib deyir ki, tanrı ona «Göy qübbəsi» qutu vermişdir.[184] Bu motiv uyğur Oğuznaməsində Uluq-Turuq bəyin yuxu yozumunda təkrar olunur. Uluq-Turuq Oğuz xana deyir ki, yuxuda gördüyü Gündoğandan Günbatana qədər uzanan tanrı bəlgəsi *altun yay* ona verilən hakimiyətdir. Ona görə də, Göy-qurşağı (qövsi quzeh) göründə tokuz-oğuz boyları onu qutlayıb şənlik edirdilər (Əbu Düləf).[185] El atributları sırasında təbii ki, mərkəzi bölgə (ordugah), tuğ, bayraq, damğa, ordu, divan və taxt (*örgin, ornaq, orunluq*) da vardır.[186]

---

184 Kramer, 1991, 34, 39.

185 Artıq dəmir çağında bəzi türk (saqa) və Atillanın mənsub olduğu hun boyları yayla yanaşı, qılıncı da tanrı qutunun simvolu sayırdı.

186 Bəzi uzmanlar dövlət atributu kimi bunları da göstərir: *otağ* (hökmdar çadırı), *ordu* (çadır kənd), *davul* (köbürke, kövruq), *kotuz* (sorquç?), *qamçı* (berke), *kəmər.*

Siyasi təşkilatlanmalar zaman-zaman **protokol** qaydalarının gələnəyini yaratmışdı. Xaqandan sağda tudunlar, komutanlar, solda məmurlar və toplumun hörmətli adamları durmalı, hətta dövlət şöləninde yemək tərzi də protokola uyğun olmalı idi: kəsilmiş at və ya qoyundan ülüş payı hər kəsin statusuna uyğun verilirdi. Protokol qaydalarının pozulması törə pozuntusu sayılırdı. Belə ki, toya (qurultaya) gəlməmək itaətsizlik kimi qiymətləndirilir, hətta qohum boylar arasında savaşa səbəb olurdu.

**Dövlətçilik gələnəyi**

Azərbaycanda qədim çağlardan başlayaraq, ərəb işğalına qədər zaman-zaman onlarla kiçik-böyük dövlətlər yaranıb sonra dağılmış, şəhər-qala, bölgə bəylikləri şəklində daha böyük siyasi qurumların tərkibinə daxil olmuşlar. Yazılı qaynaqlar bunların hamısından deyil, yalnız müəyyən qismindən bəhs edir. İslamaqədər Azərbaycanda görünən Subar, Aratta, Qut, Turuk, Mana, Saqa-Qamər, Mada, Atropaten və Alban-Aran kimi dövlətlərlə yanaşı, vaxtaşırı türk boylarının çoxlu siyasi qurumları ortaya çıxmışdır. Minillər boyu təkrar-tərkar bir neçə boyun birləşməsilə yaranıb-dağılan bu oxşar prosesi sadə bir izahla verən Əbülqazi Bahadır xan yazırdı ki, hökmdarlıq çoxsaylı boydan birinə verilir, bu birliyə 6-7 və ya 3-4 azsaylı boy da qoşulurdı.[187] Oxşar yaşam tərzi, təbii ki, ortaya oxşar təşkilatlanma gələnəyi çıxarmalıydı. Bu oxşar, daha doğrusu, eyni gələnək saqa-qamər (skit-kimmer) boylarının m.ö.VIII-VII əsrlərdə Azaq yaxasından, oğuz-türkmən boylarının da m.s. IX-XII əsrlərdə Orta Asiyadan Azərbaycana və Anadoluya qayıdışı ilə bu bölgələrdə yaşanan olaylar sanki eyni tarixin təkrar yaşanmasıdır. Minillərlə ölçülən zaman fərqinə baxmayaraq, hadisələrin başında dayanan boylar və bəylər eyni adlarla yad olunur:[188]

Batı Azərbaycan: m.ö. III-II minillərdə *lulu* boyu, m.ö. IX-VIII əsrlərdə *zəngi* boyu, *sangi-butlar*; m.s. XIII əsrdə *Zəngi* Atabəyliyi, Mosul atabəyi - Bədrəddin *Lulu, İsmayıl Lulu;* Güney-Doğu Anadolu: m.ö.VIII-VI əsrlərdə *şadılı* boyu (*şadeli*), saqa-qamər axını və saqa-qamər bəyləri - *Savlı, Tuğ-damme, Sandak-Şat-ər*; m.s. X-XIII əsrlərdə şad boyu bəyləri, oğuz-səlcuq axını, oğuz-türkmən bəyləri - *Savlı* (*Çavlı*), *Tuğ-təkin, Sandak bəy.*

---

[187] Şecere-i Terākime, 1996, 167-168.

[188] Oxşar durum başqa bölgələrdə də təkrar olunurdu. Belə ki, m.ö. XIV-də Troya bölgəsindən çıxan türklər m.s. XIV-də yenidən ora qayıtdı. Turoya çağında indiki Boludan doğuda qaşqaylar Ay tanrısına *Qaşqay,* tanrının verdiyi ruha *kut* deyir, etnoqraflar IX-X əsrdə Orta Asiyada *Ay-tamqalı* qaşqayların da ruha *kut* deməsini qeyd edir.

Bugün Kərkük bölgəsindəki türkman (*turuk-man*) boylarının adını daha qədim formada (*turuq*) həmin bölgədə m.ö. XIX-XVIII əsrlər boyu asurlarla vuruşan turuqlarda görürük, yaxud həmin bölgəyə yaxın ərazidə yaşayan və adı m.ö. IX-VII əsrlərə aid sənədlərdə keçən bauri (*börü*) boyundan olan bəylər bir də Atabəylər çağında *Börülər* sülaləsi şəklində ortaya çıxır. Bəllidir ki, Orta Asiyadan qayıdan oğuzlar XII-XIII əslərdə Hələbdə at oynadırdılar, lakin Hələb civarında oğuzların yurdu anlamı ilə «Oğuz evi» (Bit-Aquzi) deyimi hələ m.ö. IX-VII əsrlərdə işlənirdi və həmin çağda belə «Oğuz evi» Güney Azərbaycanda da vardı. Belə oxşar durumu «9 Bitik» boyunca sistem şəklində əks etdirən yüzlərlə bəlgəni burada təkrar etməyə ehtiyac yoxdur. «Tarix təkrar olunur» deyimini isə burada bir daha təkrar etməli oluruq.

Toplumun ən bədbəxt hissəsini «dövlətini itirmiş» (*elsirəmiş*) boyları sayan qədim türklər təşkilatlanma işinə ciddi yanaşırdılar. Oğuz eposlarında siyasi qurumların təşkilatlanıb formalaşmasının örnəyini görmək olur. Böyük Toy (qurultay) çağırıb, altun ev qurduran Oğuz kağan eldə sağ qolu təşkil edib, yüksək yer tutması üçün hakimiyət simvolu (*imi*) kimi *yay* verdiyi üç oğlunun uruqlarını *Boz-oq,* eldə sol qolu təşkil edib, hakimiyətə tabe olma simvolu kimi *ox* verdiyi oğullarının uruqlarını da *Üç-oq* adlandırır və «biz hamımız bir kökdənik və hamı orduda da öz yerini, rütbəsini bilməlidir» deyir.[189] Bu eposun uyğur variantında o, Toy töräni keçirilən yerdə *sağ* və *sol* tərəflərdə qırx qulac ağac dikəldib, birinin başına altun toyuq, ayağına isə ağ qoyun, digərinin başına gümüş toyuq, ayağına da qara qoyun bağlayır və sağda boz-oqları, solda üç-oqları oturdur.[190]

Oğuz Kağan
(Ordu "qərargah")

| | |
|---:|---|
| Batı | Doğu |
| sol | sağ |
| ok | yay |
| üç-ok | boz-ok |
| (iç-oğuz) | (tış oğuz) |
| ini | ağa |
| gümüş toyuq | altun toyuq |
| qara qoyun | ağ qoyun |

189 Рәшидәддин, 1992, 37-38.
190 Оғузнамәләр, 1993, 33.

Göründüyü kimi, buradakı dövlət təşkilatlanması həm də protokol qaydalarını müəyyənləşdirir. Gələnəyə çevrilən bu qaydalar toplumda da oturuşmuş bir nizam-intizam ovqatı yaradır, toplumda hər kəs «öz yerini bilir».[191] Türk dövlətçilik gələnəyində «hər kəs bacarığına görə» tutduğu vəzifə və aldığı sana uyğun sırada durur. Dövlət protokolu Dədə Qorqud kitabında belə verilir:

Sağda oturan sağ bəylər,
Solda oturan sol bəylər,
Eşikdəki inaqlar,
Dibdə oturan xas bəylər,
Qutlu olsun dövlətiniz! - dedi. [192]

Çin qaynağı yazır ki, hun dövlətini m.ö. 209-da Batı və Doğu qollara ayıran Mete ölkəni 24 tümənbaşı ilə idarə edirdi.[193] Belə ikili bölgü türk toplumunda müəyyən antonim əlaMete söykənirdi: böyük-kiçik, sağ-sol, qara-ağ və sair. Müxtəlif bölgələrdə yaşayan eyni boyun adına rəng bildirən sözün qoşulması da bu gələnəklə bağlı idi. Belə ki, *qara, ağ, sarı* epitetləri aşağıdakı etnonimlərdə rəng deyil, coğrafi yön anlamında işlənmiş və müəyyən çağda həmin boyun yerləşdiyi məkana işarə etmişdir:

| | |
|---|---|
| qara-hun (qarkın?) | aq-hun |
| qara-bulqar | aq-saqa (axısqa) |
| qara-xəzər | aq-xəzər |
| qara-qıpçaq | aq-qıpçaq |
| qara-kuman | aq-kuman |
| qara-qoyunlu | aq-qoyunlu |
| qaralı | aqca-bud |
| qaracalı | sarıcalı |
| qara-türgiş | sarı-türgiş |
| qaralar | sarı-uyqur |

Qaynaqlarda belə ikili bölgülərə rast gələn bəzi tədqiqatçılar yanlış olaraq, türk dövlət gələnəyində dövləti iki elbəyin (cifte krallıq) idarə etdiyini yazmışlar. Əlbəttə, bu yozumun yanlış olması «Türkmənlərin soykökü» kitabında aydın görünür. Burada deyilir ki, Oğuz soyundan və Bozoq oğullarından hökmdar bir kişi ola bilər, iki kişini taxta çıxarmaq

[191] Belə protokol qaydalarına toplumun sayqısını göstərən faktlardan biri də bugünəcən yaşayan «evlənmə törəni» toyda bəyin yanında sağdış//soldış duruşu gələnəyidir.

[192] KDQ, 1962, 62.

[193] Бичурин, I. 48-49.

olmaz, belə ki, xan tək olursa, dövlət düzəlir, iki olursa pozulur, keçmiş bilgələr «bir qına iki qılıc, bir ölkəyə iki törə sığmaz» demişlər.

Türk dövlət gələnəyində hakimiyətə seçilmə imtiyazı olan boylar vardı. Qut almış başçının mənsub olduğu soy (boy) imtiyazlı sayılmış, bu münasibət gələnəksəl olaraq, davam edib törə halını almışdır. Bu törənin pozulması ilə qurulan yeni xanədan legitim sayılmamışdır. Ona görə də, *barlas* boyundan olan Əmir Teymur faktiki olaraq imperator (acun bəyi) olduğu halda, ölənə qədər xan, xaqan titullarını qəbul etməmiş və törəyə görə belə titulları ala bilən Süyurqutmuşu «xan», özünü isə ondan bir qat aşağı olan «uluq bek» (bəylərbəyi) titulu ilə tanıtmışdır.[194] Qaynaqların verdiyi bilgiyə görə, bu boylardan olanlar dövlət başına keçə bilərdi:

| | |
|---|---|
| *tu-ku* - Hun | *boz-ok* (sağ qol) - Oğuz |
| *aşina* - Göytürk, Xəzər | *kanqar* - Peçeneq |
| *yağlakar* - Uyğur | *kabar* - Macar |
| *ajih* - Qırğız | *dula* - Bulqar |

Türk toplumunda dövlət quran boy başqa qardaş boyların qayğısını da çəkməli idi. Əks təqdirdə türk ulularının qınağına rast gəlirdilər, necə ki, hakimiyət başına keçən səlcuqlar dövlətin idarə olunması üçün türklərdən çox, irandilli məmurları işə cəlb edirdilər. Ona görə də, Əbülqazi Bahadır xan yazırdı: «Səlcuqlar - türkmənik, sizin qardaşınızıq - dedi, nə elə, nə xalqa bir faydası dəymədi».[195]

Doğrudur, klassik boy qurumu Azərbaycanda üç minil öncə dağıldı və ərazi-bölgə birliyi önə keçdi, lakin boy qurumunun bir çox özəlliyi (ocaq, soy, qandaş bağlılığı, başçıya, ağsaqqal-ağbirçəyə hörmət-ehtiram) bugünəcən yaşayır. Türklərin dünyagörüşündə El (= xalq + dövlət + ölkə) modeli xalq ilə iqtidarın işbirliyilə gerçəkləşə bilirdi. Ona görə də, hansı soydan-boydan olmasından asılı olmayaraq, elbəy dövlətin qurulmasında, siyasi təşkilatlanmada iştirak edən, dövlətin sınırları içində yaşayan hər kəsə eyni qayğı ilə yanaşmalı idi. «El tutmaq» dövləti idarə etmək idisə, «əl tutmaq» da toplum üzvlərinə yardım etmək idi.

Xalqın iradəsilə dövlət başına keçən türk elbəyləri idarəçilikdə ilk meyar kimi ictimai rəyə əsaslanırdı, çünki onun hakimiyəti xalqdan asılı idi. Göytürk yazılarından da bəlli olur ki, xaqanın əsas görəvi «ac, çılpaq,

[194] Togan 1981, 64; Rəşidəddində imtiyazlı oğuz boyları: *kayı, yazır, eymür və beqdeli.*
[195] Şecere-i Terākime, 1996, 206.

yoxsul xalqı doyurmaq, donatmaq, zənginləşdirmək, sayca az olan xalqı çoxaltmaq» idi. Halbuki, qonşu xalqlarda Urartu çarı Rusa kimi, xalqı sürü, özünü isə «xalqın çobanı» sayan çarlar vadı.[196] Türk elbəyi xalqla yanaşı, tanrı qarşısında da türk törəsini qorumaqda sorumlu idi. Belə ki, törə pozuntusuna yol verən elbəylər İnel kağan kimi, «*qut taplamadı*» deyə, taxtdan salınırdı.[197]

Toplumda xalqın rifahı üçün bəlli boydan cəsur, bilikli və ədalətli bir bəyin demokratik qaydalarla elbəy seçilməsindən sonra o, yuxarı qaldırılaraq *doqquz* dəfə dövrə vurulur ki, Göyə (tanrıya) ulaşıb qutlu olsun. Törəni pozan elbəyin qutu alınır və ya törəyə uyğun gəlməyənlər qut ala bilmirdi. 581-də ölən Göytürk xaqanın vəsiyət etdiyi namizədi (vəliəhdi) törəyə uyğun gəlmədiyi üçün Toy onu rədd etmiş, başqa birini xaqan seçmişdi.[198]

Türk toplumu ləyaqətli kişini elbəy seçərdi, *ləyaqət* isə irsi sayılmazdı. İrsi keyfiyətin atadan oğula ötürülməsi qəbul edilmirdi, oğul cəmiyətdə yerini, hətta adını özü qazanmalı idi. KDQ-da bunun çoxlu örnəyi vardır. Qardaşlar, qohumlar arasında daima taxt davası, saray çevrilişi ilə müşayiət olunan *irsi* hakimiyəti yaxın buraxmayan türklər Qut elbəyləri üçün ayrılan hakimiyət illəri ilə bu gələnəyin əsasını qoymuşdular. Lakin müəyyən çağlarda Asur dövlətindən asılı olan Mana elbəylərindən başlayaraq, bu törə pozulmuşdur. Ancaq sonrakı çağlarda da bir sıra türk boyu keçmiş gələnəyi yaşatmışdır.[199]

Başqa xalqlardan fərqlənən türk dövlətçilik gələnəyini hakimiyət simvolu olan **yay** haqqında qaynaqların verdiyi bəlgələrdə aydın izləmək olur. Belə ki, mixi yazılarda «şahlıq ağacı» (GİŞ LUGAL-tu-hi-ni) yazılışı ilə verilir[200] II Aşşurnasirapal (884-859) annalında qeyd olunur ki, insanlar üzərində çobanlıq etmək üçün Tanrı Şamaş ona *skipetr* vermişdir.[201] Misir, Yunan, Roma və Ön Asiya ölkələrinin əksərində *əsa* gələnəyi vardı. Ərəb Xəlifələri də əlində *qızıl əsa* tuturdu.[202] Hakimiyət simvolu əsanı bəzən

---

[196] УКН, 276.

[197] «Türklər», II. 828.

[198] Kafesoğlu, 1989, 245.

[199] Hətta, saqa türklərinin bir qolu olan partlar bir çox halda irandilli boyların idarəçilik gələnəyinə üstünlük versə də, yeni eraya keçid çağlarında seçki ilə şah seçirdilər.

[200] УКН, №276.

[201] АВИИУ, №23.

[202] Abu'l-Farac, 311.

türk hökmdarlarına ərməğan kimi göndərmişlər. 740-da Çin imperatoru Taşkənd hökmdarı Baqatur Tuduna bəzəkli halqalı bir əsa göndərmişdi. Lakin Aratta elbəyi ona göndərilən bu ərməğanı rədd etmişdi, çünki türk dövlətçilik gələnəyinə görə, tanrı qutu olan hakimiyət simvolu əsa deyil, yaydır. Oğuz xan - «Bizdən əvvəlkilər yayı padşah, oxu da elçi yerində bilirdilər» - deyir.[203] Bu, Aratta elbəyinin *Göy qübbəsi* deyimi və tokuz-oğuz boylarının tapındığı *Göy qurşağı* epitetlərilə verilən tanrı qutu simvolu «*yay*» ilə təsdiq olunur. Başqa bir Oğuznamədə deyilir: «Yay verdiklərinin yeri daha üstün olmalı və orduda sağ qolu (cinahı) tutmalıdırlar. Ox verdiklərinin yeri aşağı olub, sol cinahı tutmalıdırlar, çünki *yay* padşah kimi hökmlüdür, *ox* isə ona tabe olan bir elçidir».[204]

Voronej yaxınlığında kurqandan tapılan bu gümüş qab üzərindəki şəkildə «elbəyi saqalara» aid əfsanəyə görə, saqaların soybabası Tarqitay hakimiyət simvolu kimi *altun yayı* kiçik oğluna verir:[205]



Tarqitay və kiçik oğlu Kolakca. Tarqitay elbəy seçilən oğluna hakimiyət simvolu – Yay verir.

«Oğuznamə»dəki Uluq-Turuq («ulu-türk») *altun yayı* Oğuz xana verilən hakimiyət simvolu kimi dəyərləndirir. Əbül Fərəcin yay-oxla bağlı maraqlı müşahidələri vardır:

«Toğrul bəy (taxtda oturmuş) önündə möhtəşəm bir *yay* vardı»; «Toğrul bəy möhürünün üzərinə bir *yay* rəsmi qazdırıb bu üç ünvanı təsbit etmiş, bu işarətə *tuğra* deyilmişdir». Əbül Fərəc yazır ki, Toğrul bəyin qardaşı, Xorasan əmiri İbrahimin Bağdada göndərdiyi «tabe olun» tələbli məktubunda *yay-ox* rəsmi çəkilmişdi.[206]

---

[203] «Bizdin burun ötkenler yaynı parişah ornında bilip tururlar, oqnı ilçi yerinde. Anıñ üçün yay oqnı qaysı tarafğa tartıp yiberse oq anğa barur» (Şecere-i Terākime, 1996, 149).

[204] Рəшидəддин, 1992, 38.

[205] Мартынов, 1982, 129-130.

[206] Abû'l-Farac, 298-299, 311; Arsakın sikkə üzərində rəsmi əlindəki yay ilə verilmişdir (ИДВ, 1979, 332).

Hələ m.ö. XXIII əsrdə Lulu elinin böyükləri İkki-oğlu və Anubaniyə aid barelyeflərdə onların əlində *yay* vardır. Səmərqənddə Əfrasiyab-qala qazıntısında üzə çıxan daş möhürün üzərindəki rəsmdə də elbəyin əlində hakimiyyət simvolu *yay* görünür:[207]



Lulu boylarının başçıları (m.ö. XXIII əsr)



Əfrasiyab-Qala. daş möhür üzərində rəsmi.

Göründüyü kimi, yayın hakimiyyət simvolu gələnəyi Azərbaycanda ən qədim çağlardan bəlli olan lulu boylarından tutmuş, saqa-qamər, oğuz və sair türk toplumunda davam etmişdir. Yay hakimiyyəti, ox isə bu hakimiyyətə tabe olanı bildirmişdir. Asılı olmaq «oklı» sayılır, «oksızlık» isə müstəqilliyi bildirirdi. Vaxtaşırı örüş yerlərini dəyişən bozqır türklərinə bu deyimlər daha yaxın idi, çünki bir ölkədən başqa ölkəyə keçən bu atlı türklər tez-tez oxlu və ya oxsuz durumuna düşürdülər.

Dövlətdə **tuğ, bayraq** və **sancaq** simvolları daha çox ordu ilə bağlı idi. Lakin tuğ-sancaq həm də *üç-oq, on-oq* kimi, elin tərkibində olan boy və bölgələrin sayını göstərən bəlgə idi. Uğurlar 744-də «3 tuğlu» türk ordusunu məğlub etmişdi. Tuğ və sancaq terminlərini sinonim sözlər sayan M. Kaşğari yazır ki, tuğun başında uğurlu rəng sayılan *turuncu* (al qırmızı) boyalı ipək və qumaş olur və «tokuz tuğluğ xan və ya xaqan» deyimində 9 sayı da uğurlu sayılır, ona görə də, bölgələrin az və çox olmasından asılı olmayaraq, çox vaxt bu rəqəm dəyişmir.[208] Saqaların savaşda qarşı tərəfi qorxuya salmaq üçün ilan-əjdaha görüntüsünü «canlandıra bilən» bayraq-tuğları, Göytürklərin «altun qurdbaşlı bayrağı» vardı.[209]

[207] Stawiski, 1979, 29.

[208] MK, III. 127.

[209] dbaşlı bayrağı 567-də Bizans elçisi Zemarxos da АИОСК, 132; İA, 12. II. 254; Ögel, 1991, VI. 13-17; Çin qaynağında keçən altun qur İstemi kağanın ordugahında görmüşdü.

KDQ-da «24 sancaq bəyi» deyimi isə Oğuz eli boylarının sayına işarədir. Hər boyun müəyyən simvolla bağlı ağ, qırmızı, göy və ya yaşıl rəngli özəl bayrağı vardı. Bəzi bayraqların üstündə boy, budun və elə aid damğa (gerb) şəkli çəkilirdi. «Şahnamə» Əfrasiyabın ipək bayrağında Ay-ulduz damğası olduğunu qeyd edir. M. Kaşğari 22 türkmən (oğuz) boyunun bölgələrində hər boyun özəl damğasını gördüyünü yazır. Türk boylarında seçilmək üçün heyvanlara vurulan və ərazidə daşlara çəkilən damğa gələnəyi son vaxtlara qədər davam edirdi. Bugün azər türklərinin El bayrağında göy, qırmızı, yaşıl boyaları və Ay-ulduz damğası türklərin qədim gələnəyini yaşadan bəlgədir.[210]

Qədim çağlardan türklər oturaq və yarımköçəri yaşam tərzilə dağlı, aranlı (*yatuq*), şəhərli, bozqırlı kimi özəl boylara ayrılmışdır. Hər boyun dədə-baba yurdu, yaylaq yerləri vardı. Lakin daha hərəkətli bozqırlı türk boylarının atlı köçləri yeni-yeni torpaqların mənimsənilməsi ilə nəticələnirdi. Belə torpaqların pay (*ülüş*) kimi verilməsi *incü* sayılırdı. Ülüş alan xaqan ailə üzvləri, bəylər, komutan və əsgərlər, bütöv boylar bu torpaqlarda yeni yurd salır və ya ondan yaylaq-qışlaq yeri kimi istifadə edirdi. Oğuznamələrdə xaqanın yeni aldığı və asılı bölgələri oğlanları arasında paylaması örnəyi vardır. Bəkilin igidlik göstərən oğlu İmrana torpaq verməsi göstərir ki, boy və bölgə bəyləri də ülüş verə bilirdi: «Qarşı yatan qara dağdan oğlana yaylaq verdi».[211]

Dövlətin ictimai, şəxslərin özəl mülkiyəti mövcud olan sosial-siyasi qurumda ailədən millətə qədər insan haqlarına sayqı olur. «İnsan şəxsi mülkə sahib olub, onu istədiyi kimi kullandığı və ya dəyərləndirdiyi sürəcə hürdür».[212] Müxtəlif çağlara aid tarixi qaynaqlar türk elində insanın hür yaşaması haqqında yetərli bəlgələr verir. Qut elinə (m.ö. XXII əsr) tabe olan ölkələr yüz il barış içində yaşayır, qonşu Asur-Urartu dövlətlərindən qaçanlar Subar bəyliyinə (m.ö.VII əsr) sığınır, Bizansda insanın basqı altında yaşadığını vurğulayan bir bizanslı (IV əsr) Avropa hunları içində qorxusuz və hür yaşadığını deyir, Çindən qaçan kölələr də Asiya hunlarına pənah gətirirdi.[213] Türklərdə ailədən başlanan «İnsana saygı» duyğusu boy, bodun və el qurumlarında davam etmişdir.

---

[210] KDQ-da «ağ sancaqlı alay» deyimi keçir. Bayındır boyunun və Ağqoyunlu elinin bayrağı «ağ» rəngli idi.

[211] KDQ, 1962, 130.

[212] Kafesoğlu, 1989, 225.

[213] Azər xalqı 2000, 124, 132; Kafesoğlu, 1989, 225; De Groot, 1921, 242.

«Kutadğu Bilig» bu dəyişməz törə qanunlarını sadalayır: insanlıq (*kişilik*), bərabərlik (*tüzlük*), ədalət (*könülük*) faydalıq və yaxşılıq (*uzluk*). Türk dövlətçilik gələnəyində ölkədə yaşayan başqa xalqlara tolerant münasibətdən yuxarıda danışmışdıq. Belə dözümlülük siyasəti Xəzər elində aydın sərgilənir. Burada el (dövlət) türk törəsi ilə idarə olunurdu, lakin başbakanın mənsub olduğu soy yəhudi dininə tapınırdı. Paytaxtda yeddi yarqıcdan yalnız biri Tanrıçılıq dininə tapınan türklərin problemlərini çözürdüsə, müsəlman, musəvi (yəhudi), xristian dinlərinə tapınan boyların hərəsinə iki yarqıc ayrılmışdı.

Başqa xalqlara qarşı «dözümlü ovqat» gələnəyi yaşanan türk toplumunda atası yad xalqdan olan *iqdış* zümrəsinə, qul-qaravaşa və savaşda alınan əsirlərə də insani münasibət vardı.[214] Zaxari Ritor qeyd edirdi ki, hunlar əsir alıb qul kimi işlətdikləri insanlara sərbəstlik verir və onlar üç-dörd ildən sonra ailə qurub xüsusi mal-mülk sahibi ola bilirdi. Qazan xan oğlunu əsirlikdən qurtaranda «40 baş qul, 40 qırnaq (qaravaş), oğlu Uruz başına azad eylədi, cilasun qoç yigitlərə qalaba ölkə verdi».[215]

Demokratiya anlayışı hər xalqın öz milli dəyərləri ilə qavranılır.[216] «Dövlət xalq üçündür!» deyiminin gerçək üzü olan *demokratiya* hər fərdin azad yaşamına köklənən ədalətli və tolerant türk toplumunun milli özəlliyi idi. Hələ Aratta və Qut eli çağından seçimli «senatı» olan türk toplumu unikal cəmiyət idi. Dədə Qorqud eposunda da oğuz boylarının ağsaqqallar şurası «qocalar» adlanırdı.[217] Bu qurumun doqquz üzvü olması ayrıca bir boyun başçısı olan Aruz bəyin «*9 qoca başları Aruz*» epitetindən bəlli olur.[218] Qazılıq qoca isə həm də Bayındır xanın vəziri idi. Belə

---

[214] Görünür, azər dilində *əsir* sözü III minildən İkiçayarası və Azərbaycanın batı bölgələrindəki əhalini əsir-yesir edən samilərdən qalmadır. Asur dilində *asirum* «əsir», *esirtu* «əsir qadın» anlamındadır.

[215] KDQ, 1962, 40; (1994, 115).

[216] Romalılara görə, Respublika öncə «tiraniya» anlayışına qarşı «xalq işi» olduğu üçün onun monarxik, oliqarxik və ya demokratik olmasının elə bir fərqi yox idi, Respublika sonralar Monarxiyaya qarşı qoyuldu (Штаерман, 1987, 81).

[217] Lakin doqquz qoca təmsil olunan bu qurumda 11 nəfərin adı keçir: Elik qoca, Qəflət qoca, Qazılıq qoca, Aruz qoca, Uşun qoca, Qañlı qoca, Ense qoca, Duxa qoca, Qoñur qoca, Yuñlu qoca, Yapağulu qoca. Görünür, daha qədim mifoloji süjetli boyda adı keçən qoca titullu üç nəfər artıq bu qurumun üzvü deyilmiş və yaxud sonralar bu quruma üzv seçilmişlər, çünki onların adı başqa qocalardan fərqli çağlara aid olaylarda keçir. Belə ki, Təpəgözün atası Qoñur qoca çoban idi, Yuñlu qoca ilə Yapağulu qoca isə Təpəgözə qulluq etmək üçün ayrılmışdı.

[218] KDQ, 1962, 83.

bəlgələrdən bəlli olur ki, İç və Dış oğuzların konfederasiyası 9 boyun birliyi ilə qurulmuşdu, çünki «9 qoca» qurumu olan dövlət divanında hər boy bir qoca ilə təmsil olunurdu. Eposda Qoñur, Yuñlu və Yapağulu qocalarla bağlı olaylar göstərir ki, qoca titulunu təkcə bəylər deyil, sadə adamlar da ala bilirmiş. «İç-Oğuz, Tış-Oğuz bəyləri *yığnaq* oldu» deyimi «Oğuz zamanı»nın müxtəlif çağlarında boyların müxtəlif sayını (üç tuğlu, doqquz tuğlu) nəzərdə tutur.

Türk dövlətçilik gələnəyində 12 və 24 boy bölgüsü diqqəti çəkir. Üç oğul və dörd torun (nəvə) ilə ortaya çıxan 12 soy-uruq (3 x 4=12) gələnəyi Ön Asiyada geniş yayılmış miflərdən idi.[219] 12 boy bölgüsü motivi Homerdən tutmuş Strabona qədər müxtəlif yazarlara bəlli idi.[220] Platon öz ideal dövlət qurumunu ayların sayına uyğun gələn bu onikilik sistemi üzərində qurmuşdu. Ön Asiyadan bu gələnəyi türklər doğu bozqırlarına apardıqları kimi, etrusklar da onu İtaliyaya daşımışdılar.[221] Qədim aslar (*az, azər* boyu) isə bu gələnəyi Skandinaviyaya qədər aparmışdılar.[222]

Ön Asiyadan m.ö. II minilin ortalarında atlı türklərin doğu və quzey yöndə böyük miqrasiyası «Batı türkləri» və «Doğu türkləri» bölgüsünü ortaya çıxarmışdır. Artıq sayları xeyli çoxalan türk boylarının Ön Asiya mənşəli «12 boy» bölgüsü «24 boy» əfsanəsilə əvəz olunduğundan oğulların sayı üçdən altıya qalxmışdı. Görünür, bu yeni bölgünün yaranması monqollara qarışan türklərdə monqol gələnəyinin və Ay təqvimli Çin ilinin (24 ay) təsirilə olmuşdur, çünki sağ-sol bölgüsünün doğu-batı uyğunluğu çin-monqol mənşəlidir. Halbuki doğuya gedən türklərin dilində sağ-sol yönləri güney-quzey cəhətlərini bildirir. Bu olayın əks-sədasını Oğuznamələrdə görmək olur. Əbülqazi Bahadır xan yazırdı ki, «ömrünü savaşlarda keçirmiş türkmənlərin yaxşıları və məşhur baxşıları bunu aytıp dururlar: Oğuz xanın 6 oğlunun qanuni arvadlarından doğulmuş 24 nəvəsi

---

[219] Bibliyada 12 boy bölgüsü mexaniki şəkildə müxtəlif xalqlara şamil edilir: 12 İsrail oğulları (XLIX); 12 İsmayıl oğulları (XVII, 20); 12 Aramey oğulları (XXII, 20-20) və 12 Edem oğulları (XXXVI, 10-14); Solomon israillilər üzərində 12 hakim təyin edir (III. IV, 1); İrana gələndən sonra perslərə də bu bölgü şamil edilir (Ксенофонт, 1976, 290).

[220] Homer. Odisseya, VIII; Strabon, IX. 1. 2.

[221] Soykökü etrusk olan şair P.Vergili Maron (m.ö. 70-19) atayurdu Mantui (İtaliyanın quzeyində etrusk kaloniyası) haqqında yazırdı: «Ulu babaların eyni soydan olmasa da, onlarla şöhrət tapdın. **Üç soyun** var, hərəsində **dörd uruq** (*gens ille triplex, populi sub gente quaterni*). Sənsə etrusk qanının gücülə onların başısan» (Немировский,1983, 106).

[222] «(Odin) yarğıclıq etmək üçün şəhərə **12 hakim** təyin etdi, öncə Troyada olan **türk** törəsinə uyğun qanunlar qoydu» (M Э, 1970, 12; Azər xalqı, 2000, 13-14).

vardı. Gün xan onları iki-iki ayrıca çadırlara oturtdu; onlar 12 bölüyü təşkil edir. Bu 12 bölükdən törəyənlər *üzlük,* 24-dən törəyənlər *oymaq* adlanırdı. Oymaq monqol sözü olub *uruq* mənasında işlənir».[223]

Beləliklə, türk elinin qədim 12 boy bölgüsü də Ön Asiya mənşəli idi və bu gələnək «Oğuz zamanında» 24 (12+12) boy bölgüsü ilə sonralar əvəz olunmuşdur. Üç qardaşdan törəmə motivi Azaq yaxalarına köçən saqaların soykökü əfsanəsində m.ö.V əsrəcən davam etmiş və Herodot bunu qələmə almışdır.[224]

Türk toplumunda xalq-dövlət birliyi ordu qurumunu da əhatə edirdi, arxa cəbhədə boyların birliyi ordunun çevikliyini artırırdı. Bozqır türklərində bu özəllik boylararası münasibətdə özünü göstərirdi və bu səbəblə türk eli istənilən durumda yarandığı kimi, parçalana bilir və yenisi yaranırdı. Plutarx saqa elbəyi Skilur (m.ö. II-I əsr) haqqında yazır ki, ölümqabağı o, oğullarına bir dəst ox verib, hər birinin bu ox komunu sındırmasını istəyir, lakin qardaşlar bunu bacarmır. Skilur oxları bir-bir ayırıb asanca sındırır və nəsihəti belə olur ki, onlar o vaxt güclü olacaqlar ki, hamısı bir yerdə (birlikdə) olsun. Əgər, ayrılıqda qalsalar və ya bir-birilə savaşsalar gücsüz olacaqlar.[225] Oğuz xan oğuz boylarının bir kökdən gəldiyini və onların ayrı-ayrı deyil, bir millət kimi bir dövlət qurmasını, iki elbəyi deyil, birini taxta çıxarmalarını oğullarına tövsiyə edir.

Azadlığı və müstəqilliyi hər şeydən üstün tutan türk toplumunda *ilsirəmək* (elsizləmək) böyük ağrı-acı gətirirdi. Ağır durum qarşısında qalan hunlar m.ö. 58-də toya toplanırlar, burada elbəy *Ho-han-yeh* Çinə tabe olmağı təklif edir, qardaşı *Çi-çi* və digər dövlət adamları isə qurtuluşu başqa dövlətə tabe olub, asılı duruma düşməkdə yox, öz güclərinə güvənməkdə görürlər. Herotod saqaların hücumu qarşısında itaət etmək və istiqlal istəyən qamər (kimmer) boylarının iki cəbhəyə ayrılmasını və bu səbəblə baş verən dəhşətli iç savaşı təsvir etmişdir.[226]

---

[223] Şecere-i Terākime, 1996, 157-159; 2002, 69.

[224] Qədim türklərdə boy və bölgələrin sayı ilə bağlı 70 sayına rast gəlmək olur. Hələ Lulu və Qut çağında elam çarı qədim Azərbaycanda 70 bölgəbəyinə qələbə çalması ilə fəxr edir; Partların köməyilə Ermən hökmdarı olan Tiqran onlara Azərbaycandan 70 bölgə (dərə) verəcəyini vəd edir. «Koroğlu» eposunda 70 və 777 sayı işlənir. Bu saylar Göytürk yazısında da təkrar olunur: Atam İlteriş kağan 17 ər ilə hərəkətə keçdi. Xəbəri eşidən ormandakılar, ovadakılar toplanıb 70 kişi, sonra 700 kişi oldu (Orkun, 1994, 34-35).

[225] Плутарх, 1990, 343.

[226] Herodot, IV. 11.

Türk dövlətçilik gələnəyində *apa, bağa, bilgə, şad, tarkan, bəy* və sair bu tip ad-sanın verilmə qaydaları olduğunu qeyd etmişdik. Bu qədim gələnək uzun müddət davam etmişdir. Hər kəs «bəy» sanını almaq üçün qılıncının gücülə topluma xidmət edib, «*acı doyurmaq, çılpağı donatmaq*» sınaqlarından keçməli idi (KDQ). Təkcə bəlli soydan olanların deyil, bütün gənclərin bu sınaqdan keçə bilmə hüququ vardı. II Göytürk elini qurduğu üçün «eli dərləyən, toplayan» anlamında kağan *İl-teriş* adını almışdır. Fəqir milləti toplayıb «*kobratdım*» deyimində göründüyü kimi, Kubrat xanın da adı «*kubrat*» (toparla) feili ilə bağlıdır. El quran, eli yaşadan, eli böyüdən elbəylərə *Elteriş*, *Elalmış, Eltutmuş, Elolmuş* kimi ad-san verilirdi, hələ Qut elbəyləri sırasında bu son sana *Elulumeş* (2179-2174) şəklində rast gəlmək olur.

KDQ və «Koroğlu» eposunda Dönməz, Dönəbilməz, Tərsuzamış, Halaypozan, Tüpdağıdan, Tanrıtanımaz kimi «ər adı» daşıyan alplar var. Belə ad-sanı olmayan bir türkün «*ər atım* yok üçün yeti aşnukı eşim taşru etildi» deməsi onun kövrəlmiş ovqatını dəqiq göstərir. Türk toplumunda ər adı bəzən qısa, bəzən də çox uzun olurdu. Oğuznamədə oğlunun Tanrıdan qüvvət aldığını deyən Tuman xan ona belə ad verir: «Bundan sonra onun adı *Tiken bile er biçken Kayı Yavquy xan* olsun! Bunun mənası bir adamın başını tikan otu ilə biçən (üzən) deməkdir».[227]

Bəzən san ilə vəzifə titulunu ayırmaq çətin olur. «Tonyukuk boyla baqa tarkan», «Boyla kutluğ yarğan» adlarında keçən boyla sözü haqqında T.Təkin yazır ki, protobulqar yazılarında ən çox keçən ünvanlardan biri də *boyla* tituludur.[228] Tuna bulqarlarında bu titulun *içirgü boyla* şəklində işlənməsi onun saray içi bir vəzifə-titul olduğunu ortaya qoyur. Qədim türk yazılarında keçən Külüg-tirig, Külüg-çor, Külüg Bilgə kağan, Kölerkin, Külbey (bulqar adı), Kül-tegin adlarında görünən *külüg* və *kül//köl* sanının təhlili göstərir ki, burada *şanlı, şöhrətli, məşhur* anlamı vardır.

Uyğur elbəyi «İltutmuş Bögü alp külüg kağan» adında da görünən *külüg* sanının bu anlamını qədimdə işlənən *külüg-çavlı* (adlı-sanlı) ifadəsi də təsdiq edir. Həmin *külüg* sözü qədim bir türk yazısında «*yazıldı adıñ eldə boldun külüg*» (adın eldə yayıldı, şöhrətli oldun) deyimində keçir.[229] Bu baxımdan, Herodotun qələmə aldığı saqa soykökü mifində ilk elbəy

---

227 Рәшидәддин, 1992, 47.

228 Tekin, 1987, 44.

229 ДТС, 326.

sayılan Kolaksa (*Kolakca*) adının düzgün izah oluna bilməsi *kül, külüg, külügcə, köl, köləkcə* sanlarının daşıdığı anlamın gerçək yozumundan çox asılıdır.[230]

«El qılıncla qurulur, qələmlə yürütülür» deyən türklər, əslində, vaxtaşırı «bu qələmi» qeyri-türklərə vermişlər. İslamlaşma çağına qədər türk dövlətlərində **məmurların** çoxu türk idi, lakin Səlcuqlardan başlayaraq, dövlət qurumlarında etnik kökəni pers (əcəm) olanlar get-gedə üstünlük təşkil edirdi. Türk dövlətçilik tarixində belə dönmə olayını, əvvəllər türk böyüklərinin yanına heç bir *ataşpərəst*, *yəhudi*, *tərsa* və *rafizin* getməyə cəsarət etmədiyini vurğulayan XI əsrin böyük siyasi xadimi Nizamülmülk (1017-1092) yazırdı ki, durum dəyişib, indi türk məmurları namuslu və bilikli olsa da, onları saraya yaxın buraxmırlar.[231]

Türk toplumunda hər kəsin sayqı göstərdiyi «yazılmamış qanunlar» vardı. Etnik, dini, sosial və siyasi normalara dayanıqlı bu qanunlar qaynaqlarda **türk törəsi** (*il törü*) kimi verilir.[232] Türk törəsinə görə, cinayət edənlərlə sərt davranılırdı. Qonur (m.ö.VI əsr) Saqa elbəyi olsa da, onun Yunan elində «7 müdrik» sırasına daxil edilən oğlu Anaxars öz yurduna dönərkən türk törəsini pozduğu üçün onu öldürürlər. «Türkmənlərin soykökü» kitabında, hətta kimliyindən asılı olmayaraq, cinayət törədənə arxa duranı da cəzalandırmağın zəruriliyi vurğulanır:

> «Bir kişi günahkar bolsa, ol kişi padşah olturğan yerge yavuk bolsa ya ıraq bolsa, ol günah qılğan kişi padşahnıñ uruğundan bolsa ya özge uruğdan bolsa, xanıñ bir kişisi barıp anı yarğu qılsa (müdafiə etsə) aña xanıñ inisi və oğlu və bəgləri heç kimersə qol yapmasunlar və meni dip, kelip turur dip post-penah bolub, eger hər kim arka bolsalar, ol arka bolğan kişini padşah eşiginə keltürüp arkasına qılıç birle çapıp ikki bölük qılmaq gerek ta körgenge köz və işitkenge qulaq bolğay». [233]

---

[230] Valeri Flakkın «Arqonavtika» əsərində də bir saqa bəyi *Kolaks* adı daşıyır.

[231] «Bütün türk ağaları bilikli, təsərrüfatçı, namuslu işçi idilər.., buna görə, o sultanlar rahat yaşamışlar. İndi isə iş elə yerə çatıbdır ki, dərgah və divan onlarla doludur, hər türkün qarşısında onlardan on, iyirmi nəfər yüyürür, çalışırlar ki, bir xorasanlını belə dərgaha buraxmasınlar, qoymasınlar onlar bir parça çörək sahibi olsunlar» (Siyasətnamə, 133).

[232] Qonşu xalqların gələnəklərindən fərqlənən türk törəsində milli-etnik dəyərlərə böyük önəm verir və dəyərlərin dəyişdirilməsinə yol verilmirdi. Belə ki, qonşu sumerlər çoxtanrılı olduğu və balıq qurbanı verdiyi halda, türklər təktanrılı olub, qurbanlıq heyvan kimi qoyun kəsirdi. Sonralar bozqır türkləri qoyunla bərabər atı da qurban verirdilər.

[233] Şecere-i Terākime, 1996, 161-162.

Metedən sonra Ki-ok (m.ö.174-160) çin geyim və mətbəx kulturuna meyl edirdi, bunu duyan vəziri deyir: «Bütün hunların sayı Çinin bir sınır əyalətinin sayı qədər deyil. Əlbisə və yeməkləri bizdən fərqlənən çinlilərin sayı olduqca çoxdur. İndi hun hökmdarı çin adətini qəbul etsə, onda hun əriyəcək».[234] Çindən asılı duruma düşən İşbara kağan 585-də Çin imperatoruna hər il cins atlar göndərəcəyini, oğlunu girov verəcəyini vəd edir, lakin çinsayağı geyimin qəbul olunmasını, çiynində dalğalanan saç hörüyünün çözülməsini, dilini dəyişməsini, çin qanun və adətlərinin qəbulunu mümkünsüz sayır, çünki bütün türk milləti törəsini pozmaz - deyir.[235] Bilgə kağan (716-734) Çini örnək alıb, şəhərləşmə yaşamına keçməyə, buddizm, taoizm kimi dinlərə meyl göstərəndə *bilgə* Tonyukuk törənin pozulmasına yol verməmişdir.[236]

Türklərdə torpağı qorumaq, yurda qayğı, sahib olduğu əraziyə bağlılıq gələnəyi tarixi olaylarda aydın görünür. Çin qaynağında Meteyə aid ilginc bir pritça vardır. Burada qeyd olunur ki, Çin elçisinin hunların qüruruna toxunan bir neçə tələbinə dözümlü yanaşan Mete ondan hunların istifadə etmədiyi bir parça yararsız səhranı istəyəndə «torpaq verilməz» deyib, müharibəyə başlayır. Qaynaqlarda keçən «İlteriş atalarının törəsinə görə budunu təşkilatlandırdı», «törə gərəyincə taxtda oturdu» deyimləri də göstərir ki, türklər törəyə böyük önəm vermiş, «dövlət dağılar, lakin törə yaşayar» inamı ilə yaşamışlar.

Beləliklə, türk dövlətçilik gələnəyinin türk törə normalarına uyğun davam etdiyini görmək olur. [237] Törə dəyişməz doqmalar və gerçəkliklə, mövcud durumla uyğunlaşa bilən yeniləşmə normalarından ibarət idi. Bu baxımdan, milli-etnik dəyərlərdən yoğrulmuş doqmalar *dəyişməz* qanunlar, coğrafi, iqtisadi və sosial-siyasi durumla bağlı normalar isə *dəyişə bilən* qanunlar idi. Dövlətin teoriya ilə deyil, gerçək durumun tələblərinə uyğun idarə olunmasında fayda görən türklər törə dəyişikliyinə ehtiyac olanda məsələni toya çıxardırdılar. Dəyişiklik toyda gənəşib razılıq əldə

---

[234] De Groot, 1921, 80.

[235] Danişmend, 1966, 19.

[236] Tonyukuk demişdir: «Qalalar tikib içində otursaq, qədim gələnəklərimizi dəyişsək, günün birində çinlilərə məğlub olub, işğal olunan ölkəmizi itirə bilərik. Əsasən, taoist, buddist tapınaqlarda sadəcə uyumluluq və itaətkarlıq təlqin olunur. Təpərli və savaşçıl olmanın yolu bu deyil, bu səbəblə tapınaqlar qurmamalıyıq» (Liu-Mau-tsai, 1958, 172).

[237] Musa peyğəmbərin beş kitabı da «qanun» anlamında *torá* adlanır. Törə sözü monqol, macar dillərinə də keçmişdir.

edəndən sonra keçərli olurdu. Tarixi qaynaqlarda bəzi təkliflərin toyda qəbul olunması, bəzilərinin isə rədd olunması haqqında bəlgələr vardır. Hunlarda Mete, göytürklərdə Bumın kağan, bulqarlarda Kurum xan bəzi törə dəyişikliyi edə bilmiş elbəylərdir.[238]

Beləliklə, tarixi və arxeoloji qaynaqların verdiyi bilgiyə görə, Kür-Araz kulturu ömrünü başa vurduğu III minilliyin sonları istehsal formalarının və mənbələrinin artım çağıdır. Əhali arasında təbəqələşməyə yol açan belə artım sosial durumdakı yeni münasibətlərin ortaya çıxmasına səbəb olmuş və bu gəlişmələr yeni siyasi qurumların formalaşmasına təkan vermişdir. III-II minillərdə Urmu gölü hövzəsində Aratta, Lulu, Qut, Turuk və yaxın bölgələrdə Subar, Kuman eli və bəyliklərinə aid yazılı tutalqalar vardır. I minilin başlarından isə onlarla *bəylik*, sonra Mana, Mada və Atropaten *elləri* ortaya çıxmışdır. Urmu gölündən yuxarı Qafqaz dağlarınacan Saqa eli, sonralar isə İslamaqədər varlığını qoruyan Alban (Aran) eli qurulmuşdur. Doğu Anadoluda Saqa eli ilə eyni çağda Qamər bəyliyi vardı.

Sadalanan dövlətlərin qonşu bölgələrdə yaranmış dövlətlərlə müəyyən ilişkiləri olmuşdur. Bu əlaqələr bəzən dostluq, müttəfiqlik, bəzən də bir-birinə basqın etmə, düşmənçilik münasibətləri ilə davam etmişdir.[239] Barış durumu vaxtaşırı savaş durumu ilə əvəzlənmişdir. Əgər doğuya gedib orada yeni Atayurdu salan türklərin tarixi Çin qaynaqlarında əks olunmuşdursa, batıda qalan yerli türklərin tarixi də məhz Sumer, Akad, Elam, Kassi, Hurri, Asur, Urartu, Yunan, Roma, Əhəməni dövlətləri ilə olan əlaqələri əks etdirən yazılı qaynaqlarda yatır. Bu yatmış bəlgələri oyadıb danışdırmaqla qədim türk boylarının, o cümlədən azər türklərinin tarixini öyrənmək olar.

---

[238] Ramiz bəy Əskərin «Qutadğu bilig» (B. 2003) adlı əsərində türk dövlətçilik sistemi, dövlətçilik terminologiyası haqqında gərəkli fikirlər vardır. Təəssüf ki, bu dəyərli əsər III Bitik yazılandan sonra nəşr edildiyindən ondan yararlana bilmədik.

[239] Türk dövlətçilik terminologiyasında ailə ilə bağlı bəzi sözlərin, inanc-mifologiya ilə bağlı və sosial-siyasi qurumlara aid terminlərin Ön Asiyada qədim sumer, akad-asur, hat, het, urartu, etrusk dillərində, o cümlədən batı türklərlə kontaktda olmuş yəhudi, latın, yunan dillərindəki qədim yazılarda əks olunması həmin əlaqələri aydın göstərir: *aba, ata, dədə, baba, klan* (oqlan, *dingir* (tanrı), *qut, ilanqız* (pəri), *oq, kişi, kun, uruq, oba, elat, baş-el, bilgə, şad, el-təbər, tarkan, tarkun, törə, damğa* və sair.

## 3. ORDU VƏ DÖVLƏT

Dövlət qurumunda olduğu kimi, türklərin ordu qurumu da bir sıra xalqların ordu sistemindən fərqlənir. Belə ki, türk dövləti xalq, ölkə və hakimiyət sintezindən yarandığı kimi, türk ordusu da xalq və dövlət ilə bir medalın iki üzü idi. Dövlət adamlarının eyni zamanda orduda müəyyən vəzifəsi vardı və savaş vaxtı onlar hərbçilər sırasında öz yerini tuturdu. Türk hərb tarixində ordu düzəni və bəzi savaş taktikası gələnəyi azacıq fərqlə minillər boyu davam etdiyindən Ön Asiya xalqlarında türk ordusu əfsanəvi «qoq-maqoq» (yəcuc-məcuc) qoşunları sayılmış və akad-asur qaynaqları bu ordunu «umman-manda» (manda qoşunu) adlandırmışdır. Hətta «Tanrı ordusu» mifinə uyğun, günah edənləri cəzalandırmaq üçün tanrının göndərdiyi qoşun kimi dəyərləndirmişlər.

Dünya xalqları kimi, prototürk etnosu da istifadə etdiyi yaraq-yasaq baxımından, silahın təkmilləşməsi yolunda insanoğlunun yaşadığı mərhələləri keçmişdir. Hətta Orta əsrlərə qədər türklərin icad etdiyi silah növləri başqa xalqlara örnək olmuşdur. Rusiyada ilk odlu silah da türklərdə idi: «İtil bulqarlarının 1377-ci ildə odlu silahı vardı». [240]

Daş, sümük və ağac alətlərlə ov edən ilkəl insanların silahları bəsit olsa da, savaşlarda uzun müddət keçərli olmuşdur. [241] Belə ki, bəzi xalqlar hələ də yay-ox və balta-nizə ilə savaşa gedir, yaba və çomaq davaları isə həmişəyaşar savaş növlərindəndir. Qaba çomaqdan tutmuş, bıçaq, nizə, balta və sapand kimi silahlardan yararlanan ilkəl toplumda yay-oxun kəşf olunması, neçə minil sonra isə odlu silahın ortaya çıxması hərb tarixində böyük dönüş yaratdı. 8 minil öncə eneolit (mis-daş) çağından daş-sümük silahlarla yanaşı, metal silahlardan istifadə olunması, zaman-zaman onların təkmilləşməsi arxeoloji bəlgələrdə aydın izlənə bilir.

Azərbaycanda ilk dəfə bəzi savaş terminləri, türk hərbi əxlaqı, ordu düzəni və savaş taktikası haqqında Əfzələddin Əsgər və Məmmədəli Qıpçağın birlikdə yazdığı «Türk savaş sənəti» bitiyində bilgi verilmişdir.[242]

---

[240] Мавродин, 1946.

[241] İlkəl insanın yalnız lazım olan qədər ərzaq əldə etmək üçün istifadə etdiyi silah sadə idisə də, bugünkü sivil toplumun malik olduğu silahlardan daha insani idi. İnsanoğlu mədəniləşdikcə əldə etdiyi silah növlərinə görə daha «vəhşi» görünür. İlkəl insanın qurduğu cələyə-tələyə ətinə ehtiyacı olan heyvan düşürdüsə, bugün minaya düşən yüzlərlə günahsız insanın qanı, nə qədər paradoksal olsa da, sivilizasiyanın bəhrəsidir.

[242] Əскәр-Гыпчаг, 1996.

Bu mövzuya Türkiyə və Avropada yazılan bir sıra tədqiqatlarda da geniş yer ayrılmışdır.[243] Türk ordu qurumu ilə bağlı «Divanü lûğat-it-türk» və «Kutatğu Bilig» abidələrində verilən bəlgələrdə və Bəsrəli ərəb yazarı Cahizin «Mənâqib Cund ül-Xilâfə və Fəżâ'il ül-Ətrâk» əsərində türk əsgərinin bənzərsiz öygüləri vardır.[244] Çin və Bizans qaynaqları da bu cür bəlgələrlə boldur. Lakin sadalanan qaynaqlarda və tədqiqat əsərlərində türk ordusunun tarixi hunlarla başlanır, sanki hunlardan əvvəl türk etnosu olmamışdır. Halbuki Ön Asiya qaynaqlarının və arxeoloji kulturun verdiyi bəlgələrdə görünən türk savaş tarixi xalqın söz yaddaşından süzülüb qəhrəmanlıq eposlarında (Oğuznamələr, Koroğlu və b.) sərgilənir. Bunları görmək üçün, sadəcə, türk etnosunun ilkin və sonrakı Atayurdlarını obyektiv göstərən elmi-tarixi bəlgələrə biganə yanaşılmamalıdır.[245]

Türk dillərində hərbi düşərgə (qarnizon) və hökmdarın, başbuğun qərargahı (ordugah) anlamında işlənən **ordu** sözünün türk dövlətçiliyində həm də «qoşun» anlamı daşıması qədim tarixə malikdir. Belə ki, qədimdə müdafiə istehkamı anlamında dövrələmə qazılmış çuxura və tökmə torpağa *or* deyilməsi, sonralar törə düzəninə görə müəyyən olunmuş yerin *orun* (mövqe) adlanması və *örgin, ornaq, orunluq* sözlərinin xaqan taxtı anlamında işlənməsi *ordu* sözünün etimologiyasına işıq tutur. Düzgün olaraq, uzmanlar bu sözün praformasını **orut* (oru-t) şəklində bərpa etmişlər.[246] Qədimdə türklərlə kontaktda olmuş bir çox xalqların dilinə *ordu* sözü hər iki anlamı ilə keçmişdir: «hökmdar köşkü» və «qoşun». Fars dilinə keçən *ordu* sözünü çoxlu qaynaqlar üzrə araşdıran G. Dörfer qədim çağda ordu sözünü türk dilindən alan monqolların da çox sonralar onu *orda* şəklində yenidən türklərə qaytardığını yazır.[247] Lakin nəzərə almaq lazımdır ki, *orta* sözü kimi, *orda* forması da türk dillərinin özündə yarana bilərdi.

---

[243] Golden. 1980; Moravcsik, 1983; Rasonyi, 1996; Göyalp, 1976, 1977; Togan, 1981; Kafesoğlu, 1989; İA; Ögel, 1981, 1988, 1991; Donuk, 1988 və başqaları.

[244] Əbû Osmân ´Əmr b. Bəhr Məhbûb əl-Câhiz 774-870-ci illər arasında yaşamışdır.

[245] Çox dəyərli «Türk savaş sənəti» bitiyinin hər iki yazarına böyük sayqım olub, ərkim çatdığından onların tutduğu yanlış mövqeyi də vurğulamalıyam. Belə ki, «Altayda arxeoloqlar VI-X əsrlərə dair dəmir yataqlarının izlərini tapıblar» deyə, türk dəmirçilik sənətindən fəxrlə danışdıqlarını anlamaq olmur. Məgər bu dostlarım metalişləmə sənətinin Azərbaycanda çox qədim çağlardan bəlli olduğunu və burada dəmirin də Altaydan azı 1500 il öncə ortaya çıxdığını bilmirlər? Əlbəttə, bilirlər. Ancaq hunlarla başlanan «türk tarixi» gələnəyini daha üstün tuturlar.

[246] ЭСТЯ, I. 472.

[247] Doerfer, II. 1965, 34-39.

Qədim *Ordu-balık*, *Kuz-ordu* adlarında olduğu kimi, *ordu* sözünə Arazın solunda *Ordubad* şəhərinin və Arazın sağında m.ö.VIII əsrə aid qaynaqda qeyd olunmuş *Sardur-ordu* qalasının adında rast gəlmək olur. Bu qədim qalanı Təbrizlə Naxçıvan arasında urartuların zəbt etdiyi *zəngi* boylarının (*sanqi-but*) bölgəsində Urartu çarı Sardur tikdirmişdi. Ətrafda 57 yaşayış məskənini qorumaq üçün Sardur burada hərbi qarnizon yerləşdirmişdi. Ona görə də başqa urartu çarlarının adını daşıyan Arqiştixinili, Rusaxinili kimi şəhər-qala adlarından fərqli olaraq, yerli türklər bu qalanın urartuca *Sardurixi* adına *ordu* sözünü qoşub, onu Sardur əsgərlərinin qarnizonu, Sardurun qalası anlamında işlətmişlər. Mixi yazıda «o» səsini bildirən işarə olmadığından asur mirzəsi bu adı asur imlasına uyğun olaraq $^{URU}$*Sardurix-urda* şəklində yazmış və *Kişpal* dağında yerləşən bu böyük qalanı asurların m.ö.715-ci ildə tutub dağıtdığını qeyd etmişdir.[248]

Beləliklə, ordu sözündə «hökmdar köşkü» və «qoşun» anlamlarının qədim çağlardan paralel işlənməsi türk dövlətçilik sistemində özünü göstərən bir sıra dövlət atributları ilə ordu atributları arasındakı paralelliyə uyğun olaydır. Türk toplumunda sosial-siyasi qurumların fəaliyəti xalqın və dövlətin hərbi qüvvəsi sayılan ordu qurumuna yönəlik dövlətçilik gələnəyinə köklənmişdi. İbn Bəlxi (XII əsr) islamaqədərki hökmdarlardan birinin bu sözlərini verir: Ordusuz şahlıq (dövlət) olmaz, gəlirsiz ordu olmaz, dirçəlməyən əkinçilik gəlir verməz, ədalət olmayan yerdə əkinçilik dirçəlməz.

Bozqır türklərinin ayrıca ordu yaratmasına ehtiyac yox idi, çünki hər bir elatın özü bütövlükdə bir ordu idi. Burada mərkəzləşmiş hakimiyəti olan dövlətdən daha çox, boy birliklərinin konfederasiyaları yaranır və belə birliklərə olan ehtiyac aradan qalxanda da dağılması ağrı-acısız keçirdi. Oturaq türklərdə isə fərqli durum vardı. Belə fərqləri görmək üçün qaynaqların «*ən savaşçı xalq*» adlandırdığı suvar boylarının savaş tarixinə baxmaq kifayətdir. İkiçayarasının quzeyində və Azərbaycandakı oturaq subarların və onlardan ayrılaraq Sibirəcən gedib, bozqır yaşamına keçən subarların ordu qurumu arasında böyük fərq yaranmışdı.

Qüdrətli Urartu-Asur dövlətlərinin arasında yerləşməsinə baxmayaraq, m.ö. 673-də asurlar tərəfindən dağıdılana qədər iki əsrdən artıq bir müddətdə müstəqilliyini qoruya bilən Subar bəyliyinin öz ordusu və

---

[248] АВИИУ, №49 (199); ТУ, 167; Asur qaynağının bu bölgədə qeyd etdiyi *sanqi* boyunun və *Kişpal* dağının adları Təbriz-Əhər arasında indiki *Zəngibar* kəndinin adında və İridağ aşırımından quzey-doğuda olan *Kisbe* dağının (كوه كسبه) adında qalmışdır.

böyük müdafiə qalaları vardı.[249] Qaynaqların verdiyi bəlgələrə görə, bu bəyliyin ordusunda oxçular ($^{\text{GİŞ}}$kaşu), qalxan tutanlar ($^{\text{GİŞ}}$a-ri-ti), zabitlər (rēşě), kəşfiyatçılar, zirehçilər vardı və elbəyin qvardiyasını (*kisir şarrūti*) süvarilər, cəng arabaçıları təşkil edirdi. Orduya aid mətndə asurca mənası bilinməyən *şaknute* və *elatsu* terminləri işlənir.[250] Bu sıralanmada nizami ordunun cizgiləri görünür. Subar əsgərlərinin qalaya hücum edən asurların başına yuxarıdan yanar neft (*naptu*) tökməsi də qeyd olunmuşdur. [251]

Göründüyü kimi, savaş vaxtı oturaq əhalinin qalalara çəkilib müdafiə olunması oturaq subar boyları üçün də xarakterik idi, lakin quzey və doğuya miqrasiya etmiş sonrakı subarlar bozqır türklərinin atlı ordusunun xarakterik cəhətlərini əks etdirir. Qədim oturaq subarlarla sonrakı atlı suvarların ordusunda yalnız bir ortaq nöqtə var ki, o da bu subar//suvar boylarında inkişaf etmiş dəmirçilik sənətidir. Belə məlumatı qədim subarlar haqqında asur qaynağı, sonrakı suvarlar haqqında isə Bizans qaynağı verir. Asur qaynağı Subar bəyliyində metal silahlarla bərabər, cəng arabası üçün təkərlərin hazırlandığını da qeyd edir.[252] Bizanslı yazar isə V əsrdə yazırdı ki, hələ də sabirlərin (subarların) icad etdiyi yaraq-yasağı nə İran nə də Yunan sənətkarları düzəldə bilir.[253]

Çeşidli silahlarla yaraqlanan atlı türk əsgəri ən yaxın «dostu» saydığı atının da gözəl görünməsinə çalışırdı. Atın boynuna asıb, başına taxılan saçaqlı beçkem tuğlara taxılan ipək, qumaş, dağ keçisi və at tükündən düzələn beçkemə bənzədilirdi. Atın bəzəkli yəhəri, yüyəni, quşqunu, döşlük və alınlığı olurdu:



**Xəzər elində döyüşçü atı**
(S. Pletnyevanın bərpası)

[249] Azər xalqı, 2000, 129-134; Sonralar 583-də bu qalalardan birinin ''Ακβας (Akbaş) adlanması bəlli olur (Симокатта, I. 12. 1).

[250] АВИИУ, №67 (ж, к); Саркисян, 1989, 74-75; Asurca «canişin» anlamında işlənən *şaknu* sözünün bu mətndə hərbi titul kimi «onbaşı» anlamında işlənməsi qeyd olunmuşdur (ВДИ, №3,1951, 223, 47-ci qeyd); Onluq sistemini də orduya türklər gətirmişlər.

[251] ARAB, II, § 599; АВИИУ, №67 (e).

[252] АВИИУ, №67 (j, к).

[253] Rasonyi 1996, 63; Mixi yazıda «oxçu» anlamında $^{\text{GİŞ}}$kaş-ti və «cəng arabası» anlamında $^{\text{GİŞ}}$GİGİR sözləri kimi konkret terminlərdən fərqli olaraq, ümumi şəkildə «silahlı adamlar» anlamında LU$^{\text{MEŞ}}$ $^{\text{GİŞ}}$TUKUL və ya «piyada əsgər və atlı (cəng arabası)» anlamında ERİN$^{\text{MEŞ}}$ ANŞE.KUR.RA$^{\text{MEŞ}}$ tipli sumer yazısı ilə verilən sözlərdə konkret hansı əsgər və silah növünün nəzərdə tutulması yalnız tekstoloji analizlə bəlli ola bilir.

Dağıstanda *Kübəçi* (Zirehgeran) kəndinin adı da suvar boylarından yadigar qalmışdır. Türk dilində «zireh» anlamında *kuyaq, yarıq* (yaruq), *say-yarıq*, bütün bədəni qoruyan «dəmirdon» anlamında *kübe-yarıq* terminləri işlənirdi. Üstdən geyilən döyüş qaftanına isə *yalma* deyilirdi, bəzi uzmanlar isə bunu atı qoruyan zireh sayır.[254] Qaya rəsmlərində, yazılı qaynaqlarda *dəmirdonlu* döyüşçülərin qiyafəsi təsvir edilmişdir. Nağıllarda «altdan geyindi, üstdən qıfıllandı» deyimi ilə yola çıxan, savaşa gedən igidlərdən bəhs olunur.



**Kimak əsgərinin bərpa olunmuş zirehi**

(Худяков 1986, 198)

KDQ-da «ip üzəngili, keçə börklü, azğın dinli, quzğun dilli» kafirlərə qarşı əynindəki dəmirdonu *göy polad* olan döyüşçülər vuruşur.[255] Türk atlı döyüşçüsü təkcə özünü deyil, atını da zirehli dona bürüyür. Zirehli donla döyüşə qatılanlar özəlliklə ağır yaraqlı süvarilər idi. Yüngül yaraqlı atlı türk döyüşçülərisə yalnız yüngül qalxandan müdafiə üçün istifadə edirdi.



**Dəmirdonlu türk süvarisi**

İslamaqədər bütöv Avrasiya məkanında görünən türk hərb kulturu Ön Asiyadan başlanın türk savaş terminologiyasının qonşu xalqların dilinə keçməsində də görünür.[256] Hətta bəzi türk boylarının adı ətraf xalqların dilində «bahadır» anlamı bildirən sözə çevrilmişdir. N.Y. Marr yazır ki, yunanlarda *subar* sözü «qorxunc məxluq» (*çudovişe*) anlamında işlənir.[257] German dillərində də *alp* sözü insanı yuxuda boğan mifik varlığı bildirir. İ. M. Dyakonov doğru olaraq, *pəhlivan* sözünün part (pəhləvi) boylarının adı ilə bağlayır.[258] Haylar da *saqa* adını

[254] Donuk, 1988, 107.

[255] KDQ, 1962, 71, 81.

[256] Yelena Şipova təkcə rus dilinə keçmiş xeyli türk savaş terminləri haqqında məlumat verir: alpaqut, arkan, artel, ataman, balta, barış, baskak, basmaç, başıbuzuk, boqatır, delibaş, kamça, kalança, kobura, koytul, kolçuqa, kinjal, yaqma, yasavul, yeralaş, yumşan, saadak, saqçiy, sançak, san, san(ovnik), tabor, temnik, paşa, çekan, djiqit, ulan, urá, uran və sairə (Шипова, 1976).

[257] Yazar *aznaur* sözünün də gürcülərdə «süvari oğulları» anlamında işləndiyini qeyd edir (Марр, III. 1943, 114, 166).

[258] Дьяконов, 1956, 239; Sonralar farslaşmış partlar saqa boylarından ayrılanlar idi.

«bahadır» anlamınında *hska* (saka) deyiminə çevirmişlər. Olsun ki, perslərdə *hunər* (hünər) sözü *hun* adı ilə bağlı yaranmışdır. Bahadır sözünün özü isə qədim *baqatur*, *baqatır* formaları ilə bir çox dillərə keçmişdir.[259]

Savaş terminologiyası çox qədim çağlardan müxtəlif yollarla yaranmağa başladığı üçün onların dilçilik yozumu bəzən çətinliklərə rast gəlir. Məsələn, bugün əksər dillərdə fransız sözü kimi işlənən *marşal* titulunun tarixi qədim olmasa da, onun mehtər anlamlı bir termindən yaranması bir az qəribə görünür. Lakin yuxarı german dialektində monqolca *morin* (at) sözündən yaranmış *marah-sch* (mehtər) sözünün əski fransız dilinə *mareschal* «mehtər» şəklində keçməsi bəllidir. Yaxud, dilimizdə işlənən *əsir-yesi*r sözü ərəblərdən deyil, asurlardan keçmişdir: Güney Azərbaycandan tutub apradıqları kişilərə *asiru*, qadınlara *asirtu* deyən asurlardan yadigar qalmışdır. Qədim türklər dustağa *tutsaq*, əsirə *bulun//bolun* deyirdi, türklər tərəfə keçən, könüllü təslim olanlar isə *içkin ər* adlanırdı. Hər hansı savaş qarşılaşan iki tərəfin iştirakı ilə gerçəkləşir, ona görə də savaş növlərini bildirən sözlər feilin qarşılıq-müştərək şəkilçisi ilə yaranır: *döyüş, savaş* (söyüş), *çalış, çarpış, qarpış, kürəş* (güləş), *süngüş//sünüş* (süngüləşmə), *vuruş, dartış, dalaş, dirəş* və həm də *barış.*

Türkoloji ədəbiyyatda, tarixi tədqiqatlarda türklər daha çox hücum edən, başqa xalqların ölkələrini işğal edən bir etnos kimi təqdim olunur. Lakin tarixboyu türk ölkələrinin işğalı, türk boylarının Ön Asiyada qədim yurdlarından çıxarılması olayları daha çox olmuşdur. Bunu tarixi qaynaqlarda işlənmiş bəzi terminlər aydın əks etdirir. Belə ki, düşmənin gəlmə xəbərini alan toplumun qorxuya düşməsi *beling, kıyım, tezik, tezgi, ürkün* və yaranan qarışıqlıq *bulqak, bulqaş* adlanırdı.[260] Tonyukuk yazısında bir deyim diqqəti çəkir: *arkuy kargug ulgartdım.*[261] Göründüyü kimi, burada müdafiə üçün ocaq-tüstü xəbərdarlığı verə bilən «qaravul qülləsinin ucaldılması» verilmişdir.

Türk etnosunun savaş tarixində ən önəmli və ibrətamiz müharibələr müstəqillik uğrunda aparılan savaşlar idi. Tarixboyu türk yaşamının özəl bir atributuna çevrilmiş **azadlıq savaşı** həm də bu etnosu ayaqda saxlayan

---

[259] Qamər başbuğu Teuşpanın *manda* döyüşçüsü adlanması da diqqəti çəkir (ВДИ, №1, 1947, 270); Belə ki, Orta Doğuya daha qədim çağlarda Azərbaycandan yürüşlər edən ordunun *umman-manda* qoşunları adlanması, daha sonralar isə onlara «tanrı ordusu» adı verilməsi də maraq kəsb edir. Yanılmıramsa, akad dilində *umman* «qoşun» deməkdir.

[260] Donuk, 1988, 96.

[261] Orkun, 1994, 118.

bir yaşam mücadiləsi idi. Belə ki, m.ö. XIX-XVIII əsrlərdə indiki Kərkük bölgəsinə soxulan asurlara qarşı *turuq* boylarının savaşı, minil sonra protoazər boylarının Mana elinə soxulan asur-urartu əsgərlərinə qarşı, daha sonralar Alban-Aran elinə yürüş edən rumlulara qarşı, hətta, yarımonqol olsa da, soydaşları hunlara qarşı apardığı müharibələr azadlıq savaşı idi. Bəzən «üsyan» dediyimiz olayların da çoxu azadlıq savaşının bir çalarıdır. Belə ki, Mada elini əhəməni soyundan geri alan Qam-Ata, çinliləri vahiməyə salan Kür-şad, ərəblərə direniş göstərən Babək türklərin azadlıq uğrunda şəhid olan mücahidləri idi.

Hürr yaşamı hər şeydən üstün tutan türklər əsir və ya asılı duruma düşməyi böyük bədbəxtlik sayırdılar. V. Radlova görə, «bozqır türk toplumunda elə bir hürriyət ovqatı vardı ki, ən kiçik ailə belə, başlı-başına bir dövlət sayıla bilirdi».[262] Oturaq türklər də azadlığı hər şeydən üstün tutur və müdafiə üçün qala və qalaçalar tikirdilər. Xalq arasında Oğuz və Koroğlu qalası adı ilə bəlli olan belə müdafiə istehkamları Azərbaycanın müxtəlif bölgələrində vardır.

Böyük qüvvə ilə hücum edən yağılarla savaşdan bozqır türklərinin qaçma imkanları vardı. Oturaq türklər isə öz bölgələrini ətraf xalqların və dövlətlərin hücumundan qorumaq üçün yüksəkliklərdə müdafiə qalaları və qaravul yerləri tikirdilər. Düşmən hücumu görünəndə belə yüksəkliklərdə od qalanır və tüstü ilə ətraf bölgələrə xəbər verilirdi. Azərbaycanda m.ö. II minilin ortalarından belə müdafiə qalalarının sayı get-gedə artır. Müdafiə yeri *koruq,* şəhər ətrafında savaş üçün hazırlanmış bürc *ükek* (*ükekliğ tam*), qaravul qülləsi *karğu* (*karğuy*) adlanırdı. Çox güman ki, Orta əsrlərdə bütöv Abşeronu əhatə edən qalalarda da xəbər vermə tüstüsündən istifadə olunmuşdur:



**Abşeron qalaları**
(Die Kunst Aserbaidshans, 1988, 55)

Bozqır türk boylarının otlaq yeri və yaylaq-qışlaq bölgələri ümumi mülkiyət sayılırdı və yığılan vergi də ümumi ehtiyaclara yönəlirdi. Lakin bəzən daxili vergilər lazım olan ehtiyacları ödəməyəndə bu «büdcə» kəsiri qonşu və yaxın bölgələrdə

[262] İA, XII. (2), 224.

yaşayan xalqlardan, böyük dövlətlərdən alınan vergi ilə doldurulmağa çalışılır və **yağma savaşları** təşkil edilirdi. Bunun üçün mobil ordu yaratmaq zərurəti ortaya çıxdığından yaxın boylar birlikdə belə ordunu qururdular. Tarixboyu belə birliklər vaxtaşırı yaranmış, müəyyən çağdan sonra isə dağılmışdır. Mərkəzləşmiş hakimiyəti olan turk elləri də ətraf ölkələrdən və böyük dövlətlərdən bac-xərac ilə yanaşı vergi də alırdılar. Belə ki, ətraf xalqlardan bac-xərac və illik vergi alınması türk dövlətlərində Qut elindən tutmuş islamaqədər türk ellərində davam etmişdir. Azərbaycanda dövlət quran saqalar bütöv Ön Asiya xalqlarından vergi alırdı və verməyənlərin isə üzərinə akınlar edirdi.[263]

F. Simokatta yazır ki, hun (avar) xaqanı 583-də Roma imperatorunun göndərdiyi qızıl taxtı bəyənmədi və «öncə təyin etdiyi 80 min qızıl pul dəyərindəki vergiyə daha 20 min əlavə etdi».[264] Xəzər xaqanlığı qonşu dövlətlərdən aldığı vergi hesabına muzdlu qoşun saxlayırdı. Güclü ordusu olan türklər başqalarından vergi aldığı kimi, təbii ki, zəifləmiş türk elləri də başqa dövlətlərə illik bac-xərac, vergi verirdi. Ancaq Qut elinə sumerlərin vergi verməsi, turukların Asur dövlətilə sərhəd bölgələrdən vergi alması və bu bölgələrə akınlar yapması haqqında tarixi bəlgələr qalmışdır.[265]

Ata kultuna böyük önəm verildiyi türk toplumunda əcdadların uyuduğu qəbirlərin dağıdılması ən böyük təhqir sayılır, bu işi görənlərə qarşı **öcalma savaşı** başlayırdı. Saqa elbəyi Daraya deyir ki, əgər atalarımızın qəbirlərini dağıtsaydınız, biz dərhal savaşa qatılacaqdıq.[266] Eyni durum m.ö. 79-da bir monqol boyuna qarşı hunların apardığı öcalma savaşında görünür. Atillanın ikinci Balkan yürüşünə səbəb də hun elbəylərinə aid basırıqların Bizansın Marqos yepiskopunun açıb talan etməsi idi.[267]

Yeni otlaqlara ehtiyacı olan heyvandar türk boyları başqa ölkələrin torpağına girmək məcburiyətində idi və bu giriş çox vaxt qarşıdurma və **otlaq savaşı** ilə müşayiət olunurdu. Cəvahirləl Nehru qızı İndira Qandiyə məhbəsdən yazdığı məktubda vaxtilə türk boylarından olan saqaların Hindistana gəlmə səbəbini belə izah edirdi: «Sən belə düşünmə ki, bu köçlərin məqsədi buraları tutmaq və ya yağmalamaq idi. Bu xalqlara yeni ərazilərdə məskunlaşmaq zəruri idi, çünki Mərkəzi Asiyada köçəri boy-

---

[263] Herodot, I. 106.

[264] Симокатта, I. III. 7-13.

[265] Azər xalqı, 2000, 34-38, 124; Bu barədə geniş məlumat sonrakı bölmədə veriləcək.

[266] Herodot, IV. 127.

[267] İA, XII (2). 243; Priskos, 24-25 (fraqment 2).

larının əksəriyəti çoxalıb artdıqca, yaşadığı ərazilər onların dolanışığına yetmirdi».[268] Yeni torpaqların əldə edilməsi üçün aparılan savaşların və ölkənin qorunması üçün aparılan **torpaq savaşı** idi. Çin qaynağı Metenin yararsız bir torpaq parçasını qorumaq üçün böyük savaşa başladığını yazır.

Türklər yalnız xarici qüvvələrlə, başqa xalqlarla deyil, vaxtaşırı bir-biri ilə də müharibə etmişlər. Müxtəlif səbəblər üzündən baş verən bu daxili savaşlar bəzən çox dəhşətli sonluqla başa çatırdı. Belə ki, tarixdə qamər boyları arasında, saqalarla qamərlər arasında, göytürklərdə Moyun Çor ilə Bilgə-tay arasında, İç-oğuzla Dış-oğuz arasında (KDQ), Cavanşir ilə hun başbuğu Alp İltəbər arasında **iç savaş** olayları bəllidir.

Qaynaqlara görə, pers-rum savaşlarında hansı tərəfin daha çox qızıl pul verməsindən asılı olaraq, hun atlı alayı gah perslərin, gah da rumların tərəfində vuruşa qatılırdı.[269] İki ayrı-ayrı qüvvənin savaşına qoşulub, tərəflərdən birinə kömək edən belə **yardım savaşı** bəzən türk elinə və ya türk boylarına qarşı olurdu. Belə ki, hun başbuğu Uldız 406-da Roma şəhərini xarabaya çevrilməkdən qorudusa, bir neçə əsr sonra böyük ödənc müqabilində rumlulara yardım edən 40 minlik kuman qoşunu da Bizansı çökdürməkdə olan soydaşları peçeneqləri məhv etdi.

Göründüyü kimi, türk boyları qədim çağlardan İslamaqədər azadlıq savaşından tutmuş, el qurma, torpaq, öcalma, bacalma (yağma), yardım və cahan savaşları kimi müxtəlif müharibələr aparmış, bu savaşlarda ayrı-ayrı döyüş taktikasından istifadə etmişlər. Bəzən türk boyları bir neçə ölkənin ərazisində gedən cahan savaşına cəlb olunurdu. Beləliklə, qədim türklərin müxtəlif səbəb və məqsədlə apardığı savaşların çeşidli növləri vardır:

| Savaş növləri | Savaşın səbəb və məqsədi |
|---|---|
| *azadlıq savaşı* | müstəqilliyi qorumaq və ya əldə etmək |
| *qurd savaşı* | müxtəlif məqsədli savaşda bir döyüş taktikası |
| *el qurma savaşı* | yeni torpaqlar tutub, bölgədə hökmranlıq etmək |
| *torpaq savaşı* | iç və ya dış boylarla bölgə və ya otlaq yeri üstündə |
| *öcalma savaşı* | əcdadların qəbrini təhqir edənlərə qarşı |
| *bacalma savaşı* | vergi verməkdən boyun qaçıranlara qarşı |
| *yağma savaşı* | var-dövlət əldə etmək üçün düzənlələn akın |
| *yardım savaşı* | başqa dövlətin savaşına ödənc ilə qatılma |
| *cahan savaşı* | bir çox dövlətin torpağında gedən hərbi aksiya |

[268] Неру, I, 1981, 129.
[269] Пигулевская, 1941, 149-150.

**Türklərin ordu sistemi**

Adətən, turklərin ordu sistemindən danışan uzmanlar daha çox bozqır boylarının ordu qurumunu göz önündə tuturlar. Halbuki, türklərin savaş tarixi və ilkin ordu atributları oturaq türklərlə başlanmışdır. Hələ m.ö. III minilin ortalarından görünən Subar və Aratta hərbi-siyasi qurumları oturaq türklərə aid idi. Sonralar ortaya çıxan Qut eli, Turuk bəyliyi və daha sonralar Mana və Alban elləri oturaq türklərin qurduğu dövlətlər idi. Sonrakı bölmədə bu dövlətləri quran türk boylarının apardığı savaşlar haqqında bəhs olunacaq. Hələlik isə istər oturaq, istərsə köçəri və ya yarımköçəri türk etnosunun ordu sistemində ümumi dəyərlərə köklənən cəhətlər üzərində durmaq lazım gəlir. Hər şeydən öncə, türk toplumunda qurulan el hərbi qüvvəyə, gücə (*erklik*) dayanıqlı idi və bu gücü isə xalqın silah tutub, savaşa bilən üzvləri təşkil edirdi.

Ordu sisteminin quruluşu xalqın yaşam durumu ilə bağlı idi. Oturaq türklərin hərbi qüvvəsi daha çox müdafiə məqsədli sistem düzəninə uyğun formalaşırdı. Bu sistemdə xalqın əli iş tutan üzvləri müdafiə istehkamları, qalalar və xəbərdarlıq bürcləri tikirdi. Qalaya hücum edən düşmən əsgərlərinə yuxarıdan ox-nizə atılır, başlarına daş parçası yağdırılırdı. Subar bəyliyində m.ö. 673-də asurlardan müdafiə olunan subarların qalaya yaxınlaşan düşmənin başına neft töküb yandırması bəllidir.[270] Bozqır türklərinin hərbi qüvvələri isə həm müdafiə, həm də hücum taktikası üçün münasib olan quruluşa yönəlik idi.[271]


Azərbaycanın güneyində Kişesu qalası (m.ö.VIII)

Tarixboyu bozqır türklərinin mərkəzləşmiş hakimiyəti olan dövlətə nisbətən, boy birliklərinin konfederasiyası şəklində qurulan siyasi-hərbi birlikləri daha çox və vaxtaşırı yaranmışdır. Lakin tarixi qaynaqlar daha çox Qut, Saqa, Mana, Hun, Göytürk, Xəzər, Alban və Uyğur dövlətləri kimi mərkəzi hakimiyəti olan ellərin ordu sistemindən bəhs etmiş, kiçik bəyliklərin və boy konfederasiyalarının yaratdığı yüzlərlə hərbi birliklər çox vaxt diqqətdən kənarda qalmışdır. Oturaq türklərdə insanlar sənətkar, əkinçi, tacir və sair peşə-sənət məşğuliyətinə görə ayrı-ayrı sahələr üzrə qruplara ayrılırdısa, yarımköçəri heyvandar türk boylarında hər kəs hər işi

[270] ARAB, II, § 599; АВИИУ, №67 (е).

[271] Uyğur xaqanı Moyun-Çorun müdafiə qalaları tikdirməsi bəllidir.

bacarmalı idi. Bozqır türk boylarında həm də hamı hər kəs üçün, hər kəs hamı üçün prinsipi vardı. Bu prinsip isə özlüyündə xalq və ordu birliyini ortaya çıxarmışdı. Ordu-xalq birliyi toplumun bütün sosial-siyası qurumlarını əhatə edirdi. Bu mənada, köçünü arabalarda daşıyan köçəri türklərin arxa və ön cəbhə bölgüsü yox idi: belə toplumun özü bütovlükdə həm bir elat, həm də bir ordu idi. İstər yarımköçəri, istərsə oturaq türklərdə daima savaşa hazır durum vardı, çünki hər kəs dinc vaxtlarda gördüyü işə uyğun orduda yer tuturdu. Belə ki, dinc vaxtlarda ov etmək üçün lazım olan tədbirləri görən *ovçubaşı* savaş vaxtı da ordunun ərzaq təminatı ilə məşğul olurdu. Savaşa gedən əsgər *art-el* adlanan arxa cəbhədən arxayın idi.[272] Çünki türk törəsinə görə, qazi və özəlliklə, şəhid ailəsinə qayğı göstərməyə böyük önəm verilirdi. Əsgərlərin adı və azuqəsi yazılan dəftərə *ay bitigi* deyilirdi.[273]

Hər an savaşa hazır olmaq üçün türklər müxtəlif idman yarışlarına və ovçuluğa böyük önəm verirdilər. «Av avlamaq» bir tərəfdən ərzaq təminatı ilə bağlı idisə, digər tərəfdən qarşıdakı savaşlar üçün bir məşq növü idi. Belə məşqlərdə silahlar da sınaqdan keçirilirdi. Azərbaycanda at üstündə ov etmə səhnələri hələ Qobustan qaya rəsmlərində öz əksini tapmışdır. Maraqlıdır ki, bu rəsmlərdə yaba və nizəyə nisbətən, yay-ox az yer tutur, həm də çox bəsit formada verilir:



Qobustan qaya rəsmləri (Cəfərzadə,1999)

Savaşa hazırlıq güləş və oxatma yarışlarında, cıdır meydanlarındakı at yarışlarında gedirdi. Hər bir təcrübəli əsgər bir neçə gəncə savaş fəndləri öyrədirdi. Türklər ovçuluq edəndə də savaş vaxtı lazım olan uzaqdan oxatma bacarığını məşq edirdilər. «Yata-yata yanımız ağrıdı, dura-dura belimiz qurudu» deyərək, Qazan xan belə hərəkətsizlikdən bezən oğuz bəylərini ova çağırır: «Yürüyəlim, a bəylər! Av avlayalım».[274] At üstündə dördnala çapan döyüşçü irəli, sağa, sola və

[272] Rus dilindəki «artel» sözü də buradandır (Шипова, 1976, 39).

[273] Donuk, 1988, 94.

[274] KDQ, 1962, 28.

hətta arxaya çevrilib ox atmağı bacarmalı idi. Bunu bacarmayanlar türk savaş taktikası üçün yaramırdı. Hər bir gənc həm də göstərdiyi müəyyən igidliyə görə *ər adı* alırdı. Uruzun onaltı yaşına çatmasına baxmayaraq, heç bir igidlik göstərməməsini özünə böyük dərd sayan Qazan xan oğlunu acı sözlərlə qınayaraq utandırır. Oturaq türklərdən fərqli olaraq, bozqır türkləri ata minib, ox atmağı uşaqlara 3-4 yaşından öyrədirdilər. Qaynaqların verdiyi bilgiyə görə, azyaşlı uşaqları qoça mindirib, çöl siçanına ox atdırırdılar. Döyüş məşqləri ilə böyüyən dəliqanlılar hər an *ər adını* almaq yanğısı ilə savaşa can atırdı. Herodot mad gənclərinin savaşmağı saqalardan öyrəndiyini qeyd edir ki, bu da iç oğuz - dış oğuz boylarının qovuşduğu çağlar idi.



Hər hansı bir dövlətin, ölkənin və ya bölgənin hərbi gücü savaşda düşmənə qarşı çıxarılan qoşundakı əsgərlərin sayı ilə ölçülürdü. Ksenofonta görə, Mada eli m.ö.VI əsrdə döyüşə 60 min piyada, 10 min süvari, Ərmən ölkəsinin əhalisi isə 20-40 min arasında piyada və 4-8 min süvari çıxara bilirdi.[275] Strabonun vaxtında Atropaten ölkəsinin 40 min piyada, 10 min atlı ordusu vardı.[276] Təbəri, İbn əl-Əsir və Gevond qeyd edirdi ki, 730-cu ildə xəzərlər 300 minlik qoşunla Azərbaycanda ərəblərə qarşı vuruşurdular.[277]





XV əsr miniatür rəsmi | İpək üzərində ov səhnəsi (Turfan)

Türk ordu sistemindəki özəlliklərdən biri də, dövlət adamlarının, məmurların orduda uyğun vəzifə daşıması idi. Belə ki, taleyüklü böyük savaşlarda dövlət başçısı özü orduya komandanlıq edirdi, ikinci dərəcəli

[275] Ксенофонт, 1976, II. I. 2-6; III. I. 33.

[276] Strabon, XI. 13. 2.

[277] Бүнјадов, 1989, 108.

savaşlarda isə dövlətdə yüksək vəzifə tutub, yüksək hərbi rütbəsi olanlar ordu və qoşuna komandan (*başbuğ*) olurdu.[278] Dövlət məmurları da savaş vaxtı orduda uyğun vəzifə daşıyırdılar. Beləliklə, dövlət-ordu birliyində görünən bu özəlliyi təxminən belə təsəvvür etmək olar:

| Hakimiyətdə görəv | Orduda görəv |
|---|---|
| yanzi, xaqan, elbəy, | baş komandan |
| yabğu, bilgə, atabəy | ordu başçısı (başbuğ) |
| tarkan, şad, eltəbər | ordu//qoşun başçısı (başbuğ//sübaşı) |
| tiqin, inal | qoşun, bölmə başçısı |
| buyuruq | qvardiya başçısı |
| çavuş | qoşunun sıralanmasına məsul olan |
| yasavul, qorçi | mühafizə, qaravul başçısı |

Türk ordularının çevik manevr imkanı, süvari alayları, savaşda istifadə olunan hərbi taktika bu ordularla qarşılaşan dövlətlərin, xalqların da ordu sisteminə təsir etmişdir. Belə ki, hələ m.ö. I minilliyin ortalarından sonra türk-monqol hərbi birliklərinin vaxtaşırı hücumlarının qarşısını almaq üçün dünyanın 7 möcüzəsindən biri sayılan Çin səddinin tikilməsi də bu türk-monqol qarışığı olan hunların akınlarını durdura bilmədi. Bunu görən çinlilər nə qədər mühafizəkar olsalar da, ordu sistemində reforma etməyə məcbur oldular və yeni ordu sistemində ilk dəyişiklik süvarilərə manevr etmə imkanı verən türk geyimlərinə keçmək oldu. Türklərin ordu sistemindən doğuda çinlilər yararlandığı kimi, batıda da Avropa xalqları bu ordunun bəzi özəlliklərini, xüsusilə süvari alayları sistemini öz ordularında tətbiq etməyə çalışmışlar.

Türk hərbi rütbələri sırasında *onbaşı, yüzbaşı, minbaşı, tümənbaşı* terminləri göstərir ki, qoşunlar onluq sistemi üzrə qurulmuşdur.[279] Dədə Qorqud boylarında seçmə atlı alayı anlamında «*bin bögdüz başı*» deyimi işlənmişdir. Çin qaynaqlarına görə, Metenin ordusundakı atlar rənglərinə görə sıralanırdı. Ümumiyətlə, türk ordu sistemində sıralanma və qoşun düzəni savaşın qələbə ilə bitməsində mühüm rol oynayırdı.

Rəşidəddinin qələmə aldığı «Oğuznamə» variantını rus və azər dillərinə çevirən Rəhilə xanım Şükürova Britaniya muzeyində saxlanan bir əlyazmada Oğuz ordusunun düzümü ilə bağlı bir parçanı da tərcümə

[278] «Kutadğu Bilig»də dövlət məmurları haqqında bilgi üçün bax: Əskər, 2003, 92-94.

[279] «On min başı» və «on min» anlamında *tümən* sözü rus (*témnik*), pers (*tūmān*) və sair dillərə keçmişdir (Шипова, 1976, 318; Зәринәзадә, 1962, 243); Elam çarının m.ö.VII əsrin ortalarında *Teuman* adlanması da diqqəti çəkir (АВИИУ, №76).

etmişdir.[280] Oğuzun ordusunda *urun, ünüş, savrum, küşük, solqay* bölmələri olduğunu vurğulayan bu əlyazmada ordunun *qaravul*, *yeravul*, *qol*, *ciqdavul* (və ya *ökcə*), *buxtarma* adlanan hissələrinin qarşı tərəfə doğru ardıcıl düzümü, başbuğun və tuğun olduğu və *qol* adlanan əsas orta bölümün isə *sağ qol* və *sol qol* ilə əhatə olunması qeyd olunmuşdur:




Əlbəttə, ordunun belə düzümü türklərin savaş taktikasından, döyüş yerindən və qarşı tərəfin durumundan asılı olaraq, hər bir konkret savaşda dəyişərdi. Lakin bu düzümün dəyişməz qaydaları da vardı ki, bunlardan biri də protokola görə, xaqanın sağında duranlar, savaş vaxtı ordunun sağ qol, solunda duranlar isə sol qol bölüklərində yer tuturdular. Belə ki, dövlət düzənindəki duruş yeri orduda da təkrar olunurdu və hər kəs orduda öz yerini öncədən bildiyi üçün sıralanmaya əlavə vaxt sərf olunmurdu. Protokol üzrə sağ-sol sıralanmasından başqa, böyük türk dövlətlərində ölkə də sağ-sol bölgələrinə ayrılır, biri xaqan, digəri onun təyin etdiyi canişin (yabqu, şad) tərəfindən idarə olunurdu.

Göründüyü kimi, türk ordu sisteminin əsasında xalq və dövlətlə içiçə olan birliyi dururdu. Qaynaqlarda işlənmiş terminlər türk ordusunun daxili quruluşu, düzəni haqqında bilgi verir. Belə ki, türk süvari bölükləri *alay*, müəyyən sayda əsgəri bölük *taqım,* müdafiə istehkamının arabalarla qurulması *tabur*, qoşunun mərkəzi *tüp*, bütöv qoşun *sü,* əsgərin, qoşunun

---

[280] R. Şükürova bunu «Oğuznamə»nin şərhlər bölməsində vermişdir: «Oğuzun ordusu yeddi hissəyə bölünürdü. Birinci hissə monqolca *bulçunqar*, türkcə isə *qaravul* adlanırdı. O, ordunun əsas qüvvələrinin başında dururdu. İkinci hissə monqolca *manqolay*, türkcə *yeravul*, ərəbcə isə *müqəddimət əl-ceyş* adlanır, gənc və igid döyüşçülərdən təşkil olunurdu. Üçüncü hissəni Olcay xan monqolca *baranqar*, türkcə *ön qol* adlandırır ki, bu da ərəbcə *maymana* (sağ cinah) deməkdir. Dördüncü hissəni Olcay xan monqolca *cuvanqar*, türkcə *sol qol* adlandırır ki, bu da ərəbcə *maysara* (sol cinah) deməkdir. Beşinci hissə ordunun gözüdür. O, *qol* adlanır və ordunun sağ və sol cinahları arasında yerləşdirilir. Ordunun komandanı və bayrağı (*tuğ*) burada olur. Altıncı hissə *küçüngər* adlanır və beşinci hissənin (*qol*) arxasında durur. Ona türkcə *ciqdavul*, bəzən isə *ökcə* deyilir. Yeddinci hissə monqolca *bustinqar*, türkcə isə *buxtarma* adlanır, altıncı hissənin (*küçüngər*) arxasında yerləşir. Onların ərəbcə adları yoxdur. İki ordunun rastlaşdığı yerə *qarşu* deyilir» (Рәшидәддин, 1992, 68, 96-cı qeyd).

toplanış məntəqəsi *tirilgü yer* adlanırdı. Belə terminlərin bəzisi sonralar məna dəyişikliyinə uğramışdır.[281]

Məncə, *alay* (atlı bölük) və *alaman* (yağma, talan) sözlərinin hərbi termin anlamları, m.ö. I minilin əvvəllərindən tez yarana bilməzdi, çünki sonralar yalnız cığatay dilində görünən bu sözlərin saqa-qamər boylarının qayıdışı ilə bağlı Azərbaycanda yaranmış hərbi termin anlamları doğuya miqrasiya etmiş digər türk boylarının dilində yoxdur. Alay sözündə polk, batalyon, taqım, qoşunun ön sırası anlamları isə atlı bölüklərin qoşundakı yeri və sayı ilə ortaya çıxmışdır.[282] Mada çarı Kiaksar da yüngül yaraqlı saqa-qamər atlı alaylarına uyğun qoşun növü yaratmışdı.[283]

Əgər *süvari* sözü ehtimal etdiyim kimi, *suvar* boyadı ilə bağlı deyilsə, onda hun çağından bəlli olan *sü* sözündən yarandığını güman etmək olar. «*Bəg yağıka sülədi*» (bəy yağıya qarşı vuruşdu) deyimini və «*Yağıng taba titrü bakıp bükdəñ bilə, Oğrap kalı kəlsə saña karşu sülə*» (Yağıya diqqət et, xəncərini itilə, sənə qarşı gələndə onu sülə) beytini örnək verən M. Kaşğari bu sözün əslində *süv* olub, «v» səsinin düşdüyünü yazır.[284] Qaynaqlarda qoşun çıxarmaq, ordunu irəli aparmaq anlamında *süle, sület, sü elt* sözləri işlənmişdir.[285] Bu sözdən *sübaşı, subay* (zabit) terminləri də yaranmışdır. Göytürklərdə Sübaşı İnel kağan 711-də baş komandan idi. Asur yazılarında batı subar boylarından olan kumuqlarla döyüşə aid bir mətndə *karâšu* termini işlənmişdir. Uzmanlar asurca olmayan bu sözün qoşun və ya hərbi düşərgə anlamında işləndiyini söyləmişlər.[286] Türk dilində *karasu* deyiminin «piyada qoşun» anlamında işlənməsi şübhə doğurmur, bugün də Türkiyə ordusunda eyni anlamda «kara kuvveleri»

---

[281] Bugün türk və azər ordusunda işlənən *taqım* termini *tağ* (hissə, dəstə) sözü ilə bağlı idi. Bizans ordusunda 200-400 nəfərlik bölük VI-VII əsrlərin qovuşuğunda *taqım* termini ilə *taqm* (τό τάγμα) bildirilmiş və taqımbaşı *taqmatarx* (ταγμά-ταρχος) adlanmışdır. Taqım daxilində daha kiçik bölüklərlə bağlı *hekatontarx* (yüzbaşı), *dekarx* (onbaşı) titulları da işlənirdi (Симокатта, I. XIV.5; səh. 200, 55-ci qeyd); Qoşunun mərkəzi sayılan *tüp* termini dastanlarda «hoy deyəndə ağır tüplər dağıdan» kimi deyimlərdə qalmışdır.

[282] Sonralar *alay* sözü bir çox xalqların dilinə də keçmişdir: pers, ərəb (الای , آلای), yunan ('αλλάγιον) və b.

[283] Herodot, I. 103.

[284] MK, III. 271-272.

[285] Donuk, 1988, 103.

[286] Mətndə ordu anlamında işlənən *karâšu* termini «voysko» və «polevoy laqer» kimi tərcümə edilmişdir (АВИИУ, №42, 2-ci qeyd).

deyimi işlənir.[287] Başqa bir Asur qaynağı isə Subar bəyliyi ilə savaşda *elatsu* termini ilə verilən bölükdən bəhs etmiş, uzmanlar bu mətndəki *u-par-ri-ru ka-şir-tu e-lat-su* deyimini «özünün *toplanmış qüvvəsi*» kimi tərcümə etmişlər.[288] Lakin elat-su deyimi orduya qoşulan subar elatının döyüşçüləri anlamında *elat-sü,* yəni qədim türkcə *elat* «əhali» və *sü* «qoşun» sözləri ilə işlənən «elat qoşunu» anlamında yerli termin, subar sözü də ola bilər.[289]

Güney Qafqazda ağır yaraqlı, zirehli döyüşçülər əsasən suvarlar idi. Aqafi yazır ki, başqa ölkədə vuruşan suvarlar müvəqqəti ordugah qururdular. Suvarların 554-555-ci illərdəki yürüşlərini təsvir edən yazar qeyd edir ki, onlar süvarinin başı görünən hündürlükdə ağac tirlərdən hasar düzəldib, onu dəri ilə örtür və eyni qayda ilə bu hasarın içində çadır şəkilli köşklər qururdular.[290] Belə müvəqqəti istehkamların arabalarla qurulması *tabur* adlanırdı. Tabur sistemindən adətən saqa, hun kimi bozqır türkləri istifadə edirdilər. Tarixi qaynaqlar üzrə əvəzsiz bilgin B. Ögəl türklərlə təmasda olan bir çox xalqın dilinə *tabor* şəklində keçən bu sözün monqol mənşəli olduğunu söyləyənlərə etirazını sənədlərlə ortaya qoymuşdur.[291]

Əvvəlki ordular soxsaylı mahir döyüşçülərə, çeşidli silah növlərinə malik olsa da, qoşunun daxili strukturu nizama oturmamışdı. Savaş meydanında hərbi-taktiki manevrlərin reallaşması üçün qoşundakı pərakəndə düzümdən imtina edənlər nizami orduların formalaşmasına təkan verdilər. Doğrudur, Misir, Het, Akad-Asur ordularında cəng arabaları, ox və nizə ilə silahlanmış piyada bölükləri vardı və sonralar bu ordularda süvarilər də ortaya çıxdı, lakin bütün bu qüvvələrin əksəri qarışıq halda döyüşə atılırdı. Nizami ordunun yaranması üçünsə qoşundakı bölüklər müəyyən sistemlə sıralanmalı idi. Dünyada ilk dəfə olaraq, nizami ordu düzəni qədim Azərbaycanda formalaşdı. Herodot yazırdı ki, əvvəlki durumdan fərqli olaraq, ordunu silah növünə görə, nizə tutanlar, oxçular və süvarilər üzrə bölüklərə ayıran Mada hökmdarı Kiaksar Asiyada nizami ordunun ilk örnəyini

---

[287] Hay dilində *karapet* «ordu başçısı» termini də *kara* sözünə hayca *pet* «başçı» sözü (bu da farscanın *pat* sözüdür) qoşulmaqla yaranmışdır.

[288] АВИИУ, №67 (j, k); Саркисян, 1989, 74-75.

[289] İ. M. Dyakonov *ellatsu* sözünün mətndə «svoyu sobrannuyu *v otryadı* voinskuyu silu» anlamı bildirdiyini yazır (ВДИ, №3, 1951, 222, 36-cı qeyd).

[290] Агафий, IV. 13-14.

[291] Ögel, 1991, VII. 200-202; Daşnaklarla vuruşmaq üçün Abbasqulu bəy Şadlinskinin yaratdığı *Qırmızı tabor* isə «alay» anlamında idi.

yaratdı.[292] Məhz bu ordu ilə Orta Anadoludan Orta Asiyaya qədər uzanan Mada imperiyası quruldu.[293]

Nizami ordular formalaşdıqca onun atributları da yeni mahiyyət qazanırdı. Türk ordularında şeypur (boru), sinc, davul kimi çalğı-zərb alətləri və tuğ, bayraq dövlət atributu olmaqla yanaşı, daşıdığı simvola görə, orduda hərbi-taktiki manevr üçün çox əlverişli idi. Tuğ və bayraq döyüş simvolu kimi əsgərlərə ruh verirdi, bir-birindən aralı mövqelər tutmuş bölüklərin hərəkəti bu simvollarla verilən işarə ilə tənzimlənirdi. Sarayda tuğ tutanların protokola uyğun hərəkət etməsinə nəzarət edən *tuğçubaşı* ordudakı tuğçulara da rəhbərlik edirdi. Qoşundan xeyli öndə gedən bayraqlı bölük isə *çalış* adlanırdı.




İpək bayraqlardan fərqli olaraq, dağ keçisinin tükü və at quyruğu qılından hazırlanan *tuğ* şamançılıqdan dövlət və ordu qurumuna transfer olduğu üçün onların görkəmi qamların istifadə etdiyi tuğlara bənzəyir. Türk şamanizminin böyük bilicisi A. İnan qırğız-qazax bakşılarının dualarından bu deyimləri verir: «Yürük atın kuyruğunu (qılını) tel kıldığım kopuz»… «Əsgərin tuğ tutanı Karabaş, toplanıb karma-karışık konurlar, kopuzunu kaldırıb Kaf dağından gelsen-a, Çarabaş!».[294]

Türk dillərində *bayraq*, *baydaq* şəkillərində işlənən bu dövlət-ordu simvolunu türklər həmişə uca tutmuş, ona qurbanlar sunub, alqışlar demiş, şeirlər yazmışlar. Tuğ şəklində hazırlanan *çelek* (yelək) və *boncuq* mızraq

---

[292] Herodot, I. 103.

[293] Lakin hakimiyyəti ələ keçirən perslər imperiyanın paytaxtını Həmədandan Persepola köçürdülər. Öncə bu işi Kiaksarın pers kürəkənindən olan nəvəsi Kuruş gerçəkləşdirdi, sonradan isə hakimiyyəti geri alan Qam-Atanı sui-qəsdlə öldürən yeddi pers əhəməni soyundan I Daranı taxta çıxarıb, yenidən Persepolu hakimiyyət mərkəzinə çevirdilər.

[294] İnan, 1972, 141, 143; Buradakı qam (bakşı) deyimlərindəki *Kaf* dağı, *qopuz* və *tuğ* simvollarının açımı VI Bitikdə geniş verilmişdir.

başına taxıldığı kimi, atları da onlarla bəzəyirdilər. Bayraq ucuna taxılan ipək-qumaş *tanğuk*, mızrağın ucundakı tuğ *örpək* adlanırdı. Son vaxtlara qədər türk toplumunda davam edən damğa gələnəyi bəzi bayraqlarda da görünür. Əvvəllər tuğların sayı dövlət və ordunu təşkil edən boy, bodun sayını bildirirdi. Sonralar isə bu say simvolik olaraq 3, 6, 9 tuğla davam etmişdir. 744-də uyğurlar «*üç tuğlu türk*» ordusunu yenmişdi. Orduya qatılmış hər boyun özünəməxsus simvolu onun bayrağının forması, damğası və rəngi idi. Göytürklərə məxsus qurdbaşlı bayrağın görünməsi kifayət idi ki, onu görənlərin canlarına üşütmə düşsün.

Saqa (skit) adlanan bəzi türk boylarında isə savaş bəlgəsi kimi bayrağın «ilan-əjdaha» şəklində olması haqqında tarixi bilgilər vardır. Belə ki, II əsr yazarı Flavi Arrian «Taktika» (35. 3-5) başlıqlı yazısında həmin bayrağın forma və mənasını belə təsvir edir:

> «Mızrağın uzunluğuna uyğun onun başındakı əjdaha formalı yelək saqaların (skit) hərbi bəlgəsi sayılır. Bu yeləyin qorxunc ilana oxşaması üçün başından tutmuş quyruğuna qədər ona alabəzək parça qırıqları tikilir. Bu düşüncənin məqsədi belədir: neçə ki, atlar sakit durub, yalnız mızraqdan sallanan alabəzək bir örpək görürsən, elə ki, atlar hərəkətə gəlir və külək bu örpəyin içinə dolub onu yelləndirir və atların sürəti artdıqca içinə dolan havanın uğultusu artır, onda bu bəlgənin yaratdığı mənzərə təkcə maraq və ya qorxu hissi aşılamaqla bitmir, həm də onunla hücumun yönünü müəyyənləşdirmək baxımından və ayrı-ayrı bölüklərin bir-birinə saldırmaması üçün əhəmiyətlidir». [295]

Türk ordu sistemində savaş musiqisinin və hərbi marş gələnəyinin uzun tarixi vardır. Hələ ovçuluq dönəmində Qobustan qaya rəsmlərində əks olunmuş ov öncəsi ritual yallını bu gələnəyin başlancığı saymaq olar. İnsanı cuşə gətirən havalar, ritmik-melodiya tarixboyu savaşa gedənlərin döyüş ovqatını yüksəltməyə yönəlik gələnəklərdəndir. Bugünəcən yaşayan güləş öncəsi rəqs etmə gələnəyi də keçmişdə savaş öncəsi icra edilən ritualdır. Koroğlunun da savaş öncəsi silahdaşlarına sazla döyüş ovqatı aşılaması bəllidir.


IV minilin ortası Böyükdaş. №67 (Cəfərzadə 1999, 115, 225)

Qədm türklər savaş iyələrindən uğur diləyib, döyüşə gedirdilər. İslamı qəbul etmiş türklərin də savaş öncəsi

[295] АИОСК, 1990, 132.

«adı görklü Məhəmmədə salavat götürməsi» (KDQ) bəllidir. Altaydakı Kudırge məzarından tapılan daş üzərindəki cizgi rəsmində savaşa gedən əsgərlərin atdan düşüb, savaş iyələri qarşısında diz çökərək uğur diləməsi aydın təsvir olunmuşdur: [296]



Altay. Kudırge basırığı, daş üzərində cizgi rəsmi

(Кубарев 1984, 193)

Orduda qopuz, nağara, zurna ilə başlanan çalğı alətlərinin sayı sonralar davul, gərənay, sinc, kös, boru (şeypur) və başqa alətlər ilə artdı. Belə ki, artıq Osmanlı ordusunda çalınan mehtər marşı dünya savaş tarixində əvəzi olmayan bir qürurverici möcüzə idi.

Beləliklə, qaynağını ən uzaq keçmişdən alan savaş musiqisinin türk ordu sistemində özəl yeri vardır. Döyüş vaxtı müəyyən manevr və taktiki gedişlər də davul, boru səsilə tənzimlənirdi. Lakin çalğı alətlərinin orduda klassik rolu savaş öncəsi ritualla bağlıdır. Belə ki, Dədə Qorqud bahadırları hər dəfə savaş öncəsi bu gələnəyi təkrar etməli olur: «Gümbür-gümbür naqaralar dögildi, burması altun tuc borılar çalındı».[297]

Türklər yalnız savaş üzrə deyil, müdafiə ilə bağlı da möhkəm mühafizə sistemi yaratmışdılar. Oturaq türklərdə müdafiə, əsasən, qalaların mühafizəsi ilə bağlı idisə, bozqır türklərində xaqan köşkünün və yurdun qorunmasında görəvli olan özəl bölüklər bu işi həm də orduda görürdülər. Türk dövlətçilik və ordu sistemində təkcə mühafizə və gözətçilərlə bağlı xeyli termin vardır: mühafizə alayı *yortuq,* sarayı və xaqanı gündüz qoruyanlar *turgaq,* gecə mühafizəçiləri *yatqaq,* iki saatlıq növbə vaxtı isə *küzet* adlanırdı. Çin qaynaqlarına görə, Göytürk kağanının mühafizə dəstəsində olanlara, kağanı qoruyanlara *börü* deyilirdi.[298] Qədim türk dilində növbə vaxtı oyanıq olma anlamında işlənən *sakçı* (*sak-sak*) deyimi azər

---

[296] Elmi ədəbiyatda savaş tanrısı ( iyəsi) kimi verilən teonim və demonimlər haqqında V Bitikdə bilgi verilmişdir. Özəlliklə, savaşla bağlı qədim lulu və sonra hun boylarında görünən Kiur//Kuər teonimi, sonrakı türklərdə Humay və Bozqurd mifləri geniş izah olunmuşdur.

[297] KDQ, I. 114.

[298] Ögel, 1991, VI. 19.

dilində *səksəkə* formasında qalmışdır. Sarayda protokol qaydalarını tənzimləyən, toya gələnləri yerbəyer edən, savaş vaxtı isə orduda qaravulbaşı olan *yasavul* termini bir sıra xalqların dilinə də keçmişdir.[299] *Bəkçi, karakçı, gözətçi, qaravul* terminlərindən son ikisi azər dilində qalmışdır.

M. Kaşğariyə görə, savaşda qoşunun sıralanması ilə məşğul olan çavuşlar dinc vaxtlarda əsgəri zülm etməyə buraxmayan nəzarətçilər idi.[300] Çin qaynaqlarında *ço-pi-şe* (P. Pelliot) şəklində yazılan *çavuş* titulu azər dilində bugünəcən işlənir. Qaynaqlarda çavuşun elçi statusu ilə başqa dövlətə göndərilməsi də qeyd olunmuşdur. Görünür, çavuş da yasavul kimi protokol qaydalarına nəzarət edən məmur tituludur. Türklər savaş vaxtı agenturadan da istifadə edirdilər. Bu iş kəşfiyatçı, agent anlamında olan *körüklərə* tapşırılırdı. Tonyukuk yazısındakı «Türkiş kağanta *körük* kəlti» deyimində söhbət xəbər gətirən kəşfiyatçıdan gedir.

Türk ordu sistemində onbaşıdan tutmuş tümənbaşıya qədər onlarla titul vardır və bu titulları daşıyanlar layiqli hərbçilərdir. Lakin ordunun zabit tərkibi nə qədər zəngin olsa da, türk ordusunun gücü türk əsgəri idi. Ordu mənasında *cərik* sözü sıralanma, cərgələnmə, düzülüş anlamından törəyən «əsgər» anlamlı *çəri//çeri* sözündən yaranmışdır, *yeniçəri, çerikbaşı, çeribaşı* sözü də buradandır. «Qara-Göne *çeri başı* oldu"». [301]

Yeniyetmə yaşlarından əsgəri təlim-tərbiyə ilə böyüyən, döyüşdə şəhid olmağı şərəf bilən türk əsgərinə dastanlar qoşulmuş, igidliyi öyülmüşdür. Bu öygülər təkcə türk dilində deyil, asur, yunan, latın, çin, ərəb, rus və başqa dillərdə yazılmış tarixi qaynaqlarda da əks olunmuşdur. Vaxtilə Misir fironu öz ordusunda qaşqay döyüşçülərini görmək istədiyi kimi, sonralar Bizans, Çin, Pers, Ərəb hökmdarları da türk əsgərlərindən çox yararlanmışlar. 591-də pers şahı Xosrov döyüşdə əsir aldığı bir qrup xristian türkü «qələbə» ərməğanı kimi imperator Mavrikiyə göndərmişdir.[302] Bir sözlə, türk əsgəri *ərdəmli* idi. Göytürklərin Altıngöl yazısında «ərdəmli millət güclü olur» deyimi əsgərə güvəncdən doğmuşdu. Türk əsgərinin *alp, ərən, alpər, bahadır* epitetləri çox qədim çağlardan bəllidir və bu igidlik sanları bir sıra qonşu xalqların dilinə də keçmişdir.

---

[299] Bəzi dialektlərdə *yasavur* şəklində də görünən yasavul sözünün praforması **yasaq-ul* ola bilər.

[300] MK, I. 368; Yunandilli yazılarda τζαούσης və τζαούς şəklində keçən bu titul *kuryer* (xəbər aparan) anlamında da işlənmişdir (Moravcsik, II, 308-309).

[301] KDQ, I. 239.

[302] Симокатта, V. X. 13-15.

Herodot Spartada 20-30 yaşlı döyüşçülərin *iren* (ərən) adlandığını qeyd edir.[303] Turklərin bu qədim *ərən* sözü hələ sumer çağından bəllidir. Sumer yazılarında «əsgər» anlamı ERİN yazılışı ilə verilir.[304] Türk dillərinin əksərində işlənən *alp* sözünün hələ prototürk çağında «alplıq» kultu ilə bağlı yarandığını düşünmək olar. Qədim türk abidələrində qəhrəman, bahadır, igid anlamı ilə görünən bu əsgəri termindən *alpağu, alpər* sanı da törəmişdir. «Xaqanın mühafizə olunmasında *alpağulara* xüsusi üstünlük verilirdi… Onlar təkbaşına düşmən qoşunu içərisinə girir və onlarda qorxu yaradırdılar».[305] Düşmən sıralarını, müdafiəsini yaran igidləri *tüpdağıdan, halaypozan, sökmən* epiteti ilə də yad edirdilər və bunlardan *sökmən* sonralar əsgəri sana çevrildi. Özəlliklə, azər türklərində yalnız dialekt fərqi ilə görünən eyni anlamlı *ərən* (aran) və *alpan* etnonimlərini daşıyan boylar Quzey Azərbaycanda Aran//Alban dövlətini quranlardır.

Alp kultu gələnəyi ilə bağlı *alp* sanı alan ərənlər, alp-ərənlər, alp-ərlər öləndə onlara bengü-daş qoyulur, ağıtlar deyilir, dastanlar qoşulurdu. İlk alp sanı alanlardan biri də Alpər Tunqadır.[306] Onun ölümünə deyilmiş ağıtı minillərlə saxlayan xalqın söz yaddaşından yazıya M. Kaşğari köçürmüşdür.[307] Ərənlərin öldürdüyü düşmənlərin sayı qədər «balbal» qoyulurdu.[308] Sadəcə, insan fiquruna oxşadılan kobud yonma ilə düzəlmiş balbaldan fərqli olaraq, «daşbaba» adlı bəngü daşlar isə bu şəkillərdən də göründüyü kimi, əlində kasa tutan ərənlərin özünü təsvir edirdi:

Altay daş heykəlləri (Кубарев, 1984)



Toto, №121 Kulada, №48 Kıpçıl, №198



Arqut, №173 Kara-Dyurqun, №120 Ardun-tebe, №221

---

303 O, saqa (skit) dilində də «ər» anlamlı *eor* sözünü qeyd edir (Herodot, IX, 85; IV.110).

304 Tosun-Yalvaç, 1989, 306.

305 Әскәр-Гыпчаг, 1996, 55.

306 Təbəriyə görə, perslərin Əfrasiyab adlandırdığı Alpər Tunqa m.ö. XIII-XII əsrlərdə Xızır və Musa peyğəmbərlə eyni çağda yaşamışdır (Taberi, II. 533, 648-652).

307 MK, I. I 41, 160, 486.

308 Бичурин, I. 230.

Türk əsgəri haqqında çin qaynağında «Göytürklər savaşda ölməyi şərəf sayırlar, xəstələnib ölməkdən isə utanırlar» deyimi işləndiyini xatırladan L. Rasonyi pers qaynağından da bu örnəyi verir: [309]

> «Yabançı bir ölkəyə gedən qəribi fəna aqibət gözləyir, bunun əksinə türklər bir müsəlman ölkəsinə getdiyi zaman orada sayqı görür; əmir və ya orduya komandan olur. Həzrəti Adəmdən bugünə qədər para ilə satın alınan əsirin sultan olduğu heç bir yerdə görünməyib, türklərdən başqa».

Türk ordu sisteminin başucalığı onun əsgəri ilə bağlı idisə, əsgərin də güvənci silahında idi. Türk dilində silah anlamında *kur, tolum, yaraq-yasaq* terminləri işlənmişdir. Türk əsgərinin yaraq-yasağı da çoxçeşidli olub, gözəl epitetlərlə tanınmışdır. KDQ-da bunlardan bəzisi belə sadalanmışdır: [310]

Koñur atıñ vergil maña,
Altmış tutam ***göndəriñi*** vergil maña,
Ap-alaca ***kalkanıñı*** vergil maña,
Qara polad üz ***qılıcıñ*** vergil maña,
***Sadağında*** səksən ***oxuñ*** vergil maña,
Ağ tozluca qatı ***yayıñ*** vergil maña.
Əgni bərk ***demür tonuñ*** maña vergil,
Yiñ yakalar dögdürəyim səniñ üçün.
Qara polad üz ***qılıcıñ*** maña vergil,
Qafillücə başlar kəsəyim səniñ üçün.
Qarğutalı ***süngüñü*** maña vergil,
Köksündən ər sancayım səniñ üçün.
Ağ yelekli ***oxun*** maña vergil,
Ərdən-ərə keçirəyim səniñ üçün.



**Lulu elbəyinin yaraqları**
(m. ö. XXIII əsr)

Türk ordusunda yaraq-yasaq kulturunun formalaşması çox qədim çağlardan başlanmışdır. Şəkildə lulu elbəyinin yay-ox və kəmərinə taxdığı tunc balta ilə silahlandığını görmək olur. Hələ daş dövründə sümük, ağac və daşdan hazırlanmış bəzi yaraq-yasağın adı sonra mis, tunc, dəmir və polad silahların adına keçmişdir. Belə ki, *süngü*, *sancaq*, *balta* sözləri prototürklərin daş dövründə işlətdiyi alət adlarından qalmadır.

---

[309] Rasonyi, 1996, 65-66.
[310] KDQ, I. 104, 221; 1962, 34, 127.

Eneolit çağından üzübəri bir-birinin ardınca zaman-zaman mis, tunc, dəmir və polad kimi metalların kəşfi silahların keyfiyətini xeyli artırdı. Yuxarıda bəzi türk boylarının metalişləmə sənətində irəli gedib, mahir dəmirçi və zirehçi kimi tanındıqlarından bəhs etmişdik. Metalla bağlı bir sıra sözlər Qıpçaq Çölü ilə kontaktı olan xalqların dilinə Ön Asiyadan bu sənəti doğu və quzey yönlərə daşıyan türklərdən keçmişdir. Rus alimləri yazır ki, «çuqun tökmə sənətini, həm də əla keyfiyətlə, Avropada başqa xalqlardan öncə bulqarlar mənimsəmişdi».[311] Dəmirin ortaya çıxmasından öncə metal anlamında işlənən *dəmir* sözü sumer (*tibira*) və çin (*tieh-fan*) dillərinə də keçmişdir. Güney Azərbaycanda yaranan polad sözü isə bir sıra xalqların dilinə keçib, sözyaradıcılığında aktiv işlənir.[312]

İkiçayarasında artıq IV minildə metal bıçaq, balta vardı. Tunc çağı metalişləmə sənəti III-II minillərdə Azərbaycanın əksər bölgələrində görünür. Özəlliklə, bu çağlarda Luristan və Talış bölgəsində hazırlanan silahlar daha təkmil idi.

O. A. Daniyelyan Xocalı-Gədəbəy kulturuna aid m.ö. II minilin ortaları və m.ö. I minilin əvvəllərində hazırlanan xəncərləri doqquz tipə ayırmışdır.[313]

Təəssüf olsun ki, bu kulturu əks etdirən kurqanlardan çıxarılmış silahların çoxunu Gədəbəyin misəritmə zavodunda işləyən V. Belk XIX əsrdə Almaniyaya göndərmişdir: [314]


M.ö. II minilin sonu - I minilin əvvəlinə aid Gəncə-Gədəbəy kurqanlarından çıxan balta, yaba, qarmaq, ox və nizə ucluqları(Qalakənd, 1999)

[311] Арцеховский, 1955, 234.

[312] Меликишвили 1968, 124; Bu baxımdan, qədim subarların quzey bölgəsində *Teburzi* və Cudi dağdakı *Tumur* toponimləri diqqəti çəkir (ТУ, 182, 190). «Quran» (57-ci surə) dəmiri göy cismi adlandırır. Doğrudan da, çağdaş elmə görə, qədimdə lazım olan istilik dərəcəsi ilə alına bilməyən dəmir külçələri zaman-zaman göydən düşən Meteorit parçalarıdır. Koroğlunun Misri qılıncı motivi də həmin görüşlə bağlıdır.

[313] Даниелян, 1987, 22-34.

[314] Qalakənd, 1985; (1999).

Mütəxəssislər m.ö. II-I minillərin qovuşuğunda Güney Qafqazın batı bölgəsindən başqa, əksər bölgələri ilə Güney Azərbaycan silahlarının eyni olduğunu yazırlar.[315] Protoazər boylarının etnik birliyini sərgiləyən bu fakt həm də həmin boyların bir-birilə yaxın əlaqəsini və metalişləmənin inkişafını göstərir. Gədəbəydən Almaniyaya aparılan silahlar içində bu tip xəncərlər vardı:



Erkən Dəmir dövrü Gəncə-Gədəbəy kurqanlarından çıxan xəncərlər və xəncər qını (Qalakənd, tablo №18-54)

Saqa (skit) dilində xəncər anlamlı ακινάκης (akinak) sözü hər iki tini iti olan *kınqırak* (qəmə) və m.ö. çin dilinə keçən *kung-lu* (qılınc), sonralar rus dilinə keçən *kinjal* (xəncər) sözləri ilə bağlı ola bilər. Azər dilində *xəncər* sözülə adlanan bu silahı bəzi türk qaynaqları *bögde* və *bükte* sözülə verir: «*anı bükdələdi*» (onu xəncərlədi).[316]

Hunlar düz, göytürklərsə əyri qılıncdan istifadə edirdi. Qılınc-xəncər qabı *qın*, qılıncın qəbzəsi *balçaq,* qılınc asılan kəmər *karaçur* adlanırdı. Azərbaycanda hələ dəmir xəncər-qılıncdan öncə mükəmməl tunc xəncərlər vardı:



**Tunc xəncərlər, m.ö. XV əsr. (Azer. MKS, I. №1. №3)**

«Altın-arıq» adlı xakas eposunda fit verən deşikli və üçpərli ox ucu *sır çöme,* dəridən tikilən" oxqabı *saadak,* bir qarışa yaxın dəmir ucluqlu cida *süüm sini çıda* deyimlərilə yanaşı, *xara molat xılıs* (qara polad qılıc) ifadəsi vardır. Qılıncla bağlı bu son deyim Dədə Qorqud kitabında «*qara polad üz qılıc*» şəklində çox işlənir. Burada fit verən ox haqqındabəlgə də

315 ИИГК, 1971, 190-197.

316 MK, III. 352; Monqolca qılınca *kituqa,* oxa *num* (< numun), tunqusca qılınca *komo,* oxa *barq* deyilməsi də bu dillərin türklərdən fərqli arealda formalaşdığını göstərir.

çin qaynaqlarında Metenin fit verən ox düzəltməsi məlumatını təsdiq edir. Fit səsi çıxarmaq üçün oxa bağlanan üç yanı deşikli hissəni bildirən *sokım* terminini M. Kaşğari belə izah etmişdir: «Bir ağac parçası cam qozası şəklində kəsilərək içi oyulur, üç tərəfindən deşik açılaraq oxun üzərinə bərkidilir».[317]

Əvvəlki oxlardan daha uzağa yeni ox atışı *çuram,* buynuzdan olub, yayın iki bağlanan yerinə, ipin altına qoyulan hissə tuva dilində *tenke* adlanırdı. KDQ-da «ağ yeləkli ötkün ox», «üç yeləkli qayın ox», «ağca tozlu qatı yay» deyimləri və ox ucluğunu bildirən *dəmrən* sözü vardır. Ümumiyətlə, yay-oxla bağlı yaranmış çoxlu terminlər qədim türk qaynaqlarında işlənmişdir:

| | |
|---|---|
| *koğuş* | ox qayırmaq üçün kəsilən ağac |
| *kovşama* | koğuşun yağlanması |
| *karvi* | incə bir yay növü |
| *toz* | yayın kirişi |
| *bağır* | yayın orta hissəsi |
| *başak* | ox və nizə ucluğu |
| *gez* | oxun kirişə taxılan kəsik, kərtik yeri |
| *yök, yüg, yüng* | ox yeləyi |
| *dəmrən, təmrən* | ox ucluğu |
| *temürgen* | ox ucluğu, dəmrən |
| *tili* | dəmrən üzərindəki sarğı |
| *çırquy* | dəmrənin qabarıq hissəsi |
| *kesme* | dəmrəni enli ox |
| *katutluq* | dəmrəni zəhərli ox |
| *ulun, kalva* | dəmrənsiz ox |
| *azak, azuk* | haradan atıldığı bəlli olmayan (azmış) ox |
| *ayrıc* | iki çatallı ox |
| *çığılvar* | balaca ox |
| *sadaq, okluq* | ox qabı |
| *bilük* (*belik*) | ox qabı |
| *kurukluq* | ox qabı |
| *keş* (*kış*) | ox qabı |
| *kış kurman* | yay-ox qabı |
| *yasık, gedeleç* | yay qabı |


Hun döyüşçüsü
(Худяков, 1986, 198)

[317] MK, I. 397-398; Yunan qaynaqlarında «ox» anlamında *saqitta* (Xerson epiqrafik yazılarında *saqit*) sözünün işlənməsi skit (saqa) boylarına məxsus ox ilə bağlı ola bilər.

Türk dövlətçilik gələnəyində hakimiyətin (*yay*) və hakimiyətə tabe olanın (*ox*) simvolu kimi önəm daşıyan yay-ox həm də inanc sistemində yer tutur. Belə ki, türk toplumunun bəzi boylarında qılınc və yay-ox kultu vardı.[318] «Altay-kişi, teleut, şor və xakas mərasimlərində istifadə olunan *yay-ox* simvolu uşaqların himayəçisi işıqlı tanrı Humayla assosiasiya olunur».[319]

Turk yaraq-yasağı içində qılınc-xəncərlə yanaşı, xeyli deşici-kəsici silahlar vardır: *sancaq, qarmaq, cida* (nizə), *yarınca* (mızraq), *göndər* və *süngü*. Bunlardan yalnız cida sözü türk və moqol-tunqus (*cida/qida*) dillərində paralel işlənir. Qısa mızrağa, cidaya *kaçut* deyilmişdir. Hunlar qısa, göytürklərsə uzun cidadan istifadə edirdilər.[320] Qarğı, sur, almas və altun təyinləri ilə işlənən cida türk döyüşçüsünün əsas silahlarından idi. Cida sözü macar (*dsida*), slavyan dillərinə (*djida*) də keçmişdir.[321] «Kütəlmiş cida» deyimi onun sürəkli işləndiyini göstərir. Mızraq, qarğı anlamında *gönder* termini də işlənmişdir: «Altmış tutam ala gönderin koltuğ(una) kısdı, Aruza bir gönder vurdu».[322]

KDQ-da «ağ sancaqlı alay» deyimində göründüyü kimi, sancaq həm də ucuna tuğ-bayraq asılan savaş bəlgəsi idi. Ucluğu öncə sümük (*süñük*) olduğu üçün *süngü* şəklində işlənən bu qədim silahın adı azər dilində bugünəcən qalmışdır. Türk dillərində *süñü, sünüg, süngü* şəklində işlənən bu söz cida, mızraq, nizə sözlərinin sinonimidir. M. Kaşğari başlığı olan süngünün «başaklığ süngü» adlandığını qeyd edir.[323]

Görünür, «sancaq» və «bayraq» anlamında sumercə *badara* sözündəki ilkin sancmaq//batırmaq anlamına uyğun türk dillərində bayrağın da *badıraq variantını praforma saymaq lazım gəlir. Daş dövründən işlənən daş balta, sonra metal balta yaraq-yasaq sırasında önəmli yer tutmuşdur. İki ağızlı metal *təbərzin* (sekira) isə sonra ortaya çıxmışdır. IV-III minillərdə metal balta İkiçayarasından geniş areala yayıldı və türkcənin *balta, balqa* sözü sumercə *balaq*, akadca *pilaqqu* şəklində işləndi, het dilində isə *malatti* «döyüş silahı» anlamı qazandı.[324] Görünür, «təbərzin» anlamı

---

[318] Bu barədə geniş bilgi «Qılınc kultu» adlı məqalədə verilmişdir (Чəлилов, 1989 a).

[319] Гричан, 1987, 196.

[320] Bu baxımdan, «cidanı çuvalda gizlətmək olmaz» deyimi diqqəti çəkir.

[321] Этимология, 1975, 94.

[322] KDQ, I. 250.

[323] MK, I. 497.

[324] Friedrich, 1952, 133.

ilə yunan dilində işlənən *pelek* (πελεκυς) sözünün mənşəyi də İkiçayarasına gedib çıxır. Ksenofont yazır ki, Astiyaqın nəvəsi Kuruş hələ balaca uşaq ikən ona *palton* (παλτόν) silahı bağışlamışdılar.[325] Türkcənin balta sözü kimi, *bıçaq* sözü də tibet, ərəb, pers, rus və sair dillərə keçmişdir.[326]

Savaşda *oğan* (arkan) işlədən türk süvariləri ondan bacarıqla istifadə edirdilər. Alban elinin Qarqar düzündə aparılan savaşda belə döyüş səhnəsini M. Xorenatsi təsvir etmişdir. O yazır ki, barsil bəyinin atdığı arkan hədəfi dəqiq tutdu.[327] KDQ-da «altı pərli kürz» deyimi işlənir. Azər dilində daha çox *toppuz* şəklində tələffüz edilən topuz da qədim silah növlərindəndir. Asur qaynağında (m.ö. IX əsr) *Lapturu Tubusu* adında topuz sözünün işləndiyini güman edən Ş. Günaltay bunun *Topuz* (oğlu) *Alpturu* ola biləcəyini qeyd edir.[328]

Qədim türklər dəbilqə (şlem) anlamında *tolqa//tulqa,* dəmir başlıq anlamında *ışuk* sözlərini işlətmişlər. Bunun *tuğulga* variantı da vardır: «Başındakı *tuğılğanı* nə ögərsin, mərə kafir, başımdakı börkümcə kəlməz maña» (KDQ). Başında tulqası, əynində zirehli donu olmayan döyüşçüyə *başnak ər* deyilirdi. Tulqanın altından başa qoyulan nəsnə *kedük*, dəridən düzələn qalxan *tura,* qalxanı başına tutmaq isə *yapınmaq* adlanmışdır.

Beləliklə, m.ö. III minillikdən formalaşmağa başlayan sosial-siyasi qurumlara dayanıqlı türk ordu sisteminin oturaq və yarımköçəri etnik özəllikləri yaranmış, ordu düzəninin daxili quruluşu möhkəm nizam-intizama əsaslanmışdır. Müəyyən inanc və dövlət atributlarının da orduya transfer olunması, çalğı alətləri, bayraq-sancaq protokolu bu nizam-intizamı törə gələnəyinə salmışdır. Tarixboyu türklərdə çoxlu yaraq-yasaq növləri yaranmışdır. Türk ordusunun təməlini süvarilərin təşkil etdiyini və azsaylı *yayaların* (piyada) isə köməkçi işlərlə məşğul olduğunu vurğulayan İ. Kafesoğlu yazır: «Bundan dolayı da türk ordularının yetişdirilmə tərzi, hazırlıq təlimləri və müharibə taktikaları yabançılardan tamamən fərqli idi».[329] Müxtəlif səbəb və məqsədlə çeşidli savaş növlərində iştirak edən türk ordusunda özünəməxsus savaş taktikası yaranmışdır.

---

[325] Ксенофонт, 1976, I. III. 7; Lakin tərcümədə bu söz *nizə* (kopye) sözü ilə verilmişdir. Halbuki körpə uşağa nizə yox, balta verilə bilərdi.

[326] Этимология, 1980, 131.

[327] Хоренаци, 1858, 151.

[328] Asur qaynağı Kaşiyar dağı yaxınlığındakı bölgə bəyinin adını *Lapturu Tubusu* kimi və buradakı müasir Matra şəhərinin adını *Matara* şəklində verir (АВИИУ, №26).

[329] Kafesoğlu, 1989, 270.

**Savaş taktikası**

Türklərin istər şəhərli, oturaq, istərsə də bozqırlı qismi savaşdan daha çox *barış* durumuna üstünlük verir, yalnız zəruri hallarda savaşa qatılırdılar. Protoazər boylarından yalnız *turuk* boyunun asurlara qarşı akınları haqqında tarixi bəlgələr vardır. Mana çağında asur və urartulara qarşı aparılan müharibələrdə isə zəbt olunmuş bölgələri geri qaytarmaq uğrunda vuruşurdular. Bozqır türklərinin savaşı da yuxarıda bəhs etdiyimiz savaş növlərilə bağlı idi. Lakin tarixboyu müharibə şəraitində yaşamış türklər yaxşı savaşmağı bacarmaq zorunda idi və ona görə də yeniyetmə və gənclər əsgəri təlim-tərbiyə ilə böyüyürdü.

Türk hərbçilərinin dilindən qaynaqlar yazırdı ki, «böyük və şərəfli hərbçiyə 9 heyvanın keyfiyəti lazımdır: toyuq üstünə atılan xoruz qızğınlığı, şir ürəyi, vəhşi qabanın hücumu, tülkü hiyləgərliyi, it səbri, qartal yüksəkliyi, durna sayıqlığı, qurd yırtıcılığı, çətin və fəlakətli durumda belə yeməkdən əl çəkməyən Xorasan noğayrının iştahı».[330]

Döyüşçüyə *ərən*, *urunqu* deyən türklər dördnala hücumu, basqını *ilqar* (yılqar), mühasirəni *egirmə, egrilmə,* məğlub etməni *yeñmə* adlandırırdılar. Savaşda öndə gedən süvari kəşfiyat qoluna *yelme*, qarşıda pusqu və ya düşmən qüvvələrin olub-olmadığını yoxlamaq (*yol yelimləmək*) üçün öndə gedən bölüyə *yizək* (*yezək*), dirənişə *keriş,* pərakəndə şəkildə icra edilən çapula *yalıman*, əsgərə kömək üçün göndərilən əlavə qüvvəyə *yetüt* deyilirdi.

Gecə düşmənin qaravul və ön cəbhə əsgərlərini yaxalamaq üçün *tutqak* adlanan öncül atlı bölüklər olurdu. Düşmən cəbhəsindəki durumu öyrənmək üçün tutulub gətirilən düşmən döyüşçüsünə *tıl* «dil» deyilirdi. Türklər adətən qəfil hücumları gecə ikən edirdilər. Yağmurlu havada isə savaşa girmirdilər, çünki yağış kirişi isladıb yumşaldırdı, boşalmış yayla atılan oxun hədəfi dəqiq vurması çətinləşirdi.

Türklərdə savaş taktikasının yaranmasında atın və yay-oxun böyük rolu vardı. Süvarilərin uzaqdan yağdırdığı ox yağışına tab gətirmək çox çətin idi. Türk ordusu savaşda müxtəlif taktiki üsullardan istifadə edirdi. Bunlardan birini M. Kaşğari belə verir: «Savaşda *ülker-çerig* deyilən bir kurnazlıq (hiylə) vardır: əsgərlər hər yandan bölük-bölük toplanır, birisi irəliləyincə ötəkilər də ona uyur, bu hiylə ilə yenilmə işi az olur».[331]

---

[330] Əскəр - Гыпчаг, 1996, 38.

[331] MK, I. 95.

Türk dövlət və ordu başçıları qoşunu mənasız savaşlarda tələf olmaqdan qoruyurdular. Əlacsız qalanda mübahisəni həll etmək üçün hər iki tərəfdən bir nəfərin meydana çıxıb təkbətək döyüşməsini təklif edir və qalib tərəf bu döyüşün nəticəsi ilə müəyyən olunurdu. Bu taktikanın ilk örnəyini qədim Azərbaycanın Aratta elində görürük. Sumer (Uruk) çarı Enmerkar Aratta elinin ona tabe olmasını təklif edəndə, Aratta elbəyi deyir ki, sən də öz pəhlivanını çıxar meydana, mən də. Hansı qalib gəlsə, onun ölkəsi qalib, o biri tərəf isə məğlub ölkə sayılsın.[332]

Sonralar «Şahnamə» bu taktikanın Turan elində geniş istifadə olunmasından bəhs edir. Təkbətək döyüşə çıxan bahadırlar isə çoxlu fəndlər bilməli idi. Koroğlu eposunda «77 fənd» deyimi mübaliğəli olsa da, buna işarə edir və ümumiyyətlə, təkbətək döyüşün şişirtmə təsviri təbii sayılmalıdır. «Alban tarixi» kitabında yağmaya gedən onoqur boyundan bir bəyin «Bu qırğın kimə lazımdır? Çıx qabağıma üz-üzə gələk!» - deyə, İran şahı Şapuru təkbətək döyüşə çağırması verilmiş, onun görkəmi isə belə təsvir olunmuşdur: Həmin hündürboylu hun nəhəng bir adam idi; böyük bədəninə əlli qatlı zireh geyib, iri başına mismarlı dəbilqə keçirmiş, üç qarış olan enli alnını misdən qayırılmış lövhə ilə örtmüşdü. Nizəsinin sapı uzun ağacdan idi, şimşək çaxan qılıncı isə onu görənləri dəhşətə salırdı.[333]

Türklər bir ölkəni tutmaq üçün öncə ora azsaylı bölüklərlə kəşfiyat xarakterli yağma akınları edirdilər və bu akınlar vaxtaşırı təkrar olunurdu. İ. Kafesoğlu demişkən «*bu yağma və yıpratmalardan moralı pozulan*» ölkə əhalisini çaşqın durumda məğlub etmək xeyli asanlaşırdı. Türklərin savaş taktikasından biri də gecə vaxtı qəfil hücum idi: «Qırğız xalqına, türkiş xalqına *yuxuda ikən* hücum etdik» (Kültegin). Tarixdə türk ordusunun gecə vaxtı belə «qəfil hücum taktikası» ilk dəfə m.ö. XIX-XVIII əsrlərdə asur qaynağında qeyd olunmuşdur. Mari arxivində üzə çıxan bu sənədlərdə asur çarı I Şamşi-Adadın (1813-1781) oğluna yazdığı məktubda bu dəfə türk (turuk) döyüşçülərinin qəfil hücum taktikası ilə vuruşacaqlarını belə yazır: «Yatanı oyadan, oyanana aman verməyən *turuklar* kimi edəcəyik».[334]

«Düşmənin üstünə yel təki əsən atlı əsgər» (Koroğlu) ilə vaxtaşırı qarşılaşan çinlilərə aid qaynaqda «fırtına kimi ortaya çıxıb, şimşək kimi qeyb olan hun əsgəri» deyiminin işlənməsi təbii idi. Akın sözünü «qəfil

[332] Белицкий, 1980, 84-85.

[333] Kalankatuklu, 1993, 30.

[334] Dossin, 1950, 48-49 (16 №-li tablet); Bayram, 1988, 95.

sel» kimi izah edən M. Kaşğari *akınçı* termininin yozumunu gecə vaxtı ansızın sel kimi gələn əsgərə «*akınçı gəldi* deyilir» şəklində vermiş və «*Bəg akınçı akıttı*» (bəy akınçı göndərdi) misalını örnək göstərmişdir.[335]

Gecə vaxtı ayrı-ayrı hissələrin bir-birilə çarpışmaması üçün orduda türklər tərəfindən düşünülmüş quş və yaraq adlarından biri «parol» kimi işlənir və buna *im* deyilirdi. Belə bir atalar sözü də vardı: «İm bilsə ər ölməz».[336] İmdən başqa, orduda bir şüar, hayqırtı, qıyya vurma formasında *uran* gələnəyi də vardı: Ur a! (Vur a!).

Hücuma səsləyən «ura»ın əksi olaraq, bir Bizans qaynağında qeyd olunmuş «*dur a*!» deyimi vardır. F. Simokatta qeyd edir ki, yürüşdə avar döyüşçüləri çox irəli gedənlərin dayanması üçün öz dillərində «*torna, torna*» deyirdilər.[337] Göründüyü kimi, VI əsrin sonlarına aid bu olayda «durun a!» deyimi işlənmişdir.

Əsasən barış tərəfdarı olan türklər yalnız məcburiyət qarşısında müharibə edirdilər. «Savaşda isə seçim haqqı türkün əlində olurdu».[338] Ona görə də istədikləri savaş taktikasını işlədə bilən türklər daha çox «Turan taktikası», «Bozqır savaş taktikası» və «Qurd savaşı» adlanan savaş üsulundan istifadə edirdilər. Turan taktikası ilə qurd savaşı deyimlərinə aydınlıq gətirən yazarlar doğru olaraq qeyd edirlər ki, elmi ədəbiyata *Turan taktikası* adı ilə daxil olan bu savaş növünə xalq *qurd oyunu* deyir, qurd savaşı bütövlükdə türk savaş üsullarını bildirən Turan taktikasının yalnız bir üsuludur.[339]

Qurd öz ovunu pusquda durmuş qurdlara tərəf qovduğu kimi, qurd savaşının məqsədi də düşməni aldadıb, onu öncə pusqu (*yaşlaq*) qurulmuş yerə çəkmək idi. Bu oyunu yaxşı bacaran döyüşçülər düşmən qoşununa basqın edərək, atı o yan, bu yana cəld hərəkətlərlə fırladır, düşmən ordusunda çaxnaşma yaradırdı. Bəzi çinli və batılı yazarlar bu qurd oyununu «nizam-intizamsız döyüş» saymışlar. Əslində isə, zahirən pərakəndə hücumlar kimi görünən qurd oyunu əsrlərlə sınaqdan keçərək təkmilləşmiş «nizamlı» bir taktika idi, bu oyunu «oynayanlar» lazımi anda bir-birindən

---

[335] MK, I. 77, 212; Herodot Krezə qədərki çağda İoniyaya *qamər* yürüşünü «uzun müddətli istila deyil, sadə yağma akını» kimi verir (Herodot, I. 6).

[336] MK, I. 38; Olsun ki, azər dilində *him-cim anlamaq* deyimi də bununla bağlıdır.

[337] Simokatta, II. XV. 9; Bu forma qazax-qırğız şaman duasında işlənən «gelsen-a!» deyim modelinə uyğundur (İnan, 1972, 143).

[338] Cahiz, 1988, 70.

[339] Әскәр-Гыпчаг, 1996, 141.

ayrılır və yenidən bir yerə yığılırdılar. O ki qaldı, nizamsız hərəkətlərə, qurd oyununun məqsədi məhz bu idi: çaşqınlıq yaratmaq üçün nizamsız görünən hərəkətlərlə «*qurd oyunun aralığa salanda*» (Koroğlu) aralıq qarışsın, meydanda düşmən tərəfin nizamı pozulsun. Belə psixoloji çaşqınlıq içində olan düşmən görəndə ki, basqın edənlər artıq «qorxub» meydandan qaçır, düşürdülər onların dalınca və onda ayılırdılar ki, artıq pusquya düşüblər və bu vaxt hər iki yandan hücuma keçən türklər əsas məqsədlərini reallaşdırmış olurdu. Beləliklə, nizamsız görünməyin, guya qorxub meydandan qaçmağın və düşmən əsgərini onu qovmağa təhrik etməyin özü əslində düşünülmüş savaş taktikası idi.



Metenin belə bir qurd savaşını çin qaynağı təsvir edir. Belə ki, Mete 400 minlik hun ordusunun seçmə alaylarını atların rənginə görə arxa cinahlarda pusquda saxlayaraq, 320 minlik çin ordusunun qabağından məğlub olmuş kimi geri çəkilir və arxasınca gələn çinlilər pusqu qurulan yerdə yaxalanır.[340]



**V əsr divar rəsmi.**
**Koqure kulturu. (Koreya)**



**VII əsr yəhər qaşında fiqur.**
**(Qırğız kurqanı)**

M. Kaşğari türk döyüşçüsünün savaş öncəsi ovqatını təsvir edən bir şeiri örnək verir. Burada deyilir ki, savaşa girən türk süvarisi atını yüyənləyib, üzəngiləyib, quyruğunu da düyünləyib, tanrını öyür, düşmən döyüşçülərin arxasına düşməsi üçün atını aldadıcı manevrlə *aldar yana*" çevirib qaçır:

Kudruk katığ tügdümiz,
Tenriğ öküş ögdümiz,
Kemşip atığ tegdimiz,
***Aldar yana*** kaçtımiz.[341]

Məhz bu «*aldar yan*» manevrilə qurd savaşı gerçəkləşirdi. «Qaçmaq da igidlikdəndir» məsəli «Koroğlu» dastanındakı «Qaçar, qaçar, düşmanını *aldadır,* qayıdanda *ac qurd* olur, sultanım» və ya «Mərd meydandan qaçmaz, qaçsa *aldadı*» deyimləri ilə açılır.

---

[340] Бичурин, I. 51.
[341] MK, I. 472.

Bu şəkillərdən də göründüyü kimi, atının quyruğunu düyünləmiş qırğız atlısı qurd oyunu üçün *aldar yan* üsulundan istifadə edir, koqure kulturu çağında koreyalı bir igid isə arxaya ox atma taktikasını öyrənmək üçün məşq edir.[342]

İran ordusuna qarşı xəzərlərin qurd savaşını «Alban tarixi"» təsvir etmişdir. «Ari» soyundan olması ilə öyünən Şəhrivarazın ordusuna qarşı 630-cu ildə Çorpan Tarxan adlı bəyi üç min atlı ilə irəli göndərən xəzər başbuğunun ordunun bir hissəsini pusquda saxladığını qeyd edən bu qaynaqda deyilir:

> «İranlılar hücum edən kimi onlarla üzbəüz olanlar qaçdı və hücum edənlər də onları təqib etdilər. Elə bu vaxt pusquda olanlar qəflətən haykûylə hər tərəfdən hücum edib, Göyçə gölünün sahilində yanan qamışlığı bürüyən alov kimi, iranlıları dörd yandan əhatə etdilər. Onların hamısını qırdılar və birini də sağ qoymadılar ki, gedib bu qədər adamın ölməsi haqqında bəd xəbəri böyüklərinə çatdırsın».[343]

Orta Asiyada bugünəcən yaşayan *kökpori* (göy-börü) oyunu, azər türklərinin çövkən oyunu qurd savaşı taktikası üçün məşq növlərindən idi. Görünür, qurd oyunu ilə *bozqurd* mifi arasında da müəyyən əlaqə vardır. Bəzi türk boyları öz əcdadı saydığı bozqurd mifini uzun müddət yaşatmışlar, etrusklar bu mifi İtaliyaya, doğuya gedən türklər isə Altaya aparmışlar.[344] Qurd savaşı alınmaz qalaların alınması üçün də yararlı taktika idi. Belə ki, qala önündə məğlub olunmuş kimi görünən türk əsgərlərinin geri qaçması qaladan çıxıb onları izləməyə şirnikdirirdi. İsfahanın alınmasında da bu taktikadan istifadə olunduğunu Rəşidəddin qeyd etmişdir.

**Atlı türklər və süvari döyüşçülər**

Müxtəlif ölkələrdə atın evsəlləşməsi (əhliləşməsi) və öncə ondan yük və qoşqu heyvanı kimi istifadə olunması IV minildən bəllidir. Lakin atdan minik heyvanı kimi yararlanmaq olayı ilk dəfə Azərbaycanın güneyində baş vermiş və m.ö. II minilin orta-

---

342 Azər xalqı, 2000, 258.

343 ***Կաղանկատուացի,*** 1983, 167-169; Kalankatlı, 1993, 115.

344 Türk boyları içində *börü* (qurd) adlanan uruqlar vardı. Belə ki, *Bit-Baru* (börülər evi) bölgəsi Mana elinin güneyində idi və irandilli tayfalar Xəzərin güney yaxalarına gələndən sonra buradakı bölgəni də Qorqan (börülər yurdu) adlandırmış və Girkaniya (Hirkaniya) deyimi buradan törəmişdir. Ən qədim çağlarda Fərat və Zab çayları da «börü» adlanırdı.

larından başlayaraq, burada çoxsaylı ilxılar bəsləyən atçılıq sənəti inkişaf etmişdir. Nisey atlarının davamı kimi, Türkmən elində *axaltəkə* atları isə sonralar dünyanın müxtəlif bölgələrində yetişən cins atların (*ərəb, ingilis, qarabağ, rus* və s.) kökündə dayanmışdır. Türk əsgərini uzaq ölkələrə aparan qanadı onun atı idi. Doğu və quzey yönlərə böyük köçlər də atçılığın ortaya çıxması ilə intensivləşdi. Belə köçlərdə artıq öküzü əvəz edən atlı arabanın sürəti 10 qat artmışdı.[345] Hər yeniyetmənin yanında yəhərli at hazır tutulur və atla igidlik tryukları (*jigitovka*) göstərən türk əsgəri ömrünün çox vaxtını atın üzərində keçirirdi. At üzərində qadınlar da igidlik göstərə bilir, yeri gələndə savaşda iştirak edirdi. Savaşda görülən igidliyin yarısı atın payına düşürdü. Koroğlunun Qıratı, Düratı kimi, Külteginin də Ağ-ayğır, Az-at, Azman-at, Öksüz-at adlanan atları məşhur idi.

Türk mifologiyasında *at kultu* qədim çağlarda, türk etnoqrafiyasında *at kulturu* atçılığın inkişaf etdiyi çağlarda, *atlı kulturu* isə saqa-qamər və hun çağında yaranmışdır. Atla bağlı türk dillərində yaranmış zəngin terminologiya bir çox xalqların dilinə də keçmişdir. Atların cinsinə, yaşına vəənginə görə daha səhih adlarının türkcə olduğunu, başqa xalqlardan çoxlarının bunu bilmədiyni yazan böyük türk şairi Əlişir Nəvai qeyd edir ki, sartlar qamçıya *taziyanə* desələr də, onlarda *boldurğa*, *çubçurğa* türkcədir. Türk dillərində təkcə qamçının müxtəlif növləri və sinonim cərgəsi yaranmışdır: *qamçı*, *qılıc-qamçı* (kəsici qamçı), *berge* (*bergü*) və *qırbac* (qırmanc). Qədim türklər savaş meydanında çevik manevr imkanı olmayan *yaya* (piyada) bölüklərdən nadir hallarda istifadə edirdilər. «At ayağı külüg, ozan dili çevik olur» deyən türklər savaş atına *ulağa*, yalnız savaş zamanı əsgərə verilən ata *tugzağ,* xaqan üçün yedəkdə aparılan ikinci ata *koş-at* deyirdilər.

Yalnız türklərdə görünən atın quyruğunu düyünləyib savaşa girmək gələnəyi özü ilə birlikdə atının da «şəhid» olmağa hazırlanması idi. Atın quyruğunu düyünləməyə «dullamaq» deyilirdi. Bu adətin «at çermetmek» adlandığını vuğulayan A. Donuk türklərin Malazgird savaşında Sultan Alp Arslanın da atının quyruğunu düyünləyib, döyüşə atıldığını yazır.[346] Şəhid olan türk döyüşçüsünü atı ilə birlikdə basdırmaq gələnəyi də türk toplumunda yaranmış, sonralar bozqır yaşamlı bəzi xalqlara da keçmişdir.

[345] Təkər və arabanın ilk dəfə Urmu gölü ilə Van gölü arasında ortaya çıxması, bunun *kanqlı* oğuz boyu ilə əlaqələndirilməsi haqqında I Bitikdə məlumat vermişdik. Cəng arabası sumer yazılarında $^{GIŞ}$GİGİR şəklində keçir.

[346] Donuk, 1988, 94 (20-ci qeyd).

M.ö. II minilin son əsrlərinə aid Şahtaxtı və Xaçbulaq kurqanlarında atlı basırığın ortaya çıxması aydın göstərir ki, atlı basırıq gələnəyi də öncə Azərbaycanda yaranmışdır.

Çində atlı (süvari) birlikləri ilk dəfə Wu-ling tərəfindən m.ö. 325-299-cu illər arasında yaradılmışdır. Çində düzənli (nizami) süvari alayları isə ilk Xan sülaləsindən, yəni m.ö. 206-dan sonra görünür. Yunan-Troya müharibəsində troyalılar «çoxlu atları olan», «atı ram edən», «atla döyüşən», «cəsur atlılar» kimi təqdim olunr. Yunanlılar isə yalnız Pers-Yunan savaşından sonra süvari alayları yaratdı, bu işdə onlara 300 saqa süvarisi kömək etdi.[347] Bəzi dialektlərdə süvariyə *atlığ* deyilirdi. Atları zirehə bürüyən ağır yaraqlı süvarilər yaxın döyüşlər üçün yararlı idilər. Uzaqdan ox atan və ya qurd savaşı aparan süvarilər isə yüngül yaraqlı döyüşçülər idilər:


Ağır yaraqlı türk süvarisi

Ağır və ya yüngül yaraqlı olmasından asılı olmayaraq türk süvarisi hər an dönüb hücuma keçməyə (*qanuştu*) hazır idi. Böyürdən həmlə etmə üsulu *böyürlə* adlanırdı: «Ol yağını *bögürledi*».[348] Belə bacarıqlı türk süvarilərindən Çin, Bizans və Xilafət ordularında da istifadə olunurdu. Belə ki, Bizans ordusunda 583-də hun Apsix stratiqdən (baş komandan) sonra ikinci hərbi rütbə sayılan *ipostratiq* vəzifəsinə təyin edilmişdi.[349]


Yüngül yaraqlı türk süvarisi

Orta Asiyadan tutmuş Misirə qədər Xilafət ordularının bəzisində əsas özəyi, bəzilərində isə əsas süvari alayları türklər idi. Aralıq dənizinin güney-doğu yaxalarını ələ keçirib, Tulunoğulları dövlətini (868-905) quran Əhməd bin Tulunun komutanlarının çoxu türk olan 100 minlik ordusunun özəyini 24 minlik türk əsgəri təşkil edirdi.[350] Z. V. Toğan ərəb cins atlarını yetişdirən «bek» soyundan və ərəb ordusunda xidmət edən türk bəylərinin kayığlı, kıpçaklı, karluklu, azgişoğlu, tulunoğlu və yemakoğlu soylarından bəhs etmişdir.[351]

[347] Azər xalqı, 2000, 257.

[348] MK, III. 332.

[349] Симокатта, I. 14. 5.

[350] Elçibey 1997, 153.

[351] Togan, 1981, 174-175.

Qüdrətli türk döyüşçülərinə, başbuğlarına böyük önəm verən xəlifələr barədə, türk süvarilərinin igidliyi haqqında ərəb qaynaqlarında xeyli bəlgələr vardır.[352] Ərəb dilinə keçən türkizmlərin sırasında hərbi terminlər də az deyil.[353] Ərəb yazarı Cahiz (774-870) ərəb müəlliflərinin türklərə aid dedikləri sözlərdən belə örnəklər verir: «türk ömrünün günlərini toplasan, at üzərində keçirdiyi günlərin sayı yerdə keçirdiyi günlərdən çox olacaq»; «onların mayası hərəkət üzərində yaranıb, bir yerdə durmaqla araları yoxdur»; «başqa birisi yayına bir ox qoyana qədər türk on dənə ox atır»; «arxasından gələnə atdığı ox önə atdığından fərqlənmir»; «geri çəkilərək təkrar hücum edən xorasanlı və bozqırlı türklərdir» və sairə.[354] Döyüş vaxtı türk süvarisinin atı qəfil geri çevirib arxaya ox atması, onu təqib edən düşmən döyüşçülərini bir-bir oxdan keçirməsi bacarığı «atın üstündə sifəti ilə ənsəsinin yerini dəyişə bilən bir türk ön tərəfə necə ox atırsa, arxaya da eləcə ata bilir» (Məsudi) deyimi ilə verilmişdir.

Saqa, qamər, subar, hun, kuman və sair türk döyüşçülərinin at üzərində göstərdiyi igidliklər Çindən Avropaya və Ön Asiyaya qədər müxtəlif xalqların arasında əfsanəyə çevrilmişdi. Koreyadan tutmuş Avropanın göbəyinə qədər yayılmış bu gələnəksəl süjetin (*geri ox atma*) müxtəlif çağların sənət əsərlərində əks olunduğunu görmək olur:




---

[352] Kitapçı, 1987.

[353] Alp, ordū//urdū, inkişari (*yeniçəri*), başbuzuq, alay, taqım, yaraq, sübaşi, bimbaşi, yüzbaşi, unbaşi, başçaviş, buluk, dunāma (*donanma*), senje, sünkü, kuşlak (kazarma), qundak, karakul və s. (Захиди, 1967; Ʒаһиди, 1977).

[354] Cahiz, 1988, 67-70.

## 4. İSLAMAQƏDƏR ÖN ASİYADA QURULAN TÜRK DÖVLƏTLƏRİ

Bu başlıq altında sıralanan türk dövlətlərini yarandığı coğrafi əraziyə görə iki yarımbaşlıq altında vermək olardı: 1) İslamaqədər *Anadolu* və *İkiçayarasında* qurulan türk dövlətləri; 2) İslamaqədər *Azərbaycanda* qurulan türk dövlətləri. Belə başlıqlar qədim türk dövlət qurumlarının elmi sistemlə öyrənilməsi, özəlliklə Anadoluda İslamöncəsi türk bölgə və bəyliklərinin tarixi baxımından gərəklidir. Çünki bu bəyliklər təkcə Orta Asiyadan gələn 40-50 min ailə ilə qurulmamışdı, onlara yardım edən yerli xalqlar vardı. Onların çoxu Bizans dönəmində xristian olmuş *qaşqay, subar, urum, matien-ermən, kuman, qamər* və sair adlarla bəlli idi və m. ö. III minildən üzübəri tarixi qaynaqların Anadoluda qeyd etdiyi bu türk boyları «göydən düşmə» və ya Altaydan gəlmə mifik «köçərilər» deyil, prototürk çağından Azərbaycanı, İkiçayarasını, Doğu və Güney-Doğu Anadolunu əhatə edən Atayurdda qalmış türklər idilər.[1] Bu səbəbdən, həmin boylara aid dövlət qurumlarını Ön Asiya başlığı altında vermək daha münasibdir. [2]

Türk dövlətləri haqqında aşağıda verilən bilgi əhatəli olmasa da, indiyə kimi tədqiq olunmuş arxeoloji abidələrin və oxunmuş qədim yazılı qaynaqların verə biləcəyi bilgi qədərdir. Bu səbəbdən, bəzi dövlətlər haqqında məlumat qısa, bəziləri haqqında isə nisbətən geniş alınmışdır. Bu dövlətlərin etnik əsası elmi ədəbiyyatda indiyəcən ya təhrif edilmiş, ya da üzərindən sükutla keçilmişdir. İmkan daxilində etnik mənsubiyyəti göstərən dil bəlgələrinin müqayisəli təhlilinə, sonrakı türk xalqlarının dilində onların davam etdiyini sərgiləyən bəzi əlavə bəlgələrə də burada yer verilmişdir. Ən qədim türk dövlətlərinin yarandığı ərazilərdə mövcud olmuş arxeoloji kulturlar haqqında I Bitikdə məlumat verildiyi üçün burada yalnız hər bir konkret dövlətin coğrafiyası üçün xarakterik olan arxeoloji kulturun bəzi özəllikləri ötəri xatırlanır.

---

[1] Azərbaycandakı dövlətləri yaranma çağına görə «Protoazər» və «Azər», yarandığı bölgəyə görə «Arazdan yuxarı» və «Arazdan aşağı» adlı başlıq və yarımbaşlıq altında qruplaşdırmaq olardı, lakin belə bölgülər gələcəkdə konkret tədqiqlər üçün münasibdir. Burada isə bir sıra qədim türk dövlətləri ilk dəfə gündəmə gətirildiyi üçün oxucuya ağır olan əlavə bölgülər deyil, bir başlıq altında ümumi bilgi verilir.

[2] Bu sırada qədim «Subar eli»ndən sonra verilən «Subar bəyliyi» və «Doğu Subar bəylikləri» yarımbölmələri ilə tarixi ardıcıllığın pozulması oxucuya eyni boy haqqında bir-birindən aralı bölmələrdə deyil, bir yerdə bilgi vermək istəyi ilə bağlıdır.

Prototürk Atayurdunun Güney Qafqaz bölgələri paleolit çağı yaşayış məskənləri ilə daha çox önəm daşıyırdı, lakin ilk dövlət qurumları onun batı və güney-batı bölgələrində yarandı. Ona görə də Ön Asiyanın sosial, iqtisadi durumu, mədəniyəti fonunda 8-10 minil öncə əkinçi-heyvandar təsərrüfatın yayıldığı Güney-Doğu Anadolu, Batı Azərbaycan və İkiçayarası bölgələrindəki arxeoloji kulturları diqqətə almaq lazım gəlir:




Mütəxəssislərin tərtib etdiyi bu xəritədən göründüyü kimi, Aralıq-dənizi yaxaları boyunca Çatalhöyük-İerixon arasında formalaşan qədim əkinçi-heyvandar kulturu Türk Atayurdunun sınırı dışında qalır, lakin İki-çayarasından Dərbəndə qədər uzanan sahələr bu sınırın içindədir. Kərkük bölgəsində yaranıb, m.ö.VII-VI minillərdə ətraf bölgələrə yayılan *Carmo kulturu* Zaqros dağlarında qut və lulu boylarının ulu əcdadları sayılan və əsasən heyvadarlıqla məşgul olan prototürk boylarına aid idi:

Daş özül üzərində çiy kərpiçdən tikilmiş, ağac qapılı evləri olan bu kulturun buluntuları təkcə Carmoda deyil, Şimşar, Sorabtəpə, Qurantəpə və sair abidələrdə aşkar edilmişdir. Mosul bölgəsindən Elam sınırına qədər uzanan ***Carmo kulturunun*** daşıyıcıları dəmyə əkinçiliyi ilə də məşğul olub, mərcimək və arpa əkirdilər.[3]

M.ö. VII-VI minillərdə Azərbaycanın batı bölgələrində yayılan **Carmo kulturu**. (Массон 1989, 40)




Dağlıq yerlərdən Dəclə yaxalarına enib sonralar «çay adamı» adı ilə tanınan *subar* boyları keçi-qoyun saxlamaqla yanaşı, əkinçiliyə daha çox üstünlük verir, tədricən şəhərləşmə yaşamına keçirdilər. Heyvandar-əkinçi boyların İkiçayarasında məskunlaşması olayı öncə quzey bölgələri əhatə edirdi. Əvvəllər Bağdaddan aşağı bataqlıq olan ərazilər isə yaşayış məskəninə sonralar çevrilsə də, burada şəhərləşmə sürətlə inkişaf etdi; möhtəşəm məbədlər tikildi, şəhərlər salındı, süni suvarma arxları çəkildi. Artıq m.ö. III minillikdə İkiçayarasının quzeyi güneydəki şəhərləşmə mədəniyyətdən xeyli geri qalırdı.[4]

Beləliklə, m.ö.VI-IV minillər arasında əkinçi-heyvandar boyların məskəninə çevrilən İkiçayarasının quzeyində öncə Xasun və Xalaf, sonralar Ubeyd kulturunun quzey variantı yarandı. Ubeyd kulturunun Urmu gölü yaxalarına uzanması arxeologiyada (*Püştəlitəpə, Göytəpə*) sübut olunmuşdur.[5] Mosulun güneyində m.ö. 5800-cü illərdə formalaşan ***Xasun kulturu*** daha geniş ərazilərə yayılaraq, yuxarıda Diyarbakırın batısına keçir, aşağıda isə Bağdada qədər uzanıb Dəclədən doğudakı bölgələri də əhatə edirdi:[6]

Vaxtilə, A. L. Perkins bu kulturun Sincar və Cəzirə yaylalarında mövcud olduğunu yazırdı.[7] Rus-İraq arxeoloqlarının bu bölgədə birgə üzə çıxardıqları I, II və III *Yarımtəpə* kompleks abidələri həmin fikri bir daha təsdiq

---

[3] АЗА, 1986, 24-26; Массон, 1989, 41; Заблоцка, 1989, 30.

[4] АЗА, 1986, 70.

[5] Eyni qaynaq, 105-106.

[6] ИДВ, 1983, 66.

[7] Perkins, 1957, 43-45.

etdi. Burada geniş tədqiqatla qiymətli bilgi əldə edən rus arxeoloqları yazır: *«Xasun kulturu İkiçayarasının quzeyində aktiv inkışafda olmuş qədim istehsalçı təsərrüfat üzərində yaranmışdır».*[8]

Əkinçi-heyvandar Carmo kulturu üzərində formalaşan və bükülü ölübasdırma gələnəyini davam etdirən Xasun kulturu çağında yardımçı və yaşayış tikililəri, təsərrüfat və bəzək əşyaları, alətlər, keramika xeyli təkmilləşdi. İctimai münasibətlərdə yeni çalarlar yarandı və bu çağda prototürk dili və dialektləri yüksək inkişaf mərhələsini yaşadı. Boyalı qablar daha bəzəkli çeşidlə hazırlandı. Xasun kulturunun lokal variantı kimi Samara qablarında gözəl naxışlı *dönərgə* simvolu hərəkət dinamıkasının stilizə olunmuş dörd heyvan fiqurunda aydın görünür:




Xasun kulturu; (Массон 1989, 71)

Dəclə çayının doğu yaxalarında subar boylarının ərsəyə gətirdiyi bu kultur, güneydə Samara və Savana şəhərləri İkiçayarasının güney Ubeyd kulturunun yaranmasına böyük təsir etmişdir. İkiçayarasının quzeyindəki Xasun kulturu VI-V min illərin qovuşuğunda Xalaf kulturu ilə əvəzlənir. Bu əvəzlənməni təkmilləşmə ilə bağlayan mütəxəssislər qeyd edir ki, I Yarımtəpə abidəsi VI minilin Xasun kulturunu əks etdirirsə, artıq II Yarımtəpə (4710 ± 40 il) abidəsində Xalaf kulturu sərgilənir.[9]




Xasun kulturu ilə uzlaşan **Samara** buluntuları (Массон 1989, 74)

[8] Мунчаев-Мерперт, 1981, 150 (və 85, 144-146).
[9] Eyni qaynaq, 1981, 153-154.



**Xalaf kulturu**; (Массон 1989, 81)

Xalaf kulturu çağında prototürk dili artıq inkişaf zirvəsinə çatmışdı. İkiçayarasının quzey bölgələrinə yayılan Xalaf kulturunun Van gölünün yaxalarına uzanması *Tilkitəpə* abidəsində aydın görünür. Üzərində maral, xallı bars, öküz başı, quş, balıq şəkilləri olan qabları ilə seçilən bu kulturun ilk yaranma ocağı *Arpaçı* abidəsi sayılır. Arxeoloqların tərtib etdiyi bu şəkildə keramikada istifadə olunan boyalı naxış çeşidləri, bəzək əşyaları, həmçinin dairəvi evin daş planı (özülü) verilmişdir:

Azərbaycanın quzey bölgələrində həmin dövrdə Xalaf kulturu üçün xarakterik olan dairəvi evlər var.[10] Belə arxeoloji abidənin bərpa sxemini verən Davud Axundovun tipoloji eskizləri Güney-Qafqazla İkiçayarası arasındakı əlaqələri göstərən tutarlı bəlgədir:


Qazax bölgəsində **Şomutəpə** yaşayış məskəni (m.ö.VI-V minil). Arxitektor D.A.Axundovun rekonstruksiya eskizi (Ахундов 1986, 24).

Türk Atayurdunun önəmli bir bölgəsi olan «Subar ölkəsi» coğrafiyasında arxeoloji kultur ardıcıllığı türk dövlət gələnəyinin mənşəyini öyrənməyə yardım edir.[11] Ona görə də, subarların yayıldığı ərazilərin

[10] Джавахишвили, 1973, 346-349.

[11] Son illər bu bölgədə Urfa yaxınlığında alman arxeoloqlarının aşkar etdiyi Göbəklitəpə məbədi 12 minillik yaşına görə hələlik dünyanın ən qədim tapınağı sayılır.

arxeoloji kulturunu diqqətə almadan, İkiçayarasında qurulan dövlətlərin etnik əsasını ayırd etmək mümkün deyil.

Aşağıdakı xəritədən də göründüyü kimi, Xasun (■), Samara (▮), Xalaf (●) abidələri Dəclə çayının sağ və sol yaxaları boyunca yayılmışdır. Xalaf kulturu elementlərinin Fərat çayının orta axarındakı batı yaxasına, sonrakı Kumuq bölgəsinə və oradan batıya, Mersinə qədər uzandığı da sezilir. Yarımtəpəni tədqiq edən R. Munçayev və N. Merpert bir-birini əvəz edən həmin kulturlara aid abidələri xəritədə belə vermişlər:




**Quzey İkiçayarası abidələri:** (Мунчаев – Мерперт, 1981, 13)

**a** - m.ö.VIII-VII minil abidələri;
**b** - Tell-Sotto abidələri;
**v** - Xasun abidələri;
**q** - Samara abidələri;
**d** - Xalaf abidələri.

1.Tell-Maqzalia; 2.Yarımtəpə I; 3.Yarımtəpə III; 4.Yarımtəpə II; 5.Tell-Sotto; 6.Küllütəpə; 7.Telul et-Talafat; 8.Umm Dabaqia; 9.Tell-Barak; 10.Çaqar-Bazar; 11.Tell-Xalaf; 12.Sarabtəpə; 13.Qurantəpə; 14.Karim Şaxir; 15.Carmo; 16.Tell-Xassuna; 17.Ninevə; 18. Qavratəpə; 19.Tell-Arpaçi; 20.Banaxilk; 21.Tell-Şimşara; 22.Matara; 23.Samara; 24.Tell es-Savvan; 25.Şoqa-Mami; 26.Tamerxan; 27.Tell-Xan; 28.Ali-Aqa; 29. Yunus; 30.Tell-Turlu; 31.Çakçegözü; 32.Ras-Şamra; 33.Mersin; 34.Baquz; 35.Tilkitəpə; 36.Gənc-dareh; 37.Çayönütəpəsi; 38.Müreybit.

Güney-İkiçayarasında *Ubeyd kulturu* (m.ö. 4300-3500 illər) bura gələn sumerlər tərəfindən yaranmışdır. Lakin bu kultur «quru yerdə» yox, daha öncə burada yaşamış boyların Xasun kulturunun təsiri altında ərsəyə gətirdiyi qədim kultur üzərində yaranmış, gəlmə elementlər üstünlük qa-

zanmışdır. Bars (Kəngər) boğazı yaxasından başlayıb, üzüyuxarı Eredu, Uruk, Ur və Kişi əhatə edən Ubeyd kulturu möhtəşəm məbədlərilə seçilir.[12] Sonra ilk mixi yazı da burada yaranıb, ətraf ölkələrə yayılmışdır.

Bütün bu arxeoloji kulturların etnoqrafik özəlliyi sırasında bükülü ölübasdırma və *dairəvi evə* oxşar sonrakı kurqan gələnəyi, insanın o biri dünyadakı evində yenidən dirilib, yanına qoyulan azıq və əşya ilə yaşamını davam etdirməsi inancı sonrakı türklərin etnoqrafiyasında minillər boyu davam etmiş, yalnız islamlaşma çağlarında bu gələnəklər pozulmuşdur. İslamöncəsi və qeyri-müsəlman qəbirlərin «suburğan» adlanması da diqqəti çəkir. M. Kaşğarinin qeyd etdiyi «Suburğanda ev bolmaz» deyimində artıq əski inancın transformasiyası gerçək üzünü göstərir.[13]

Sumer inancına görə, qutlu törənlər dağı olan *Şubar dağı* doğuda yerləşir.[14] Sonradan buddizmi qəbul edən doğu türklərdə də mifik *Sumir* dağı (sanskritcə *Sumeru*) dünyanın mərkəzi sayılırdı.[15] Maraqlıdır ki, adını Sibirə verən subarların indi Batı-Sibirdə yaşayan törəmələri Orta Asiyadan gəlmə sayılır, lakin Sibir türklərinin folklorunda «Koroğlu» motivləri Orta Asiya ilə yox, Anadolu ilə bağlıdır, yaxud «Alp-Mamşan» eposu yaxındakı qazax-özbək Alpamışı ilə yox, «Dədə Qorqud» ilə səsləşir.[16] Bu mifoloji və epik bəlgələrin mənşəyi, əlbəttə ki, Ön Asiyadadır. Təkcə Koroğlu yox, yəhudilərin Solomonu, farsların Rüstəmi, etrusk, latın və yunanların Xerkle, Herkules və Heraklı da Bilqamısı təkrar edən mifoloji bahadırlardır. Bəzi «Oğuznamə» süjetlərinin, «Dədə-Qorqud» və «Koroğlu» motivlərinin Sumer eposu «Bilqamıs» ilə əlaqəsi haqqında sonrakı bitikdə geniş məlumat veriləcəkdir.[17]

Xasun-Samara və Xalaf kulturunun yayıldığı coğrafiyada arxeoloji və etnoqrafik bəlgələrlə yanaşı, dil bəlgələri də diqqəti çəkır. Belə ki, bu regionda *İtigəl* (Dəclə), *Burat* (Fərat) kimi ən böyük çaylarla yanaşı, onların qolları olan *Balıq, Sub-Ana, Turna* kimi bir neçə çayadının qədim türkcə olduğunu II Bitikdə tarixi bəlgələrlə geniş vermişdim. İkiçayarası-

---

[12] IV minilin 2-ci yarısıyndan sonra bu kultur üzərində Uruk və Cemdet-Nasr kulturları yaranır. Ubeyd kulturunun lokal variantı sonralar Quzey İkiçayarasında da ortaya çıxır. Ubeyd kulturunun buradan quzeyə daşındığı çağda Van ilə Urmu arasında ilk təkərli arabanın yaranması *kəngər* boyu ilə bağlıdır (Bax: I Bitik, «Tunc çağı» bölməsi).

[13] MK, I. 516.

[14] ХПИДВ, 1963, 211.

[15] ДТС, 513.

[16] Тумашева-Ахмедов, 1983, 23.

[17] Celilov, 1985; «Bilqamıs» dastanı, 1999, 83-89.

nın qədim onomastikası sırasında *Subar*, *Sumer*, *Samar(a), Turku, Tirka, Tirikan, Basar, Aran*, *Kiş, Sipar* (Sippar), *Qasur, Asur, Azar, Oquz* (Aqus), *Qarqar* (Karkar), *Kanxar* (Kəngər) kimi onlarla yeradının, elmi ədəbiyatda **tanrıadı** kimi verilən, əslində isə, **iyəadı** olub dialekt fərqi ilə işlənən *Turuq/Turq/Tarqu, Turan, Baba, Teşub, Asur/Qasur/Asar, Kuər* məbud adlarının və *Dinqir* (Teñri) teoniminin, *Elolmuş, Kurum, Tirikan, Yarlaq, Arisen, Kaki//Kiki, Dada, Ata, Puta, Topuz* kimi şəxs adlarının, su, subar, qut, urum, ermən, mitan, turuq, kumuq, kuman, saqa kimi türk boy adlarının önəmli çəkisi vardır.

Ulu Sarqonun son illərindən bəhs edən bir yazıda Subardan Akad üzərinə olan basqını Sarqonun uğurla dəf etdiyini qeyd edən rus alimləri yazır ki, «görünür, Dəclənin orta, yuxarı axarlarını və qollarını əhatə edən Subartuda *banana* dilində danışan əhali yaşayırdı».[18] Göründüyü kimi, buradakı fıkirdə məntiqsizlik o həddə çatmışdır ki, hətta Subartuda yaşayan subar boylarının dilini «*banana dili*» kimi verirlər, *türk dili* deməyə dilləri gəlməsə də, heç olmasa, «*subar*» dili də demirlər. SU.BİR$_4$, SU.A$^{\text{Kİ}}$, $^{\text{LU}}$SU.A ideoqramları ilə verilib, sumercə *Şubur*$^{ki}$, akadca *Şubartu* şəklində yazılan bu adın sonrakı asur yazılarında $^{\text{KUR}}$Şubari//Şubre//Şubura// Şubria formalarına rast gəlmək olur.[19]

Subar boylarının doğudan batıya gəlməsini deyil, batıdan doğuya getməsini göstərən tarixi qaynaqlar çoxdur. Bunlardan biri də m.ö. III əsr yazarı Apolloniy Rodoslunun *sapir* şəklində qeyd etdiyi boyadına *sabir* şəklində düzəliş verən Stefan Bizanslının bu boyun Pont (Qara-dəniz) bölgəsində yaşadığını göstərməsidir. Qədim pullar (sikkələr) üzrə tanınmış uzman A. Q. Muxammadiyev başqa türk boyları kimi subar//sabir boylarının da Azaq dənizi ilə Kama çayı arasındakı ərazilərdə məskunlaşdığını geniş şərh etmişdir.[20]

İlkin yazılış forması *Subartu* və *Şubartum* olan ölkəadının akadca *subari'um ~ şubarû* şəklində yazılan etnonimlə, yəni «subar» boyadı ilə bağlı olması elmi gerçəklikdır. Rəvandüzdən quzey-batı tərəfdə müasir *Zebar//Zibara* yeradının asur qaynaqlarında Kar-Siparra (*Sibar qalası*) və $^{\text{URU}}$Zabaria//Zabbaria//Tsaparia variantları mixi yazı fərqini aydın gös-

[18] ИДВ, 1983, 239.

[19] Дьяконов 1967, 113; Саркисян 1989, 11; Sonrakı çağlarda isə subar etnoniminə *suvar, savar, savir, sabir, sibir, sipar, sper, zebar* və sair fonetik variantları qeyd olunmuşdur ki, bunlardan yeri gəldikcə örnəklər veriləcəkdir.

[20] Латышев, 413; Мухаммадиев, 1990.

tərir.[21] Türk dillərinin fonetik inkişafına uyğun olaraq, *sub* sözünün ilk samiti s > ş/z, orta saiti u > ı/i, son samiti b > m/p/v/w/Ø dəyişmələrinə uğramışdır. Subar adının minillər boyunca müxtəlif dil və dialekt dəyişmələri ilə ayrı-ayrı dövrlərdə mixi, latın-yunan, hay, ərəb-fars yazılarında yaranmış müxtəlif morfonoloji variantları vardır. Bu ada qoşulan şəkilçiləri iki qrupa ayırmaq olar; etnonimlərə qoşulub cəmlik, topluluq bildirən *-bi* və *-ar/-er/-ir* şəkilçiləri ilə işlənənlər:

| **-bi** | **-ar/-er** | **-ir** |
|---|---|---|
| sum-bi | sub-ar (Subar, Şubar) | sav-ir |
| suv-bi | suv-ar | zab-(i)r-at (Zabrat) |
| suw-bi | sib-ar (Sibar-is) | şup-(i)r-ia (Şupria) |
| su-bi | sıp-er (Sper) | sab-ir-an (Sabiran) |
| | sip-ar (Sippar) | şab-(i)r-an (Şabran) |
| | sum-er (Sumer//Şumer) | sib-ir (Sibir) |
| | sam-ar (Samar-a) | sam-ir (Samur?) |

Göründüyü kimi, sonrakı çağlarda türk toplumu içində yaşamını davam etdirən qədim subarlara məxsus arxeoloji, etnoqrafik, mifoloji, folklor, dil bəlgələri başqa etnosa deyil, türklərə aiddir. Sumer-Akad yazılarında m.ö. XXVI əsrdən adı çəkilən ***Subartu*** ölkəsi***, subar*** boyu, m.ö. IX-VII əsrlərdə Asur yazılarında yer alan ***Subar bəyliyi***, Xəzər xaqanlığında subarların Tenqrixana tapınması, m.s. X əsrdə Bizans imperatoru Konstantin Porfiroqennetosun onlardan «sabarta-asfala» deyimi ilə bəhs etməsi bəllidir: [22]

> Οὐκ ἐλέγοντο δε τῶ τότε χρόνω Τοῦρκοι, ἀλλά Σάβαρτοι ἄσφαλοι ἐκ τινος αἰτίας ἐρωνομάζοντο.[23] «O vaxtlar onlar *türk* yox, məlum olmayan səbəblə, *savarta-asfala* adlanırdılar». (Bu deyim «qüvvətli subarlar» və ya «ağ subarlar» kimi yozulmuşdur).

Subarlar haqqında məlumatlar beş minil arası kəsilmədən davam edir. Aşağıda görəcəyimiz kimi, bu məlumatlardan bəlli olur ki, subarların bir qismi m.ö. IV minilin, bir qismi də II minilin ortalarından Azərbaycanın iç bölgələrinə çəkilmiş və sonralar oradan Quzey-Qafqaz və İtil çayı arasına keçmişlər. Daha sonralar isə Dağıstandakı subar boylarının bir hissəsi yenidən Azərbaycana qayıtmışdır.

---

[21] ТУ, 234-235; Burada yalnız u//a paralelliyi birbaşa keçidlə izah oluna bilmir. Görünür, İkiçayarasında qədim dialekt fərqi subar//samar sonralar da davam etmişdir.

[22] Меликишвили, 1954, 101; Юсифов, 1987, 24; Саркисян, 1989, 11; Плетнева,1986,32;

[23] Багрянородный, 158.

**Subar Eli (ölkəsi)**

Yazılı qaynaqlarda ilk adı çəkilən türk boyu subarlardır. Bağdaddan yuxarı İkiçayarası əraziləri əhatə edən *Subartu* ölkəsinin sakinləri m.ö. III minilin ortalarından mixi yazılarda «çay adamı» anlamını bildirən *subar* adı ilə tanınırdı. Bu etnonim İkiçayarasında yaşayan prototürk boylarının ümumi adı idi. Subarların burada yaşam tarixi subar adının mixi yazılarda qeyd olunduğu tarixdən çox qədimdir. Carmo, Xasun, Xalaf, Quzey-Ubeyd kulturu çağlarında, yəni VII-IV minillərdə *Subar* ölkəsinə başqa etnosun gəlməsi faktı yoxdur.

Görünür, m.ö. IV minilin ortalarında Atayurddan ilk böyük köçün başlanması ilə dağılan prototürk çağından sonra Atayurdun güney-batı bölgəsində qalan subar boyları bura gələn ilk sami axınlarına qədər Subartunun əsas avtoxton əhalisi olmuşdur. Çünki sonralar bir-birinin ardınca İkiçayarasına gəlib yerləşən sumer, akad, hurri boylarından əvvəl buradakı yer-yurd adlarının çoxu türkcə idi. Ona görə də, Quzey-İkiçayarasında formalaşıb, ilkin prototürk Atayurdunun yaxın bölgələrinə yayılan qədim Xasun və Xalaf kulturunun da subar boylarına aid olması ehtimalı böyükdür, çünki Subartu adlanan ərazidə subarlardan əvvəl yaşamış hər hansı başqa bir xalqın (etnosun) adı tarixə bəlli deyil.[24]

Laqaş ensisi Eannatum (m.ö. XXVI) və Akad çarı Naram-Suenə (m.ö. XXIII) aid yazılarda əks olunan *Subartu* adının mənşəyi daha qədimdir.[25] Bu ölkədə subar boylarının yaşaması heç kimdə şübhə doğurmur, lakin bəzi alimlər hurri boylarının İkiçayarasına m.ö. II minilin başlarında gəlməsini deyil, burada III minildən mövcud olmasını əsaslandırmaq üçün subar adlarını hurri sözü kimi verməyə cəhd etmişlər. Ancaq İ.Gelb «Hurrilər və Subarlar» adlı kitabında hurri və subarların ayrı-ayrı xalq olduğunu aydın göstərmişdir. O, subarların Zaqros dağlarında yaşayan lulu, qut və sair boylarla qohum olduğunu yazır.[26]

Subar adının izahında müxtəlif yozumlar olmuşdur. Bəziləri adın sonrakı *sabir* variantından çıxış edərək, adın *sapmaq* feilindən yaranmış «yolunu azan» anlamı daşıdığını, qazax alimləri isə sibir adının «sulu yer»

---

[24] Artıq m.ö. II minilin əvvəlində əhalisi xeyli samiləşmiş bu bölgə haqqında V.İ.Avdiyev yazır ki, «ən qədim zamanlardan, Asur ərazisində ola bilsin, V-IV mnildən Ön Asiyanın yuxarı bölgələrində yerli sakin olan subarlar yaşayırdı» (Авдиев, 1948, 352; 1953, 412).

[25] Меликишвили, 1954, 100.

[26] Gelb, 31-32.

(sub-yer) bildirdiyini yazmışlar.[27] Lakin adın ilkin *subar* forması *su* (çay) kənarında yaşayan, çaylı anlamında yaranmış «sub ər» sözüdür.[28] Subarlar haqqında bilgi iki minil boyunca sumer və akad-asur yazılarında verilir.[29] Bundan sonrakı əsrlərdə isə subarları Doğu-Anadolu, Azərbaycan, Quzey-Qafqaz, İtil yaxası və Batı-Sibir bölgələrində qeyd edən suriya, yunan-latın, hay, gürcü, ərəb, fars və türk dilli qaynaqlarda görmək olur.

Bəzi qaynaqlarda «Subar ölkəsi» əvəzinə, «Su ölkəsi» ifadəsi də işlənmişdir və bu variant daha çox Güney-Azərbaycan subarları ilə bağlı olan mətnlərdə özünü göstərir. Görünür, sub > suw > su fonetik dəyişməsi hələ o çağlarda bəzi protoazər dialektində başlanmışdır: *sun-bi* (< sumbi), *sum-bi, suv-bi, suw-bi* və *su-bi* variantları adın kökündəki sub/su sözlərinin fonetik inkişafını aydın göstərir. Ikiçayarasında «Su ölkəsi adamları», «su boyları» anlamında $^{LU}$Su, $^{LU}$Su$^{ki}$, $^{LU}$Su-a$^{kl}$, $^{LU}$Su-a adının m.ö. III minildən bəlli olduğunu yazan Y. B. Yusifov mixi yazılardakı «Lu-lu $^{LU}$Su-a$^{k1}$» və «Lu-lu Şubur» ifadələrində lulu boyunun Su və Subar ölkəsində yaşaması nəzərdə tutulduğunu, bəzən Aratta ölkəadının da işarəsi kimi verilən SU.KUR.RA sumeroqramı altında da «Su ölkəsi» anlamı durdııǧunu qeyd edir.[30] Sonralar belə bir türk «Su eli» (ölkə/dövlət) Çin qaynağında yad olunur.[31] Göründüyü kimi, subar//subi etnonim paralelliyi Subar//Subi//Su toponim paralelliyini tamamlayır və subar boyadının «çaylı» anlamında sub + ər modelində yarandığını bir daha təsdiq edir.

---

[27] Kafesoğlu, 1989, 148; Gürün, 1984, 155; ОКЖА, 84-88; Bu etnonimdə «Su çölü» və ya «quzey» mənası olduğunu söyləyənlərin fikrində isə məntiq yoxdur (Дьяконов, 1967, 113; Меликишвили, 1954, 100).

[28] Мизиев, 1990, 47; Зәкиев, 1988; Azər xalqı, 2000, 129-130.

[29] XXVI əsrdə Laqaş ensisi Eannatum, XXIV əsrdə Ulu Sarqon və XXIII əsrdə Naram-Suenə aid yazılarda subarlar xatırlnır. XVIII əsrdə isə Hammurapi 1762-də Subartu və Qutium ölkələrinin ordusuna, 1755-də Subartu, Kakmum və Turuku ittifaqına qalib gəldiyini qeyd edir (Юсифов, 1987; ИДВ, 1988, 103-107).

I Adadnerari (XIV əsr) özünü «*güclü kassi, kuti, lulume və subar boylarını məhv edən hökmdar*» adlandırır (АВИИУ №1); I Tukulti-Ninurta (XIII əsr) özünü «*subar ölkələrinin qüvvələrini qıran*», ətraf ölkələrin, o cümlədən «*quti və subar hökmdarı*» adlandırır, «*subarların bütün geniş ərazili ölkəsini odda yandırdım*» - deyir və on subar olkəsinin (bölgəsinin) adını sadalayır (АВИИУ, №3, №4, №8); Azərbaycandakı subarlar haqqında bəlgələr m.ö. IX əsrdən məlumdur, belə ki, asurların 820 və 737-də Madaya yürüşündə Zəncana yaxın Sibur//Sibar qalası da hücuma məruz qalmışdı (Дьяконов, 1956, 135, 200).

[30] Юсифов, 1987, 32; AT, 1996, 38-39.

[31] Tan sülaləsi yazısında Aralın quzeyində m.ö. IV-III əsrlərdə Su dövlətindən bəhs olunur (Yavuz, 41); Əslində Çin qaynağı Su boyu ilə Aşina soyunu Xəzərin batısında verir.

Mənbələrdə Subartu elinin dövlət qurumuna aid məlumat olmasa da, hələ Naram-Suen çağında (XXIII əsr) ensi titulu daşıyan hökmdarı olması haqqında bəlgə vardır.[32] Lakin Subartu ölkəsində bu böyükbəyin (ensinin) bir bölgədə, yoxsa bir neçə bölgəni və boybirliklərini əhatə edən Eldə başçı olması bəlli deyil. Ancaq hələ Ulu Sarqonun (XXIV əsr) vaxtında subarların Akad üzərinə Subartudan yürüş etməsi faktı subarlarda boybirləşmələri qurumu olduğunu göstərir. Görünür, m.ö. III minilliyin ortalarında şəhər-məbəd hakimiyəti güclü olan İkiçayarasının güneyindən fərqli olaraq, quzey bölgələrində tapınaqlar hələ məbəd-kahin hakimiyəti xarakteri almamışdı. Ümumiyətlə, türk boylarının sonrakı tarixi də aydın göstərir ki, çoxiyəli türk toplumunda Təktanrılı inanc sistemi minillərboyu davam etmişdir. Subar Eli dağılandan sonra onun ərazisində çoxlu bəylik yarandı, lakin *ensi* və ya *yanzi* titulu daşıyan böyükbəy tərəfindən idarə olunan bəyliklərin çoxu sonralar Akad-Asur dövlətindən asılı vassal bölgələrə çevrildi.

Əkin və digər istehsalat təsərrüfatına rəhbərliyi ələ alan məbəddə yeni-yeni vəzifələrin ortaya çıxması, böyük bürokratik aparatın yaranması labüd olan şəhər-məbəd dövlət qurumlu Sumer və Akad ölkələrindən etnik gələnəkləri ilə fərqlənən Subar icmalarında kəskin antoqonist sosial təbəqələşmə yarana bilmədi, çünki əkin üçün yararlı torpaq üzərində nəzarəti güclü olan məbəddən fərqli olaraq, subar boylarının əkin-biçin və otlaq yerləri umumi icmalara aid idi. Burada varlı-kasıb təbəqələşməsi getsə də, mülkiyətdə hüquq bərabərliyi qorunan bu toplumlarda şəhər-məbəd hakimiyəti deyil, boybirlikləri əsasında seçimlə formalaşan demokratik qurumlar üstün mövqeyə çıxırdı. Özəlliklə, Dəclə və Urmu arası ərazilərdə yaşayan heyvandar türk boylarında bu qurum daha qabarıq cizgilərlə görünür. Beləliklə, etnik psixologiya və gələnəkdən asılı olaraq, müxtəlif yönümlü dövlət qurumları, dövlətçilik gələnəyi yaranır ki, qədim Ön Asiya dövlətlərindən danışarkən bu faktoru diqqətə almaq lazım gəlir.

İkiçayarasının indiki Bağdaddan yuxarı hissəsi sumer yazılarında Subartu (Subar), aşağı hissəsi isə Kiengir (Kəngər) adlanırdı. Kİ.EN.Gİ yazılıb, *Kiengir* oxunan bölgə ilə Subartu arasında sonralar Akad (Aqade) şəhəri salınan Ki-Uri bölgəsi yerləşirdi. Öncə sumerlərin Kiengir adlanan əraziyə gəlib məskunlaşması, sonralar isə III minilin başlarından vaxtaşırı

[32] «Die İnschriften der Könige von Aqade» (*Hirsch H.* "AFO", 1963) adlı əsərdə verilmiş bu yeganə bəlgədən elamşünas prof. Yusif Yusifov bəhs edir (Юсифов, 1987, 25).

Ərəbistan çöllərindən axın-axın gələn sami tayfalarının Subartuya yerləşməsi regionun etnik tərkibini xeyli dəyişdi.[33]

İkiçayarasına gələn samilər Akad şəhəri ətrafında güclənib, subarları daha yuxarılara sıxışdırırdı. Ulu Sarqonun (XXIV əsr) yuxarı Subar bölgələrinə hücum etməsi barədə yazılar qalmışdır. Sarqonun yaratdığı sami Akad dövləti Sumer ölkəsini də ələ keçirmişdi. Akaddan yuxarıda formalaşan sami tayfaları subarların *Asur* məbudu olan şəhərinə yerləşdi və burada akad dilinin fərqli ləhcəsində danışan samilər Asur şəhərinin əhalisi anlamında *asur* adlandı. İlk asur çarları sami adı yox, yerli Kikia, Uşpia kimi adlar daşıyırdı. II minilin əvvəlində subar torpaqlarına asurların ekspansiyası gücləndi. Bu vaxt İkiçayarasının yuxarı bölgələrinə sıxışdırılan subarlar quzey-doğudan da yeni hurri axınları ilə qarşılaşdı.[34] Beləliklə, aşağıdan samilərin, yuxarıdan da qafqazdilli hurri tayfalarının arasında qalan subarlar üç qola ayrıldı; *batı-subar, orta-subar, doğu-subar* boyları (I və II sxem):

I sxem




II sxem




Batı subar boyları batıya çəkilib digər xalqların içində əridi, doğuya çəkilənlər Urmu gölü və Araz çayı hövzəsində yerləşdi və daha sonralar xeyli hissəsi Xəzər boyunca yuxarıya miqrasiya etdi. Sonrakı minillər ərzində doğu-subarlar türklüyünü itirmədi, çünki soydaşlarının arasında idi. Arada qalan orta subar boyları isə Fərat və Dəclənin yuxarı axarlarında,

---

[33] Xasun-Xalaf kulturunda bükülü basırıq olduğu halda, basırıqları uzanıq ölübasdırma ilə seçilən şumerlərə aid Ubeyd kulturunun, doğru olaraq, regiona yeni etnosun gəlməsi ilə əlaqəli olduğunu yazırlar (ИДВ, 1983, 87).

[34] Subar ölkəsində III minilin sonunda başlanan samiləşmə II minilin əvvəlində daha böyük vüsət aldı. Bu ölkənin batı bölgələrinə batı sami boyları, güney bölgələrinə isə akad-asur boyları sızırdı. Yalnız subar-mitan boylarının bölgəyə gələn hurrilərlə birləşib qurduğu Mitan dövləti bu sami ekspansiyasının qarşısını ala bildi, İkiçayarasının güneyindən fərqli olaraq, quzeyində tam samiləşmə baş tutmadı.

Van gölündən batıda, indiki Bitlislə Diyarbakır arasında ayrı-ayrı bölgələrdə bəylik və kiçik dərəbəyliklər şəklində yaşadı. Bir az sonra bu orta və doğu subar boylarının tarixindən söhbət açacağıq, çünki sonralar Avrasiyanın bir neçə bölgəsinə yayılan subar boyları təkcə azər xalqının deyil, başqord, bulqar (tatar), kumuq, qaraçay-balkar türklərinin formalaşmasında da iştirak etmişlər.

**Batı subar boyları.** Batıya çəkilən subarlar içində *kuman, kumuq, barsil, as, oquz, etrusk, qaşqay* və sair boylar bir-birindən fərqli duruma düşsələr də, bəziləri eyni taleyi yaşamışlar. Yad mühitdə dillərini və etnik gələnəklərini itirən bu boylardan yalnız yer-yurd adları və bəzi sözlər qalmışdır.[35] Bu boyların bəzisindən yuxarıda məlumat verilmişdi, bəziləri haqqında isə sonra danışılacaq. Burada yalnız batıya keçən *kumuq-subar* boyları haqqında bir-iki söz deməyə ehtiyac vardır.




Asur-Urartu yazılarında KUR və URU determinativləri ilə verilən *Kumax(a), Kumux(u)* ölkəsi Fərat çayının orta axarında yerləşir.[36] Kumuq boyu Diyarbakır ilə Fərat çayı arasındakı ərazidə və çayın batı yaxalarında yad olunur. Onlar Fəratı keçəndən sonra çox da uzağa getməyib, çayın batı yaxasında, Malatyadan güneydə oturmuş və bura ***Kumuq ölkəsi*** adlanmışdır. Kumuqlar burada zaman-zaman sami, hurri və het dilli boyların içində ərisələr də, bölgənin adını qaynaqlar uzun müddət *Kumuq, Komuq,* antik dövrdə *Kommaqena* (Κομμαγηνή ) kimi yad edir.

---

[35] Batıya keçən kumanlar əski hat yurdunda yerləşmiş və böyük bir bölgə onların adı ilə *Kuman* (Komane) adlanmışdır. Müasir Kayseri bölgəsini içinə alan və asur yazısında «geniş ərazili ölkə» kimi verilən bu Kuman bölgəsi ilə orta-subar boylarının yerində - Güney Doğu-Anadoluda ortaya çıxan digər Kuman bəyliyini bir-birindən fərqləndirmək lazımdır. Forrer Orta-Anadoludakı Kumanı Qaşqay ilə eyniləşdirir (АВИИУ, №46, 178). Batı-Anadoluya keçən *as* boyları, görünür, Troyada yerləşmişlər, çünki Avropanın quzeyinə qalxan as boylarının Troyadan gəldiyi qeyd olunur (МЭ, 1970, 10-12).

[36] ТУ, 122-123.

Vaxtaşırı Kumuq bəyliyinə hücum edən asur və urartu qoşunlarına qarşı müxtəlif çağlarda *Katazil, Kuştaşpi* adlı bəylərin başçılığı ilə vuruşan kumuqlar çox vaxt Asur və Urartu dövlətindən asılı vəziyyətə düşmüş, bəzən də Urartu ilə birləşib Asura qarşı vuruşmuşlar. Asur yazısında qeyd olunmuşdur ki, III Tiqlatpalasar (m.ö.745-727) Urartu çarı Sarduri ilə müttəfiq olan *Aqus, Melid, Qurqum* və *Kumux* ölkələrinin başçıları (böyükbəyləri) *Mati'el, Sulumal, Tarxular* və *Kuştaşpinin* ordularını Kumux elinin Kiştan və Xalpu bölgəsində məğlub etdi.[37] Görünür, kumuqlar üzərində əldə olunan bu qələbə onlapı Asurdan asılı duruma sala bilməmişdir, çünki bir neçə il sonra asurlar yenidən Kumux ölkəsinə hücum edirlər: II Sarqona (m.ö.721-705) aid bir qaynaq Sarqonun kumuxlu Mutallunun ölkəsində 62 şəhər (yaşayış məskəni) tutduğunu, onun sarayında qiymətli var-dövləti yağmalayıb, ailəsini əsir aldığını və bu ölkəyə başqa əhali köçürdüyünü qeyd edir.[38]

*Xalpu* (Xalfetı), *Haran, Saruq, Basar* (Beşiri), *Til-Barsip* (Birecik), *Kiştan* (Küştem) kimi bir çox şəhərlər kumuq boylarına aid edilir. Kumuq boylarının yayıldığı ərazilərdə müasir *Siverek, Savur* kimi yer və çay adlarını kumuqlara bağlamışlar.[39] Ola bilsin ki, Fərat (*Burat*) çayına qoşulan *Balıq* çayadı da subar boylarından olan kumuqlardan qalmadır. İ.M. Dyakonov *Bit-Aqusi* adının hərfi mənada «Aqus evi» anlamı bildirdiyini, bu dövlətin *Arpad* (Tel-Efrad) adlı başkəndinin Suriyanın quzeyində Kilisdən 25 km güneydə yerləşdiyini yazır.[40] «Oğuz yurdu» anlamında Hələb tərəfdə oquz boyundan yadigar qalan *Bit-Aqusi* ölkəadı asur və het qaynaqlarında uzun müddət yad olunur. Bu bölgədə oğuzların «alıp» (alp) sözünə yaxın Alepponun qədim *Xalpu, Halap* variantları da diqqəti çəkir.

Ümumiyyətlə, qədim Hələb, Ebla və Hatay çevrəsində *Uti, Qarqar* kimi qədim türkcə yeradları çoxdur. Ola bilsin ki, Mitan Eli çağında hurri boyları ilə yanaşı, bəzi subar boylarından da Finikiyaya enənlər olmuşdur. Qədim türk runik yazısı ilə Aralıqdənizi yaxasında yayılmış yazıların eyni mənşəli olmasını I Bitikdə «Yazı» bölməsində vermişdik.

---

[37] АВИИУ, №41 (59); Mətndə tərcüməsi «ordugah», «ordu» kimi verilən *karâšu* sözü diqqəti çəkir (АВИИУ, №42, 20, 2-ci qeyd); Belə ki, burada türkcə *kara* «piyada» və *sü* «qoşun» anlamı nəzərə alınsa, *karâšu* hərbi termininin «ordugah» deyil, «piyadalar» anlamında işləndiyini düşünmək olar.

[38] АВИИУ, №54 (122); Maraqlıdır ki, mətndə söhbət Kumux elindən gedir, lakin böyükbəy Mutallu *(Mutal)* Qurqum elinin başçısı *Tarxular'ın* oğlu kimi verilir (№54, 72).

[39] Halis, 1988.

[40] АВИИУ, №41; ТУ, 57.

Kumuq bəyliyindən yuxarı, quzey-batı yönə çəkilən subar boyları, görünür, etrusklar kimi sonralar İtaliyaya keçmişlər, çünki aşağı İtaliyada ***Subaris*** (Σύβαρις) adlı çay və şəhər adları, *Sabura* qalası subarlarla bağlı yaranmışdır.[41] Yaşadığı dövrə yaxın tarixdə İtaliyada baş vermiş hadisəni təsvir edən Herodot m.ö. 510-da Kroton'lular tərəfindən dağıdılan Sibaris və onun hökmdarı *Telis* haqqında geniş bilgi verir.[42] Subar boyu İtaliyaya gəlib, Tiber çayından yuxarı bölgələrdə yerləşən etrusklar kimi, həmin dağıntıya qədər artıq burada yerli əhali içində asimilyasiya olunmuşdu. Halbuki, vaxtilə dörd asılı boyu və 25 şəhəri birləşdirən subarların lazım gələndə 300 min döyüşçü çıxara bildiyini yazan Strabon Sibaris şəhərini də onların saldığını qeyd edir.[43] İtaliyada qədim türk izlərindən danışarkən yuxarıda verdiyimiz onomastik bəlgələr subar və etrusklarla bağlıdır.

Göründüyü kimi, zaman-zaman batı bölgələrə çəkilən subar boyları yerli xalqların içində ərimişlər. Lakin batıya deyil, quzey-doğuya qalxıb, Het dövlətinin dağılmasında böyük rolu olan *qaşqay* boylan ilə əlaqəsini itirməyən Doğu-Anadolu subarlarının (*sper*) böyük bir qismi və *subi, suvar, savir, sibir* adları ilə doğuya çəkilən subar boyları isə milli gələnəklərini və türk dilini saxlaya bildi. Bunlardan bir az sonra bəhs edəcəyik, hələlik isə Mitan Eli dağılandan sonra aralıqda qalan *orta-subar* boylarının bu bölgədə yaşadığı tarixə baxaq.

## Subar bəyliyi

Mitan dövləti m.ö.XIII əsrin ortalarında dağıldı. Onun orta-subar boyları yaşayan quzey əyalətlərindəki Arme, Urmu, Kulmeri, Turxu və sair şəhər-bölgələrində ayrı-ayrı dərəbəyliklər ortaya çıxdı. Artıq II minilin sonu, I minilin əvvəlində güneydə Asur, qüzeydə isə yeni yaranmaqda olan Urartu dövləti güclənməkdə idi. Bu qonşu dövlətlərin vaxtaşırı hücumlarına qarşı dura bilmək üçün İkiçayarasının quzeyində subar boyları yaşayan bölgələr birləşib *Subar bəyliyini* yaratdılar. O çağlarda Ön Asiyanın iki qüdrətli dövləti olan Asur və Urartu arasında yerləşən bu kiçik Subar bəyliyi bəzi gərgin vaxtlarda gah bu, gah da o biri dövlətə vergi ödəməklə ölkəni işğalçı hücumlardan qorumağa çalışırdı. Lakin elə dövrlər də olurdu ki, hər iki qonşu dövlət Subar bəyliyinin yerit-

[41] Трубачев, 1968, 263; Моммзен, 1887, I, 49; İtaliyaya gedərkən etruskların Smirna (İzmir) limanından dənizə çıxması da diqqəti çəkir, çünki *Sumir > Smir/İsmir dəyişməsi mümkündür.

[42] Herodot, V. 44-47; VI. 21, 127.

[43] Strabon, V. 4.13; VI. 1.13.

diyi müstəqil siyasətlə hesablaşmalı olurdu. İki əsrdən artıq mövcud olan Subar bəyliyi m.ö. 673-ə qədər müstəqil dövlət kimi yaşadı.[44]




Subar bəyliyi haqqında m.ö. XI-X əsrlərdən məlumat verilsə də, ondan hələ dövlət kimi deyil, bir neçə şəhəri olan ölkə (bölgə) kimi bəhs olunur, bu ölkədə böyükbəy titulu yalnız m.ö. IX əsrdən görünməyə başlayır.[45] II Adadnerarinin yazısına görə o, «Subar ölkəsi ilə konfederasiyada olan *Arinu, Turxu* ve *Zaduri* şəhərlərini (Asura) qaytarmışdır».[46] III Salmanasar m.ö. 854-cü il yürüşündə «subarlı Anxittişeni öz şəhərində mühasirəyə alır».[47] Sonrakı yürüşündəsə bu Asur çarı *«subarlı Anxite'nin Upumu şəhərini tutdum»* - deyə, yazır.[48]

Görünür, əvvəllər qonşu bölgə və şəhərlərlə konfederasiya yaradan Subar bölgəsi artıq IX əsrin ortalarında siyasi dövlət qurumu olan bir bəyliyə çevrilmişdi. Çünki bu çağlardakı sənədlərdə ölkənin başçısı kimi verilən *Anxit* «çar» titulu ilə təxminən otuz il (884-854) xatırlanır və Subar bəyliyində iki başkənd (āl šarrūti ) qeyd olunur ki, bunlardan biri *Kulmeri,* digəri *Upum* idi. İlicənin yaxınlığındakı yüksək dağda yerləşən və «*dağın başında dumana oxşayan*» Upum coğrafi durumuna görə, böyükbəyin yaylaq şəhəri sayıla bilər.[49]

---

[44] Azər xalqı, 2000, 129-134.

[45] Bu bəylik haqqında Asur çarları I Tiqlatpalasar (1115-1076), Aşşurbelkal (1076-1059), II Adadnerari (911-890), II Aşşurnasirapal (884-859), III Salmanasar (859-824), II Sarqona (722-705) aid yazılarda və Subar bəyliyini 673-də darmadağın edən Asarxaddonun (680-669) yazılarında, həmçinin Urartu qaynaqlarında bəlgələr vardır.

[46] ARI, II, 87; ARAB, I, §362.

[47] АВИИУ, №28(52), №29.

[48] $^{URU}$U-pu-[mu] şa $^{I}$An-xi-ti-şe $^{KUR}$Şub-ri-a-a ak-şu-ud (BA, VI, 46-cı sətir).

[49] *Upum* sonrakı qaynaqlarda *Ἀφουμών* və *Fum* adlanmış, indiki Kulpa yaxın *Kulmeri* isə sonrakı Bizans qaynaqlarında *Χλωμαρών* kimi qeyd olunmuşdur (ТУ, 118, 205, 209).

Ərazisindən çoxlu çaylar axan Subar dağlıq ölkə idi və onun dağlarında qızıl, gümüş, dəmir və digər metal yataqları vardı. Subar şəhərlərindəki sənətkarlar bəzək əşyaları, müxtəlif silah və cəng arabaları düzəldə bilirdi. Subar boylarının dəmirçilik sənətində irəli getdiyini, silah-yaraq hazırlamaqda məşhur olduğunu onların sonralar Quzey Azərbaycandakı fəaliyətində də görmək olur. Subar elbəyi Anxite öz tacını Asur çarına göndərəndə «*aslan dərisi bəzəyində cılxa qızıldan*» olan bu ərməğanın gözəlliyini vəsf etməkdən çar özünü saxlaya bilməmişdi.[50]

Ölkənin çay vadilərində və dağ ətəklərində çoxlu əkin yerləri vardı. Burada əkinçiliklə yanaşı, heyvandarlıq da inkişaf etmişdi. Asur çarlarının Subar ölkəsindən qənimət kimi çoxsaylı mal-heyvan aparması bunu aydın göstərir. Çoxlu yaşayış məskənləri, şəhər və qalaları olan Subar bəyliyinin çarı (elbəy), müxtəlif alaylı ordusu, dövlət məmurları, bölgə, şəhər və qalabəyləri, ağsaqqallar şurası, müşavirləri, soylu bəyləri vardı. Subarda böyükbəyin (*şarru*) sarayında müşavir (*māliki*) olan soylu bəylərin (*rubē*) varlığı Subar elbəyi Niq-Teşubun Assarxaddona yazdığı üzrxahlıq məktubundan bəlli olur. Asur qaynağı həmin məktubdan bu hissəni verir:

> «Müşavirlərim, soylu bəylər mənə yanlış şeylər anlatdılar, yalan sözlər dedilər; Aşşur qarşısında böyük günah etdim, himayədarım çarın sözünə qulaq asmadım və sənin asurlu qullarını (qaçqınları) sənə qaytarmadım, ancaq bununla özümə də yaxşılıq etmədim».[51]

Əgər əlimizdə subar elbəyinin yazdığı məktubun orijinalı olsaydı, təbii ki, Subardakı durum haqqında daha ətraflı bilgimiz olardı, lakin Asur çarı elbəyin məktubundan yalnız «üzrxahlıq» hissələrini vermişdir. Ancaq buradan da aydın hiss olunur ki, despot rejimli Urartu və Asur dövlətlərindən fərqli olaraq, Subarda ədalətli sosial durum vardı, çünki həmin ölkələrdən qaçanlar məhz burada sığınacaq və rifah tapırdı. Türk boylarının qurduğu Qut elinin Akad, Sumer, Elam dövlətlərilə müqayisəsi də göstərir ki, qonşu xalqlar tolerant ruhlu türklərə xilaskar, onların qurduğu dövlətlərə isə ümid yeri kimi baxmışlar.

Subar bəyliyinin əhalisi azad və firavan yaşayırdı. Burada qul yox, saray və ev qulluqçuları vardı. Qonşu ölkələrdən fərqli olaraq, burada sosial təbəqələr arasında qabarıq qarşıdurma yox idi. Ona görə də, Urartu və Asurdan bura çoxlu qaçqınlar gəlirdi. Əvvəllər Subar ölkəsinə gələnlərin əksəri qullar və digər yoxsullar idisə, sonralar qaçqınların içində despo-

---

[50] АВИИУ, №67 (ж).

[51] АВИИУ, №67 (г).

tizmdən qaçan çarın əskər və nökərləri, qalabəyi, bölgə başçısı, zabitlər və hətta Asur çarının qardaşları da vardı.[52]

Subar bəyliyinə sığınan qaçqınlara bu ölkədə ev (bītāte$^{\text{MEŞ}}$), əkin-biçin üçün tarla (eqlēti$^{\text{MEŞ}}$) və bağ-bağça ($^{\text{GİŞ}}$ kirē$^{\text{MEŞ}}$) verilirdi.[53] Əgər bir ölkədə qaçqınlar əkin-biçinlə məşğul olmaq imkanı əldə edirsə, deməli, ölkənin daha böyük imtiyaza malik yerli əhalisi mülkiyət hüququ, şəxsi torpağı olan azad insanlardı. Asur dövlətindən asılı olduğu dönəmlərdə bu ölkədən alınan vergi və sadalanan bac-xərac göstərir ki, subar boylarının içində mal-heyvan, at-ilxı saxlayan heyvandarlar, özəl əkin sahələri olan əkinçilər (LÚikkāru), bağ-bostan və üzümçülüklə məşğul olan bağbanlar (LÚnikaribbu), qab-qacaq, bər-bəzək, ordu üçün qılıc-qalxan, yay-ox, cida, balta, cəng arabası düzəldən sənətkarlar vardı. Bu ölkənin filiz yataqları metalişləmə sənətinin inkişafı üçün zəmin yaradırdı, buradan ətraf ölkələrə mis, qurğuşun aparılması haqqında bəlgələr vardır. Subar bəyliyində, özəlliklə, metalişləmə, dəmirçilik sənəti yüksək inkişafda idi. II Aşşurnasirapala verilən bac-xərac siyahısında «gümüş, qızıl, tunc, qurğuşun, dəmir, *gur-pî-si* (?), qablar, at, iri və xırdabuynuzlu mal-heyvan» sadalanır.[54]

Subar bəyliyində böyük ordu olmasa da, nizami ordunun əlaməti görünür. Belə ki, elbəyin qvardiyasını (*kisir şarrūti* ) cəng arabaçıları, süvarilər təşkil edirdisə, əsas ordu oxçu ($^{\text{GİŞ}}$kaşu) və qalxanlı ($^{\text{GİŞ}}$a-ri-ti) piyada alayından (*kara-sü*?), asurca *rəis* (rēşē) adlanan zabitlərdən, kəşfiyatçılar və zirehçilərdən ibarət idi. Orduya aid mətndə asurca mənası bilinməyən *şaknute* və *elatsu* terminləri işlənir.[55] Son savaşda Upum şəhərinin qala divarı qarşısında

---

[52] Söylənən bu məlumatlar asur və urartu dilli mənbələrdə geniş əks olunmuşdur, lakin «Azər xalqı» kitabında verdiyim beş-altı səhifəlik ötəri və ümumi bilgi istisna olmaqla, bugünə qədər nə Türkiyə, nə də Azərbaycan tarixçiləri Subar bəyliyinin tarixi, onun Urmu hövzəsi bölgələrlə əlaqəsi, doğuya - qədim Azərbaycana çəkilən və burada formalaşan xalqın mənşəyində yeri olan digər subar boylan ilə ilişkiləri barədə bir cümlə də yazmamışlar. Halbuki, qədim subarlardan tutmuş, haqqında danışdığımız dövrdəki subarlara qədər onların onomastikası eynilə hər iki regionda təkrar olunur.

[53] АВИИУ, №59 (37); Саркисян, 1980, 69, 73.

[54] ARAB, №1, § 502; II, § 606; АВИИУ, №26.

[55] АВИИУ, №67 (ж, к); Саркисян, 1989, 74-75; Subar ordusunun son məğlubiyətindən bəhs edən mətndə *u-par-ri-ru ka-şir-tu* ***e-lat-su*** deyimi «özünün toplanmış qüvvəsini dağıtdı» şəklində tərcümə edilmişdir. Lakin elat-su deyimi nizami orduya qoşulan subar elatının döyüşçüləri anlamında *elat-sü,* yəni qədim türkcə *elat* «əhali» və *sü* «qoşun» sözlərilə işlənən «elat qoşunu» anlamında yerli termin, subar sözü ola bilər. Yuxarıda asurca mənası bilinməyən bir hərbi terminin də *karasu* «piyada qoşun» deyimi olduğunu göstərmişdik. Bugün Türkiyə ordusunda eyni anlamda «kara kuvveleri» deyimi işlənir.

asurların qurduğu ağac atmaları subarların yuxarıdan neft (*naptu*) töküb yandırması göstərir ki, bu ölkədə neft də varmış.[56]

Subar ölkəsində Kulmeri, Upum ilə yanaşı, Turxu, Xasmetu, Markux, Penzu, Arinu, Zaduri şəhərlərinin adı çəkilir. Digər Urartu yazılarında olduğu kimi, Menua da Subar ölkəsini başkənd Kulmeri adı ilə *Qulmeri asuni* (bölgəsi) adlandırır və burada 70 şəhər-kənd, 400 yaşayış məskəni (URU$^{MEŞ}$) yağmaladığını yazır, onun buralarda *şadılı* boyları ilə savşadığı da bəllidir.[57] Göründüyü kimi, qaşqay, ermən, şadılı, kuman, kumux və sair türk boyları yaşayan bölgə və ölkələrlə əhatə olunmuş Subar bəyliyi çoxlu yaşayış məskənlərinə malik idi. Subara söykənən bölgələrdən *Urume* quzey-doğuda, *Arme* isə batı qonşuluqda idı. Urartular Subara girmək üçün Urume bölgəsindən keçməli olurdular. Bu səbəbdən, Subar ilə Urume bölgəsini eyni ölkə saymaqda yanılsa da, Muş ovalığında *Urman* kəndinin adını Subar bəyliyi çağından qaldığını qeyd edən N.V.Arutyunyan haqlıdır. O yazır:

> «Düşünmək olar ki, Urartu qaynaqlarında *Urme*, Asur qaynaqlarında isə *İç Urumu* kimi verilən ölkə (bölgə) adı həmin *urum* boyunun adından yaranmışdır».[58]

Burada yaşayan *urum* adlı subar boylarının vaxtilə qaşqay türkləri ilə birlikdə asur-subar savaşlarında Subar şəhərlərinin köməyinə gəlməsi Asur çarını narahat etmişdi.[59] Bunlar həmin urum boylarıdır ki, adını *Urmu* gölünə, azərlərin *ayrım* boylarına, *urum türkü* deyilən batıdakı türklərə və doğuda *Urumçi* şəhərinə vermişdir. Arme bölgəsində isə «Türk tanrı» tapınağı vardı, bu tapınağın kahini «baş kam» adlanırdı.[60] Subarların Arme bölgəsindəki əhalini urartular *ermen* adlı subar boylarına uyğun olaraq, *arme-ni* adlandıra bilərdi, o dönəmdə burada *hay* tayfaları yox idi. Bura-

---

[56] ARAB, II, § 599; АВИИУ, №67 (e).

[57] УКН, №4; ТУ, 238.

[58] Арутюнян, 1970, 169-170.

[59] I Tiqlatpalasara (m.ö.1115-1077) aid yazıda deyilir:

«Məğrur, yenilməz subarların ölkəsini tutdum, vergidən imtina edən Alzi və Purulumzi bölgələrini hakimiyətimin boyunduruğu altına saldım, mənim şəhərim Aşşura hər il bac-xərac gətirmələrini qəbul etdirdim. Sahibim Aşşur şan-şöhrətimə uyğun mənə yenilməzləri məğlub edən güclü silah verib, ölkəsinin sınırlarını genişləndirməyi əmr etdi: öz gücləri ilə hetlərin ölkəsindən (gəlib) Subartu ölkəsində rəbbim Aşşura tabe olan yaşayış məskənlərini tutan 4000 *qaşqay və urum* mənim Subartuya gəldiyimi eşitdilər, savaşdan qorxub, ayağıma düşdülər. Mən onları var-dövləti, 120 araba və qoşqu boyunduruğu ilə qəbul edib, öz ölkəmin adamlarına qatdım» (АВИИУ, №10, II, 89).

[60] Капанцян, 1947, 201; Azər xalqı, 2000, 288-290.

dakı armenlər sonra Murad-suyun quzey yaxalarına keçdiyi üçün, oralar da *Ermen* bölgəsi adlandı. Armedən yuxarıda Murad-suyun güneyində isə subarların *şadılı* boyu yaşayırdı.[61] Ümumiyətlə, Subar bəyliyinin kontaktda olduğu ətrafdakı Qaşqay, Urume, Ulluba, Arme, Kumuq, Kuman və başqa ölkə-bölgələr qədim türk bəlgələri ilə doludur. Subar bəyliyinin etnik tərkibi, çox güman ki, təkcə subarlardan deyil, qonşu bölgələrdə yaşayan urum, matien, ermən, türk (turxu), şadılı, kuman, kumuq adlı türk boylarından, qafqazdilli hurri, bura sığınan urartu və samidilli qaçqınlardan ibarət idi. Subar bəyliyi dağılandan sonra subarların bir hissəsi yuxarı qalxıb, Çorux çayı hövzəsində sonrakı qaynaqların Subar (Sper) ölkəsi adlandırdığı bölgədə yerləşdi. Asurların xarabaya çevirdiyi Subar bəyliyində boşalan kənd və şəhərlərə Suriyanın quzeyindən və Kilikiya bölgəsindən köçürülən hay tayfaları yerləşdi. Bunlar qədim türklərin Ərmən bölgəsinə yaxınlaşan ilk haylar idi. Hay qaynaqları onların Subar ölkəsində məskunlaşma olaylarını geniş verir.

Subarın son elbəyi Niq-Teşubun və onun asurlarla yaxın münasibəti olan qardaşı Baq-Teşubun adında Mitan Eli dövründən geniş yayılan Teşub adını görmək olur.[62] *Baq-Teşub* adındakı *baq* Urmu hövzəsində və Göytürk yazılarında işlənən «tanrı» anlamlı *baqa* sözü deyilsə, onda bay/bəy sözünün qədim forması (beq) ola bilər. Bu halda adın çağdaş forması *Bəy-Teşub* olur. «Dədə Qorqud» bahadırı Basatın soyu *Qoğan Aslana* bağlandığı kimi, Subarda da Aslan kultu vardı.[63] Yuxarıda qeyd etdiyimiz kimi, Türk adlı tapınaq da Subarın qonşuluğunda idi. Subar ölkəsindən güneydə yerləşən

---

[61] Şadılı boyunun burada yerləşməsi D. N. Sarkisyanın tərtib etdiyi xəritədə əks olunmuşdur (Саркисян, 1989); Urartu çarı Menua buralara yürüş edib, *şadılı* ([I]Sada 'li-exi) boyuna məxsus Şurişili(ni), Tarxiqama(ni) şəhərlərini və yaxınlıqda olan Xatinaşta(ni), Alzi bölgələrini yağmalayır. Görünür, Sub-Ana (Sebene) çayı yaxasında yerləşən *Ata* (Ata-uni) şəhəri də şadılı boyuna aid imiş. Lakin N.V. Arutyunyan şadılı boylarının yaşadığı ərazini Van gölünün güney-batısında verir (ТУ, 238); Subar Eli dağılandan sonra başqa boylar kimi, *şadılı* və *şatər* adlı boylar da Güney və Quzey Azərbaycana keçmişdi. II Sarqon çağında bir asur yazısı Böyük-Zab çayının Kiçikçaya qovuşduğu sahədəki sol yaxasında müasir Zibar'ın yerində *Sibar-qala* (Kar-Siparri) ilə yanaşı *Şatər* ([KUR]Sattera) yeradını çəkir (ТУ, 241).

[62] Urartu əleyhinə məlumat toplayıb asurlara ötürən Baq-Teşubdan yeni məlumatı ala bilməyən rezident Aşşurdurpanin Asur çarına göndərdiyi məktubda onun xəstələnməsini elçilərdən öyrəndiyini yazır və onların söylədiyi sözləri əlavə edir: «Baq-Teşub xəstədir. Özümüz gedib gördük» (АВИИУ, №50, 37).

[63] İ. M. Dyakonova görə, [d]ÚG-GAL sumer ideoqramı ilə verilən «Böyük Aslan» Subar ölkəsində tapınaq adı bildirir (АВИИУ, №67, b; 6-cı qeyd).

Sabireş (Şabireşu) şəhərinə gələn subar elçilərindən qalabəyi *Abiyaka* və *Yata* adları da diqqəti çəkir. Subar ölkəsinin güney-batı qonşuluğunda yerləşən ölkənin böyükbəyi də qaynaqlarda Tubusi (oğlu) Lapturu adını daşıyırdı.

Niq-Teşubun vaxtında Asur çarı Asarxaddon şıkayət edir ki, Asur və Urartıu qaçqınları Subarda rahat sığınacaq tapır, burada onlara torpaq sahələri də verilir, halbuki hər iki ölkənin qüdrətli hökmdarları dəfələrlə Subar çarından qaçqınları qaytarmağı xahiş etmişlər. Lakin Subar çarı onları qaytarmır. Bunu bəhanə edən Asarxaddon asurların uzun zaman işğal etmək istədiyi Subar bəyliyinə hücum edib, möhkəm və yaraşıqlı qalaları, şəhər-kəndləri tutub dağıdır, elbəy Niq-Teşub isə öldürülür.[64] Asarxaddon sağ qalan subarların çoxunu başqa asur əyalətlərinə köçürdür və boşalan şəhər-kəndlərə başqa etnik bölgələrdən əhali yerləşdirir. Eyni zamanda, 21 şəhərin adını dəyişib, asurca adlar qoyur. «*Subarların boşalmış küçələrində artıq nə şənlik vardı, nə də nəğmə oxuyan, yiyəsiz xarabalarda tülkülər, kaftarlar yuva qururdu*».[65]

Böyük ordu ilə 673-ün qışında başlanan bu asur-subar müharibəsi 3-4 ay davam etdi və 672-də Subar bəyliyinin darmadağın edilməsi ilə başa çatdı. Bu müharibənin əsl səbəbi Kiçik Asiyada və Azərbaycanda saqa-qamər boylarının dalbadal Urartu vilayətlərini zəbt etməklə Asur sınırlarında böyük təhlükə yaratması idi. Saqaların Subar bəyliyinə yerləşə bilməsindən qorxuya düşən asurlar onları qabaqlayıb, Subar ölkəsini işğal etdi. Niq-Teşubu öldürən Asur çarı onun ordusundan və muhafizə qvardiyasından salamat qalan hissələri sıraya düzüb, baxış keçirdi və onları asur ordusuna qatdı. Urartudan qaçıb burada sığınacaq tapan qaçqınları tutub, Urartu çarına göndərdi. Etnik simasını dəyişdirdiyi Subar ölkəsini də iki canişinliyə ayırıb, Asur əyalətinə çevirdi.[66] Artıq bundan sonrakı qaynaqlarda ölkənin adı Subar yox, həmin əyalətlərin adı çəkilir. Beləliklə, İkiçayarasının quzeyində qədim subarlardan qalmış bu türk boyunun qurduğu kiçik dövlət dağıldı. İki əsrdən artıq Asur-Urartu kimi təcavüzkar dövlətlərin arasında yaşaya bilən Subar bəyliyi m.ö. 673-də tarix səhnəsindən silindi.

---

[64] İ Ni-iq-Te-şub şarru-şu la şe-mu-ú a-mat qi-bit-ia a-ner «Mənim əmrimi eşitməyən onun (Subarın) çarı Niq-Teşubu öldürdüm» (Саркисян, 189, 49; АВИИУ, №70).

[65] ARAB, II, § 608, § 611; АВИИУ, №67 (р).

[66] АВИИУ, №67, (к, н).

**Doğu Subar bəylikləri**

Orta subarların bəyliyi dağılandan sonra onların bir qismi Çorux çayının hövzəsində olan soydaşlarına qoşuldu.Yüzil sonra artıq burada *Sper* adlı bölgədən söz açılır. Vaxtilə doğuya çəkilərək Güney Azərbaycanda yerləşən subarlar isə asur yazılarında *Subar, Su, Subi, Sibar, Sipar, Sapar* adlanan bölgələrdə yaşayırdı. Miladdan sonrakı qaynaqlar İslamöncəsinə qədər subar boylarını Quzey Azərbaycan, Dağıstan, Quzey Qafqaz və İtil çayı hövzəsində, daha sonrakı qaynaqlar isə Tümen bölgəsində yaranan *Sibir* xanlığı ərazisində qeyd edir. Beləliklə, İkiçayarasından doğuya çəkilən əksər subar boyu batıya gedən soydaşlarından fərqli olaraq, 3-4 minil ərzində dilini və soyadını saxlaya bilmişdir.[67]

Doğu subar boylarının dili haqqında bəlgələr daha çoxdur. Mahmud Kaşğari «Rum diyarındakı beçenəklərə qədər *suvar, bulqar* dillərində söz sonluğunun qısaldılması», «Rus və Rum ölkələrinə qədər uzanan *bulqar, suvar, yemek, qıpçaq* boylarının dili» haqqında bilgi verir.

Suvarların sözbaşında *m* əvəzinə *b (ben bardum),* «ayaq» sözündə başqa türklərdən fərqli olaraq, ذ yerinə ز işlətməsi (*ađaq-azaq*), başqa türklərdə *arı yağı,* suvar dilində isə *bal* deyilməsi, Suvar oymağında uzunu dörd, eni biryarım arşın olan bezlə *(egin)* alış-veriş aparılması və bəzi köçəri boyların suvarlara qoşulması kimi məsələlər qeyd olunmuşdur.[68] Bu böyük türkoloqun qeyd etdiyi kimi, Rus və Rum (Bizans) ərazilərinə yaxın Doğu Anadolu, Azərbaycan və Quzey Qafqazda yaşayan subarların dilindən bəzi şəxs və yer adları asur, urartu, latın, yunan, suriya, gürcü, hay, ərəb və fars dilli qaynaqlarda yer almışdır.

Burada həmin boyların müxtəlif çağlarda ayrı-ayrı bölgələrdə qurduğu bəyliklər haqqında geniş danışmağa imkan yoxdur, çünki təkcə İtil və Quzey Qafqaz subarlarının tarixi ayrıca bir kitab mövzusudur və həm

---

[67] Daha öncə Əfqanıstan və Hindistan yönündə doğuya miqrasiya edən subar boylarının Hindistanda yerli və gəlmə ari boyları içində əriyib dilini itirməsi mümkündür. Belə ki, Bəlx yaxınlığında *Şibirğan* bölgəsi (Тeһрани, 1998, 161), Hindikuş dağlarında *Şibertü keçidi* (Vekayi, II, 141) vardır və qədim hind qaynaqlarında m.ö. I minilin başlarından Orta Hindistanda önəmli çəkisi olan və bura gələn ari boylarından fərqlənən *sabara* (savar) boyları burada bir neçə qola ayrılmış, dillərini itirib, zaman-zaman yerli əhalinin içində ərimişlər (Седловская, 1970, 109-112).

[68] MK, I. 30-32, 78; III. 314,156; M. Ergin, düzgün olaraq, «Dədə-Qorqud» kitabının qramatikası üçün qədim Sper və Ak-Saqa (Axıska) bölgəsində işlənən dialetkti əsas götürmüşdür.

də başlıqda verdiyimiz mövzudan kənardır. Ona görə, Atayurddan doğu və quzey ölkələrə gedən subar boylarının getmə istiqamətini və tarixini izləmək üçün burada yalnız qədim türklərin doğudan Azərbaycana gəlmədiyini, əksinə, buradan doğuya miqrasiya etdiyini aydın göstərən az, toqar, kumuq, qıpçaq, kuman, kəngər, turuq (türk), oğuz və sair boylarla yanaşı, subar köçlərini əks etdirən yerdəyişmə bəlgələrini gözdən keçirək.

**Doğu Anadoluda *Sper bəyliyi.*** Böyük əraziləri zəbt etmiş Urartu dövlətinin dağılmasına Güney Qafqaza quzeydən gələn saqa-qamər boylarının hücumları səbəb oldu. Urartuya qarşı vuruşlarda yerli subar boyları da iştirak edirdi.[69] Vaxtilə, Doğu Anadoluya çəkilən subarlar Çorux çayının yuxarı axarlarında yerləşmişdi. Sipar bölgəsi adlanan bu ərazi yunan-latın və gürcü qaynaqlarında *Sapir, Sper, Sasper* variantları ilə qeyd olunmuşdur.[70] Herodot qədim gürcü deyimi olan Sasper formasını işlədir (görünür, onun informatoru Kolxidadan imiş). Gürcü dilində etnonimin əvvəlinə qoşularaq ölkə anlamı yaradan *sa* önqoşması *kartvel* adına qoşulub *Sakartvelo* (Kartvel eli) şəklində işləndiyi kimi, *sper* adına da qoşulub *Sasper* (Sper eli) yeradını ortaya çıxarır.[71] Herodotun yazdığına görə, Kolxida ilə Mada (Midiya) arasında çoxsaylı subar boybirlikləri yaşayırdı. Yəni m.ö.VI-V əsrlərdə Kolxida-Mada yolu Arazın yuxarı və orta axarında sper boylarının ölkəsindən keçirdi.[72] Madaya (Azərbaycana) gedən

---

[69] B. B. Piotrovski yazır ki, Urartu dövlətini m.ö.VI əsrin əvvəlində «güney-doğudan hücum edən midiyalılar və Güney Qafqaz boyları ilə birlikdə hərəkət edən skiflər dağıtdı» (Пиотровский, 1946, 28); B.V. Texova görə, m.ö.VII-VI əsrlərdə Ön Asiyanın geosiyasi durumunu dəyişən hərb olaylarında aktiv rolu olan saqalarla birlikdə Güney Qafqaz boyları, özəlliklə, «Midiya ilə Kolxida arasında geniş ərazidə yaşayan *sasper* boybirləşmələri də iştirak edirdi» (Техов, 1980, 11).

[70] «Kolxida ilə Midiya arasında yalnız ***saspir*** boyları yaşayır» (Herodot, I. 104; IV.34); Bu məlumatı «Midiyadan ***Speri*** bölgəsinə qədər» deyimi ilə IV əsr müəllifi Yevseviy də «Xronologiya» əsərində qeyd edir, lakin bölgənin yerini göstərmir (АИОСК, 1990, 165); «Söyləndiyi kimi, Medeya arqonavtları kolxların başkəndi ***Sibaris*** şəhərindən 70 stadiy məsafədə olan Ares tapınağına gətirdi» (Siciliyalı Diodor, IV.28.1); «Kolxlara qədər bizar, ***sapir*** və s. boylar yaşayır» (Ammian, XXII, 8); «Əsl kolx və çar soyundan olan mahir oxçu ***Subar-maxi***» (Yevnapiy,77) kimi qeydlər və Kolxida qonşuluğundakı Sper bolgəsi haqqında çoxlu bəlgələr vardır (АИОСК, 1990); Gürcü tarixi qaynağında «Sper dənizi» ifadəsi də subarların Qaradəniz yaxasında önəmli çəkisi olduğunu göstərir (КЦ, I, 1955, 9); Ksenefont m.ö. 400-cü ildə burada olarkən ***Arpa*** çayının adını çəkir (Anabasis, 7. §19. 18; ВДИ, №2, 1947, 309); Rodoslu Apolloni (m.ö. III əsr) burada ***sapir*** boyları ilə qonşuluqda makron, bexir və kolx boyları yaşadığını yazır (ВДИ, №3, 1947, 280).

[71] Меликишвили, 1954, 415-416.

[72] Манандян, 1944, 59.

yolların həm Suram aşırımı, həm də Arazın yuxarı və orta axarlarından keçdiyini yazan Q. A. Melikişvili *Sper* bölgəsinin VI əsrdə Bayburt, Ərzurum və İspir (Sper) şəhərlərini də içinə aldığını qeyd edir.[73]

Doğu-Anadoluda bu Sper bölgəsinin etnik tərkibi bölgənin indiki qafqazdilli boyların əcdadlarından və subar türklərindən ibarət idi.[74] Saqa-qamər boylarının qayıdışı ilə m.ö. I minilin ortalarından başlayıb, İslamın yaranmasına qədər türk boylarının minil boyunca Quzey Qafqaz və Orta Asiyadan Atayurda geridönmə olayları Azərbaycan və Doğu Anadoluda türklərin sayını, az da olsa, artırmışdı. Doğu Anadolu ilə indiki Gürcüstan və Ermənistan arasında buntürk, avşar, peçeneq, vənənd, qorak, sirak, gögər, kuman-qıpçaq və sair türk boyları bölgədəki Sper boybirləşmələrinə əlavə təpər vermişdi. «Dədə-Qorqud» alplarının at oynatdığı coğrafiyanın batı bölgələri Sper ölkəsi daxilindədir.[75]

Burada türklərin bir qismi xristianlaşsa da, Malazgird savaşında olduğu kimi, müsəlman soydaşları səlcuqların Anadolunu fəth etməsinə imkan yaratmışlar.[76] Olsun ki, Sper bölgəsinə subar boyu ilə birgə toqar, bulqar, kuman boyları da yerləşmişdi, çünki qaynaqlarda onların da adı keçir. Saqa və qamər boylarından bir qisminin burada qalması isə şübhə-

---

[73] Меликишвили, 1959, 232-233.

[74] V əsr müəllifi Psevdo-Arrian *Apsar* (Abşar) çayı hövzəsində yaşayan qədim kolxların sonralar *laz* adlandığını qeyd edir (АИОСК, 1990, 175).

[75] Burada *avşar* boyunun varlığı *Apsar* (Skilax, m.ö.VI əsr) və *Absar* (Plini, Arrian, I-II əsr) şəklində verilən çay və yeradında, *bulqar* boyu *Bulqar dağı* adında əks olunmuşdur. Prof. M. F. Kırzıoğlu «Dədə-Qorqud» boylarında Taş-Oğuz (Boz-ok) adlanan bu bölgədə türkcə olan yer-yurd adlarından çoxunun qədim qaynaqlarda işləndiyini ortaya çıxarmışdır. Antik dövr müəlliflərinin burada *Askur* çayı və *Asqur* qalası olduğunu qeyd etməsi, Bitlisin Xızan ilçəsində *Azqur* kəndinin varlığı keçmiş Subar bəyliyilə Sper bölgəsi arasındakı əlaqəni, subarlarda Asqur adının işləkliyini göstərir (Kırzıoğlu, 1992, 205);

İkiçayarasında şumer-akad qaynaqlarında əks olunan *Kiengir, Subar* adları Osmanlı dövləti çağında Anadoluda təkrar olunur: *«**Kengiri*** sancağında ***semer, semerli*** türkman yörükləri», «Meraş əyalətində ***savuran*** (nam-i diger *okurcalu)* yörük taifesi», «Alanye sancağında yörük taifesi ***saburlar»*** kimi bəlgələr Osmanlı döyləti arxivlərində qalmışdır (OAC, 1979, 638, 664, 669); Bu qaynaqda Mosul əyalətində ***zibar,*** Trabzon sancağında ***zivarlu*** köçəriləri, Karaman və Aydın sancaqlarında *şatırlı* türkman yörükləri və həmçinin *sivri-karkın, sivri-kaya* uruqları qeyd olunur (678, 695, 789, 791-ci səhifələr).

[76] Qafası çalışmayan alimlər o qədər «biz səlcuqlar bura Orta Asiyadan gəldik» dedilər ki, Stalin də «haradan gəldiz, qayıdın ora» - dedi və «gəlmişik» deyənlərə əli çatmasa da, bölgənin subarlardan qalma yerli əhalisi Ağ-Saqa (Axıska) türklərini 1944-də qatara doldurub, Özbək-Qazax ellərinə göndərdi. Dədə-Qorqud ləhcəsini saxlayan bu türk boyu bugünə kimi ulu yurduna dönə bilmir.

sizdir. Çünki sonrakı qaynaqlar *Qamər* (Qamir'k) ölkəsini yaxında verir və *Gümrü* adı da qamərlərdən qalmadır. Strabon burada bir dəstə *saqanı* öldürən farsların hər il bu qələbə gününü «Saqa bayramı» kimi qeyd etdiklərini yazır.[77] Bibliyada m.ö.VIII əsr olaylarından bəhs edən hissədə *Separ* (Sefar) ölkəsinin adı İkiçayarası ölkələri sırasında çəkilsə də, onun yerini dəqiq müəyənləşdirmək olmur.[78]

Beləliklə, Urartunıın süqutundan sonra Çorux çayı hövzəsində ortaya çıxan *Sper bəyliyi* sonrakı gürcü mənbələrində *bun-türk* (yerli türk) sayılan subarların öndərliyi ilə toqar, kuman, qaşqay, avşar (absar), saqa, qamər boyları ilə gəlib burada yerləşən digər türk boylarının da qatıldığı boybirləşmələrinin hərbi-siyasi qurumu idi. Sonralar doğudan və quzeydən zaman-zaman bura yeni türk boylan gayıtsa da, Mada imperiyasından sonra Əhəməni, Selevki dövlətlərinin əyalətinə çevrilmiş Sper bəyliyinin türk əhalisi sıxıntı içində yaşamışdır. Çünki Bizans-İran savaşları çox vaxt bu bölgədə olmuşdur.

Bu da tarixi gerçəklikdir ki, bu savaşlara Güney və Quzey Qafqazdan gəlib qatılan suvar (savir) boyları bəzən Bizans, bəzən də Sasani ordularına yardım etmişlər. Beləliklə, səlcuqların gəlişinəcən Sper bölgəsinin türk boylarının yurdu olması şübhə doğurmur.

**Azərbaycanda *Subar* bölgə və bəylikləri**. İkiçayarasından doğuya keçdikcə *Su, Subi, Sibar, Sebar, Spir, Simer, Sumir, Sumur* formalan ilə işlənən subar yer-yurd adları çoxalır. II Bitikdə Güney Azərbaycana Sarqonun (m.ö.714) yürüş marşurutunun bir neçə subar yurdundan keçdiyini görmüşdük. Ərbil-Kərkük bölgələrinin dörd tərəfi subar yeradları ilə doludur. Buradakı Süleymaniyə şəhərindən güneydə indiki *Qaradağ* adı hələ m.ö. XXI əsrdə özünü *«Qardaka* bölgəsindəki *su* xalqının ensisi» adlandıran Laqaş canişininin yazısında çəkilir. Burada *su xalqı* deyimini İ. M. Dyakonov *subar* boyuna aid edir. O, həmin çağlarda akad yazılarında adı Ərbil və Lulu ölkələri ilə yanaşı çəkilən *Sumur* (Simurrum) ərazisini də Ərbil-Kərkük yolundakı Altın-Körpü ilə eyniləşdirir.[79]

Babildən yuxarıda *Sipar* (Sippar) şəhəri hələ Sumer çağından bəllidir. Sonralar *Sipar* adlı ölkə, bölgə, şəhər-qalalara Dəclənin doğu yaxa-

---

[77] Strabon, XI, 8, 4-5; XII, 3, 37; Psevdo-Kallisfen m.ö. IV əsrdə Misirdə II Nektanabı qorxuya salanlar içində *saqa* və *spor* (sper) boyunu qeyd etmişdir (АИОСК, 1990, 46).

[78] «Asur kralı Babildən və Kutadan və Avvadan və Hamatla *Sefarvaimdən* adamlar gətirdi; və onları Samiriyə şəhərlərində İsrailoğulları yerində oturtdu» (II. Krallar, XVII, 24).

[79] Дьяконов, 1956, 101, 117-118.

larından tutmuş, Qəzvin-Zəncan bölgələrinə qədər müxtəlif yerlərdə rast gəlmək olur. Bu səbəbdən, tədqiqatçılar təkcə Sipar bəyliyini deyil, ümumiyətlə, subarlarla bağlı Azərbaycanda geniş yayılmış toponimləri bir-birindən ayırmağa çox vaxt çətinlik çəkirlər.[80]

Urmu gölünün doğu yaxalarına saqa boylarından bir bölümün gəlişi burada anti-asur ovqatını xeyli artırdı və m.ö.673-ün yazında (mart-aprel) Asurdan asılı Kar-Kaşşi (kassi kaloniyası) başçısı Kaştariti və Maday bölgəsinin bəyi Mamitarşu ilə birlikdə *Saparda* bəyi Dusanni də asurlara qarşı başlanan üsyanın başında durdu. Üsyanın alovlandığı ocağın yeri və bu çağın asur orakulunda işlənmiş «Saparda aşırımı» deyimi göstərir ki, Qarqar bölgəsinə qonşu olan Sapar(da) dağlıq bölgəsi Qızıl-üzən çayının yuxarı axarlarında, Əlvənd dağı ilə Qarasu-çayı arasında idi. Buradan xeyli yuxarıda isə Sibur və Sibar adları ilə qeyd olunan bölgə Zəncan-Xalxal yolunda indiki *Tut-Suvari* tərəflərdə yerləşirdi.[81]

Hələ V Şamşi-Adadın vaxtında (820-də) asur qoşunu Qızıl-üzən çayı hövzəsində yaşayan *qızıl* boylarının Qızıl-bud ölkəsinə yürüş edəndə buranın *Piri-Şad* adlı böyükbəyi vardı, *Sibare* qalasında yenilən komandanın (qalabəyinin) adı isə *Enqur* idi. Asurlar bura sonralar da 737 və 714-də yürüşlər etmişlər, son hücum vaxtı Sibar bölgəsinin böyükbəyi *Birtatu* (Pirtatu) idi.[82]

Həmin yürüşdə II Sarqon Urmu gölünün doğu yaxasında yerləşən, «Urartu çarı üçün at ilxıları bəsləyən» və «urartuların Mana ölkəsi adlandırdığı» *Subi* bölgəsini urartulardan alıb Mana elinə qaytarır.[83] Olsun ki, samilərin işlətdiyi *süvari* sözü də məşhur ilxıçılar və atlı türklər olan *suvar* boyunun adı ilə bağlı yaranmışdır. Dədə Qorqud boylarında «atına suvar oldu» deyimi və Şərurda xristianlara aid «donuza suvar olub gəldi» məsəli dolayısı ilə bunu təsdiq edir.

---

[80] N.V. Arutyunyan asur qaynaqlarında URU və KUR determinativləri ilə verilən *Kar-Sipar* adının Urmu gölündən batıda yerləşən *Kar-Zibra* və yaxud həmin bölgədə Rəvandüzdən quzey-batıda, Böyük-Zab çayının sol yaxasındakı müasir *Zebar* ilə eyni sayılan qədim *Zabaria/Tsaparia* ilə eyni olduğunu güman edir (ТУ, 102-104, 234-235); *Saparda* bölgəsini İ. M. Dyakonov Azərbaycanın doğu tərəfində yerləşdirir, E. A. Qrantovski isə onu «batı-midiya bölgəsi» adlandırır (Дьяконов, 1956, 225; Грантовский, 1970, 3 15).

[81] İ. M. Dyakonov, doğru olaraq, ilk samiti ц [ts] səsini bildirən işarə ilə yazılmış *Si-bar, Siburâ* və *Siburu* adını ***Sibar*** şəklində verir və bu bölgənin Zəncan yaxınlığında olduğunu qeyd edir (Дьяконов, 1956, 166, 1-ci qeyd).

[82] Дьяконов, 1956, 165-166, 200, 202, 214.

[83] АВИИУ, №49.

Beləliklə, Güney Azərbaycanda subar boyları ilə bağlı çoxlu bölgə görmək olur. Mana Eli çağında bu bölgələrin bəzisi qaynaqlarda ayrıca çarı (böyükbəyi) olan ölkə-bəylik kimi qeyd olunmuş, bəzisi isə başçısı, yəni bəyi, qalabəyi olan bölgələr, bəziləri də Asurdan asılı boybaşı və bölgəbaşı titulu ilə başçıları olan ərazilər kimi verilmişdir.[84] Mada Eli çağında isə hakimiyyətin mərkəzləşməsi bu bəylik və dərəbəyliklərdə müstəqil və yarımasılı siyasi qurumları aradan çıxarmışdır.

Arazdan yuxarıda subarların hansı çağdan məskunlaşması haqqında asur-urartu qaynaqlarında bəlgə yoxdur. Yunan-latın və hay-gürcü qaynaqları isə sonralar subar boybirləşmələri içində görünən boyları Makedoniyalı İskəndər dönəmində Arazdan yuxarı bölgələrdə, sonrakı ərəb, fars qaynaqları da subarları Quzey Azərbaycan və Dağıstandan İtil çayı yaxasınacan olan ərazilərdə qeyd edir. Bu qaynaqlarda bəzən hun, bulqar, xəzər, barsil adı altında subarlardan bəhs olunursa, bəzən də əksinə, subar, suvar, savir adları altında həmin boylar durur. Buna səbəb həmin çağlarda bir-birinin ardınca ayrı-ayrı boyların öndərliyi ilə yaranan türk boylarının konfederasiya qurumlarıdır.

Hay qaynağında hunların m.ö. II əsrdən Quzey Azərbaycanda verilməsi «anaxronizm» sayılır. Lakin nəzərə almaq lazımdır ki, sonrakı tarixçilər subarları hun, xəzər, bulqar boylarından saydığı və bunu bəzən açıq qeyd etdiyi üçün bu adlar altında subar boyunun durduğu şübhə doğurmamalıdır. «Moktsevay Kartlisi» adlı qaynaq Gürcüstana Babilistandan (İkiçayarasından) qovulan hunların quzeydən deyil, məhz güneydən gəldiyini qeyd edir.[85]

Yuxarıda Subar Eli və sonrakı Subar bəylikləri üzrə verdiyimiz tarixi bəlgələr də İkiçayarası, Doğu Anaäolu ve Güney Azərbaycanda subar boylarının əvvəlki yurdları haqqında aydın təsəvvür yaradır. Ona görə də, subar tarixini V-VI əsrdən sonra verən tarixçilər yanılırlar.

---

[84] Bu bölgələrin hamısından burada məlumat verməyə imkan olmadığından yalnız asur qoşunlarının müxtəlif illərdə keçdiyi bəzi subar yerləri haqqında olan bir-iki əlavə bəlgəni xatırlayaq: Asur ordusu Böyük-Zab çayı hövzəsində 891-də «arvad kimi danışan *Spirmen»* uruğundan hədiyə qəbul edir; buralara yaxın *Simera* əhalisindən 833-də bac-xərac alır; 880-də Zamuada *Suv* dağını keçir; Diala çayının aşağı hövzəsində *Sumur* (Sumurzi) bölgesinin bəyi Tuni 744-də asurlara yenilir. Sadalanan spir(men), Simer(a), Suv, Sumur(zi) və yuxarıda qeyd olunan adların müxtəlif subar-türk boylarına aid olması bu ərazilərin öncə subar, quti, lulu, turuk, kuman boylarına, sonralar isə mana, mada və azər türklərinə məxsus olması ilə təsdiqlənir.

[85] Гадло, 1979, 19-20.

Subar boylarının Quzey-Azərbaycan, Dağıstan və İtil yaxasında nə vaxt ortaya çıxması məsələsi tarixşünaslıqda birmənalı həllini tapmamışdır. Əksər tarixçilər belə hesab edir ki, türklər bu ərazilərə doğu tərəfdən gəldiyi üçün subar boyları da batıya Altaydan gəlmişdir.[86] Hətta, bu gəlmə tarixini (460) və çıxış yerini (Çin sınırı) «dəqiq» verən tarixçilər də vardır. Güya avarlar subarları, onlar da onoqur və macarları qova-qova gəlib Qafqaza çatmışlar.[87] Axı, subar (savir) boylarının doğudan gəlməsinə aid heç bir qaynaqda bəlgə yoxdur və bu səbəbdən, güya avarların təzyiqilə yerindən çıxan boyun «güman ki», «ola bilsin ki» ifadələri ilə subarlara aid edilməsi mənbələrin deyil, tarixçilərin uydurmasıdır. Həm də, necə olur ki, 460-larda Altaydan çıxan subarlar bu tarixdən bir neçə əsr əvvəl artıq Qafqazda idi. Hələ II əsrdə Klavdi Ptolemey (90-168) Asiyadan yox, Avropa qitəsindən danışarkən hunları Itil çayından batıda, savirləri Quzey-Qafqazda verir. [88]

Beləliklə, Quzey-Azərbaycanda *subar* adlı boyun nə vaxtdan məskunlaşdığını bilməsək də, onların II əsrə qədər buradan Dağıstana, Quzey-Qafqaza və İtil yaxasına keçməsi bəllidir. Azərbaycanın quzeyində *Şabran* (Dəvəçi), *Qala-Suvar* (Quba), *Zabrat* (Apşeron), güneyində *Biləsuvar*

---

[86] V. Radlovun ekspedisiya vaxtı rast gəldiyi *so, su-karsa, su-kakmına,* tuva boyu sayılan *suan/suyan/soyan* uruqları *su* adı ilə bağlıdır, Issık-göldə sarı-baqışların bir tirəsi *sabar* uruğu (Радлов, 1989, 87-92, 109), Qazax elində *Şubaroba* təpəadı (ОКЖСА, 1989, 243), Dağlıq-Altayda *Şiberti/Şabarta/Şiverta* kimi iki-üç kiçik çayadı (Молчанова, 1979, 349) Batı-Sibirdən bura sonralar göçən subarlarla və ya daha qədim çağlaräa İkiçayarasından Əfqanıstana gəlib, buradan Hindistana və Altaya keçmiş *su, subar* boyu ilə bağlı ola bilər.

[87] «Özlərinə bir sığınaq arayan *sabirlər* Altay-Ural dağları arasındakı düzlükdə yaşayan *oqur* türklərini batıya atıb, öncə Ural dağların güney-batı tərəfində Tobol və İşım irmaqları çevrəsində yerləşirlər» (Rasonyi, 1996, 77); Guya Altay, Batı-Sibir, Çin sınırı və ya Issık-göl yaxasından çıxıb, İtil çayını keçəndən sonra onlar Dağıstan və Azərbaycana gəlmişlər. Göründüyü kimi, əksər tarixçilər arxeoloji bəlgələri, şumer-akad və urartudilli tarixi bəlgələri gözardı edib, subarların miqrasiya yönünü tərsinə verən bu yanlış versiyanı qəbul etmişlər (Z.V. Togan, D. Nemet, D. Moravçik, L. Rasonyi, K. Gürün, D. Hamilton, İ. Markvart, M. İ. Artamanov, A.V. Qadlo, Y. R. Cəfərov və başqaları).

[88] АИОСК, 1990, 148; Qaynaqlara əsaslanan Z.V.Toğan savirlərin buradan 305-də Güney-Qafqaza keçdiyini yazır (Togan, 1981, 171); Prokopi Kesarialı savirlərin Qafqaz dağlarına yaxın yaşadığını vurğulayır, Stefan Bizanslı isə savirləri Pontun iç bölgəsində Ptolemeyin qeyd etdiyi qədim *sapir* boyu sayır, onların çoxsaylı olub, ayrı-ayrı qollara ayrıldığını, bəzilərinin rum imperatoru, bəzilərinin də pers şahı ilə dostluq etdiyini yazır (Гадло, 1979, 86); Macar alimi Geza Feher və bəzi rus tarixçiləri də (N. Merpert, Y. Fedorov və Q. Fedorov) savirlərin burada yeni eranın ilk əsrlərindən yaşadığını yazırlar (Bax: Feher, 1984, 7; Джафаров, 1985, 73).

adları olduğu kimi, Güney Qafqazda Orta əsrlərdən subarlarla bağlı yeradlarındakı müxtəlif fonetik variantlar və onların işlənmə arealının genişliyi göstərir ki, subar boyları burada çoxdan məskunlaşmışdır: [89]

| | |
|---|---|
| *Suvarbad* (Batı Azərbaycan) | *Sabirkənd* (Gürcüstan) |
| *Suvari* (Batı Azərbaycan) | *Separeti* (Gürcüstan) |
| *Sviri* (Gürcüstan) | *Sabireti* (Gürcüstan) |
| *Axali-Sviri* (Gürcüstan) | *Zabrat* (Azərbaycan) |
| *Pirveli-Sviri* (Gürcüstan) | *Savralı* (Batı Azərbaycan) |
| *Qala-Suvar* (Azərbaycan) | *Zubi* (Gürcüstan) |
| *Bilə-Suvar* (Azərbaycan) | *Şabran* (Azərbaycan) |
| *Şubara* (Gürcüstan) | *Samurlu* (Batı Azərbaycan) |

Z.V.Toğan subar hakimiyətinin Qarabağdan Van hövzəsinə qədər (Vaspurakan) ərazini əhatə etdiyini yazır.[90] Aran və Şirvanda suvarların yarım milyon (100 min ev) olduğu da vurğulanır.[91] Lakin o dövr üçün çox böyük rəqəm olan bu say təkcə Azərbaycan üzrə deyil, Dağıstanda oturan suvar/savir boylarını da əhatə edirdi. İbn Xordadbeh yazır ki, «al-Babdan sonra suvar hökmdarının torpağıdır».[92]

Bəzi mənbələrdə xəzər şəhəri kimi verilən Qəbələni subar konfederasiyasının başkəndi sayanlar vardır. Doğrudur, bir müddət həm Dəryal, həm de Dərbənd keçidinin nəzarəti subar boyunun əlində olmuşdur, lakin Şirvan-Aran bölgələrində oturaq yaşamlı dəmirçi və heyvandar subarlardan fərqli olaraq, V-VI əsrlərdə daha çox savaşla dolanan atlı subarların bir qismi daima hərəkətdə olub, vaxtaşırı yerini dəyişən yarımköçərilər idi. Güney və Quzey Qafqazın ayrı-ayrı bölgəsində at oynadan subar boyundan birinin xəzər(azər)-alban boylannın əzəli yurdu olan Qəbələ civannda görünməsi təbii idi.

Dərbənd-Beşbarmaq arasında yerləşən subarların *Sabiran* (Şabran) adlı şəhər-qalası Oğuz dastanlarında silinməz iz buraxmışdır: «*Oğuz* (*xan*) *Şamaxıya çatdı və orada ondörd gün qaldı. Bu günlərdə* ***Şəbəran*** *camaatı xəzinəyə bac-xarac verdi*».[93] M. Kaşğari oğuz şəhərlərindən birinin adı kimi

[89] ЕАМТИЛ, 361, 375; Т II. 1980, 49, 68, 72, 101, 172.

[90] Togan, 1981, 172.

[91] Gürün, 1984, 156.

[92] Ибн Хордадбех, 1986, 109, § 63.

[93] Rəşidəddin, 21; Azərbaycana quzeydən girən Oğuz-Xana təslim olan məhz bu Şabran qalasıdır. Şabranda aparılan arxeoloji araşdırmalar bu şəhərin Orta əsrlərdə də ölkənin siyasi-iqtisadi həyatında böyük rol oynadığını ortaya çıxardı.

verdiyi Sır-Dərya yaxasında, yaxud Azərbaycanda olan *Sabiran* adının yazılışına da toxunur.[94] Hər halda, bəzi mənbələr türklərin mifik alp-əri Əfrasiyabın başkəndi sayılan Şabranı Azərbaycanda verır, A. Bakıxanov da «*Gülüstan-i İrəm*» dedikdə, Şabran mahalını nəzərdə tutduğunu yazır. [95]

Məncə, Strabonun qeyd etdiyi Alban elindəki 26 boydan biri də bu suvar boyudur, çünki Alban dövləti çağında onun ərazisində yaşayan suvar boyunun savaşlarda aktiv iştirakı, hətta, VI əsrin əvvəlində buralarda hegemonluq etməsi bəllidir. İran-Bizans savaşlarında gah perslərə, gah da rumlara yardım edən atlı suvarların savaş taktikası, mükəmməl hərbi texnikası və silahları haqqında çox qiymətli tarixi bəlgələr vardır.[96]

Subar atlıları ən bahalı muzdlu əsgərlər kimi böyük dövlətlərin ordusuna cəlb olunurdu. Bu baxımdan, Zaxari Ritorun hunlara aid verdiyi bəlgə diqqəti çəkir.[97] Bəzən belə savaşa bir boyun döyüşçüləri, bəzən də bir neçə boy birliyinin qüvvələri cəlb olunurdu. Rum imperatoru Theodo-

---

94 M. Kaşğari سبران (Sabran) adındakı ilk səsin ص hərfi ilə yazılmasını düzgün saymır və bu səsin türk dillərində olmadığını qeyd edir (MK, I. 436).

95 Togan, 1981,168; Бакыханов, 1991, 19.

96 İbn al-Faqih «xəzər süngüsü, xəzər atı və sabir zirehi» öygüsü ilə subarların ən yaxşı qılınc düzəldən olduğunu vurğulayır; V əsr yazarı Bizanslı Prokopiyə görə, «Yer üzündə insanoğlu yaşayandan bəri, nə yunan, nə də iranlıların qafasından sabirlərin kullandığı silah (növü) çıxmamışdır» (Rasonyi, 1996, 63);

Ağır silahla süslənmiş savir atlıları lazım gələn anda düşmən ərazisində tez düzələn ordugah qurmağı bacarırdılar. Aqafinin verdiyi məlumata görə, onlar süvarinin başı görünə bilən hündürlükdə yerə vurduqları dirəklərlə qurduğu hasarı dəri ilə örtüb içəridəki çadırları dövrəyə alan müvəqqəti qala düzəldirdilər (Гадло, 1979, 88);

Sasanilərə qarşı savaşda rumlu ordusunda Sapir (Σάπερ) adlı bahadırın qəhrəmanlığı adamı valeh edir. Dağıstanda hun boyları kimi verdiyi barsel, onoqur ve sabir (Σαβίροι) boylan ilə tanış olan Feofilakt Simokatta ağıl və gücdə Herakldan üstün saydığı Sapirin ucu itilənmiş çivlərlə (pazlarla) qala divarına necə ustalıqla dırmaşdığını, əlindəki çivləri bir-bir divardakı daşların arasına salaraq, onlara söykənib yuxarı qalxmasını böyük heyranlıq və zövqlə təsvir etmişdir. P. Goubert burada verilən *Sapir* şəxs adının *sabir* boyu ilə əlaqəsi olduğunu yazır (Симокатта, 1957, 60; 202-də 31-ci qeyd).

97 Zaxari Ritora görə, hələ 503-də Dərbənd yolu ilə İrana hücum edən hunlar şaha deyir: «Tanrının bədbəxt yabanı heyvanlar tək quzey-batı ölkəyə qovduğu barbar adamlara verilən sədəqə kimi, Pers dövlətinin bizə verdiyi kifayət deyil. Biz silahla, yay-oxla, qılıncla yaşayırıq, türlü ət yeməklərilə özümüzü doyururuq. Rum imperatoru göndərdiyi elçilər vasitəsilə söz vermişdir ki, əgər perslərlə dostluğu pozsaq, verilən muzdu artıracaq. Bu səbəbdən, ehtiyatımızı götürüb, bu yola (yürüşə) hazırlandıq. Ya rumların vəd etdiyi qədər verin, sizinlə müttəfiqliyi təsdiq edək ya da ki, verməsəniz, savaşı qəbul edin» (Пигулевская, 1941, 149-150).

sinin 395-də ölümündən sonra Quzeydən gələn hunlara qoşulan subar boyları *Basıq* və *Kıırsıq* adlı başbuğların rəhbərliyi ilə Güney Qafqazdan Anadolu üzərinə axın edirlər. Bu atlı subar-hun əskərləri Ərzurum, Karasu-Fərat vadilərilə Malatya və Kilikia tərəflərə keçib, Urfa (Edessa) qalasına hücum etmiş, Qüdsə qədər enmişdilər. Roma imperatoru Arkadios dönəmində (398) belə bir axın kiçik ölçüdə bir daha təkrar olunmuşdur.[98] Hun qüvvələrinin zəiflədiyi çağlarda artıq savaşlarda subar boy birlikləri suvar//savir adı altında görünür.

Mərkəzı Bələncər olan suvar konfederasiyasının başbuğu *Balaq* (βαλάχ) öləndən sonra yerini onun dul qalmış *Buğarıq* titulunu və ya *Boğarıq* (βωαρήξ) adını daşıyan «kişi kimi təpərli və ağıllı» xatunu tutur. Bu xatun 527-də bağlanan müqavilədən sonra Bizansla yaxın əlaqə qurur. Lakin ona tabe olan 100 minlik ordunu təşkil edən boylardan bəzisi rumlara yox, sasanilərə yaxınlıq siyasətini üstün tuturdu. Adı dəqiq bilinməyən «iç hun» boyundan İrana yardım üçün Dəryal yolunu keçən 20 minlik qoşunu Buğarıq Azərbaycanda yaxalayıb məhv edir. Bu iç hun başçılarından Γλώνης (Oqlon) öldürülür, Στύραξ (*Öz-Turac*, yaxud *Turac*) isə tutulub Konstantinopola göndərilir, onu da orada öldürürlər.[99] Diqqəti çəkən son savaşlardan biri 555-də olur. Aqathiyə görə, 2 min sabir *Balmax, Kutilzis, İliqer* adlı başçıları ilə rumlara yardım edib, sasani alayını məhv edirlər.[100]

Beləliklə, Azərbaycanda subar hegemonluğu (503-558) təxminən yarım əsr davam etmişdir.[101] Quzey-Qafqaza gələn avarlarla savaşda məğlub olan subar boybirliyi dağılandan sonra onların bir qismi Azərbaycanda qaldı, bir qismi də Xəzər dövləti çağında İtil yaxalarına qalxdı. Daha

[98] İA, 12. 11. 155.

[99] Adların yazılışı üçün bax: Moravcik, 1983, II. 85, 108, 114, 292-293.

[100] Джафаров, 1985, 97; Məncə, bu adların yunanca yazılışı (Moravcik, 1983, II, 86, 362) belə oxunmalıdır: *Barmaq* (βαρμαχ), *Kut-ilçi* (Κούτιλζις) və *İliq-ər* (῞Ιλιγερ).

[101] Azərbaycanda 503-cü ildən aktivləşən subar savaşlarının qısa xronologiyası belədir: 515-516-da Anadoluda Ankara çevrəsinəcən gedib savaşırlar; 521-də *Zilgibi* adlı başbuğun komandanlığı ilə burada öncə rumlarla, sonra iranlılarla vuruşurlar; 527-də Anadoludan Azərbaycana çəkilirlər və Bizans imperatoru Yustinye ilə sasanilərə qarşı müqavilə bağlayırlar; 531, 545, 550-551, 555-də sasanilərlə vuruşan rumlara yardım edirlər; 556-da rumlara qarşı vuruşub, böyük itki verirlər; 558-də Dərbənd civarında avarlara məğlub olub, bir qısmi Şirvan-Arana, bir qismi də Dərbənddən quzeyə çəkilib 568-də Göytürk, sonra Xəzər dövlətinin tərkibində yaşayır (İA, 12. II, 172; Togan, 1981, 171; Gürün, 1984, 156; Rasonyi, 1996, 77-78; Гадло, 1979, 87-90; Джафаров, 1985, 93-97).

sonralar isə İtil çayı yaxasından subarların bir hissəsi Batı-Sibirin Tümen bölgəsinə, sonralar burada yaranacaq Sibir xanlığı torpağına keçdi.[102]




*Subar* (suvar) boylarının Quzey-Qafqaz, İtil yaxası və Sibir yönündə yayılması

**Quzey-Qafqaz və İtil çayı yaxalarında *Subar bəylikləri.*** Burada öncə Göytürk, sonra Xəzər elinin tərkibində olan subarlar Böyük-Bulqar eli dağılandan sonra doğuya çəkilən bulqarlara qoşulub, İtil çayı boyunca yuxarı qalxdılar. Buralarda ortaya çıxan *Sumer-kənd, Suvar, Samara* şəhəri və sonralar Sibir xanlığında yayılan toponimlər qədim subarlara aid olan İkiçayarası yeradlarının təkrarıdır. Azərbaycan - Dağıstan üzərindən Batı Sibirə qədər gedən subarların marşrutunu əks etdirən bu xəritədə kursivlə verdiyimiz adlar Altın Ordu çağına qədər qalmışdır:[103]

---

[102] «II Bitik»də Türklərin sonrakı Atayurdlarından danışarkən İtil-Ural arasını Atayurda çevirmiş qədim türk köçlərini və İtil çayının orta axarında qədim bulqar yaşayış məskənlərinin xəritəsini vermişdik.

[103] *Subar* boyu baxımından *Səmərqənd* adı diqqəti çəkdiyi kimi, yeri dəqiq bəlli olmayan ***Sumer-kent*** adı da ilgincdir. Həmin şəhərdə 1254-də olmuş Rubrukun verdiyi məlumata görə, Sumerkent Saray şəhərindən güneydə imiş. Görünür, sonralar su altında qalmışdır (Егоров, 1985, 118-119).

Bu köçü əks yönə çevirən tarix uzmanları yerini dəyişən onomastikaya fikir verməadiyi kimi, Dağıstan ilə Batı-Sibir arasında ortaya çıxarılan qədim türk arxeoloji kulturunun üzərindən də sükutla keçirlər, çünki arxeologiya məsələsi «Quzey Qafqaz xalqlarının tarixi» adlı kitabda olduğu kimi, *doğudan gəlmə* fikrində ziddiyət yaradır. Belə ki, həmin kitabda suvar boylarının V-VI əsrlərdə Sibirdən gəlməsi və həmin əsrlərə aid suvar məskənlərində ortaya çıxan arxeoloji bəlgələr haqqında yazılır:

1) «Başqa hun boylarının böyük bir ittifaqı savirlərin (suvar, subar, sibir) adı ilə bağlıdır. Daha güclü boyların təzyiqilə onlar **Batı Sibirdən** çıxıb, Volqa çayının aşağı axarında hər iki sahildə oturur və Dərbəndə qədər Kaspi dənizi yaxalarını, Qafqaz dağının ətəklərini ələ keçirirlər».[104]

2) «Dərbənd, Urtsex, Tarqu, Yuxarı Çiryurt, Cimikənd, Manas, Utamış və sair yerlərdə üzə çıxan arxeoloji bəlgələrin çoxu Dağıstanın **Güney Qafqaz** və **Yaxın Şərq** ölkələrilə hərtərəfli geniş əlaqəsini göstərir».[105]

Necə olur ki, Sibirdən Dağıstana gələnlərin maddi kulturu Sibiri deyil, Azərbaycan və Ön Asiya kulturunu əks etdirir? Halbuki, bir az da keçmişə ensək, yeni eranın ilk əsrlərinə aid türk basırıqlarının Əskiyurt, Terek, Alxanqala, Tarqu, Tarki (İstisu), Qarabudaxkənd, Toprakkala və Şarakunda üzə çıxdığını görərik. Dağıstanda daha qədim dövrə endikcə türk izi itmir. Etnokultur əlaqələr fonunda buranın qədim türk toponimlərini tədqiq edən V.Q. Kotviç bu əlaqələrin m.ö. II-I minillərin qovuşuğunda gerçəkləşdiyini yazır.[106] Müasir Tarki kəndində XVII əsrin sonunda tapılan mixi yazı nümunəsi aydın göstərir ki, İkiçayarasından Dağıstana köç olmuşdur, çünki burada mixi yazıdan istifadə edən xalq yox idi.[107]

---

[104] ИНСК, 97.

[105] Eyni qaynaq, 109.

[106] ДД, 1974, 206-207; Həmin çağda Dərbənd və Dəryal keçidi saqa-qamər boylarının quzey-güney yolu üzərində olduğundan burada türk izlərinin varlığı təbiidir.

[107] N.V. Xanıkovun «Tarki yazısı kimi bəlli olan mıxi yazı» adlı məqaləsi bu kitaba əlavə olunmuşdur: *K. Ritter.* İran. I t. SPb., 1874, 501-506 (ДД, 1974, 221); Türklərin mixi yazıdan istifadə etmədikləri bəllidir, lakin hurri və ya urartuların istifadə etdiyi mixi yazını Dağıstana onlardan birinin gətirməsi faktının özü köçün yönünü göstərdiyi üçün önəmlidir. Dağıstan və Çeçen elində tapılan asur və urartu dəbilqələri, Luristan xəncərləri, Güney Qafqaz baltaları və atçılıq nəsnələri həmin çağların əlaqəsini göstərir (ИНСК, 65).

Əvvəlki bölmədə Quzey-Qafqaz və Dağıstanın Azərbaycanla əlaqəsi, bu əlaqənin hələ m.ö. III minildən başlaması haqqında danışmışdıq. Vaxtilə Kür-Araz kulturunun quzey sınırı içində olmuş Dağıstan və Çeçen elini əhatə edən ərazinin m.ö. II minilin ortalarında da Azərbaycan arxeoloji kulturu ilə yaxınlığı Qayakənd-Xoroçoy (Qaraçay) arxeoloji kulturunda əks olunmuşdur. Dağıstan və Quzey-Qafqazda oturmuş subar boyları barsil, xəzər, bulqar, kumuq və sonralar bura gələn hun boyları ilə iç-içə yaşadığı üçün bəzi qaynaqlar bu boy adlarını sinonim etnonimlər kimi işlədir.[108] Prokopiyə görə, çoxsaylı savir boyları çoxlu qollara ayrılır və bu boy başçılarının pers şahı və rum imperatoru ilə *qədimdən* (!) dostluq əlaqəsi vardır.[109] Savirlərin bu bölgədə qədimdən (V əsrdən əvvəl) yaşadığını V. Qukasyan da qeyd etmişdir.[110]

Qədim türk tarixi yaddaşını əsrlərlə yaşadan Oğuz dastanlarında İtil yaxası qədim türk yurdu kimi əks olunur.[111] Dağıstandan Xəzər dənizi yaxası ilə yuxarı İtil və Yayık (Volqa-Ural) arasına keçən subarlar burada formalaşan bulqar (tatar), başqord və subar türklərinin soykökündə önəmli yer tutmuşdur.

Daha yuxarıda yerləşən çuvaşların adı (*suvas*) suvar etnonimini xatırlatsa da, onların etnogenezi suvarlardan çox öncə bura sızan türk boyu ilə bağlıdır. Bu bölgəyə *subar* (suvar) boyları ilə yanaşı, *subi* boyları da gəlibmiş, lakin onlar Xəzərin batı yaxaları ilə deyil, olsun ki, Xəzərin doğusu ilə Xarəzm üzərindən gəlmişlər. Çünki başqordlar içində geniş yayılan *subı-min* (*Sıbı-meñ*), *yayık-sıbı-meñ* boylarının damğaları və *subi* boyunun mənşəyindən danışan R. Kuzeyev onları Orta Asiya *kızıl-kurt* boyu ilə bağlayır.[112] Bu da yuxarıda gördüyümüz Güney-Azərbaycandakı *subi* boyu və ya qızıl boyunun *subar* qolu ola bilər.

---

108 Göysu hövzəsində Qazıkumux bölgəsinin adı X əsrdən *Qumıq* adlansa da, XII əsrdə monqol istilasına qarşı avanqard qüvvə olan kumuqların bura gəlməsi tarixi qədimdir.

109 Гадло, 1979, 86.

110 Xəzər dənizi sahilində türk etnosunun nəinki ərəb işğalınadək, hətta, hunlaradək mövcudluğu haqqındakı fikirlər gerçək faktlara əsaslanır. «İndi *türk-savirlərin* bizim eranın ilk əsrlərindən (bəlkə də daha tez) Xəzər dənizi sahili boyunca Qafqaz dağları yanında Dərbəndəcən yaşamasına, demək olar ki, şübhə edilmir» (Ворошил, 1993, 16).

111 «Oğuz Xanın zamanından Cingiz Xan zamanınacan Tın, Atıl və Yayık - bu üç Su yaxasında kıpçaqdan özgə el yox idi. **Dörd miniləcən** o yerdə oturdular. Onun üçün o yerə Dəşti-Qıpçaq derlər» (Şecere-i Tərākime, 238-239); Uyğur «Oğuznamə»si Oğuzkağanın Urum-kağanı ilə vuruşandan çonra İtil yaxasına gəlməsindən bəhs edir.

112 Кузеев, 1974, 300-301, 309, 315, 468-469, 505.

İtil-Bulqar dövlətində subarların önəmli yeri olmuş, burada *Suvar* adlı şəhər də ortaya çıxmışdır. Zaman-zaman bəzi subar boylarının buradan doğuya keçib, Tümen bölgəsində oturması, burada *İsker* şəhərinin sonralar *Sibir* adı alması bəllidir. Altın Ordu dövləti dağılandan sonra ərazilərində ortaya çıxan xanlıqları sadalayan bulqar alimi Şihabetdin Mərcani yeddinci xanlıq kimi Sibirdən bəhs edir, Sibir şəhərinin yerində öncə *İsker* adlı şəhər olduğunu vurğulayır:

> «Cidençese - ***Seber*** döwləte. Hacı Möxəmməd xan bine Qalı həm anıñ baları döwləte. Baş kalaları *Tubıl* şəhərennən 12 cakrım cirdə *İsker,* yaqni ikinçe isem belən *Seber* isemle şəhər bula».[113]

Altın ordu dövləti parçalanandan sonra yaranmış Sibir xanlığının adı öncə bu bölgəni əhatə edirsə, ruslar buranı tutandan sonra bu Batı-Sibir bölgəsinin adında coğrafi tutum anlamı doğu yöndə get-gedə genişlənib böyüdü. Sibir adının subar (suvar) boylarının adından yaranması isə elmdə çoxdan qəbul olunmuş gerçəklikdir.[114]

Beləliklə, subar boyları haqqında olan bəlgələrin tarixi ardıcıllığı bizi İkiçayarasından Sibirəcən gətirib çıxardı. Hidronimləri tədqiq edən F. Q. Qaripova Ukraynada *Sibir, Samara* və *Suvarel* çaylarını, Batı-Sibirdə *Sivar, Suvariş* ve Tatarstanda *Suvar, Suvarley, Suvarlı* çaylarını qeyd edir.[115] Arxeoloji, onomastik və yazılı bəlgələrin işığında subarların miqrasiya yolunu və azacıq da olsa, bu yolun yönünü tuta bildik. Həmin marşrutu tərsinə çevirənlərin də yanıldığını gördük.

Bura qədər deyilənlərə yekun vurmadan öncə, *subar* və *su* adı ilə bağlı yuxarıda sadalanan etnonim və etnotoponimləri bir daha sıralayıb, ortaya çıxan sistemi gözdən keçirək.

---

[113] Mərcani, 1989, 48.

[114] Togan, 1981, 404 (72); Rasonyi, 1996,77; Bütöv Sibirə adını vermiş *Seber* şəhərinin yaşı o qədər də çox deyil. Hətta, onun XIV əsrdə salındığı söylənir (Егоров, 1985, 131).

[115] Гарипова, 1991,180; XIX əsrin sonunda hay (erməni) soyunun kökünü Sibirdə axtaran S. Patkanov «Sibir xanlığının ərazisində *Saber, Soper, Savri, Sıbır, Sıvır* toponiminin yayğın olduğunu, son əsrlərə qədər burada *Ay-Sabar, Kün-Sabar* şəxs adının işlənməsini, yerli əhalinin yaddaşında *sıvır* (suvar) adının qaldığını öyrənmişdir» (İA. 12. II. 192); Monqol çağında ərəb qaynaqlarında işlənən *Bilād-Sibir, al-Sibir, İbir-Sibir* adları üçün bax: İA, 10. 585 (V. Bartoldun məqaləsi).

Orta Dnepr çayının qolu *Sibir,* Bolqarıstanın batısında Σούβαρας qalası və İlliriyada Συβερος πολις şəhəri (Трубачев,1968, 263) kimi Balkanlarda ortaya çıxan subar adları, görünür, hunlara qoşulub oraya gedən, ya da Tuna bulqarları ilə batıya köçən bir qisim subardan yadigar qalmışdır.

| Dəclənin doğusu, İkiçayarası və Anadolu | Azərbaycan, Qafqaz, Dağıstan, İtil-Yayık yaxası və Doğu ölkələr |
|---|---|
| (ölkə) **Subar(tu)** | **Subar, Suvar, Bilə-Suvar, Qala-Suvar** |
| (bölgə) **Şubartu** | **Şibertu, Şiberti** |
| (boy) **subari** | **subar, suvar, savir, Σάβιροι, Σαπειρες** |
| (bölgə) **Şubar** | **Şubare, Şubar-oba** |
| (ölkə) **Subi** | **Subi, Zubi** |
| (boy) **subi** | **subi, suvbi** |
| (ölkə) **Su** | **Su** (dövlət) |
| (boy) **su** | **su** (boy) |
| (ölkə) **Sper** | **Seper, Soper** |
| (qala) **Sipar** | **Sibare, Sibir** |
| (şəhər) **Sippar** | **Sipar** |
| (ölkə) **Sumer** | **Sumer-kent** |
| (çay) **Şamur** | **Samur, Samurlu** |
| (şəhər) **Samara** | **Samara, Sabiran** |
| (şəhər) **Şabireşu** | **Şabran, Saparda, Sabirkənd** |

Göründüyü kimi, yalnız su/subar etnoniminin morfonoloji variantları xeyli onomastik paralel ortaya qoyur. Bu sıraya subar boylarının İkiçayarasından doğuya apardığı Tarxu, Turxu, Urme, Urum, (H)Aran, Balıx, Barsip, Xalpu, Upa, Penzu kimi onlarla toponimi, subar boyları ilə doğuya çəkilən şadılı, şatırlı, kumuq, kuman, toqar adlı boyları da əlavə edəndə bir sistem təşkil edən onomastik yerdəyişmə olayı ilə qarşılaşırıq. Yeni toponimlərin eyni bölgədə ortaya çıxması da diqqəti çəkir. Belə ki, *Tarxu, Urme* Dağıstanda *Tarki, Urme* şəklində, *Subar, Samara, Penzu* İtil yaxası və Batı-Sibirdə, *Suvar, Samara, Penza* kimi, qədim subar-şadılı *Ata* (Ata-uni) yeradı *Şabran* bölgəsində dağadı, Xızı-Siyəzən arasında çayadı kimi təkrar olunur.[116] Şəxs adlarının da bu sistemdə önəmli çəkisi vardır:

***Arisen*** - İlk subar adlarından olub, böyük bəy titulu daşıyır.[117]

***Ersen*** - Ak Orda xanı (*Erzen*).

***Kurum*** - Bir il (m.ö. 2141-2140) hakimiyətdə olmuş qut elbəyi.[118]

---

[116] Subarların şadılı-şatırlı boylarına Azərbaycanda və Quzey-Qafqazda (*şatoy-kubutı* boyu, *Şatili* kəndi) rast gəlmək olur. Fəratın batısında verilən Bit-Aqusi (*aqusi yurdu*) bölgəadı Güney Azərbaycanda $^{KUR}$Aqazi (*aqazi bölgəsi*) kimi ortaya çıxır; «o» işarəsi olmayan mixi yazıda bunu «oğuz yurdu» kimi oxumaq olar; *Balıx* çayadından *balqar// bulqar* (balıq-ər) etnoniminin yaranması bəllidir; Bu halda, *oquz* və *bulqar* adının da subarların doğuya köçü ilə bağlı olması mümkündür.

[117] İ. M. Dyakonov bu adı *Arijen* kimi verir (Дьяконов, 1967, 114); *Arjan, Ərcan* adları da türk onomastikasında yayğındır.

***Kurum*** - VIII əsrdə Avar dövlətini dağıdan bulqar xanı.

***Kurum*** - XIV əsrdə Altun Orda xanı.

***Uraka*** - Büsutun yazısına görə, Babildə üsyan başçısı ermən (subar).

***Uraka*** - 1640-da noqay xanı.

***Urak*** - XVəsrin sonunda Kazan bəyi.[119]

***Şadi-Teşub*** - Subar bəyliyinə qonşu bölgənin böyük bəyi.

***Şat-ammu*** - Aratta elində sarayda məmur.

***Piri-şad*** - Azərbaycanda m.ö. IX əsrdə qızıl-subar boyunun böyük bəyi.

***Türk-şad*** - 576-da bir türk bəyi (Τούρξαδος).[120]

Qədim suvarlar içində Dədə (Dada), Ata, Baba, Puta və sonralar Akkan, Balaq, Boğxan, İligər adları yayğın olduğu kimi, türk toplumunda da bunlar geniş işlənir. Subar boyu ilə bağlı şəxs adlarına qoşulan *subar* sözü qədim çağlardan bəllidir. Belə ki, öncə İkiçayarasında *Amar-Subara, Lunin-Subara* (Lu-$^{d}$Nin-subara) kimi və V.V. Struvenin erkən Laqaş sülaləsi çağında məbəd qulluqçuları və qulları içində verdiyi *Şubur-Ana, Şubur-Baba, Şubur-Tur, Şubur* kimi işlənən adlarda adamın subar boyundan olması bildirilir.[121] Sonralar isə çağdaş azərlər içində *Suvar, Xansuvar* şəklində gördüyümüz və qaynaqların verdiyi *Sabir, Soper, Zopir* adları artıq boyadının antroponim kimi işlənməsidir. Məsələn, hun adı *Zaber-qan*, Türk xaqanı *Spar-zevqun* (Simokatta),1221-də Çinə gedən ağ-tatar elçisi *Subar-xan,* Sper bəyliyi çağında bahadır *Subar-maxi,* m.ö.V əsrdə saqa elbəyi *Spar-qapith,* Tomirisin oğlu *Spar-qapis,* V əsrdə aqathirs (ağacəri) elbəyi *Spar-qapith* və bu kimi onlarla şəxs adındakı subar/spar sözü artıq əvvəlki etnonim anlamından uzaqlaşıb, subar boylarının sonralar qazandığı «cəsur atlı» epitetınə köklənmişdir. Etnonim və toponimlərdən fərqli olaraq, şəxs adlarının daşıdığı etnik informasiya zəif olsa da, verilən misallar toplu halda yuxarıda qeyd etdiyimiz sistemi qüvvətləndirir.

Subar boyları haqqında yuxarıda deyilənlərin qısa xülasəsini belə vermək olar: Carmo kulturunun daşıyıcılarından prototürk əkinçi-maldar uruqları Zaqros dağlarından Dəclə yaxalarına və zaman-zaman Dəclə ilə Fərat arasına keçib, burada əkinçiliyi inkişaf etdirmişlər. Bu iki böyük çay arasına yayılan prototürk uruqları ümumi *subar* adı ilə tanınsa da, hər bir uruğun özəl adı vardı.

---

[118] Azər xalqı, 2000, 127.

[119] Каргалов, 1974, 30.

[120] Moravcik, 1983, II. 328.

[121] Струве, 1984, 173.

İkiçayarasında bir-birinin ardınca yaranıb, ətraf bölgələrə yayılan Xasun-Samara, Xalaf, Quzey-Ubeyd kulturu yazı yaranana qədər adını bilmədiyimiz həmin prototürk uruqlarının yaratdığı kulturlar idi. Bu uruqların böyük bir qismi m.ö. IV minilin, bir qismi də II minilin ortalarında Azərbaycan üzərindən doğu və quzey yönlərə miqrasiya etmiş, oralarda yeni türk Atayurdları salmışlar. Bu köçlərin müxtəlif səbəbləri ola bilər, lakin iki səbəb ortadadır: biri həmin çağlarda kəskin iqlim dəyişməsi ilə yaranan quraqlıq, o biri isə başqa etnosların İkiçayarasına ayaq açması və onların aqresivliyi idi. Ola bilər ki, bu miqrasiyalarda subar adı daşıyan boylardan da bəzisi iştirak etmişdir. Lakin İkiçayarasında qalmış subar boyları hələ uzun müddət burada görünməkdədir.

İkiçayarasına gələn sumer və akadlar yerli idarəetmə üsulundan fərqlənən şəhər-məbəd, şəhər-dövlət hakimiyətini inkişaf etdirərək, subar əhalisini İkiçayarasının quzeyinə və Dəclənin doğusuna sıxışdırmışlar. Yazı yaranan çağlarda *Subar Elindən* dövlət kimi bəhs olunsa da, ayrı-ayrı bölgələrə səpələnmiş subar boylarının vahid mərkəzdə birləşən siyasi hakimiyəti olmamışdır.Yalnız İkiçayarasının quzeyində Asur və Urartu arasında qurulan *Subar bəyliyi* iki əsr (m.ö. IX-VII) yaşaya bilmişdir. Buradan Çorox çayı yaxalarına çəkilən subarların burada başqa türk boyları ilə birlikdə yaşadığı və m.ö.VI əsrdən qaynaqlarda Sper adı ilə qeyd olunan bölgə Mada, sonra Əhəməni, Selevki və Bizans dövlətlərindən asılı türk boy birliklərinin *Sper bəyliyi* idi. Uzun müddət bu bəylik öncə Rum-Ərsaq, sonra Sasani-Rum savaşlarının meydanı olmuş, savaşlarda Quzey və Güney-Qafqazdan gələn suvar atlıları aktiv iştirak etmişlər. İslamaqədər xristian türklərindən ibarət olan bölgənin əhalisi islamdan sonra Anadoluda türk bəyliklərinin qurulmasında böyük rol oynamışlar.

Azərbaycan və Dağıstana keçmiş subar boyları ayrı-ayrı çağlarda türk boy birliklərinə öndərlik etmiş, V-VI əsrlərdə Azərbaycanın bir sıra bölgələri subarların əlində olmuşdur. Subar boybirliyinin siyasi hakimiyət mərkəzi Dağıstanda idi. Onların 100 min döyüşçüsü olsa da, avarlara yeniləndən sonra müxtəlif istiqamətə dağılmışlar. Bir qismi bulqarlarla İtil yaxası boyunca yuxarı qalxmış, bir qismi Dağıstanda qalmışdır, bir qismi də Azərbaycana dönmüşdür. İtil yaxasına gedən subarlar burada Bulqar dövlətinin qurulmasında, daha sonralar isə Sibir xanlığının yaranmasında iştirak etmişlər. Beləliklə, subar boyu təkcə azər xalqının deyil, həm də başqord, bulqar (tatar) və Anadolu türklərinin etnogenezində önəmli yer tutur. Arxeoloji kultur, etnoqrafik bəlgə və yer-yurd, çay-dağ,

etnonim, antroponim kimi onomastik bəlgələrdə iz qoya-qoya Sibir xanlığına qədər *subar* adı davamlı olaraq, yazılı qaynaqlarda dörd minildən artıq görünür. Ən qədim çağlardan İkiçayarasında yaşayan subar boyundan bir bölümün m.ö. I minil Güney-Azərbaycanda, m.ö.VI əsrdən isə Doğu-Anadoluda, m.ö. II əsrdən Güney və Quzey-Qafqazda, Dağıstanda, VIII əsrdən İtil-Bulqar dövlətinin tərkibində, X-XV əsrlərdə Batı-Sibirdə görünməsi onların Ikiçayarası, Doğu-Anadolu, Güney-Qafqaz, Dağıstan, İtil yaxası və Batı-Sibir marşurutunu xronoloji ardıcıllıqla ortaya qoyur.

Sibir türklərinin folklorunda Doğu-Anadolu və Azərbaycan motivləri saxlandığı kimi, Anadolu xristian türkləri də Van hövzəsinə batıdan gələn haylar kimi qədim Burat çayadını *Aratsan* və doğudan səlcuqlarla gəlib ərəb deyimli *Fırat* variantını işlədən türklər kimi yox, dilində və yaddaşında minillərlə yaşatdığı *Murad-su* (Burat-su) deyimini saxlamışlar.

Hələ İkiçayarasında yaşayarkən daima savaşlar içində olan subarlar Oğuznamələrdə və Dədə-Qorqud boylarında olduğu kimi, həm başqa etnoslarla, həm də onoqur, sarıoqur, oqur, avar, iç-hun kimi türk boyları ilə savaşmışlar. Lakin doğudan gələn bu boylarla yola getməyən subarlar eyni tarixi taleyi yaşayan və çox vaxt birləşməyi bacaran saqa, mitan, ermən, toqar (dugər), kuman, kumuq, bulqar, barsil və yerli xəzər-azər, aran-alban boyları ilə qurulan konfederasiyaların üzvü olmuşlar. Subar bəyliyi dağılandan sonra getdiyi yerlərdə yaşamını savaşla təmin etmək durumunda qalan subarlar mükəmməl savaş texnikasına yiyələnmiş və dövrünün ən güclü atlı döyüşçüləri olmuşlar. Öygülərə səbəb olan silahlarını subarların özü hazırlayırdı, çünki hələ Subar bəyliyi çağından onlar metalişləmə və dəmirçilikdə böyük təcrübə qazanmışdılar.

Beləliklə, Ərbil-Kərkük bölgəsindən İkiçayarasına enən heyvandar-əkinçi prototürklər burada *subar* (çay adamı), Urmu yaxasına çəkiləndən sonra *ilxıçı,* Arazdan yuxarıda isə *igid süvari* oldular.[122] Subarların miqrasiyası türklərin ilkin Atayurdu Ön Asiyada başqa türk boylarının tarixinə də işıq tutur. Subarların Ön Asiyadan quzey və doğu yönlərə köç sxemini belə vermək olar:




Subar boylarının miqrasiyası

[122] «Çay adamı» anlamı prototürk dialektlərinin birində *sub-ər* (suvar), digərində *balıq-ər* (balqar//bulqar), bir başqasında *çay-lı* (qara-çaylı «quzey bulqarı») sözləri ilə yarana bilərdi. Belə isə, balqar//bulqar və sabar//subar deyimləri dialekt fərqi olmalıdır.

## Aratta eli

Əgər Subar Eli ilk türk boyadı kimi tarixə düşən *subar* boyları baxımından diqqəti çəkirsə, Güney-Azərbaycanda qurulmuş Aratta Eli tarixə bəlli olan ilk türk dövləti kimi önəm daşıyır. Sumerdilli qaynaqlarda adı keçən bu dövlətin siyasi və iqtisadi durumunu, etnik əsasını və coğrafiyasını tədqiq edən, ilk dəfə bu mövzunu Azərbaycan tarix elminə gətirən elamşünas prof. Yusif Yusifov haqlı olaraq, Arattanı ilk Azərbaycan-Türk dövləti kimi dəyərləndirmişdir.[123] Aratta haqqında söylənmiş fikirlər üzərində geniş dayanmağa ehtiyac yoxdur, burada yalnız Y.Yusifovun diqqətindən yayınmış bəzi detallara toxunulacaq, Urmu teoriyası baxımından Arattanın coğrafiyası, dövlət qurumu və ümumi durumu veriləcəkdir.

Arattaya aid bəlgələrin əhəmiyyəti bundadır ki, prototürk dövrünü «Altun çağ» kimi verir və sumer-türk əlaqələrinin ilkin mərhələsinə aid bilgini ortaya qoyur, ilk türk dövləti Arattanın dövlət qurumu, iqtisadi durumu, təsərrüfatı və coğrafiyası haqqında təsəvvür yaradır. Aratta adı sumer yazılarında m.ö. III minilin birinci yarısına aid olaylarla, Hind qaynaqlarında isə bu ad iki minil sonrakı hadisələrlə bağlı yad olunur. Bu isə bəzi subar və toqar (toxar) boyları kimi, arattalı boyların da, Y.Yusifovun vurğuladığı kimi, Azərbaycandan doğuya miqrasiyasını göstərir.[124]

Aratta ölkəsi haqqında məlumat *Enmerkar* və *Luqalbanda* ilə bağlı Sumer qəhrəmanlıq dastanlarında verilir.[125] Bu epik qəhrəmanlar müasir elmdə Nuh tufanından sonra Sumerdə hakimiyyətdə olmuş yarımifik beş çardan və məşhur Bilqamısın babalarından sayılır.[126] İlk dəfə S. N. Kramer İstanbulun Qədim-Doğu muzeyində kiçik bir gil lövhə üzərində tapıb oxuduğu və şərti olaraq «Enmerkar və Aratta hökmdarı» adı verdiyi bu sumer eposunun yazıya alındığı çağlarda populyar olduğunu vurğulayır.[127]

---

123 Юсифов, 1987; Јусифов, 1993, 125-128, 331-335; AT, 1994, 61-69; Xızıda oturub söhbət etdiyimiz vaxtlar dəfələrlə Azərbaycanda türklərin m.ö. III minildən mövcud olduğunu vurğulayan bu görkəmli tarix uzmanı ömrünün son aylarında bir daha ümumi tarixşünaslıqda Aratta dövləti mövzusuna qayıtdı, əvvəlki bəlgələrə qədim Hind qaynaqlarını da əlavə edib iki samballı məqalə yazdı (Јусифов, 1997, №1, №2).

124 Јусифов, 1997, №2, 110, 128.

125 Крамер, 1965 (II basqı, 1991); Wilcke, 1969; Berlin, 1979; Афанасьева, 1979, 97-98; Белицкий, 1980, 80-93; МОД, 1987, 9; Юсифов, 1987.

126 МОД, 9-10.

127 Крамер, 1991, 32-36.

Aratta mövzusu «Enmerkar və Ensuxkeşdanna» dastanında davam edir.[128] Luqalbanda ilə bağlı «Luqalbanda və Hurrum dağı», «Luqalbanda və Enmerkar» dastanlarında da Aratta ölkəsi ön plandadır.[129] Mövzu baxımından bir-birini tamamlayan bu tarixi-epik dastanların qısa özətləri belədir: Sumerdə m.ö. XXVIII-XXVII əsrlərdə Uruk şəhər-dövləti ilə Sumerdən quzey-doğuda yerləşən Aratta ölkəsi arasında ticarət əlaqələri vardır. Əkinçiliyə nisbətən, təsərrüfatında heyvandarlıq və sənətkarlıq inkişaf etmiş dağlıq Aratta ölkəsinə Urukdan taxıl, Arattadan isə ora daş, ağac kimi tikinti materialı, qızıl, gümüş, laciverd və başqa minerallar aparılırdı. Düşmən ordusunun hücumuna məruz qalanda da uruklular hərbi yardımı Arattadan istəyirdilər. Lakin bu dostluq bəzən pozulduğundan dastanlardakı epizodlar çox vaxt qarşıdurma olaylarını sərgiləyir və təbii ki, sumer dastanında savaş hər dəfə sumerlərin qələbəsi ilə bitir, necə ki, «Enmerkar və Ensuxkeşdanna» hekayəsi Aratta bəyinin yenilməsi ilə nəticələnir:

«Beləcə, Enmerkar ilə Ensuxkeşdanna dartışmasında
Enmerkar Ensuxkeşdannanı üstələdi.
Alqış sənə, tanrıca Nisaba!»[130]

Bu mübahisəni Uruk çarı deyil, Aratta elbəyi başlamışdı. O, Uruk şəhərinə nota göndərir ki, Arattaya tabe olsunlar və Enmerkar tanrıca İnanna tapınağını Aratta şəhərinə köçürməyə razılıq versinlər. Enmerkar bu tələbi rədd etməklə kifayətlənməyib, Arattanı özündən asılı etmək və Uruk dövlətinin vassal bir bölgəsinə çevirmək istəyini hədə-qorxu ilə bildirir. Bu xəbəri eşidən Aratta sarayı təşvişə düşür. Elbəy *şura* ilə, görünür, ağsaqqallar şurası ilə gənəşir. Ona məsləhət görürlər ki, göndərilən tələbi qəbul edib razılaşsın. Lakin elbəy şuranın bu qərarına tabe olmayacağını əsəbi şəkildə bəyan edir. Bu vaxt Aratta elinin başqamı (*maşmaş*) Ur-Girnunna bu işi sehr və cadu ilə yoluna qoymağı təklif edir və hətta, bu üsulla Uruka qələbə çalmağın da mümkün olduğunu deyir. Bu planını gerçəkləşdirməyi onun özünə həvalə edirlər. Bundan sonra uzun-uzadı sehr-cadu səhnələri təsvir olunur və yuxarıda deyildiyi kimi, sonda Ensuxkeşdanna məğlubiyətini etiraf edir.[131]

---

[128] Berlin, 1979; Крамер, 1991, 206-208.
[129] Wilcke, 1969; Афанасьева, 1979, 97.
[130] Крамер, 1991, 208.
[131] Eyni qaynaq.

«Enmerkar və Aratta elbəyi» dastanında S. N. Kramerin *Altun çağ* kimi verdiyi 21 sətirlik bir pritça vardır. Qısa məzmunu belədir: O vaxtlar ki, hələ əqrəb-ilan, it-qurd, qorxu-hürkü yoxuydu və o çağda ki, insanın rəqibi yoxuydu, onda dağlıq *Şubur-Xamazi,* çoxdilli *Sumer, Akad* və dağlıq *Mardu* ölkəsi - bütün Dünya tanrının verdiyi bir dildə danışır, tanrı Enlilə hamı bir dildə alqış deyirdi. Onda ki, insanoğlu bir dildə danışırdı, onda söz (bəlağətli nitq), bolluq və tanrıların ağıllı öndəri qısqanc Enki bir dildə danışan insariların dilini dəyişib, ayrı-ayrı dillərə çevirdi.[132]

Bu pritçada bir-iki önəmli bəlgə vardır: «çoxdilli Sumer ölkəsi» deyimi altında *sumer* və *akad* dilləri ilə yanaşı, Sumeröncəsi dövrdə (Altun çağ) burada işlənən və tədqiqatçıların «*prototiqrid* (*banana*) *dili*» adlandırdığı dil *subar* (prototürk) dili olmalıdır, çünki burada ikidilli yox, çoxdilli epiteti işlənmişdir; «Altun çağ» dönəmində insanların bir dildə danışması hərfi mənada işlənmişsə, onda bu, İkiçayarasına hələ sumer və samidilli boyların gəlmədiyi Subar eli çağına işarədir, çünki mətndəki coğrafiya prototürk subar boylarının Atayurdunu göstərir.[133] S.N.Kramerin «Altun çağ» adlandırdığı dövr əgər İkiçayarasının prototürük çağı saydığımız dövrə uyğun gəlirsə, onda güman etmək olar ki, tanrı Enlilə bir dildə alqış deyənlər, əslində, bura sonradan gələn sumerlərin tanrısına deyil, məhz prototürk subar boylarının ***Tenqer** (teñer),* sumerlərin ***Dingir** (diñir)* dediyi Bir Tanrıya tapınmışlar. Burada diqqəti çəkən məsələlərdən biri də, bu motivin Bibliyada belə əks olunmasıdır: Babil qülləsini qura-qura yuxarı qalxıb, tanrı məqamına yaxınlaşan insanların qarşısını almaq üçün tanrı onları birləşdirən bir dili dəyişib, insanları çoxdilli etməklə qarşıdurma olaylarına meydan vermişdir.

Belə bir motivin məhz Arattaya gedən qasidin söyləməsi, görünür, sumer yazarının düşündüyü psixoloji təzyiq vasitəsidir; çünki həddini aşan insanlara qəzəblənən tanrı onların dilini dəyişərək qovğalara yol açdığı kimi, tanrı Enkinin *Abzu* məbədinə lazım olan bər-bəzək, tikinti materialı vermək istəməyən arattalılar da Enki qəzəbinə düçar ola bilər, necə ki, vaxtilə arattalıların soydaşları yaşayan birdilli Subar eli parçalanıb, çoxdilli ölkəyə çevrildi.

---

132 Eyni qaynaq, 221.

133 Son tədqiqatlara görə, mətndəki coğrafı hüdudlar batıda Aralıqdənizi, doğuda İran dağları, quzeydə Güney-doğu Anadolu (Ermən dağları), güneydə isə Bars körfəzi, idi (Крамер, 1991, 223; МОД, 1987, 10).

Sonralar Tövratda təkrar olunan Nuh tufanı, Nuhöğulları səcərəsi, tanrının istəyilə Babildə bir dildən çoxdilli duruma keçilməsi kimi sumer motivləri türk divan ədəbiyatında dərin iz buraxmışdır. Samın şəcərəsində Elam, Asur, Arpokşad adlarının yanaşı verilməsi və Nuh tufanından iki il sonra doğulan Arpokşadın soyundan törəyənlər sırasında *Yoktan* və *Peleq* (Böləg?) qardaşları, yerüzü yenidən *bölünən* dönəmdə yaşamış Peleg soyundan *Seruc* (başqa variantda *Seruq//Saruq*), onun soyundan *Terax* (tanrı elçisi İbrahimin atası) kimi adlar subar-türk adları ilə paralellik təşkil edir. Belə ki, Peleg və subar bəyi Balaq, Arpokşad və Türkşad, Terax və Terek (türük?) adları göstərir ki, Tövrat çox qədim qaynaqlar əsasında yazılmışdır.[134]

Çöx güman ki, tanrı elçisi İbrahimin dili də sumercə idi, çünki o, Sumer ölkəsində Urda doğulmuşdu. Ançaq soykökü baxımından sumer deyildi, ata-babaları Mada (Midiya) elindən, yəni o çağda Aratta adlanan qədim Azərbaycandan Sumer ölkəsinə köçüb gəlmişdilər. Qədim Bizans tarixçisi F. Simokatta da Midiyanı İbrahimin vətəni adlandırır. Bibliyada verilən İbrahimin babalarının adı müxtəlif qaynaqlarda (Təbəri, Əbül Fərəc və b.) Nuh, Arpakşad, Salih, Eber, Peleg, Arqu, Saruq, Terax (=Azər) kimi də qeyd olunur ki, bunların bəzisi şəxsadı yox, sonrakı çağlarda da geniş işlənən türk (*arqu, saruq, terax*, *azər*) boylarının adıdır.

Sumerdən Arattaya gedən yolun yönü Aratta ilə bağlı coğrafi adlar ilə müəyyən olunur. Urukdan çıxan qasid müasir Bağdad-Kərkük yolu ilə deyil, Süleymaniyə bölgəsində olan Qaradağa çatana qədər Zaqros dağları boyunca quzeyə qalxır. Öncə, doğudakı *Zubi* dağını aşıb, Elamın bir bölgəsi olan *Anşan* dağlarına və sağda qalan *Suz* şəhərinə uzaqdan «balaca siçan kimi» baxıb, gizlincə təzim edir, sonra «beş dağ, altı dağ, yeddi dağ» aşıb Arattaya çatır. Bu marşrutun yönünü müəyyən etmək üçün müasir xəritələrə baxmaq kifayətdir.

Uruk-Aratta yolu Dəclə çayının doğu tərəfinə keçəndən sonra Əhəməni çağında da işlək olan Suz-Ərbil «şah yolu»na çıxır. Bu yolla Zaqros dağlarının batı ətəkləri ilə yuxarı qalxıb, müasir Qaratəpə və Qaradağ böl-

---

[134] Sumer yazısını təkrar edən Tövratda belə deyilir: «Və bütün dünyanın dili bir və sözü birdi... Və dedilər: bütün yerüzünə dağılmayaq - deyə, gəlin özümüzə bir şəhər və başı göylərə yetişən bir qüllə tikək və özümüzə bir ad verək. Və adamoğullarının tikdiyi şəhəri və qülləni görmək üçün Rəb endi. Və Rəb dedi: İndi bir uruqdurlar və hamısının bir dili var... Bundan dolayı onun adına Babil deyildi, çünki Rəb bütün dünyanın dilini orada qarışdırdı» (Tekvin, 10-12; 11, 1-9).

gələrinə çatandan sonra Diala (qədim *Turna)* və Qızıl-üzən çaylarının başlandığı dağlıq Aratta ölkəsinə girmək olur. Sumer qasidindən iki minil sonra II Sarqon da Diala çayının yuxarı qollarından birı olan *Aratta* çayını məhz bu bölgədə keçir.[135] Ona görə də, Aratta elini İranın doğusunda axtarmağın heç bir elmi əsası yoxdur.[136]

Y.Yusifov doğru olaraq, yazır ki, «Aratta anlayışı, yəqin, Sənənc, Kirmanşah, Həmədan bölgələrini də əhatə edirdi».[137] Müasir Saqqız ətrafındakı bölgələri əhatə edən Aratta ölkəsi lulu boylarının yaşadığı, sonra kassi boylarının gəlib oturduğu və akad-asur yazılarında *Zamua* adlanan bölgəni də içinə alırdı. İç-Zamua isə Urmu gölünə tərəf uzanan yerlər idi. Luqalbanda haqqında bir-birıni mövzuca tamamlayan iki dastanda verilən epizodlarda onun Urukdan uzaqda yerləşən *Zabu* (Zamua?) ölkəsində və *Hurrum* (Urum?) dağlarında dolaşması da diqqəti çəkir.

Biri «Luqalbanda və Hurrum dağı», digəri «Luqalbanda və Enmerkar» adlanan bu dastanların qısa məzmunu belədir: Uruk hökmdarı Enmerkar böyük bir dəstə ilə Arattaya getmək üçün yola çıxır. Onu müşayiət edənlər arasında olan Luqalbanda *Hurrum* dağına çatanda xəstələnir. Dost və qardaşları Luqalbandanın nəfəs almadığını görüb, öldüyünü güman edir-

---

[135] Doğrudur, Sarqon da «yeddi dağ» aşıb bura girir, lakin nəzərə almaq lazımdır ki, Sumer qasidi yeddi dağı güneydən quzeyə gedərkən keçir, Sarqon isə bu dağları batıdan doğuya gedərək, həm də *Kollar-dağ* silsiləsini aşandan sonra keçir. Ona görə də, Y.Yusifovun «yeddi dağ» deyimini sübut kimi verməsi özünü doğrultmur. Sumercə *hursaq Zubi* deyiminin də «qaradağ» kimi oxunub, Süleymaniyə şəhərindən güneydə olan Qaradağ ilə müqayisəsi yerinə düşmür, çünki qasid Zubi dağını Aratta yaxınlığında yox, öz ölkəsindən çıxarkən keçir. Həm də, subar boylarının yaşadığı *Qaradağ* bölgəsinin adı elə sumer yazısmda *Qardaka* şəklində m.ö.XXI əsrdə qeyd olunmuşdur (Дьяконов, 1956, 118).

[136] Bəzi tarixçilər qaynaqlarda Aratta ilə bağlı məlumatın məntiqi və onomastik bəlgələr ilə deyil, yalnız Uruka Arattadan laciverd (lazurit) göndərilməsi faktından çıxış edərək, bu mineralın Bədəxşandan gətirildiyini vurğulayır, Arattanı Sumerin doğusundakı böyük bir ölkə olan Elamın üzərindən atladıb, Əfqanıstan və Hindistanda yerləşdirmək istəyirlər. Əvvəla, bu məntiqlə laciverd çıxan istənilən ölkəni Aratta saymaq olar; ikincisi, qaynaqlar bu mineralın Azərbaycanın Dizmar, Mazandaran bölgələrində olduğunu da qeyd edir (Јусифов, 1997, №2, 123); üçüncüsü də, Arattada laciverd yatağı olmasaydı da, doğudan gəlib, Həmədandan keçən ticarət yolunda Aratta tranzit ölkə ola bilərdi; nəhayət, tarixçilərin gözdən qaçırdığı bu faktı da nəzərə almaq lazımdır ki, Uruk Aratta elindən *laciverd* tələb etdiyi kimi, bəzən ticarət malı kimi Aratta da Urukdan laciverd tələb edirdi (Крамер, 1991, 34); S. Kramer də yazır ki, Aratta ölkəsi Xəzər dənizi yaxınlarında idi (Крамер, 2002, 56).

[137] Јусифов, 1997, №2, 125-126.

lər və onu hələlik burada qoyub, Arattadan qayıdanda vətənə aparmağı qərara alırlar. Lakin iki gündən sonra Luqalbanda gözünü açır və taqətsiz halda bir-bir Günəş, Venera və Ay tanrılarına yalvarır ki, «*dostu-qardaşı, ata-anası olmayan*» bu qərib ölkənin «*xaşur*» ağaclı Hurrum dağında onu həyata qaytarsınlar. Utu ona təpər, İnanna həyat nəfəsi, Sin yaşam verir. Bu yardım üçün tanrılara təşəkkür edən Luqalbanda sağalır. (İkinci dastan isə mövzunu belə davam etdirir): Bir neçə dostu ilə *Zabu* ölkəsində qalmış Luqalbanda doğma şəhərinə qayıtmaq istəyir, bu üzaq yolu keçmək üçün *İmduqud* adlı quşun balalarına qayğı göstərir, quş da ona sürətli hərəkət etmə bacarığı verir. Luqalbanda Zabu ölkəsindən çıxıb, uca dağları, yeraltı mifik Kur çayını uğurla keçərək Uruk elinə qayıdır. Bu vaxt Uruk şəhərini batıdan gələn sami tayfaları mühasirəyə almışdı. Ağır duruma düşən Enmerkar yardım üçün Arattaya, «bacısı» tanrıca İnannaya qasid göndərmək istəyirdi. Lakin heç kim bu ağır səfərə könüllü getmək üçün səsini çıxarmır. Luqalbanda isə Enmerkara yaxınlaşıb, deyir ki, bu xəbəri Aratta elinə çatdırmaq üçün yola çıxmağa razıdır. Dostları onu bu istəkdən çəkinməyə çalışsalar da, fikrindən dönmür. Anşan ölkəsini başdan-ayaga kəsən yeddi dağı (Zaqros dağlarını) aşıb, Aratta elinə çatır və Enmerkarın yardım istədiyini İnannaya deyir. Bunun üçün İnanna müxtəlif qurbanlar verməyi məsləhət görür və dastan burada bitir.[138]

Burada İmduqud quşu ilə bağlı epizodun Azərbaycan nağıllarında Simurq quşu ilə təkrar olunması, Məlikməmmədin qaranlıq dünyaya düşməsi və yuxarıdakı pritçada subar boyadı kimi diqqəti çəkən *Şubur-Xamazi* adlı dağlıq ölkənin Zaqros dağında verilməsi müəyyən paralellər aparmağa imkan yaradır. Müasir Xorram-abadın *Hurrum* (və ya *Xurrum)* dağadına bənzəməsi, Hurrumun bu bölgədə, indiki Luristan ərazisində olması fikrini mümkün edir, çünki Hurrum dağı Urukdan Arattaya gedən yolun sağında qalır. Eyni zamanda, Hurrum adı ilə *urum* boyadı arasındakı əlaqəni də istisna etmək olmaz. Beləliklə, Aratta ölkəsinin güney sınırları Güney Azərbaycanın güney bölgələrini əhatə edir. Aratta elindən sonralar doğuya miqrasiya edən boyların bir qismi burada *arattalı* kimi tanınmış, ola bilər ki, *Herat* yeradı da *Arat* (Aratta) adından yaranmışdır.

Sumer qaynaqları Aratta ölkəsinin çox uzaqda olmadığını aydın göstərir. Belə ki, bu iki ölkə arasında intensiv ticarət əlaqəsi, hər ikisində İnanna tapınağının olması, məbəd tikmək və onu bəzəmək üçün ustaların, o cümlədən ağac-daş kimi ağır tikinti materialının Arattadan gətirilməsi,

---

[138] Крамер, 1991, 208-212; Wilcke, 1969.

bu ölkələrdən birinin digərini vassal bölgəyə çevirmə istəyi və sair bu kimi bəlgələr bu dövlətlərin bir-birindən çox uzaqda olmadığını açıqca ortaya qoyur. Urukla Aratta arasında olan əlaqədə daha qədim gələnəyin mövcudluğu görünməkdədir. Enmerkarın qasidi «arı törənlər yurdu» olan Aratta ölkəsinin elbəyinə Uruk çarını belə təqdim edir:

Arı törənlər yurdunda qutlu İnək süd verən,
*Aratta torpağında boy ataraq yüksələn,*
Utu yavrusu Enmerkardır!
. . .(tanrıca) Onu sahibə kimi *şubarlı* qul tək,
Eanna məbədinə aparmaq şərəfini
Mənim Başqam ağama (Enmerkara) verdi.[139]

Əgər Uruk hökmdarı Enmerkar Arattada boya-başa çatıbsa, deməli, Uruk şəhərini salıb, dövlət quran sülalənin kökü Aratta boyları ilə bağlıdır. Belə ehtimal özünü doğrultsa, onda dastanların birində İnanna tapınağının Urukdan Arattaya aparılması arzusunun o biri dastanda artıq gerçəkləşdiyini görəndə təəccüb etməməliyik. Urukda sonra bu soydan baş kahin və çar seçilən Bilqamıs haqqındakı dastanlarda da Koroğlu və Dədə-Qorqud motivlərinə təbii baxmamız gərəkir.[140]

Dağlıq ölkə olan Arattanın coğrafi durumundan asılı olaraq, onun təsərrüfat növləri və sosial-iqtisadi səviyəsi formalaşmışdır. «Burada dəmyə əkinçiliyi geniş yayılmışdır. Əkin sahələrinin məhsuldar olması isə yağışdan asılı idi. Mövsüm quraqlıq keçəndə Sumerlə və başqa əkinçilik mərkəzlərilə taxıl mübadiləsi genişlənirdi. Qaynaqdan məlum olur ki, Aratta əhalisi əkinçiliklə məşğul olur, buğda və noxud becərirdilər».[141] Zaqros dağlarının yuxarı hissələrində hələ Carmo kulturu çağından dəmyə əkinçiliyi ilə yanaşı, qoyun-keçi saxlanan təsərrüfata rast gəlmək olur və təbii ki, Azərbaycanın Aratta bölgəsində heyvandarlıq artıq uzun keçmişi olan bir təsərrüfat növünə çevrilmişdi.

Arattanın mineral yataqları burada bər-bəzək əşyaları hazırlayan ustaların yetişməsinə, metalişləmə sənətinin inkişafına şərait yaratmışdı.

---

[139] Крамер, 1991, 39.

[140] Ümumiyətlə, sumer-türk əlaqələrində ortaq sözlərlə yanaşı, mifik və epik əsərlərin də dərindən öyrənilməsi vacibdir. Əgər Aratta-Uruk əlaqələrinin alt qatında bilmədiyimiz daha bir dərin qat varsa, onda sumerlərin uzaqdan deyil, Luristandan İkiçayarasına gəlməsi fikrini fərziyə kimi irəli sürmək olar. Bu halda, prototürk etnosunun güney qonşusu elamlılar deyil, sumerlər olur, yəni sumerlər türk və elam arasında yerləşir.

[141] AT, 1994, 66.

Sumer məbədlərinin tikintisində qiymətli mineral daşların, qızıl-gümüş və tikinti materialının Arattadan gətirilməsi ilə yanaşı, bu tikintilərdə işləməyi bacaran ustaların da Arattadan cəlb edilməsi qaynaqda əks olunmuşdur. Aratta ölkəsində sənətkarlığın inkişafı sonrakı çağlarda da özünü göstərir. Belə ki, Luristanın silahları, bəzəkli qab-qacaq çeşidləri, cizgi-rəsm sənətində «an» üslubunun ilk nümunələri m.ö. II minilin sonlarına aid arxeoloji abidələrdə, Ziviyə-Saqqız dəfnələrində aşkar edilmişdir. Görünür, burada metalişləmə ilə yanaşı, daşyonma və dülgərlik sənəti də inkişaf etmişdi, çünki sumer dastanları məbəd tikmək üçün bu ustaların da çağrılmasını qeyd edir.




Aratta elinin sosial durumu və dövlət qurumu haqqında, dolayı da olsa, qaynaqlar müəyyən bilgi verir. Bəlli olur ki, elbəy Aratta şəhərində sarayda oturur, burada «şura» (ağsaqqallar şurası) və müşavirlər vardır. Burada milli və dini törənlərə nəzarət qamların əlindədir, ölkənin və dövlətin sumercə «maşmaş» termini ilə verilən baş kahini (başqam) yeri gələndə vəzir və ya başbuğ statusunda savaş meydaınında görünür. Dövlət başçısı elbəy bəzən qaynaqda baş kahin adlanır ki, bu müəyən çağlarda onun həm də başqam vəzifəsi daşıdığını göstərir. İnanna tapınağının bu-

rada olması və Aratta ölkəsinin «saf, arı törənlər yurdu» sayılması da diqqəti çəkir.[142] Bu bölgədə sonralar lulu elbəyinin akad dilində yazdırdığı bəlgədə də İştar tanrıcaya tapınma əks olunub. Təəssüf ki, qaynaqlar bu tanrıcanın sumer-akad dilindəki İnanna-İştar adlarını verir, lulu-arattalı boyların dilində isə onun necə adlanması bəlli olmur.

Aratta elində Sumerdə olduğu kimi, hakimiyətin tanrı tərəfindən verildiyi (*qut*) inancı vardı və elbəy məqamı *qutlu* sayılırdı, lakin Sumerdən fərqli olaraq, Arattanın dövlət simvolu *əsa* (skipetr) deyildi, ona görə də, Enmerkarın Aratta elbəyinə əsa göndərməsi onu bərk əsəbləşdirir və o, sumer qasidinə deyir ki, onun skipetri «göy qübbəsidir».[143] Sonrakı türk dövlətlərində geniş işlənən *şad* titulu Aratta sarayında da görünür. Uruk dövlətinin göndərdiyi «Arattanın Uruka tabe olması» təkliflərinə elbəy birbaşa cavab yermir: bir halda ağsaqqallar şurası ilə məsləhətləşir, başqa bir epizodda isə saraydakı *şatammu* ilə gənəşir, bundan sonra öz qərarını bildirir. Dastanı ilk oxuyub tərcümə edən S.N.Kramer şatammu sözünün mətnə uyğun «vəzifəsi o qədər də aydın olmayan *müşavir* anlamı daşıdığını» qeyd etmişdir.[144] İ.M. Dyakonov m.ö.1821-ci ilə aid bir sumer alqı-satqı sənədində işlənən *şatammu* sözünün vəzifə deyil, müxtəlif vəzifələrdə olanlara verilən «nəzarətçi» funksiyası anlamı daşıdığını yazır.[145]

---

[142] Ola bilər ki, bu deyim *aratta* adının etimologiyası üçün açar olsun. Məsələn, *Aratta* adı dağla deyil, inancla bağlı *Ar-Ata* (ər-ata) deyimidirsə, onda Arattanın batı qonşusu *Arapha* (Kərkük) adı da *Ar-Apa* (ər-apa) kimi izah oluna bilər, çünki bəzən Araphanın adı *Alilani* (Tanrılar şəhəri) kimi də verilir (ИДВ, 1988, 75); Əlbəttə, bu yozum sübuta ehtiyacı olan bir fərziyədir.

[143] S. N. Kramer qeyd edir ki, elbəy hakimiyət simvolu olan əsanı görəndə nədənsə bərk qəzəblənir (Крамер, 1991, 34, 39); Əlbəttə, hakimiyət simvolu *yay* olan türk törəsinə görə, qarşı tərəfin öz hakimiyət simvolunu (əsanı) göndərməsi dövlətçilik gələnəyini dəyişmə təklifi kimi qəbul oluna bilər, bu halda elbəyin qəzəblənməsinin səbəbi aydın olur.

[144] Крамер, 1991, 34.

[145] Дьяконов, 1990, 173, 239-240, 353; Onun verdiyi yozum doğrudur, çünki sonrakı çağlarda da türk prinsləri müəyyən vəzifə alandan sonra adlarına *şad* titulu qoşulur. O, alqı-satqıdan vergi ödəyən Kuvar kəndlilərinin - *ərənlərin* («eren Kuvari») imzalarını möhürü ilə təsdiq edən şatammunu «nəzarətçi» kimi verir və həmin sumer sənədində keçən *Şatvak* adını gümanla elam tanrıadı sayır. Babil dövləti çağında şatammu titulunun böyük məbəd və məbəd təsərrüfatının başçısı kimi işlənməsini, hətta B. Landsbergerin bunu «yepiskop» kimi tərcümə etdiyini vurğulayır. İ. M. Dyakonova görə, *tamkârum* termini də *tacir* deyil, *vergi yığan* anlamına uyğun gəlir (səh. 192). Bu sözün isə qədim türkcədən alınma *tamqa* ilə bağlı olduğunu I Bitikdə vermişdik.

Aratta elinin dövlət qurumu haqqında dəqiq məlumat olmasa da, önəmli olayların çözüldüyü sarayın, saray qarşısında toplantı meydanının olması və taleyüklü məsələlərin müzakirəsində ağsaqqallar şurasının iştirakı, saray qarşısında xalq nümayəndələri və ərənlərin söz demək hüqüqu göstərir ki, T.Yakobsen və S. Kramerin təbirincə desək, Aratta eli «Qədim demokratiya» siyasi qurumuna malik idi.[146] Lakin bu görkəmli alimlərin sözü Arattaya deyil, Sumerə aiddir: Yuxarı palatanı təşkil edən konservativ ağsaqqallar şurası «senat» və xalq nümayəndələri ilə döyüşçüləri təmsil edən aşağı palata Sumerdə «ikipalatalı parlament» sistemi olduğunu ortaya qoyur. Sumerdə yuxarı palatanın çıxardığı qərara çarın veto qoymasını çox vaxt aşağı palata alqışla qarşılayır. Eyni durum Arattada təkrar olunursa, deməli, bu idarəçilik üsulunu Aratta elinə də aid etmək olar. Həm də bu durum sonrakı türk dövlətlərində uzun müddət, mərkəzləşmiş və irsi hakimiyət sisteminə keçən İkiçayarasında isə az davam etmişdir.

Aratta çağında biri digərini özündən asılı vəziyətə salmaq istəyən və bu yöndə diplomatik danışıqlar nəticə verməyəndə savaş yolunu seçən iki xalqın tarixi əlaqələri daha çox ticarət sahəsində özünü göstərir. Türk-sumer əlaqəsində çətinə düşən sumerlərin Arattadan yardım umduğunu da görmək olur. Bu durumun sonrakı çağlarda davam etməsi sumer-qut əlaqələrində özünü göstərir. XXIII əsrin sonunda Akad tərəfindən çox əziyətlərə düçar olan Sumer əhalisi xilas yolunu qutlara tabe olmaqda görür. «Akadın lənətlənməsi» adlı epik əsərdə tanrı Enlilin çağrışı ilə qutların Sumerə köməyə gəlməsi, «Vaydner xronikası» adlı qaynaqda Qutların İkiçayarasına hücum edib, Akad və Sumeri tutması tanrı Mardukun iradəsilə gerçəkləşdiyi yazılır. Bu qaynaq qeyd edir ki, Akad çarı Naram-Suen Babil əhalisini məhv etdiyi üçün o, iki dəfə (!) Qut ordusunu (*ummān Qu-ti-i*) köməyə çağırır və burada hakimiyəti qutlara verir.[147]

Beləliklə, tarixdə ilk türk dövləti olan Aratta elinin coğrafiyası, iqtisadi durumu, təsərrüfatı və dövlət qurumu ilə, ötəri də olsa, tanış olduq. Aratta elində işlənən şəxs adları da diqqəti çəkir: elbəy Ensuxkeşdanna və *ya En-Sukeşdan* (İ. M. Dyakonov), başqam *Ur-Girnunna,* vəzır *Ansiqqaria.* Bu adların müxtəlif oxunuşu məsələsinə və təhlilinə sonrakı bitiklərdə qayıdacağıq. Hələlik, Arattadan sonra yaranan türk dövlətlərini izləyək.

---

[146] Крамер, 1991, 40-44.

[147] Mirzəyev, 2003, 6.

**Lulu eli**

Tarixçilər doğru olaraq, qeyd edir ki, «Lullubum (Lullubi) dövləti Güney Azərbaycan ərazisində yaranmış ikinci erkən dövlət qurumu idi».[147] Arattadan sonra m.ö. XXIII əsrdə Urmu gölündən güneydə *lulu* boylarının adı ilə ortaya çıxan bu ikinci türk elinin coğrafi sınırları, müxtəlif savaşlarda iştirakı, bir neçə elbəyinin adı və etnik tərkibinə aid xeyli bəlgə olduğu halda, bunu kifayət saymayan Q. A. Melikişvili yazır: «Baxmayaraq ki, asur-babil qaynaqları iki minil boyunca (III minilin ortalarından I minilin ortalarına qədər) lulubiləri xatırladır, onların tarixi haqqında bilgimiz çox azdır».[148] Doğrudur, asur-babil qaynaqları lulu boyundan yalnız m.ö. I minilin ortasınacan bəhs edir, çünki həmin bitmə tarixi lulu boylarının yox, I minildə lulular haqqında bəzi bəlgələr verən het, hurri-urartu və asur-babil qaynaqlarının bitmə tarixidir. Lulu boyları isə həmin adla həm Atayurdlarında, həm də doğuya köçən digər türklərlə birlikdə gedib yerləşdiyi bölgələrdə bugün də yaşayır.[149]

Lulu eli haqqında bilgi əldə etmək üçün öncə lulu boylarının qonşu dövlət və xalqlarla əlaqəsini, tarixi coğrafiyasını gözdən keçirmək, sonra bu Elin qurulma səbəbi, xronologiyası və siyasi-iqtisadi, mədəni durumu və lulu boylarının sonrakı taleyi, tarixdə buraxdığı izlər, həmçinin, lulu adı ilə bağlı sözlərin etimoloji yozumu üzərində dayanmaq lazım gəlir.

Sumer dilində *Lu-lu-bi* şəklində yazılan Lulu(lar) adı sumerlərə hələ Aratta çağından bəlli idi.[150] Lulu boylarının batı yöndən akad-asurlar, güneydən elam-kassilər ilə və daha sonralar gəlib Elama yerləşən ari (pers), quzeydən sonralar gəlib İkiçayarasına yerləşən hurri-urartular və hurrilər vasitəsilə hetlərlə olan əlaqəsi m.ö. III minilin son əsrlərindən üzübəri müxtəlif dilli qaynaqlarda əks olunmuşdur.

Maraqlıdır ki, sumer eposu məşhur qəhrəman Enkidunu *lullu-awilu* «lulu-kişi», yəni lulusoylu epiteti ilə verir, lakin burada *lulu* etnik mənada

---

[147] AT, 1994, 67.

[148] Меликишвили, 1954, 128.

[149] Mosul-zəngi atabəylərinin adında görünən *Lulu* soyadı, Orta əsrlərdə Maraş əyalətində, Ərzurum sancağı Kemax qəzasında, Niqde sancağında yaşayıb, Osmanlı dövlətinin arxiv sənədlərində adı çəkilən *lulu* və *lululu* camaatı ***yörük*** tayfası, Sivas sancağında, Hələbdə *lulualçı* (lululu-elçi) ***türkman*** tayfası kimi qeyd olunmuşdur (OAC, 570-571); Doğuda isə onlar *lulu* adlı hun sülaləsi kimi ortaya çıxmışlar (AT, 1994, 79).

[150] Юсифов, 1987, 25.

deyil, kontekstə görə, «yabanı» (vəhşi) anlamı daşıyır. İkiçayarasında hegemon mövqe əldə edən Akad dövləti XXIII əsrdə sınırlarını doğuya uzatmaq, qut-lulu boylarından əsir alıb qula çevirmək üçün vaxtaşırı Dəcləni keçib lulular ilə qanlı savaşlar aparmışdır. Lulular üzərində qələbəni akadlar gil lövhələrdə və qaya üzərində «qələbə yazısı» ilə qeyd etmişlər.[151]

Bir neçə əsr sonra yaranan Asur dövləti lulu boylarına qatı düşmən kimi baxmış, minil boyunca lulu torpaqlarına vaxtaşırı hücumlar edib, zaman-zaman bəzi bölgələri zəbt edə bilmişlər. Təkcə asur çarı I Tiqlatpalasarın (1115-1077) dörd dəfə lulular üzərinə yürüş etməsi haqqında yazılar qalmışdır.[152] Lulu eli çağında elamlar da bu torpaqlara yürüşlər etmişdir. Güney-Azərbaycana hücum edən elam çarı Kutik-İnşuşinak akadlarla müttəfıq idi. Hurrilər kimi kassi boylarının da bir qismi gəlib bəzi lulu bölgələrində məskunlaşmışdı.

Hurri-lulu əlaqələri də birmənalı deyil. Belə ki, quzeydə mitan-subar boyları ilə müttəfiq olan hurrilərdən bəzi uruqlar Hurri-Mitan dövləti çağında gəlib, Kərkük bölgəsinə yerləşmiş və ətrafdakı lulu boyları ilə ticarət əlaqələri qurmuşdu.[153] Hurri ordusunda hurricə *lulaxxi* adlanan muzdlu lulu döyüşçülərinin özəl alay təşkil etməsi het qaynağında verilir.

Bu qısa xülasədən göründüyü kimi, m.ö. I minilin ortalarına qədər lulu boyları ilə müxtəlif yöndəki qonşuluqda yerləşən və başqa etnik kökdən olan xalqlar arasında münasibət daim gərgin durumla davam etmişdir. Bunun səbəbi isə çox aydındır: yerli boyları sıxışdırıb yerindən çıxarmaq istəyənlərlə xoş münasibət mümkün deyil. Qaynaqların verdiyi bəlgələrə görə, lulu boyları ilə daha çox vuruşan asurlar idi. Halbuki, vaxtilə Dəclənin orta axarına dəstə-dəstə gəlib yerləşən bu köçəri sami tayfası ilk çağlarda, tədqiqatçıların lulumənşəli saydığı ilk Asur «çarları» Bazayu, Adasi, Libayu, Lulayu və sair adlar daşıyan bəylərin siyasi hakimiyəti altına sığınmışdılar.[154] Lulu boylarından danışan qaynaqlar əzilən

---

[151] Дьяконов, 1956, 101; AT, 1996, 37.

[152] ARAB, I, 278, 285, 312, 318.

[153] Hurri kaloniyası olan Nuzi şəhərinin arxivindəki bir məhkəmə sənədində Nimkibel və Zilixamanna adlı iki nuzilinin arasında baş verən davaya baxılır. Bəlli olur ki, bunların ortaq (şərikli) malı olan taxılı varmış və onlardan biri bu taxılı alver üçün Lulu bölgəsinə aparanda lulu lotuları taxılı onun əlindən alıblar. Məhkəmə qərar çıxardır ki, malı əlindən alınan ortaq o biri ortağın çəkdiyi ziyanı ödəməlidir (Меликишвили, 1954, 132).

[154] Gelb, 1944, 25, 32; Меликишвили, 1954, 130; AT, 1988, 125; J. Gelb haqlı olaraq, bu adları subar boylarına aid edir (Gelb, 1944, 66).

tərəfin həmişə lulular olduğunu fəxrlə vurğulayır. Bu hal təbiidir, çünki qonşuların dilində «yabanı» anlamı qazanmış lulu adını daşıyan bu yarımköçəri əhali təpərli olub, torpağına soxulanlara qarşı dirəniş göstərə bilirdi. Sonralar yəhudi qaynağı quzeydən gələn saqa-qamər təhlükəsini *qoq-maqoq* ordusu, ərəb qaynaqları quzey türkləri *yəcuc-məcuc* qoşunu adlandırdığı kimi, asur-babil qaynaqları da Azərbaycandan gələ biləcək təhlükəli qüvvəni qorxulu *umman-manda* ordusu sayırdı. Qorxu yaradan «xoxan-xortdan» deyimi kimi, farsca *Lulu tora mibarət* «Lulu səni aparsın» qarğışı da lulu xofundan qalmadır.

Elmi ədəbiyatda *lulu* sözünün mənası və mənşəyi haqqında ayrı-ayrı fikirlər söylənsə də, hələlik onun etimoloji yozumu aydın deyil.[155] Hər şeydən öncə bunu deyək ki, adın ilk *lu-* hissəsi bu sözün türkmənşəli olmadığını göstərir. Tarixçilərin lulu etnonimi haqqında «Azərbaycan əhalisinə kənardan verilən addır» - deməsi, doğru fıkirdir.[156]

Sumer yazıları Aratta ölkəsindən bəhs edərkən daha çox əkinçi, sənətkar əhalini qabarıq verir, sonrakı akad-asur, elam, urartu yazıları isə Urmu gölü hövzəsindəki şəhər, kənd və qalaların adını çəkməklə yanaşı, burada çoxsaylı mal-heyvan əldə etdiklərini də qeyd edirlər. Belə yazılı bəlgələrin heyvandarlıq haqqında verdiyi məlumat bölgənin arxeoloji abidələri ilə də təsdiq olunur. Hələ Carmo kulturu çağından xırdabuynuzlu davarın evsəlləşib artmasının əsas mərkəzi Zaqros dağlarında olması bəllidir. Nəzərə alsaq ki, lulu etnonimi Arattada heyvandarlıqla

---

[155] Bu adın müxtəlif dillərdə yazılışı (lulu, lullu, nullu, lulaxxu, Lulume, Lullubum və s.) sumer dilində verilən ilkin formanın (lulu-be) şəkilçili və şəkilçisiz formalarıdır. Sumer yazısında qeyd olunan lulu adına qoşulmuş *-bi* formantının İslamaqədərki qaynaqlarda *azərbi, ellipi, traspi, arqippi, tatabi, kaspi* və sair türk boyadlarına qoşulub topluluq bildirməsi şübhə doğurmur: azər-bi, elli-pi, tıras-bi, arqu-pi, tata-bi, kas-bi və lulu-bi.

[156] AT, 1994, 79; 1996, 37; Bu da mümkündür ki, «*ho-ho var dağa qaldırar, ho-ho var, dağdan endirər*» deyimində olduğu kimi, lulu çobanları sürünü haylayıb yönəltmək üçün *lo-lo* deyimini işlədirmiş. Bunu təkrar-təkrar müşahidə edən sumerlər bu heyvandar dağ adamlarını *lu-lo* adlandırmış, mixi yazıda «o» işarəsi olmadığından bunu *lulu* şəklində yazmışlar. Azər boyları içində «lo-lo» etnoqrafik mahnısı bugünə kimi qalmışdır. Bu adın sumerlər tərəfindən verilməsi daha inandırıcıdır, çünki sumer dilində «adam» anlamı bildirən *lu* sözü (lu-qal «böyük adam», lu-lo «lo adam») ilkin formanın lulo olduğunu göstərir, lu-lu ilə paralel lu-ər, lo-ər formalarının işlənməsinə haqq qazandırır: *şarru* $^{m}$*Lu-e-ru-ni-u-i* «Lueru çarı» (Мещанинов, 1978, 372); Belə ki, lulu boylarının yerində sonralar luər/loər variantından yaranan lur/lor adlı farslaşmış lur/lor boynu görürük və Osmanlı dönəmində Mosul və Urfa sancaqlarında türkmənlərin köçəri təbəqəsi kimi tanınan *lor camaatına* «türkmən kürdü» (türkman ekradı) deyimi ilə rast gəlirik (OAC, 570).

məşğul olanlara verilən addır, onda Orta Asiyada qaraçılara *lulu* deyilməsinin, Osmanlı dövləti dönəmində lulu boylarının *türkman* və *yörük* adlanmasının səbəbi də aydınlaşar, çünki bu adlar etnik deyil, «köçəri» anlamlı etnoqrafik terminlərdir. O ki, qaldı lulu adının sumer dilində «yabanı», asur, hurri və urartu dillərində «özgə, yağı və qul» anlamlarına, bu da həmin xalqlar ilə lulular arasında olan münasibət əsasında yaranmış sonrakı məna çalarlarıdır.

Davarın artımı üçün əlverişli şəraiti, çoxlu yaylaqları olan Zaqros dağlarında heyvandarlıqla məşğul olan toplumda *lulu* adının etnik deyil, etnoqrafık termin bildirməsi o deməkdir ki, həmin çağlarda *lulu* adının altında bir sıra boylar vardır. Akad-asur yazılarında subar, qut, turuk, kuman, urmu, qaşqay və sair türk boylarının adı eyni qaynaqda yanaşı çəkilə bildiyi halda, *lulu* adı olan yerdə bu boylardan heç birinin adı çəkilmir. Tekstoloji təhlilin verdiyi bu bilgi bir daha göstərir ki, lulu sözü konkret bir boyun adını yox, ümumi «köçəri» anlamını bildirmiş, ayrı-ayrı türk boylarının yarımköçəri təbəqəsi qədim yazılarda bu adla verilmişdir.[157] Bu səbəbdən, həmin qaynaqlarda «*Subar elinə mənsub lulu*» və «*Su ölkəsinə mənsub lulu*» deyimlərinə rast gəlmək olur.[158]




Lulu adının etnoqrafik özəlliyi Lulu elinin coğrafi hüdudlarını dəqiq müəyən etməyə çətinlik törətsə də, mətnin tekstoloji təhlili bəzi sınırların hüdudunu təyin etməyə imkan verir. Belə ki, güneydə kassilərlə qonşu olan lulu adlı boyların aşağı sınırı Luristanda olub, quzey sınırı Urmu hövzəsini əhatə edir. Batı sınırı İ. M. Dyakonovun qeyd etdiyi kmi, Sumurru

[157] Yalnız m.ö. XII əsrin ortalarına aid bir asur yazısında lulu və qut adları yanaşı çəkilir ki, bu da pozuq fraqment olduğundan təxmini oxunur: «(lu)luları, bütün qutları və onların bütün dağlarını öz qarşısında diz çökdürdü» (АВИИУ, №9). Bu cümlənin özü də sanki «dağlardakı bütün qutları (və onların) lulu tayfalarını» deyimini əks etdirir.

[158] AT, 1994, 81.

adlanan indiki Altın-körpü bölgəsini içinə alır.[159] Lulu Elinin doğu sınırı haqqında isə yazılı qaynaqlar bəlgə vermir. Bunu da yalnız o dövrün arxeoloji kulturu ilə müəyən etmək olar.[160]

Sonralar asur orduları lulu ərazilərinin iç bölgələrinə girdikcə, artıq asur qaynaqları II Sarqonun yazısında «Zamua adlanan lulume ölkəsi» deyildiyi kimi, tanış olduqları yeni adlar verir və *lulu* adının işlənməsi get-gedə azalır. Bu sadalanan səbəblərə görə, m.ö. XXIII əsrdəki olaylardan danışarkən, şərti olsa da, «Lulu eli» deyimini işlətmək zorundayıq.

Lulu adı ilə qurulan el, təbii ki, yalnız yarımköçəri lulu boylarının qurduğu dövlət deyildi, bu elin ərsəyə gəlməsində subar, turuk, kuman və sair boylar, özəlliklə, qut boyları yaxından iştirak etmişdir. Arattadan bir neçə əsr sonra Lulu elinin məhz m.ö. XXIII əsrdə ortaya çıxmasına səbəb isə Akad və Elam dövlətlərinin vaxtaşırı Azərbaycana hücum etməsi idi. Bu hücumların qarşısını almaq üçün bölgə əhalisi vahid siyasi qurumda birləşmək məcburiyətində idilər, çünki ayrı-ayrı bölgə bəyləri ayrılıqda akad-elam ordularına qarşı dura bilmir, mal-hevanları ilə birlikdə adamlar da əsir tutulub İkiçayarasına və Elama aparılırdı.

Lulu eli təcrübəsiz yarımköçəri əhalinin qurduğu ilk dövlət deyildi, hələ Aratta çağında onların «el» quruluşu olmuşdur. İslamaqədər qurulan saysız türk dövlətlərinin qurulub-dağılma olaylarına, mərkəzləşmiş el qurumunu bölgədəki siyasi durumun tələbi ilə yaradıb, bölgədə stabillik əldə ediləndən sonra türk elatlarının yenidən ayrı-ayrı bəyliklərə parçalanmasına çox rast gələcəyik.

Lulu eli də belə yarandı. III minilin ortalarından sonra akadlar Ikiçayarasında güclənib, ətraf bölgələri zəbt edirdi. Burada quldarlıq boy atıb çiçəkləndikcə, əlavə işçi qüvvəsinə təlabat da artırdı. XXIV əsrin sonundan başlayaraq, İkiçayarasının subarlar yaşayan quzey bölgələrinə, Dəclə çayının sol yaxalarında yaşayan subar, qut və «lulu» torpaqlarına

---

[159] Дьяконов, 1956, 101.

[160] Yeni daş dövrü (Neolit) Urmu hövzəsində *Firuztəpə,* Saqzabad yaxınlığında *Zağatəpə,* Luristanda *Qurantəpə, Abdul-Xoseyn* arxeoloji abidələri, Eneolit çağında Xasun kulturunun, sonra Quzey-Ubeyd kulturunun Urmu hövzəsinə uzanması, *Yanıqtəpə, Hasanlu, Püşdəlitəpə, Dəlmətəpə* abidələrinin erkən əkinçi-maldar boylarının axarsu yaxalarında kərpiç evlərdə məskunlaşdığını göstərməsi Güney Azərbaycan əhalisinin yaşam kulturu haqqında təsəvvür yaradır. Tunc dövründə də kultur gələnəkləri və metalişləmə sənəti ilə İkiçayarasında yaranmış mədəniyətdən geri qalmayan Zaqros dağlan ilə Urmu hövzəsindəki protoazər boyları vahid mədəniyət sferasında idilər. Ona görə də quzey-doğuda lulu sınırı Təbriz bölgəsinəcən uzana bilərdi.

soxulan akadlarla yanaşı, elamlar da vaxtaşırı Dəclə-Urmu arası bölgələrə hücumlar edirdi. Tutulan əsirlər qul bazarına sürülür, çoxsaylı məbədlərə verilir, torpaq sahiblərinə satılırdı. Urmu hövzəsi və Zaqros dağları ətəyində yaşayan əhalini əldən salan bu savaşlar «lulu» boylarının başçılığı altında birləşmə zərurətini doğurmuşdu.[161]



Artıq XXIII əsrin ortalarına aid qaynaqlarda rast gəldiyimiz «lululların çarı» (lulu elbəyi) ifadəsi və lulu elbəylərinin düşmənə qələbə çaldığı yerlərdə daşa həkk etdiyi qayaüstü rəsmlər və «zəfər yazısı» göstərir ki, lulu boylarının vahid rəhbərə, elbəyə tabe olan birliyi ilə yaranmış Lulu eli nəinki akad və elam yağmalarına qarşı duruş gətirə bilir və hətta onların ərazilərinə hücum edib, qələbə də çalırdı.



Anubani barelyefi

Lulu adına qorxulu "yağı" anlamı verən qonşu xalqlar artıq bu savaşlarda yetişən güclü orduya malik Lulu eli ilə qarşı-qarşıya durmuşdu. G. A. Barton doğru olaraq, qeyd edir ki, lulu elbəyi **Anubani** Urmu gölü ilə Fars körfəzi arasındakı əraziləri öz nəzarəti altında saxlaya bilirdi.[162]

Tədqiqatçıların Lulu elbəyi Anubanidən öncə «İkki oğlu» kimi verdiyi başqa bir bəyin barelyefı altında zəfər

[161] «İşğala məruz qalan 70 hökmdar, o cümlədən Urmu gölü hövzəsinin əhalisi hərbi ittifaq yaratdılar» (AT, 1994, 69); Lulu, qut, sonralar isə Atropaten dövlətlərindən məlumat verən tarixi qaynaqlar 70 rəqəmini təkrar edir. Bu rəqəmin və Koroğlu dəlilərinin 777 sayı üzərində sonra dayanacağıq.

[162] Barton, 129, 150.

yazısı vardır və burada sadəcə iki məğlub olmuş adam şəkli həkk olunub ki, bu da saç düzümünə görə onların ayrı-ayrı iki bölgə və ya iki ölkə başçısı olduğunu bildirir.[163] Anubaniyə aid rəsmdəki əsirlərin isə səkkizi eyni görkəmdədir, yalnız biri saç düzümü və papağı ilə digər əsirlərdən fərqlənir. Türk törəsinə görə, əlində hakimiyyət simvolu «yay» tutan hər iki elbəyin barelyefləri Həmədan-Bağdad yolu üzərindədir.[164]

«Azərbaycan tarixi» kitabında Lulu və Qut elinin xronologiyası bir-birinə qarışmışdır. Belə ki, ilk lulu elbəyinin hakimiyyət ili 2230-dan, ilk qut elbəyi Enridavazirin hakimiyyəti isə bu tarixdən cəmi beş il sonra (2225) verilmişdir.[165] Bu xronoloji hesabdan belə çıxır ki, eyni ərazidə iki qüdrətli dövlət eyni çağda mövcud olmuşdur. Aydın görünür ki, burada xronoloji ardıcıllıq pozulmuşdur, çünki lulu və qut boylarının eyni etnik toplum olduğunu bir kənara qoysaq belə, Qut imperiyası daxilində, özü də tam onun mərkəzində eyni çağda Lulu eli mövcud ola bilməzdi.

Qut elinden sonra Lulu elinin yarandığını söyləmək mümkün deyil, çünki qaynaqlar Qut elindən sonra bir çox lulu-qut bölgəsinin artıq Sumerdə güclənmiş III Ur sülaləsinin əlinə keçməsini və 2109-da dağlıların (lulu-qut) hakimiyyətinə son qoyulmasını vurğulayır.[166] Qaynaqdan bu da bəllidir ki, lulularla vuruşmuş akadlı Naram-Suen (2236-2201) sonralar Qut elbəyi Enridavazir ilə döyüşdə ölmüşdür. Bu ipucu öncə Lulu, sonra Qut elinin yarandığını ortaya qoyur.

Lulu elinin son illəri Akad çan Naram-Suenin vaxtına düşür. Onun Süleymaniyə-Rubat yolundakı Qaradağın Dərbəndi-Gavur aşırımında lulu boyları yzərində qazandığı zəfəri əks etdirən yazısı göstərir ki, artıq lulu ordusuna elbəyi deyil, bölgə bəylərindən biri başçılıq edir. Beləliklə, qüdrətli Lulu eli XXIII əsrin sonunda öz tarixi missiyasını reallaşdıra bilmədiyi üçün onun yerində Qut eli yarandı. Eyni durum 1500 il sonra

---

[163] Bu lulu bəyinin adını bəzi yazarlar *Tardunni,* bəzisi yarımçıq (…) *birini,* bəzisi *Lişirpirini* kimi təqdim edir (Меликишвили, 1954, 48; Алиев, 1960, 82; Дьяконов, 1956, 116).

[164] Меликишвили, 1954, 48.

[165] AT, 1994, 68-71; Burada ilk lulu elbəyindən (bunu yanlış olaraq *Satuni* adlandırırlar) tutmuş Anubaniyə qədər (2230-2150 arası) ayrılan təxminən 80 illik dövrün 50 ili Qut elinin (2200-2109) vaxtına düşür.

[166] Ur sülaləsindən (2121-2012) təkcə Şulqinin vaxtında (2103-2056) lulu-qut ərazilərinə, Qanxar (Qanqar?), Lullubu, Simurrum, Xarşi, Urbillum (Ərbil) və sair bölgələrə çoxsaylı yürüşlər olmuş, Laqaş çarı Şu-Suen (2046-2038) çağında isə onun canişini Arad-Nannar özünü dəclə yaxası Sabum, Qutum, Urbillum, Xamazi, Qanxar, Qardak və Su (subar) xalqının ağası (ensi) kimi təqdim etmişdir (Дьяконов, 1956, 117-118).

Urartu-Asur yürüşlərinə tab gətirməyən Mana elinin Mada eli ilə əvəzlənməsi olayında da görünür. Təəssüf ki, Lulu elinin dövlət qurumu haqqında qaynaqlar bəlgə vermir. Lakin bu qaynaqlardan lulu boylarının inanc və tapınaqlarına, siyasi, iqtisadi-sosial durumuna aid dolayı məlumat əldə etmək, qayaüstü rəsmlərə görə, onların geyim kulturu ilə tanış olmaq mümkündür.

Hələ Aratta çağından məlumdur ki, Güney Azərbaycan əhalisi arasında sumercə *İnanna* adı ilə verilən tanrıcanın tapınağı vardı. Anubaniyə aid qayaüstü rəsmdə də bu tanrıcanın şəkli çəkilmiş və akadca adı (İştar) yazılmışdır. Barelyefin ümumi kompozisiyası Qut elbəyinin zəfər qazanmasına İnanna-İştar tanrıcanın yardımını vurğulayır. Buradakı yazıda deyilir: «*Anubanini, qüdrətli elbəy, Lullubi elbəyi özünün və İştar tanrıcanın rəsmini Batir dağında həkk etdi, bunu dağıdanı Anu və Anat, Bel və Bellit, Adad və İştar, Sin və Şamaş tanrılar cəzalandıracaq*».[167]

Türklərdə Göy, Gün, Ay, Ulduz kultlarının varlığı və «Oğuznamə» dastanlarında Oğuzxan oğullarının adında bunların Gün-xan, Ay-xan, Ulduz-xan şəklində görünməsi lulu kosmonimlərinin mənşəyi baxımından diqqəti çəkir.[168] Güney-Azərbaycanda İştar-İnanna tanrıca adının yerli dildə qarşılığı bəlli olmasa da, lulu boylarının dilində *kiur* iyəadı vardı.[169] Asur yazısında «tanrı» kimi verilən bu *Kiur,* urartu yazısında *Quera* tanrıadı kimi qeyd olunur.[170] Bu tanrı-iyənin «ildırım iyəsi» olub, hunlarda *Quər* şəklində işlənməsi M. Kalankatlının «Alban tarixi» kitabından bəllidir.[171]

---

[167] «Anubanini şarru dannum şar Lullubium şalamşu u şalam İştar ina şadium Batir uşzir sa salmim annim u dubba şuatam uşazaku Annum u Annatum, Bel u Bellit, Adad u İştar, Sin u Şamaş ...lum» (Алиев, 1960, 82); Anubaninin bu yazısında Göy, Yer, Venera, Ay, Gün tanrılarının sıralanması göstərir ki, lulu boyları öncə Göy tanrısı *Tenqiri,* sonra isə Yer (Yer-Sub?), Ulduz, Ay, Gün iyələrinə önəm vermişlər.

Sonralar Pomponiy Mela (I əsr) amazonka yurdunda «gunaykokratumen» (Gün-Ay, Gök-Yer atum) boyundan bəhs edir, hun bəyi isə özünü «Göyün-Yerin doğduğu, Günün-Ayın hakimiyət verdiyi böyük hun şanyuy» adlandırır (АИОСК, 1990, 100, 228).

[168] A. N. Bernştam «verimlilik», «bərəkət», «sevgi» ilahəsi *İştar* ilə *Ay-kağan* və ocaqev hamisi *Humay* arasında uyğunluq axtarmışdır (Бернштам 1935, 35-36); Lulu «panteonları» sırasmda İştar Ay-kağana daha yaxındır. Oğuz dastanının uyğur variantında Oğuzu doğan Ay-kağandır: *Ay-Kağanun közü yarıb boradı, erkək oğul toğurdu.*

[169] Меликишвили, 1954, 127-128; Алиев, 1960, 83.

[170] pilie agubie mâtu ebanie âlu Alia bedini $^{d}$Queraina taramana bedini «*Alia şəhəri tərəfindən, (tanrı)* ***Quera*** *taramanı səmtindən ölkəyə kanal çəkdim*» (Мещанинов, 1978, 298).

[171] Алб.Т, 1993; Сеjидов, 1989, 387.

Lulu bəylərinin barelyefində onların qurşaqdan aşağı yüngül tunik (don) geydiyi görünür. Biri kəmərin altına bıçaq, digəri balta keçirmişdır. Hər ikiksinin boynundan muncuq asılıb və başlarında kəmərli papaq vardır. Anubaninin ayağında yüngül başmaq aydın seçilir. Onun başı üzərində görünən *səkkizguşəli* ulduz İştarın emblemi ola bilər. Lulu geyimi gələnəksəl olaraq, Mana və Mada çağının geyim kulturunda təkrarlanır. Naram-Suenin «zəfər» barelyefində lulu əsirlərinin görkəm və geyimi aydın seçilir:



NARAM-SUENİN «ZƏFƏR» YAZISI BARELYEFİ

Sağa çıxarılmış şəkildə çiyninə dəri atmış lulu əsirinin arxadan hörüklü saçı və qısa saqqalı var

Lulu və Qut dövlətləri dağılandan sonrakı, m.ö. II minilin əvvəllərinə aid qaynaqdakı *çoxlu lulubi bəyləri* deyimi artıq lulu-qut boylarının kiçik bəyliklərə ayrıldığını bildirir. Ola bilsin ki, Azərbaycanın müxtəlif bölgələrində Mana elinə qədər çoxsaylı bəyliklərlə yanaşı, kiçik dövlətlər də vaxtaşırı qurulub dağılmışdır. Belə ki, «bəylərbəyi» titulu daşıyan lulu elbəyi haqqında Boğazköy arxivində bəlgə vardır. Hurri dilində olan bu yazıda *«İmmaşqun, Lulu ölkəsinin çarlar çarı»* ifadəsi işlənmişdir.[172] Bu elbəy müəyyən çağda lulu, qut, turuk, kuman və ya başqa boyların Lulu ölkəsində birləşmiş qüvvələrinə «çarlıq» etsə də, bu dövlət haqqında qaynaqlarda əlavə məlumat yoxdur.

Lulu elinin ömrü az oldu, lulu boylarının tarix boyu qoyduğu izlər isə günümüzəcən yaşadı.[173] Belə ki, hun sülaləsi adında görünən *lulu* adını Anadoluda bəzi yarımköçəri boylar daşımışdır. Bu gələnək Azərbaycanın müxtəlif guşələrində işlənən yer-yurd və şəxs adlarında davam etmişdir.

---

[172] AT, 1994, 68; AT 1996, 37; Q. A. Melikişvili isə bu elbəyin adını *İmmaşkuş* şəklində verir (Меликишвили, 1954, 130).

[173] Lulu-Qut eli çağından bəlli olan *Qaradağ* (Qardak) yeradında olduğu kimi, II Sarqonun vaxtında qeyd olunan lulu toponimi *Kullar* dağadı bugünə qədər *Kollardağ* şəklində yaşayır (ТУ, 117; Bax: II Bitik, «Sarqonun yürüş marşurutu»); Astara bölgəsində Hamoşam kəndi yaxınlığında «Lulum yeri» toponimi də diqqəti çəkir (AT, 1996, 38).

Lulu soyadını Misirin xəlifə ordusunun başçısı Manqu Tekini 993-də özünə müttəfiq edə bilən Hələb türk ordu komandanı *Lulu* və Mosul Atabəyləri dövlətinin son illərində faktiki hakimiyəti ələ alan Bədr əd-Din *Lulu* (1220-1234) daşımışlar.[174] Bu adın *luar* (lu-ər) variantı ilə ortaya çıxan *lor* (lur) etnoniminin qədim formasına Göycə gölü hövzəsində Urartu çağından rast gəlmək olur.[175]

Lulu boylan ilə bağlı verilən adların etimoloji yozumu üzərində də dayanmaq lazım gəlir, çünki bugünəcən lulu sözləri və adları haqqında söz deyənlər türk dilindən yan ötmüşlər. Öncə, *lulubi* adındakı *-bi* şəkilçisinin qədim Azərbaycanda türk etnonimlərinə qoşulub, cəmlik bildirdiyini bir daha xatırlayaq. Onun protoazər dilində aktiv işləndiyini nəzərə almayan araşdırıcılar mixi yazıdakı lulu adlarını yanlış yozurlar. Yanlış oxuma ilə *Anubanini, Siduri, Satuni* kimi qondarma «lulu» adları və bəzi adların *İmmaşkuş/İmmaşqun, Lişirpirini/...birini/Tardunni* kimi variantları ortaya çıxmışdır. Anubani adının etimologiyasını G. G. Kameron və İ. M. Dyakonov akadca «*Bizi yaradan tanrı Anu*» anlamı ilə vermişlər.[176] Lakin AN-nu şəklində yazılan adın ilk hissəsi bu ehtimalı doğrultmur.[177]

Bu adın qədim türkcə *anuq* «hazır» sözünün kökü olan *anu* «hazırlanmaq» və *ban* «bən» əvəzliyi ilə yaranıb, «hazıram» (Anu-ban) anlamı daşıdığını düşünmək olar. Lakin türk törəsinə görə, elbəy seçiləndən sonra onların çox vaxt ləqəb və titul bildirən adla tanınmasını nəzərə alsaq, *Anar* və ya *Anlı* («ünlü», «məşhur») adlarının başında gələn qədim *añ* köklü sözlər diqqəti çəkir.[178] Belə ki, Anubani adının *annamaq* «anlamaq» sözü ilə açımı daha gerçək görünür. Bu halda, *anla- > anna-, qanlı > qannı, enli > enni* dəyişmələrində olduğu kimi *An-lu-ban* («ünlü-

---

[174] Abû'l-Farac , 274, 533.

[175] Urartu yazısında *Luer-uni, luer-uxi* kimi verilən *luər* boyuna aid Tulu şəhərinin bəyi *Tsinalibi* (Çin Alp) adlanırdı (Меликишвили, 1954, 116; Мещанинов, 1978, 372).

[176] Дьяконов, 1956, 102.

[177] İ. M. Dyakonovun özü də qeyd edir ki, bu ad akadca olsaydı, *AN-banini* və ya *Anum-banini* şəklində yazılmalı idi. Anubani adının da «Kutı çarı» sumer epik əsrində adı keçən *Dingir-banin* şəxs adı kimi oxuna bilməsini xatirladan Y.Yusifov, haqlı olaraq, Anubani yazısının özündə sumer tanrı adının akadca *Annu* deyil, *Annum* şəklində yazıldığını vurğulayıb, *Anubani* adında həmin tanrı adını axtarmağı yanlış sayır. O bu adın subar dilində *ene* «tanrı» sözü ilə başlana bilməsini də istisna etmir (Юсифов, 1987, 35); Türk onomastikasında Banu sözü qadın adlarında işlənir. Bu baxımdan, Urartu tanrıcası kimi verilən *Arubani* tanrıcasının adı (*arı-banu* «təmiz xatun») və onun Dərəbəy qalasından tapılan (m.ö. VII-VI əsr) tunc heyəli diqqəti çəkir (ИИН СССР, 107).

[178] Erol, 1989, 14.

bən») tərkibi ilə yaranan *Anluban >Annuban* əvəzlənməsini və elbəy adına yaraşan «Ünlü adam» anlamını görürük. Anubani yazısmda *Batir* dağının adını *Padin* ilə müqayisə etmişlər.[179] Halbuki, sonralar Manada yarımköçəri *padar* boylan ilə bağlı $^{KUR}$Paddira, $^{URU}$Padira toponimləri təkrar olunmuşdur.[180] Naram-Suenin «zəfər» yazısında bəzi işarələr pozulduğu üçün lulu adının yazıldığı sətir çətin oxunur. Ona görə də, həmin cümləni müxtəlif şəkildə bərpa edib, müxtəlif anlamda oxuyurlar.[181]

1) Si-dur-[ru(?) şu] sa-dù-ì Lu-lu-bi-im$^{ki}$ ip-hu-ru-[ma]
«*Sidur*[*ru*] *Lulubum dağlılarını topladı*» (İ. M. Dyakonov)

2) A[...] Si-dur u Sa-tu-ni Lu-lu-bi-im ip-hu-ru-ma [...
«[...] *Siduri və Satuni Lulubili birləşdilər...*» (Y. B. Yusifov)

Göründüyü kimi, mətndəki *sat* (şad) sözü bir yerdə akadca «dağ» anlamında *şadû* şəklində oxunub «dağlı» kimi verilmiş, o biri oxunuşda isə bu söz lulu bəyinin adı kimi (*Satuni*) bərpa olunmuşdur. Məncə, bu söz ikinci hecası pozulmuş ada qoşulub, titul bildirir (*A...sidur şad*) və mətn belə bərpa olunub oxuna bilər:

A[...]-si-dur-u şa-du-i Lulubim$^{ki}$ ip-hu-ru-[ma]
« *A...sidur şad luluları topladı*»

Lulu adı kimi elmi ədəbiyatda verilən Adasi, Bazay, Libay, Lulay və sair şəxs adları türk antroponimlərinə aid modellə düzəlmişdir. Belə ki, oxşar Ağası, Baz-kağan, Bozay, Qaçay, Xasay adları bugün də azər xalqı içində işlənir. Bu adlarda işlənən «ay» sözü Nuzi (Kərkük) arxiv sənədlərində adı keçən *Tarminay, Tulbunay* qız adlarında da vardır.[182] Bunlar tədqiqatçıların dediyi kimi, hurri qızları olsalar belə, adları türkcədir.

---

179 F. Deliçə əsaslanan İ. Əliyev *Batir* dağadının sonrakı mənbələrdə adı keçən Padin, Padan ilə eyni olduğunu güman edir (Алиев, 1960, 82); İ. M. Dyakonov isə əski Akad imlasına görə, BA.Tİ.İR yazılıb, Pa-di-ir (*Padir*) kimi oxunan bu adın elamca *-ir* şəkilçisi ilə *Pad-* kökündən yarandığını yazır (Дьяконов, 1956, 102); Fikir doğrudur, lakin burada «elam dili» əvəzinə «türk dili» deyimi işlənməlidir, çünki bu dağadı etnotoponimdir və bugün də azər türklərinin yarımköçəri *padar* boylarının adında yaşayır.

180 ТУ, 156.

181 Меликишвили, 1954, 128; Дьяконов, 1956, 101; Юсифов, 1987, 28.

Yazarlar hurri dilinə uyğun gəlsin deyə, burada *Siduri, Satuni* adlarını oxumaq istəmişlər. Azərbaycan tarixçiləri də bu yazıda güya Sidur, Satuni adları keçdiyini təkrar etmişlər (AT, 1996, 37); Lakin nəzərə almaq lazımdır ki, hurri dilində (panteonunda) *Siduri* kişi deyil, qadın «Deva» obrazıdır (ИДВ, 1988, 84).

182 ИДВ, 1988, 75-76.

Laqaşa Lulu ərazilərindən aparılan əsirlər içində (Abum)-Balaq, Dingir-urmu, Baraq, Baraqzi, Aqsi, Aqilsa və sair adlar vardır.[183] Türk antroponimiyası baxımından asan izah oluna bilən bu adlar sırasında Adagaldi, Ada, adlarındakı «ata» sözü və ona qoşulan *damqar* (damğaçı) termini, *qaraş* sözünün həm antroponim, həm də termin kimi işlənməsi diqqəti çəkir. Tərkibi «lulu» sözü ilə başlanan adlardan bəzisinin subar adı kimi verilməsi də bəllidir.[184]

Beləliklə, ölkəadı olan *Aratta* toponim, *lulu* isə etnoqrafik termindir və buna görə də, «Artatta eli», «Lulubi eli» deyimləri alt qatda subar, qut, padar, turuk, kuman və sair türk boylarının tarixini əks etdirir. Bu baxımdan, *lulu* boyunun ayrıca etnos olmadığını vurğulayan İ. M. Dyakonov haqlıdır.[185]

Quzey-Ubeyd kulturunun yayıldığı Dəclənin orta axarı ilə Urmu gölü arası ərazilərdə yarımköçəri lulu boylarının yaşaması onu göstərir ki, hələ Ubeyd çağından bu boylar sumer mədəniyəti dairəsində olmuşdur. Belə ki, həmin ərazilərdə yaşayan əkinçi-maldar boyların içindən çıxan yarımköçəri toplum (*lulu* boyları) təşəbbüsü ələ ahb, Lulu elini qurmuşdu. Lakin mərkəzləşmiş hakimiyəti olmayan bu elin çox yaşaması mümkün deyildi. Onun yerində daha mütəşəkkil Qut eli yarandı.




[183] Струве, 1989.

[184] Gelb, 1944, 25, 66.

[185] ЯАИА, 1979, 38.

**Qut eli**

Lulu eli dağılan çağlarda Azərbaycanın güney-batı və güney qonşuluğunda siyasi durum gərginləşmişdi. Bu gərginliyi artıran səbəblərdən biri də «*dünyanın dörd yanının* (*səmtinin*) *hökmdarı*» titulunu daşıyan Akad çarı Naram-suenin ətraf ölkələrə, özəlliklə Lulubi ərazilərinə vaxtaşırı yürüşləri idi. Bu çağlarda Akaddan asılı vəziyyətə düşən Sumer ölkəsinin şəhər-dövlətləri arabir öz aralarında müharibə edirdilər. Elam ölkəsi də eyni vəziyyətdə idi. Baxmayaraq ki, lulu-qut boyları üzərində qələbə çalması ilə öyünən Elam çarı ilə Naram-Suen arasında dünyada ilk yazılı müqavilə imzalanmışdı, ancaq bu qardaşlıq müqaviləsində Elam «kiçik qardaş» idi, çünki burada «*Akadın dostu mənim dostum, düşməni mənim düşmənimdir*» bəndi vardı. Akad çarının möhtəşəm titulu qarşısında elam çarı «Suz *işşiakkumu* (ensi) və Elam *şakkanakkumu* (şaqana)» ünvanı daşıyırdı.[186] Beləliklə, Sumer kimi, Elam da Akaddan asılı vəziyyətə düşmüşdü. Azərbaycanın güney-batı əraziləri isə m.ö. III minilin son çağlarında akad-elam ordularının vaxtaşırı tapdağı altında qalırdı. Lulu elində mütəşəkkil dövlət qurumu yaranmadığı üçün lulu elbəyləri xalqı o çağın güclü Akad, Elam dövlətlərinin təcavüzündən xilas edə bilməyib, siyasi arenadan çəkilməli oldu. Onları daha təpərli qut bəyləri əvəz etdi.

Lulu elbəylərinin hansı boydan olduğunu bilmirik, lakin Lulu elindən sonra ortaya siyasi iradə qoyub, təşəbbüsü ələ alan bəylərin lulularla eyni etnik soydan olan qut boyundan çıxması bəllidir, hətta, bəzi yazarlar lulu elbəyi Anubaninin guya sonralar qut elbəyi kimi çıxış etdiyini vurğulayır.[187] Heyvandarlıqla yanaşı, əkinçilik və başqa sənətlərlə məşğul olan qut boyları yarımköçəri dağlı lululardan fərqli olaraq, oturaq və yarımoturaq həyat tərzinə malik idi. [188]

---

[186] ИДВ, 1983, 258.

[187] Cameron, 1936, 41; Дьяконов, 1956, 102 (5-ci qeyd); AЗA, 111-112.

[188] A. Leo Oppenheym yazır ki, qut dili haqqında bildiyimiz yalnız bir neçə söz və yüzil boyu Akad üzərində hökmranlıq edən *qut* elbəylərinin adıdır (Oppenxeym 1990, 301); Lakin E. A. Speyser və V.V. Hallo kimi yazarlar yanlış olaraq, qutların kürd olduğunu güman etmişlər (Speiser, 1930, 96-119; Hallo, 708-720); Doğrudur, etnoqrafik «*köçəri*» anlamında *kürd* termini türk, macar və sonradan fars dili təsirinə uğrayan bəzi boylara verilmişdir, lakin *qut* adının etnik anlamda bugünki farskökənli kürdlərə şamil edilməsi isə mümkün deyil, çünki iran (ari) boyları qədim fars dilini qut ərazisinə qut tarixindən 1500 il sonra gətirmişlər və elmdə çoxdan bəlli olan bu gerçəkliyə qarşı heç bir alim çıxış etməmişdir.

Birinci ad (*lulu*) etnoqrafik termin olub, *tərəkəmə, kürd, yörük* kimi yarımköçəri elatı bildirir, ikinci ad (*qut*) isə *turuk*, *qaşqay* və sair etnonimlər kimi konkret bir boyun adıdır. Əgər toponim kimi *Aratta* ölkəadı və etnoqrafik termindən yaranmış *Lulubi* ölkəadı bu ölkədə yaşayan konkret boyların adını görməyə mane olurdusa, artıq Qut elinin adı erkən dövlətlərdən birini quran *qut* boyunu bizlərə tanıdır. Qısa bir zamanda konfederasiyaya qoşulan müxtəlif boyların ümumi adına çevrilən *qut* adı Qut eli dağılandan sonra da hələ uzun müddət bu funksiyanı daşımışdır.[189]

Qut eli qurulandan 20-25 il sonra artıq bütöv regionda stabillik təmin olunmuşdu.Yalnız Azərbaycanı yadelli orduların tapdağından xilas etməklə kifayətlənməyən qutlar sumer xalqının da köməyinə yetişib, onları Akad zülmündən qurtardı. Akad və Elam ordularını məğlub edən qut elbəyləri bu dövlətləri də özünə tabe etdi və Qut eli qurulandan az sonra ərazisinə və Ön Asiyada nüfuzu altında olan ölkələrə görə tarixdə ilk **Türk İmperiyası** oldu.[190]

Qədim Ön Asiya tarixində bir əsr ömrü olan bu imperiya çağında regionda iqtisadi və mədəni inkişaf üçün yaranan siyasi stabillik diqqəti çəkir. Bir əsr boyunca arası kəsilən müharibələr Qut eli dağılandan sonra yenidən başladı. Öncə sumerlər, sonra yeni yaranmaqda olan asur bəyləri ətraf bölgələrə, o cümlədən Azərbaycana yürüşlər etdi, elam xalqı da gah qonşularının hücumuna məruz qaldı, gah özü qüvvə toplayıb, yürüşə çıxdı.

---

[189] Дьяконов, 1956, 104.

[190] Nə yazıq ki, ucsuz-bucaqsız məkanda arası kəsilmədən TARIX yaratmış türk etnosunun öz içindən bir neçə tarixçi yetişmədi, yalnız saz-qopuz çalıb, bu tarixi gerçəkləşdirən igidlərə dastanlar qoşdular, türkülər oxudular. Bir əlində qılıc, bir əlində qələm tutan elbəylər də qurduğu elin tarixini yox, məhəbbət şeirləri yazdılar. Uca türk milləti dövlətlər qurub, tarix yaratdı, bu tarixi onun əlindən yabançı ordular deyil, əli qələm tutan ağıllı rahiblər aldı. Babalarımızın qurduğu dövlətlərin çoxundan xəbərsiz qalmışıq. Deyəndə ki, filan əsrdə filan dövlətimiz oldub, nəinki savadlı aydınlar, hətta bəzi «tarixçilərimiz» də gözünü döyüb, adama şübhəli baxır.

Nə yaxşı ki, yabançı alimlər, «qeyri-türk» adı altında olsa da, bu dövlətlərin tarixini arayıb-araşdırır. Belə dövlətlərdən biri də Qut elidir. Bu dövlət haqqında «Azərbaycan tanrixi» kitablarında, hətta orta və ali məktəb dərsliklərində ötəri də olsa, məlumat verilir, çünki Qut Eli Azərbaycanda yaranmışdır. Qədim Dünya tarixində analoqu olmayan Qut elinin qurulma tarixinin yubiley ili idi: «Qut elinin 4200 illiyi» XX əsrin son 2000-ci ilinə düşür. Bu yubileyi qeyd etmək haqqında dəfələrlə mətbuatda məsələ qaldırdım, lakin nə yüxarıdakılardan, nə də siyasi partiya və ictimai təşkilatlardan bir səs çıxmadı. Mənim də gücüm yalnız buna çatdı ki, bu il çap olunan «Azər xalqı» kitabıma bu dövlət haqqında ayrıca yazı əlavə edib, kitabı «*Qut Elinin 4200 illiyinə*» ərməğan etdim.

Qut boylarının qurduğu **Qut Eli** qədim Dünya tarixində bənzəri olmayan bir dövlətdir. Qut eli dünyada ilk **demokratik** (!) qurumlu dövlət idi; Sumer, Akad, Elam kimi böyük dövlətləri özünə tabe edə bilən bu dövlətin vaxtında yüzil boyunca bütöv regionda stabillik hökm sürdü; vaxtilə ümumiləşdirici mahiyət daşıyan *subar* və sonrakı *saqa, hun, türk, oğuz, qıpçaq* etnonimi kimi, 1500 il ərzində *qut* adı bəzi hallarda Dəclə-Urmu hövzəsində türklərin ümumi adına çevrilə bildi, yalnız Qut eli dağılandan sonra *subar*, *lulu*, *kuman, turuk* və başqa adlar *qut* ilə yanaşı işləndi.

Qut elinin əsas yaranma səbəbi ölkəni çapıb-talayan elam-akad ordularına qarşı dura bilən qüvvənin bir araya gətirilməsi ehtiyacı idi. Belə ki, aqressiv xarakteri və mütəşəkkil əsgəri gücü olan Naram-Suen lululuların qüvvəsini sındırmışdı. Onun «zəfər» abidələri bunu açıq göstərir. Kərkük bölgəsində toparlanan müxtəlif boyların başçıları birləşib, qut boyundan olan Enridavaziri başbuğ seçdilər. Bu, uğurlu seçim idi. Başbuğ birləşmiş qüvvələrlə akadların üzərinə yeridi və bu döyüşdə 36 il hakimiyətdə olan «dünyanın dörd yanının hökmdarı» Naram-Suen öldürüldü. Enridavazir bu qələbəni akadların əlində olan sumer şəhəri Nippurda daşa həkk etdirib, zəfər yazısında özünün tituluna Naram-Suenin illərlə daşıdığı ünvanını əlavə etdi: «*Qut çarı, dünyanın dörd yanının hökmdarı*». Akad ordusu ilə «umman-manda» (qut) arasında m.ö. 2202 və ya 2201-də olan bu tarixi savaşda qutların qələbəsinin psixoloji təsiri daha böyük idi.[191] Uruk şəhərini Aratta çağında sami mühasirəsindən qurtarmağa gələn arattalıların qut ölkəsindən gəlməsi sumer eposunda əks olunduğu kimi, qan yaddaşında da qalmışdı. Sumerlər Güney İkiçayarasına girən qut əsgərlərinə Akad despotundan onları xilas edəcək qüvvə kimi baxırdılar. Bir neçə il vuruşub, akadları tam yenəndən sonra qutlar bütöv Sumerə sahiblik etdilər.

Naram-Suenin oğlu Şarkalişarri (2201-2177) atasının yerini tutsa da, artıq «dünyanın dörd yanının çarı» titulundan məhrum olmuşdu. Bacardığı qədər qutlara dirəniş göstərən, hətta savaşların birində *Sarlaq* adlı qut bəyini əsir alan bu Akad çarı atasının ona verdiyi *Şarkalişarri* «çarlar çarı» adının mənasını doğrulda bilmədi. Bir müddət Babil ətrafında mövqeyini möhkəmlətsə də, sonra İkiçayarasının quzey-batı istiqamətinə çəkilib, burada subar boylarından qalmış *Basar* bölgəsini (indiki Gəbəl-Bişri) tutdu.[192] Əvvəlki hegemonluğunu itirmiş Akad artıq Qut elinə tabe olan

---

[191] Дьяконов, 1956, 110.

[192] ИДВ, 1983, 253.

kiçik bir dövlətə çevrilmişdi. Dudu adlı çardan ta 2137-də ölən son çar Şu-Turula qədər hamısı qut elbəylərinin Akadda canişini idi.




Elamı əlində saxlayan Naram-Suen öləndən sonra buradakı Avan bölgəsinin çarı I Kutik-İnşuşinak «dünyanın dörd yanının çarı» tituluna iddia edirdi. Lakin qutlar onu da yerində oturdub, Elamı Qut elindən asılı ölkəyə çevirdi.[193] Beləliklə, öncə Urmu gölü ilə Kərkük arasında yaranıb, Azərbaycanın güney-batı bölgələrini əhatə edən Qut eli bir müddət sonra Sumer, Akad, Elamı da bu dövlətin sınırları içinə aldı. Qut elinin batı və güney siyasi-coğrafi sınırları bu sadalanan dövlətləri əhatə etdiyindən bəlli təsəvvür yaranır, ancaq onun quzey və doğu sınırları haqqında yazılı bəlgə yoxdur. Lakin IV-III minilliklərə aid arxeoloji kultur uyğunluğu bu

---

193 ИДВ, 1983, 253.

sınırların da quzeydə Van gölü ilə Araz çayı yaxalarına, doğuda Xəzər yaxalarına, güney-doğuda Tehran-İsfahan xəttinə uzandığını göstərir. Bu xətt üzərində yerləşən Kaşan bölgəsi (*Sialktəpə* abidələri) Elamı da içinə alan dairənin guney-doğu sınırını təşkil edirdi. Xəritədə verilən dairə Qut elinin, qırıq xətli dairə isə ona tabe olan dövlətlərin ərazisini bildirir.[194]

Qutların geniş ərazisi və sayca çox olmasını qaynaqlar daima yad edir. Bunun səbəbi *qut* adının başqa boyları da bildirməsi idi.[195] Bu ad altında qohum boyların olması o çağın arxeoloji kulturunda aydın görünür. Arxeoloji kultur baxımından, Qut eli Tunc dövründə İkiçayarası mədəniyəti ilə ayaqlaşa bilmədi. Baxmayaraq ki, Qut eli ərazilərində arxeoloji abidələrin, əkinçi-maldar kulturunun tarixi daha qədim və təsərrüfatın inkişafı daha öndə idi, ancaq III minilboyu Elam və İkiçayarası, özəlliklə, Sumer əkin üçün süni kanal şəbəkələrinə görə və şəhərləşmə sahəsində çox irəli getmiş, Qut dağlarını arxada qoymuşdu.[196]

III minillikdə İkiçayarası və Azərbaycanda fərqli sosial-siyasi durumun formalaşması, əslində, fərqli yollarla iqtisadi inkişafa yön verən coğrafi mühitin tələbinə uyğun təsərrüfat növünün önə çıxması idi. İkiçayarasında əkinçiliyin, Azərbaycanda isə heyvandarlığın önə çıxması birincidə şəhərləşməni, çoxtanrı, məbəd tikmə, yazı kulturunu və quldarlıq qurumunu, o birində isə yaylaq-qışlaq yaşamını, keramika, metalişləmə sənətini, kosmik kultlar, təktanrı və iyələr, damğa kulturunu, fərdin azadlığını inkişaf etdirdi. İkiçayarası mədəniyət tipinin təsir dairəsinə düşən türk boylarının Dəcləyaxası bölgələrində isə hər iki kultur dəyərlərin sinkretizmi vardı.

Qut elinin yarandığı ərazinin etnik durumu haqqında arxeoloji qaynaqlar müəyyən imformasiya verir. Belə ki, azər türkləri kimi aralıqdənizi antropoloji tipinin kaspi çaları ilə qonşu elam, sumer və akadlardan

---

194 Qutların Luristana yaxın ərazidə olması; Anubani anıt yazısı olan Padir dağını güney lulu sınırı sayıb, qutların onlardan doğuda yerləşməsi; Tirikan-qalasının (Bad-Tirikan) qaynaqda «qut ölkəsinin önü (qənşəri)» deyiminə görə, Dəcləyə yaxın olması söylənmişdir (Дьяконов ,1956, 104, 117; АЗА, 112; Оппенхейм, 1990, 301; Balkan, 1992, 37).

195 Əgər Qut eli çağında bir çox boyların adı *qut* etnonimi altında «örtülü» qalırdısa, bu el dağılandan sonra o biri boyadları görünməyə başlayır. XIV əsr asur yazılarında qut, lulu, subar, kutmux, turuk adları yanaşı çəkilir, XIII əsrdə kuman (*ukuman*) adı bu sıraya əlavə olunur (Дьяконов, 1956, 135).

196 ИИ, 1977, 20.

seçilən qut-lulu boyları dəfnetmə adətinə görə də qonşulardan fərqlənirdi.[197] Sumer, Elam və Akad basırıqlarında görünən uzanıq ölübasdırma adətindən fərqli olaraq, onların bükülü basdırma gələnəyi III minildə də davam etmişdir.[198]

Qutlar eneolit çağındakı «boyalı-naxışlı keramik qablar» kulturuna sahib idilər.[199] Qut elinin sınırları içinə daxil olan bölgələrdə eyni arxeoloji kultur kiçik lokal fərqlərlə yayılmışdı və bölgələr arasında sıx əlaqə vardı. Qut elinin yaranma dövrü Kür-Araz kulturunun son çağlarına düşür və Urmu yaxasında III minilin möhtəşəm Göytəpə abidəsi qutların mərkəz bölgəsini, ***Sialk*** abidələrinin yarandığı Qəzvin-Tehran-Kaşan üçbucağı isə güney-doğu sınırlarını təşkil edirdi.[200]



**Sialk III** kompleksi (Массон 1989, 123)

Lulu-Qut elləri qurulandan hələ minil öncə, IV minillikdə Urmu gölü hövzəsi metallurgiya və dulusçuluq sahələrinin inkişafı ilə seçilir.[201] Belə bir inkişaf sənət əsərlərində də qabarıq görünür. Belə ki, uzmanların qut bəylərinə aid etdiyi heylələr (tunc büstlər) Güney-Azərbaycanın Hə-

---

[197] Mada tarixini yazan İ. M. Dyakonov Sialk, Göytəpə və sair abidələrə əsasən, yerli əhalinin avropoid irqin aralıqdənizi tipinə aid olduğunu və hələ yüzil öncə fransız antropoloqu E. T. Haminin lulu və qutları azər türkləri, özəlliklə, qarabağlı (Şuşalı) azərlərlə eyni tip saymasını qeyd edir (Дьяконов, 1956, 97, 116).

[198] Bükülü basdırma gələnəyi bu çağda əksər bölgələrdə (Qiyantəpə IV, Sialk III və s.) davam etmişdir (АЗА, 98, 110).

[199] ИДВ, 1983, 255.

[200] Quzey Ubeyd kulturunun lokal variantları Urmu hövzəsi üçün xarakterikdir. Mosul bölgəsində *Qavratəpə* abidəsi ilə *Püşdəlitəpə* abidəsi arasında genetik əlaqə keramik qabların geometrik naxışlarındakı paralellikdə aydın görünür (Массон, 1989,125); Hələ V minilin sonunda boyalı keramikası ilə seçilən Sulduz düzündəki *Dəlmətəpə* abidəsi İkiçayarası quzeyindəki *Yarımtəpə* ilə eyni xarakter daşıyır (Энеолит СССР, 121-122).

[201] АЗА, 90.

mədan bölgəsində və Urmu hövzəsində tapılmışdır.[202] Bu qədim türk sənət əsərləri sayılan bədizlər indi Nyu-Yorkda *Bremmer* qalereyasında saxlanır.





**Qutlara aid sağdakı tunc bədiz Urmu-Van gölləri arasında, Qut elbəyinin soldakı tunc bədizi isə Həmədanda tapılmışdır.**

(Дьяконов 1956, 115-117)

IV minilliyin ikinci yarısına aid *Qavratəpə* abidəsinin damğa - möhürləri çox aydın göstərir ki, Mosul bölgəsində hələ minil öncə lulu-qut boylarının ulu babaları şəxsi mülkiyət formasına keçmişdi. Hər bir heyvandar ailənin, soy və boyun damğası vardı. Sonrakı minillərdə türk elatları ilə geniş ərazilərə yayılıb, son vaxtlara qədər davam edən soy və boy damğa bəlgələri, özəlliklə, qayaüstü rəsmlərdə sərgilənən və ***Qavratəpə*** çağından bəlli olan bu «təkə» damğaları Ön Asiyadan tutmuş Baykalacan hər yerdə türklərin «pasportu» kimi görünür.[203]

Lulu-Qut eli çağında təsərrüfatda elə bir sistem formalaşmışdı ki, bugün də onların yaşadığı ərazilərdə yarımköçəri türk boyları yaylaq-qışlaq yaşamı ilə heyvandarlıq təsərrüfatında həmin sistemi davam etdirir. Güney-Azərbaycanda qaşqay, bəxtiyar və sair türk boyları bu gələnəyi minillər boyu saxlaya bilmişdir. Lulu-qut çağından heyvandarlıqla qul əməyinin bir araya sığmaması türk toplumunda quldarlıq qurumunun yaranmasına zərurət doğurmamışdır.



Qavratəpə arxeoloji kulturanda XIII-XI qatda tapılan IV minilin ikinci yarısına aid möhürlər

(ИДВ, 1983, 82-83)

---

[202] Дьяконов, 1956, 115-117.

[203] Belə rəsmlərin tipologiyası «I Bitik»də geniş verilmişdir. Qutların mifoloji, astraloji görüşləri İkiçayarasındakı əhalinin inanclarından fərqlənirdi. Keramika üzərindəki geometrik naxışlar, təkə, bars və ilan şəkilləri, həyat ağacı, su və bərəkət simvolları, özəlliklə, qut ərazilərində geniş yayılmış «taleh» anlamlı göy-tanrı və ulduz simvolu *dönərgə* (svastika) damğası diqqəti çəkir. Dönərgə simvolu bugün də «ulduzu söndü» deyimilə azər türklərinin mifoloji yaddaşında qalmışdır.

İkiçayarası dövlətlərdə çar, məbəd və varlı ailələr üçün işləyən qulların hüququ ilə Qut elində hər bir yoxsul fərdin özəl mülkiyət hüququ arasında köklü fərqlər vardı. Hər iki bölgədə müxtəlif mifoloji, etnoqrafik, əxlaqi, kultur və müxtəlif milli-etnik dəyərlər üzrə gedən inkişaf müxtəlif sosial qurumların və siyasi-iqtisadi münasibətlərin formalaşması ilə nəticələnmişdi.[204]

Beləliklə, bəzi sahələrdə İkiçayarası mədəniyyətindən geri qalan Qut eli müəyyən sahələrdə ondan irəlidə idi. Bu baxımdan, «qut» qanunları ilə Elam, Akad, Sumer ölkələrini yüzil idarə etmək asan deyildi. Qut elinin ilk və son çağlarında güclü qarşıdurma olaylarının səbəbi fərqli mədəniyət idi. Qut eli haqqında əsas qaynaq mixi yazı ilə bir neçə nüsxədə qalmış «Çarlar siyahısı» (*King list*) adlanan yazıdır. Qut dövləti dağılandan az sonra sumer dilində yazılan bu siyahıda İkiçayarasında hakimiyətdə olmuş «sülalələr» sıralanıb sadalanır.[205] Lakin bu sıradakı «Qut sülaləsi» o çağın mirzələrini çaşdırdığı kimi, sonrakı tədqiqatçılar üçün də problem yaratmışdır. Belə ki, digər sülalələrin müxtəlif illərlə davam edən irsi hakimiyətindən fərqlənən qut elbəylərinin seçimlə hakimiyətə gəlib, onlara ayrılan hakimiyət ili tamam olanda hakimiyətdən getməsi, ya yeni müddətə seçilməsi tarixşünaslıqda yanlış yozumlara yol açmışdır. Siyahıda Akad sülaləsi ilə II Laqaş sülaləsi arasında verilən «Qutların hakimiyəti» müxtəlif nüsxələrdə «*kim çar idi, kim çar deyildi*», «*bir çarın*

---

[204] Qutların hakimiyəti çağında sumercə *qúruş erén-a du* deyimi gənclərin tikinti, kanal, tarla işlərinə cəlb olunması kimi başa düşülür və «*gənclərin işçi dəstəyə qoşulması*» kimi verilir (ИДВ, 1983, 253-254); Lakin qut çağında bu deyim daha çox «*ərənlərə qoşulan gənclər*» anlamına uyğun gəlir, çünki burada sumercənin *ere(d)* «qul» yox, *eren* sözü işlənib, Qut çağında sumer gənclərinin qut *ərənlərinə* qoşulması vurğulanır.

[205] İDV, 1983, 488; Kiçik fərqlərlə Qut bəylərinin adı və hakimiyət ili sıra ilə siyahıda belə verilir (Дьяконов, 1956, 107; Алиев, 1960, 155; Zöhtabi,۱۳۰): *İmta* (3 ya 5), *İngeşuş* (6), *Sarlaqab* (6), *Yarlaqaş* (6), *Elulumeş* (6), *İnimabakeş* (5), *İngeşuş* (6), *Yarlaqab* (15), *İbate* (3), *Yarlaqab* (3), *Kurum* (1), *Habilkin* (3), *Laerabum* (2), *İrarum* (2), *İbranum* (1), *Hablum* (2), *Puzur-Suen* (7), *Yarlaqanda* (7), *Sium* (7), *Tirikan* (40 gün).

Elbəylərin burada göstərilən hakimiyət illərini toplayanda 91 il 40 gün rəqəmi alınır. Lakin bəzi yazarlar qut dövrünə aid müxtəlif illər verir: Nippur nüsxəsinə görə, «124 il 40 gün» (Алиев, 1960, 177, 2-ci qeyd); «80-100 il arası» (AT, 1994,70); Bəzi yazarlar isə Qut tarixini üç-dörd əsr qədimə çəkir. Belə ki, Luis Halpenin redaktorluğu ilə çap olunan «Peule et civilisations» (I t. *Les promi. civilis*, s.93) adlı əsərdə başlanğıc tarix 2622-dən sayılır. E Meyer isə qut tarixini 2550-2374 arası verir ki, Ş.Günaltay da bu tarixi qəbul edib, qutların hakimiyət tarixini 132 ilə qaldırır (Günaltay, 1987, 342); Lakin İkiçayarasındakı başqa sülalələrin tarixi ilə müqayisədə dəqiqləşən xronologiyaya görə, 2109-cu il Qut hakimiyətinin son ilidir (Дьяконов, 1956, 114).

*adı siyahıdan düşüb*», «*qutların çarı yox idi, özü (İmta?) beş il çarlıq etdi*» deyimlərilə başlanır, 21 elbəydən 20-sinin adı və neçə il hakimiyətdə olması göstərilir. Bu illərin cəmi isə «*91 il 40 gün*» edir.[206]

| | | | | |
|---|---|---|---|---|
| 2203-2201 | Enridavazir | 2 il (?) | (?) | **6** illik seçim |
| **2200-**2198 | *nita* (özü) | 3(5) il | *yarımçıq* (?) | |
| 2197-2192 | İngeşuş | 6 il | tam | |
| 2191-2186 | Sarlaqab | 6 il | tam | |
| 2185-2180 | Yarlaqaş | 6 il | tam | |
| 2179-2174 | Elulumeş | 6 il | tam | |
| 2173-2169 | İnimabakeş | 5 il | ***1*** *il yarımçıq* | |
| 2168-2163 | İngeşuş | 6 il | tam | |
| 2162-2157 | Yarlaqab | 6 il | tam (6+6+3=15 il) | |
| 2156-2151 | « --- » | 6 il | tam | |
| 2150-2148 | « --- » | 3 il | tam | **3** illik seçim |
| 2147-2145 | İbate | 3 il | tam | |
| 2144-2142 | Yarlaqab | 3 il | tam | |
| 2141-2140 | Kurum | 1 il | ***2*** *il yarımçıq* | |
| 2140-2138 | Habilkin | 3 il | tam | |
| 2137-2136 | Laerabum | 2 il | tam | **2** illik seçim |
| 2135-2134 | İrarum | 2 il | tam | |
| 2133-2132 | İbranum | 1 il | ***1*** *il yarımçıq* | |
| 2132-2131 | Hablum | 2 il | tam | |
| 2130-2124 | Puzur-Suen | 7 il | tam | **7** illik seçim |
| 2123-2117 | Yarlaqanda | 7 il | tam | |
| 2116-2110 | Sium | 7 il | tam | |
| **2109 -** | Tirikan | 40 gün | *yarımçıq* | |

Qut elinin Sumer, Elam, Akad dövlətlərindən fərqini görmək üçün siyahıda elbəylərin hakimiyət ili sisteminə baxmaq lazım gəlir. Çünki bu sistemin verdiyi informasiyanı nəzərə almadan, qədim türk dövlətlərinin türk törələri ilə qurulmasını anlamaq çətin olur. Əsas qaynaq kimi burada «Qut çarlarının siyahısı» götürülmüş (2 və 3-cü sütun), onun əsasında 1, 4 və 5-ci sütun tərtib olunmuşdur.

[206] Hər elbəyin neçə il hakimiyətdə olması «siyahıda» verilmişdir, lakin hansı illərdə olmasını, yuxarıda deyildiyi kimi, tarixçilər ayrı-ayrı illərlə göstərmişlər. Elbəylərin hakimiyət illərinin sistemi (1-ci sütun) ilk dəfə «Azər xalqı» (2000) kitabında verilib.

Bu cədvəldə ilk diqqəti çəkən son sütundakı dörd müxtəlif seçim ilidir. Bugünkü terminologiya ilə desək, burada dövlət başçısı seçkisinin neçə ildən bir keçirilməsi əks olunmuşdur. Qut elinin bir əsrlik dövründə bu seçim müddəti üç dəfə dəyişmişdir: 6 illik elbəylik 2150-ci ildə yarıbarı (3 il) azaldılmış, 2137-ci ildə bu müddət 2 ilə salınmış, 2130-da seçkilərin vaxtı yenidən artırılıb, 7 il müəyyən edilmişdir.[207] Cədvəldə diqqəti çəkən ikinci məsələ 21 elbəydən dördünün verilən hakimiyət müddətini tez başa vurmasıdır ki, bunlardan yalnız sonuncu elbəy Tirikanın devrilməsi bəllidir, digər üç elbəyin hakimiyət dövrünün 1-2 il yarımçıq qalmasının səbəbi isə aydın deyil. İ.M. Dyakonov həmin elbəylərin savaşda və ya öz əcəli ilə öldüyünü mümkün sayır.[208] Bizcə, bunun ayrı yozumu da vardır, çünki savaşlar əsasən Qut elinin ilk və son çağında olmuşdur, orta çağlarda isə müharibələrin olması bəlli deyil, əksinə, bu dövrdə bütöv regionda stabillik vardı və bu duruma nəzarət də qutların əlində idi. Olsun ki, yüzil boyu 21 elbəy sırasında iki-üç yarıtmaz və ya törəni pozan elbəyi bu vəzifəyə, müasir terminologiya ilə desək, neçə seçmişdilərsə, eləcə də «impiçment» yolu ilə vəzifədən salmışlar.

İlkin qaynağın (*kinq list*) nüsxələrində və onlara əsasən qurulmuş cədvəldə mübahisə doğuran məsələlərdən biri Qut elinin ilk çağı ilə bağlıdır.[209] Bəzi nüsxədə «*kim çar idi, kim çar deyildi*» ifadəsi qutların yox, Akaddakı duruma və orada çarlığa iddia edən adları bəlli Akad bəylərinə aiddir. Qut elbəyi Elulumeşin vaxtında Dudu «Akad çarı» titulu ilə Qut elinin canişini olandan sonra Akadda vəziyət stabilləşir. Siyahıda «qut elinin çarı yox idi» deyimi isə təbiidir, çünki Lulu elindən sonra qut boyları Urmu hövzəsində dövlət qursa da, bunun İkiçayarasına dəxli yox idi, yalnız Sumeri özünə tabe edəndən sonra bu el «dövlət» kimi tanındı. Görünür, siyahıda birinci elbəy kimi verilən *İmta* adını başqa tədqiqatçılardan fərqli olaraq, *nita* («özü») kimi oxuyan A. Poebel haqlıdır, çünki akadları məğlub edəndən sonra yazısında özünü «Qut çarı, dünyanın dörd yanının çarı» adlandıran Enridavazirin statusu siyahıdakı «*özü 3 (ya 5) il çar*

---

207 Дьяконов, 1956, 108; Sual olunur, böyük bir imperiyanı idarə edən hakimiyətdə baş verən bu önəmli dəyişikliyin səbəbi nə idi və icra mexanizmi necə idi? Təəssüf ki, sualın birinci hissəsinə dəqiq cavab tapmaq mümkün deyil, lakin bir əsr boyu seçki müddətinin üç dəfə dəyişmə səbəbini yalnız gümanla «*idarəçilikdə ortaya çıxan hansısa problemin yüngülləşdirilməsi*» kimi yozmaq olar, ancaq ikinci sualın məntiqi cavabı budur ki, belə mühüm məsələlər «qurultay» statuslu toyda həll olunurdu.

208 Eyni qaynaq.

209 Jakobsen, 1939; ИДВ, 1983, 486-491; Крамер, 2002, 367.

*oldu*» deyimin məntiqinə uyğun gəlir. Bu halda, qaynaqdakı qut sülaləsinə aid bənddə «*bir çarın adı itib (düşüb)*» deyimi də aydınlaşır, çünki orada məhz Enridavazirin adı yox, «özü» əvəzliyi yazılıb. Əgər verdiyimiz bu yozum doğrudursa, onda Qut elinin başlanğıc tarixini belə bərpa etmək doğru olar: Lulu-qut boyları m.ö. 2203-cü ildə toplanıb, qut bəylərindən Enridavaziri orduya başçı (başbuğ) seçir, 2201-dəki uğurlu qələbədən bir il sonra (2000) qurultay faktiki olaraq, üç il başbuğ olmuş bu bahadırı elbəy seçir. Beləliklə, bu olaydan bir əsr sonra siyahını yazan sumer mirzələri öncə çarları olmayan qutların ilk çarı Enridavaziri nəzərdə tutub, «*özü 3 ya 5 il çar oldu*» ifadəsini işlətmiş, onun adı yazılmadığı üçün siyahını köçürən mirzə elbəylərin bəlli 21 sayı düz alınsın deyə, «*bir elbəyin adı itib*» deyimini əlavə etmişdir.[210]

Siyahının verdiyi əsas informasiya isə budur ki, ətrafdakı oturuşmuş dövlətlərdən fərqli olaraq, Qut dövlətində hakimiyyətə gəlmə irsi deyil, seçki yolu ilə gerçəkləşmişdir. Akadda despotik monarxiya və bu rejimdən o qədər də fərqlənməyən, qulların sayına görə isə Elamı, Akadı arxada qoyan teokratik Sumer dövləti olan bir regionda Qut elinin tolerant siyasəti ətraf xalqlar üçün cəlbedici idi. Sonralar belə bir durum subar boylarının İkiçayarasının quzeyində qurduğu kiçik Subar bəyliyində görünür. Ətraf bölgələrdən qaçıb, canını Asur-Urartu despotizmindən qurtaran əhalinin bu bəyliyə sığınması haqqında yuxarıda danışmışdıq.

Qut elinin yarada bildiyi stabilliyin səbəblərindən biri, elbəylərin seçim yolu ilə hakimiyyətə gəlməsi idi. Saray çevrilişlərinə imkan verməyən seçki üsulu həm də daxili hakimiyyət davasının qarşısını alır, hakimiyyətə iddialı şahzadələrin gücə, hiyləyə əl atıb çar ola bilməsi bu sistemdə yoxdur. Ona görə də, 2200-ci ildə seçilmiş ilk elbəydən tutmuş son elbəyə qədər hamısının seçki ilə dövlətin başına keçdiyini görürük. Qonşu ölkələrin çarlarına aid siyahıda bu nizam-intizam yoxdur. Müqayisə üçün

---

[210] Belə ki, birinci və ikinci sətirdə sual doğuran məsələnin kökü ilk qaynaqla bağlıdır. III Ur sülaləsinin hakimiyyətini əbədiləşdirmək məqsədi ilə Daşqından (Nuh tufanı) çar Ur-Nammu (2111-2094) çağına qədərki dövrü əhatə edən bu siyahı Qut eli dağılandan az sonra yazılıb, sonralar üzü köçürülərək ona yeni əlavələr edilmişdir. Ortaya çıxan bəzi nüsxələr «*kim çar idi, kim çar deyildi*» deyimini bir yerdə akad, başqa bir yerdə qut sülaləsinə aid edir. Əslində, birinci variant daha düzgündür, çünki burada söhbət Akad çarı Şarkalişarri öləndən sonra hakimiyyət üzərində bir-birilə 3 il mübarizə aparan *İkiki, İmi, Nanum* adlı akad bəylərindən gedir və onlarla savaşan qut elbəyi Elulumeşin adından sonra Qut elinin Akadda canişini Dudu və oğlu Şu-Turulun adları sıra ilə verilir (ИДВ, 1983, 486; Алиев, 1960, 154).

deyək ki, məşhur Hammurapinin soyu I Babil sülaləsində (1894-1595) üç əsr boyunca atadan oğula keçən irsi hakimiyyətin cəmi 11 çarı olmuşdur, bir əsrlik Qut elində isə 21 çar seçilmişdir.[211]

Siyahıdan da göründüyü kimi, xalqın məhəbbətini qazanan bacarıqlı bəylər dalbadal və ya müəyən fasilə ilə elbəyi məqamına təkrar seçilə bilmişlər. Əgər *İngeşuş* adında iki elbəy olmamışsa, onda bu adı daşıyan elbəy 24 ildən sonra təkrar seçilmiş, 18 il hakimiyyətdə olan *Yarlaqab* isə üç dəfə dalbadal (6+6+3=15) və üç illik fasilədən sonra təkrar elbəyi məqamına yüksəlmişdir.[212] Demokratik seçkinin gücü onda idi ki, seçim ilinin dəyişməsindən asılı olmayaraq, seçilən elbəyi ona ayrılan vaxtı başa vurmalı idi. Yalnız müstəsna hallarda istefa məsələsi gündəmə gətirilirdi. Gün kimi aydındır ki, Qut elində ciddi qayda-qanun olmuş, toyda alınan qərarlara şərtsiz əməl edilmişdir. Hökmdar yox, *törə* şah olmuşdur. Dünya dövlətçilik tarixində ilk **demokratik seçkiləri** gerçəkləşdirən türk boyu qədim Azərbaycanda protoazər boylarından olan *qutlar* idi.

Ulu soydaşlarımızın qurduğu Qut elinin tarixi həm də demokratiya tarixi kimi qiymətlidir. Seçki ilə formalaşan əsl xalq hakimiyyəti demokratik dövlət qurumu olduğundan onun *El* adlanması, dövlət başçılarının *elçi, elbəy, elçibəy, elxan* titulu daşıması, dövləti (*eli*) olan xalqa və ölkəyə də *El* deyilməsi, eli quran, onun sınırlarını genişlədən elbəylərə *Elalmış, Eltutmuş, Elolmuş* ləqəblərinin verilməsi gələnəyi bəlkə də qut çağından qalmadır. Çünki Qut elini imperiyaya çevirən məhz qut elbəyi *Elulumeş* adlanır.

Xalq və dövlət anlamlarının qədim dilimizdə eyni sözlə verilməsi türk etnosunun demokratik ruhunu əks etdirir, qonşu despot dövlətlərdən fərqlənən Qut eli bunun ilk örnəyidir. Azərbaycan Demokratik Cümhuriyəti (1918-1920) Ön Asiya və digər müsəlman ölkələri içində ilk demokratik dövlət sayılır, lakin qaynaqlar və özəlliklə, yuxarıda verilən cədvəl isə Azərbaycanda hələ 4200 il əvvəl demokratik dövlət qurumu olduğunu ortaya çıxarır.

Qut eli daxilində olan stabillik ona tabe olan ölkə və dövlətlərə də öz təsirini göstərirdi. Akad zülmündən bezən sumerlər Qut əsgərlərinə xilaskar kimi baxır, ölkəni Akad təcavüzündən qurtaran qutlara tabe olub, Qut elinə vergi ödəməyi normal qəbul edirdilər. Lakin idarəçilik gələnəyi

[211] ИДВ, 1983, 489.

[212] Seçki ili silsiləsinə görə, dörd ya beş dəfə də (6+3+3+3=15; 3 x 5=15) seçilə bilərdi.

baxımından akad, elam və sumerlərdən fərqlənən, monumental məbədləri, yazı ənənəsi və məmurlar ordusu olmayan Qutlar üçün İkiçayarasını 100 il savaşsız idarə etmək asan başa gəlmirdi. Qut elinin paytaxtı indiki Kərkük (*Arapha*) şəhəri idi.[213] Çoxlu dövlət məmurları ilə seçilən Akad, Elam və Sumer ölkələrini idarə etmək üçün Qut eli nəzarəti altında saxladığı geniş ərazilərdə yerli başçıları və onların idarə aparatını saxlamağa məcbur idi. Yerli şəhər-dövlət ensiləri (başçıları) Qut elbəyinin canişini sayılsa da, atadan oğula keçən hakimiyyət gələnəyi yerlərdə davam edirdi. Belə vəziyyət hər iki tərəfi qane edirdi: Qutlar lazım olan vergini yerli başçıların vasitəsi ilə rahat toplaya bilir, sumerlər yaranmış əmin-amanlıq şəraitində öz şəhər-dövlət gələnəklərini rahatca davam etdirirdilər.

Qut çağına aid bir sumer yazısında deyilir ki, *«(artıq) qulluqçu öz xanımına tay olmuşdu, qullar öz sahibi ilə yanaşı gedirdi; varlılar yetimə, güclülər dul qadına xətər toxundurmurdu».*[214] Sumerlərin qut elbəyinə hər il bac-xərac göndərməsi, İkiçayarasındakı qərargahda oturan nümayəndəsinin xanımı və uşaqlarına qiymətli hədiyələr aparması haqqında qaynaqlarda məlumat vardır.[215] «Sumer dili qrameri» (1981) kitabında yer alan mətndə əvvəlki irtica rejimi əvəzinə insani münasibətlərə önəm verilən qut çağının öygüsü, əmin-amanlıq durumu ilə bağlı deyimlər diqqəti çəkir: [216]

| | |
|---|---|
| (1) ki-mah uru-ka al-nu-gar | (1) Şəhər məzarlığında qəbir qazılmadı, |
| (2) lú-úş ki-ni-túm | (2) ölü (cəsəd) bastırılmadı, |
| (3) qala-e balaq-nu-túm ér nu-ta-é | (3) qala rahibi musiqi alətini daşımadı, ondan (yas) nəğməsi çıxmadı. |
| (4) ama-era-ke$_4$ ér nu-bi-u$_{11}$ | (4) ağıçı qadın ağı demədi. |

Bu sözlərin müəllifi Laqaş şəhərinin ensisi Qudea (2133-2117) Qut canişini idi, ona verilən geniş səlahiyyətdən istifadə edərək, yeni kanallar çəkdirib, məbədlər tikdirmiş, elm və ədəbiyatın inkişafı üçün böyük işlər görmüşdür. Qudea həmin yazıda qeyd edir ki, onu 216 min kişinin içindən tanrı Ningirsu seçmişdir. «Ölkənin gerçək çobanı» (ölkə başçısı) olandan sonra, *kimsə qayışla, qamçıyla döyülmədi, ana oğlunu vurmadı; vali, çavuş, məmur və işçibaşının işləyənləri vura biləcəyi şey*

[213] Günaltay, 1987, 316.
[214] ИДВ, 1983, 262.
[215] Шилейко, 1916, XXI-XXX.
[216] SDG, I, 1981, 29.

*daranmış yun idi.* Bu ifadələrdən göründüyü kimi, yaranmış stabilliyi Qudea öz adına çıxır və hətta Sumerdə onun Qut canişini olmasını qutlara yox, sumer gələnəyinə uyğun olaraq, Tanrı seçiminə bağlayır.[217] Bu durum bir daha göstərir ki, qutlar yerli başçıların seçiminə qarışmırdı və yerli hakimlərə kifayət qədər sərbəstlik verilmişdi. Ensi titulu daşıyan Qudeanın dövründə 5 Qut elbəyi dəyişmişdir, çünki əyalət hakimlərindən fərqli olaraq, mərkəzi hakimiyətin başçısı yalnız requlyar seçki ilə «çar» (elbəy) ola bilirdi. Doğrudur, Qudea *çar* titulu daşımırdı, lakin Akaddakı qut canişini formal olaraq, bu adı saxlamışdı.




Çağdaş tarixçilərin bilgi meyarına uyğun gəlməyən Qut dövlətinin *el* quruluşu qəbul olunmuş ölçülərə sığmır, ona görə də, məntiqsiz yozumlar irəli sürülür. Belə ki, başqa dövlət başçılarının uzunmüddətli hakimiyətindən fərqlənən qut elbəylərinin qısa hakimiyət illərinin səbəbini qutların öz aralarında hakimiyət savaşında və bu savaşlarda elbəylərin ölməsində axtaran Avropa alimlərinə etirazını «*bu durumda olan bir xalq 91 il o çağlarda öz dövrünə görə ən inkişaf etmiş təsərrüfatı olan Sumer-Akad kimi dövlətlərin üzərində necə hökmranlıq edə bilərdi*?» ritorik sualı ilə bildirən tanınmış qədim tarix uzmanı İ. M. Dyakonov bütöv regionda stabillik yaradan qut hakimiyətinin kövrək deyil, möhkəm olduğunu yazır, lakin özünün qoyduğu məntiqli suala cavabı gümanla verir və qut elbəylərinin seçim illərindəki düzəni *ibtidai icma* quruluşunda axtarır, onların bu qurumda yaşadığını ehtimal edir.[218] Ehtimal şəklində söylənmiş bu fikir sonralar başqa rus tarixçilərinin yazısında artıq az qala gerçəklik kimi verilir: qut çağındakı stabilliyin səbəbini siyahıdakı «*qutların çarı yox idi*» deyimlə bağlayırlar, guya çar yox imiş, amma «*tayfa rəisləri*» stabillik yaradıb, Ön Asiyanın qüdrətli dövlətlərini idarə edir-

---

[217] Qudeadan öncə Laqaş ensisi Ur-Baba onun qaynatası idi. Görünür, oğlu olmadığı üçün hakimiyət kürəkənə keçmişdir, təbii ki, bu olayda fal açımının yozumu uğurlu xəbər, «tanrının razılığı» olmuşdur. «Tanrı seçimi» qədim türk dövlətçilik gələnəyində də vardı: elbəy, xaqan olan adama tanrının «qut» verməsi, onların *qutlu* sayılması inamı Göytürk elində və İslamaqədər davam etmişdir.

[218] Дьяконов, 1956, 107-109.

miş.[219] Burada Sovet ideologiyasına xidmət edən komunist tarixçi alimlərə öz liderləri F. Engelsin bir deyimini xatırlatmaq lazım gəlir. Bu baş komunist belə deyir: «*Biz bilirik ki, icma qurumu ilə işğal olunanlar üzərində hökmranlıq bir araya sığmır*».[220] Azərbaycan tarixçiləri də qut çarlarını icma şurasının seçdiyi tayfa birliyi başçıları adlandırıb, qutların guya yalnız dövlət qurmaq astanasına gəldiyini və İkiçayarasında idarə etmə işlərinə qoşulub alışmadıqları üçün böyük dövlətçilik təcrübəsi qazana bilmədiklərini yazırlar.[221]

Öncə bunu yada salaq ki, Carmo, Xasun, Xalaf, Quzey-Ubeyd kulturu yayılan bir ərazidə yaşayan toplumun yazıyaqədərki tarixi həmin ardıcıl arxeoloji kulturların bəlgələrində vardır. Qut ərazisində ibtidai icma qurumunun dağılması Qut eli çağından ən azı min il öncə başlamışdı. Qutların ibtidai icma qurumuna aid fikirlərin elmi əsasa dayanmadığını subut etmək üçün təkcə Urmu yaxasında olan *Göytəpə* abidəsinin verdiyi bəlgələr kifayətdir. O ki qaldı «*qutların çarı yox idi*» ifadəsinə, bunu da yuxarıda *«özü çar oldu»* deyiminin izahında verdik. Hər halda, Babil mirzəsinin ifadəsini səhv hesab edən çağdaş tarixçilər unudurlar ki, hadisələrin içində yaşayan savadlı katib çar ilə sərkərdəni, hökmdar ilə qəbilə başçısını indiki tarixçilərdən daha yaxşı fərqləndirə bilirdilər. Qədim qaynaqlar qut elbəylərini məhz «çar» adlandırır, hələ Qut dövləti yenicə yaranmağa başladığı çağda qutların zəfər yazısında *«Qutum ölkəsinin çarı, dünyanın dörd səmtinin hökmdarı»* titulu yazılmışdı.[222] Xilafət dövründə sultana xütbə oxunduğu kimi, Qut imperiyası qurulandan sonra neçə yerli Sumer hökmdarının Qut çarının şərəfinə həsr etdiyi yazılar durur. İbtidai icma quruluşunda yaşayan uruq belə nəhəng dövlət (imperiya) qura bilərdimi? Yaxud, bir əsr boyu dövlət başında olarkən üç ardıcıl nəsil dəyişən bir boy və ya budun (tayfa birliyi) necə olur ki, dövlətçilik təcrübəsi qazanmır?

---

[219] ИДВ, 1983, 256;

İ. M. Dyakonovdan sonra «Mada tarixi» kitabını yazan İ. Əliyev onun bu yanlış fikrini, haqlı olaraq, tənqid edb, qutların icma quruluşu məsələsini «şişirtmə» adlandırır, Qut çağında *Göytəpə* kimi abidələrin belə fikirləri rədd etdiyini vurğulayır. Lakin o da qutlarda icma qurumunun dağılmasını İkiçayarasının təsiri sayır və bu prosesin hakimiyyətə gəlmə illərinə yaxın başlandığını yazır (Алиев, 1960, 155-156, 6-cı qeyd).

[220] Энгельс, 175.

[221] AT, 1996, 36-37.

[222] da-núm šàr gu-ti-im ù ki-ib-ra-tim ar-ba-im «*qüdrətli kişi, Qutum və dünyanın dörd bucağının çarı*» (Balkan, 1992, 27).

Əlbəttə, Qutlara belə münasibət bir tərəfdən, arxeoloji bəlgələrin və qədim yazıların tekstoloji informasiyasını, digər tərəfdən, qədim türk dövlət gələnəklərini nəzərə almamaqdan irəli gəlir.[223] Qut eli birdən-birə «göydən» düşməmişdi, əhalinin bir az öncə Lulu eli və hələ Subar eli, Aratta eli çağında toplanmış dövlətçilik gələnəyi vardı.

Qut dövlətinin dağılma səbəbləri bəlli olmasa da, sonluğu tipoloji baxımdan sonrakı türk ellərinin qurulub-dağılma olaylarına çox bənzəyir. Elbəy adlarının təhlili göstərir ki, artıq üçüncü nəsil akadlaşmış və akad adları daşıyır.[224] Görünür, qut elbəylərinin sonrakı nəsli idarə etdiyi İkiçayarasındakı şəhərləşmə mədəniyyətinin təsiri altına düşmüş, sumer-akad gələnəklərinə meyl edən qut elitası get-gedə qut (türk) etnik dəyərlərindən uzaqlaşmışlar. Bu duruma düşən sonrakı türk imperiya və dövlətlərinin taleyini, çox güman ki, Qut eli də yaşamışdır. Qut dövlətinin qurulduğu illərdə Enridavazir və Qut imperiyasını quran Elulumeşdə olan təpər artıq son elbəylərdə sönməkdə idi. Qut törəsinə görə, 7 il hakimiyətdə olan elbəy Siumun vaxtı bitəndən sonra, həmin müddətə onun yerinə seçilən qut elbəyi Tirikan hakimiyətdə cəmi 40 gün qala bildi, çünki qutları Sumer ölkəsindən qovan üsyançılar onu arvad-uşağı ilə birlikdə sığındığı Dubrum şəhərində əsir aldı. Utuhenqalın başçılığı ilə gerçəkləşən bu olayın təsviri qaynaqlarda müxtəlif versiyalarla əks olunub. Bir yerdə yazılır ki, Tirikanın məğlubiyətinə Ay tutulması səbəb olmuşdur.[225] Əlbəttə, Ayın tutulması səbəb deyil, bəhanədir. İkinci versiyada isə qutların qovulma səbəbini belə verilir: «*Zəhərli dağ ilanı, tanrıtanımaz qutlar Sumer əhalisi arasında düşmənçilik yaratdı, oğulu anadan ayırdı, Sumer hakimiyətini dağlara apardı*». Kiçik poema, nəğmə formasında yazılmış, lakin orijinalı deyil, sonradan köçürülmüş nüsxəsi qalan (eynən hay qaynaqları kimi) bu qaynağın müəllifi Sumerdə anti-qut ovqatını qızışdıran dəstənin başçısı Utuhenqaldır. Qut elinin dağılma səbəbi açılmayan bu

---

[223] Qudea çağındakı siyasi stabilliyi, mədəni inkişafı, qutlara vergi kimi verilən qızılı, qiymətli silahları, süslü mebelləri nəzərdə tutan tarixçilər ortaya bu sualı qoyur: «Bütövlükdə bu durum, Qudea və onun vərəsələri hakim olduğu bir dövrdə qutların Akad və Sumer üzərində hakimiyəti necə ola bilər?». Qoyulmuş suala özləri bu cavabı verir: «Bütün bunlar (bəlgələr) göstərir ki, Qudea qutlara vergi verirdi; qutlar da ona bütöv Sumerdə və bütün mühüm ticarət yollarında sərbəst fəaliət imkanı vermişdi.Belə düşünmək olar ki, Qudea sadəcə qutların Sumerdə canişini idi» (ИДВ, 1983, 263).

[224] Дьяконов, 1956, 108.

[225] SSRİ EA Nəzəri astrologiya institutu Selevki çağına aid qaynaqda verilən Ayın m.ö. 2109-ci ildə tutulmasını təsdiq etmişdir (ИДВ, 1983, 266).

qərəzli yazıda da qondarma fikirlər olması haqqında bəlgələr vardır, ona saxta və qeyri-ciddi qaynaq kimi baxılır.[226] Çünki Sumer ölkəsi, sumer mədəniyəti əsl çiçəklənmə dövrünü bir əsr boyu bütöv regionda sülhü təmin edən Qut elinin tabeliyində yaşadı. Başqa bir variantda Ur şəhərini elamların dağıtması və bu olayda dolayısı ilə qutların günahkar olması söylənir.[227] Beləliklə, yüzilə yaxın davam edən Qut elinin dağılma səbəbi bizim üçün açıq qalsa da, bu dövlətin və qut boyunun əks-sədası uzun illər davam edib yaşadı.

Qut eli dağılandan sonra qut boylarının adı Mada çağına qədər15 əsr Asur mənbələrində görünür: XIV əsrdə I Adadnerarinin yazısında «*qutların geniş sınırları*» ifadəsi işlənir; XIII əsrdə I Salmanasarın yazısında «*uzaqlara taxıl kimi səpələnmiş qut orduları*», *«göydəki ulduzların sayı qədər çox olan qutlar»* deyimləri vardır; VIII əsrdə II Sarqon Mada ölkəsinin bəzi bölgələrini «*Qutum*» adlandırır; VII əsrdə Assarxaddon «*mannalar ölkəsinin adamlarını, ram olmayan qutları dağıtdım*» deyir; asur yazıları son dəfə «qut çarları» (bəyləri) ifadəsini 636-cı ildə işlətmişdir.[228] Bu yazılarda qutlar Urmu hövzəsində, Dəclənin yuxarı axarlarında kumanlarla qonşuluqda, Kudmux ölkəsi yaxınlığında göstərilirdi. İ. M. Dyakonov II minilboyu bu qaynaqlarda keçən *qut* boyadının real etnik termin olduğunu yazır.[229]

Lakin bu real etnonim əvvəllər Qut eli çağında boybirlikləri olan budun (xalq) adı kimi işlənirdi və o çağın qaynaqları Qut ölkəsində 70 boy yaşadığını qeyd edirdi, Qut eli dağılandan sonrakı çağların qaynaqları artıq konkret qut boyu ilə bərabər, həmin boyları öz adı ilə, *subar*, *turuk* (türk), *kuman, bars, börü, qarqar, zəngi, polad, qorus, xınıs, qızıl, azər* və sair etnonimlərlə verir.

Qut ölkəsinin (GU.Tİ.UM $^{Kİ}$) qədim əhalisinin adı, *qut* etnonimi türk onomastikasında dərin iz qoymuşdur. Belə ki, çağdaş başqord boyları içində *kudi, kuday* deyimləri ilə işlənən **qudi** boyu vardır.[230] Çox vaxt qaynaqlarda *utiqurlar* ilə adı yanaşı çəkilən **kutriqur** boylarının və onla-

---

226 ИДВ, 1983, 265; AT, 1994, 72.

227 Заблоцка, 1989, 185.

228 АВИИУ, №1, №2, №4, №28; ХПИДВ, 1963, 235; Дьяконов, 1956; ТУ, 124; ИДВ, 1988, 101; Bir asur yazısında (VIII əsr) asurlara qarşı vuruşan Urartu çarı Arqiştiyə qutların yardımı vurğulanır (Меликишвили, 1954, 233).

229 Дьяконов, 1956, 135.

230 Кузеев, 1974, 50.

rın Avropada at oynatdığı çağlarda Avar dövlətinin **Kuti-xan** (553) adlı 17-ci hökmdarının adlarında görünən *qut/kuti* sözü türk toponimləri sırasında da geniş yer tutur. [231]

Van gölünün güney-batı yaxasında müasir *Kotum* toponimi Urartu çağında $^{URU}$Qutume (*qutu-me*) şəklində yad olunur, bura gəlib yerləşən haylar isə ona *Kotom* demişlər.[232] Osmanlı dönəmində Anadoluda *Kutvan* (kut-van), *Kutuculu* (kutu-cu-lu) şəklində qeyd olunan yeradlarında və daha əski çağlarda Anadolunun güney-doğu və güney bölgələrində, İkiçayarasının quzeyində yerləşən və asur-urartu qaynaqlarında *Quta/Kuta, Kuda, Qutta, Qut//Kutu//Gutium, Kudmux/Kutmux, Kudmar//Kutmar* şəklində adı keçən bölgə, şəhər və yaşayış məskənlərində qut boyunun adı görünür.[233] Babil bölgəsində də *Kutu* adlı şəhər və kanal olmuşdur. İkiçayarasından subar boylarının quzey və doğu yönlərə miqrasiyasından yuxarıda söhbət açmışdıq. Qut eli dağılandan sonra qut boylarından bir qisminin də Güney Qafqaza, Xəzər yaxalarına və Orta Asiyaya keçdiyini əks etdirən toponimlər vardır: *Qudula* (Oğuz), *Kotuz* (Vedi), *Kale-Kuti* (Qəzvin), *Kuta* (Səmərqənd). Qut etnoniminin əsasında duran «qut» sözünün iştirak etdiyi toponimlər də eyni istiqamətdə yayılmışdır: *Qutqaşen* (Qəbələ), *Qodman* (Masallı), *Ata-Qut* (Tuğ, Qarabağ).

Qut etnoniminin etimologiyası, məncə, *Kut Tənri xatunı, Kutluğ, Kutan, Qutqan, Kutadmış, Kutrulmuş, Qutalmış, Kutlu//Qutlu* kimi türk şəxs adlarında işlənib, «ruh, can, uğur, müqəddəs» anlamları ilə bugün davam edən **qut** sözü ilə bağlıdır. Bu fikri vaxtilə prof. Beno Landsberger irəli sürmüşdür. O yızır ki, bu *Gutium,* yaxud *Kutium* etnonimində akadca nisbət şəkilçisni (*-ium*) çıxsaq, yerdə *kut* adı qalır. Kut xalqını nəzərdə tutan alim əlavə edir: «Türklərlə ən yaxın münasibətdə olan, hətta bəlkə də, eyniyət göstərən boy budur».[234] Azər dilində «Bu ad bu yigidə ***qutlu*** olsun» (KDQ), «*Ye, ürəyində **qutun** olsun*», Manas eposunda «*Kuyruğuna **kut** düşmüş, **Kutlu** kula at kiminki*» ifadəsi, deyimləri *qut* sözünün qutsal anlamını yaşadır. Qut eli çağında Orta Anadoluda yaşayan hatların dilində eyni anlamda işlənən *qut* sözü qədim qaynaqda qalmışdır.[235] Bu

---

[231] Türk dillərində qam//kam, qut/kut, qız//kız, qadın//kadın şəklində yazılan sözlərdə ilk samitin azər əlifbasındakı «q» hərfi ilə verilməsi düzgündür.

[232] ТУ, 125.

[233] ОАС, 557; ТУ, 114, 123-125.

[234] Azər xalqı, 2000, 245-246; Landsberger, 1937, 8; Balkan, 1992, 25.

[235] ДА, 1985, 44.

söz türk etnonimikası üçün doğmadır.[236] İndiki Bolqarıstana gedib, Bulqar dövlətini quran Asparuk xan bulqarların *qutriqur* (*qutir-qur*) boyuna başçılıq edirdi. Qutların Güney-Azərbaycanda birbaşa davamçısı olan qaşqaylar içində *qutlu* boyu vardır.[237] Qut etnonimi haqqında elmi ədəbiyatda başqa fikirlər də irəli sürülmüşdür.[238]

Qut boyunun adı türk onomastikasında geniş yayıldığı kimi, qut elbəylərindən də bəzisinin adı türk antroponimika sistemində davam etmişdir. Üç illik elbəy seçilsə də, hansı qələtinə görəsə bu vəzifədə cəmi bir il qalan *Kurum* (2141-2140) elbəylik titulundan məhrum edildi. Bu adı m.s. IX əsrdə Bulqar dövlətinin başçısı *Kurum xan*, XIV əsrdə isə Altun Ordu dövlətində *Kurum xan* daşımışdır. Qut elbəyi Kurumdan fərqli

---

[236] Elazığın Baskil, Maden ilçələrində Kut-uşağı oymağı, Osmanlı dönəmi arxivlərində adı qalmış Kutlu, Kutlubəy(li), Kutluca(lı), Kutludoğmuş, Kutluxan, Kutlulu Kutluluca, Kutluoba, Kutluş, Kutluyurd (OAC, 556-557) etnonim və toponimləri aydın göstərir ki, *qut* sözü boyadı kimi geniş işlənmişdir. Ola bilsin ki, məmlük sultanı *Kutuz,* rus marşalı *Kutuzov,* Qafqazda görünən *Kutiyev* ad və soyadları da həmin sözlə bağlıdır.

[237] Ибраһимов, 1988, 42.

[238] Qədim qaynaqda qutlara «namruti» (ağbəniz) deyilməsini və yaxınlıqda kuman boyunun yaşamasını diqqətə alan Y.Yusifov bu etnonimlərin (*qut, kuman*) «sarışın», «ağ» anlamlı *ku* sözündən yarandığını (ku-ti, ku-man) güman etmişdir (AT, 1994,82).

Qut etnonimini Qafqazda bəlli olan *uti*, daha doğrusu, indiki qafqazdilli *udi* xalqı ilə bağlamaq üçün bəzi alimlər (Z.Yampolski, İ.M.Dyakonov, İ.Əliyev) kuti/uti paralelliyi ortaya atmışlar. Doğrudur, türk dillərində k~ ø paralelliyi vardır və xəzər /azər paralelliyi kimi, kuti / uti paralelləri mümkündür. Lakin bunun *udi* etnoniminə dəxli yoxdur və tarixi faktlara zidd olduğu üçün yanlışdır. Çünki *qut* və *uti* ayrı-ayrı etnonim kimi hələ qədim mixi yazılı mətndə yanaşı verilib (АВИИУ, №38). Çox vaxt adı yanaşı çəkilən və bəzən Bizansın təhriki ilə bir-birilə savaşan *kutriqur* (kutir-qur) və *utiqur* (uti-qur) türk boyları kimi (ИНСК, 96-97), eyni soydan olan qut və uti adlı qədim boyların sonradan dönüb qafqazdilli *udin* (udi) olmasını təsdiq edə bilən bəlgələr yoxdur. O ki, qaldı kuti və uti boylarının Urmu hövzəsindən Güney-Qafqaza keçməsi məsələsinə, bu doğrudur və nəinki Azərbaycan və Dağıstan, hətta Orta Avropaya qədər getmişlər. Bu türk boylarının bir qismi də Urmu hövzəsindən sonralar Altaya qədər miqrasiya edib: Altay türklərində Kotı adı və Doğu-Türküstan ilə Güney-Sibir arasında uti/udi boyları bunu aydın göstərir. Çin alimləri qeyd edir ki, çin dilində işlənən türkizmlərdən biri də hun məmur titulu olan **kūti** terminidir (HWC, 1984, 122; Bu arayışı türkcəyə Dr.A.İnayet çevirdi). Hunların içində *lulu* sülaləsi kimi, *kuti* termini də göstərir ki, bu boylar doğuya da köç etmişlər. Çin qaynaqları *lolo* (lulu?) boylarından da bəhs edir (ВДИ, №2, 1952, 173).

Qut sözünü Keşqutan, Kutanaul tipli toponilərin tərkibində işlənən «ağıl, binə» anlamlı *kutan* (qutan) ilə; *Kotanlı, Xotan* tipli toponimlərlə; doğu-german *qot* boyadı ilə; türk-german teonim paralellləri *Qud/Qut, Kuday/Xudu* və *Qud/Qod/Qot* ilə; qohumluq termini *quda* və yağış çağırmaq üçün oxunan *Qodu-Qodu* nəğməsi ilə də müqayisə edib, müəyən yozum vermək olar.

olaraq, Batı-Bulqar dövlətinin (681-1018) başçıları sırasında oğlu məşhur Omurtaq kimi, özü də bir bahadır olan Kurum xan (803-814) Avarların ərazisinə yerləşməkdə və Sofiya (Sredets) şəhərini almaqda igidlik göstərmişdir.[239] Elbəy adları sırasındakı Enridavazirin dövlətin qurulmasında, Elulumeşin isə imperiyanın qurulmasında igidliyindən, elbəy vəzifəsinə təkrar seçilən İngeşuş və özəlliklə, Yarlaqabın müdrikliyindən söhbət açmaq olar. Bəzi elbəylərin adı anlam baxımından titul və ya ləqəb bildirir.[240] Elulumeş adındakı gələnək sonrakı türk dövlətlərində də davam etmişdir.

Elulumeş adı bu elbəyə sonradan verilib. Elbəyin öz adını bilməsək də, Qut elinin Akad üzərində tam qələbə çalıb, imperiyaya çevrilməsi onun vaxtında gerçəkləşmişdir. Dövlət quran, onun sınırlarını genişlədən xaqanlara, dövlət başçılarına *İlteriş, Elkutadmış, Elolmuş* ləqəblərinin verilməsi türk dövlətçtlik gələnəyində təkrar olunan haldır. Dədə Qorqud bahadırlarından biri *Yağrıncı oğlu İlalmış* adını daşıyır.[241] Mixi yazıda «o» səsini bildirən işarə olmadığından **Elolmuş** adı yanlış olaraq, *Elulumeş* şəklində oxunmuşdur. *Yarlaqab, Yarlaqaş* və *Yarlaqanda* adları *yarlaq* və *ab/aş/anda* hissələrindən ibarətdir. Birinci *yarlaq* sözü də iki hissəyə ayrılır və türk şəxs adlarında geniş işlənən bu söz (*yar*) və şəkilçi (*-laq*) adın *Yarlaq* hissəsini yozmağa imkan verir. Belə ki, *Yarkın, Yaruk Tikin, İnançu Apa Yarğan tarkan* kimi qədim türk adarında işlənən *yar* sözü və *Yağlakar* (yağ-laq ər) adındakı *-laq* şəkilçisi yozumu asanlaşdırır. Nəzərə alaq ki, Yağlakar adını *Yağlakar Bilgə* kağandan sonra bir neçə uyqur ka-

---

239 İA, IV. 713; Şəhərin alınmasını əks etdirən şəkil qədim bir əlyazmada əks olunmuşdur (Чебоксаров-Чебоксарова,1985, 66).

240 Elbəylərin sonrakı nəslinin siyahıdakı adlardan *Habilkin, Hablum, Puzur-Suen* akad, yaxud akadlaşmış antroponimlərdir, *Laerabum, İrarum, Sium* isə akad şəkilçisi ilə işlənsələr də, sami sözləri deyildir. Bugün azərlər içində *İbat* (İbad) kimi işlənən *İbate* adında «cəsur» (*ibətey//ebetey*) mənası olması mümkündür. İbate kimi *İrarum* sözünün də qədim mənşəyi tam aydın deyil. İlk qut çarının adı *Enridavazir, Enridupizir*, *Erridupizir* variantları ilə yazıldığından etimoloji yozum vermək çətindir. Adın tərkib hissələri bulqar *Enrabota* (῾Ενραβωτάς) şəxs adında, xəzər xaqanı *İbuzir Qlyavan* adında, qədim türk *Bozər, Basar, Pozar* adlarında görünür, adın daşıya biləcəyi məna və deyim fonotaktikası «Koroğlu»dakı *Halay-pozan* adına oxşayır, çünki qədim *eñrədi-pozur* deyimi «bağırdı(sa)-pozur» anlamındadır. Lakin bu bir ehtimaldır.

241 M. Zöhtabi siyahıda adları ardıcıl gələn *Yarlaqaş*, *Elulumeş* ilə KDQ-dakı «*Yağrıncı oğlu İlalmış*» arasında oxşarlıq axtarmışdır (Zöhtabi,٢٤٠). Lakin qut elbəylərin sıralanmasında ata-oğul ardıcıllığı yoxdur. Müqayisə olunan adlar arasında bir qanunauyğunluq var ki, o da dördünün də türk adı olmasıdır. *Elulumeş* adı «məmləkətini böyütmüş» anlamı ilə yozulmuş (Bayram, 1988, 80), *Yağrıncı oğlu İlalmış* adında *il-al-mış* tərkibinin isə «igidlik» anlamında işlənməsi qeyd olunmuşdur (Tanrıverdi, 1999, 133-134).

ğanı daşımışdır.[242] Dilimizdə *yar* sözünün 5-6 mənası var, bunlardan yalnız «işıq» anlamı sadalanan adlarda özünü doğruldur və həmin sözə *-laq* şəkilçisi qoşulub, «parlaq», «işıqlı» anlamında *yarlaq* sözünü yaradır. Bu şəkilçi elbəy *Sarlaqab* adında da vardır, lakin akadlara əsir düşən başqa bir qut bəyinin *Sarlaq* adı bəzi qaynaqlarda *Asarlaq* şəklində yazılması və *Asər* kultu (iyəsi) ilə bağlı olması elbəyin adında da *Asarlaqab* variantının ola bilməsi ehtimalını ortaya qoyur. Hər iki halda *-laq* şəkilçisinin qramatik yükü eynidir: birinci halda *Sarlaq* «sarışın, kürən» anlamını, ikinci halda *Asarlaq* «Azər kultunu qudsal sayan» və ya «Azər soyundan olan» anlamını yaradır.

Elbəy adlarının (*Yarlaq-aş, Yarlaq-an*) sonluğundakı *-aş, -an* şəkilçisi Qaraş, Balaş, Qazan, Türkan kimi türk adlarında geniş işlənir.[243] *Yarlaqab* və *Sarlaqab* adlarının sonluğunda «ab» elementini *alp/alb* sözünün qalığı saymaq olardı (Yarlaq alp, Sarlaq alp), lakin o çağda sumer-akad və türk (qut) dilində ortaq olan «baba», «ata» anlamındakı *aba* sözünü bu sonluqda bərpa etmək daha uyğundur, çünki Sarlaqab adının yazılışında *Sarlaq-aba* (zár-la-qa-ba) variantı da vardır.[244] *İnim-aba-keş* adında ilk söz Göytürk yazısında «*inim* Kültigin» deyimindəki *inim* («kiçik qardaşım»), və sumer dilindəki *inim* («söz») ilə uyğunluq təşkil edir. Əgər İnimabakeş adı qut sözüdürsə, «Qardaşım Abakeş», əgər sumer sözüdirsə «Abakeş(in) sözü» anlamını verir.[245] İngeşuş elbəy adında sonluq *-süz* şəkilçisi kimi diqqəti çəkir, adın ilk hissəsi *döngə* modelində olub, «yenmə», «düş-

---

[242] Малявкин, 1983, 99; Qırğız-qazax bakşılarının duasında «Tanrım, hər yerdə bizi *yarlıqa*!» deyimi vardır (İnan, 1972, 141); Burada *yarlıqa* «yardım et» anlamındadır.

[243] Qaynaqlarda 18-ci elbəy adının *Yarlaqanda* və *Yarlaqand* formasında yazılması iki morfonoloji variant ortaya qoyur (Дьяконов, 1956, 107); Azər dialektlərində Qızılbud // Qızılbund variantlarında olduğu kimi, *-and* morfemində səsartımı mümkündür; *-anda* variantında isə *Yağlakar Kan Ata* adında olduğu kimi, *ata* (ada) sözü bərpa oluna bilər.

[244] PBS,13, №1; Balkan, 1992, 30; Saxa dilində *sarlıq* (yak), monqol dilində *sarlaq* (dağ buğası//öküzü) sözləri Sarlaq adında «Buğac» anlamını da mümkün edir.

Çin dilinə məmur titulu *ābō* sözünün türk dilindən alındığını yazan çin alimləri bunu *apa* sözü ilə bağlayırlar (HWC,1); Görünür sumer dilindəki *aba* (ata, qoca, ağsaqqal) və akad dilində *'b, ab* şəklində yazılıb, *abi/abu* (ata, baba), *abê* (atalar, babalar) şəklində oxunan (Липин, 1957, 14) sözlər də qədim türkcənin aba/apa sözü ilə bağlıdır (ДТС, 47).

*İnim-aba-keş* adı qədim türk abidələrindəki *İnançu Apa, Boz Aba, Kulapa Urunu, Ay Aba Çavuş beq, Konurapa* adlarında olduğu kimi, *aba* sözünü ortaya çıxarır. *Yarlaqab(a), Sarlaqab(a)* kimi bərpa olunan adların sonluğu tələffüz baxımından M. Xorenatsinin qeyd etdiyi xəzər bəyləri *Venaseb, Surxab* adlarından fərqlənmir. Görünür, *aba* sözünün bəzi adların sonunda *-ab* morfeminə çevrilməsi qut çağından daha öncə başlanmışdır.

[245] İnel-kağan, İnanc-beg//yabqu və İnak adında isə *in- «inam, güvənc» anlamındadır.

mə» məzmunlu *engə/inge* sözüdür və bütövlükdə *İngesüs* adı «yenilməz», «məğlub olmaz» anlamı daşıyır.[246] Bu söz Əmir Teymurla vurşan *İngatürü* xanın adında da var. Görünür, iki dəfə elbəy seçilən İngesüs aldığı bu ləqəbə tam layiq imiş.

İbranum elbəyin adında sonluq (*-um*) akad şəkilçisidir, *ibran* sözü isə Dədə Qorqud boylarında adı keçən *Əmran*, əl-Məqdisiyə görə, ərəb xilafətinə qarşı vuruşmuş xürrəmi başçılarından olan *İmran* adında əks olunmuşdur. İmran adını ərəb, ümumiyətlə, sami sözü kimi verirlər, lakin qut çağında onlara ən yaxın sami tayfaları akadlar idi və bu ad akadca deyil, sadəcə akad şəkilçisi ilə yazılıb və ola bilər ki, qut çağından çox sonra sami dillərinə keçib. Oğuz boyu *imre*, türkmən boyu *imreli* və qədim türk sözləri *imre* «sev», *imren* «sevin», «imrəm» (toplum, xalq) sözləri *Yunis İmrə* adında olduğu kimi, Əmran, İmran, İbran adlarının türkmənşəli olduğunu göstərir.[247] Qut elinin son elbəyi Tirikan adı *Küni Tirik* adında olduğu kimi, tirik//türük//turuq («türk») etnonimindən yaranmış və sonralar türk onomastikasında *Türkan* şəklində geniş yayılmışdır. *Tirikan* sözü ilə bağlı üç yaşayış məskəni olması faktını izah etmək istəyən İ. M. Dyakonov güman edir ki, bunun səbəbi Tirikanın sonralar «İskəndər» kimi əfsanələşməsi ola bilər. Əlbəttə, bu yanlış yozumdur, çünki cəmi 40 gün hakimiyətdə qala bilən, əsir alınıb, sonra Sumerdən biabırcasına qovulan bu son qut elbəyi əfsanələşə bilməzdi. Toponimlər onun adını yox, *turuk* boyunun adını əks etdirir. İ. M. Dyakonov qaynaqların Bad-Tirikan qalasını «qutlar ölkəsinin qənşəri»ndə verdiyini, Ştrekin bu qalanı sonrakı *Karxar* (Qarqar) qalası ilə eyniləşdirdiyini, özünün isə bunu *Kanxar* (Kəngər) kimi oxuyub, qalanın Urmu hövzəsindəki Qarqar bölgəsində deyil, Dəcləyə yaxın olduğunu yazır.[248] Tirikan adının etnonim bildirməsi dilimizdə işlənən «uruq-turuq» sözü ilə də aydın olur.

Beləliklə, *qut* etnoniminin özü kimi, qut elbəy adlarının da çoxu türkcədir: İngesüz (*İngeşuş*); Sarlaqaba (*Sarlaqab*), başqa variant - Azar-

---

[246] Adın əvvəlində olan «ingə» sözü feilə qoşulan *-gə* şəkilçisi ilə düzəlmişdir və buradakı *in-* (enmək) feilinin qədim türk dillərində işlənən *Ög baş İn Alp, İn Öz İnançu, İnel kağan, Ögdəm ınal, İnançu Külük Cikin* adlarındakı «in» sözü ilə əlaqəsi yoxdur.

[247] Təbəri yəhudicə *Amr* adının ərəblərdə *İmran* olduğunu yazır (Taberi, II, 634); Qafqazda yayğın olan Amiran (gürcü), Əmrən//İmrən (türk) adını M. Seyidov və Ə.Tanrıverdi türk mənşəli sayır və geniş araşdırmışlar (Tanrıverdi, 1999, 88-89).

[248] Дьяконов, 1956, 104, 2-ci qeyd; 108-109, 4-cü qeyd; 117, 2-ci qeyd; Burada diqqəti çəkən məsələdən biri də qut boylarının konfederasiyası daxilində *türk* adlı boyun olmasıdır. Laerabum, İbranum, Asarlaqab adlarında da *imre, lu-ər* (*lulu*), *azər* etnonimi ola bilər.

laqaba (*Asarlaqab*); Azarlaq (*Asarlaq*) adı elbəy yox, qut bəyinin adıdır; Yarlaqaş (*Yarlaqaş*); Elolmuş (*Elulumeş*); İnim Abakeş (*İnimabakeş*); Yarlaqaba (*Yarlaqab*); Yarlaqata (*Yarlaqanda*); başqa variant - Yarlaqan (*Yarlaqand*); İbad (*İbate*); Kurum (*Kurum*); Luəraba (*Laerabum*); İrər (*İrarum*); İbran (*İbranum*); başqa variant - İmran; Türükan (*Tirikan*). Göründüyü kimi, bərpa olunmuş variantlar mixi yazılış formasından o qədər də fərqlənmir, belə ki, adların bugünkü yazılışını belə vermək olar: İngesüz, Sarlaqab (Asarlaqab), Yarlaqaş, Elolmuş, İnim Abakeş, Yarlaqab, Yarlaq Ata, İbat, Kurum, İrar, Luərab, İbran, Türkan.

Beləliklə, m.ö. 2200-ci ildə Urmu gölü ilə Kərkük arasında qurulan Qut eli az sonra Elolmuş elbəyin vaxtında imperiyaya çevrildi və Ön Asiyada qurulan bu türk dövləti bir əsrə yaxın yaşadı. Qut elinin qonşu dövlətlərdən fərqi onda idi ki, burada despotik rejim deyil, requlyar seçki ilə dövlət başına keçən elbəylər tərəfindən demokratik türk törələri ilə idarə olunurdu. Qut elinə tabe olan Elam, Akad və Sumer kimi ölkələrdə yerli hakim sülalələrin, bürokrat idarəçilik üsulunun saxlanması, yerli «çarlara» sərbəstlik verilməsi, daha doğrusu, əyalətlərdə yerli özünüidarə üsulunun tətbiqi, uzun illər boyu regionda stabilliyn təmin edilməsi, Sumer mədəniyətində «renesans» çağının məhz bu dövrə düşməsi aydın göstərir ki, qut elbəylərinin üsul-idarəsi demokratik dəyərlər üzərində qurulmuşdu. Belə ki, Urmu teoriyası ilə gerçək dəyərini tapan Qut Eli ümumtürk dövlətçilik tarixinin ilk qaranquşu olmaqla türk tarixinin başucalığı sayıla bilər, həm də dünya tarixində analoqu olmayan bu dövlətin daxili qurumu, idarəçilik sistemi daha dərindən öyrənilərsə, tarix elminə yeni bilgilər vermiş olar.

Qut imperiyası dağılandan sonra, Qut elini quran boyların birliyi (*budun* qurumu) pozuldu, İkiçayarasının quzeyi, Dəclənin sol yaxaları və Urmu hövzəsində Qut elinin yerində çoxlu bəyliklər və dərəbəyliklər ortaya çıxdı. Azərbaycanda Mana eli yaranana qədər bu bölgələr vaxtaşırı yadlelli orduların hücumlarına məruz qaldı. Zəif bölgələr bu və ya digər dövlətdən asılı vəziyətə düşdü, dirəniş göstərən bölgələrin isə adı hücum edən çarların yazılarına düşdü. Həmin yazılara əsasən, növbəti mövzumuz Urmu yaxasındakı *Turuk* (*Türk*) *bəyliyi* və Mosuldan yuxarıda olan *Kuman bəyliyi* haqqındadır. Vaxtilə Qut elinin tərkibində olan bu bölgələr və hər iki bəyliyin *turuk, kuman* adlı boyları qutların başçılıq etdiyi konfederasiyaya daxil olduğundan ümumi ada çevrilən *qut* adı altında «görünməz» qalmışdılar.

**Turuk (Türk) bəyliyi**

Qut eli dağılandan sonra onun yerində çoxlu bəylik və dərbəyliklər yarandı. Belə bəyliklərdən biri də Urmu gölünün güneyində sonralar Mana dövlətinin qurulduğu ərazidə ortaya çıxan ***Türk bəyliyi*** idi. Qədim Subartu bölgələrində və Urmu gölündən güneydə yaşayan, mixi yazılarda turuk/turk/türk şəklində xatırlanan *türk* adlı boylar m.ö. III minildə Subar, Aratta, Lulu, Qut dövlətləri zamanında üzdə olmasalar da, həmin dövlətlərin qurulmasında digər türk boyları ilə birlikdə iştirak etmişlər. XXIII əsrdə qutlar hələ hakimiyyətə gəlməmişdən əvvəl akad qoşununun quzey bölgələrdə vuruşduğu 17 boydan biri Elşunailin başçılıq etdiyi *turki* (tourki) şəklində verilən *türk* adlı boy idi. [249] Sonrakı asur yazılarında Dəclə çayının yuxarı axarında subarların *Turxu* adlı şəhəri də qeyd olunur.[250] Mari sənədlərində adı keçən *türk* boyu isə Urmu gölü yaxınlığında yaşayırdı. Qut eli (dövləti) dağılandan sonra üzə çıxan *türk* adlı boylar bu ərazilərdə *qut, lulu, subar, kuman* və sair türk boyları ilə birlikdə zaman-zaman Akad-Asur, Elam, Kassi, Urartu və Babil dövlətlərinə qarşı vuruşmuşlar.

İslamdan sonra türksoylu boyların ümumi adına çevrilən və bugün türk xalqlarının umumi adı olan **TÜRK** sözünün etimologiyası VIII Bitikdə geniş izah olunduğundan burada yalnız qədim türk boyadının yazılış formaları üzərində dayanacaq, Urmu yaxasında yaşayan *türk* boyunun asurlara qarşı vuruşlarından söhbət açacağıq. Buradan Doğuya gedən türklər V əsrdən sonra böyük Göy-Türk imperiyasını qurdu. Bu türklər haqqında

---

[249] Sonralar qutlarla döyüşdə öldürülən Akad çarı Naram-Suenə qarşı bu koalisiyada başqa etnik boylarla birlikdə, əsasən, İkiçayarasının quzeyində və Orta Anadoluda yaşayan subarların tərkibindəki türksoylu boylar idi. Bu döyüş haqqında ilkin akad qaynağı alimə keçməsə də, prof. E. Memişin tərcüməsi ilə tanış ola bildim (Memiş, 2002, 70); Bu, üzü köçürülmüş hetcə variantı (KBO III, №13) H. G. Güterbock nəşr etmişdir (Zeitschrift für Assyriologie. №44, 67-68. Berlin). Hetcə nüsxədə Rakki, GUŞUA, Ullubi, Hat, Kaniş, Arman, Türki və sair bölgə və boyların başında duran Pampa, Zipan (*Çoban*), Mudakin (*Budak*) adlarına sonrakı türklərdə rast gəlmək olur. Buradakı Anmanailu, Bumanailu, Lupanailu, İnmipailu, İlşunailu adlarının sonluğunda *-ailu* hissəsi ayrılır və adların yerdə qalan hissələri də sonrakı türk bəylərinin adında təkrar olunur: Anman, Buman (*Bumın*), Lupan (*Alıpan*), İnmip, İlşun (*Elçün*). Bu son bəy (İlşunail) akad çarına qarşı koalisiyada *türk* (tourki) boyuna başçılıq edirdi.

[250] Саркисян, 1989, 23-24; Ümumiyyətlə, qut elbəyi Tirikanın adında və Kiçik Asiyada Turuxmid (*Turuk-bud*) toponimində olduğu kimi, asur-urartu mixi yazıları da tərkibində *türk, tirk, terek, tarxun, tarxan* sözləri olan xeyli toponim qeyd etmişdir: Fəratın yuxarı axarında Tirkaxuli/Terkaxuli dağı (müasir *Terklux*), *Tarxanabe* dağı, Subar bəyliyindən quzey-batıda şadılı boyunun *Tarxiqama* yaşayış məskəni və sair (ТУ,179-180, 185).

Çin mənbələrində, Orxon-Yenisey türk abidələrində və digər qaynaqlarda kifayət qədər məlumat vardır. Öz dillərində *türük* və *türk,* başqa dillərdə isə *tukyu* (çin), *türküt* (monqol), *turk, tork* (yunan, latın, rus, fars, hay) adlanan türklərin doğu qolu elmi ədəbiyatda geniş işıqlandırılmışdır, lakin Atayurdda qalan türklər barədə bunu söyləmək olmaz, çünki indiyə kimi bu sahədə tədqiqat aparılmamış, yalnız akad yazılarında adı *turukki* şəklində oxunan tayfaların türk olması fikri söylənmişdir.[251]

№ 23



Fərat çayının batı yaxasında indiki İraq ilə Suriya sınırı yaxınlığında fransız alimlərinin apardığı qazıntı qədim Mari şəhərinin çar arxivini üzə çıxarmışdır. Mixi yazı ilə yazılmış bu gil tabletlərin mətnləri iyirmi il sonra, 1950-ci ildən başlayaraq, Luvr muzeyi xəbərlərində Georgies Dossin tərəfindən seriyalarla dərc edildi. Bu mətnlərdə *turukku* şəklində oxunmuş boy adı vardı. İlk dəfə H. Z. Koşay bu adın türklərlə bağlı olduğunu söyləmiş, iki tabletdə *turukku* sözü olan sətiri 1982-də Buxarestdə nəşr olunan bir elmi bülletendə çap etdirmişdir. 1989-da S.Bayram *turukku* sözü olan daha onbir tablet olduğunu qeyd etmişdir.[252] Təkcə burada verdiyimiz 23 №-li tabletdə türk adı beş dəfə çəkilmişdir. Lakin məsələ burasındadır ki, bu adı Mari mətnlərinin transkripsiyasında düzgün verməmişlər.[253] Belə ki, *türk* sözünün qədim forması ***turuk*** şəklindədir və asurca

[251] Azərbaycan tarixçilərindən Z.Yampolski, Y.Yusifov, S.Əlyarov da asur mətnlərində xatırlanan *turukku//turukki* boyunu *türk* hesab etmiş, bu adın müxtəlif zamanlarda müxtəlif dilli yazılarda türük//török//turuk//türki şəklində olmasını yazsalar da, adın qaynaqda yazılışına deyil, yanlış oxunmuş *turukki* formasına dayanmışlar (AT, 1994; 1996).

[252] Dossin, 1950; Koşay, 1982, 88; Bayram, 1989; (Burada tablet nömrələrilə verdiyimiz misallar G. Dossin və S. Bayramın tərcümə etdiyi mətnlərdir).

[253] Vaxtilə bu adın *turuk* şəklində oxunmasını təklif etmişdim, mətnləri əldə edəndən sonra həmin yorumun doğru olduğuna bir daha əmin oldum. Belə oxunuşu təsdiq edən bu sahənin uzmanı və III Bitiyin elmi redaktoru tarixçi alim Mirzəyev Mirheydər bəyə də təşəkkür edirəm .

olan mətnlərdə də həmin forma əks olunmuşdur. Bəzi tabletlərdə turuk adı keçən sətirlərin müqayisəsi bunu aydın göstərir. Asur dili kontekstində *türk* adının fonetik oxunuşu *tu-ru-ki* olduğu halda, asuroloqlar onu *turukku* şəklində transkripsiya edirlər, yəni adın sonunda samiti asur deyiminə uyğun geminat (qoşa) samit kimi oxuyurlar. Halbuki, bu mətnlərin çoxunda həmin söz geminat samitlə verilməmişdir. Adad-nerari (XIV əsr) yazısında da bu *Turuki* ölkəadı **tu-ru-ki-i** kimi verilmişdir.

Gil lövhələrdə ***türk*** (turuk) sözünün müxtəlif mixi yazılış formaları




Adın yanlış oxunuşu K. Riemşnayderin «Akad dili» dərsliyi üçün də xarakterikdir.[255] Bu adın yanlış oxunduğuna əmin olmaq üçün Mari tabletlərindən birini gözdən keçirək. 25 №-li gil lövhənin ardıcıl gələn 9 və 10-cu sətirləri belə yazılmışdır:

(9) Li-da-a-ia awilum **Tu-ru-ku-u,**

(10) ù awilum **Tu-ru-ku-ù** şa it-ti-şu.

Göründüyü kimi, hər iki sətirdəki adın yazılışında qoşa samit yoxdur. Mətnlərdə turuku/turuki/turuk şəklində yazılan bu ada qoşulmuş sami şəkilçilərini çıxanda sözün ***turuk*** forması qalır ki, bunu da turuk//turk//türk kimi oxumaq lazım gəlir.[256] Mixi yazıda ***ü*** və ***o*** işarələri olmadığı üçün bu

---

[255] Mətndə *Tu-ru-ku-tum* şəklində olan ad sözlükdə *Turukkutum* kimi verilib, *Turukk̦er* «Name eines Gebirgsvokes» anlamında tərcümə edilmişdir (Riemschneider, 1978, 53-53).

[256] Yuxarıda müqayisə üçün verilən müxtəlif nömrəli tabletlərdə müxtəlif asur katiblərinin yazdığı **tu-ru-ki** və **tu-ru-ku** variantları **tu-ru-uk-ki** transkribsiyasının da **turuk** və ya **turk** kimi oxunmasını tələb edir. Çünki mixi yazı orfoqrafiyasına görə, əvvəlki hecanın son səsi və sonrakı hecanın ilk səsi eynidirsə (-uk-ki-), ardıcıl gələn səslərdən biri oxuna bilir (-uk-ki > uki). Müqayisə et: [kam-ma-ad-da] = ka-ma-da =Kam-Ata.

adın torok//toruk//turok//türük//türk variantlarında səslənməsi də mümkün ola bilərdi, lakin *turuk* forması etimoloji baxımdan (*uruq-turuq*) xarakterik olduğundan o dövr üçün həmin formanı işlətmək daha doğrudur.

Asur dövləti m.ö. VII əsrin sonunda dağılana qədər müəyən fasilələrlə 1500 il qonşu bölgələrə, o cümlədən qədim Azərbaycana vaxtaşırı yürüşlər etmişdir. Asur çarlarının bu yürüşləri haqqında xeyli yazılar var. Turuk boyları ilə ilgili Mari sənədləri isə yalnız m.ö. XIX-XVIII əsrləri əhatə edir. Baxmayaraq ki, bu yazılarda hadisələrə asurların öz münasibəti qabarıq şəkildə verilmiş və turuklar düşmən kimi təqdim olunmuşdur, hər halda, asur-turuk münasibəti baxımından bu yazılar çox qiymətli tarixi sənədlərdir. Hadisələr Dəclənin hər iki sahilində və daha çox indiki Ərbil-Kərkük bölgəsində, Urmu gölünün güney-batı tərəflərində cərəyan edir. O çağlarda *Arrapha* adlanan Kərkük bölgəsi əvvəl asur, sonra hurri, kassi, daha sonra yenidən asur hücumlarına məruz qalan və əhalisinin etnik tərkibi xeyli dəyişən türk bölgəsi idi. Asur qoşunu turuk boylarının Axazim (*Axaz*), Qatanum (*Kotan*) bölgələrində və turuklara tabe olub, vergi ödəyən Hirbazanim (*Hırbasan*) və Tiqunanim (*Tiqunan*) bölgələrində, Kərkük ilə Urmu gölü arasında lulu boyları yaşayan Şuşşara (*Susara*) bölgəsində turuk əskərləri ilə vuruşmuşlar. Ümumiyətlə, asurlar Dəcləni keçib subar, qut, lulu ərazilərinə yürüş edəndə turuk əskərləri ilə qarşılaşmalı olurdu.[257]

Turuk sınırında strateji Susara bölgəsini ələ keçirməyə çalışan asurlar burada bir neçə lulu bölgə bəyilə vuruşmalı olur. Köməyə gələn turuklar Susaraya girəndə asurlar geri çəkilir. Görünür, növbəti asur yürüşü qələbə ilə başa çatmışdır, çünki sonrakı çarların yazısında Susaranın başçısı Asur canişinidir. Böyük hazırlıq işilə əldə olunan belə qələbələr o qədər də asan başa gəlmirdi, necə ki, tutduqları Susara bölgəsində turuk təzyiqinə duruş gətirə bilməyib geri çəkilmişlər: «Mənə bəhs etdiyin və *əldə saxlaya bilməyəcəyinizi* bildirdiyin Susara diyarı (məsələsini) sənə İsar-Lim anlatsın» (№25). Onillərlə davam edən asur-turuk savaşlarında üstünlük

---

[257] «Haqqında məndən xəbər istədiyin turuklar Tiqunan diyarındadır. İlk öncə onlar aclıqla qarşılaşdı. Hirbazan diyarına getmişdilər. (…)zuri kəndi onlarla sıx dostluq münasibəti qurub. Bununla belə, kəndin bütün kişilərini öldürüb, əhalini qətl etdilər və mallarını yağmaladılar. Bu kənd yağmalanmışdı (…) Turuklar bu kənddən beş günlük ərzaq alıblar. Eynən bu kənd əhalisi kimi, öncə dost olub, sözlərini dinlətdiyi Tiqunan boyları da bu sərt davranış üzündən düşmən kəsildi. Bu səbəbdən, turuklar qıtlıq içindədir və yeyəcəkləri yoxdur. Onlar hələ ki, bu ölkədədir. Bu məlumatımı göndərəndən sonra onların buradan getməyi düşünəcəklərini sanırıq. Sağlığım yerindədir, birliklərimiz də yaxşıdır. Sağlığınla bağlı xəbəri gecikdirmə» (Mari tableti №24).

gah asur, gah da turuk boylarında olmuşdur. Bu savaşlarda turuk döyüşçülərinə qut-lulu və digər türk boyları da yardım edirdi.

Susaraya yaxın Şikşambum bölgəsində yaşayan qutlar asurlarla barışda olsalar da, asur-turuk savaşında türklərin tərəfini saxlayırdılar. Bu münasibətlə, qutların bölgə bəyi *Enduşşe* barədə asur yazısında deyilir ki, asur çarı Şamşi-Adadın qoşunu onun bölgəsindən keçəcəyi halda o, asurlara qarşı vuruşmayacağına, qut döyüşçülərinin Susaraya getməyəcəyinə söz verib, «*onların sözünün döğruluğunu isə heç kəs bilmir*».[258]

XIX əsrdən başlayaraq, doğu sınırlarını genişləndirmək istəyilə vaxtaşırı Dəclənin doğu yaxalarına hücumlar edən asur çarları burada yeni kaloniyalar əldə edir, həm də, doğu sınırların təhlükəsizliyi üçün tampon bölgələr yaradırdılar. Mari sənədləri göstərir ki, turuk boyları həmişə müdafiə mövqeyində qalmamışlar, vaxtaşırı onlar da Asur bölgələrinə hücum edərək, asur ərazilərini və asurlara tabe olan bölgələri yağmalamış, asur ekspansiyasının Doğuya yayılmasının qarşısını almışlar.

Asur çarları turuk qüvvələri ilə hesablaşmaq məcburiyətində qalır və Asur sınırlarını daima gərgin durumda saxlayan turuklar haqqında hərtərəfli məlumat toplamaq üçün Asur çarları sərhəd bölgələrdə çoxlu casus və gözətçidən istifadə edirdilər. Turuk döyüşçülərinin hərəkət istiqaməti, məqsədi, sayı, gücü və girdiyi bölgələrdə əhali ilə davranışı barədə daima asur çarlarına məlumat verilirdi. Hətta, turuk sınırında Aşahitim kanalının ağzında oturan gözətçinin raportunda «*turuk səmtindən bu tərəfə bir elçi keçdi*» (№83) deyimilə kiçik bir xəbər də yer tutur.

Asurları ən çox narahat edən məlumat turuk dəstələrinin kiçik ya böyük qüvvə ilə basqın edəcəyi xəbəri idi. Bu baxımdan, raportda verilən bu məlumat xarakterikdir:

> «Düşmən turuk çıxdı və […]yə getdi. O, Kakkulatimi işğal etdi… Bu hücumdan bəri turukların sayı çox görünmür, ancaq arta bilər. Onlar gəlməyə davam edəcəklər» (№21).

Digər tabletlərdə də turuk vahiməsi hiss olunur: «Turuklar burada ağıza alınmayacaq (deyilməyəsi) işlərə məcbur edirlər» (№63); «Çar mənə hər şeydən öncə, turukların hücum edib, Nithimi dağıtdığını yazdı» (№87); «Turuklar indi Tiqunan ölkəsindədir. Onlar buraya gəldikdə belə dedilər: *O, yurduna doğru getdi*» (№23). Təəssüf ki, bu son cümlədə turuk bəyi-

[258] AT, 1994, 74.

nin və onun yurdunun adı verilməmişdir.[259] Başqa tabletdə turuk bəylərindən ikisinin adı çəkilir: «İşme-Dağan turuklu ilə sülh bağladı. *Zazinin* qızını oğlu Mutaskura alır»;[260] «Başçıları *Lidaya* ilə birlikdə turuklar savaşa girib, iki şəhəri dağıtdılar» (№25).

Turuk akınlarının qarşısını almaq üçün asurlar hərdən barışıq siyasətinə əl atırdılar. Belə barış ovqatı yaratmaq istəyi bəzən gerçəkləşir, bəzən də baş tutmurdu. Turuklarla sərt qarşıdurmadan əziyət çəkən asur çarları barışıq üçün hətta qohumluq əlaqələri yaratmaq istəyirlər: «İsme-Dağan Zaziyə qızıl-gümüş, *başlıq* göndərdi».[261] Başqa bir sənəddə «turuklarla bağlı xəbərin *dəyişməsi*», asur-turuk barışının baş tutmaması Yantak və digər soyluların göndərdiyi ultimatum ilə əlaqələndirilir.[262]




Sonrakı minillərdə türk boylarının (saqa, hun, avar, oğuz və başqa) təkrar etdiyi qəfil hücum taktikası turuk döyüşçülərinin də asurlara qarşı tətbiq etdiyi basqın-

---

[259] «Qardaşın İsme-Dağan (deyir). İsmah-Adduya bunu söylə: Mənə turuklar haqqında yazmışdın. Turukların görünməyə başladığı gün çox məşğul olduğumdan sənə xəbər verə bilmədim. Qüvvələrimiz onları təqib etdi. Mən çox sayda düşmən öldürdüm. Çay qabardığı üçün qüvvələrimiz qarşı tərəfə keçə bilmədi. Sonra mən onları qarşı tərəfə keçirə bildim və Tiqunan məmləkətinə sövq etdim. Qüvvələrimizin keçişindən sonra çayın suyu yatdı və turuklar da çayı gecə keçdilər. Onlar keçəndən sonra çay yenidən qabardı, çayı təkbaşına keçə bilmədim. Turuklar indi Tiqunan ölkəsindədir. Onlar buraya gələndə belə dedilər: *O, yurduna doğru getdi.* Turuklar haqqında sənə bu məlumatıma nisbətən tam bir raport göndərəcəyəm» (№23).

[260] ХПДИВ, 1963, 196.

[261] Eyni qaynaq.

[262] «Turuklara aid mənə yazdığın xəbər (durum) dəyişdi. Bundan dolayı, indiyə qədər sənə dəqiq bir xəbər verə bilmədim. Onların işinə gəlincə, gerçəkləşməsi düşünülən dostluq andlaşması üçün imkan aradan qalxdı. Yantak(im), Luninsuanna, Vaternan(um) və eyni şəkildə soylular gözləyirlər? Gerçəkdən də bu sözləri yazdılar: *Madam ki, sən girovları vermək istəmirsən, yarın və yarından sonra biz oraya* (*istədiyimiz yerə*) *gedəcəyik.* Orası yazılsın və bilinsin və oraya gedilsin! Qərarını da vermiş olaraq, bölgəndə hazır ol» (№22).

lardan fərqlənmir. Asur əyalətlərinə turuk akınları qəfil hücumla başlayıb, yağma ilə qurtarırdı. Nüfuzunu artırmağa çalışan asur çarı I Şamşi-Adad (1813-1781) oğlu İsme-Dağana və digər qoşun başçılarına turuklar kimi «qəfil basqın» taktikası planladığını bildirir: «*Yatanı oyadan, oyanana aman verməyən* ***turuklar kimi*** *hərəkət edəcəyik*» (№16).

Turuk ordusuna dağlıq bölgədə qələbə çalmağın mümkün olmadığını anlayan asur şahzadəsi İsme-Dağan yazırdı: «Anladıq ki, burada döyüş əlverişli deyil» (№25). Turuklar üzərində ən kiçik qələbə asurlara böyük sevinc gətirirdi. İsme-Dağanın turuklara Axaz bölgəsində qalib gəlməsi münasibətilə Şamşi-Adad digər oğluna «Sevin!» - deyə, muştuluq verib, qardaşı kimi qəhrəmanlıq göstərməsini məsləhət görürdü.[263]

Araşdırdığımız asur yazılarından aydın görünür ki, Urmu gölünün güneyində yaşayan *turuk* boyları m.ö. II minilin başlarında geniş ərazilərə nəzarət edən güclü boylar idi. Urmu gölü hövzəsində ayrı-ayrı bəyliklər şəklində yaşayan turuklar qutlar kimi mərkəzləşmiş dövlət qurmasalar da, regionda asurlara qarşı qüvvətli rəqib kimi qəbul olunurdu. Qaynaqlar turuk boylarının yalnız batı sınırları haqqında bəlgə verir, doğu sınırların hüdudu isə yalnız arxeoloji bəlgələrlə müəyən oluna bilər. Turuk bəyliyi ilə Asurlar arasında *Hirbazan* və *Tiqunan* bölgələri vardır (№24). Görünür, turuklara vergi verən bu bölgələr Dəclənin sol yaxasında idi, çünki Turuk ölkəsindən uzaqda olanda turuk döyüşçüləri ərzağı bu bölgələrdən alırdı. Asurlar turuk nəzarəti altında olan *Qatan*, *Axaz* bölgələrinə, turuklar da Nithim, Amursakim, Kakkulatim adlı asur bölgələrinə hücumlar edirdi.[264]

Mari sənədləri turukların evlənmədə «başlıq» gələnəyi olduğunu, girov və ya əsirlikdə olan yurddaşlarını qurtarmaq qeyrəti kimi bəzi etnik özəlliyi də qeyd edir. Belə ki, soydaşları qut-lulu boyları dara düşəndə turukların köməyə gəlməsi, onların yüksək döyüş məharəti diqqəti çəkir.

---

[263] «Qabrada ordunun təşəkkül etməsi üzərinə, İsme-Dağanı bir ordu ilə Ahazim diyarına göndərdim. Mənə gəlincə, mən də həmin şəhərə hərəkət edirəm (…) O bu bölgə əskərlərinin öndərlərini və onların ətrafına toplaşan turukları yox etdi. Bir tək kişi belə qalmadı. O gün bütün Ahazim diyarını ələ keçirdi. Bu davidium (?) ölkənin gözündə böyük (…) Sevin! Burada qardaşın davidiumu öldürürkən, sən orada qadınlar arasında qalıbsan. O halda, ordu ilə birlikdə Qatanuma gedəcəyin zaman ər kişi ol. Qardaşın kimi sən də 7 bölgəndə böyük ad-san qazan» (№69).

[264] Bu bölgə adları içində Hirbazanim «*hır-basan*», Tiqunanim «*tiqun-an*», Qatanum «*qatan*» (kotan) tərkibləri ilə və turuk şəxş adları sırasında isə Zazi (*Cacı*?), Lidaya (*İlday*?), Yantakim (*Yantak*) diqqəti çəkir.

Buradan Doğuya gedən turuklar sonrakı qaynaqlarda *türük* və *türk* adı ilə tanınsa da, bəzi bölgələrdə *turuk* etnoniminin izi qalmışdır.[265]

Turuk bəyliyinin yerində sonralar Mana dövləti yarandı. Buradakı turuk boyları asur yazılarında m.ö. XIII əsrə qədər yad olunmuşdur. Onlar 1755-də Babil çarı Hammurapiyə qarşı vuruşmuş, sonralar I Adadnirari (1307-1275) adlı Asur çarının hücumlarına məruz qalmışlar. Göründüyü kimi, Ata yurdda qalan türk (*turuk*) boyları haqqında asur mənbələrində xeyli məlumat vardır. Bu bəlgələrin sistem halında tədqiq olunması Türk tarixində yeni səhifələrin açılmasına yardım edə bilər.

**Kuman bəyliyi**

Sami və hurri tayfalarının m.ö. III-II minillərdə təzyiqilə dağılan *Subar* boybirliklərindən qalmış bəzi boyların İkiçayarasının quzey bölgələrində və Fərat çayının batı yaxalarında yerləşdiyini görmək olur. Belə boylardan biri də kumanlardır. Fəratın batı yaxasına keçən *kumuq* və *kuman* boyları bir müddətdən sonra yerli tayfaların içində əriyib getdi, lakin onların yerləşdiyi ərazilər uzun müddət *Kumuq* və *Kuman* ölkəsi kimi tanındı. Asur yazılarında *Kammanu,* Boğazköy kitabələrində *Kummaneşmax, Kummanni,* Urartu yazılarında *Qamana* şəklində verilən ölkə indiki Malatiya bölgəsini əhatə edirdi.

Burada haqqında danışacağımız digər *Kuman* ölkəsi isə Dəclə çayının doğusunda qədim Azərbaycan sınırında idi. Görünür, Ptolemey bu iki kuman ölkəsini fərqləndirmək üçün əvvəlkini *Κόμανα Καππαδοκίας* (Kappadokiya Kumanı) adlandırmışdır.[266] Urartu qaynaqları həmin çağlarda daha bir *kamaniu* (kuman) boyunun Göycə gölü yaxasında yaşadığını göstərir.[267] Bu kumanlar indiki Basarkeçər bölgəsinin qədim sakinləri idi. Dəryal (Daryol) keçidində gürcü arxeoloqlarının axtarışı ilə üzə çıxan *Kuman qalası* da m.ö.VII-VI əsrlərdə salınmışdır. Hazırda təkcə Lənkəran bölgəsində üç *Kumanlı* kəndi vardır.

Tarixi qaynaqlar qədim türk boylarından biri olan *kuman* boyunun m.ö II minildə Qədim Azərbaycanın batı qonşuluğunda yaşadığını, miladdan sonrakı minildə isə zaman-zaman bir ucu Sibir, digər ucu Avropanın ortalarına çatan ərazilərdə göründüyünü əks etdirir. Bu boyların belə uzaq

---

[265] Əndicandan güneydəki dağlarda yaşayan *Turuk-Şayan* boyu (Vekayi, 1987, 64-65); Fərqanə ilə Qaşqar arasında *Arık-Turuk* toponimi (MK, I, 66; 380).

[266] ТУ, 101.

[267] Мещанинов, 1978, 358, 375.

regionlara miqrasiya etmə səbəbi ayrıca bir boyun tarixi-coğrafi bəlgələri ilə deyil, ümumtürk tarixi fonunda aydınlaşır. Çünki *Qıpçaq Bozqırından* (Dəşti-Qıpçaq) keçən digər soydaşlarının tarixi taleyini kuman boyları da yaşamışdır.

Göründüyü kimi, tarixi qaynaqlar kuman boylarının miladdan öncəki minillikdə üç müxtəlif regiona (Kiçik Asiya, Dəclə yaxası, Qafqaz) dağıldığını əks etdirir. Burada onların hamısından deyil, yalnız Dəclə yaxasındakı kumanlar haqqında bəzi tarixi sənədləri şərh edib, subar, qut, turuk, kumuq və sair qədim türk boyları kimi, kumanların da Ön Asiyadan doğu və quzey yönlərə miqrasiya etdiyini görmək üçün Azərbaycan üzərindən Quzey-Qafqaza və Qıpçaq çölünə gedən kumanların tarixi durumuna, ötəri də olsa toxunacağıq. Öncə onu deyək ki, türk dillərində *kürən, sarışın* anlamı verən *kuman* adı altında tanınan boylarla kontaktda olmuş xalqlar onları əsasən *kumanu, kumenu* (asur, urartu), *kumanos, kumanoi* (yunan, latın) adlandırsa da, bəzi yazılarda bu boy adının *kuman//kuban, koman//koban, kaman//kaban, kumanlı//kumandı* şəklində yayıldığını da görmək olur. Əgər *kuman* adındakı «sarışın» anlamını nəzərə alsaq, türk boyları içində onların həm də *sarı, ər-sarı, sarı-uqur, sarı-tirgiş, sarıcalı* adı daşıyan soylarla ilgisi olduğunu düşünmək olar. Rus abidələrində sarışın (*polovets*) kimi tanınan kumanlar alman yazılarında da eyni anlamda (*Falben*) xatırlanır. Məşhur kuman bəyi *Şarukan* (Sarıxan) adında həmin anlam vardır.




Dəclənin sol yaxasında *kuman* boyları m.ö. XIII-VII əsrlərdə vaxtaşırı Asur-Urartu yazılarında yad olunur. Bu yazılara görə, *Kuman ölkəsi* Dəclə çayının doğu qolu Xabur ilə Cudi dağı arasında yerləşir. E. Forrer bu yazılarda kumanların başkəndi kimi verilən *Kipşu* toponimini Xabur kənarındakı Zaxodan 14 km aralı olan müasir *Qefşe* ilə eyniləşdirmiş və sonrakı tədqiqatçıların hamısı bu fikri qəbul etmişlər.

Zaxo ilə Hakkari arasında dağlıq bölgədə yerləşən Kuman ölkəsi batıdan Dəclə çayı və çayın arxasındakı Musru, Kutmux ölkəsi, quzey və doğudan Xabxi, Elxuniya, Şarnida, Mexri, Kume və Musasir ölkələri ilə əhatə olunmuşdu, güney-doğu tərəfdə isə kumanlar qut boyları ilə qonşu idilər.

Asur çarı Tukulti-Ninurta öz yazısında (XIII əsrin sonu) qeyd edir ki, «*...mənim qolum yauri dağlarında qutiləri,* ***(u)qumanları****, Mexriyə qədər Elxuniya və Şarnida ölkələrini müti etdi*».[268] Başqa bir asur çarının bəzi hissələri pozulmuş kitabəsində isə (bunu şərti olaraq I Tiqlatpalasara aid edirlər) ona qədər heç bir asur çarının ayağı dəyməyən və heç kimdən asılı olmayan *Kuman ölkəsinə* getməsi və burada müxtəlif kəndləri zəbt etməsi təsvir olunur, hətta həmin kəndlərin sırasında *Saka* (Saqa) adlı iki kəndin olması da göstərilir və I Tiqlatpalasar (1115-1077) özünün VI yürüşündə *Musru* üzərinə gedərkən qarşısına *kuman* boylarının çıxdığını yazır. [269] Bəzi müəlliflər Kuman ilə Kume şəhərini qarışıq saldıqları kimi, Musru ilə Musasir ölkəsini də qarışdırırlar, halbuki bunların hamısı ayrı-ayrı bölgələrdir və hətta bəzən eyni mətndə bunların adı ayrı-ayrılıqda qeyd olunur. Musru ölkəsinin nə Misirə, nə də Musasirə dəxli yoxdur, folklorumuzda «Misri qılınc» ifadəsi ilə adı bizə tanış olan Musru ölkəsi kumanların batı qonşuluğunda Cudi dağının qənşərində yerləşirdi. Bu yaxın qonşuluq səbəbindən, kuman boyları musru boylarınaköməyə gəlir. Həmin yazıdan bəzi hissələri gözdən keçirək: [270]

> (V, 73) ***Kumanların*** ordusu gerçəkdən M*usru* ölkəsinin köməyinə çıxdı; mən onlarla həqiqətən dağlarda vuruşdum, onları məğlub etdim, onları *Aisa* dağının ətəyindəki *Arina* şəhərinə saldım (qapadım). Onlar mənim ayağımı qucaqladı, onlara girovlar, vergi və bac-xərac təyin etdim.
>
> (V, 82) Bu zaman *Musru* ölkəsinə köməyə çıxmağı qət etmiş ***kumanların*** hamısı savaşın baş tutması və mənə qarşı durmaq üçün özlərinin bütün bölgələrini səfərbər etdilər, ancaq bundan sonra qəzəbli silahımın kəsəri ilə mən onların 20 000-lik böyük qoşunu ilə ***Tala*** dağında vuruşdum, onları məğlub etdim, onların çoxsaylı dəstələrini pərən-pərən saldım (səpələdim) və əzilənləri *Musru* ölkəsinin qənşərindəki ***Xarusa*** dağına qədər izlədim…
>
> (V, 99) Onların güvənc yeri ***Xunusu*** şəhərinin üstünü təpələri basan tufan kimi örtdüm, onların çoxsaylı ordusu ilə şəhərdə və dağlarda qəzəblə vuruş-

---

[268] АВИИУ, №7.

[269] Eyni qaynaq, №14.

[270] Eyni qaynaq, №10.

dum, onları məğlubiyətə uğratdım… Bu şəhəri zəbt edib onların tanrısını (məbudunu) apardım, var-dövlətini (yığıb) apardım, şəhəri yandırdım, söküb dağıtdım; bişmiş kərpiclə hörülmüş 3 böyük divarını sökdüm…

(VI, 22) Mənim sahibim (tanrı) Aşşura güvənərək mən özümlə hərb arabalarımı və döyüşçülərimi götürüb, onların çar şəhəri *Kipşunu* (Kibşa) mühasirəyə aldım. Mənim təpərli döyüşümün təsirindən qorxuya düşən ***kumanların çarı*** ayaqlarımı qucaqladı. Mən onun canını qurtardım, lakin ona əmr etdim ki, bişmiş kərpicli böyük divarını və qala bürclərini söksün, o da özülündən başına (dişinə) qədər bunları söküb, xaraba təpəliyə çevirdi. Həmçinin mənim himayədarım Aşşura tabe olmayanları, burada sığınan 300 günahkar yuvanı (ailəni) o çıxartdı, mən ondan təhvil aldım; ondan girovlar götürdüm, həm də əvvəlki ödənc və bac-xəracı artırıb, onun üzərinə qoydum.

Asur çarları, adətən, zəbt edib, ərazisini Asur əyalətinə çevirdiyi ölkələri öz yazılarında mütləq qeyd edirlər. Bu yazıdan göründüyü kimi, asur çarı Kuman ölkəsini tutmaqdan deyil, yalnız kult şəhəri Xunusa və başkənd Kipşuna hücum edib, bu şəhərləri yağmaladığından bəhs edir. Asur çarı II Adadnerari (911-890) də hakimiyyətə gələn kimi, ilk yürüşünü Kuman ölkəsinədən başlayır və bu yürüş barədə sözlərini həm Aşşurdakı (Asur) sarayın divarına, həm də başqa bir yazısında titullarını sadaladığı hissədə həkk etdirir: [271]

1)…Çarlığımın əvvəlində, hakimiyyətimin birinci ilində, nə vaxt ki, çarlıq taxtına qüdrətlə oturdum, uca sahib, mənim rəbbim Aşşurun hökmü ilə hərb arabalarımı və əskərlərimi toplayıb, *kumanların* üzərinə getdim, ***kumanların geniş ölkəsini*** məğlub etdim. *Kumanların çarı İluya* öz sarayında mənim əlimi tutdu. Onun qardaşlarını toplu (halda) əzdim, onlara böyük cəza görkü sərgilədim, onların var-dövlətini, onların iri və xırda mal-qarasını öz şəhərim Aşşura apardım. Onların tanrısını (məbudunu) rəbbim Aşşurun qarşısında hədiyyə verdim. Mənim silahımın qarşısından qaçan onların ordusunun qalıqları qayıtdı və mən onlara sakit yaşayış məskənlərində (evlərdə) yaşam verdim.

2) [Titulatura hissəsindən] Güclü qəhrəman, rəbbi Aşşurun köməyilə *Namru* ölkəsi aşırımına qədər *Zamua* (ölkəsini) və *lulumelər* ölkəsinin sınırındakı *Aşağı Zab* çayının o biri tərəfindən *Xabxu* (ölkəsini) keçən, o kəs ki, *Mexri, Salua* və (Kutmuxu alıb öz sınırlarına qatmış) *Urartu* ölkələrinə qədər ***kumanların geniş ölkəsini*** öz ayağına düşürmüşdü.

[271] АВИИУ, №20, №21.

Hələlik kuman boyları haqqında asur mənbələrində son yazı olan bu bəlgə asurların ***geniş Kuman ölkəsinə*** verdiyi böyük önəmi ortaya qoyur. Ola bilər ki, hələ oxunmamış çoxsaylı asur kitabələri içində kuman boyları ilə bağlı əlavə məlumatlar vardır, çünki sonralar bu ölkə Asur vilayətinə çevrilmişdi. Bunu Cudi dağında asur çarı Sinaxxeribin (705-681) qoyduğu yazıda görmək olur:[272]

> O zamanlar ki, Kutmux əyalətinin sərhəddindəki Cudi dağının yüksəkliklərində qartal yuvası kimi yerləşən *Tumurra, Şarim, Xalbuda, Kipşa, Ezama, Kua* və *Kana* kəndləri, hansı ki qədimdən, mənim sələflərim çarların vaxtında güclü və qürurlu idilər, hakimiyət qorxusunu bilmirdilər, mənim hakimiyətim dövründə tanrılar onları tərk etdi və onları əliboş qoydu...

Bu yazıda *kuman* boyunun adı çəkilməsə də, Cudi ətəyində yaşayan bu boyların artıq dağıdılandan sonra əhəmiyətini itirmiş əvvəlki başkəndi *Kipşa* ilə birlikdə digər yaşayış məskənlərinin də uzun müddət Asura tabe olmadığı aydınlaşır. Görünür, əvvəllər bac-xərac verməklə müstəqilliyini saxlaya bilən Kuman ölkəsi yalnız VIII əsrin sonunda və ya VII əsrin əvvəllərində Asur əyalətinə çevrilmişdir. Bu isə o dövrə təsadüf edir ki, artıq Kuman ölkəsinin doğu sınırındakı Azərbaycanda Mana və ardınca qüdrətli Mada dövləti ortaya çıxmışdı.

> «Mxer-qapısı» adlanan urartu yazısında və Tuşpa (Van) şəhərində tapılmış IX əsrin sonunda çar Menua dövrünə aid bir yazıda *Kuman şəhəri* (ölkəsi) haqqında məlumat vardır. Bu ikinci yazıda göstərilir ki, növbəti yürüş vaxtı urartu əskərləri «*...Kumenu şəhərinin* (*ölkəsinin*) *o biri tərəfində Asur ölkəsinə qədər gedib, ...*(pozuq)*...çatdı*».[273]

Yazıdakı pozuq yer, çox güman ki, qut boylarının əraziləri ilə bağlıdır, çünki quzeydən gələn urartu qoşunu Kuman ölkəsindən sonra Asur ərazisinə girmək üçün qutların məskənindən keçməli idi. Belə ki, asurlar da quzeyə gedəndə Kuman öləksinə girmək üçün qutların Ərbil bölgəsindən keçirdilər. Hər halqa, quzey tərəfində Urartu, güney-batı tərəfində Asur kimi qudrətli dövlətlərin olmasına baxmayaraq, Kuman ölkəsi 4-5 əsr ərzində bu dövlətlərin heç birinə tabe olmamışdır. Görünür, qonşuluğundakı hər iki təcavüzkar dövlətin vaxtaşırı hücumları qarşısında kuman boylarının xeyli hissəsi Urmu gölünə tərəf çəkilmiş, sonralar buradan

[272] АВИИУ, №58.
[273] УКН, №28.

Türküstan və Sibir tərəfə keçmişlər. Kuman boylarının bir qismi də zaman-zaman Quzey Azərbaycana, Göyçə gölü yaxalarına çəkilmiş və buradan Quzey Qafqaza keçmişlər.




Tədqiqatçılar doğudakı kumanları İrtış hövzəsində formalaşan Kimek xanlığı tərkibindəki boylardan sayırlar. Qardizinin qeyd etdiyinə görə, Kimek yolu üzərindəki bir bozqır sahəsi *Ulu Kuman* adlanırdı.[274] Nəzərə almaq lazımdır ki, kuman boyları getdikləri yerlərə öz etnonimlərilə yanaşı bəzi toponimlərini də aparmışlar. Özlərini indi *kumandı-kiji* (kumanlı-kişi) adlandıran boyun bir hissəsi Altayda Solton və Staraya Barda (Əski Bərdə) bölgəsində, Lebed və Viya çayı hövzəsində *Aşağı-Kumanlı, Yuxarı-Kumanlı* adlı kəndlərdə yaşayırlar. Burada *Yeti-Kuman* toponimi vardır. Kuman boyları içində şəxs adı kimi də işlənən *Koban* etnoniminə Quzey Qafqazda *Kuban çayı, Kuban düzü* şəklində rast gəlmək olursa, onlar vaxtilə ətəyində yaşadıqları *Xarusa* dağının adına da Azərbaycan və Doğu-Anadolunun müxtəlif bölgələrində ikinci həyat vermişlər: *Xoruz-dağ, Qorus, Qars, Xoruzlu* və sairə. Sonralar qədim rus salnaməsində kuman bəylərindən birinin Xoruz adlanması da ola bilər ki, burada özəl şəxsadı kimi yox, həmin bəyin mənsub olduğu boyu bildirən soyadı kimi işlənib.

Van gölünün güney-batısındakı *Xoruz* toponimi indiyəcən qalmışdır. Kumanların *Xunus* toponimi Anadoluda və Şamaxı, Gədəbəy, Kürdəmir bölgələrində *Xınıs, Xunus, Xınıslı* kəndlərinin adında yaşayır. Bu baxımdan, *Tala, Saka, Tumurru*, *Kua, Koban, Şarim* və başqa qədim kuman toponimlərinin də sonralar bu və ya digər türk bölgəsində yenidən üzə çıxması kuman boylarının doğu və quzey yönlərə miqrasiyasını göstərir. Şarim toponimi isə *sarı* sözünü və yuxarıda dediyimiz «sarışın» epitetini xatırladır. Kuman bəyliyindən güneydə (Zaxo-Mosul yolu) indi də *Sarukani* köyü vardır. Yazılı qaynaqlarda *kuman* və *qıpçaq* etnonimləri sinonim kimi işlənir. Ola bilsin ki, qıpçaq adı kuman boylarının bir bölüyü olmuşdur. Bu baxımdan, Kuman bəyliyinin paytaxt şəhərinin *Kibşa* (Kipşu) adı ilə *kıpça*(*k*) sözünün yaxınlığı diqqəti çəkir, çünki mixi yazıda «ş» səsini bildirən işarə «ç» kimi oxuna bilir.

---

274 Плетнева, 1990, 205.

Kuman etnoniminin *kimek, yemek, imek* boyadları ilə müqayisəsi üzərində çox dayanılsa da, hələlik bu adların eyni boya aid olması isbat olunmamışdır. Vaxtilə, M. Kaşqari də *yemek* boyadını izah edərkən bu fikri söyləmişdir: «*Biz bunları bir qıpçaq boyu saydıq, lakin qıpçaqlar özünü ayrı bir bölük sayır*».[275]

Qaynaqlar Kuman bəyliyinin dövlət quruluşu haqqında məlumat vermir, lakin bu ölkənin elbəyi («çarı»), 20 minlik qoşunu, Kibşa (Qıbça) adlı başkəndi vardır. Qaynaqlar Kuman ölkəsinin böyük qala və şəhərləri, bunların bişmiş kərpiçdən tikilmiş hündür divarları və bürcləri olduğunu qeyd edir, elbəyin sarayından söz açır. Kuman boylarının tapınağı Xunus şəhərində yerləşir. Buradakı məbudun adı verilməsə də, onun qənimət kimi Asura aparılması qeyd olunur. Kuman elbəylərindən yalnız birinin adı bəllidir. O da *İluy* və ya *İluya* adını daşıyan X əsrdə asurlara məğlub olmuş elbəydir. Kuman ölkəsində yarımoturaq əhalinin çoxlu mal-heyvan saxlaması da bəllidir.

Sinaxxeribin yazısından bəlli olur ki, Kuman bəyliyi VII əsrə qədər müstəqilliyini saxlaya bilmişdir. Asur hücumlarına beş əsr direniş göstərə bilən kumanlar asur ekspansiyasına qarşı qonşu bölgələrə də kömək edir. Lakin VII əsrin əvvəlində artıq Kuman bəyliyi dağılır. Görünür, Subar bəyliyindən öncə asurlar Kuman bəyliyini tutub, Asur vilayətinə çevirmişdir. Bu da maraqlıdır ki, *qıbçaq* (kuman) boylarından biri Atabəylər çağında yenidən bu dağlıq bölgədə müstəqil bir bəylik qurdu. Buradakı türkmənlərə güvənən Arslantaş oğlu qədim Kuman bəyliyinə yaxın olan Mosul bögəsində Şəhrizur qalasını siyasi hakimiyət mərkəzinə çevirdi, lakin az sonra Mosul atabəyi İmadəddin Zəngi (1127-1146) həmin qıpçaq bəyliyini özünə tabe edə bildi.




Yeri gəlmişkən, bunu da diqqətə alaq ki, basırıqlar yanında daşbaba heykəli və *balbal* qoymaq gələnəyi bir çox türk boylarında vardır, lakin bu heykəllərin sağ əlində kasa, sol əli kəmərdə olan özəl növü kuman-qıpçaq boylarına aid olub onların məskunlaşdığı yerlərdə görünür. Kuman-qıpçaq boyları qədim türk daşbaba gələnəyini

[275] MK, III. 29.

türklərin Atayurdundan quzeyə, Qafqaz üzərindən Doğu Avropaya, doğuda Altayacan aparmış, bu gələnək Qıpçaq çölü boyunca yayılmışdır. Bu daşbabaların ən qədim örnəkləri isə hələlik haqqında danışdığımız Kuman bəyliyində (Hakkari), Savalan dağı ətəklərində və Astara, Abşeronda tapılmışdır.[276]

Kuman boylarının güclü olduğu çağlarda onların oturduğu bütöv bölgə *Kuman ölkəsi* adlanmışdır; Marko Polo (1254-1324) Quzey-Qafqazı və Xəzərin quzey-batı yaxalarını *Komaniya* adlandırmış, əl-İdrisi (XII əsr) Avropanın güney-doğu hissəsindəki bozqırı *Qara-Kuman, Ağ-Kuman* şəklində iki yerə ayrıldığını qeyd etmişdir. Miladdan öncə Kiçik Asiya və Dəclə yaxasında olduğu kimi, Miladdan sonra da II minilliyin müəyən çağlarında bütöv Qıpçaq Bozqırı, Rumıniya, Macar çölləri *Kumaniya, Komaniya* kimi tanınmışdır. *Kuman, Koman, Kumanova* (Kuman-oba) toponimlərinə isə kuman boyunun ayağı dəydiyi Avrasiyanın müxtəlif guşələrində rast gəlmək olur.

Kuman bəyliyi dağılandan sonra buradakı kuman boylarının bir bölümü Güney-Anadoluya, xeyli hissəsi isə Azərbaycana köçdü. Sonralar Azərbaycan üzərindən quzey və doğu yönlərə keçmiş, özəlliklə, Doğuya getmiş kuman boyları Göy-Türk, ardınca Uyqur dövlətinin süqutundan sonra başqa boylarla birlikdə batıya üz tutdu. Bu böyük köçün səbəbini XI əsrin tarixçiləri əl-Marvazi və Efesli Matvey belə izah edirlər ki, *kai* boyu tərəfindən sıxışdırılan *sarı* boyları türkmən, quz və peçeneq yurdlarına doğru getdilər. Onlar Aralüstü bölgələrdəki qıpçaqlara birləşib İtil çayını keçdilər. Sanki, minillər boyu suvar, saqa, qamər, hun, avar, xəzər, quz, peçeneq atlılarının tapdağına çevrilmiş İtil-Don-Dnepr ovalarında əvvəlki soydaşlarının taleyini yaşamaq qisməti yeni yaranmış *sarı* (*kuman*)-*qıpçaq* boy birliyinin də alın yazısında varmış.

Yerlərindən qopub sarı boylarına qoşulan qıpçaqlar böyük qüvvəyə çevrilmiş bu yeni köç dalğasının sanbalını daha da artırdı və bu dalğa artıq XI əsrin ortalarından rus knyazlıqlarına və Avropanın digər güney-doğu ölkələrinə etdiyi akınlarla tarixə düşdü. Səkkiz boy birləşməsindən yaranıb, 150 il buralarda at oynadan *peçeneq* hegemonluğu da kumanların gəlişilə bitdi. Əlbəttə, bu həmişə olduğu kimi, kumanların türksayağı sadəliyindən bacarıqla istifadə edən Bizansın hiyləsilə gerçəkləşə bildi.

---

[276] Bax. I Bitik, «Daş adam heykəlləri (daşbaba)» bölməsi; Kuman bəyliyi haqqında etdiyim məruzələrdən, yazdığım məqalədən (Ağasıoğlu, 2000, 45) bir neçə il sonra bu bəyliyin ərazisində olan Hakkaridə 13 daşbaba və daşnənə tapıldı (Sevin, 2005).

Savaşa 20 minlik ordu çıxara bilən Kuman bəyliyinin təpərli döyüşçüləri vardı. İslamaqədər kuman-qıpçaq əskərləri subarlar kimi döyüşkən xalq kimi tanınmışdı. İbn əl-Əsir yazır ki, 722-ci ildə Mərc əl-Hicarə adlı yerdə ərəb ordusunu məğlub edib, Şam tərəfə qovan xəzərlərə qıpçaq (kuman) döyüşçüləri yardım etmişdi.[277] İslamdan sonrakı çağlarda daha çox muzdlu əskər kimi bu və ya digər ölkənin ordusuna yardım edən kuman boyları hərb sənətində irəli getmişdilər.

Peçeneqlərin Bizansın mərkəzinə soxulmağından qorxuya düşən imperator A. Komnin bütün «xristian dünyasına» müraciət edib kömək dilədi. Lakin onun çağırışına xristianlar deyil, müttəfiqlik və böyük ödənc təklifi almış 40 min kuman atlısı gəldi, peçeneqləri geri oturdub, Bizansı xilas etdi. Ancaq kumanlar öz səhvini döyüş gününün sabahısı başa düşdülər; səhər açılanda gördülər ki, Bizans əskərləri gecə ikən xəlvətcə 30 min peçeneq əsirini qadın və uşaqlarla birlikdə qılıncla doğrayıb. Bu faciəli mənzərəni görən kuman əskərləri nifrətlə oranı tərk etdilər.

Kuman-qıpçaq boyları ilk monqol dalğasına qədər İtil və Dnepr ovalıqlarına, güney Rusiyadan Qafqaz dağlarına qədər Kuban çöllərinə, bütöv Qıpçaq Bozqırına nəzarət edirdilər. Ona görə də, Bizans-kuman, rus-kuman, macar-kuman, hətta gürcü-kuman əlaqələrinə dair həmin çağlarda xeyli tarixi bəlgələr yaranmışdı. Bu dövrdə kuman dilini öyrənmək üçün yazılan məşhur «Kodeks Kumanikus» adlı əsərin ortaya çıxması regionda kuman hegemonluğunu görən missionerlərin mövcud duruma gerçək baxışının nəticəsi idi. Kuman döyüşçüləri ilə rus knyazları arasında vaxtaşırı savaşlar olur, bəzən də bir rus knyazı yeni əraziyə yiyələnmək üçün kumanlarla ittifaqa girib, başqa bir knyaza hücum edirdi. Hər iki halda kumanlar (*polovets*) ruslarla qarşı-qarşıya gəlirdi. O dövrün rus salnamələri kuman boyları ilə bağlı qiymətli bilgilər verir. Məşhur kuman xanları Tuqorxan, Bonyak (*Bənək*), Şarukanın simasında rus folklorunda dəhşətli düşmən kimi Bunyak Şeludivıy-xişnıy, Tuqorin Zmeyeviç, Şarkvelikan obrazları yaranmışdır. Bu adları Bizans imperatorunun qızı Anna Komnin yazısında *Tuqortaq* (Tuqorkan) və *Manyak* (Bunyak) şəklində verir.

Kumanların daha çox batı qanadında görünən, Bizans və Rusiya ilə savaşdan çox diplomatik əlaqələrə üstünlük verən Bonyak xan 1167-də 90-95 yaşında ölənə qədər çoxlu savaşlarda olmuşdu. Belə savaşların birində Bonyak döyüşdən qabaq gecə çadırından çıxıb bir az uzaqlaşır və üzünü göyə tutub qurd kimi ulayır, bozqırdan səsinə hay verən bozqurdun

[277] Ибн əл-Əсир, 27.

cavabını eşidəndən sonra çadıra qayıdır və sabahkı döyüşdə qələbə çalacağını deyir. Qədim rus dilindəki qaynaq 1097-də baş vermiş həmin olayı belə verir: «*...i yako bist polunoşi i vstav Bonyak i otyexa ot rati i poça volçski vıti*».[278] Bonyakın başqa bir yürüşündə başına toplanan bəylərin adında kuman soy-boy qurumu ilə də tanış oluruq:[279]



Kuman atlısı. Qayaüstü qabartma (Budapeşt)

| | |
|---|---|
| Ulaşeviç | - *Ulaş boyu* |
| Burçeviç | - *Börüce boyu* |
| Terterebiç | - *Tərtər boyu* |
| Toksobiç | - *Doqquz-oba* |
| Yetebiç | - *Yeddi-oba* |

Kuman antroponimləri içərisində müxtəlif heyvan adlarından düzəlmiş adlara rast gəlmək olur, lakin bunların sırasında itlə bağlı adlar daha çoxdur. Kuman dövrünün sonlarında ruslarla evlənmə, Avropada macar, slavyan, rumın xalqları ilə qaynayıb-qarışma, bəzi hallarda isə xristianlığı qəbul etmə ilə əlaqədar kumanların xristian adı daşıdığını görmək olur, lakin əksər hallarda kuman antroponimiyası türk şəklini saxlamışdır:

| Zooantroponimlər: | Türkcə adlar: |
|---|---|
| Koryaz Kolotanoviç ( *Xoruz*) | Aklan, Atrak, Asaduk, Azqulu, |
| Burçe (*Börücə*) | Beqlük, Belduz, Koban, Kitan, |
| Beq-Bars (*Bars-bəy*) | Kopti, Kosus, Kunyaçuk, Kurtik, |
| Koçi (*Qoç*) | Çuqay, Çilbuk, Sırçan, Surbar, |
| Yaroslanopa (*Arslan-aba*) | Seluk, Totura, Tarsuk və s. |
| Başkord (*Baş-qurd* ) | Xristian adları: |
| İtoqliy (*İt-oğlu*) | İzay Bilyukoviç |
| İtlar (*İtlər*) | Sıdvak Kulobiçskiy |
| Bonyak (*Bənək*) | Samoqur Sutoyeviç |
| Kobyak (*Köpək*) | Yaropolk Tomzakoviç |
| Konçak (*Kancıq*) | Roman Koziç , Danila |
| Barak | Yuriy Konçakoviç |

Bonyak kimi *Sarıxan* (Şarukan) da kuman boylarının bir qanadının başında duran şöhrətli xandır. Babası kimi böyük nüfuz sahibi olan və döyüşlərdə göstərdiyi igidliyə görə adı dastanlara düşən *Konçak* XIII əsrin əvvəlində ölür, oğlu *Yuriy* isə xristian adı daşıyır. Konça-




[278] Плетнева, 1990, 102.

[279] Bu adlardakı «b» elementi də qədim boy adlarına qoşulan (eb, oba, bi) morfemi kimi diqqəti çəkir. Qut elbəylərinin adındakı «aba» sözü isə gələnəksəl olaraq, kuman şəxs adlarında davam edir: Arslan-aba, Basar-aba və s.

kın babası Sarıxan, atası *Atrak* və əmisi *Sırçan* haqqında çoxlu bəlgələr vardır, hətta bu bəlgələrə əsasən onun soyundan olan başçıların Osendən Yuriyə qədər beş nəsil şəcərəsini müəyyən etmək olur. Xristianlığı qəbul etmiş kuman-qıpçaq boylarının çoxu zaman-zaman yaşadığı yad toplum içində dilini itirib asimliyasiyaya uğramışlar.

Sarıxan öləndən sonra onu əvəz edən oğlu Sırçan ulusun başında durur, digər oğlu Atrak isə güney bölgələrə nəzarət edir. Vaxtilə Sarıxanın adı gələndə qorxuya düşən qonşu ölkələrin başçıları Sırçan və Atrakdan da çəkinirdilər. Başçılıq etdiyi boylarla Kuban çöllərində oturan Atrak bəy gürcü çarı II Davidin (1088-1125) dəvəti ilə Gürcüstana gəlir və 40 min ailəni bu ölkənin güney bölgələrinə yerləşdirir, özü isə çarın sarayındakı elitaya qoşulur. Bir müddət sonra Sırçan bəy qardaşının Kuman ölkəsinə qayıtması üçün elçi göndərir. Sarıxanın bir-birindən aralı düşmüş oğulları haqqında o çağın rus salnaməsi bənzərsiz bir melodramatik mövzunu qələmə almışdır. Belə ki, dəbdəbəli saray mühitindən Atrakı ayrıla bilməsi üçün Sırçan bəy *Orev* adlı sevimli ozanını çağırıb tapşırır ki, gedib qardaşını bozqıra qaytarmaq üçün ona kuman nəğmələri oxusun, əgər təsir etməsə, apardığı yovşanı ona iylətsin:


Kuman atlısı. Divar rəsmi. (St. Ladislas)

*Poy je yemu pesni polovetskiye…*
*dai yemu pouxati zelya imenem yevşan.*[280]

Və təbii ki, Atrak bəyin bozqıra qayıtmasına əsas səbəb kuman türküsündən daha çox, körpəlikdən qoxusuna alışdığı Qıpçaq Çölünün yovşanı oldu. Sonralar Tamaranın hakimiyəti dövründə də Gürcüstana xeyli kuman ailəsi gəlib yerləşdi. Bu cür məskunlaşma batı ölkələrdə də özünü göstərirdi. Artıq kuman boylarının başqa xalqlar içində ərimə mərhələsi yetişmişdi, çünki Qıpçaq Bozqırına doğudan daha qüdrətli yeni bir axın girmişdi və onun dalğası az müddətdə Karpat dağlarına çatdı. Yeni monqol təzyiqindən qaçan 40 min kuman ailəsi XIII əsrdə Böyük Macar ovalığına sığındı. Kuman soyundan seçilən macar kralları isə XIV əsrdə Macarıstanı Avropanın ən qüdrətli dövlətinə çevirə bildi.

İndiki Rumınya da o çağlarda *Kumaniya* adlanırdı, 1330-da Rumın dövlətinin qurucusu kuman bəyi Basar-Abanın adı isə bu ölkənin quzey bölgəsi Basarabianın adına çevrildi. Kuman soyundan olan bəylər orta

280 «Ona kuman türküləri oxu, yovşan ver qoxulasın» (Плетнева, 1990, 97).

əsrlərdə Macar, Rumın, Bolqar dövlətlərində, Anadolu, Suriya və Misirdə qurulan bəzi dövlətlərin başına keçə bilmişlər. Bunların sırasında Misir məmlük sultanı qüdrətli Bəy Bars xüsuslə fərqlənir. Onun vaxtında Misir dövləti ən qüdrətli çağını yaşamış, monqol-tatar axınının qarşısı burada alınmışdır.

Sonrakı kumanlardan söhbət açmağın nədəni onların qüdrətli türk boylarından olmasını göstərməkdir. Belə ki, vaxtilə Asur-Urartu kimi böyük dövlətlərin arasında müstəqilliyini saxlaya bilməsinin bir səbəbi Kuman ölkəsinin dağlıq ərazisi idisə, ikinci səbəb də onların döyüşkən bir boy olması idi. Subar bəyliyində olduğu kimi, ətrafdakı despotik rejimli ölkələrdən qaçıb Kuman bəyliyinə sığınanlar vardı. Asur çarının Kipşu şəhərində sığıncaq tapan 300 qaçqın ailəsini geri qaytarması haqqındakı bəlgə yuxarıda verilmişdi.

Beləliklə, İkiçayarasında Subar eli dağılandan sonrakı minillərdə zaman-zaman islamaqədər subar, az, qaşqay, lulu-qut, bulqar, turuk, saqa, qamər, kumuq və sair türk boyları kimi, kumanlar da müxtəlif yönlərə köçmüş, getdiyi yerlərə İkiçayarasındakı türk onomastikasını və türk gələnəklərini daşımışlar. Avropada üzə çıxan rəsm və qabartmalarda kuman atlılarının arxaya ox atma başarısı qədim türk savaş taktikasını əks etdirdiyi kimi, qədim Kuman bəyliyində (Hakkaridə) tapılan daş heykəllər də Dəclə yaxasından qədim türk daşbaba-daşnənə gələnəyini quzey və doğu ölkələrə aparan boyların əsasən kuman-qıpçaqlar olduğunu göstərir. Belə bəlgələr həm də Urmu teoriyasının gerçək duruma dayandığını sərgiləyir.



Kuman-qıpçaq daşbaba və daşnənə (daşana) bədizləri

**Azərbaycanda kiçik bəyliklər (m.ö. IX-VII)**

Azərbaycanın güney və güney-batı ərazilərindəki bölgələri birləşdirən Qut elinin mərkəzləşdirilmiş hakimiyəti süqut edəndən sonra bu böyük dövlətin yerində çoxlu müstəqil bəyliklər yarandı. Müstəqil siyasət yürüdən bu kiçik siyasi qurumlar Mana eli yaranana qədər m.ö. II minillik boyu birləşib böyük el qura bilməsə də, onlardan çoxu qonşu dövlətlərə də tabe olmadı. Urmu hövzəsinə asur ekspansiyasının qarşısını dörd-beş əsr boyu ala bilən turuk boyları kimi, buradakı başqa boylar da öz bölgələrinin müstəqilliyini qoruyurdu. Belə ki, Turuk bəyliyinin adı m.ö. XIV əsrəcən yaşadı, Dəclənin yuxarı axarlarında Kuman və Subar bəylikləri isə müstəqilliyini m.ö.VII əsrəcən saxlaya bildi. [281] Təəssüf ki, Turuk, Subar, Kuman bəyliklərinin tarixi tədqiq olunmadığı kimi, Azərbaycanda m.ö. IX-VIII əsrlərdə mövcud olmuş kiçik dövlət qurumlu bəyliklər də indiyə qədər ayrıca tədqiq olunmamış, onların etnik tərkibi öyrənilməmişdir. Mana və Mada elini tədqiq edənlər bu bəyliklərdən bəzisinin yalnız adını çəkməklə kifayətlənmişlər.[282] Ümumiyətlə, m.ö. II minillikdə və I minilin əvvəllərində Azərbaycanın dövlət qurumlarından danışmaq üçün Ön Asiyada iqtisadi-siyasi və etnik-demoqrafik durumu, qonşu bölgələrdə yaranan dövlətlərlə münasibəti nəzərə almaq lazım gəlir.

Balkandan m.ö. II minilin başlarında Anadoluya gələn hindavropa mənşəli nesit boyları buradakı hatların mədəniyətini mənimsəyib, XVIII əsrdən XII əsrə qədər davam edən *Het dövlətini*, Qafqaz dağları ötəsindən gələn qafqazdilli hurri boyları Güney Anadoluda yerli subar-mitan boyları ilə birləşib, İkiçayarasında XVI əsrdən XIII əsrə qədər davam edən *Mitan dövlətini* qurdu. Hurrilərlə eyni mənşəli olub, Van gölü yaxalarında yerləşən urartular isə IX-VII əsrlərdə burada qüdrətli Urartu dövlətini yaratdı. Ərəbistan çöllərindən qalxıb, ayrı-ayrı köç dalğaları ilə İkiçayarasına sızan sami tayfalarından ilk gələnlər *Akad dövlətini*, II minilin əvvəlində gələn sami boyları isə subarların Asur (*Asar) şəhərinə yerləşib «asurlu»

---

[281] «Təpərli kassi, qut, lulu və subar» boylarını məğlub etdiyini yazan Asur çarı I Arikdenil qeyd edir ki, guya XIV əsrin əvvəlində onun atası Turuk bəyliyini və qutların yaşadığı dağları zəbt edibmiş (Дьяконов, 1956, 129, 135); Lakin sonrakı hadisələr göstərir ki, asurlar yalnız Dəclənin sol yaxasındakı bölgələri ələ keçirə bilmişdi.

[282] Yalnız E. A. Qrantovski bu bölgələrin etnik tərkibini geniş araşdırmışdır. Lakin yazar burada ancaq irandilli tayfaların izini axtarmış və bir neçə türk boyadını (bars, börü, saqa, zəngi və s.) yanlış olaraq, irandilli söz kimi vermişdir (Грантовский, 1970; 1971).

olandan sonra XIX əsrdə birinci *Asur dövlətini*, amoreylər XVIII əsrdə *Babil* dövlətini qurdu. II minilin sonunda gələn sami arameylər Quzey Suriya ərazilərinə yerləşsə də, böyük bir kütlə Babil dövlətinə sığındı. Elamın quzeyindən zaman-zaman gəlib, Turna (Diala) çayının sol yaxalarına yerləşən kassilər XVI-XII əsrlərdə Babilistana hakim oldular. Buradakı sumerlər isə bu çağlarda artıq samilərin içində əriyib dilini itirməkdə idi.

Göründüyü kimi, Anadolu və İkiçayarasına m.ö. I minilə qədər Balkan, Qafqaz, Quzey Elam və Ərəbistandan gələn boylar Azərbaycanın qonşuluğunda və sınır bölgələrində yerləşib, müxtəlif dövlətlər qurmuşlar. Bura gələnlərdən hurri, asur və kassi boyları qədim subar ərazilərinə yerləşmişdi. Hətta, hurrilərin kiçik bir hisəsi İkiçayarasının quzeyindən güneyə enib, Kərkük (Arapha) bölgəsində kaloniya şəklində yaşayırdı. Dəclənin orta axarlarına yerləşən asurlar bu çayın doğu yaxalarına da sızmışdı. Kassilər isə Elamın quzeyindən tutmuş Turna çayının sol yaxalarına qədər yayılmışdı. Azərbaycanın iç bölgələrinə isə həmin minillikdə kənardan gəlmə boylar haqqında bəlgə yoxdur.[283] İ. M. Dyakonov doğru olaraq, qeyd edir ki, sonrakı Mana dövlətinin ərazisində III-II minillərdə etnik dəyişmə olmamışdır.[284] Bunu Güney-Azərbaycanda tədqiq olunmuş arxeoloji və antropoloji bəlgələr də təsdiq edir.[285]

Güney Azərbaycanda bölgələr arasındakı etnik əlaqələr Tunc dövrünün arxeoloji, antropoloji, etnoqrafik və onomastik bəlgələrində aydın görünür. Arxeoloji kultur tiplərindəki tipologiyanın əhatəsi isə genişdir:

---

[283] Azərbaycanın qonşuluğunda yaranan dövlətlərin sınır bölgələrə hücumları olsa da, yabançı orduların iç bölgələrə girməsi haqqında bəlgələr yoxdur. II minillik boyu sınır bölgələrə hücum edən asurların XIX-XVIII əsrlərdə turuklarla savaşı, XIV əsrdə Asur çarı Arikdenilin turuk, qut boyları ilə vuruşması, XIII əsrdə I Salmanasarın qutlarla savaşı, Babil çarı I Navuxodonosarın (1126-1105) lulu, kassi boylarına qələbə çalması, II minilin ortalarında güclənib, XIV əsrdə Babili tutan Elam dövlətinin XII əsrdə ətraf bölgələrə yürüşlərinin çoxalması, 1175-də kassilər üzərində qələbə çalması və Mana ölkəsinin yalnız güney bölgələrinə hücum etməsi bəllidir. Lakin bütün bu savaşlar ölkənin daxili bölgələrində deyil, sınır bölgələrində baş verirdi, həm də tutulan bölgələrdə məskunlaşma yox, bölgənin var-dövlətini yağmalayıb aparma olayı gerçəkləşirdi. Bəzi hallarda tutduqları əsirləri də qul kimi işlətmək və ya satmaq üçün özlərilə aparırdılar.

[284] Дьяконов, 1956, 138; Алиев, 1960, 169 (3-cü qeyd).

[285] Rathbun, 1964; Muscarella, 1971; Гашгаj, 1993, 45.

Antropologiya, ölü basdırma adəti, keramika və sair arxeoloji kultur bəlgələrin xülasəsini verən Solmaz Qaşqay yazır: «Urmiyayanı əyalətlərin bizə məlum qədim əhalisi olan kuti-lullubu etnik qrupları hurrilərin buraya gəlməsi ilə tamamilə aradan çıxa bilmədi» (Гашгаj, 1993, 46).

Qiyantəpə IV-II abidələri Elamla, Hisartəpə II, Sialktəpə və Turəngtəpə Türkmənistanın güneyi ilə, Göytəpə D və C qatları Quzey Azərbaycanla eyni kulturu əks etdirir. Əslində, arxeoloji qazıntılardan alınan nəticələr belə də olmalı idi, çünki m.ö. III-I minillərə aid yazılı qaynaqların Güney Azərbaycanda qeyd etdiyi türk boylarının əksəriyəti (*suvar/sabir, qut/uti, az/azər, kəngər, qarqar, qedar, turuk/türk, alban, aran, arman/ermən, saqa, soğan, kuman, bartı/parth, kars/qorus, börü, bars, qapan, qızıl, polad, şat, şatır, şadılı, zəngi* və s.) eyni adlarla Alban dövləti çağından Arazdan quzeydə görünür, sonralar bu boyların adı Türkmənistanda da təkrar olunur.

Güney Azərbaycana m.ö. VIII əsrə qədər kənardan gəlmə yad ünsür olmadığı üçün burada eyni etnolinqvistik mühitdə yaşayan əhali mifoloji, folklor gələnəklərilə də bir-birinə yaxın olub, bütövlükdə eyni etnoqrafik sənət, geyim, təsərrüfat kulturları ilə yaranmış vahid mədəniyyətin daşıyıcıları idi. Mana-Mada bölgələrində əhalinin bir-birindən o qədər də fərqlənməyən geyimi, müxtəlif zümrə tipləri və döyüşçülərin görkəmi barelyeflərdə və müxtəlif əşyaların üzərində əks olunmuşdur. Şəkillərdən aydın olur ki, yalnız elbəyin (çarın) zəngin geyimi çiyninə bars və qoyun dərisi atmış adamların və cəng arabası sürən, ox atan döyüşçülərin geyimindən fərqlənir:





Urmu gölü hövzəsi və ətraf bölgələr əkinçilik üçün yararlı təbii şəraiti ilə seçilir. İndi olduğu kimi, qədimdə də çay vadilərində və dağlararası düzənlərdə dəmyə-kotan əkinçiliyi geniş yayılmışdı. Az yağıntılı bölgələrdə isə süni suvarma arxlarından istifadə olunurdu. Arxeoloji qazıntılar aydın göstərir

ki, Urmu yaxası ərazilərdə böyük suvarma kanalları olmuşdur. Hazırda Güney-Azərbaycanın bütöv İran üçün əkinçilik məhsulları yetişdirən əsas bölgə olması təsadüfi deyil, çünki dünyada ilk dəmyə əkinçiliyi Kərkük ilə Urmu gölü arası ərazidə ortaya çıxmışdır.

Asur-Urartu qaynaqları Urmu hövzəsində böyük taxıl tarlararı və şəhərlərdə taxıl ehtiyatı saxlanan böyük ambarlardan bəhs edir. Hasanlu qazıntısı buradakı ambarda bir neçə buğda növü, iki və altıcərgəli arpa, darı qalıqları aşkar etmişdir. Burada tapılan toxa və oraqlar, Marliqtəpə abidəsində üzə çıxan qoşqu heyvanı ilə tunc kotan modeli əkinçilik kulturunu əks etdirir. IX-VII əsrlərə aid yazılara görə Asur və Urartu dövlətlərinə Azərbaycanın müxtəlif bölgələrindən verilən bac-xərac vergi siyahısında taxıl məhsulu əsas yer tutur. Taxılın daşınmasında yük heyvanları ilə yanaşı, iki və ya dörd çarxlı arabalardan istifadə olunurdu. Bu çağlarda təkcə əkinçilik deyil, bostançılıq, bağçılıq təsərrüfatı da inkişaf etmişdi. Özəlliklə, üzümçülük geniş yayılmışdı. Qaynaqlar müxtəlif şəhərlərdə şərab tuluqları və küplərindən bəlgə verir. Hasanlu abidəsində sıra ilə düzülmüş çaxır küpləri saxlanan zirzəmi tapılmışdır.

Oturaq yaşamlı Azərbaycan əhalisinin bir qismi yaylaq maldarlığı ilə məşğul olurdu. Təsərrüfatın bu növünə üstünlük verən ailələr yarım-köçəri yaşamı ilə yaz aylarından üzü dağlara, küz aylarından üzü qışlağa daima hərəkətdə olurdu. Yarım-köçəri boylar daha çox Zaqros dağlarının ətəyində yaşayanlar idi. Eyni yaşam tərzi həmin bölgədə bugün də davam edir.[286] Lakin bu heyvandar boyların böyük kütləsi m.ö. II minilin ortalarından Orta Asiya yönündə miqrasiya etmişdi. Görünür, Altayacan gedib çıxan *turuk* boyları kimi, digər heyvandar türklərin də doğu və quzey ölkələrə getməsinin səbəbləindən biri də vaxtaşırı asur ordularının hücum edib, sürülərlə mal-heyvanı onların əlindən alması idi.

Paleontoloqların müəyən etdiyi bəlgələrə görə, Azərbaycan qədim çağlarda qoyunçuluğun yarandığı bölgədir. Sonralar burada önəm daşıyan atçılıq geniş yayıldı, m.ö. II minilliyin ortalarından başlayaraq, böyük ilxı sürüləri yetişdirən bölgələrin sayı artdı. Azərbaycanın bölgələrini qarət edən asur və urartu çarlarının yazılarından bəlli olur ki, onların vergi və bac aldığı və ya yağmaladığı ən çox qoyun sürüləri idi. Yağmalanan heyvanlar içində keçi və iribuynuzlu mal, dəvə, qatır və çoxlu at olurdu. Azər-

---

[286] Belə yarımköçərilərə verilən *lulu, padar, kurd* (kürd), *turukman* kimi ilk etnoqrafik adlar məhz bu bölgələrdə yaranmışdı. Ərəbcə *tərəkəmə* (türklər) deyimi də belədir.

baycanın güney və quzey bölgələrindən işğalçıların hər il apardığı yüz minlərlə mal-heyvanın sayı, böyük sürülər haqqındakı bəlgələr göstərir ki, heyvandarlıq burada çox inkişaf etmişdi.

Asur-Urartu qaynaqlarından bəlli olur ki, Azərbaycanda atçılıq ən inkişaf etmiş sahə idi.[287] Azərbaycanda atçılıq haqqında IV bitikdə geniş bilgi verəcəyik, lakin burada qeyd edək ki, İkiçayarasında at olmamışdır. Sumer dilində ata doğu dağlardan gətirilən heyvan kimi *anşu-kurra* «dağ eşəyi» deyilir, ANŞU. KUR. RA şəklində yazılırdı.[288] Qonşu dövlətlərdən asılı vəziyyətə düşmüş Azərbaycan vilayətlərindən alınan bac-xərac, vergi siyahısında birinci qoşqu və minik atı gəlir, yağmaya da ən çox at ilxıları məruz qalırdı. Mada ölkəsindən təkcə VIII əsrin son rübündə asurlar bir dəfəyə 5 min at aparmışdı.[289]

Azərbaycanda əkinçilik və heyvandarlıqla yanaşı, dəmirçilik, toxuculuq, dulusçuluq sahələri də inkişaf etmiş, bu sahələrə aid peşə adamları, sənətkarlar püxtələşmişdi. Güney-Azərbaycanda mis, dəmir mədənləri, arsen, qızıl, gümüş, qurğuşun yataqları metallurgiyanın inkişaf etməsinə imkan yaradırdı. Zəncan, Astara, Qaradağ, Miyanə, Avşar, Xoy bölgələrində zəngin filiz yataqları Güney-Azərbaycanda dəmirçiliyin yayılması və təkmilləşməsinə səbəb olmuşdu. Əlvan metallar, mis, qurğuşun, qızıl və gümüş sırasına IX-VIII əsrlərdə dəmir də əlavə olunmuşdu. Azərbaycandan Orta Asiya, Altay və Quzey-Qafqaza gedən turuk, saqa və subar boyları dəmirçilik sənətini zəngin metal yataqları olan Dağıstan, Ural və Altay bölgələrində yayılıb, inkişaf etməsinə təkan vermişlər.[290]

Azərbaycanın müxtəlif bölgələrində Dəmir çağının ilk mərhələsini əks etdirən arxeoloji tapıntılar və yazılı qaynaqlar göstərir ki, dulusçuluq məmulatı, çeşidli keramik qablar yüksək sənətkarlıqla hazırlanmışdır. Bu

---

[287] Babildə yük və qoşqu heyvanı kimi eşəkdən, sonralar isə qatırdan istifadə olunurdu. Anadoluda at cəng arabalarına qoşulurdu, Misirə isə atı ilk dəfə hiqsoslar (XVIII-XVII) aparmışdı. At II minilin ortalarından sonra Ön Asiyanın əksər bölgələrinə yayıldı.

[288] Дьяконов, 1956, 122.

[289] Eyni qaynaq, 205.

[290] Tunc dövrünün sonu və Dəmir dövrünün əvvəlində türk boylarının Azərbaycandan Orta Asiya - Altay yönündə miqrasiyasını uzmanlar Sialktəpə «B» kulturunun doğuya keçməsilə əlaqələndirirlər (Jettmar, 1956; Массон, 1959, 113-116, 130). Görünür, doğu yöndə bu çağlarda türklərin Azərbaycandan getməsi son dalğa idi və bu dalğa Əfqanıstanın quzeyindəki Ari toplumunun m.ö. XII-XI əsrlərdə dağılması ilə nəticələnmişdir: Buradaki *arilər* (hindiran dilli boylar) İran, Əfqanıstan-Pakistan və Hindistan, həmçinin Orta Asiya, Tacikistan bölgələrinə keçmişlər.

çağda Azərbaycanın həm güney, həm də quzey bölgələrində dəbə düşən at və qoçbaşlı ritonlar (ayaq) diqqəti çəkir. Dəmirçilik sənətinin inkişafı da arxeoloji bəlgələrlə təsdiq olunur və qızıl-gümüş camların üzərindəki rəsmlərdə mifik və folklor süjetləri İkiçayarası motivlərlə saqaların «an üslubu» arasında körpü rolunu oynayır. Ziviyə, Marliktəpə, Kaluraz, Hasanlu və sair dəfinələrdə tapılmış bər-bəzək, qab-qacaq üzərindəki naxış, süjetli qabartma şəkillər «an üslubu» üçün xarakterik cizgilərin ilk örnəkləridir:




Mana və Mada bölgələrində m.ö. II minilin ortaları və I minilin əvvəlində sənətkarlıq məmulatı

Asur çarı Adadnerarinin adı yazılmış muncuğun Xocalıda tapılması aydın göstərir ki, quzeyli və güneyli əksər bölgələr arasında sıx əlaqə olmuşdur.[291] Doğrudur, belə əlaqələrin yaranmasında bölgələrarası ticarət önəmli yer tuturdu, lakin bu təmasların gökündə etnik yaxınlıq faktorunu da diqqətə almaq lazım gəlir. Müxtəlif bölgələrdə protoazər dialektlərində

[291] Xocalı kurqanından tapılan muncuq üzərində mixi yazı ilə «Dünya hökmdarı Adadnerarinin sarayı» sözləri yazılmışdır (АВИИУ, №36). Əgər bu I Adadneraridirsə, onda m.ö. XIV əsrə aiddir, III Adadneraridirsə onda 810-782 illər arasına aiddir.

danışan boylar Ön Asiya mədəniyyətinin daşıyıcıları idi və zaman-zaman buradan ayrı-ayrı yönlərə miqrasiya etmiş türk boyları Atayurdda əldə etdiyi biliyi, dünyagörüşünü, dilini və kultur gələnəkləri getdiyi yeni ölkə və bölgələrə daşıyırdı. Bu baxımdan, «Oğuznamə»ləri, türk mifologiyasını, türk dilini və ortaq sumer-türk motivlərini Azaq dənizi yaxalarından Altaya qədər yayan saqa boylarının «an üslubu» diqqəti çəkir, çünki bu üslubun təməli Ön Asiyada qoyulmuşdur. Əgər «Bilgamıs» dastanındakı Bilgamıs ilə Enkiduya aid süjeti əks etdirən aşağıdakı sumer cizgi rəsmi ilə Kuban bölgəsində Kelermes abidəsindən (m.ö. VI əsr) tapılmış güzgü üzərindəki döymə saqa rəsmini müqayisə etsək, bu iki şəkilin eyni süjet və mövzu ilə bağlı olduğunu görərik.[292]



Enkidu və Bilqamıs



Saqa sənəti.

Kelermes dəfinəsi.



Azərbaycanın güney və quzey bölgələrində əhali əsrlərlə formalaşmış ümumi mənəvi dəyərləri, dini və mifoloji görüşləri gələnəksəl olaraq davam etdirir, milli-mənəvi dəyərlər etnoqrafiyasında və yaratdığı sənət əsərlərində əks olunurdu. Sənət əsərlərində təkcə türk boyları içində formalaşmış «*oğuzlar*», «*oğuz hekayələri*» deyil, həm də Ön Asiya mədəniyyətinin ümumi cəhətləri, özəlliklə, təbiətin ölüb-dirilməsi, «*həyat ağacı*» motivləri və mifoloji süjetlər yer tuturdu. Lakin qonşu etnoslardan fərqli olaraq, türk boyları Tanrıçılıq (Bir Tanrı) və iyələr (Baqa, Qut, Albaşlı, Araz, Asar, Qaşqay və s.) inancı sistemində yer tutan kultlara, qamçılıq (şamanizm) institutuna üstünlük verirdilər. Dini törələri qoruyan və etnoqrafik törənləri idarə edən *qamlar* adətən *maq* boyundan seçilirdi. Dəmir dövrünün ilk çağlarından *maq* termini artıq «kahin» anlamı qazanmağa

---

[292] Kelermes kurqanından tapılan təkcə bu gümüş və qızıl qarışığından (elektra) hazırlanmış güzgünün arxasındakı səkkiz bölməli rəsmin biri deyil, səkkizi də Ön Asiyada bəlli motivləri əks etdirir. Ümumiyyətlə, Kelermes kurqanından çıxan əksər əşyaların üzərində əks olunan «añ üslubu» Mana sənətini təkrar edir (ИПОДГ, 1971, 118-125).

başlamışdı.[293] Sənət əsərlərində eyni mifoloji, dini və folklor motivlərinin əks olunması etnik kök birliyindən irəli gəlirdi. Saqqız yaxınlığında Ziviyə dəfinəsində üzə çıxarılan qızıl-gümüş qab-qacaq və bəzək əşyaları üzərində süjetli qabartma və ya döymə üsullu rəsmlər Ön Asiya sənətilə Saqa sənəti arasında körpüdür. Özəlliklə, bu körpü *qızıl döşlükdə* aydın görünür:



Göründüyü kimi, Azərbaycanda əlverişli təbii şərait çoxsaylı qoyun sürüləri, ilxılar saxlamağa imkan verir, faydalı mineral və filiz yataqları metallurgiyanın, dəmirçiliyin inkişafına şərait yaradırdı. Əhalisi sıx olan yaşayış məskənləri artdıqca kəndlər böyüyür, qala və şəhərlərin sayı artır, tikinti, sənətkarlıq, ticarət inkişaf edirdi. Mana əhalisi varlandıqca ölkədəki bolluq qonşu dövlətlərin işğalçı ordularını maqnit kimi çəkirdi. Qonşu dövlətlər Urmu gölünün çevrəsini özlərinin yem ambarına çevirmək istəyirdilər. Asur, Urartu çarları Azərbaycana soxulub ölkəni çapıb-talasa da, onların Azər xalqının etnik tarixi üçün əvəzsiz qaynaq olan yazıları gəlib bizə çatmışdır.

Əgər əvvəllər Güney Azərbaycanın iç bölgələrində yaşayan protoazər boylarının adı ümumi şəkildə *arattalı* və ya ümumi ad bildirən *lulu, subar, qut* terminləri ilə verilirdisə, artıq *turuk* kimi konkret boylarla vuru-

---

[293] Gün, Ulduz iyə kultları sırasında Ay kultu önə çıxmış, bəzi bölgələrdə Ay tapınağı (məbədi) qurulmuşdu. Göy (=tanrı), Yer-Sub və Baqa teonimləri daha çox doğuya gedən türk boylarında mühafizə olunmuş, Gün, Ay, Ulduz, Dəniz, Dağ və sair bu kimi iyə kultu Oğuznamələrdə yaşamışdır. Bu barədə geniş məlumat IV və V Bitiklərdə verilir.

şan asurlar yazılarında bu boyların və onların yaşadığı bölgələrin adını çəkir, bölgədəki dağ, çay, şəhər, qala və kəndləri sadalayırdılar. Asur və Urartu qoşunları Urmu hövzəsinin bölgələrinə, urartu orduları Göycə gölü yaxalarına yürüş etdikcə, buradakı yer-yurd adları yazılı qaynaqlara düşürdü. Həmin qaynaqlardan bəlli olur ki, protoazər boylarının bir-birindən dağ və çaylarla ayrılan çoxlu bölgələri vardı və onların bəzisində dərəbəylik hökm sürsə də, çoxu kiçik siyasi qurumlu bəylik idi. II Bitikdə «Coğrafi durum» bölməsində cəhətlərə görə ayırdığımız Mərkəzi Azərbaycanda (b-2) bölgə və bəyliklər m.ö. IX-VIII əsrlərdə belə sıralanmışdır:




Asur-Urartu yazılı qaynaqlarından bəlli olur ki, hər bölgədə daş və bişmiş kərpicdən tikilmiş bir neçə möhkəm qala vardı. Bölgəyə düşmən ordusu yaxınlaşanda yüksək gözətiçi (qaravul) məntəqəsində təhlükəni xəbər vermək üçün qalanan odun tüstüsünü görən ətraf kəndlərin əhalisi bu qalalara sığınıb müdafiə olunurdu. Azərbaycanda belə yüksək yerlərdə

qalaların tikilməsi hələ Orta Tunc çağından bəllidir. Onların quruluşunu arxeoloji qazıntılarda və zəbt olunmuş qalalaraın şəkili çəkilən Asur barelyeflərində görmək olur:



Mana və Mada bölgələrində qalalar.
Belə qalalardan birinə asur hücumu.



M.ö. IX əsrdən başlayaraq, Urmu hövzəsinə yürüşlər edən Asur və Urartu çarları burada xeyli ərazini asılı duruma salmış, onların nəzarəti altına düşən bölgələrdə etnik tərkibi zorla dəyişmə siyasəti aparılmışdır. Güney-Azərbaycanın etnik tərkibi bura ari (irani dilli) boyların gəlişinə qədər dəyişməmişdi.[294] Lakin bir tərəfdən, m.ö. II minilin ortalarından türklərin Ön Asiyadan doğu və quzey yönlərə başlanan ikinci böyük köçü,

[294] Mada bölgəsindən doğuda ilk ari boyunun adı (*aribi*) isə m.ö. VIII əsrin sonunda müasir Həmədanla Xorasan arasında qeyd olunur (АВИИУ, №39).

digər tərəfdən, Asur çarlarının m.ö.VII əsrə qədər işğal etdiyi Azərbaycan bölgələrindən böyük kütlələrlə protoazər boylarını Asuriyanın batı əyalətlərinə deportasiya etməsi müəyən qədər Azərbaycanda türk boylarının etnik seyrəkliyinə səbəb olmuşdu. Təkcə 738-ə aid asur sənədində göstərilir ki, Suriya və Fələstinin quzeyinə Azərbaycandan deportasiya olunanlar içində *qut, illili, zəngi* (sanqi və sangili), *nakkabi, budi* və sair boylar vardı.[295]



**Asur cizgi rəsmlərində Azərbaycan əhalisinin köçü, Asura aparılan əsirlər və kütləvi deportasiya.**

Boşalan yerlərə aramey, yəhudi tayfaları gətirilirdi. Urartu çarları da həm Urmu hövzəsi, həm də indiki Ermənistan ərazisindəki bəzi bölgələrdə əhalini yerindən köçürür, bu yerlərə urartu boyları yerləşdirirdi. Subar bəyliyindən danışanda asurların bu bölgə əhalisinə tutduğu divan haqqında söhbət açmışdıq. İsrail çarlığını 721-də dağıdan asurlar 716-da 30 min yəhudini Azərbaycandan deportasiya olunmuş qarqar boylarının yurduna yerləşdirdilər. Sonralar Quzey-Azərbaycanda *dağ cuhudu* kimi tanınan etnik qrupların bir qismi vaxtilə Mada bölgələrinə, oradan da Sasanilərin vaxtında quzeyə köçürülən yəhudilərdir.[296]

---

[295] Дьяконов, 1956, 199.

[296] «Hoşeanın 9-cu ilində Asur çarı Samiriyəni aldı və İsraili Asura sürdü və onları Xalaxda, Qozan çayı olan Xaburda və Medlərin (madların) şəhərlərində oturtdu»; «...Və İsrail öz torpağından Asura sürüldü, bugünə qədər belədir» (II Çarlar, 17. 6; 24).

II minilin sonlarında Əfqanıstanın quzeyinə gələn ari boylarının burada yerləşdiyi bölgə Areya adlanırdı. Onların bir hissəsi m.ö. IX-VIII əsrlərdə Areyadan çıxıb Seistan (Sakastan) üzərindən Elam (İran) yaylasına, bir hissəsi də Madanın güney-doğu bölgələrinə keçmişdi. Mana eli çağında Azərbaycanda irandilli bəlgələr olmadığı halda, artıq Mada elinin ilk çağlarında görünməyə başlayan irandilli adlar get-gedə artır. Bu irandilli boyların Güney-Azərbaycana gəlişi və onların yerləşmə tarixi bəllidir və qədim tarix uzmanlarının əksəri bu gerçəkliyi qəbul edir.[297] Bu da bəllidir ki, Mada eli çağında Türkmənistanın güneyində və indiki Seistan bölgəsində türklərlə irandilli boyların qaynayıb-qarışması sonrakı part və soqd adlanan boylarda özünü büruzə verir.[298] Əhəməni çağından lokal bölgələr üzrə başlanan farslaşma prosesi təkcə türk boyları içində deyil, bölgənin kassi, elam, talış, gilan, mazandaran, bəxtiyar, kürd, lur kimi digər yerli xalqları içində də gerçəkləşir və iran dillərinin müxtəlif dialektləri yaranırdı.[299] Fars dilinə keçən belə yerli xalqların içində hələ də iranmənşəli olmayan bəzi qədim etnonimlər saxlanmışdır. Bir sözlə, protoazər boylarının yaşadığı Atayurd ərazisində iran dillərinin buraxdığı izlər ari boyların m.ö.VII əsrdən Azərbaycana gəlişi ilə ortaya çıxmışdır.

Mada eli yaranana qədər Azərbaycanın mərkəzi bölgələrində yalnız azər türklərinin əcdadları yaşayırdı, sınır bölgələrə isə Asur-Urartu ordularının hücumları ilə sami və qafqazdilli boylar sızmağa başlamışdı. Hələ I Adadnerari və I Salmanasar çağında (XIV-XIII əsrlər) asurların Kərkük tərəfə bəzi hücumları olmuşdu.[300] Sonralar Mana elinin quzey-batısında

---

[297] Bir sıra tarixçilər isə Quzey-Qafqazdan m.ö. VII əsrdə Ön Asiyaya gələn (əslində, qayıdan!) saqa-qamər boylarını da irandilli kimi verirlər. Doğrudur, Azaq-Qaradəniz yaxası bölgələrdə saqaların içində irandilli boylar (sonrakı osetinlər) vardı, lakin Azərbaycana saqa-qamər qayıdışında onların da iştirak etdiyini göstərən bəlgə yoxdur. Hətta, belə bəlgə olsaydı da, bu yürüşdə irandilli boyların kütləvi iştirakı deyil, saqa-qamər axınına kiçik qruplarla qoşulub gəldiyini göstərə bilərdi. Çünki həmin olaylardan sonrakı tarixlərdə Quzey-Azərbaycanda irandilli onomastika yalnız Ərsaq (part) və Sasani sülalələrinin hakimiyəti çağında görünməyə başlayır.

[298] Saqa boylarından qopmuş partların hakim sülaləsi (ərsaqlar) türkmənşəli olsa da, qarşılıqlı evlənmələrlə tabeliyindəki irandilli ailələrlə qohumluq telləri vardır. Təsadüfi deyil ki, M. Xorenatsi İran eposlarının qəhrəmanı Rüstəm Zalı «sakcik» (saqasoylu) adlandırır (Хоренатци, II, 8).

[299] Luristanda yaşayan müasir yarımköçəri lurları İ. M. Dyakonovun farslaşmış kassi boylarından sayması həqiqətə yaxındır (Дьяконов, 1956, 122).

[300] КАН, I. №13; АВИИУ, №2 (səh. 266).

yaranan Urartu, güney-batısında güclənən Asur dövləti sınır bölgələri öz nəzarəti altına salır. IV Salmanasarın (781-772) vaxtından başlayaraq III Tiqlatpalasarın (745-727) hakimiyətə keçməsinə qədər hücumlar ara verir, çünki 780-745-ci illər arasında Asur dövləti zəifləmişdi. II Sarqonun (722-705) vaxtında güclənən asurlar artıq Mana dövlətinin batı və güney sınırlarını Asur əyalətinə çevirir. Bu çağlarda quzey sınırlar da Urartu çarlarının əlində idi, hətta cahan dövləti qurmaq iddiasına düşən II Sardurun 743 və 735-ci il müharibələrində məğlub olması urartuların Azərbaycana geniş ekspansiyasının qabağını aldı. Lakin Rusanın 714-də asurlara məğlubiyətinə qədər urartular VIII əsr boyu dəfələrlə Azərbaycana yürüşlər etmişdir. Həmin əsrin ortalarından isə Mana elinin özü güclənib böyüyür.

Beləliklə, Mana çağınacan bölgələr arası əlaqə göstərir ki, ən azı, mərkəzi bölgələrdə əhalinin etnik tərkibi dəyişməmişdir. Qonşu bölgə, ölkə və dövlətlərlə münasibət, arxeoloji, antropoloji bəlgələr və sənət əsərləri də bunu sübut edir.

Mana eli haqqında əvvəllər müəyən araşdırma aparılsa da, onun siyasi tarixi haqqında ilk elmi tədqiqatı Q. A. Melikişvili yazmış, sonralar isə bu sahədə tədqiqat aparanların sayı artmışdır.[301] Mada tarixinə aid İ. M. Dyakonovun yazdığı əsərdə Mana elinin etnik tərkibi, tarixi coğrafiyası, siyasi-iqtisadi durumu daha dolğun şərh olunmuşdur. Mana ərazisindəki onomastik materialı etimoloji təhlildən keçirən E. A. Qrantovski əsərlərində toponimlərin coğrafi hüdudlarını daha dəqiq versə də, etimoloji yozumların bir qismi istisna olmaqla, bəzisi yanlış, bəzisi də mübahisəlidir. Maraqlı burasıdır ki, Mana-Mada tarixlərinə aid onlarla kitab və yüzlərlə məqalə yazılmasına baxmayaraq, bu dövlətlərin etnik tərkibindən danışan alimlər «zaqros dilləri», «kaspi-zaqros dilləri», «lulubi-kuti dilləri» kimi heç bir linqvistik məna tutumu olmayan ümumi terminlərlə kifayətlənmiş, burada daha çox hurri və irandilli sözlər axtarmağa çalışmışlar. Türkoloq olmayan bu alimlərin qaynaqlarda rast gəldiyi türk sözlərinin üzərindən bilərək və ya bilməyərək sükutla keçməsini anlamaq mümkündür, lakin «Türkologiya» elminin qaynaqlarda onlarla türk etnonimini və yüzlərlə türk yer-yurd adını görməməsini anlamaq olmur. Bütün türk ölkələrində oxunan «Vestnik Drevney İstorii» (Moskva, 1987, №1) dərgisində elamşünas alim Y.Yusifov mixi yazılarda bir neçə türk etnonimi (*su, qut, lulu*) olduğunu faktlarla göstərsə də, türkoloqlar «şirin» yuxudan ayılmadı.

---

[301] Belck 1884; Меликишвили, 1949; 1954; Дьяконов, 1956; Арутюнян, 1970; Гашгай, 1993; Грантовсий, 1970; Алиев, 1960; 1971; Zehtabi, 1998; AT, 1994; 1996; 1998.

Mana eli qurulana qədər kiçik bəyliklər şəklində olan bölgələrin bir qismini m.ö. IX-VII əsrlərdə zaman-zaman Urmu hövzəsinə yürüşlər edən Asur-Urartu orduları zəbt etmiş, boybaşı (*našiku*), kiçikbəy (*bêl âli*) və çar (*šarrâni*) adlanan böyükbəy tərəfindən idarə olunan bəzi bölgələr isə müstəqilliyini qoruya bilmişdi. Asur-urartu qaynaqlarında adı çəkilən bölgələrin çoxunda türk etnotoponimləri diqqəti çəkir. Yer-yurd, şəxs və boy adlarında etnik kimliyi görmək üçün bölgələrdən bir neçəsini gözdən keçirək:




**Arbel bəyliyi.** Adı III minilin sonunda *Urbillum*, sonrakı çağlarda isə *Arbail, Arbelu* şəklində yazılan **Ərbil** bugünəcən özü ilə bərabər adı da yaşayan dünyanın ən qədim şəhəridir. Vaxtaşırı asurların hücumuna məruz qalan Arbel bəyliyi artıq m.ö. I minilin əvvəlində işğal olunaraq Asur dövlətinin əsas əyalətərindən birinə çevrilmişdi. Qutlardan qalma *Arbel* şəhərinin adı yerləşdiyi landşafta görə türk toponimikası üçün

doğma olan Orbel, Urbel adlarına uyğun gəlir. Burada «dağ beli» deyil, kiçik dağlar və təpələr üzərindən keçən aşırımın çökək yerlərini bildirən adın coğrafi anlamı aydın görünür.[302] Ərbil şəhəri, daha doğrusu qədim Ərbil qalası divarları ətrafı xəndəkli təpənin üstündə ucaldılmışdı.

Ön Asiyanın geosiyasi tarixini dəyişən İskəndərlə Daranın məşhur Qavqamel savaşı Ərbil yaxınlığında baş vermişdi. Prototürk yurdu olan Arbel Turuk bəyliyi çağında (m.ö. XIX-XVIII) Asurla Turuk arasında kanton bölgə rolunu oynayırdı, sonrakı çağlarda isə Asur əyalətinə çevrilənə qədər (m.ö. IX) güney-doğuda Kərkük (Arrapha), quzey-doğuda Allabri, quzeydə Kuman adlı türk bəylikləri ilə qonşu idi. Qut eli çağından bugünəcən türk yurdu olaraq qalan Ərbil də zaman-zaman asur, pers, selevki və ərəb işğallarını yaşamışdır. Əhəməni çağında Ərbildə pers hakimiyyətinə qarşı üsyana qalxan saqarti boyu idi.[303] Burada müxtəlif adlı türk uruqları yaşasa da, adları unudulmuş, yalnız protoazər boylarından *bayat* və *türkmanlar* (turukman) öz qədim adını saxlaya bilmişlər.



Asur əyalətlərinə çevrilən Dəcləyaxası bəyliklər

**Arrapha bəyliyi.** Bugün Kərkük adlanan qədim Arrapha şəhəri və eyniadlı bəylik Dəclədən solda Hamrin dağlarının quzey-doğusunda idi. Vaxtilə Qut elinin paytaxtı sayılan Arrapha şəhərini samilər *Al-ilani* adı ilə yad edirlər ki, bu da «tanrılar şəhəri» anlamına uyğun gəlir. Bu halda onun yerli deyimini **Arapa* şəklində bərpa edib «ər apa» anlamı daşıdığını ehtimal etmək olar.[304] Qut eli dağılandan bir neçə əsr sonra Turuk bəyliyinə güvənən Arrapha vaxtaşırı asurların təcavüzünə məruz qalmış, nəhayət bu strajeji bölgədən XVIII əsrdə əl çəkməyən asur çarı I Şamşi-Adad

302 Мурзаев, 1984, 415-416.

303 Дьяконов, 1956, 339; Ş. Günaltaya görə, asurlardan öncə Ərbil şəhəri *Ganxar* bəyliyinin mərkəzi imiş (Günaltay, 1987, 514).

304 Əgər bu ehtimal özünü doğrultsa, onda Aratta adı da «ər ata» modeli ilə bərpa oluna bilər, bu durumda *Ər-Ata* məbudu kişi, *Ər-Apa* məbudu isə qadın obrazında ortaya çıxır.

buranı zəbt edib beş hərbi-inzibati bölgəyə bölmüşdür.[305] Sonra bu bölgə mitan (hurri) və kassi sülalələrinin hakimiyəti altında olmuş, XIII əsrdə yenidən asurların əlinə keçmişdir. Mitan dövlətinin vaxtında bura bəzi hurri ailələri köçmüşdü. Kərkükdən 15 km güneydəki Yorğantəpə (Qasur) XV əsrdən sonra Nuzi adı ilə tanınırdı. Burada hurri koloniyası yerləşən məhəllədən arxeoloqlar çoxlu yazılı bəlgə üzə çıxarmışlar.[306]

Bir çox türkoloqlar Dəclə çayı ilə Zaqros dağları arasında Mosul-Ərbil-Kərkük bölgələrində azər dilində danışan indiki türkmanları bura oğuz-səlcuq köçlərilə gələn türkmənlərlə bağlamağa çalışırlar. Orta Asiyadan qalxıb bu bölgələrdən keçərək Anadoluya yerləşən köç cəmi 40 min ailə idi. Necə olur ki, bu azsaylı türkmən-oğuzlar qısa bir vaxtda Xəzərdən Misirə qədər olan ərazilərdə onlarla türk bəyliyi qurur? Orta Asiyadan batıya olan köçlərin fantastik səviyədə şişirdilməsi tarixi olayların gerçək üzünə pərdə çəkir, Azərbaycan və Güney-Doğu Anadoluda yerli oturaq türklərin varlığını görməzliyə kökləyir. Halbuki Dəclə yaxası bölgələrdə özəl fonetik fərqləri ilə seçilən türkmən dilində deyil, azər dilində danışan türkmanlar (turukman) protoazər boylarıdır.

Arrapha əkinçiliklə məşğul olan otuza yaxın boyun ərazilərini əhatə edən böyük bölgə idi, həm də asurların göz dikdiyi Mana-Mada ölkələrinə gedən yolun qapısı kimi strateji mövqeyi vardı. Ona görə də asur çarları Zaqros dağlarının doğusundakı prototürk boylarından ayrı düşmüş Arrapha əhalisini itaəti altında saxlamağa böyük önəm verir, Arraphadan güneydə Namar, Bit-Hamban bəyliklərini də ələ keçirməyə çalışırdılar.

**Bit-Hamban bəyliyi.** Kassi hakimiyəti süqut edəndən sonra Dəclədən doğuda Diyala çayının orta axarlarındakı ərazilər *karziyabku* (Bit-Karziyabku) adlı bir soyun və *hamban* soyunun idarəsi altında idi və bu durum m.ö. II minilin sonundan I minilin ortalarınacan davam etmişdir.[307]

---

305 Ulamme, Xuratsina, Pakkante («eşşəklər şəhəri» adlanan Abena da bura daxil idi), Kanari, Arzuxina bölgələrinin hərəsi savaş vaxtı min əskər verməli idi.

306 Bu sənədlərin və 45 km aralıda Tell-Faxxara arxivindən əldə edilən sənədlərin çoxu hələ oxunmamışdır. Bir sənəddə qeyd olunur ki, Nuzu qalabəyi *Kuşşixarbe xazannu* (xozeyin) idi. Burada hurricə «alma» anlamında *Xinzuri* qadın adı vardı, türk antroponimiyası baxımından isə *Tulbunay* və *Tarminay* qadın adları diqqəti çəkir. Bölgədə müxtəlif dilli əhali yaşadığı üçün sənədlərdə türk, hurri, kassi, akad adlarının olması təbii idi. Burada *dilmanc* mirzələrdən birin şəcərəsindən aydın olur ki, onun xələfləri də bu sənətlə dolanmışlar (ИДВ, 1988, 73-76).

307 Дьяконов, 1956, 127, 2-ci qeyd.

Protoazər boylarının güney-batı qonşuluğunda olan bu bölgədə Babildən asılı Namru (Namar) və Bit-Hamban bəylikləri IX əsrdən asurlar tərəfindən dəfələrlə hücuma məruz qalır, 744-dən isə tam işğal olunub Asur əyalətinə çevrilir. IX əsrdə burada böyükbəy anlamında hələ *yanzi* titulu və *şedi* (Bit-Şedi), *sanqi* (Bit-Sanqi) etnonimləri işlək idi.[308]

Hamban bəyliyi ilə Ellipi arasında urartu qaynağının Baruata kimi verdiyi Bit-Baru bölgəsi yerləşirdi. Bit-Hamban və Namarla bağlı olaylardan danışan qaynaqlar bir-birindən xeyli aralı yerləşən *Arman* şəhəri və *Arman* dağından bəhs edir. II Sarqon Bit-Hambanda *Kimirra* qalasını tutub, 2200-dən artıq adamı əsir aparır.[309] VIII əsrin sonlarında burada *qamər* (kimmer) qalasının olması, görünür, həmin çağda Azaq yaxasından gəlib Güney Qafqaz və Doğu Anadoluya yerləşən qamərlərlə deyil, kamər//kamban boyları ilə bağlıdır. Belə ki, Hamban adının *Xamban* və qədim percə *Kampanda* variantı burada *kam-ban sözünü ortya çıxırdır.

Qədim prototürk boylarının cüney-batı bölgələrdən biri olan Hamban və Namru əraziləri səlcuqların bura qayıdışına qədər zaman-zaman kassi, babil, asur, pers (əhəməni və sasani), selevki və ərəblərin hakimiyəti altında olmuşdur. Təbii ki, bu bölgələrdə beş-altı dəyişik dillin işlənməsi ilə qədim *şedi* (şad), *sanqi* (zəngi), *kamər*(qamər), *arman* (ermən) və *karzi* (karsi) uruqlarından qalma onomastik bəlgələr də dəyişmişdir. Bu son uruq adının «*karsi boyunun yabqusu*» anlamında *karzi-yabqu* kimi qeyd olunması *yanzi* titulu ilə yanaşı o çağlarda ***yabqu*** titulunun da varlığını ortaya qoyur.

**Zamua bölgəsi.** Kərkükdən doğuda lulu ölkəsi sayılan Zamua bölgəsi qaynaqlarda İç-Zamua adlanan Mana bölgəsinə qədər uzanırdı.[310] IX əsrdə burada vahid siyasi qurum yox idi. Geniş ərazili Zamua ölkəsində boy başçılarına tabe olan müxtəlif boylar kiçik bəyliklər şəklində yaşayırdı. Asur yazıları II minilin ortalarına qədər Lulu ölkəsi adlandırdığı bu bölgədə qut və turuk boylarının yaşadığını qeyd edir.[311] XIV əsrdən sonra Zamua bölgəsinin sınırına qədər Arbela (Ərbil), Arapha (Kərkük), Namar, Hamban bölgələrinə zaman-zaman yürüşlər etmiş asurlar müəyən çağlarda

---

[308] Namar bölgəsinə 843-də asurların yardımı ilə təyin olunan *yanzu* qonşu Bit-Hambandan idi. Bölgə//ölkə adının əvvəlində asurca *soy, yurd, ev* anlamında ***Bit*** sözü yazılırdı.

[309] Дьяконов, 1956, 212.

[310] ARAB, I. § 60 (I, 452-455); АВИИУ, №21; №49 (6); ТУ, 78.

[311] Mari arxivi və АВИИУ, №1, №2, №3, №9.

bu ərazilәri Asur dövlətinin əyalətinə çevirmişdi. Onlar Dəclə yaxasından Mana və ya Mada bölgələrinə girmək üçün Zamuadan keçməli olurdu. Ona görə də, asur ordularının tapdağı altında qalmamaq üçün bu sınır bölgədə çoxlu müdafiə qalaları tikilmişdi.[312]

Zamuanın adı ilk dəfə II Adadnerari (911-890) yazısında çəkilir. IX əsrin əvvəlində ətraf bölgələrə Asur hücumlarının geniş vüsət aldığını görən zamualılar Asur sınırına daha yaxın olan *Daqara* bölgəsinin başçısı ətrafında birləşməyə başlasa da, bu kövrək birlik nəticə vermədi.[313] 881-880-ci və sonrakı illərdə asur hücumları Zamuadakı kiçik bölgə və bəyliklərin bir qismini asılı duruma saldı.[314] Asur yazılarında Zamua ilə bağlı çoxlu yaşayış məskəni, kənd, şəhər və qala adları sadalanır: *Baru, Xudun, Larbusa, Bunasi, Atlila, Parsindu, Zamru, Sipirmen*; bəzi bölgə və boy başçılarının, qalabəylərin adı çəkilir: *Musasin, Kirtiar, Sabini, Ata, Araştu, Ameka.*[315] Bu adların sırasında tərkibi etnonim bildirən bəzilərini gözdən keçirək.

IX əsr asur yazısında Zamuada verilən *Aziru* dağı, bir əsr sonrakı yazıda Zamuaya Araphadan (Kərkükdən) gedən yol üzərində *Azari* şəhərinin yerləşməsi aydın göstərir ki, burada ***azər*** boyları yaşayırdı.[316] Zamuanın güneyində yerləşən *Parsindu* (müqayisə et: *Borsunlu*) yeradında ***bars*** etnonimi olması da şübhə doğurmur, çünki sonralar *Bars* bəyliyinin burada ortaya çıxdığını görəcəyik. Bars bəyliyinin güney-batısında Börü bəyliyi yarandığı kimi, Zamuanın quzeyində də ***börü*** boyunun izi vardır. Belə ki, asur yazısında Kirtiarın başçılıq etdiyi börülər məskəni «*alani şa* $^{URU}$*Barai şa* $^{I}$*Kirtiara*» deyimi ilə verilmişdir.[317] Buradakı Hasanlu abidəsindən tapılan daş qab üzərindəki yazını isə gümanla «İdi ölkəsinin (başçısı)

---

[312] Urmu gölünün güney-batı yaxasında Hasanlu təpədə qazıntı m.ö. X-IX əsrlərə aid böyük qala divarları, saray və məbəd tikililəri, dəmirçi və dulusçuluq emalatxanalarının qalıqlarını aşkara çıxarmışdır.

[313] AT, 1994; Daqar(a) adının *doqar* (*dügər*), *toqar* etnonimi ilə eyni olmsı və toqar/toxar etnoniminin *taqarcık* türkmən boyu və Anadoludakı qədim *Toqarma* (toqar-ma) bölgəadı ilə əlaqəsi mümkündür.

[314] Дьяконов, 1956, 156-159.

[315] Qaynaqlar burada Amaru, İritu, Suritu, Kisirtu, Ammali, Uze, Biritu, Laqalaqa kimi digər yaşayış məskənləri, Lallu, Edir çayadları, Sabua, Etini, Su, Elan (ilan?), Simaki, Aziru dağadlarını da qeyd edir.

[316] Azər xalqı, 2000, 15-16.

[317] Грантовский, 1970, 126; Bu qalanın adı *Til-Bari, Bit-Bari* şəklllərində də qeyd olunmuşdur (Дьяконов, 1956, 156-157, 10-cu qeyd).

Bauri sarayı» kimi oxumuşlar.[318] Lakin bu yazıda «*ölkənin İdi-Bauri sarayı*» deyimi də əks oluna bilər, çünki *İdi* (ıdı, ıduq) qutsal sözü «iyə» (yiyə, sahib) anlamındadır.[319] Belə ki, «tanrı-verdi» qəlibində *idi-berdi* (İyəverdi) adlı türkmən boyu vardır. Bu baxımdan, «qutsal börü» anlamında sonralar *İdi-Qurd* adını yaşadan türklərin İç-Zamua bölgəsində *İdi-Börü* deyimini işlətməsi doğaldır. *Börü* və *börübeq* adlı türkmən boyları da bəllidir. Nəhayət, yada salaq ki, qədim gələnəkləri saxlayan Azərbaycanda «Börülər Atabəyliyi» olmuşdur.[320] Asur yazısındakı börü boyunun bəyi Kirtiar adının isə *Qırdı-ər* modeli ilə yaranması mümkündür.[321]

Qədim qaynaqlarda yer alan Arman, Kuman, Xalman, Kinixaman, Şalaxaman, Kuluman, Bit-Kadaşman kimi toponimlərdən bəlli olur ki, Azərbaycanda *-man* sonluğu yayğın imiş. Bunlardan biri də adı IX əsrin əvvəlində çəkilən *Sipirmen* bölgəadında özünü göstərir.[322] Belə ki, Sipir (*sibir*//*subər*) boyadına qoşulan *-men* sonluğu, görünür, burada Turuk bəyliyi çağından qalan *turuk* boyadına da qoşulubmuş. Bəlkə də, Urmiya şəhərinin yaxınlığında indiki *Torkaman* kəndi və İrak *türkmanları* kimi tanıdığımız azərlər qədim çağın həmin deyimini yaşadır.

Biruni (973-1048) qeyd edir ki, quz (oğuz) türklərindən İslamı qəbul edib, müsəlmanlara qarışanlar iki zümrə arasında *tarcuman* olurdu.[323] Bəzi yazarların ərəbcənin *tarcuman* (dilmanc) sözü ilə *turkman* etnonimi arasında əlaqə görür. Lakin hələ II Sarqon çağında tərcüməçi anlamında «*mana tarqumanı*» deyiminin yazıda əks olunması göstərir ki, türkman adı o çağlardan işlənirmiş.[324]

Zamuada türk adı daşıyan bölgə başçıları (Ameka, Qırdı, Ata və b.) sırasında *Şarsin* adı da diqqəti çəkir. 821-də Urmu gölü yaxasına yürüş edən asur ordusu burada Mektiarın oğlu Şarsina ilə vuruşur.[325] *Sarçın* və ya *Sarışın* kimi oxuna bilən bu bəyin adı məşhur kuman bəyi Sarıxanın

---

[318] ИИ, 1972, 28; Гашгај, 1993, 15.

[319] Qədim türk yazılarında *İdi-Qurd* adı da vardır (ДТС, 203).

[320] Sonrakı bölmələrdə görəcəyik ki, qədim Azərbaycanda bir neçə *börü* (Baru) bölgəsi və *Baru*, *Biru*, *Birute* kəndləri olmuşdur. Hazırda *buri* və *bauri* tirələrinin adı farslaşmış bəxtiar boyları içində də saxlanmışdır (СИ, 636).

[321] Hökməli kəndində qədim türk adları Aruz, Salar, Şıxı kimi *Qırdı* adı hələ də işlənir.

[322] Дьяконов, 1956, 158; "*-man*" haqqında bilgi üçün bax: Чəлилов, 1988, 105-106.

[323] Агаджанов, 1977, 12.

[324] ADD, II, № 865.

[325] Дьяконов, 1956, 164.

oğlu *Sırçan* bəyin adına bənzədiyi kimi, atası da indi İranda *bəxtiar* boyunun adında qalan *Bektiar* adını daşıyır.[326]

Göründüyü kimi, təkcə Zamua bölgəsində m.ö. IX əsrin başlarında *daqar, azar, baru, bars, sibermen* boylarının adı çəkilir, sonrakı illərdə isə burada *suvbi, su, man, zəngi, padar, şatır, urmu* adlı daha bir neçə türk boyunun yaşadığını görürük. Geniş ərazili Zamua ölkəsində sonralar *man* boyadı ilə Mana bəyliyi yarandığı kimi, *zəngi, börü, bars* boylarının yaşadığı bölgələrdə də ayrıca Sangi, Bauri, Parsua bəyliklərinin ortaya çıxdığını görmək olur. Quzeydə Urmu gölünə, güneydə Parsua bölgəsinə qədər uzanan Zamuanın ərazisi böyük olduğundan burada müxtəlif adlar daşıyan çoxlu boyların yaşaması təbii idi və əvvəlki çağlara aid qaynaqlarda onların qut, lulu, türk (turuk) kimi ümumi adlarla verilməsi də doğal idi, çünki o çağlarda asurlar ölkənin iç bölgələrinə bələd deyildi.

**Mana bəyliyi.** XXIII əsrdən qut-lulu boylarının ölkəsi kimi, XIX əsrdən bəzi qaynaqlarda *Turuk* bəyliyi, sonralar *İç-Zamua* kimi tanınan bu bölgə IX əsrdən *Mana* adlanırdı. İç-Zamuanın Mana adlanması buradakı *man* boyunun adı ilə bağlı idi.[327] Qədim türk dilinin sinkretik sözlərindən olan ***man*** həm feil, həm də ad kimi işlənə bildiyi üçün onun türk dillərində çoxlu anlamları vardır.[328] Lakin bunlardan yalnız ikisi - «qoyun» və «xalxal» (hasar) anlamları toponim yaradıcılığında iştirak edir: Belə ki, Manqışlaq adında «*man boyunun qışlağı*» və ya «*qoyun qışlağı*» anlamı, XI əsrdə Kiyev şəhərinin türkcə ikinci *Mankerman* adında isə «*man qalası*» anlamı vardır.[329] Bu baxımdan, Mana toponimi də kənd, şəhər, qala

---

[326] Türksoylu *bəxtiyar* boylarına Orta Asiyada da rast gəlmək olur, lakin onların əksəri indi İranda yaşayır.

[327] Дьяконов, 1956, 163; *Az-a, Saq-a, Mad-a* və sair bu tip adlarda olduğu kimi, *Man-a* adı da *man* etnonimi ilə yaranmışdır. Görünür, XIV əsrdən sonra, turuk (türk) boylarının əsas kütləsi Manadan Orta Asiya yönündə miqrasiya etmişdi, çünki ölkənin adı artıq Turuk bəyliyinin yerində qalmış *man* boylarının adı ilə tanınırdı.

[328] *Feil anlamları*: addımlamaq, kəmər geymək, batırmaq; *isim anlamları*: Man-kənd, dörd yaşlı qoyun, hasar (МК, ДТС, Радлов və b.).

[329] Qərbi Sibirdə türklər yaşayan ərazilərdə *-man* sonluqlu 125 toponimin olduğunu yazan A.P. Dulzon türkləri bu toponimlərin yaradıcısı deyil, daşıyıcısı olduğunu qeyd edir (Дулзон, 1962); Onun dediyindən belə çıxır ki, türklər «man» tərkibli sözləri kimdənsə alıb, bütöv Avpasiyaya yaymışdır. Lakin türk toponimləri üzrə tanınmış uzman O. T. Molçanova həmin siyahıya Dağlıq Altayda işlənən toponimləri də əlavə etmiş və *-man* sonluqlu Açılman, Tolman, Tukman, Kazarman və sair çayadlarını da türkmənşəli olduğunu yazmışdıp (Молчанова, 1974, 112-122).

deyil, bölgə//ölkə adı bildirən xoronim olduğundan qoyun anlamlı *man* sözü ilə ortaya çıxmışdır. Yuxarıda gözdən keçirdiyimiz Zamuanın quzeyi qaynaqlarda sonralar Mana adlandığından burada gördüyümüz *urmu, börü, suvbi, sibermen* boylarını da manalı saymaq olar. Görünür, bu bəylikdə *man* boyları daha çoxsaylı olduğundan siyasi hakimiyət *man* soylu bəylərin əlində idi ki, bölgə Mana adlanırdı.

Qaynaqlarda ilk dəfə adı 828-də çəkilən Mana bölgəsi quzeydən Urmu gölü, güneydən Bit-Sanqi və Parsua bölgələri ilə əhatə olunmuşdu. Mana bəyliyi genişlənib El qurumuna keçəndə qonşu bölgələrdən batıda Karallu, Allabria, Sumbi, güneydə Mesi, doğuda Bit-Kapsi, Maday, Andia, Zigertu, quzeydə Uişdiş, Subi, Baru, Sangi və sair bölgələri də sınırları içinə almışdı.

Mana bəyliyinin özündə önə çıxan *man* boyu olsa da, adları buradakı etnotoponimlərdə əks olunmuş digər türk boyları da yaşayırdı. 828-də Mana bəyliyinin başçısı *Udak* idi. Bu adı *Odaq* kimi də oxumaq olar.

820-də *Barzuta* adlı kiçikbəyin idarə etdiyi *taurli* boyunun Mana bəyliyində yaşaması haqqında bəlgə vardır. Boyadına *tavar//davar* yozumunu verən Y. Yusifovun fikrini xatırladan və bura *tavr, duvarqanlı* etnonimlərini əlavə edən Q. Qeybullayev etnonimi arabalarla düzələn düşərgə anlamındakı qədim *tabur* sözü ilə bağlayır.[330] Bizcə, burada divar, hasar anlamlı taburdansa, qoyun-keçi anlamlı *tavar* (davar) sözü *taurlı* etnonimi üçün daha uyğundur, çünki «heyvandar» anlamlı *tavarlı* boyu ilə yanaşı, Manada *sığırçı* boyu vardı və bunların davamı kimi sonralar ağ//qara epitetli *qoyunlu* boyları da buranın sakinləri idi. Görünür, eyni anlamlı man boyunun bir bölümü ***tavarlı*** adlanırmış. Ümumiyətlə, *keçili, baranlı, qoyunlu* tipli etnonimlər türk toplumunda geniş işlənirdi.

Beləliklə, hələ Mana eli yaranmamışdan əvvəl yalnız Mana bəyliyində *man* boyu ilə bərabər *suvbi, subi, sibirmen, qaralı, taurli (davarlı), padar, börü, urmu* və sair türk boyları vardı. Mana bəyliyində olan qala, şəhər, bölgə və şəxs adlarından Mana eli bölməsində bəhs olunacaqdır.

**Allabria bəyliyi.** Manadan güney-batıda yerləşən *Allabria* ölkəsi VIII əsrin ortalarında Manaya tabe idi. III Salmanasarın vaxtında burada böyükbəy *Yanzi-Buriaş*, II Sarqonun vaxtında isə *İtti* idi. Asur dövlətinə qarşı çıxan İtti Mana çarı *Ulusun* və Karalı canişini *Aşşurli* ilə Urartuyönlü

[330] Гејбуллајев, 1994, 85.

siyasətə qoşulduğu üçün asurlar onu tutub, ailəsi ilə birlikdə Suriyaya sürgün edirlər və bura asur adı daşıyan Belapaliddin canişin təyin olunur.[331]

URU və KUR determinativləri ilə verilən Allabria//Allabra adının anlamına yozum vermək çətindir, çünki bu adda görünən *ala-börü* və ya *alıb-əri* (alpər) sözlərindən hər hansı birinin olmasını təsdiq edən əlavə bəlgə azdır. O çağlarda Şərur-Urmu-Van üçbucağı daxilində olan Ayadu bölgəsində də *Alburi* yaşayış məskəni vardı.[332]

Alabriyanın Mana sınırına yaxın olan Laruete məskəni Mananın paytaxtından 50 km aralıda idi. Asurların 843-dəki hücumuna Mana bəyliyi möhkəm direniş göstərdiyi üçün asurlar sola dönüb Allabrianın Padir qalasını qarət edirlər. 828-də bu müstəqil bəyliyin böyükbəyi *Artasari* idi.[333] Sonralar Allabrianın *Padir bölgəsi* kimi verilməsi göstərir ki, bura *padir* (padar) boyunun məskənidir. Məncə, ***padar*** hər hansı bir konkret boyun adı yox, müxtəlif heyvandar boylara verilən etnoqrafik addır. Belə ki, *padar* adlı türkmən boyu kimi, Azərbaycan və Dağıstanda azər türklərinin *padar* boyları bugün də yaylaq-qışlaq yaşamı ilə seçilən yarımköçərilərdir. Ona görə də hələ Lulu eli çağından bəlli olan *Padir* dağına adını vermiş padar//padir boylarını asur-urartu qaynaqları müxtəlif bölgələrdə qeyd edir.[334]

---

[331] Karallu bəyi Aşşurli adı daşıyır, lakin asurlara qarşı çıxan bu bəyin asur millətindən deyil, Asur şəhərindən olması (Asur-lu) mümkündür. Alabri adında ikinci *a* səsi *alıp (*alp) variantını istisna edir, bu bölgəyə yaxın ərazilərdə *börü* tərkibli çoxlu yer-yurd və boy adlarının olması «yuxarı börülər» anlamında *Ala-buri (>Alabri) variantına üstünlük versə də, bunu hələ sübut olunmamış bir ehtimal kimi irəli sürürük.

[332] ТУ, 15, 21.

[333] Bəzi iranşünaslara görə, bu adın etimologiyasını iran dilləri ilə vermək mümkündür (Дьяконов, 1956, 163; Грантовский, 1970, 185); Doğrudur, Sasanilər çağında sonralar irandilli boylarda Ardaşir//Ərdəşir, Artaş adları işlənir, lakin m.ö. 828-də Allabria bölgəsində padar boyu özünə başçı seçmək üçün gərək buradan min kilometr uzaqda yaşayan irandilli toplumdan bir nəfəri (iranşünasların dediyi *ṛta-sar-* adlı birini) «dəvət» etməli idi. Əlbəttə, belə absurd duruma yalnız nağıllarda rast gəlmək mümkündür. Olsun ki, Azərbaycana sonralar gələn irandilli boylar burada onlarla yerli adı qəbul edib işlətdiyi kimi, Padar bəyi Artasarın və başqa türk adlarında gördüyümüz Artas (ər-taş) tipli yerli adları mana-mada boylarından almışlar.

[334] Parsua ilə Mana arasında yerləşən Paddira, Doğu Anadoluda Paiteru, Van gölündən güneydə müasir *Bidar* ilə eyniləşdirilən Pitura//Bitura//Pidara, Van gölündən güney-batı yöndə müasir Derqin yaxınlığında verilən Dirquni (Tirq-uni?) bölgəsində Piteira toponimlərinin yazılış müxtəlifliyi və onların bir-birindən aralı bölgələrdə olması *padar* adı daşıyan boyların geniş yayıldığını göstərir (ТУ, 156, 158-159).

**Karallu bəyliyi.** Asur yazısında «karalı ölkəsi» anlamında $^{\text{mât}}$*kar-al-li* forması da işlənmişdir.[335] Allabrianın quzey qonşuluğundakı Karalı bəyliyi Mana bəyliyindən batıda yerləşirdi. Hələ IX əsrdən Asur dövlətindən asılı vəziyyətə düşən Karalı bəyliyi VIII əsrin ortalarından sonra qısa vaxtda Mana elinə tabe canişinlik olsa da, avtonomiyasını saxlamış, az sonra yenidən asurlara tabe olmuşdur.

Urartu ilə Mana çalışırdı ki, Asur dövləti ilə aralarında *Karalı* və *Alabri* kimi tampon bölgələri asurlara qarşı qaldırsın. Üsyana qalxan bu bölgələrə 716-da asur qoşunları girdi. Üsyançıları cəzalandıran II Sarqon *İtti* adlı Alabri canişinini ailəsilə sürgün etdi, «asurlu» adlanan Karalı canişini *Aşşurle* isə dərisi soyularaq öldürüldü.

Görünür, asurlar *qaralı* boyları üzərinə canişin qoyduğu asurluya üsyana qoşulduğu üçün daha ağır cəza vermişlər. Ümumiyyətlə, bu boy asur hakimiyyətinin boyunduruğunu geymək istəmirdi. Belə ki, 713-də Mada üzərinə yürüşə çıxan Sarqon yenidən Karalı bölgəsinə girir, çünki bir il əvvəl ***qaralı*** boyu onun təyin etdiyi başçını qovmuşdu. Karalıda üsyançıları cəzalandıran Sarqon buradan Ellipiyə, ordan Mada ölkəsinə keçir.[336]

Asur qaynaqlarında Karalla//Karallu//Karalli şəklində yad edilən etnotoponimi indiyəcən işləkliyini itirməyən *karali, qaralı, qaralar* adlı türk etnonimini əks etdirir: Araz yaxası Vedi, İmişli, Saatlı və Qubadlıda *Qaralar* kəndi, Neftçalada *Qaralı* kəndi, *qara* adlı türkmən boyu bəllidir. İranda bugün şahsevən-aruxlu boybirliyində borçalu, xaderlu, sulduz, duqer boyları ilə yanaşı *karalu* boyu və qədim Karallu bəyliyinə yaxın ərazilərdə, Marağa bölgəsində bir neçə *Karalar* kəndi vardır.[337]

O çağlarda *qaralı* etnonimi işləndiyi kimi, *Karakku* şəklində *Qara* şəxs adına da rast gəlmək olur. Belə ki, bir az sonra danışacağımız Qarqar bəyliyində uriakların başçısı Karak (*Karakku ša* $^{\text{KUR}}$*Urika*) haqqında bəlgə vardır.[338]

---

335 Дьяконов, 1956, 210 (3-cü qeyd).

336 Görünür, bu çağda Karalı canişinliyinin ləğv edilərək Zamuaya birləşdirilməsi qaralı tayfalarının birliyini zəiflətmək, vaxtaşırı burada anti asur ovqatının yüksəlməsini boğmaq məqsədi daşıyırdı.

337 СИ, 1957, 599, 630.

338 Lakin E. A. Qrantovski *Karakku* adının kökündə «camaat», «qoşun» anlamlı *kara* sözü olduğunu və hay dilindəki *Kara-pet* adında olduğu kimi Karakku adının da «qoşun başsıçısı» anlamı bildirdiyini yazır (Грантовский, 1970, 267); Əslində, bu yozum türk və monqol dillərindəki eyni anlamlı *qara* sözünün iran-hay dilinə keçməsini təsdiq edir.

**Mesi bəyliyi.** Adı ilk dəfə 834-də çəkilən bu bəyliyin adı asur yazılarında me-is-si, me-sa-ai, mi-is-si farmalarında verilir. V Şamşi-Adad çağında (820) asurlar *sunbi* (suvbi), *man, taurli* və *bars* boylarından xərac alandan sonra Mesi bölgəsinə keçirlər. Burada müqavimətə rast gələn asurlar 500 yaşayış məskənini yağmalayıb dağıdır. Asur çarı keçilməz dağlara sığınan mesiləri «vahiməyə salıb» buradan Qızılbud ölkəsinə keçir.[339] III Adadnerari yazısında da Mesi bölgəsinin adı Qızılbudla yanaşı çəkilir, II Sarqon isə Parsuadan çıxıb, onu Sirdak (Zirdiak) qalasında gözləyən Mana çarı Ulusunla görüşmək üçün manalılar ölkəsinin Mesi bölgəsinə gəlir. Başqa yazılarda da Mesə ilə Parsua qonşu bölgələr kimi qeyd olunur. Göründüyü kimi, mesə//mesi boylarının yaşadığı Mesi bölgəsi Mananın güneyində, Parsuanın quzey-doğusunda, Qızılbud ölkəsinin batı sınırında idi. Urartu yazıları da Meişta şəklində verdiyi şəhəri bu bölgədə, yəni Parsua ilə Mana arasında qeyd edir.[340]

Mesi əhalisinin *man* boylarından və ya etnik cəhətdən onlara yaxın olması haqqında fikir söylənmişdir.[341] Alban-Aran elində Misia (*Μισία*) adlı şəhərin olması diqqəti çəkir (Ptol. V. 11. 4-5). Tufana aid bir Sumer qoşmasında *mesu* ağacından bəhs olunur.[342] Türkmənistanın Sakar rayonunda şıx boylarından biri *mesililer* (mesi-li-ler) adlanır.[343] Ola bilsin ki, qədim mesə/mesi ilə türkmən boyu mesili-lər adı arasında bağ vardır, ancaq bu təsadüfi oxşarlıq da ola bilər. Türk etnonimikasında *ağacəri* (ağac-əri) və *mişarı* (meşə-əri) boyadları vardır. M. Z. Zəkiyev haqlı olaraq bu etnonimləri sinonim sözlər sayır.[344] Doğrudur, *meşə* sözü azər dilində qədim çağlardan işlənir, lakin Mesi toponimində «meşə» anlamı olduğunu söyləmək üçün daha dərin araşdırma aparmaq lazımdır.

---

339 АВИИУ, №34.

340 Mütəxəssislər mənbələrdə KUR və URU determinativi ilə verilən *Mesi//Mesa//Mesu* bölgəsini urartu yazılarında qeyd olunan *Meişta* ilə eyi sayıb, Daştəpə yazısının qoyulduğu Miandubda yerləşdirirlər (AT, 1996, 56); Lakin nəzərə almaq lazımdır ki, Daştəpə yazısında sadəcə Meişta adının çəkilməsi o demək deyil ki, Meişta/Mesa burada yerləşirdi. Urarular Meiştanı qarət edəndən sonra Daştəpəyə gəlib yazı qoymuşlar.

341 Меликишвили, 1949, 62.

342 «Yeri-göyü silkələyən, ananı uşağı ilə alıb aparan, qamışlığı dağıdan, yetişən taxılı selə basan, hər şeyə hökmü çatan, bərələri yıxan qarşısı alınmaz, rəqibsiz Tufan böyük ***mesu***-ağacları kökündən qoparır» (ВПФ, 123).

343 Türkmən boyları içində *məş, məşpayalı* da vardır (Атаниязов, 1988, 87, 90).

344 Закиев, 1995.

**Gilzan bəyliyi**. Mana bəyliyindən quzeydə Urmu gölünün batı yaxası və Böyük-Zab çayının yuxarı axarı boyunca uzanan Gilzan bölgəsi hələ II Tukulti-Ninurta çağından bura ayaq açan asurların 885, 856 və 837-dəki hücumlarına məruz qalmış, 820-ci illərdə isə Urartu çarı İşpuini Gilzanı və onun batı qonşuluğundakı Musasir bölgəsini tutub Urartu ərazilərinə qatmışdı.[345] Lakin əvvəllər Gilzan bəyliyinin əraziləri sayılan yaşayış məskənlərinin 680-də Manaya tabe olduğunu görmək olur.

IX əsrin ortalarında *Asa*, sonralar *Upu* bəyin idarə etdiyi Gilzan bəyliyi varlı bölgələrdən biri idi. Belə ki, asurlar buradan at, iri və xırdabuynuzlu heyvan, ikihürgüclü dəvə, şərab, gümüş, qızıl, qurğuşun, tunc qablar bac alırdı. Asa bəyin «qardaşları və oğulları» ilə III Salmanasarı qarşılaması göstərir ki, bölgənin siyasi qurumu bir soyun əlində idi. Əgər Kassi çarı II Kuriqalzunun (XIV əsr) asurlarla vuruşduğu Kilizi adlı məskən və Xubuşkia, Suqun yönündə geri qayıdan III Salmanasar *quzanlı* Asa bəydən 830-da bac aldığı bölgə həmin Gilzandırsa, onda bu adın Gilzan//Quzan//Kilizi yazılış variantları ortaya çıxır ki, bu da onun etimoloji yozumunu çətinləşdirir.[346]

D. Lükenbill *Asa* bəyin adının Mana çarı *Aza* adı ilə eyni olduğunu yazır.[347] Bu adların qədim as//az etnonimi ilə eyni anlamlı söz olduğunu söyləmək olar, lakin Upu//Ubu şəklində verilən ikinci böyükbəyin adını qədim türkcə «qurğuşun ağı» anlamında olan *ubu* ilə izah etmək çətindir. Asur yazılarında Gilzanın qonşuluğunda verilən və uratuların əlində olan *Suqunia* şəhəri isə sonrakı Ağbak dağı ətəyində Başkala yaxınlığındakı Sukan//Sokan ilə eyni sayılmışdır.[348] Bu toponim bir tərəfdən azər türklərinin yayıldığı ərazilərdə çox işlənən *soğan//soğanlı* adlı qədim türk boyunu xatırladırsa, digər tərəfdən *su-qun* tərkibi «su xalqı» anlamını ortaya çıxardır. Hər iki halda qədim Sukan//Sokan etnotoponimi türkcədir.

---

[345] *Gilzan* adı asur yazılarında I Tukulti-Ninurti (XIII əsr) vaxtından çəkilir. Q. Qeybullayev Urmu gölünün batı yaxasını əhatə edən bu bölgə adını *göl* və *ezən* «vadi» şəklində (gölezən >gilzan) izah edir (Гејбуллајев, 1994, 77); E. F. Vaydnerə görə, Kilizi adlı yaşayış məskəni Nineva-Ərbil yolu üzərində imiş və Kassi çarı II Kuriqalzu XIV əsrin son rübündə asurlarla Kilizidə vuruşmuşdur (ИДВ, 1988, 99). Əgər bu Kilizi ilə Gilzan adı arasında əlaqə varsa, onda Xızı bölgəsindəki çağdaş *Giləzi* kəndinin adını yerli dağlıların *Qılızı* şəklində deməsi onun etimoloji açımına yardım edə bilər.

[346] ИДВ, 1988, 99; ТУ, 148.

[347] ARAB, II, 451.

[348] ТУ, 64, 171.

**I Saq-but bəyliyi**. Bəzi qaynaqlarda Bit-Saqbat (*Bit-Sa-aq-ba-at*) kimi qeyd olunan bu bölgə Araziaş və Bit-Barua bölgələrinə yaxın olub, Bit-Hamban bölgəsindən güneydə, Ellipidən quzey-batıda yerləşirdi.[349] Mada ölkəsinin iç bölgələrinə 737-də yürüş edən III Tiqlatpalasar geri dönəndə Saqbut bəyliyinə hücum etmiş, əhali Silxazi dağındakı Tilaşuri qalasında gizlənmişdi.[350]

716-cı və 714-cü illərə aid asur yazılarından bəlli olur ki, Xarxar ölkəsindən batıda üç-dörd yaşayış məskənindən sonra *Saqbat* bəyliyi, Xarxardan doğuda isə *Saqbit* bəyliyi yerləşir. Bəlgələr ***saq*** adlı eyni boyların müxtəlif bölgələrdə yaşamasını və bunlarda «bod» (boy) sözünün fərqli dialekt deyimi ilə (bat//bit) işləndiyini göstərir.[351]

**II Saq-but bəyliyi.** İlk dəfə adı 820-də *Saqbit* şəklində verilən saq boylarının bu ikinci bölgəsinin Qəzvindən güney-batıda Həmədana yaxın yerləşdiyini İ. M. Dyakonov düzgün müəyyənləşdirir, lakin yanlış olaraq saqların I və II bəyliklərini eyni bölgə sayır. İki müxtəlif bölgənin eyniləşdirilməsinə etiraz edən E. A. Qrantovski haqlıdır.[352] Çünki asur qoşunu Saqbitə girəndə bölgəbəyi *Xanasiruk* Xəzərin güney-doğusunda Elburs (Elbars) dağlarına qaçmışdı.[353] Bu bəyliyin Kişesu bölgəsinə yaxınlığı da onun doğuda yerləşdiyini göstərir.

**I Sangi-but bəyliyi.** Parsua və Allabria bölgələri yaxınlığında yerləşən bölgənin adı asur yazılarında *Bit-Sangibutu, Bit-Sangi* şəkillərində verilmişdir.[354] III Tiqlatpalasar 744-də Bit-Sangidə *Mitak* bəyi əsir alır və onun yazısında göstərilir ki, sangi boyundan olan xeyli əhali Suriya və Fələstinə deportasiya edilmişdir. Asur dövləti dağılana qədər bu bölgə asurların tabeliyində olur.

Müasir bəxtiar boybirliklərində *zəngi* boyu və *urak*, *kuzsi* boylarının *zəngi* tirəsi qədim *sangi* boyunun adını saxlamışdır.[355] Türkmənlər

---

[349] Грантовский, 1970, 116.

[350] Marduk məbudunun tapınağı olan bu yerlərin Babilə yaxınlığı bir babilli tərəfindən idarə edilməsi ilə də təsdiq olunur.

[351] Həmin çağlarda Dəclənin yuxarı axarında Sakka adlı kəndin və Van gölündən güneydə də iki Saqa adlı kəndin olması saqaların müxtəlif bölgələrdə yaşadığını göstərir.

[352] Дьяконов, 1956, 166, 201; Грантовский, 1970, 115.

[353] Xanasiruk adının tərkib hissələri (xan-azir-ok?) diqqəti çəkir.

[354] АВИИУ, № 49; TU, 166.

[355] СИ, 1970, 636, 638.

içində *zenqi* boyadına rast gəlmək olur.[356] Görünür, Zəncan adı da zəngi boyu ilə bağlıdır, çünki yerli əhali bu adı *Zəngan* şəklində tələffüz edir.

**II Sanqi-but bəyliyi.** Sangi adlı boyların ikinci bəyliyi Urmu gölündən quzeydə idi və orta əsrlərə qədər bölgənin adı həmin etnonimi saxlamışdı. Belə ki, XIV əsrdə bu bölgənin *Zanqiyan* adlandığını söyləyən Həmdullah Qəzvini Araz çayı üzərində 636-da tikilən Xudafərin körpüsünün də bu bölgəyə yaxın olduğunu yazır.[357] Mosulda Zəngi Atabəyləri dövləti və Güney Qafqazda zəngi boylarının Zəngibasar, Zəngəzur, Zəngilan və başqa bölgələrdə qoyduğu izlər bəllidir.[358]

Araz çayı ilə Urmu gölü arasında böyük bir ərazini əhatə edən bu Sangibut bəyliyi, buradakı yer-yurd və boyadları haqqında II Sarqonun 714-də Azərbaycana etdiyi yürüşün marşrutundan danışarkən (II Bitik, səh. 43-51) bəhs etmişdik. Urartu ordularını təqib edən asurların Mana ərazilərindən keçdiyi yollar üzərindəki yaşayış məskənləri və urartuların zəbt edib on illərlə əlində saxladığı Sangibut bölgəsi haqqında öncə verilən bilgiyə burada yalnız bir-iki bəlgə əlavə etməyə ehtiyac vardır.

Urmu gölünün doğu yaxası ilə quzeyə qalxan II Sarqon ***dəli*** (dalay) boylarının ölkəsində möhkəm tikili Tarui və Tarmakis (Təbriz) şəhərləri ilə bərabər ətrafdakı 30 yaşayış məskənini də yerlə yeksan edir. Ordunun yaxınlaşdığını görən əhali *Kişpal* dağı ətəyində Ulxu şəhərini və zəngi boylarının Urartu çarı Sardurun ordugahı anlamında *«Sardur-Orda»* (Sardurixurda) dediyi gözətçi qalasını tərk edib dağlara qaçır.[359] Asur ordusu Ulxudan keçib Sanqibut ölkəsinə daxil olur.[360] Sangibut bölgəsindən batı yönə çıxan asurlar *Arzabia* və *İrtia* dağlarının arası ilə Urartu torpağına girirlər.

---

[356] Атаниязов, 1988, 72; Zəngilərlə bağlı maraqlı durumlardan biri də budur ki, azər və türkmən dillərinin işləndiyi bölgələrdə zəngi boyu türklüyünü mühafizə etmişdir, lakin fars dili təsirinə uğrayan bölgələrdə zəngi boyları kürd sayılır. Belə ki, bəxtiyar boybirlikləri içində *korde-zəngene* boyu vaprdır. Kerman vilayətində isə 57 kəndi əhatə edən *Zanqiabad* bölgəsində hansı dilin işləndiyini dəqiqləşdirə bilməsəm də, hər halda İranda farslaşmış kürd boyunun zəngenei-kuçek və zəngenei-şahidəşt tirələrinə də rast gəlmək olur (СИ, 1957, 614, 632, 636, 638).

[357] Казвини, 50.

[358] Azər xalqı, 2000, 58-59; Klavixo 1403-də Miyanə yaxınlığındakı qədim *Sanqa* şəhərinin xarabalıqları haqqında yazırdı: «Bu şəhər tamamilə boş idi, lakin deyilənə görə əvvəllər Persiyanın ən iri şəhəri imiş» (ПОА, 1961, 56).

[359] İridağ aşırımından quzey-doğuda olan *Kisbe* dağı qədim *Kişpal* dağına yaxındır.

[360] Təbriz-Azarşəhər yolunda İlxıçı kəndi həmin Ulxudan çox da uzaq deyil.

Urartu sınırında olan *Arzabi* dağ və yeradını urartu dilində «qartal» anlamında olan *artsibi* sözü ilə izah edən uzmanlar (Dyakonov, Melikişvili, Qrantovski və b.) haqlıdır, lakin Arzabi dağ silsiləsinin güya Səhənd dağına qədər uzandığını və burada Arzabi adının türkcə kalka yolu ilə indiki *Bozquş* dağlarının adında qaldığını söyləyən E. A. Qrantovski yanılır.[361] Çünki Sangibut ilə Urartu arasındakı qədim Arzabia yeradı XVIII əsrə qədər buradakı Bayazit paşalığında «ətraf kəndlərdə görünməyən və müxtəlif qablar hazırlanan ağ gil yalnız *Artsab* kəndində var» deyimi ilə tanınır.[362] Buradasa *Bozquş* yox, *Qaraquş* dağı vardır. Göründüyü kimi, Bozquş dağı Sangibut bölgəsindən doğuda, Qaraquş dağısa bu bölgədən batıda yerləşir.

Beləliklə, Təbrizdən Qotur aşırımına qədər urartulardan boşalan məskənlərdə Mana eli yerini möhkəmlədir. Burada asurların dağıtdığı çoxlu yaşayış məskənləri vardı.[363] Buradakı bəzi toponimlərdən urartu-asur dilinin şəkilçilərini atanda *Araz* teonimi və *armun, eli-yad, surçı, surçı-aldı* kimi protoazər söz quruluşuna yad olmayan formalar qalır. Bit-Kapsi bölgəsində Xarxari-Xundir adlı qala olduğu kimi, Sangibutda da Arzabia dağının ətəyində *Xundur-elu* (Yuxarı-Kundur) və *Xundur-şaplu* (Aşağı-Kundur) yaşayış məskənlərinin adı çəkilir. Bisutun yazısındakı *Kundur* yeradı isə Azərbaycanın güney-batı tərəfində idi.

Kundur adlı müasir kəndlərdən biri Mərənd-Təbriz yolunda, o biri isə Təbrizdən güney-doğudadır.[364] Ümumiyətlə, qədim və orta əsrlərdə yazılmış qaynaqlarda və müasir xəritələrdə Həmədan, Qəzvin, Tus civarında xeyli *Kundur* yeradı qeyd olunmuşdur. İranşünaslar bu toponimi əski irandilli yazılarında işlənmiş *Kundur* şəxsadı və *kəndir* sözü ilə izah etmək istəmişlər. Lakin həmin qaynaqlarda Əfrasiyabın silahdaşı *Kundur* pers yox, turanlı kimi verilir.[365]

I Sanqibut bəyliyinin yerləşdiyi bölgədə iki *Arman* toponimi hələ XIV əsrdə I Adadnerarı yazısında qeyd edilmişdi. Bunlardan biri Adem çayının Dəcləyə qovuşduğu Uqarsallı adlı bölgədə *Arman* dağı, digəri isə

---

[361] Грантовский, 1970, 291-296.

[362] Араратский, 1980, 58.

[363] Xurnuku, Xardania, Qizuarzu, Şaşzissa, Uadnaunza, Arazu, Şadişsinia, Sittuarzu, Zirma, Surzi, Eliyadinia, Surzialdiu, Armuna, Kinaştania və sair məskənlər.

[364] ТУ, 233.

[365] Грантовский, 1970, 283-291.

Turna (Diala) çayının yuxarı axarında *Arman* şəhəri idi.[366] Göründüyü kimi, əvvəllər ***Arman*** etnotoponimi I Sangi bölgəsi və ona yaxın ərazidə, sonralar isə II Sangi bölgəsində (*Armun*) təkrar olunur.

Azərbaycanda son iki minildə bir-birini əvəz edən atəşpərəst, xristian, islam dinlərinin təsiri ilə ***zəngi*** sözünün ilkin anlamı azər türkcəsində unudulsa da, buradan doğuya gedən bəzi türk xalqlarının dilində, özəlliklə qırğız-qazax dilində *zəngi* sözünün «qaramal iyəsi» anlamı (Zəngi-Ata) saxlanmışdır. Mal-qaranı himayə edən ruh, iyəadının (*Sang*i) heyvandar prototürk boylarından bəzisinin adında əks olunması etnonimiya qanunlarına tam uyğun gəlir. Deyəsən, sumer-akad yazılarındakı «kahin» anlamlı *şangu* sözü də prototürkl *Sanqi* iyəadına yaxındır. Hələ m.ö. XII əsr Elam yazısında Şangi-par (*Sanqi-bar*) deyimi qeyd olunmuşdur. Sangibut bölgəsində müasir Maku şəhərinin güneyində axan çay *Zəngimar* adını saxlamış, Təbrizlə Əhər arasında *Zəngibar* adı qalmışdır.[367] Beləliklə, Zəngi iyəsinə sığınan heyvandar protoazər boylarının ümumi adı kimi «zəngi-boyu» anlamı ilə qədim *türk-bud(un)* modelində *sangi-but* etnoniminin işlənməsi göz qabağında olan tarixi etnolinqvistik bəlgədir.

**I Bars bəyliyi.** Asur və Urartu çarlarının Azərbaycana yürüşü ilə bağlı sənədlərdə bir neçə Pars//Bars bölgəsinin adı çəkilr.[368] Müxtəlif yazılış formalarında (Parsamaş, Parsu, Barşu, Parsuaş, Parsania, Parisu) təqdim olunan bu bölgələrdən ikisi Manadan uzaqda yerləşir: adı müasir *Paris* kəndinin adında qalan Boxtan çayı yaxasındakı $^{URU}$*Parisu* və adı Elamdan güney-doğuda müasir *Fars* (Persida) bölgəsinin adında qalan və adı ilk dəfə 820-də çəkilən *Parsamaş* (Parsuvaş).[369] Asur yazılarında adı 843-dən bəlli olan I Bars (*Parsua*) bəyliyi isə Mana bəyliyinin güney qonşusu idi və urartu yazısında *Barşua* şəklində qeyd olunurdu.

---

366 Дьяконов, 1960, 129.

367 Sangibut toponimi üzərində bir çox alimlər (F. König, G. Hüsing, V. Eylers və b.) baş sındırmış və onun irandilli olmadığı qənaətinə gəlmişlər. Buna baxmayaraq, həmin toponimin iranmənşəli olduğunu «sübut» etmək üçün iranşünas E. Hersfeld onu *Səhənd* dağadı ilə, E. A. Qrantovski isə qədim iran dili üçün güclə bərpa olunan «əmr», «xəbər» anlamlı *sah(a)- sözündən tutmuş hay dilindəki *Nerses* adına qədər onlarla uyarsız iranmənşəli sözlərlə uzun-uzadı müqayisələr edir. Nəhayət bir şey alınmadığını görəndə belə yazır: «No obyasnit takim obrazom imya Sanqibuti v tselom poka ne udaetsya» (Грантовский, 1970, 231).

368 GNAUT, 62-63; УКН, 24, 127, III; Грантовский, 1970, 133-181; ТУ, 55, 157.

369 ТУ, 157; Дьяконов, 1956, 224; Грантовский, 1970, 143-144, 159, 221-223.

I Bars bəyliyinin adı III Salmanasardan Sinaxxeribə və İşpuini və Menuadan I Argiştiyə qədər asur-urartu yazılarında qeyd olunur. Bu yazılardan bəlli olur ki, I Bars ölkəsi VIII əsrin ortalarına qədər vahid siyasi qurumu olmayan ayrı-ayrı dərəbəyliklərdən ibarət idi. 834-də Parsuanın «27 hökmdarıından», yəni ayrı-ayrı boy başçılarından və 828-də bir neçə «çardan» bac alınmış, sonrakı ildə bir neçə bölgə yağmalanmışdı. Ancaq III Tiqlatpalasarın vaxtında bir *çardan* (Tunaka) bac alınır.[370] Artıq vahid siyasi qurumda birləşən Bars ölkəsini bir böyükbəy idarə edirdi, ancaq Tunak bəy 744-də Asur vilayətinə çevrilən bölgənin son «çarı» oldu.

I Bars bəyliyinin coğrafiyasını müəyənləşdirmək üçün Sarqonun Karalı, Allabri bölgələrini keçib Parsuya daxil olması, batıdan Namru, doğudan isə Mada bölgə başçılarının gətirdiyi bac-xəracı burada alması faktları yardım edir. Tekstoloji təhlil göstərir ki, Mana sınırına yaxın Bustu Bars bəyliyinin quzey bölgəsi idi. I Arqişti yazısında da Buştu toponimi Turnat (Turna=Diala) çayının başlandığı bölgədə verilir.[371]

Bars bəyliyinin tərkibində asur yazılarının *Busutu, Bustus,* urartu yazılarının *Buştu* şəklində verdiyi bu bölgədə yaşayan buslar olsun ki, bir neçə əsr sonra Herodotun mada boyları sırasında verdiyi ***bus*** boyudur. Bustuda Duka(ma) toponimi də vardı.[372] Görünür, Bars adı Parsua bölgəsində m.s. XIII əsrə qədər davam etmişdir, çünki Yaqut əl-Həməvi Qızıl-üzən (Səfidrud) çayının *Barsis* dağlarından başlandığını yazır.[373] Qızıl-üzən çayının başlandığı bölgə məhz I Bars bəyliyinin ərazisi idi. Bu çayın yuxarı axarlarında bars boyu olduğu kimi, orta axarlarında da olması və ya sonradan ora köçməsi mümkün haldır. Çunki buradakı dağlar *Elbars* (el-bars) adlanır. Strabon qeyd edir ki, Xəzərin güney-batı yaxasında yaşayan *anariak* (qeyri-ari) boyu *«indi parsi adlanır».*[374] Sonralar *Elburs* şəklinə düşən bu dağadı Böyük Qafqaz dağlarından birinin (Elburus) adı kimi də ortaya çıxır, onun da ətəyində *qaraçaylar* yaşayır.

---

[370] Грантовский 1970, 138; Asurlar burada Kuşianaş, Kişkitar, Ayubak və sair yaşayış məskənlərini (Nikur, Sassiaş, Tutaşdi, Xarşu, Xarşay, Şanaştik) tutur.

[371] Меликишвили, 1954, 39; Başqa bir *Buştu* Mada tərəfdə idi (Дьяконов, 1956, 201).

[372] ТУ, 75; Əgər KDQ-dakı *Duxa-qoca* ilə bu *Duka* arasında bir əlaqə varsa, onda *bus* boyu da *Boz-oq* sayıla bilər. Bars bölgəsində Ganquxtu (kangoxlu?) toponimi *qanq-ok* tərkibi ilə seçilir. Bu bölgədə *-man* sonluğu ilə işlənən qala adları da vardır: Kinixaman, Şalaxaman.

[373] Әлијева, 1999, 113.

[374] Strabon, XI. 7.1.

Görünür, *barsil* boylarının bir hissəsi Quzey-Qafqaza köçmüşdür, çünki m.s.VI əsrdə burada Barsilia bölgəsi vardı.[375] Atillanın qohumu və silahdaşı *Aybars*, Məmlük sultanı *Bəybars*, türk təqvimində *Bars ili* bəllidir. Mahmud Kaşqari qeyd edir ki, Əfrasiyabın oğlunun adı *Barsqan* idi.[376] Bu böyük türkoloqun öz atası *Barsqan* adlı türk elindən Kaşğara köçmüşdü. Qədim Bars boyları kimi, sonrakı *barsqan, barsil* boyları erkən və orta əsrlərdə Ərdəbil-Bərdə yolundakı *Barsan* şəhərindən tutmuş Quzey Qafqazdakı *Barsil* və Çin sınırındakı *Barsqan* bölgəsinə qədər müxtəlif bölgələrdə görünür. Bars adlı türk boyları çox qədim çağlardan məlumdur. Hələ prototürk boyu subarlırın qonşuluğunda, Fərat çayının orta axarında *Til-Barsib* (Bars-təpəsi) yeradı vardı, asur yazısı 820-də *parsanlı* Zarişu (Sarış?) bəydən bəhs edir.

Protoazər boylarından olan ***bars*** boyunun *az, azər* (xəzər) boyları ilə ilişkisi təkcə Azərbaycanda deyil, bu boyların köç etdiyi quzey və doğu ölkələrdə də görünür. Xəzər-barsil birliyi quzeydə olduğu kimi, az boyunda *Bars* şəxsadının işlənməsi də Kültegin yazısında aydın görünür: «Kiçik bacımızı *az* boyundan olan *Bars* bəyə verdik» (KT, D. 20).

Şota Rustavelinin «Bars dərili bahadır» poemasında olduğu kimi, yuxarıda protoazər geyimlərinə aid verdiyimiz şəkildə də bars dərisindən arxalıq vardır. Mana və mada boylarının geyimini təsvir edən İ. M. Dyakonov yazır ki, varlı bəylər dizə qədər uzanan qolsuz köynək (*tunik*) üzərindən sol çiyinə atılan bars dərisindən, kasıblar isə *qoyun* dərisindən istifadə edirdilər.[377] O dönəmdə bəzi türk boylarının adı da geyimlərinə görə verilirdi və bu gələnək qarapapaq, göydolaq, qaradonlu, şişpapaq və sair türk etnonimlərində davam etmişdir.[378]

---

[375] ТУ, 102; Mixail Suriyalı (1126-1199) yazdığı xronikada qeyd edir ki, *Bulqar* və *Xazar* adlı qardaşlar VI əsrin sonunda Saqa elinin *Barsilia* (İç Skitiya) bölgəsindən çıxmışdır (ИНСК, 119).

[376] *Bars yılı*, *barsqan budunu* ifadələrini qeyd edən M. Kaşqari barsqan boyunun gobud xasiyətli və pinti olduğunu göstərmək üçün bu atalar sözünü misal çəkir: *Kuş yavuzı saqsıqan, yıqaç yavuzı azqan, yer yavuzı kazqan, budun yavuzı barsqan* «quşun pisi sağsağan, ağacın pisi azqan, yerin pisi kazqan, budunun pisi barsqan» (MK, I, 30, 339, 346); Türk xalqı yabanı heyvanları sadalayanda da barsı birinci deyir: «Bars, irbiz, arslan, böri də ulatı yavlaq keyiklər» (ДТС, 211).

[377] Дьяконов, 1956, 363-364.

[378] Görünür, *kipabarutak* (kipa-baru-tak), *paretaken* (pare-tak-en) tipli etnonimlərində də geyimlə bağlı deyimlərin aşkar olunma ehtimalı vardır.

R. Kent *pers* adının madaların «Pārsa» adından (sözündən) yarandığını yazır.[379] Doğrudur, bu söz sonrakı Mada bölgələrində işlənir, lakin Herodotun sadaladığı mad boylarının sırasında bu adı daşıyan yoxdur. Çünki mada boybirliyinə sonradan qoşulan *arizant, struxat* kimi aryan boylarının bir qismi II Bars bölgəsinə gedib yerləşəndən sonra yerli *bars* (pars) etnonimini mənimsəmişlər. Artıq bu *pars* adını daşıyan Əhəməni soyu hakimiyyətə gələndən sonra irandilli parslar ortaya çıxmış və Pars (Pers) dövləti zamanında bu etnonim irandilli boyların ümumi adına çevrilmişdir.[380]

Ona görə də I Bars bəyliyində irandilli boyların izini axtarmaq heç bir nəticə verməz. Bu məsələdə elmi və obyektiv mövqeyi ilə seçilən İ. M. Dyakonov belə yazır: «Parsuadakı toponimlər və şəxsadları irandilli deyil».[381] «Parsua bölgəsində adların analizi göstərir ki, buranın əhalisi heç vaxt irandilli olmayıb və təbii ki, perslərə (onun) heç bir dəxli yoxdur».[382]

Bu baxımdan, *bars//pars* adının irandilli boya şamil olunana qədər türk etnonimi kimi işlənməsi və sonralar da *bars* boyadı şəklində türk toplumu içində davam etməsi faktı diqqətə alınmalı, irandilli boyların *pars* adı ilə tanınması tarixi isə onların II Parsua bölgəsinə gəlmə tarixi ilə sayılmalıdır.

**II Bars bölgəsi**. Hələ IX əsrdə asur qaynağında qeyd olunan *Parsumaş* toponimi sonralar *Persida* kimi tanınan bölgənin adı idi.[383] Bu Bars bölgəsi I Bars bəyliyindən azı 5-6 yüz kilometr güneydə yerləşir. Asura qarşı 689-da müharibə edən Elam və Babil dövlətlərinə qoşulan ölkə və bölgələr sırasında Ellipi, Anzan (Ançan) ilə yanaşı Parsuanın da adı çəkilir və əlli il sonra yenidən bu Bars bölgəsinin adı asur qaynağında qeyd olunur.[384]

Əfqanıstanın quzeyindəki qədim Areya bölgəsindən çıxan *ariyan* (iran) boyları IX-VIII əsrlərdə Elamın güney-doğu sınırında olan Bars

---

[379] Kent, 1950, 87.

[380] Ptolemeyin İrandan doğuda Πάρσιοι, Παρσυῆται adlı boyların və Παρσία, Παρσιάνα adlı şəhərləri olduğunu qeyd etməsi onu göstərir ki, artıq pers boylarının bir qismi doğuya çəkilmişdi.

[381] Дьяконов, 1956, 161.

[382] Eyni qaynaq, 198.

[383] Юсифов, 1958; Дандамаев, 1963, 103.

[384] Дьяконов, 1956, 224 (5-ci qeyd).

bölgəsinə yerləşdi və buradan yaxın bölgələrə sızan bu maldar boyların az sonra yeni yurdda təpərli soyları ortaya çıxdı. Belə ki, artıq VII-VI əsrlərdə Əhəməni böyükbəyləri «*Ançan çarı*» kimi tanınırdı. Aşşurbanapal yazısında I Kuruş *Bars* bölgəsinin «çarı» adlanır: *Kuraş şar* $^{KUR}$*Parsumaş*. Mada dövlətinin canişinliyi kimi Bars bəyliyinin yerli hökmdarı (canişin) sayılan Kuruşun nəvəsi II Kuruş isə artıq 550-də Mada dövlətini devirib, Əhəməni sülaləsinin hakimiyətini qurur.

Rusiya çöllərindən gəlmiş irandilli tayfaları ideallaşdıraraq, Əhəməni sülaləsinin tarixini süni şəkildə şişirtmiş iranşünasları tənqid edən milliyətcə fars olan İran tarixçisi Nasir Purpirar pars/pers sözü haqqında bunu yazır: «Dilçilik elmi *pars* termininin quzey qövmlərinə aid ola bilmə ehtimalını rədd edir. Deməк ki, bu mühacirlərin başlanğıcdan bu adı özləri ilə Ön Asiyaya gətirmələri qeyri-mümkündür».[385]

E. A. Qrantovskiyə görə, «*Parsua* adının irandilli söz olması aydındır».[386] Doğrudur, bu fikri vaxtilə Streck, ondan da əvvəl Marquart (1893), Hüsing (1900) söyləmişlər və yunan deyimi ilə *pers*, ərəb deyimi ilə *fars* adlanan parsların hindiran mənşəli xalq olması aydındır, lakin bu da bəlli bir gerçəklikdir ki, özünü «ariyan» adlandıran bu ari boyları Fars körfəzi yaxasındakı qədim Elam ərazisi olan Bars (indiki Fars) bölgəsinə gəlib yerləşəndən sonra *pars* adlanmışlar.[387]

Ermən bölgəsinə gələn haylara sonralar *ermən* deyildiyi kimi, Bars bölgəsinə gələn arilər də burada yeni *bars* etnik adını mənimsəmişlər. Bu sözün etimologiyasına yanlış yozum verməsinə baxmayaraq, İ. M. Dyakonov düzgün qeyd edir ki, Parsua bölgəsində iranmənşəli toponim və şəxs adı yoxdur.[388]

Əlbəttə, Pars toponiminin iranmənşəli, irandilli olmadığını və arilərin Fars bölgəsinə gəlişinə qədər nə Elamda olan Fars bölgəsində, nə də yuxarıdakı Pars//Bars bölgələrində irandilli bəlgə olmadığını söyləyən qədim dillər üzrə tanınmış uzmanlara (Struve, Dyakonov, Dandamayev,

---

[385] Purpirar, 2002, 90.

[386] Грантовский, 1970, 133.

[387] Arilər burada fars adını qazandı, lakin yerləşdikləri Elam ərazisi sonra onların etnik adı ilə İran (Aryan) adlandı. Keçən əsrin 30-cu illərinə qədər İran adı rəsmi sənədlərdə yalnız Elamı (İran yaylasını) əhatə edirdi. Əhəməni sülaləsinin hakimiyətdə olduğu ilk çağlarda sarayda elam dili işlənirdi.İrandilli osetinlərin də əsas dialekti *iron* adlanır.

[388] Дьяконов, 1956, 161.

Vilçevski və sair) iranşünas E. A. Qrantovskinin etirazı və ari olmayan bir boyun (anariak) sonradan *parsi* adlandığını yazan Strabonun fikrinə irad tutması yersiz görünür.[389]

**Ellipi bəyliyi.** Qaynaqlarda verilən bəlgələrdən bəlli olur ki, Asur ilə Elam arasında bufer zona olan Ellipi bölgəsi geniş ərazini əhatə edir. Belə ki, ilk dəfə adı II Aşşurnasirapal yazısında çəkilsə də, asurlar yalnız 843-də Namar bölgəsindəki yaşayış məskənlərini zəbt edəndən sonra ellipili *Baru* (Börü) adlı başçıdan bac alırlar.[390] 714-də isə artıq Ellipinin böyükbəyi Dalta (Talta) Asur dövlətinin canişini idi. O öləndən sonra (706) ölkədə elamyönlü qüvvələr Asura qarşı üsyan edir.[391] Sarqondan sonra oğlu Sinaxxerib 702-də yenidən Ellipiyə ordu yeridir və kassilər yaşayan yaxındakı məskənləri yağmalayıb, Ellipidən güneydəki bölgələrə keçir. Məqsəd bölgədə Elam nüfuzuna zərbə vurmaq idi. Asurların bu yürüşü ilə Ellipi yenidən Asura tabe olur.[392] Babil və Elam çarları 689-da Asura qarşı birgə müharibə edəndə Ellipi bu anti-asur koalisiyasına qoşulur.

Qaynaqlarda *Ellipi* və *Ellibi* şəklində verilən bu bölgənin adındakı -*pi//-bi* hələ qədim çağlardan cəmlik bildirən sonluq kimi (*lulubi, kaspi*) işlənirdi. Adın *el-li* hissəsi isə bugün də azər dilində aktiv işlənən deyimlərdəndir: *bizim elli, ellimiz, sizin elli, ellilər* və s. Qaynaqların Zəngəzurda (Meğridə) qeyd etdiyi *Elli-dərə* toponimi həmin «elli» sözünü aydın əks etdirir.[393] İrəvan şəhərindən Göycə gölünə gedən yolun üzərində *Ellər* adlı kənd və türkmən boyları içində elbe//yelbe, elli//yelli etnonimləri vardır.[394]

---

389 Əvvəla, *bars* Ön Asiyada yaranmış sözdür. Qədim hindavropa xalqları bu sözü türklərdən aldığı kimi, ruslar da onu XVI əsrdə almışdır. Hindavropalılar *leo* (lev) «aslan» sözünü də semitlərdən (*labu*) almışdır. Hindavropa dillərinin fonetik qanunlarında s/d əvəzlənməsi olmadığı üçün mütəxəssislər bu dillərdə *bars* və *bard* variantları ilə işlənən bu sözün başqa dildən alındığını qəbul etmişlər (Гамкрелидзе-Иванов, 504).

390 Görünür, Baru bəy Ellipinin quzey-batısındakı bir bölgədə başçı imiş, çünki III Tiqlatpalasarın vaxtında Bit-Baru sınır bölgəsi Bit-Hamban vilayətinin tərkibində, Sarqonun oğlu Sinaxxeribin vaxtında isə yenidən Ellipinin tərkibində qeyd edilir.

391 Elam çarı II Şutruk-Naxunte üsyançılara kömək üçün 4500 oxçu göndərsə də, Sarqon bu üsyanı yatırda bilir.

392 Грантовский, 1970, 110; ХПИДВ, I. 213.

393 Bayramov, 2002, 290.

394 Атаниязов, 1988, 67.

Əgər Ellipi adına tarixi kontekstdə baxsaq, onda buradakı *el* sözünün «xalq», «bölgə//ölkə» anlamı deyil, «dövlət» (siyasi qurum) anlamı önə çıxır. Belə ki, yaxın qonşu bölgələrdə özünü göstərən dərəbəyliklər ilə müqayisədə siyasi qurumu olan (***elli***) bir bölgənin «ellilər» anlamında *Ellipi* adlanması mümkündür. Görünür, Elamla Asur arasında tampon bir ölkə kimi Ellipinin müstəqil siyasət yürütmə imkanı daha böyük idi və təsadüfi deyil ki, öz başçılarını Qarqar qalasından qovan qarqarlar 716-da qonşu Ellipi bölgəsinin böyükbəyi Taltanın himayəsinə keçmək istəmişlər.

Ellipini antik dövr yazarları *Elimaida* adlandırır. Tit Liviysə elüme, mada və kadusi boylarının eyni xalq olduğunu vurğulayır.[395] Hər halda, bir neçə etnosun (kassi, elam, asur-aramey, mada) sınır bölgələri ilə qonşuluqda olan Ellipidə müxtəlif dilli boyların yaşaması mümkün haldır. Bu bölgə adının türkcə olması buranın yalnız türk yurdu olmasının göstəricisi sayıla bilməz, hətta ola bilər ki, burada heç türk boyu yox idi, Ellipi toponimi isə qonşu türk bölgələri (Baru, Qarqar, Alınca və s.) əhalisinin bura verdiyi addır.

Adətən müxtəlif etnosların qarışdığı belə bölgələrdə assimilyasiya üçün münbit şərait yaranır. Belə ki, iran dili Ellipi ölkəsinə ayaq açandan sonra buradakı yerli *kürd* (guzeydə), *lur* (güneydə) xalqları fars dilinə keçmişlər. Bugün də tarixi Ellipi ərazisi batıdan ərəb, türkman, quzeydən kürd, quzey-doğudan azər, doğudan fars, güneydən lur boylarının təmas xətti kimi diqqəti çəkir.

**Kişesu bəyliyi.** Qızıl-üzən çayının yuxarı axarında yerləşən bu bölgədə *Kişesu* adlı şəhər-qala vardı və bu bölgə bəyliyinin adı həmin qala adı ilə tanınırdı.[396] Asur cizgi rəsmində hücumlara müqavimət göstərən bir neçə qat divarla əhatə olunmuş Kişesu qalasının möhtəşəm görünüşü vardır. Asurlar bu qalanı alandan sonra adını dəyişib *Uriqallu* qoyur.

---

[395] Əsərlərində etnik məsələyə savadsız yozumlar verən tarixçi İ. Əliyev Ellipi haqqında da yazır: «Ellipi əhalisi şübhəsiz elamdilli idi» (Алиев, 1960,106). Ola bilsin ki, bu fikir doğrudur, lakin «*şübhəsiz elamdilli idi*» deyimini sübut etmək üçün azı bir-iki dil faktı gərəkir. Halbuki, bu adın öz daxili strukturu (*el-li-pi*) və «ellilər» semantikası təmiz türkcədir.

[396] Qaynaqlarda bu adın *kişasu, kişesu, kişesi, kişêsu, kişisa* formaları verilir. Mada ölkəsinin sınırında yerləşən Kişesuda bəzi mad boylarının olması mümkün idi. Kişesuya Karalı bölgəsindən gələn yol Padirdən keçirdi (Дьяконов, 1956, 163, 212).

Asurların çəkdiyi *Kişesu-Uriqallu* qalasının bu şəklində diqqəti cəlb edən cəhət budur ki, qalanın bir tərəfində nizə atan döyüşçülərin qalanı mühasirəyə alanlara dirəniş göstərib savaşması, qalanın digər tərəfində isə döyüşçülərin silahı yerə qoyub boş əllə aman diləməsidir.



Asur dövlətinə qarşı Mada elində başlanan üsyan öncə bu Kişesu qalasındakı asur qarnizonunun qovulması ilə başlandı və 673-də Asura qarşı birləşən mad boyları artıq Kişesu qalasını mühasirəyə almışdı. Bu münasibətlə asur çarı «*Kişesuya onlar girə biləcəkmi, Kişesunu tutub öz ərazilərinə qatacaqmı?*» sualları ilə fala baxdırmışdır.[397] Asur qarnizonu Kişesu qalasında yerləşmişdi. Asurlarların Suriyadan köçürdüyü əhalinin bir qismi buradakı kəndlərdə məskunlaşmışdı. Başqa bir sənəddə asurların buradan batıya tələsik evokuasiyası verilir.

Kişesuya 744-də girən asurlar burada möhkəmlənə bilməsələr də, II Sarqon 716-da buranı təkrar işğal etdi. Kişesu bu çağından Mada eli yaranana qədər Asura tabe olan əyalət mərkəzlərindən biri oldu. Yaxın yaşayış məskənlərindən bəzisi də bura qatılmışdı.[398] Sarqon bu bölgəyə yaxın *Kişeşlu* adlı daha bir qala tutur ki, bu qalanın adı ilə *Kişesu* adı arasında yaxınlıq görünür.

II Sangibut bəyliyindən danışarkən qədim *Arman* etnotoponimləri üzərində dayanmışdıq. Bu toponimlərdən biri də Kişesu bölgəsinə yaxın olan *Armanqu* yaşayış məskənidir. Asur qaynaqlarında Kişesu ilə yanaşı adı *Erenziaş* və *Aranziaş* şəklində çəkilən yaşayış məskəni də vardı. Bu adda isə *eren* və *erençi* topoformantları «döyüşçü» anlamında *ərən* sözü ilə deyil, çox güman ki, «qışlaq» anlamlı *aran* sözü ilə bağlıdır. Çünki orta əsr yazarları (Yaqut əl-Həməvi, Əbu Dülaf) bu ərazilərdə xeyli Aran,

---

[397] АВИИУ, №68 q, (7.- Kn.1); Дьяконов, 1956, 268.

[398] Asurlar bu əyalətə qonşu Bit-Saqbat, Bit-Xirmami, Bit-Umarqi bölgələrini, Xarxubar (Xarbaqmaştum?), Kilambat, Armanqu qalalarını qatmışdı (Дьяконов, 1956, 208).

Aranlı, Arançı kimi toponimlər qeyd etmişlər. Türkmən və qaraqalpaqlar içində isə *arançı* boyları vardı. Bu baxımdan, Erenziaş//Aranziaş bölgə adında etnoqrafik anlamlı ***arançı*** etnoniminin durduğunu düşünmək olar.

**Araziaş bəyliyi.** IX əsrdə mühüm siyasi qurumlu bölgələrdən olan Araziaşın adı ilk dəfə 834-də çəkilir.[399] IX əsrin ortalarından VIII əsrin ortalarına qədər özünün müstəqil siyasi qurumunu qoruyan Araziaş bəyliyini asurlar ikinci dəfə 820-də yağmalayır. Bu vaxt Qızılbut ölkəsindən qayıdan qüdrətli asur ordusuna bölgəbəyi Mansuartanın (*Mançuarta*) hücum etməsi göstərir ki, Araziaşda cəsur tayfalar yaşayırdı. Lakin Araziaş da VIII əsrin sonlarında zəifləyib asurlardan asılı bölgəyə qatıldı.

Bəzən Araziaş (Arazi-aş) adı *Aranzeş* və *Erenziaş* şəklində verilən başqa bir bölgənin adı ilə qarışıq salınır.[400] Lakin Araziaz ilə Erenziaş adları eyni sənəddə (744-də) yanaşı çəkilir və 737-də asur qaynağı bu bölgələri doğudan batıya belə sıralayır: *Erenziaş - Kişesu - Araziaş*. Belə ki, Kişesunun qonşu bölgələri kimi yanaşı verildiyindən Erenziaşla Araziaş ayrı-ayrı yeradlarıdır.[401]

Qaynaqların Elenziaş//Elenzaş şəklində qeyd etdiyi yeradını uzmanlar Ptolemeyin (VI. 2. 13) müasir Kirmanşah yaxınlığında göstərdiyi *Alinza* (ʻΑλινζα) ilə eyni olduğunu yazmışlar.[402] Bu isə Əlincə şəklinə düşən qədim *Alınca* adlı oğuz qalalarından biridir.[403] Ptolemey də Həmədan ilə Kirmanşah arasında iki Alınca toponimi vermişdir.

Araz çayı ilə Van gölü arasındakı Arzaşku (*Araz-aşku*) və qədim toponimlərdən olan *Arazitku* yeradlarında görünən *araz* komponenti bir neçə Mana-Mada yeradlarında təkrar olunur: Araziaş (*Arazi-aş*), Arzizu (*Arazi-zu*) və sair.[404] Urmu gölü ilə Araz çayı arasında yaşayan zəngi boylarının *Arazu* toponimi isə *araz* sözünü daha dəqiq əks etdirir. Belə ki, qədim protoazər boylarında iyəadı olan **Araz** onların yayıldığı ərazilərdə

---

399 Arzaşku (*Araz-aşku*) adında başqa bir şəhər isə Van gölündən quzeydə Urartu məskəni idi (Арутюнян, 1970, 107-108); E. A. Qrantovski *Araziaş* bölgəsini çağdaş İran-İrak sınırında yerləşdirir (Грантовский, 1970, 112).

400 Дьяконов, 1956, 201, 209.

401 Грантовский, 1970, 112-113.

402 Дьяконов, 1956, 224 (3-cü qeyd).

403 «Türkmənlərin soykökü» kitabında Gök xanın oğlu *Alınca xan* ilə yanaşı, *Alınca* yeradı da verilir (Şecere-i Terākime 1996, 320); Bərdə bölgəsində *Alıncalu* kəndi vardı.

404 IX əsr asur yazısında *Arzizu* bölgəsinin başçısı *Ata,* VIII əsr yazısında isə *Dada* adlanır (Грантовский, 1970, 124).

yer və çayadı bildirən toponimlərdə qalmışdır. Nəzərə alaq ki, Herodot indiki Araz çayı ilə yanaşı, Qızıl-üzən çayının yuxarı axarını da *Araz* adı ilə vermişdir.[405]

**Qarqar bəyliyi.** Manadan güneydə asurların işğal edib, Asurdan asılı əyalətə çevirdiyi bölgələrdən biri də *Qarqar bəyliyi* idi.[406] Asurca yazılan qaynaqlarda *Xarxar* ölkəsi adlanan həmin bölgə Urmu gölündən güneydə, Caqatu ilə Diala çaylarının başlandığı ərazidə yerləşirdi. Görünür, o çağlarda Xarxarın (Qarqarın) quzey qonşusu Bit-Kapsi bölgəsində də *qarqar* boyu yaşayırdı, çünki Xarxardan yuxarıda olan bu bölgədə *Karkari-xundir* adlı qala vardı.[407] Xarxarda yaşayan *qarqar* boyları qədim çağlardan Azərbaycanın müxtəlif bölgələrinə yayılmışdı. Dəclə çayınınn solunda *Karxar* (Qarqar) adı hələ XXII-XXI əsrlərdə bəlli idi. Vaxtilə, M. Ştrek bu Karxar ilə *Xarxar* bölgəsinin eyni yer olduğu fikrini söyləmişdir. Lakin *Karkar* (bunu *Kanxar* kimi də oxuyurlar) və həmin dövrdə mövcud olan *Karaxar* subar bəyliyi Zaqros dağ silsiləsinin batısında idi, Xarxar isə həmin dağ silsiləsinin doğusunda yerləşirdi.[408]

Asurların Xarxara 834 və 802-də yürüşü yalnız talançılıq və çoxlu əsir tutub aparmaqla nəticələnmişdi. Ancaq 715-də baş verən hadisələr və bölgəyə yeni asur qoşununun gəlməsi Xarxarın sonrakı durumunu dəyişdi. Xarxar əhalisi 716-da Kibaba adlı başçılarını, asur ekspansiyasına laqeyd olduğu üçün hakimiyyətdən salıb bölgədən qovandan sonra qonşu Elipi bölgəsindəki *Talta* adlı böyükbəyin himayəsinə keçmək istəyirlər.

---

[405] Herodot, I. 202; Bu sıraya *Araştu* (Aras-tu) şəxsadını da daxil etmək mümkündür. Lakin E.A.Qrantovski yanlış olaraq, bu adın Ar-aş-tu-a//A-ra-aş-tu-a formalarında yazılışını *Arşatava(h) kimi bərpa edir və «arşa-tava» deyimində güya «bahadır və ya ayğır və yaxud ayı gücü olan» anlamı daşıyır (Грантовский, 1970, 121).

[406] Əvvəlki yazılarımda Qarqar (Xarxar) bəylyi, Qarqar qalası və qarqar boylarına aid bəzi bilgilər vermişdim: «Azadlıq» qəz. 28 noyabr, 1997; Azər xalqı, 2000, 115-118.

[407] Дьяконов, 1956, 195; Qədim Azərbaycanda Xundir=*Kundur* adlı toponimlər çoxdur. Bunlardan birinin başçısı 820-də Xundurlu *Sarış* bəy idi.

[408] M. Ştreklə razılaşmayan İ. M. Dyakonov qeyd edir ki, Xarxar qalası Şumer çağında qut qalası Bad-Tirikan adlanırdı və şumerlərin nəzərində bura «qut ölkəsinin qənşəri» idi (Дьяконов, 1956, 104, 117); Lakin Bad-Tirikanın (*Türükan qalası*) adı qutların son elbəyi Tirikan ilə deyil, *türk* adı ilə bağlıdır. Belə ki, o çağlarda ayrı-ayrı türk boyları kimi qarqar adı da qut və turuk (türk) etnonimi altında görünməz qalmışdı. Bunu da diqqətə almaq lazımdır ki,Tirikan qalası ilə Mananın güneyində olan Xarxarın eyni qala olması fikrinin tutarlı əsası yoxdur, çünki Karkar-xundir, Xarxar, Karaxar, Karxar toponimlərinin eyni dövrdə müxtəlif bölgələrdə mövcud olması onu göstərir ki, qarqarlar çoxsaylı boylardan olub, geniş ərazilərə yayılmışdı.

Bu hadisədən bir il sonra Asur çarı II Sarqon Xarxarı zəbt edib 714-də Asur əyalətinə çevirir. Əhalinin bir qismini batıya köçürüb, boşalan bəzi yurdlara isə sami tayfalarını yerləşdirir. Sarqon siyasi-inzibati əyalət kimi yenidən qurduğu Xarxarın sınırlarını genişlədir, qonşu Araziaş, Saparda, Urikat, Uriak, Siqris bölgələri (boyları) bura qatır, öz adamlarından birini canişin təyin edir, Xarxar qalasının adını dəyişib, özünün adı ilə *Sarqon qalası* (Kar-Şarrukin) qoyur.[409] II Sarqon qayıdandan sonra bölgə əhalisi və yerli qarqar bəyləri yadelli canişinlərə xoşüz göstərmir, yeri gələndə etirazlarını açıq bldirirdilər. Uriak boyunda olan insident asurları qəti tədbir görməyə məcbur edir. Karak adlı tayfa başçısından sonra boya başçılıq edən onun oğlu kiçikbəy Arpite antiasur mövqe tutduğu üçün 713-də çardan onu hakimiyətdən uzaqlaşdırmaq sifarişi gəlir. Bu münasibətlə Xarxar canişini Nabubelikin cavab məktubunda çara yazırdı: «Karakkunun oğlunu tutub gətirdik, onun yerinə göndərdiyin Rameti isə uriaklar qəbul etmək istəmədi».[410]

Asur hökmdarı II Sarqonun Dur-Şarrukkin sarayınndakı cizgi rəsmində gördüyünüz **Qarqar qalası** dövrün möhtəşəm tikililərindən olub, Xarxar bölgəsinin mərkəzi qalası idi. Sarqonun oğlu Sinaxxerib də atası kimi, strateji mövqedə yerləşən Xarxar bölgəsinə xüsusi maraq göstərirdi. O, 702-də qonşu Bit-Baru bölgəsini Xarxara qatır, onların *Alinza* (Alinca) qalasının da adını dəyişdirib Kar-Sinaxxerib qoyur. Göründüyü kimi, yer-yurd adlarımızın dəyişdirilməsi hələ miladdan öncəki minilrdən başlayıb. Lakin son üç minildə qarqarlar digər türk boyları kimi hara köçmüşlərsə, orada oturduqları yeni yurdlarına, yurddakı dağ və çaylara *qarqar* adını verib, onu yaşatmışlar.[411]



Qarqar qalası, m.ö. VIII əsr

409 Дьяконов, 1956, 209.

410 Eyni qaynaq, 1956, 256-257.

411 Alban elində *Qarqar* bölgəsi *Qarqarçay* yaxalarını, Mil düzünün bir hissəsini və Ağdam bölgəsini əhatə edirdi. Temirxanşura bölgəsində *Karkar*, Kür bölgəsində *Qarqardağı*, Tiflis quberniyasının Axıska bölgəsində *Qarqaris, Qarqardağ*, *Karkar-meydan, Karkar-Kutan* kimi toponimlər göstərir ki, qarqar boyları Dağıstan və Gürcüstan ərazilərində də yaşamışlar (Гейбуллайев, 1991, 77).

Müxtəlif dillərdə yazılmış qaynaqlarda adı *qarqar, karkar, xarxar, karaxar, qarqara, gərgər* şəklinə düşən bu boyadına qədim mənbələrdə Urmu gölü və Dəclə yaxalarında, Kiçik Asiyanın batı bölgələrində rast gəlirik. Antik dövr, orta çağ və sonraki mənbələrdə isə qarqarları Güney və Quzey Qafqazda, İran və Orta Asiyada türk boylarının yayıldığı bölgələrdə görürük.[412]

Tarixboyu Avrasiyanın müxtəlif bölgələrində görünən *qarqar* tayfalarının ilkin Atayurdu sumer və asur mənbələrinə görə, Urmu hövzəsində yerləşirdi. Sonrakı mənbələr isə onlardan bir hissənin Atayurdda qaldığını, digərlərinin isə üç tərəfə - Kiçik Asiya, Qafqaz və Orta Asiya istiqamətdə miqrasiyasını göstərir. İlkin Atayurdda qalan Mosul türkmanlarından Mardindəki çağdaş *qerqeri* boyları minillər boyu qarqar adını yaşatmışlar. Atayurdda qalan və ya bura qayıdan qarqarlar Azər türklərinin soykökünü təşkil edən əsas boylardan biridır. Azər xalqının qurduğu Mana, Mada və Alban dövlətlərində *qarqar* boylarının rolu böyük olmuşdur.[413]

«Məcmu ət-tavarix» əsərində Manas soy başçısı *Karkarın* nəvəsi kimi verilir, Manas soyunun «karkar qıpçağı» adlanması qeyd olunur. V.V. Bartold və S. M. Abramzon da tarixi qaynaqlarda adı keçən qarqarları qıpçaq soylu sayırlar. Türkmənlərin *ərsarı* boylarından biri *qarqar* adlanır.[414] Beləliklə, 714-də Asur əyalətinə çevrilmiş Qarqar bəyliyi ilə əlaqəli olan onomastika sırasında Siqris, Urikat, Uriak, Xarxari-Xundir, Araziaş, Saparda adlarına rast gəlirik. Bunlardan Uriak boyu və onların başçısı Qara haqqında yuxarıda bəhs etmişdik. Bugün *uriak* boyadını bəxtiyarlar içində *urak* boyu saxlamışdır, bu boyun *zəngi* tirəsi də qədim sanqilərdən qalma adla yaşayır.[415] *Urikat* boyadında isə *uruk-at* (uruqlar)

---

412 Qarqar boylarının yaşadığı yerlərdə çoxlu ovalıq, çay, dağ, bölgə və yaşayış məskənləri *Qarqar* etnotoponimi ilə adlanmışdır. Azərbaycan və Türkmənistanda bir neçə *Qarqar-çay* mövcuddur. Azərbaycanda *Qarqardağ,* Qazaxıstanda *Karkarli dağı* vardır. Quzey-Azərbaycanda bir sıra *Qarqar, Karkar, Xarxar* adlı yaşayış məskəni olduğu kimi, Güney-Azərbaycanda da *Baba Gərgər, Gərgəre-olya* (Yuxarı Gərgər), *Gərgər* kəndləri və *Qarqar, Karkar, Xarxar* və hətta adı *Xorxor* şəklinə düşmüş xeyli yaşayış məskəni vardır. M. Xorenatsi (V əsr) yazır ki, Alban elində qarqar boylarının içində xristianlığı təbliğ etmək üçün eynidilli yabanı ağxəzərlərin (türk) əlifbası qarqar ləhcəsinə uyğun yeniləşdirildi.

413 «Azadlıq» qəz. №246, 28 noyabr, 1997; Azər xalqı, 2000, 115-118.

414 Атаниязов, 1988, 46.

415 СИ, 636.

hissələri görünür. Xarxara 716-da qatılan Siqris//Sigrina məskəninin adı da *sığırçı* etnonimi ilə seçilir.[416] Beləliklə, təkcə Xarxar bölgəsi ilə bağlı bir neçə protoazər etnonimi (***qarqar, uriak*, *uruk*, *sığırçı***) ortaya çıxır.

**Sabar bəyliyi.** Asur yazılarında *Saparda* şəklində verilən bu bölgə öncə müstəqil olsa da, sonralar asurların işğalı ilə 716-da Xarxar bəyliyinə qatılmışdır. Uriak məskənindən Arpit bəyin 674-də Sapardaya qaçması da Sabap (Sapar) bəyliyinin Xarxara yaxın olduğunu göstərir. Mana-mada və saqa boylarının birlikdə Asura qarşı çıxdığı ilk dönəmdə asur yazısı bu birliyin hansısa qolunu «acıqlı qurd» epitetilə verir.[417] Hələ 674-də asur vergiyığanlarına qarşı çıxan yerlilərə *saqa* atlı dəstələri yardım etmişdi. Görünür, Mada ölkəsinin əhalisi Asur dövlətinə qarşı çıxanda Saparda bölgəsinin ***sabar*** boyları da bu hərəkata aktiv qoşulmuşdur.

Bu olaylardan altı əsr sonra Xəzər dənizinin güney-doğu yaxasında Hirkaniya ölkəsinin şəhərlərini sadalayan Strabon burada *Samariana* adını çəkir.[418] Bu toponimin əsasında Samari (*Sabar*) adının durması, *sabir* adlı türk boyları haqqında Subar eli və Subar bəyliklərindən danışarkən kifayət qədər məlumat vermişdik.

**Sibar bəyliyi.** Bu kiçik bəylik indiki Zəncan yaxınlığında idi.[419] Mesi bölgəsini 820-də yağmalayan V Şamşi-Adad sonra Qızılbuta keçib vuruşur, oradan Sibar (şi-ba-ra, şi-bar, şi-bu-ur) bölgəsinə, oradan da Madaya keçir. 737-də III Tiqlatpalasar da Madaya Sibardan keçir. Asur yazıları Sibar bölgəsini «Mada ölkəsinin qənşərində» deyimi ilə verir.[420]

Sibar bəyliyi sona qədər Asur əyaləti olmadı, lakin Sibar (Sibur) bəyi Birtatu 714-də II Sarqona ərməğan gətirənlərin siyahısında yer alır. Sibarda böyükbəy 820-də *Enqur*, 714-də isə *Birtatu* idi və bu son adı Herodotun *Prototi* kimi verdiyi saqa boyunun başçısı *Bartatu* bəyin adı ilə

---

416 E. A. Qrantovski 716-da Xarxar bölgəsinə qatılan Siqrisi sonralar Antik çağ yazarlarının Madada Σιγριανή (Strabon, XI. 13, 8) və Σιγριανική (Ptolemey, VI. 2, 3) şəklində qeyd etdiyi toponimlərlə müqayisə edir və bunu *siγr(i)-, *sāigriči- formasında bərba etdiyi sözlərin güya «sarımsaq» anlamlı daşıdığını yazır (Грантовский, 1970, 242-245). Halbuki, onun bərpa etdiyi formalar *sığır*(lı) və *sığırçı* etnonimlərini aydın göstərir.

417 АВИИУ, 68, q; Hirkania adı qədim perscə *Varkana* «qurd ölkəsi» deyiminin təhrif olunmuş formasıdır. Ktesi də buranı *Barkania* adlandırır. Barkan//Varkan formasında isə türkcənin *börü* sözü əks olunmuşdur.

418 Strabon, XI. 7. 2.

419 Дьяконов, 1956, 200.

420 Грантовский, 1970, 108-109.

müqayisə etmək olar. Lakin Birtatu iç-oğuz, Bartatu isə dış-oğuzlardan idi. Manadakı sipirmen//sibermen boyunun da sibar//sibur ilə yaxınlığı görünür.

**I Mada bəyliyi.** İranşünaslar bəzən *mad* boylarının *Mada* (Maday) bəyliyi ilə bu boyların böyük ölkəsi olan Madanı qarışıq salır. Mana eli qurulandan sonra I Mada ona tabe bölgə kimi canişinlik idi və quzeydə Qızılbut, batıda Bit-Kapsi, Saparda, güneydə Sibar bəyliyi ilə qonşu idi. II Mada isə Həmədəndan güney və güney-doğu torpaqları əhatə edirdi və buradakı mad boylarının ittifaqı Mana elinə tabe deyildi. I Mada ilə II Mada arasında ayrıca Sibar bəyliyi vardı.

Mada bəyliyində «Mana canişini» kimi adı çəkilən Dayaukun idarə etdiyi bölgədə mad boyları üstünlük təşkil etdiyindən ərazi *Maday* bölgəsi adlanırdı. Bölgədə nüfuzlu bəylərdən olan *mad* soylu Dayauk Mana elinin daxilində 716-da baş verən qarışıqlıq vaxtı Manadan ayrılıb Urartu ilə ittifaqa girmək istəyir. Bura qoşun yeridən II Sarqon 715-də Dayauku tutub ailəsi ilə Suriyaya sürgün edir. Artıq 673-dəki olaylardan bəlli olur ki, Maday asur əyaləti idi və kiçikbəy Mamitiarşu Asura qarşı başlanan üsyana qoşulmuşdu.

Mada (Maday) bəyliyinin və Mada ölkəsinin adına çevrilmiş ***mad*** etnonimi doğuya köçmüş türk boyları içində geniş yayılan boyadlarındandır. Belə ki, qazaxlarda *matay*, Sibir türklərində *mat, madı* boyları qədim *mad* adını saxlamışdır. I Mada bəyliyinin ərazisində olan indiki Zəncanda da *Madi* və *Madabad* toponimləri həmin madlardan qalmış yadigardır.

**II Mada ölkəsi.** Adı ilk dəfə 834-də çəkilən Mada ölkəsi Həmədandan doğu və güney-doğu bölgələri əhatə edirdi. Mada boybirlikləri də burada formalaşıb VII əsrin ortalarında siyasi meydana çıxmışdı. Burada Asur dövlətinə qarşı türk boylarının başladığı hərəkata həmin çağlarda gəlib yaxın bölgədə yerləşən irandilli boy da qoşulmuşdu. Görünür, saqa türklərindən ayrılmış *part* boyunun bura gələn bəzi irandilli boylarla yaxın əlaqəsi o çağlardan başlanmışdı və bu əlaqə sonralar da Xorasandan Sistana (əski Sakastana) qədər uzanan ərazilərdə davam etmişdir. II Mada boybirlikləri haqqında «Mada eli» bölməsində geniş bilgi veriləcəkdir.

**Qızıl-but bəyliyi.** Asur qaynaqlarında öncə (820-də) Qızılbuda və sonralar isə Qızılbunda şəklində verilən *Qızılbut* ölkəsi Mada ilə Mana eli arasında olub, Andia ölkəsindən güneydə Qızıl-üzən çayının orta axarla-

rında geniş ərazini əhatə edirdi.[421] Bu ölkənin çay vadilərində və dağlıq ərazilərində müxtəlif adlı boyların yaşadığı bir neçə bölgə vardı. Ölkədə yaşayan boylar asur yazısında «*öz gücünə güvənən, başqasına boyun əyməyən, üzərində kənar hakimiyət tanımayan*» epitetləri ilə verilir.

Asurlar IX əsrin son rübündə Mananın doğu tərəfində olan Xəzər yaxalarına can atırdı. V Şamşi-Adadın ordusu 821 və ya 820-də Mesi bəyliyini yağmalayıb Qızılbuta üz tutur və öncə yolboyu bir neçə bölgə və qalabəyindən bac-xərac alıb Uraş qalasına doğru hücuma keçir.[422] Qızılbut ölkəsinin Uraş qalasında 6 min yerli döyüşçü ölür, böyükbəy (çar) *Pirişat* mindən artıq döyüşçüsü ilə əsir düşür. Asurlar Qızılbut ölkəsini talayıb geri qayıdır. Sonralar VIII əsrin müxtəlif illərinə aid asur yazıları Qızılbut bölgəsi haqqında müəyyən bilgilər verir.

Qızılbut ölkəsinin güneyində olan Sibar bəyliyini 737-də qarət edən III Tiqlatpalasarın yazısı burada *Qizinkissi* (Qizinikissi) yeradını qeyd etmişdir. Asur mətnlərini tekstoloji təhlildən keçirən İ. M. Dyakonov doğru olaraq Qizilbud və Qizinkissi şəklində yazılan toponimləri eyni anlamlı ad sayır.[423] Bu, düzgün yozumdur, çünki *altay-kişi, ku-kiji, tatar-kişi* etnonimlərində olduğu kimi, *qızıl-bud* və **qızıl-kişi* deyimləri «qızıl boyu» anlamını uyğun formalarla (*but, kişi*) ifadə etmişdir. I Bars bölgəsində Sarqona hədiyə gətirən Uzumanda başqa bir oxunuşa görə Kisilaxadan gəlmişdi.[424] *Kisil-axa* toponimi Qızıl-üzən çayının qədim adı ola bilər. Sonralar bura gələn irandilli boyların çayın aşağı axarına «qırmızı» (*surx*) yox, «ağ çay» anlamında *Səfidrud* deməsi bir daha göstərir ki, Qızıl-üzən hidronimi rəng bildirən *qızıl* sözünü deyil, *qızıl* etnonimini əks etdirir.

---

[421] Bu adın yazılışında *qızıl* sözünə qoşulan sonluq öncə *-bud*, sonralar *-bund* şəklindədir (Грантовский, 1970, 189); Tayfa (boy) anlamı daşıyan *bud*, xalq (el) anlamı daşıyan *budun* terminlərində kök söz *boδ [bod$^h$] olduğundan müxtəlif dialektlərdə bu kök sözdən *bod* (boy~ bud~ but), *bodun* (budun), *bütün, bütöv* və sair sözlər yaranmışdır; *bud* > *bund* fonetik dəyişməsindəki qanunauyğunluğu isə aşağıda iza edəcəyik. Urartu yazısında bu cür «n» səsartımı fonetik hadisəsinin olduğunu Q. A. Melikişvili də qeyd etmiş və *adani* >*andani* sözünü örnək vermişdir (УКН, 50).

[422] Qızılbut ölkəsinin *bişbizida* «daşlı dağını» aşıb dağlıq bölgələrə daxil olan asurlara Sassiaş qalasının bəyi Titamaşka, Karsibut qalasının bəyi Kiar və Kınak qalasının bəyi Şuma bac verir, Elbars dağının ətəyində Sibar (Sibur) qalabəyi Enqur da asurlara tabe olur (Дьяконов, 1956, 165; Арутюнян, 1970, 140-141; Грантовский, 1970,195).

[423] Дьяконов, 1956, 202.

[424] Арутюнян, 1970, 295.

Qızılbut ölkəsində müxtəlif boylar yaşasa da, *qızıl* boyları daha çox yayılmışdı və bu səbəbdən bütöv ölkə qızıl boylarının adı ilə adlanırdı. Güney Azərbaycanın ən böyük çayına da yaxalarında qızıl boyları yaşadığı üçün *Qızıl-üzən* (qızıl çayı) deyilir. Müasir xəritələrdə Qızıl-üzənin orta və yuxarı axarlarında Qızıl, Qızılkənd, Qızıltəpə adlı kənd və qəsəbələr vardır.[425] Buradan quzey və doğu yönlərdə miqrasiya edən qədim qızıl boyları türkmənlər içində *qızıl, qızıllı, qızılqala, qızılca, qızılqoca* etnonimlərində iz buraxdığı kimi, Altaya gedib çıxan *qızıl* boyu xakas xalqının kökündə durur və Tuvanın başkəndi də *Kızıl* adlanır.[426]

Qızılbut ölkəsində yaşayan boylar içində qədim *xoruz* etnonimi ilə tanınan və çox güman ki, xoruzu Günəşin simvolu sayan uruqlar vardı. Sonrakı I Bars bölgəsində *Xarsu* toponimi hələ sumer mətnlərindən bəlli idi.[427] Yuxarıda Namar bölgəsindən danışarkən Bit-Karziyabku soyunun da *karzi* boyu ilə bağlı olduğunu qeyd etmişdik. Müxtəlif bölgələrdə yaşayan bu uruqlar *koruz, qorus, xurs* və sair formalara düşən etnonimlərlə tanınır.[428] Urmu gölündən batıda da Urartuya qarşı üsyan edən *Karsipara* bölgəsi vardı.[429] Qızılbutda V Şamşi-Adadın bac aldığı boylar arasında yer alan *karsibutlar* məhz *karsi* (*korus) etnonimini əks etdirir.[430] Belə ki, Madanın quzeyindəki Sibar bölgəsindən keçib yuxarı qalxan asurların

---

[425] Qacar boyları içində *xaraslu* boyu vardır (СИ, 1957, 631).

[426] Qızıl-yurd (Dağıstan), *kızıl* adlı türkmən-yavmut, türkmən-göklən, kiçük-tatar, altay boyu, *kızıl-kurt* qazax boyu, üç tamqalı *kızıl-tokum* qırğız boyu qədim qızıl-but boyları ilə bağlıdır, lakin *kızılayak* türkmən-ərsarı, *qızılbaş* azər, *kızılbaş* qırğız, *kızılgöz* təkə-türkmən və *kızılkulak* qırğız boyları isə sonradan bu və ya digər əlamətə görə adlanan uruqlardır. Quzey Azərbaycanda da qızıl boyları ilə bağlı çoxlu yer-yurd adları vardır. Atam Ağası kişinin mənsub olduğu soy da şadılı boyunun qızılanlı tayfasından idi.

[427] Дьяконов, 1956, 170.

[428] Гейбуллаев, 1991, 129-133.

[429] УКН, 342 (№50, 12); *Karsipara* bölgəsinin adı II Sarqon çağına aid bir asur yazısında keçir (АВИИУ, № 50, 12). Əgər qaladan deyil, bölgədən söhbət gedən bu yazıda *Kar-Sipar* (Sibar qalası) yox, *Karsi-para* yeradı verilmişsə, onda «karsi var//verən//gedən» anlamlarından biri bu adda əks oluna bilərdi.

[430] Mixi yazıda «o» səsinin işarəsi olmadığından kors etnonimi *kars* şəklində verilirdi. *Karsi-but* (kar-si-bu-ta-a) toponimində əks olunmuş *kars* boyunun adı həmin bölgədə 672-də Madanın quzeyindəki məskən kimi verilən *Karzitali* yeradında və 713-də adı keçən *Karzinu* (kar-zi-nu-ú), həmçinin Mada ərazisində qeyd olunan *Xarzian* (müasir *Xarsin*?) adlarında görünür (Грантовский, 1970, 315, 325; Дьяконов, 1956, 130, 214; Арутюнян, 1970, 141; АВИИУ, №68, q, 1).

burada adını «xoruzlu ölkəsi» anlamında *mât tarlugalle* kimi tərcümə etdikləri ərazi *Karsi-but* (xoruz boyu) adlı bölgə idi.[431]

Prototürk boylarının yaşadığı ərazilərdə Xoruz, Xoruzlu oronimlərinin yayılması haqqında II Bitikdə «Oronimlər» bölməsində geniş bilgi vermişdik. Bir daha xatırlayaq ki, qədim karsibut boylarının yurdundan quzeydə, Mananın quzey-doğu bölgəsində müasir Talış dağları silsiləsində *Xoruzlu* dağadı indiyə kimi mühafizə olunmuşdur. İranda *xoruslı* adlı baharlı boyu və türkmən emreli boyunun *xorazlar* adlı dağlı tirəsi də bəllidir.[432].

Göründüyü kimi, qədim Azərbaycanda xoruzlu boyunun tarixi çox qədimdir və türkmənlərdə geniş yayılmış bu etnonim, olsun ki, prototürkmən boylarından olan partlar içində də işlək olmuşdur. Belə ki, part və türkmən yurdu olan qədim *Xorasan* və *Xarəzm* kimi böyük xoronimlərinin kökü də Günəşin simvolunu və ya iyə adını bildirən ***xoruz*** etnonimi ilə bağlıdır.



Pazırıq kurqanında m.ö.V əsrə aid dəridən hazırlanmış xoruz siluetləri üzə çıxmışdır.[433] Olsun ki, güzgü stililə işlənmiş bu xoruz fiqurları saqa-qızıl boyları kimi Qızılbut bölgəsindən çıxıb Orta Asiya üzərindən Altaya getmiş «xoruzlu» boylarının onqonu imiş:



Deyilənlərdən bəlli olur ki, Qızılbut ölkəsində müxtəlif adlı boylar vardı: *sibar* (subar), *karsi* (xoruz), *kinak* (kınıq) və *qızıl.* Qızılbut bəyliyinin böyükbəyi 820-də *Pirişad* idi. Bu adın Puruşat//Purşat formaları m.ö.V əsr Babil yazılarında görünür.[434] Pirşad adı iran dillərinə erkən çağlardan keçsə də, saqa boyları içində *Perisad*, digər türk boylarında isə qədim *Pirişat* və *Puruşat* deyiminə uyğun ***Börüşad*** anlamında və formasında davam etmişdir.[435]

---

[431] Дьяконов, 1956, 199-201.

[432] Карпов,1945, 60; Атаниязов, 1988, 124; Özbək elində *Karşi* vilayəti olduğu kimi, başqordların içində də *karşi* boyu vardır (Кузеев, 1974, 51-52).

[433] Райс, 2003, 118.

[434] Грантовский, 1970, 69.

[435] Börüşad adının qədim Gürşad, Türkşad adları ilə eyni morfoloji strukturu vardır.

**Andia bəyliyi.** Asurlar Manadan doğuda yerləşən bu bölgəyə yalnız II Sarqon çağında girdiyi üçün onun haqqında yazılı bəlgə azdır. Bu bəyliyin 716-da *Telusin* adlı başçısı Mana elbəyi Azaya qarşı çıxmışdı. Görünür, bu çağlarda Mana elinin canişinliyi olan Andia bölgəsi əvvəllər müstəqil bəylik imiş, çünki Mananın doğu sınırında olan Panziş qalası «Andia və Zigertu ölkələrinin qənşərində» qarovul yeri kimi verilir. Ola bilsin ki, bu qala indiki Qaravul dağında tikilmişdi. Andia bəyliyi Qızılüzənin aşağı axarlarında Qızılbutla Zigertu bəylikləri arasında müasir Gilan bölgəsində yerləşirdi

**Zigertu (Saqar) bəyliyi.** Mananın quzey-doğu qonşuluğunda olan Zigertu bəyliyi müasir Xalxaldan quzeydə Bozquş dağının ətəklərində yerləşirdi. Mana eli yaranandan sonra ona tabe olan canişinliklər sırasında Zigertu da vardı. Mana elbəyi Azaya qarşı 716-da üsyan edənlər arasında Urartuyönümlü siyasəti ilə seçilən Zigertu bəyi Mitət (Mitatti) daha aktiv idi.[436] Bu olaydan iki il sonra Urartu üzərinə yürüşə çıxan II Sarqon yolüstü urartulara yardım edən Zigertu bəyliyinə girir, burada 12 yaşayış (*Saktatuş*, *Aukane*, *Kabani*, *Qurrusupa, Barunak, Ubabara, Sitera, Taştami* və s.) məskənini dağıdır, Mitət bəy isə bölgənin başkəndi *Parda* şəhərini buraxıb dağa çəkilir.[437]

Asur qaynaqları bu bəyliyin adını *Zikertu*, *Zikirtu, Zikartu, Zikaria* və *Zigirtu* formalarında verir.[438] Pers və yunan qaynaqlarında qeyd olunan Asagarta//Sagarta ilə Zigertu arasındakı əlaqədən danışan Q. A. Melikişvili heç bir əsas gətirmədən bu adı daşıyanların irandilli və ya iranlaşmış toplum olduğunu güman edir.[439] Mada ölkəsində də *Zakruti* adlı qala vardı.[440] Qeyd olunan bütün variantların morfonoloji təhlili bu adın ***saqar***

---

[436] Asur yazısında *Mitatti* kimi verilən bu adın yerli deyimi, görünür, *Mitət* imiş.

[437] ТУ, 47, 80-81.

[438] АВИИУ, №50, 14 (7-ci qeyd); Asur dilini o qədər də yaxşı mənimsəməmiş yerli bəylərdən (İ. M.Dyakonova görə, Güney Azərbaycanın kiçikbəylərindən) biri II Sarqona göndərdiyi məlumatda bu adı *Zikera* şəklində yazmışdır (АВИИУ ,№ 50, 17); Bir neçə əsr sonra Əhəməni yazılarında həmin bölgənin qədim perscə *Asaqarta*, samicə *Saqartu* şəklində keçən adını Herodot və daha sonralar isə Ptolemey Σαγαρτιοι şəklində verir (Грантовский, 1970, 272).

[439] «İmə naroda Asagarta - Σαγάρτιοι, zasvidetelğststvovannoe v drevnepersidskix i drevneqreçeskix istoçnikax, vozmojno, naxoditsə v svəzi s imenem naroda *Zikirtu*. Asagarta - Σαγάρτιοι je bıli, povidimomu, iranüami ili, po krayney mere, iranizirovannımi *azianitami*» (Меликишвили, 1949, 61).

[440] Дьяконов 1956, 204.

formasını ortaya çıxardır. Əslində, I və II Saqbut bəyliklərində olduğu kimi, Saqar (Zigertu) bəyliyində də saq//saqa boylarının yaşadığını və bölgənin bu saqarların (saq-ər) adı ilə tanındığını görmək olur. Türk boyu *saqbut* kimi *saqar* da türkcə yaranmış etnonimdir. Türkmənistanda salır və bayat boyları içində *sakar* etnonimi geniş yayılmışdır.[441] Qaşqa-Çora soyundan saydığı *dağ-saqar* boylarından danışan Əbülqazi Bahadır xan *qaşqa* və *saqar* sözlərinin eyni mənalı olub «alnında ağ xalı olan at» anlamı bildirdiyini vurğulayır və saqarlar haqqında yazır: «*Azlar* uruğu Dudıkın, *saqar* eli isə Qabacığın törəmələridir».[442] Azər xalqının qədim adını bildirən azlar (*az ərlər*) kimi qızıl və saqar boyları da doğu ellərə Azərbaycandan getmişlər. Doğudakı qızıl boylarının *bassaqar* uruğu da «baş saqar» etnonimi ilə tanınır.[443]

Zigertu bəyliyinin *Aykan* (Aukan) bölgəsində yerləşən ***Parda*** ölkənin mərkəzi şəhəri sayılırdı. Bu, *Bərdə* adının asur yazısındakı qədim forması olub *bardı* etnonimini əks etdirir. Etnonimin anlamını isə hələ antik çağ yazarı Pompey Troq vermişdir. O, parth boylarını skit (saqa) qaçqınlarının törəməsi sayaraq yazır: «Bu, onların adından da məlumdur, çünki skit dilində ***pardı*** sözü qaçanları bildirir».[444] Güney Azərbaycanda xeyli *Barda* yeradı qaldığı kimi, bu toponimə Xəzər ətrafı bölgələrdə də rast gəlmək olur, hətta Kama çayı yaxalarında «Barda tatarları» deyimi də bəllidir.[445]

Aykane bölgəsində eyniadlı şəhər vardı. Qədim Azərbaycanda Ay məbədləri olması və *aytamqalı* türkmən boyunun varlığı ümid verir ki, *Aykane* toponimində «Ay kan» (Ayxan) anlamı araşdırılsın. Burada *Ubabara* (oba-bar), *Barunakka* (barınaq) kimi toponimlərin olması da həmin ümidi artırır. Asur qaynağının bölgədə qeyd etdiyi *Qurrusupa* (quru-sub) toponimini buradakı çağdaş *Qurugöl* ilə, *Taştami* (taş-dam) toponimini isə çağdaş Daş-təpə ilə müqayisə etmək olar.

---

441 Атаниязов, 1988, 101: Türkmənistanda saqar//sakar, sakarca, sakarlı, sakar-çarlaq, beq-sakar, daq-sakar boyları ilə yanaşı, Zigertuda gördüyümüz qapan, berdili, berdalı boyları da vardır.

442 Şəcərei-Tərakimə, 2002, 101, 107; Osmanlı çağından Türkiyədə yarımköçəri *sakaratlı, sakar, sakaralı* yörük tayfaları bəllidir (OAC, 642).

443 Радлов 1989, 91.

444 ИУ, 1984, 154-155; АИОСК, 99; Stefan Bizanslı da *tirmeni* (itir-men) etnoniminin skit (saqa) dilində «qovulmuş» anlamını qeyd edir (АИОСК, 174).

445 Гейбуллаев, 1991, 483; Zəkiyev, 2002, 430.

Zigertu adının saqalarla bağlı olduğunu diqqətə alanda burada verilən *Saktatuş* toponimində görünən *sak-tat-uş* elementlərinin etnoqrafik anlamlı söz yaratması ortaya çıxır. Belə ki, bozqır uyğurlarından *uyğur tatı* deyimilə fərqləndirilən şəhərli uyğurlar kimi, *sak tat(uş)* deyimi də tərəkəmə saqalardan fərqlənən oturaq saqaların (sak tatı) etnoqrafik adı ola bilərdi.[446] Zigertudakı *Kabani* yeradı isə etnotoponimdir, çünki ***kaban*** (qapan) adlı qədim türk boyunun məskunlaşdığı yerlərdə Qaban, Kapan, Qafan toponimləri geniş yayılmışdır. Türkmənlərin *qapan* boyu hələ də qədim adını saxlamışdır.[447]

Zigertu bəyliyilə bağlı, diqqəti çəkən bəlgələrdən biri də asurların 716-da *Çavduşpa* adlı Zigertu elçisi ilə manalı təcüməçi *Giki* vasitəsilə danışmasıdır: [m]Gi-ki-i [amêl] tar-qu-ma-nu [mât] man-nu-a-a.[448] Dilmanclıq edən türklərlə bağlı ortaya çıxmış *tarquman* (tərcüman) sözünün işləndiyi bu cümlədəki *Çavduşpa* (tsab-du-şu-pa) adında ilk hecanın *sab* (söz-sav) ilə başlaması göstərir ki, burada *çabduşupa//sabduşpa* kimi oxunan söz elçinin adı yox, sanı - titulu (*çavuş*?) ola bilər.

Göründüyü kimi, *saqar, saktatuş, pardı, kaban* adlı türk boylarının yaşadığı Zigertu (Saqarti) bəyliyi ilə bağlı asur qaynaqlarının verdiyi bəlgələrdə xeyli «türk izi» vardır. Bu izi qoyanlar isə bugün həmin bəyliyin yerində yaşayan azərlərin sələfləri idi.

**I Su bölgəsi.** Asur yazısında Sunbi//Sumbi şəklində verilən *Suvbi* bölgəsi Mana bəyliyinin batı sınırında idi.[449] Hələ IX əsrin əvvəllərindən V Şamşi-Adadın yazısında qeyd olunan Su (Suvbi) bölgəsi Mana eli yaranında onun tərkibində olmuşdur. Su (suv) boylarının yaşadığı bu bölgənin yerini müəyyən etmək o qədər də çətin deyil, belə ki, II Sarqon 714-də *Kullar* dağını keçib Su bölgəsinə daxil olmuşdu, müasir *Kollar dağı* isə həmin adı bugünəcən yaşadır.[450] Su boyları haqqında yuxarıda prototürk *subar* boylarından danışarkən geniş məlumat vermişdik.

---

[446] Tuvalar hələ də özlərinə *tadar* (tat ər) deyir.

[447] Asur qaynaqları həmin çağlarda *Xuzirina* adlı şəhəri olan başqa bir *Kepan* bölgəsini də İkiçayarasının quzeyində müasir Mardin tərəfdə qeyd etmişdir.

[448] Дьяконов, 1956, 207 (2-ci qeyd).

[449] Bu etnotoponimdə topluluq bildirən *-bi* morfemi «su» sözünün qədim variantı olan *suv* sözünə qoşulmuşdur. Asur yazısında «v» səsini bildirən işarə olmadığından *Suvbi* adı *Sunbi* və *Sumbi* şəkilində yazılmışdır. İ. M. Dyakonov «v» səsinin *u* işarəsi ilə də verildiyini qeyd edir (Дьяконов, 1956, 161).

[450] ТУ, 173.

**II Su bəyliyi.** İlxıçılıq mərkəzi kimi tanınan II Su (*Subi*) bölgəsi Mana bəyliyindən quzeydə Urmu gölünün quzey-doğu yaxasında yerləşirdi. Urartu çarları ilxı sürüləri bəslənən Su bəyliyini zəbt edib urartu süvariləri üçün atçılıq bölgəsinə çevirmişdilər. Kiparisli Malla dağı aşırımında Uşkaya qalası (çağdaş Uski) Su ölkəsinin ətrafdakı ərazilərinə «nur saçırdı».[451] Burada *man* boyları da yaşayırdı. Urartu çarı II Sardura aid yazıda Urartuya tabe olan Subi ölkəsində manalıların üsyan edib dağlara çıxması qeyd olunur.[452] Asur çarı II Sarqonun yazısında qeyd olunur ki, Subi ölkəsinə urartular «manalılar ölkəsi» deyir.

**I Baru bəyliyi.** Asur qaynaqlarının *Baru, Barrua, Bit-Baru,* urartu yazılarının isə *Baruata* şəklində verdiyi Baru bölgəsi müasir Süleymaniyə yaxınlığında Turna (Diala) çayının yuxarı axarında yerləşirdi.[453] İlk dəfə 843-də bura asurlar hücum edəndə Baru bölgəsi Ellipi bəyliyinin tərkibində idi. Barunu 744-də tutan III Tiqlatpalasar buranı Bit-Hamban bölgəsinə birləşdirsə də, 715-dəki anti-asur olaylarında aktiv iştirak edən barulular Ellipi hakimiyətinə tabe olurlar, lakin asurlar Barunu 702-də özlərindən asılı olan Xarxar canişinliyinə qata bilirlər. Görünür, Ptolemeyin qeyd etdiyi ikinci *ʽΑλινζα* (Alınca) şəhəri də Bit-Baru yaxınlığında olan Elinzaş idi.[454]

E. A. Qrantovski yazır ki, II Sarqonun vaxtında Dəclədən doğuda «qurd evi» (börülər yurdu) anlamında işlənən *Bit-Barbari* toponimi hələ Elam çarı Şilxak-İnşuşinak yazısından bəlli idi.[455] Bu halda, türkcə *börü* sözü asur yazısında yalnız *baru* şəklində yazıla bildiyindən ***Baru*** yeradı «börü» anlamında olmalıdır. Diqqəti çəkən bəlgələrdən biri də budur ki, bu «börülər» yurdunun yaxın qonşusu «barslar» yurdu idi. Urartu yazısında $^{KUR}$*Baruataidi* $^{KUR}$*Barşuaidi* (Baru-Ata ölkəsinə, Parşua ölkəsinə) deyimində Baru bəyliyinin adı I Bars bəyliyi ilə yanaşı çəkilir.[456]

---

[451] ТУ, 79.

[452] ТУ, 103.

[453] ARAB, I, §784, §795, §807; УКН, 127, III; 155 (A); ТУ, 54.

[454] Asur çarının yazısında deyilir: «Bu bölgədə Elenzaş (Əlincə) şəhərini qalaya çevirib, ona Kar-Sinaxxerib adını verdim, bura zəbt etdiyim ölkələrdən əhali köçürüb yerləşdirdim» (ХПИДВ, 1980, I, 113).

[455] Грантовский, 1970, 177-178 (30-cu qeyd).

[456] Bu Baru bölgəsi asur yazısında hələ 880-də Zamua əhalisi içində fərqlənən *baraili* Kirtiarla bəlli idi. İlk çağda *Bara* (ba-a-ra, ba-ra-a) şəklində verilən bu toponim sonralar *börü* sözünə daha yaxın olan *Baru* forması ilə qeyd olunmuşdur.

Bu bəylikdə *börü* və *baş-börü* deyimlərilə fərqlənən Bit-Baru və Bit-Maşbaru toponimlərini asur qaynağı 713-də yanaşı verir.[457] Başqord boyları içində «börüsoy» anlamında *börülər toxumu* adlanan uruqların yaşadığı kəndlər də *Başbure, Urtabure, Sakmarbure* adlanır.[458] Orta əsrlərdə *börü* boyunun bir qismi qırğızlardan doğuda məskunlaşmışdı.[459] Azərbaycan tarixində isə Börütəkinlər və Börülər Atəbəyliyi bəllidir.

**II Baru bölgəsi.** Urmu gölünün quzey-doğu yaxasında yerləşən bu bölgənin adı asur yazısında 714-də çəkilir. Əhalisi *dali* (dəli) boyu adlanan bu bölgə II Sarqonun yürüş marşrutu üzərindəki Sangibut ölkəsinin bir parçası idi.[460] N. V. Arutyunyana görə, qədim Baru adı Mərənd yaxınlığındakı müasir *Barı* və Urmu gölündən doğuda Səhənd dağı ilə Təbriz arasında müasir *Bare* yeradlarında saxlanmışdır.[461] Azərbaycanda *dəllər* (dəlilər) boyu olduğu kimi, Türkmənistanda da *dəli* boyu vardır.[462] Olsun ki, Göytürk xaqanlığı çağından bəlli olan *tele* və sonrakı *teleut* boyadları qədim dəli boyları ilə əlaqəlidir.

**Puluadi bəyliyi.** Urmu gölünün quzey və doğu yaxalarını işğal edən Urartu çarı I Arqiştidən fərqli olaraq, ondan sonra 747-745-ci illərdə bura yürüş edən II Sarduri daha doğuya, Azərbaycanın iç bölgələrinə yürüş edib indiki Arasbaran və Qaradağa tərəf keçdi. Burada Puluadi ölkəsinə girdi və sonralar onun nəvəsi II Arqişti üçün buradan indiki Ərdəbil bölgəsinə girmək üçün şərait yarandı.

II Sarduri Qotur - Xoy - Mərənd - Əhər istiqamətində irəliləyib o çağlarda Polad (Puluadi) adlanan bəyliyə girəndə urartu qoşunu burada güclü müqavimətə rast gəlsə də, böyükbəy Kadiau(ni)nin başkəndi Libli (Libliuni) tutuldu.[463] Qaradağ bölgəsində müasir Varzakan qəsəbəsi yaxınlığında tapılan qaya üzərindəki yazını Q. A. Melikişvili oxumuşdur.[464]

---

[457] Дьяконов, 1956, 221; Qədim türk etnonimikasında bu model *massaqet* (baş-saqat), *bassaqar* (baş-saqar) adlarında da görünür.

[458] Кузеев, 1974, 130.

[459] Бартольд, 1968 (V), 99.

[460] АВИИУ, № 49 (188).

[461] ТУ, 54; Çox güman ki, Batı Sibirdəki «Tevriz tatarları» Omskda olan Tevriz rayonu ilə bağlıdır.

[462] Атаниязов, 1988, 66.

[463] Dağlıq ölkə kimi verilən Polad bəyliyində başçının adı (*Kadiau*?) mixi yazıda pozuqdur: $^{I}$Ka(?)d[i]auni LUQAL $^{KUR}$Puluadi… (УКН, səh. 453).

[464] Maşkur, 1953; ВДИ, 1960, №3, 3-11.

Libli şəhərini uzmanlar müasir Əhərin (Axar) quzey-doğusunda yerləşdirir.[465] Puluadi bölgəsində (Qaradağ mahalı) mis, dəmir, qurğuşun və sair metallar istehsal olunurdu. Ön Asiyanın bir çox dillərinə metal adı kimi keçmiş «pulad» (polad) sözünün yaranmasını Q. A. Melikişvili, doğru olaraq, Urartu qaynaqlarında verilən Puluadi ölkəsinin adı ilə bağlayır.[466]

Əlbəttə, *polad* boyadını Urgenc xanı Akatayın oğlu *Bulat* ilə bağlamaq istəyən Əbülqazi Bahadur xan, yaxud Altun Ordu xanı *Polat* (1407-1410) ilə bağlayan Bosvort yanılır, çünki bu şəxslər hələ doğulmamışdan qabaq polat boyları vardı. Azərbaycanın müxtəlif bölgələrindən tutmuş, Türküstan və Kırıma qədər yüzlərlə Polad, Poladlı kəndləri vardır. Türkmənistanda ata, qayı, qökleñ, xerzek (xorəzle//xoruz) çovdur, sarık, ərsarı boyları içində *polatkel, polat, polatlı, polatşa* tirələri geniş yayılıb, qaraqığız boylarında da *bulat, bulattı* tirələri vardı.[467]

Yaz və yay aylarını tarixi Polad bölgəsinə yaxın Qaradağın doğusunda Araza qovuşan Qarasu yaxalarında, Xoruzlu dağın yaylaqlarında, qışı isə yaxındakı Muğan bozqırında keçirən müasir şahsevən elatı içində *kuzatlu, təklə, dəliqanlu* ilə yanaşı, *pulatlu* boyları da vardır. Göründüyü kimi, qədim polad boylarının böyük bir qismi *poladlı* adı ilə digər türk köçlərinə qoşulub, Xəzərin dörd tərəfinə dağılsa da, bir qismi üç minil öncə yaşadığı Atayurddan kənara çıxmamışdır.

**Az (Azər) bölgəsi**. Asur orduları Arazdan yuxarı bölgələrə girmədiyi üçün bu ərazilərdəki etnik demoqrafiya və siyasi qurumlar haqqında bəlgələr olduqca azdır. Yalnız sonrakı İrəvan xanlığının əhatə etdiyi bölgələrə və Naxçıvana qədərki ərazilərə Urartu çarlarının yürüşləri Azərbaycanın bu batı bölgələri haqqında müəyyən təsəvvür yaradır. Bu yürüşləri əks etdirən yazılarda verilən bölgələrdən biri də öncə *az*, sonra *azər* adlanan boyların yaşadığı, adı Urartu çağında Aza, m.ö. I əsrdə isə Azar şəklində verilən azər türklərinin yurdudur.[468]

---

[465] ТУ, 126.

[466] Меликишвили, 1968, 124; Müəllif metal adlarından bəzisinin istehsal olunduğu yerin və ya metalı istehsal edən boyun adı ilə adlanmasını tarixi bəlgələrlə göstərmişdir. Mineral adlarının şəxsadı kimi işlənməsi də bəllidir: Dəmir, Gümüş, Qızıl, Polad, Zümrüd və s.

[467] Атаниязов, 1988, 98; Радлов, 1989, 110-111; İranda bir neçə bəxtiyar boyunun birləşdiyi *puladvand* boyu və fuladlu (*puladlu*) adlı şahsevən boyu vardır (СИ, 629, 638).

[468] Geniş məlumat üçün bax: «Azər xalqı», 2000, 10-19.

Urartular «*düşmən Aza ölkəsi*» adlandırdığı İrəvan çuxurunu işğal edəndən sonra burada kanallar çəkdirmiş, hərbi qarnizon yerləşdirmək üçün qalalar tikmişlər. Belə qalalardan biri də yerli *az* (azər) boylarının *ərən qala* anlamında *er-ebi* «ərənlər evi» adlandırdığı, urartuların dilində *İrpuini* (Erebu-ini) şəklində verilən İrəvan qalası m.ö.782-də salınmışdı.

Keçmişdə bəzi bölgələr orada yaşayan toplumun tapındığı tanrı və iyə adları ilə tanınırdı. Yuxarıda zəngi boylarının yurdu kimi Sangibut bəyliyindən danışarkən *Zəngi Ata* tapınağını örnək vermişdik. Urartular Araz, Kuer, Arubani və Turan kimi bir neçə türk teonimini qeyd etmişdir. Urartu çarı Menuanın urartu tanrısı *Haldi* ilə yanaşı, *Kuera* tanrısına da anıt yazısı vardır.[469] Arazdan yuxarıda *az* (*azər*) və *ulduz* boylarının yaşadığı ərazilər «Kuarli ölkəsi» adlanırdı.[470] Urartu yazılarının *kuərli*, *kuarçi* (kuarzi) şəklində verdiyi etnonimlər Kuərə (*Kuər*) tapınan boylara verilən ümumi addır. Kuər iyəadı qədim lulu və sonrakı hun boylarında da vardı. O çağlarda Azərbaycanda tanrıadı ($^{D}$A-ra-za-a) kimi işlənən *Araz* sözünün də boy və çay adında görünməsi təbii idi. Araz çayı ilə Mərənd arasında *Arzaşku* şəhəri vardı. Güman ki, bu ad sonralar Arazboyu bölgələrdə rast gəldiyimiz Arazbarı, Arazdəyən (Arazdöyən) modeli ilə yaranmış *Araz-aşku* sözüdür.

Urartu qaynaqlarında Ağrı vadisi, İrəvan çuxuru və Göycə gölünün ətrafı haqqında xeyli bəlgə vardır. Uduri-Etiuni adlanan Göycə hövzəsinə bir neçə yürüşü olan urartuların burada yazıları qalıb. Bu yazılardan bəlli olur ki, urartular buradan doğu tərəfdə yerləşən sonrakı Alban elinin dağlıq bölgələrinə də hücum etmişlər.[471] Urartu yazılarının Göycə gölü yaxasında qeyd etdiyi «gölək» anlamlı *Kelakuni* toponimi buradakı çağdaş Gölkənd tipli toponimlərdən biridir. Göycə hövzəsində verilən *kaman* boyu çox güman ki, kuman türklərinin bir bölümü idi. Göründüyü kimi, Aza bölgəsindən başqa, Arazdan quzey bölgələrdə də türk izi çoxdur.

*

*     *

*

---

[469] ВДИ, 1951, №3, 181.

[470] Меликишвили, 1954, 57, 65-66.

[471] Sadalanan adlar sırasında *Ku-Albani* adı diqqəti çəkir, çünki bir neçə əsr sonra burada Alban dövləti qurulmuşdur. Göycənin batısında qeyd olunan *luer* boyadı sonralar burada *Loru* (Pənbək) adında qalmışdır. Kür çayının qədim adı da bu çayın yuxarı axarında verilən *Kuriani* bölgə adında əks olunmuşdur.

Beləliklə, m.ö. IX-VII əsrlərdə Güney və qismən Quzey Azərbaycanda mövcud olmuş kiçik siyasi qurumlu bəyliklərdən bir neçəsinin etnik tərkibi və tarixi coğrafiyası ilə tanış olduq. Əgər bölgələrin etnik tərkibi burada qeyd olunmuş etnotoponimlər və az da olsa, qaynaqlarda yer alan bir neçə türkizmlə müəyyənləşirsə, bölgə və bəyliklərin tarixi coğrafiyası həmin ərazilərə girən asur-urartu çarlarından qalan yazılarda qeyd olunmuş toponimlərlə dəqiqləşir. Zibia (Ziviyə), Kullar (Kollar) dağı, Uşkaya (Uski) kimi onlarla toponimin azacıq fərqlə bugünəcən qalması isə coğrafi sınırların aydınlaşmasına yardım edir.

Bir çox uzmanlar Güney Azərbaycan ərazisində Həmədandan yuxarı və Zaqros dağları ətəyində m.ö. IX-VIII əsrlərdə iranmənşəli sözlər axtarmaq üçün akad-asur, elam və urartu dilində yazılmış qaynaqlara baş vurmuş, lakin oradan əliboş çıxmışlar. Bu sahədə uzun müddət tədqiqat aparan E. A. Qrantovski həmin bölgələrə aid onomastikada «tapdığı» iranmənşəli sözlərdən ayrıca kitab yazsa da, bu sahənin baş uzmanı sayılan İ. M. Dyakonov «onun inandırıcı olmayan etimoloji yozumlarını» tənqid etmişdir.[472] Həmin bölgələrə irandilli onomastik sözlər yalnız Əhəməni çağında sızmış, Sasanilərin vaxtında isə artmışdır.

Bəzən sual verirlər ki, nədən qədimə getdikcə Azərbaycandakı yer-yurd adlarının çoxu türkcə olduğu halda, sonrakı çağlarda onların sayı azalır. Əlbəttə, bunun səbəbləri çoxdur və onlardan biri yad dilli etnosun (asur, urartu, iran) buradakı bölgələri zəbt etməsi və ya burada siyasi hakimiyəti ələ almasıdır. Hər iki halda yerli adların çoxunu gəlmə adlarla əvəz edirdilər.[473] Atayurdun toponimikasını bütöv Avrasiyaya yayan bozqır türklərindən fərqli olaraq, vaxtaşırı yadelli işğallarına məruz qalmış ilkin yurddakı oturaq türklər daha qədim yer-yurd adlarının xeyli hissəsini mühafizə edə bilmişlər.

---

[472] Дьяконов, 1967, 90-91; Yazıqlar olsun ki, İ. Əliyevin başçılığı ilə yazılan 7 cildlik «Azərbaycan tarixi» kitabında İ. M.Dyakonovdan fərqli olaraq, Azərbaycan tarixçiləri Qrantovskinin bu «uğuruna» çox sevinir (!?) və bunun «çox böyük əhəmiyətə malik olduğunu» yazırlar (AT, I. 1998, 28); Bu barədə geniş məlumat üçün «Azər xalqı» kitabında «Azərbaycan tarixçilərinə açıq məktub» adlı məqaləmə baxmaq olar.

[473] Asurlar təkcə 715-714-ci illərdə xeyli yeradını dəyişib asurca adlar vermişlər:

| | |
|---|---|
| *Kinda* (Kar-Sin), | *Qarqar* (Dur-Şarrukin) |
| *Kişeşlu* (Kar-Nabu), | *Bit-Baqaya* (Kar-İştar) |
| *Anzari* (Kar-Adad), | *Kişes* (Kar-Ninurta, Kar-Uriqallu) və s. |

Nəzərdən keçirdiyimiz bölgələrdə yarımköçəri və oturaq yaşamı əks etdirən heyvandarlıq və əkinçilik təsərrüfatı haqqında asur-urartu yazıları xeyli bəlgə verir. Bu yazılarda yağma edilən və ya bac-xərac alınan malların çeşidləri, vergi siyahıları həmin çağlarda heyvandarlığın, atçılığın, əkinçiliyin və sənətkarlığın əksər bölgələrdə inkişaf etdiyini göstərir. Bu yazılarda protoazər boylarının tarla zəmilərindən, suvarma kanallarından, bağça-bağlarından, şəhər-kəndlərindən bəhs olunur, möhtəşəm qalaların təsviri verilir. (Adı çəkilən onomastik sözlərin etimoloji təhlili VIII Bitikdə verildiyi üçün burada onlardan ümumi şəkildə bəhs olunur).

Asur qaynaqlarında türkcə izah oluna bilən Ameka, Araştu, Azay, Asa, Qırdıər, Kaka, Bektiar, Purişat (*Börüşad*), Enqur, İrtukan (*Ərtoqan*), Tarminay, Tulbunay, Tunak, Telusin, Musasin, Mitak, Mitat, Sabini kimi onlarla şəxsadı verilir. Bəzi boy başçıları, qalabəyi, bölgə başçısı, böyükbəy adlarının *ata, dədə, böyük* (payuk), *yanzi, yabqu, toyqu* (dayauku, deyok)*, baş toyqu* sözlərilə verilməsi aydın göstərir ki, bu sözlər başçıların şəxsi adı deyil ünvanı - tituludur.[474]

Haqqında danışdığımız bölgə və bəyliklərdə adı çəkilən Ayubak, Aykan, Alburi, Alınca, Aran, Arbel, Araz, Araziaş, Azir, Atlila, Barınaq, Bars, Baru, Daqar, Kaban, Kundur, Kuşianaş, Parda, Taştami, Sabar, Sibar, Uraş və sair bu kimi onlarla toponimin türkcə olması, burada *aran, arançı, arman, az, azər, polad, pardı, qarqar, qızıl, zəngi, şatır, dəli, mad, alınca, daqar, soğan, kuman, bus (boz), qaralı, urmu, su, subi, sibermen, subar//sabar, saq, saqar, saqbut, saqtatuş* adlı türk boylarının yaşaması m.ö. IX-VII əsrlərdə Azərbaycanın etnik durumunu aydın əks etdirir.

Bu protoazər boylarının bir qismi *bars, börü, qaban, xoruz, xoruzlu, man* zoonimlərilə yaranmış adlarla tanınırdısa, bir qismi də yarımköçəri yaşamı bildirən heyvandarlıqla bağlı *padar, tavarlı, sığırçı, añçı* etnonimlərini daşıyırdılar.[475] Nəzərdən keçirilən etnonimlərin təhlili eyni adlı boyların ayrı-ayrı bölgələrdə məskunlaşmasını da ortaya çıxardı. Toponimlərdə olduğu kimi bu etnonimlərin də əksəri sonralar Alban (Aran) elində və Türkmənistanda təkrar olunur.

---

[474] Zamua bölgəsində Arzizu şəhər başçısının IX əsrin əvvəlində *Ata*, VIII əsrin sonunda isə *Dədə* (Dada) adlanması boybaşı titulunu aydın göstərir (Грантовский, 1970, 124).

[475] Bugün bizə qəribə görünən «ovçu» və ya «heyvandar» anlamlı *Añçı* və sair bu kimi adlar o dövr üçün xarakterik idi. Xəzərlərdə *Avçı* şəxsadı da vardı. Sadalanan protoazər boylarından bəzi tirələr sonralar türkcə olan adını saxlasa da, fars dilinə keçən kürd boyu (*zengene, şadlu*), lur boyu (*koman-keşi, zengeve*) kimi tanındı (СИ, 632-633).

**Mana eli**

Yuxarıda Mana bəyliyindən danışarkən yaxındakı eyni etnik tərkibli bölgələrin də oxşar iqtisadi və geosiyasi durumda olduğunu gördük. Lakin Urmu gölünün güney yaxalarında *man* boylarının öndərliyilə ortaya çıxan kiçik Mana bəyliyi artıq IX əsrin ortalarında ətraf bölgələri də əhatə edən *Mana eli* şəklində qaynaqlarda əks olunur. Mana bəyliyi ilk çağlarda qonşu Asur dövlətlərinin təsir dairəsindən kənarda olduğundan onun adı asur yazısında *Mannaş* və *Munna* şəklində yazılmış, Azərbaycandan uzaqda formalaşan Tövrat isə bu adı *Minni* şəklində vermişdir. Asur və urartular bu bəyliklə yaxından tanış olduqca artıq bu bölgə və bəyliyin adı asur yazılarında «Man (boylarının) ölkəsi» anlamında *Mât Mannâi,* urartu yazılarında isə *Manani ebani* şəklində stabilləşmişdir.[476]

IX əsrin ortalarına qədər digər bölgələrdən o qədər də fərqlənməyən Mana bəyliyi qonşu bəyliklərlə ittifaqa girib bir sıra bölgələrin birləşməsinə nail olmuşdu. Mərkəzləşmiş hakimiyəti özündə saxlayan Mana elinin sınırları Urmu gölünün ətraf bölgələrini əhatə edirdi. Zaman-zaman Asur-Urartu ilə aparılan mücadilədə bu sınırlar gah böyüyür, gah da kiçilirdi. Batıda Asur ilə qonşu olan Mana elinin sınırı güneydə I Bars bölgəsinə, doğuda Xəzərə, quzeydə isə Araza qədər uzanırdı. Başqa sözlə, Mana elinin coğrafi sınırları sonrakı Kiçik Madanın (Atropaten) və müasir Güney Azərbaycanın sınırlarına uyğun idi.[477] Urartu dövlətinin zəiflədiyi çağlarda Mana elinin təsir dairəsi bəzən Göycə gölü hövzəsinə və Van gölünün güneyindəki Xubuşkia bölgəsinə qədər çatırdı.[478]

---

[476] Əslində *man* boylarının qurduğu eli biz «Man ölkəsi//dövləti» anlamında *Man eli* şəklində yazmalıyıq, lakin ənənəvi olaraq *qut, saq, mad* boyadları ilə bağlı elləri Qut, Saqa, Mada şəklində yazdığımız üçün Man adını da Mana şəklində veririk. Əlbəttə, bu adların subar, turuk, qamər, alban etnonimləri ilə ortaya çıxan Subar, Turuk, Qamər, Alban dövlətlərinin adında olduğu kimi şəkilçisiz Qut, Saq, Man və Mad formasında yazılışının gündəmə gətirilməsinə ehtiyac vardır. Bunun üçün Azərbaycan tarixçilərinin bu mövzuda gənəşmə toplantısı keçirməsi gərəkir.

[477] Дьяконов, 1956, 173.

[478] Mana ilə İçkiqol (müasir Gümrü bölgəsi) arasında olan əlaqə qaynaqda əks olunmuşdur. İçkiqol bölgəsinin böyükbəyi Saqastara'nın Urartu çarı II Rusaya köndərdiyi məktubun məzmununu təhlil edən Q. A. Melikişvili yazır: «Правитель находящейся в Закавказье, в районе современного Ленинакан, области (Ишкигулу) оказывается в каких-то сношениях со страной Мана. Возможно, это обстоятельство говорит о значителном распространении Маннейской страны в северном направлении» (Меликишвили, 1949, 59-60).

Ön Asiyada Elam, Asur, Babil və Urartu kimi qüdrətli dövlətlərin qonşuluğunda ortaya çıxan Mana eli yarandığı ilk çağlardan ayaqda dura bilmək üçün düzgün xarici siyasət yeritməli idi. Mana elinin sınırlarından uzaqda olan Elam və Babil dövlətlərilə problemi yox idi.[479] Çünki Mana ilə Elam-Babil arasında tampon bölgələr vardı. Mananın güneyində öncə Bit-Hamban, Parsua və Ellipi kimi müstəqil bəyliklər olan həmin bölgələr sonralar Mananın arxa cinahında böyük bir zolaq şəklində Asur əyalətlərinə çevrilmişdi. Bu zolaqdan güneydə Babil-Elam sınırlarına qədər kassi boyları yaşayırdı. Beləliklə, Mana eli yarandığı çağdan yalnız yaxın qonşuluqda birbaşa kontaktda olduğu Asur və Urartu dövlətlərilə, sonralar isə Güney Qafqaza gələn saqa-qamər boyları ilə münasibəti düzgün qurmalı, müstəqilliyi qorumaq üçün çevik diplomatiyaya yiyələnməli idi.

Hələ IX əsrin başlarında Zamua bölgəsində kiçikbəylərdən biri olan Ameka asurların vaxtaşırı hücumuna qarşı vahid hərbi-siyasi qurumla çıxmaq üçün ətraf bölgələrin birliyini yaratmağa cəhd etsə də, buna nail olmadı. Zamua ölkəsindəki «*çoxlu hökmdarlar*» Asur çarına bac-xərac verməli oldular.[480] Zamuanın güney-batı bölgələri Asurların əlinə keçir, lakin Mana bəyliyinin siyasi hakimiyyətinə tabe olmuş İç-Zamua adlanın Urmu gölünə qədərki ərazilərdə yabançı orduların qarşısına çıxa biləcək vahid komandanlıq altında hərbi qüvvə formalaşırdı. Beləliklə, IX əsrin əvvəllərində ətraf bəyliklərlə vahid siyasi qurum ətrafında birləşən və getgedə ərazicə böyüyən Mana bəyliyi artıq həmin əsrin ortalarında siyasi meydana dövlət kimi çıxır.[481]

X-IX əsrlərdə onlarla kiçik bəyliklərdən biri olan Mana bəyliyinin Mana elinə çevrilməsi tarixi zərurət idi, çünki batıdan Asur dövlətinin, quzey-batıdan isə Urartu dövlətinin yürüşlərinə məruz qalan Urmuyaxası bölgə və bəyliklərin birləşməsinə böyük ehtiyac yaranmışdı. Təşəbbüsü ələ alan *man* boyunun bəyləri ətraf bölgə bəylərinin bir araya gəlməsinə nail olmuş, mərkəzi hakimiyəti Mana bəyliyində olan Mana elini qura

---

[479] Elam dövləti Mana eli çağında Azərbaycana hücum etməmişdir. Lakin II minilin ortalarında qüdrətli dövlətlərdən biri olan Elam XIV əsrdə Babili işğal etməyə səy göstərir, XII əsrdə İkiçayarasına yürüşlərini artırıb, 1175-də Kassi sülaləsinə qələbə çalır. Elam arabir Mana torpaqlarından güneydə yerləşən ərazilərə də yürüşlər edir. I Navuxodonosorun (1126-1105) vaxtında lulu və kassi boyları ilə savaşmış Babil dövləti isə yalnız Mananın son illərində Asur-Mana ittifaqına qələbə çalmışdır.

[480] AT, 1996, 52.

[481] AT, 1994, 89.

bilmişdilər. Belə ki, 843-də Mana yönündə yürüşə çıxan III Salmanasar bura girə bilmədi, yalnız batı sınırda yerləşən Alabri bölgəsini yağmaladı.[482] Regionda hökmranlıq yarışına çıxan Asur və Urartu dövlətləri ətraf ölkələri öz hakimiyəti altına almaq üçün IX-VIII əsrlər boyu bir-birilə dəfələrlə qanlı müharibələr aparmışlar. İki qüdrətli qonşu dövlətin bir-birilə vuruşmasından istifadə edib güclənən Mananın nüfuzu get-gedə artırdı. Lakin həmin müharibələrin bəzən Mana ərazisində getməsi Mana elinin müstəqilliyinə təhlükə törədirdi. Belə ki, Asur-Urartu müharibələri təkcə IX əsrin son on ilində dörd dəfə Mana ərazisində getmişdir.

VIII əsrin əvvəllərində Urartu yürüşləri bir sıra Mana bölgələrinin zəbt olunması ilə nəticələnmişdi. Lakin III Tiqlatpalasarın 743-də urartulara vurduğu ağır zərbə Mananın əl-qolunu açdı və həmin əsrin ikinci yarısınada toparlanıb güclü dövlətə çevrilə bildi. VIII əsrin ortalarından başlayaraq güclənən Manada başarılı elbəy olan qoca İranzunun hakimiyətinin son illərində bölgə canişinlərinin separatizmi problemlər yaradırdı. Asur çarı II Sarqon İranzuya və oğlu Ulusuna urartuyönümlü separatçıları cəzalandırmağa yardım edirdi. O, asuryönümlü Mana elbəylərilə müttəfik kimi rəftar etsə də, yazılarında çox vaxt özünü «böyük qardaş» kimi təqdim edirdi. Əlbəttə, mana yazıları qalmadığı üçün asur yazılarında yer alan belə informasiyalar obyektiv durumun gerçək üzünü tam göstərmir.

«Mana dövləti m.ö.VIII əsrdən başlayaraq vaxtaşırı Asur və Urartu ilə savaşmış və bu dövlətlərin heç biri onu tam məğlub edə bilməmişdir» - deyən İ. M. Dyakonov Mana haqqında bilgilərin azlığını urartu və asur çarlarından fərqli olaraq, mana elbəyləri yazılarının bizə çatmamasında görür.[483] Manaya aid bəlgələri onunla savaşan tərəflərin mövqeyini əks etdirən asur-urartu yazılarından öyrənirik və təbii ki, bu yazılarda Mana eli kimi onun elbəyləri də aşağılanır. Hətta, Mana elinin Asur və Urartu üzərinə yürüşləri Urartu çarı Argiştinin yazısında «Mana eli gəldi, mən dəf etdim» kimi ötəri bir deyimlə verilir.[484] Asur yazıları isə asurların məğlub olduğu olaylar haqqında ümumiyətlə susur, yalnız bəzi Asur çarlarının fal açanlarına aid qısa öngörü mətnləri vaxtaşırı Mana tərəfdən gözlənilən təhlükənin olub-olmaması haqqında bəlgə verir.

[482] Гашraj, 1993, 59.

[483] Дьяконов, 1956, 143; Qaynaqlarda Mana elində yazıdan istifadə olunması haqqında bəlgələr olsa, örnəkləri yoxdur. Hər halda məhv edilən yazılar sırasında salamat qalanı nəvaxtsa üzə çıxa bilər.

[484] AT, 1996, 57.

İkiçayarasında ortaya çıxan Asur dövləti hələ XIX əsrdən Urmu yaxalarına girməyə can atırdı. Lakin asurların bu niyəti Turuk bəyliyinin iki əsr dirənişi ilə kerçəkləşə bilmədi, sonrakı əsrlərdə isə kassi sülaləsinin hakimiyətə gəlməsi asurların doğuya yayılmasının qarşısını aldı. Bu çağlarda asur çarları tutduqları ölkələri sadalayanda, adətən «lululuların ölkəsinə qədər» deyimini işlədirdilər. X əsrin son illərində II Adadnerari Urmu gölündən quzey-batıdakı Mexri ölkəsindən Mana bəyliyinin batı sınırları boyunca Namara qədər ensə də, Manaya keçməmişdir.[485]

Öncə Mana ilə Asur arasında olan bölgələrə girən asurlar 843-də Mana bəyliyindən batıdakı Alabri bölgəsinə, 834-də isə Mada ölkəsinin iç bölgələrinə yürüşlər etmişdi. Sonralar Asur dövləti Mananın güney sınırı boyunca Qızılbuda qədər böyük bir zolağı tutub, Bit-Hamban, Zamua, Parsua, Qarqar, Kişesu kimi bir neçə Asur əyaləti (canişinlik) yaratmış, burada asur qarnizonları yerləşdirmişdi. Doğrudur, Asurdan asılı olan bu bölgələrdə zaman-zaman asurlara qarşı üsyanlar alovlanır, asur qarnizonları qovulurdu, lakin asurlar növbəti yürüşlə yenidən buraları zəbt edirdi. Beləliklə, quzey və quzey-batıdan Urartudan asılı bölgələrlə, batıdan Asur dövlətinin özü ilə, güney cinahda isə Asurdan asılı əyalətlərlə əhatə olunan Mana eli Asur-Urartu dövlətlərilə balanslaşdırılmış siyasət aparmaq zorunda idi. Özəlliklə, Mananın arxa cəbhəsi sayıla biləcək güney sınır boyu asurların yaratdığı Asur əyalətləri hər an Mana elini «yandıra bilən» barıt çəlləyi kimi partlaya bilərdi.[486] 806-dan Urartuya qarşı yaranan Mana-Asur ittifaqı müəyyən fasilələrlə VII əsrin ortalarına qədər davam etdi.[487]

Azərbaycanda sonralar da özünü göstərən «böyük qardaş» düşüncəsi Mana eli çağından formalaşan gələnək idi. Belə ki, sonralar daima Roma-Part və Bizans-Pers dilemması qarşısında qalan ölkə başçılarının psixoloji durumu gah rum-yunan, gah da part-pers qoşunlarına yardımçı olan əhaliyə də sirayət etmişdi. Mana çağında qonşu dövlətlərlə balanslı

---

[485] АВИИУ, №21.

[486] III Tiqlatpalasarının vaxtından doğuya asur hücumu çoxaldı, asurlar Bit-Hamban və Parsua ölkələrini tutub Asur əyalətinə çevirdi, sonralar II Sarqon da daha iki əyalət (Kişesu, Xarxar) yaradır. Platsdarm rolunu oynayan bu əyalətlərdən asurlar daha uzaq yerlərə yürüş etmək imkanı qazanır. Asarxaddonun vaxtında asurlar hətta 677-də Dəmavənd dağlarından quzey-doğu torpaqlara gedib çıxır, lakin bu gediş buralara asurların son gedişi olur. Çünki 672-ci il müqaviləsinə baxmayaraq, yerli xalq vergidən yayınır, üsyançılar asur qarnizonlarına tez-tez hücum edirdilər.

[487] ИИ, 31.

siyasəti aparan başçılar ölkənin müstəqilliyindən çox, öz hakimiyətini qorumaq məqsədi güdürdülər. İranzu çağında ölkədə həm Asur, həm də Urartu yönümlü qüvvələr vardı. Asur tərəfdarları Urartu ekspansiyasını asurların köməyi, Urartu tərəfdarları isə asur ekspansiyasının qarşısını urartuların köməyilə dəf etməyi öngörü sayırdılar. «İranzunun asurmeylli siyasəti Ön Asiyanın bu qüdrətli dövlətini Mananın havadarına çevirmişdi».[488] İranzunun vaxtında Mana «gələcək Atropaten dövləti hüdudlarında yerləşə bilmiş, qədim şərqin dörd qüdrətli dövlətindən biri olmuşdu».[489] Lakin mərkəzi hakimiyətin xəzinəsini doldurmaqla bərabər asurlara da bac-xərac verməli olan bəzi canişinləri bu durum razı salmırdı. Bu narazılıqdan istifadə edən Urartu böyükləri belə canişinlərin üsyanına maddi və mənəvi yardım edirdilər.

Urartu-Asur qarşıdurması və bu iki qüdrətli dövlətin apardığı müharibələr VIII əsrdə Manaya manevr etmək imkanı verirdi. Asuru Ön Asiyanın ən qüdrətli dövlətinə çevrə bilən III Tiqlatpalasar (744-727) və II Sarqonun (722-705) vaxtında Mana eli urartuların zəbt etdiyi torpaqların xeyli hissəsini qaytara bildi. Özəlliklə, 714-də Səhənd dağı ətəyində baş verən savaşdan sonra asurlar urrartu tabeliyində olan mana bölgələrini yağmaladı, manalılar isə Urmu ətrafı əraziləri əldə edib möhkəmləndi. Hətta bir il sonra Ulusun vaxtilə asurların Manadan qopardığı bəzi sınır bölgələrə də yürüşlər etdi.

Urmu gölü yaxalarına IX əsrin sonundan başlanan Urartu hücumları bir əsr boyu vaxtaşırı təkrar olunmuşdur. İşpuini və oğlu Menuanın çağında (819-781) urartuların Mana ərazilərini zəbt etmə istəyi gündəmdən düşməyən siyasət idi. Urmu gölündən quzey bölgələri ələ keçirən və zaman-zaman Urmu gölünün batı və doğu yaxaları ilə güneyə yürüşlər edən urartular Urmu gölünün quzey, doğu və batı yaxalarında bir sıra bölgələri tutmuşdu. VIII əsrdə dəfələrlə Urartu hücumlarına məruz qalan Mana eli artıq bu əsrin ortalarına qədər torpaqlarının böyük bir hissəsini itirsə də, Urartuya tabe olmadı. Eyni bölgəyə urartuların dəfələrlə hücum etməsi göstərir ki, bu bölgələrin işğalı müvəqqəti xarakter daşımışdır.[490]

---

[488] AT, 1994, 95.

[489] AT, 1996, 58.

[490] Belə ki, Mananın quzey bölgələrində möhkəmlənən urartular Mananın iç bölgələrinə, özəlliklə Urmu gölünün güney-doğu yaxasında Meişta bölgəsinə 812 və 809-cu illərdə hücum etmiş və burada müasir Miyanduba yaxın Daştəpə adlı yerdə yazı qoymuşlar. Güneydəki Buştu və Barşua (Parsua) bölgələrini yağmalayıb geri qayıtmışlar.

II Sarduri 747-də indiki Xoy-Mərənd-Əhər yönündə irəliləyərək Arazbaran-Qaradağ bölgəsinə daxil olmuş və burada *polad* boylarının 20-dən artıq qalasını və xeyli yaşayış məskənini zəbt etmişdi.[491] Lakin Polad bölgəsinə qədər yolboyu zəngi boylarının yurdları kimi, poladlı məskənləri də 30 ildən sonra urartulardan təmizləndi.[492] Öncə III Tiqlatpalasarın, sonralarsa II Sarqonun vurduğu ağır zərbədən yalnız 714-dən sonra hakimiyətə gələn II Argiştinin vaxtında özünə gələn Urartu artıq əvvəlki qüdrətini itirmiş, bu durumdan yararlanan Mana isə toparlanıb güclənmişdi.

Artıq 730-cu illərdə hakimiyətə gələn I Rusa sələflərindən fərqli olaraq, Manaya girməyə qorxur, Mana elini daxildən parçalamaq üçün bu elin canişinləri olan yerli bölgə bəylərilə əlaqə yaradıb, onları mərkəzi hakimiyətə qarşı çıxmağa sövq edirdi. Bunu da qeyd edək ki, asurlardan fərqli olaraq, urartular zəbt etdiyi Mana torpaqlarında, o cümlədən Təbriz-İrəvan arası bölgələrdə kənd təsərrüfatının inkişafı üçün suvarma kanalları çəkir, atçılığın inkişafına şərait yaradır, müdafiə və qarovul qalaları tikirdi.

Saqa-qamər boylarının Qafqaz dağlarını aşıb Ön Asiyada at oynatdığı vaxtlarda Mana artıq Asura «böyük qardaş» kimi baxmırdı, fürsət tapdıqca Asur əyalətlərinə hücum edirdi. Qamərlər Anadolunun quzey-doğu bölgəsində, saqalar isə Quzey Azərbaycanın batı bölgələrində Kür-Araz arasında yerləşmişdilər.[493] Uzaq məsafələri sürətlə qət edən mahir oxçu süvarilərin bozqır savaş kulturunu Ön Asiyaya gətirən saqa-qamər boyları buradakı geosiyasi durumu dəyişdi. Əsrlərlə ətrafdakı xalqlara qan udduran Asur, Urartu kimi dövlətlər son illərini yaşamalı oldular. Bu olaylar Tövratda yolunu azmışları cəzalandırmaq üçün Tanrının öz ordusunu göndərməsi kimi dəyərləndirilmişdir.

Daha sonralar Ön Asiyaya bozqır təpərilə qayıdan oğuz-səlcuq boylarının burada oturaq türklərə yeni nəfəs verdiyi kimi saqa-qamərlərin

---

[491] Polad (Puluadi) bölgəbəyinin adı *Kadiau* şəklində oxunmuşdur. Bu adın tərkibində «qatı-yay» anlamlı sözlərin olması da mümkündür.

[492] Bu olaydan 20 il öncə I Argişti də Mananın Şimerixadir «çar» şəhərini tutur. Lakin bu şəhərin harada olması bəlli deyil. Hər halda, toponimin kökündə *simer* (suber) sözü onun *sipermen* boyu ilə əlaqəsini göstərir, *-ix* (urartu) şəkilçisindən sonrakı *adir* sözü əgər türk dilllərində «dağlıq yer» anlamındakı topoformantdırsa, onda bu şəhər-qala adı «Subar yüksəkliyi» (Simer-ix-adir) anlamında ola bilər.

[493] ИИ, 1977, 35.

qayıdışı da Mana elinin protoazər türklərini ruhlandırdı. Artıq soydaşları atlı türklərin yardımı ilə Asur-Urartu dövlətlərinə qarşı çıxmaq üçün gözəl şərait yaranmışdı. Arazın hər iki yaxasında oturan saqa-qamər boyları, onların atlı alayları Asur və Urartu üzərinə gedən Mana elbəylərinə yardım edirdi.[494]

Beləliklə, VII əsrin əvvəllərində Mana eli çox gücləndi. Asur çarları sınır bölgələrə məliklər təyin edib, «itaət etməyən» manalıları sakitləşdirməyə çalışırdı. Hətta 680-də Asarxaddonun yazısında belə deyilirdi: «Mana ölkəsinin adamlarını - boyunəyməz qutları dağıtdım, onları xilas edə bilməyən müttəfiqləri İşpakayın ordusunu silahla qırdım».[495] Lakin elə Asarxaddonun çağında Mana saqa-qamər boylarının yardımı ilə Asur sınırındakı Alabri və başqa bölgələri özünə qaytardı.

Mana ordusu 673-də bəzi Asur qalalarını tutur. Həmin il asurlar bu itkinin heyfini Van gölünün batısında yaşayan subar türklərindən alırlar. Asarxaddon burada yerləşən *Subar* bəyliyini tutub darmadağın edir. 660-da Aşşurbanipal Mana elinin tutduğu əraziləri geri almaq üçün hücuma keçir, bir neçə sınır məskənlərini zəbt etsə də, iç bölgələrdə uğur qazanmır və buraları yağmalayıb geri qayıdır. Beş il sonra Mana üzərinə asurlar yenidən hücum edirlər, İzirtunu mühasirəyə alsalar da, tutu bilmirlər, ancaq bəzi qalaları geri qaytarırlar. Bu uğursuzluq Mana elbəyi Axşerinin faciəsilə nəticələnir, öz əhalisi «onu yıxıb meyidini sürüyür». Yerinə oğlu Uali keçir və yenidən Asur buyuruğuna girən Mana nüfuzunu itirir.

VII əsrin əvvəli Mana üçün uğurlu olsa da, həmin əsrin sonu uğursuz oldu. Gözləmək olardı ki, müttəfiqləri saqa-qamər boylarının köməyi ilə Mana eli Ön Asiyanın ən qüdrətli və uzunömrlü dövlətinə çevriləcək. Çünki quzey qonşuduğunda yaranmış Saqa eli ilə birləşmək imkanı vardı. Görünür, azər xalqına verlən bu şansdan, Quzey və Güney Azərbaycanın vahid dövlət daxilində birləşməsi üçün yaranmış bu ilk tarixi şəraitdən Mana və Saqa elbəyləri istifadə edə bilməmişlər. Təxminən 670-ci illərdə Doğu Anadoludakı Qamər bəyliyinin başçısı Partatu da dönük çıxdı, asur çarının qızı ilə evlənmək istədi. Artıq qamər böyükləri asurlarla yaxınlıq edirdi. Az sonra qamərlərlə saqalar araçında da ixtilaf başlandı.

Öncə soydaşları qamərlərin yardımından məhrum olan Mana eli VII əsrin sonlarında yaranmaqda olan Madaya kömək edən saqalara da

---

494 АВИИУ, №50 (8); №65; №68, б, в.

495 Дьяконов, 1956, 264.

güvənə bilmirdi. Köməksiz qalıb zəifləyən Mana elbəyləri yenidən Asurla yaxınlaşmağa başladı. Babilə qarşı 616-dakı savaşda məğlub olan Asur ordusunun tərkibində əsir düşən manalılar da vardı. Beləliklə, iki əsrdən artıq mövcud olan Mana eli artıq bu çağlarda güney qonşuluğunda güclənməkdə olan Mada elinin tərkibində idi və son dəfə adı Tövratda VI əsrin başlarında Madaya tabe ölkələr (Saqa, Urartu) ilə birgə çəkilir.

Mana elinin qonşuları və Mana elinin öz daxilindəki etnik demoqrafiya haqqında bir-iki kəlmə deməyə ehtiyac vardır. Belə ki, Mana elinin batı qonşusu asurlar və qismən hurrilər, quzey-batı qonşusu urartular, quzey qonşusu azlar və saqa-qamər boyları, quzey-doğu qonşusu sonrakı kaspilər (doğu sınırı Kaspi dənizi boyunca uzanır), güney-doğu qonşusu mad boyları və onların arxasında *aribi* adlanan irandilli boylar, güney qonşusu qarışıq etnik tərkibli Ellipi bölgəsi və bu bölgədən sonra kassi və elam boyları, güney-batı qonşusu isə kassi və aramey boyları idi. Göründüyü kimi, sami (asur-aramey), qafqazdilli (hurri-urartu) və kassi-elam dilli etnoslarla əhatə olunan Mana elinin quzeyi türkdilli az, saqa-qamər və kaspi boylarının məskəni idi. Mana elinin sınırlarından kənarda qalan bir sıra bölgələrdə olduğu kimi, sınırlar daxilindəki bölgələr də türklərin yurdu idi.

Manaşünaslıqda ilk dəfə olaraq, əvvəlki bölmədə müəyyənləşdirdiyimiz az, azər, alınca, aran, arançı, arman, añçı, bars, börü, bus (boz), daqar, dəli, qaban, qaralı, qarqar, qızıl, kuman, zəngi, man, mad, padar, pardı, polad, urmu, saq, saqar, saqbut, saqtatuş, sığırçı, soqan, su, subi, sibermen, subar//sabar, şatır, tavarlı, xoruz adlı türk boyları m.ö. IX-VII əsrlərdə qədim Azərbaycan bölgələrinin etnik durumunu aydın göstərir. Təbii ki, bu etnonimlər sonrakı türk xalqları içində yayılan kimliyi bəlli boyların adlarıdır və həmin çağlarda kimliyi bəlli olmayan boyların da Azərbaycanda, özəlliklə Quzey Azərbaycanda yaşaması bir gerçəklikdir. Lakin m.ö. VIII əsrə qədər bunların sırasında bizə irandilli boyadı bəlli deyil. İranşünas E. Herzfeldin tədqiqatına əsaslanan S. Qaşqay haqlı olaraq yazır ki, IX-VIII əsrlərin onomastik materialına görə həmin çağlarda Mana ərazisində irandilli əhali olmamışdır.[496]

Mana elinin etnik demoqrafiyası haqqında bilgi əldə etmədən onun siyasi tarixində baş verən olayların səbəbinə düzgün qiymət vermək çətin olur. Bu halda, Mana elini quran boylar haqqında da konkret informasiya

[496] Гашгај, 1993, 42.

olmur. Belə ki, İ. M. Dyakonov Mana və Mada dövlətlərinin yarandığı ərazilərin m.ö. I minilin əvvəlindəki etnik durumunu ümumi şəkildə belə verir:



Etnik qrupların m.ö. I minilin əvvəlində təxmini yayılması (Дьяконов 1956, 139)

Lakin qədim Azərbaycanın etnik coğrafiyasının beləcə ümumi qut-lulu, kaspi-kadusi kimi etnonimlərlə verilməsi III-II minilliklər üçün özünü doğrulda bilər, I minilin başlarında isə artıq asur-urartu qaynaqları onlarla bölgə və bu bölgədə məskunlaşmış boylar haqqında bilgi verir. Ona görə də yuxarıda kiçik bəyliklərdən bəhs edərkən nəzərdən keçirdiyimiz boyadlarını m.ö. IX-VII əsrlər üzrə belə vermək olar:



Mana Eli və qonşu bölgələrdə m.ö. IX-VII əsrlərdə türk boyları

Bu xəritə-sxemdən göründüyü kimi, eyni boyadı bir-birinə yaxın və uzaq bölgələrdə ortaya çıxır. Belə ki, eyni anlamlı su (sub, subar), saq (saqbut, saqar), sangi (sangibut), padar, bars, baru, az (azər), arman, araz kimi boyadları bir-birindən aralı bölgələrdə görünür və bu adları daşıyan türk boyları sonralar türk elləri yayılan ölkələrdə yenidən ortaya çıxırlar. Əvvəlki bölmədə gözdən keçirdiyimiz bəyliklərin etnik durumu aydın göstərir ki, Mərkəzi Azərbaycanda IX-VII əsrlərdə mövcud olan kiçik siyasi qurumların çoxu artıq boylara görə deyil, bölgələrə görə tanınır.[497] Belə ki, bir bəylik və ya bölgədə müxtəlif adlar daşıyan boyların yaşadığını, həmçinin eyni adlı boyların müxtəlif bölgələrə yayıldığını müəyyən etməklə subar, lulu-qut, turuk, kuman adlı prototürk boylarının qurduğu siyasi qurumlardan fərqli olaraq, Azərbaycanda yeni dövlətçilik gələnəyinin formalaşdığını görmək olur.

Mana eli çağında bölgələr üzrə kiçik siyasi qurumların canişinliklər kimi formalaşması sonrakı Mada eli çağında böyük mahallar və əyalətlər formasında və Pers (Əhəməni) imperiyası vaxtında satrapiyalar şəklində davam etmişdir. Mana elində mərkəzi hakimiyətdən asılı olan bölgələr yerli sülalələr tərəfindən idarə olunurdu.[498] Asur qaynaqları belə bölgəbəylərinin bəzisini Mana canişini (*şakin Mât Mannâi*) adlandırır. Belə ki, m.ö. 716-714-cü illər arasında Zigertu bölgəsində *Mitət* (Mitatti), Andia bölgəsində *Telusin*, Uişdiş (Urartu yazısında *Uqişdi*) bölgəsində *Baqdat,* Maday bölgəsində *Dayauk* (Dayaukku) Mana canişini kimi verilir.

Bu son Dayauk adının özəl ad deyil, «toyqu» anlamlı *doyuku* titulu olduğunu və bir neçə bölgə başçısının da «böyük» anlamlı *payuk* titulu daşıdığını yuxarıda söyləmişdik. Görünür, elbəyi İranzunun vaxtında yaranan canişinlik sistemində artıq canişinlər seçki ilə yerli bəylər içindən seçilənlər idi. Belə ki, Mananın *Bit-Kapsi* adlı güney-doğu bölgəsində başçı 744-də *Battan* bəy, 737-də *Upaş* bəy idisə, artıq 714-də bölgəbəyi *Paukku* adlanırdı.[499]

---

[497] Mana tarixinə aid gərəkli kitab yazmış S. Qaşqay qeyd edir ki, Güney Azərbaycan ərazisində m.ö. I minilin əvvəllərinə aid mixi yazılardan bizə müxtəlif tayfa adları bəllidir (Гашгај, 1993, 34-35); Lakin yazar bu tayfa adlarını sadalamır.

[498] Asur qaynaqları Surikaş, Qızılbut, Sangibut, Mesi, Kirruri, Suqunia, Xarran, Gilzan, Subi, Baru və sair onlarla bölgəadı çəkir ki, bunların da bəzisi Mana elinə tabe olan bölgələr idi. Manadan tam asılı olan bölgələrdən başqa Asur sınırına yaxın olan Karalı və Alabri bəylikləri bir müddət canişinlik statusunda Manaya tabe idi, lakin bu bölgələr hələ IX əsrdən sonra zaman-zaman Asur dövlətindən asılı vəziyətə düşürdü.

[499] АВИИУ, № 49 (6); Дьяконов, 1956, 195, 199, 214.

Olsun ki, yerli hakimlərin seçki ilə seçilməsi onların mərkəzi hakimiyyətdən asılılığını zəiflədən faktor idi, çünki yazılı qaynaqların verdiyi bəlgələrə görə, canişinliklərin avtonomluğu aydın görünür. Belə ki, canişinlərdən Mitət, Telusin, Baqdat və Dayaukun yarımüstəqil hakim kimi fəaliyəti, onların Urartu çarı ilə əlbir olub mərkəzi hakimiyətə qarşı çıxması buna dəlalət edir. Sosial-iqtisadi və mədəni inkişaf baxımından da bölgələr Mana elindən geri qalmırdı. Məsələn, Andia bölgəsində hələ II minilin sonlarına aid Marliktəpə qazıntıları burada inkişaf etmiş atçılıq kulturuna aid nəsnələr, atlı basırıq, yüksək dulusçuluq kulturu, qızıl bər-bəzək, özəl damğalı möhürlər ortaya çıxarmışdır.[500] Eyni durum başqa bölgələrdə də görünür.

Manaya aid asur-urartu qaynaqlarında yüzlərlə şəhər-qala, şəhər və kənd adları qeyd olunmuşdur. Burada möhtəşəm qalalardan, özəlliklə dağların başında ucaldılan qaravul bürclü qalaçalardan bəhs olunur.[501] Mana eli çağında Azərbaycan kənd təsərrüfatı baxımından ən inkişaf etmiş ölkələrdən biri sayılırdı: buradan aparılan çeşidli qənimətlərin, iri və xırdabuynuzlu heyvanların sayı-hesabı yox idi. Atçılığın mərkəzi də o çağlarda Mana ölkəsi idi. Burada heyvandarlıqla yanaşı, əkinçilik, sənətkarlıq da yüksək səviyəyə qalxmışdı. Ümumiyətlə, Mana eli çağında oturaq və yarımoturaq yaşamı ilə seçilən əhalinin mədəni inkişaf səviyəsi İkiçayarası mədəniyətindən geri qalmırdı. Asur qaynaqları Manada yazı və uzman katiblər olduğunu da qeyd etmişdir.[502] Protoazər dilində olan bu yazıların haçansa üzə çıxacağına ümid bəsləmək olar.

Mana eli böyük dövlətçilik gələnəyi olan bir bölgədə yaranmışdır. Belə ki, bura Aratta, sonralar isə Qut dövləti və Turuk bəyliyinin ortaya çıxdığı bölgə idi. Özəlliklə Akad, Sumer və Elam ərazilərini də əhatə edən Qut eli çağından minildən artıq zaman keçməsinə baxmayaraq, onun əks-sədası hələ də davam edirdi və Asur çarları bəzən yazılarında mana-

---

[500] ИИ, 1977, 30.

[501] II Sanqibuta girən asurlar qeyd edir ki, burada «düşmənin yaxınlaşdığından xəbər tutmaq üçün əhalinin gözü gecə-gündüz dağ zirvələrində ucaldılmış bürclərdə qalanan tonqal tüstüsündə idi» (АВИИУ, № 49, 233); Mananın doğu sınırında yerləşən *Panziş* qalası haqqında asur qaynağında deyilir ki, Mana çarının (Ulusunun) bu böyük qalası qaravul məntəqəsi kimi tikilmişdi (АВИИУ, № 49, 74). Bu qala müasir Qaravuldağın quzeyində idi. Həmin çağlarda başqa bir *Penzu* şəhəri də Dəclənin quzeyindəki Subar bəyliyində vardı. Olsun ki, Sibir adı kimi, çağdaş Penza yeradını da ora köçən subarlar aparıb.

[502] ИИ, 1977, 35.

lıları *qutlar* adı ilə verirdi. «Arxeoloji tapıntıların mixi yazılı mənbələrin məlumatları ilə müqayisəsi Urmiyayanı əyalətlərdə erkən dövlət qurumlarının hələ çox əvvəllər təşəkkül tapdığını göstərir».[503]

Mana eli çağında bölgələr üzrə kiçik siyasi qurumların canişinliklər kimi formalaşması sonrakı Mada eli çağında böyük mahallar və əyalətlər formasında və Pers (Əhəməni) imperiyası vaxtında satrapiyalar şəklində davam etmişdir. Mana elində mərkəzi hakimiyətdən asılı olan bölgələr yerli sülalələr tərəfindən idarə olunurdu.[504] Asur qaynaqları belə bölgəbəylərinin bəzisini Mana canişini (*şakin Mât Mannâi*) adlandırır. Belə ki, m.ö. 716-714-cü illər arasında Zigertu bölgəsində *Mitət* (Mitatti), Andia bölgəsində *Telusin*, Uişdiş (Urartu yazısında *Uqişdi*) bölgəsində *Baqdat,* Maday bölgəsində *Dayauk* (Dayaukku) Mana canişini kimi verilir.

Bu son Dayauk adının özəl ad deyil, «toyqu» anlamlı *doyuku* titulu olduğunu və bir neçə bölgə başçısının da «böyük» anlamlı *payuk* titulu daşıdığını yuxarıda söyləmişdik. Görünür, elbəyi İranzunun vaxtında yaranan canişinlik sistemində artıq canişinlər yerli bəylər içindən seçki ilə seçilənlər idi. Belə ki, Mananın *Bit-Kapsi* adlı güney-doğu bölgəsində başçı 744-də *Battan* bəy, 737-də *Upaş* bəy idisə, artıq 714-də bölgəbəyi *Paukku* adlanırdı.[505]

Olsun ki, yerli hakimlərin seçki ilə seçilməsi onların mərkəzi hakimiyətən asılılığını zəiflədən faktor idi, çünki yazılı qaynaqların verdiyi bəlgələrə görə, canişinliklərin avtonomluğu aydın görünür. Belə ki, canişinlərdən Mitət, Telusin, Baqdat və Dayaukun yarımüstəqil hakim kimi fəaliyəti, onların Urartu çarı ilə əlbir olub mərkəzi hakimiyətə qarşı çıxması buna dəlalət edir. Sosial-iqtisadi və mədəni inkişaf baxımından da bu bölgələr Mana elindən geri qalmırdı.[506]

Türk dövlətçilik sistemini bəzi dəyişikliklərlə müəyyən vaxtacan saxlaya bilən bozqır türklərindən fərqli olaraq, oturaq və yarımoturaq

---

[503] Гашraj, 1993, 53.

[504] Asur qaynaqları Surikaş, Qızılbut, Sangibut, Mesi, Kirruri, Suqunia, Xarran, Gilzan, Subi, Baru və sair onlarla bölgəadı çəkir ki, bunların da bəzisi Mana elinə tabe olan bölgələr idi. Manadan tam asılı olan bölgələrdən başqa Asur sınırına yaxın olan Karalı və Alabri bəylikləri bir müddət canişinlik statusunda Manaya tabe idi, lakin bu bölgələr hələ IX əsrdən sonra zaman-zaman Asur dövlətindən asılı vəziyətə düşürdü.

[505] АВИИУ, № 49 (6); Дьяконов, 1956, 195, 199, 214.

[506] Məsələn, Andia bölgəsində hələ II minilin sonlarına aid Marliktəpə qazıntıları burada inkişaf etmiş atçılıq kulturuna aid nəsnələr, atlı basırıq, yüksək dulusçuluq kulturu, qızıl bər-bəzək, özəl damğalı möhürlər ortaya çıxarmışdır (ИИ, 1977, 30).

türklərin yaşadığı Mana elində qonşu dövlətlərin təsiri ilə tarixi gələnəklərdən uzaqlaşma seçimli qurumların aktivliyini azaltmışdı. Ağsaqqallar şurası qurumunun zəifləməsi, toyquların mərkəzi hakimiyətdə deyil, yalnız Dayauku kimi canişinliklərdə görünməsi elbəyin irsi hakimiyət əldə etməsi və Mana elinin oliqarxik xarakter alması ilə nəticələnmişdi.[507]

Q. A. Melikişvili yazır ki, Mana elbəyi Ulusunu müşayiət edənlərin sırasında zadəganlar ($^{amel}$ *rabâni*), böyüklər (*šibi*), onun ata soyundan, ata evi ailəsindən (*zêr bît abî-šu*) sayılan müşavirlər (*maliki*), həmin soydan olmayan ölkə və bölgə başçıları (*šakkanakkê, ridê*) və başqaları vardı. O, Mana ölkəsinin böyük (çar) canişinlərinin *šaknuti* $^{mat}$*Mannai rabûti* adlandığını da qeyd edir.[508] Görünür, quldarlıq quruluşunun hökm sürdüyü qonşu Asur, Urartu, Babil və Elam dövlətlərindən fərqlənən Mana elində bu dövlətlərin hakimiyət sistemi ilə türk dövlətçilik gələnəyinin sintezi yaranmışdı. Bu qarışıq sistemdə geniş xalq kütlələrinə deyil, oliqarxlara arxalanan elbəyin irsi hakimiyəti o qədər də güclü olmurdu.

Yuxarıda Mana bəyliyinin Zamua ölkəsinin bir parçası olduğunu qeyd etmişdik. Asurlar bu ökəyə 880-də hücum edəndə güney bölgələrin başçısı kimi onlara qarşı çıxan *Ameka* (Amek) və ona qoşulan *Araştu* idi. Burada asurlara qarşı 855-də dirəniş göstərən qüvvələrin başında *Mektiara* (Bektiar), 821-820-ci illərdə isə onun oğlu *Şarsina* (Sarçın) dururdu. Görünür, *Udak* elbəyin 830-cu illərdə başçılıq etdiyi Mana bəyliyindən güneydə Bektiar-Sarçın sülaləsi Mana ilə paralel mərkəzləşmiş hakimiyət qurma imkanı əldə etsə də, bunu gerçəkləşdirə bilməmiş və bu sülalənin idarəsi altında olan boylar Mana elinə tabe olmuşlar.

Beləliklə, ilk Mana çarı kimi tanınan ***Udak*** haqqında yalnız bunu bilirik ki, asurlar 828-də Manaya hücum edəndə ölkənin quzey-batı bölgəsində olan *Zirtu* (İzirtu) şəhərindən qaçıb dağda gizlənir. Asurlar isə buraları yağmalayıb çoxlu malqara, var-dövlət aparırlar.[509] Ümumiyətlə,

---

[507] Doğrudur, asur yazılarında *Ata, Dədə, Böyük, Dayauk* adı (sanı) daşıyan bölgə başçılarına rast gəlmək olur, lakin onların türk törəsi ilə seçilməsi haqqında birbaşa bilgi yoxdur. Yalnız bir neçə əsrdən sonra Herodot Deyok (Dayauk) haqqında danışarkən onun əhali tərəfindən seçildiyini qeyd edir.

[508] Меликишвили, 1949, 71.

[509] Asur sərkərdəsi Dayan-Aşşurun adından belə yazılıb: «Mən manalı Udakın məskənlərinə yaxınlaşdım, manalı Udak mənim silahımın parıltısından dəhşətə gəlib, canını qurtarmaq üçün öz çar şəhəri Zirtanı tərk etdi. Mən onun dalınca düşdüm. Saysız-hesabsız qaramalını, qoyunlarını, mülkiyətini apardım. Şəhərlərini viran qoydum, dağıtdım, od vurub yandırdım» (Гашгай 1993, 59).

IX əsrin sonlarında Manaya dalbadal hücumlar edən Urartu çarları da ölkəni çapıb talayırdı. Udak elbəydən sonra təxminən 80 illik bir dövrdə Manaya başçılıq edən elbəylərin adı bəlli deyil. Belə ki, yalnız 737-yə aid olaylarda Mana elbəyi İranzunun adı çəkilir.

VIII əsrin ortalarından sonra 718-ə qədər təxminən iyirmi il hakimiyətdə olmuş ***İranzu*** elbəy Mana tarixində mahir diplomat, bacarıqlı və uğurlu dövlət başçısı idi. Olsun ki, *İranzu* adı bu elbəyin özəl adı deyil, **İr-yanzu* və ya **İrənc* sanı (titulu) idi. Onun vaxtında Mana eli Asur və Urartu kimi qüdrətli dövlətə çevrilmişdi.

İranzu III Tiqlatpalasarın müttəfiqi kimi asur ordusunun Urartuya qarşı savaşından bəhrələnir, zəbt olunmuş torpaqları geri qaytarır. Asur çarları kimi canişinlik sistemini tətbiq edir. Hakimiyətinin son illərində artıq qocalmış İranzu 719-da II Sarqondan hərbi yardım alaraq Manadan ayrılmaq istəyən bir neçə yaşayış məskənini (qalanı) tutur, əldə edilən qəniməti, əsirləri isə asurlara verır.[510] İranzuya köməyə gələn asurlar Zigertu canişini Mitətin hərbi yardımı ilə Manadan ayrılmış Şuandaxul və Durdukka ($^{URU}$Du-ur-duk-ka) qalalarını geri qaytarmağa yardım etmişdi.[511]

Görünür, bu olaylardan bir il sonra 718-də İranzu ölmüş, yerinə oğlu ***Aza*** keçmişdi. Artıq 716-ya aid qaynaqlarda Mana elbəyi Azanın adı çəkilir.[512] Azanın qısa sürən iki illik hakimiyəti dövründə daxili ixtişaşlar güclənmiş, ölkə parçalanmaq, dövlət dağılmaq təhlükəsi qarşısında qalmışdı. Uişdiş və Zigertu canişinləri Baqdatla Mitət urartuların yardımı ilə Azanı Səhənd dağı ətəyində öldürürlər, daha sonra isə Maday və Andia bölgələrinin canişinləri Dayakku ilə Telusin də bu antiasur ovqatlı üsyana qoşulur.

İranzunun asuryönümlü siyasətini davam etdirən Azaya qarşı birləşmiş qüvvələr onu Səhənd dağı ətəyində məğlub edib öldürəndən sonra İranzunun ikinci oğlu ***Ulusun*** Mana elbəyi seçilir. Uratu çarı I Rusanın yardımı ilə taxta çıxan Ulusun urartuyönümlü siyasət aparır və Asur sını-

---

[510] Urartu çarı I Rusanın təhrikilə Sukka, Abitikna, Bala qalaları və Zigertu bəyi Mitətin hərbi yardımı ilə Şuandaxul və Durduk qalaları Manadan ayrılmağa cəhd edirdilər.

[511] Дьяконов 1956, 206; Buradakı düşərgə, duracaq yeri anlamında *durduk* sözü qala adına çox yakışır və XVII əsrdə Anadoluda da Qızıl-İrmak çayının yaxasında *Durduk* adlı türk kəndi vardı (Эвлия Челеби, III. 1983, 286).

[512] Azanın adı asa//aça//atsa şəklində də oxuna bilir (Дьяконов 1956, 207); Manada bu adın az//as etnonimilə bağlı olduğunu da düşünmək olar. Azərbaycanda Asa, Aza, Azay adı yayğın idi.

rına yaxın Alabri və Karalı bölgələrini də asurlara qarşı başlanan hərəkata qoşulmağa təhrik edir.[513] Manada baş verən daxili çəkişmələri bəhanə edən II Sarqon bura qoşun yeridib indiki Ziviyə (İzbia) şəhərilə bərabər bir neçə yaşayış məskənini yandırır. Üsyançılardan Mitət qaçıb dağlarda gizlənməklə canını qurtarsa da, manalılara görk olsun deyə, Baqdatı tutub dərisini soydurur, Alabri və Karalı bəylərini də cəzalandırır. «Mannalı Ulusun atasının taxtında oturub, urartulu Ursaya (Rusa) arxalandı və 22 qalasını ona ərməğan etdi» - deyən II Sarqonun 716-da Manaya etdiyi bu yürüşün əsas məqsədi Ulusunu urartuyönümlü siyasətdən daşındırmaq idi. Ulusunla barışan Sarqon onu hörmətlə qarşılayır. Ulusunu devirmir, onu yenidən taxta oturdub, ölkə üzərinə əlavə simvolik vergi (30 at) qoyur.

II Sarqon urartuların Manadan qopardığı 22 qalanı tutub öncə Asur ərazisinə qatır, bir il sonra isə Manaya qaytarır.[514] Bundan sonra Mananın güney-doğu tərəfdəki Maday canişinliyinə keçib, urartularla əlaqə qurmuş Dayauku əsir alır və ailəsilə birlikdə Suriyaya sürgün edir.[515] Bir il sonra, 714-də Urartu üzərinə gedən Sarqona müttəfiq kimi Ulusun asur ordusu üçün ərzaq tədarükü görür, onu güneydəki Durduk qalasında qarşılayır. Sarqon isə Ulusunun şərəfinə şülən verir. Asur yazısı qeyd edir ki, Sarqonla söhbətdə Ulusun atası İranzuya nisbətən daha yüksək məqamda oturmuşdu. Bir il sonra (713-də) yenidən Manada görüşən Sarqonla Ulusun bir-birinə hədiyələr verirlər. Belə diplomatik addımlar Asur-Mana müttəfiqliyini nümayiş etdirən görüntü idi.

Asur qaynağına görə, II Sarqon ordusunun 714-də Manaya girməsi güya manalıların canını «qəhbə» (*kakbe*) urartulardan qurtarmaq, zəbt etdikləri Mana bölgələrindən onları qovmaq üçün imiş.[516] II Sarqonun bu yürüşünü və onun keçdiyi yolların geniş şərhini II Bitikdə vermişdik. Bu yürüş Mana elbəyinə qarşı üsyan edənlərin köməyinə gələn I Rusanın

---

[513] Asur qaynaqlarının Ullusunu şəklində verdiyi *Ulusun* adı Urmu gölünün güney-batı tərəfindəki Harunada 828-də başçı olan *Şulusun,* həmin çağda Bəxtiarın oğlu *Şarsin* və Andia bəyi *Telusin* adlarındakı *-çın* (-sın) formantı türk antroponimiyasında geniş işlənir. Bu baxımdan, həmin adların Uluçın, Suluçın, Sarçın və Teluçın formalarını bərpa etmək mümkündür.

[514] Çox güman ki, bu qalalar Urmu gölündən güney-batı tərəflərdə idi.

[515] Ulusun Urartudan üz çevirəndən sonra I Rusa elçilər göndərib Maday bəyliyində canişin Dayaukla münasibət qurur və onu mərkəzi hakimiyyətə qarşı üsyana təhrik etmişdi.

[516] АВИИУ, №46 (46), №49 (51).

məğlubiyəti, Urartu ordusunun darmadağın edilməsi ilə nəticələndi və Mana itirilmiş torpaqlarını geri qaytardı.

Ulusundan sonrakı elbəyin adı qaynaqlarda yoxdur. Ancaq Asur çarı Aşşurbanipal (669-627) yazısında Mana elbəyi Axşerinin (Axseri) «onun atasına tabe olmadığını» qeyd edir. Hər halda ***Axseri*** 670-ci illərdən hakimiyətdə idi. Asur hücumlarının qarşısını ala bilməyən Axseri hörmətdən düşmüşdü, manalılar 650-də onu devirib oğlu Uallini elbəyi seçirlər. O da öz oğlu ***Erisini*** Asur çarına girov göndərir. Xalqın qalxıb Axserini devirməsi hakimiyətdə olan sülaləyə qarşı deyildi, çünki onun yerinə oğlu elbəy seçilir, üsyanın səbəbi xalqın Axseridən narazılığı idi.

Göründüyü kimi, Manada hakimiyət irsi yöndə olsa da, xalq hələ öz iradəsini ortaya qoya bilirdi. Belə ki, saray çevrilişləri, ordunun və asılı bölgələrin üsyanı müxtəlif dövlətlərin tarixində vaxtaşırı görünən olaylardandır, lakin xalqın qalxıb öz hökmdarını devirməsi qədim çağların dövlətçilik tarixində tək-tük rast gəlinən hadisədir. Əhalinin «hələ öz aktivliyini saxlayan demokratik hissəsinin azadlığı» (İ. M. Dyakonov) bu protoazər boylarının keçmiş seçim və toy gələnəyinin zəif yaşantısı idi.

Beləliklə, Mana elində dövlət quruluşu, onun siyasi-inzibati ərazisi, yarımüstəqil bəyliklərin mərkəzi hakimiyətdən nominal asılılığı, elbəylərin irsi hakimiyəti və ölkənin etnik demoqrafiyası haqqında asur-urartu qaynaqlarının verdiyi bilgilər Azərbaycanın qədim tarixində bu dövlətin önəmli yeri olduğunu aydın göstərir. Görünür, Mana elinin qurucuları olan *man* boyları ölkədə etnik konsolidasiya yarada bilmədilər, çünki man boyu siyasi arenadan çəkiləndən sonra onun adı qaynaqlarda (Büsutun yazısı, Herodot və b.) çəkilmir.[517] Qaynaqlardan bu da bəlli olur ki, qonşu dövlətlərdən fərqli olaraq, Mana elində sadə xalq yeri gələndə öz iradəsini ortaya qoya bilirdi.

Doğrudur, tədqiqatçılar Mana çağını patriarxal və ev quldarlığı hüdudundan çıxmayan erkən quldarlıq cəmiyəti kimi dəyərləndirir, lakin burada «quldarlıq» termini gerçək durumu əks etdirmir. Çünki qonşuluqda olan Urartu, Asur, Babil, Elam dövlətlərindən fərqli olaraq, Mana elində quldarlıq quruluşu üçün sosial-siyasi və iqtisadi zəmin yox idi. Belə ki, böyük feodal təsərrüfatlarında işləyənləri, elbəyi sarayındakı qulluqçuları

---

[517] Çox sonralar hay qaynaqları Ərzurumun güneyində Mananali (manalı) bölgəsi olduğunu qeyd etmişdir (Капанцян, 1947, 169); Lakin man boyunun bu bölgəyə getmə tarixi haqqında əlavə bilgi yoxdur.

klassik anlamda «qul» saymaq olmaz. Manada çoxsaylı tanrı məbudları sistemi olmadığından möhtəşəm məbədlərin tikintisinə və məbəd təsərrüfatına lazım olan böyük işçi qüvvəsinə də ehtiyac yox idi. Heyvandar, ilxıçı, əkinçi, sənətkar manlılara, ev qulluqçuları nökər-kənizlə kifayətlənən mana bəylərinə, yerli canişinlərə, həmçinin yetərincə saray qulluqçusu olan elbəylərə qullar ordusu lazım deyildi. Ümumiyətlə, türk dövlətlərində insan azadlığı türk törəsilə qorunmuşdur. Bunun açıq örnəyini Mana eli ilə eyni çağda İkiçayarasının quzeyində mövcud olan Subar bəyliyində görmək olur.

Lakin klassik türk dövlətçilik sistemini saxlayan bozqır türklərindən fərqli olaraq, oturaq və yarımoturaq türklərin yaşadığı Mana elində türk dövlətçilik gələnəklərindən uzaqlaşma halları da olmuşdur. Belə ki, Mana eli quldarlıq quruluşunun hökm sürdüyü qonşu dövlətlərdən qullar institutunun olmaması ilə fərqlənsə də, həmin dövlətlərdəki irsi hakimiyyət sistemini mənimsəmiş, Qut elində gördüyümüz seçki sistemindən üz döndərmişdi. Ancaq xalq kütləsi hakimiyyətin apardığı siyasətdən natazı olanda elbəyə qarşı üsyan qaldırıb onu devirə bilirdi.

Beləliklə, iki əsrdən artıq mövcud olan Mana eli m.ö. VII əsrin sonunda quzey qonşusu Saqa eli ilə birlikdə Mada dövlətinin təpkibinə daxil oldu. Mana elində qazanılmış təcrübədən sonrakı Mada və Pers dövlətləri yararlandı. Pers (Əhəməni) dövləti dağılandan sonra keçmiş Mana elinin ərazisində atropatların idarə etdiyi Kiçik Mada (Azərbiqan) eli yarandı.



**Qamər bəyliyi**

Ön Asiyada m.ö.VIII-VII əsrlərdə baş verən tarixi olaylarda aktiv iştirak edən *qamər* (kimmer) boylarının *saqalarla* (skitlərlə) qohumluğu, onların tarixi və etnoqrafiyası haqqında çoxlu yazılar var, lakin onların mənşəyi məsələsi hələ də mübahisəli olaraq qalır. Antik çağ yazarları (Herodot, Pompey Troq, Siciliyalı Diodor və b.) saqa boylarının m.ö. XVI-XV əsrlərdə Araz çayı yaxasında yaşadığını və sonralar Azaq dənizi yaxalarına getdiyini qeyd etmişlər.[518] Saqa boylarından *Saqa eli* bölməsində geniş danışsaq da, burada qeyd edək ki, qamər boylarının tarixini saqalardan ayırmaq mümkün deyil, çünki bu iki türk boyunun adı asur qaynaqlarında sinonim sözlər kimi işlənir. Saqa boyları kimi, qamər boylarının da Anadoluda Homer çağında və ya daha qədim çağlarda görünməsi haqqında bəlgələr vardır.[519]

Qədim qaynaqlara görə, saqa boyları əvvəllər *Araz* yaxasında yaşayırmış. Sonralar Qafqaz dağlarını aşıb, Azaq dənizi yaxalarında özlərinə yurd salmışlar. Sonralar qamərləri təqib edərək, Ön Asiyaya qayıtmışlar. Bir sıra arxeoloqların tədqiqatı bu köçləri təsdiq edir.[520] Lakin bu köçlər elliklə deyil, saqa-qamər boylarının bəzi qolları ilə gerçəkləşmişdir. Ona görə də saqa-qamər boylarının öncə Ön Asiyada yaşaması, buradan doğu və quzey ölkələrə köç etməsi və onlardan bəzi tirələrin yenidən Ön Asiyaya qayıtması haqqında danışarkən nəzərə almaq lazımdır ki, həm gedən, həm də qayıdanlar saqa-qamər boylarının müəyyən hissələri idi.

Ön Asiyadan doğu və quzey ölkələrə miqrasiya edən *subar, turuk, qut, qaşqay, kuman, urmu* və sair türk boyları kimi, saqa-qamər boyları da Azaq dənizi yaxalarına buradan getmişlər. Arxeoloji bəlgələrə görə, saqalar m.ö. IX əsrdən (bəlkə daha öncə) quzey və doğu yönlərə köçmüş, Ön Asiya mədəniyətini Azaq yaxalarına və Altaya daşımışlar. Qamərlər isə Azaq və Qara dəniz yaxalarına saqalardan öncə getmişdir. Sibir-Altay bölgələrində VIII-VII əsrlərdə ortaya çıxan saqa kulturu onlardan bəzi qolların doğuya miqrasiya etdiyini aydın göstərir. Məhz həmin doğudakı saqalar VIII əsrin ortalarında Xəzərin quzeyilə Azaq yaxasına gəlib, özlərindən bir-iki əsr əvvəl burada yurd salmış soydaşları olan qamər boyunu yerindən eləyir. Sonralar bir-birinin ardınca bu yolu keçən hun, subar, avar, xəzər, peçeneq, kuman, qıpçaq boyları da eyni olayı yaşamışlar.

---

[518] Bu tarixi m.ö.1700-cü illərdən sayanlar da vardır (Райс, 2003, 32).
[519] Страбон, I. 3. 21; III. 2. 12; XI. 2. 5; XIV. 1. 40.
[520] Техов, 1980, 18.

VIII əsrin sonunda Azaq yaxasından qayıdan qamər boylarının bir hissəsi Azərbaycanın batı bölgələrinə və Kiçik Asiyanın quzey-doğu bölgələrindəki qədim Qaşqay ölkəsində yerləşdilər. Onların ardınca VII əsrin əvvəllərində Dərbənd və Dəryal keçidlərilə Azərbaycana qayıdan saqaların bir hissəsi də Urmu-Göycə gölləri arasındakı bölgələrdə oturdu. Saqa-qamər boyları VII əsrin əvvəlində burada yerli soydaşları ilə birləşərək böyük hərbi qüvvəyə çevrilirdi. Həmin əsrin sonunda isə saqa boyundan bəziləri yenidən Azaq bölgəsinə qayıtdı və m.ö. III əsrdə Skitiya adlanan bu ölkəyə hun axınına qədər tarix səhnəsində qaldı.



Qamər bəyliyi (m.ö.VII əsr).

Miladdan öncə VIII əsrin sonlarında Azaq dənizi yaxalarından qalxaraq, Güney Qafqaza və Doğu Anadoluya gəlib bəylik quran qamərlər (kimmerlər) azər türklərinin formalaşmasında mühüm rol oynamışlar. Onların ardınca VII əsrin əvvəllərində Azərbaycana gəlib, burada dövlət quran, uzun müddət ətraf ölkələrin şahlarını rahatsız edən, sonra yenidən Azaq yaxalarına qayıdaraq, orada yeni dövlət quran *saqa* (saqat) boyundan sonra ayrıca danışacağıq. Burada isə *saqa* və *qamər* boylarının Azərbaycanla bağlı maraqlı tarixi səhifələri üzərində dayanmaq nəzərdə tutulub. Ona görə maraqlı deyirik ki, hələlik əldə olan məlumata görə, vaxtilə Ön Asiyadan, Urmu gölü hövzəsindən doğu və quzey ölkələrə köç etmiş türk boyları içindən sonralar əvvəlki Atayurda qayıdan ilk boylar saqa-qamərlərdir. İkinci maraqlı cəhət budur ki, saqa-qamər boyları Qafqaz dağlarından Urmu gölünə qədər Quzey və Güney Azərbayan arasında körpü olub, Arazın sağ və sol yaxalarını burada qurduqları dövlətin sınır-

ları içinə almışlar. Saqa-qamər boylarının mənşəyi məsələsi ilə yanaşı, bu boylarla əlaqədar VIII-VI əsrlərdə Azərbaycanda yaşanan olayların məntiqi nəticələri təkcə azər türklərinin deyil, başqa türk xalqlarının da tarixini yeni baxış bucağından öyrənməyə imkan açır.

Öncə, elmdə xeyli dolaşığa salınmış *saqa-qamər* probleminə açıq gözlə baxmaq lazım gəlir. Belə ki, əvvəllər *azər* xalqına güya heç bir aidiyatı olmayan və adı yalnız *kimmer* şəklində yazılan bu boyadının etimoloji açımını vermiş, bunun *qam-ər* sözü olduğunu və azər xalqının soykökündə dərin iz buraxdığını yazmışdıq. O vaxtdan bir çox Azərbaycan tarixçiləri artıq həmin etnonimi *qamər* şəklində işlədir.[521] Lakin hələ də elmdə, özəlliklə bu etnonimin *kimmer* şəklindən möhkəm yapışan rus tarixçilərinin qamər boyu haqqında yanlış yozumları baş alıb gedir. A. A. Neyxart yazır ki, həyat tərzi və dil oxşarlığına söykənən kimmer-skit qohumluğu məsələsi müasir elmdə geniş yayılmış hipotezlərdəndir. Bəzi Avropa və rus alimləri isə *kimmer* (qamər) boyunu *skitlərdən* ayırıb, kelt, trak (frak), tavr və ya irandilli xalq kimi verməyə çalışsalar da, bir nəticə əldə edə bilməmişlər və etiraf olunur ki, *kimmer* probleminin arxeoloji və etnik məsələsi «*hələ də açıq qalır*».[522]

Halbuki, Prokopi hələ 554-də yazırdı ki, Azaq-Don arasında oturan *utiqur* boyu qədimdə *kimmer* adlanırdı.[523] Ondan əvvəlki Antik dövr müəllifləri də qamər (*kimmer*) boyunu «qımız içən» saqa (türk) boylarından saymışlar. Məhz saqa-qamər birliyinin özü və *qamər* adının etimoloji açımı bu məsələyə mübahisə doğurmayan arqumentlər verir. Protoazər dialektlərində *qamər* adı *kamar~qamər~qımır* variantları ilə işlənmişdir. Bu son variant indi də gen saitləri daraldan (*oğlan >uğlan, elçi >ilçi*) quzey azər dialektində *Qımırlı* kəndinin adında qalmışdır. Əksər bölgələrdə isə *qamər* boyadı ilə yaranmış etnotoponimlər ilkin varianta yaxın deyimi saxlamışdır:

Quzey və Güney Azərbaycan: *Qəmərli, Kəmərli, Kəmər, Komar, Xomarlu*

Gürcüstan: *Kamaraxevi, Didi-Qomareti, Aşağı//Yuxarı Qəmərli*

Özbəkistan: *Zaraut-Kamar qayası*

Türkmənistan: *Kəmər, Kəmərli*

Türkiyə: *Komarlar, Komarlı, Kamar-uşağı*

---

[521] Чəлилов, 1986; 1987; Azər xalqı, 2000, 84; Гејбуллајев, 1994, 132; AT, 1994, 118.
[522] Нейхарт, 1972, 77-78.
[523] Джафаров, 1985, 74-75.

Bu boyadının türk dialektlərinin özündə formalaşan *qamər//qomər* və *qımer//kimer* variantları asur yazılarında da əks olunmuşdur: əvvəllər daha çox *qamer* və *qamir* şəklində işlənən bu etnonim sonralar *qimir* və *qimirri* şəklində yazılmışdır.[524] İlk dəfə m.ö.VIII-VII əsrlərdə rast gəlinən *kimmer* formasını sonralar antik dövr müəllifləri (Aristey, Hekatey, Herodot və b.) ənənəvi olaraq saxlamışlar, hətta Pomponi Mela (I əsr) Xəzər yaxasında *komar*, quzey bölgələrdə sə *kimmer* boyunun yaşadığını yazır.[525] Əlbəttə bu, keçmiş məlumatın mexaniki təkrarıdır.

Maraqlıdır ki, yunan yazarları bu etnonimi *κιμμεριοι* (kimmer) şəklində verir, lakin Azaq saqalarının ərazisində tapılmış m.ö. VII əsrə aid bir qabın üzərindəki yazı fərqlidir, belə ki, dizini yerə qoyub irəli ox atan şişpapaq qamər oxçusunun başı üzərində *κιμεριοε* (kimer) yazılmışdır:[526] Homerin əsərində də buna yaxın *kheimeriōn* (keimer) şəkli verilmişdir.[527]



---

[524] ХПИДВ, 1963, 340-341; АВИИУ, №50, 8, 10-11; №65; №69.

[525] АИОСК, 1990, 99.

[526] Мартынов, 1982, 120; Adın ən düzgün yazılışını Գամեր (*Qamer*) şəklində «Alban tarixi» verir (Kalankatlı, I. 15).

[527] Homerin əsərində (İliada, XIII, 4-5) «*hippopolōn Threikōn*» (Treik atlı döyüşçüləri) və «*Musōn t'a(n)gkhemakhōn kai aqauōn hippēmolgōn qlaktophagōn abiōn te, dikaiotatōn antrōpōn*» (mahir əlbəyaxa misi döyüşçüləri və madyan sağan cəsur südiçənlər, ən ədalətli yoxsullar) deyimləri haqlı olaraq, *thrak* (frak) və kımız içən *skith-kimmer* boyları ilə izah olunur. Lakin *thrak* etnoniminin burada *threik* forması da açıq göstərir ki, Trakiya ölkəsinin adı «türk» sözü ilə bağlı yaranmışdır. Belə ki, İeronim (LQ, col. 1000) və İsidorun «Etimologiya» əsərini azacıq fərqlə təkrar edən Skandinav abidələrində Yafəsin 7 oğlu belə sıralanır:

*Gomer, Maqoq, Madai, İuban, Tubal, Masok, Tirak* (ДГС, 1986, 93-95, 134).

Buradakı Qomer *qamər* boyadını, Tirak (və Tiras variantı) isə *Trakiya* adını ortaya çıxarmışdır. Homer ikinci əsərində (Odisseya, XI, 14) isə «*entha de kheimeriōn (Kimmeriōn) andrōn dēmos te polis te, ēeri kai nephelēi kekalummenoi; oude pot'autous Ēelios phaethōn kataderketai aktinessin…*» (Orada *keimeri* xalqının çən-dumana bürünmüş şəhərləri vardı və heç vaxt parlaq Günəş öz şüaları ilə bura boylanmırdı) şəklində verdiyi bu parçada etnonim *kimmer* formasında deyil, *keimer* formasındadır (Дьяконов, 1956, 229); Bu əsəri azər türkcəsinə çevirən Ə. Ziyatay həmin adı *kommeri* şəklində vermişdir (Һомер, 1977, 147).

İ. M. Dyakonov kimmer etnoniminin qədim şərq dillərində *qamir, qomer, qimirri, qimirray* formaları olduğunu yazır.[528] Hətta Bibliyada bu adın *Gāmēr* əvəzinə, yanlış olaraq *Gōmër* yazıldığını qeyd edir.[529] Lakin bu adın ilkin formasının **qamər** olduğunu görə bilmir. Saqa-qamər boylarının gah *saqa*, *saqat* (skit), gah da *qamər* (kimmer) adı ilə tanınması da bəzi qaynaqlarda dolaşıqlıq yaratmışdır. Bunu açıqlamaq üçün Avropa alimlərinin daha çox etibar etdiyi qutsal Bibliya kitabına baxaq. Burada xalqların soykökü şəcərəsilə bağlı yazılmışdır:

> Yafetin (Yafəsin) oğulları: **Qomer** və Məcuc və **Maday** və Yavan və Tubal və Meşek və **Tiras.**
>
> Qomerin oğulları: **Aşkenaz** və Rifət və **Toqarma** (Tekvin, bar.10).

Yəhudi dinini qəbul etmiş soydan olan Xəzər xaqanı İosif X əsrdə bu soy şəcərəsini davam etdirərək yazmışdır ki, *Toqarmanın* oğulları 10 türk boyunu (xəzər, suvar, tiras, bulqar və b.) təşkil edir. Hər iki bəlgəni gözdən keçirəndə aydın olur ki, qara hərflə verilən boylar qədim türk uruqlarını doğru əks etdirir. Belə ki, *tiras* (tras-pi) boyu daima saqa-qamərlər ilə bağlı olaylarda görünür; qamərlər öz ölülərini *Tiras* (Dnestr) çayı yaxasında basdırırlar, *tras*(*pi*) boyu saqa soykökü rəvayətində Ərbəyin (Arbak) soyundandır. Qamər boyunun qədim Azərbaycanın *mada* boyu ilə qohumluğu da burada əks olunmuşdur. Qamər soyundan olan *aşkenaz* (saqa) boyu da şəcərədə özünü doğruldur, çünki Bibliyada *şkwz* (şakuz) şəklində olası yazılış əvvəldən səhvən *şknz* şəklində yazılıb, *aşkenaz* kimi oxunmuşdur, lakin buna baxmayaraq, alimlərin heç biri aşkenazın *squd* (saqat) olduğunu şübhə altına almır, burada *qomer* oğlunun *saqa* olduğunu qəbul edirlər. Bu sıradakı *Toqarma* isə Anadoluda indiki Malatiya bölgəsinin qədim adıdır və güman edirik ki, *toqar* (dügər) boyunun adı ilə adlanmışdır. Hər halda, Xəzər xaqanı 10 türk boyunun mənşəyini *qamərin* qardaşı hesab olunan *Toqar(ma)* ilə bağlayır. Çox sonralar Balkandan Kiçik Asiyaya gələn *hay* (erməni) tayfaları xristianlığı qəbul edəndən sonra Bibliyadakı *Toqarmanı* metateza ilə *Torq(om)* şəklində qəbul etmiş və Torqu (Tork) özlərinin soybabası saymaq istəmişlər. Əlbəttə, bu gəlmə haylar ilə deyil, qədim ermən türkləri ilə bağlı yaranmış əfsanə idi və haylar da bura gələndən sonra onu mənimsəmişlər.

---

[528] Дьяконов, 1956, 237.

[529] Дьяконов, 1981, 100 (2-ci qeyd).

Beləliklə, Bibliya ənənəsi *qamər, saqa, mada, tiras, türk* (xəzər) boylarını bir-birinə qohum sayır, onları Ön Asiyada verir, həm də bu qutsal kitabda Lidiya kralı Giqesi cəzalandıran tanrı adından *«Qomer və bütün orduları, quzeyin sonlarından Toqarma evi və bütün ordularım»* ona qarşı çağırılacağı deyilir (Hezekiel, bar. 38). Asur mənbəyi də qamərlərin Giqeslə döyüşdüyünü təsdiq edir. Qədim mənbələrdə, II minilin ilk yarısından I minilin ortalarınacan akad yazılarında quzey atlıları *umman-manda* adlanır. Hətta XVII əsrə aid het yazısında umman-manda ordusunun başçısı Zaludiyə *(Tsalutis)* aid bəlgə vardır. Ulu Sarqon (XXIV əsr) ilə bağlı sonralar yazılmış bir epik əsərdə və sonrakı çağlarda, əsasən qut, qamər-saqa, mana-mada qoşunları həmin terminlə verilir.[530] Bu terminin akad dilindəki leksik anlamı aydın olmasa da, hər halda, onun türk boylarını ehtiva etməsi bir faktdır. Ümumiyətlə, saqa-qamər atlılarının «Tanrının göndərdiyi cəza batalyonu» olması kimi bir fikir, qonşu xalqların dilində arxaik deyimlərdə mühafizə olunmuşdur. Belə deyimlərdə *qamər* etnoniminin bir qutsal məna çaları ilə yanaşı, saqa etnonimində olduğu kimi, «ərən, alp» anlamı daşıdığını da sezmək olur:

almanca: *skut* «oxçu»

ermənicə: *hsqa* (saqa) «bahadır»

gürcücə: *qmiri* «bahadır»,

qədim gürcücə: *qaemeri, qumeri* «azman», «büt»

rusca: *kumir* «büt», «tapınaq»

hurricə: *$^{d}$kumarwe* (tanrı adı)

Zaxari Kanakertsi *eli-qamarlu* soyu ilə bağlı yazdığı bir olayı bu sözlərlə başlayır: «**Bayat** boyunun **eliqamarlu** (eli-qamərli) soyundan olan, digər tanrıtanımaz, vicdansız müsəlmanlardan fərqlənən, özünü-sözünü bilən **Apaq** adlı biri ata minib Vağarşapat dərəsinə getdi».[531]

Buradakı *bayat* boyu ilə bağlanan *qamərli eli* Vedibasarın İrəvana yaxın qədim *Qəmərli* kəndidir. Hər iki etnonim bizi *bayat* boyundan olan Dədə Qorquda və eposda *qaba ələm götürən* xanlar-xanı Bayındır xanın atası «ulu-şaman» *Qam-qan* və «qutsal-qurd» anlamlı *Kam-büre* bəyin adlarında olan *qam* sözünə aparıb çıxarır, onun da *şaman* anlamlı qutsal termin və qədim türk sözü olduğunu görürük. Bir az da qədimə getsək, Atillanın yaxın silahdaşı *Ata-Kam* adlı bəyin və ondan da əvvəl Mada

---

530 ИДВ, II, 1988, 130-131.

531 Канакерци, 1969; (Хроника, II, 33, 195а).

ölkəsində Əhəməni sülaləsini devirən *Qam-Ata* adlı maqın «Şaman-Ata» anlamlı adlar daşıdığını görərik. M. Xorenatsi də Türk (Topk) tapınağı ilə bağlı *Baş-Qam* (Paskam) soyundan bəhs edir. Azərbaycanda artıq bugün leksik anlamı arxaikləşmiş *Qam-qam piri,* tatar folklorunda da mənası unudulmuş belə bir ifadə vardır: «*Allari, Allari! Allari,* ***Kamər əbi***!»

Məncə, kifayət qədər verilən bu nümunələrdə *qamər* etnoniminin *qam+ər* hissələrindən ibarət olduğu aydın görünür. Bu etimoloji yozum həm saqa-qamər toplumu içində qamların yalnız *qamər* soyundan seçilə bilməsi məsələsinə, həm də tarixi mənbələrdə *saqa* və *qamər* etnonimlərinin sinonim kimi işlənməsi faktına bir aydınlıq gətirir. Anoloji gələnək sonrakı türk dövlətlərində də özünü göstərir. Belə ki, *qamər* etnonimi ilə tanınan şişpapaqlı saqa boylarının içində çar ünvanı qazana bilən *qam-ər* soyu kimi, sonralar *xəzər* və *bayat* boylarında da ən yüksək xaqan məqamına ***qam*** soyundan olanlar qalxa bilmişlər.

Bura qədər deyilənlər onu göstərir ki, qamərlər ayrıca boy deyil, saqa boybirləşmələri içində şaman soyunu təmsil edən bir qoldur. Ona görə də həm Asur mətnlərində, həm də antik dövr müəlliflərində vaxtaşırı *saqa* (skit) və *qamər* adları sinonim etnonimlər kimi işlənir. Məşhur arxeoloq A. A. İessenə görə, Novoçerkassk-Çernoqorovka abidə tiplərini eyni dərəcədə həm qamər, həm də saqa boyuna aid etmək olar. Digər arxeoloq A. M. Leskov da əvvəlki saqa-qamər arxeoloji bəlgələrinə əlavə olunmuş son 20 ildəki yeni qazıntı materiallarını incələyib deyir ki, skitlərlə qamərlər kultur və etnik baxımdan eyni xalqdır və indi bizə aydın olur ki, nə üçün *skit xalqı kimmer* (Apoloni) ifadəsi işlənmişdir, nə üçün *madyan sağanları* Hesiod *skit*, Kallimax *kimmer* adlandırır, nə üçün Strabonda skit başçısı Madiy gah *skit,* gah *kimmer* adlanır.[532]

Əlavə edək ki, Daranın Baqastan (Bisütun) yazısında da elam-pers variantında *saqa,* akad variantındasa *qamər* yazılmışdır. Asur yazısında qamər çarı Tuqdamme *Saqa* və *Qutium çarı* ünvanı ilə verilir və bütün bu deyilənlər yuxarıda verilən etimoloji yozuma haqq qazandırır.

Azərbaycana gələn saqa-qamər boylarının bir qismi, daha çox qamər soyundan olanlar Kappadokiyanın doğusunda keçmiş qaşqay və urmuların bölgələrində Urartu əsarətindən xilas etdikləri subar boylarına qarışdılar və buranın türkdilli əhalisində aktivlik artdığı üçün buranı həmin çağlarda artıq ətraf ölkələr *Qamər* ölkəsi (asurca *Qamir, Qamirra,* sonrakı hay-

[532] Лесков, 1981, 105-106.

ermәni yazılarında *Qamir'k*) kimi tanıdı. Maraqlıdır ki, neçә әsr әvvәl buradakı qaşqay toponimlәri içindә *Kapperi* yer adı vardı vә bunu het imlasına görә *Kammeri* şәklindә dә oxumaq olur, kim bilir, daha qabaqlar bәlkә elә yunanlar ilk dәfә qamәr tayfasının adı kimi *kimmer* etnonimini buralardan eşidib, ancaq *qamәr* adı onlara Balkanlardan da mәlum ola bilәrdi, çünki bir neçә arxeoloji bәlgә qamәr-trak әlaqәlәrini üzә çıxartmışdır, bunu hәmin әrazidә yaşamış türklәrdәn bәhs edәn Skandinav saqaları (dastanları) da tәsdiq edir.

Yeni Qamәr ölkәsinin sonralar *Sper* adlanan quzey-doğu bölgәsinin Çorox çayı hövzәsi *subar* toplumunun әrazisi idi. Artıq Herodotun vaxtında *sasper* adlı çoxsaylı boylar hәmin qamәr-subar boylarının davamı idi. Subar boyları vә onların bölgәsi Kolxida әhalisinin dilindә, qәdim gürcü dili *sa* önqoşması ilә *sasper* (sa-suber) şәklindә yunan yazarlarının әsәrlәrinә düşmüşdür.[533] Herodot yazır:

> «...Kolxidadan sonra Midiyaya (Madaya) qәdәr keçilәcәk yol o qәdәr çox deyil, zira bu iki bölgә arasında tәk bir ulus var, bunlar **saspier′**lәrdir vә onları arxada buraxanda, artıq Midiyadır».[534]

Hәmin tarixçi әsәrinin başqa bir bölümündә yazır ki, Fars körfәzindәn (İran yaylasından) Qara dәnizә qәdәrki әrazilәrdә *dörd* (pers, mada, sasper vә kolx) әsas xalq yaşayır.[535] Bu isә o demәkdir ki, VI-V әsrlәrdә saqa-qamәr toplumunun davamı kimi subarlar (sasperlәr) indiki Ermәnistanı bütövlükdә içinә alan böyük bir әrazidә oturmuşdular. Belәliklә, Y.İ. Krupnovun bu xәritәsindә verildiyi kimi, Güney Qafqaza gәlәn saqa-qamәrlәrin batı qanadı Urartu dövlәtinin quzey sınırları boyunca Kappadokiya vә Çoroxun yuxarı axarlarından İrәvan çuxuruna qәdәr yayılmışdı.




Hәmin yayılmanın davamı olaraq, saqa-qamәr toplumunun doğu qanadı İrәvan çuxurundan tutmuş Urmu gölünün quzey yaxaları vә Quzey Azәrbaycanın müxtәlif bölgәlәrini әhatә edirdi. Tәbii ki, belә geniş әrazi-

---

[533] Меликишвили, 1959, 233.

[534] Herodot, I. 104.

[535] Herodot, IV. 37.

lərə yayılan saqa-qamər boylarının mərkəzləşmiş çarlığı yaranana qədər onların batı və doğu qanadları bir müddət ayrı-ayrı boy başçılarının rəhbərliyi altında fəaliyət göstərmişlər. Bunu asurlarla münasibətdə saqa-qamər bəylərinin fərqli mövqe tutmasından da görmək olur.

Azərbaycana m.ö.VIII-VII əsrlərdə gələn saqa-qamər boyları ilk öncə Mananın quzey bölgələrinə qədərki ərazilərə səpələndi. Bu çağda Mana dövləti gah Urartu, gah da Asur ekspansiyalarına məruz qalırdı. VIII əsrin sonlarında Mana dövlətinin bir sıra bölgələri Urartu tərəfindən tutulmuşdu. Bu bölgələri urartulardan təmizləyib, Manaya qaytaran asur çarına qarşı mana bəylərində asuryönlü meyl yaranmşdı, lakin II Sarqonun ölümündən sonra (705) durum dəyişdi. Saqa-qamərlərin gəlişi ilə sanki mana bəylərində bir təpər yarandı, ölkədə anti-asur ovqatı artdı. Asurlar bir neçə dəfə Manaya güclü hücumlar etsələr də, artıq burada əvvəlki hegemonluğu bərpa edə bilmədilər və elə bil, Asarxaddon bu itkinin əvəzini çıxmaq üçün yürüşün yönünü 673-də Dəclənin yuxarı axarında yerləşən Subar bəyliyinə çevirdi və bu ölkəni darmadağın etdi. O, Mana üzərinə göndərdiyi ordusuna isə qamərlərə ($^{\mathrm{Amel}}$Gi-mir-a-a) qarşı ehtiyatlı olmalarını tapşırdı, qamərlərə aid bu sözləri dedi: «Məgər onlar tanrı adına verilən andı pozan köçəri ailəsi deyilmi?».[536]

Əvvəllər Urartu hücumlarına məruz qalan mana əyalətləri özünü qorumaq üçün asur ekspansiyasına loyal münasibət bəsləyirdi. Ona görə də asur əskərləri Mada sınırlarına qədər gedib çıxa bilirdi. İ. M. Dyakonov m.ö.715-dəki olaylardan danışarkən Qarqar qalasına yürüş edən asurların yolüstü *Kimirra* qalasını da tutduqlarını yazır və bu qalanın Bit-Xamban bölgəsində yerləşdiyini qeyd edir.[537] Əgər bu *qamər* qalasıdırsa, onda qamər adlı tayfaların əvvəllər də buralarda yaşadığını düşünmək olar.[538] Hər halda, bizi burada maraqlandıran qut və ya subar boylarının tərkibində

---

[536] АВИИУ, №69; Bütöv VII əsr boyu vaxtaşırı asur mənbələri manaları saqa-qamər boyları ilə yanaşı qeyd edir. Mana dövləti Asurun vassallığını rədd etməklə kifayətlənməyib, vaxtilə Asur əyalətlərinə çevrilmiş sərhəd bölgələrdən asurları qovdu və 650-ci illərə qədər tam müstəqil siyasət yeridən güclü dövlətə çevrildi.

[537] Дьяконов, 1956, 212.

[538] Bu bölgənin *Arrapha* (Kərkük) ilə qonşu olması bəllidir və mümkün *qamar~qabar* paralelliyi ilə daha qədimə baxanda görmək olur ki, I Şamşi-Adadın XIX əsrin sonunda yürüş etdiyi Arrapha ilə Ninevə arasındakı Altınkörpü civarında *Kabari* bölgəsi də var (ИДВ, II, 1988, 61); Maraqlıdır ki, sonralar macarlara qarışan *kabar* (kavar) adlı xəzər boyunun izi Quzey Qafqazdakı *Kabarda* və Göycə gölünə yaxın *Kavar* toponimlərində də qalmışdır.

olan keçmiş qamərlər deyil, Azaq yaxasından qayıb *«Mana ölkəsində oturan», «Mana ölkəsindən çıxıb Urartuya hücum edən», «Asur sınırlarını aşıb, yağmalar edən»* ifadələri ilə asur qaynaqlarında təqdim olunan qamərlərdir.

Saqa-qamər atlılarının köməyi ilə xeyli dirçəlmiş Mana dövləti VII əsrin ortalarından sonra asurlar tərəfindən güclü zərbə alıb yenidən laxladı. Bundan sonra Asur dövləti dağılana qədər bəzi mana çarları zaman-zaman asuryönlü siyasət aparmaq zorunda qaldı. Artıq həmin əsrin sonlarına doğru Manadan fərqli olaraq, Asura qarşı Mada bəyləri aqressiv mövqe tutmuşdu və onların təşkil etdiyi koalisiya 612-də Asur dövlətini, onun ardınca bir neçə ildən sonra Urartu dövlətini dağıdıb yer üzündən sildi. Bu olaylarda saqa-qamər döyüşçüləri madalı əskərlərlə birlikdə vuruşur, boş vaxtlarda mada gənclərinə saqa-qamər sayağı oxatma sənətini öyrədirdilər. Mada çarı Kiaksar da yüngül yaraqlı saqa-qamər atlı alaylarına uyğun qoşun növü yaradırdı və qədim Azərbaycanda ilk dəfə olaraq nizami ordu taktikası bu çağda, iç oğuzla dış oğuz qovuşanda formalaşdı.

Saqa-qamər boylarının Urartu ilə münasibətində gərginlik vaxtaşırı davam etmişdir, çünki saqa-qamərlər Kappadokiyadan tutmuş Göycə və Urmu gölünə qədər Urartunun zəbt etdiyi ərazilərə soxulmuş və Ön Asiyanın iki qüdrətli dövlətindən biri olan Urartunu diz çökdürmüşdü. Ona görə də Van gölü hövzəsində sıxışdırılan urartu çarları əbədi düşmənləri olan Asur çarlarının patronajı altına girməyə məcbur olmuşdular. II Sarqonun dövrünə aid Asur mənbələri deyir:

> «**Qamerli** ($^{Amel}$Ga-me-ra-a-a) mannalıların ölkəsindən çıxıb, Urartuya daxil oldu… bütün Urartu ölkəsi qorxu içindədir. Onlar qoşun toplayaraq, indi gücümüz qamış kimidir, onun qarşısında dayana biləcəyikmi? - deyirlər»; «Quriana Urartu ilə **Qamira** arasındakı bölgədir, Urartu çarına bac verir. Haçan ki, Urartu çarı **Qamirra** ölkəsinə qarşı getdi, haçan ki, Urartu çarı məğlub oldu, oranın bütün adamları… (*arxası pozulub*)»; «Urartu çarı **Qamir** ölkəsinə necə getdisə, elə də qoşunu tamam qırıldı».[539]

Kür çayının yuxarı axarında urartu dilində Kuriani (asur yazısında Qurianiа) şəklində verilən bölgədə urartu-qamər savaşları Urartu çarı I Rusanın məğlubiyyəti ilə nəticələndi. Bu savaşın bəlli tarixi aydın göstərir ki, qamərlər burada m.ö.720-ci illərdə artıq bölgənin sahibinə çevrilmişdi. S. T. Yeremyana əsaslanan İ. M. Dyakonov bu bölgənin Gümrü (Lenina-

---

[539] АВИИУ, №50, 8; №50, 10; №50, 11.

kan) olduğunu yazır.[540] Qamər ölkəsi (Qamər bəyliyi) buradan ta Kappadokiyanın doğusuna qədər uzanırdı.

Sənədlərdən göründüyü kimi, VIII əsrin sonunda urartular qamər təzyiqindən qurtarmağa can atsalar da, buna nail ola bilmirdilər. Sonralar saqa-qamər boyları Urartu dövlətini həm Qamər ölkəsi tərəfdən, həm də Mana ölkəsi tərəfdən Van yaxalarına sıxmışdı. Saqa-qamər başçılarının Urartuya nisbətən, Asurlarla münasibətində ziddiyət vardı. Əvvəla, onların Azərbaycanda qurduğu çarlıq Asur sərhədlərindən aralı idi, ikincisi də, bu boyların bəzi soyları öz bəyləri ilə əvvəldən-axıra qədər Asura qarşı olan Mana və Mada qüvvələrinin yanında idi. Lakin Asur çarının qızı ilə evlənən nüfuzlu saqa bəyi Partatu və sonralar onun oğlu Madiy asurlarla müttəfiq olub, sona qədər bu siyasəti saxladılar. Bu isə dağılmaqda olan Asur dövlətinin ömrünü xeyli artırdı. Eynilə belə olay neçə əsrlər sonra baş verdi; peçeneq ordusu Bizansın nəfəsini kəsəndə kuman-qıpçaq bəyləri böyük hədiyələrə uyaraq, Bizansın köməyinə gəlib, onu məhv olmaqdan xilas etdilər.

Asur sənədlərində düşmən saqa-qamər çarları kimi *Teuşpa, İşpaka, Tuqdamme*, (onun oğlu) *Sandakşatru* adları çəkilir. Asurlar *umman-manda* ordusunun başbuğu qamər bəyi Teuşpa (678-də) və manalılara yardım edən saqa bəyi İşpaka ilə (670-lərdə) vuruşub, onları əzdiklərini yazırlar.[541] Qamərli Tuqdammeni (654-də) *umman-manda* çarı adlandıran sənəd onun oğlu Sandakşatru haqqında asur çarının bu sözlərini verir: «Mən Tuqdammenin qüvvəsini dağıdacağam, meydanda onü əvəz edən, onun belindən gələn oğlu **Sandakşatru** əzəcəyəm».[542]

Qamər başbuğu Teuşpa 679/678-də asurlarla savaşda öləndən sonra asur ordusunda muzdlu qamər əskərləri görünür.[543] Belə ki, asur çarının qamər atlı döyüşçülərindən istifadə etməsində məqsəd həm də bir asur-qamər müttəfiqliyi görüntüsü yaratmaq siyasəti idi. Belə müttəfiqliyi bəzi saqa boylarının başçıları ilə də qurmağa can atır və bəzən buna nail olurdular. Lakin asurlardan gərəkli vergini almayan saqa-qamər böyükləri bu razılaşmanı tez-tez pozurdu. Eyni durumu burada minil sonra Bizans-Pers müharibələrində iştirak edən subar boyları təkrar edir.

---

540 Дьяконов, 1956, 233-234.

541 АВИИУ, №63; №65.

542 Дьяконов, 1956, 285.

543 АВИИУ, №66.

Digər bir sənəddə Tuqdammenin «Saka və Gutium çarı» adlanması da maraqlıdır.[544] Belə ki, burada artıq saqa-qamər çarının Mananın batı bölgələrinə nəzarət etməsi faktı da ortaya çıxır. Doğrudur, asur mətnləri Partatu və Madini də saqa çarı kimi təqdim edir, lakin onların hakimiyət illəri Herodotun Partatu (Prototiy) ilə bağlı verdiyi tarixlə uyuşmur, hər halda, Madinin hakimiyəti Kiaksarın çarlığı dövrünə düşür. Tarixi bəlgələrdən belə məlum olur ki, Azərbaycana gələn saqa-qamər boyları VIII əsrin sonunda geniş ərazilərə yayılmışlar.

Burada adı keçən saqa-qamər şəxs adlarının etimologiyası barədə elmi ədəbiyatda müxtəlif fikirlər söylənmiş, onların iranmənşəli olması haqqında biri digərini inkar edən onlarla yozumlar verilmişdir, lakin hələlik qəbul oluna bilən son fikir söylənməmişdir. Bu baxımdan, biz də bəzi ehtimallarımızı oxucularla bölüşmək istəyirik.

**Teuşpa** adı haqqında müxtəlif fikirlər söylənmiş, lakin inandırıcı yozum ortaya çıxmamışdır. Bizcə, bu teoforik addır və ona subar, hurri, urartu onomastikasında özünü qabarıq göstərən *Teşub* tanrı adı ilə işlənən Şad-Teşub, Baq-Teşub, Daq-Teşub kimi adlarda rast gəlirik. Türk dillərinin mifoloji terminologiyası sistemli şəkildə öyrənilmədiyi üçün bu adın hansı leksik anlam daşıdığını hələlik müəyyən etmək çətindir.

**İşpakay.** Bu adı *Aspak, İspak* kimi bərpa edənlər var. Bu son variantı rus dilindəki *sobaka* ilə müqayisə edib, mada dilində köpəyə *spaka* deyilməsi (Herodot) faktına əsaslanıb, madaları da irandilli hesab edərək, onun rus dilinə hansısa bir iran dilindən keçməsini güman edirlər. Halbuki iran dillərində belə ortaq söz yoxdur. O. N. Trubaçev slavyan dillərinə keçən *sobaka* sözünün türk dillərindəki *köpək* sözü olduğunu sübut etmiş və bu, M. Fasmerin lüğətində qeyd olunmuşdur.[545] Rus dilində görünən *köpək//sobak, kəfən//savan* kimi dəyişmələr qədim *k//s* paralelliyi (kentum//satem dialektləri) ilə bağlıdır. Digər *Aspak, İspak* variantları da *Arbak, İlbak* tipli türk-saqa şəxs adları modelinə uyğundur, lakin sonrakı çağlarda itlə bağlı *Konçaq, Köpək, Barak* tipli adların kuman bəylərinin adında sistem təşkil etdiyini nəzərə alanda *Köpək//Səpək >Spaka >İspaka* fonetik dəyişməsi yozumunu qəbul etmək olar. Həm də məlum olur ki, mada dilində *köpək* sözü bəzi türk dialektlərində qalmış *səbək* (spaka) formasında işlənirmiş.

---

[544] Алиев, 1979, 11.

[545] Фасмер, III, 1971, 202-203.

**Partatu** adını Herodot *Prototi* (Προτοθύης) şəklində verir və hər iki varianta əsasən morfonoloji rekonstruksiya **Porutat* və **Porutot* praformalarını ortaya çıxardır. Həmin adın kökünü azər dialektlərində qalmış *varıb-getdi* ifadəsindəki *var-* (bar-) feili olan *par-* ilə bərpa etmək olardı, çünki Pompey Troq həmin sözün saqa dilində də *pardı* «qaçdı» şəklində işləndiyini qeyd etmişdir, lakin həm dilimizin söz düzümü, həm Herodotun yazdığı formadakı *«o»* saiti bunu istisna edir, həm də həmin saitin akad yazısında *a//u* ilə verilməsi gələnəyi burada həmin adın *pörü* və *tat//tot* hissələrinə ayrılmasına imkan verir; *Börü* (börü) sözünə qoşulan *tat//tot* sözləri *yad, gəlmə, dad* mənalarından tutmuş *tut-* feilinə qədər çoxlu anlamlar bildirdiyi üçün bu adın **Pörütut* (Börütut) formasının şəxs adı modelinə daha uyğun gələn «börü tutan» anlamı daşıdığını düşünmək olar. Olsun ki, M. Xorenatsinin qeyd etdiyi saqa bəyi Paruyr məhz Partatu ilə eyni şəxs ola bilər. Sibar bəyinin Birtatu adı da Partatu adına bənzəyir.

**Madiy.** Bu adın üzərində geniş dayanmağa ehtiyac yoxdur, çünki onun Ön Asiyada ən işlək adlardan olduğunu görmək olur və ən əsası da budur ki, doğu türk boylarının eposlarında mənası türkcə aydın olan adlar işləndiyi üçün «Maday Kara» dastanı da, güman ki, həmin gələnəyi saxlamışdır. Sibir türkləri içində *mad* boyları vardır, Bibiliya isə Nuhoğulları Maday ilə Qaməri qardaş sayır.

**Tuqdamme.** Strabonun əsərində *Liqdamis* şəklində yazılmış bu ad akad yazılışına ($^{m}$Tug-dam-mi-i) uyğun *Duqdamis* formasında bərpa olunmuşdur.[546] Vaxtilə Börülər Atabəyliyinin qurucusu Atabəy Tuğtekin adındakı *tuğ* (bayraq) sözü ilə bağlı Tuqdamme adının da «damı bayraqlı» anlamı daşıyan və *tuğ-damlı >tuğdammı* dəyişməsinə uğrayan elbəy ləqəbi olduğunu söyləmişdik, lakin buna tam əmin deyilik, çünki *Duqdamis* forması bu yozuma uymur, daha çox *Toxtamış* adındakı *toq-ta-mı* elementləri ilə izah olunmasını ön çəkir. Hər iki halda adın türk antroponimi olması şübhə doğurmur. Qədim türk abidələrində Tuk-tekin, Tuk-Varsen adları bəllidir.[547] Bu da bəllidir ki, 1146-da Malazgirdə yaxın *Tuğtab* şəhəri bir zamanlar Tuğdamlının at oynatdığı Qamər bəyliyinin ərazisində idi.

**Santakşatru.** Bu adın etimologiyası üçün uzağa getmək lazım deyil, *şad* sanı və *şadılı* boyundan danışarkən *şad* sözünün türk antroponimləri

---

546 Yunan yazısında **Δ** hərfi oxşar Λ ilə dolaşıq salınmışdır (Дьяконов, 1956, 240).
547 Гејбуллајев, 1994, 133.

sistemində geniş yayılmasını göstərmişdik. Burada əlavə edək ki, qədim türk toplumu içində yalnız ölkə başçısının oğlanları - teginlər bölgə və qoşun başçısı və ya böyük elçi görəvi alandan sonra *şad* titulunu daşıya bilərdi. Bu prinsip yuxarıda verdiyimiz asur mətnində açıq vurğulanır; *Sandak-Şat* saqa-qamər elbəyi Tuqdamenin *oğludur* və *ordu başçısıdır.* Adın sonluğu akad dilinin adlıq hal şəkilçisidir, burada *ir* (ər) sözünü də bərpa etmək (*şat-ir-u* > *şatru*) mümkündür.[548] Sözün əvvəlində olan *sandak* sözü isə türk şəxs adlarında geniş yayılmışdır və Alp Arslanın atlı alay komandanı *Sandak bəy* kimi tarixi şəxslər də bu adı daşımışlar.

Tədqiqatçılar yuxarıda verdiyimiz adları nəzərdə tutub, qamər dilindən cəmi üç söz qaldığını və onların da irandilli şəxs adları olduğunu deyirlər. Bu səbəbdən həmin şəxs adlarının üzərində geniş dayandıq. O ki, qaldı cəmi üç sözün məlum olması məsələsinə, əlbəttə, bu fikir də düzgün deyil, çünki saqa-qamər boyları ayrı-ayrı dillərdə deyil, eyni dildə danışmışlar və ola bilsin ki, müəyyən boyun dialekti digərinə nisbətən (qıpçaq-oğuz fərqi qədər) ümumi danışıq dilindən daha çox fərqlənmişdir. İkinci bir tərəfdən, *qamər* etnonimi qamərlərə başqa xalqların verdiyi ad deyil, özləri tərəfindən işlənən və getdikləri yerə daşıdıqları addır. Yaxud yunanların keçmişdə «dəniz» sözü ilə *Pont* dediyi Qara dənizə Azaq dənizindən keçid üzərində yerləşən indiki Kerç şəhərinin qamər çağında yaranmış qədim adının «Pont qapısı» anlamında *Pantikape* olması, yaxud qamərlər yaşayan Tir şəhərinə yaxın kurqanın «qamər təpəsi» anlamında *kimmerios taphos* (Κιμμέριος τάφος) adlanması kimi faktlara göz yummaq olmaz.[549] Belə misalların sayını xeyli artırmaq və qamər dilindən cəmi üç ad yox, çoxlu söz qaldığını iddia etmək olar. Sadalanan adların şərhindən göründüyü kimi, vaxtilə Azərbaycandan gedən saqa-qamər boyları getdikləri yerlərə türk adları apardığı kimi, VIII-VII əsrlərdə atayurda dönəndə də *Uçukaya, Tatakaya* kimi keçmiş türk şəxs adları ilə qayıtmışlar.[550]

Həmin çağlardan tərkibində *qamər* adı olan onlarla Qəmərli, Kəmərli, Gümrü, Qımırlı kimi etnotoponimlər bugünə qədər yaşayır. Ola

---

[548] Aker Taqar bəyin (m.ö.VII əsr) bəngüdaşına yazılan qədim türkcə "*ekiz tut ər adına şad* " deyimi məhz şad titulunun ər adına qoşulması ilə bağlıdır (Bax. I Bitik, 280-284).

[549] S. R. Toxtasev yazır ki, Herodotun təsvir etdiyi qamər-saqa savaşında ölən bəylərini bu kurqanda dəfn edəndən sonra qamərlər Asiyaya getdilər (Тохтасьев, 1984, 143).

[550] Əhəməni çağında (m.ö. 524-də) yazılmış bir Babil sənədində iki qamər döyüşçüsünün adı çəkilir: «Gəmidə olan kimmerli *Uşukaya* və *Tatakaya»* (Дандамаев, 1982, 102).

bilsin ki, Sakasena ilə qonşu bölgə olan Kambisena (*Kambiçe) adında da həmin *qam* sözümüz durur, çünki burada qədim etnonim bildirən -*bi* morfemi vardır. Belə ki, *kaspi, ellipi, azərbi* olan yerdə *kambi* və hətta **kamərbi* formasının mövcudluğu mümkün sayılmalıdır. Bütöv adın sonluğu isə Göyçə adında olduğu kimi, saqa-qamər boylarının yanaşı oturduğu hər iki bölgənin adındakı formantdır: Saka-çe(na), Kambi-çe(na).

Saqaların adı kimi qamər adı da Azərbaycanda xeyli iz buraxmışdır. Belə ki, türkmən atı, ingilis atı, ərəb atı adları ilə bəzi at cinsləri fərqlənir, bəlkə də, qırmızı rəngli atların *qəmər* adlanması da *qamər atı* deyimindən yaranmışdır, çünki qamər atlı alayları Ön Asiyada bir əsrdən artıq at oynatmışlar.

Ön Asiyada atlı orduları ilə seçilən Qamər bəyliyi Kiçik Asiyadakı ən qüdrətli Friqiya dövlətini təxminən 675-ci ildə darmadağın etdi, 655-645-ci illər arasında isə Efes və Sardı zəbt etdi. Urartu imperiyasına məxsus ərazilərin çoxunu urartuların əlindən alıb, onları Van gölü hövzəsinə sıxışdırdılar. Asur dövləti kimi qocaman bir imperiyanın çökməsində mana və mada boylarına yardım edən qamər axınlarının da böyük rolu oldu. Beləliklə, Qamər bəyliyi VII əsrdə Ön Asiyada baş verən tarixi dəyişikliklərdə mühüm önəm daşımışdır. Yalnız bu əsrin sonunda Lidiya çarı Aliattla döyüşdə məğlub olandan sonra Qamər bəyliyi dağıldı və beləliklə, Azərbaycanın quzey-batı bölgələrində yerləşən və az sonra Doğu Anadoluda bəylik quran qamərlərin siyasi tarixi bitdi. Artıq VI əsr başlananda Asur, Urartu və Saqa-Qamər çarlıqlarına aid ərazilər Mada imperiyasının tərkibində idi.

Saqa-qamər siyasi qurumları get-gedə təpərini artıran Mada elinin qüdrəti fonunda öz əhəmiyyətini itirəndə bu toplumdan bəzi tayfalar öz başçıları ilə Azaq yaxalarına qayıtdılar, lakin bu qayıdanlar Azərbaycana gələnlərin özləri deyil, nəvə-nəticələri idi, çünki gəlib-qayıtma arasında ən azı üç nəsil dəyişmişdi. Azərbaycanda qalanlar (dış oğuzlar) isə artıq çoxdan buradakı soydaşları *subar, qaşqay, kəngər, bulqar, gögər, zəngi, kuman, şadılı, qızıl* və başqa boylara qarışıb, sonralar yaranan Alban, Azərbiqan dövlətlərinin əhalisi kimi azər türklərinin vahid xalq kimi formalaşması prosesində yaxından iştirak etdilər.



Qamər boynun m.ö.IX əsrdə Azaq yaxasına getməsi və m.ö.VIII əsrin sonunda Ön Asiyaya qayıtması

## Saqa eli

Başqa türk xalqları ilə bərabər azər xalqının da təşəkkül tapmasında *saqa* boyları mühüm rol oynamışdır. İslamaqədərki tarixi qaynaqlar min ildən artıq bir dövrü əhatə edən bəlgələrlə *saqa* boylarının yayıldığı bölgələr, qurduğu dövlətlər, onların köçü, etnoqrafiyası, etnik gələnəkləri və mifologiyası haqqında zəngin məlumat verir. Yayılma coğrafiyasına görə, saqalar doğu və batı qollara ayrılır. Minillər boyunca qaynaqlarda Asiya saqaları ilə Azaq saqaları (skitlər) bir-birindən fərqləndirildiyi üçün biz də müvafiq məqamlarda *saqa, saqat* (skit) və *Saqatya* (Skitiya) deyimlərini işlədirik. Tarixin müxtəlif çağlarında saqalar doğuda Xəzər dənizindən Altay dağlarına, Əfqanıstandan Sibir tayqalarına qədər, batıda isə Qara dənizin quzey yaxaları ilə İtil çayına qədər müxtəlif bölgələrdə və Azərbaycanda yaşamışlar.

Saqaların belə geniş yayılması aydın göstərir ki, bu boylar sayca nə qədər çox olsalar da, tarixi qaynaqlar çox vaxt müxtəlif türk boylarından *saqa* etnonimi ilə bəhs etmiş, hətta saqalar böyük əraziləri əhatə edən el qurduqda həmin ərazidə yaşayan başqa dilli boylar da *saqa* (*saka=skith*) ümumi adı ilə verilmişdir. Bu səbəbdən, sonrakı tədqiqatçıların şərhində Saqa elinə tabe olan həm türk, həm də başqa xalqların etnik tarixi dolaşıq salınmış, çoxlu yanlış fikirlər ortaya çıxmışdır. Elə bu başdan deyək ki, burada saqa problemindən geniş danışmağa imkan olmadığından *saqa* etnonimi altında nəzərdə tutulan qafqazdilli, irandilli (oset) və finuqordilli boylardan deyil, yalnız bu adı Azərbaycandan müxtəlif bölgələrə aparan *saqa* boyundan, özəlliklə «baş el» sayılıb, «οι βασιλειοι Σκυθαι» (tsarskie skifı «elbəyi saqalar») adlanan saqalardan söhbət açacaq, onların soykökü və quzeydən qayıdıb Azərbaycanda qurduqları *eldən* (dövlətdən) danışacağıq.

Başqa türk boylarının tarixindən bəhs edərkən onların ilkin Atayurdunu Orta Asiya - Altay civarında axtaran bir sıra tarixçi olduğu kimi, saqa boylarının da ilkin məskənini həmin bölgələrə bağlamaq istəyən yazarlar vardır və hələlik bunların sayı daha çoxdur. Lakin saqa boylarının tarixi ilə ciddi məşğul olub, onların dili, arxeologiyası, etnoqrafiyası və mifologiyasına aid bəlgələri qədim yazılı qaynaqlarla müqayisəli şəkildə araşdıranlar sırasında saqaların ilkin Atayurdunun Ön Asiyada olması qənaətinə gələnlərin sayı da son zamanlar artmaqdadır.

Öncə qədim saqa boylarının Azərbaycan və Güney-Doğu Anadoluda buraxdığı izlərə diqqət verək. Adı m.ö. IX-VIII əsrlərdə asur qaynaqlarında

*saq-but* şəklində çəkilən saqa boyuna aid Qarqar bölgəsindən doğuda və batıda yerləşən *Saq-bit*, *Saq-bat* adlı iki Saqa bəyliyi olmuşdur. İ. M. Dyakonova görə ilk dəfə adı *Saqbit* şəklində m.ö. 820-də çəkilən saqa boylarının bu bölgəsi Həmədana yaxın idi.[551] Həmin çağlarda buradakı saqa boyunun başçısı da «Xan-azər-ok» deyiminə yaxın bir adla (*Xanaziruk*) tanınırdı. Asur yazısında *Bit-Sa-aq-ba-at* şəklində qeyd olunan ikinci bölgə isə Araziaş və Bit-Baru bölgələrinə yaxın olub, Ellipi bölgəsindən quzey-batıda, Bit-Hamban bölgəsindən isə güneydə yerləşirdi.[552]

Təbrizdən güney-doğu yöndə, Urmu ilə Xəzər arasında yerləşən *Zigertu* ($^{KUR}$Zikirtu) bölgəsini də bəzi uzmanlar Herodot və Ptolemeyin qeyd etdiyi *Saqarti* (Σαγαρτιοι) ilə eyniləşdirirlər.[553] Bu bölgədə Barunaq (*barın-aq*), Taştami (*daş-dam*), Kaban (*qaban boyu*) kimi türkcə yaşayış məskənlərinin adı vardır. Burada Saktatuş (*sak-tatuş*) yeradı da tərkibində *sak* sözünü əks etdirir. Bu bölgənin «çar şəhəri», yəni paytaxtı (başkəndi) m.ö. VIII əsrdə Parda (*Bərdə*) adlanırdı. *Parda* adı isə *part* etnonimi ilə bağlıdır.[554]

Qədim Azərbaycanda *budun* (xalq) sözündən öncə «boy» anlamında *bud* (but) sözü işlənirdi: zəngi-but, qızıl-but, karsi-but, saq-but və sairə. *Saqbut* kimi *saqar* da türkcə yaranmış etnonimdir. Türkmənistanda salır və bayat boyları içində *sakar* etnonimi geniş yayılmışdır.[555] Əbülqazi Bahadır xan Qaşqa-Çora soyundan saydığı *dağ-saqar* boylarından danışarkən *qaşqa* və *saqar* sözlərinin eyni mənalı olub «alnında ağ xalı olan

---

[551] Дьяконов, 1956, 201.

[552] Грантовский, 1970, 116.

[553] Меликишвили, 1954, 141; ТУ, 80-81; İ. M. Dyakonov bu bölgə adının Zikirtu, Zikertu, Zikartu, Zikaria, Zikitia variantları ilə verildiyini yazır (АВИИУ, №50, 14); Son variant (*Zikitia*) quzey saqaların ölkəsi kimi verilən *Skitia* adına uyğun gəlir.

[554] Pompey Troq yazırdı ki, indi doğuda hökmranlıq edən *parthlar* skit qaçqınlarıdır və bu, «onların adında da görünür, çünki skit dilində *pardı* sözü qaçanları bildirir» (İU, 1984, 154-155); Stefan Bizantlıya (V əsr) görə, dənizçiliklə məşğul olan *tirmenlər* də skit boylarındandır və skit dilində *tirmen* «qovulmuşlar» deməkdir (АИОСК, 174); Buradan aydın olur ki, *part* və *tirmen* boylarının adı saqa dilində qovulan, uzaqlaşdırılan, qaçqın anlamları bildirən sözlərdir. Bu da aydın olur ki, hər iki etnonim türkcədir və bunlar «varıb gedən» anlamında *bardı//partı* sözü və «uzaqlaşdırılan» «itələnən», «itilib gedən» anlamında *itir-men* >*tirmen* sözü ilə yaranmışdır.

[555] Аташиязов, 1988, 101: Türkmənistanda saqar//sakar, sakar-çarlaq, sakarca, sakarlı, beq-sakar, daq-sakar boyları ilə yanaşı, Zigertuda gördüyümüz qapan, berdili, berdalı boyları da vardır.

at» anlamı bildirdiyini vurğulayıb, saqarlar haqqında yazır: «*Azlar* uruğu Dudıkın, *saqar* eli isə Qabacığın törəmələridir».[556] Azər xalqının qədim adını bildirən azlar (*az ərlər*) kimi qızıl və saqar boyları da doğu ellərə Azərbaycandan getmişdilər. Doğudakı qızıl boylarının *bassaqar* uruğu da «baş saqar» etnonimi ilə tanınır.[557] *Saqar* və *saqat* boyadlarında fərq yalnız topluluq bildirən *-ar//-at* şəkilçiləri olduğundan «baş saqalar» anlamını gerçəkləşdirən *başsaqar* və *massaget* etnonimi sinonim adlardır. Saqaların quzey və doğu ölkələrə Azərbaycan üzərindən getməsini sübut edən faktlardan biri də Güney-Doğu Anadoluda bir neçə saqa yaşayış məskəninin asur qaynaqlarında qeyd olunmasıdır. Belə ki, Van gölündən güneydə *Saqa* ($^{\text{URU}}$ Saqa) adlı iki kənd m.ö. XII əsrdə, Dəclənin yuxarı axarında *Saka* ($^{\text{URU}}$ Sakka) adlı yaşayış məskənisə m.ö.VIII əsrdə asur qaynağında yer almışdır.[558]

Göründüyü kimi, onomastik material saqa boylarının doğu və quzey yönlərdə miqrasiya etməsindən öncə, Azərbaycan və ona yaxın bölgələrdə yaşadıqlarını göstərir. Bunu Ziviyə, Luristan, Hasanlu dəfinələrindən çıxan arxeoloji bəlgələr, sənət əsərləri də subut edir. Özəlliklə saqa etnosunun atributlarından sayılan «añ üslubu» (heyvan üslubu) ilə işlənmiş sənət əsərlərinin ilk nümunələrinin Azərbaycanda ortaya çıxması, həm də doğu və quzey saqaların analoji sənət əsərlərindən xronoloji baxımdan qədim olması bu boyların ilkin yurdunu aydın göstərir.

**Azər boyları (*Ziviyə*) ilə saqa boylarına (*Voronej*) aid bu qızıl döşlüklər eyni añ üsulu ilə süslənmişdir**




[556] Şəcərei-Tərakimə, 2002, 101, 107; Osmanlı çağından Türkiyədə yarımköçəri *sakaratlı, sakar, sakaralı* yörük tayfaları bəllidir (OAC, 642).

[557] Радлов, 1989, 91.

[558] ТУ, 164.

Bundan başqa, Oğuz dastanlarında olduğu kimi, saqa mifologiyasında da nəsildən-nəsilə ötürülən bir «xalq yaddaşı» vardır ki, özəlliklə bunun üzərində durmaq lazım gəlir. Belə ki, Herodotun qələmə aldığı saqaların «soykökü əfsanələri» onların Azərbaycandan köç etmiş türk boylarından olduğunu açıq göstərir və saqaların qədim tarixinə işıq tutur.[559] Herodot V əsrin ortalarında saqat (*skit*) ölkəsinə gəlib, onların mənşəyi haqqında xalq arasında yayılan rəvayətləri toplamışdır. O, qələmə aldığı variantları üç növə ayırır:

1) Saqatların özündən eşitdiyi rəvayət.
2) Buradakı yunanlardan eşitdiyi rəvayət.
3) Həm saqat, həm də yunanların təsdiq etdiyi hekayət.

Aşağıda bəhs edəcəyimiz əvvəlki iki variantin əfsanə olduğunu düşünən Herodot daha çox tarixi məlumat xarakterli üçüncü varianta inandığını qeyd edir. Əslində, üçüncü versiya saqatların soykökü ilə deyil, onların köçü ilə bağlıdır, saqat boylarının *Azaq* (Azov) dənizi yaxalarına haradan qəlməsi barədədir. Burada deyilir:

> «Koçəri skitlər **Asiyada** yaşayırdı. Massaqetlərlə savaşda məğlub olanda **Araz** çayını keçib, kimmerlərin yanına köç etdilər».[560]

Herodotun verdiyi bəlgə qısa olsa da, onun Azərbaycanda iki çayı (Araz və Qızıl-üzən) *Araz* adı ilə verməsi bəllidir. Lakin burada saqaların *Araz* qırağından Azaq yaxasına ilkin köçü ilə vaxtilə doğuya getmiş Orta Asiyadakı saqaların Azaq yaxasına sonrakı köçü birləşdirilib. Siciliyalı Diodor da onların Araz yaxasından quzeyə miqrasiyasını qeyd etmişdir.[561] Hər iki halda, *saqa* (skit) boylarının əvvəllər Araz yaxasında yaşadığı deyilir və onların Azaq yaxalarına gəlmə xalq olması faktı vurğulanır. Ona görə də bu köçün Xəzərin quzey yaxası ilə və ya güneyindən keçən yol ilə gerçəkləşməsi məsələsini hələlik açıq buraxıb, Asiyada saqa boylarının ilkin yurdu kimi **Araz yaxası** deyimini təsdiq edən başqa yazarların 2000 il öncə yazdığı bəlgələri xatırlayaq. Pompey Troqdan verdiyimiz bu geniş sitatın həcmi bizi darıxdırmasın, çünki saqa tarixini bundan gözəl təsvir etmək mümkün deyil:

---

559 Чəлилов, 1985 a; Azər xalqı, 2000, 63-108.

560 Herodot, IV. 11.

561 Antik çağ yazarlarına saqalar (skitlər) bəlli idi. Homer saqalardan deyil, qamərlərdən (kimmer) «at sağanlar» kimi bəhs edir, Hesiod isə (m.ö.VIII) sikitlərin adını çəkir. Herodot qeyd edir ki, Aristey skitlər haqqında üç əsr öncə yazmışdır (Herodot, IV.13-14).

*I kitab.* (5) Tarixdə ilk dəfə Asur çarı Nin qonşu ölkələri tutmağa başladı. (6) Doğrudur, daha qədim çağlarda Misir çarı Vezois və **saqat çarı Tanay** da (bu hərəkətdə bulunmuşlar); bunlardan birincisi Ponta (Qara dənizə) qədər, ikincisi Misirə qədər yürüş etmişdi.

*II kitab.* (3.1) Skitlər Asiya üzərində üç dəfə hökmranlıq etməyə nail olmuş, özləri isə nə məğlub, nə də başqasının hakimiyyətinə tabe olmuşlar. (2) Pers çarı Dariusu biabırçılıqla Skitiyadan qovmuşdular, (3) Kuruşu bütün qoşunu ilə birlikdə öldürmüşdülər, (4) eyni şəkildə ordu başçısı Böyük Aleksandr Zopirionu qoşunu ilə birgə darmadağın etmişdilər… (6) qüdrətli Parth və Baktriya dövlətlərini onlar qurdu. (7) Skit xalqı həm işdə, həm də savaşda zəhmli, bədəncə fövqəladə möhkəmdir, onlar itirmə qorxusu olan heç nə axtarmır, qalib gələndə isə şöhrətdən savayı heç nə ummurlar.

*XI kitab.*(1.1) Belə ki, bütün dünyanı romalılarla öz aralarında ikiyə bölmüş və indi Doğu üzərində hökmranlıq edən parthlar skit qaçqınlarının törəmələridir. (2) Bu, onların adından da məlumdur, çünki *skit dilində* **pardı** sözü qaçanları bildirir.[562]

Pompey Troqla eyni çağda yazmış Siciliyalı Diodordan da belə bir sitat gətirək:

*I kitab.* (II. 43, 1) İndi də (hindlilərlə) qonşu ölkədə məskun olan skitlərə keçək. Onlar əvvəllər o qədər də böyük olmayan bölgədə yaşayırdı, lakin sonralar tədricən özlərinin artan qoçaqlığı, hərbi gücü ilə böyük ərazilər zəbt edib öz boylarını böyük şöhrət və iqtidar sahibi etdilər. (2) **Əvvəllər** onlar azsaylı idi və **Araz qırağında yaşayırdılar**, onda şöhrətsiz olduqları üçün onlara həqarətlə baxılırdı; *lakin hələ qədim vaxtlardan* strateji bacarığı ilə seçilən bir savaşqan başçılarının rəhbərliyi altında onlar *Qafqaza qədər* dağlarda, *Okean* və *Mayotiy* (Azaq) gölü sahillərindəki düzlərdə və Tanais çayına qədərki sair bölgələrdə özlərinə *ölkə əldə etdilər...* (4) Xeyli vaxt keçəndən sonra… *Tanais çayından o tərəfdə* Trakiyaya qədər geniş əraziləri də özlərinə tabe edib, hərbi yürüşlərini başqa istiqamətə yönəltdilər, Misirin *Nil çayına qədər* özlərinin hökmranlığını yaydılar. [563]

---

[562] АИОСК, 1990, 99; ИУ, 1984, 154-155.

[563] АИОСК, 1990, 82.

Bu son sitatda qara hərflərlə verdiyimiz ifadələrə görə, saqa boyları əvvəllər *Araz* yaxasında yaşayırmış, sonralar Qafqaz dağlarına qədər və Azaq dənizilə Xəzərin quzey (Okean) sahillərində özlərinə yurd salırlar, daha sonralar Tanais çayının o tərəfini ələ keçirirlər və sonra Ön Asiyaya qayıdırlar. Belə ardıcıllıq digər antik dövr müəlliflərinin əsərlərində də təkrar olunur. Bu tekstin verdiyi informasiyanı asur çarlarından da öncə fəaliyətdə olan saqa bəyi *Tanayın* tarixini və Herodotun skit (saqat) soykökü ilə bağlı verdiyi rəvayətdə *Targitayın* m.ö. II minilliyin ortalarında oratya çıxması tarixi ilə müqayisə edəndə xronologiya uyğun gəlir. Bir sıra arxeoloqlar da bu fikirdədir:

> «Həqiqətən, Orta Asiya və Sibirdə skit abidələrinin yaşı cavandır, hər halda, orada skit mədəniyyətilə bağlı ortaya çıxan material əsasən VII-VI əsrlərə aiddir. Beləliklə, aydın olur ki, Ön Asiya skitləri Mada üzərindən Orta Asiya və Sibirə keçmişlər, onların bir hissəsi də Güney Qafqaz üzərindən və əsasən Qara dəniz sahilləri ilə Quzeyə getmişlər. Burada isə ortaya çıxan *skit triadası* (yaraqlar, at nəsnələri və an üslubu) adətən, VII əsrdə Amu-Dərya və Volqa tərəfdən gələn skitlərlə əlaqələndirilir, halbuki həmin tarixdən öncə Sibir və Orta Asiyada bu mədəniyətin izini sübut edən bəlgələr müəyyən olunmayıb».[564]

Beləliklə, saqa boylarına aid arxeoloji, etnoqrafik, mifoloji bəlgələr artdıqca onların hərtərəfli tədqiqi saqa tarixinə aydınlıq gətirir. Ön Asiyadan saqaların doğu və quzeyə getməsini əks etdirən bu xəritəni də rus skitşünasları tərtib etmişlər: [565]




Saqaların Azaq və Qara dəniz yaxalarına gəlmə tarixi də artıq bir neçə əsr qədimə çəkilir. Belə ki, bu tarixi T. Sulimirski m.ö. IX əsrə aid edirsə, M. İ. Artamonov və B. N. Qrakov m.ö. II minilin son əsrlərinə aid edirlər.[566] Artıq saqa boylarının quzey və doğu yönlərə Ön Asiyadan miqrasiyası da

[564] Техов, 1980, 18.
[565] Eyni qaynaq, 18.
[566] Sulimirski, 1954, 283-284; Артамонов, 1950, 44; Граков, 1971, 18-26.

öz həllini tapmaqdadır. N. L. Çlenova skit kulturu prototipinin Mesopotamiyanın quzeyində yarandığını söyləyir.[567]

Subar boyları kimi, saqaların da Güney Qafqaz üzərindən quzeyə getməsi tarixi m.ö. II minilin ortalarındakı atlı köçləri ilə bağlı idi. Doğu Anadolu və Azərbaycanda (Araz yaxasında) yaşayan saqaların quzey köçü Qara dənizdən quzeydə bir neçə çayadında da əks olunmuşdur. Buradakı *Saqa* və *Saqala* hidronimləri saqa boyadını əks etdirdiyi kimi, Fəratın qədim forması olan *Prut* çayadını da Ön Asiyadan bura gətirənlər saqalar idi. Herodot yazır ki, skitlər ərazilərindən axan bu çaya *Porata* (Πορατα) deyirlər.[568] Bu isə Fəratın qədim *Purat* formasıdır və bu formanı Anadolu türkləri onun yuxarı qolununun adında *Murad-su* şəklində saxlamışlar.



Altun geyimli saqa (Issık kurqanı)

Doğuda m.ö.VIII-VII əsrlərdən görünməyə başlayan saqa boyları haqqında çin mənbələri məlumat verir. Son vaxtlar çin arxeoloqları qədim saqa abidələrini tədqiq edib, onların m.ö.V-IV əsrlərdə Cunqar çökəyinin güney-doğusunda yaşadığını, həmçinin Urumçi bölgəsindəki saqa qəbirlərilə *Issık-kul* abidələrinin eyni boylara aid olduğunu ortaya çıxarmışlar. Tuva və Altayda daha iki-üç əsr əvvələ aid *Pazırıq, Arjan* kurqanları da saqa abidələridir. Çin yazılarında *se* heroqlifilə yazılıb, *sək* kimi oxunan *saqa* etnonimi barədə, saqaların *syunnu* boyları tərəfindən sıxışdırılıb yerlərindən çıxarılması haqqında ilk bilgini I əsrdə vermiş tarixçi Ban Qunun (32-92) «Xanşu» adlı əsərinə komentariya yazan Yan Şiqu həmin *se* sözünə belə yozum vermişdir: «*Batı tərəfdə dövlət adıdır; budda sutralarında Şakya adlanır*».[569]



Kəmər toqqası. (Issık kurqanı)

Çin qaynaqları saqa boylarının sürüləri, onların tərəkəmə məişəti, sulu otlaqlara köçləri, geniş ərazilərə yayılması və indiki Kabil-Pişəvər bölgələrinə enib, dalbadal bir neçə dövlət qurması haqqında da bilgi ve-

567 НАА, 1980, №5, 87.

568 Herodot, IV. 48.

569 ВТД, 1988, 229.

rirlər. Bu qaynaqlarda Fərqanədəki *Saqa bəyliyinə* hücum etmiş hökmdar Sotszyuy barədə məlumat və Əhəməni şahlarının yazılarında, həmçinin antik dövr müəlliflərinin əsərlərində olan bəlgələr göstərir ki, Xəzərdən doğuya uzanan ayrı-ayrı bozqır və alp çəmənlikləri minil boyunca saqa boylarının köç yerləri olmuşdur. Belə köçlər Hindistan ölkəsindən də yan ötməyib. Cəvahirləl Nehru türmədə sanskrit dilində oxuduğu bir tarixi əsərdəki bəlgələrlə qızını (İndira Qandi) tanış etmək üçün ona yazdığı silsilə məktublarında *türk* boylarının Hindistana axını barədə demişdir:

> «Bizim eradan qabaq iki yüz il boyunca Hindistana bir neçə belə axın olmuşdur. Lakin sən belə düşünmə ki, bu köçlərin məqsədi buraları tutmaq və ya yağmalamaq idi. Bu xalqlara yeni ərazilərdə məskunlaşmaq zəruri idi, çünki Mərkəzi Asiyada köçəri boylarının əksəriyəti çoxalıb artdıqca, yaşadığı ərazilər onların dolanışığı üçün yetmirdi. Və onlar da yeni torpaqlara keçib, yeni məskənlər salmaq məcburiyətində idilər.
>
> (*bundan sonra selevkilərin hücumundan bəhs edir, sonra yenə əvvəlki mövzuya qayıdır*)…
>
> Sonra *saqa* axını başlandı. Onlar çox idilər, bütöv Quzey və Batı Hindistana yayıldılır. **Saqalar türklərin** böyük köçəri boylarından idi. Onları da öz yerindən başqa bir böyük boy olan *kuşanlar* çıxarmışdı. Bütöv Baktriya və Parfiyanı bürüyən saqalar tədricən Pəncab, Racputan və Katxiavarda məskunlaşdılar… Sonra (yazımda) görəcəksən ki, belə olay minil keçəndən sonra Hindistana müsəlmanların yeni axını ilə təkrar olundu».[570]

Doğuda sonralar da xeyli saqa izlərinin qalması göstərir ki, onların bir hissəsi burada yaranmış Hun, Avar, Göytürk, Uyqur və başqa ellərin içində digər türk boylarına qarışmışlar. Bəzi saqa boyları isə bugünəcən *saqay, saqar, saxa* adlarını saxlamışdır.

Sibir və doğu bölgələrdən Avropaya köçən saqaların yolunu 4-5 əsr sonra hunlar təkrar etmişlər. Saqaşünasların çoxu saqaların doğudakı izlərinə əsaslanıb, onların Altay və Orta Asiyadan gəlməsi fikrini irəli sürmüşlər. Belə ki, VII və sonrakı əsrlərdə Karpatdan Altaya qədər olan ərazilərin müəyyən bölgələrində «añ üslubu» adlanan rəsmlərlə zəngin saqa//saqat kulturu aydın seçilir.[571] Doğrudur, Güney Sibir bozqırları və Altay-Tuva ərazilərindən batıya göçən atlı saqa boylarının Azaq yaxala-

---

[570] Hepy, I. 1981, 129.

[571] Qazax alimlərinin *heyvan* sözü əvəzinə, qədimdən dilimizdə işlənən $\alpha\eta$ (añ) sözündən istifadə etməsi daha düzgündür və biz də bu termini işlədirik, ancaq əlifbamızda sağır nun işarəsi (ñ ) olmadığından onu *an* şəklində yazırıq.

rına gətirdiyi an üslubunda stilizə olunmuş yeni çalarlar vardı və bu yeniliyin olması yox, məhz olmaması qəribə görünərdi. Bu baxımdan, Ön Asiya sənətinin Azaq yaxasına bir neçə əsr Sibiri dolanaraq gəlməsi olayında Sibirin damğası bu sənət əsərlərinə vurulmalıydı. Analoji durum Azaq və Qara dəniz yaxalarında davam etmiş, bir neçə əsr ərzində yunan üsulu da saqa sənət əsərlərinə öz damğasını vurmuşdur:



Sakatyada añ üslubu
1-İtil yaxası kurqanı
2-Kostroma kurqanı
3-Kelermes kurqanı


Pazırıq kurqanı (№1)

Beləliklə, m. ö. VIII-VII əsrlərdə həm doğu, həm də batıda saqaların *añ* üslublu nəsnələri aşağı-yuxarı bir neçə onillik fərqlə ortaya çıxır. Lakin həmin *añ* üslubu bu tarixdən bir neçə əsr əvvəl qədim Azərbaycanda Hasanlu, Luristan, Sakkız abidələrində görünür və saqa soykökü əfsanələri onların mənşəyini Ön Asiyada axtarmağa sövq edir. Bu isə o deməkdir ki, saqa boyları öncə Azərbaycanda yaşamış və buradan Sibirin güneyinə apardıqları *añ* üslubunu orada bir neçə əsr yeni çalarlarla zənginləşdirmiş, oradan da batıya çəkilən boylar həmin gələnəyi Azaq bölgəsinə daşımışlar. Antik dövr tarixçiləri saqaların ilkin yurdu kimi Araz qırağını göstərir. Herodotun verdiyi məlumat başqa qaynaqlarla sübut olunarsa, onda saqaların Urmu hövzəsindən çıxması məsələsi daha konkret tarixə (m.ö.1500) söykənər.

Yazılı qaynaqlara görə, saqaların batı qanadı Qafqaz dağlarının arxasında m.ö. VIII-VII əsrlərdən görünməyə başlayır. Həmin çağlarda Azaq dənizi yaxalarından qopub, Azərbaycana qayıdan və burada dövlət quran saqalar barədə xeyli tarixi bəlgələr vardır. Lakin elmi ədəbiyyatda saqaların Azərbaycanda daha əvvəllər yaşaması haqqında geniş söhbət açılmır, halbuki Urmu hövzəsindəki arxeoloji material, saqa bəzəklərindəki Ön Asiya mənşəli «añ üslubu» motivləri, bəzi antik müəlliflərin saqaların Atayurdu kimi Araz qırağını qeyd etməsi və Dəclə yaxasındakı *Kuman* ölkəsində

*Saqa* kəndlərinin m.ö. XII əsr asur yazısında əks olunması faktları aydın göstərir ki, saqa boyları Güney-Doğu Anadolunun və Azərbaycanın qədim sakinləri olub, sonralar doğu və quzey istiqamətlərə getmişlər. Saqaların Azaq tərəfdən Azərbaycana gəlişi isə, əslində Atayurda qayıdış ıdı.

II minilin ortaları - I minilin əvvəlinə aid Qafqaz və Luristan arxeoloji abidələrini müqayisəli öyrənən Hançarın bunları eyni mənşəli kultur sayması sonrakı elmi ədəbiyyatda dəstəklənmişdir.[572] Luristan və Talış ərazilərində son tunc və erkən dəmir çağına aid qohum arxeoloji kulturun olması şübhəsizdir. Vanden Berghe Luristan tunc əşyaları tarixini (m.ö. 1200-1000) göstərsə də, bəzi alimlər bu yaxınlığı saqa boylarını irandilli saydığı üçün bu abidələri saqaların Azərbaycana gəlişi tarixilə (VIII-VII əsr) uyğunlaşdarmaq istəmiş və hətta bu əşyalardan bəzisinin üzərində XII-XI əsrlərdə yaşamış çarların adı yazılmasına baxmayaraq, onların Luristan basırığına güya sonradan qoyulduğunu söyləmişlər.[573]

Saqa-Azərbaycan və *saqa-qamər* əlaqələrindən yuxarıda, ötəri də olsa, danışmışdıq. Ön Asiyadan Azaq yaxalarına gedən və minil boyunca orada izləri itməyən saqa boylarının zaman-zaman müxtəlif bəylikləri və çarlıqları qurulub sonra dağılmışdır. Balkanlar üstündən yunan şəhərləri və Qara dəniz yaxalarında yunan koloniyaları ilə bağlantısı olan saqalar antik dövrün mədəniyyəti ilə yaxın təmasda olmuş, burada *Abar, Toksar, Anaxars* kimi filosoflar yetişmişdir. Hətta saqa elbəyinin yunan qızından olan oğlu Anaxars antik çağın «7 müdrik» sırasına düşmüşdür.[574]


**Saqa ərəninin görkəmi. Daraq üzərindəki bəzəkdən fraqment**
(Soloxa kurqanı)

Saqaların qab-qacaq və bəzək əşyaları üzərində əks olunmuş antropoloji tipi, görkəmləri türk tipindən seçilmir. Baxmayaraq ki, Herodotdan üzübəri antik çağ və Bizans qaynaqları Azaq saqaları haqqında xeyli bilgi vermişdir, son iki əsrdə bu bilgilər əsasında yüzlərlə tədqiqat əsəri yazılmışdır, ancaq saqa problemlərinin əsas düyünləri hələ də açılmamışdır. Belə ki, bu düyünlər sırasında saqaların dili, etnik kökü, ilkin yurdu məsələləri öndə durur.

---

[572] Hančar, 1934.

[573] Berghe, 1943; Ghirshman, 1939; 1951, 1958.

[574] Azər xalqı, 2000, 98-102.

Əslində, belə problemləri saqalar və qədim tarixçilər deyil, sonrakı tədqiqatçı alimlər yaratmışlar. Belə ki, saqa boyları ilə təmasda olmuş və Saqa eli çağında yaşamış tarixçilərdən və minillik Bizans mənbələrindən tutmuş XVII əsrə qədər saqalardan danışan müəlliflər onlardan türk ulusu kimi bəhs etmişlər. Lakin sonrakı dövrlərdə saqaları *monqol, finuqor, german* (qot), *slav* (rus), *hindiran* (oset) və *qafqazdilli* xalq sayan yazarlar ortaya çıxmış, bu və ya digər adı çəkilən xalqın kökünü bütövlükdə saqalara bağlamağa çalışıb, saqaşünaslıqda qurama problemlər yaratmışlar.

Saqaların etnik mənsubiyəti ətrafında başlanan ajiotaj əsasən bütün dünyanı heyrətə salan Kerç yaxınlığındakı *Kül-oba* kurqanının, onun ardınca *Oğuz, Soloxa, Çertomluk* və digər kurqanların açılması ilə başlansa da, bundan qabaq da saqalar yalnız bu və ya başqa bir etnosun sələfi kimi təqdim olunur, belə mövqe daha çox rusofil və iranofil alimlərin yazılarında ortaya çıxırdı. Hətta skit məsələsinə bu cür yanaşmaya dözməyən A. Şletser hələ XIX əsrin ilk illərində yazmışdı ki, üç minillik nağıl və əfsanəvi tarixdənsə rusların 600 illik gerçək tarixi öyrənilməli və nəhayət, ruslar skitlərdən əl çəkməlidir.[575] Çertomluk kurqanını açan E. İ. Zabelin isə skitləri monqol və irandilli boylara bağlayan alimlərin fikrini qətiyətlə rədd edirdi.[576]

Yuxarıda deyildiyi kimi, antik dövr müəllifləri, Bizans mənbələri, çin-hind qaynaqları *saqa//skit* tayfalarından həmişə türk boyu kimi bəhs etmişlər. Andrey Lızlovun 1692-də yazdığı «Skiflərin tarixi» adlı əsərində skitlər yalnız türk kimi təqdim olunmuş, XIX əsrin son illərində Herodotu, o cümlədən digər qədim müəlliflərdən bir neçəsini tərcümə edən və *elbəyi saqaları* (üarskie skifı) türk sayan görkəmli filoloq F. Q. Mişşenko, macar alimlərindən «Kodeks Kumanikus» abidəsini incələyib çap edən G. Kuun, «Bizantino-Turkika» əsərinin müəllifi G. Moravçik, həmçinin tanınmış altayşünaslar həmin mövqedə dayanmışlar. Z.V.Togan, M. Z. Zəkiyev, M. A. Xabiçev, İ. Durmuş, Q. Qeybullayev və başqa türkoloqlar saqa-türk paralellərinə aid xeyli misallar vermişlər.[577]

[575] Нейхарт 1982, 21.

[576] Eyni qaynaq, 52.

[577] Лызлов, 1787; Togan, 1981; «Codex Cumanicus», 1983; Moravcsik, 1983; Хабичев, 1982; Гейбуллаев, 1991; Durmuş, 1993; Закиев, 1995; Зякиев, 1998; Saqaların miqrasiyası, etnik mənşəyi, elbəyi saqaların türklüyü, onların soy şəcərəsi, filosofları, mifologiyası, təsviri sənəti və xalı-xalçası haqqında bizim də müəyyən araşdırmalarımız olmuşdur (Чəлилов, 1985 a; Azər xalqı, 2000, 63-110).

E. H. Mins saqaları türk və irandilli boyların türk dominatı ilə qarışığı sayır.[578] XX əsrin bəzi iranşünasları (V. F. Müller, M. İ. Rostovtsev, J. Dümezil, V. İ. Abayev və b.) saqa boylarının yalnız irandilli (osetlər) olduğunu yazırlar. İ. Əliyevin başçılığı ilə bəzi Azərbaycan tarixçiləri də ölkəmizdə yalnız irandilli saqa (skit) izini axtarırlar.[579] Halbuki, bütün böyük dövlətlərin, imperiyaların içində müxtəlif dilli xalqların olması və bunların çox vaxt dövləti quran boyun adı ilə tanınması normal haldır. Məsələyə bu yöndən yanaşanda gerçək mənzərə ortaya çıxır. Bunun üçün öncə qədim tarixçilərin *saqa* etnoniminə hansı mənanı yüklədiyini və bununla bağlı hansı şərhi verdiyini nəzərə almaq lazımdır.

Saqalar haqqında ən geniş məlumatı verən Herodot doğuda *saqa* kimi tanınan xalqa batıda *skuth* (Σκυϑαι) deyildiyini və burada «baş eli» təşkil edən saqa boyunun «οι βασιλειοι Σκυθαι» (*basilei skuthlar*) adlandığını, bu «elbəyi skuth» boylarının toplumuna özlərinin *skolot* (Σκολοτοι) dediyini yazır.[580] Belə ki, yunanlar Azaq yaxasına gələn boyları *saqa* adı ilə yox, *skuth* adı ilə tanımışlar. Sonrakı qaynaqlarda *skuth* ~ *skith* formasında işlənən bu etnonimi ruslar ilk dönəmlərdə *skuf* şəklində yazırdılar, sonralarsa *skif* şəklinə saldılar və indi elmi ədəbiyatda bu son variant işlənir. Türk alimlərisə bu adı yanlış *iskit* formasına salmışlar. Göründüyü kimi, həm *skif,* həm də *iskit* formaları yanlış yazı ilə ortaya çıxıb geniş yayılmışdır. Əslində, belə yanlış yazı ilkin *skuth* formasında da vardır, belə ki, yunan yazarları *Mada* adını *Midiya* şəklinə saldıqları kimi, ilk dəfə eşitdikləri *Sakat* adını da *Skith*-ə çevirmişlər. Bəlkə də, bunu Misir ölkəsində onlara əvvəldən tanış olan *Skit* gölünün adına oxşatmaq istəmişlər. O dönəmdə saqa toplumunda bəzi boyların adı öz dillərində çoxluq bildirən formada *saqat* (skuth) və ya *saqa elat* (skolot) kimi işlən-




[578] Minns, 1971, 10; Atillanın yanında olmuş Priskos hunları skit adı ilə təsvir etmişdir.

[579] Алиев, 1979, 4-14; AT, 1998.

[580] Herodot, IV. 6; VII. 64; Plini Sekund (m.ö. III əsr) onları *Basilidae* (baş-elat) şəklində verir ( ВДИ, 1949, №2, 283).

məsi də doğal idi. Qədim Azərbaycanda *saqar* boyları yaşayan Zigertu adının bir asur yazısında *Zikitia* formasında verildiyini yuxarıda qeyd etmişdik.[581] Skitlər kimi tanınan *massaqet* (baş-saqet), *tissaqet* (dış-saqet) və skit çarının qardaşı kimi verilən *Marsaqet* (Bar-saqet) adlarında da *saqet* hissəsi görünür.[582] Buradaca qeyd edək ki, *saqa elatı* ifadəsindəki bənzər modelə sonralar Anadoluda *sekatelli* (saqat-elli) əşirəti adında rast gəlmək olur.[583] *Skit* forması qədim Dağıstanda *Siqit-min* şəhərinin adında qaldığı kimi, *Saqat* formasının da müxtəlif bölgələrdə izi vardır.[584] Bunu da nəzərə alaq ki, İranda hələ də 9 kəndi əhatə edən *Saqat* və 16 kəndi əhatə edən *Saxeli* adlı dexestan (rayon) vardır.[585]

Asur mənbələrində *aşquza//işquza,* yəhudi mənbələrində *aşkenaz* kimi yazılan bu etnonim birinci halda *saqath* >**squtha* >*aşquδα//işquδα* əvəzlənməsi ilə, ikinci halda isə R. Frayın dediyi kimi, sadəcə ‘SKWZ formasının səhvən ‘ŞKNZ şəklində yazılıb yayılma ənənəsilə bağlıdır.[586] Avropaya gedən saqatların içində *saqa* etnonimi də vardı. O. N. Trubaçevə görə, təkcə Dneprin doğu tərəfində *Saqa* adlı 4 çay vardır və bunlardan ikisi «əski» (staraya), ikisi də «uzun» (dolqaya) təyinlərilə işlənir.[587]

Saqatların bir qismi də doğuda qalmışdı; *saqat* (saqait) boyuna dayanan fateh Çingiz xanın çin mənbələrində *qara-tatar* soyundan törədiyi söylənirdi.[588] Azərbaycanda da saqatların xeyli izi vardır: *Pir-Saqat, Saxat çuxuru, Saatlı* (Sahatlı) və sair. Bu baxımdan, *saqa* və *saqat* (skit) deyimləri sinonim sözlərdir.

Saqatyada m.ö.VIII əsrin sonlarında toplumun içindən hakim mövqeyə çıxmağa cəhd edən *saqat* boyları ətraf bölgələrə təzyiq və hücumlar edirdilər. Görünür, belə təzyiqlərdən biri də *qamər* (kimmer) boylarının

---

581 АВИИУ, №50, 14, (7-ci qeyd).

582 Qazax elində *Soqetı* toponimi vardır (OB, 1980, 115-116).

583 OAC, 1979, 145.

584 Güney Azərbaycanda Saxat//Saxabat (müasir Mergen) şəhəri vardı. Ağrı vadisində *Saxat* toponimi qeyd olunmuşdur (Хасан-Джалалян, 1989); «Alban tarixi» yazarının Sünikdə *Şaqat* (Saqat) şəklində qeyd etdiyi toponim bugün də həmin formasını saxlamışdır (Рүстəмли, 1998,64).

585 СИ, 611; İrəvan çuxuru da vaxtilə Saxat (Saqat) çuxuru adlanırdı.

586 Фрай, 1972, 69; Azərbaycana qayıdan saqa boylarının içində adı **saquz* və ya *saqaçı* (**saqaşe*) kimi adlananlar da ola bilərdi. Bu halda, aşquz//işquz deyimlərinin ortaya çıxması normaldır.

587 Трубачев, 1968, 76.

588 Togan, 1981, 35; Мен-да бэй-лу, 1975, 45.

yaşadığı bölgədə baş vermiş və *qamər* boylarının xeyli hissəsi yerlərini tərk edib, Güney Qafqaza və Kiçik Asiyaya köçmüşlər. Azaq bölgəsində nüfuz dairəsini genişləndirən saqat boyları artıq VII əsrin sonunda *qamər, aqatirs, budin* və sair türk boyları ilə yanaşı, slav, hindiran, finuqor, qafqazdilli boyların da yaşadığı bəzi bölgələrə nəzarət edirdi və bütün bu bölgələr *Saqatya* adlanırdı. Saqalar türk törəsinə uyğun olaraq, ildə bir dəfə elbəyin oturduğu bölgədə toya yığışırdılar. Qədim qaynaqların qeyd etdiyi Böyük Saqatya bəzən geniş anlamda Karpatdan İtilə qədərki Qara dəniz, Azaq dənizi və Xəzər dənizi arası bozqırları və Kuban düzünü də əhatə edən ölkə kimi, bəzən də dar anlamda yalnız Azaq yaxası bölgələri əhatə edən ölkə kimi verilir. Bu son anlamda işlənən Kiçik Saqatya isə əvvəllər *Kimmeriya* adlanırdı, çünki saqatların sıxışdırıb yerindən çıxartdığı *qamər* boyları öncə bu bölgədə yaşayırdı.




Saqa (skit) kurqanları

1. Tsarskaya; 2. Kurjips; 3. Kelermes; 4. Kostromskaya; 5. Ulskiy; 6. Yelizavetinsk; 7. Yeddi-qardaş; 8. Karaqodenaşx; 9. Çar kurqanı; 10. Altın-oba; 11. Xersones; 12. Oğuz; 13. Tsımbalka; 14. Soloxa; 15. Nikopol; 16. Çertomlık; 17. Aleksandropol; 18. Melqunov; 19. Smela; 20. Rıjanovka; 21. İlintsı. (Райс 2003, 103)

Qara dəniz yaxalarında *yunan* koloniyaları vardı. Balkanlara tərəf bəzi bölgələrdə *trak* (frak) boyları yaşayırdı, IV əsrin sonundan isə german (*qot*) boyları da Krım və Azaq yaxalarına gəlmişdi və hətta Saqat elinin (çarlığın) zəiflədiyi dönəmdə qotların rəisi *Ermanarix* burada ayrıca bəylik qurmuşdu. Müxtəlif dilli xalqların məskunlaşdığı belə geniş bir ölkədə saqat böyüklərinin yanında çoxlu tərcüməçi olmalıydı, ona

görə də, ulu tarixçinin «*saqatlar 7 dilmancdan istifadə edir*» deməsi o çağın gerçəkliyini əks etdirirdi.[589]

Müxtəlif dilli boyların yaşadığı Saqatya ölkəsi konqlomerat tərkibli, federal qurumlu toplum idi. Ona görə də saqat mədəniyyətinin formalaşmasında bu boyların iştirakını inkar etmək düzgün olmaz. Biz saqatlarda türk layını yalnız toplumun türkdilli boyları içində, doğuda *saqa*, batıda *saqat* adlanan, Herodotun digər maldar və əkinçi saqatlardan fərqləndirdiyi hakim xanədan soyunun mənsub olduğu yarımköçəri saqat boyunda axtarmalıyıq. Məhz bu boyların etnik özəllikləri, dili, mifologiyası, etnoqrafik gələnəkləri sonralar bəlli türk toplumunda təkrar olunur. Necə ki, ölən ərənlərə, soylu bəylərə bu şəkildəki anıt daşları yapan saqaların analoji gələnəyi sonrakı türk boylarında davam edir:



**Saqa daş heykəlləri**
(Mederevo və Olxovçik kəndi)

Batıda *saqat* etnonimi ümumi ada çevrildiyi kimi, doğuda da *saqa* ümumi adı işlənirdi. Buna səbəb isə konkret etnonimə əlavə informasiyanın yüklənməsi idi. Belə ki, eyni siyasi quruma malik, eyni etnoqrafik kulturun daşıyıcıları və eyni geosiyasi məkanda yaşayan boyların hamısı hakim mövqeyə çıxıb, ətraf ölkələr üçün hərbi-siyasi qüvvəyə çevrilmiş boyun adı altında tanınır. Bu halda, həmin boyun adını bildirən etnonim konkret boyun adı olaraq qalır və həm də həmin boya bağlantısı olan digər boyların *ümumi* adına çevrilir. Tarixdə yüzlərlə türkdilli boy olmuşdur, lakin bunlardan çox az qisminin adı belə *ümumi* adbildirmə səviyyəsinə qalxa bilmişdir; Miladdan öncə *subar* boyu IV-III minillərdə, *qut* boyu III-II minillərdə, *saqa* boyu I minilin VIII-I əsrlərində, miladdan sonra isə *hun* boyu I-V əsrlərdə, *göytürk* və *xəzər* boyları V-X əsrlərdə, ən sonda *türk* boyunun adı belə status qazanmışdır. Azərbaycan ərazisində isə qutlardan sonra belə ümumiləşdirici adı *man, mad, azər//xəzər, alban//aran, oğuz* və *türk* boyları daşımışlar.

Göstərilən sistemdən kənarda qalmayan polietnik saqat toplumu da monoetnik toplumdan fərqli olaraq, müxtəlif boyların federativ qurumlu birliyi idi. Burada eyni mədəniyyət dairəsində yaşayan elbəyi soyuna aid

[589] Herodot, IV. 24; Skitiya ərazisində türklərdən başqa slav, iran, qot, yunan, finuqor və qafqazdilli xalqlar vardı.

saqat boyundan tutmuş, digər türk boyları ilə yanaşı, başqa dilli xalqların əhalisi vardı. Ona görə də, əsl saqatlarla *psevdo-saqatları* ayırmaq lazım gəlir. Əsl saqatları isə tarixi mənbələr müxtəlif şəkildə təqdim edir. Strabon bəzi mənbələrdə saqat sayılan *massaqetləri* yaşadığı şəraitə görə dağlılar, bataqlıq və düzənlik əhli qruplarına ayırdığı kimi, antik çağ yazarları saqatları belə təsnif edir:

*ordokorubant* - şişpapaq və amürqi (*Amyrgioi*) saqat
*arater* - arat edən, əkinçi saqat
*arxae* - arxaik, qədim saqat
*qippofaq* - at (əti) yeyən saqat
*melanxlen* - qaradonlu saqat

Əhəməni yazılarında da belə bölgülər var: şişpapaq saqa (*tiqraxauda*), dəniz arxası saqa (*paradraya*), xaoma içkisi hazırlayan saqa (*haumavarqa*).



Herodot və digər tarixçilərin vaxtilə saqat elbəyləri haqqında yazdıqlarını əfsanə sayanlar vardı, lakin çarlardan bəzilərinin adına kəsilmiş sikkələrin tapılması belə şübhələrə son qoydu və həmin çarların hakimiyət illərini müəyyənləşdirməyə kömək etdi. Məsələn, tarixdən bəllidir ki, m.ö. IV əsrdə Qara dənizin quzeyində saqa boylarını birləşdirib, qısa müddətdə ətraf bölgələri özünə tabe etdirən elbəy *Ata* 90 il ömür sürmüş, fateh İskəndərin atası Makedoniyalı Filiplə döyüşdə (m.ö. 339-da) ölmüşdür.

Göründüyü kimi, etnoqrafik əlamətlərlə bir-birindən fərqlənən boyların əsl saqa (saqat), yoxsa psevdosaqa olması çətin anlaşılır. Lakin sonrakı mənbələrdə *köçəri, kımız içən, at əti yeyən, qaradonlu, şişpapaqlı, oxçu* epitetləri ilə verilən saqa boylarından türk xalqı kimi bəhs olunması imkan verir ki, onları psevdosaqatlardan ayıraq. Belə ki, antik dövr müəlliflərinin *saqa* və ya *saqat* adı altında qeyd etdiyi çoxlu etnonimlər içindən *aqathirs, saqarauli, sarauki, kamak, kam, toqar, asian, traspi, astak, abi, arimasp, budin* və sair türk boylarını seçmək mümkündür. Bu sıraya kontekstdə ümumi ad kimi işlənməyən *saqa, saqat, skolot* adları da daxildir. Azaq bölgəsində türkcə olan saqat toponimlərini və *qardaş, qapı,*

*balıq* kimi mənası aydın sözləri və şəxs adlarını da bura əlavə etmək olar. Belə şəxs adlarını saqat elbəyləri (çarları) və bəyləri arasında da görmək olur:

Saqa (skit) elbəyləri

Sparqapit
Likos (İlig "elbəy" və ya Börü)
Gnur (Qonur)
Savlı (?-589) Marsaget Anaxars
İdantirs (?-510)
Arqot ? (510-490)
Ariapith (490-475)
Skil (475-450) Oriq Oktamasad (450-449)
?
Atey (?-339)
Skilur (?-110)
Palak (110-?)

m.ö. II-I əsrlərdə

| | |
|---|---|
| Kanit | Akroz |
| Tanuz | Sariak |
| Xarasp | Aylis |

Başqa tarixi şəxslər

*Skopas* (bölgə bəyi)
*Taksak* (bölgə bəyi)
*Arix* (Skilin canişini)
*Eminak* (Oktamasadın canişini)
*Sparqapit* (Aqatirs elbəyi, m.ö. V əsr)
*Aspurq* (Bospor elbəyi, m.s.10-36)

Qədim tarixçilərin qeyd etdiyi və hələ tam dəqiqləşməmiş yuxarıdakı soy şəcərəsindən də göründüyü kimi, bəzən yunan qızları ilə evlənmiş saqa bəylərinin oğlanlarının bəzisi yunan adı daşıyır. Bunu nəzərə alsaq, buradakı şəxs adlarından çoxunun türkcə olması aydın seçilir. Belə seçilmə tarixi mənbələrdə və xüsusilə Azaq bölgəsindən tapılmış anıt yazıları içində də vardır:


Saqa elbəyi **Palak** (m.ö. II əsr)

| | |
|---|---|
| Kadanaq(os) | Boropsaq |
| Kapanaq(os) | Baksaq |
| Sanaq(os) | Skunxa |
| Arzakom | Amizok |
| Pexoynaq(os) | Azark |
| Kokounaq(os) | Badaq |
| Arqovanaq(os) | Metak |
| Somax Atta | Attamaz(os) |
| Olkabas | Ospinmaz(os) |
| Okoziaq(os) | Pinmaz(os) |
| Oyziaq(os) | Atamaz(os) |
| Toksar(is) | Xarmata (qadın) |
| Oyaraq(os) | Parmata (qadın) |
| Oyarazaq(os) | Opoy (qadın) |

Saqa çar sülaləsində olan adların bir qismi təmiz türkcədir: Qnur (Qonur), Savlı, Palak, Sariak, Atey (Ata), Tanuz.[590] Bəzi adlara qoşulan yunan dili şəkilçisini (-os, -is) çıxandan sonra saqat adlarında *-maz//-məz* inkarlıq şəkilçisi ilə (Ospinmaz, Pinmaz, Attamaz, Atamaz), *bas* feili ilə (Ölkə-bas), isim düzəldən *-aq* şəkilçisilə (Sanaq, Badaq, Somax) və sair türk dili morfemlərilə düzələn şəxsadı modelləri açıq görünür. Saqat şəxs adlarında dilimizdəki *tozanaq, döyənək, bacanaq* tipli isim düzəldən qədim *-anaq//-ənək* şəkilçisi öz aktivliyilə diqqəti çəkir (Arqovanaq, Kadanaq, Kokounaq, Kapanaq), lakin bu adların bəzisi bugün azər dilində işlənən anlamından fərqlənir. Belə ki, *Kapanaq* şəxsadı *kəpənək* «yapınçı» anlamında olmayıb, *qap-* feilindən düzələn «qapağan» və «qapıcı» anlamında işlənmişdir. Buradakı adların üzərində geniş dayanmağa imkan yoxdur, güman edirik ki, deyilənlər saqat dilinin təmiz türkcə olmasına şübhə yeri qoymur.

Xersones şəhərində üzə çıxan keramik qablar üzərində bəzi dulusçuların qoyduğu imzaları araşdıran R. B. Axmarov bunların sırasında *Askl, Hrakl* və *Ata* kimi ustaların özəl adlarının, bəzilərində isə etnik mənsubiyətin (№87 Σκυθικόν, №89 Ταυρικόν) qeyd olunduğunu yazır: [591]




Qədim türk törəsinə görə hər türk boyu dövlət (el) qura bilməzdi, el qurma imtiyazı bozoqlara verilmişdi, üçoqlarsa onlara tabe olmalı idi, ona görə də, qədim türk toplumunda «*el pozular, törə pozulmaz*» deyimi vardı, çünki törə qutsal sayılırdı. El qurma səlahiyəti olan boyların sırasındasa başda *qayı* boyu gəlirdi. Oğuznamə gələnəyində Gün xan soyundan ***qayı*** boyunun el qurmaq hüququ vurğulayır, bu boyun damğası **IYI** və **IVI** kimi


Saqa basırığından (m.ö.V əsr) çıxan altun sadaq üzlüyünün bir hissəsi



Kayı boyunun damğası

[590] Qonur alp, Savli, Ata adları türk abidələrində geniş işlənir.

[591] Ахмеров, 1951, 79.

verilir. Bu damğaya qayı boyunun köç etdiyi bölgələrdə rast gəlmək olur. Saqa kurqanından (m.ö.V əsr) çıxan altun sadağın üzərində maral qabartması var və maralın boynunda naxış kimi sıralanan həmim qayı boyunun damğasıdır.[592]

Türk-saqa məsələsinə həddindən artıq ehtiyatla yanaşan prof. Xalid Koroğlu da yazır ki, qazax-qırğız xalqlarının təşəkkülündə önəmli yeri olan *kaysak* boyadının tərkibində *kayı* (qayı) və *sak* (saqa) etnonimləri görünür.[593] Olsun ki, Herodotun *basileyi skuthai* (elbəyi saqalar) kimi verdiyi **baş-el* boyu Orta Asiyada *kayı-sak adlanırdı. Saqa boylarından söhbət açan qədim tarixçilər onları başqa boylardan fərqləndirmişlər. Efordan misal gətirən Strabon yazır: «Köçəri skitlər içində *kumıs içən boylar* var ki, onlar öz ədaləti ilə başqalarından yüksəkdir».[594] Herodot da buna bənzər sözləri ən ləyaqətli və çoxsaylı hesab etdiyi saqatlar haqqında yazmışdır:

> «Daranın səfər etdiyi Pont (Qara dəniz) çevrəsində, skitlər istisna olmaqla, geri qalmış xalqlar yaşayır. Dənizin bəri yaxasında skitlərdən başqa, qafası aydın bir ulus görə bilmədik. Anaxarsdan savayı doğru-dürüst düşüncəli bir adam bulmadıq».[595]

İran-Turan qarşıdurması kimi doğuda formalaşan saqa-pers münasibətləri Daranın 700 minlik ordu ilə quzeydəki Saqatya ölkəsinə yürüşündə də davam etmişdir. Bu, tarixboyu görünməmiş müharibələrdən biri idi və qədim tarixçilərin təsvirinə görə, maraqlı müharibə idi. Ona görə maraqlı idi ki, belə böyük qüvvə ilə Azaq saqatları üzərinə gedən pers şahı saqat atlılarının əldən saldığı ordusunu buraxıb, başının dəstəsi

---

592 Öncə bəzək-naxış zənn etdiyim eyni işarənin təkrarlanmasına diqqətlə baxanda bunun qayı boyunun damğası olduğunu gördüm. Bu tutarlı bəlgə saqa elbəy boyunun özəl adını ortaya çıxarmaqla açıq qalmış bəzi suallara da aydınlıq gətirdi, belə ki, elbəy saqa boyunun Günəşə at qurbanı verməsi qayı boyunun Gün xanın soyundan olması ilə bağlı imiş.

593 Короглы, 1983, 14; Görünür, Saqastanda (indiki Sistan) ortaya çıxan *kay* (Key-Xosrov, Key-Qubad, Key-Kavus) və etruskların *qay* soyadları da qədim etnososial türk gələnəyilə bağlıdır. Romada Qay sülaləsinin və Roma imperatoru Qay Yuli Sezarın özünü troyalı Eneyin soyundan sayması türk-etrusk bağı baxımından önəmli tarixi bəlgədir. Maraqlıdır ki, 251-də imperator olmuş iki qardaşdan biri *etrusk*, digəri *kayı* soyadı ilə qeyd olunur, halbuki hər ikisi Roma imperatoru Deciusun oğlu idi: 1) Imperator Caesar Quintus Herennius *Etruscus* Messius Decius Augustus; 2) Imperator Caesar *Caius* Valens Hostilian Messius Quintus Augustus.

594 Strabon, VI. III. 9.

595 Herodot, IV. 46.

ilə xəlvətcə və böyük rüsvayçılıqla geri qaçdı. Təxminən belə bir hadisə iki əsrdən sonra Makedoniyalı İskəndərin başına gəldi: o, dünyanın yarısını fəth edə-edə doğu saqa boylarına çatanda, irəli getməyin mənasız olduğunu dərk edib, geri qayıtdı.

Tarixdə məharətli döyüşçülər kimi tanınan saqa boylarının Azaq yaxalarına nəvaxt və haradan getmələri üzərində mübahisələr davam etsə də, ümumi fikir hələlik belədir ki, onlar iki minil sonra «Qıpçaq Çölü» adlanacaq bozqırda m.ö.VIII əsrin sonlarından görünməyə başlayıb və Kerçə qədər gələrək qamərləri yerindən çıxarıblar. Lakin arxeoloji materiallar Azaq yaxasında saqa kulturunu bir-iki əsr də əvvələ çəkir. Bunu Herodotun bir qeydi də təsdiq edir. Belə ki, tarixçi Dunay (İstr) çayının doğu yaxası ilə Tavriya arasındakı bölgədən danışarkən αρχαιη Σκυιϑη (arxaik, qədim saqat) ifadəsini işlədir.[596] Əlbəttə, bu məlumatlara və saqat boyları ilə eyni etnik mənşəli olan qamər boyunun daha öncədən burada görünməsi faktına söykənib, qamər-saqa boylarının Azaq ətrafına ən azı m.ö. IX əsrdən gəldiyini düşünmək olar.

Yuxarıda qeyd etdik ki, saqalar tarix səhnəsinə çıxana qədər Ön Asiyada, daha doğrusu, Araz yaxası bölgələrdə yaşamışlar. Bu baxımdan, saqaların quzey və doğu ölkələrə getməmişdən öncə Azərbaycanda yaşadığı çağlar onların qədim tarixidir. Ona görə də, bu qədim tarixə işıq tutan bəlgələrlə yanaşı, «Oğuz çağı» tarixini mifologiya və folklorunda yaşadan türklərin xalq yaddaşında qalmış «soykökü əfsanəsi» motivləri də diqqətə alınmalıdır. Belə ki, Oğuznamələrdə yer alan bu motivlərin bəzi variantını hələ m.ö.V əsrdə Herodot Saqatyada qələmə almış, bu variantlardan birində saqaların soybabası kimi Tarqitay, digərində Herakl (Koroğlu) verilmişdir.

Herodot yazır ki, saqaların soybabası Tarqitay saqalar üzərinə pers şahı Daranın yürüşündən minil öncə yaşamışdır. Akademik İ. A. Cavaxişvili Tarqitayın yaşadığı çağ haqqındakı bu məlumata belə yozum verir: «Əgər, m.ö. 513-də baş verən bu yürüşün tarixindən 1000 il çıxsaq, onda m.ö. 1513-cü il tarixi alınır. Əlbəttə, bu tarix nə dəqiqlik, nə də şübhə do-

---

[596] Herodot, IV. 99; Yeri gəlmişkən qeyd edək ki, Herodotun kitabını ruscaya çevirənlər bu abzasdakı Taurik Xersones yeradında *taurik* sözünü buraxmışlar (Геродот, 1972, 212); Bu bölgədə yaşayan *tavrların* adına daha qədim çağlarda Mana elində rast gəlmək olur ki, bu da sonrakı *tavarlı* (davarlı) türk boyudur. Herodotun «arxa saqat» ifadəsi *arka qırğız, arka qazax* deyimlərində olduğu kimi, «batı saqat» anlamı ilə işləndiyini də istisna etmək olmaz.

ğurmayan mütləq gerçəklik kimi dəyərləndirilə bilməz, lakin hər halda bu məlumat nəzərə alınmağa layiqdir».[597] T. T. Rays isə bu başlanğıc tarixi bir az da qədimə çəkir. Yazara görə, saqaların tarixini m.ö.1700-cü illərdən başlamaq lazımdır.[598] Ön Asiyada, daha doğrusu, Azərbaycanda yaşayan qədim saqalar m.ö. II minilin ortalarında hələ siyasi qüvvə kimi meydana çıxa bilməmişdilər. Görünür, həmin çağda atlı oğuz boylarının tərkibində olan saqaları Oğuz dastanlarında aramaq lazım gəlir. Bunun üçün Herodotun qələmə aldığı saqaların soykökü əfsanələrinə baxaq.

Herodotun yunanlıdan eşitdiyi versiyaya görə, ilk saqat boylarının ulu babaları *Herakl* və oğlu *Saqat* (Skit) bəydir. Oğuznamə və Koroğlu dastanlarının yunanlaşmış formasını xatırladan bu əfsanədə deyilir: Herakl itmiş atlarını axtara-axtara gəlib *Gileya* (ağaclıq) adlı bölgəyə çatır. Onun atlarını buradakı mağarada bədəninin ortadan aşağısı ilan, yuxarısı isə qız olan bir pəri gizlətmişdir.[599] İlan-qız cildində olan pəri Herakl ilə yaxınlıq edəndən sonra onun atlarını qaytarır. Herakl gedərkən yayını və kəmərini doğulacaq oğlu üçün əmanət qoyur və ilan-qıza tapşırır ki, hansı oğlum yayı mənim kimi qura bilsə, qılınclı kəməri mənim kimi belinə taxa bilsə, onu ölkəyə başçı edərsən. Vaxt tamam olanda pərinin Herakldan üç oğlu olur; *Aqathirs, Gelon* və *Skit.* Atalarının qoyduğu şərti kiçik qardaş Skit gerçəkləşdirə bilir və hakimiyət ona verilir. Beləliklə, saqat boyu Herakl və İlan-qızdan olan kiçik qardaşın soyundan törədiyi üçün *Skit* onların ulu Babası sayılır.[600] Heraklın oğlu Gelondan törəyən *gelon* boyu haqqında Herodot yazır ki, onlar mənşəcə yunan olub, saqat boylarının içində yaşayanlardır, həm yunan, həm də saqat dilində danışırlar. Aqathirs soyundan olan *aqatirs* boylarısa meşə zolağı bölgəsində yaşayır, qızıl nəsnələri çox sevir və xasiyətcə qonşuları trak boylarına oxşayırlar.

Göründüyü kimi, bu əfsanə yunan süzgəcindən keçəndən sonra da, bəzi türk elementlərini hələ itirməmişdir. Xatırladaq ki, saqa çarlarından biri *Qnur* (Qonur) adını daşıyırdı və Dədə Qorqud oğuznaməsi Təpəgözü

---

[597] Джавахишвили, 1939, 48.

[598] Райс, 2003, 32; P. Troq (I əsr) yazırdı ki, 1500 il boyunca skitlərə vergi ödənirdi.

[599] Tufan tanrısı *Taru* ilə ilan arasındakı savaşdan bəhs edən hat mifi ilanı *illuyan-kas* (ilan-qız) şəklində təqdim edir (ИДВ, 1988, 156); Bu *Taru* və *ilan-qız* motivi hatlara qonşuları qaşqaylardan keçə bilərdi. Həmin qaşqaylar isə m.ö.II minilin əvvələrində məhz Koroğlu və Herakl motivlərinin formalaşdığı Anadoluda indiki Bolu bölgəsinin qonşuluğunda yaşayırdı.

[600] Herodot, IV, 8-10.

*Qonur* çobanla pəri qızın oğlu kimi verir.[601] Qədim türklər çay yaxasında yaşayanları *subar*, dağda olanları *dağlı*, meşəli bölgədə olanları *meşəri, ağacəri* adlandırırdılar. Saqat boylarının bir tirəsi olan *akathirslər* sonrakı dövr qaynaqlarında *aqatsir* ('ακατζιροι) şəklində hun boylarının içindəki «skit boyu» kimi xatırlanan və Azərbaycanda xeyli toponimlərdə izi qalan *ağacəri* boyudur.[602] Herodot bozqırlı saqalardan fərqli olaraq, aqathirs boyunun Karpatönü meşə zolağında yaşadığını yazır və qələmə aldığı əfsanənin yunan versiyasında Heraklın oğlu *Aqathirs* «Ağaclıq» (Gileya) adlanan bölgədə doğulur. Yeri gəlmişkən, bir neçə söz də Koroğlu-Herakl paralelliyi haqqında deyək. Uzaq keçmişin qan yaddaşını sazlı-sözlü yeni olaylara kökləyib bizə çatdıran dastanlarımızda həmin paralellik qabarıq görünür. Koroğlunun məhz quzey bölgəmiz Dərbənd səfərində deyilir:

Koroğludu atan zatı,
Çənlibeldə var busatı,
Bazubəndi amanatı,
Allaha tapşırdım səni.

Göründüyü kimi, Herakl və Koroğlu doğulacaq oğlu üçün əmanət qoyub, elinə qayıdır. Koroğlu olayları ən qədim çağlardan müxtəlif xalqların folkloruna sirayət etmişdir. Belə ki, itirdiyi atı axtaranda, yeni oğul qazanan, ona kəmər və ya bazubənd əmanəti qoyan Koroğlu-Herakl gələnəyi pers dastanında da təkrar olunur. *Saqastan* vilayətindən olan Rüstəm (M. Xorenatsi ona *Saqcik* Rüstəm deyir) itirdiyi atı Turan ölkəsində tapır, burada elbəy qızı Təhminədən olan oğlu Söhrab yeni soyun başlanğıcını qoyur. Xakas eposunda Çis Sibildey adlı pəri Altın Çaqanın atlarını oğurlayıb, onu özünə cəlb etməklə yeraltı qaranlıq dünyaya aparmaq istəyir. Bu türk-yunan mifoloji paralelin tipologiya ilə izahını mümkün saymayan M. İ. Borqoyakova görə, buradakı motiv və süjetlərin, kiçik detalların belə aşkar bənzərlik və eyniliyini təsadüf hesab etmək olmaz.[603]

Bütöv Avrasiyaya yayılmış Koroğlu motivlərindən yunan və latın xalqları da bəhrələnmiş, Herakl-Herkul obrazında Koroğlu yeni boyalar qazanmışdır. Lakin Homerdən də əvvəl başlanan bu olay neçə minil da-

---

[601] *Çobanoğlu Təpəgöz* ilə yunan mifologiyasındakı nəhəng *təkgöz çoban Polifemin* uyğunluğu bir yana dursun, güya təkgözlü adamlar olan *arimaspe* boyunun adı skitcə *arima* «tək» və *spu* «göz» sözlərilə yaranmışdır (Herodot, IV. 27). Çox güman ki, bu informasiyanı Herodota verən saqa monqol boyadı olan *arimaspe* etnoniminin xalq yozumunu da «çəpgöz», «çəkikgöz» (monqoloid) anlamında *yarım* və *çəp* (sep) sözləri ilə izah etmişdir: yarım-sepu > arima-spu (Зəкиев, 1998, 180).

[602] Гејбуллаев, 1991, 294; Зəкиев, 1998, 165.

[603] Раевский, 1985, 214.

vam etsə də, Koroğlunun adını onlar özəlləşdirə bilməmişlər, yalnız tələffüz fərqi ilə ona *Heraklus* və *Herkules* demişlər. İlkin variantı saxlayan türkmən eposunda qəbirdə doğulduğu üçün *Gor-oğlu* adlanan xalqın bu sevimli qəhrəmanı körpə ikən hər gün basırıqdan çıxıb yaxındakı keçinin südünü içib həyatda qalır, azər Koroğlusu qoşabulaqdan su içib təpər alır, Herakl da körpə ikən tanrıca Heranın südünü içib ölümsüz olur. Etrusk güzgü rəsmlərində olduğu kimi, batı və doğu saqa boylarının da sənətində əks olunan bu süjetlərdə tanrıçadan dirilik suyu alıb içən ərən də çox güman ki, Koroğlu obrazıdır:

Ölümsüzlük suyu//südü içmiş Koroğlu//Herakl konkret bir zamana aid deyil, həmişə xalqın köməyinə gələ bilən bu mifik bahadır artıq m.ö. II minilin ilk yarısında Ön Asiyadakı prototürklər arasında dastanlaşdı. Koroğlu adının qədim anlamı ilə gerçəkləşən qəhrəmanlıq səfərləri yunan-latın mifologiyasında dəyişmədiyi kimi, adı da tərcümə olunmadan saxlanmışdır. Görünür, bu konservatizm bozqurd əfsanəsini və *Alpan, Turan, Tarxan* kimi mifik adlarla bərabər Herkle//Xerokle adını da oralara aparan etruskların xidmətidir. Etrusk yazılarında *klan* yazılıb, *oklan* oxunduğu kimi, bu adın *Herkle* yazılışındakı *kle* hissəsi də *okle* kimi oxuna bilir, hətta bir etrusk güzgüsündə Heraklın adı elə *Kurugile* kimi yazılmışdır:[604]


Herakl Heranın südünü içir


Tanrıca dəliqanlıya su verir
(Kuloba saqa kurqanı)


Tanrıca igidə su verir
(Pazırıq saqa kurqanı)

| | | | | |
|---|---|---|---|---|
| **kor -** | **oq -** | **lu** | | *azər* |
| **qör -** | **oq -** | **lı** | | *türkmən* |
| **kur -** | **og i** | **le** | | *etrusk* |
| **xer -** | **ok -** | **le** | | *etrusk* |
| **her -** | **ak -** | **le** | **(s)** | *yunan* |
| **her -** | **- k u** | **le** | **(s)** | *latın* |

Beləliklə, yunanlı informatora görə bu saqa soykökü rəvayətində yarıtanrı Herakl saqaların ulu babası Skitin atasıdır. Yunan mifində heraklitlərin soybabası Herakl baş tanrı Zevslə dünya gö-

[604] Koroğlu obrazı Anadolu və Azərbaycanda çox yayğın idi. Selevkilər çağında bu adı Maqnesiyada yerlilərə qatılan *katoiklərin* (katılıkların) elçisi Ἱεροκλῆ (Hierokle) də daşıyırdı (Бикерман, 1985, 96).

zəli Alkmenanın oğludur. «*Adım Rövşən, soyum Koroğlu*» deyən alpərən Azərbaycan folklorunda qeyd olunmuş «*Koroğlu **dədədir**, çıxma sözündən! Nəslimiz kəsilər torpaq üzündən*» deyimi Koroğlunun da əcdad kultu ilə bağlı olduğunu aydın göstərir.[605] Beləliklə, Herodotun qələmə aldığı Herakl variantı «Koroğlunun Dərbənd səfəri» ilə üst-üstə düşür.

Digər saqa soykökü variantında Herakl (Koroğlu) obrazını *Tarqitay* əvəz edir. Herodot saqaların özündən eşitdiyi bu rəvayəti yazarkən çalışır ki, yunan oxucusu üçün yeni olan bəzi obrazları yunan mifologiyasındakı personajlarla izah etsin. Ona görə də, Tarqitayın saqa dilində *Papay* və *Api* adlı ata-anası yunanca Zevs və Geya (*Torpaq*) adının semantik tutumuna uyğun verilir.[606] Təəssüf ki, Herodot saqa sözlərinin açarı olan bu prinsipi axıracan davam etdirmir. O, yazır ki, *Tarqitay* baş tanrı *Papay* (Zevs) ilə Yer tanrısı *Apinin* (Geyanın) oğludur və saqatların dediyinə görə, Tarqitayın dövründən Daranın yürüşünə qədər 1000 il keçmişdir, yəni saqa tarixi m.ö 1500-cü illərdən başlanır.

Bu rəvayətə görə, Tarqitayın üç oğlu olur: *Lipoksais, Arpoksais* və *Kolaksais.* Ölkənin ilk hökmdarı yenə kiçik qardaş Kolaksais olur, çünki göydən düşmüş balta, kasa və kotanla boyunduruq kimi qutsal altun nəsnələri yalnız o əldə edə bilir. Lipoksaisdən *avxat*, Arpoksaisdən *katiar, traspi,* Kolaksaisdən *paralat* adlı boylar törəyir. Bu saqa boylarının hamısı çarlığın adıyla *skolot* adlanır.[607] Belə ki, Kolaksais artıq çar olandan sonra *el* (dövlət) qurumuna uyğun saqa boylarının hamısı elliklə (birlikdə) skolot (*saqa elatı*) adını daşıyır. Bu baxımdan, elbəyə bağlı boyun, bəlkə də siyasi qurumun *paralat* (barelat) adlanması da diqqəti çəkir.

Herodotun verdiyi saqa adlarının etimologiyası haqqında ayrı-ayrı yazarların söylədiyi fikirlərdə maraqlı cəhətlər olmasına baxmayaraq, hələlik heç biri sistem təşkil edə bilən yozum ortaya qoya bilməmişdir.[608] Burada həmin çoxsaylı və çeşidli fikirləri sadalamaq imkan xaricində olduğundan, əfsanədəki adların yozumuna aid öz baxışımızı açıqlayaq və bu ehtimalın da hələlik son söz olmadığını vurğulayaq. Buradaca qeyd edək

---

[605] Вəлиjев, 1979, 4.

[606] Herodot, IV. 5; IV. 59.

[607] Eyni qaynaq, IV. 5-7.

[608] Saqat soykökü əfsanəsinin bu variantında adı keçən personajların etimologiyası və adların mənası ilə ilgilənən yazarların bəzisi onları iran (M. İ. Abayev və b.), bəzisi də türk (G. Kuun, M. A. Xabiçev, M. Z. Zəkiyev və b.) antroponimiyası ilə izah etmək istəmiş, lakin hər tədqiqatçı digərindən fərqlənən etimologiya təklif etmişdir.

ki, türk dialektlərində özünü göstərən *b//p, a//e//o, k//q//h* müvaziliyi və adlara qoşulan *-os//-is* kimi yunan dili şəkilçiləri, türk dilinin ç, c, ş, ə, ö, ü səslərini dəqiq işarə etməyən yunan hərfləri nəzərə alınmalıdır.

**Papay.** Bu adın tərcüməsinin Zevslə verilməsi onun mifoloji yozumunu dünyanın yuxarı qatı ilə bağlayır, *Papay* yuxarı qatı təmsil edir. *Baba* sözünün müxtəlif türk dillərində «ulu ata» anlamında mühafizə olunması, bu sözün «dağ» anlamı ilə urartu dilinə (*Babani*) keçməsi, azər boylarının onu dağ və həm də pir-ocaq adlarında işlətməsi aydın göstərir ki, qədim türk onomastikasında *Papay* adı ucalıq bildirən qutsal deyim olmuşdur. Belə ki, Herodot onu Olimp dağının baş tanrısı Zevslə müqayisə edərkən yanılmamışdır. Papay adını tədqiq edənlərin əksəri bu yozumu qəbul edir.

**Api.** Bunu *Boristhen* (Dnepr) çayının qızı olduğunu iddia edən saqat deyiminə inanmadığını yazan Herodot yunan mifologiyasında *Apinin* qarşılığı kimi Yer tanrıcası *Geyanı* verir. Hər iki halda *Api* dünyanın aşağı qatı (Yer-Su) ilə bağlıdır. Goroğlu da Yeraltı dünyada doğulur. Türk xalqlarında *Api* həm ata tərəfdən «nənə» anlamını (çuvaş dilində *abi*), həm də qutsal qadın obrazını (başqort folklorunda *Əbeyxan//Abi-xan ata*) bildirir. «Qutatğu bilig» abidəsində olan bu deyimdən göründüyü kimi, *Api* adı hələ XI əsrlərə qədər «Həvva» ana, ilk qadın anlamını yaşatmışdır:

**Apa** yazdı ersə **Bayat** qınadı (KB, 1991, 353).
«*Həvva* səhv etdi (azdı), *tanrı* (Bayat) onu qınadı».

**Tarqitay.** Saqa mifologiyasındakı bu adın etimologiyası ilə məşğul olan əksər tədqiqatçılar üçün o, əsl rebusa çevrilmişdir. İranşünaslar onu iran dilləri əsasında «uzun» və «güc» (*darğa tava)* sözlərindən yaranmış bir ad olduğunu güman edirlər (V. İ. Abayev və b.), lakin bu **Uzungüclü* (Darğatava) saqa mifoloji sistemində öz yerini tapa bilmədiyi kimi, irandilli onomastikada da görünmür. Bunun əksinə olaraq, türk onomastikasında *Tarqitay* adının tərkib hissələri ilə işlənən şəxs adlarının bir sistemi vardır. Belə ki, *tay* sözünün öndə və sonda işlənməsi başqort və başqa türk dillərində geniş yayılmışdır: Taybilge, Taybars, Urmantay, Turumtay, Oqtay, Sabutay. Qədim türk generalları: Altuntay sanun, Lisuntay sanun.

Tarqitayın adı Herodotdan minil sonra hunların arasında olmuş Feofilakt Simokattanın əsərində də *Tarqitay* şəklində görünür. Tarixçi bu Tarqitayın 584-də *avar boyunda adlı-sanlı* bəylərdən olduğunu yazır.[609]

[609] Симокатта, I. VI, 4-5; I. VIII, 7; VI. XI, 6.

Həmin Targitayın avar elçisi kimi 580-də Konstantinopola getməsi haqqında Suriya qaynaqlarındakı bəlgəni N. Piquliyevskaya da verir.[610] Bu bəlgələrdən xəbəri olan iranistlərin türkcə olan Targitay adını bilərəkdən sapdırmaları isə onların gerçək saqa-türk bağına quşqu yaratma istəyinin yüzlərlə örnəyindən biridir.

Digər *Tarqutay* adlı tarixi şəxsiyət Çingiz xanı yeniyetmə çağında əsir götürən qonşu tayfa başçılarından biridir.[611] Ümumiyətlə, Çingizxanın ətrafı bu tip adlarla doludur; qardaşı *Belqutay*, oğlu C*iğatay,* sərkərdəsi *Subutay* adını daşıyır. Bu sıraya bəlli *Tarbaqatay* dağlarını və Baykal yaxasındakı *Tirqituy* toponimini də əlavə etmək olar. Göründüyü kimi, sadalanan adların heç biri iranmənşəli deyil, «Avesta»da adı keçən *turanlı Dureketay* (Turuq-tay) adlı bahadır da türkdür.

Əvvəllər *Tarqitay* adını *Tenqritay//Taqritay* formasından metateza ilə ortaya çıxdığını söyləmiş və bunu Orxon abidəsindəki «Tenqri-tek tenqridə bolmuş türk…» ifadəsi, Xəzər xaqanının məktubunda xəzərlərin soykökünün «Bibliya» gələnəyi *Toqarmaya* bağlanması və hay mənbələrində bunun metateza ilə *Torqom* şəklində verilməsi faktları ilə müqayisə etmiş və *Tarqitay* adının «tanrıdək», «tanrıtayı» semantikası ilə vermişdik. İndi həmin yozumun mütləq həqiqət olduğunu israr etməsək də, hələlik mümkün şərhlərdən biri kimi ondan imtina da etmirik. Çünki *tenqri* ilə yanaşi *tar//tarı* (və mümkün olan **tarıq*) deyimi də qədimdir və **Tarıqtay* (Turuktay) praforması asanlıqla *Tarqıtay* şəklini alır.

Digər adların şərhinə keçməzdən öncə türk antroponimiyasında kiçiltmə və əzizləmə bildirən *-ca//-şa//-sa* şəkilçisinin geniş işləndiyini yada salaq. Azər dilində: *Qaraca, Balaca, Ağca, Ağası;* Başqort dilində: *Karaşa//Karasa, Aksa, Altınşa, Kumıkşa, Alşa* və sairə. «Dədə Qorqud» eposunda *Əkrək, Səkrək* adlı qardaşların və Rəşidəddinin qələmə aldığı «Oğuznamə»də türk hökmdarı Buğra xanın oğulları **İl-təkin, Qorı-təkin, Bek-təkin** adında olduğu kimi, türk folklorunda qardaşlara oxşar sonluqlu ad verilməsi yayılmış gələnəkdir və Tarqitayın oğlanlarına verilən adlardakı *-sa* şəkilçisi həmin tendensiyanı əks etdirir.

---

[610] Yazar bu bəlgəni belə verir: «В 580 г. от кагана в Константинополь прибыл посол **Таргитай** и получил условную сумму золото как обычную дань, выплачиваеьмую Византией аварам» (Пигулевская, 1941, 99).

[611] Bəzi qaynaqlarda *Tarqutay Kiriltux* adlı həmin şəxs Cingiz xanın mənsub olduğu tayciut uruğunun başçısı sayılır (Марков, 1976, 62); Saqatyada Bospor çarı Perisadın qızı *Tirqatao* (Τιργαταϖ), daha qədim mitan (müyten) qızı *Tirqutawiya* da türk adı daşıyır.

Dilçilik baxımından qardaşlara verilən adlarda təkrar olunan *-sa* şəkilçisi və böyük qardaşların adındakı *pok* hecası antroponimlər sistemində struktur element kimi ayrılır. Həmin şəkilçinin funksiyası aydındır, *pok* elementi isə yuxarıda dediyimiz sözlərin yunanca *bak* yazılışıdır, əl-İstəxri də bu titulun xəzərlərdə *bek//bak* formasında deyildiyini qeyd edir. Bu *bok* formasını Bizans qaynağında «iç bəyli» bulqar bəyinin ’Ιτζβοκλιας (İtçbekli) şəklində yazılmış adında da görmək olur.[612]

**Lipoksa.** Türk sözlərinin bəzi avropa dillərində fonetik dəyişikliyə uğraması normal haldır. Xüsusilə slav dilərində *al* elementi ilə başlanan alınma sözlərdə metateza qaçınmaz olur: *altun >latun, alaşa-at >loşad, alaçıq >laçuqa.* Belə yerdəyişmə fonetik hadisəsi *Aldəmir >Ladomir* kimi şəxs adlarında da baş verir, ona görə də, saqa boylarının təmasda olduqları məhz həmən regionda özünü göstərən belə dəyişmə-metateza olayının *Lipoksa* adından da yan ötmədiyini (*İlpoksa >Lipoksa*) görmək olur. Əgər normal dil qanununa söykənən bu yorum doğrudursa, onda Targitayın böyük oğlunun adında **İlpoksa* forması ortaya çıxır. Yuxarıda adların struktur tərkibi haqqında deyilənləri də göz önünə gətirsək, bu ad ***İl-beg-cə** praformasını alır.

Macar alimi Nemeth qədim bulqar runik yazıları içində *ilbek* sözünü oxumuşdur, hətta peçeneq və kuman boyları ilə sıx bağlantısı olan rusların adları içində də 1095-ci ilə aid sənəddə *Olbek Ratiboriç* adı keçir. Məncə, *İlbek* adının bugün də Azərbaycanda işlək olan *Elbəy, Elbek* adlarından fərqlənmədiyini, *Elxan, İlxan, Elçin* adları ilə oxşar quruluş tərkibə malik olduğunu izah etməyə ehtiyac yoxdur. Altayda *Elbeksay* toponimi vardır. Adın başında gələn *el ~ il* sözü digər qədim antroponimlərdə də vardır: İlçe, İlse, İlçeçur, İlsebay, İlseqol, İltaş, Eltəbər, Eltutmuş, Elalmış və bu son adlara yaxın qədim Azərbaycanda 4 minil əvvəl dövlət quran qut elbəyləri içində *Elulu//Elulumeş* adı. Guman edirik ki, bu adların başında xalq, dövlət və ölkə anlamlarını özündə cəmləşdirən *el* sözümüz durur.

**Arpoksa.** Bu adın da quruluş tərkibi yüxarıda deyilənlərə uyğun olaraq, *ar-pok-sa* hissələrinə ayrılır və adın şəkilçisiz praforması **Arbak* və ya **Arbok* şəklində bərpa olunur. M. Xorenatsi (V əsr) Çin tərəfdən gələn türk bəylərindən danışarkən yazır ki, «onların dilində hökmdar Arbok Çenbakur adlanır».[613] Həmin tarixçi əsərinin başqa bir fəslində isə ilk

[612] Porfirogent, 1989, 146-147.
[613] Хоренаци, 1858, 147.

ermәni hökmdarı haqqında deyir: «Arbok tәrәfindәn tәyin edilәn bizim ilk hökmdarımız Skayordi Paruyr idi».[614] Bu tarixi bәlgәlәri vermәkdә mәqsәdimiz yalnız hay tarixçisinin *Arbok* adı daşıyan türk böyüklәri barәdә dediklәri vә Arbokun hay-ermәnilәr üzәrinә tәyin etdiyi canişini özlәrinin ilk hökmdarı saymalarını etiraf etmәsi deyil, mәhz hәmin hökmdar vә ya canişinin *Skayordi Parur* adlanması faktıdır. Hay dilindә «oğlu» anlamlı *yordi* sözü burada hay dili qramatikasına uyğun *ska* şәklindә verilәn *saqa* etnoniminә qoşulmuşdur. Demәli, Arbokun haylar yaşayan bölgәyә tәyin etdiyi *Parur* adlı canişin dә (*saqa oğlu Parur*) bayaqdan söhbәt etdiyimiz *saqa* boyundandır. *Ərbәk-şad* adına çin qaynağında da rast gәlmәk olur, hәtta Ərbәkşad adını Mada elindә eşidәn yәhudi kahinlәr onu Tövratda tanrı elçisi İbrahimin madalı ulu babası kimi vermişlәr. Tarqitayın ortancıl oğlu Arbakın tarixi qaynaqlarda dönә-dönә xatırlanan *Arbak, Ərbәk* adlı adaşlarından vә onun yad dillәrdә yazılan *Arbok* variantından burada geniş danışmağa ehtiyac yoxdur, yalnız bunu xatırladaq ki, bu adların ilk hecası kişi, igid, әrәn anlamlı qәdim *ar~әr* sözüdür. Demәli, saqa әfsanәsindә *Arbak* adlı ikinci qardaşa «әrәn bәy» anlamı daşıyan ***Ər-beg-cә** adı verilmişdir.

**Kolaksa.** Saqa elatının ilk hökmdarı olan *Kolaksa* adında struktur elementlәr әvvәlki adlardan daha şәffaf olsa da, bu adın semantik tutumu haqqında dәqiq şәrh vermәk xeyli çәtindir. O biri qardaşlardan fәrqli olaraq, Kolaksanın hökmdar seçilmәsi olayı bu antroponimin daşıdığı mәna tutumuna әlavә çalarlar yüklәyir. Ona görә dә, bu adın struktur elementlәri ilә gerçәklәşәn bütöv sözün köklәndiyi semantikada adın yarandığı tarixi çağ, siyası qurum mәrhәlәsi vә mifoloji motiv kimi şәrtlәri ehtiva edәn etimoloji yozum düzgün nәticә çıxarmağa yardım edә bilәr. Bu baxımdan, adın ilk elementi *kol* sözünün bildirdiyi çeşidli mәnaları vә ona qoşulan *-ak//-aq* şәkilçisini çözmәk lazım gәlir. Qәdim dövrlәrdә *qoçaq* vә *qaçaq* sözlәrindә olduğu kimi, hәm isim-sifәt, hәm dә feil kökünә qoşulub ad düzәldәn bu şәkilçinin birinci funksiyası yalnız çuvaş dilindә inkişaf etmiş, azәr dilindә isә get-gedә zәiflәyib, yalnız *yol-yolaq, başaq, özәk, yanaq* tipli sözlәrdә qalmışdır, onun feildәn ad düzәldәn funksiyası isә güclәnmişdir: *qonaq, ağsaq, daraq, yaraq* vә sair.

Əgәr Kolaksa adının da *Sanaq, Badaq, Palak* kimi digәr saqat şәxs adlarına uyğun olaraq feildәn yarandığını guman edib, onun kökünü *gül-*(mәk), *köl-* «qoşmaq», *qıl-*(maq), *qol-* «istәmәk» vә sair bu tip feillәrdә

[614] Eyni qaynaq, 61.

axtarsaq, bu etimologiya özünü doğrultmayacaq, çünki formaca *kol* morfeminə yaxın olan feillərdən *-aq* şəkilçisi ilə düzələ bilən şəxs adlarının semantikası yuxarıda deyilən şərtlərə cavab vermir, həm də belə şəxsadları türk onomastikasında görünmür. Ona görə də, Kolaksa adının birinci modellə (isim//sifət + *-aq*) yarandığını söyləmək və buna uyğun onomastik vahidləri müqayisəyə cəlb etmək daha doğru olar.[615] «Selenqe daşı» yazısında Eletmiş Bilgə kağan adına yazılmış epitafiyada onun atası *Külbeg Bilgə kağan* adlanır. Külbeq, Kölbilgə, Kültegin adlarında kül//köl sözü «adlı-sanlı», «şanlı» anlamındadır.

Göründüyü kimi, verilən adların çoxunda şöhrətli, məşhur və şanlı anlamlı söz kökləri qədimdə işlənən *külüg-çavlı* (adlı-sanlı) deyimində olduğu kimi, *Külüg-Çor, Külüg-Tirig, Külük-Bilgə* kağan adlarında da var. Yeri gəlmişkən deyək ki, saqa çarı *Savlı* da bu anlamlı ad daşıyır. Həmin *külüg* sözünə qədim bir türk yazısında «adın eldə yayıldı, şöhrətli oldun» (*yazıldı adıŋ eldə boldun* ***külüg*** - DTS, 326) cümləsində rast gəlmək olur. Bu sözü bir türk böyüyü də başdaşına yazdırmışdır: *Tört oğlum bar üçün, bəngümin tikdi. Külüg Apa bən.* Rəşidəddin üç qardaş içindən hakimiyət başına keçənin adını *Qorı-təkin* şəklində verir. Çox güman ki, buradakı *qor* sözü yanlış yazılışla ortaya çıxmışdır və ya köl//kül sözünün sinonimi kimi işlənmişdir.[616] Deyilənlərə diqqət versək, *Kolaksa* adının «adlı-sanlı» (*kol* «şan», *kolak* «şanlı») anlamı daşıyan ***Köl-ək-cə** praforması alınır.

Beləliklə, demək olar ki, Herodot saqaların özündən eşitdiyi soykökü əfsanəsini toplayarkən saqalar ona Tarqitayın *İlbek, Arbak, Kolak* adlı oğlanlarını əzizləmə formasında söyləmiş, o da sadalanan bu mifik adları

---

[615] Buradaca qeyd edək ki, şumer dilində «dost» anlamında *Kuli-Enlil* (Enlilin dostu), *Kulianna* (Göyün-səmanın dostu) şəklində işlənən və rus dilində də *kolleqa, kulak* kimi sözlərdə özünü göstərən bizim qədim *qol* sözümüzlə yaranan adlar da *Kolaksa* adının şərhinə yardım etmir. Sadalanan adlarda *kol~ kul~köl~kül* allomorfları ilə işlənən *kol* sözü həm də hərbi titul kimi formalaşmışdır. G. Moravçik γυλαζ sözünün hunqar titulu kimi işləndiyini qeyd etmişdir (Moravcsik 1983, 345); Bunu V. Flakkın başbuğ (*duktor*) kimi verdiyi saqat başbuğu *Kolakse* (Kolaxes) adı təsdiq edir (Дюмезиль, 1990, 143);

Digər ad-sanlara baxaq: 1) V. Flakkın «Arqonavtika» əsərində saqa bəyi *Kolakse*; 2) VI əsrdə türk boyu *koliat* (χολιαται//χολιατϖν); 3) IX əsrdə peçeneq boyu *kulpey* (κουλπεη); 4) Əski türk şəxsadları və titullar: *Kul-Apa, Köl Bilgə xan, Kulbak, Külüg çor, Külük Bilgə kağan, Külbeg Bilgə kağan, Kül-tegin, Güc kül tutuq, Arslan Külüg Tirig, Tanrıkulu*; 5) Osmanlı çağı yörük boy-soy adları: *Kulatlı, Kulak-Rəcəboğulları.*

[616] *Kür* və *külüg* sözlərinin kökündə *kü-* sözünün durduğunu vurğulayan A. Donuk yazır: «*Kür* sözü eyni zamanda *l~r* ilişkisi göz önündə tutularaq, türk söz-terminləri arasında çox sıx keçən *kül* deyimi ilə bağlantılı sayılmaqdadır» (Donuk, 1988, 80).

*Λιποξαις* (İlbokşa-is), *'Αρποξαις* (Arbokşa-is), *Κολαξαις* (Kolakşa-is) şəklində qələmə almışdır. Bu rəvayətdəki soy-boy şəcərəsini yunanların söylədiyi variantla birlikdə belə göstərmək olar:




Saqat soykökü əfsanələrinin hər iki variantında saqat boyları tanrıdan doğulan kişinin üç oğlundan törəyən *skolot* (saqa-elatı) kimi verilir. Qədim türk inanışına görə, orta qatda yaranan dünya üzərindəki insanlar yuxarının simvolu olan Göylə aşağının simvolu olan Yerin əlaqəsindən yaranmışlar. Nəzərə almaq lazımdır ki, Herodot bu türk kosmoqonik dünyagörüşü 2500 il bundan əvvəl qələmə alıb, ondan min il sonra artıq bu mifoloji yaddaşda müəyyən kiçik fərqlərin yarandığını, Yer-Sub kultuna yeni çalarlar əlavə olunduğunu görmək olur. Göytürklərdə Baba-Api kultunun *Ecü-Apa* deyimilə əvəzləndiyini görmək olur:

> Üze kök tenri asra yağız yer kılıntukda ekin ara kişi oqlı kılınmış, kişi oğlınta üze ecüm-apam (KT, D1). «**Yuxarıda** (üstdə) Göy-tanrı, **aşağıda** yağız Yer yarandıqda ortada (ikisi arasında) insan oğlu yaranmış, insan oğlu üzərində (isə) **Ecüm-Apam**».

Herodotun qələmə aldığı mifik soykökünün saqa versiyasında Tarqitay oğullarının adlarına verdiyimiz etimoloji yozumu təsdiq edən əsas sübutlardan biri də oğuz boyları içində yaşayan və sonralar Rəşidəddinin «Oğuznamə» dastanında qələmə aldığı türk hökmdarı Buğraxan oğulları ilə bağlı bəlgədir. Hər iki qaynaqda verilən qardaşların daşıdığı adların semantikası eyni olduğu kimi, birinci qaynaqda qardaşlar arasından Kölək, ikinci qaynaqda da *Költegin (Qortekin) hökmdar seçilir.[617]

---

[617] Рәшидәддин, 2003, 73.

| Herodot tarixi | Rəşidəddin «Oğuznaməsi» |
|---|---|
| ***El-bəgcə** | = **El-tegin** |
| ***Ər-bəgcə** | = ***Ər-tegin** (Bəg tegin) |
| ***Köl-əkcə** | = ***Köl-tegin** |

Herodotun verdiyi mifik soykökündə adı çəkilən saqat boylarını da sonrakı mənbələrdə saqa və digər türk toplumu içində görürük. Ağacəri boyları barədə yuxarıda məlumat vermişdik, *gelon* boyuna peçeneqlərin içində *gila* (*Γυλα*) adı ilə rast gəlirik, hətta X əsrin ortalarında bu boyun *Korqut* (*Κουρκουται*) adlı başçısı olduğu və Alban dövləti dönəmində *gel* boyunun Azərbaycanda yaşaması da məlumdur. Bibliya *tiras* boyunu *qamərlə*, Xəzər xaqanı *xəzərlə* qohum sayır. Sonrakı mənbələrdə *avxat* (bəlkə *abxaz?*) görünməsə də, Osmanlı dönəmində yörük boyları içində *tıraş-çılı* (tras-pi?) və *katar-beg oğulları* (katiar) tayfalarını görmək olur, *paralat* boyunun bu sıradan kənarda qalması isə təbii haldır, çünki bu *par elat*, boy adı deyil, elatın yaranmasına işarədir. Beləliklə, Herodotun qələmə aldığı saqat əfsanəsinin hər iki variantı türk onomastik sistemi üçün doğmadır.

Saqat boylarından böyük bir toplumun Saqatyadan m.ö.VII əsrin əvvəlində Azərbaycana gəlməsi (qayıtması!), burada dövlət qurması və Ön Asiyada Friqiya, Asur, Urartu dövlətlərinin dağılmasında aktiv rol oynaması və bundan sonra yenidən Azaq və Qara dəniz yaxalarına qayıtması haqqında xeyli yazılar vardır. Bunu da qeyd edək ki, Asur imperiyasının süqutundan sonra, 612-də saqatların bir hissəsi geri qayıdıb, yenidən Saqatyada qüdrətli bir dövlət qurdu. Bir əsr sonra isə (512-də) saqatların şöhrətini dünya savaş tarixinə salan Herodotun geniş təsvir etdiyi pers-saqat müharibəsi baş verdi. Sakatyada yaşayan həmin *elbəyi saqaların* onomastikası haqqında yuxarıda dediklərimiz onların türk boylarından olduğunu aydın göstərir. Elbəyi saqatların mifologiyası və etnoqrafiyası haqqında olan bəlgələr və yazılı qaynaqlar da onların türk olması fikrinə şübhə yeri qoymur. Yuxarıda deyilənləri xronoloji ardıcıllıqla ümumiləşdirsək, saqat (saqa) boylarının mənşəyi məsələsi ilə yanaşı, m.ö.VII-VI əsrlərdə saqa-qamər boyları ilə əlaqədar Azərbaycanda yaşanan etnik və siyasi olayların məntiqi də aydınlaşar:

1. Saqa-qamər boyları m.ö. II minilin ortalarında Araz qırağında yaşayır. Lakin *Araz qırağı* ifadəsinin Doğu Anadoludan Xəzərə qədər hansı bölgəni bildirməsi aydın deyil, hər halda, bu ölkə Ön Asiyadadır. Çünki Herodot həm Qızıl-üzən çayını, həm də indiki Araz çayını *Araz* adlandı-

rır.[618] Həmin çağlarda Kiçik Asiyada *subar*, *kuman, qaşqay, urmu* boyları vardı, Toqarma mifi, Targitay soykökü əfsanəsi, Koroğlu//Herakl obrazı da burada yaranmışdı. Quzey İkiçayarası və Urmu hövzəsində də *subar, qut, turuk* və sair türk boyları vardı. Belə ki, o çağlarda türkdilli boyların qonşuluğunda və içində saqa-qamər boylarının Arazın yuxarı, orta və ya aşağı axarında yaşaması mümkün və doğal idi.

2. Arxeoloji bəlgələrə görə, saqa-qamər boyları m.ö. XI-VIII əsrlər arası (bəlkə daha öncə) Quzeyə və Doğuya köç edir və Urmuyaxası an üslubu sənətinin prototipini Azaq yaxalarına və Altaya daşıyır. Sibir-Altay bölgələrində *an üslubu* yeni çalarlar kəsb edir və artıq m.ö.VIII-VI əsr abidələrində yeniləşmiş formalarda üzə çıxır. Eyni durum Azaq yaxalarında özünü göstərir. Azaq yaxasına yeni saqa köçü (Herodotun qeyd etdiyi köç) m.ö.VIII əsrin ortalarına qədər baş verir. Bu dəfə köçün istiqaməti doğudan batıya, Xəzərin quzeyi ilə gerçəkləşir. Bura gələn yeni atlı köçərilər özlərindən bir-iki əsr əvvəl burada yurd salmış soydaşları qamər boyunu yerindən eləyir. Sonrakı yüzilliklərdə biri digərinin ardınca bu yolu keçən *hun, az, subar, avar, xəzər, peçeneq* və *kuman-qıpçaq* boyları da eyni olayları yaşamışlar.




3. Azaq yaxasından m.ö.VIII əsrin sonlarında Dərbənd və Dəryal keçidləri ilə Azərbaycana qayıdan saqa-qamər boylarının bir hissəsi Kiçik Asiyanın doğu bölgələrində qədim Qaşqay ölkəsində, bir hissəsi də Urmu yaxalarına qədər Azərbaycanın müxtəlif bölgələrində otururlar, m.ö.VII əsrin əvvəlində burada yerli soydaşları ilə birləşib, böyük hərbi qüvvəyə çevrilirlər.

4. Saqa-qamər boylarının bir qismi m. ö.VII əsrin sonunda yenidən Azaq bölgəsinə qayıdır. Onillərlə içində olduğu yeniləşmiş Ön Asiya kulturunu yenidən Quzeyə daşıyırlar və artıq Skitiya (Sakatya) adlanan bu ölkədə hunlar gələnə qədər saqalar üzdə olur.

Herodot və başqa antik dövr tarixçilərinin yazılarında bu olayların VIII əsrdən sonrakı xronologiyası mübahisə yeri qoymur. Lakin ondan əvvəlki xronologiya hələ də elmdə uzun müddət mübahisəli olaraq qala-

[618] Herodot, I. 201-202, 205, 209-211, 216; III. 36; IV. 11, 40.

caqdır, neçə ki, türklərin ilkin Atayurdunu yalnız Altayda axtaranlar həqiqəti görmək istəmir, dartışmalar davam edəcək. Mövzudan uzaqlaşmamaq üçün saqa boylarının m.ö.VIII əsrin sonlarında Azərbaycana gəlməsindən, daha doğrusu, qayıtmasından sonrakı olaylar haqqında söhbəti davam etdirək.

Herodot yazır ki, qamərləri (kimmer) Avropadan sıxışdırıb, Asiyaya qədər təqib edən skitlər Mada torpaqlarına girir, onun buradakı qüdrətini sarsıdır və burada 28 il çarlıq edəndən sonra skitlər geri qayıdırlar.[619] Yazarın qeydlərindən bəlli olur ki, qamərlər Doğu Anadoluya, skitlər isə Dərbənd üzərindən Azərbaycana daxil olur. Mada elbəyi Kiaksarın asurlar üzərinə yürüşə hazırlaşdığı bir vaxtda skitlərin böyük bir ordusu Prototiy oğlu Madinin başçılığı ilə Mada dövlətinin sınırına yaxınlaşır və burada baş verən mada-skit savaşında mada qoşunu yenilir. Skitlərin Asiyada hökmranlığı ətraf bölgələrə yayılır. Onları Fələstində qarşılayan Misir fironundan bac-xərac alıb Misir ölkəsinə girmirlər. Skitlər 28 illik hakimiyəti dövründə hər bir xalqdan vergi almaqla bərabər, vaxtaşırı ətraf bölgələrə yağma yürüşlərində də bulunurdular.[620]

Saqaların Azaq yaxasından m.ö. VII əsrin əvvəlində Azərbaycana gəlməsi və həmin əsrin sonunda onlardan bəzi tayfaların geri qayıtması tarixilə Herodotun Mada tarixindən skitlərə ayırdığı «28 illik hakimiyət» formulu özünü doğrultmur, çünki Mada eli yarananda artıq saqaların hegemonluğu öləziyirdi, bu səbəbdən bəzi saqa tayfaları geri döndü. Bu baxımdan, S. Qaşqayın qeyd etdiyi bir fikir diqqəti çəkir. O yazır: «Bizə məlum olan mixi yazılı mənbələrə görə, Skif hökmdarlığı təqribən 80 il mövcud olmuşdur».[621] Hər halda, Saqa çarlığının adı son dəfə Tövratda m.ö. 593 tarixi ilə bağlı Urartu və Mana çarlığı ilə birgə qeyd olunmuşdur.[622]

Saqa elinin harada yerləşməsi üzərində böyük mübahisələr yoxdur, sadəcə, Azərbaycanda quralan bu dövlətin hüdudları və saqa elbəylərinin oturduğu ordugahın harada olmasına dair fikir ayrılıqları vardır. Bu elin sınırlarını müəyyən etmək üçün onomastik materiala, arxeoloji bəlgələrin üzə çıxdığı yerlərə baxmaq və bunları yazılı qaynaqların verdiyi bilgilərlə müqayisə etmək lazım gəlir.

---

619 Herodot, I. 1.

620 Eyni qaynaq, I. 103-106.

621 Гашгај, 1993, 42.

622 İeremiya, bab. 51, 27.

Azərbaycanda saqa boylarının yerləşməsini tədqiq edən S. T. Yeremyan yazır ki, Dərbənddən keçib Kür-Araz ovalığını tutan saqa boyları oradan qamərləri sıxışdırıb çıxarmış, sonra Ararat (Ağrı) vadisinə gəlmişlər, lakin burada urartuların dirənişi onları Urmu gölü və Ordubad-Culfa tərəflərinə çəkilməyə məcbur etmişdir.[623] Ayrı-ayrı yazarlar saqa boylarının Mil-Muğan, Qazax-Gəncə, Msxet və Gümrü bölgələrində oturmasını qeyd edirlər.[624]




Saqa və qamər boylarının Azərbaycana qayıdışı tərkibində saqa//saqat və qamər etnonimləri olan xeyli toponimin yaranmasına səbəb olmuşdur. Qamər adı ilə bağlı yer-yurd adlarından yuxarıda Qamər bəyliyindən danışarkən bəhs etmişdik. Eyni durum saqaların oturduğu bölgələr üzrə də müşahidə olunur.

Doğrudur, Azərbaycanda belə adların bir hissəsi sonralar *sahatlı* (saqatlı) boyu kimi ayrı-ayrı bölgələrə yayılmışdır, lakin bu, saqaların kiçik yerdəyişmələrilə bağlı olub, məsələnin mahiyyətini dəyişmir. Saqa eli çağından 27 əsr keçməsinə baxmayaraq, onların buraxdığı yer-yurd adları hələ də qalır:

| | |
|---|---|
| Şaqat (*saqat*) | Sakasena (*saqa-şe-na*) |
| Şəki (*saqa*) | Balasakan (*bala-saqan*) |
| Zaqatala (*saqa-tala*) | Sahatlı//Saatlı (*saqat-lı*) |
| Sakantala (*saqan-tala*) | Pir-sahat (*pir-saqat*) |
| Sakandərə (*saqan-dərə*) | Pirşağa (*pir-saqa*) |

Onomastik bəlgələri təhlil edərkən nəzərə almaq lazımdır ki, bir-iki əsr sonra Saqa elinin yerində qurulan Alban (Aran) elində gördüyümüz bir neçə türk boyu da saqa və qamərlər ilə gələ bilərdi. Quzeydən Azərbaycana qayıdanlar təkcə saqa-qamər etnonimlərilə deyil, axına qoşulmuş digər boylar da öz adları ilə gəlirdi. Belə ki, saqa-qamər boyları ilə gəlməsi şübhə doğurmayan, öncə Saqatyada «skit» boyları kimi tanınan *ağacəri* (aqathirs), *gel* (gelon), *qaradonlu* (melanxlen), *savir-but* (savromat), *maskat//maskut* (massaget) və sair bu kimi boyların adı türk toplumu içində sonralar da davam etmişdir. İndi Kvemo-Kartli deyilən qədim Γωγαρηνή

---

[623] Еремян, 1968, 93-94.

[624] İ. M. Dyakonov VII əsrin ortasında mada-saqa savaşının Quzey Azərbaycanda baş verdiyini nəzərə alaraq, saqaların Urmu gölündən Gəncə bölgəsiniə qədər olan ərazilərdə məskunlaşdığını yazır (Дьяконов, 1956, 249, 251).

(Gögər) bölgəsi də saqa-qamər boylarının bir bölümü kimi gəlib burada yerləşən *gögər* (göy-ər) boylarının adından qalmadır. Görünür, *Alazan* (Qanıx) çayının adı da saqa-qamər boyları ilə bağlıdır. Belə ki, burada «böyük və ya yuxarı çay» anlamında Alüzən //Alaüzən çayadı açıq görünür. Dağıstanda da belə *Al-özən* və *Buqlen-özən* çayları vardır.[625]

Strabonun Sa*kasena*, hay qaynaqlarının *Şakaşen* kimi verdiyi bölgənin adı *Saqaçı* şəklində bərpa olunur. Belə ki, *kambica* və *sarıca* (sarıcalı) boyadlarında olduğu kimi, *saqaca* formasının olması təbiidir. E. Herzfeld *skuth* adını da *skuça* şəklində bərpa etməyi təklif etmişdir.[626]




Tarixi-coğrafiya bəlgələrinə görə, batıda qamər, quzeydə gögər və kambice, doğuda alban-aran, kaspi və maskut, güneydə isə Mana boylarından olan *sangi-but* (zəngi boyu), *puluadi* (polad) və sair boylarla əhatə olunmuş saqalar, yuxarıda verilmiş etnik-coğrafi xəritədə olduğu kimi, əsasən, batıda müasir Gümrü, doğuda Mingəçevir və Mil düzü, quzeydə Borçalı, güneydə isə İrəvan və Naxçıvanı da içinə alan Urmu gölünəcən olan ərazilərdə yerləşirdi. Bu durumda saqaların yerləşim mərkəzi Göycə ətrafı ilə tarixi *Saqaçe-na* (Sakasena) sayıla bilər, arxeoloji bəlgələr həmin mərkəzi göstərir. S. Yesayan və M. Poqrebovanın saqa arxeoloji bəlgələri üzrə apardığı tədqiqatın nəticəsi kimi ortaya çıxan bu xəritə saqaların yerləşdiyi bölgələri açıq göstərir:[627]




---

[625] OK, 193; Güman etmək olar ki, Dağıstanın Utamış adlı kənddən keçən *Qamri-özən* çayı da «qamər-çayı» etnohidronimi kimi qamər boylarından qalan nişanədir.

[626] Herzfeld, 1947, 713; Akad dilinin asur-babil dialektlərində s//ş//ts fərqləri yabançı sözlərdəki ç//ş səslərini dəqiq ifadə edə bilmir. E. Herzfeld aşquz//işquz deyimlərini ortaya çıxaran *skuδa formasının saqaların öz dilində *skuça* ola bilməsi fikrini söyləyir.

[627] Есаян-Погребова, 1985, 20.

Göründüyü kimi, Saqa elinin sınırlarından dışarıda qalan qonşuları quzeydə qafqazdilli xalqların siyasi durumu bəlli olmayan bölgələri, batıda Qamər bəyliyi, güney-batıda Urartu, güneydə Mana (sonralar Mada) dövlətləri idi. Asur dövləti ilə Saqa elinin sınırı yox idi. Beləliklə, Mana elinin quzey qonşuluğunda Güney Azərbaycanın quzey-batı bölgələrini və Quzey Azərbaycanı əhatə edən daha bir türk dövləti qurulmuşdu. Azərbaycan tarixçiləri Arazın sağ və sol yaxalarını içinə alan Saqa elinin əhəmiyyətini düzgün dəyərləndirmişlər: «İlk dəfə Azərbaycanın ərazisində hər iki tərəfi birləşdirən dövlət meydana gəlmişdi».[628]




Strabon saqa boylarının Azərbaycana gətirdiyi yer-yurd adlarından biri haqqında məlumat verir. O yazır: «Kimmer (qamər) və trerlər kimi sak (saqa) boyları da yaxın və uzaq məsafələrə axınlar edirdi. Belə ki, onlar Baktriyanı işğal etmişdi və Armeniyanın yaxşı torpaqlarına yiyələnib, oranı öz adları ilə *Sakasena* adlandırmışdı».[629] Təkcə bu fakt kifayətdir ki, Herodotun Azərbaycana «gətirdiyi» skitlərin özlərinə *saqa* deməsi aydın olsun. Yazar özü də qeyd edir ki, skitlər Asiyada sak (saqa) adlanır.

---

628 AT, 1994, 105.

629 Strabon, XI. VIII. 4; Yazar Orta Asiya skitlərindən danışarkən qeyd edir ki, Kaspi dənizindən başlayaraq, dailər (aparna, ksandiy, pissur), massaqet və sakalardan savayı, əksər boylar (asi, pasian, toxar, sakaravlı) öz adları ilə deyil, ümumi «skit» adı ilə tanınır (Strabon, XI. VIII. 2).

Saqa elinin sosial və siyasi qurumları, tarixi coğrafiyası Dədə Qorqud boylarının federativ siyasi qurumunu və coğrafiyasını əks etdirir. İç-Oğuz və Dış-Oğuz bölgüləri saqa-qamər boylarının bölgüsünü xatırladır. Saqa-qamər boylarının birlikdə «Qalın Oğuz eli» adlanması da mümkündür. Hər halda, İç-Oğuz ilə Dış-Oğuz boylarının Azərbaycandakı savaşı antik yazarların qeyd etdiyi saqalarla qamərlərin və ya saqalarla mana türklərinin savaşı idi. Dirsə xan da saqa-qamərlər kimi, «qımız sağdırır». Bu da maraqlıdır ki, bizə çatan «Dədə Qorqud» kitabı sonralar Axıska adlanan *Aq-Saqa* türklərinin dialektində qələmə alınmışdır.[630] Yuxarıdakı xəritə-sxemlərdə saqa boyunun batı sınırı Axıska yurdunda verilir, qədim türk dilində *ağ* sözü isə «batı» anlamını bildirir. Beləliklə, *Aqsaqa* «batıdakı saqa» deməkdir.

Yuxarıda Tarqitayoğulları, Herakl-Koroğlu paraleli, «elbəyi saqalar» və «Qamər bəyliyi» haqqında deyilənlər; onlara aid etnoqrafiya, mifologiya, dil və onomastika bu qımız içən saqa-qamər boylarının yaşadığı olayların oğuzlarla bağlı olduğunu aydın göstərir. «Oğuz zamanı» deyimində arxaik qat Oğuz xan çağından Targitay dönəminə (m.ö. XV əsr) aiddirsə, həmin deyimin sonrakı qatları məhz Alpər Tunqa, yəni saqa-qamər çağına qədər (m.ö.XIII-VI əsrlər) davam edən zamana köklənmişdir. Saqa-qamər basırıqlarında aşkar olunan uzunboylu insanlar xalq arasında «oğuz ölüsü» kimi dəyərləndirilirsə və Avropada məşhur skit kurqanı «Oğuz kurqanı» adlanırsa, bunları təsadüfi uyğunluq saymaq olmaz.

Hay tarixçisi Zaxari Kanakertsi «*Bayat* boyunun *eliqamarlu* (qamərli-eli) soyundan Apaq adlı bir kişi» deyimini işlətmişdir.[631] Buradakı *bayat* və *qamər* ilişkisi dolayısı ilə Dədə Qorqud boylarında əks olunmuşdur. Belə ki, Qorqudun özü qam ərlərin varlığı sərgilənən «tanrı» anlamlı *bayat* boyundandır və *qamər* etnonimində «şaman» anlamlı *qam* sözü *Kam-büre* bəyin adında zəif görünsə də, *Qam-qan* oğlu Bayındır xanın «ulu şaman» (qam-xan) soyundan olması həmin anlamı qabarıq verir.

Daha çox saqa və kuman boylarının etnoqrafik göstəricilərindən biri dünyasını dəyişən soylu bəylərin anıt daş heykəlləridir. Ukraynada bulunan anıt daş heykəldə olduğu kimi, onların harada tapılmasından asılı olmaya-

---

[630] Ak-Saka qalası (KDQ, I. 157); Bölgənin Ak-Sıka şəklində adı XIV əsrəcən qalmışdı. «Əmir Teymur Göycədən Alınca qalasına gələndən sonra, 1394-cü ilin avqustynda *Ak-sıka* bölgəsinə ordu göndərir» (Kırzıoğlu, 1992, 153).

[631] Канакерци, 1969, 154.

raq, əksərinin «sağ əlində qədəh, sol əlinin isə kəmərdə olması» pozası bir kanonik xarakterə malikdir. Öncə qeyd etmişdik ki, belə anıt daşların hələlik ən qədim nümunəsi Qobustanda 3 №-li kurqanda, sonrakı örnəklərisə qədim Kuman bəyliyinin quzeyində (Hakkari), Astara və Abşeronda tapılmışdır; anıt daşın prototipləri olan bu buluntulardan birincisi m.ö. III, digərləri də m.ö. II minilliyin ortalarına və son əsrlərinə aiddir. Ön Asiyadan doğu və quzey yönlərə aparılan bu daşbaba gələnəyi Azərbaycanda davam etsə də, nə yazıq ki, nadanlar bunların əksərini dağıtmışlar. Azərbaycan tarixçiləri isə bu heykəllərin məhvini ürəkağrısı ilə qeyd etməklə kifayətlənmişlər.[632]




Ön Asiyada yaranmış daşbaba gələnəyinin quzey və doğu ölkələrə qədim Azərbaycandan aparılması quşqusuzdur, çünki bu şəkildəki örnəklərin tarixi ardıcıllığı köçün yönünü aydın göstərir. Daşbabaların üzərində aparılan müqayisə də göstərir ki, qədim kuman və saqa boyları bu gələnəyi, özəlliklə, kanonik görüntü və duruşu minillər boyu yaşatmış, köçdükləri yerlərə aparmışlar. Daha sonra türklərin daşbaba gələnəyi Qıpçaq çölü boyunca yayılmışdır.

Saqa-qamər etnoqrafik bəlgələrindən biri də onların içində geyim və papaqlarına görə seçilən «qara-donlu» və «şiş-papaq» etnonimlərilə verilənlərdir. Azərbaycanda qaradonlu, qarapapaq boyları müxtəlif bölgələrdə göründüyü kimi, «şişpapaq» etnonimi ilə tanınanları da yunan yazıları *ordokorubant*, qədim pers yazıları *tigraxauda* şəklində saqa-qamər çağında onların yaşadığı bölgələr üzrə qeyd etmişdir. Müxtəlif bölgələr-

[632] AT, 1996, 173-174; Ҝөјүшов, 1986, 107.

də ortaya çıxan bu rəsm əsərlərindəki *şişpapaq* saqa (skit), qamər (kimer) döyüşçülərinin papağı sonralar hun, kuman boylarında göründüyü kimi, azər türkləri içində də geniş yayılıb, XX əsrəcən davam etmişdir. Polyak alimi Tadeuş Vasilevski yazır ki, bulqarların başında qoyun dərisindən hazırlanmış «şiş papaq» olurdu.[633]



İrəvan quberniyası bəyləri (1865)




Saqa eli çağında Azərbaycan iqtisadi durumuna görə inkişaf etmiş ölkələrdən sayılırdı. Belə ki, burada suvarma kanallarının olması, əkinçi boyların əldə etdiyi taxıl məhsulları, inkişaf etmiş üzümçülük, bağ-bostan haqqında yazılı qaynaqların verdiyi məlumatlar arxeoloji araşdırmalarla təsdiq olunur. Azərbaycanda heyvandarlığın inkişafı üçün münasib doğal şərait vardı. Qaynaqlar burada iribuynuzlu mal-qara ilə yanaşı, qoyunçuluğun geniş yayılması, özəlliklə böyük ilxılar və atçılıq haqqında xeyli bilgi verir. Dulusçuluq və dəmirçilik sənətinin inkişaf səviyəsini göstərən arxeoloji tapıntılar əksər bölgələri əhatə edir. Saqa eli çağına aid Güney Qafqaz arxeoloji materialları içində xeyli añ üslublu bəzək əşyaları vardır. Bunların sırasında, özəlliklə Mingəçevir və Ərzurum yaxınlığında Hasankale qazıntılarında ortaya çıxmış qolbağıları diqqəti çəkir: [634]



Saqa añ üslublu
bəzək nəsnələri
(Güney Qafqaz - Anadolu)

[633] «*czapki nosili wysokie*» (НВ, 1988, 37).

[634] Дьяконов, 1956, 254; Есаян-Погребова, 1985, 104, 127.

Saqalar tunc dövrünün dəmir dövrü ilə əvəzləndiyi çağlarda m.ö.VIII əsrdə siyasi meydana çıxmışdı. Tərkibində xeyli dəmirçi sənətkarlar olan saqaların silahları təkmilləşdirməsi üçün gözəl şərait yaranmışdı. Bu imkandan bacarıqla bəhrələnən saqa döyüşçüləri artıq ox ucluqlarını dəmirdən tökürdü. Dədə Qorqud oğuzları buna «dəmrən» deyirdi. Saqa oxçuları minil boyu ətraf ölkələrin döyüşçülərinə örnək olmuşdu. Onlar Azərbaycana gələndə mada gəncləri oxatma sənətinin sirlərini saqa oxçularından öyrənirdilər. Ksenofont pers şahı Kuruşla bir saqa süvarisi arasındakı olayı, onun oxatma məharətini, həm də açıqürəkli olmasını oxunaqlı sözlərlə təsvir etmişdir.[635]

Voronej yaxınlığındakı kurqandan tapılmış bu gümüş qab üzərində Herodotun Targitayla bağlı qələmə aldığı soykökü mifi əks olunmuşdur.[636] Ortada Targitay böyük oğlu Elbəg (El-tegin) ilə, aşağıdakı fraqmentdə Targitay ortancıl oğlu Ərbəg (Ər-tegin) ilə, yuxarıda qabın üzərindəki şəkildə isə Tarqitay hələ saqqalı olmayan kiçik oğlu Kölək (Köl-tegin) ilə təsvir olunmuşdur. Oğuz xan çağından ***yay*** hakimiyət simvolu olduğu kimi, Targitay da oğuz-türk dövlətçilik gələnəyinə uyğun olaraq, hökmdar seçilən kiçik oğluna *yay* verir:

Azərbaycanda yaranmış Saqa eli ərazisində Azaq yaxasından qayıdan saqalardan öncə yaşayan iç-oğuz boyları, buranın əvvəlki etnik durumu haqqında yazılı bəlgələr əsasən urartu dilindədir. Bu ərazilərin batı sınırları Urartu dövlətinin əsas bölgələri olduğundan, bəzi asur qaynaqlarında qeyd olunan yer-yurd adlarını da nəzərə almaq lazım gəlir. Urartular tərəfindən işğal olunanda Arazın sol yaxaları - İrəvan bölgəsi «Aza ölkəsi» adlanırdı.[637] Urartu çarı I Argiştinin (786-764) vaxtında *az* adlı boyların bu bölgəsini sonralar Strabon *Azar* (Azər) adı ilə verir.[638] Urartu yazılarında Arazdan yuxarıda *azər* (az), *ulduz* (ultuza) boylarının yaşadığı bu ərazilər «Kuarli ölkəsi» də adlanırdı.[639]



**Targitay 3 oğlu ilə (Gümüş qab)**

[635] Kiropediya, VIII. III. 26-33.

[636] Раевский, 1977, 15.

[637] Арутюнян, 1970, 156, 343.

[638] Strabon, XI. 14. 3.

[639] Меликишвили, 1954, 57, 65-66.

Göycə hövzəsinə bir neçə dəfə yürüş edən urartular burada *Uduri-Etiuni*, *Ku-Albani,* Kürün yuxarı axarında *Kuriani* bölgə adlarını qeyd etmişlər. Göycənin batısında verilən *luer* boyadı sonralar burada *Loru* (Pənbək) adında görünür. İqa(ni) bölgə başçısının Kapur(ini) adı daşıması da diqqəti çəkir.[640] Kapur//Qapur şəklində yazılan qədim adların türkcə olması isə quşqu doğurmur.[641]

Beləliklə, Saqa elinin yarandığı mərkəzi bölgələrin əvvəlki əhalisi içində az (azər), ulduz, alban, kuər adlı türk boylarının yaşadığı bəlli olur. Saqa eli batıda qamər, subar (sa-sper), güneydə isə matien, mana boyları ilə əhatə olunmuşdu. Saqa eli dağılandan sonra saqa boylarının çoxu Azərbaycanda qaldı. K.V.Trever doğru olaraq yazır ki, skitlərin (saqaların) sonrakı nəsilləri Alban ittifaqına daxil oldu.[642] Plini (VI. 13. 18-39) və Tasit (*Ann.* II. 68) albanların qonşuluğunda saqa boylarının yaşadığını qeyd etmişlər. Hay qaynaqları da Xəzər yaxasındakı Maskut (massaget) çarlığını Alban ilə qonşu verir.[643] Arrian yazır ki, İskəndərə qarşı vuruşan Daranın ordusunda Atropatın başçılıq etdiyi mada qoşununda sakesin, kadusi və alban əskərləri vardı.[644] Göründüyü kimi, Azərbaycanda qurulan Saqa elinin ərazilərində öncə türk boyları yaşadığı kimi, ondan sonra qurulan Alban elində də həmin boylara qoşulan saqa və saqalarla gəlib, burada məskunlaşan digər türk boyları vardı. Onlardan qalan türkcə sözlər, onomastika bunu deməyə haqq verir. Ona görə də, Strabonun Alban elində verdiyi 26 boydan çoxunun türklər olması şübhəsizdir. Çünki Saqa eli çağında bu elin əhatə etdiyi ərazilərdə yaşayan türk boylarının çoxu ümumi *saqa* adı altında görünmürdü, həm də bu elin quzey bölgələri haqqında yazılı qaynaqlar da bəlgə buraxmamışdır. Saqa eli dağılandan sonra isə buradakı türk boylarından bəziləri artıq öz adları ilə görünməyə başlayır.

Saqa elinin siyasi durumu qonşu dövlətlərlə əlaqədə aydın görünür. Saqa-qamər ilişkilərindən yuxarıda bəhs etmiş və bunların qohum boylar olduğunu söyləmişdik. Qamər başbuğu Tuğdameni *Saqa* və *Qutium çarı* ünvanı ilə verən asur yazısı da bunu təsdiq edir. Bisütun yazılarında da elam-pers variantlarında *saqa,* akad variantında isə *qamər* yazılmışdır.

---

[640] УКН, 155.

[641] Keçmiş saqa yurdunda Göycə gölü yaxasında tapılmış aramey əlifbsı ilə azər dilində olan yazılı daş m.ö. II əsrə aiddir («Yeni Azərbaycan» qəz. 26 yanvar, 2005).

[642] Тревер, 1959, 49.

[643] Еремян, 1966.

[644] Арриан, 1962, 110 (III. 8. 4).

Saqa-Urartu ilişkilərindən danışarkən, hər şeydən öncə, diqqətə almaq lazım gəlir ki, Saqa eli Urartunun zəbt etdiyi Urmu və Göycə gölləri arasındakı ərazidə qurulmuşdu. Hətta tarixi bəlgələr olmasa belə, məntiqə görə, saqalar dövlət qurmaq üçün urartuları bu torpaqlardan sıxışdırıb çıxarmalı idi və bu olaylarda «yerli xalqlar da saqalara kömək edirdi».[645]

Asur ordusunda 670-ci illərdə muzdlu qamər əskərləri görünür.[646] Bu siyasəti saqa bəylərilə də qohum olmaqla qurmaq istəyən asur çarları hər vasitəyə əl atırdılar. Qamər bəyləri kimi, saqa elbəylərinin də urartulara nisbətən, asurlarla münasibətində ziddiyət vardı. Bu boyların bəzi soyları öz bəylərilə Asura qarşı olan Mana və Mada qüvvələrinin yanında idi. Lakin Asur çarının qızı ilə evlənən nüfuzlu saqa bəyi *Partatu* və sonralar onun oğlu *Madi* asurlarla müttəfiq olub, dağılmaqda olan Asur dövlətinin ömrünü xeyli uzatdı. İ. M. Dyakonova görə, Kiçik Asiyanın batı bölgələrini tutan qamərləri də oradan bu Madi sıxışdırıb çıxarmışdı.[647] Görünür, sonralar asurlardan istədikləri vergini ala bilməyən saqalar Asur dövlətinə qarşı Babil-Mada ittifaqına qoşuldu.

Saqa-Mana əlaqələri dostluq və müttəfiqlik şəraitində davam edir. Asurlar 670-lərdə manalılara yardım edən saqa bəyi İşpakayı məğlub etdiklərini yazırlar.[648] Saqa bəylərilə Mada çarlarının münasibəti isə təzadlarla müşayiət olunur: əlaqələr gah dostluq-müttəfiqlik, gah da düşmənçilik ilə davam edir. Saqaların ilk gəlişində, Herodota görə, bunların arasında savaş baş vermiş və saqalar məğlub olmuşlar. Sonra saqalar Madadan bac alaraq, onları uzun müddət dəstəkləyir, VII əsrin 30-20-ci illəri arasında isə Kiaksar qonaqlığa dəvət etdiyi saqa bəylərini öldürür və bundan sonra bəzi saqa tayfaları Quzey Qafqaza qayıdır. Həmin qonaqlıqla başlanan içoğuz-dışoğuz savaşları «Dədə Qorqud» eposunda da verilmişdir.

Saqa-Mada əlaqələri minil sonrakı pers-suvar əlaqələrində olduğu kimi cərəyan edir. Mada imperiyasının qurulmasında saqa qüvvələrindən istifadə olunsa da, sonradan imperiyanın başına keçən perslər yalnız saqa qüvvəsindən istifadə etdikləri çağlarda onlara yaxşı münasibət göstərmişlər, əksər hallarda isə, özəlliklə, Tumruz xatun (Tomiris) Araz yaxasında II Kuruşun başını kəsdirib qanlı tuluğa salandan sonra saqalara qarşı ən

---

645 Арутюнян, 1970, 331.

646 АВИИУ, №66.

647 Дьяконов, 1956, 234.

648 АВИИУ, №63; №65.

qatı düşmən mövqeyində durmuşlar. Hətta perslər nə vaxt saqa döyüşçülərinə qələbə çalmışsa, hər il həmin qələbə gününü bayram edib şənlənmiş və bunu *sakeya* adlandırmışlar. Strabon hətta müxtəlif bölgədə belə *sakeya* olayını göstərir; Kappadokiyanın Zel şəhərində perslərin saqaları qırdığı gün, bir də Kuruşun hiylə ilə qurduğu tələyə düşərək, başı içkiyə qarışan saqaların qətl olunduğu gün.

Beləliklə, m.ö. II minildə Araz yaxasında yaşayan saqa boylarının m.ö.VIII əsrdə doğuda və Azaq yaxasında görünməsi, Dunay çayından Çin səddinəcən 7 min kilometrlik bir ərazidə iz qoyması onların köç yönünü göstərməklə bərabər, həm də saqaların tərkibində müxtəlif türk boylarının olduğunu sərgiləyir. Zaman-zaman bu boyların adı (hun, avar, subar və s.) ortaya çıxır. Altay-Sibir bölgələrindən Azaq yaxasına gələn saqalar burada soydaşları qamərləri yerindən çıxardır və onların ardınca m.ö.VII əsrin əvvəlində Azərbaycana gəlir (qayıdır). Azərbaycanda saqa boylarının qurduğu Saqa eli təxminən 80 il (m.ö. 670-590) davam edir.[649] Qüdrətli saqa elbəyləri Ön Asiya ölkələrindən vergi alır. Onların akınları Urartu-Asur kimi dövlətlərin də dağılmasına səbəb olur. Artıq bəzi saqa bəyləri üçün Azərbaycanda qalmaq öz əhəmiyyətini itirirdi, çünki burada Mada kimi nəhəng bir dövlət yaranmaqda idi. Ona görə də, onlardan bəziləri öz tayfaları ilə Azaq yaxasına qayıdıb, orada Saqatya (Skit) elini qururlar.




[649] Дьяконов, 1956, 272-273.

**Mada eli**

Mana elinin qürub çağında onun güney-doğu qonşuluğunda formalaşan mad boylarının siyasi birliyi m.ö.VII əsrin son rübündə artıq yeni qüvvə ilə ortaya çıxmışdı. Mada (Midiya) adı ilə tanınan bu yeni dövlətin qədim Ön Asiya tarixində önəmli rolu olmuşdur.[650] Belə ki, Asur dövlətinin çökməsilə Ön Asiyada qısa müddətdə böyük imperiyaya çevrilən Mada elinin sınırları çox geniş əraziləri əhatə edirdi. Təxminən 70 il davam edən Mada elinin sonu (m.ö. 550) haqqında xeyli bəlgə olsa da, onun ilk yaranma çağları o qədər də aydın deyil, çünki həmin dövrdən bəhs edən qaynaqlar aydın bilgi vermir və Herodotun saqa-mada savaşlarına aid ziddiyətli məlumatı da bu sahədə müəyyən dolaşıqlıq yaratmışdır. Ona görə də Mada tarixi bu regionda m.ö. VII əsr boyu davam edən geosiyasi durum, etnik demoqrafiya və Mada-Əhəməni qarşıdurması fonunda araşdırılmalıdır.

Mada boyları birliyinin yarandığı m.ö.VII əsrin əvvəlində regionun geosiyasi durumu belə idi: Araz çayından quzeydə saqa-qamər boyları at oynadırdı; Urartu dövləti Van gölünün yaxalarına sıxışdırılmışdı; Urmu gölü hövzəsində güclənən Mana eli vaxtilə Asur-Urartu çarlarının zəbt etdiyi torpaqlarını saqa-qamər boylarının yardımı ilə geri qaytarırdı; saqa bəyləri ilə dostluq əlaqəsi qura bilən qos-qoca Asur dövləti isə hələlik İkiçayarası əraziləri əlində saxlayırdı. Mana ilə Mada arasındakı böyük bir zolaqda yerləşən kiçik bəyliklər də Asur dövlətinin nüfuz dairəsində olub, hər il ona bac-xərac verirdi. Həmin əsrin ortalarına aid olaylar 668-də taxta çıxan Asur çarı Aşşurbanipalın yazılarında yer almışdır.

Manada 670-ci illərdən hakimiyyətdə olan Axseri Asur hücumlarının qarşısını ala bilmədiyi üçün manalılar onu 650-də devirmiş, oğlu Uallini elbəyi seçmişdilər. Manada yenidən asuryönümlü siyasət bərpa olunaraq Asur dövlətinin sonuna qədər davam etmişdir. Belə ki, 616-da Babil ilə müharibə edən asurların içində Mana qoşunları da vardı. Anadoluda öncə Friqiyanı və bir neçə kiçik bəylikləri dağıdan qamərlər Kiçik Asiyada

[650] Qərb yazarları *Mediya, Midiya* kimi verdiyi ölkəadı Tövratda *Maday*, qədim farsca *Mada*, elamca *Mata* şəklində yazılmışdır. Qədim formanı altay eposu «Maday Kara» saxladığı kimi, karaimlər indi də «midiyalı» anlamında *madaylı* ifadəsini işlədirlər. Orta əsr Avropa səyahları Şirvan və Muğanı da Midiya adlandırmış (Ambrozio Kontarini, Antoni Cenkinson), Şamaxını *Midiya* dövlətinin ən gözəl şəhəri hesab etmişlər (Artur Eduards və Larens Çepmen). Doğrudur, bu, tarixi anaxronizm olsa da, hər halda qədim Mada-Azərbaycan bağının sonrakı əks-sədasıdır.

hegemonluq edirdi. Lakin burada ortaya çıxan saqa-qamər qarşıdurması qamərlərin məğlubiyyətilə və hökmranlıq etdiyi bölgələrdə sıxışdırılması ilə nəticələndi.[651] 620-ci illərə qədər Ön Asiyanın əksər xalqlarından və dövlətlərindən vergi alan Saqa eli az sonra Mana və Urartu ilə birlikdə artıq güclənməkdə olan Mada elindən asılı vəziyyətə düşdü. Asurlar Elam üzərində qələbə çalsalar da, artıq Asur dövləti əvvəlki gücünü itirmişdi və bir-birinin ardınca ondan asılı olan Babil, Misir və daha bir neçə ölkə tabeliyindən çıxmışdı. Asur hegemoniyası əsrin sonuna yaxın Babil-Mada ittifaqı qarşısında tab gətirə bilməyib dağıldı. Beləliklə, VII əsr boyu davam edən olaylar fonunda öncə Mada bəyliyinin (650-620), daha sonra isə Mada elinin (620-550) yaranmasını izləmək mümkündür.

Yuxarıda Mana elindən danışarkən qeyd etdik ki, Mana ilə Mada arasında Asur dövlətinin zəbt edib özündən asılı əyalətlərə çevirdiyi uzun bir zolaq vardı və buradakı bölgə bəyləri zaman-zaman asurlarra qarşı üsyana qalxırdılar. Asurlar üçün körpü rolunu oynayan bu zolaqdan onlar çoxsaylı mad boylarının ərazilərinə hücumlar edir, Həmədan ətrafındakı bölgələrdən xeyli bac-xərac alırdılar. Artıq m.ö. VII əsrin ortalarına yaxın mad boybirlikləri də asur ordularına qarşı çıxan qüvvələrə qoşuldu və bu durum mad boylarının müstəqil siyasi qurum yaratmasına imkan açdı.

Mada tarixinin ilkin çağlarını Mana elinin gücləndiyi dönəmlə qarışıq salan Herodotun verdiyi məlumatda xronoloji ardıcıllıq pozulmuşdur. Əgər Herodotun Mada elinin qurucuları (Deyok, oğlu Fraort və onun oğlu Kiaksar) haqqında verdiyi məlumata inansaq, onda asur qaynaqlarının bu mad elbəylərindən başqa adlar altında bəhs etdiyini düşünmək olar. Belə ki, Asur-Babil yazılarına görə, Kaştaritinin başçılığı ilə Həmədan-Zəncan bölgələrində 673-də asurlara qarşı çıxan yerli boyların tərkibində mad bəyi Mamitiarşunun və sapardalı Dusaninin rəhbərlik etdiyi mad və sabar (subar) qüvvələri də vardı.

Kaştariti VII əsrin ortalarında asurlarla savaşda ölür.[652] Görünür, bu döyüşdə artıq asur-saqa ittifaqı mövcud idi, çünki Herodotun verdiyi məlumata görə, madalıların Asur üzərinə yürüşü başlananda saqalar Madaya girib bu yürüşə əngəl törətmişdi. Saqaların müdaxiləsi Mada bəyliyinin

---

[651] Görünür, Herodot bu qarşıdurmanı Azaq yaxasındakı qarşıdurma ilə dolaşıq salmışdır, çünki onun saqa-mada savaşı kimi verdiyi olaylar VII əsrin ortalarına aiddir.

[652] Adı *Kaştariti* və *Kaşatritu* şəklində yazılan bu şəxs Herodota görə 22 il hakimiyyətdə olmuş Phraorta uyğun gəlir. Maraqlıdır ki, 150 il sonra Əhəməni hakimiyyətinə qarşı bir mad bəyi də bu adla (*Phravartiş*) üsyana qalxır.

ayrıca dövlət kimi yaranma prosesini 20-30 il ləngidir. Bu çağlarda ətraf ölkə və bölgələr kimi mada bölgələri də saqalara vergi verirlər. Bu illərdə saqalar ilə madalılar arasında yaxın ilişkilər qurulur. Madalı gənclər saqa dilini, saqa hərb sənətini, özəlliklə saqalara məxsus məharətli oxatma üsullarını öyrənmək üçün Saqa elinə göndərilir. Beləliklə, 620-ci illərə qədər saqa bəylərinin himayəsi ilə qüclənən madalılar artıq müstəqil hərbi gücü olan elə çevrilir və bu güc öncə saqa bəylərinə qarşı yönəlir. Görünür, Mada-Saqa münasibətlərinin pozulmasına saqa-asur ilişkiləri də təsir etmişdir.

Madada olan saqa dəstələrini qovandan sonra Mada elbəyi Kiaksar asurlara qarşı Babil çarı Nabupalasar ilə ittifaqa girir. Mada-Babil qoşunları on il ərzində Asur torpaqlarına vaxtaşırı hücumlar edir və asurların paytaxt şəhəri Ninevi 612-də zəbt olunub dağıdılır. Nəhayət, 604-də Ön Asiyanın bu qocalmış qəddar imperiyası son dayaqlarını itirib tam dağılır, torpaqları isə Mada ilə Babil arasında bölüşdürülür.

Asur dövləti dağılandan sonra Madaya tabe olan ölkələrin sayı artır, Madanın əraziləri böyüyür. Anadoluda Mada ilə Lidiya arasında 590-da başlanan müharibə 585-də sülh müqaviləsi ilə başa çatır və indiki Qızılirmaq çayı bu dövlətlərin sınırı kimi qəbul edilir. 550-də Madaya qarşı çıxan perslər hakimiyəti ələ alır. Əhəməni sülaləsinə qarşı 522-də geniş xalq kütlələrinin iştirakı ilə bir neçə bölgədə üsyanlar başlayır. Qam Ata titulunu daşıyan bir madalı hakimiyəti geri qaytarsa da, yeddi aydan sonra onu suiqəsdlə öldürən perslər yenidən hakimiyəti ələ keçirir və başlanan yeni üsyanların qarşısı qəddarlıqla alınır. Beləliklə, VII əsrin ortalarına yaxın asur istilasına qarşı üsyana qoşulan mad boybirlikləri az sonra mərkəzi hakimiyəti olan dövlət qurumu ilə siyasi meydana çıxır, lakin VI əsrin ortasında Mada elinin siyasi hakimiyəti perslərin əlinə keçir, Mada elinin ərazilərinə Əhəməni sülaləsinin qurduğu yeni Pers dövləti yiyələnir. Bu qısa xülasədən göründüyü kimi, Mada elində hadisələrin ümumi axarı ətraf dövlətlərdə baş verən siyasi olaylarla sıx bağlı idi.

Herodot ilk Mada hökmdarı kimi verdiyi Deyokun madlar arasında bacarıqlı bir adam olduğunu və onu yarqıc (hakim) seçən yurddaşlarının problemlərini ədalətlə çözdüyünü yazır. Herodota görə, Deyokdan razı qalan xalq yığışıb onu hökmdar seçir, o da Mada dövlətini qurur, paytaxt kimi Həmədan (Akbatana) şəhərini salır. [653] Yazar Deyokun 53 il, Phraor-

[653] Herodot, I. 96-98.

tun (Fraortun) 22 il, Kiaksarın 40 il, Astiaqın isə 30 il hakimiyətdə olduğunu qeyd edir. Ktesi isə tamam fərqli tarixlər göstərir.[654] Bəzi yazarlar bu Deyoku asurların 715-də tutub sürgün etdiyi Dayauku ilə dolaşıq salırlar. Doğrudur, hər iki qaynaqdakı ad (Dayauku və Deyok) eyni sözdür, lakin bu adları daşıyanlar ayrı-ayrı çağlarda yaşamış adamlardır. Biri Maday bəyliyində Mana canişini (*şakin* $^{m\hat{a}t}$*Mannâi*) idi, o biri isə yarım əsr sonra ortaya çıxıb Mada bəyliyini quran idi. Uzmanlar *dayauku* sözünün ad deyil, «landqraf» titulu olduğunu güman edirlər.[655] Bu, həqiqətə yaxındır, lakin daha dəqiq olanı budur ki, Dayauku//Deyok seçki ilə ortaya çıxan *toyqulardır*, asur-yunan yazılarında bu titul ad kimi verilsə də, ilkin deyiminə yaxındır: *dayauku, deyok.*

Ümumiyyətlə, türk dövlətçilik terminologiyasında titul, san bildirən sözlərin (*dədə, ata, qağa, böyük, tarkan, toyqu* və s.) qədim qaynaqlarda yanlış olaraq şəxs adı kimi verilməsi geniş yayılmışdır. Məsələn, 714-də II Sarqon Mada ilə Mana arasında yerləşən Asura tabe əyalətlərə keçib bac-xərac toplayanda sınırdakı Mada yaşayış məskənlərindən ərməğan gətirən uruk və boy başçılarının adlarını siyahıya yazan asur mirzələri 26 başçının adını verir.[656] Bu adlardan bəzisi Mana çağından bəllidir, bəzi adlar Madaya yerləşən irandilli boylara aid ola bilər, bəziləri də kassi və sami adıdır. Lakin bu siyahıda eyni adların, daha doğrusu titul bildirən terminlərin müxtəlif fonetik tərkiblə verilməsi diqqəti çəkir: *Payukku* və *Paukku*, *Maşdayaukku* və iki *Maşdakku*. Belə ki, Kilambat və Bit-Kapsi başçılarının «böyük» titulu birində *payuk*, digərində *pauk* kimi verilmiş, Kinqarakın baş vəkili, yəni baştoyqusu *maşdayauku* (*baş toyoqu)*,* Andirpatian və Aratpat baştoyquları isə *maşdaku*, 713-də tutulan siyahıda isə *maşduku* şəklində verilmişdir.[657] Bu son siyahıda Amakki məskənindən

[654] Дьяконов, 1956, 26-27.

[655] Грантовский, 1970, 249-251.

[656] Talta, Uksatar, Satareşu, Satarpanu, Durusi, Anzi, Payukki, Uzi, Yakirtu, Makirtu, Kitakki, Maşdayaukku, Uzitar, Paukku, Xumbe, Uzimanda, Baqparna, Dari, Uşra, Şarruti, Maşdakku, Akkussu, Birtatu, Zardukku, Maşdakku, Karakku (Дьяконов, 1956, 214).

[657] Siyahıda Anzi sözünün (adının) *Ançı* «heyvandar» anlamı olduğu kimi, bəzi adların da türkcə yozumu mümkündür. Ümumiyyətlə, bu tip siyahılarda maraqlı ifadələr çoxdur. Belə ki, asurların mada boyları üzərinə m.ö.820-dəki yürüşündə tərtib olunmuş vergi, xərac siyahısında *kinuklu* Şuma, *taurlu* Barzuta, *kingiştilenzaxlı* Amamaş, *kipabarutakeli* Sanaş və sair bu kimi deyimlərdə *kınuq, taur* (tavar) kimi türk boyları aydın seçilir, *kipa-börü-take, kingiş-tilencək* kimi mürəkkəb sözlər də maraqlıdır, çünki birincidə qurd dərisindən geyimində istifadə edənlər, ikincisində isə el qurumundakı gənəşmə qurumu diqqəti çəkir (АВИИУ, №34).

bac-xərac gətirən başçı da *Maşdaku* adlanır.[658] Əlbəttə, bir-birinə yaxın bölgələrdə bu qədər başçının eyni vaxtda eyni şəxsadı daşıması mümkün deyil. Ona görə də bunlar şəxsadı yox, titul bildirən sözlərdir. Başçılardan bəzisi *toyqu* (*dayauku), bəziləri də *baş toyqu* (maşdauku //*başdoyku) titulu ilə asur yazılarında qeyd olunmuşdur.


Mada elbəyi

Asur qaynaqlarının verdiyi bu bilgi Herodotun Deyok (*Dēiokēs*) ilə bağlı yazdığı seçki olayının gerçəkliyini təsdiq edir. Strabon yazır ki, ən cəsur adamın hökmdar seçilməsi Mada gələnəyidir.[659]

Görünür, həmin Deyoku (toyqu) Phraort ilə eyniləşdirən uzmanlar haqlıdır. Belə ki, Saqa elindən asılı olan çağlarda Mada bəyliyinin mərkəzi hakimiyəti olan dövlət kimi formalaşma tarixi *toyqu Phraort* (Frarot) dönəminə uyğun gəlir. Belə ki, m.ö. VII əsrin ortalarında mad boylarının hərbi-siyasi qurumuna başçı seçilən toyqu Phraort Herodotun vaxtında yaddaşlarda ilk Mada elbəyi kimi qalmışdır. Sonrakı Mada elbəyi Kiaksar (625-585) isə hakimiyətdə olduğu 40 il ərzində Mada elini Ön Asiyanın ən qüdrətli imperiyasına çevirmişdir.[660]

Esxil haqlı olaraq, Kiaksarı Asiya üzərində hökmranlığın banisi sayır. Onun ilk dəfə orduda apardığı reforma da tarixçilərin diqqətindən yayınmamışdır. Belə ki, əvvəlki ordulardan fərqli olaraq, Kiaksar döyüş alaylarını xalqlara, tayfalara görə deyil, silah növlərinə görə sıralamış və nizami ordunun ilk örnəyini gerçəkləşdirmişdir. Görünür, hələ Phraortun vaxtında saqa (dışoğuz) dialektini və bozqır hərb sənətini öyrənmək üçün Saqa elinə göndərilən madalı gənclərin əldə etdiyi başarılar da mükəmməl Mada ordusunun formalaşmasında rol oynamışdır.

---

658 Дьяконов, 1956, 221; Bu siyahıda *İştesuk* və *İşteluk* adlı iki başçı qeyd olunmuşdur ki, bu adların fərqi qədim türk ş~l dialekt fərqini əks etdirir. Müqayisə et: *dəlik~deşik.*

659 Strabon, XI. 13. 11.

660 Kiaksarın (Κυαξάρης) adı bəzi qaynaqlarda *Umakiştar* şəklində keçir. Ktesi Kiaksarı *Arbak* adlandırır. Görünür, saqa mifologiyasında Targitayın ikinci oğlu *Arbak* kimi, bu da şəxsadı deyil, Kiaksarın tituludur. M. Xorenatsi də onu *Varbak* (Ərbəg) kimi verir.

Kiaksar öncə Pars bölgəsini tutur, 620-lərdə Mada torpaqlarında at oynadan saqaları qovur, Asura qarşı Babil çarı Nabupalasarla müttəfiq olur. Nabupalasarla müqavilə bağlayan Kiaksar qızını və ya nəvəsini (Astiaqın qızını) onun oğlu ilə evləndirir. Babildəki «Asma bağlar» bu qızın şərəfinə salınmışdır. Mada elinin sınırlarını Anadoluda Qızıl-irmağa qədər uzadan Kiaksar Lidiya dövləti ilə barış müqaviləsi bağlayır və oğlu Astiaq Lidiya çarı Aliattın qızı Arieni ilə evlənir. Beləliklə, Asur dövlətinin dağılmasında tarixi rolu olan Kiaksar 585-də ölənə qədər Pars, Part, Mana, Urartu, Saqa, Qamər kimi bir çox dövlətləri, bəylikləri Mada elindən asılı ölkə və bölgələrə çevirə bilmişdi.


Mada bəyləri

Göründüyü kimi, böyük dövlət adamı olan Kiaksardan oğlu Astiaqa Ön Asiyanın o çağlarda ən böyük imperiyası olan Mada eli miras qalmışdı. Lakin 25 ilə yaxın bu imperiyanın başında duran Astiaq layiqli bir varis hazırlamadı. Pars bölgəbəyinə verdiyi qızından doğulan nəvəsi Kuruş onu devirib hakimiyyəti ələ aldı və Mada elinin yerində perslərin Əhəməni (Haxamaniş) sülaləsinin yeni Pers dövləti yarandı.[661]

Xalq kütləsinin də qoşulduğu sonrakı üsyanlar göstərir ki, Astiaqın (584-550) vaxtında saray əyanları, bölgə bəyləri və feodallar harınlamış, kübar yaşama alışan Mada soyluları yerli gələnək və milli törələrdən vaz keçməyə başlamışdı. Sonralar hakimiyyəti pers sülaləsinin əlindən alıb Madaya qaytaran Qam Ata hakimiyyətdə olduğu qısa müddətdə yolunu azan belə əyanları cəzalandırdı. Asur qaynağının «umman-manda çarı İştumequ», M. Xorenatsinin isə *Ajdaxak* (əjdaha) adlandırdığı Astiaqın öz taleyi də mərkəzi hakimiyyəti etnik konqlomeratlı Mada imperiyasının taleyi kimi uğursuz sonluqla bitdi.

---

661 Ksenofont isə başqa bir versiya verir. Ona görə, Astiaq qızı Mandananı pers bölgəbəyi Kambisə vermiş, bu izdivacdan Kuruş doğulmuşdur. Astiaqın oğlu Kiaksar da qızını bacısı oğlu olan bu Kuruşa verib, belə deyir: «Cehiz kimi bütün Madanı sənə verirəm, çünki oğlum - varisim yoxdur» (Ксенофонт. *Киропедия*, VIII. V. 19); Asur qaynağı isə Kuruşu perslərin yerləşdiyi Ançanın çarı kimi verir (Дьяконов, 1956, 415).

Mada dövlətinin əsas özəyi indiki Həmədan ətrafındakı bölgələr idi. Herodota görə, Deyok siyasi meydana yalnız mad boylarının başçısı kimi çıxmışdı. Mərkəz kimi Həmədan şəhərinin seçilməsi də təsadüfi deyildi, görünür, burada *qamların* (maqların) toplandığı kult yeri varmış. Həmədan-Babil yolunda yerləşən Baqastanın (Bisutun) adında «tanrılar məskəni» anlamı da bu gümanı artırır.[662] Beləliklə, Deyokun (Phraortun) vaxtında formalaşan Mada bəyliyini Kiaksar böyük Mada imperiyasına çevrə bilmişdi.




Herodota görə, Mada elinin siyasi-inzibati quruluşu belə idi ki, bir xalq özünə yaxın başqa bir xalqın üzərində, madalılar isə onların hamısı üzərində, xüsusilə özünə yaxın ölkənin xalqı üzərində hökmranlıq edirdi.[663] Yazarın bu qeydi göstərir ki, mərkəzdən uzaqlaşdıqca Mada dövlətinin təsir dairəsi azalırdı. Madaya tabe olan dövlətlərin əksəriyətində ölkəni yerli sülalədən olan canişinlər idarə edirdi.[664] Sonrakı Əhəmənilərin vaxtında bu sistem saxlansa da, *satrapiya* adlanan canişinliklərin əksərinə perssoylu satraplar təyin olunurdu. Asılı ölkələrə yarı müstəqillik verən

---

[662] Asur və yunan qaynağında *Agamtanu, Aqamatanu* və *Akbatan* şəklində verilən Həmədan, (E)kbatan adının (**Kam-ata-an*) praformasını bərpa etmək olur. Əgər bu ehtimal doğru olsa, o halda Həmədan adının «qam atalar (məskəni)» anlamı ortaya çıxır ki, bunu da qamların (maqların) əsas tapınaq yeri, qamataların oturduğu yer kimi yozmaq olar.

[663] Herodot, I. 134.

[664] M. Xorenatsinin yazdığına görə, Ərmən ölkəsinə Arbakın (Kiaksarın) təyin etdiyi canişin yerli saqa boyundan olan *Paruyr* idi (Хоренаци, I. XXII).

Mada elbəylərindən fərqli olaraq, Pers şahlarının apardığı bu siyasət satrapiyaların mərkəzi hakimiyyətdən asılılığını xeyli artırdı.

Əvvəlki çağlarda qaynaqlar Urmu gölü ətrafındakı bölgələrdən Qəzvin-Həmədan xəttinə qədər olan əraziləri Qutium (*qutların ölkəsi*) adlandırırdı. Urmu gölündən güneyə Zaqros dağları boyunca qutların *lulu* adlanan hissələri yayılmışdı. Belə ki, akad-asur yazılarında sonrakı Mana eli ərazisində protoazər boylarının ümumi adı *qut* idi. İ. M. Dyakonova görə, qut etnonimi m.ö. II minil boyu real etnik termin kimi işlənirdi.[665]

İkiçayarasında yaşayan subar boyları da zaman-zaman həm quzeyə, həm də Mana-Mada ərazilərinə köçmüşdü və bu köçlərdə subarlarla yanaşı onların bir qolu olan *mitan* boyları da doğuya çəkilmişdi. Hətta bir müddət Urmu gölünün *Göygöl* adı qaynaqlarda mitanların adı ilə yad olunur. Mada ərazisində daha öncə mövcud olub Azərbaycandan Xorasana qədər yayılan qədim türk etnosunun avropoid-aralıqdənizi tipi Mada elinin ilk çağlarında da davam etmişdir.[666] Lakin aryan (ari) tayfalarının Xorasan üzərindən Madaya və güneydən Elam ərazilərinə sızması Madanın güney bölgələrində yeni antropoloji tipli etnosun yerləşməsi ilə nəticələndi.

Bu çağlarda Mada elinin quzey-batı bölgələrində matien boyları da görünməyə başlayır. Bəzi uzmanlar kimi, İ. M. Dyakonov da «ola bilsin ki, matienlər hurrilərdir» - deyir.[667] Lakin qaynaqlarda bunlar əgər eyni xalq sayılsaydı, hər iki ad yanaşı çəkilməzdi. Subar boylarından olan matienlər türk, hurrilər isə qafqazdilli xalqdır. Müxtəlif çağlarda Zaqros dağlarını aşıb doğu bölgələrdə partlara qarışan və sonralar türkmənlər içində görünən matien (*müyten*) boylarını hurri saymaq olmaz. Mana və Mada ölkələrində ortaya çıxan və sonralar bir hissəsi quzey-doğu regionlara köçmüş subar boylarının içində başqa etnonimlə tanınan türk boylarının olması etnotoponimlərdə aydın görünür. Məsələn, qədim qaynaqların İkiçayarasının quzey-batısında verdiyi *Aqusi* bölgəsinin adı bir neçə

---

665 Sonralar da II Sarqona aid bəzi yazılarda mad boylarının əraziləri *Maday*, buradan yuxarı ərazilərsə *Qutium* kimi qeyd olnur (Дьяконов, 1956, 212, 135); Hətta gələnəksəl olaraq, Mada Əhəməni şahı Kserksin Babil yazısında da *qut* ölkəsi adlanır.

666 Həmin antropoloji tip bugünəcən azər və türkmən xalqlarının timsalında yaşayır. Bu mövzuda geniş ədəbiyat siyahısı üçün bax: Ошанин-Зезенкова, 1953, 12-47; Дьяконов, 1956, 97.

667 Дьяконов, 1956, 139; Orta Asiyada *müyten* şəklində ortaya çıxan matien etnoniminin hələ neçə minil öncə Kərkükdə *maiten* forması da qeyd olunmuşdur (Грозный, 1938, 32).

əsr sonra Madada *Agazi* bölgəadı kimi asur qaynağında qeyd olunur.[668] Bu *Aqazi* bölgəsinin adında *ağası* sözü görünsə də, bu ada **oquz* (oğuz) etnonimi daha uyğun gəlir.

Mana eli çağında asur yazıları «*mada boylarının birliyi*» deyimini çox işlədir. Mada boybirliyi siyasi qüvvə kimi Həmədan bölgəsində ortaya çıxmışdı. Mada etnonimlərini və buradakı onomastik sözləri təhlil edən İ. M. Dyakonov haqlı olaraq yazır ki, gətirilən bütün bəlgələrə görə mada boybirliyi öncə qeyri-irandilli boylardan təşkil olunmuşdu, irandilli boylar isə bu birliyə sonradan ümumi «*ari boyları*» adı ilə qoşulmuşlar.[669]

Mada ölkəsindən quzeydə yerləşən və Mada elinə tabe olan ölkə və bölgələr haqqında yuxarıda Mana, Saqa elindən və Qamər bəyliyindən danışarkən məlumat vermişdik. Əhəmənilərin vaxtında isə Dəclənin yuxarı axarlarında əvvəllər Urartuya tabe olan qədim subarların *ermən* adlı boylarının məskunlaşdığı ərazidə perssoylu satrapların idarə etdiyi batı və doğu Ermən satrapiyaları yaranmışdı.[670] Daha öncə, Mada çağında isə buradakı türk boyları (subar, ermən, urume, qamər və b.) sadəcə Mada elinə vergi verib nisbətən müstəqil yaşayırdılar. Kiaksarın 585-də Lidiya çarı ilə bağladığı müqaviləyə görə, bu ərazilər də Mada elinin tərkibinə qatılmışdı.

Madaya tabe olan doğudakı bölgə və ölkələrdə irandilli boylara aid onomastik vahidlərin çoxalması göstərir ki, bura gələn aryaların dili yerli boyların dilini üstələməyə başlamış, yerli toponimlər kalka və tərcümə ilə irandilli görkəm almışdır. Xəzərdən güneydə adı qədim perscə «börülər ölkəsi» anlamında *Varkana*, Avestada *Vərkana,* sonralar Hirkan//Qurqan şəklində işlənən bölgədə *parikani* boyu məskunlaşmışdı. Ktesi bu bölgəni *Barkania* kimi qeyd etmişdir. «Qurd eli» anlamında olan bu toponim börü, börük türk etnonimi ilə səsləşir. Belə ki, *kızıl pörük* adlı qazax-qırğız boyu vardır.[671] Buradakı «börük» sözü həm anlamına, həm də formasına görə Barkan//Varkan//Börükan sırasına uyğun gəlir.

---

668 АВИИУ, №41, №43; ТУ, 57; Грантовский, 1970, 320.

669 Дьяконов 1956, 148 (və 4-cü qeyd).

670 Batı Ermən bölgəsində perssoylu satraplardan Tribaz, I Dara, Mitraust, Doğu Ermən bölgəsində I Oront, II Oront (m.ö. 316-da) və Oront nəslindən olan Tiqranın adı bəllidir.

671 Радлов, 1989, 111.

Madanın doğusunda azər türklərinin bir qolu olan Xorasan türkləri o çağlarda saqa, saqat adı ilə Aral gölünə qədər yayılmışdı. Onların içində *baş saqat* (massaget) adlanan boyların bir qismi sonralar Abşeron-Dəvəçi arasında görünür. *Maştağa* adı onlardan qalmadır. Xorasandakı saqaların Ərsaq adlanan sülaləsi sonralar güclənib burada Part elini qurmuşdu, hələlik isə bu bölgələr Madaya tabe idi.

Madanın batısında Elam, güney-batısında Pars ölkəsi idi. Görünür, *Xuzistan* adı o çağlarda Elamın dağlıq bölgələrinin *Uca* (Huca) adlanması ilə bağlıdır. Əvvəllər Elamın tərkibində olan Ançan (Anşan) və Pars (Persida) bölgələri Mada elinə tabe idi. İ. M. Dyakonov yazır ki, m.ö.VII əsrdən bu bölgələr irandilli Əhəməni soyu tərəfindən idarə olunurdu. Haxamaniş və oğlu Çişpiş (Teispa) bu soyun iki qolunu təşkil edirdi.[672] Pers dövlətini quran II Kuruş da ata tərəfdən bu soydan idi. Perslərin altı oturaq (əkinçi) və dörd köçəri (çoban) boyunu sadalayan Herodota görə, onların öndə gələnləri pasarqad və əhəmənilər idi.[673]

Elam m.ö.VII əsrin ikinci yarısında asurlar tərəfindən məğlubiyətə uğrayanda ondan asılı olan Pars bölgəsi azadlıq əldə etsə də, az sonra Madadan asılı vəziyətə düşdü.[674] Həmin dövrdə Mada elbəyi Kiaksar Qızılirmaq çayına qədər olan əraziləri imperiyanın hakimiyəti altına almışdı. Onun oğlu Astiaqın çarlığı dövründə perslər Kuruşun başçılığı ilə üsyan edir və üç il davam edən bu müharibədə Astiaq əsir düşür, dövlətin paytaxtı Həmədan tutulur.[675] Beləliklə, 550-ci ildə Mada elinin hakimiyəti Əhəməni sülaləsinin əlinə keçir.

Herodota görə İranın əhəməni soyundan olan ikinci şahı Kambiz 522-ci ilin mart ayında Misir yürüşündə olarkən belə bir xəbər alır ki, kiçik qardaşı Bardiyanın adıyla bir maq (Qam Ata) üsyana qalxıb saray

---

[672] Дьяконов, 1956, 349.

[673] Herodot, I. 125.

[674] Əvvəlki bölmələrdə qeyd etmişdik ki, m.ö.VIII-VII əsrlərə aid asur mənbələrində adı *Parsu* kimi tanınan indiki Fars vilayəti Elamdan asılı bölgə idi. Bura gəlib yerləşən aryan mənşəli tayfalar sonrakı çağlarda bu bölgənin adı ilə *pars* (pers) adlanmışdır. Bəzi yazarlar bu Parsu bölgəsini Urmu gölündən güneydə yerləşən *Parsu//Barşu* ilə dolaşıq salır. Hər iki bölgə qədim türklərin *bars* boyadı ilə adlansa da, I Bars bölgəsində yaşayan barsil (bars el) türklərindən fərqli olaraq, Elamdan asılı II Bars bölgəsinə gəlib bars (*pars*) adını burada mənimsəyən aryanlar irandilli idilər.

[675] Rusdilli mənbələrdə bu adın *Kir* şəklində verilməsi məna pozğunluğuna səbəb olur.

çevrilişi etmişdir.[676] Guya tələsik geri qayıdan Kambiz yolda müəmmalı şəkildə ölür. Hakimiyəti yenə Mada sülaləsinə və paytaxtı Həmədana qaytaran Qam Atanı yeddi aydan sonra pers əyanları suiqəsdlə öldürüb, I Daranı şah seçirlər. Əhəməni sülaləsinin başqa qoluna mənsub soydan olan Dara yenidən hakimiyəti perslərə qaytarır. Bütün bu hadisələri Dara üç dildə (qədim pers, elam və akad) Baqastan qayasına həkk etdirmişdir. Həmin hadisələri azacıq fərqlərlə Herodot və digər tarixçilər də qələmə almışlar və bütün bu olaylar İran-Turan qarşıdurmasının kəskin çağlarını əhatə edir. Sonralar Avestanın redaktə olunmuş mətni bu qarşıdurmaya dini don geyindirmişdir.

Bu dövrlərdəki hadisələri təhlil edən F.V. Köniq belə hesab edir ki, İrandakı çəkişmələrdə etnik əsas aparıcı olub, əsasən yerli bəylər və gəlmə pers feodalları arasında hakimiyət davası xarakteri daşıyırdı. Riçard Fray da türk və iran mifologiyasında İran-Turan çəkişmələrinin ilkin çağından xəbər verən əfsanəvi elbəy Əfrasiyabın (Alpər Tonqa) iranlıların qatı düşməni kimi təsvir olunduğunu qeyd edir.[677] Herodot bu etnik qarşıdurmanı Əhəməni sülaləsindən olan İran şahı *Kambizin* (Kuruşun oğlu) dilindən verir. Qam Ata üsyanını eşidən Kambiz ölümqabağı fars əyanlarını yanına çağırıb deyir:

> «Şahların öcünü sürdürən Tanrıların adını anaraq, sizlərə borcunuzun nə olduğunu söyləyirəm; bunu hamınıza, xüsusilə aranızda olan Əhəmənilərə deyirəm. Taxtın (madalılara) keçməsinə yol verməyin, əgər hiylə ilə ələ keçirsələr, siz də hiyləyə baş vurun, əgər zorla alsalar, siz də ordularınızla onların əlindən zorla alın. Əgər bu dediklərimə əməl etsəniz, mən də diləyərəm ki, torpağınız sizə bərəkət, arvadlarınız evlad, sürüləriniz sərvət

---

[676] Tarixi mənbələrə görə, Qam Ata guya Kuruşun oğlu Bardiyanın adı ilə üsyan qaldırmışdır. Qardaşı Kambiz tərəfindən öldürülən Bardiyanın adı qaynaqlarda *Bardiya*, *Mard*, *Merdis*, *Smerdis*, *Tanaoksar, Tanioksark* şəkilində verilir (Bisutun yazısı, Esxil, Herodot, Pompey Troq, Ksenofont). Qam Atanı *Sphendadates* (İsfəndiyar) adlandıran Ktesi isə onu Kuruşun Astiaqın qızı Amitisdən olan oğlu və mada, erməni və kadusilərin satrapı kimi verir (Дьяконов, 1956, 415-416). Bardiyanın Kambizlə «anabir, atabir» qardaş olduğunu deyən Herodotun qeydi (III, 30) Bisutun yazısında «hamata, hamapita» deyimi ilə təsdiq olunur. Hər iki halda Bardiya əhəməni şahzadəsidir və Qam Atanın əvvəlcə onun adı altında üsyana başlayıb, çevrilişdən sonra öz əsl adını, soyunu və pers hegemonluğuna qarşı mübarizə məqsədini gizlətməmsi mümkündür. Lakin daha inandırıcı variant budur ki, ilkin qaynaqlarda *qamata* sanı ilə tanınan bu madalının özəl adı verilmədiyindən Bardiya versiyası ortaya çıxmışdır.

[677] Təbəri isə Alpər Tonqanı m.ö. XII əsrdəki olaylarla bağlı verir.

versin. Hər zaman azad yaşayın. Amma hakimiyəti geri almasanız və ya almağa cəhd etməsəniz, Tanrıdan diləərəm başınız bəlalardan qurtarmasın və yenə diləərəm ki, bütün iranlıların sonu mənimki kimi olsun».[678]

Təxminən eyni ovqat əvvəllər perslərə qarşı olan mad boylarında da vardır. Belə ki, Herodot Astiaqın yuxusunu yozan maqların ona müraciətini belə verir:

«Ey hökmdar, bizim üçün ən yaxşısı budur ki, sənin gücün sarsılmasın, çünki başqa türlü olsa, hökmranlıq pers olan bu cocuq (Kuruş) vasitəsilə yabançılara keçəcək və biz madalılar perslərin nökəri olacağıq, onların yanında sözü keçməyən qullar olaraq qalacağıq. Halbuki, sənin kimi bir yurddaşımızın səltənətində bizim də iqtidara qatqımız var və səndən sayqı görürük».[679]

Bu çağlarda Madada türk dilini və türk kulturunu mühafizə edənlər saray əyanları deyil, *qara* camaat deyilən xalq kütlələri idi. Əhəməni çağında da madalı feodallar, soylu saray əyanları, varlı məmurlar pers hakimiyətinə canla-başla qulluq edir, mənsub olduğu xalqın mənafeyini, dil və mədəniyətini şəxsi marağına qurban verirdi, eynən bugünkü kimi.

Saray elitası karyera naminə əhəməni nəslindən olan qızlarla evlənməyi, saray çevrilişlərində bu sülalənin mənafeyini müdafiə etməyi üstün tuturdular. Pers hökmdarları da etnik dayaqlarını qüvvətləndirmək üçün yerli feodalların qızlarını alıb qohumluq əlaqələrini möhkəmlədirdilər. Bibliyada pers şahı Artakserkslə (*Axaşveroş*) bağlı qeyd olunur ki, sarayda ona ən yaxın pers və mada knyazları sırasında *Memuxan* adlı bir əyan da vardı (Bibliya. *Ester*, 1. 14). Təbii ki, sonralar *Mamikon* şəklində ərsaqlar içində də görünən Memuxan adını daşıyan pers yox, mada soylu idi.[680]

İrandakı sosial təbəqələşmə o dövrdən başlasa da, bugün də davam edir. Təbii ki, tarixboyu davam edən bu gələnək pers və türk dilinin funksiyalarına da sirayət etmiş, onların işlənmə dairəsini müəyyənləşdirmişdir. Əhəməni çağında rəsmi sənədlər əvvəllər elam, aramey, sonralarsa perscə yazılmış, pers dili mada elitasının danışıq dilinə çevrilmişdir. Öncə azər (*azərbi, azəri*), sonra isə türk (*türki*) dili adlanan danışıq və folklor dili isə sadə xalq arasında yaşamışdır. Bu gələnək sonralar Part elində və Sasanilərin hakimiyəti çağında da davam etmişdir.

---

678 Herodot, II. 65.

679 Herodot, I. 120.

680 II Sarqona aid yazıdakı madalı Amakan, Asrukan adlarında da «kan» sözü vardır.

Madada yayılan dini görüşlər haqqında V Bitikdə geniş bəhs olunsa da, burada *baqa* teonimi və *maqlar* haqqında bəzi detallar üzərində durmağa ehtiyac vardır. Belə ki, sonralar Orxon yazılarında «bağa tanrı» deyimilə görünən *baqa* sözü qədim Azərbaycanın mərkəzi bölgələrində teonim və iyəadı kimi işlənirdi.[681] Belə ki, urartular içində yayılan Arubani (*Arı Banu*) tanrıcanın başqa adı Urmu gölündən batıda olan Musasir bölgəsində m.ö.VIII əsrdə *Baqmaştu* (və ya *Baqbartu*) kimi qeyd olunmuşdur.[682] Görünür, həmin əsrdə asur yazısının Madada qeyd etdiyi *Bit-Baqaya* («Baqa yurdu») bölgəadı sonralar perscə «stan» sözü qoşulan *Baqastan* (Bisutun) adının perslərdən öncəki ilkin variantı imiş.[683]

Səmərqənddə *Baqacat* toponimi, *baqanalı, bağtiyar* (baxtiar) adlı qazax-qırğız boyları və *baqış* qaraqırğız boyu aydın göstərir ki, baq//baqa sözü türklərdə həm də etnonim kimi işlənmişdir.[684] Baqa-türkmən boyu olduğu kimi, azərlər içində də *baqa* boyu olmuşdur. Məncə, *maq* boyadı və «kahin» anlamlı *maq* sözü həmin *baq* (baqa) teoniminin fonetik variantıdır (*baq~maq*). Qədim türk dilində *mağ* sözünün «şöhrət» anlamı da vardır.[685] Türkmənlərdə şıx, övliya sayılan *maxtum* (maqtım) boyu da *maq* ilə eynidir.[686] Azərbaycandan doğuya miqrasiya edən türklər Madada işlənən eyni anlamlı *maq* və *qam* sözlərindən ikincisini aparmışlar.

Laertli Diogen maqların torpağa, oda və suya tanrı kimi tapındığını qeyd edir ki, bu da onların *qamçı* dünyagörüşünü, təbiətlə ilgili mifologiyasını aydın göstərir. Herodotun yazdığına görə, Mada şahı Astiaq yuxusunu saraydakı maqlara yozdururdu. Maqların başçısı *başqam, qamata* titulu daşıyırdı. Əsrlər keçəndən sonra meydana çıxan Məzdəyin də başqam titulu perscə *mobedan-mobed* adlanırdı. Sonralar atəşpərəstlik və zərdüştilik inanclarının yayılmasında əsas rolu maqlar oynamışlar.

Avestanın özündə Zərdüşt müasir Tehran yaxınlığındakı Raqa (Rey) ilə bağlanır.[687] Əgər Avestada Əhəməni sülaləsi və Pars bölgəsi bəlli deyilsə, Avesta bu adda bir ölkə tanımırsa, deməli, onun formalaşıb ərsəyə

---

[681] Azər xalqı, 2000, 241-243.

[682] Меликишвили, 1954, 161.

[683] Дьяконов, 1956, 212.

[684] Радлов, 1989, 110-113, 320, 558.

[685] ДТС, 335.

[686] ЭИАСА, 169.

[687] Bundaxişna isə Reyi üçsoylu (üç boylu) məkan kimi verir.

gəldiyi ölkə Madadan doğuda olmalıdır. Təbəri yazır ki, Fələstin qaynaqlarına görə, Azərbaycana gedən Zərdüşt orada məcusi dinini yaymağa başladı və sonra Bəlxə, pers şahının yanına gedib onu türk xaqanına qarşı müharibə aparmağa təhrik etdi.[688] Zərdüşt Herodotdan sonra ortaya çıxdığı üçün (m.ö. IV əsr) tarixçi onu tanımır və Zərdüştün adı I Daranın yazısında da çəkilmir. Avesta Zərdüştdən əvvəl yerli inanclarla bağlı yaransa da, artıq Əhəməni çağında irandilli boyların içində yenidən yoğrulub ərsəyə gəldiyindən irandilli miqrantların Madada məskunlaşma manifesti kimi təbliğ olunmuş, düşmənlər (devlər) yerli Mada boylarının Az, Polad, Budi, Parika və sair adları ilə verilmişdir.

Tarixi analogiyadan məlumdur ki, kahinlər dini mərasimlərin icrasını başqa əllərə keçməsinə qısqanır və öz peşə sirrini mənsub olduğu soy, klan arasında nəsildən nəsilə ötürərək zaman-zaman yaşadır. Bəzən dövlətdə dinlər dəyişəndə kahinlər bu dini görüşləri mənimsəmək üçün yeni cərəyana adaptasiya olunur. Ona görə də maqlar ilkəl *qam* (maq) inanışlarına təcavüz edən pers fatehlərinin hegemonluğuna qarşı üsyan etsələr də, sonrakı çağlarda hakim təbəqənin qəbul etdiyi və öncə mad-pers sintezi ilə yaransa da, sonralar pers süzgəcindən keçmiş rəsmi Zərdüşt dinini təbliğ edən kahinlərə çevrildilər. Orta əsr islam müəllifləri *maq* və *zərdüşti* kəlmələrini sinonim kimi işlətmişlər. Bu da maraqlıdır ki, qədim Alban xristian dini mərasimini, ayinini bildirən «muqin» sözünü udi dili indiyə kimi mühafizə etmişdir.

Tarixi bəlgələr Mada elinin təkcə dini gələnəklərini deyil, digər kultur sahələrin də əhatə edir. Belə ki, bir müddət Ön Asiyanın ən böyük imperiyalarından biri olmuş Madanın oturaq və yarımoturaq əhalisinin inkişaf etmiş kənd təsərrüfatı vardı. Burada ticarət, tikinti, sənətkarlıq, toxuculuq və başqa sahələrdə böyük irəliləyiş olmuşdur. İ. M. Dyakonova görə, hələlik Mada yazısı tapılmasa da, onun özünəməxsus yazı sisteminin olmasına şübhə yoxdur. Sadəcə, yerli yazılı bəlgələr Əhəmənilərin vaxtında məhv olunmuşdur.

Antik çag yazarları mad və pers boylarının yemək, geyim kulturunu müqayisə edərkən madların daha çox çeşidli xörəkləri olduğunu, zəngin paltar növü ilə perslərdən çox fərqləndiyini, sonralar bu kulturu pers və hayların mənimsədiyini qeyd etmişlər.[689] Madada *kurtaş* adlanan işçi və

---

688 Taberi, I. 780-781, 814.

689 Ксенофонт. *Киропедия*, I. III. 2; Herodot, I. 135; Strabon, XI. 13. 9.

sənətkarlara maaş *danaka* ilə verilirdi.[690] Bu isə sonralar rus dilinə də keçən türkcənin *təngə* (dengi) sözüdür. Mad dilindən qalan *baq* teonimi, *balta* (παλτόν), *köpək* (*səbək) kimi sözlər və Mada onomastikasında türk adlarının önəmli çəkisi aydın göstərir ki, mad boyları protoazər dialektlərinin birində danışmışlar.

Strabon perslərin yaşayış məskənlərindən çoxunun Qırmızı dəniz (Fars körfəzi) yaxalarında olduğunu, Mada dövlətinin süqutundan sonra isə onun bəzi sınır bölgələrini də özlərinə birləşdirdiyini yazır.[691] Ksenofont perslərin sayını 120 min verir.[692] Görünür, saqa türklərindən ayrılmış *part* türkmən boyunun bir qismi Xorasanın güney-doğusundu bu çağlarda asur qaynaqlarının *aribi*, sonralar Herodotun *arizantu* adı ilə qeyd etdiyi bəzi irandilli boylarla qarışmışdı. Özəlliklə, Sakastan (Sistan) bölgəsində saqaların sonra irandilli boylara qarışıb dilini itirməsi olayı diqqəti çəkir. Belə ki, sonrakı pers folkloru və mifologiyasında görünən kəyanilər (kavi) sülaləsi, Səyavuş, Rüstəm Zal və sair qəhrəmanlar bu bölgədə ortaya çıxanlardır. M. Xorenatsi də Rüstəmi *saqa* soylu verir.

Beləliklə, Mada elinin etnik demoqrafiyasını göz önünə gətirmək üçün Həmədan bölgəsindən ətrafa baxsaq, quzeydə azər-saqa, kadusi, doğuda part, güney-doğuda irandilli aribi, güney və güney-batıda elam, pers, batıda kassi və aramey boyları görünəcəkdir. Mana elindən fərqli olaraq, Madanın etnik durumu çox qarışıq idi. Mada eli çağında irandilli miqrantların mərkəzi bölgələrə sızması burada sinkretik kulturun formalaşmasına rəvac verdi.

Herodot mad boybirliyinə daxil olan altı boyun adını çəkir: *bousai, paretakenoi, strukhates, arizantoi, boudoi, maqoi*.[693] Bu sıraya *mad* boyunun özü də əlavə olunmalıdır. Uzmanlar «madalı» (midiyalı) anlamında müxtəlif dilli qaynaqlarda *madai, amadai, matai, maday, made, medoi* formalarında işlənən *mad* etnoniminin mənşəyini tapmaqda çətinlik çəkirlər.[694] Mada bölgəsində yerləşən madlar, çox güman ki, m.ö. II minilin ortalarında İkiçayarasından Orta Asiyaya köçən subar boylarından imiş.

---

[690] Дьяконов, 1956, 324.

[691] Strabon, XI. 13. 9.

[692] Ксенофонт. *Киропедия*, I. III.15.

[693] Herodot, I. 101.

[694] İ. M. Dyakonov müxtəlifdilli qaynaqlardan bu formaları örnək verir: asur yazılarında - *madâi, âmadâi, matâi*; qədim perscə - *mâda*; yeni elamca - *matape;* yunanca - *mēdoi*; hayca - *mark* (Дьяконов, 1956, 149).

Orta Asiyada *matay, gəncə-matay, maday* etnonimləri, *Matay* toponimi, Yenisey yaxalarında oturan türklər içində *madi* boyu qeyd olunmuşdur. V. V. Radlov *mat, matı* adlı tuva uruqlarından bəhs etmişdir.[695]

Asur qaynağı madalılardan doğuda *aribi* (ari-bi) boylarının yerləşdiyini vurğulayır. Əlbəttə, bu *aribi* etnonimi irandilli boyları bildirsə də, irandilli deyim olmayıb, buradakı «bi» sonluğuna görə madalıların deyimi idi. Həmin adı irandilli tayfalar Herodotun verdiyi *arizantu* formasında işlətmişlər. Beləliklə, Madaya yerləşən irandilli boylar özlərinə «aryan boyu» anlamında *arizantu*, madlar isə *aribi* deyirdi. Bəzi uzmanlar *paretaken, struxat* etnonimlərini də müəyyən gümanlarla irandilli saymağa çalışmışlar.[696]

Etimoloji açımı çətin olan *budi, bus, maq* boyadlarından danışan İ. M. Dyakonov budiləri batıda, busları Həmədən bölgəsində, maqları isə Tehran civarında yerləşdirir.[697] Asur-Urartu qaynaqları Bustu//Buştu bölgəsini Mananın güneyində qeyd edir. Başqa bir Bustis bölgəsi isə Aribi tərəfdə verilir. Əgər bu toponimlərin kökündə *bus* boyadı durursa, onda busların Madanın həm batı, həm də doğu sınırlarında yaşadığını güman etmək olar. Etnonimin leksik anlamı isə dış oğuzların *boz oq* boylarına uyğun gəlir. Budi etnonimi quzey saqalarda *budin* şəklində görünür və hər iki etnonim qədim türkcə «boy», «xalq» anlamındakı *bod, budun* sözlərilə yozula bilir.

Azərbaycanın bəzi tayfaları keçmişdə *baq, bağa, mağ, muğ,* fonetik variantları ilə bəlli olan *maq* etnonimilə adlanmışdır. Təkcə Güney Qafqazda azərlər yaşayan onlarla *Muğan, Muğanlı* kəndadı vardır. Qədim hay qaynaqları burada «bağaların yeri» anlamında Baqavan, Baqayarinc, Bagink, Baxaberd, «bağa çayı» anlamında isə Baxan-rot və Roti-baxa toponimlərini verir.[698] Sara xanım Aşurbəyli *Bakı* adını doğru olaraq *baq*

---

695 Радлов, 1989, 98; Bəzi tədqiqatçılar hay qaynaqlarında işlənən *mar* etnonimini hay dilində *mad* sözünün fonetik dəyişməsi sayır. Lakin m.ö. V əsrdə yunan yazarına bəlli olan *mar* (μαρες) boyadı «ilan» (ilanlı boyu) anlamında pers sözü olub, madların bir qisminə aid ola bilərdi.

696 Lakin bu adların inandırıcı etimologiyası yoxdur. Hətta bunlardan birinin *börü təkin* (paretaken), digərinin isə *truk-at* (struxat) tərkibləri ilə yarana bilməsini güman etmək olar, çünki Herodot Bardiya//Mardiya adının əvvəlinə «s» hərfi (Smerdis) əlavə etdiyi kimi, *turukat* adını da *struxat* şəklində yaza bilərdi.

697 Дьяконов, 1956, 148, 152.

698 Хоренаци, 1858, 335-339; Məncə, *Qarabağ* adı da «Yer iyəsi» anlamını bildirir.

boyu ilə bağlamışdır.[699] Qüzey qonşularımız rutul, saxur, avar və sair qafqaz xalqları son vaxtlaracan bizi «azər türkü» anlamına sinonim olan *mağal, mağalı, muğal* adı ilə adlandırırdılar. Herodot da *maqları* Madanın 6 qəbiləsindən biri kimi verir. Asur qaynağı isə hələ m.ö.VIII əsrdə Urmu gölü ilə Van gölü arasında *Mukania* bölgəsinin adını çəkir.[700]

Maq sözünün ikinci anlamı «şaman» mənasında olub, qədim *Baq* teonimi ilə bağlıdır. Adətən azərlər içində kahin, övliya *maq* boyundan çıxdığı kimi, türkmənlər içində də bu gələnək *maxtum* (maqtım) boyu ilə bağlı idi.[701] Sonrakı terminologiya ilə desək, Madada kahinlər, qazılar, din xadimləri, münəccimlər, baxıcılar o dövrdə *maq* tayfaları içindən yetişirdi. Ona görə də maqları mad xalqının dini düşüncə və fikrinin daşıyıcıları kimi qeyd edən akad. V.V. Struve haqlıdır. Görünür, saqa-qamər boyları içində də həmin funksiyanı *qamər* soyundan olan *qamlar* yerinə yetirmişlər.




Deməli, Mada əhalisi içində *maq* adlı kahin tirəsi maq boylarının içindən çıxmışdır. Yəni kahinlər *maq* adlansa da, maqların hamısı kahin olmamışdır. Bu durumu indiki *seyid* sözü ilə müqayisə etmək olar, necə ki, bütün seyidlərin din xadimi olması məcburi deyildir.

Pers epik əsərlərində İran-Turan qarşıdurmasının qaynağında pers və mad boylarının savaşları, bu boylara aid əyanların hakimiyət uğrunda mübarizəsi durur. Avestada *aryan* və *tur* qarşıdurması kimi verilən belə olaylardan sonrakı çağlarda İran-Turan deyimi ilə bəhs olunur və *Turan* adı İranın quzey-doğu sınırlarındakı türkləri bildirir. Əhəməni çağında ortaya çıxan mad-pers savaşlarından biri də mad böyüklərindən olan *Qam Ata* ilə bağlıdır. İran-Turan savaşının öndəri olan bu tarixi şəxsiyətin davasını «üsyan» və ya «saray çevrilişi» kimi verən, bu olayda onun rolunu geniş tədqiq və təsvir edən onlarla iranşünasın heç biri onun əsl soyunu, etnik mənsubiyətini ortaya çıxara bilən adının leksik anlamını aça bilmə-

[699] Ашурбейли ,1983, 27-28.

[700] АВИИУ, №41.

[701] ЭИАСА, 169; Bugün geniş yayılan *magiya* deyimi də *maq* sözü ilə bağlıdır.

mişdir. Belə ki, «qəbul olunmuş konsepsiya» imkan vermir ki, onun türk soyundan olub, Qam Ata adı (sanı) daşıdığını görə bilsinlər. Bəlkə də, bu tədqiqatçılar qədim türk dili və mifologiyasına bələd olsaydılar, belə «yanlışlıq» yapmazdılar.[702]

Mada və İranda m.ö. VII-VI əsrlərdən ortaya çıxan qoşadilli türk-pers mühiti sonrakı tarixboyu davam etsə də, bizə gəlib çatan bəzi yazılı abidələr qədim və orta fars dilindədir. Həmin abidələrdə türkizmlər də mövcuddur ki, bu da təbii haldır. Lakin iranşünaslar, xüsusilə mətnşünaslar bu təbii gerçəkliyə etinasız yanaşmışlar. Bu sözlərdən VII Bitikdə bəhs etsək də, burada onlardan biri üzərində dayanmağa ehtiyac vardır. Qam Ata ilə bağlı Bisutun abidəsindəki bircə cümlənin filoloji təhlilini və buradakı *maq* (maquş) və *Qam Ata* (qaumata) sözlərinin semantikasını gözdən keçirək:

> I martiya maquş aha qaumata nama hauv udapatata haça paişiyahuvadaya arakadriş nama kaufa haça avadaşa viyaxanahiya mah.
>
> «*Bir adam maq, Qaumata adında Payşiyauvada Arakadriş adlı dağda Viyaxna ayında (üsyana) qalxdı*».

Tarixi qaynaqlar Qam Atanı nə üçün *maq* adlandırır və ümumiyətlə bu sözün altında hansı anlamlar durur? Yuxarıda qeyd etdik ki, maq sözü həm etnonim, həm də kahin anlamında işlənirdi. Maqları turan boylarından sayan tədqiqatçıların fikri özünü doğruldur. Ona görə də Daranın Bisutun yazısında verdiyi *maquş* (maq) sözü məhz maq boyndan olan kahin anlamlı *maq* (qam) sözü olub Herodotun məlumatı ilə uyğun gəlir.

Türk xalqlarında *Ata* sözü böyük, başçı, dədə və müqəddəs anlamlarında, həm də titul kimi şəxs adlarında ayrılıqda və ya tərtibi adın tərkibində işlənir. Kökü qədim çağlara gedib çıxan bu gələnəyin arealı da türklərin yayıldığı areal qədər genişdir. Yuxarıda Mana, Saqa ellərindən danışarkən bir neçə bölgə və ölkə bəylərinin Ata, Dədə adı (sanı) ilə ve-

---

702 Mütəxəsislər Bisutun yazısında Qam Atanın adını qədim perscə *Qaumata* şəklində oxuyurlar. Lakin yuxarıdakı şəkilaltı yazıda olduğu kimi, həmin Bisutun yazısının elamca *Kamata* (Kamada) və akadca *Qumati* variantlarında, həmçinin Yustinin əski latınca verdiyi *Kometes* formasında ilk saitin diftonq olmadığı görünür. Vaxtilə König də bunu *Qomata* şəklində vermişdir (Дьяконов, 1956, 429).

İlk dəfə linqvistik təhlillə bu adın «şaman ata» anlamında qədim türkcə *qam* və *ata* sözlərindən yaranmış *qamata* titulu olduğunu ortaya çxarmışdım, artıq bəzi yazarlarımız bu adı *Qaumata* yox, *Qamata* şəklində yazırlar.

rildiyini qeyd etmişdik.[703] Şəxs adlarında (Ataxan, Atakişi) ata sözü daha çox birinci tərəfdə, tanrı, iyə, soybabası, övliya və müqəddəs şəxslərin adında isə əsasən ikinci tərəfdə işlənir. Buna örnək karaim mifologiyasında *Karğal Ata* teonimini, qazax-qırğız boylarında *Kambar Ata, Zəngi Ata* iyəadlarını göstərmək olar.[704]

Türk (Tork) adından danışarkən *başkam* sanını şəxsadı sayıb, onu *Paskam* şəklində verən hay tarixçisi M. Xorenatsi qeyd edir ki, Ərqam da Astiaqın (Ajdaxaq) nəslindəndir. Tarixçinin fikrincə, həmin Ərqam əski bir əfsanədə *Ərqavan* adlanırmış. Bu son adın tərkibində də *qaman* deyimi görünür.[705]

Qam sözü «şaman», «kahin» anlamında türk dillərində kiçik fonetik fərqlərlə şəxs, tayfa və yer adlarında geniş işlənir.[706] Bu sözə bir neçə tarixi şəxsin adında rast gəlmək olur: Noqay xanı (XVII əsr) və Kabarda knyazı da *Kam Bulat* adını daşımışlar. Atillanın qurduğu hun dövlətində *Ata Kam* sayılan bəylərdəndir, güman ki, onun da adı Qam Ata adı kimi titul bildirir. Dədə Qorqud qəhrəmanlarından biri *Kam-büre* (müqəddəs qurd) adlanır, hadisələrdə birbaşa iştirak etməsə də, boylarda adı böyük hörmətlə tutulan Bayındır xan ulu qam (şaman) soyundandır: *Qam-qan* (Qam xan) oğludur. Oğuz başçıları Bayındır xanın məsləhətlərilə oturub

---

[703] Bu söz türk şəxs adlarında ayrılıqda işlənə bildiyi kimi, tərtibi adların birinci tərəfi kimi də geniş yayılmışdır: Atabəy, Atacan, Atakişi, Atakan, Atalıq, Ataman və s.

[704] Qırğızlarda xüsusi isimlərlə işlənən *ata* sözü hifz edən, patron, qoruyucu anlamını bildirir: *Kırğız Ata* (bütöv qırğız xalqını hifz edən ruh), *Çolpon Ata* (qoyunları qoruyan ruh), *Kambar Ata* (ilxıları qoruyan ruh). Ata sözü yer adlarında işlənəndə isə müqəddəs ocaq, pir anlamını daşıyır: *Issık Ata, Koçqor Ata, Çolpon Ata.* VI əsrdə yaşadığı təxmin edilən Uluxan Ata Bitikçi və «Türkmənlərin şəcərəsi» əsərində dövlət bilgəsi olan *Korkud Ata* adında da *ata* sözü ikinci tərəfdə işlənmişdir. Ola bilər ki, Madada yaranan «Avesta» *Yaz-Ata* deyimini «tapınaq atası» anlamında mühafizə etmişdir.

[705] Qam sözünü *gəb, kəm* fonetik variantı ilə bizə çatdıran pers dili zərdüşt dini ilə bağlı *gəbr* (zərdüşti), *gəbri* (maqların, zərdüştilərin dini), *ləhceyi-qəbri* və *kəmra* (zərdüşti kəməri) sözlərini mühafizə etmişdir.

[706] *Qaman, Qambay, Kambar, Kamər, Qamərli, Kəmərli* və sair. Bu onomastik sözlərin hamısı türk dilləri modelindədir, çünki «qam» hissəsindən sonrakı morfemlər türkcə aydın və anlaqlıdır. Qam sözünün isə türk dillərində «şaman» anlamında olub, «kahin», məfhumu bildirdiyini hələ vaxtilə M. Kaşqari də göstərmişdir. «Kodeks Kumanikus» abidəsində qadın şamanı bildirmək üçün *kam katun* ifadəsi işlənmişdir. Karaim türkləri bugün də şamana *kamçı* deyirlər. Ümumiyyətlə, qam//kam sözü və qamçı//kamçı inancı qədim türk törəsinin mühüm özəlliyi idi. Bunlardan türk etnosunun atributlarından biri kimi V Bitikdə geniş bəhs olunur.

durur, mühüm el gənəşmələrində onun tövsiyələrinə uyğun hərəkət edirlər. Bu baxımdan, Qam Ata da mad bəyləri içində sözü keçən *qamxan* (qamata) sayıla bilər.

Beləliklə, «şaman ata» anlamında *qamata* sanı Bisutun yazısında madalı Qam Ata adı ilə ortaya çıxır. Bu baxımdan, yuxarıda Bisutun yazısından hərfi tərcüməsini verdiyimiz cümlənin azərcə filoloji tərcüməsi belə başlanmalıdır:

*Qam Ata adlı bir maq....*

522-ci il martın 11-də açıq mübarizə ilə hakimiyəti ələ alıb yenidən paytaxtı Madaya (Həmədana) köçürən Qam Ata taxta çıxdığı gündən imperiyada əmin-amanlıq yaranmışdı, amansız müharibə və çəkişmələrdən əziyət çəkən əhali yeni elbəyin fərmanı ilə üç il vergilərdən və hərbi çağrışdan azad edilmişdi. Herodot yazır ki, Qam Atanı (Smerdisi) xalq çox sevirdi, cünki xalq üçün çox iş görmüşdü, «*o öləndə* ***perslərdən başqa*** *bütöv Asiya ağlayırdı*».[707]

Hərçənd ki, Dara qara camaatın Qam Atadan qorxduğunu Büsutun qayasında yazmışdır, ancaq üsyanlara aid məlumat, bütöv mətnin məntiqi bunun əksini göstərir. Qam Ata yoxsul təbəqənin himayədarı idi və bütün varlıların deyil, yalnız harınlamış saray əyanlarının imtiyazını azaltmışdı. Ona görə də geniş xalq kütləsi, qara camaat onu müdafiə edirdi. Qeyd edək ki, Bisutun yazısındakı «xalq, kütlə» anlamını verən və *kara* şəklində yazılan söz də qədim pers dilindəki türkizmlərdəndir.

Aydındır ki, *maq* kahinlərinin dini əqidəsinə diferensial baxış olmalıdır, dini görüşlərin dinamikası tarixi şəraitə uyğun nəzərə alınmalıdır. Əks təqdirdə, maqların hansı «məzhəbə» qulluq etməsi fikri üzərində iranşünasların indiyə kimi baş sındırması yenə nəticə verməyəcək, Qam Atanın hansı məbədləri dağıtması üzərindəki mübahisələr hələ davam edəcəkdir.

Qam Ata olayını geniş təhlil edən İ. Əliyev doğru olaraq, yazır ki, açıq mübarizəyə cəsarəti çatmayan Dara gecə qatili kimi hərəkət etdi.[708] Bu, geniş xalq kütləsi tərəfindən müdafiə edilən Qam Atanın azmanlığını və gücünü bir daha göstərir. Bu olaylardan bəhs edən İ. M. Dyakonova görə «Qaumatanı ideallaşdırmaq olmaz», bu yöndə daha irəli gedən M. A.

---

[707] Herodot, III. 80.

[708] Алиев, 1960, 289.

Dandamayev isə ümumiyyətlə tarixdə Qaumata üsyanı olmadığını yazır. Tutaq ki, Herodot mada-pers olaylarını özündən uydurub, bəs pers şahı Dara nə üçün Qam Ata adını üç dildə daşa həkk etdirib? Halbuki, dörd müxtəlif qaynaqda Qam Ata ilə bağlı olaydan bəhs olunur.[709]

Bu da təsadüfi deyildi ki, Qam-Atadan sonra hakimiyyətə keçən Daraya qarşı əyalətlərdə üsyanlar başlandı və tarixdə misli görünməyən belə geniş xalq üsyanı bütöv Pers imperiyasını bürüdü. Lakin Turan faktorunun pers əyanlarında yaratdığı narahatlıq iranşünas alimlərə də sirayət etdiyindən Qam Atanı aşağılamaqla Mada tarixində onun rolunu kiçiltməyə çalışmışlar. Perslərin qondardığı rəvayətə görə, Qam Ata guya Kuruşun oğlu Bardiya adı ilə üsyan etmişdi. Qədim dünya tarixində Spartak hərəkatından daha önəmli olan Qam Ata olayı neçə ki, türkoloq təhlilindən keçməyib, obyektiv qiymət ala bilməyəcək.

Qam Atanın Əhəməni sülaləsindən alıb madlara qaytardığı hakimiyyət Herodota görə cəmi yeddi ay çəkdi.[710] İmperiyanın idarə olunmasından əli çıxan pers zadəganları növbəti saray çevrilişi üçün fürsət axtarırdılar. Belə məqamı saraya yaxın olan 7 pers əyanı sentyabrın sonunda əldə etdi. Onlar Qam Atanı öldürmək üçün plan cızdılar və suiqəsddən sonra dövlət quruluşunda hansı sistemi saxlamaq barədə məsləhətləşdilər. Herodot həmin söhbəti belə verir ki, Otanes monarxiyanın əleyhinə çıxıb, xalq yönətimi (hərbi demokratiya) üsulunu müdafiə edir, Meqabizis hakimiyyətin qara camaatın ixtiyarına verilməsinə qəti etiraz edir və özləri daxil olmaqla, kollegial idarəçiliyi, oliqarxiya üsulunu təklif edir. Dara isə monarxiya tərəfdarı olduğunu söyləyir, fikrini əsaslandırmaq üçün pers hegemonluğunun monarxiya ilə əldə olunduğunu xatırladır. Əlbəttə, bu söhbət yunan tarixçisinin fantaziyasıdır, lakin hər halda o çağın dövlətçilik görüşləri baxımından maraqlıdır. Qam Atanı öldürən 7 persin sırasında Herodotun aydın cizgilərlə xarakterini verdiyi Dara daha məkrli idi. Belə ki, Dara suiqəsdi təxirə salmamaq üçün həmkarlarını da şantaja çəkir, onlara - *əgər başladığımız işi bu gün bitirməsək, özüm gedib maqa xəbər verəcəyəm* - deyir.[711] Dara yalançı olduğunu gizlətmir, saraya maneəsiz girmək üçün belə plan cızır:

---

[709] Дьяконов, 1956, 415-416, 429.

[710] Bəzi qaynaqlar Qam Ata hakimiyyətinin 19 ay davam etdiyini göstərir.

[711] Herodot, III. 71; Daranın yalanlardan biri də budur ki, Kuruşun əldə etdiyi pers hakimiyyətinin Qam Ataya qədər cəmi 28 il davam etməsinə baxmayaraq, o deyir ki, Kambizin əlindən Qaumatın aldığı hakimiyyət «qədimdən» (?) bizim soya məxsus idi.

«İrandan yeni gəldiyimi və şaha atamdan xəbər gətirdiyimi söyləyəcəyəm. Zira yalanın gərəkli olduğu yerdə yalan söyləməkdən çəkinməməliyik; istər yalançı olaq, istərsə doğrudan heç ayrılmamış olaq, eyni amacı güdmürükmü?» (Herodot, III. 72).

Suiqəsdçilər əvvəlcə şərt kəsirlər ki, ertədən atlara minib qaladan çıxanda kimin atı birinci kişnəsə, onu şah seçsinlər. Dara burada öz dostlarına kələk gəlir. O öz mehtərinin köməyilə işi elə qurur ki, birinci onun atı kişnəyir və bu fırıldaqçı pers şah olur. Əhəməni şahları sırasında Dara hər bir hərəkətində qazanc güddüyü üçün «tüccar» ləqəbini daşıyır.

Yeddi pers xəlvətcə saraya girib Qam Atanı öldürür və bununla da Mada boyları yenidən Əhəməni hakimiyyətinin məngənəsinə düşürlər. Doğrudur, Daraya qarşı imperiyanın digər əyalətlərində olduğu kimi, Madada xalq hərəkatı başlandı, lakin bu son azadlıq üsyanı güclü orduya qarşı davam gətirməyən bir hərəkat idi.




Çitrantaxma

Qam Atanın ölüm xəbəri sanki imperiyanın bütün əyalətlərini hərəkətə gətirdi; Mada, Ərməniyə, Saqa, Margiana, Elam, Babil, Suriya, Misir ölkələrini üsyan bürüdü. Hətta özünü Kuruşun oğlu Bardiya kimi qələmə verən Vaxyazdata adlı biri Persiyanın özündə üsyan qaldırmışdı. Madada Astiaqın soyundan olan *Fravartiş* (Fraort) tərəfindən başlanan üsyana Part, Hirkan, Ermən ölkələri və saqarti bəylərindən *Çitrantaxma* da qoşulmuşdu. Görünür, tutulandan sonra Ərbildə edam edilən bu üsyan başçısı Manadakı saqartilərdən idi. Madada qalxan bu üsyanın yeddi aydan artıq davam etməsinə və madalı Fravartişin arxasınca böyük xalq kütlələrinin getməsinə baxmayaraq, üsyan uğursuzluqla nəticələndi, madalı öndərsə Həmədanda edam olundu.



Bisutun yazısı və məğlub edilən üsyançılar I Dara qarşısında

Üsyanları belə amansızlıqla dalbadal yatıran I Dara (522-486) Əhəmə-

nilər hakimiyətinə ikinci nəfəs verib ayağa qaldıra bildi. Bununla da Böyük Mada eli tarixin arxivinə keçdi, böyük zəhmətlə qurduğu imperiya perslərə qaldı.

Beləliklə, Pars bölgəsinə gəlib yerləşən aryan boylarının bir neçə nəsildən sonra Haxamaniş, Çişpiş və I Kuruşla başlanan bölgə bəyliyini Mada elbəyi Astiaqın nəvəsi və pers əyanı Kambizin oğlu olan II Kuruş böyük Pers imperiyasına çevirdi.[712] Əhəməni çağında İran şahları Quzey Azərbaycan torpaqlarını da əldə etmək üçün bura yürüşlər təşkil etmişlər. Bu haqda Azərbaycan tarixçiləri belə yazır: «Pomponi Mela, Böyük Plini, Dion Kassi və başqalarının yazılarından aydınlaşır ki, massagetlərin ölkəsi Dərbəndlə Gilgilçay arasındakı torpaqlarda yerləşirdi. Beləliklə, II Kuruş massagetləri ram etməklə Alban torpaqlarına yiyələnmək istəmişdir. Onun bu istəyi baş tutmadı. Tomrisin başçılıq etdiyi ikinci döyüşdə İran ordusu darmadağın edildi, Kuruş döyüşdə öldürüldü. Əhəmənilərin Arazdan quzeydəki torpaqları işğal etməyə yönələn ilk yürüşü boşa çıxdı».[713] Güney Qafqazın batı bölgələrində isə durum başqa idi, burada perslərə tabe olan satraplıqlar vardı.[714]

Makedoniyalı İskəndərə məğlub olana qədər Əhəməni sülaləsinin 220 il idarə etdiyi Pers dövlətinin milli siyasəti İranda yerli boyların assimilyasiyasına yönəlmişdi. Lakin əvvəlki Mana ərazisi bu çağda Mada satrapiyası daxilində olduğu üçün Mada adlansa da, burada irandilli mad boyları deyil, türkdilli madlar yaşayırdı və Pers dövləti dağılandan sonra Kiçik Mada (Atropatena) kimi tanınan həmin ərazidə Atropat *Azərbiqan* adlı dövləti qurdu ki, bu həm də *Azərbaycan* adının ilkin yaranma çağları oldu.[715]

---

[712] Əhəməni şahlarının sırası belədir: II Kuruş (550-529), I Kambiz (529-522), I Dara (522-486), I Kserks (486-465), Artakserks (465-425), II Dara (424-405), II Artakserks (404-359), III Artakserks (358-338), Arses (337-336), III Dara (336-330).

[713] AT, 1996, 75.

[714] Q. A. Melikişvilinin qeyd etdiyi kimi, hələ Mana eli çağında Güney Qafqazın batı bölgələrində yaşayan boylarla manalıların əlaqəsi vardı. Mada eli çağında isə Madadan asılı olan bu bölgələr Əhəmənilərə miras qalmış 13, 18 və 19-cu satraplıqlar idi.

[715] Herodotun verdiyi bəlgəyə görə mad boylarının yalnız bir qismi irandilli idi. İ. Əliyev yanlış olaraq, hellin çağında madların əksərini irandilli saysa da, Azərbiqanda o çağın etnik özəlliyi haqında yazır: «Heç bir şübhə yoxdur ki, gəlmə irandillilərə, yaxud yerli boylara aid mədəniyyətlərdən hansının üstün olmasından asılı olmyaraq, Atropaten çarlığında siyasi hakimiyət, aparıcı etnokultur element madlara məxsus idi» (Алиев, 1989, 61).

## Azərbiqan eli (Kiçik Mada) (Atropaten)

Güney Azərbaycanda tarixboyu qurulan böyük dövlətlər və kiçik bəyliklər çağında türk boylarının etnik konsolidasiyası gerçəkləşə bilmədi. Bunun müxtəlif səbəbləri vardı. Belə ki, Qut imperiyasının tərkibində müxtəlif etnosların yaşadığı çoxlu ölkələr vardı, Turuk bəyliyi isə Urmu gölü yaxasında kiçik siyasi qurum idi və turuk boylarının böyük bir hissəsi doğuya miqrasiya etmişdi. Sonralar ortaya çıxan çoxlu bölgə bəylikləri də yalnız kiçik siyasi qurumlar olub, türk boylarının vahid xalq kimi formalaşmasına imkan yaratmadı. Belə imkanı əldə edən Mana eli isə ondan yararlana bilmədi, çünki yarandığı çağdan süqut etdiyi dövrə qədər qonşu dövlətlərin pressinqi altında qalan Mana elində gah Urartu, gah da Asur meylli elbəylərin müstəqil milli siyasət aparmaq imkanı məhdud idi. Türk gələnəklərindən uzaqlaşan böyük Mada imperiysında isə hakim təbəqənin oturduğu mərkəzi bölgədə irandilli boyların revanş götürməsi yerli türklərin konsolidasiyasını bir neçə əsr gecikdirdi. Yalnız Əhəməni dövləti dağılandan sonra Güney Azərbaycanda müstəqil dövlət kimi qaynaqların *Kiçik Mada, Atropaten* və *Azərbiqan* adlandırdığı ərazidə protoazər türk boylarının, zəif də olsa, vahid xalqa çevrilmə prosesinin başlandığını görmək olur.

Ümumiyətlə, bu regionda m.ö. IV əsrdə baş verən təzadlı olayların yaratdığı mürəkkəb geosiyasi şərait fonunda Arazdan quzeydə *Aran* və *Alban*, güneydə isə *Azərbiqan* adlanan ərazilərdə protoazər boylarının bir-biri ilə sıx əlaqəsi olan iki yeni müstəqil dövləti yarandı. Azərbiqan elinin Selevki, Part və Sasani dövlətləri çağında siyasi-inzibati ərazisi, siyasi hakimiyəti, etnik demoqrafiyası, hansı dönəmlərdə müstəqil və ya asılı durumda olması kimi məsələlərə keçməzdən öncə çoxdan mübahisə obyektinə çevrilmiş onun adı üzərində dayanmağa ehtiyac vardır.[716]

Azərbiqan elinin tarixi yunan-latın və haydilli qaynaqlarda daha çox Kiçik Mada və Atropaten adı ilə əks olunmuşdur.[717] Əhəmənilərə tabe olan ərazilər m.ö. 330-dan sonra İskəndərin əlinə keçsə də, Mada satrapı Atropatın diplomatik səyi nəticəsində Həmədandan yuxarı keçmiş Mana elinin əraziləri makedoniyalılara tabe olmadı. Elə bu çağdan *Kiçik Mada*

---

[716] «Azərbaycan» adının daha geniş etimoloji yozumu II Bitikdə «Qədim coğrafi adlar» bölməsində verilmişdir.

[717] Мамедов, 1977; Акопян, 1987.

adlanan həmin ölkədə Atropat özünü hökmdar elan etdi. İskəndərə tabe olan Həmədan bölgəsi və onu əhatə edən doğuda Part, batıda Babil, güneydə Pers ölkələrinə qədərki ərazilər isə *Böyük Mada* adı ilə tanındı və bura perssoylu Oksodat satrap təyin edildi. Bir müddən sonra İskəndər onu, çox güman ki, partsoylu olan Arsakla əvəz etdi, bir neçə il sonra isə Mada satrapı vəzifəsinə yunanlı sərkərdə Pifon təyin olundu. Beləliklə, Böyük Mada satrapları dəyişsə də, Atropat Kiçik Madada hökmdar statusunu saxlaya bilmişdir. Görünür, buna səbəb Atropatın mahir diplomat və böyük siyasi xadim olması ilə yanaşı, döyüşkən kadus, saqa və alban kimi qonşu boylarla müttəfiqliyi idi. Azərbiqanda möhkəm dayağı olan və perscə *atropat* sanı (rütbəsi) ilə tanınan Atropatın özəl adı bəlli deyil.

Atəşpərəstlər içində odu saxlayan başçı və ya Od saxlayan, Odun saxladığı anlamı ilə işlənən *aturpat* (atarpat, atropat) sanını daşıyan adam yəgin ki, dini başçı idi.[718] Olsun ki, III Daranın vaxtında atəşpərəstlərin başçısı Atropat həm də Madanın satrapı idi. Bu, hələ parçalanmamış və Herodota görə güneydə parikanlarla, Arazdan quzeydəki şişpapaqlı saqalarla birlikdə 10-cu satraplıq sayılan bütöv Mada idi. O çağlarda atropat rütbəsini daşıyan dini başçının nüfuzu böyük olmalı idi, çünki Zərdüşt dininə tapınan pers şahlarının da tacqoyma mərasimi Azərbiqanın güney bölgəsində olan Qazaka şəhərindəki Atəşgahda icra olunurdu. Bu baxımdan, yunandilli qaynaqlarda bütöv Madadan ayrılmış Kiçik Madanın bəzən «Atropat Midiyası» və «Atropatın ölkəsi» adlanması doğal görünür, lakin dövlətin adı hakim sülalə və ya şəxsadı ilə (Haxamaniş, Sasan, Səlcuq, Osman) verilə bilsə də, antroponim nadir halda ölkənin adına çevrilir. Adətən, «filan hökmdarın ölkəsi» deyimi həmin hökmdarın ömrü qədər olur. Necə ki, m.ö. II əsrdə Polibi də Azərbiqanı hökmdarın adı ilə «Artabazanın vilayəti» adlandırmışdı.

İlk dəfə *Atropatena* adının Kiçik Mada ölkəsinin başçısı sərkərdə Atropat (΄Ατροπατησ) adından yarandığını Strabon yazmışdır.[719] Sonralar bunu bir çox yazarlar təkrar etmişlər. A. Bakixanov isə Azərbaycan adını

---

[718] Tarixdə onlarla *Atropat* adlı şəxs məlumdur və bunların çoxu sadəcə *atropat* sanını (rütbəsini) deyil, həmin sandan yaranmış özəl Atropat adını daşıyanlardır. Atropat sanı perscə *spahpat* (qoşun başçısı) sözündə olduğu kimi, perscə «pat», türkcə atar//odər sözlərindən yarana bilər. Çünki monqol dilində də kiçik oğul, odu saxlayan sonbeşik və od şahzadəsi anlamında işlənən *odçiqin* (od tiqin) və *odqan* (od xan) deyimlərində görünən *od* sözü türkmənşəlidir (ЭСТЯ, I, 483-484).

[719] Strabon, XI. 13. 1.

*Babəkin odu* (Azərbabaqan) anlamı daşıdığını güman etmişdir.[720] Yaqut əl-Həməviyə görə isə bəzi yazarlar *Azərbican* adını Nuh Əleyhissəlamın soyundan olan *Azərbaż* adı ilə bağlamışlar.[721] Göründüyü kimi, bəzi yazarlar bu ölkə adının bu və ya digər şəxsin adı ilə ortaya çıxdığını söyləmişdir, halbuki Azərbaycan adının tərkibindəki *Azər* adı bu tarixi şəxslərin yaşadığı çağdan daha qədim qaynaqlarda vardır.[722] Azərbaycan adını şəxs adı ilə bağlamayanlar da olmuşdur. Fəzlullah Rəşidəddin yazır ki, Güney Azərbaycanda Oğuz xanın göstərişi ilə ordu torpaq yığıb kurqan düzəldir, türkcə ucaya «*azər*» və böyüklərin yerinə «*bayqan*» deyildiyi üçün bu yer *Azərbayqan* adlanır.[723]

Doğrudur, Atropatlar sülaləsi hakimiyətdə olduğu sürəcə bəzi qaynaqlarda «Atropatın ölkəsi» anlamında **Atropaten** və **Atropatkan** adları işlənə bilərdi, lakin Atrap//Atropat və ya yunan-part formalarından ölkənin özəl **Azərbiqan** (Azərbaycan) adı yarana bilməzdi. Çünki *-paten//-patkan* hissələrindən *-biqan* formasına keçid fonetik baxımdan mümkün deyil.

Bəzi müasir tarixçilərin guya mümkün keçid üçün təklif etdikləri ***Ātarpātakān** forması isə heç bir qaynaqda işlənməmişdir.[724] Hətta həmin forma işlənmiş olsaydı belə, Pəhləvi yazısında görünən *Ādurbādaqān* forması kimi sözün ortasındakı «da//ta» hecasının düşməsi üçün əsas yoxdur.[725] Həmin hecası olmayan söz isə artıq *Atropat* adı yox, *atropa-* (atarpa-) sözüdür. Göründüyü kimi, Azərbaycan adının yaranması Kiçik Mada hökmdarı Atropatın adı ilə bağlı deyil. *Azərbaycan* adı bu ölkənin yerli *azər* boylarının adından yaranmış **Azərbiqan** adının *-qan/-kan* şəkilçisini *-can* formasına salan (k/q > c) sonrakı ərəb dili deyiminə uyğunlaşmış formasıdır.[726]

---

720 Бакыханов, 1991, 59.

721 Әлиjева, 1999, 124.

722 Azər xalqı, 2000, 15; M. Kaşğarinin lüğətinə əlavə olunmuş xəritədə Azərbaycan adı yanlış olaraq آذرآبادکان (Ażərabadkan) şəklində yazılmışdır.

723 Рәшидәддин, 22; Yazarın bu yozumu qədim mifoloji görüşlə bağlıdır. Belə ki, tanrı məskəni anlamında işlənən *Olimp, Baqastan* adları kimi *Azər* adının da «Tanrı yurdu» anlamı olmuşdur ki, bu da Azər (*Asar*) teonimi ilə bağlıdır.

724 Алиев, 1989, 40; AT, 1999, 270.

725 Karnamaq, X. 2.

726 Qurqan > Curcan, Balasaqan >Balasacan, Andukan >Andican toponimlərindəki dəyişmələr kimi Azərbiqan >Azərbican dəyişməsi də ərəblər çağında gerçəkləşmişdir.

İlk dəfə bu adın **Ażər** və **bican** hissələrindən təşkil olunmasından, **ażəri** və **ażərbi** nisbəsindən danışan ərəb yazarı Yaqut əl-Həməvi onun **Ażrəbican, Ażribican**, **Ażribacan** formalarını qeyd edir.[727] Hələ ərəblər Azərbaycana gəlməmişdən öncə Xosrovun 590-da Azərbaycana qaçdığını qeyd edən F. Simokatta bu adı bir yerdə *Aδrabiqan* (Ἀδραβιγάνων), başqa bir yerdə isə *Aδarbiqan* (*Ἀδαρβιγάνα*) şəklində yazmışdır.[728] Göründüyü kimi, Yaqutun şərhi Simokattanın VI əsrdə yazdığı **Ażərbiqan** forması ilə öz təsdiqini tapır. İbn Havqəlin xəritəsində də **Ażərbican** (اذربيجان) formasında yazılmış bu adın ilk saitindən sonra gələn samitin ز (*z*) ilə yox, *Xızır~Xıdır* adında olduğu kimi part dilinə uyğun dişarası ذ (*ż/*δ) səsini bildirən hərflə yazılması da müəyyən dolaşıqlıq yaratmışdır. Həmin dişarası (pəltək) səs bugün də türkmən dilində geniş işlənir.

Beləliklə, *Azərbaycan* adının Atropat adı ilə əlaqəsi yoxdur, çünki bu ölkəadını tarixi qaynaqlarda adı keçən onlarla Atropatdan birinin adı ilə (Kiçik Mada çarı olsa da) bağlayanlar, sadəcə onomastik və fonetik qanunları nəzərə almamışlar. «Azərlər yurdu» anlamında **azər-bi-qan** söz və şəkilçilərindən yaranmış *Azərbican* xoronimi bugün də azər dialektlərində *Azərbican, Azarbacan, Həzərbecan* və sair deyimlərlə işlənir. Türkmənlər bu adı *Xəzirbican* deyimilə yaşatmışlar. Bu isə bir daha göstərir ki, **azər** və **xəzər** eyni sözdür, sadəcə eyni boyadının dialekt fərqidir.

Qədim Azərbaycanda *-lar* morfemi kimi boyadına qoşulan «*bi*» sözcüyü də topluluq bildirmişdir: *lulubi* (lulular), *ellibi* (ellilər), *kasbi* (kaslar), *telabi* (telalar) və s. Bu baxımdan, «azərlər» anlamında olan *azərbi* boyunun adına məkan bildirən *-qan* (-gan//-kan) şəkilçisinin qoşulması da «azərlər ölkəsi» anlamını yaradır. Həmin şəkilçidə ərəb dili deyiminə uyğun q > c dəyişməsi isə ərəb istilasından sonrakı olaydır. Bu adda az-ər-bi-qan > azərbican > azərbeycan şəklində özünü göstərən dəyişmələr azər dilinin morfonoloji qanunlarına tam uyğundur.

Göründüyü kimi, Azərbiqan ölkəadı *azərbi* boyadından, «azərlər» anlamlı bu ad isə *azər* boyadından yaranmışdır. Azər boyadı isə daha qədim *az* boyadına *ər* sözünün qoşulması ilə (*az-ər*) yaranmışdır. Qədimdə

---

727 «Mu'cəm əl-buldən», I. 28; Əлиjева, 1999, 123-124.

728 Симокатта, 98, 206 (qeyd 8); 'Ιστορίαι, IV. III. 13; IV. IX. 1; Suriya-aramey qaynaqlarında da görünən *Āδorbāigān*, *Āδorbīgān, Adarbiqana, Aderbaiqan* formaları Azərbiqan adının fonetik variantları olub «Azər boylarının yurdu» anlamındadır, part və pers dillərindəki *'twrp'tkn* (*Āturpātakān*), *Ādurbādagān, Aturpatakan* (I Şapurun yazısı) adları isə Aturpat adı (sanı) ilə bağlıdır və *Azərbaycan* adının yaranmasına dəxli yoxdur.

*az* boyadının as//az, kas//xaz//kaz dialekt variantları vardı.[729] Bu baxımdan, eyni xalqın (*azların*) ayrı-ayrı dialektlərində formalaşan *azər*, *xəzər*, *kaspi* boyadları əslində eyni «az boyu» anlamını bildirir və donuq (arxaik) şəkildə olsa da, Azərbiqan, Xəzər, Qəzvin (kazbi-n), Kaspi kimi etnotoponimlərin kökündə *az//kaz* boyadı ilkin dialekt variantları ilə durur.

Etnik-coğrafi anlamda *Azərbiqan* adı öncə Urmu hövzəsini və yaxın Arazboyu əraziləri, sonralar isə Dərbənd, Borçalı, İrəvan, Mosul, Ərbil, Kərkük və Həmədandan güney və doğu bölgələri də əhatə etmişdir. Bəzi çağlarda siyasi-inzibati anlamda bu sınırlar böyümüş, bəzi çağlarda isə daralmışdır.[730] Sonralar Atropatenanı da içinə alan Azərbiqan adı daha geniş siyasi-inzibati və etnik-coğrafi anlam daşımışdır.[731] Atropatın vaxtında ona tabe olan Kiçik Mada (Azərbiqan) ərazisi və Atropatla müttəfiq olan saqa, alban, kaspi və kadus boylarına aid ərazilər təxminən bu sxematik xəritədəki kimi idi:



Azərbiqan
Atropatın vaxtında
(m.ö.IV əsrin sonu)

Azərbiqan elinin yarandığı ilk çağlarda onun coğrafi sınırları quzeydə Borçalı bölgəsinə, güneydə isə Həmədan bölgəsinə qədər uzanırdı. Batı sınırlar Ərmən, Matien bölgələrinə, doğu sınırlar isə Xəzər dənizi, Kadus, Kaspi, bölgələrinə yaxın idi. Quzey-doğuda isə Azərbiqan Saqa bölgəsi və Alban eli ilə qonşu idi. «Mana eli» bölməsində və əvvəlki Bitiklərdə bu ərazilərin coğrafi durumunu gözdən keçirmişdik. Urmu gölünə

---

[729] Azər xalqı, 2000, 10-33; Bu boyadı Göytürk yazılarında da qeyd olunmuşdur: «yerçi tiledim; çölqi **az əri** bultım» [illegible] (Tonyukuk, D-23); «**az budun** yağı kıltı» [illegible] (Kültigin I. Q-2); «**az** kırkız budunığ» [illegible] (Kültigin I. D-20).

[730] I Xosrovun vaxtında Ərməniyə, İberiya, Aran, Balasakan, Sisakan, Muğan, Deyləm və sair əyalətlərlə bərabər Atrpatkan da *Azarbazqan* tərkibinə daxil idi (ACE, I. 1970, 110; Ибн Хордадбех, 61, 106). Ymumiyətlə, qaynaqların çoxu Azərbaycanı Dərbəndlə Həmədan arası bölgələri əhatə edən ölkə kimi verir.

[731] Azər Beqdelinin (XVIII) Tehranda nəşr olunan «Ateşkede-yi Azər» əsərində Ərmən bölgəsini də sınırları içinə alan Azərbaycanın əski və sonrakı hüdudları daha geniş verilmişdir (ИГА, 120).

yaxın bölgələr isə Azərbiqan elinin mərkəzində idi. Qaynaqlarda Urmu gölünün qədim türkcə *Göy göl* adı (Καπαύτα) vaxtilə batıdan gəlib onun sahil bölgələrinə yerləşən urmu və matien boylarının adı ilə də verilmişdir. Göründüyü kimi, müxtəlif çağlarda işlənən *Göy göl, Urmu gölü* və *Matien gölü* adlarından ikincisi daha yaşarı olmuşdur.[732]

Urmu gölünün ətraf bölgələrinin etnik durumu m.ö. III minilin sonlarından II minilin sonlarına qədər *qut-lulu* və *turuk* kimi bir neçə boyadı ilə bəlli idisə, artıq Mana eli çağında (m.ö. IX-VII əsrlər) burada az, azər (sonralar *azərbi*), alınca, aran, arançı, arman, añçı, bars, börü, bus (boz), daqar, dəli, qaban, qaralı, qarqar, qızıl, kuman, kınıq (kinuk), man, mad, padar, pardı, polad, urmu, zəngi, saq, saqar, saqbut, saqtatuş, sığırçı, su, subi, subar//sabar, soqan, sibermen, şatır, tavarlı, qorus və sair türk boylarının adı ortaya çıxır. Bu etnonimlər Azərbaycanın müxtəlif bölgələrində günümüzəcən yaşayır. Mada və Əhəməni dövlətlərinin tərkibində ayrıca vilayət və satraplığın əhalisi kimi bu boyların hamısını əhatə edən vahid etnik ad (etnonim) hələ yaranmamışdı.

Doğrudur, qaynaqlar Mana çağında bəzən həmin boyları ümumi «manalılar» deyimilə verir, lakin sonrakı *qaraqoyunlu*, *ağqoyunlu* boyadı kimi *man* etnonimi də Azərbiqan əhalisinin ümumi adına çevrilə bilmədi. Selevkilər çağında isə müstəqil dövləti olan bu boylar artıq ayrı-ayrılıqda deyil, ümumi «Kiçik Mada (Atropaten) ölkəsinin əhalisi» adı ilə verilirdi. Bu durum bir daha göstərir ki, yuxarıda sadalanan protoazər boylarının artıq vahid etnik topluma çevrilmə prosesi başlanmışdı və bu prosesdə əsas dialekt (*koyne*) rolunu Urmu hövzəsindəki *azər* dialekti oynamışdır. Bu etnolinqvistik olayla paralel Kiçik Mada (Atropaten) ölkəsi də ümumi azər dilində danışan *azərbi* (*azərlər*) etnonimi ilə *Azərbiqan* adlanmağa başlayır.[733]

---

[732] Strabonun qeyd etdiyi «göy» sözünü bura gələn perslər kalka yolu ilə saxlamışlar, çünki qədim perscə *kapautaka*, orta perscə *kapot* deyimi həmin «göy» anlamını bildirir və *Göy göl* adını haylar da *kaput* «göy» rəngi ilə vermişlər. Gölün ikinci adı kimi Strabonun verdiyi *Matien gölü* adı isə İkiçayarasından gələn matien-subar boylarının Urmu gölündən batı bölgələrdə yerləşməsi ilə bağlıdır. Matienlərdən öncə Van gölünün quzeydoğusundan gəlib Urmu gölü hövzəsinə yerləşən urmu boyunun adını Asur qaynağı *Urmeyate* toponimində əks etdirmişdir (АВИИУ №73, III); Beləliklə, gölün bəlli adları Göy göl, Urmu gölü, Matien gölü ardıcıllığı ilə ortaya çıxmışdır. Urmu və Urmiya toponimlərindən Yaqut əl-Həməvi və başqa yazarlar bəhs etmişlər (Әлиjева, 1999, 132).

[733] Azərbiqanın coğrafi sınırlarından və əhalisindən danışan Yaqut əl-Həməvi qeyd edir ki, onların dili *əl-azəriyə* adlanır (Әлиjева, 1999, 125; Йакут ал-Хамави,1983, 8).

Göründüyü kimi, Azərbiqan elinin etnik durumu və burada işlənən dil haqqında bilgi əldə etmək üçün ölkənin tarixi keçmişi xronoloji ardıcıllıqla izlənməlidir. Əgər Azərbiqanın etnik tarixini yalnız Atropatlar sülaləsinin hakimiyətdə olduğu zaman kəsiyində gözdən keçirsək, onda etnik mənzərənin gerçək üzü görünməz, çünki bu çağlara aid qaynaqlar müstəqil dövlət olan Azərbiqan ölkəsinin əhalisini (vətəndaşlarını) ümumi şəklində «atropatenlilər» kimi qeyd edir, bu ölkənin qonşuluğunda olan boyları isə adları ilə (mitan, hirkan, kadus, kaspi, alban, saqa və s.) verir. Belə siyasi-tarixi durumun demoqrafik özəlliyini diqqətə almayan Azərbaycan tarixçiləri yazır: «Atropaten tarixinə dair son illərdə bir sıra əsərlərin nəşr olunmasına baxmayaraq ölkənin etnik tərkibi və əhalisinin dili hələ tam aydın deyildir».[734] Tarixçilərimizin bu etirafı göstərilən obyektiv səbəblərlə bağlı olsa da, burada bəzi tarixçilərin subyektiv münasibəti də vardır.[735]




Azərbiqan dövlətinin yarandığı çağdan öncəki duruma baxanda aydın görmək olur ki, Əhəməni dövlətinin Mada satrapı Atropat özünü müstəqil elbəy elan edərkən böyük bir ərazi onun ixtiyarında qalmışdır. Mada canişinliyi (X satrapiya) güneydə parikan boylarını, quzeydə isə şişpapaqlı (ortokoribant) saqa boylarını da içinə alan əraziləri əhatə edirdi. Onun Həmədan bölgəsindən yuxarıda Kiçik Mada adlanan hissəsi Atropata tabe idi və yeni qurulan Azərbiqan elinin bu sınırları içində azər türkcəsi ortaq dilə çevrilməkdə idi.

Antik qaynaqlardan bəllidir ki, Atropat hələ Əhəməni satrapı ikən XI satrapiyada yaşayan kaduslarla, həmçinin XV satrapiyadakı kaspi və saqa boyları ilə müttəfiq idi. Bu sonuncu satrapiyanın yerini bəzi tarixçilər

[734] AT, 1996, 81.

[735] Belə ki, bu mövzuda iki kitab yazan S. Qasımova ərəb qaynağından *Azərbaycanda türklər qədimdən yaşayır* və VI əsrə aid «Şahrestanihai Eran» əsərindəki *Azərbaycanda Qanzak şəhərini Əfrasiyab salmışdır* deyimini versə də, Azərbaycanda türklərin varlığını yerli türklərlə deyil, yalnız Sasani çağında bura gəlib yerləşən yarımköçəri gəlmə türklərlə bağlayır (Касумова, 1993, 6, 46-47).

yanlış müəyyənləşdirmiş, eyni boyun müxtəlif bölgələrdə yaşaması faktı nəzərə alınmadığından XV satrapiyanın yeri Xəzərin güney-doğu bölgəsi sayılmış, Fars körfəzi hövzəsini əhatə edən XIV satrapiya isə Mil-Muğan bölgəsində yerləşdirilmişdir. Belə ki, X satrapiya ərazisində öncə görünən maq boyunun bir qismi sonrakı Maqan (Muğan) bölgəsinə, saqartilərin bir hissəsi də İsfahan tərəflərə köçmüşdü.[736]

Herodot yazır ki, böyük şahın köçkünləri yerləşdirdiyi Qırmızı dəniz (Eriteriya) adalarında yaşayanlarla birlikdə *saqartilər, sarangilər, thamanaolular, utialar, mikoslar* XIV satraplığa aid idi.[737] Əlbəttə, bu satraplıq İsfahandan güneydə Fars körfəzi yaxalarını əhatə edirdi.[738] Uzun illər Tarix institutuna rəhbərlik edən İqrar Əliyevin isə həmin *mikosları* «miklər» adı ilə Arazyaxası bölgədə verməsi, *utiləri* də Alban elindəki *udi* boyları ilə eyniləşdirməsi və buna əsasən XIV satraplığı Azərbaycanın ortasına köçürməsi yanlışdır.[739] İ. Əliyevin verdiyi bölgədə XIV deyil, kaspi və saqa boylarının yanaşı yaşadığı XV satrapiya idi. Vaxtilə akad V.V. Struve düzgün olaraq, XV satrapiyada Kür-Araz arasındakı saqaların olduğunu göstərmişdir.[740]

Azərbiqan elinin yarandığı və Sasani dövlətinin tərkibinə qatılana qədər davam etdiyi çağlarda ölkənin etnolinqvistik durumu ayrılıqda deyil, ətraf ölkə və bölgələrdə baş verən etnokultur gəlişmələr, etnodemoqrafik dəyişmələr və siyasi olaylar fonunda təhlil edilməlidir. Qızılvəng arxeoloji kulturunun yayılma arealı və sonralar Göycə-İrəvan, Naxçıvan-Ordubad, Təbriz-Həmədan bölgələrində azər dilinin ortaq dialektinin ortaya çıxması göstərir ki, etnoqrafik və dil baxımından Azərbiqan elinin əhalisi bir-birindən az fərqlənirdi. Lakin Azərbiqan sınırları dışına çıxan bölgələrdə fərq artır. Belə ki, Alban (Aran) elində Xocalı-Gədəbəy kulturu ilə Xəzərboyu və Şəki-Zakatala bölgələrindəki arxeoloji kulturların

---

[736] Zikertu (*Saqarti*) boylarının güneyə köçən hissələri Mada çağından sonra iran dilinə keçən boylardandır. Artıq Əhəməni çağında onlar perscə danışan boylar sırasında təqdim olunur (Herodot, VII. 85); Bisutun yazısında üsyançı saqartili Çitrantaxma Kiaksar soyundan sayılır. Güneyə köçən saqartilərin sonradan persləşməsi həm də onunla sübut olunur ki, onlar türkdən dönmə idilər, çünki Herodotun yazdığına görə, döyüşdə türk süvariləri kimi perslərə xas olmayan *arkandan* istifadə edirdilər.

[737] Herodot, III, 93.

[738] Геродот, 1972, 517, 61-ci qeyd.

[739] Алиев, 1989, 8.

[740] Струве, 1968, 18-20.

lokal fərqləri azər dilinin doğu və quzey dialektlərində də aydın görünür. Beləliklə, dəmir dövrünə Quzey və Güney Azərbaycanda ortaq və oxşar kulturla daxil olan protoazər boyları artıq Azərbiqan və Alban dövlətləri çağında quzeydən və doğudan gələn yeni bozqır türk boyları ilə sinkretik yerli-gəlmə, oturaq-köçəri etnokultur gələnəklərini mənimsəməli oldular. Azər dilinin və azər xalqının formalaşmağa başladığı ilk çağlardan özünü göstərən bu sinkretizmin izlərini folkloda, etnoqrafiyada və bugün dörd əsas dialekti olan azər dilində görmək olur.

Azərbiqan elinin daxilində türkdilli boyların qovuşması prosesi ilə yanaşı onun bəzi sınır bölgələrində deetnizasiya olayları da başlanmışdı. Hələ Mada və Əhəməni çağlarında pers dilinin təsiri altına düşən elam-kassi boyları, güney-doğuda dravid, doğuda türk-saqa boyları tədricən öz dillərini unudurdu. Artıq Sasani çağında lor-lur, bəluc, part etnonimlərini daşıyan həmin boylar irandilli idi. Sasani çağında analoji assimilyasiya olayı Zaqros dağlarının ətəyində yaşayan heyvandar kürd boylarından da yan keçməmişdir, onların bir qismi kurmancı, zaza, kurdi dialektlərində danışan irandilli boya çevrilmiş, bir qismi də azər dilini saxlamışdır. Bu fərq «fars kürdü» və «türk kürdü» deyimlərində də əks olunur.[741]

Müasir Gilan, Mazandaran, Talış bölgələrində persləşmə olayını yaşayan qədim yerli boylar (*tapur, anariak, kadus* və b.) da bugün irandilli sayılır. Həmin bölgədə qədim perslərin *anariak* («qeyri-arilər») kimi tanıdığı bu boylar haqqında Strabonun «anariaklar indi *parsi* adlanır» deməsi həmin persləşmə olayını aydın göstərir.[742]

Beləliklə, Azərbiqan ölkəsinin daxilində əsasən yerli azər türklərilə gəlmə (əslində qayıtma) bozqır türklərinin, yəni içoğuz-dışoğuz boylarının qarışıb qovuşması, sınır və sınırdışı bölgələrdə isə yerli protoazər və elam-kassi kimi başqa boyların persləşmə prosesi gedirdi. Qafqazda m.ö. I minilin ortalarında yeni etnik-demoqrafik bölgələrin yaranmasını və burada

---

[741] Yarımköçəri türklərin *tərəkəmə, kürd, padar, yorük* adlanması bəllidir. Bu sözlər etnonim deyil, yaşam tərzi ilə bağlı etnoqrafik termin kimi ortaya çıxmışdır. Ona görə də orta əsrlərin ərəbdilli qaynaqları *kürd* sözü və onun toplu anlamında *əkrad* variantı ilə yarımköçəri tayfanı oturaq tayfalardan fərqləndirmişdir. Məsələn, Muğanda oturaq yaşama keçməyən türkmənlər «Əkrâd-i bilâ sükkân» adlanmışdır. Kürd sözünün irandilli boy (etnonim) anlamı sonralar ortaya çıxmışdır. Eyni durum etnoqrafik termin olan *tat* sözünə də aiddir. Belə ki, arançı, şəhərli, oturaq anlamında olan bu söz «uyğur tatı» (şəhərdə oturan uyğurlar) deyimində olduğu kimi, *fars tatı, türk tatı* deyimlərində oturaq tayfaları bildirmişdir.

[742] Strabon, XI. 7. 1.

bir sıra xalqların formalaşıb ortaya çıxmasını qədim gürcü qaynaqları saqaların qafqaza yürüşünün nəticəsi kimi verir. Qafqazşünaslıqda çoxdan belə fikir formalaşıb ki, qədim gürcü rəvayətlərində «xəzərlərin yürüşü» motivi dumanlı şəkildə olsa da, saqaların Güney Qafqaza gəlişini əks etdirir.[743] Xəzərlərin saqa boylarından sayılması gerçəkliyi əks etdirsə də, bu bəlgələrdə saqaların «xəzər» adlanması tarixi baxımdan anaxronizmdir. Gürcü qaynaqlarında sonrakı olaylar İskəndərin yürüşü ilə bağlansa da, iber xalqı Selevkilər çağında, haylar da sonrakı Ərsaqlar çağında formalaşma imkanı əldə etdilər. Protoazər boylarısa belə imkanı hər iki qonşusundan daha öncə əldə etmişdi, çünki vahid siyasi qurum ətrafında azər xalqının formalaşması üçün Atropatın vaxtında artıq tarixi şərait yaranmışdı.

Adətən Alban və Atropaten elindən danışan azər tarixçiləri etnik coğrafiyanı diqqətdən qaçırır, İber və Ermənıyə ellərində yalnız kartvel-iber və hay-ermən boylarının yaşadığını düşünürlər. Halbuki hələ Ermən və İber ellərinin yaranmasından öncə bu dövlətlərin əhatə etdiyi bölgələrin çoxunda protoazər boyları, sonrakı dövrlərdə isə azər boyları yaşayırdı. Bu baxımdan, Azərbiqan elinin qonşu ölkə və bölgələrini, ötəri də olsa, gözdən keçirmək lazım gəlir.

Azərbiqan elinin quzey-doğu bölgəsində *polad* boyunun yaşaması hələ Mana çağından bəlli idi. Qaradağla Talış dağları arasında yerləşən bu bölgənin arxasında sonrakı qaynaqların qeyd etdiyi Kaspiana bölgəsi gəlir. Kaspiana bölgəsini qaynaqlar gah Kiçik Mada, gah da Alban elinin tərkibində verir. Mana çağında polad boylarından batıda Urmu gölü ilə Araz çayı arasında zəngi boyları yaşayırdı. İslamaqədər Azərbiqanın bu quzey bölgəsində həmin boyların davamlı olaraq görünməsi də diqqəti çəkir.[744] Zəngi bölgəsindən quzeydə, Arazın sol yaxalarında isə sonralar gördüyümüz *qapan* (qafan) boyları da Mana çağında Xəzərlə Urmu arasında idi. Arazdan quzeydə Saqa eli çağında əksər protoazər boyları ümü-

---

[743] Цулая, 1987, 24-26; Doğrudur, m.ö. VIII əsrin sonunda qamər hücumları Qara dəniz yaxasında qədim Kolx çarlığının dağılmasına səbəb olmuşdu, lakin onun yerində protoibier-kartvel boylarının toparlanıb yeni dövlət qurması 5-6 əsrdən sonra olmuşdur.

[744] Xudafərin körpüsünün *Zəngiyan* bölgəsində salınması haqqında orta əsr qaynaqları bilgi verir. Sonralar *zəngi* boyları buradan Azərbaycanın müxtəlif bölgələrinə yayılmışdır. Qədim qaynaqlarda *Zəngiboyu* (Sangibut) adlanan bu bölgədən güneyə (Zəncan), və güney-batıya (*Zəngi Atabəyliyi*), həmçinin Arazdan quzeydə Zəngibasardan tutmuş, Zəngəzur-Zəngilan yönündə köçlər olmuşdur.

mi *saqa* adı ilə tanınırdı. Saqa eli isə sonrakı Alban ölkəsinin batı bölgələrilə Naxçıvan və İrəvan xanlıqlarının ərazilərini də əhatə edirdi. Ona görə də Azərbiqan elinin quzey bölgələrinin etnik tərkibində bu faktor qabarıq görünür. Belə ki, burada saqa, qamər, gögər, subar, kəngər, kasax, kaspi və sair bu kimi türk boylarının, həmçinin Urartu çağından qalma qafqazdilli (naxçı, alarodi, udi və s.) boyların izi vardır.

Atropata tabe olan azər boylarının önəmli bir hissəsi də Arazın sol yaxalarında və Naxçıvan, Vedibasar, Dərələyəz bölgələrində və Göycə gölü hövzəsində idi. Strabon yazır: «Ermən şəhəri Artaksatın yanından keçib **Azar** (bölgəsi) boyunca Atropatenə qədər doğu yöndə axan *Araz* çayı *Araksenadan* (Araz ovasından) keçir, sonra quzey-doğuya dönür və nəhayət Kaspi dənizinə tökülür».[745] Araz ovasının coğrafi koordinatlarını verən yazar qeyd edir ki, Araz çayı Alban ölkəsinə qədər bu ovalıqdan axır, Alban ölkəsi və Kür çayı ilə sınırlanan Sakasena da həmin ovalığın arxasında yerləşir, daha sonra isə Qoqarena (Gögər vilayəti) gəlir.[746]

Strabonun yazısından bəlli olur ki, Araz çayı müasir Artaşat-Şərur arasında Araz ovasından (Araksenadan) keçir, həm də *azərlərin* bölgəsi boyunca axır. Olsun ki, Şərurla Vedi arasında müasir *Arazdəyən* yeradı həmin Araksenanın bir hissəsidir, lakin N. Adons antik yazarlarla Xorenatsinin qeyd etdiyi *Araksena ovasını*n (Ἀραξηνόν πεδίον, *Երասխաձոր*) Axuryan çayından Şərura qədər uzanan Ağrı (Ararat) vadisi olduğunu güman edir.[747] Hər halda, Şərura qədər uzanan Araksenadan sonra Alban ərazisi başlayırsa, onda Strabonun çağında (m.ö.I əsr) Naxçıvan-Zəngəzur bölgələrinin doğu tərəfləri də Albaniyaya aid olmalıdır. Araksenadan quzeydə Kürə qədər verilən Sakasena isə Dərələyəzdən başlayıb Göycə gölünün batı və quzey yaxalarını əhatə etməlidir. Strabonun bu məlumatı inandırıcı görünür, çünki adı çəkilən bölgələr vaxtilə Saqa elinin əraziləri idi. Strabonun Borçalıda verdiyi Qoqarena (Gögər) vilayətində də türklər yaşayırdı. N. Adons Gögər vilayətinin daxilində *kəngər* boylarının yaşadığı bölgənin güneydə olduğunu qeyd edir.[748] Olsun ki, kəngərlərdən də

---

[745] Bu kiçik mətnin tərcüməsini N. Emin və Q. A. Stratanovski fərqli şəkildə versələr də, hər iki yazarın doğuya axan Arazın sonra «quzey-batıya» və ya «quzeyə və batıya» dönməsi deyimində *doğu* əvəzinə, *batı* sözü işlətməsi, görünür ilkin mətndən irəli gələn yanlışlıqdır (Хоренаци, 1858, 341; Strabon, XI. 14. 3).

[746] Strabon, XI. 14. 4.

[747] Адонц, 1971, 300.

[748] Eyni qaynaq, 222.

güneydə Ələyəz dağının quzeyində *qazax* boyları yaşayırmış, çünki buradan başlayıb Araza axan *Kasax* çayını qədim qaynaqlar da qeyd edir.

Azərbiqanın quzey qonşuluğunda mübahisə doğuran məsələlərdən biri qaynaqların çox vaxt alban-aran boylarından *kaspi* adı altında bəhs etməsilə və kaspilərin bir-birindən aralı bölgələrdə verilməsilə ortaya çıxmışdır. Əslində, qaynaqlarda yanlışlıq yoxdur, günah kaspilərin yalnız bir bölgədə yaşaya bilməsini güman edən tədqiqatçılardadır. Əvvəla, hər hansı bir boyadı müxtəlif bölgələrdə ola bilər, çünki eyni etnonimi daşıyan boyların ayrı-ayrı ərazilərdə məskunlaşması təbiidir, ikincisi də, dialekt fərqləri ilə ortaya çıxmış azər//xəzər//kaspi boyları kimi, ayrı-ayrı dialektdə eyni leksik anlamlı ad (*alplar, ərənlər*) daşıyan alban və aranlar da protoazər boylarındandır. Bu baxımdan, kaspilərin müxtəlif bölgələrdə qeyd olunması qanunauyğun haldır.

Yuxarıda qeyd etdik ki, *kaspi* adı *azər* ilə eyni kökdən yaranmışdır. Bu etnonimin kökündə dayanan kas//as boyadı kaz//az variantı ilə də işlənmişdir. Belə ki, Qəzvin (**Kazbi-n*) adında olduğu kimi, qədim hayca *Kazbı, Kazbuni* deyimlərini qeyd edən qaynaqlar kaspi etnoniminin *kaz* kökünü vermişlər. Xəzərin güneyində Gədik keçidinin və Böyük Qafqaz dağlarında bir neçə keçidin tarixi qaynaqlarda «Kaspi qapısı» adlanması, Gögər (müasir Borçalı) mahalına girən Pompeyin qışı Kür qırağındakı *'Ασπί* (Haspi//Kaspi) adlı yerdə keçirməsi, hərbi qüvvələrdən bəhs edən bir hay qaynağında Kaspi bəyinin Gögər sırasına aid edilməsi, Tiflisdən batıda islamöncəsi qaynaqlarda adı keçən başqa bir *Kaspi* şəhərinin arxeoloji bəlgələrə görə m.ö. I minilin ortalarından mövcud olması, Kolxidadan Xəzər dənizinə gedən yolun *Kaspi* dağından keçməsi, Favst Buzandın Paytakaranda (Aşağı Qarabağ) kaspilərdən bəhs etməsi və bir sıra başqa qaynaqlarda kaspilərin müxtəlif bölgələrdə verilməsi aydın göstərir ki, protoazər boylarının böyük bir hissəsi ümumi «kaspilər» adı ilə tanınmışdır.[749] Kaspi dənizinin yaxası boyunca kaspilərin daha böyük məsafələrə yayıldığını Pomponi Mela və Artemidor da qeyd etmişlər.[750] Herodot da kaspiləri bir-birindən aralı iki (XI, XV) satraplıqda verir.

Antik çağ yazarları kaspi boylarını Xəzərin batı yaxası boyunca Astaradan Dərbəndəcən müxtəlif bölgələrdə qeyd etsələr də, *Kaspiana* bölgəsini əsasən indiki Muğan-Talış bölgəsində verirlər.[751] Lakin hər bir

---

[749] Манандян, 1939, 74; Адонц, 1971, 282; Strabon, II. 39; Дьяконов, 1956, 448.
[750] Акопян, 1987, 50-51.
[751] Strabon, XI. 4. 5.

konkret mətndə Kaspiananın coğrafiyası yalnız tekstoloji baxımdan dəqiqləşdirilə bilər, əks təqdirdə müxtəlif Kaspianalar bir-birinə qarışar.

Belə ki, (Kiçik) Madanın sınırlarını cızan Klavdi Ptolemey (II əsr) doğuda Kaspi dənizi yaxalarında yaşayan *kadus, qel, dribik* (derbik), *anariak, mard* boylarının adını çəkir, batıda (!) isə Ərmən yaxınlığında Madanın batı hissəsində yerləşən *kaspilər* və onlardan aşağıda asurların əraziləri boyunca uzanan Matiena ölkəsindən bəhs edir.[752] Yazar doğuda həm də Part ölkəsinə gedən yolun *Kaspi* qapısından keçdiyini göstərir.[753] Göründüyü kimi, Azərbiqanın doğusunda olduğu kimi, batısında da kaspilər vardı. Ona görə də aşağıda Strabondan verəcəyimiz sitatda ermən çarı Artaşesin Azərbiqandan qopardığı Kaspiana bölgəsi doğudakı deyil, batıdakı Kaspianadır. Yəni «Böyük Armeniya» sınırı doğuda Xəzərəcən deyil, Ağrı dağının doğu ətəklərinəcən uzanır.

Antik yazar Polibi (m.ö.II) özündən bir əsr öncə Atropaten elinin Xəzər dənizinin güneyindən (Hirkan) Qara dənizə (Ponta) qədər uzandığını qeyd edir (*Polyb.* V. 55). Sovetlər dönəmində rus tarixçilərinin son tədqiqatlarını ümumiləşdirən 3 cildlik «Qədim dünya tarixi» (1982-1983) kitabında kollektiv müəlliflərin yazdığı bölmədə deyilir ki, sonrakı Kiçik Mada (Azərbiqan) dövlətinin əhatə etdiyi ərazilərlə siyasi və qohumluq bağı olan Atropatın varisliklə əvvəldən Mada çarı olduğunu düşünməyə əsas vardır, özəlliklə III Daranın çağında o, alban və başqa Güney Qafqazın doğu boyları ilə müttəfiq idi, hətta onun dostluq bağları Quzey Qafqaz bozqırlarınacan uzanırdı və Alban-Azərbiqan bağı m.ö. IV-II əsrə aid arxeoloji bəlgələrdə də aydın görünür.[754] Əlbəttə, bu bağların əsasında müxtəlif adlar daşıyan protoazər boylarının eyni etnik kökdən olması faktoru dururdu. Atropatın çağında Azərbiqan elinin quzey sınırlarının qafqazdilli boyların məskunlaşdığı bölgələrə qədər uzanması da təbii idi. Əhəməni çağında perslərin Arazdan quzeyə yürüşü II Kuruşun ölümü ilə nəticələnsə də, sonralar I Daranın vaxtında pers orduları Qafqaz dağlarınacan gedib çıxa bilmiş və Güney Qafqaz satraplıqları qurulmuşdu. Atropatın idarə etdiyi satraplığa quzeydə Gögər və İber əraziləri də daxil idi. Lakin saqalardan quzeydə olan Kambisena, Ereti, Kaxeti bölgələri və udilərin yaşadığı bölgə Atropata tabe deyildi.

---

752 Ptolemey, VI. 2. 5; ВДИ, №2, 1948, 482; Mətndə *Matiena* əvəzinə yanlış olaraq *Margiana* yazılmışdır.

753 Алиев, 1989, 9-10.

754 ИДМ, II. 1983, 404.

Azərbiqan elinin batı qonşularına keçməzdən öncə Əhəmənilərin XVIII və XIX satrapiyaları olan bölgələrin etnik durumuna baxaq. Atropatın idarə etdiyi X satrapiyanın quzey-batı və kolxların güney qonşuluğunda yerləşən XIX bölgədə mosx, tibaren, makron, mosinoyk və mar boyları yaşayırdı. Əhəməni dövləti dağılandan sonra Atropat Azərbiqan elini qurduğu kimi, antik qaynaqlarda Mitridat adlanan XIX satrapiyanın pers soylu satrapı II Mihirdat (300-266) da idarə etdiyi bölgədə Pont çarlığını qurdu. Bu bölgədən aşağıdakı XVIII satrapiyada matien, saspeyr və alarodi boyları yaşayırdı. Sadalanan boyların əksəri qafqazdilli olsa da, onların sırasında tibaren, saspeyr və matienlər türk idi.[755] Gögərlərdən batıda yaşayan *subar* boylarının adını bəzi yazarlar *saspeyr* şəklində, bəziləri də *spor* şəklində yazmışdır.[756]




Herodotun verdiyi məlumata görə, Mada (Media) ilə Kolx arasında subarlar yaşayır: «Kolxisdən sonra Mediaya qədər keçiləcək yol o qədər çox deyil, zira bu iki bölgə arasında tək bir ulus vardır, bunlar **saspeir**′lərdir və onları arxada buraxanda, artıq Mediadır».[757] Göründüyü kimi, müasir İspir (Spir) və Bayburd bölgələri vaxtilə İkiçayarasındakı Subartudan bura köçən subarların məskəni idi. Başqa sözlə, Azərbiqanın quzeyində *azər*, *kəngər, gögər, kaspi, saqa* quzey-batı qonşuluğunda isə *subar* adlı türk boyları vardı.

Subarlardan batıda və güneydə *qamər* boylarının yerləşməsi haqqında «Qamər bəyliyi» bölməsində bilgi verilmişdi. Van gölü ilə Qamər bəyliyi arasında vaxtilə Urartuya tabe olan bölgə subar boylarının bir qolu olan *ermən* boyu yaşayırdı. Mada elinin Anadoluda kiçik bir parçası sayı-

---

[755] Antik yazarların *saspeyr* kimi verdiyi *subar* boylarından əvvəlki bölmələrdə geniş məlumat vermişdik. Matien və tibaren boyları haqqında məlumat isə IX bitikdə verilir.

[756] АИОСК, 1990, 46.

[757] Herodot, I. 104.

lan bu bölgə Əhəməni şahı I Daranın vaxtında perslərə tabe idi, Selevki çağında da burada Ermən canişinliyi vardı. Atropatın vaxtında Azərbiqan elinin batı qonşusu sayılan Ermən bölgəsi yalnız m.ö. II əsrin əvvəlində Selevkilərin burada strateqi olmuş Artaşesin səyilə müstəqil dövlətə çevrilə bildi. Ermən bölgəsindən güneydə *matien* boylarının məskunlaşdığı ərazi Azərbiqanın batı sınırı boyunca uzanırdı.[758]

Azərbiqanın batı qonşuları ermənlərin guya *hay*, matienlərin *hurri* boyları olması haqqında yanlış fikirlərə aydınlıq gətirmək üçün II Bitikdə *ermən* və *mitan* (müyten) etnonimlərinin yaxın fonetik variantlarla Qazax, Özbək, Türkmən və Başqord ellərində işlənməsi haqqında geniş məlumat verilsə də, burada bir daha təkrar edək ki, Zərəfşandakı mitanların Urmu gölü yaxasından köçüb gəlməsi haqqında bəlgələr vardır.[759] Səmərqənd vilayətindəki *Mitan*, *Mitanbazar* toponimlərindən V. V. Radlov da bəhs etmişdir.[760]

İkiçayarasının quzeyində hurri və mitan boylarının qurduğu qüdrətli Mitan dövləti dağılandan sonra mitan boylarının bir qismi zaman-zaman Anadolu, bir qismi Azərbaycan və Orta Asiya bölgələrinə köçmüşdülər. Artıq Herodotun dövrundə mitan boyları Urmu gölü hövzədə görünürdü, Strabonun vaxtında isə Erməniyə ilə Atropaten arasındakı *Matien* ərazisi (Kiçik) Mada ölkəsinin əyaləti adlanırdı. Qızılüzən çayını da *Araz* adlandıran Herodot yazır ki, bu çay Matien dağlarından başlanır.[761]

Sonralar Sasani çağında Urmu gölündən quzey-batı bölgənin Persarmeniya (*Parska-hayk*) adlandığını vurğulayan. N. Adons bunu yazır: «Gətirilən bəlgələr göstərir ki, bu rayon da Ərməniyə mərzbanlığına aid deyildi».[762] Ermənıyə və İberiyada nüfuzlu soylardan Baqratların ilkin ata yurdu Adərbiqanın bu quzey-batı bölgəsindəki Baqravand sayılır.[763]

---

[758] Herodotun vaxtında «Böyük Armeniya» uzunluğu 310 km olan bir ölkə idi. Hətta onun doğu qonşusu olan Matien ərazisi uzunluğuna görə (750 km) ondan ikiqat artıq idi (Herodot, V. 52); Həmin Armeniya isə bura sonradan gələn hayların deyil, *ərmən* boylarının ölkəsi idi. Türkcə olan *ermən* etnoniminin yaranma, işlənmə və yayılma tarixi II Bitikdə verilmişdir. Doğuya miqrasiya edən türklərdə ermən etnonimi teonim kimi də işlənmişdir. Teleut şamanlarına görə *Ermen kan* göyün üçüncü qatında yaşayır.

[759] Толстова, 1971, 246-253.

[760] Радлов, 1989, 535, 539, 560.

[761] Herodot, I. 202.

[762] Адонц, 1971, 224; «Aşxaratsuts» adlı qədim hay qaynağı həmin bölgədən güneydə yerləşən Kust-i Xorvaran vilayətində *Kaşkar* yeradını verir (Арутюнян, 1979, 22).

[763] Адонц, 1971, 307-308.

Ümumiyətlə, hay tarixində önəmli rol oynamış məşhur sülalələrin çoxu hay mənşəli deyil. M. Xorenatsi Baqratlar, Artsrunilər, Qnunilər, Qitunilər, Mamikonlar, Muratsanlar, Vənəndlilər, Vaykunilər, Amatunlar, Aravelyanlar, Ropsalyanlar və sair məşhur ermən soylarını haylardan saymır.[764] M. Xorenatsi madalı Ərbəyin (Arbakın) Ermənıyə bölgəsinə təyin etdiyi «ilk hay hökmdarı» Paruyrun da hay deyil, *saqaoğlu* (skayodi) olduğunu vurğulayır.[765] Bu sıraya partsoylu Karen, Suren adları da daxildir.

Göründüyü kimi, Doğu Anadoluda ortaya çıxan Erməniyə ölkəsinə hayların gəlib «erməniləşməsi» olayına qədər buralarda «hay» izindən daha çox başqa xalqların, o cümlədən türklərin izi vardır və təsadüfi deyil ki, Malazgird savaşında rumlar tərəfində olan yerli xristian türklərin çoxu savaş başlananda Alparslanın tərəfinə keçdi. Maraqlıdır ki, hələ VI əsrdə Erməniyənin iç bölgələrində də türk adları qalmışdı. Fərata qoşulan müasir Tuzlusu çayını Manali çayı kimi verən və *man* boyunun yaşadığı bu kiçik bölgədə *Paxır* («mis») dağı və Koter (*Qotur*) kəndi olduğunu qeyd edən Aristakes Lastivertlinin məlumatına görə, Mananali (*Manalı*) tərəflərdə Şiri qalası yaxınlığında yaşayan it ləqəbli eretik Kundzik (*Kuncıq*) xristian dinindən azdırdığı adamlardan başqa, *Kaşe* və *Ağus* kəndlərindən soylu üç qadını da bu yola qoşmuşdu.[766]

Hayların başlanmış erməniləşmə prosesi xristianlığın yayıldığı ilk çağlarda intensivləşmişdir. Belə ki, Alban türklərinin ardınca Erməniyə türklərinin xristianlığı qəbul etməsi ilə *ermən* etnonimi əlavə «xristian» anlamı da qazandı. Zatən, Ermən bölgəsinə gəlib yerləşən haylar qonşularının gözündə *erməniyəli* idi və xristianlaşmış haylara *erməni* (xristian) deyilməsi təbii idi. Lakin hay qaynaqlarının özü hələ bir neçə əsr Ermən (Armen) ilə Hayk toponimlərini ayrı-ayrı ölkə adı kimi verirdi.[767] Akademik Q. Kapansyan hayların erməniləşmə tarixini bir neçə əsr qədimə çəksə

---

[764] Хоренаци, II. 8; Акопян, 1987, 146.

[765] Хоренаци, I. 22; Mada elinə tabe olan Ermən çarlığının m.ö. VI əsrdən mövcud olduğunu yazan Ksenofont çarın adını çəkməsə də, onun üç oğlunun adını sadalayır: *Tiqran, Sabaris*, *Embas.* Bulardan birincisi pers, sonrakılar isə subar adıdır.

[766] Адонц, 1971, 49-51.

[767] Belə ki, «Aşxaratsuts» (VII əsr) Qafqaz vilayətinə (Kustak-i Kapkoh) daxil olan ölkələr sırasında «*Atrpatakan, Armn, Hayk, Varcan hansı ki Virk, Ran hansı ki Aluank*» deyimi ilə sadaladığı sırada Aran adının Alban, Varcan adının İber olduğunu vurğulasa da, Ermən ilə Hayk arasında «hansı ki» (*որ է*) deyimi yoxdur, bunu tərcüməçilər artırmışdır (Арутюнян, 1979, 22).

də, onun bu fikri ilə razılaşmaq olar ki, öz dilinə və mədəniyyətinə görə Erməniyə ölkəsinin xalqı hurri-subar etnik boylarına aid idi, haylar isə tarixi Urartunu etnik-mədəni və siyasi cəhətdən mənimsəmiş və yerli əhali ilə davam edən qovuşma bir-iki əsrdən sonra başa çatmışdır.[768]

K. V. Trever yazır ki, ilk «Böyük Erməniyə» dövlətini quran Artaşesin milli mənşəyi bəlli deyil.[769] Sonralar Erməniyədə hakimiyəti uzun sürən Ərsaqlar sülaləsi də hay deyil və bunu K. Prokopi 560-da yazdığı «Tikintilər haqqında» əsərində özəlliklə vurğulayır: «*Heç kim düşünməsin ki, Arsaklar erməni soyludur*».[770]

Beləliklə, Azərbiqanın batı qonşuluğunda olan Erməniyə ölkəsinin yerli əhalisi türklər və Urartu çağından qalma qafqazdilli boylar idi. Bura gələn haylar yerli ermən türkləri kimi xristianlaşıb «erməni» oldular. Bu baxımdan, qədim ermən tarixi ilə sonrakı hay-ermən tarixini ayırmayan uzmanlar, özəlliklə qədim hay tarixçiləri gerçək durumu təhrif etmiş və din (kilisə) tarixini xalqın tarixi kimi qələmə almışlar.[771]

Əvvəllər kiçik ölkə olan Erməniyənin öncə perslərə, sonra makedoniyalılara və Selevkilərə tabe olduğunu deyən Strabon yazır: «Sonra romalılarla döyüşən Böyük Antioxun strateqləri Artaksi və Zariadri ölkəni iki hissəyə ayırdı. Çarın təyinatı ilə onlar ölkəni idarə etdilər. Çar məğlubiyətə uğrayanda onlar romalılar tərəfinə keçdilər və özlərini çar elan edib müstəqil oldular. Artaksinin xələfi Tiqran sözün əsl mənasında Armeniyaya hakim oldu».[772]

---

[768] «... Urartu əhalisi kimi, subar-arimelərin də *haylaşması* prosesi başa çatdığı üçün biz artıq yunanca formalaşmış (*armen-oi, Armen-ia*) yeni, həm də mümkün qədər hay dili dominantı ilə ***armen*** adı altında yeni etnik keyfiyət düşünməliyik» (Капанцян 1947, 209).

[769] Тревер 1953, 165; Lakin Artaşesin madalı olması bəllidir və adının müxtəlif dillərdə yazılış formalarını (hayca *Artaş*, *Artaşes,* yunan əlifbasında «ş» səsi olmadığı üçün *Artaksiy*) diqqətə alanda bu adın türkcə *Ərtaş* olduğunu görmək olur. Artaşes özü isə adını yunan-makedon deyiminə bənzətmək üçün *Artaxşasi* yazdırırdı.

[770] Prokopiy, III. 1. 4; ВДИ, №4, 1939

[771] Doğrudur, hayların «erməniləşməsi» xristianlaşma olayı idisə, İslamdan sonra bəzi xristian türklərin (ermən və alban) kilisə yolu ilə «haylaşması» etnik aşılanma idi

[772] Strabon, XI. 14. 5; 14. 15; Rus tarixçiləri yazır: «Belə çarların gerçək hakimiyəti Parfiyadakı ümumi siyasi durumdan asılı olurdu. Əsirlikdə olan erməni şahzadəsi Tiqran onu Armeniya taxtına qaytaracağı təqdirdə Atropaten ərazizindən Parfiyaya «*70 dərə*» verəcəyini vəd edərək II Mitridatı razı sala bildi, m.ö. 95-də II Böyük Tiqran Armeniya çarı oldu» (ИДМ, II, 1983, 406-407).

İlk dəfə «Böyük Ermənİyə» dövlətini quran və qonşu ölkələrin torpaqlarını zəbt edib Ermənİyə dövlətinə qatan Artaşes (Artaksi) haqqında Strabonun qeydini və Artaşeslə bağlı bir yazılı bəlgəni gözdən keçirmək lazım gəlir, çünki bir-birini tamamlayan bu tarixi sənədlərin yanlış şərhi «Böyük Ermənİyə» mifini ortaya çıxarmışdır.

Selevki hökmdarı III Antiox romalılara Maqneziya savaşında məğlub olanda onun romalılar tərəfə keçən strategi Artaşes fürsətdən istifadə edib özünü Ermənİyə çarı elan edir. Beləliklə, I Artaşes (m.ö.189-160) ilk müstəqil Ermən dövlətinin hökmdarı olur. Onun İberiyadan və Kiçik Madadan (Azərbiqandan) qopardığı bölgələri Strabon belə verir: «Onlar madalıların *Kaspiana, Favnitid, Basoroped*, iberlərin isə *Pariadr* dağının ətəklərini, *Xorzena* və Kürün o biri tərəfində olan *Qoqarena* bölgələrini zəbt etdilər».[773] Aşağıdakı sxemdən də göründüyü kimi, Artaşes Ermənİyənin quzey-doğu qonşuluğunda olan bölgələri zəbt etmişdi və burada adı keçən *Kaspiana* Strabonun Albaniya tərkibində verdiyi (XI. 4. 5) Arazın aşağı axarındakı *Kaspiana* yox, Arpa çayından quzeydəki *Kaspi* yurdu və ya Van gölündən doğuda Arazın orta axarında olan və buna aid yuxarıda Klavdi Ptolemeydən sitat gətirdiyimiz Kaspiana idi.[774]

Beləliklə, Artaşesin tutduğu Kaspiana Azərbiqanın quzey-batısında Matienadan quzeydə yerləşirdi. Kaspiananın qonşuluğunda Favnitidanın (əgər bu Favena deyilsə) dəqiq yeri bəlli deyil, lakin Basoropeda sonrakı *Vaspurakan* və ya Göycə gölü yaxasında olan basar boy-




[773] Strabon, XI. 14. 5.

[774] Bu baxımdan, iberlərdən qoparılan Pariadr dağının güney ətəkləri olmalı idi, çünki bu dağın arxasında (quzeydə) Kolxida idi. Həmin dağətəyindən güneydə isə Xorsena, yəni müasir Qars vilayəti (N. Emin buranı Vənənd sayır) gəlir, Qoqarena isə Xorsena bölgəsindən doğuda idi. Artaşesin zəbt etdiyi ərazilərdən Basoropeda sonrakı qaynaqlarda verilən Vaspurankan//Basfurcan adına oxşayır. Lakin Göycə gölü yaxasında *basar* boyunun (*basar-bud) məskəni olması da mümkündür, sonrakı *Basarkeçər* adında bunu görürük. Strabonun verdiyi *Favnitid* bölgəsi isə yazarın Göycə gölündən yuxarıda «ən quzey ermənİ bölgəsi» kimi qeyd etdiyi *Favena* ilə eynidir (Strabon, XI. 14. 4).

unun *Basarkeçər* adlı məskəni ola bilər. Göycə gölü yaxasında tapılan Artaşeslə bağlı aşağıdakı yazılı bəlgələr Strabonun verdiyi məlumatı təsdiq edir. Belə ki, Artaşeş Albaniyadan yox, Azərbiqandan (Atropatendən) üç bölgə, həm də Ermən ölkəsinə *yaxın* (qonşu) bölgələri zəbt etmişdi.

M. Xorenatsi yazır ki, torpaq reforması aparan Erməniyə hökmdarı Artaşesin vaxtında feodal mülklərini və ayrı-ayrı bölgəri bir-birindən ayırmaq üçün sınırlarda torpağın üstündə azacıq başı görünən dördkünc şəkildə yonulmuş daş bəlgələrindən istifadə olunurdu.[775] Yzərində yazısı olan bu sınır bəlgəsi daşlarından ikisi keçən əsrin əvvəlində Göycə gölünün batı və doğu yaxasındakı Qulalı və Yuxarı Qaranlıq kəndlərindən, sonralar bir neçəsi də Zəngəzur mahalından tapılmışdır. Aramey hərflərilə yazılmış həmin yazıları aramey, pers, hay, udi dillərində oxumaq istəyən uzmanlar hələlik qəbul olunası bir nəticə əldə edə bilməmişlər.[776] Sağdan sola yazılan bu yazıların m.ö. II əsrə aid olduğunu vurğulayan əksər uzmanlar onun soldan sağa transkripsiyasını belə verirlər: [777]



1-ci yazı: *‘rtxşsi mlkbrzi zritr rvndknxlt*

2-ci yazı: *[‘r]txşsi [ml]kbrzi [zr]itr xl[t] ...bin...i...*

Burada 1-ci daşın yazısındakı son sətirin ilk işarəsi «*r*» hərfilə verilmişdir, halbuki daşdakı yazıya diqqətlə baxılanda onun «*b*» hərfi olduğunu seçmək olur və nədənsə 2-ci yazının transkripsiyasında 4-cü sətirin ilk «*n*» hərfi də buraxılmışdır. Aramey yazısında bəzən eyni və ya oxşar işarə iki ayrı-ayrı səsi bildirir, örnəyin, Arşak (Ərsaq) sikkələrində | işarəsi «*z*» və «*y*» səslərini bildirir.[778] Lakin z//y fərqi buradakı yazının oxunuşuna mane olmur, çünki qədim türk dialekt fərqi (ayaq//azaq, yer//zer) bu mətndə iki sözdə işlənmiş | işarəsinin hər iki dialektdə (y//z) oxunmasına imkan verir. Ayrı-ayrı uzmanlar hər iki daşdakı yazının şəklini belə verirlər:

---

[775] Хоренаци, 1858, 127 (II. 56).

[776] МПИДА, 1935, 207-208; 217-219; Борисов, 1946; ИДМ, I. 1983, 406.

[777] Борисов, 1946, 99; Tanınmış semitoloq həmin yazıları belə tərcümə etmək istəmişdir. 1-ci yazı: «Арташес, царь, сын Заритара идущие (?). ХЛТ(?)»; 2-ci yazı: «Арташес, царь, сын Заритара ХЛТ(?)… между (среди)».

[778] Фридрих, 1979, 273.



1. Birinci yazılı daş    2. İkinci yazılı daş

Bu yazıların aramey əlifbası ilə olduğunu söyləyən tədqiqatçılar yazının hansı dildə (udi, hay, iran, aramey) olmasını müəyyən edə bilmirlər, yalnız «yerli dillərdən biri» olacağını söyləyirlər.[779] Yazının tapıldığı bölgədə Urartu və Saqa eli çağından protoazər boylarının yaşadığını yuxarıda söyləmişdik. İlk Ərmən dövlətinin formalaşdığı çağda (m.ö. II əsr) bu bölgəyə başqa etnik boyların sızması da mümkündür, ancaq yazılar yerli (aborigenlər) azər türklərinin dilində oxuna bilir. Belə ki, 1-ci daşın üzərindəki dörd sətirlik yazı uzmanların verdiyi transkripsiya ilə azər türkcəsində («*y*» dialektində) belə oxunur:[780]

| **transkripsiyası** | **oxunuşu** | **anlamı** |
|---|---|---|
| *artğşsi* | *Artağşasi* | Artaşes |
| *mlkbryi* | *məlik birəyi* | məlik birəyi (mərzi) |
| *yritr* | *yeritir* | yeridir. |
| *bvndknğlt* | *bunda konğıltı* | Buraya qonduruldu (qoyuldu). |

---

[779] Geniş məlumat üçün bax: Борисов, 1946, 100-104; Тревер, 1953, 165-162.

[780] Əgər bu yazını «*z*» dialektilə oxusaq, onda *birəyi yeridir* əvəzinə *bərzi zeritir* (mərz yeri) deyimi alınır ki, bu da dialekt fərqi kimi burada anlam pozuntusuna səbəb olmur. Buradakı *bryi* kimi yazılmış söz *barıyı* (barısı), *bəriyi*, *beriyi* və *birəyi* şəklində oxuna bilir. Qədim türk dilində *barık* «görünən nəsnə» (MK, I. 456-2; ДТС, 84), *berik* «bərkidilmiş», *birə* «ölçü» (ДТС, 95,101) və *beri* «bu tərəf, sağ, güney» sözləri vardır və bunlardan ölçü anlamlı *birə* (mərz) sözü mətnin məzmununa daha uyğun gəlir.

Azərbiqan elinin quzey sınırlarını dəqiqləşdirmək baxımından bu yazının tarixi əhəmiyəti olduğu kimi, qədim türkcə bir yazı örnəyi kimi də dəyərlidir:




İkinci daşın yazısında isə sözlərin ilk hissələri pozulduğundan onu oxumaq olmur. Ancaq həmin daşın da sınır bəlgəsi olub, üzərindəki yazının məzmunca əvvəlki yazıya yaxınlığı görünür:

[…]tğşsi [...]k bryi [...]itr ğl [...]nbin [...]i

Ermənistan Elmlər Akademiyasında saxlanan həmin bəlgə daşların Azərbiqanın Göycə gölü yaxasında qədim əhalisi haqqında verdiyi bilgi çox önəmlidir. Artaşesin göstərişilə iki sahə arasındakı sınırda qoyulmuş və 2000 ildən artıq torpaq altında qalmış mərz daşının üzərindəki bu yazı həm də azər dilinin ən qədim yazı nümunəsidir.

Göründüyü kimi, o çağlarda Ön Asiyanın müxtəlif bölgələrində işlənən aramey yazısı Göycə hövzəsinə də gəlib çatmış və yuxarıdakı mətn də azər dilində bu yazı ilə yazılmışdır. İcmaları əhatə edən kənd, qəsəbə anlamında hayca *qevl*, şəxsi mülk sayılan sahələri, tarlaları bildirən *aqarak* sınırlarında (*sahmank*) sınır daşlarının qoyulması qədim hay qaynaqlarında qeyd olunsa da, gözdən keçirdiyimiz daşlar üzərindəki yazıda *qevl*, *aqarak*, *sahmank* sözlərinin heç biri yoxdur. M. Xorenatsinin bu daşları görüb də üzərindəki yazı haqqında bilgi verməməsinin sual doğurduğunu vurğulayan Q. X. Sarkisyan yazır ki, o həmin aramey yazılarını oxuya bilməmişdir.[781]

[781] Саркисян, 1979, 71; Əvvəla, yunan və aramey qaynaqlarından gen-bol istifadə edə bilən Xorenatsi özü həmin daşları görməyə bilərdi və əgər görmüşsə, oradakı yazıları oxuya bilərdi, ikincisi də, əgər oxuyub onun azər dilində olduğunu görəndə susmuşsa, deməli hay tarixçilərinin atası sayılan bu zat da tarix qarşısında üzüqaradır.

Ümumiyətlə, Herodotun vaxtında uzunluğu 300 km olan Erməniyə ölkəsində yerli türk (subar, mitan, ermən, qamər, saqa, kuman və s.), qafqazdilli (hurri, urartu-alarodi) və gəlmə hay boyları yaşayırdı. Görünür, Əhəməni və Mada satrapiyası olan bu vilayətə pers, mad (*mar*), man və part ailələri də köçürülmüşdür. Erməniyədə boyük imtiyaz sahibləri olan sülalələrin çoxu mənşəcə hay deyildi.[782] Yuxarıda adını çəkdiyimiz belə ailələrin sırasına partsoylu Ərsaq, Ərtaş, Karen, Suren, Spendiar, Mihran kimi imtiyazlı ailələri də əlavə edəndə və hakimiyətdə çox vaxt hay deyil, saqa, part, azər (azərbiqanlı) və pers soylu hökmdarların olduğunu diqqətə alanda ölkə əhalisinin ayrı-ayrı bölgələrdə türk, pers və hay dillərində danışdığını düşünmək olar. Yazı işlərisə hay əlifbası yaranana qədər (V əsr) yunan və aramey yazıları ilə aparılmışdır. M. Xorenatsi ilk xristianlığı yayan müqəddəs Qriqorisin atası Anak bəyin də partsoylu Surenin nəslindən olduğunu yazır.[783]

Beləliklə, Azərbiqan elinin quzey qonşuları sırasında tərkibində çox və ya az sayda protoazər boyları olan Alban, Saqa, İber, Kolx və Ermən adlı müxtəlif siyasi qurumlar vardı.[784] Azərbiqanın güney qonşuları isə vahid Selevki canişinliyi sayılan Böyük Mada ilə sınırlanmışdı və qonşu bölgələrdə kassi, babil, elam, pars və part boyları yaşayırdı. Azərbiqanın güney-batı qonşuluğunda quldurluqla məşğul olan dağlılardan danışan Strabon onlardan *kirti* və *mard* tayfalarının Zaqros dağlarının uzandığı Persida bölgəsində və Ərməniyədə yaşadığını qeyd edir.[785]

Azərbiqanın Xəzər boyunca uzanan doğu sınırında müxtəlif adlı boyların yaşadığını qeyd edən antik yazarlar quzeydən güneyə saqa, viti, alban, kaspi, kadus, gel, mard (amard), anariak boylarının, Xəzərin güney və güney-doğu yaxasına yaxın bölgələrdə isə hirkan, tapir, dareyt, enian,

---

782 Müxtəlif çağlarda ayrı-ayrı dövlətlərin Erməniyədə canişini olmuş «hay çarları» Paruyr (saqa), Orontilər-Yervandilər (pers), Arşaklar (part) və başqaları hay deyildi. Part-Roma qarşıdurmaları davam edən çağlarda bəzən Atropatlar sülaləsindən (azərlər) Erməniyə çarı olmuşdur. Soylu ailələrin bir qismi də Azərbiqandan Ermənəyəyə köçmüşlər. N. Adons qeyd edir ki, ərəb qaynaqlarına görə *karenlər* Nəhavənd sakinləri imiş (Адонц, 1971, 440, 1-ci qeyd).

783 Хоренаци, 1858, 141; (II. LXXIV).

784 Artaşes ilə bağlı Ermənıyənin müstəqillik tarixini E. Bikerman bir az fərqli verir. O yazır ki, Artaksinin suverenliyi m.ö. 183-də tanındı, lakin m.ö. 165-də onu IV Antiox özünə tabe olmağa məcbur etdi (Бикерман, 1985, 156).

785 Strabon, XI. 13. 3; Olsun ki, sonralar fars dilinə keçən dağlı *kürd* boyları həmin kirtilər imiş.

parras, parsi, pavsik, daxi (dai), pantimat və sair boyların adını sadalayır. Adı çəkilən boylardan Atropatın çağında saqa, alban, kaspi və kaduslar Azərbiqanın müttəfiqi, digər boylar isə öncə İskəndərin ayrıca canişinlik kimi ayırdığı Böyük Madanın, daha sonralar isə Part eli yarananda onun tərkibində idi.[786]

Azərbiqan eli qurulana qədər ölkənin etnik demoqrafiyasında bəzi dəyişmələr baş vermişdi. Quzey bölgələrə qayıdan saqa-qamər boyları, batıdan gələn mitan boyları əhalinin sıxlığını artırmışdı. Əhəmənilər isə Xəzər yaxası bölgələrdən batı ölkələrə xeyli əhali köçürmüşdü. Belə ki, Misirdəki Memfis şəhərində və Elefantin adasında «kaspi məhəlləsi» vardı, Lidiyada isə hirkanların yerləşdiyi yer «Hirkan ovalığı adlanırdı». Bu köçkünlərin hellin çağında yerli əhali və ya makedoniyalı əskərlərlə qarışıq yaşadığı kəndlərin əhalisinə «katek» (qatıq) deyilirdi.[787]

Antik çağ yazarlarının *kadus* (kadusi), hay qaynaqlarının *kateş* adlandırdığı boylar Xəzərin güney-batı yaxasındakı böyük zolaqda yaşayan yerli aborigenlərdən idi. Ktesiyə görə, kaduslar mad boylarından deyildi, hətta onlar madlara düşmən idilər. Lakin yazarın bu qeydində türksoylu və yaxud ariyansoylu madların nəzərdə tutulması bəlli deyil. Strabonun vaxtında aryanlardan fərqlənən kaduslar hələ aryan (pers) dilinin təsiri altına düşməmişdi, görünür, onların çoxu bu təsirə Sasani çağında uğramışlar, lakin kadus//kateş boyunun hansı çağdan türkcə *talış* etnonimini daşıması da bəlli deyil, çünki Güney Qafqazın müxtəlif bölgələrində məskunlaşan *talıs* boylarının Türküstandan gəlmə tarixi qaynaqlarda qeyd olunmamışdır. Strabon yazırdı: «Kaduslar piyadaların sayına görə, aryanlardan azdır; yaxşı cida (mizraq) atırlar; dağlıq yerlərdə süvarilərlə birgə döyüşürlər».[788]

Görünür, yalnız Atropat çağında onun müttəfiqi kimi savaşlara qatılan kaduslar nə Mada, nə də Əhəməni dövlətinə tabe olmamışlar. Tarixi

---

[786] *Tapir* boyunu *hirkan* və *aryan* (ari) boyları arasında verən Strabon əsərinin müxtəlif bölmələrində Xəzərin batı yaxası boyunca quzeydən güneyə *saqa* (skit), *uti* (viti), *kaspi*, *alban*, *gel, kadus, anariak, amard* və *hirkan* boylarının adını çəkir, Hirkaniyaya yaxın bölgədə məskunlaşmış *dailərin* bir qismini *aparn* adlandığını qeyd edir, Xəzər (Hirkan) dənizindən aryanların məskəninə qədər məsafənin min kilometrdən artıq (6 min stadi) olduğunu yazır (Strabon, XI. 8. 1-8); Yazarın qeyd etdiyi *aparn* boyadının sonrakı *abar* (avar) boyuna və ya partların *parn* boyuna aid olduğunu düşünmək olar.

[787] ИДМ, II. 1983, 336.

[788] Strabon, XI. 13. 4.

qaynaqlar göstərir ki, çox cəngavər olan kadus boyları İskəndərə də tabe olmamışdır. İskəndər Kiçik Madanın güney-doğu sınırında tapur, amard boylarının torpaqlarını zəbt etsə də, kadusların bölgəsinə girə bilməmişdi. Ksenofont *kadus* və *saqa* boylarının yerləşdiyi məkanı və onların gücünü bir hirkanlının dili ilə belə verir: «Asur çarının ən qatı düşməni çoxsaylı qoçaq kaduslar və əlbəttə, qonşumuz saklardır, çünki bizim kimi onlara da zülm etmək istəyən asur çarından xeyli əziyət çəkmişlər».[789]

Bəllidir ki, asurlar Orta Asiya saqaları ilə qarşılaşmamışlar, deməli, yazarın qeyd etdiyi boylar Hirkaniyanın qonşuluğundakı kaduslara və saqalara aiddir ki, bu da Mana eli çağındakı Zikertu//Saqarti bölgəsinə uyğun gəlir. Buradan güneyə köçən saqartilər isə perslərlə qarışıb irandilli olsalar da, bu köçəri boyun süvariləri bəzi türk gələnəyini Herodotun çağınacan saxlamışdılar. Belə ki, saqartiləri artıq pers boylarından biri kimi verən yazar, eyni zamanda, onların savaşda istifadə etdiyi *arkan* (kəmənd) haqqında da məlumat verir ki, bu da qədim türk süvarilərinə aid bir gələnəkdir.[790]

Azərbiqanın doğu və güney-doğu sınırlarında *mard, gel* və sair bu kimi irandilli (*ariak*) boylarla aryan olmayan (*anariak*) yerli tayfaların qarışması prosesi başlansa da, Azərbiqanda türklərin irandilli boylara çevrilməsi olayı gerçəkləşməmişdir, belə ki, «bir sıra hallarda ünsiyyət nəticəsində qarşılıqlı leksik mənimsəmələr şəraitində türk boyları öz dilini saxlamış və Azərbaycan türk dilinin yetkinləşməsi prosesi başlamışdı».[791] Əvvəllər *anariak* adlanan bəzi boyların persləşməsi olayını Strabon da qeyd etmişdir. Azərbiqanın quzey-batı sınırındakı bölgələrdəsə urartulardan qalma qafqazdilli *udi* və güman ki, sonralar türkləşmiş *naxçı* boyları vardı.

Beləliklə, Azərbiqanın tarixi coğrafiyası içində əvvəllər bəlli olan qut, subar, turuk, kuman, man, zəngi, polad, qapan və sair bu kimi onlarla türk boyadlarının artıq hellin çağı qaynaqlarında yad olunmaması göstərir ki, protoazər boylarının əksəri inteqrasiya olayını bir neçə əsr davam edən Azərbiqan eli çağında yaşamışlar. Artıq yerli oturaq protoazərlərlə zaman-zaman Azərbiqana qayıtmış yarımköçəri türk boyları da qaynayıb-qarışırdı və azər//xəzər//kaspi, alban//aran adlaraı altında bölgəsəl boylar dialekt

---

[789] Ксенофонт, 1976, 113; (Киропедия, V. II. 25).

[790] Herodot, VII, 85.

[791] AT, 1994, 133.

özəlliklərini saxlasalar da, onların əsasında bütövləşən *azər* xalqı formalaşırdı. Ona görə də, Azərbiqan əhalisinin həmin çağlardan başlayaraq *azər* və *azərbi* adlanması təbii idi .[792]

Göründüyü kimi, Mada elinin süqutundan 220 il (Əhəməni çağı) keçəndən sonra keçmiş Mana elinin coğrafiyası daxilində yenidən protoazər boylarının *Azərbiqan* (Kiçik Mada) adlı dövləti yarandı. Yerli və gəlmə boyların sintezindən yaranan *azər* xalqının burada tarixi kökləri qədim olsa da, protoazər boylarının bir xalq kimi formalaşması Azərbiqan eli çağında gerçəkləşdi. Gəlmə-yerli sintezi təkcə etnolinqvistik sahədə deyil, söz sənətində, musiqidə, etnoqrafik və təsərrüfat sahələrində də özünü göstərirdi.

Azərbiqan elinin yerləşdiyi ərazilərin daha qədim arxeoloji kulturu burada qədim çağlardan mövcüd olan təsərrüfat növlərinin diaxronik inkişafını, gələnəksəl yaşam tərzinin yeni çalarlarla davam etdiyini göstərir. Protoazər boylarının əsas hissəsi oturaq yaşamla keçinirdi, lakin məhsuldar torpaqlarda əkinçiliklə heyvandarlığın sintezini gerçəkləşdirən yarımoturaq və əsasən heyvandarlıqla məşğul olub, yaylaq-qışlaq yaşamı ilə keçinən yarımköçəri boyların demoqrafik çəkisi də Quzey Qafqaz, Doğu Avropa və Orta Asiya bozqırlırından qayıdıb azər türklərinə qarışan bəzi türk boyları ilə artmışdı.

Ölkədə çoxlu faydalı qazıntı yataqları vardı, burada qurğuşun, mis, qızıl, gümüş əldə olunur, dəmir istehsalı ilə metallurgiya sahəsi, dəmirçilik sənəti təkmilləşirdi. Arxeoloji qazıntılardan əldə olunan zərgərlik nəsnələri, özəlliklə nəfis işlənmiş üzük, sırğa, sinəbənd, bilərziklər və silah növləri metalişləmə sənətinin inkişaf etdiyini göstərir. Dəmirçiliklə paralel dulusçuluq sənəti də təkmilləşmişdi, boyalı, naxışlı şirəli qablar ölkənin əksər bölgələrində hazırlanırdı. Toxuculuq sahəsində, xalı-xalça sənətində irəliləyiş vardı.[793]

Dəmyə və suvarma üsullarından istifadə edən Azərbiqan əkinçiləri geniş taxıl zəmiləri, dənli bitkilər becərir, bağ-bostan salır, antik qaynaq-

---

[792] Polibi Kiçik Mada (Azərbiqan) əhalisini ümumi *satrape* etnonimi ilə adlandırır (AT, 1994, 139); Yunan yazılarında yabançı adlara «s» hərfinin artırıldığını (*dittoqrafiya*) diqqətə alsaq, onda *atrape* adının adrabe//azrəbi etnonimi olduğunu düşünmək olar. Bu halda Azərbiqan adının kökündə duran *azərbi* etnoniminin *azrəbi* variantı ortaya çıxır.

[793] Pazırıq xalısı bunu aydın əks etdirir. Belə ki, «24 Oğuz boyu» motivini əks etdirən və bugünəcən rəngini saxlamış Pazırıq xalısı Altaya Azərbaycandan aparılmışdı. Bu barədə geniş məlumat üçün bax: «Azər xalqı», 2000, 103-108.

larda «mada otu» adlanan yonca əkirdilər. Müxtəlif türlü meyvələrlə bol olan bağlar vardı. Çoxlu alp çəmənlikləri, otlaq-örüş yerləri olan Azərbiqanda heyvandarlıq, özəlliklə qoyunçuluq qədim çağlardan geniş yayılmışdı. Burada Mana eli çağında olduğu kimi, Azərbiqan eli çağında da atçılıq önəmli yer tuturdu. Antik çağ yazarları Azərbiqanda bol məhsul verən üzüm tənəklərindən, bu ölkənin alp çəmənliklərində, geniş örüşlərdə bəslənən çoxlu iri və xırdabuynuzlu heyvan sürülərindən, çoxsaylı ilxılardan bəhs edir. Qədim yazılı qaynaqların verdiyi məlumatı təsdiq edən arxeoloji qazıntılara görə, Kiçik Mada elində çoxlu şəhər, qala və məbədlər də vardı.[794]

İpək yolu üzərində yerləşən Azərbiqanda ticarətlə məşğul olan tacirlər zümrəsi formalaşmışdı. Həmədana Çin, Orta Asiya və Hindistandan gələn ticarət karvanları buradan Babil-Misir və Qanzak-Qara dəniz yolu ilə batı ölkələrə, Qanzak-Muğan yolu ilə Qafqaz və Doğu Avropa ölkələrinə gedirdi. Hellin çağında quzey-güney və batı-doğu yollarının kəsişdiyi Azərbiqan eli böyük tranzit ölkəsinə çevrilmişdi. Ticarətin belə inkişaf etdiyi Azərbiqanda makedoniyalı İskəndər çağından hellin çarlarının adına kəsilmiş sikkələr və Ərsaq çarlarının, daha sonralar Sasani şahlarının pulu işlənirdi.

Hələ Mada çağında Azərbiqanın quzey qonşuluğunda saqa-qamər boylarının gəlib yerləşməsi bura bozqır kulturu gətirmişdi. Gələnəklərin yerli-gəlmə sintezi müxtəlif kultur sahələrində iz buraxdığı kimi, hərbi sahədə və etnoqrafiyada da zənginlik yaratmışdı. Yerli mifoloji motivlər yeni çalarlarla zənginləşmişdi. Oğuzxan, Koroğlu, Dədə Qorqud obrazlarında protoazər (saqa-qamər) və prototürkmən (part) gələnəkləri yerli coğrafi duruma köklənirdi. Yerli məbudlar, məbədlər Tanrıçılıq tapınaqları ilə zənginləşirdi. Azərbiqan eli çağlarında İranın Sistan bölgəsində zərdüştilik dininin part qolundan fərqli olaraq, anti-türk ovqatlı pers qolu geniş yayılmışdı. Tanrıçı qamlar (şamanlar), atəşpərəst maqlar zərdüştilik inancından qorunmağa çalışsalar da, Part eli çağında maqların bu dini qəbul etdiyini və Sasanilər çağında onu təbliğ edən kahinlərə çevrildiyini də görmək olur.

---

[794] Belə məbədlərin biri də qaynaqlarda adı Qanzaka, Gəncə (perscə), Cənzə (ərəbcə) və Şiz, Azərgəşəsb, Təxti Süleyman kimi keçən atəşpərəstlərin baş kult yeri həm də Azərbiqanın baş şəhərlərindən idi. Burada qədim tikinti qalıqları aşkara çıxarılmışdır.

Saraylarda hakim zümrə və onlara yaxın elita yerli atəşpərəstliklə zərdüştiliyin sintezini təbliğ edən maqlara hakimiyyətin dayaqları kimi baxsa da, sadə xalq kütlələri içində bunu yaymaq çox çətin idi. Tanrıçı boylar daha çox söz və musiqinin vəhdətindən yoğrulmuş milli törənlərə qatılır, sazın-sözün qüdrətinə inanır, *ozan* (azər) və *qosan* (türkmən) adlı el sənətçilərinin söylədiyi oğuznamələri dinləyirdilər.[795]

Doğudan gəlib Həmədandan batı və quzey ölkələrə keçən İpək yolu üzərində Selevki çağında yunan-makedon tacirlərinin kaloniyaları, hərbi qarnizonları salınırdı. Azərbiqanın batı qonşusu Ərməniyə və güney qonşuluğundakı Böyük Mada birbaşa *hellinizm* təsiri altında idi. Doğuda kuşanların Baktriya dövlətində elita yunansayağı yaşam tərzinə keçmişdi. Azərbiqan birbaşa hellin kulturundan kənarda qalsa da, lokal bölgələrə sızan hellinizm özünü büruzə verirdi. İskəndərin yürüşü Azərbiyqanda hellin kulturuna olan marağı artırmışdı, ölkədə Selevki pulları işlənirdi. Olsun ki, Muğandakı Yunan şəhəri də o çağlarda salınmışdı. Azərbiqan bölgələrində yunanca yazı nümunələrinin tapılması da göstərir ki, azər-yunan mədəni əlaqələri olmuşdur.

Doğrudur, Kiçik Mada elində aramey yazısı işlənirdi.[796] Lakin Selevkilər çağında burada yunan yazılarının görünməsi də təbii idi. Belə yazılardan birini XIX əsrdə ingilis səyyahı R. Ker-Porter bir dağ mağarasında tapmışdır. Urmu gölündən güneydəki Saqqız yaxınlığında olan bu mağara yazısı *Herakle* adı ilə başlanır, *kakon* ilə bitir. Uzmanlar bu yazını mifik qəhrəman Herakl ilə bağlayır, mağaranın od tapınağı yeri olduğunu, belə tapınaqların Araz çayı və Göycə gölü yaxalarında olduğunu da söyləyirlər.[797] Buranın od tapınağı yeri olması mümkündür, lakin yazıda adı keçən şəxsin İskəndər çağında Azərbiqanı tədqiq edib öyrənməli olan Heraklid olması da istisna deyil.



Azərbiqan elinin siyasi tarixini onun yarandığı m.ö. IV əsrdən Part elinə m.s. II əsrin ortalarında tabe olana qədər keçən müddətdə regionun geosiyasi durumu və ətraf ölkə və dövlətlərlə əlaqəsi fonunda öyrənmək lazım gəlir. Belə ki, artıq Kiçik Mada elinin konturları Əhəməni sülaləsinin qürub çağında formalaşırdı, çünki m.ö.V əsrin sonundan Mada bölgə-

[795] Part çağında hay dilinə keçən *qosan* (qusan) sözü bugün də erməni dilində işlənir. M. Xorenatsi də qədim hay soylarından danışarkən *Arqam-ozan* adını çəkir.

[796] Алиев, 1989, 81.

[797] Тревер, 1953, 156-160.

lərində mərkəzi hakimiyətdən qopma ovqatı güclənməyə başlamışdı: kaduslar m.ö. 404-də müstəqillik uğrunda savaşa qalxmışdılar, az sonra imperiyanın batı əyalətləri Əhəməni boyunduruğunu atmışdılar. Yunan dövləti də m.ö. IV əsrin ortalarında zəifləyib Makedoniyadan asılı duruma düşmüş, Əhəməni dövləti isə daxili üsyanlar, hakimiyət çəkişmələri ilə əvvəlki qüdrətini itirib zəifləmişdi. Bu durumda makedoniyalı İskəndərin Asiya üzərində hökmranlıq etmək üçün başladığı yürüş ona uğur gətirdi və Hindistana qədər gedib çıxa bildi. III Daranın məğlubiyəti ilə Pers dövləti m.ö. 330-da dağıldı. Əhəməni sülaləsinin idarə etdiyi satraplıqlar İskəndərin əlinə keçdi, lakin Mada satrapı Atropata tabe olan bölgələrin Həmədandan quzeydə olanları İskəndərin qurduğu imperiyadan kənarda qaldı. Bu durum Arazdan quzeydəki bölgələri də İskəndərin yeni imperiyasına daxil olmaqdan qorudu. Beləliklə, Azərbiqan elbəyi Atropat Arazdan yuxarı Göycə hövzəsindən Həmədana, Xəzər yaxasındakı kaspi və kaduslara qədər olan böyük bir ərazidə dövlət qurdu.

Əhəməni dövləti dağılandan sonra Azərbiqan elinin yarandığı çağın geosiyasi durumu belə idi. Sonrakı çağlarda isə Azərbiqan elinin Selevki, Part və Sasani dövlətləri ilə olan əlaqələri onun siyasi tarixində mühüm rol oynadı. Belə ki, İskəndərə qarşı savaşan Əhəməni ordusunda önəmli yer tutan Atropat Əhəmənilərin məğlubiyətindən sonra yaranmış durumdan məharətlə yararlandı; özünü çar, ölkəsini müstəqil dövlət elan etdi və digər canişinlərdən fərqli olaraq, İskəndərin ayağına getmədi.

Atropat öncə canişini olduğu bütöv Madanı deyil, Həmədandan yuxarı Urmu hövzəsi və Arazdan quzeydəki bəzi bölgələri əhatə edən və qaynaqlarda «Atropat Madası» adlanan Yuxarı Madanın hökmdarı oldu.[798] Fateh İskəndərin vaxtında Böyük (Aşağı) Madaya öncə Oksidat (pers), sonra Ərsaq (part), İskəndərdən sonra isə Pifon (yunan) adlı canişinlər təyin olundu, Atropat isə Kiçik (Yuxarı) Madanı müstəqil dövlətə çevirmək üçün diplomatik gedişlərlə İskəndər ilə yaxınlıq edə bildi.[799] İskəndər öləndən sonra (m.ö. 323) Babildə keçirilən hakimiyət bölgüsündə iştirak etməməsi də göstərir ki, Atropatın idarə etdiyi ölkə makedoniyalılara tabe deyildi.

---

[798] ИДМ, II. 1983, 404.

[799] Qızını İskəndərin ən nüfuzlu silahdaşı, İskəndər öləndən sonra imperiyanın regenti olan Perdikkaya verməklə, Həmədandakı şənliyə qatılaraq İskəndərə yüz atlı qadın bağışlamaqla, m.ö. 324-də Böyük Madada üsyan edən Bariaksı tutub makedoniyalılara təslim etməklə İskəndərin etimadını qazanmışdı (AT, 1996, 78-79).

Beləliklə, Mada elindən sonra Əhəməni dövlətinin X satraplığını təşkil edən Azərbiqan (Kiçik Mada) canişini və baş kahini Atropatın hansı ildən hakimiyyətdə olduğunu dəqiq bilməsək də, onun Qavqamel savaşında (m.ö. 331) aktiv iştirak etməsi və bu savaşda «*alban, kadus, sakasin və mada döyüşçülərinin birliyi*» (Flavi Arrian) göstərir ki, qonşu bölgələrdə yaşayan boylar Atropatın müttəfiqi idi. Belə bəlgələri nəzərə alan Azərbaycan tarixçiləri yazır ki, hələ Əhəmənilər çağında bütöv Mada satrapı olarkən Atropat müstəqil siyasət yürütmüş, öz təsirini Quzey Azərbaycan torpaqlarının çox hissəsinə yaya bilmişdir.[800]

İskəndər öləndən sonra yunan-makedon sərkərdələrinə miras qalan imperiya bir neçə hissəyə bölündü. Babildə İskəndərin mühafizi Selevk m.ö. 312-ci ildə hakimiyyəti möhkəmlətdi və «selevki erası» həmin ildən başlandı. Selevkilər sülaləsinin (m.ö. 321-281) adı ilə idarə olunan dövlətlər doğuda Erməniyə, Suriya, Babil, Aşağı Mada, İran və Hindistana qədər uzanan əraziləri əhatə etsə də, Azərbiqan bu siyasi hakimiyyətin nüfuz dairəsindən kənarda qalmışdı. Polibi və Strabonun yazdığına görə, makedoniyalıların Kiçik Madanı işğal etməsinə Atropat imkan vermədi. Polibiyə görə, m.ö. 220-ci illərdə Azərbiqan (Kiçik Mada) Rioni çayına qədər uzanırdı. Deməli, Atropatın vaxtından yüz il sonra da Azərbiqanın ərazisi əvvəlki hüdudlarını saxlamışdı.

Artıq m.ö. III əsrin ortalarında Selevki dövlətindən ayrılan Soqdiana, Baktriya və Part müstəqil dövlət oldu. Bu çağda Böyük Mada satrapı Molon da üsyana başlamışdı. Görünür, Selevkilərə qarşı bu hərəkatda ona Azərbiqan yardım etmişdir, çünki üsyanı yatıran Selevki çarı III Antiox (m.ö. 223-187) Azərbiqana da girib burada Artabazanla müqavilə bağlamış və Azərbiqan qısa müddət olsa da, Selevkilərdən asılı duruma düşmüşdü. Antiox İskəndərin çağında qurulmuş imperiyanın doğu bölgələrini m.ö. III əsrin sonlarında yenidən Selevki dövlətinə tabe edə bildi və buna görə onun adına «Böyük» sanı əlavə olundu.[801]

I Selevkdən III Antioxa qədər müstəqilliyini saxlayan Azərbiqan yalnız Antioxun vaxtında asılı duruma düşdü, sonralar isə Antioxun özü romalılara məğlub oldu və onun nəzarətində olan bölgələr azadlığa çıxdı. Beləliklə, m.ö. IV əsrin sonundan m.ö. II əsrin ortalarına qədər davam edən və zaman-zaman gah güclənən, gah da zəifləyən Selevki dövləti

[800] AT, 1996, 78.

[801] Antioxa m.ö. 209-da məğlub olan II Ərsaq devrilmiş, yerinə əmisi Friapat keçmişdi.

siyasi səhnədən çəkildi. Batıda onu daha qüdrətli Roma imperiyası əvəz etdi. Doğuda isə təpərli Part eli yarandı.[802]

Roma ordusu m.ö. II əsrin əvvəlində Maqneziya savaşında Böyük Antioxu məğlub etdi. Karfagen müharibəsində də uğur qazanan romalılar həmin əsrin ortalarından başlayaraq doğu ölkələrə üz tutdu. Ermənyə ölkəsi uzun müddət Roma və Part ordularının qarşılaşdığı bölgəyə çevrildi. İlk Part-Roma qarşıdurmasının başlandığı m.ö. I əsrdə romalılar Güney Qafqaza, o cümlədən Azərbiqana dəfələrlə yürüş etdilər. Lisini Lukulun 71-də, Qney Pompeyin 66-65-də, Mark Antoninin 38-36-da etdiyi yürüşlərdən qaynaqlar geniş bəhs edir. Pompeyin Güney Qafqaza, özəlliklə Alban elinə yürüşü haqqında II Bitikdə əhatəli məlumat vermişdik. Xoy-Mərənd-Marağa yolu ilə 36-da Azərbiqana hücum edən Mark Antoni də burada böyük itki verib geri qayıtdı, ona yardım edən altı min hay isə əvvəldən döyüş meydanını qoyub qaçmışdı. Buna baxmayaraq, Azərbiqan və Alban ellərinin iç işlərinə qarışmasa da, Roma bir müddət qüdrətli dövlət kimi regionda nüfuzunu qoruyurdu, yalnız m.s. 53-də Krassın part sərkərdəsi Surenə məğlub olub öldürülməsi Roma mifini dağıtdı.

Bəllidir ki, Atropatın qurduğu müstəqil Azərbiqan dövlətindən təxminən 150 il sonra Selevkilərin strateqi Artaşes (m.ö. 189-160) tərəfindən Ermən dövləti qurulmuşdu.[803] Lakin m.ö. II əsrin ortalarında Böyük Mada və Babil torpaqlarını tutan partlar Ərməniyəni də ələ keçirmək istəyirdi. Part şahı II Mitridat (m.ö.123-87) I Tiqranın oğlu şahzadə Tiqranı özü ilə aparmışdı. Partlar girov saxladığı şahzadəni II Tiqran (m.ö.95-55) adı ilə Ermənyə ölkəsində taxta çıxarmış və ondan «70 vadi» almışdılar. O isə partlara dönük çıxır və verdiyi torpaqları geri alır.

Pont çarı VI Mitridatın (Yevpatorun) qızına evlənən, öz qızını isə Azərbiqan elbəyi Mitridata verən II Tiqran Ərməniyənin ərazilərini Suriya, Kappadokiya və başqa ölkələrdən zəbt etdiyi torpaqlar hesabına böyütdü, İkiçayarasının quzeyində Tiqranakert adlanan paytaxt şəhəri saldı. Lakin az sonra Lukull onu batıda tutduğu torpaqlardan qovduğu üçün o, Artaşatda oturmalı oldu. Ermənyə ölkəsi Pompeyin yürüşündən sonra isə doğuda Roma dövlətinin hərbi forpostuna çevrildi.

---

802 Ərsaq bəyin başçılığı ilə Xorasan və Güney Türkmənistanda güclənən *parn* boylarının konfederasiyası Part torpaqlarında vahid dövlət qurmaq uğrunda 20 il davam edən mübarizəyə qalxdı və dünya imperiyalarından biri olan Part elini qurdu (ИИ, 1977, 89).

803 III Antoxun çağında satraplar *strateq* adlanırdı.

Savaşda Antoniyə qalib gələndən sonra Part şahı Fraat (*Fərhad*) ilə müttəfiq olan Azərbiqan elbəyi Artabazd arasında ixtilaf yaranmışdı. Bu qarşıdurmanın səbəbini bilməsək də, romalılar yaranmış belə durumdan faydalana bildilər. Belə ki, artıq Azərbiqana qarşı hayları qısqırdan Part şahından dönüklük görən Artabazd qızını Antoninin oğluna verəcəyini bildirmiş və Roma ilə müttəfiq olmuşdu.

Dörd tərəfdən Roma və onun tərəfdarlarının (İberiya, Albaniya və Azərbiqan) əhatəsində qalmış Ermənıyə m.ö. I əsrin ortalarından sonra gah bu, gah da digər qonşularından asılı olurdu. Belə ki, Roma imperatoru Oktavian Avqustun taxta çıxardığı III Tiqran (m.ö. 20-6) Romada təlim almışdı, ondan sonra hakimiyəti ələ alan IV Tiqran isə romalılar tərəfindən öldürüldü, bacısı Erato da hakimiyətdən uzaqlaşdırıldı. Oktavian Erməniyə ölkəsinin idarə olunmasını Azərbiqan elbəyi III Artavazda, sonra isə onun oğlu Ariobarzana tapşırdı, daha sonra Ərməniyə Pont və İber çarlarının oğulları tərəfindən idarə olundu, yeni eranın 52-ci ilində ermənilər Part hökmdarı I Balaşdan qardaşı I Tridatı Erməniyəyə çar təyin etməsini xahiş etdilər.[804] Erməniyə ölkəsinin vaxtaşırı Ərsaqlar tərəfindən idarə olunmmasını Tasit də qeyd edir.[805]

Görünür, Arşak, Karen, Suren, Kaspar, Qazar, Saruxan, Sanaturk, Yengibar və sair bu kimi onlarla şəxsadının hayların içində ilkin yayılma çağı Ərsaqlara tabe olduğu dönəmlərə aiddir. M. Xorenatsi hay tarixində mühüm rol oynamış Ərsaqların soyundan olan Arşavirin *Ərtaş*, *Karen* və *Suren* adlı oğulları və *Koşma* adlı qızı olduğunu yazır.[806]

Beş əsrə yaxın davam edən Part eli Orta Asiyadan tutmuş Güney Qafqaza qədər müxtəlif xalqların tarixində dərin iz qoymuşdur.[807] Part eli

---

804 ИДМ, II, 1983, 410.

805 Тацит, I. XIII. 34.

806 Хоренаци, 1858, 137; Burada patronim kimi verilmiş *Arşavir* adının mənşəyində «ər savir» deyiminin durması da mümkündür, *Koşma* (Qoşma), *Ərtaş* adlarının isə türkmənşəli olması şübhə doğurmur.

807 İki bölümlü Part dövləti qurumunda şahın qohumları ilə bilgə və maqların olduğunu vurğulayan Strabon yazır ki, skit (saqa) soylu I Arsak *aparn* (abar//avar?) adlanan və *Oxu* çayı yaxasında yaşayan bəzi *dai* boyu ilə hücum edib Part ölkəsini tutmuşdu (Strabon, XI. 9. 1); Əslində, prototürkmən boylarından olan *pardı* boyu saqalardan ayrılan və *parn, hirkan, dai* boyları ilə qarışan boyük bir toplum idi. Orta Asiyadan aşağı enən saqaların Sistan (Sakastan) bölgəsində yerləşməsi isə part ordularında süvari alaylarının çoxalmasına, Part elinin güclənməsinə səbəb olmuşdu. Elə bu səbəbdən «Xudaynamə», «Şahnamə» əsərlərində mifik qəhrəmanların vətəni Sistan bölgəsi ilə bağlanmışdır.

m.ö. II əsrin ortalarında yunan-latın yazılarında Mitridat kimi verilən Part hökmdarı I Mihirdatın səyi ilə Böyük Madanı, Babili işğal edəndən sonra çox güclənmiş və əsrin sonunda böyük dövlətə çevrilmişdi.[808] Ön Asiyaya sahib çıxmaq üçün Ərsaq sülaləsi öz soykökünü tarixən Əhəməni soyu ilə bağlamağa çalışır, saraylarda perslərin kultur sələfi kimi qurama mif, rəvayətlər yaranır, pers dili əsasında pəhləvi dili formalaşırdı. Beləliklə, Part elində Ərsaqlar Mada elbəylərinin siyasətini təkrar etmiş oldu: Madada pers dilinə verilən üstünlük Əhəmaniləri, Part dövlətində elitanın zərdüştiliyə verdiyi önəm, hakim dairələrdə pəhləvi dilinə verilən üstünlük Sasaniləri hakimiyətə gətirdi. I Ərdəşirlə (224-241) başlanan və dörd əsrdən artıq davam edən Pers dövləti də III Yəzdigerdlə (632-651) sona çatdı.[809]



Ərsaq sikkələrində türk hakimiyət simvolu YAY

Pers dövlətinin tabeliyində olan Azərbiqan Sasani çağından sonra ərəblərin istilasına məruz qaldı. O çağlarda Azərbiqanda müxtəlif dinlərin tərəfdarları vardı, ona görə də ərəblərin gətirdiyi islam dini bəzi bölgələrdə asan, bəzi bölgələrdə isə çətin qəbul olunurdu. Burada atəşpərəstlik dərin kök salsa da, zərdüşti dinini yayan maqlar da zaman-zaman bura ayaq açmışdı. Burada Mani dininə tapınanlar III əsdə görünməyə başlamış, VI əsrdə isə Məzdək (496-531) hərəkatı geniş vüsət almışdı. Azərbiqanda eyni zamanda xristian dininə tapınanların da sayı xeyli artmışdı. Qaynaqlar burada xristianlığın hələ I əsrdə apostol Foma tərəfindən yayıldığını vurğulayıb Gilanda apostol Adday ilə bağlı bəlgələr verir və artıq 224-də Deyləmdə yepiskopluq olduğunu qeyd edir.[810]

Part və İranda Ərsaqları Sasani sülaləsi əvəz edəndə Azərbiqan eli artıq iki əsrə yaxın idi ki, Ərsaq sülaləsinin hakimiyəti altında idi. Part elində Fraatdan sonra hakimiyətə gələn Artaban (10-38) haqqında Tasit

---

[808] I Mitridat (m.ö.171-139) ilə sonuncu part şahı Artaban (m.s. 213-224) arasında Part dövlətini idarə edən hökmdarlardan çoxunun adı bəllidir: II Mitridat, I Orod, Sanaturuk (Sinatruk), III Fraat, III Mitridat, II Orod, IV Fraad, V Fraat (Fraatak), III Orod, I Vanon, II Artaban, II Qotarz, I Balaş (Valagez), III Artaban, II Pakor, II-V Balaşlar və b.

[809] Ərdəşirdən sonrakı Pers şahları: I Şapur, I Bəhram, Narse, II Şapur, I Yəzdegird, Bəhram Gur, II Yəzdegird, Firuz, Balaş, Qubad, Xosrov Ənuşirəvan, Hörmüzd, II Xosrov Pərviz, Şiruyə, II Qubad və b.

[810] Касумова, 1993, 100.

yazır ki, *dağlı* (daqi) boylarının içində böyüyən Artaban ərsaq soyundan idi.[811] Həmin azər-part soylu Artabanla başlanan Ərsaqların «kiçik qolu» Sasani çağına qədər Part elini, İranı və o cümlədən, Azərbiqan və Erməniyə ölkələrini idarə etdi.[812]

Makedoniyalı İskəndərin m.ö. IV əsrdə doğuya yürüşündən sonra Ön Asiyada yaranan geosiyasi proseslərdən kənarda qalıb müstəqilliyini qoruyan və lazım gələndə savaşa 50 min əskər çıxara bilən Azərbiqan elinin daxilindəki hadisələr haqqında qaynaqların verdiyi məlumatlar az olsa da, «Atropat Midiyası» deyiminin Atropatın adından yarandığını vurğulayan Strabon Azərbiqan və onun hökmdarı haqqında yazır: «Sərkərdə Atropat Böyük Midiyanın bir parçası olan bu ölkənin makedoniyalılara tabe olmasına imkan vermədi».[813] Yazar əlavə edir ki, çar elan edilən Atropat öz qərarı ilə bu ölkəni müstəqil etdi və onun nəslindən olanlar ermənilərlə və suriyalılarla, sonralar isə partlarla evlənib qohum olduğu üçün hələ də varislik bu ailədə saxlanır. Əlbəttə, burada söhbət etnik qarışmadan deyil, çar ailə üzvlərinin Ermən, Suriya və Part hökmdar və canişin ailələri ilə qohumlaşmasından gedir. Atropat və onun nəslindən olan Artabazan, Mitridad, I Aryabarzan, I Artavazd, II Aryabarzan, II Artavazd və adı qaynaqlara düşməyən digər atropatilər Azərbiqanı, həm də sonuncu elbəylər Ərməniyəni idarə etmişlər.[814]

Beləliklə, Azər türklərinin siyasi-tarixi coğrafiyasında Saqa elindən sonra Azərbiqan eli ikinci dövlət idi ki, Araz çayının hər iki tərəfində müəyyən bölgələri əhatə edirdi. Əgər Saqa eli çağında ağırlıq Arazın quzeyində idisə, Azərbiqan eli çağında bu ağırlıq Arazdan güney bölgələrə düşürdü. Azərbiqan elinin sınırları içində protoazər boylarının dialektləri arasında ölkənin mərkəzi bölgələrini əhatə edən Urmu hövzəsində işlənən azər dialekti əsasında ümumünsiyət dili yarandı. Bu çağlarda Arazdan quzeydə olan Aran//Alban elində isə *azər* dialektindən çox da fərqlənməyən *xəzər* dialekti işlənirdi. Azərbiqan eli çağında *azər xalqı* formalaşdı və həmin çağlarda ölkənin bugünkü *Azərbaycan* (Azərbiqan) adı bu xalqın adından yarandı.

---

[811] Тацит, I. II. 3.

[812] Anası *part*, atası *azər* (atropatenli) olan Artaban Part şahı seçiləndən sonra onun qardaşı Vanon, sonralar isə Part şahı Balaşın (50-90) qardaşı Pakor Azərbiqani idarə etmişlər (Фазили, 1984, 92).

[813] Strabon, XI. 13. 1.

[814] Фазили, 1989, 144.

**Alban** (Aran) **eli**

Azərbaycan xalqının siyasi və etnik tarixində əsas önəmli yeri olan *Azərbiqan* eli ilə yanaşı *Alban* eli də m.ö. IV əsrdə Arazdan yuxarıda müasir Quzey Azərbaycan ərazisində formalaşıb min ildən artıq davam etmişdir. Bəzi çağlarda Dağıstanın güney, Gürcüstanın doğu və müasir Ermənistanın doğu bölgələrini də içinə alan və müxtəlif dilli qaynaqlarda *Alban, Aran* və *Alvan* (Ağvan) adlanan bu ölkə və dövlət haqqında son yüz ildə çoxlu elmi tədqiqat işləri yazılmışdır.[815] Lakin ayrıca albanşünaslıq elminin artıq formalaşmasına və Alban eli haqqında xeyli yazılı qaynaqlarla yanaşı arxeoloji, antropoloji bəlgələr, mifoloji və folklor bilgiləri olmasına baxmayaraq, bu eldə yaşayıb Alban dövlətini quran boyların etnik kimliyini hələ də tam aydın və gerçək izah edə bilən araşdırma yoxdur.

Alban elinin etnik tərkibindən danışan tədqiqatçıların çoxu burada qafqazdilli, irandilli və guya sonradan gələn türk boyları olduğunu yazır. Guya III-IV əsrdən başlayaraq bura gələn türklərin təsiri ilə buradakı qafqazdilli və irandilli tayfaların dili dəyişib türkcə olmuşdur.[816] Bu fikri irəli sürənlər dilçilik qanunlarını gözdən qaçırmışlar, çünki «qafqazdilli albanlar» kütləvi şəkildə türk dilinə keçsəydi, onda çoxlu dini ədəbiyatı və məktəbləri olan albanların dilində «türkləşmə» olayından sonra yerli substratlar qalmalı idi. Halbuki azər dilində belə substratların izi yoxdur.

Qafqaz dağlarının quzeyindən Ön Asiyaya keçən qafqazdilli hurri-urartu boyları Van gölü hövzəsində oturmuşlar. Onların Albaniya ərazisində qalmaları haqqında bəlgə yoxdur. Saqa-qamər axınına qoşulub bu bölgəyə gələn, o cümlədən orta əsrlərdə gəlib quzey bölgələrə yerləşən qafqazdilli boylar isə bugünəcən öz dillərini dəyişmədən saxlamışlar.

Albaniyanın ari ölkəsi olmadığını (*eminent unarisches Land*) yazan Markvart və görkəmli tədqiqatçı Hübşmann kimi alimlərin fikrinə haqq qazandıran V. F. Minorski də Quzey Azərbaycana irandilli boyların köçməsini onların Sasani çağında tikilən müdafiə zolaqlarına yerləşdirilməsilə bağlayır.[817] Beləliklə, bəzi irandilli boylar Alban eli yaranandan 6-7 əsr sonra buraya köçürülmüşlər.

---

815 Belə tədqiqatlar haqqında geniş məlumat bu qaynaqlarda verilmişdir: Тревер, 1959; Халилов, 1985; Мамедова, 1977; 1986; Новосельцев, 1979; Гejбуллаjев, 1990; Гейбуллаев, 1991; Бабаев, 1990; Алиев, 1992; Мамедов, 1993; və b.

816 AT, 1998, 328-337.

817 Минорский, 1963, 28, 31-32.

Türk etnosunun isə Alban elində qədimdən varlığı şübhə doğurmur, belə ki, ölkədə antropoloji tipin və arxeoloji kulturun davamlılığı, bölgə haqqında ilkin yazılı qaynaqların verdiyi bəlgələr, qədim onomastika və ən azı burada m.ö. VIII-VII əsrlərdən saqa-qamərlərin qayıdışı ilə başlanan türk boylarının yerləşməsi diqqətə alınmalıdır. Bu türk boylarından aşağıda bəhs olunacaq, lakin bunu da nəzərə alaq ki, yuxarıda haqqında danışdığımız *subar, qut, kuman, balqar, qarqar, aran, qorus* və başqa boyların müəyyən hissələri Alban eli qurulana qədər İkiçayarasından və Güney Azərbaycan (Azərbiqan) ərazilərindən bura köçmüşdülər.

Saqa eli dağılandan sonra burada yaşayan boylar Mada, daha sonra Əhəməni dövlətinə tabe olsa da, bu tabeçilik nominal olub onların yalnız vergi verməsi və böyük müharibələr vaxtı müttəfiq kimi yardım etməsi ilə kifayətlənirdi. İskəndərin yürüşü ilə Əhəməni dövləti dağıldı. Həmin müharibədə Atropatın başçılığı ilə perslərə yardım edən alban və saqa boyları digər boylarla (Strabona görə 26 boy) birləşib albanların öndərliyi ilə Alban dövlətini qurdular. Alban elinin ilk elbəyləri yerli alban bəyləri idi, sonra onları Ərsaqlar (saqa soylu partlar), daha sonra güneydən gəlmiş azərbiqanlı Mihranilər (Cavanşirin soyu) əvəz etdilər. Sasanilər çağında Alban eli müəyyən fasilə ilə 140 ildən artıq suverenliyini itirərək mərzbanlıq (canişinlik) dövrünü yaşadı.[818]

Güney Qafqazda iber (gürcü) və Anadoluda hay (erməni) boylarından daha öncə türk boylarının qurduğu dövlət inkişaf etmiş əkinçilik, heyvandarlıq və sənətkarlıq sahələri olan feodal dövləti idi. Alban eli I-III əsrlərdə də Erməniyə və İberiyaya nisbətən siyasi suverenliyini və dövlət quruculuğunu daha çox saxlaya bilmişdir.[819] Görünür, Alban elinin daha müstəqil dövlət kimi tanınmasının səbəbi Quzey Qafqazdakı türk boyları, güneydə isə soydaşları azərbiqanlılarla sıx əlaqədə olması idi. Artıq m.ö. III əsrin ortalarına yaxın dövrəyə yerli alban pulları buraxılmışdı.[820] Strabona görə, albanlar savaşa 80 minlik ordu çıxara bilirdi.

İslamaqədər Azərbaycan tarixindən yazan tarixçilər Albaniyanın xristianlaşmasından danışsalar da, nədənsə buradakı xristian türklərdən bəhs etmirlər. Halbuki, bir çox alban (türk) boyları xristianlığı, bəziləri isə xəzərlər kimi yəhudiliyi qəbul etmişdi. Xristianlıq Alban elinə Fələs-

---

[818] Mərzbanlıq dövrü fasilələrlə (463-488 və 510-629) davam etmişdir.

[819] Мамедова, 1986, 248.

[820] Alban elinin öz sikkələri və burada işlənən digər sikkələrin şəkilləri üçün bax: AT, 1998 (I cildin sonunda 34-35-ci tablolar); Бабаев, 1990, 232-234.

tin-Suriya ölkələrindən aramey dilində gətirildi. Xristianlıq burada I-III əsrlərdə sirofil, IV-VI əsrlərdə isə qrekofil yönümlü idi. Ərəb xilafəti VIII əsrin ilk illərindən Alban kilisələrini Ermənі dini mərkəzinə tabe etdi, ruslar isə ümumiyətlə Alban xristian məbədlərinin fəaliyətinə XIX əsrdə xitam verdilər.

Alban (Aran) eli haqqında yazılı qaynaqlar yunan, latın, pers, aramey, ərəb, hay, gürcü dillərindədir. Yerli Alban qaynaqları isə bizə hay (qrabar) dilinə tərcümə olunmuş şəkildə gəlib çatmışdır. Lukull, Pompey, Antoni və Trayan kimi tanınmış sərkərdələrin Qafqaza yürüşü antik çağ yazarlarının Alban eli haqqında daha geniş və dəqiq bəlgələr verməsinə səbəb oldu.[821] Nəzərə almaq lazımdır ki, Strabonun Alban eli haqqında verdiyi məlumatların bəzisi m.ö. IV-III əsrlərin qaynaqlarına söykənir, ona görə də onun məlumatlarında müxtəlif çağlara aid olayları fərqləndirmək lazım gəlir.[822]

«Alban tarixi» kitabının yazarı (daha doğrusu yazarları) haqqında dəqiq bəlgə olmasa da, I-II kitabların müəllifi Musa Kalankatlının VII əsrdə yaşaması şübhə doğurmur.[823] Bu yerli alban əsərinin bir neçə nüsxəsi saxlanmışdır, bunların içində ən qədimi XIII əsrdə hay-qrabar dilinə çevrilmiş nüsxədir. Alban xristian yazarlarının bir neçə kilisə ədəbiyatı qalmışdır.[824] Əgər Alban elində yaranmış yazılı ədəbiyat bizə hay dilinə tərcümə olunmuş şəkildə gəlib çatmışsa, şifahi xalq yaradıcılığı da azər türkcəsində alban boyları arasında nəsildən nəsilə ötürülmüş, ozanların qoşduğu dastanlarda yaşamışdır. Belə ki, Qorqud oğuznamələri, Koroğlu,

---

[821] Strabon, Böyük Plini, Tasit, Ptolemey, Plutarx, Arrian, Kassi Dion və başqa yazarlar Alban eli haqqında gərəkli bəlgələr vermişlər. Romalılar bir neçə dəfə Alban elinə yürüş etmişlər. Pompey Güney Qafqaza m.ö. 66-65-də yürüş etmişdi (I Bitikdə bu yürüş və Pompeyin rastlaşdığı yer-yud və boylar haqqında geniş bilgi vermişik), Mark Antoni m.ö. 34-də Kanidinin başçılığı ilə legionlar göndərmişdi, Domisian çağında da (I əsrin sonu) 12-ci legion Qobustanda yazı qoymuşdur.

[822] Тревер, 1959, 9.

[823] Belə ki, III kitabın yazarı X əsrdə yaşadığı üçün rusların Bərdə yürüşü haqqında bilgi verir, lakin I-II kitablarda VIII-IX əsr olayları, özəllikdə ərəblərə qarşı vuruşan Babək haqqında bəlgə yoxdur.

[824] Musa Kalankatlının (Moisey Kalankatuklu) «Alban tarixi» kitabı ölkənin etnik və siyasi tarixindən çox, xristianlıq tarixinə köklənmişdir. Bu gələnəyi Mxitar Qoşun yazdığı «Alban salnaməsi» davam etdirir. Kirakos Gəncəlinin (XIII əsr) «Tarix» əsəri bir az fərqlənsə də, Aquen məclisi (V əsr) ilə 705-də Bərdə məclisində qəbul olunmuş Alban kilisə qanunlarına aid sənədlər tam xristianlıq bəlgələridir.

Əsli-Kərəm motivləri daha çox Alban eli çağında baş vermiş olaylarla səsləşir. Çox güman ki, *Varsağı havası* (melodiyası) da o çağın yadigarı olub, varsaq//arsaq boylarından qalmadar. Yazılı ədəbiyat kimi folklor da tarixi coğrafiya haqqında mühüm bilgilər verir.




Alban eli mövcud olduğu dövrdə onun tarixi coğrafiyası nisbətən stabil qalsa da, müəyyən çağlarda dəyişikliyə uğramışdır. Belə ki, öncə Azərbiqana tabe olan Araksena bölgəsi I-II əsrlərdə Alban elinin tərkibinə, Albaniyanın quzey-batı vilayəti Kambiçenin ərazisinin kiçik bir qismi isə sonralar İberiyanın tərkibinə keçmişdir.

V. F. Minorski qeyd edir ki, haydilli yazarların *Alvan-k'*, suriya və müsəlman yazarların *Aran* dediyi, latın-yunan qaynaqlarında isə *Alban* adlanan ölkə Dağıstanı və İberiya ilə Xəzər dənizi arasında Kür-Araz ovalığını əhatə edirdi.[825] «Alban tarixi» kitabında isə qeyd olunur ki, Kür çayı Böyük və Kiçik Qafqaz dağlarının qoynunda yerləşən, Araz çayından başlayaraq Hunan qalasına qədər uzanan Alban ölkəsinin «düz ortasından axır».[826] M. Xorenatsi də Alban elinin hökmdarı Ərənə tabe olan bölgələrin Arazdan Hunan qalasına qədər uzandığını yazırdı.[827]

---

[825] Минорский, 1963, 27-28.

[826] Алб.т. 1993, 16-17.

[827] Хоренаци, 1958, 84; (II. VIII).

Antik çağ yazarları (Strabon, Plini, Ptolemey, Pomponi Mela və b) Alban elində Kür, Araz çayları ilə bərabər bir neçə çayadı çəkmişlər: *Alazan, Sandoban, Retak, Xan, Kambis, Kaysi (Kas), Alban, Qerr, Soana.* Bu çayadlarının çoxu türkcədir (bax: II Bitik, hidronimlər). Dağlıq Altayda da olan *Alazan* çayadı isə daha geniş yayılmışdır.[828]

Quzey Qafqazda Borbalo dağından üç *Alazan çayı* başlanır və biri Kür, ikisi Sulak çayına tökülür. Alazan (*Al-üzən*) çayı hövzəsində eyni anlamlı *Al-çay* hidronimi vardır. Dağıstanda *Al-ozen, Bulqen-ozen* çayları da vardır.[829] Toponimiya üzrə tanınmış mütəxəssis E. M. Murzayev bəzi türk dillərində «çay» anlamında işlənən *ozen* (uzen, üzən) sözü ilə Dağıstanda xeyli (*Şuraozen, Karaozen, Çerkesozen* və s.) çayadı olduğunu qeyd etmişdir.[830] Bu sıraya *Manasozen*, *Qamriözən* adlarını da əlavə etmək olar. Xəzər dənizinə tökülən *Tarakliozen* və *Qızılüzən* çayadları da göstərir ki, *Böyük Uzen* və *Kiçik Uzen* də daxil olmaqla, Xəzər-İtil hövzəsində *üzən* sözü geniş yayılmışdır.

Alban-Sarmat sınırını cızıb Xəzərə tökülən *Soana* alban çayı kimi verilmişdir.[831] Görünür, indi *Sulaq* şəklində işlənən bu çayın adı vaxtilə qutsal anlamda *Su-Ana* imiş.[832] E. M. Murzayev yazır ki, geniş Avropa və Asiya məkanında ikinci tərəfi *su* sözü ilə işlənən *Karasu, Sarısu, Ulusu, Kızılsu, Aksu, Tuzlusu, Kaşkasu, Koysu, Adılsu* kimi hidronimlər tükənməz saydadır.[833] Antik çağdakı *Alban* çayadı etnohidronim olub, *alpan* boyunun adını əks etdirir. Pomponi Mela *Kambis* çayının dənizə yaxın yerdə Kürə töküldüyünü qeyd edir.[834] Ptolemeyin verdiyi koordinata görə *Kambis* çayını *Pirsaqat* çayı ilə eyniləşdirən uzmanları haqlı sayan S.Vəliyev *Alban* çayının da *Sumqayıt* çayı olduğunu yazmışdır.[835]

---

[828] Молчанова, 1979, 128.

[829] ОК, 90, 193, 197.

[830] Мурзаев, 1984, 407.

[831] АИОСК, 149.

[832] Qədim Subar bəyliyinin batısında Dəclənin başlanğıcında Su-Ana (müasir Zebene su) hidronimi də qutsal sayılmış, ona da Ana-İdel, Ana-Kür deyimlərində olduğu kimi «Ana-Su» demişlər.

[833] Мурзаев, 1984, 529.

[834] Pomp. Mela, III. 39-41.

[835] Велиев 1983, 95-96, 110; K. Ptolemeyin xəritəsində Albana Pirsaqata uyğun gəlir. alban çayı kimi verdiyi *Kaysi* hidronimi Dağıstanda müasir *Göysu* adına uyğun gəlir, lakin başqa qaynaqda *Kaysi* adı *Kas* şəklində verilmişdir.

Alban ölkəsindəki çayadlarının bir qismi həmin çayların kənarında yaşayan boyların pasportu sayılan etnohidronimdir. Belə ki, qədim yazarların qeyd etdiyi Tərtər, Kas, Alban, Qarqar etnohidronimləri *tərtər, kas, alban, qarqar* boylarının adı ilə bağlıdırsa, müxtəlif orta əsr qaynaqlarında adı keçən Urumçay, Qaşqay, Pirsaqat kimi etnohidronimlər də Alban elində qədim *urum, qaşqay* və *saqat* (saqa) boylarının yaşadığını göstərən tutalqadır.[836] Beləliklə, Alban elində axan çayların alban, tərtər, kas, qarqar, urum, qaşqay və saqat adlı türk boylarının yaşadığı bölgələrdən keçməsi ölkənin etnik durumunu aydın göstərir.

Türk boyları minillər boyu Xəzər dənizinin başına fırlanmış, onun hüdudsuz dəniz deyil, böyük göl olduğunu dönə-dönə görmüşlər. Bu dəniz əsasən sahilində yaşadığı *kaspi, xəzər, alban, kimak, quz//uz, qurqan* və s. boyların adı ilə tanınmışdır: Kaspi, Xəzər, Alban, Kimak, Quzğun, Bahril-Uz, Qurqan. Xəzər dənizi mifik Oğuz xandan tutmuş, Əmir Teymurun da qurduğu imperiyaların ortasında yerləşirdi.

Gögcə (*Göycə*) gölünün adında da geniş yayılmış «göy» apelyativi var. Hay qaynaqları bu gölün adını *Geğam* (Kełam) və *Sevan* kimi verir.[837] Göycə adı 1930-da fərmanla Sevana dəyişdirildi. Bu adın ortaya çıxmasını buradakı adada Qara-vəng kilsəsinin hayca Sev-vank şəklində tərcümə olunması ilə bağlayırlar.[838] *Kełam* [Gelam] sözü isə sonralar hay dilinin fonetik dəyişmə (l > ğ) qanununa uyğun *Geğam* şəklini almışdır. Gürcü qaynaqlarındakı *Kelakuni* variantı da *göl* (kölək) sözünü əks etdirir.

Göründüyü kimi, Alban eli çağında Güney Qafqazdakı axarsuların önəmli hissəsi türkcə ad daşıyır. Eyni sözləri oronimlər haqqında da söyləmək olar. Belə ki, ən böyük dağ silsiləsi olan Qafqaz dağlarının *Kaspi* dağları və **Qapı-qaz* adlanması təsadüfi deyildir. Eratosfenə (m.ö. III) istinad edən Strabon yazır ki, yerli əhali Qafqaza kaspi boylarının adı ilə *Kaspi* deyir.[839] Doğrudan da, Böyük Qafqaz sıra dağları Güney Qafqazın müxtəlif bölgələrində izi qalmış qədim *kaspi* (kaz//az) xalqının ölkəsinə

---

[836] Tərtər çayının bir qolu *Urumçay* adlanır (Гейбуллайев 1990, 125); Alban eli çağında salınmış Gavur arxın bir qolu *Qaşqay* arxıdır, Qaxda isə *Qaşqaçay* vardır. İrəvan şəhərinin içindən axan *Gedar* çayadı isə qədim *kedar* (kidarit) soyu ilə bağlı ola bilər.

[837] Хоренаци, 1858, 335.

[838] СМОМПК, вып. 27. 1900, 65.

[839] Strabon XI. 2.15; Pomponi Mela isə Qafqaz dağları haqqında yazır ki, bu dağlar ətəyində yaşayan boyların adı ilə Tavr, Mosxi, Amazon, Kaspi, Korak, Qafqaz adlanır (Pomp. Mela, I. 109).

keçid qapısı olduğundan Qapqaz (*qapıkas*) adlanmışdır. İrandilli boylar da bu dağların türkcə adını Qap//Qaf dağı (*Kabkuh*) saxlamışlar.[840] Azərbaycana quzeydən və güneydən dağ keçidləri ilə gələn yollar üzərində belə «qapı»lara rast gəlmək olur. Belə ki, antik çağın bir sıra yazarlarının əsərlərində quzeydə *Dərbənd* və *Daryol* (Dəryal) keçidləri və güneydə Elbrus (Elbars) dağındakı *Gədik* aşırımı «Kaspi qapısı» adlanmışdır.[841]

Alban elinin tarixi coğrafiyasından danışarkən bunu da qeyd etmək lazımdır ki, Strabon bu ölkənin düzənliklərində suvarılan tarlaların Babil və Misirlə müqayisədə daha məhsuldar olub, ildə 2-3 dəfə məhsul verən bərəkətli torpaqlarını təsvir edəndə Kür-Araz ovalığını nəzərdə tuturdu. Belə ki, Alban elində əkin-biçin yerləri təkcə Şirvanı deyil, Mil-Muğanı da əhatə edirdi.




Xəzər dənizi və ətrafına aid *İstəxrinin* (950) xəritəsindən bir hissə

Alban elinin sınırları və qonşuları haqqında olan məlumatlar onun siyasi-inzibati durumu ilə bərabər, həm də etnik tarixinə də aydınlıq gətirir. Alban elinin doğu sınırı Xəzər boyunca Astaradan Dərbəndəcən uzandığı üçün burada qonşu axtarmaq doğru olmaz, çünki bu sınırdakı Xəzər yaxası bölgələr Alban elinin tərkib hissəsi idi və bunlardan ayrıca söhbət açacağıq. Alban elinin güney sınırlarından isə Azərbiqan elindən danışarkən bəhs etmişdik. Ona görə də burada Alban elinin batı və quzey qonşuları üzərində dayanmaq gərəkir.

---

[840] I Şapurun yazısında (III əsr) Qafqaz dağı farsca *Kapkoh* və yunanca *Καπ ορους* kimi verilmişdir (Тревер, 1959, 136).

[841] Ktesi Knidli, Tasit, Ptolemey və b; (Велиев, 1983, 11-13; Акопян, 1987, 40-42).

Alban elinin batı sınırları bugünkü Ermənistanın orta bölgələrini əhatə edir. Belə ki, bu sınır Naxçıvandan Tiflisə qədər düz xətt boyunca uzanır və Göycə gölünün batı yaxasından keçir. Həmin sınırdan batıda qalan bölgələrin etnik tarixinə baxanda bəlli olur ki, Alban elinin bu batı qonşuları sırasında türk və qafqazdilli (urartu) boylar yaşamışdır. Bu bölgənin qədim sakinləri haqqında ilk mixi yazılı bəlgələr urartu dilindədir. Urartu yazılarında verilən boy və bölgə adları belə sıralanır:




Xəritə-sxemdə əsasən sonrakı Alban elinin batı və güney qonşuluğunda qeyd olunan qırmızı rənglə verilmiş adlar türk onomastikası üçün xarakterik olub, sonrakı çağlarda da türk boyları içində davam etmişdir. Urartu yazılarında Göycə gölünün quzey və doğu tərəflərini əhatə edən toponimlərin sadəcə sadalanması onların yerini müəyyən etməyə imkan vermir, lakin bu sırada da, Qurkumeli, Azameru, Aydamanu, Arkuki və Kamaniu kimi adların türkcə izahı vardır.

Urartu çağında bəzi urartu boylarının gəlib Arazla Göycə gölü arasına yerləşməsi Ağrı vadisinin (Aza ölkəsi) işğalından sonra gerçəkləşə bilərdi. Çünki bu vadidə yaşayan *az* boylarını (sonrakı azərlər) urartular «düşmən xalq» adlandırırdı. Müasir doğuqafqazdilli *naxçı* (çeçen-inquş) boylarının ulu əcdadı sayılan urartuların çarı I Argişti 782-də və 20 il sonra isə II Sarduri bu ölkəyə hücum edib onu tuturlar.[842]

[842] Арутюнян, 1970, 238.

Əgər urartu yazısındakı *Böyük Kuquri* ölkəsi Gögər bölgəsidirsə, onda gögərlərin saqa-qamər yürüşündən öncə burada yaşadıqları bəlli olur, çünki Kuquri bölgəsi urartular tərəfindən İşpuini çağında 824 və ya 823-də zəbt olunmuşdu.[843] Urartu ordusunun yönləndiyi *Etiuxi* (Qars), *Uiteruxi* (Arazın yuxarı axarı), *Katarza* (Klarceti-Kqarck) adlı yerlərdən sonra «*Kuquru tarae*» (Böyük *Koqar) şəhərinə qədər getməsi göstərir ki, yürüşün bu son nöqtəsini Gögər mahalı saymaq olar. Azərbiqan elinin Fasis çayna qədər uzanması haqqında Polibinin verdiyi məlumata görə Gögər mahalı m. ö. III əsrdə Azərbiqanın tərkibində olmuşdur. Straban bir əsr sonra Artaşesin bu bölgənin Ermənİyə ərazisinə qatdığını yazır. Sonrakı qaynaqlardan bəllidir ki, 387-dən sonra isə Gögər vilayəti İber dövlətinin tərkibinə keçir.




Gögərlər təkcə Göycə gölündən batıda deyil, Albaniyanın özündə də vardı. IV əsrin 30-cu illərində maskut hökmdarı Sanesan Erməniyə ölkəsinə hücum edəndə yürüşə Alban elinin quzeyində yaşayan *quqarları* da qoşmuşdu.[844] XIII əsrə aid hay qaynağına görə, Şəkidə də *gögər* (quqar) boyu yaşayırdı.[845]

Hay qaynaqları Gögər vilayətinin tərkibində olan bölgələr sırasında *Kəngər* (Kanqar) adını da çəkir.[846] Kəngər bölgəsi Gögər vilayətinin güneyindəki *Kasax* çayının başlandığı ərazini əhatə edirdi. Q. A. Melikişvili yazır ki, Kəngər bölgəsi artıq VII əsrdə İberiyanın tərkibində idi.[847] VI əsrin ortalarında Naxçıvan bölgəsində görünən kəngərlərin bir qisminin Ağrı vadisində X əsrə qədər yaşaması bəllidir.

---

[843] ТУ, 203-205; Арутюнян, 1970, 146-152.

[844] Акопян, 1987, 92.

[845] Мамедова, 1986, 128; Gögərlər haqqında ilk dəfə bəlgələri Özbəkistanda türkoloji konfransda açıqlamışdım, daha geniş məlumat bu məqaləmdə var: Джалилов, 1989.

[846] Адонц, 1971, 222.

[847] Меликишвили, 1959, 138.

M. Xorenatsiyə görə, hay-gürcü sınırında yaşayan kəngər boyları II-III əsrlərdə baş verən olaylarda iştirak etmişlər. Bu kəngərlərə aid bəlgələr 484-dən 1064-ə qədər hay və gürcü qaynaqlarında davam etmişdir.[848]

Beləliklə, Urartu yazıları Alban dövləti qurulana qədər batı qonşuluğu haqqında üç əsr əvvəl bəzi bəlgələr verir. Urartu dövləti dağılandan sonra Saqa eli çağında bu bölgələrə aid yazılı qaynaq olmasa da, Saqa elindən sonrakı çağların durumu ilə bağlı xeyli bəlgə vardır və bunların sırasında yer-yurd adları, özəlliklə tərkibində *saqa, qəmər* etnonimi olan toponimlər günümüzə qədər qalmışdır.

Vağarşakın çağında (m. ö. 149-127) quzeydən bulqar-vənənd boylarının gəlib Ağrı bölgəsinə yerləşməsini qeyd edən M. Xorenatsi yazır ki, Basian bölgəsinə gələn bulqar bahadırı Vendanın (*bulqar vexenduru Venda*) adı ilə bura *Vənənd* adlanır.[849] Göytürk yazılarında adı keçən *sir* boyu (*türk sir budun*) Strabonun vaxtında *sirak* adı ilə Qafqaz dağlarının arxasında köçəri türk boyları ilə birlikdə idi. Sonralar bu siraklar Güney Qafqazın müxtəlif bölgələrində, İori-Alazan arasında *Sirak düzü*, Ağrı vadisində *Şirak düzü* və *Şirvan* adında görünür. Erməniyədə olan *Şirak* bölgəsi isə ərsaq soyundan olan Kamsarakan nəslinin knyazlığı idi.[850]

Hay qaynaqlarında Ərməniyədə və Alban elinin batı qonşuluğunda bir çox türk onomastikasından (Sper, Gündüz, Dələr, Vənənd, Gögər, Sirak, Kəngər, Kasax, Şərur, Abaran və s.) bəhs olunur, Alban elinin batı bölgələrində alban elbəylərinin qışlaq yeri kimi Zeqəm çayı yaxasındakı *Xalxal* (müasir Xilxilə) kəndi göstərilir. Albaniyanın batı sınırı isə onun Xram çayı sahilində yerləşən *Hunan* qalası sayılır.

Albaniyanın güney-batısında yerləşən və Erməniyədən daha çox Alban və Azərbiqan ellərilə bağlı olan Sünik bölgəsi müəyyən çağlarda müstəqil siyasət yürüdürdü. Lakin buradakı əhali etnik baxımdan həmin

---

848 Гејбуллајев, 1990, 98.

849 Хоренаци 1858, 81; Görünür, M. Xorenatsinin yaşadığı V əsrdə bulqar boylarının Quzey Qafqazda olması onda belə bir qənaət yaradıb ki, elə 700 il əvvəl də Ərməniyə ölkəsinə bulqarlar quzeydən gələ bilərdi. Əslində isə bulqarların Ön Asiyada izləri daha əvvəllərə aiddir. Vənənd (Qars bölgəsində) adının bulqarlarla bağlanması isə maraqlı bəlgədir. Belə ki, buradakı bulqarlar Qamər bəyliyində (m. ö. VII əsr) və sonra burada adı çəkilən subar (sper) boylarının içində vardı.

850 Адонц, 1971, 301; Ümumiyətlə, hay qaynaqları Erməniyə ölkəsində *Ərsaq* (Arşak), *Mamıkan* (Mamikon), *Qam-Sarıkan* (Kamsarakan) kimi bir neçə türksoylu bəyin sülaləsi və qoşuna başçılıq edən *Dədəbəy* (Databey) kimi soylular haqqında xeyli bilgi verir.

ölkələrdə ümumi alban, azər adı ilə tanınan boylarla soydaş olduğundan Saqa çağından qalma bu gələnəksəl yaxınlıq fasiləsiz davam etmişdir.

Ermən-Alban münasibətlərindən danışarkən nəzərə alınmalıdır ki, «Böyük Ermənistan» anlayışı I Artaşes (m.ö.189-160) hakimiyyətinin ilk dövründə və partların yardımı ilə m.ö. 95-də hakimiyyətə gəlib Erməniyə dövlətinin müstəqilliyini cəmi 20 il saxlaya bilən II Tiqranın vaxtında ortaya çıxmışdı. Doğrudan da, madalı Artaşes və onun soyundan olan Tiqran Erməniyənin çarı olanda qonşu ölkələrdən xeyli torpaq zəbt etmişdilər, lakin m.ö. I əsrin ortalarından müstəqilliyini itirən Erməniyə qonşu ölkələrdə tutduğu torpaqları da itirdi. Beləliklə, aşağı-yuxarı 50 il fasilələrlə mövcud olan «Böyük Ərməniyə» dövlətinin tarixinə sonrakı hay yazarlarının fantaziyası ilə əlavə illər, əsrlər calandı. V əsrdə Persiyaya qarşı üsyanlarda milli ovqatı qaldırmaq üçün bu yazarlar Alban elinin də Uti, Sünik, Arsaq və Kaspi bölgələrinin Böyük Armeniya əraziləri olduğunu «gerçək tarix» kimi verirdilər.[851]

Erməniyə 387-də Bizansla Persiya arasında bölünmüşdü. Pers dövlətinə tabe olan ərazilərin dörd yerə ayrılması və quzey hissənin *Kustak-i Kapkoh* (Qafqaz kustakı) və ya *Kustak-i Atrpatakan* adlanması və bura Azərbiqanla birlikdə Ərməniyə, İberiya, Albaniya, Balasakan, Sisakan və sair ölkələrin daxil olması bəllidir.[852] Lakin sonralar da hayların müstəqil siyasi qurumlarının dəfələrlə ləğv edilməsinə baxmayaraq, hay kilisələri milli ideologiyanı yaşada bildilər, hətta Albaniyada islamın yayıldığı çağlarda bəzi soylu xristian alban ailələrinin haylaşmasına da nail oldular.

Beləliklə, Alban elinin batı bölgələri Erməniyə ilə, quzey-batı bölgələri isə İberiya ilə qonşuluqda idi. Gürcüstanın doğusu sayılan Kartlidə iberlərlə yanaşı *gögər, qamər, qambiça, kaspi, er//her, siraq, borıça, alban* və başqa türk boyları yaşayırdı. Sonralar bura çoxsaylı *qıpçaq* boyları da gəlib yerləşmişdi. Ona görə də gürcü qaynaqlarında bu bölgənin «Böyük türk yurdu» (*Didi Turkoba*) adlanması təsadüfi deyildi. Bölgənin böyük bir hissəsi Polibiyə görə, hələ m. ö. III əsrdə Azərbiqana aid idi. Plutarx

---

[851] Çağdaş hay tədqiqatçıları çox vaxt bu cür «gerçək» bəlgələri önə çəkəndə Strabonu da yad edirlər. Əslində, Strabonun «Armeniyada Sakasena bölgəsi» deyimində yanlış olaraq, Albaniya yerinə Armeniya yazılmışdır, çünki Strabon «Kür çayı İber və Alban ellərindən axır» ifadəsini işlətmişdir və yazar Kürün Albaniyadan axmasını başqa bir yerdə də təkrar etmişdir (Strabon, XI. 1. 5; XI. 4. 2).

[852] Адонц, 1971, 214-217.

Pompeyin m.ö. 66/65-də qışı keçirdiyi Axıska bölgəsini «*albanların öz ölkəsi*» adlandırır.[853] (Bax: II Bitik, «*Yollar*» bölməsi. Pompeyin yürüşü).

Qədim gürcü rəvayətlərində deyilir ki, Kartli ölkəsini işğal edən Azo Msxet bölgəsində otururdu. Belə ki, Kartli ölkəsinə «gəlmə» sayılan Azo köməyi də Doğu Anadoluda oturan sabirlərin *Saberdzneti* bölgəsindən alırdı. Həmin rəvayətlərə görə, ölkəni Azodan xilas edən Farnabaz (m.ö. III əsr) ilk İber dövlətini qurdu və Msxet paytaxt oldu.[854] Əsl tarixi qaynaqlar isə İber dövlətinin m.ö. I əsrdən mövcud olduğunu təsdiq edir.

Müasir Kaxetiyanın doğusunda Alazan çayının sahilindəki Eretidə gürcü qaynaqlarına görə, m.ö. III əsrdə alban boyları yaşayırdı.[855] Güman ki, bunlar (*er* boyları) sonradan gürcüləşmiş xristian inqloylardır, çünki Alban eli dağılandan sonra bir qisim gürcülərin IX-X əsrlərdə gəlib bura yerləşməsi mümkün olmuşdur.[856] Qədim gürcü qaynaqlarına görə, Kartli bölgəsində də kartvel boyları gəlməmişdən öncə *buntürk* (qalın/yerli türk) boyları yaşayırdı.[857] Həmn türk boyları ən azı Saqa-Qamər çağından burada idilər.[858] Kür və Alazan çayları arasındakı ərazini əhatə edən və Alban elinin quzey-batı vilayəti sayılan Kambiçedə (Kambisena) yaşayan alban boylarının İber ölkəsinin doğu bölgələrində yaşayan soydaşları vardı.

Alban elinin quzey qonşuları irandilli alan-osetlər, müxtəlif türk və doğuqafqazdilli boylar idi. Hələ m. ö. IV minillikdə Ön Asiyadan prototürk uruqlarının, m. ö. II minildən başlayaraq türk boylarının (subar, as, bulqar, saqa-qamər və s.) Azərbaycan üzərindən Quzey Qafqaza miqrasiyası haqqında I-II Bitiklərdə bəhs etmişdik. Quzeyə köçlər yeni eranın ilk illərində də davam etmişdir. Belə ki, Dağıstanda Yaloylutəpə kulturunun Tarki, Aşağı Siqitmə və başqa yaşayış yerlərində ortaya çıxması Güney Qafqazdan buraya müəyyən köçlərlə bağlıdır.[859]

---

[853] Plutarx. *Pompey*, XXXIV; Aramey əlifbası ilə m.ö. II əsrdə türkcə yazılı daşlar da (Artaşesin mərz daşları) Göycə yaxasında tapılmışdır (Bax: «Azərbiqan eli» bölməsi).

[854] Gürcülərdə işlənən *aznavur* sözü Azonun tərəfdarlarına verilən sosial termin kimi izah olunmuşdur (Меликишвили 1959, 282).

[855] Мровели 1979, 51.

[856] Öncə Alban elinin tərkib hissəsi olan Ereti bəyliyinin adı XV əsrə qədər qalmışdı.

[857] Меликишвили 1959, 280; Sonrakı qaynaqlar buntürklərə *hun, qıpçaq* adını əlavə etmişdir. *Buntürk* kimi, *bun alban* deyimi də vardır (Kalankatlı, 1984, 190, 100-cü qeyd).

[858] Kambiçedə m. ö. V əsrdən bükülü basırıqları ilə ortaya çıxan torpaq qəbirlər sonra *Yaloylutəpə kulturu* timsalında bütöv Albaniyada yayılmışdır.

[859] ИНСК, 1988, 90.

Yeni eranın ilk əsrlərindən başlayaraq doğudan batıya miqrasiya edən hunlar və onlara qoşulan başqa türk, finuqor boyları Xəzərin quzeyindən İtil çayını keçib Xəzərlə Azov dənizləri arasında, Quzey Qafqaz və Dağıstan bölgələrində yerləşirdi. Sonralar «Qıpçaq çölü» (Dəşti Qıpçaq) adlanan bu köç yolunun əhatə etdiyi bölgələrə hunlardan sonra da türklərin axını Monqol istilası çağına qədər davam etmişdir. Burada daha öncə yaşayan və yeni gələn türk boyları regionun etnik durumunu xeyli türkləşdirdi. Ona görə də Alban elinin quzey-doğu bölgələrini də içinə alan böyük bir regionu alban yazarı M. Kalankatlının «Türküstan» adlandırması təbii idi.[860]

Alban eli ilə quzeydə yaşayan türklər arasında sıx əlaqə vardı və Kador, Daryol (Dəryal), Salavat, Axtı, Dərbənd və sair keçidlər vasitəsi ilə gerçəkləşən bu əlaqə siyasi-inzibati sınırların fövqündə idi. Özəlliklə, heyvandarlıqla məşğul olan bəzi köçəri türk boyları yayı Dağıstanda, qışı Muğanda keçirirdi. Belə ki, zəif şəkildə olsa da, həmin gələnək bugünəcən davam edir. Sasani çağında strateji yollar üzərindəki keçid məntəqələrində qurulan bəndlər, hərbi qarnizonlar üçün tikilən qalalar Alban eli ilə Dağıstan arasında gediş-gəlişi azaltdı.

Beləliklə, İslamaqədər Alban eli m. ö. IV əsrdən quzeydə bir sıra qafqazdilli və irandilli boylarla, həmçinin öncə saqa, hun, avar, bulqar və sair adlarla tanınan, sonralar Xəzər dövlətinin tərkibinə qatılıb ümumi *xəzər* adı ilə adlanan çoxsaylı türklərlə əlaqədə idi. Ona görə də Xəzər dövləti və alban-xəzər əlaqələrini gözdən keçirmədən Alban eli haqqında doğru fikir yürütmək mümkün deyil.

Gürcü mənbələrinə görə, Mirvan (m. ö. 167-123) *xəzər* hücumlarından qorunmaq üçün *Daryol* keçidində istehkam qurmuşdu. Göründüyü kimi, bu qaynaqlarda xəzərlər m. ö. II əsr olayları ilə bağlı xatırlanır və bunu «anaxronizm» saymaq üçün əsas yoxdur, çünki *xəzər//azər* və *kaspi* etnonimləri eyni xalqın müxtəlif dialektlərdə işlənən adıdır. Hay tarixçisi M. Xorenatsi də yazır ki, II əsrin sonu və III əsrin əvvəlində (193 və 213-də) *xəzər* və *barsil* boyları birlikdə Ərməniyə torpaqlarına Alban ölkəsindən keçib girdilər.

Tarixi qaynaqlar Azərbaycanla Quzey Qafqaz arasında gediş-gəliş olaylarını m. ö. VIII əsrdən *saqa-qamər*, m. ö. II əsrdən *xəzər* (subar), *barsil,* II-V əsrlər arasında *hun* və başqa türk boylarının adı ilə bağlayır. Bu

---

[860] Kalankatlı, II. 22; 27; 41.

baxımdan, xalqların mifik şəcərəsini verən qaynaqlar da diqqəti çəkir.[861] Qamər bəyliyindən danışarkən Xəzər xaqanı İosifin (Yusif) məktubunda Bibliya gələnəyilə xəzər soykökünün Yafəsin oğlu Qamərlə bağlandığını qeyd etmişdik. Bibliyada yazılır ki, Mada ilə Qamər Yafəsin oğlu, Saqa (Aşkenaz) ilə Toqarma Qamərin oğludur, Toqarmanın oğlu isə Xəzərdir.

Xatırladaq ki, macarların soykökündə iştirak edən bəlli xəzər boyu *kabar* (kamər) adlanırdı. Göründüyü kimi, Saqa, Qamər, Xəzər eyni soydandırlar. Bu baxımdan, yəhudi dininə tapınan Xəzər xaqanı İosif yazdığı məktubda xəzərlərə daha yaxın qohum soy saydığı *basil* (barsil) *yanur*, *uquz, uqur, turis* (tiras), *avar, bulqar*, *savir* və adı tam oxunmayan *t.r.na* boylarının adını çəkir.[862]

Bizans tarixçisi Feofan Nikifor böyük xalq saydığı xəzərlərin *Berziliya* ölkəsindən çıxdığını, Efesli İoann (VI əsr) isə onların ata yurdunun *Skitiya* olduğunu, yəni Xəzər dövlətinin ərazisini göstərir. Dərbənddən yuxarıda *Barşaliya* adlı şəhər olduğunu isə əl-Bəlazuri qeyd etmişdir.[863] Nikiforun dediyi *Berziliyanın* Dağıstandan yuxarıda olması mümkündür, çünki oralarda xəzərlərə ən yaxın *barsil* türk tayfaları yaşamışdır, lakin bu bölgə hər iki boyun ilkin ata yurdu yox, ikinci ata yurdudur. Belə ki, Qədimə endikcə barsil, xəzər boylarının Dağıstanla deyil, Azərbaycanla bağlılığı qabarıq görünür.

Doğrudur, bəzi tarixi qaynaqlar barsilləri hun və bulqar boylarının içində verir, lakin M. Xorenatsi daha əvvəl xəzər-barsil birləşməsindən danışır və yuxarıda verdiyimiz tarixi qaynaqlardakı bəlgələr bunu bəlli edir. Xəzərlərin Azərbaycandan quzeyə getməsini arxeoloji bəlgələr də təsdiqləyir. Arxeoloqların Dağıstanda apardıqları tədqiqatlar göstərir ki, əvvəllər burada olmayan yeni tipli bəzi silah növləri, lüləyli su dolçası,

---

[861] Z.V. Toğan qədim qaynaqlarda doğuya göçən İbrahimoğullarının (Zamiran, Yasbak və Sux) Yafəs soyundan olan xəzərlərlə Xorasanda görüşməsi haqqında rast gəldiyi bir yəhudi mənşəli rəvayətə geniş şərh verib, m.ö. Xorasanda xəzər-bulqar boyları olduğunu göstərən başqa qaynaqları da qeyd edir (Togan, 1981, 20-21).

[862] Плетнева, 1976, 7; Кестлер, 2001, 130; Güman ki, bu məktubda yanlış olaraq *brzl* (barsil) əvəzinə *bizl* (basil) yazılmışdır.

[863] Bəzi tədqiqatçılar bu *al-Barşaliya* adlı şəhəri və alban yepiskopunun *Varaçan* şəhərinə getməsini əsas tutub, Dağıstandakı müasir Başlı kəndini qədim Varaçan və bunu da daha qədim *Berziliya* ölkəsi hesab edirlər, lakin tarixi mənbələrdə *Varasan, Varçan* tipli toponimlər istənilən qədərdir. Məsələn, *Varasan, Varçan* Araz çayı kənarında verilir, İberiyanın bir hissəsi, indiki Borçalı bölgəsi I Şapurun yazısında (262-də) *Varuçan* adlanır.

atçılıqla bağlı fərqli nəsnələr əsasən m. ö. VII-IV əsrlərdə yeni mədəniyət kimi Güney Qafqazdan gətirilmişdir.[864]

Qaynaqlarda *xəzər* boyları haqqındakı məlumatlar min ildən artıq bir dövrü əhatə edir və belə böyük zaman kəsiyində xəzərlərin yayıldığı ərazilərin zaman-zaman dəyişdiyini nəzərə almayan bəzi orta əsr yazarları və son iki əsrdə xəzər məsələsilə məşğul olan bəzi alimlər yanlış fikirlər söyləmişlər.[865] Azərbaycan alimləri isə azərlərlə eyni xalq olan və Azərbaycandan quzeyə gedən xəzərlərin tarixini öyrənməmişlər. Halbuki, Təbəriyə görə, «Azərbaycan xəzərlərin məmləkəti» idi.[866]

Xəzər dövləti güclü olduğu dönəmlərdə hüdudları indiki adları ilə desək, batıda Azov dənizi, Krım və Dnepr çayı, quzeydə Kiyev, Kazan şəhəri, doğuda Volqa çayının doğu yaxaları, güneydə Qafqaz dağları və Dağıstan idi. Azərbaycanın bir çox bölgəsi də Xəzər dövlətinə tabe idi. Başqa-başqa etnik tərkibli əhalidən ibarət olan belə böyük əraziləri əsrlərlə nəzarət altında saxlamaq olduqca çətin idi, lakin xəzərlərin hərbi manevr bacarığı o qədər qüvvətli idi ki, tabeliyində olmayan xalqlardan da bac alırdı. Hətta Bizans və İran kimi imperiyalar vaxtaşırı Xəzər xaqanlığına xərac verirdi.[867] Xəzər xaqanı İosifin məktubunda 37 xalqdan bac-xərac alması yazılmışdır.




[864] ИД, I. 1967, 86-89, 94-95; Xəzər arxeoloji kulturunun tədqiqatçısı yazır ki, Aktaş çayının qolu Yarıksu yaxasında salınmış *Azar//Xazar qala* m.ö. II - m.s. IX əsrlər boyu fasiləsiz mədəniyət qatları ilə seçilir (Плетнева 1976, 29).

[865] Hətta, vaxtilə ayrı-ayrı alimlər xəzər boylarını abxaz, gürcü, erməni (hay), oset, fin, rus və başqa xalqlara aid etmişlər. Ancaq xəzər problemi dərindən öyrənildikcə tarixi gerçəklikdən uzaq olan belə fikirlər gündəlikdən çıxmışdır, lakin xəzərlərin türklüyü artıq şübhə doğurmasa da, onların hansı türk dialektində danışması və ilkin yurdu haqqında mübahisələr hələ də davam edir. Əlbəttə, bu vəziyyət əsasən sovet təhsil sisteminin xəzər məsələsi üzərinə qoyduğu qadağanın nəticəsidir, çünki vaxtilə məktəblərdə tədris olunan SSRİ tarixi proqramına uyğun tarix dərsliyində Xəzər dövləti haqqında bir neçə cümlə ilə ötəri məlumat verilirdi, Azərbaycan tarixçiləri də xəzərləri yalnız ölkəmizə basqınlar edən vəhşi köçərilər kimi təqdim edirdi. Əslində, həmin proqramları tərtib edənləri də anlamaq lazımdır, çünki həqiqəti yazsaydılar, Xəzər dövlətinin tarixi fonunda rusların «dövlətçilik tarixi» çox cılız görünərdi.

[866] İA, II. 99; (Z. V. Toğanın «Azərbaycan» məqaləsi).

[867] S. S. Boquş hələ XIX əsrin əvvəlində belə yazırdı: «Xəzərlərin hökmranlığı bir neçə əsr Kaspi və Qara dənizdən Baltik dənizinə qədər duyulmuşdur» (Богушь, 1806, 278).

Bizans-Pers savaşlarının əsrlər boyu davam etməsi isə tranzit yolların Xəzər dövləti ərazisindən keçməsinə səbəb olmuşdu. Xəzərlər Avropaya Hind və Çindən gedən yollara nəzarət edir, *İpək* yolundan əldə etdikləri çoxlu vergi rüsumundan muzdlu əskərlərdən ibarət böyük ordu saxlayır və ölkədə çoxlu yaşayış məskəni, şəhərlər salırdılar.

Batı Hun imperiyasının tərkibində olan xəzərlər Atillanın ölümündən sonra (454) müstəqil siyasət yeridirdi. Belə ki, onlar 457-də sasani qarnizonlarını dağıdıb İranı yağmalayaraq, Albaniyaya qayıtdılar. Həmin dönəmdə Kür-Araz bölgələrində möhkəmlənib, İberiya və Ərməniyəyə basqınlar etdilər. Xəzərlər bir müddət Avar dövlətinin tərkibində oldu və bu fürsətdən yararlanan sasani şahı Qubad (488-531) Bizansın maliyə yardımı ilə xəzərlərə qarşı çoxlu istehkamlar inşa etdi. Bəzi mənbələrə görə, guya Dərbəndəcən belə istehkamlar quruldu. Lakin bu Dərbəndin Azərbaycanın quzeyindəki keçid, yoxsa Xəzər dənizinin güney-batısında olan keçid olması mübahisəli olaraq qalır.[868]

Təbəriyə görə, 10 min xəzəri Xosrov Ənuşirəvan (531-579) Azərbaycanda yerləşdirdi. Ənuşirəvanın vaxtında «xəzər axınının Dineverə qədər uzandığını, Cürzan və Erranın bu dönəmdə xəzərlərin əlində olduğunu» yazan əl-Bəlazuri bu sasani şahının xəzərlərlə qohumluq əlaqəsi qurmağa cəhd etdiyini də vurğulayır.[869] Xilafət orduları ilə VII əsrin ortalarında qarşılaşan xəzərlərin xeyli hissəsi əvvəl Kürdən yuxarı, daha sonralar isə Dərbənddən yuxarı çəkilməli oldu. Lakin onlar islamlaşma dövründə də Azərbaycanı tam tərk etmədilər. Azərbaycana ərəb yazarlarının «Xəzərlər ölkəsi» deməsi o çağın gerçək durumunu əks etdirirdi.[870]

Göründüyü kimi, xronoloji ardıcıllıqla baxdığımız mənbələr xəzərləri miladdan öncəki əsrlərdən başlayaraq İslamaqədərki bütün çağlarda daima Azərbaycanda göstərir. Ərəb-xəzər qarşıdurması başlayanda Gürcüstanın bir hissəsi və Arazdan yuxarıdakı bölgələr xəzərlərə tabe idi.[871]

---

[868] Hələ XIX əsrdə xəzərlər haqqında Təbərinin məlumatını şərh edən B. Dorn yazırdı: «İslamdan öncə **Xəzər Dərbəndi** ifadəsi Azərbaycanın güneyində Rey ilə İrak arasındakı şəhəri bildirir» (Дорн, 13).

[869] Kuzgun, 1993, 53.

[870] Бүнјадов, 1989, 172-173.

[871] Akad. Ziya Bünyadov yazır ki, ərəblər Güney Qafqaza gələndə Gürcüstanın bir hissəsi, Sünik və Aran (Albaniya) xəzərlərin əlində idi. Əməvilər dövrünə aid «xəzərlər Arminiya torpaqlarını tutanlara deyilir» (əl-Yəqubi) şəklində verilən məlumat da göstərir ki, xəzərlərin nüfuz dairəsi Güney Qafqazda geniş idi (Бүнјадов, 1989, 42, 136).

Qəbələni *Xəzər* adlandıran əl-Bəlazuri qeyd edir ki, Böyük Boğanın vaxtında Şamxor şəhəri yenidən quruldu və buraya xəzər əhalisi yerləşdi.[872] Həmin yazar Mirvanın da 40 min xəzəri 737-də Samur-Şabran arasında yerləşdirdiyini xatırladır. Bəzi türk boylarının xəzərlərə *sabir* deməsini (əl-Məsudi) nəzərə alanda bəlli olur ki, o dönəmdə Aran-Şirvan bölgəsində yaşayan 100 min sabir (*xəzər*) ailəsi də aşağı-yuxarı yarım milyon idi.[873] Ona görə də bugünkü **azər** türklərinin formalaşmasında o çağlarda alban//aran adlanan boyların içində **xəzər** faktorunun böyük önəmi olduğunu deyə bilərik.

Ümumiyətlə, müxtəlif zamanlarda Alban elinin bəzi bölgələri, 626-630-cu illərdə isə əksər bölgələri Xəzər dövlətinə tabe idi. Alban tarixçisi M. Kalankatlı Cebu Xaqanın oğlu Şadın sözlərini belə verir: «Alban, Lpin və Çor ölkələrinin üçü də atamın daimi hakimiyyəti altındadır».[874] Xəzərlər Alban elində olan qızıl-gümüş yataqlarına, Kür-Araz çayları və Xəzər dənizi yaxalarındakı balıqçılığa da nəzarət edirdilər.

Xəzər dövlətini quran bəylər Göytürk xaqanlarının *aşina* soyundan sayılır, lakin bütövlükdə xəzərlər miladdan öncə Urmu gölü hövzəsindən çıxan *azər-barsil* boylarından olub, Xəzərin quzeyində məskən salan türklər idi. Xəzər yurdları Göytürk xaqanlığının İtil çayından batıda olan bölgələrini təşkil edirdi və xəzər bəyləri ilk çağlarda həmin türk dövlətinin Batı təmsilçisi sifətilə xəzər-göytürk əlaqələrinin genişlənməsinə və onların dövlətçilik gələnəyindən bəhrələnməyə çalışırdılar. Xəzər toplumunu yönətən bəylərin istəyi yalnız 558-dən sonrakı illərdə gerçəkləşməyə başladı. Xəzərlər müstəqil dövlət qurana qədər isə Saqa, Hun və Avar türk hökmdarlarına tabe olub, zaman-zaman onlarla birlikdə, bəzən də ayrılıqda Güney Qafqaz və Azərbiqan ərazilərinə yürüşlər etmişlər.

Xəzər imperiyası 630-da Göytürk imperiyasının süqutundan sonra doğuldu. Xəzərlərin ətrafında birləşən türk boylarının bir qismi Xəzərin güney və batı yaxaları ilə yuxarı qalxanlar, bir qismi də saqa, qamər, hun və avarlardan qalan *qamər, kabar, yanur*, *uquz, tiras, kedar, gögər, avar, aqaçəri, sirak, uqur, saraqur, kutriqur, utiqur, hun,* (*ağhun, qarahun*), *xaylanturk, bulqar, savir, barsil, dondar* tayfaları idi.

Təbii ki, Xəzər dövlətinin etnik tərkibi yalnız bu türk boylarından ibarət deyildi, imperiyanın geniş hüdudları içində onlarla başqa dilli boy-

---

872 Бартольд, V. 1968, 599.
873 Togan, 1981, 171.
874 Kalankatlı, 1984, 89; (II. 14).

ların da bu dövlətin ordusunda və digər qurumlarında yeri vardı. Çünki xəzər boyunun başçılığı ilə türk boylarının federasiyası kimi formalaşan Xəzər dövləti sonralar başqa xalqları da bu birliyə qatmışdı. Qut elində, Subar bəyliyində qeyd etdiyimiz dözümlülük gələnəyi Xəzər elində də davam etmişdir. Məsudiyə görə, Xəzər ölkəsində «ədalət və təhlükəsizlik» mühiti hökm sürdüyündən oraya çoxlu müsəlman tacir və sənətkar gedib yerləşmişdi. Yəhudi ensiklopediyasında deyilir: «Batı Avropada fanatizmin, nadanlığın, anarxiyanın tüğyan etdiyi çağlarda Xəzər dövləti ədalət və dözümlülük idarəçiliyi ilə fəxr edə bilərdi».[875] Dil-din azadlığı olan böyük xəzər şəhərlərində ticarət edənlər, sənətkarlar, saray görəvliləri və sadə əhali içində xəzər (azər) dili ilə yanaşı qafqaz dilləri, slav (rus), yəhudi və başqa dillər də işlənirdi.

Xəzər elinin başında gündəlik dövlət işlərinə qarışmayan, döyüşdə iştirak etməyən, xalqın gözünə yalnız mərasim vaxtı və yerini dəyişdiyi günlərdə görünən, törələrin pozulmasına yol verməyən böyük (ulu) xaqan dururdu.[876] O, dövlətin simvolu olduğundan xalq onu qutsal sayırdı. Qocalıb əldən düşən Ulu Xaqanı dəyişmək zərurəti yarananda ona sayqı ilə «vaxtının çatması» bildirilərdi, o da öz otağına girib özünü öldürərdi.

Xəzər xaqanına sayqı o qədər böyük idi ki, onun məzarı görünən məsafədə ata minməzdilər. Saqa, Xəzər və Alban ellərində mövcud olan gələnəklərin əks olunduğu Dədə Qorqud dastanlarında Qamqan oğlu xan Bayandur da belə məqam sahibi idi. Müxtəlif tarixi mənbələr xəzər dövlətçiliyində, iqtidar iyerarxiyasında işlənən *xaqan*, *yabqu, eltəbər, tarxan, şad, bəy, tudun* kimi titulları qeyd edir.

Orduda muzdlu əskərlərdən də istifadə edən xəzərlər mahir döyüşçülər idi. Savaşlarda Böyük Xaqan heç vaxt iştirak etməzdi, müharibəyə gedən qoşunun başında *şad* titulu olan xaqanın oğlu və ya *yabgu, eltəbər* kimi yüksək dövlət məmurları, bölgə bəyləri və hakim sülalədən olanlar

---

875 Кестлер, 2001, 31.

876 «Xəzərlərin hökmdarına *Xaqan* deyilir. Ancaq dörd ayda bir dışarı gəzintiyə çıxır. Buna *Böyük Xaqan,* vəkilinə isə *Xaqan bəy* deyirdilər» (İbn Fadlan, 76); İstəxriyə görə, bu başçının hakimiyəti nominal idi, onu yalnız müqəddəs şəxs kimi törənlərdə görür, təzim edirdilər. Kessel Paulus Ulu xaqanla Xaqan bəy arasındakı fərqi şaxmat oyunu ilə müqayisə edir. Belə ki, şaxmatda geniş hərəkət imkanlarına malik olan vəziri qarşı tərəf udanda oyun bitmir, lakin yalnız bir addım ata bilən və fiqurlarla müdafiə olunan şah mat vəziyyətinə düşəndə oyun bitir (Кестлер, 2001, 31).

dururdu.[877] Böyük müharibələrdə isə komandan *Xaqan bəy* olurdu. Tarixi mənbələrdə deyilir ki, savaşda məğlub olub qayıdanları, xüsusilə Xaqan bəyi böyük cəza gözləyirdi, Ulu Xaqan onu ailəsi ilə birlikdə ictimaiyət qarşısında rüsvay edir, var-dövlətini yağmaladır, bəzən ölümünə də fitva verirdi. Belə bir olay Cebu Xaqanın Albaniyada olan oğlu Şada göndərdiyi xəbərdə də «*mənim hədsiz lovğalığım mənim özümü cəzalandıraraq yüksək mövqeyimdən uçuruma atdı*» deyimində əks olunmuşdur.[878]

Xəzər xaqanları ilə qohum olmaq şərəf sayılsa da, olayın arxasında dövlət siyasəti dururdu. Güclü ordusu olan xaqan həmişə köməyə gələ bilərdi, həm də qohumuna basqın etməkdən sakınardı. Bu arzuda rumlar, farslar, ərəblər də bulunmuş və bəzən istəklərinə nail olmuşlar. Belə ki, Sasani şahı Ənuşirəvan türk Xaqanının qızı ilə evlənmiş, oğlu IV Hörmüzd (578-596) *Türkoğlu* (Türk-zadə) ləqəbli İran şahı olmuşdur. Bizans imperatoru Heraklius 627-də farslara qarşı duruş gətirmək üçün qızı Yevdokiyanı xəzər xaqanına vermək istəmiş, imperator Yustinyan xaqanın bacısı Teodora xatunla evlənmiş, onların oğlu Tiberius 705-də hakimiyətə gəlmişdi. V Konstantin Kapronim (741-775) Xəzər xaqanının qızı *Çiçəklə* evlənmişdi. Onların 770-də doğulan oğlu 25 yaşında ikən artıq Bizans imperiyasının IV Leon Xazar (775-780) adlı imperatoru idi.

Tarixçi əl-Bəlazuri yazır ki, xəlifə əl-Mansurun (754-775) arzusu ilə Ərməniyə hakimi Yezid b. Useyd xəzər xaqanının qızı ilə 764-də evləndi, lakin hamilə vaxtı ölən xəzər qızının matəmi ərəblərə yaman baha başa gəldi. Bu olayla ilgili Təbəri deyir ki, xaqan qızının intiqamını almaq üçün xəzərlər *As-Tarxan al-Xarəzmi* adlı sərkərdənin başçılığı ilə Ərməniyə və Gürcüstana yürüş etdilər.[879] Alban çarı Cavanşir də xəzər qızı ilə evlənmişdi.

Xəzərlərə qarşı perslər davamlı olaraq digər Qafqaz xalqlarından bacarıqla istifadə edirdilər. Ona görə də İrana qarşı xəzər ordusu zaman-zaman dəyişən mövqe tutmuşdur. Ərsaqlar dövründə daha çox Bizansa qarşı partlarla birgə vuruşan xəzərlər, sasanilərin vaxtında əksər hallarda

---

877 «Alban tarixi» Göytürk gələnəyindən fərqli olaraq, Xəzər elində «şad» ünvanını Ulu Xaqanın oğlu ilə yanaşı, Cebu Xaqanın oğlu Şadın timsalında Xaqan-bəyin oğluna verilməsini də əks etdirir.

878 Алб. т. 1993, 116.

879 Buna bənzər bir olay da 799-da baş vermişdi: Fazil Yəhya əl-Bermaki xəzər xaqanının qızı Sitit ilə evlənir, bu da hamilə vaxtı Bərdədə ölür, bunu sui-qəsd sayan xəzər əskərləri müsəlmanları qırır, çoxlu əsir tutur, yalnız Harun ər-Rəşidin göndərdiyi ordu xəzərləri Ərməniyədən çıxara bilir.

Bizansın müttəfiqi kimi çıxış edirdi. Bu siyasət xəzərlərin Azərbiqan və Albaniyadakı maraqlarına uyğun qurulur, burada nüfuz dairəsini artırmaq istəyənlərə qarşı olurdu. Sasani dövlətini 627-də məhz Bizans-Xəzər ittifaqı çökdürdü, bundan özünə gələ bilməyən sasanilər bir neçə il sonra islam ordularının tapdağı altına düşdülər.

Sasanilər siyasi səhnədən çıxandan sonra Xilafətlə eyni dönəmdə qüdrətli bir dövlətə çevrilən Xəzər elinin əsas maraq dairəsi Avropa olsa da, hələ bir neçə əsr Albaniyanı təsiri altında saxlamağa çalışdı. Azərbaycanda 652-dən başlanan ərəb-xəzər savaşlarında gah ərəb əsgərləri Dağıstana qədər, gah xəzər döyüşçüləri Mosula, Ərdəbilə qədər gedib çıxırdı.[880] Xəzərlər quzeyə çəkiləndən sonra da Güney Azərbaycan əhalisi bir müddət ərəblərə qarşu vuruşdu. Yalnız Babək üsyanından sonra Azərbaycanda ərəb ekspansiyası başa çatdı.

Əvvəllər daha çox qarşılıqlı maraq üzərində qurulan Xəzər-Bizans münasibətləri Xəzər dövlətinin tranzit yollara nəzarəti monopoliyasına alması, get-gedə nüfuz dairəsini artırması ilə pozuldu və zaman-zaman böyük qarşıdurmalar yarandı. Bu dönəmdə yeni formalaşmaqda olan rus toplumu da yavaş-yavaş səsini qaldırmağa başlamışdı. Həmin dövrü təsvir edən rus səlnaməsində deyilirdi ki, xəzərlər hər evdən gümüş pul və bir dələ vergi alır.[881]

Tarixdən bu da məlumdur ki, xəzərlər bir-iki dəfə rusların Xəzər dənizi ilə Azərbaycana getməsinə icazə vermiş, amma qayıdanda onların yağmaladıqları var-dövləti əllərindən almışdı. Əlbəttə, bunlar bizim tarixçilərin yazdığı kimi slav rusları (saklab) deyil, Avropanın güney-doğusuna X əsrdə akınlar edən skandinavlı vikinqlərin *rus* adlı yağmaçı boyları idi. Quzeydə rus knyazları da güclənib, Xəzər bölgələrinə vaxtaşırı hücumlar edir, doğudan axınla gələn kuman-qıpçaq boylarının təzyiqi güclənir, ha-

---

[880] Xəzər xaqanının oğlu *Barcil* 730-da Ərdəbili tutur, Azərbaycan-Ərməniyə hakimi Cərrahı və müsəlman əskərləri öldürür. Bundan sonra Albaniya bölgələrində müxtəlif dəstələrə ayrılan xəzərlərin döyüşü uğursuz olur, hətta Barcil Muğanda əsir düşmək təhlükəsi qarşısında qalır. Barcilin bu yürüş marşrutunu şərh edən bəzi xəzərşünaslar Güney Azərbaycanı deyil, yalnız Quzey Azərbaycanı göstərirlər. Məsələn, xəzərlərə aid br neçə maraqlı kitab yazmış arxeoloq-tarixçi S. A. Pletneva İosif xaqanın yəhudi əlifbası ilə yazılmış məktubundakı *D.ralan* və *Ar.d.vil* şəklində verilən yer adlarından birinin *Dəryal* keçidi, digərinin isə guya Qafqaz Albaniyası mərkəizndə (?) yerləşən *Ardebil* olduğunu yazır (Плетнева, 1976, 8).

[881] «Хозары брали дань с полян, и с северян, и с вятичей, брали по серебряной монете и по белке от дыма» (ПВЛ, 1950, 214).

kimiyətdə bir-birinə qarşı, əhalidə isə hakimiyyətə qarşı artan narazılıqlar da öz nəticəsini verirdi. Xəzər imperiyası artıq X əsrin ortalarından başlayaraq, son illərini yaşayırdı.

Beləliklə, Xəzər dövləti dağıldı, xəzər türkləri isə ayrı-ayrı adlarla yaşamını davam etdirdi. Azərbaycandan Anadoluya qədər *Xəzər* toponimi yayılmışdır. Türkiyədə bunların çoxu yeni adlarla əvəz olunsa da, bəziləri hələ də qalır: *Xazar* (Kırkcalı), *Xazar* (Plyajköy), *Xəzərqrad*, *Kiçik Xəzriyan*, *Xəzər-şah, Xazarbaba dağı.*[882]

Xəzər imperiyasının geniş ərazilərində qalan türk boylarından bir qismi slavların içində əridi, bəziləri də yeni gələn soydaşları kumanlara qarışdı. Xəzər toplumundakı xristian *qaqauz* boyu Moldova və Polşada yerləşdi. Xəzər-Azaq-Qara dəniz arasında, Quzey Qafqaz dağları ətəklərində və Dağıstanda yaşayan qafqazdilli (*çeçen-inquş, abxaz, avar, lak, dargin, kabardin, adıq, çərkəz* və s.) və irandilli (*oset*) xalqlarla yanaşı müsəlman *kumuk, qaraçay-balkar* türkləri də vaxtilə Xəzər xaqanlığının tərkibində idi.

Yəhudi dinini qəbul etmiş xəzərlərin bir qismi XI-XVI əsrlər boyu italyanların *Xazariya//Qazariya* kimi tanıdığı Krımda qaldı, bir hissəsi də indi *karay* (karaim) adı ilə Polşa və Litvada yaşayır. Karay deyimləri hələ də *xəzər* adına sayqını saxlayır.[883] Yəhudi xəzərlərin bir bölümü Azərbaycanın quzey bölgələrində qaldı. Xəzərlər içində zərgər sənətkarları ilə seçilən *kavar* (kabar) boyu isə 896-da Macarıstana köçdü.[884]

Yalnız dialekt fərqini əks etdirən *azər* və *xəzər* sözlərinin eyni ad olduğunu yuxarıda qeyd etmişdik. Qədim azər boyları içində yaranan bu iki dialekt fərqi hər hansı bir etnonimlə də fərqləndirilə bilərdi. Görünür, İbn Həldunun *«xəzərlər türkməndir»* deməsi bu fərqi bildirir.[885] Belə ki, bugün azər dili ilə partların davamçısı olan türkmənlərin dili arasındakı fərqlər aydın görünür. Bu dillərdə *Azərbaycan* sözünün tələffüz forması da qədim dialekt fərqini ortaya qoyur. Hələ neçə əsr əvvəl türkmən şairi Əndalıp «Oğuznamə» əsərində Azərbaycana *Xəzərbeçan* deyirdi. Türkmənlərin Koroğlusu da özünü *xəzirbeycanlı* (azərbaycanlı) adlandırır.[886]

---

[882] Kuzgun, 1993, 175.

[883] «Boylarımız toy çala, Xəzər oğlu at çapa» və ya «Sağdağımda üç okum var, Üçü blan üç yat vursam, Xəzər bəgindən tartlığım var» (Kuzgun, 1993, 159).

[884] Кестлер, 2001, 29; Kavar adlı boyun Göycə gölü bölgəsində olması da bəllidir.

[885] Новосельцев, 1990, 79.

[886] «Azər xalqı», 2000, 33; Xəzərlər haqqında əlavə məlumat VIII Bitikdə verilmişdir.

Xəzərlərin güneydən quzeyə köçməsini göstərən bəlgələrdən biri də İosif Xaqanın məktubunda *Xəzər dənizi* adının *Qurqan dənizi* kimi yazılmasıdır. Bəllidir ki, Xəzər dənizinin güney hissəsi Qurqan (Hirkan) dənizi adlanırdı. Görünür, xaqan xəzər toplumunun yaddaşında yaşayan bu keçmiş «güneyli» adı vermişdir. Beləliklə, yuxarıda sadalanan Xəzər-Alban ilişkiləri və azər//xəzər paralelliyi aydın göstərir ki, Alban elinin əsas etnik dayağı bəzi yazarların dediyi kimi, qafqaz və irandilli boylar deyil, türk toplumu olmuşdur. Bu durumu alban boyunun öndərliyilə 26 boyun birləşdiyi Alban elinin tərkibinə daxil olmuş ayrı-ayrı bəyliklərin, vilayət və bölgələrin etnik tərkibi də aydın sərgiləyir.

Hay qaynaqlarında *işxanutyun* (bəylik), *qavar* (vilayət) və *nahanq* (bölgə) terminlərilə verilən inzibati ərazilər Kürdən yuxarıda Kambiçe, Ereti, Lpin, Çola, Maskut, Kürdən aşağıda isə Uti, Qardıman, Sakasen, Arsaq, Qarqar, Haband, Kaspi, Sünik və sair bu kimi bəylik, vilayət və bölgələri əhatə edirdi. Bunların hamısından burada geniş bəhs etməyə imkan olmasa da, Alban elinin bölgələri haqqında müəyyən təsəvvürün yaranması üçün bəzi məqamlara toxunmaq lazım gəlir.

Alban elinin hay, gürcü və yunan-latın qaynaqlarında *Kambeçan, Kambeçovani* və *Kambisena* şəklində adı keçən Kambiçe vilayəti Kür ilə Alazan çayı arasındakı vadiləri əhatə edirdi. Görünür, burada uzanan dağ silsiləsinin *Qombor* adlanması *kambi//qambi* boyadı ilə bağlıdır. Belə ki, quzeydən gəlib Güney Qafqaza və Kiçik Asiyaya yerləşən *qamər* boylarının içində adı *qam-ər, qam-be, qambe-çe, qambe-ər, qami-çe* şəklində işlənə bilən uruqların olması mümkün idi. M. Kalankatlı Kambeçan adının *Kambeçe* şəklini də qeyd etmişdir.[887]

Şirak (Sirak) düzü və Ceyrançöl bozqırı bu vilayətdə idi. Romaya qarşı vuruşan Mihrdat Alban-İberiya arasında yaşayan sirakların Zorsin (Sarçın?) adlı başçısından ona yardım etməyi xahiş edir, Zorsin savaşda ona kömək edir. Görünür, sirak boylarının bir qismi Erməniyədəki Şirak düzünə, bir qismi Şirvana getsə də, müəyyən hissəsi Kambeçe vilayətində qalmışdı. Görünür, Kambiçe vilayətinin bir hissəsi də Qarayazı çölünün batı tərəfində Kürün sağ sahilində *Kamiçe* adlanan bölgə idi. Həmin bölgədə indi Ermənistanın Noyemberyan adlı rayonu yerləşir. Məhz bu Kamiçe adını Strabon bəzən *Kamisena,* bir yerdə yanlış olaraq *Kambisena* kimi verir. Strabon yazır ki, *Kambisenada* (əslində *Kamisena* olmalıdır)

---

[887] (Kalankatlı, I. 17).

ermənilər iber və albanlarla qonşudur «Kambisena Erməniyə bölgəsidir» deyən Strabonun yanıldığını və Kambisenanın Albaniya vilayəti olduğunu A. H. Hakopyan da qeyd etmişdir.[888]

Artaşesin m.ö. II əsrin əvvəllərində Azərbiqandan qopardığı və bir müddət gah Erməniyə, gah da İberiya dövlətinə tabe edilən, 387-dən isə birdəfəlik İberiyanın tərkibinə keçən Qoqarena vilayətinin quzey-doğu qonşuluğunda yerləşən Kamisena bölgəsi Strabonun vaxtında Erməniyə-İber-Alban ölkələrinin sınırı sayılırdı. Ona görə də Strabonun dolaşıq bir mətni tekstoloji baxımdan təhlil olunanda adların yanlış yazıldığı ortaya çıxır. Mətn belədir: «Armeniyanın tərkibinə *Favena*, *Komisena* və çoxlu atlı döyüşçü çıxara bilən *Orxistena* bölgələri də daxildir. Ən quzey bölgələr olub daha çox qarla örtülən *Xorzena* və *Kambisena* İveriya, Kolxida və Qafqaz dağlarının sərhədindədir».[889] Göründüyü kimi, birinci cümlədə adı keçən Komisena toponimi ikinci cümlədə yanlış olaraq Kambisena şəklində yazılmış və Alban torpağı Erməniyə bölgəsi kimi verilmişdir. Halbuki, tarixi qaynaqların hamısı Kambiçeni (Kambisena) Alban vilayəti kimi verir.

Beləliklə, Alban elinin quzey-batı əyaləti Kambiçe İberiya ilə qonşu idi. Kambiçenin quzeyində gürcü qaynaqlarının *Here//Hereti* şəklində verdiyi bölgədə *er* (*her*) adlı alban boyları vardı. F. Məmmədova qeyd edir ki, Kambiçedə (Kambisenada) *alban, lpin, savir* və *skit-sak* boylarından qalanlar yaşayırdı.[890] Bu sıraya *qamər*, *kambi* və *xəzər* boylarını da əlavə etmək olar. Kambiçe vilayətində xristianlıq V əsrdə geniş yayılmışdı və burada yepiskopluq yaranmışdı.[891]

Bəzi tədqiqatçılar **Lpin** vilayətini Alban elinin ərazisi olan Alazan vadisində yerləşdirirlər.[892] Lakin nəzərə almaq lazımdır ki, M. Kalankatlının verdiyi məlumata görə, barış üçün Hun ölkəsinə yepiskop İsrayılın başçılığı ilə gedən elçilər öncə Kür çayını və sonra Alban elinin sınırını

---

[888] Strabon, XI. 4.1; Акопян, 1987, 28-29.

[889] Strabon, XI. 14. 4; Görünür, burada adı Kamisena ilə yanaşı verilən *Favena* bölgəsi vaxtilə Artaşesin Azərbiqandan qopardığı *Favnitida* bölgəsidir. Çünki Strabon yazır ki, Artaşes iberlərin Pariadr dağlarının ətəklərini, Xorzena və Qoqarena bölgələrini, midiyalıların (Azərbiqanın) isə Kaspiana, Favnitida (*Faunit*) və Basaropeda bölgələrini tutmuşdur (Strabon, XI. 14. 5); Məntiqə görə, bu bölgələr bir-birinə yaxın olmalıydı.

[890] Мамедова, 1986, 94.

[891] Алб.т. I. 17; II. 19; III. 10.

[892] ДД, 185-188; Мамедова, 1986, 93; Гейбуллаев, 1991, 151-153.

keçəndən 12 gün sonra *lpinlərin* ölkəsinə çatırlar və buradan *çilblərin* ölkəsinə keçirlər.[893] Haydilli qaynaqlarda *Lpin*, yunan yazısında isə *Lupen* şəklində qeyd olunan vilayət Samur çayının orta axarlarını əhatə edirdi. Lpin bəyliyi müəyyən çağlarda Alban konfederasiyasına daxil olsa da, onun Alban elinə tabeliliyi nominal xarakter daşıyırdı. Yaxın əlaqələr isə daha çox xristian kilisələri arasında idi. Xəzər dövləti yaranandan sonra bu bölgə də xəzərlərin idarəsi altına keçdi.

Albaniyanın quzey-doğusunda Lpin ölkəsindən sonra **silv** (*çilb*) adlı boyların yurdu yerləşirdi. Dağıstanın güney-batısında yaşayan avarların əcdadı sayılan silvlərin də ilkin yurdunu bəzi tədqiqatçılar Alazan vadisi sayır. Pliniyə görə, Alban sınırından başlayaraq dağ yamacları boyunca yabanı *silv* (çilb) boyları, onlardan aşağıda isə *lupenlər*, sonra *didurlar* və *sodlar* yaşayırdı.[894] Yazarın bu məlumatını gözardı etmək olmaz, çünki didurları göstərdiyi yerdə bugün *didoy* boyları yaşayır. Samur çayı hövzəsindəki dağətəyi bölgədə lupen (lpin), dağların yamaclarındasa silv boylarının məskunlaşdığını Plini düzgün vermişdir, onun sadaladığı boyların hamısı indi orada yaşayan doğuqafqazdilli xalqların əcdadlarıdır.

Alban elinin quzey-doğu vilayəti qaynaqlarda **Çol** (*Çor, Çul, Sul*) adlanır. Alban elinə III Vaçaqanın vaxtında tabe olana qədər (488-də) Lpin kimi Çol da öz avtonomiyasını saxlamışdı.[895] Massaqetlərin arsaq soylu bəylərinin mərkəzi şəhəri sayılan Çol Xəzər yaxasında Dərbəndə yaxın xarabalığı qalan Torpaqqalanın yerində idi. Qaynaqlarda bura *Hun qalası*, *Hun qapısı, Hun keçidi* adı ilə də verilmişdir. Massagetlər kimi çol//çul boylarının Xəzərin doğu tərəfindəki Türkmən elində yaşamasını qeyd edən tarixi bəlgələr vardır.[896] Dərbənd-Çol bölgəsinə hunların gəlmə tarixi bəlli olsa da, çol və massaget boylarının burada hunlardan daha öncə olması şübhə doğurmur. Belə ki, M. Kalankatlı apostol Yeliseyin ilk dəfə xristianlığı Çol bəyliyində I-II əsrlərdə təbliğ etdiyini yazırsa, onda çol boyunun burada m.ö. məskunlaşdığın deməyə əsas vardır. İ. M. Dyakonov Alban elindəki massaget boylarının bura daha öncə «saqaların ardınca» gəldiyini güman edir.[897]

---

[893] Kalankatlı, II. 39; Котович, 1974, 181-189.

[894] Plin. Nat. Hist. VI. 29.

[895] Мамедова, 1986, 89.

[896] Geniş məlumat üçün bax: Гейбуллаев, 1991, 111-114, 354.

[897] Дьяконов, 1956, 245.

Antik çağ yazarı Dion Kassi massagetləri alban boyu sayırdı. Ərəb, fars və hay qaynaqlarında adı *maskat, maskut* və *mazkut* şəklində verilən massagetlər kimi çollar da türk boyu idi. V.V. Bartold çin qaynaqlarında *çu-yuye* şəklində adı keçən və tərcüməsi çincə «qum çölü» anlamındakı *şato* sözü ilə verilən *çöl* adlı oğuz boyundan bəhs etmişdir.[898] Dərbənd ilə Beşbarmaq arasındakı əraziləri əhatə edən Çol vilayətində adı *Şabran* toponimində əks olunan sabir//suvar boyu, adı Dəvəçi-Siyəzən bölgəsində *Xurasan//Korasan* toponimində qalan *xorus* boyu da yaşayırdı. Sonralar burada yaranan Xursanşah bəyliyinin adı həmin xoruz etnonimi ilə bağlı idi. 520-yə qədər davam edən Maskut bəyliyi «Dərbəndnamə» əsərində Samurla Şabran arasında bir sıra qalaları, kənd və əkin sahələri olan vilayət kimi verilir.[899] Massagetlərin izi Abşeron yarımadasında da qalmışdır. Belə ki, *Maştağa* (Maşqata) kəndinin adı massagetlərlə bağlıdır. Ammian Marselini qeyd edir ki, Pompey alban və massaget ölkələrinə girmişdi. Əgər m.ö. I əsrdə Pompey *Massaget* ölkəsində olmuşsa, deməli Maştağa kəndinin adı o çağda mövcud idi. «Alban tarixi» maskut elbəyi (*taqavor*) Sanesanın arsaq soyundan olması və böyük hun qoşunu ilə Erməniyəyə hücum etməsi haqqında bilgi verir.[900]

Beləliklə, qaynaqlarda Alban elinin Çol və Maskut adlanan vilayətində çol (*çöl*), massaget (*maskut*), xoruz, xəzər, sabir (*suvar*) və hunlar yaşayırdı. V əsrdən isə perslər Dərbəndə qədər burada bir neçə qala və sədd qurub, pers qarnizonlarına qulluq etmək üçün bura irandilli tatları köçürdü. Bugün Xızı-Dəvəçi bölgələrində *dağlı* adlanan türklərlə iç-içə yaşayan tatlar o çağlardan qalma boylardır.

Çol-Maskut vilayətindən batıda Qafqaz dağlarının güney ətəkləri və Kürdən yuxarıdakı ərazilərdə Alban elinin Şamaxı, Qəbələ və Şəki bölgələri yerləşirdi. Alban elinin mərkəzi şəhəri sayılan və arxiyepiskop ilə elbəyin oturduğu *Qəbələ* ərəb işğalına qədər öz strateji əhəmiyyətini saxlamışdı. Belə ki, ticarət yollarının üzərində yerləşən, siyasi və dini-inzibati mərkəz olan Qəbələ bölgəsi sasanilərin tabeliyindəki çağlarda mərzbanlıq mərkəzi, xəzərlərin tabeliyində olanda da inzibati mərkəz sayılırdı. Qəbələ *Xəzər şəhəri* də adlanırdı. Alban elində *Şəki* (Şake) bölgəsi ipək istehsalı ilə məşhur idi. Qafqazda xristianlığın tarixi baxımın-

---

[898] Бартольд, V. 1968, 580-581.

[899] Минорский, 1963, 64.

[900] Kalankatlı, I. 14.

dan ilk xristian məbədinin tikildiyi Kiş kəndinin özəl yeri vardır. Alban elinin siyasi-inzibati bölgələrindən biri olan Şəki ayrıca yepiskopluğa malik idi. Görünür, Dədə Qorqud boylarında adı xatırlanan *Şöklü Məlik* də şəkili xristian türklərindən imiş.

Qaynaqlarda Otena // Utik şəklində qeyd olunan Alban elinin **Uti** vilayəti Kürün sağ sahilində İberiya sınırından başlayıb Arsaq vilayətinin quzey-batısına qədər uzanırdı.[901] Yuxarıda Urartu çağına aid verdiyimiz xəritə-sxemdə Göycə gölünün güney-batı yaxaları *Uduri-Etiuni* adlanır. Ola bilər ki, tarixi *Uti* ərazisi həmin bölgədə olmuşdur. Alban eli ərəb işğalından sonra Şirvan, Aran, Muğan vilayətlərinə ayrılanda *Uti* Aranın tərkibində idi. Gardmanda hun, alban, qazax, kəngər, saqa boyları və VI əsrdə Güney Azərbaycandan bura köçüb xristianlığı qəbul edən mihran boyu yaşayırdı. Qaynaqlar Uti vilayətində Sakaçe (Sakasena, Şakaşen) və Qardman bölgələrinin, Xalxal, Xani, Aynian, Anariak şəhərlərinin adını çəkir, paytaxtın Bərdə şəhəri olduğunu göstərir. Gəncəbasar mahalını əhatə edən Sakaçe bölgəsinin adı Alban elindən öncə bu ərazilərdə dövlət qurmuş saqa boylarından qalmışdır. Saqa boylarının adı təkcə Sakaçe bölgəsində deyil, Şəki, Sisakan (Sünik) və sair bölgələrdə də saxlanmışdır.

Qaynaqların Qardman, Qardabani, Qirdman kimi qeyd etdiyi bölgə öncə Kürün sağ sahilində müasir Qazax rayonunun ərazisini əhatə edirdi. Mihranilər çağında isə Qardman Kürün sol sahilində Ağsu və Girdman çayları hövzəsinə qədər uzanan böyük bir bölgə idi. Gürcustanda müasir *Qardabani* bölgəsinin adı Qardmanın ilkin ərazisi ilə bağlıdır və Alban elinin batıda ən ucqar yeri sayılan Xunan qalası da burada idi. Qədim gürcü qaynağının Qardabanidə qeyd etdiyi *Qaaçani* toponimi isə güman ki, müasir Qaçağan kəndinin adıdır.[902]

Alban elinin mərkəzi vilayəti sayılan **Arsaq** (*Arsax*) burada yerləşən *qarabağ* boylarının adı ilə XIII əsrdən Qarabağ adlanmışdır. Alban elində bir neçə əsr hakimiyyətdə olmuş *ərsaqlar* sülaləsi saqat (saqa) boylarından ayrılmış partların bir qoluna mənsub idi və onlara *varsaq* boyu da

---

[901] «Alban tarixi» Uti vilayətini Qarabağın dağlıq və aran sahəsində və Qazax-Akstafa bölgəsində verir. M. Xorenatsinin əsərində isə Uti Arsaq əyaləti ilə Kür çayı arasında verilir və Bərdə (*Partav*) şəhərinin yerləşdiyi əsl Uti bölgəsi ilə yanaşı Aranrot, Axue, Tri, Rotpatsian, Tuçkatak və Qardman bölgələrinin də Utiyə daxil olduğu qeyd edilir (Хоренаци, 1858, 338); Uti vilayətinin belə geniş ərazilərə aid edilməsi heç də o demək deyil ki, bütün bu ərazilərdə uti adlı boylar yaşayırdı.

[902] КЦ, I. 55.

deyilirdi. Vaxtilə Prokopi də Arsakid soyunun erməni (hay) olmadığını yazmışdı.[903] Saxa (yakut) soykökü rəvayətlərində *Soqotox* (saqat-oq) və *Arsaq* şəxs adları vardır.[904] Yaqut əl-Həməvinin Muğanda verdiyi *Ərsaq* dağının adı və V.V. Radlovun qeyd etdiyi Novosibirsk vilayətində baraba türklərinin *Arsaklı* kəndinin adı da diqqəti çəkir.[905]

Bugün Şərur tuşunda Arazın sağında *Arsaklar* adını saxlayan kənd vardır.[906] Hay dilində *Artsax* (Arsaq) adı «Alban tarixi» kitabının ayrı-ayrı nisxələrində *Արցախ* və *Արձախ* şəklində yazılmışdır.[907] Bu adın fərqli yazılışı göstərir ki, onun hayca tələffüzü sonralar stabilləşmişdir. Baxmayaraq ki, ərsaq (arsaq) boyadından yaranan Arsaq toponiminin çox aydın etimologiyası (*ər-saq*) vardır, Alban eli çağındakı *Arsaq* adı üzərində müəyyən spekulyativ fikirlər söylənmişdir.[908] Halbuki, o dövrün hay tarixçisi Yelişe yazırdı ki, Alban elbəyi Vaçe maskut soyludur, Maskut elbəyi Sanesanın da ərsaq soyundan olması haqqında «Alban tarixi» bilgi verir.[909]

Qaynaqlarda Vaykunik, digər Haband, Berdatsor (*Qaladərə*), Koxt, Mets-Arank (*Böyük Aran*), Arçlank, Muxank (*Muğan*), Piank, Pantskank kimi bir neçə Ərsaq bölgəsinin adı çəkilir.[910] Mxitar Qoş Bərdə yaxınlığında Paris (Barıs) kəndinin adını qeyd etmişdir. Burada olan *Boris* toponimləri göstərir ki, Qarabağda bars boyları yaşamışdır. XIX əsrə qədər

---

[903] Прокопий, III. 1.6.

[904] Q.V. Ksenofontovun 1921-1926-cı illərdə saxa boyları arasında «Er Soqotox Elley və Omoqon Baay» motivində topladığı tarixi rəvayətlərin birində deyilir: «Er Soqotox Elley güneydən gəlmişdi, deyilənə görə, onun atası tatar soyundanmış, adı isə Arsaax imiş» (Ксенофонтов. Эллейада, 1977, 34).

[905] Радлов, 1989, 116; Әлиjева, 1999, 131 (Yaqut, I. 152).

[906] СИ, 666.

[907] Kalankatlı, 1983, 120.

[908] Bəzi tədqiqatçılar Urartu yazısında adı keçən *Urtex//Urtexini* və Strabonun qeyd etdiyi *Orxistena* yeradının sonralar *Artsax* (Arsak) şəklinə düşdüyünü güman edirlər (Алиев, 1989 а, 15, 17; Мамедова, 1986, 104); Lakin bu adların şəkilçisiz formaları olan nə Orxist, nə də Urtex adının Artsax şəklinə düşməsi üçün fonetik əsas yoxdur. Əgər Orxist və Urtex eyni bölgənin adıdırsa, onda bu bölgə Göyçə gölünün güney-doğu yaxasındadır. Belə ki, urartuların m.ö.713-də tutduğu Urtex bölgəsi burada idi (Арутюнян 1970, 263-264).

[909] Kalankatlı, I. 14; M. Xorenatsi də Ərsaqı İbrahim peyğəmbərin arvadı *Xettura* soyundan sayır (Хоренаци, II. 1). Bu isə ərəb qaynaqlarında *Kantura* soyudur və ərəblər Azərbaycana gələndə azər türklərinə *bəni-kantura* (kantura oğulları) deyirdilər.

[910] Хоренаци, 1858, 338; Мамедов, 1977, 37.

Qarabağda azər türkcəsində danışan *berezlər* boyu vardı.[911] F. Məmmədova yazır ki, əhalisi *qarqar, uti, hun, xəzər* və *basil* boyları olan Arsaq vilayəti müasir Dağlıq Qarabağı və Mil düzünün bir hissəsini əhatə edirdi.[912] Q. Ə. Qeybullayev isə bu sıraya *dondar, sadak, xorus, tərtər, tirkeş, peçeneq, quşçu, saqa* (şəki), *alban*, *aran* və başqa türk boylarının adını əlavə edir.[913] Burada arsaq (part) soylarından *parnlar* da vardı. Bu parnlara Çürük (Çorox) çayı hövzəsində də rast gəlmək olur. Bəzən parn boyu abar boyu ilə qarışıq salınır. Halbuki abarlar daha qədim çağlardan batı türklər içində vardı və antik dövrün yazarları onları saqalardan öncə verir. Arsaq bölgəsinin əsas boylarından biri də qarqarlar idi. Alban elində yaşayan qarqar boylarının daha qədim çağlarda Ön Asiya, Quzey Qafqaz, Orta Asiya bölgələrində göründüyünü yuxarıda yazmışdıq.

Ağdam rayonunun ərazisindən Kürə axan *Qarqarçay* və Qarabağın dağlıq bölgəsində olan *Qarqardağ* oronimi göstərir ki, qarqar boyları düzən, həm də dağlıq bölgədə yaşayırmışlar. Yaqut əl-Həməvi Beyləqan yaxınlığında *Karkar* şəhərinin adını çəkir.[914] Hay qaynaqları qarqar boyunu Aran (Ərən) soyundan sayır.[915] M. Xorenatsiyə görə, **Qarqar** bəyliyi Mil düzündə yerləşirdi, Maştos buradakı çoxsaylı qarqarlar üçün əlifba düzəltmişdi.

Qarqar bəyliyilə Xəzər arasındakı ərazilər qaynaqlarda **Kaspiana** kimi verilmişdir.[916] Kaspiananın sonralar *Balasakan* adlanması və burada *Biləsuvar* yeradının ortaya çıxması da diqqəti çəkir. Araz çayının hər iki tərəfindəki Muğanı əhatə edən **Balasakan** adını bəzi araşdırıcılar hun və saqa boyları ilə bağlayır.[917] Kaspi boylarının adını əks etdirən Kaspiana isə hay qaynaqlarında Kasbk//Kazbk şəklində keçir.

---

[911] Гейбуллаев, 1991, 179-181.

[912] Мамедова, 1986, 104.

[913] Гејбуллајев, 1990.

[914] Əлијева, 1999, 117.

[915] Хоренаци, II. VIII. (1958, 84).

[916] Urartu çağında Polad bölgəsindən aşağıda Xəzər ilə Urmu arasında Zikertu (Saka) bölgəsi və burada Bərdə (Parda) şəhəri vardı. Antik çağ və hay qaynaqlarında Kaspiana (Kaspk) vilayətinin adı çəkilir, onun batı tərəfində indiki Qarabağda isə Saka və Arsak bölgəsi və Bərdə (Partav) şəhərinin adı verilir. Buradakı Kaspi-Saqa qonşuluğu 15-ci Əhəməni satrapiyasının formalaşması üçün də əsas olmuşdur. Daha güneydə qalan kaspilər isə 11-ci satraplıqda yer almışlar. İ. M. Dyakonov Kaspi (Paytakaran) bölgəsini Qarabağda verir (Дьяконов, 1956, 448).

[917] Адонц, 1971, 423; Гейбуллаев, 1991, 98-99.

Strabonun verdiyi bilgiyə görə, m.ö. II əsrdə Ermənidə hakimiyəti ələ alan Artaşes midiyalıların (Azərbiqan) *Kaspiana* bölgəsini zəbt etmişdi. Başqa bir yerdəsə Strabon yazır: «Kaspiana Alban ölkəsinə aiddir».[918] Göründüyü kimi, yazar biri Azərbiqan, digərisə Alban elində olan iki Kaspi bölgəsindən danışır. Artaşes albanların deyil, midiyalıların Kaspi bölgəsini tutmuşdu, bu bölgə Xəzər yaxasında yox, Azərbiqanın quzeybatı bölgəsi kimi Erməniyə ölkəsinin yaxınlığında idi. Lakin Strabonun deyimini yanlış yozan bəzi tədqiqatçılar kimi F. Məmmədova da yazır: «Kaspiana (Paytakaran) m.ö. II əsrdə erməni çarı I Artaşes tərəfindən tutulmuş və m.ö. 55-ə qədər Armeniyanın tərkibində olmuşdur».[919]

Hayların bölgələr üzrə hərbi qüvvələrinə aid sənəddə 3 min atlısı olan *Kaspi* knyazı Gögər (Qoqar) bölgəsinə aid qrupda verilir.[920] Əvvəla, mərzbanlıq dövrünə aid olan bu sənəddə adı keçən *Kaspi* Xəzər dənizi tərəfdəki *Kaspi* (Kaspiana) ola bilməzdi, çünki hay yazarlarının özləri də deyir ki, həmin çağda doğudakı Kaspiana Erməniyəyə aid deyil. İkincisi də, doğudakı Kaspi vilayətinin o qədər az atlısı ola bilməzdi. Beləliklə, sənəddə Kaspi adlı kiçik bir bölgənin hərbi qüvvəsi verilmiş və o bölgə Gögərə yaxın olduğundan eyni qrupa düşmüşdür. Məhz vaxtilə Artaşesin İber və Azərbiqan ellərindən qopardığı torpaqları Strabon bir-birinə yaxın bölgələr kimi vermişdir: *Xorzena, Qoqarena, Kaspiana, Basaroped* və b.

A. E. Krımski və V. F. Minorski kimi tanınmış alimlər də Artaşesin Kaspiana bölgəsilə bərabər Midiyadan qopardığı Basaroped və Favnitid (Favnit) bölgələrinin Kürün sağ sahilində olduğunu qeyd etmişlər.[921] Hay yazarı N. Emin güman şəklində olsa da, bu toponimlərin (Basaroped və Faunit) yuxarı Ərməniyədə hansısa bölgənin təhrif olunmuş adları ola biləcəyini söyləyir.[922] T. M. Məmmədov isə Basaropedin qarşılığı kimi hay qaynaqlarında Vaspurakan adının işləndiyini qeyd edir.[923]

Qaynaqlar və bəlli toponimlər göstərir ki, Kaspiana//Balasakan vilayətində *saqa, suvar, bulqar, kaspi, alban, hun, xəzər, ağacəri* boyları

---

918 Strabon, XI. 14. 5; XI. 4. 5.

919 Мамедова, 1986, 98.

920 Адонц, 1971, 282.

921 Bax: Акопян, 1987, 14; Y. A. Manandyan da *Kaspini* Axıska bölgəsində, keçmiş Gögər vilayətində verir (Манандян, 1939, 74).

922 Хоренаци, 1858, 343 (2-ci qeyd).

923 Мамедов, 1977, 24-25; *Vaspurakan* Azərbiqanla Erməniyə arasında idi.

vardı. Kaspiananın batı tərəfində mərkəzi *Beyləqan* (Baylakan) şəhəri olan və qaynaqlarda Alban elinin **Paytakaran** şəklində adı keçən güney vilayəti vardı. Hay qaynaqlarında Paytakaranda Arospican, Atli, Alevan, Rotibağa, Bağanrot, Baqavan kimi bölgələrin adı çəkilir.[924] Sadalanan bu toponimlərdə «aras-bi yurdu», «atlı», «alvan», «bağa//bağan çayı», «bağa yurdu» deyimləri aydın seçilir. Tarixdən bəllidir ki, Sasani hakimiyəti Paytakaran vilayəti ilə yaxın əlaqədə idi və V əsrin ortalarında Güney Qafqaz xalqlarının antipers üsyanlarına qoşulmurdu. Hələ 336//337-ci illərdə pers şahı II Şapurun təhrikilə ərsaqsoylu maskut elbəyi Sanatruk Paytakaranda türk və qafqazdilli boylardan böyük qoşun düzəldib Erməniyəni işğal etmiş və bir il əsarətdə saxlamışdı.[925]

Alban elinin Arsaqdan Ermənıyə ölkəsinə qədər uzanan batı vilayəti **Sünik** Göycə gölü ilə Araz arasında müasir Zəngəzur-Dərələyəz mahalını əhatə edirdi. Urartu çağından sonra buralar Saqa elinin mərkəzi bölgələri idi. M. Xorenatsi *Syunik* adını mifik soybabası *Sisakla* bağlayır və ölkənin adında «daha düzgün və təmiz» formanın perslərin **Sisakan** deyimi olduğunu vurğulayır.[926] *Sisiyan* toponimi də Sünik adının deyil, Sisakan adının sonrakı təhrif olunmuş formasıdır.

Ə. Rüstəmliyə görə, Sisakan adı si-sak(an) tərkibli olub *si* və *sak* boyadlarının qoşa (*sisak*) işlənməsini əks etdirir.[927] Bizcə, daha əvvəllər burada boyadı *si* deyil, *su* olmuşdur, çünki Mana eli çağında Arazdan güneydə bir neçə bölgədə yaşamış *su* adlı türk boyları vardı və bir çox türk boyları kimi *su* (sub//suv) boyu da Arazdan quzeyə keçib buradakı bölgələrdə yerləşmişdi. Belə ki, 1975-də Sisiyan şəhəri yaxınlığındakı çay qırağında tapılan Urartu yazısında bu bölgənin adı *Su-lu-qu* (Suluq) şəklində verilmişdir.[928]

Sünik vilayətində Erincək, Çaxuk, Gelakuni (*Gölək-uni*), Kusakan, Tselak, Qoxtan (Ordubad), Haband və başqa bölgələr vardı. Bəzi hay yazarları Naxçıvan bölgəsini Vaspurakan vilayətinə aid edirlər, lakin Vas-

---

[924] Хоренаци, 1958, 338.

[925] Хоренаци, III. 3-6; Kalankatlı, I. 12.

[926] Хоренаци, I. 12.

[927] Рустəмли, 1998, 96-98; Vaxtilə De. Lagarde yazırdı ki, ölkənin adı öncə *Si* olmuş, saqalar burada məskunlaşandan sonra «saqaların Si yurdu» anlamında *Si-sakan* kimi işlənmişdir. Bu fərziyəni qəbul etməyən N. Adons həmin yeradını *si-s-akan* tərkiblərinə ayırır və daha öncə *Siunik* (si-uni-k) variantının işləndiyini yazır (Адонц, 1971, 421-423).

[928] ТУ, 236; Qədim hay yazıları bunu Ծղուկ (Tsluk) şəklində qeyd edir.

purakan Arazdan aşağı əraziləri əhatə edir. Naxçıvan Sünikdə mərkəzi bölgələrdən idi və görünür, vxtilə Urartu qoşunları bura da gəlib çıxmışdır. [929] Çox güman ki, urartu boylarından biri olan *naxçı* uruğunun (protoçeçenlərin) bir qismi Vedibasar-Naxçıvan arasında oturmuşdur.

Hay tarixçisi Sebeosa görə, VI əsrin ortalarında Sünik knyazı Vahan Erməniyə Mərzbanlığından ayrılmış və pers şahı Xosrovdan *Sisakan divanını* Dvindən Paytakarana köçürüb, Atropaten şəhərlərinin siyahısına daxil etməyi və üstlərindən «*erməni*» adının götürülməsini xahiş etmiş və bu xahiş yerinə yetirilmişdir.[930] Erməniyə sınırındakı Sünikdə hay dilinin təsiri (*alban* > *ağvan* dəyişməsi) islamdan sonra görünməyə başlasa da, xristian əhaliyə kilisə vasitəsilə təsir etmə cəhdləri əvvəllər də olmuşdur. Lakin bu Alban vilayəti bəzən Azərbiqana tabe olsa da, müəyyən dövrlərdə avtonomiyasını saxlaya bilmişdi. Vaxtilə N. Adons yazırdı: «Sisakan coğrafi və etnik baxımdan Armeniyadan bir qədər kənarda idi».[931]

Görünür, Sünikdə türk dillərinin «d» dialektində danışan boylar da vardı, çünki *z//d* dialekt fərqini azər və part (ərsaq boyu) deyimlərilə əks etdirən *Azərbiqan//Adərbiqan* adlarında olduğu kimi, çox güman ki, *Uruz* (Oroz) adı da bir neçə part şahının daşıdığı *Orod* variantında görünür və bu variant *Urud* kəndinin adında qalmışdır.

Beləliklə, vilayət və bölgələr üzrə rast gəldiyimiz etnik bəlgələr Alban elində saqa, massaget (maskut), kaspi, su, suvar (savir), abar, qamər, bulqar, xəzər//azər, dondar, gögər, qarqar, tərtər, ağacəri, peçeneq, kazax, alban//aran, hun, sadax, tirkeş, çol, bars (barsil), xoruz, quşçu adlı türk boyları olduğunu sərgiləyir. Alban elinin batı qonşuluğunda qeyd etdiyimiz *gögər, kəngər, kazax, bulqar* və başqa boylar Alban elinin daxili bölgələrində də görünür ki, bu da etnik demoqrafiyada təbii haldır. Belə ki, eyni adı daşıyan boylar bir-birinə yaxın və uzaq bölgələrdə məskunlaşa bilir. Nümunə üçün qeyd edək ki, Gögər (Quqar) vilayətindəki kəngərlərin içində *qazaq* (kasax), *qarabağ*, *dəmirçi* boylarının adı və sonralar həmin kəngərlərlə bağlı *cinli, həsənli, boyəhməd* (əhməd boyu), *qızılhacılı* boylarının adı Azərbaycanın müxtəlif bölgələrində ortaya çıxan etnotoponimlərdə əks olunmuşdur.

---

[929] Hayca soylular siyahısı olan «Qahnamaq» yazısında *naxçeri* soyu qeyd olunmuşdur (Адонц,1971, 262).

[930] Мамедов, 1977, 84; Мамедова, 1986, 107.

[931] Адонц, 1971, 220-221.

Alban elində şəhərlərin yaranma səbəbi bir tərəfdən sosial-iqtisadi inkişafla, dövlət qurumlarının formalaşması ilə bağlı idisə, digər tərəfdən Ön Asiya bölgələrilə hərbi-siyasi və ticarət əlaqələrin artması da böyük şəhərlərin salınmasına təkan verirdi. Hələ Kür-Araz kulturu çağlarından Güney Qafqazın müxtəlif yerlərində əhalinin təbəqələşməsini, varlı-kasıb bölgülərin ortaya çıxmasını, tunc dövrünün ortalarından başlayaraq bəzi yüksəkliklərdə siklopik müdafiə qalalarının və münasib yerlərdə yaşayış məskənlərinin yarandığını görmək olur. Ona görə də Alban elinin yarandığı ərazilərdə «şəhərləşmə» gələnəyinin müəyyən tarixi keçmişi vardı və m.ö. IV əsrin sonlarından ortaya çıxan Alban dövləti özündən öncəki yarımköçəri saqa boylarının qurduğu Saqa elinin doğu bölgələrində qalan kiçik bəylik və dərəbəyliklər əsasında yaranmış və bu çağdan şəhərlərin sayı artmağa başlamışdır.

Qaynaqlar Alban elində çoxlu şəhər, qala və yaşayış məskənlərinin adını çəkir.[932] Arxeoloji qazıntı Alban şəhərlərində yüksək yaşam kulturu olduğunu göstərir, burada məbədgah, təsərrüfat, inzibati, ticarət, sənətkarlıq tikililəri cəmiyətin sosial-iqtisadi inkişafını sərgiləyir. Tikinti materialı kimi çiy və bişmiş kərpiçdən, daşdan istifadə edilir, damların kirəmid örtüyü olurdu. Şəhərlər daha çox kult yeri, ticarət mərkəzi və qalalar ətrafında əmələ gəlirdi. İ. A. Babayev yazır ki, Alban şəhərləri ölkənin siyasi-inzibati, ideoloji, iqtisadi və mədəni mərkəzləri idi.[933]

Plininin I əsrdə adını çəkdiyi **Qəbələ** şəhəri VI əsrin əvvəlinə qədər Alban elbəyləri və arxiyepiskopun oturduğu mərkəz idi. Görünür, bu çağdan isə Xəzər dövlətinin inzibati mərkəzi olmuşdur.[934] Savir, bulqar, barsil boylarının da yaşadığı Qəbələni ərəb qaynağı «Xəzər» şəhəri adlandırmışdır. Qəbələ alban boylarının ilk baş şəhəri olduğundan bu adın «baş» (kapa//qafa) və «qafatası» anlamılı qədim türk sözü *kapala* ilə bağlı yaranması mümkündür.[935]

---

[932] Klavdi Ptolemey (70-147) Alban elində bu şəhərlərin adını çəkir: Telayba, Gelda, Albana, Qaytara (Qanqara), Taqoda, Bakriya, Sanua, Dehlane, Niqa, Moseqa, Samunis, İobula, İuna, Embolaya, Adiabla, Ablana, Mamexiya (Samexiya), Ossika, Sioda, Baruka, Xabala, Xabota, Moziata, Misia, Xadaxa, Alam, Tilbis (Ptol. Geoqr. V. 11. 2-5).

[933] Бабаев, 1990, 183.

[934] Тревер, 1959, 254.

[935] Hun-saqa boylarında qafatasından hazırlanmış kasadan (*kapala*) içəndə güman edirdilər ki, kafatası sahibinin ruhu ona keçir. Knyaz Svyatoslavı öldürən qıpçaqlar da onun qafatasından bu amacla istifadə etmişdilər (Горненский, 2004, 153).

Saqalardan ayrılmış *pardı* (*bartı*) boyunun yaşadığı yerlərdə *Barda* toponimi yayılmışdı. Orta Asiya və Xəzərin dörd tərəfində ortaya çıxan belə etnotoponimlərdən biri də m.ö.VIII əsrdə Səhənd dağının ətəyində idi.[936] 551-dən Alban katolikoslarının mərkəzinə və 630-dan mihranilərin qərargahına çevrilən və hay qaynaqlarının *Partav* şəklində verdiyi **Bərdə** şəhəri V əsrdə yenidən qurulmuşdu.[937]

Alban tarixçisinin Albaniyanın böyük şəhərlərindən biri kimi qeyd etdiyi *Tsri* şəhərinin adını Q. Ə. Qeybullayev **Diri** (*Tiri*) şəklində bərpa edərək yazır ki, Diri qala və Diri kəndi Zəngilanda Oxçu çayın Araza qovuşduğu bölgədə idi.[938] Yunanlıların yerləşdiyi **Yunan** şəhəri İstəxriyə görə Bərdədən 40 km, Beyləqandan isə 35 km məsafədə yerləşirdi. Qaynaqlarda *Xunan*, *Hnarakert* şəklində verilən **Hunər** (Hunan) adlı şəhər-qala Alban elinin batı sınırında olub, Xrami ilə Kürün qovuşduğu bölgədə idi. Hay tarixçisi Yelişeyə görə, **Xalxal** şəhəri Alban elbəylərinin qışlaq yeri sayılırdı.[939] Müasir Tovuz rayonu ərazisində olan albanların Xalxal şəhərinin adı elə «qışlaq yeri» anlamında idi. Belə ki, Güney və Quzey Azərbaycanda qışlaq yerlərinin azər dilində *xalxal* sözü ilə bildirilməsi bəllidir. K.V. Trever yazır ki, Alban şəhərlərini sadalayan Plini *Alban* çayının mənsəbində verdiyi şəhərin adını **Qaytara** və **Qanqara** şəklində yazmışdır.[940] Alban çayının mənsəbi Abşeronda idi. Beləliklə, yuxarıda bölgələrin adında gördüyümüz kimi, digər yer-yurd və şəhər adlarında da Albana (*alban*), Aran (*ərən*), Qarqar (*qarqar*), Qanqar (*kəngər*), Bərdə (*part*), Xunan//Hnarakert (*hun*), Otena (*uti*), Gelda (*gel*), Yunan (*yunan*) və başqa etnotoponimlərə rast gəlmək olur. Baxmyaraq ki, bəzi tarixçilər Arsaqda hay axtarır, lakin tərkibində *hay* adı olan etnotoponimi burada tapa bilmirlər.

Alban elinin kulturuna aid dəyərli bir kitab yazan C. Xəlilov qeyd edir ki, bugünkü elmi səviyyəyə görə ölkənin etnik sınırlarının hətta təxmini müəyyənləşdirilməsi mümkün deyil.[941] Lakin bu da bir gerçəklikdir ki,

---

936 $^{URU}$*Parda* (АВИИУ, №49, 79; №54, 28; ТУ, 157).

937 Görünür, həmin çağda bu şəhərin *Firuzabad* adlanması bu sasani şahının Bərdəni inzibati mərkəzə çevirmək üçün orada apardığı təmir və yenidənqurma ilə bağlı idi. Hay yazarı Tovma Artsruni isə Bərdə şəhərinin Qarqar düzündə olduğunu qeyd edir.

938 Гейбуллаев, 1991, 76; «Alban tarixi» başqa bir şəhər-qala kimi *Tri* adını da çəkir.

939 Адонц, 1971, 223.

940 Тревер, 1959, 139-140.

941 Халилов, 1985, 9.

mövcud olduğu müddətdə dövlətin siyasi-inzibati sınırları zaman-zaman dəyişsə də, ölkənin etnik coğrafiyası nisbətən stabil qalır. Alban elində etnik sınırların dəqiqləşdirilməsi üçün həmin çağda yaşamış tarixçilərin verdiyi bəlgələr önəmlidir.




Hirkanlarla arilər arasında *tapir* boylarının yaşadığını yazan Strabon Kaspi dənizi yaxalarında üzüyuxarı getdikcə hansı boyların olduğunu belə sadalayır: *hirkan, amard, anariak, kadusi, alban, kaspi, viti* və skitlərəcən (adını bilmədiyi) müxtəlif boyların da ola biləcəyini qeyd edir: [942] Aleksandriyalı Dionisi isə həmin boyları yuxarıdan üzüaşağı sıralayır: *skit, unn, kaspi, alban, kadus, mard, hirkan, tapur*.[943] Klavdi Ptolemey də Kaspi dənizinin quzey-batı yaxalarına yaxın *ud, olond, isod* və *qerr* boylarının yaşadığını yazır.[944] Göründüyü kimi, I-II əsr yazarları Kaspi dənizinin batı yaxalarının etnik durumu barədə müəyyən bilgi verir. Bu boylardan hansının Alban elinə aid olduğunu isə digər qaynaqlardan öyrənmək olur.

Adətən, Alban dövlətinin etnik tərkibindən danışan uzmanlar öncə Strabonun «*Albaniyada 26 xalq* (tayfa) *vardır*» deyiminə söykənirlər. Lakin Strabonun həmin cümləsi məntiqsiz bir söyləmdir: «*əvvəllər hər özəl dilin öz hökmdarı* (*basilevsi*) *vardı, onların dillərinin sayı isə 26 idi*».[945] Göründüyü kimi, burada söhbət tayfa və ya xalqdan yox, dildən gedir və hər dilin (?) guya öz hökmdarı varmış. Alban elində hətta eyni törəndə müxtəlif dillərdə dua oxunduğunu «Alban tarixi» də vurğulayır: «*Müxtəlif dillərdə oxunan duaların rəngarəng səsləri elə möhtəşəm idi ki, sanki yerin özü uca səslə oxuyurdu*».[946] Bəli, Alban elində ayrı-ayrı dillər vardı və bu dillər daxilində bir-birindən kəskin fərqlənən dialektlərin olması da təbii idi. İrandilli boylar Strabon yaşadığı dövrdən dörd-beş əsr sonra

---

[942] Strabon, XI. 8. 8.

[943] A. Hakopyan bu sırada *kadus* ilə *alban* boyunun yerini dəyişmişdir (Акопян, 1987, 39).

[944] Ptol. Geogr. V. 8.

[945] …πρότερον δέ καί καθ’ έκάστην γλώτταν ίδίᾳ έβασιλεύοντο έκαστοι. γλώτται δ’ είσίν έξ καί εϊκοσιν (Strabon, XI. 4. 6); Əgər Strabon verdiyi bu dolaşıq fikirdən sonra Alban elində işlənən dillərin (və yaxud yaşayan boyların) adını çəksəydi, Azərbaycan tarixinə əvəzsiz xidmət göstərmiş olardı.

[946] Kalankatlı, I. 21.

Alban elinə köçürülmüşdü, yazarın vaxtında isə aşağıda görəcəyimiz kimi ölkədə yalnız bir neçə qafqazdilli və çoxlu türkdilli boylar vardı.

Nəzərə almaq lazımdır ki, Alban ölkəsindəki boylardan çoxunun adı Saqa eli çağında ümumi «saqa» etnonimi, sonra «kaspi» etnonimi altında görünmədiyi kimi, alban boylarının öndərliyilə türk boybirləşmələrinin yaratdığı Alban eli çağında da yerli oturaq türk boylarının, hətta bəzi qafqazdilli boyun da adı ümumi «alban» etnonimi ilə verilmişdir. Bu və ya digər boyun özəl adını yazarlar yalnız bəzi hallarda çəkir. Etnonim bildirən sözlərin bu özəlliyini gözardı edən bəzi tədqiqatçılar Alban elindəki yerli türk boylarını görmək istəmir, yalnız quzeydən gələn yarımköçəri türklərdən bəhs edirlər. Hətta bugün türk ellərində alban//alpan və aran adlı türk boylarının varlığını görə-görə Alban elini quran və *alban*, *aran* adlanan boyun türk olmadığı haqqında absurd fikir söyləyirlər.

Məsələ burasındadır ki, bəzi tədqiqatçılar belə absurd fikirlərini bilərəkdən söyləyir. Məsələn, V. Q. Kotoviç İran, Qafqaz və Dağıstan toponimlərində görünən *qol, göl, çay, yar* kimi sözlərin Güney Sibirdən Dunaya qədər yayıldığını və bu sözləri yayan etnosa aid antropoloji tipin və arxeoloji kulturun m.ö. II minilin sonu, m.ö. I minilin əvvəlində eyni olmasını qeyd edir, lakin bütün bu bəlgələrin türklərə deyil, keltlərə aid olduğunu yazır.[947]

Tarixi coğrafiyada etnik sınırların müəyyən edilməsində dil bəlgələrilə yanaşı, hansı boyun tanrıçılıq, atəşpərəstlik, yəhudilik, xristianlıq dininə tapınması haqqında tarixi qaynaqların verdiyi bəlgələr, etnoqrafik özəlliyilə qədim tarixçilərin diqqətini çəkən ayrı-ayrı boylar haqqındakı məlumat da önəm daşıyır. İslamaqədər Alban elində sadalanan dinlərin hamısı vardı və məsələnin çətinliyi bundadır ki, burada eyni dinə müxtəlif dillərdə danışan boylar tapınırdı, «dinayrı qardaş» sayılan eyni boylar da müxtəlif dinlərə tapınırdı və ölkədə «dindəyişmə» olayı da yaşanırdı. Lakin elə boylar var ki, qaynaqların verdiyi bəlgələrə görə konfederativ boybirliyinin yaranmasında onların iştirakı şübhə doğurmur. M. Xorenatsi və M. Kalankatlı yazırlar ki, Uti, Qardman, Tsavdia və Qarqar bəyliyinin boyları partsoylu Valarşak (Balaş) tərəfindən Alban elinə hökmdar təyin edilən alp-ərən şöhrətli Aranın (Ərənin) soyundandır.[948]

---

[947] Котович, 1974, 206-207.

[948] Хоренаци, II. 8; Kalankatlı, I. 4.

K.V. Trever isə *gel, leq, silv* və *didur* boylarını da alban ittifaqına daxil olduğunu yazır.[949] Lakin coğrafi mövqeyinə görə, yalnız gellər bu ittifaqın yaranmasında iştirak edə bilərdi, digər boylar Alban eli qurulandan neçə əsr sonra xristianlığın yayıldığı çağlarda bu birliyə qoşulmuşdu. Yuxarıda deyildiyi kimi lpin, silv, didur boylarının yaşadığı bölgələr Alban elinin ilk sınırından kənarda idi. Antik və sonrakı çağlarda öncə albanların quzey-doğu qonşusu və sonra alban boybirliyi içində qeyd olunan *leq* adlı boyların isə sonrakı ləzgilərə aid edilməsi haqqında fikirlər vardır. Bəzən qədim və yeni etnonimlər uyğun gəlsə də, həmin etnonimi daşıyan boyun *gel* (ingiloy) boyadında olduğu kimi etnik kimliyini ayırd etmək çətin olur. Belə ki, bugün Zaqatala-Balakəndə müsəlman, Qaxda isə xristian ingiloylar yaşayır. Özünü *gel* adlandıran bu boyu bəzi uzmanlar qafqazdilli, bəziləri irandilli sayır.[950] Birincilər onların gürcü dilində danışmasını, ikincilər isə onları Gilandakı irandilli *gilək* boylarından olduğunu güman edirlər. Bu sıraya gellərin türksoylu olması ehtimalını da əlavə etmək olar. Belə ki, Herodot *gelon* boyunu *ağacəri* (aqathirs), *saqa* boylarına qohum sayır, Konstantin Porfirogenet isə peçeneqlərin bir qolu kimi Korkut (Κουρκούτ) adlı başçısı olan *qila* boynu verir.[951] Beləliklə, gellərin etnik mənsubiyətinə dair müxtəlif fikirlər mövcuddur. Gürcü və azər dilində danışan gellərin ikidilli olması və dinlərini dəyişməklə *ingiloy* (yengiloy) adlanması da buna səbəb olmuşdur, çünki xristianlığı XVII əsrin ortalarınacan saxlayan gellərin əksəri Şah Abbas çağında müsəlman olub ingiloy adlandı, lakin XIX əsrin ortalarında ingiloyların bir hissəsi yenidən xristianlığa qayıtdı. Özlərini *gel* adlandıran ingiloyların torpağı daha batıda olduğundan bir qismi Kaxetiyanın tərkibinə qatılmışdır.

Olsun ki, vaxtilə Alazan çayı hövzəsində Alban elinin quzey-batı bölgəsində yaşayan *er* (*her*) adlı alban boyu bugün özünü *er* adlandıran doğuqafqazdilli *qırız, haput* boylarından imiş. Gürcü və hay qaynaqlarında *Hereti//Her//Erk* şəklində verilən bu bölgə də sonralar Kaxetiyanın tərkibinə keçmişdir. Görünür, *erlər* Kaxetiya knyazlığının gücləndiyi VIII əsrdə gürcüləşmişlər.

Alban elində müxtəlif boylar olduğunu qeyd edən «Alban tarixi» kitabının yazarı Qafqaz dağlarının ətəklərinə qədər məskunlaşmış əhalini

---

[949] Тревер, 1959, 46.

[950] Гейбуллаев, 1991, 167-173.

[951] Геродот, IV. 10, 102, 108-109; Багрянородный, 1989, 154.

«quzeyli», «gəlmə xalq», «vəhşi Qafqaz xalqı» adlandırır.[952] Əlbəttə, yazar xristianlığın qatı təəssübkeşi kimi quzeydən gələnlər deyəndə bəzi vaxtlarda ölkənin iç bölgələrinə girib yağma edən, xristianlığın yayılmasına mane olan təkcə qafqazdilli boyları deyil, eyni olaylarda iştirak edən türk boylarını da nəzərdə tuturdu. Qafqaz dağlarını aşıb m.ö. II minildə Güney Qafqazdan keçərək Ön Asiyada yerləşən qafqazdilli hurri-urartu boylarından I Bitikdə bəhs etmişdik.

**Qafqazdilli boylar.** Bugün Azərbaycanda yaşayan avar, udi, ləzgi, saxur, qırız, buduq, haput və başqa qafqazdilli boyların çoxu Qafqaz dağlarının güney ətəklərinə keçib burada yerləşənlərdir. Öncə alban boyları birliyində iştirak etməyən **çilb** boyu Alban elinin tərkibinə sonralar daxil olmuşdur. Qədim qaynaqlarda adı *çilb, tsilb, silv, şilv* şəklində keçən çilblər Dağıstanın güney-batı bölgələrində yaşayırdı. Uzmanlar çilbləri müasir qafqazdilli **avar** xalqının əcdadı sayır.[953] Görünür, hay qaynaqlarının *ciğb* şəklində verdiyi və öncə Dağıstanın Saxur (Tsaxur) kəndində yaşayan **saxur** boyu da çilblərlə eyni kökdən idi. Bu qafqazdilli saxurlar özlərini *yixbı* adlandırırlar ki, bu ciğb//yixbi dialekt fərqi ola bilər. Öncə Tufandağ yörəsində, sonralar isə **Xınalıq** (*Xenilıq*) kəndində yaşayan doğuqafqazdilli khətlər (*khətid*) antik yazarların *qeniox* (*qeni-oq*) şəklində qeyd etdiyi boydur. Görünür, özlərini *khət,* yeganə kəndlərini isə *Ketiş* adlandıran bu boya qonşu alban türkləri «qeni uruğu» anlamında *qeni-oq,* kəndlərinə isə *Xenilıq* (Qeni-lıq) demişlər. Bu baxımdan **buduq** boyunun da adı diqqəti çəkir. Güman ki, burada albanların boybirliyinə («budun») başqa dilli bir uruğun (*oq*) qoşulması *buduq* (*bud-oq*) şəklində əks olunmuşdur.

Bugün Azərbaycanın quzeyində yaşayan azsaylı xristian **udi** xalqı alban boybirliyinə ilk qatılan doğuqafqazdilli **uti** boyunun qalığı sayılır. Lakin udi//uti məsələsini çözmək o qədər də asan deyil, çünki bu etnonim başqa-başqa dillərdə danışan xalqlarda da vardır: «ud adamı» anlamında *udmurt* finuqor boyu, hunların içində *uti-qur, uti-dur* və Plininin quzeydə qeyd etdiyi *uti-dor*(*s*) boyları, şahsevən toplumunda *udulu* türk boyu, həmçinin *udiut* (udi-ut) monqol boyu və *Udinsk* etnotoponimi. Ona görə də hələlik elmi həllini tapmayan və ayrıca araşdırmaya ehtiyacı olan bu dolaşıq məsələni biz də açıq buraxırıq. Buradasa ancaq bəzi istiqamətverici faktlara diqqət verilməsi gərəkir.

---

[952] Акопян, 1987, 260.

[953] Geniş məlumat üçün bax: Гейбуллаев 1991, 154-155.

Yuxarıda «Uduri-Etiuni» bölgəadının hələ urartu yazısında yer aldığını demişdik. Bəzi yazarlar *uti* və *alban* etnonimlərini sinonim sayır və alban əlifbasının uti dilinə aid olduğunu güman edir. Onların fikrincə Qarabağdakı utilərin I Pyotra yazdığı məktubda «biz ağvanlar (albanlar) milliyətcə utilərik» deyimi də uti-alban eyniliyinə əsas verir.[954] Lakin bu deyim onların eyni boy olduğunu deyil, fərqli boylar olduğunu ifadə edir. Belə ki, təkcə utilər deyil, Alban elində yaşayanların, özəlliklə albanların gerçəkləşdirdiyi boybirliyinə daxil olan boyların hamısı özünü alban saya bilər. Əlifba məsələsinə gəldikdə isə, onun udi//uti dili üçün deyil, qarqar dili üçün tərtib edilməsi, həm də bunun ağxəzər yazısına uyğunlaşdırılması I Bitikdə şərh olunmuşdur.

Yuxarıda qeyd etdik ki, Xəzərin batı yaxasında yaşayan boyları sadalayanda Strabon *viti* boyunu alban və kaspilərdən quzeydə verir. Əgər bunlar utilərdirsə, onda alban və uti adını yanaşı çəkən yazar onları eyni boy saymır. Plini skit boylarından (*scytharum populus*) saydığı udinləri albanlardan quzeydə, utidorsları da onlardan yuxarıda verir.[955] Ptolemey də *ud* boyunu burada qeyd edir.[956] Qaynaqlarda keçən ud//udi//udin boylarına aid faktları sadalayan A. H. Hakopyan udinlərin utilər olmadığını yazır.[957] Qafqazdilli boyların quzey bölgələrə enməsini son dövrlərə aid edən Azərbaycan tarixçilərinə görə qafqazdilli udilər Qəbələ bölgəsinə ölkənin quzey-doğu yörələrindən gəlmişlər.[958]

**İrandilli boylar.**Yuxarıda Albaniyanın ari ölkəsi olmadığını deyən Markvart, Hübşmann, Minorski kimi tanınmış mütəxəssislərin irandilli boyların Quzey Azərbaycana köçməsini Sasani çağında tikilən müdafiə zolaqlarına yerləşdirilməsilə bağladıqlarını qeyd etmişdik. Tarixdən bəllidir ki, m.ö. I minilin ilk yarısında Asur çarları bir çox yəhudi boylarını İrana köçürmüşdü. Pers dilini İranda ikən mənimsəyən yəhudi köçkünlərin bir qismi V əsrdən başlayaraq Sasani şahları tərəfindən Alban elinin quzey-doğu bölgələrində yerləşdirilmişdi. Bugün **dağ cuhudu** adlanan həmin tatdilli, daha doğrusu irandilli yəhudilər əski dinlərini saxlamışlar. Bugün Azərbaycanda yaşayan **tat, talış, kürd, pars, lahıc** kimi irandilli xalqların bir qismi yerli alban boylarından (kadus, kürd, dağlı) olub, gəl-

---

954 Арутюнян, 1951, 138; Гейбуллаев, 1991,64; Гукасјан, 1993, 41.

955 Plin. Nat. Hist. VI. 38-39.

956 Ptol. Geoqr. V. 8. 23.

957 Акопян, 1987, 81.

958 AT, 1996, 94.

mə irandilli boylara qarışıb onların dilini mənimsəmişlər. Belə ki, Balasakandakı kürdlər türk yarımköçəriləri (*türk əkradı*) idilər. İrandilli kürdlərsə Quzey Azərbaycana Alban eli çağında deyil, sonralar XV-XVI və XIX əsrlərdə Azərbaycanın batı dağlıq bölgələrinə köçmüşlər. İrandilli tatlar arasında yəhudi, xristian və müsəlman dinlərinə tapınanlar vardır. Şamaxı, Dəvəçi, Xaçmaz rayonlarının Mədrəsə, Kilvar, Xaçmas kəndlərində yaşayan xristian irandilli tatlar XIX əsrin əvvəllərinə qədər bu dili saxlamışdı.

Bəziləri part boylarından olan ərsaq, mihran və parnları da irandilli sayır. Lakin əhəmənilərdən sonra hakimiyətə gələn partların hakim təbəqəsinin sonrakı səlcuqlu sultanları kimi dəftərxana işlərində pers dilinə üstünlük verməsi hələ onların irandilli olmasını göstərmir. Alban elbəyi Cavanşirin mənsub olduğu mihran ailəsi də partsoylu idi.[959] Qaynaqların verdiyi bilgilər ərsaq (varsaq) boyunun da türk olmasını sərgiləyir.

Arsaq-Qarabağ vilayətinin etnik tərkibini oğuz-səlcuq boylarının gəlişinə qədər qaynaqlarda minil boyunca araşdıran Q. Ə. Qeybullayev yazır: «Buranın köklü əhalisi türkdilli saklar, albanlar, aranlar, qarqarlar, hunlar, qoroslar, peçeneklər, qıpçaqlar və xəzərlərdir».[960] Bütöv Qafqazın etnonimikası üzərində illərlə araşdırma aparan bu zəhmətkeş alimin dedikləri doğrudur, lakin sadaladığı sırada müəyyən boşluq vardır, belə ki, həmin sıraya qaynaqların Arsaq vilayətində qeyd etdiyi bars, tərtər, kəngər, ağacəri, ərsaq (varsaq), mihran və başqa boyları əlavə etmək olar.

**Türk boyları.** Alban elinin etnik tərkibində türk boylarının aparıcı rola malik olması şübhə doğurmur. Ümumi *saqa, kaspi, xəzər, alban* etnonimləri altında görünməsə də, zaman-zaman önə çıxıb adı tarixi bəlgələrə düşən yerli türk boyları ilə bərabər, vaxtaşırı quzeydən hunlara qoşulb gələn, bəzən də vaxtilə tərk etdiyi bölgələrə qayıdıb yerləşən yarımköçəri türk boyları Alban elinin əsas etnik toplumu idi. K. V. Trever yazır ki, alban boyunun öndərliyilə Strabona görə 26 boyun birləşməsi ***alban xalqının*** formalaşması ilə nəticələnmişdir.[961] Alban elinin siyasi tarixi də bu boyların birləşməsini gerçəkləşdirən amil idi. Belə ki, alban (*alpan*) boyunun aktivləşməsilə başlanan boyların ittifaqı *Alban* dövlət adını, *Alban* ölkə adını və yeni *alban* xalqının (budun) adını ortaya çıxardı.

---

[959] Минорский, 1963, 29.

[960] Гејбуллајев, 1990, 126.

[961] Тревер, 1959, 44.

**Alban**. Strabon və Böyük Plini albanlar və Alban ölkəsi haqqında m.ö. IV-III əsrlərdə Aristobul, Patrokl və Eratosfenin məlumat verdiyini yazırlar.[962] Plini Xəzərin albanlar yaşayan hissədə *Alban dənizi* adlanmasını qeyd edir, Tasit Qafqaz dağlarının Dərbəndə uzanan hissəsini *Alban dağları* adlandırır. Alban boyları təkcə Güney Qafqazda deyil, Orta Asiya türkləri içində də vardır.[963] Alban adının daha qədim çağlarda Güney Azərbaycanda işləndiyini və ümumiyətlə *alban, ağvan, aran* adlarının mənşəyi barədə II Bitikdə geniş şərh verilmişdir.[964]

Qafqazda geniş yayılmış *Alban* adlı toponimləri sadalayan Q. Ə. Qeybullayev etnotoponimlərin yaranma qanununu diqqətə alaraq yazır: «Albaniya adlanan ölkədə *Alban* adlı toponimlərin mövcudluğu yalnız onda mümkündür ki, alban etnonimi konkret bir tayfa birləşməsinin adı olmuş olsun və bu tayfa etnik mənsubiyətcə başqa tayfalarla yanaşı və ya qarışıq halda yaşamış olsun».[965] Doğrudan da, alpan//alban etnonimilə yaranmış etnotoponimlər müxtəlif bölgələrdə görünür: Dərbənddə *Alpan* səddi, Qubada *Alpan* kəndi, Kaxetiyada *Alvan* düzü, *Albani* kəndi, Dərələyəzdə *Elpan* (Alpan) dərəsi. Qaynaqlar Sünükdə *alban soylu* xristian Beniamindən bəhs edir. Eyni sözləri alban adının sinonimi olan *aran* etnonimi haqqında da söyləmək olar. Belə ki, Arsaqda *Böyük-Aran* kəndinin adındakı bu etnonim həm də ölkənin **Aran** adlanmasında görünür.

Albanların etnik kimliyi haqqında müxtəlif fikirlər söylənmişdir.[966] İlk dəfə «Britaniya ensiklopediyası» (I. 1910, 481) tərəfindən albanların ləzgisoylu (*udi*) olması fikri ehtimal şəklində irəli sürülmüş, sonrakı bəzi tədqiqatçılar bu fikri «gerçək durum» kimi qəbul edərək kitabdan-kitaba ötürmüşlər. K. Patkanov, B. Ulubabyan, Ş. Smbatyan kimi hay yazarları-

---

[962] Акопян, 1987, 12.

[963] AT, 1996, 95.

[964] Kassilərə aid bəlgələrdə *Albada* (alp-ata) və *Burra-Alban* adları işlənmişdir. Maraqlıdır ki, *Alban Boray* adı saxa şamanlarının duasında da işlənir (İnan, 1972, 77).

[965] Гејбуллајев, 1990, 34.

[966] Bəzi antik çağ yazarları Alban elinin adındakı *alban* sözünü İtaliyadakı *Alpa-lonqa* dağadı ilə izah etmək istəmişlər. Pompey Troqun fikrini verən Yusti (III əsr) yazır ki, albanlar İtaliyanın Alban dağlarından gəlib Qafqazada yerləşmişlər (Акопян, 1987, 19); Doğrudur, İtaliya ilə Qafqazda eyni onomastik sözlər vardır lakin bu sözləri etrusklar İtaliyaya aparmışlar. Alban adının etimologiyasını albinoslarla və Balkandakı *Albaniya* ölkəsinin adında, Şotlandiyanın keltcə *Albaniya* adında iştirak edən və dağ adlarında görünən *alp* sözü ilə bağlamaq istəmişlər. Qafqaz Albaniyası adında isə alpan//alban etnonimi, onun da əsasında «igid» anlamlı *alp* sözü durur.

nın «ayrıca alban etnosu yoxdur» fikrinə etiraz edən F. Məmmədova hun-maskut çarı Sanatrukdan bəhs edərkən yanlış olaraq Xorenatsi ilə Kalankatlının məlumatlarını bir-birinə zidd sayır.[967] Xorenatsi Qriqorisi albanların, Kalankatlı isə maskutların öldürdüyünü deməsində ziddiyət yoxdur, çünki Alban elində yaşayan türklərin hamısı «alban» sayılırdı və Kalankatlı özü də eyni boya XII bölmədə *alban*, XIV bölmədə isə *hun* deyir. Dion Kassi də albanları massaqet soylu sayır.[968] M. Xorenatsi albanların soybabası Aranı *Xettura* (Kedar) soyu ilə bağlayır. Priskos isə V əsrdə perslərdən vergi alan *kidarit hunları* haqqında bilgi verir.[969] Azərbaycanın tanınmış tarixçiləri Kamal Əliyev və Qiyasəddin Qeybullayev *alban* boyunun türkmənşəli olduğunu geniş bəlgələrlə sübut etmişlər.

Digər antik çağ yazarları kimi, albanların daha çox heyvandarlıqla məşğul olub köçərilərə bənzədiyini vurğulayan Strabon da alban kişilərinin «ucaboy» və «cəsur» olduğunu qeyd edir.[970] Bu epitetlər isə *alban* etnoniminin kökündə duran *alp* sözünün anlamına tam uyğun gəlir. Belə ki, türk dillərində cəsur igidlərə *alp-ərən, alb-eri, alpaut, alpağut* və *alp* deyilmişdir, elə aran (*ərən*) adı da *alpan* (alban) adı kimi «cəsurlar» anlamındadır. Bu baxımdan, *alp-ərən* deyimindəki sözlərin sinonimliyi eyni anlam daşıyan alban//aran adlarına da aiddir. Azərbaycan tarixçiləri haqlı olaraq, alban və aran etnonimlərini sinonim sayır.[971] Avşarların içində *alpı* boyu da vardır.[972] Tanınmış tarixçi S. Əliyarlı «Dədə Qorqud» kitabında «Alpanlar başı Qazan» və «Ağ-boz atlar çapdırır alpanlar gördüm» deyimlərində keçən *alpanlar* boyadını haqlı olaraq albanlarla bağlayır.[973]

Beləliklə, *alp* sözü ilə yaranmış *alban* (alp-an) boyadını daşıyan və Alban dövlətinin yaranmasında öndərlik edən boylar müxtəlif protoazər dialektlərində *alban* və *aran* adlanmışlar. Eyni mənada işlənən bu etnonimlərin əsasında ölkənin adı bəzi qaynaqlarda Alban, bəzilərindəsə Aran şəklində qeyd olunmuşdur.

---

[967] Мамедова, 1986, 18, 176.

[968] Алиев, 1992, 73.

[969] Priskos, 62, 66, 67, 69.

[970] Strabon, XI. 4.1; XI. 4. 4.

[971] AT, 1996, 95, 173; Bu adın *ağvan* variantı isə alban > alvan > ağvan dəyişməsilə ortaya çıxmışdır. Hay dilində daha xarakterik olan l > ğ dəyişməsi VII Bitikdə izah edilir.

[972] Гейбуллаев, 1991, 53.

[973] Алияров, 1984, 15-16.

**Saqa**. Tərkibində *saqa* sözü olan saqay, saqar, saxa, şaqa, şakşı, şakay, şaklar və sair türk boyadlarının adı bəllidir.[974] Bu sıraya Alban elində görünən *saqat*, *massaget* (mas-saqat), *sisak* (si-saq), *arsaq* (ər-saq), *sakaçe* kimi boyları əlavə etmək olar. Göründüyü kimi, Alban elində saqasoylular təkcə *saqa* boyadı ilə deyil, tərkibində bu boyadı olan başqa etnonimlərlə də alban boybirliyində iştirak etmişlər. Bu durum isə təsadüfi deyil, çünki qədim tarixçilərin qeyd etdiyi kimi, əvvəllər Araz qırağında yaşayan saqa (saqat=skit) boyları m.ö. I minilin əvvəlində massagetlərin təzyiqilə Azaq dənizi yaxalarına getmiş, m.ö.VII əsrin başlarındasa yenidən Güney Qafqaza qayıdıb burada Saqa elini qurmuşlar.

Alban eli daha öncəki Saqa elinin Göycə gölü ilə Xəzər arasındakı ərazilərində meydana gəlmişdi. Ona görə də Alban elinin tərkibində və batı qonşuluğunda Saqa etnotoponimləri vardı. Belə ki, Göycə gölündən quzey-doğu və güney bölgələr Saqa yurdu adlanırdı: *Sakasena, Sisakan.* Hər iki bölgədə *Şəki* toponimi də vardı. Qaynaqların Sakesin, Sakasena, Sakaşen şəklində verdiyi bu adın tərkibində *Kambiçe* adında olduğu kimi *sakaçe* etnonimi görünür. Alban elində *saqat* (saqa-t) etnonimilə işlənən bəzi toponimlərdə bu boyadı saqat >saxat >sahat >saat fonetik dəyişmələrinə uğramış, sonralar çox yayılmış *saatlı* etnonimi ortaya çıxmışdır.

Ptolemey Sarmatiyada *zakat* (saqat) boyunun adını çəkir.[975] Görünür, antik çağ yazarlarının verdiyi *skit* adı bu etnonimin *saqat* forması ilə bağlıdır. Bu forma qaynaqların maskat//maskut şəklinə saldığı **massaget** adında da vardır. V.V. Radlovun *bassaqar* (baş-saqar) adlı qızıl boyunu qeyd etməsi imkan verir ki, *massaget* adında da *mas-saget* (baş sagat) deyimi bərpa olunsun.[976]

Arsaq bölgəsinin adında görünən **arsaq** boyadı isə *ər-saq* tərkibilə düzəlmiş və bunun *varsağı qılınc, varsağı havası* deyimlərində görünən **varsaq** variantı da olmuşdur.[977] V.V. Radlov varsak sözünü türk boyadı kimi izah etmişdir. M. Seyidov və Z. Bünyadov da haqlı olaraq, tarixi gerçəkliyi əks etdirən bu faktı təsdiq etmişlər.[978]

---

[974] Гейбуллаев, 1991, 90-91; Azər xalqı, 2000, 63-97.

[975] АИОСК, 140.

[976] Радлов, 1989, 91.

[977] Сеjидов, 1989, 38, 60.

[978] Bax: Бүнјадов, 1989, 173.

**Kaspi**. Azərbiqan elinin quzey-doğu və quzey-batı qonşularından danışarkən *kaspi* boylarına toxunmuş, onların həm də *azər* və *xəzər* adlanmasının yalnız dialekt fərqi ilə ortaya çıxdığını izah etmişdik.[979] Yuxarıda deyildiyi kimi, kaspilər yalnız Xəzər yaxasında deyil, Güney Qafqazın müxtəlif bölgələrində yaşamışlar. Əhəməni çağında imperiya satraplıqlara bölünəndə kaspilər qədim Azərbacanın həm güneyində XI satrapiyada, həm də quzeyində XV satrapiyada yer tuturdu.

Bir çox uzmanlar, özəlliklə Alban elinin coğrafi sınırlarını və etnik tərkibini araşdıran tədqiqatçılar, adətən kaspi boyunun yalnız bir bölgədə yaşadığını güman edir və qədim qaynaqlarda kaspilərin bir-birindən aralı bölgələrdə verilməsini yanlış sayaraq, qədim yazarların verdiyi bəlgəni «düzəltmək» istəyirlər. Halbuki hər hansı bir boyun ölkə daxilində və ya qonşu ölkədə müxtəlif bölgələrdə yaşaması təbiidir. Ona görə də qədim yazarları qınamaq deyil, onların verdiyi informasiyaya həssas yanaşmaq lazımdır. Bu irad qədim Azərbaycanın müxtəlif bölgələrinə səpələnmiş kaspi boyları ilə bağlı verilmiş bəlgələrə də aiddir, çünki bütöv Güney Qafqazda kaspilərin izi vardır.

Antik dövrün tarixçiləri kaspi boylarını Xəzərin güney yaxasında (Elbrusda *Kaspi qapısı*) və batı yaxasında Astara-Dərbənd arasındakı müxtəlif bölgələrdə qeyd edir, Kaspiana bölgəsini isə əsasən indiki Muğan-Talış bölgəsində verirlər.[980] Klavdi Ptolemey *kaspi* adlı boyların həm Azərbiqanın (Madanın) Erməniyəyə yaxın batı bölgəsində yaşadıqlarını qeyd edir, həm də Madanın doğu bölgəsindən Part ölkəsinə gedən yolun *Kaspi* qapısından keçdiyini göstərir.[981] N. Adonsa görə, Van gölündən doğuda

---

[979] Belə ki, hər üç etnonimin kökündə duran qədim az//kaz boyadına topluluq bildirən (*-ər*, *-bi*) morfemləri qoşulmuşdur. Qəzvin (Kazvin) adında olduğu kimi, kaspi etnoniminin *kaz* variantı qədim hay qaynaqlarında Kazbı, Kazbuni adlarında qeyd olunmuşdur (Адонц, 1971, 259); Antik çağ yazarları Alban elində *Kas* etnohidronimi olduğunu da qeyd etmişlər. Erməniyədə Pompeyin yolundakı birinci Kaspi haqqında Dion Kassinin məlumatından bəhrələnən Y. A. Manandyan mətndəki *'Ασπί* adını yeni *Kaspi* (Xospi) olduğunu və rum legionunun hər iki qışı məhz Kür qırağı olan bu bölgədə qışladığını düzgün müəyyənləşdirə bilmişdir: «İndiyə qədər tarixi-coğrafi tədqiqatlarda izah edilməyən bu formanın Pevtinqer xəritəsində *Caspiae* ilə müqayisəsi Pompeyin legionla 66/65 və 65/64-cü illərin qışını Qoqarena vilayətinin Kürqırağı bölgəsində qışladığını kifayət qədər aydın təyin edir» (Манандян, 1939, 74); Qədim hay vəsiqəsində Kaspi knyazının Gögər qrupuna aid edilməsi də diqqəti çəkir (Адонц, 1971, 282).

[980] Strabon, XI. 4. 5.

[981] Акопян, 1987, 40-42; Алиев, 1989, 9-10.

yerləşən Vaspurakan bölgəsində I minilin ortalarında *Qazrikan* knyazlığı vardı.[982] Bu knyazlığın müxtəlif dialektlərdə Kaspi və Qazrikan adlanmasına səbəb, görünür, qazri//qazari etnoniminin *azər//xəzər* və *kaspi* boyadı ilə eyni kökdən olması idi. Tiflisdən batıda Kaspi rayonu və burada arxeoloji bəlgələrə görə m.ö. I minilin ortalarından yaşayış yeri olan Kaspi şəhəri vardır. Bugün azər türkləri yaşayan həmin şəhərin adı islamöncəsi qaynaqlarda da *Kaspi* şəklində keçir.




Göründüyü kimi, m.ö. I minildə kaspi boyunun adına müxtəlif bölgələrdə rast gəlmək olur. Tarixi qaynaqlarda *Dərbənd*, *Kador* (və ya Daryol), Xəzərin güneyində *Gədik* keçidləri «Kaspi qapısı» kimi verilmişdir. Təbii ki, bu keçid qapıları kaspilər yaşayan ərazidə idi. İ. M. Dyakonova görə, bir sıra boyların ümumi «kaspi» adı ilə verildiyini güman etmək olar.[983]

Kaspilərin gəmiçilik sahəsində bacarığı onların Əhəməni donanması üçün Memfis (Misir) kəmiqayıranları sırasında olması ilə də sübut olunur.[984] Kaspilər haqqında Elefantin yazılarında (m.ö.V) maraqlı bəlgələr vardır. Papirus üzərində aramey dilində yazılmış sənədlərin çoxu ev alqı-satqısı və digər hüquqi aktlarla əlaqədardır.[985] Bu yazılarda Bazu, Baqazuşta (*bgzuşt*), Şatibara (qızı) Ubil, Darqa (oğlu) İnbuli, İppuli kimi bir sıra *kaspi* adı çəkilir.[986] Ovidiy isə Dunay çayının deltasında *Egis* adlı qədim qalanın *kaspi* soylu bir bəyin tikdiyini və ona öz adını verdiyini qeyd et-

---

982 Адонц, 1971, 321.

983 Дьяконов, 1956, 448; Pomponiy Melaya görə (I.11) onlar Kaspi körfəzini əhatə edir.

984 Алиев, 1989, 9-10; AT, 1996, 49.

985 Əhəməni dövləti m.ö. V əsrin ortalarında Misirdəki Elefantin adasında (Nilin yuxarı axarı) hərbi maraqlarını təmin etmək üçün müxtəlif ölkələrdən, o cümlədən Azərbaycandan ora adamlar köçürmüşdü. Elefantində kaloniya şəklində yaşayan bu insanların içində yəhudi, pers və kaspilər də vardı (Волков, 1915; Cowley, 1923; Grelot, 1972).

986 Bu yazılarda bir kaspi ailəsindən ev alan Azərin oğlu Anani isə yəhudidir. Olsun ki, Azər (Azari) adı İbrahimi peyğəmbər çağından yəhudilər içində yayılmışdı.

mişdir.[987] Belə bir yeradı Xasavyurd bölgəsində *Egiz-təpə* adında təkrar olunmuşdur.[988] Kaspilərin hərbi-siyasi səhnədə görünməsi Əhəməni ordularında m.ö.V-IV əsrlərdə Yunan-Pers və İskəndər-Dara savaşlarında iştirak etməsilə üzə çıxır. Lakin bu o demək deyil ki, kaspilər həmin çağda ortaya çıxmış boylardır, sadəcə, asur-urartu yazılı qaynaqlarının əhatə etmədiyi bölgələrdə yaşadıqları üçün onların adı qeyd olunmayıb. Antik çağda kaspi boyadının geniş yayılması onun qədimliyini göstərir.

Strabon yazır: «Alban bölgəsi sayılan Kaspiana adı dənizin (Kaspi) adında qalmış və indi yox olmuş boyun adı ilə adlanır».[989] Əlbəttə, kaspilər yazarın düşündüyü kimi «yox» olmamışdır, bu ad altında onlar hələ Strabondan sonra da bir neçə əsr qaynaqlarda xatırlanmış və artıq başqa adla tanınmışlar. Kaspi adı *kas//kaz* protoazər boyadına topluluq bildirən *-pi//-bi* morfeminin qoşulması ilə yaranmışdır. Həmin boyun adı sonralar eyni anlamlı *-ər* morfemilə *kazar//xəzər* şəklində də işlənmişdir. Belə ki, soykökü baxımından kaspilərin yaşamı Kaspi//Xəzər hövzəsində *xəzər* adı ilə davam etmişdir.

**Xəzər**. Yaqut əl-Həməvi özündən öncə yazılmış qaynaqlara əsaslanaraq yazır: «Fars kitablarında göstərilir ki, Curcan (Gürcüstan) və Aran əvvəllər xəzərlərin əlində olmuşdur». Yazar bunu da qeyd edir ki, çoxlu şəhərləri olan geniş Talış bölgəsi Deyləmlə *xəzərlər* ölkəsi arasında yerləşir.[990] Bu halda, xəzərlərin güneydə müasir Lənkəran bölgəsinə qədər yayılması görünür və antik çağ yazarların kaspilərə aid verdiyi ərazilərin ərəb qaynağında xəzərlərə aid edilməsi gerçək durumu əks etdirir. Xəzər ordularının 623-dən 799-a qədər Alban elinə vaxtaşırı gəlmə tarixlərini verən Ziya Bünyadov yazır ki, xəzərlər Albaniyada «150 ildən artıq qalmış və bu ərazidə hakimiyət sürmüşlər».[991]

Alban elindəki xəzər boylarından danışarkən yalnız *xəzər* adlananları deyil, qaynaqların xəzər boylarından saydıqlarını da nəzərə almaq gərəkir. Bu baxımdan, xəzər boylarından sayılan *barsil, bulqar, savir, kabar,*

---

[987] Овидий, 1978, 100.

[988] ДД, 123.

[989] Strabon, XI. 4. 5.

[990] Әлијева, 1999, 58; Йакут, 1983, 29; (Mu'cəm əl-buldən, VI. 80-81).

[991] Бунияतов, 1961, 34; Vaxtilə A. E. Krımski də xəzərlərin Azərbaycanda bir əsrdən artıq qaldığını yazmışdı (Крымский, 1934); Lakin sonrakı tədqiqatçılar albanları yalnız «qafqazdilli» vermək üçün azər//xəzər paralelliyi kimi bu bəlgələri də gözardı etmişlər.

*terna* və *belənсər* adlı boyların Alban elində buraxdığı izlər bugünəcən yaşayır. Xəzərlərlə **barsil** boylarının yaxın əlaqəsi IX əsr Bizans salnaməçiləri Feofan və Nikiforun «böyük xəzər xalqı Barsil elindən çıxmışdır» deyimilə verdiyi məlumatda əks olunmuşdur.[992] Bu qohumluğa aid bilgi İosif xaqanın məktubunda da vardır.

Barsillər haqqında hay tarixçisi M. Xorenatsi də məlumat verir. O, Ermənіyəyə köçmüş basil (*barsil*) boyundan şöhrətli bir kişidən bəhs edir, *xəzər-barsil* qoşununun Vnasep Surxap adlı bəyin başçılığı ilə təxminən 216-da Çol keçidilə gəlib Ermənіyədə vuruşması və bu savaşda hökmdar Balaşın (197-216) ölməsindən danışır, Qarqar düzündəki savaşda *barsil* bəyinin atdığı arkanın Tırdatın (298-330) boynuna keçməsi, lakin onun xilas olub rəqibini öldürməsi səhnələrini təsvir edir.[993]

Özündən əvvəlki qaynaqlardan istifadə edən M. Xorenatsi m.ö. II əsrdə Qars vilayətinə yerləşən köçkünlərdən **bulqar** bahadırı (*vexendur*) Vendanın adından yaranan *Vənənd* toponiminin hələ də (V əsr) qaldığını yazır.[994] Əslində, Vəndam kəndinin adı göstərir ki, *venda* etnonim imiş. Azərbaycanda Bulqar//Balqar çayadı, Bolqar kəndinin adı *bulqar* boylarından qalmadır, Bulqur (Dərələyəz) kəndinin adı da onlarla bağlı ola bilər.

Bulqarlar haqqında macar alimi yazır: «Bulqar türklərinin Sibirdən deyil, Qafqaza daha yaxın yurdlarından gəldiklərini göstərən bəlgələr vardır».[995] İkiçayarasında «çay adamı» anlamında *bulqar* (balıqar) və **subar** adlarının sinonim kimi qədim çağlarda yarandığını II Bitikdə vermişdik.

Bəzi tarixçilər suvarların V əsrin ortalarında Çin sınırından Quzey Qafqaza, oradan da Azərbaycana gəldiyini yazırlar. Halbuki, Klavdi Ptolemey hələ II əsrdə Sarmatiyanın Avropa hissəsində suvar (*savar*) boyunu qeyd etmişdir.[996] Subar elindən danışarkən subarların hələlik elmə bəlli olan ən qədim türk boyu olduğunu və onların m.ö. IV-II minilliklərdə İkiçayarasından Doğu Anadolu və Azərbaycana çəkilib, buradan Quzey Qafqaz və Orta Asiya istiqamətlərində miqrasiya etdiklərini yazmışdıq.

---

[992] Джафаров, 1993, 16.

[993] Хоренаци, 1858, II. 58; II. 65; II. 85.

[994] АТ, 1996, 165; Хоренаци, 1858, II. 6; II. 9.

[995] Feher, 1984, 6.

[996] O, Azaq dənizindən quzeydə ağacəri (aqatirs), aors və peqirt boylarından sonra *suvar* (savar) və *xurs* boylarını yerləşdirir (АИОСК, 148).

Arxeoloji bəlgələrə görə IV əsrdən mövcud olan Şabran şəhərinin adı savar//suvar//savir etnonimi ilə bağlıdır. Menandr 576-da Albaniyada savirlərin yaşadığını qeyd edir: «Tiberinin vaxtında rumlu alay başçıları Albaniyaya hücum edərək *savirlərin* içindən və başqa xalqlardan əsir alıb Bizansa qayıtdılar».[997] Suvarların adını *Biləsuvar* toponimi də saxlamışdır. Göründüyü kimi, xəzərlərə yaxın qohum sayılan barsil, bulqar, suvar boylarının Alban elində varlığı islamaqədərki tarixlərdə ortaya çıxır. Bu sıraya *kabar* (kavar), *beləncər* və İosif xaqanın yazısındakı *t.r.na* (terna) adlı xəzər boylarının izini saxlamış toponimləri də əlavə etmək olar: Qarabağ xanlığında *Kabarlı* mahalı, Göycə gölü yaxasında *Kavar* (Kəvər) bölgəsi, Zəngəzurda *Ternevit* yaylağı, *Ternevit* kəndi və Bakının *Biləcər* hissəsi. Hay qaynağı *Tarnovan* bölgəsini Vaspurakan vilayətində də verir.

Beləliklə, *as//az* və *kas//kaz* fonetik fərqlərilə görünən qədim protoazər boyunun dialekt fərqləri ilə ortaya çıxan *azər//xəzər* və etnonimə qoşulan *-pi* və *-ər* morfemlərilə yaranan *kaspi//xəzər* formaları geniş yayılmaqla bərabər, həm paralel, həm də bir sıra boyların ümumi adı kimi işlənmişdir. Asur qaynağı m.ö. VIII əsrdə Kərküklə Urmu arasında *Azari* məntəqəsini qeyd edir.[998] Quzey Qafqazda isə II əsrdə *Azaraba* yaşayış məskəni, *Azara* şəhəri ortaya çıxır.[999] Burada *Azərqala//Xəzərqala* paralelliyi davam edir, Dağıstanda *kaspi//xəzər* adları bir-birini əvəz edir və yuxarıda sadalanan bütün bu onomastik bəlgələr Alban elinin daxilində və ətrafında onlarla turk boyunun minillərlə mövcud olması gerçəkliyini sərgiləyir. Bu oturaq türk boyları çox vaxt ümumi saqa, kaspi, alban və xəzər adları altında görünməsə də, müəyyən məqamlarda ortaya çıxır.

Alban elində yerli suvar, barsil, alban//aran, qapan, kaspi, muq, baq, dəli, zəngi, polad, şadılı, gögər, qarqar və sair bu kimi *oturaq türk* boyları ilə yanaşı, Saqa eli çağından başlayaraq saqa, qamər, hun, quşçu, çol, talış, kürd və başqa bu kimi çoxlu *bozqır türkləri* gəlib müxtəlif bölgələrdə yerləşmişdi. Alban elində görünən uzlar, qovlar, qullar kimi bəzi boylarınsa yerli və ya gəlmə olması bəlli deyil. Gəlmə etnonimlərdən bəzilərini isə kaduslar (*talış*) kimi yerli boylar qəbul etmişlər. Göytürk və macar boylarının içində görünüb etnoqrafik anlam daşıyan *kürd* adı isə yaylaq-qışlaq yaşamı ilə fərqlənən türk və irandilli boyların adına çevrilmişdir.

---

[997] Гадло, 1979, 89.

[998] SAA, 1990, vol.V, №229.

[999] АИОСК, 1990, 150.

Alban elinə gələn boyların burada yerləşməsi həmin boyların adı ilə bağlı etnotoponimlərin yaranmasına səbəb olmşdur. Belə ki, *vərəndə* (berende) boyadı Berenda, Beranda, Vərəndə toponimlərində, *qaradonlu* boyadı Qaradonlu və hay qaynağının Korçayk bölgələri sırasında verdiyi *Karatunik* toponimlərində, *tuq* boyadı Tuğ, Tığ toponimlərində və *abdal* (eftalit) adlanan ağhun boynun adı Abdal, Abdallar, Çoban-Abdallar, Abdallı toponimlərində əks olunmuşdur.

Güney Azərbaycandan gəlib Alban elində yerləşən qapan, qaralar, su, subar//suvar, bardı, zəngi (sangi), poladlı, soğanlı kimi bir sıra boyların isə gəlmə tarixi bəlli deyil. Belə ki, sadalanan boyların quzeydə qeydə alınma tarixi orta əsrlərə aid olsa da, güneydə onların adı miladdan öncəki minillərdə görünür. Örnəyin, bugün Göycə-Vedi (Kotanlı) arasında Soğanlı yaylağı vardır, XII əsr hay qaynağının Qarabağda verdiyi Soxanans yeradı buradakı Soğanlı kəndinin adında davam edir, lakin Urmu gölünün quzey-batısında *Soqan* toponimi m.ö.VIII əsr asur yazısında verilmişdir.

Qarabörklü-qarapapax etnonimində olduğu kimi, bəzi yerli boyadlarının tərkibindəki sözlər dəyişmiş, sod, savdey, sadak, sadaklı, sadaxlı adında olduğu kimi bəzilərində də morfoloji və fonetik dəyişmələr baş vermişdir. Alban elində elə boyadı da var ki, onların kimliyini müəyyən etmək müşküldür. Məsələn, Z. Bünyadov xristianlığa qarşı çıxan *ərges* boyunun kimliyini müəyyənləşdirməkdə çətinlik çəkir.[1000] Göründüyü kimi, Alban elində müxtəlif adlar daşıyan bir çox türk boyları haqqında kifayət qədər tarixi bəlgələr vardır. Bu boylar haqqında daha geniş bilgi VIII-IX Bitiklərdə verilmişdir, lakin burada ötəri də olsa, bəzi boylara aid bəlgələrə diqqəti çəkmək gərəkir.

**Xoruz**. «Alban tarixi» abidəsində adı çəkilən *Qoroz* qalasını Gorus ilə eyniləşdirən Q. Ə. Qeybullayev *Xurs* adlı kəndlərin kəngərlər yaşayan bölgələrdə göründüyünü və Dəvəçi rayonunun Xızı (Xizan) ilə Şabran arasındakı ərazisinin sasanilər çağında *Xursanşahlıq* adlandığını yazır.[1001]

---

[1000] Алб.т. 1993, 210, 55-ci qeyd; Doğrudur, *ərges* boyadı göytürklərin on boyuna daxil olan *ezgiş* boyadına bənzəyir və Z.V.Toğana görə, türgiş, ezgiş, cumul boyları Qafqaza gəlmişdi (Togan, 1981, 53, 72); Lakin ərges//ezgiş paralelliyi r//z dialekt fərqi ilə mümkün olsa da, mətndə *arges* adı ilə verilən döyüşçülər özlərini *çilb* boyu adlandırır ki, bu da qafqazdilli avarların əcdadlarıdır.

[1001] Гејбуллајев, 1990, 102-103; *Xoruzlu Kəngərlisi, Xoruzlu Kəbirlisi* haqqında məlumat verən yazar qeyd edir ki, Qarabağda *Xoruzlu* kəndinin adı XVIII əsrin əvvəlinə qədər qalmışdı. Bizcə, *Xarəzm* və *Xorasan* vilayətlərinin adı da *qoroz* etnonimilə bağlıdır.

Hay qaynağı Azərbaycanın quzey-doğu bölgəsində Şabran yaxınlığında *Xorsvem* (Xors qayası) adını çəkir. Xızıda *Qars* kəndi, Güney Azərbaycanda *Xoruzlu* dağları *qoruz* boyunun adını saxlamışdır. Görünür, Alban elinin müxtəlif bölgələrində *qoroz* (xarus) etnonimi ilə bağlı yeradlarının qeyd olunması bu boyların geniş yayılmasını əks etdirir. M. Kalankatlının Xursan bölgəsində İrtigin adı və ya *iltigin* titulu daşıyan bir bəydən bəhs etməsi də diqqəti çəkir.

**Peçeneq**. Oğuznamələrdə 24 oğuz boyundan biri *becene* adlanır və bu boyadı başqa dilli qaynaqlarda *peçeneq, paçinak, becənək* və sair formalarda əks olunmuşdur. İmperator Konstantin Porfirogenet (908-959) «İmperiyanın idarə oluması» adlı kitabının doqquz bölməsini (1-8 və 37) peçeneqlərə həsr etmişdir.[1002] Qarabağda Bcene-xut (*Bcene dağı*) oronimi və orta əsr hay qaynaqlarının burada qeyd etdiyi Bcan(s), Ağrı vadisində verdiyi Becini toponimləri, həmçinin Alban elində görünən Rot-Patsian (*Paçian çayı*) oronimi aydın göstərir ki, vaxtilə peçeneqlər bu bölgələrdə məskunlaşmışlar. IX-X əsrlərdə Krım yarımadasının quzeyində yaşayan peçeneqlərin Alban elinə gəlmə tarixi bəlli deyil.

**Tərtər**. Qədim rus salnamələri qıpçaqların içində *tartarobiç* boyunun adını çəkir. Burada söhbətin *tərtər* boyundan getməsi tədqiqatçılarda şübhə doğurmur. Görünür, Alban elində tərtərlər *Tərtər* çayı hövzəsində məskunlaşmışlar. Tərtər boyunu qıpçaq soylu sayan tədqiqatçılar onların Alban elinə gəlişini hun axınları ilə bağlayırlar. Hay qaynaqlarında tərtər boyları ilə bağlı toponimləri Q. Ə. Qeybullayev toplayıb şərh etmişdir.[1003]

**Gögər**. Alban elinin batı qonşusu *Gögər* mahalı haqqında yuxarıda söz açmış, tarixi qaynaqlara görə bu vilayətdə *Kəngər* bölgəsi olduğunu yazmışdıq. Strabonun Qoqar(ena), hay qaynaqlarının isə Quqar(k) kimi qeyd etdiyi bu toponimin əsasında «göyər» (gög-ər) anlamlı boyadı var. Hay qaynaqlarında gögər (quqar) boyunun Şəki bölgəsində də yaşaması və Erməniyəyə qarşı müharibə edən Sanesanın ordusunda başqa boylarla yanaşı *hun* və *quqar* boylarının da iştirak etməsi qeyd olunmuşdur.[1004]

Əgər yuxarıda ehtimal kimi verdiyimz m.ö. IX əsr urartu yazısında *Böyük Kuquri* (Kuquru tarae) ölkəsi Gögər bölgəsidirsə, onda gögərlərin quzeydən Güney Qafqaza yox, buradan quzeyə köçdüyünü deyə bilərik.

---

[1002] Багрянородный, 1989.

[1003] Гейбуллаев, 1991, 122-123.

[1004] Джалилов, 1989.

Qay Plini Sekundun I əsrdə *qeqar* boyadını Quzey Qafqazda göstərməsi də bu fikri qüvvətləndirir.[1005] Ptolemey Alban elində qeyd etdiyi Qaytara şəhərinin adını *Qaqara* və *Qanqara* şəklində də vermişdir.[1006] Bakının və ya Ələtin yerində olması güman edilən bu şəhərin adı əgər yanlış yazılmamışsa, onda bu bölgədə də *qoqar* və ya *kəngər* boyunun yaşadığını düşünmək olar.

**Kəngər**. Ağdam rayonunda *Kəngərdağı*, Naxçıvanda *Kəngərdüzü* toponimləri kimi Güney və Quzey Azərbaycanda *kəngər, kəngərli* etnonimlərilə yaranmış çoxlu yeradları vardır. Gögər vilayətinin İber-Alban sınırında *Kəngər* adlanan bölgəsi hay qaynaqlarında qeyd olunmuşdur.[1007] Əslində, Ön Asiyada kəngər boyadının tarixi çox qədimdir. Belə ki, hələ sumer mətnlərində rast gəlinən $^{d}$En-lil-bàn-da-Ke-en-gi-ra-ke$_4$ «Kengirin (Sumerin) gənc Enlili» kimi deyimlərdə Sumer ölkəsinin həm də *Kengir ölkəsi* adlandığını görmək olur.[1008]

Sasanilərə qarşı 482-də üsyana qalxmış Güney Qafqaz xalqlarının hunlardan yardım gözləyən ordusu *Kəngər dağı* ətəyində toplanmışdı.[1009] Əksər tədqiqatçılar bu dağın Göycə gölündən quzeydəki Kəngər dağları olduğunu qeyd etmiş və bura yaxın Aqstafa-Qazax bölgəsində *kəngərli* boyadının günümüzəcən qaldığını yazmışlar.[1010]

**Qarqar**. Alban elində önəmli və çoxsaylı boylardan biri də qarqarlardır. Maştos ağxəzər əlifbasını məhz bu xristian qarqar boyunun dilinə uyğunlaşdırmışdı. Görünür, ağxəzər dili ilə qarqar dili arasında olan fərq oğuz və qıpçaq dilləri arasında özünü göstərən fərqlər imiş. Manasın soy başçısı *Karkarın* nəvəsi olması, Manas soyunun «karkar qıpçağı» adlanması «Macmu at-tavarix» əsərində qeyd olunmuşdur. V.V. Bartold və S. M. Abramzon qaynaqlarda adı keçən qarqarları qıpçaqsoylu sayır. Qarqar boylarının daha qədim çağlarda Güney Azərbaycan, Anadolu, Quzey Qafqaz, Orta Asiya bölgələrində, həmçinin Alban elində yaşaması haqqında əvvəlki yazılarımızda bəhs etmişdik.[1011]

---

[1005] АИОСК, 1990, 110.

[1006] Тревер, 1959, 140; Ptol. Geogr. VIII. 19. 7.

[1007] Хоренаци, 1958, 338.

[1008] Cohen, 1973, 128-130; Bu barədə I Bitikdə (*Qonşularla əlaqə* bölməsi) bilgi verilir.

[1009] Ворошил, 1993, 83.

[1010] Гейбуллаев, 1991, 102-103, 353.

[1011] Azər xalqı, 2000, 115-118.

Qarqarların amazonkalarla qonşu olduğunu yazan Strabonun fikrini Plutarx belə dəqiqləşdirir: «Amazonkalar Qafqazın Hirkan dənizinə uzanan hissəsində yaşasa da, onlar albanlarla qonşu deyil, aralarında gel və leq boyları yaşayır».[1012] Qaynaqların Qarabağda qeyd etdiyi *Qarqarçay* və *Qarqardağ* toponimləri alban//aran boyları ilə qohum saydığı qarqarların Alban elində yaşadığını yazan M. Xorenatsinin məlumatını təsdiqləyir.

**Dondar.** İlk dəfə tarixi qaynaqlar əsasında dondarların türk boyu olduğunu yazan Q. Ə. Qeybullayev onların m.ö. VI əsrlərdən Quzey Qafqazda göründüyünü, sonra bir qisminin Azərbaycana köçdüyünü yazır.[1013] Dondarlar haqqında Plutarx da bu bəlgəni verir: «Mitridatın qoşununda *dandar* böyükbəylərindən *Oltak* adlı biri vardı; dandarlar Meotid (Azaq) sahilində yaşayan yabanı boylardan idi».[1014] Dağıstanda *Dondardağ*, Dəvəçidə *Qala-Dondar* və İranda *Tundar* toponimləri, Anadoluda (XIII əsr) *dondarlu* etnonimi göstərir ki, dondarlar adı çəkilən bölgələrdə oturmuşlar. Dondar etnonimi daha çox Tovuz-Qazax bölgəsində müasir *Dondar-Quşçu, Dondarlı*, *Dondardağ* toponimlərində qalmışdır.[1015] KDQ-da adı keçən *Qıyan Selcük oğlu Dəli Dondar* antroponimi göstərir ki, dondarlar oğuz boylarından idi.

**Siraq**. Qədim türk yazılarında işlənən «*türk sir budun*», «*sir yabqu*» deyimlərində və Özbək elindəki *kara-sirak* etnonimində görünən *siraq* (sir-oq) boyunun adı «sir budun» şəklində Buxara yaxınlığındakı *Şirbudun* toponimində qalmışdır. Göründüyü kimi, *siraq* etnoniminin tərkibi qədim türk boyadlarının yaranma modelini sir-oq//sir-budun şəkillərində çox aydın əks etdirir. Əhəməni şahı Daranın qoşununu hiylə ilə təkbaşına susuz bir səhraya aparıb məhv edən *Siraq* adlı mehtərin saqa boyundan olması göstərir ki, bu ad saqa türklərinin içində antroponim kimi də işlənmişdir. Siraq etnoniminin *şiraq* variantı da geniş yayılmışdır..

Beləliklə, öncə Orta Asiyada, sonra Kuban düzündə, daha sonra isə Güney Qafqazda görünən *siraq* boyları Alban elinə quzeydən gəlmişdi. Kubanda yerləşən siraqların İber və Alban sərhədinə qədər yayıldığını

---

[1012] Strabon, XI. 5. 1-4; Плутарх, II. 1963, 359.

[1013] Yazarın dondar boyları yaşayan əksər bölgələrdə *Şuşa* yeradının görünməsi faktına söykənərək Şuşa adının dondar boyu ilə bağlı olması fikrini irəli sürməsi də diqqəti çəkir (Гейбуллаев, 1991, 135-137).

[1014] Плутарх, II. 1963, 184; (Лукулл, XVI).

[1015] Tanrıverdi, 1999, 122.

vurğulayan Strabon yazır ki, Qafqaz dağlarından Azova axan Axardey çayı boyunca yaşayan siraqların başçısı Abeak 20 min atlı qoşuna malik idi.[1016]

Siraqların böyük bir hissəsi Güney Qafqaza II-III əsrlərdə keçmişdi.[1017] Bu türk boylarının oturduğu bölgələr Kambecan vilayətində *Siraq düzü*, Kür boyunca *Şirvan düzü* adlanmışdır. Onların Ağrı dağı vadisində yerləşdiyi bölgə isə *Şiraq eli* adlanıb sonralar yerli azər türklərinin dilində Şörəyel şəklinə düşmüşdür, hay qaynaqları isə bu bölgənin adını *Şirak* və *Şirakovan* kimi verir.

**Ağacəri**. Qədim yunan və sonrakı Bizans tarixçilərinin *agathirs* və *akatsir* (ακατζιροι) şəklində verdiyi ağacərilər saqa boylarından sayılır. Herodot aqathirsləri saqasoylu versə də, onları elbəyi saqalardan fərqləndirir. Ağacərilərin saqa (skit) soyundan olduğunu vurğulayan Prisk yazır ki, imperator Thedosi (408-450) çoxsaylı və güclü ağacəri (akatsir) boylarını hədiyə verməklə Atillaya qarşı istifadə etmək istəyir, lakin boy başçılarından yalnız *Kuridax* buna razı olmur. Məsələdən xəbər tutan Atilla ağacəri boylarını özünə tabe edir, yalnız Kuridax əvvəlki müstəqilliyini saxlaya bilir.[1018]

Hunların tabeliyində olan saroqur və ağacəri boyları Atillanın ölümündən sonra Alban elinə gəlmiş və buradan Firuz şahın vaxtında İrana yürüş etmişdilər.[1019] Görünür, saqa boylarından sayılan ağacərilərin Azərbaycana gəlişi burada Saqa eli çağına deyil, Alban eli çağına aiddir və Tovuz rayonunda *Ağacəridağ* toponimi bu çağdan qalmadır.

**Hun**. Doğudan batıya miqrasiya edən hunların axını Avropa xalqlarının tarixində dərin iz buraxmışdır. Bu izlərin bir ucu da Azərbaycana uzanır. Perslərin quzey-doğu sınırında hunların *eftalit* və *kidarit hunları* adlanması, bəzi qaynaqlarda *skit-hun* (Prisk), *masaxa-hun* (Aqathangel), *maskut-hun* (Kalankatlı) boylarının eyni tutulması saqa//massaget boylarının etnik-dil gələnəyinin Alban eli çağında hunlarda davam etməsinə işarədir.

Öncə Çin qaynaqlarında adı keçən *hunlar* batıya miqrasiya etmiş və İtil çayından batıya keçəndən sonra artıq II əsrdən başlayaraq batı yazarlarının diqqətini cəlb etmişdir. Hunların adı II-VI əsrlərdə Dionis Perieget,

---

[1016] Strabon, XI. 5. 1; XI. 5. 8.

[1017] Сеjидов, 1989, 49.

[1018] Priskos, 1995, 37.

[1019] Дьяконов, 1961, 276; ДД, 163.

Klavdi Ptolemey, Ammian Marselin, Prisk, İordan və başqa yazarların əsərlərində, V əsrdən sonra isə suriya, hay, gürcü qaynaqlarında keçir.[1020] Avropanın ortasında IV-V əsrlərdə Hun imperiyası quran bu boyların əsas kütləsi batıya yönəlsə də, onların bir qismi Quzey Qafqazda qalmışdı. Belə ki, Aqatangelin (V əsr) yazdığına görə, İranda Ərsaq sülaləsini devirən ilk Sasani şahı Ərdəşirə (224-241) qarşı müharibəyə yerli alban, kaspi, lpin, çilb boyları ilə yanaşı, Daryol və Dərbənd keçidlərindən aşıb gələn hunlar da cəlb olunmuşdu. İranın iç bölgələrinə Balasakan üzərindən hunların *Heran* adlı bəyin başçılığı ilə yürüşü V əsrin ortalarında təkrar olumuşdur. Maxaçkala ilə Ulluçay arasındakı ərazilər də IV əsrin sonunda «Hun ölkəsi» adlanırdı.[1021]

Prisk yazır ki, 395-də Basıq və Kursıq adlı başçıları ilə Daryoldan Güney Qafqaza keçən hunlar Anadolu və Suriya ərazilərinə qədər getmiş, qayıdanda isə Abşeron-Dərbənd yolu ilə geri dönmüşlər.[1022] Hun imperiyası 453-də Atilla öləndən sonra dağıldı və hun boylarının bir qismi Quzey Qafqaza qayıtdı. Daryol keçidindən 460-da Alban elinə girən hunların Vaçeyə qarşı vuruşması haqqında bəlgələr vardır. Bəzi hun boylarının Güney Qafqazda məskunlaşması da bəllidir. Alban eli ərazisində görünən katakomba basırıq tipi hunlara aid edilir.[1023]

Azərbaycanda Alban eli çağından *hun* etnonimilə yaranmış bir sıra toponimlər vardır. Bəzi hun boylarının Azərbaycanın müxtəlif bölgələrinə yerləşməsini müasir Tovuz bölgəsində *Hundüzü* toponimi, Borçalıda keçmiş *Hunan* (Hunarakert) qalası, orta əsrlərdə Zəngəzur bölgəsində *Hunabad, Hunazir*, Qarabağ düzündə *Xunaşen* toponimlərində görmək olar.[1024] Alban elinə bağlı hunların xristianlığı qəbul etməsi haqqında bəlgələr vardır.

Beləliklə, islamaqədər Alban elinin əsas etnik demoqrafiyası türk boyları idi və bu boyların çoxu yerli, bir hissəsi də zaman-zaman gələrək burada yerləşən köçəri və yarımköçərilər idi. Ölkənin quzey bölgələrində qafqazdilli boylar yerləşmiş, sasanilərin Xəzər sahili boyunca tikdiyi is-

---

[1020] Bu barədə geniş məlumatı bu kitablardan almaq olar; Джафаров, 1986; 1993; Гейбуллаев, 1991.

[1021] ИНСК, 1988, 96.

[1022] Priskos, 1995, 46.

[1023] AT, 1996, 95.

[1024] Гейбуллаев, 1991, 125-127.

tehkamlar ətrafına irandilli boylar da köçürülmüşdü.[1025] Göründüyü kimi, oğuz-səlcuq boylarının Azərbaycana gəlişinə qədər burada türk etnosu müxtəlif çağlarda Saqa eli və Alban//Aran eli adları ilə tanınan dövlətlər qurmuş və davamlı bir tarix yaşamışdır. Eyni anlam daşıyan alpan//alban və ərən//aran etnonimilə yaranan ölkənin *Alban* və *Aran* adı Sasani şahı I Şapurun (242-272) yazısında da paralel işlənmişdir.[1026] Yuxarıda deyilənləri nəzərə alıb, Alban//Aran elində və qonşu bölgələrdə olan boyları bu xəritə-sxemdə belə vermək olar:




Alban ölkəsində sosial durum haqqında müəyyən bəlgələr olsa da, əhalinin sosial tərkibi haqqında yazılı bəlgələr olduqca azdır. Yalnız hay qaynaqlarında, M. Kalankatlının əsərində və Dədə Qorqud boylarında bir neçə sosial termin var ki, bunları da birbaşa deyil, dolayı yolla sosial tərkib haqqında verilən məlumat saymaq olar. Belə ki, bu məlumatların bir qismi kilisə institutu, bir qismi də qəhrəmanlıq dastanları ilə bağlı yazıya alınmışdır. Nümunə üçün «Alban tarixi» kitabında yer alan *Ağuen* (Alven-Աղուէն) qanununun 4-cü bəndinə bxaq:

> «4. Xalq (*joğovurd*) kilisə payını (*ptul və has*) keşişə belə verir: varlılar (*tuanik*) dörd qriv buğda, altı qriv arpa və 16 bardaq çaxır verir. Ortabablar (*tarapeal*) həmin buğda payının yarısını, çaxırı isə bacardığı qədər verir. Bağı və əkin yeri olmayan kasıblardan heç nə alınmasın…Təsərrü-

---

[1025] Ашурбейли, 1983, 21; Alban elinin etnik təkibi Q. Ə. Qeybullayevin əsərlərində geniş şərh edilmişdir. Alban elindəki *bulqar,* vənənd*, alban, buntürk* və başqa türk boyları haqqında «Azərbaycan tarixi» (1996) kitabında da gərəkli bilgi verilmişdir.

[1026] Тревер, 1959, 135; Ашурбейли, 1983, 21.

fatında qoyunu olan hər ev bir qoyun (*voçxar*), üç topa (*qzat*) yun və bir parça pendir (*panir*) verməlidir. Atı olan bir dayça, iribuynuzlu heyvanı olan isə bir buzov verməlidir».[1027]

Göründüyü kimi, burada söhbət təsərrüfatı olan və olmayan kəndlilərdən gedir. Bu kiçik mətndə xalqın (*joğovurd*-*ժողովուրդ*) imkanlı və imkansız təbəqələri varlı (*tuanik*-*թուանիկ*), orta (*tarapeal*-*տառապեալ*) və kasıb zümrələrə ayrılır. Başqa mətnlərdə qara kütlə *ramik* (*ռամիկ*) və *şinakan* (*շինական*), qaçqınlar və qəriblər *anaşxarik* (*անաշխարիկ*) kimi sosial terminlərlə verilir.[1028] Ümumiyyətlə, hay dilinə tərcümə olunmuş və hayca yazılmış tarixi əsərlərdə sosial terminlər sırasında başqa dillərdən alınma sözlər çoxluq təşkil edir. Burada kəndxuda vəzifəsindən tutmuş ölkə başçısına qədər müxtəlif titullar vardır:[1029] *avaq şena, avaq geğca* (*geğca avaq*), *dasapet* (onbaşı), *sepux* (kiçikbəy), *azqapet* (soy//boybaşı), *nahapet* (bölgəbaşı), *naxarar* (bölgəbəyi), *işxan* (bölgə//vilayət başçısı), *ter* (*ağa*), *melik* (böyükbəy), *taqavor* (elbəy).

Alban elində böyük feodalların, torpaq sahiblərinin olması da bəllidir. Alban elbəylərinin də özəl mülkü vardı. Belə ki, qaynağa görə elbəy Vaçenin atasından qalma «min tüstü» (oçaq, ailə) mülkü vardı. Dütakan kəndi III Vaçaqanın mülkü sayılırdı. Görünür, *aqaxinlər* özəl mülklərdə ağaya məxsus işçilər idi. Bu termin *aqx*(uya), yəni qəbiləyə, soya (*oqa*) məxsus olan adam anlamında da izah edilmişdir.[1030] Daima torpaqla bağlı mətnlərdə keçən *yerdumart* (yerlu mart//adam) termini də diqqəti çəkir. Vənglərin (kilisələrin) də böyük torpaq sahələri vardı.

Alban elində kənd təsərrüfatı ilə yanaşı, şəhərlərdə sənətkarlıq və ticarət sahələri də inkişaf etmişdi. Kəndlərdə üzüm-meyvə bağları, taxıl zəmiləri, mal-heyvan və atçılıq təssərrüfatı olan kəndlilərin varlı və orta təbəqəsilə yanaşı, məhsul verən təsərrüfatdan məhrum, yalnız başqalarının təssərrüfatında muzdurluq edən imkansız kasıblar olduğu kimi, şəhər əhlinin içində də varlı, orta və kasıb təbəqə vardı. Yüksək vəzifə tutan dövlət məmurları, din xadimləri, hərbi sərkərdələr, böyük sərmayəsi olan tacirlər, hökmdar ailəsi və bu ailəyə yaxın zadəganlar varlı təbəqəyə aid idisə, kiçik tacirlər, sənətkarlar, ordu zabitləri, elm və incəsənət xadimləri

---

[1027] Kalankatlı, I. 26; Sosial terminlərin sistemli təhlili IV Bitikdə verilmişdir.

[1028] Kalankatlı, 1933, 89-94; 1984, 57-59; Мамедова, 1997, 70-152.

[1029] F. Məmmədova bu terminlərin çoxunu şərh etmişdir (Мамедова, 1997).

[1030] F. Məmmədova S.T.Yeremyanın bu yozumunu qəbul edir (Мамедова, 1977, 77).

orta təbəqəni təşkil edirdi. Şəhərlərdə gündəlik yaşamını təmin etmək üçün müxtəlif sahələrdə çalışan, evlərdə qulluqçu olan kasıblar vardı. Digər türk ellərində olduğu kimi, Alban elində qullar yox idi. Doğrudur, mətnlərdə «qul» anlamında *tsaray* sözü keçir, lakin bu termin daha çox sarayda, feodalların və zəngin adamların evində nökər-naib, qaravaş, ev qulluqçusu kimi işlərlə məşğul olanları bildirir. Savaş vaxtı əsir alınan sənətkarların əməyindən də istifadə olunurdu.[1031] Görünür, bu cür əsirlər də «qul» yox, «qərib» anlamlı *anaşxarik* sayılmışdır. Yunan və latındilli qaynaqlar yerli sosial və dövlətçilik terminlərini tərcümə edib verdiyi kimi, təəssüf ki, «Alban tarixi» də Alban elində işlənən belə sosial terminləri bizə hayca tərcümədə çatdırmışdır. Belə ki, bu əsərdə «hun işxanı», «hun naxararı», sitayişə yığılan «hun ramikləri» deyimləri və Xəzər elçisinin xəzər *ramiklərindən* deyil, xəzər *naxararı* olması qeydi vardır.[1032] Lakin burada türk dövlətçilik gələnəyi ilə bağlı türkcə terminlər də yer almışdır ki, bunlardan aşağıda bəhs edəcəyik.

Beləliklə, bütövlükdə azad insanların ölkəsi olan Alban elinin əhalisi sosial durum baxımından varlı, orta və kasıb təbəqələrə ayrılır, sosial təbəqələri isə əsgərlər, tacirlər, sənətkarlar, ruhanilər, məmurlar, saray və ev qulluqçuları, əkinçilər, bağçılar, oturaq və yarımköçəri heyvandarlar təşkil edirdi. Yaylaq-qışlaq yaşamı Saqa eli çağından bura qayıdan və yeni gələn türk boyları ilə daha da artmışdı. Alban elinin sosial tərkibindən danışarkən bu elin başında duran elbəylər (*taqavor*, *arkay*) haqqında bir neçə məlum bəlgəni xatırlamaq lazım gəlir.

Albanları Yafəsoğullarından ketarilər ilə bağlayan «Alban tarixi» bu soydan olan Aran adlı ilk Alban elbəyinin Sisak (saqa) nəslindən olub, İbrahim peyğəmbər dövründə yaşadığını qeyd etsə də, aradakı 1500 illik fərqi nəzərə almadan Alban elinə Aranı part şahı I Balaşın (Valarşakın) elbəy təyin etməsini yazır.[1033] Aran adınınsa *Eran* şəklində verilməsi bu

---

[1031] Alban hökmdarı Urnayr (IV əsr) döyüşqabağı əsgərlərə deyir: «İndi sizi xəbərdar edirəm ki, yadda saxlayasınız; yunan qoşunundan əsr alanda onların çoxunu öldürmək lazım deyil, biz onları bağlayıb Alban elinə aparacaq və bənna, daşyonan, dulusçu kimi işləməyə məcbur edəcəyik» (Бузанд, 1953, 148).

[1032] Kalankatlı, II.14, 40, 42.

[1033] Kalankatlı, I. 2, 4, 15; Burada Part şahı I Vologezin (50-76) adı *Valarş* kimi yazılmışdır. Ədəbiyyatda I Vaçaqanın adı *Cəsur Vaçaqan* kimi verilir, lakin M. Kalankatlı «Qoç Koroğlu» deyimində olduğu kimi, Vaçaqanın epiteti kimi hay dilinə də keçmiş *qoç* sözünü (*qac* - ***քաջ*** ) işlədir. Əsərin bəzi nüsxələrində II Vaçaqanın adı Yavçaqan, Yovçaqan, Esvalen (Esvağen) adı da Valen//Vağen şəklində yazılmışdır.

adı *ərən* şəklində bərpa etməyimizə haqq qazandırır. Arandan sonra nə qədər vaxt keçməsinin bəlli olmadığını deyən M. Kalankatlı ərsaqsoylu I Qoç Vaçaqan, I Vaçe, Urnayr, II Vaçaqan, Merhavan, Satoy, Asay, Esvalen, II Vaçe və III Vaçaqanın Alban elbəyi olmasını yazır. Daha sonra «Alban tarixi» hakimiyətə gələn mihranilər sülaləsinin üzvlərini sadalayır. Haqqında epizodik bəlgələr olan bəzi Alban elbəylərinin hakimiyət illəri dəqiq bilinmir.[1034] Lakin Alban elində 365 vəng-kilisə tikdirən III Vaçaqan (487-510), sasani şahı II Xosrovun vaxtında İrandan qaçıb Girdmanda yurd salan Mihran ailəsindən Varaz-Qriqorun (628-636) oğlu Cavanşir (636-679) haqqında qaynaqlar xeyli bilgi verir.

Əvvəlki elbəylərinin adı M. Kalankatlıya bəlli olmasa da, antik çağ yazarları m.ö. I əsrdə romalıların Güney Qafqaza yürüşü ilə bağlı alban elbəylərindən ikisinin adını çəkir: Pompeyə qarşı m.ö. 66//65-ci illərdə vuruşan elbəy *Uruz* (Ὀροίζης) və bu tarixdən 30 il sonra Kanidi Krassa qarşı vuruşan elbəy *Zober* (Ζόβηρ).[1035]

Alban boyundan olan bu elbəylərin adının türkcə olması da diqqəti çəkir. Belə ki, antik qaynaqların *Oris, Oroyz, Oroys* şəklində verdiyi Uruz adına KDQ-da Qazan xanın oğlu Uruz bəyin və «9 qocabaşı» Uruz//Aruz qocanın adında rast gəlmək olur. Ə. Tanrıverdi doğru olaraq qeyd edir ki, Başkeçid (Dumanisi) bölgəsində Oruzman kəndi, Uruz qışlağı, Uruz yaylağı toponimlərində Oruz//Uruz adı saxlanmışdır.[1036] Bizcə, Uruz adının partca Orod//Urud deyimi Urud kəndinin də adında qalmışdır. *Zober* və *Zobir* kimi verilən digər elbəyin adı isə VI əsrdə quzey türklərindən olan kutriqur boyu içində *Zaberxan* (Sabir-xan) bəyin adında təkrar olunur.

Gavanşirin də daxil olduğu Mihran ailəsi partsoylu idi.[1037] Lakin bu çağlarda «iransoylu» sayılmaq dəbdə idi. Sasani hakimiyətində imtiyaz sahibi olmaq üçün Mihran ailə üzvləri də partsoylu olduqlarını qabartmamağa çalışır, uşaqlarına pers adları qoyurdular. Ona görə, Alban elindəki Cavanşir, Varaz, Uxtanes, Parmide, Marut, Şubxalişay və bu kimi başqa pers adları daşıyanların hamısını iranmənşəli saymaq olmaz.

---

[1034] Tarixçi Tofiq Məmmədov hay qaynaqlarında keçən belə bəlgələri toplamış və bəzi şərhlər vermişdir (Мамедов, 1977; 1993).

[1035] Dion Kassiyə görə, Roma ordusu İberiyanı tutandan sonra Albaniyaya hücum edib 36-cı ildə Zoberi məğlub etmişdir (Тревер, 1959, 112; Алиев, 1992, 36).

[1036] Tanrıverdi, 1999, 71-73.

[1037] Минорский, 1963, 29.

Qaynaqların albanların hakim təbəqəsi, elitası sırasında sadaladığı Qazan, Uruz, Abukaz adları KDQ-da Qazan, Uruz, Kan Abkaz adlarında təkrar olunduğu kimi, Asay (Azay), Abas, Asan, Asparak, Bakur və Çen Bakur, Esvalen, Kurdak, Mate, Manas, Qor, Kosis (Kotiz), Urnayr, Sanesan (Sanaturuk) və bu kimi başqa adlar türk boyları içində yayılmışdı.[1038]

Alban elinin yaranma tarixi m.ö. IV əsrin ortalarına düşür. Belə ki, İskəndərə qarşı müharibədə alban-saqa boyları hələ öz başçıları ilə deyil, Azərbiqan satrapı Atropatın müttəfiqləri kimi onun başçılığı altında pers ordusunda iştirak edirdi. Görünür, bu müharibədən sonra Azərbiqan satraplıqdan müstəqil dövlətə çevrildiyi kimi, Arazdan quzeydəki boylar da birləşib Alban dövlətini qurmuşdu. Çünki İskəndərə hədiyə kimi «Alban elbəyinin» böyük bir köpək göndərməsini qeyd edən antik çağ yazarlarının (Böyük Plini, Yuli Solin) məlumatı belə düşünməyə əsas verir. Alban eli formalaşıb möhkəmləndikcə onun dövlət quruluşu, məmurlar təbəqəsi, pulu, ordusu, paytaxtı, tuğ-bayraq kimi dövlət simvolları və atributları da yaranırdı. Sonrakı qaynaqlar alban boybirliyinə daxil olan hər boyun üzərində heyvan şəkli, damğası olan bayraqlardan, qurultay (toy) tipli ümumxalq toplantılarından, rumlara qarşı elbəylərin başçılığı ilə vuruşan alban ordularından söz açır.

Ticarət sahəsi genişləndikcə bazarlarda pula tələbat artır, m.ö. III əsrdən Alban elində hellin sikkələrinə oxşadılan yerli gümüş pullar kəsilirdi, sonralar bu gələnək Roma, Part və Sasani pulları timsalında davam etmiş, yerli pulla yanaşı burada həmin ölkələrin orijinal pulları da işlənmişdir.[1039] Alban çağına aid arxeoloji abidələr açıldıqca müxtəlif illərdə kəsilmiş sikkələr ortaya çıxır.

M. Kalankatlı quzey türklərə (hun, xəzər, barsil) aid *tudun, türkan, elçi, şad* titullarını qeyd etməklə yanaşı, Alban elinin öz daxilində işlənən *buyuruq* terminini də vermişdir. Bu sözün işləndiyi mətn isə belədir:[1040] «buyuruq (***փիւրոզ***), nahapet və Ağvan azatlarının hamısı bu sənədə öz

---

[1038] Q. Ə. Qeybullayev erkən və orta əsrlərə aid mənbələrdə qeyd olunan alban antroponimləri sırasında Oroys, Kozis, Zober, Aran, Asey, Andok, Urnayp, Urbatayr, Davdak, Mate, Kazan, Manas, Sato, Abikaz, Aratan, Xurs, Xoçkorik və sair şəxsadların türkcə olduğunu yazır (Гейбуллаев, 1991, 74).

[1039] Бабаев, 1990, 155-165.

[1040] Kalankatlı, 1983, 94; K. V. Trever bu titulu «Pörok-starşina» kimi vermişdir (Тревер, 1959, 296); Digər tədqiqatçılar kimi Q. Ə. Qeybullayev də bu sözü şəxs adı zənn edərək ona yanlış etimoloji yozum vermişdir (Гейбуллаев, 1991, 462).

möhürlərini basdılar». Alban elində elbəy seçiminin türk törəsinə uyğun icra edildiyini də görmək olur. Belə ki, «Alban tarixi» elbəy Cavanşirin ölümündən sonra qardaşının oğlu Varaz Tiridatın elbəy seçilməsini belə verir:[1041]

> «Katolikos və ölkənin knyazları hamılıqla bu seçkini tələsik keçirməyə can atırdılar. Elə buradaca bütün əyanlar müxtəlif heyvan şəkilləri olan bayraqlarını açdılar, şeypurlar çalındı, Varaz Tiridatı qızıl qalxana otuzdurub onu tərifləyə-tərifləyə üç dəfə göyə atdılar. Belə böyük bir təmtəraqla onlar uca hakimiyyətin şərəfini - vətən hökmranlığının taxtını ona verib həmin gün bu münasibətlə çoxlu hədiyə və bəxşişlər payladılar».

Strabon yazır ki, Part elində iki hissəli olan ali şuranın birinə elbəyin qohumları, digərinə müdriklər və maqlar daxildir. Hər iki qanatdan elbəy seçirlər.[1042] Uzun illər partsoylu ərsaqların elbəy olduğu Alban eli də bu gələnəklə idarə olunmalı idi. Hay qaynaqları bu barədə sussa da, KDQ-da bəzi bəlgələr vardır. Belə ki, Romada senat üzvləri *senex* (qoca) adlandığı kimi, Simokattanın batı hun boylarında *loqades* sözü ilə verdiyi, həmçinin xəzərlərdə gördüyümüz seçkin yaşlılar məclisi Dədə Qorqud eposunda da seçkin ağsaqqallar şurası «qocalar» adlanırdı.[1043] Həmin qocalar qurumunun doqquz üzvü olması isə ayrıca bir boyun başçısı olan Uruz (Aruz) bəyin həm də «9 qoca başları Uruz» epitetindən bəlli olur.[1044] Qazılıq qoca isə həm də Bayındır xanın vəziri idi.

Cavanşirin hakimi-mütləq kimi öz ölkəsinin İberiya sınırından Hun qapısı və Araz çayına qədər ərazilərini məharətlə idarə etdiyin vurğulayan Alban tarixçisi yazır: «(Cavanşir) Dan ulduzu çıxanda elbəy libaslarını geyinərək taxtına oturdu. Qapılar açılanda artıq onun hər iki yanında əli-

---

[1041] Алб.т. 1993, 151.

[1042] Strabon, XI. 9. 3.

[1043] Lakin doqquz qoca təmsil olunan bu qurumda 11 nəfərin adı keçir: Aruz qoca, Elik qoca, Qəflət qoca, Qazılıq qoca, Uşun qoca, Qañlı qoca, Ense qoca, Duxa qoca, Qoñur qoca, Yuñlu qoca, Yapağulu qoca. Görünür, daha qədim mifoloji süjeti olan variantda adı keçən qoca titullu üç nəfər artıq bu qurumun üzvü deyilmiş, yaxud sonralar bu quruma üzv seçilmişlər, çünki onların adı başqa qocalardan fərqli çağlara aid olaylarda keçir. Belə ki, Təpəgözün atası Qoñur qoca çoban idi, Yuñlu qoca ilə Yapağulu qoca isə Təpəgözə qulluq etmək üçün ayrılmışdı.

[1044] KDQ, 1962, 83; Belə bəlgələrdən bəlli olur ki, İç və Dış oğuzların konfederasiyası 9 boyun birliyilə qurulmuşdur, çünki «9 qoca» qurumu olan dövlət divanında hər boy bir qoca ilə təmsil olunurdu. Eposda Qoñur, Yuñlu, Yapağulu qocalarla bağlı olaylar göstərir ki, qoca titulunu təkcə boy başçılırı, bəylər deyil, sadə adamlar da ala bilirmiş.

silahlı əsgərlər durmuşdu, öz rütbələrinə görə əyanlar ehtiramla onun yanına gəldilər».[1045] Alban elbəyinin sarayından danışan yazarlar burada din xadimlərinin, ədalətli hakimlərin, şairlərin olduğunu qeyd edir. Elbəyin qış və yay iqamətgahı vardı. K.V. Treverə görə qaynaqların təsvirinə əsasən bu kiçik fiqurda verilən elbəy Cavanşirə aid ola bilər.[1046]



Alban elinin təkcə yaxın qonşularla deyil, Roma, Yunan, Part, Bizans və Sasani dövlətlərilə siyasi iqtisadi və diplomatik əlaqəsi vardı. Qandak ticarət məntəqəsi ilə Qəbələ arasındakı qədim yol xalq arasında bugün də *elçi yolu* adlanır.[1047] Alban eli müəyyən dönəmlərdə nominal olaraq Part, Bizans, Xəzər dövlətlərindən asılı duruma düşəndə vergi verib müstəqilliyini saxlamağa çalışırdı. Alban tarixçisi böyük dövlət xadimi Cavanşirin diplomatik öngörülərinin o çağın Bizans, Xilafət, Xəzər imperiyalarında yüksək dəyərləndiyini maraqlı detallarla təsvir edir.

Alban dövlətinin hələ yaranmadığı dövrdə İskəndərə qarşı savaşda alban döyüşçülərinin pers ordusunun mühüm mövqeyində yer alması onu göstərir ki, alban əsgərləri mahir döyüşçülər idi. Alban elinin mövcud olduğu çağlarda bu dövlətin ordusu haqqında qaynaqların verdiyi bəlgələr alban (aran) boylarının məhz *alp-ərən* (alpan//ərən) epitetli döyüşçüləri olduğunu sərgiləyir. Hay dilində bizə çatan qaynaqlar daha çox keşişləri mədh edirsə, KDQ da alp-ərənlərin qəhrəmanlıqlarını təsvir edir.

Antik çağ yazarları albanların dəmirdonlu, yüngül dairəvi və uzun dördkünc qalxanı, *dəri* (δήρειαι) papağı ilə seçilən nizəli döyüşçülərindən bəhs edir. Pompeyə qarşı vuruşan Alban ordusunun İber ordusundan sayca daha çox (60 min piyada, 22 min atlı) olduğunu qeyd edən Strabon alban qoşununda piyada, oxçu, yüngül silahlı və zirehli atlı döyüşçülər olduğunu, döyüşdə zirehli atlardan da istifadə edildiyini yazırdı.[1048] Bunu təsdiq edən arxeoloji qazıntılarda zaman-zaman tunc dəbilqə, dəmir zireh, bıçaq, qılınc, xəncər, ox və nizə dəmrənləri kimi yaraq-silah ortaya çıxır.

---

[1045] Kalankatlı, II. 21.

[1046] Тревер, 1959, 290.

[1047] Eyni qaynaq, 1959, 84.

[1048] Strabon, XI. 4. 4-5; Тревер, 1959, 147, 287-289; Əliyev-Əliyeva, 1997, 108-109.

Qaynaqlar savaşa gedən albanların ordu başçısının yanında bayraq tutanlar və şeypur çalanlar olduğunu qeyd edir. Bayraqların üzərində və başında heyvan şəkilləri olması haqqında bilgi verilir. Güman ki, bunların içində qurdbaşlı bayraqlar da vardı. Yüz illərlə Güney Sibiri və Xəzərətrafı bozqırları dolanıb Alban elinə qayıdan bozqır kulturlu soydaşları alban döyüşçüləri üçün sınaqdan keçmiş süvari nəsnələri gətirmişdi.

Yazarlar Alban elində baş verən savaşların maraqlı səhnələrini də qələmə alırdılar. M. Xorenatsi hay taqavoru Tırdatın Erməniyədən gəlib Qarqar düzündə barsillərlə savaşmasını təsvir edərkən yazır ki, qarşısına çıxan birini qılıncla vurmaq istəyən Tırdatın qolu havaya qalxanda barsil bəyi yəhərə bərkitdiyi arkanı götürüb ona atır, Tiqranın sol çiyni ilə sağ qoltuğuna keçən arkanla çəkib onu atdan yıxmaq istəsə də, gücü çatmır. Guya Tiqranın əynində ox batmayan elə ağır zireh vardı ki, onu yerindən tərpətmək mümkün deyildi və o, sol əliylə arkanı tutub qeyri-adi qüvvə ilə özünə tərəf çəkdiyi barsil bəyini əlindəki ikiüzlü xıncərlə yarı bölür, bu zərbədən bəyin atının başı da qopub yerə düşür. Əlbəttə, hay tarixinin atası sayılan bu yazarın mübaliğəsi gerçək durumu göstərmir, çünki birinin başına arkan keçirən türk atlısı onu qol gücü ilə deyil, çapdığı atının təpərilə atdan salır. Yazar başqa bir epizodda yenə arkandan söz açır.[1049]

Azərbiqan atlı döyüşçülərin Lukullun ordusuna qarşı «qurd oyunu» taktikası işlətdiyi kimi, 630-da xəzərlər Ərməniyəyə hücum edəndə eyni savaş taktikasını tətbiq etmişdi.[1050] Təbii ki, Göycə gölü yaxınında xəzər ordusunun qarşısını almaq istəyən perslərə tətbiq olunan bu qurd oyunu savaşında xəzərlərin içində həmin illərdə Xəzər elindən asılı olan Alban ölkəsinin döyüşçüləri də vardı. Lakin bu olaydan təxminən 700 il öncə oturaq albanların qüdrətli ordusu olsa da, savaşda Pompeyin eyni üsulla qurduğu «pusqu» tələsinə düşmüşdülər.

---

[1049] Хоренатци 1858, 122, 151; (II. 50; II. 85).

[1050] Atropaten (Azərbiqan) döyüşçülərinin bu taktikasını təsvir edən Dion Kassi yazır ki, Lukull öz süvarilərinin köməyinə qalxanlı döyüşçülər göndərəndə onlar dərhal geri çəkilir, heç bir tələfata uğramadan çevrilib onları təqib edən düşmənlərə ox atır və bir çoxlarını yaralayırdılar (AT, I. 1988, 287); Ordunu iki yerə bölüb, bir hissəsini pusquda qoyan xəzərlərin həmin savaşını isə «Alban tarixi» belə təsvir edir: «İranlılar hücum edən kimi onlarla üzbəüz olanlar qaçdı və hücum edənlər də onları təqib etdilər. Elə bu vaxt pusquda duranlar qəflətən hər tərəfdən çığır-bağırla hücum edib, Gölək (*Göycə*) gölünü ətrafındakı qamışlığın alovu bürüdüyü kimi iranlıları hər tərəfdən mühasirəyə aldılar və birini də sağ buraxmadılar ki, bu qədər kişinin qırılması kimi qəmli xəbəri apara bilsın» (Kalankatlı, II. 16).

Alban elinin siyasi tarixindən danışan tədqiqatçıların çoxu burada ilk dövlət qurumunun formalaşmasını Əhəməni çağı ilə bağlayır. Alban elinə dövlətçilik gələnəyi guya Güney Qafqazın Əhəməni impeiyasına tabe olduğu çağlarda gətirilmişdir. Lakin burada Saqa eli çağında və sonralar Mada elinə tabe olan dövrdə dövlətçilik gələnəyi vardı. İskəndərin yürüşündən sonra protoazər boyları yenidən müstəqil dövlət qurdular. Əslində, alban adı altında özəl adları görünməyən türk boylarının böyük bir qismi saqalarla gəlib Alban elində oturan dış-oğuzlar və qıpçaq boyları idi və onların ulu babaları iki əsr önçə burada Saqa elini qurmuşdular. Ona görə də türk el qurumu gələnəyilə qurulan Alban eli dövlətçiliyini Əhəməni təsirinə bağlamaq tarixi gerçəklikdən uzaqdır.

I Daranın və Kserksin ordularında Yunan-Pers savaşlarında iştirak etmiş kaspilərin ümumi adı altında görünməyən alban//aran döyüşçüləri artıq Ərbil yaxınlığındakı Qavqamel savaşında Arrianın yazdığına görə, makedoniyalı İskəndərə qarşı vuruşan sonuncu Daranın qoşununda alban alayı şahın yanında mövqe tutmuşdu.[1051] Bu savaşda Quzey Azərbaycan boylarının «albanlar» adı ilə iştirakı göstərir ki, artıq həmin çağda bəzi boylar ümumi *alban* adı altında birləşmə prosesini yaşayırdılar. Arazdan quzeydə bu prosesə qoşulan protoazər boyları Saqa eli dağılandan 2-3 əsr sonra yenidən toparlanıb dövlət qurdular. Quzey Azərbaycanda bu dəfə ayrı-ayrı dialektlərdə *alban* və *ərən* (aran) adlanan boyun öndərliyilə ərsəyə gələn Alban//Aran eli İskəndərin yürüşündən sonra ortaya çıxdı.[1052]

Selevkilər çağında öz müstəqilliyini davam etdirən Alban eli qonşu dövlətlərlə barış içində yaşayırdı. Ərməniyədə m.ö. II əsrin ilk yarısında ortaya çıxan yeni müstəqil dövləti quran Artaşes (Artaksi) Strabona görə, Azərbiqan və İberiyanın Ərməniyə ölkəsinə yaxın bölgələrini tutmuşdu. Tədqiqatçılar yanlış olaraq, Artaşesin zəbt etdiyi bölgələrin sırasında adı keçən Kaspiananı iber bölgələrilə qonşuluqda olan Kaspi adlı yurdları və ya Ptolemeyin Azərbiqanla Ərməniyə arasında verdiyi Kaspiananı deyil, Xəzər yaxasındakı Kaspiana kimi başa düşmüşlər.[1053] Lakin Artaşes Alba-

---

[1051] Arrianın (*Anabazis*. III. 8. 4; 11. 4) yazdığı bəlgə üçün bax: (Тревер, 1959, 52-53).

[1052] V. V. Bartold perslərin tabeçiliyində olmayan albanların pers ordusunda iştirakını muzdlu əskərlər kimi, K.V. Trever isə perslərin canişini Atropatın müttəfiqi kimi izah edir (Тревер, 1959, 53-54).

[1053] Pompey Troq yazır ki, Mitridat (m.ö. 170-139) partların təsir dairəsini «Qafqaz dağlarından Fərat çayına qədər yaydı» (XI. I. 6. 6). Deməli, Artaşesin qısa müddətli işğalı bir neçə il sürmüşdür.

niya ərazisinə girməyə cürət etməmiş, yalnız Sünik vilayəti ilə qonşu olan Göycə yaxasına gəlib çıxmışdı. Ətraf ölkələrdən böyük bir ərazini tutmuş II Tiqran da Alban elinə girməmişdir. Belə ki, Plutarxın verdiyi bilgidən bəlli olur ki, m.ö. 69-da romalı Lukull ilə savaşda II Tiqrana alban və iber çarları müttəfiq kimi yardım edirdilər.[1054]

Bu olaydan beş il sonra Pompey Ərməniyəni tam zəbt edir, İber və Alban ellərində müharibəni udsa da, bu ölkələrin elbəylərilə müttəfiqlər kimi rəftar etməli olur. Antik çağ yazarları böyük bir ordu ilə Pompeyin m.ö. 66//65-də Güney Qafqaza yürüşünü təsvir edərkən onun albanlarla savaşından maraqlı səhnələr də verirlər. Belə ki, ikinci savaşda Pompey albanların arxa dağlara çəkilən əsas ordusu ilə yox, geridə qalan kəndləri müdafiə etmək üçün elbəyin qardaşı Kotis (Kosis) bəyin başçılığı ilə azsaylı döyüşçülərlə vuruşmuşdur. Pompeyin qurduğu pusqu tələsinə düşən alban döyüşçülərilə yanaşı, Kotisin də həlak olduğu bu savaşda kəndlilər və qadınlar da iştirak edirdi (Pompeyin bu yürüşü haqqında ətraflı bilgi II Bitikdə verilmişdir). Dion Kassiyə görə, m.ö. 36-da romalılar İberiyanı tutandan sonra Alban elinə də hücum edib elbəy Zoberi məğlub etmişdi.

Alban elində Dərbəndə qədər əraziləri tutmaq məqsədilə hücuma hazırlaşan imperator Neron 68-də böyük ordu ilə başladığı yürüşə böyük önəm verirdi. Həmn çağın yazarı Tasitə (55-120) görə, Neron albanlarla savaşa cəlb etdiyi qoşunları toparlayıb Kaspi qapısına (*claustra Caspiarum*) göndərdi, lakin ölkədə başlanan üsyan səbəbilə ordunu yoldan geri çağırmalı oldu.[1055] İmperator Domisianın (81-96) vaxtında isə romalıların XII legionundan bir qrup Qobustana qədər gəlib burada yazı qoymuşdur.

Göründüyü kimi, m. ö. I əsrin ortalarından başlayaraq Roma orduları dəfələrlə Alban elinə girib «qələbə» çalsa da, Erməniyə ölkəsindən fərqli olaraq burada qala bilməmiş, ən yaxşı halda «müttəfiq» kimi aralanmışlar. Həmin çağlarda və m.s. I əsrdə Part dövləti də Erməniyə və Azərbiqan kimi, Alban elini də öz təsir dairəsinə salmaq istəyirdi. Əldən-ələ keçən Erməniyə ölkəsi artıq Roma və Part ordularının savaş meydanına çevrilmişdi.

Hay və alban tarixçiləri Alban eli üzərində elbəy kimi mifik Ərənin (Aran) «təyin olunması» haqqında yazırlar. Aranın Sünik saqalarından və Sisak (saqa) soyundan verilməsi də diqqəti çəkir.[1056] Bu olay I əsrin siyasi

---

[1054] Тревер, 1959, 88-89.

[1055] Тацит, II. 1969, 7-8 (История, I. 6).

[1056] Хоренаци, II. 8; Kalankatlı, I. 4; Maraqlıdır ki, Quzey Qafqaz hunlarının başçısı da həmin çağda *Eran* adlanırdı.

durumuna uyğun gəlir. Belə ki, Part şahları özlərinin ərsaqsoylu qohumlarının Ərməniyə, Azərbiqan, Albaniya dövlətlərinin, Maskut bəyliyinin başında olmasına maraqlı idi. Erməniyədə müəyyən fasilələrlə hakimiyətini 428-ci iləcən davam etdirən Ərsaq sülaləsi Albaniyada VI əsrin əvvəlinə qədər hakimiyətdə qaldı.[1057]

Parfiyadan 115-də qopardığı Ərməniyəni bir neçə il Roma əyalətinə, zəbt etdiyi İberiya və Kolxidanı isə Roma vassalına çevirən Trayanın (98-117) Alban elinə müttəfiq kimi baxması da diqqəti çəkir. Adrianınsa (117-138) vaxtında Erməniyədə hakimiyəti Ərsaq sülaləsinə verməsi və onun iber-alban elbəylərilə dostluq münasibəti qurması bəllidir.[1058] Beləliklə, I-II əsrlərdə rumların canişinliyi sayılan Erməniyə və İberiyadan fərqli olaraq, part yönümlü Alban eli müstəqilliyini saxlaya bilmişdi. Görünür, albanların rumlarla yaxşı münasibəti III əsrdə də barışla davam etmişdir. Bu durum İmperator Avrelianın (270-275) vaxtında daha qabarıq görünür. Həmin dövrü təhlil edən uzmanların qənaəti belədir ki, Roma və Part dövlətləri nə qədər cəhd etsələr də, Alban elini özlərinin əyalətinə çevirə bilmədilər.[1059] Bunun səbəblərindən biri quzeydə albanların qüvvətli etnik dayaqlarının olması idi.

Sasanilər İranda hakimiyəti ələ alandan sonra Roma ilə müharibə yenidən qızışdı, imperator Valerianın 260-da əsir düşməsini iberlər kimi albanlar da pis qarşıladılar və I Şapurun göndərdiyi məktubu da qəbul etmədilər.[1060] Romalıların Güney Qafqaz xalqları ilə birlikdə Sasanilər üzərində çaldığı qələbə 298-də barış müqaviləsilə sonunclansa da, yenidən Ərməniyəni İrana tabe etmək istəyən II Şapur (309-379) alban elbəyinin qüvvəsindən yararlandı. Belə ki, alban elbəyi Sanatruk iki dəfə Erməniyəyə hücum edir və paytaxt Vağarşapat şəhərini tutub bir il tabeliyində saxlayır. II Şapurun bacısı ilə evlənmiş Alban elbəyi Urnayr da perslərə 371-də haylara qarşı müharibədə yardım etmiş, bu savaşda yaralanmışdı. Rumların yardımı ilə həmin savaşda qələbə çalan haylar Alban elinin bir sıra bölgəsini tutsa da, artıq 387-də Ərməniyə bir dövlət kimi ləğv edilib perslərlə rumlar arasında bölündü.[1061]

---

[1057] Тревер, 1959, 145.

[1058] Алиев, 1992, 39.

[1059] Бартольд, 1925, 19; Тревер, 1959, 120.

[1060] AT, 1998, 394.

[1061] Hay qaynaqlarına görə, bu əks-hücum vaxtı Muşeq Mamikonyan Uti, Şakaşen, Kolt və Qardman dərəsini Alban elindən qopardı.

Sasanilərə qarşı Güney Qafqaz xalqlarının 450-də başladığı böyük üsyan yatırılsa da, on il sonra ana tərəfdən sasani şahları ilə qohum olan Alban elbəyi II Vaçe yenidən dayısı Firuz şaha qarşı üsyan edir, Firuz isə hunları Daryol keçidindən yardıma çağırıb alban bölgələrini yağmalatdırır. Beləliklə, II Vaçe 461-də tacını itirdi və ölkə perslərə tabe oldu.[1062] Taxtından könüllü əl çəkib zahidlik edən Vaçe isə özünün maskut dəstəsilə ata soyunun yurdu Çola gedir.

Bu olaydan bir-iki il sonra perslər burada mərzbanlıq sistemi qurur, lakin 480-ci illərdə onlara qarşı yeni üsyanlar başlayır. Alban elində hakimiyəti 487-də ələ alan sonuncu ərsaqsoylu elbəy III Vaçaqan dövləti yenidən bərpa edir və quruculuq işlərinə din xadimlərini də cəlb edir. O, Aluen (Alven) kəndində 488-də çağırdığı məclisdə xristianlıq tarixində «Aluen qanunu» adı ilə tanınan məşhur sənədi qəbul etdirir. Perslər idarə etdikləri ölkələri VI əsrdə yenidən mərzbanlıqlara bölüb Güney Qafqazı ayrıca bir mərzbanlıq edir. 571/572-ci illərdə perslərə qarşı yeni üsyanlar başlayır.

Bu çağlarda hegemon dövlətə çevrilmə istəyi Bizansla Persiya arasında rəqabəti xeyli artırmışdı. Lakin bozqır türklərinin qorxusundan bu imperiyalar bəzən diplomatik danışıqlara gedir, ümumi təhlükəyə qarşı birgə tədbir görürdülər. Belə ki, pers şahları Quzey Qafqazdan axınlarla gələn türklərin yolunu kəsmək üçün keçidlərdə tikdiyi müdafiə qalalarının xərcini Bizansdan alırdı. Alban elinə 623-də Bizans imperatoru İrakli, 690-da isə II Yustinian Güney Qafqaza girmişdi. Hələ VI əsrdən təpərini göstərən xəzərlər artıq VII əsrdə dünyanın böyük imperiyasına çevrilirdi. Pers şahları II Yəzdigird (439-457), Firuz (459-484), Qubad (488-531) və Xosrov I Ənuşirəvan (531-579) savir, barsil, xəzər ordularının qarşısını almaq və onları Alban elindən çıxarmaq üçün hər vasitəyə əl atır, yeni-yeni istehkamlar, sədlər, qarnizonlar üçün qalalar tikirdilər.

Ermənıyə isə yenə Bizans-Pers müharibələrinin əsas savaş meydanı idi. Hay tarixçisi Sebeosa görə, İmperator Mavriki II Xosrova təklif edir ki, hər iki ölkənin sınırında yaşayan bu ermənilərdən canımızı qurtarmaq üçün biz öz tərəfimizdə olanları yığıb Trakiyadakı düşmənimizin, siz də öz tərəfinizdə olanları yığıb doğuda savaşdığınız düşmənlərinizin üzərinə göndərin. Əgər oralarda ermənilər məhv olsa, düşmənimiz məhv olur, ermənilər qalib gəlsə, o biri düşmənimiz məhv olar.[1063]

---

[1062] Минорский, 1963, 30; Джавадов, 1993, 40.
[1063] Тревер, 1959, 237.

Alban elində mühüm problemləri elbəy təkbaşına deyil, yetkili böyüklərin iştirakı ilə çağrılan xalq məclisində (toyda) həll edirdi. Belə bir məclisi III Vaçaqan Aluen qanunlarını qəbul edərkən çağırmışdı, 684-də Varaz Tiridat (680-699) isə xəzərlərə elçi göndərmək üçün məclis toplamışdı. Cavanşir də ölkənin paytaxtında ümumxalq məclisi çağırmışdı və ondan sonra belə bir məclis (toy) elbəy seçiminə toplanmışdı.

Azərbiqandan gəlib VI əsrin sonunda Girdıman bölgəsində oturan mihranilər Alban elində hakimiyyəti ələ alır. N. Adons yazır ki, mihrani sülaləsi Suren, Karen, Koşma, İspəndiyar, Zik kimi part soylu idilər.[1064] Dövrünün görkəmli dövlət xadimi elbəy Cavanşir də mihrani soyundan idi. Bu sülalədən olan son elbəy Şeroy (699-705) ərəblər tərəfindən tutulub Suriyaya aparılmışdı. Şeroydan sonra ölkəni ərəb əmirləri idarə etsə də, hələ uzun müddət burada xəzərlərin iradəsi qabarıq şəkildə özünü göstərirdi. Xəzərlərə güvənən yerli feodallar, vilayət və bölgə bəyləri də ərəblərdən asılı olmamaq üçün tələb olunan vergini ödəyirdilər.

Hələ Cavanşirin vaxtında Xilafətin güclənib Bizansın tabeliyindəki torpaqları dalbadal zəbt etməsi və qılıncını İrana sarı çevirməsi yaxınlaşan təhlükədən xəbər verirdi. Öncə sasanilərin ordusunda ərəblərə qarşı vuruşan Cavanşir durumu düzgün dəyərləndirmiş, ərəblərə məğlub olan iranlıların Alban bölgələrinə çəkilib, burada talançılıq edən qoşunlarını ölkədən qovmuşdu.

Alban tarixçisi yazır ki, Cavanşir ərəblərə qarşı daha güclü Türküstan (Xəzər) ordularını köməyə çağıra bilərdi, lakin bunun əvəzinə diplomatik yola əl atıb, xəlifəyə tabe olmaq qərarına gəldi və Dəməşqdə xəlifə Müaviyə onu öz sarayında böyük hörmətlə qarşıladı. Beləliklə, öz ölkəsini qanlı müharibələrdən və böyük talanlardan xilas edən Cavanşir Alban elində mövqeyini də möhkəmlətmiş oldu. Lakin Cavanşir öləndən sonra vəziyyət dəyişir, özəlliklə Alban ərazilərində yüz illərlə davam edən xəzər-ərəb savaşlarından isə ən çox zərər çəkən burada yaşayan əhali idi

Xilafət VIII əsrdə Alban mehranilərinin hakimiyyətini ləğv edir və diofizit yönümlü alban kilisəsinin Bizansla əlaqəsini qırmaq üçün onları monofizit erməni kilisəsinə tabe edir. IX əsrin ortalarında isə xeyli alban və erməni soyluları İkiçayarasına sürgün olundu. Ərəblərin Alban elinə qarşı apardığı siyasəti İran tarixçisi Səid Nəfisi düzgün dəyərləndirir və belə yazır: «Xilafət zamanı ərəblər Aran torpağını Qafqazda zəbt etdikləri

[1064] Адонц, 1971, 441.

başqa nahiyələrlə birləşdirərək ona *Ərməniyə*, yəni Ermənistan adı verdilər».[1065] Belə inzibati bölgü haylarda «Böyük Ərmənyə» xülyası yaratdı.

Bu çağlarda Babəkin ərəblərə qarşı apardığı savaş (816-838) sona çatmış, xəzərlər də Dərbənddən quzeyə çəkilmişdi. Artıq əhalinin islam dininə keçməsi prosesi başlanmışdı. Doğrudur, Alban//Aran elində xristian türklərin çoxu islamı qəbul etsə də, onların bir qismi hələ kilisələrin təsir dairəsindən çıxmamışdı. Hətta, XII əsrdə Hasan Calalın başçılıq etdiyi Xaçın məlikliyi Arsaxda yenidən dirçəldi, ancaq alban kilisələrinin bir neçə əsr öncə başlamış qriqoryan yönümü burada artıq erməniləşmə olayına rəvac vermişdi. Beləliklə, min ildən artıq davam edən Alban eli müstəqil dövlətçilik gələnəyini islamlaşma çağlarında itirdi.

Alban elinin təbii şəraiti, burada görünən arxeoloji kulturlar, etnik gələnəklər, təsərrüfat sahələri, iqtisadi durum və burada danışılan dillər, yaranan ədəbiyat, incəsənət nümunələri müvafiq mövzulara uyğun ayrı-ayrı Bitiklərdə verilmişdir. Burada isə biz ağırlığı daha çox Alban elində görünən boylara və ölkənin etnik tərkibinə yönəltmiş, sadalanan digər məsələlərə ötəri toxunmuşuq.

Alban vilayətlərinin fərqli coğrafi durumu, fərqli iqlimi, müxtəlif təbii şəraiti diqqəti çəkir. Belə ki, burada susuz çöllərdən tutmuş dağlıq bölgələrdəki alp çəmənliklərinə qədər, çoxlu bozqır və subtropik torpaqlardan tutmuş heç vaxt qarı əriməyən uca dağlara qədər müxtəlif təbiəti sərgiləyən bölgələr vardır. Alban tarixçisinin öz sözlərilə desək, saysız təbii sərvətlərilə həddindən artıq gözəl, heyranedici bir məmləkət olan Alban ölkəsində təkcə bol balıqlı Kür çayının sahilləri boyu çoxlu taxıl, üzüm, neft və duz, ipək, pambıq və çoxlu zeytun ağacları var, dağlarında qızıl, gümüş, mis və oxra çıxarılır, bu ölkədə yabanı heyvanlar sırasında aslan, bəbir, bars, çöl eşşəyi, çoxlu qartal, qırğı və bunlara bənzər başqa canlılara rast gəlmək olur.[1066]

Belə bir coğrafi şəraiti, zəngin flora və faunası olan Alban elində əhalinin əsas hissəsi kənd, qəsəbə və şəhərlərdə oturaq yaşamla keçinir və müxtəlif təsərrüfat sahələri ilə məşğul olurdular. Ümumi «alban» və «aran» adı altında verilən bu yerli boyların bir hissəsi də yaylaq-qışlaq yaşamı ilə fərqlənirdi və bu yaşam tərzi bura qayıdan və yeni gələn türk boylarının hesabına daha geniş yayılmışdı.

---

[1065] Нəфиси, 1990, 28.

[1066] Kalankatlı, I. 5.

Əhalisi daha çox kəndlərdə yaşayan Alban elində kənd təsərrüfatı əkin-biçin, üzümçülük, heyvandarlıq sahələri üzrə ixtisaslaşmışdı. Lakin burada inkişaf etmiş balıqçılıq, şəhərlərdə sənətkarlıq və ticarət sahələri də vardı. Strabon bu ölkədə suvarma sistemini Babil və Misir ölkələrindən üstün sayırdı. T. S. Passekə görə, Mil-Muğan bölgəsində su kanalları, arxlar m.ö.V-IV əsrlərdən mövcud idi.[1067] «Alban tarixi» ölkədə ticarət, balıqçılıq və mis, gümüş, qızıl, dəmir istehsal olunması, metalişləmə sənətkarlığı haqqında bəlgələr verir.

Arxeoloji bəlgələrə görə, basırıq tipləri Alban eli çağında müxtəlif olsa da, Urmu yaxası (Hasanlu) qəbirlərdə olduğu kimi, əksər basırıqlarda adamlar *bükülü* şəkildə gömülmüşdür.[1068] Antropoloji baxımdan bugünkü dolixokefal azərlərdən fərqlənməyən albanların içində klassik oğuz tipləri də diqqəti çəkir. Belə ki, basırıqda bəzi adamların uzunluğu iki metrə çatır. Azərlər bu cür basırıqlara «Oğuz qəbiri» deyirlər. Alban eli çağında dünyasını dəyişənlər ölübasdırma gələnəyi ilə torpaq, quyu, çiy kərpic, ağac, təknə, küp və katakomba basırıqlarında bükülü formada qəbirə qoyulmuşdur.[1069] Qədim türk gələnəyini davam etdirən bükülü basırıq yerli və quzeydən gələn ayrı-ayrı türk boylarının gələnəyini saxlamışdır. Katakombalar isə I əsrdən *hun* axını ilə ortaya çıxır.[1070]

Urartu çağından Azərbaycana olan miqrasiyalar yad kulturların ortaya çıxması ilə nəticələnmişdir. Bəzən bir bölgədə bir-birindən fərqli basırıq növləri görünür. Belə qarışıq yerlərdən biri də keçid məntəqəsi olan Mingəçevir civarıdır. Küp qəbirlər zərdüştiliklə bağlı yayılsa da, bu kulturun daşıyıcıları, Azərbaycana köçürülən əsasən irandilli boylar idi. Bəzən arxeoloqlar Güney Qafqaza gəlmə olub bir-iki bölgədə tapılan bu azsaylı küp qəbirlərin sayını şişirdirlər. Ola bilər ki, küp vannalar və küp qablarda özünü göstərən ölübasdırma adəti Alban elinə iki yolla gəlmişdir: biri Kiçik Asiyadan, digəri də Zərdüşt dini ilə bağlı Mada (İran) yaylasından.

Alban elində özünü göstərən etnoqrafik özəlliklərdən biri qədim türk gələnəyi olan daş adam heykəlləridir. Türk elləri içində belə daşbaba heykəlinin ən qədim nümunəsini arxeoloq F. M. Muradova Qobustanda

---

[1067] Strabon, XI. 4.3; ВДИ, №2, 1946, 185.
[1068] Джафаров, 1985, 51.
[1069] Бабаев, 1990, 104-108.
[1070] AT, 1996, 95.

3 №-li kurqanda üzə çıxarmışdır.[1071] Kür-Araz kulturunun son çağlarına aid bu daşbaba gələnəyinin sonralar m.ö. II minildə Abşeron, Astara, Hakkari, Meşkin bölgələrində davam etdiyini görmək olursa, sonralar Alban eli çağında Dağkolanı, Çaxnax, Çıraxlı, Şatırlı, Xınıslı və başqa bölgələrdə yenidən ortaya çıxması aydınlaşır.[1072] Görünür, saqa boylarının qayıtması ilə artan bu daşbaba gələnəyi Alban elində xristianlığın yayıldığı çağlara qədər davam etmişdir. Alban qaynaqlarında buna aid bəlgələr vardır. Diqqəti çəkən məqamlardan biri də alban dövrünü əks etdirən bu türk abidələrinin tapıldığı yerlərin adında qədim türk etnonimlərinin olmasıdır. Belə ki, Şatırlı adına m.ö. I minildə Güney Azərbaycanda rast gəlmək olursa, Xınıs (Xınıslı) adı da Mosuldan quzeydə qədim Kuman bəyliyində görünür və hər iki Xınıs adı olan yerdə qədim daşbaba üzə çıxmışdır: biri Hakkaridə, digəri Şamaxıda. Görünür, Xınıslı toponimi kimi, Həkəri toponimi də vaxtilə indiki Türkiyə-İraq sınırından daşbaba gələnəkli boyların Alban//Aran elinə köçlərilə bağlı idi. Buradasa həmin gələnək (Qobustan, Abşeron, Astara) m.ö.III-II minillərdən vardı.




Etnoqrafik bəlgələrdən biri də Alban elində türk atlılarına məxsus arkan atma üsulundan istifadə olunmasıdır. Ümumiyyətlə, Alban elinin ilk dövrlərini əhatə edən m.ö.V-I əsrlərə aid Yaloylutəpə kulturu türk gələnəklərini əks etdirir. Strabon yazır ki, təkcə valideyinlərinə deyil, bütün yaşlılara hörmət edən albanlar ölənlərini varidatı ilə basdırırlar, ona görə ata malından məhrum albanlar kasıb olurlar.[1073] Alban//Aran eli ilə bağlı yaranış və soykökü mifləri də türklərlə bağlılıq baxımından diqqəti çəkir.

III əsr yazarı Romalı İppolitə görə, Yafəs boyları bunlardır: *mada*, *alban, qarqan, erran* (eran), *erməni*, *amazonka, kol, korzen* (xoruz) və sairə.[1074] Göründüyü kimi, burada əsasən türk boyları yer almışdır, ona görə də *qarqan* adını da *qarqar* kimi bərpa etmək olar. Əlbəttə, bu tip soykökü şəcərələri Bibliya gələnəyi ilə ortaya çıxmışdır. Lakin «Alban tarixi» bu

---

[1071] Мурадова, 1979, 37.

[1072] АТ, 1996, 174; Халилов, 1985, 66.

[1073] Strabon, XI. 4. 8.

[1074] Акопян, 1987, 61.

mifik soykökü rəvayətləri ilə yanaşı, bəzi alban bəylərinin Barsil ölkəsindən gəlmiş mərd bir adamın soyundan olması kimi gerçək durumdan da bəhs edir.

Qaynaqlar qamər, saqa//massaget, part//ərsaq, alban//aran boylarını bir-birinə qohum sayıb, bunların əksəriyətini kedar//kitar soyundan olduğunu qeyd edir. Macar alimi Geza Feherə görə, Qafqazdakı kitaritlər bulqar türkləri idi.[1075] M. Xorenatsi Bibliya gələnəyinə uyğun olaraq part boylarını İbrahim peyğəmbərin arvadı *Ketura* (Kantura) soyundan törəyənlər kimi verir.[1076] «Alban tarixi» də albanları ketari (kitura//ketar) soyundan sayır və Yafəsə ayrılan ölkənin Madadan quzeydə Qadriona və Madanı Babildən ayıran Dəclə çayına qədər uzandığını, Ketarinin isə Yafəsin nəvəsi olduğunu qeyd edir.[1077]

Belə xristian-kilisə folkloru Skandinav ölkələrində qələmə alınmış kilisə ədəbiyatında da özünü göstərir. Belə ki, burada *Aran* adı Nuhoğlu Simin oğulları sırasında çəkilir, *Albania* (Albania-land) İlludinin ölkəsi, *Mada* Arpoksadın ölkəsi, *Baktria* və *Aranea* isə Aranın ölkəsi kimi verilir.[1078] «Alban tarixi» alban, qarqar, udi və sovdeylərin soy babası Aranı İbrahim peyğəmbərin çağdaşı sayır.[1079]

İslamaqədər Alban elində əhalinin dini inancları yazılı qaynaqlarda, arxeoloji, epiqrafik və etnoqrafik bəlgələrdə əks olunmuş, dildə, folklor və xalq deyimlərində dərin iz buraxmışdır. Hələ Saqa eli çağından qalma astral inamlar Alban elində xristianlığa qədər davam etmişdir. Strabon bu ölkədə Günəş (Helios), Göy tanrısı (Zevs) kultları və iberlərlə qonşu batı bölgədə Ay (Selena) məbədi olduğunu, baş kahinin burada elbəydən sonra ikinci adam sayıldığını qeyd edir.[1080] Dini məbədlərin öz təsərrüfatı, torpaq sahələri və «qudsal qulları» (hierodul) vardı. Alban elində m. s. I minil boyu vaxtaşırı müxtəlif dinlərin ortaya çıxması da özünü göstərir.

Özlərini təbiətin yavrusu sayan türklər, özəlliklə bozqır türkləri hər bir təbii varlığın yiyəsi olduğuna inanır, onlara öz qamları (kahin) vasitəsilə münasibət bildirir, ancaq bütün varlığın yaradıcısı kimi Bir Tanrıya

---

[1075] Feher, 1984, 5.

[1076] Хоренаци, II. 68.

[1077] Алб.т. 1993, 14-15.

[1078] ДГС, 1996, 135.

[1079] Алб.т. 1993, 19.

[1080] Strabon, XI. 4. 7.

(*Tenqri*) tapınırdılar. Sumerlərin də *dinqir* dediyi bu teonim həm Tanrını, həm də onun simvolu olan Göyü (səmanı) bildirirdi. Mənbələrə istinad edən Emin əl-Razi qeyd edir ki, xəzərlər gecə-gündüzə, küləyə, torpağa, göyə və digər təbiət qüvvələrinə ibadət edirlər, Göyün tanrısı isə digər tanrılardan daha böyükdür. İbn Fadlan da Xəzər ölkəsinə gedən yolda bir türkmən obasında eşitdiyi *Bir Tanrı* sözünü «tək allah» kimi şərh edir.[1081] Xəzər şəhərlərində sinaqoq və kilisələrlə yanaşı, xeyli məscid və hər dini toplumun öz dini kitabına əsaslanan qazisi (məhkəmə) vardı. Bəzi xəzər boylarının yəhudi, xristian, islam dininə tapınması bu dinləri birləşdirən təkallahlıq görüşülə də bağlıdır. Təkallahlıq isə qədim türklərin tanrıçılıq dinilə uzlaşırdı. Qədim türk boyları hansı təktanrılı dinə tapınsa da, orada öz Tenqrisini - Bir Tanrını, Tenqri teq Tenqrini, Tenqrixanı görmüşdür.

Türk boylarının əski inancını yaşadan xəzər boylarının dini qədim Türk Tanrı dini olsa da, sonralar *tanrıçılıq, xristian, yəhudi, islam* dinləri Xəzər elində yanaşı görünür. Xəzərlərin içində yəhudi, xristian dininin yayılma səbəblərindən biri onların Güney Qafqazda bir neçə əsr əvvəl xristian dininə tapınan türk boyları ilə sıx əlaqədə olması idi.[1082] «Alban tarixi» bu barədə geniş məlumat verir. Varaçan şəhərində Alp Eltəbərin vasitəsilə hunların xristianlığı qəbul etməsinə nail olan Alban yepiskopu İsrailin hünəri əsərdə belə mədh olunur:

> «Türküstanda xəzərlərin xaqanının yanında şücaətlər göstərib özünə çox parlaq ad qazandı. Xaqan onu qızı ilə evləndirdi və ona eltəbər sanı verdi».[1083]

Xəzərlər arasında yəhudi dini VIII əsrin ortalarında yayılmağa başladı. Yəhudi dilində yazdığı məktubla tarixə düşən İosif Xaqan da həmin dini qəbul edən soyun xələfi idi. Saraya yaxın elitanın böyük bir hissənin Xaqanbəy səviyəsində yəhudi dininə keçməsi siyasi addım sayıla bilər. Belə ki, bu çağda Bağdad, Konstantinopol, İtil üç imperiyanın metropolu kimi güc mərkəzi idi. Bunların birində islam, digərində xristianlıq dövlət

---

[1081] İbn Fadlan, 1975, 31, 78 (139-cu qeyd).

[1082] Bizansda yəhudiliyin VI əsrdən təqib olunması nəticəsində xeyli yəhudi buradan köçüb Xəzər elinə sığınmışdı. Azərbiqan, Persiya və Ermənıyədə yəhudiliyin samicə «oxumaq» anlamı bildirən *karaim* məzhəbinə tapınanlar, Talmudu deyil, Tövratı qəbul edənlər vardı. İranda artıq VIII əsrdən karaim sektası xeyli çoxalmışdı.

[1083] Kalankatlı, II. 41; Qaynaqlardan bəlli olur ki, xəzərlərin mənəvi rəhbəri sayılan El başçısı Ulu Xaqanın başqa dinə keçməsi mümkün olmasa da, bəzi bölgə bəyləri, saray elitası, hətta dövləti idarə edən Xaqanbəy dinini dəyişə bilərdi.

dini idi. Xəzər dövləti əgər islamı və ya xristianlığı qəbul etsəydi, tədricən həmin dini mərkəzlərin təsiri altına düşəcəkdi. Ona görə də Bulan xaqan yəhudi dinini saraya buraxmaqla düzgün seçim etmişdi.

Xəzər ölkəsində, xüsusilə müsəlman Xarəzm türklərindən muzdlu əskərlərin olduğu orduda islam dini də özünə yer tutmuşdu. İbn Fadlanın yazdığına görə xəzərlərin baş şəhərində müsəlman toplumuna *xız* boyundan olan biri başçılıq edirdi.[1084] Əgər tarixçi bu boyun adını düzgün yazmışsa, onda *Xızı* adının mənşəyini bu xəzər boyu ilə bağlamaq olar.

Göründüyü kimi, bir ucu Albaniyada olan Xəzər elinin dini durumu bir neçə səmavi dinin yanaşı mövcud olması ilə seçilir. Eyni durum Alban eli üçün də xarakterikdir və bu dinlərdən əlavə burada oturaq boyların qədim astral kultları, atəşpərəstlik və İrandan gəlmə zərdüştilik sektaları da vardı. M. Kalankatlının yazdığına görə, alban elbəyi Vaçaqan cadu, fal, türkəçarə ilə məştul olan cadugər və kahinlərin (şamanların) uşaqlarını yığıb xristian ədəbiyatını öyrətmək üçün özünün Rustak adlı mülkündə məktəb açmışdı. «Bütün kilisə xadimlərinin nüfuzu mömin hökmdar Vaçaqanın dövründə yüksəklərə qalxıb hörmət qazanmışdı».[1085]

Xristianlığın yayıldığı ilk ölkələr sırasında Alban elinin olması da diqqəti çəkir. Belə ki, yəhudi dini əsasında yaranmış xristianlıq Qüdsdə ortaya çıxandan sonra İsa peyğəmbərin 12 şagirdi sırasında olmuş apostol Faddey bu dini yaymaq üçün Yelisey ilə Ermənİyə ölkəsinə gəlir, lakin burada ərsaq soylu Sanatruk (Sanaturk) tərəfindən öldürülür. Uğursuz missionerlikdən geri qayıdan Yelisey orada müqəddəs Yakovdan yeni tapşırıq alıb bu dəfə Ermənİyəyə yox, İran üzərindən Alban elinə gəlir. M. Kalankatlının yazdığına görə, Qüdsdən qaydan Yelisey xristianlığın təbliğinə Çoladan başlayıb Uti bölgəsinə, sonra *Gisə* (Kişə) gəlib Qafqazda ilk kilisəni burada tikir: «Bu yer bütün Şərq kilisələrinin başlanğıcıdır».[1086] Albaniyada xristianlığın ikinci yayılma mərhələsi baba Qriqor və nəvə Qriqorisin adı ilə bağlıdır.




---

[1084] Togan, 1981, 173.

[1085] Kalankatlı, 1983, 50-51; (I. 17-18).

[1086] Алб.т. 1993, 18; Azərbaycanda Yeliseyin şərəfinə tikilmiş bir neçə məbəd qalığı vardır (Геюшев, 1984, 139); Mxitar Ayrivanlıya görə, Vaçağan burada 365 kilisə tikmişdi.

«Alban tarixi» müqəddəs Qriqorla bağlı geniş məlumat verir. Bu məlumatın qısa məzmunu belədir: Qriqorun atası partsoylu *Anak* bəy idi. O, erməni taqavoru Xosrovu öldürür, özü də Arazı keçəndə boğulur. Qriqoru xilas edənlər onu Yunanıstana aparıb missioner kimi yetişdirirlər və Qriqor xristianlığı yaymaq üçün Aşkenazın (Saqaların) nəsilləri yaşayan Güney Qafqaza göndərilir. Burada onun Aristakes, Vartanes adlı oğulları dünyaya gəlir. Erməni taqavoru Tırdatın hüzuruna gələn Qriqoru burada quyuya atırlar, 30 il orada qalandan sonra hökmdarın bacısı Xosrovduxt onu xilas edir. Qriqor alban və iberlərin ölkəsinə gedib xristianlığı yayır, Amarasda kilisə tikir. Nəvəsi Qriqoris 15 yaşında Albaniya və İberiyanın yepiskopu olur, lakin 337-də maskutlar ölkəsində öldürülür.[1087] Beləliklə, Alban elinin ilk patriarxı sayılan Qriqoris partsoylu Qriqorun nəvəsi idi.

Xristianlığı 306-da qəbul edən Alban elbəyi Urnayr 320-ci illərdə bu dini rəsmi dövlət dini elan edir, kilisələr tikdirib onlara pay torpağı ayırır, kilisələr üçün vergi təyin edir. V əsrin əvvəlində, Esvalen elbəyin vaxtında qarqarlar üçün əlifba yaranır və katolikos Yeremiya kilisə ədəbiyatını «albanların» dilinə tərcümə edir. III Vaçaqanın dövründə isə dini məktəblər açılır, 21 maddəli Aluen qanunu qəbul olunur, kilisə təşkilatı və xristianlıq institutu möhkəm sistemə oturdulur. Alban elbəyi hakimiyəti altında olan Artsax əhalisini xristianlığa dəvət edir. Zaxari Ritorun yazdığına görə, Aran (Alban) yepiskopu Kardost 14 il xristianlığı hunlar arasında təbliğ etmişdir.[1088] Alban yepiskopu İsrayıl da 684-də xəzərlərin arasında bu dini yayır. Alban elinə gələn hun yepiskopu *Yunan* haqqında bilgi verən alban yazarının özü də qatı xristianpərəst idi. Kəngər, qarqar, quqar və sair qıpçaq boylarının Alban elində xristian dininə tapınmasını sərgiləyən bəlgələr vardır.

Alban elbəylərinin qərargahı ölkədə gedən siyasi olaylar üzündən Qəbələdən Bərdəyə köçürüldüyü kimi, Alban katolikosluğu da Çoladan Bərdəyə, sonralar isə Berdakun, Qanzasar dini mərkəzləri üzrə bir neçə

---

[1087] Kalankatlı, I. 14; Güman ki, Beyləqanda *Cərciş* (Qriqoris) tapınağı ona aiddir.

IV əsrin ilk yarısında Alban elbəyi Sanesan (Sanatruk) öncə xristianlığı qəbul etsə də, sonra bundan imtina etmişdi. Sanesanın xristianlığı qəbul etmiş oğlanları Movses, Daniel, Yelia adlanır (Kalankatlı, II. 5); Bu ərsaqsoylu elbəyin adı *Sanesan* və *Sanatruk* şəklində də yazılır. Qutsal Qriqorisi öldürdən maskut elbəyi kimi verilən bu Sanatruk kimi, apostol Faddeyi öldürən hay taqavoru da *Sanatruk* adı ilə qeyd olunur (I. 6); Görünür, yanlış hay qaynağından istifadə edən alban yazarı bu son adı dolaşıq salmışdır.

[1088] Тревер, 1959, 22.

dəfə dəyişilmişdir. Sasani şahı II Yəzdigird (438-457) Alban elində Zərdüşt dinini yaymaq üçün bura 300 maq göndərir. Bu kahinlərin təzyiqinə dözməyən II Vaçe taxt-tacı buraxıb hakimiyətdən əl çəkir, ölkəni başçız qoyb monastıra çəkilir və zahidlik edir.

Alban elində xristianlıq IV əsrdə rəsmi dövlət dini statusu alana qədər artıq bəzi bölgələrdə ayrı-ayrı icmalar bu dinə tapınırdı. Stepan Orbeliyə görə, Sünik və Ordubad bölgələrinə Azərbiqan elindən keçən Varfolemey burada xristianlığı yayırdı. Yuxarıda deyildiyi kimi, Alban tarixçisi yazır ki, apostol Faddey burada *üçqat müqəddəs Qriqor* gələnə qədər xristianlığı yaymışdı. Göründüyü kimi, I-III əsrlərdə Alban elinə Qüdsdən (Yerusəlim) sirofil yönümlü, IV-VI əsrlərdə isə Bizansdan qrekofil yönümlü xristianlıq gətirilmişdir.

Alban elinin Azərbiqan ilə qonşu olan güney-doğu bölgələrindəsə nestorian təriqəti yayılmışdı. İber və Alban elində İsanı insan, həmçinin tanrıoğlu sayan diofizit, Ermənıyədə isə İsanı yalnız tanrı sayan monofizit görüş vardı.[1089] Qarabağın bəzi bölgələrində monofizitlər hayların dini mərkəzi tərəfindən dəstəklənirdi. Əslində, dini icmaların haylaşmasına çalışanların güddüyü siyasi məqsədi gerçəkləşdirmək üçün dindən istifadə olunurdu. Bu barədə vaxtilə N. Adonts da yazırdı: «Ermənilərin kilisələri milliləşdirmə uğrunda apardığı ağır mübarizə əslində siyasi-inzibati bölgə (*naxararlıq*) normalarının kilisə mühitinə oturdulması ilə gerçəkləşdirilirdi».[1090] Hay katolikosu İliyanın alban kilisələrinin Bizans yönümlü olması haqqında xəlifə Əbdülməlikə (685-705) yazdığı məktub və xəlifənin ona cavab məktubu «Alban tarixi» kitabında verilmişdir:

> «İndi Bərdədə oturan Alban katolikosu Bizans imperatoru ilə sazişə girib öz ibadətlərində onun adını çəkir, hamını məcbur edir ki, onun dini etiqadına qoşulsun. İndi qoy bu sizə agah olsun və bu məsələ diqqətinizdən kənar qalmasın…»
>
> «Ey allah xadimi, ermənilərin katolikosu İliya! Sənin səmimi məktubunu oxudum, sənin yanına böyük qoşunla öz sədaqətli nökərimi göndərirəm. Əmr etmişəm ki, bizim hökmranlığımıza qarşı qiyam edən albanlar arasında *sizin dininizə uyğun* dəyişiklik edilsin».[1091]

---

[1089] İsa peyğəmbəri tanrı, ruh və insan təbiətinə malik olduğunu irəli sürən diofizitlərdən fərqli olaraq, onu yalnız tanrı sayan monofizitlər arasındakı mübahisələri çözmək üçün 451-də Xalkedon məclisində monofizit təriqəti pislənmişdir.

[1090] Адонц, 1971, 212.

[1091] Kalankatlı, III. 5-6.

Hay keşişilə xəlifənin işbirliyi nəticəsində Alban katolikosu Nerses Bakur buxovlanaraq Tərtər çayına atılır, alban kitabları yandırılır, alban kilisəsi ermənilərin dini rəhbərliyinə tabe etdirilir. Sonralar Alban kilisələri bəzi çağlarda erməni katolikosluğundan ayrılaraq müstəqil fəaliyət göstərə bildi, hətta alban Mxitar Qoşun yazdığı «Qanunlar» dünya xristian kilisələri üçün örnək oldu, ancaq zaman-zaman erməniləşmə olayı da güc gəlirdi.

Yuxarıda «Azərbiqan eli» bölməsində Erməniyə vilayətində xristianlığın yaylması ilə *erməni* adının əlavə «xristian» anlamı da qazandığını söyləmişdik. Belə ki, qriqoryan məzhəbli haylarla yanaşı, xristianlığın bu qolunu qəbul etmiş bir sıra türk, iran və qafqazdilli boylara da «erməni» deyilmişdir. Ərəb istilasından sonra qriqoryan kilisələrə verilən imtiyaz, dini ədəbiyatın yayılmasında hay əlifbasına və hay dilinə verilən üstünlük belə «ermənilərin» haylaşması prosesinə təkan verdi. Özəlliklə, Qarabağ (Arsaq) ermənilərinin xeyli hissəsi haylaşdı, yalnız bəzi udilər öz dilini saxlaya bildi. İrəvan hayları indi də Qarabağ ermənilərinə, daha doğrusu, vaxtilə haya çevrilmiş albanlara *şurdvats hay* («dönmə hay») deyirlər.

KDQ-da «məlik» ünvanlı Şöklü məlik, Qıpçaq məlik, Sufi Sandal məlik, Qara Tükən məlik, Qara Aslan məlik, Buğacıq məlik, Ağ məlik kimi şəxslərin çoxu xristian türklərdir. Xristian türk boylarının yaşadığı bölgələrdə Əyrivəng, Şıxmurad, Qoşavəng, Makaravəng, Qaravəng kimi kilisə adlarında daha çox *vəng* sözü işlənir. Bunu da qeyd etmək lazım gəlir ki, islamaqədərki epiqrafik bəlgələr, kilisə ədəbiyatı yerli dillərdə idisə, artıq X əsrdən sonra bunların çoxu hay (qrabar) dilində yazılmışdır.

Avropaya köçüb Ukrayna və Polşada yerləşən qıpçaq «ermənilər» XVII əsrə qədər türk dilini saxlasa da, hay əlifbasından istifadə edirdilər. Belə xristian «erməni» icmaları irandilli boylar arasında da vardı. Hətta *erməni* adlanan irandilli xristian tatlar keçən əsrin ortalarına qədər Dəvəçinin Kilvər kəndində və Şamaxının Mədrəsə kəndində öz dilini saxlamışdı. Lakin bu kəndlərdə orta məktəblərin hay (erməni) dilində olması haylaşma (erməniləşmə) olayını tamamladı və artıq bir nəsil sonra yalnız bəzi qocalar tat dilində danışa bilirdi.[1092]

Beləliklə, Alban elində VIII-X əsrlər arasında islamlaşma prosesi getsə də, bəzi xristian irandilli, qafqazdilli və türk boyları hay kilisələri sayəsində dillərini itirib haylaşdılar. Bu olay daha çox Qarabağ məlikləri

[1092] *Salam Novruzov*. Azərbaycan dilinin Xızı tatlarının dilinə təsiri. 1958, 2 (əlyazma).

içində qabarıq idi və ona görə də Qarabağ ermənilərinin dialekti hayların dilindən xeyli fərqlənir. Alban elində etnik sınırların müəyyən edilməsinin çətinliyini vurğulayan A. P. Novoseltsev də yazır ki, bu bölgələrdə «erməniləşmə» prosesi sonralar getmişdir.[1093]


Alban çağı su qabları

Alban elində mədəniyyət təkcə xristian kulturu, kilisə ədəbiyatı timsalında deyil, söz-sənət ustalarının yaratdığı bədii əsərlərlə, müxtəlif incəsənət sahələrində, dulusçuluq, toxuculuq, ağac və metalişləmə sənətində çalışan sənətkarların yaradıcılığı ilə inkişaf edirdi. Burada müxtəlif yönlü xalq yaradıcılığı ilə bərabər, çeşidli xalı-xalçaları, pambıq, ipək parçaları, gil-saxsı və metaldan hazırlanmış müxtəlif fiqurlu su qabları, mis, tunc, dəmir, qızıl və gümüşdən düzəlmiş zərgərlik və məişət əşyaları, bəzəkli silah növləri yerli və bozqır sənətinin sintezindən yaranan sənətkarlıq nümunələri kimi seçilir. Alban dövlətinin mövcud olduğu tarixi boyunca albanların tətbiqi sənət nümunələrini İ. A. Orbeli ilə birlikdə tədqiq edən K. V. Trever yazır ki, IV-V əsrlərdə yüksək zövqlə hazırlanmış harmonik süjetli alban nəsnələri həmin dövrün iber, pers və erməni (hay)sənət əsərlərindən fərqlənirdi.[1094] Alban sənətkarlarının müxtəlif muzeylərdə saxlanan əsərlərində təkrar olunan naxışlar, fiqurlar və rəsmlər arasında ən çox nəzərə çarpan meyvə nardır. Dünya (*həyat*) ağacı da bir çox təsvirlərdə təkrar olunur. Qaynaqlarda Alban elindəki şairlər, ozanlar, musiqiçilər haqqında bilgi verilir, söz-sənət ustalarından bəhs edilir. Digər türk ellərində olduğu kimi burada da qopuz çalıb oxuyan el şairi ozanlar vardı. Haylar azər dilindəki *ozan* variantını deyil, part dilində işlənən *qosan* formasını aldığı üçün onu *qusan* (*գուսան*) şəklində işlədirlər. «Alban




[1093] Новосельцев, 1979, 11.
[1094] Тревер, 1959, 316.

tarixi» hay dilinə tərcümə ediləndə həmin variant verilmişdir. Aluen qanunu (12-ci bənd) ozanların yas məclisində ağı deməsinə qadağa qoyur. Alban elində ozanlar bayramlarda mahnılar oxuyar, xalq şənliklərində dastan söyləyərdilər. Alban tarixçisi yazır ki, Cavanşir ilin bayram günlərini yaylağa qalxıb ozan (*qusan*) mahnıları ilə müşayiət olunan şənlikdə keçirmək istəyirdi.[1095]

Qədim türk elbəyi Alpər Tunqa (Əfrasiyab) öləndə ona ağı yazıldığı kimi, Cavanşirin ölümünə də onun saray şairi *Davtak* ağı demişdir. Bu şairin hansı boydan olmasını M. Kalankatlı qeyd etmir, lakin alban yazarı Mxitar Qoş Aranda türkmən tayfa başçıları Qurbuqay və Tutaklı adlarını çəkəndə Tutakın *tutaklılar* (tutakeank) soyundan olduğunu vurğulayır.[1096] Tutak ilə Davtak adları arasında yaxınlıq görünür. Belə ki, hay yazısında *Դաւթակ* (Davtak) və *Դութակ* (Dutak) adlarının yazılışında bir oxşarlıq da vardır.

Nəzərə almaq lazımdır ki, başqa-başqa dillərin yazısında alban sözləri, özəlliklə onomastikası çox vaxt təhrif olunmuş şəkildə yazılır. Belə təhriflərin müxtəlif səbəbləri vardır ki, bunlardan biri də həmin dillərdə spesifik alban (türk) danışıq səslərinin və belə səsləri bildirən hərflərin olmamasıdır.[1097] İkinci bir səbəb alban boybirliyinin tərkibində müxtəlif dialektlərdə danışan türk boylarının olması idi. Belə ki, part və azər dillərində özünü göstərən bəzi fərqlər alban dialektlərində əks olunmuşdur: o/u dialekt fərqi *Oroz-Uruz, yorğan-yurğan*, d/z dialekt fərqi isə *Orod-Uruz, Adərbiqan-Azərbiqan* deyimlərində aydın görünür.

Alban çağında yerli və gəlmə türk boylarının danışığında olan müəyyən fərqlər də formalaşmaqda olan azər dilində öz izini qoymuşdur. Təkcə *qamərli* etnonimində baş verən dəyişikliyə baxsaq, onun a/ı fərqi ilə *qamərli >qımırlı,* q/k, a/ə fərqləri ilə *qamərli >kəmərli* fonetik dəyişmələrini görə bilərik. Eyni durum p/b fərqi ilə *alpan-alban, kaspi-kazbi* etnonimlərində və s/ş fərqi ilə *Arsak* (*Ἀρσακης*)-*Arşak* adlarında, *sirak-şirak, saqat-şaqat* etnonimlərində əks olunmuşdur. Bundan başqa, azər dilinin daxilində baş verən fonetik dəyişmələrlə, yaxud fars sözdüzümü

---

[1095] Kalankatlı, II. 26; II. 34.

[1096] Гош, 1960, 16.

[1097] Məsələn, yuxarıda *çol* boyundan danışarkən onların batıya köçmüş türklərin içində göryndüyünü qeyd etmişdik. Keçmişdə Qafqazda xeyli *Çullu* etnotoponimi vardı. Əgər çul//çol boyadı *çöl* anlamındadırsa, onda demək olar ki, çul//çol variantları dilində və yazısında «ö» səsi//hərfi olmayan xalqların deyimi, yazısı ilə ortaya çıxmışdır.

ilə deyilən bəzi adlar da tanınmaz şəkilə düşür: *Siraq eli* (Şirak eli) > *Şörəyel, Saqat çuxuru > Çuxur səəd, Saqat piri > Pirsaat* və sairə.[1098]

Alban elində kilisə ədəbiyatı xristian boyların dilinə aramey-yunan dillərindən tərcümə olunur, burada xristianlığı qəbul edən türk və qafqazdilli boylara dini ayələr öz dillərində öyrədilirdi. Bunun üçün hər boyun dilinə uyğun əlifba düzəltmək zərurəti yaranmışdı. «Alban dilinin qarqar dialekti» deyimini işlədən K. V. Trever yazır ki, qaynaqların verdiyi tutarlı bəlgələrə görə V əsrdə albanların sərbəst istifadə etdiyi öz əlifbası vardı.[1099] İber boylarının ilk yazı növündən biri «ordu yazısı» anlamında *mxedruli* adlanır ki, bu da türklərin *bahadır* (baxadur-lu) sözüdür.

Ön Asiyada I minilliyin ortalarından sonra aramey (suriya) dili və aramey yazısı geniş yayılmışdı. Görünür, Part eli çağında Alban ölkəsinə gəlib çıxan bu yazı gələnəyi elita içərisində və ticarət sahəsində də istifadə olunmuşdur. Hər halda, Albaniyada xristian ədəbiyatın yayılmasına xidmət edən «Qarqar əlifbası» xəzərlərin istifadə etdiyi qədim türk runik əlifbası idi, çünki hay tarixçisi M. Xorenatsi yazır ki, qarqarlara yabanı (bozqır) ağxəzərlərin yazısına uyğun əlifba tərtib edilmişdir. İstəxri də xəzərlərin *ağxəzər* və *qaraxəzər* qollarına ayrıldığını yazırdı. Belə ki, hun, qıpçaq, qoyunlu və sair türk boyları kimi, xəzərlər də *qara-xəzər* və *ağxəzər* adı ilə fərqlənirdilər.

Vaxtilə azər diasporunun Türkiyədə görkəmli nümayəndələrindən biri olan Mirzə Bala yazırdı ki, Albaniyanın türk məmləkəti olması onun etnik tarixi öyrənildikcə daha ziyadə anlaşılacaqdır.[1100] Lakin Bakıda «rus başlı» tarixçilər etnik tarixi öyrənmək əvəzinə ortaya elmdən uzaq fərziyə və tezizlər atmaqla işlərini bitmiş saydılar. Azərbaycan Tarix institunun nəşr etdiyi 7 cildlik «Azərbaycan tarixi» (1988) Alban elinin dili haqqında bunu verir: «Heç şübhəsizdir ki, özündə 20-dən artıq tayfanı ehtiva etmiş alban (alban-uti) aborigen etnik massivi Qafqaz Albaniyasının əpazisində əsas və üstün massiv olmuşdur». Bu üstün «massivə» aid bircə dənə söz tapıb nümunə göstərə bilməyən həmin tarixçilər hətta elmdən uzaq bu «tarixi kəşfi» böyük naşılıqla dünya dilçilik elminə də sırımaq istəmişlər:

---

[1098] Hələ prototürk dövründən mövcud olan bir (Ø~q) dialekt fərqi Alban çağına qədər sözün ilk səsində davam etmişdir: *az~kaz, azər~xəzər*. Lakin sözortası mövqedə görünən Ø~q fərqindən danışarkən söhbət dialekt fərqindən deyil, q~x~h >Ø fonetik dəyişməsindən gedə bilər: *saqat >saxat >sahat >saat.* Saatlı boyadı da belə yaranıb.

[1099] Тревер, 1959, 49, 309.

[1100] Mirza Bala, 1951, 8.

«Burada yada salmaq lazımdır ki, alban dili Şimali Qafqazdan başlamış Aralıq dənizindəki adalaradək olan vilayətlərin sakinlərinin danışdıqları dillər ailəsinə aiddir».[1101] Halbuki, dilçilik elmi belə bir abstrakt dil ailəsi tanımır, göstərilən bu böyük ərazidə isə bir neçə (qafqaz, hindavropa, türk, sami) dil ailəsinə mənsub xalqlar yaşayırdı.

Xəzər dilindən qalmış sözlərin hansı türk dialektinə yaxın olması bir tərəfdən xəzərlərin ilkin yurdunu müəyyənləşdirməyə yardım edirsə, digər tərəfdən Alban elində işlənən xəzər dilinin türk dilləri ailəsindəki qruplardan hansına aid olması məsələsinə aydınlıq gətirir. Əslində ayrıca xəzər dili olmamışdır, çünki xəzər toplumu müxtəlif dialektli türk boylarının birliyi idi, burada *yabqu* sözünü *çabqu* kimi deyənlər, *ovçu* sözünü *avçı* kimi deyənlər də vardı. Ona görə də *xəzər dili* yox, xəzərlərin *türk dili* ifadəsini işlətmək daha doğrudur. Bu dilin bulqar, çuvaş, yaxud oğuz, qıpçaq dillərinə yaxınlığı məsələsi türkologiyada mübahisəli olaraq qalır, onların dilini çuvaş dilinə aid edənlər də (Minorski, Bartold və b.) vardır. Lakin yazılı mənbələrdə qeyd olunmuş *tanqrı//tenqri* kimi kiçik fərqləri nəzərə almasaq, Xəzər elində danışılan dildən bəlli sözlərin əksəriyəti bugünkü azər dilindəki formasından fərqlənmir. Qaynaqlar bu dildə işlənən bir sıra şəxsadı, titul və digər sözləri qeyd etmişdir: *Bolqaçı, Çiçək, Avçı, Papaçı, Barçıl, Sitit, Elçi, Ataç, Buka, Uma, Anquş, Bulan; xaqan, xatun, yabqu, bək, iltebər, tarxan, şad, tudun; Tenqrixan, baqatur, kara, ak (ağ), sarıq, qonaq, çöpçü, tabaq, semiz* və sairə. Xəzərlərin dilindən xeyli nümunə verən P. B. Qolden tərkibində *alp* və *tarxan* sözü olan Alp Tarxan, As Tarxan, Alp İlutver (Eltəbər), Avçı Tarxan, İl Tarxan kimi çoxlu ad sadalayır.[1102]

Göründüyü kimi, arxeoloji və tarixi bəlgələrlə bərabər, dil faktoru da xəzər (azər) boylarını Azərbaycanla bağlayır. Ərəblərin Azərbaycana ayaq açdığı çağlarda «Araz qırağındakı Beyləqanda bir iranlı kəndlinin *xəzər* dilində səlis danışması» (əl-Kufi) faktı xəzərlərin danışdığı dilin o

---

[1101] AT, 1988, 334-335.

[1102] Golden, 1980; Azərbaycan əhalisinin *azər* dilində danışdığını qeyd edən ərəb-fars mənbələrinə və *Azari* bölgəsini m.ö. VIII əsrdə Urmu gölü ilə Kərkük arasında göstərən asur qaynağına əsaslanıb, xəzərlərin ilkin Ata yurdunun Azari və ona yaxın qədim *Bars bölgəsi* olduğunu söyləmişdik. Asup, Urartu yazılarında *Parsua//Barşua* şəklində verilən həmin bölgə Mana çarlığının tərkibində idi və burdan çıxıb, Quzey Azərbaycana, oradan da Quzey Qafqaza gedən *barsil-xazar* boyları burada ikinci *Barsil-Xəzər* ata yurdunu salmış, bu yeni yurdda minil sonra digər soydaşlarını toparlayıb, müəyyən çağlarda Alban elini də içinə alan qüdrətli Xəzər imperiyasını qurmuşdular.

dövrdə xalq arasında geniş yayıldığını göstərir. Burada xəzər (azər) dili təkcə irandillili boyların deyil, qafqazdilli boyların da ümumünsiyət vasitəsi kimi istifadə etdiyi uluslararası türk dili idi. «Kartli tarixi» bu çağda Tiflisdə danışılan dillər sırasında *xəzərlərin dilini* (xazaruli) də qeyd etmişdir.[1103]

Alban (azər) dilindən batı qonşuluqda yaşayan hayların dilinə xeyli söz keçmişdi. Hay taqavoru III Tırdatın oğlu II Xosrovun boyu qısa olduğundan Kotak adlanırdı. Buradakı *kotak* ləqəbi türkcə *gödək* sözüdür.[1104] Xosrovun sərkərdəsi də *Dədəbəy* (Databey) türk adını daşıyırdı.[1105] Azər dilinin tarixi və azər-hay dillərinin əlaqəsi baxımından hay dilinin qrabar dövründə işlənən türkizmlərin tədqiqi olduqca gərəklidir.[1106]

Bəzi hay qaynaqlarında «albancadan hay dilinə tərcümə olunmuş» yazılar haqqında bəlgələr vardır.[1107] Ən böyük bəlgələrdən biri elə «Alban tarixi» kitabıdır. Belə ki, alban (türk) dilindən hay dilinə tərcümə olunan bu əsərdə türkcə xeyli söz saxlanmışdır. Lakin əsərin tekstoloji tədqiqilə türkoloqların deyil, hayşünasların məşğul olması hələ də bəzi türkizmlər haqqında məlumat qıtlığına səbəb olmuşdur.

Əsərdə türk sözləri iki müxtəlif kontekstə işlənir; biri xəzər, barsil, hun və sair türk boyları ilə bağlı mətnlərdə, digəri isə Alban elinin öz daxili yaşamı ilə bağlı mətnlərdə. Tədqiqatçılar birinci mətndə türkizmləri asanlıqla müəyyən edirlər, lakin ikinci tip mətnlərdə xüsusi araşdırma aparmaq lazım gəlir. Bu baxımdan, albanların işlətdiyi *buyuruq* və *ayaq-yalın* sözləri diqqəti çəkir.

Yuxarıda qeyd etdiyimiz kimi, Aluen məclisində qəbul olunan qanunu elbəyin fərmandarı (*arkayi hramanatar*), minbaşı (*hazarapet*), boy başçıları (*azqapetk*), buyuruq (*pyuroq*), digər vilayət başçıları (*nahapetk*)

---

[1103] КЦ, I t. 1955, 16.

[1104] ЭСТЯ, 1980, 59-60.

[1105] Адонц, 1971, 286.

[1106] Qrabarda rast gəlinən mənşəyi bəlirsiz bəzi titulların etimoloji təhlilinə ehtiyac vardır. Belə ki, torpaq sahibi bölgə başçısını bildirən *toparx* (toprax?) titulu, bölgə//ölkə başçısının adına qoşulan *işxan* titulu mənşəyi bilinməyən sözlər kimi verilir. Ola bilər ki, *işxan* türkcənin yerli başçı anlamında «*iç xan*» sözünün təhrif olunmuş formasıdır. Partların davamçısı olan türk boylarında islamı qəbul edəndən sonra bu söz *işan* (işhan) formasına düşüb, müridləri olan sufilərin (başçının) adına qoşulmuşdur. Türküstan tarixindən bəllidir ki, Əndicanda ruslara qarşı «Dükçi İşan üsyanı» (1898) olmuşdur.

[1107] Мамедова, 1986, 42.

və əsilzadələr (*azatk*), həmçinin elbəyin özü möhürü ilə təsdiq edir.[1108] Göründüyü kimi, sənədə imza atanların əksəri dövlət adamlarıdır və bu sırada türk dövlətçilik gələnəyində mühüm yer tutan *buyuruq* (*փիւրուղ*) titulunu daşıyan adamın da olması təbiidir. Alban elbəyi III Vaçaqanın çayı *ayaqyalın* keçməsi əsərdə *ağelun* (*ագելուն*) şəklində yazılmışdır.[1109] Qədim dillər üzrə tanınmış mütəxəssis olan tarixçi Y. Yusifov M. Kalankatlının işlətdiyi bu deyimin doğru olaraq, azər türkcəsində *ayaqyalın* sözü olduğunu yazmış və bunu təsdiq edən etnoqraf Q. Ə. Qeybullayev ziyarət vaxtı icra olunan bu etnoqrafik gələnəyi geniş şərh etmişdir.[1110]

«Alban tarixi» çöpçü, tabaq (sac), türgən (çapar), tudun, şad, tarxan kimi bir neçə xəzər-azər sözünü saxlasa da, bəzi adlar və sözlər hay dili tələffüzünə uyğun verildiyindən onları mətndə seçmək bir qədər çətinləşir. Belə ki, Aluen məclisinə qatılan rahib Polos (*Պօղոս*) «*göyçaylı*» kimi verilmiş və Göyçay adı bəzi nüsxələrdə *geogçay//gevgçay* (*գեւգճայ*) və *gegaçay* (*գեգաճայ*) şəklində yazılmışdır (I. 26). Toponimlərdən biri də əsərdə Tərtər çayının vadisində *clax* (*Ջղախ*) kimi verilən Çaylaq adıdır, burada Tərtər adı da *trtu* (*տրտու*) şəklində yazılmışdır (I. 28; II. 29-30). Böyük Aran toponimi isə ayrı-ayrı nüsxələrdə *metsaran* (*մեծարան*) və *metsiran* (*մեծիրան*) formalarında verilmiş, Qatarvəng və ya Qoturvəng monastr adı da *katarovanq* (*կատարո վանք*) və *kotoroyvanq* (*կոտորոյ վանք*) şəkillərində yazılmışdır (II. 5, 29).

«Alban tarixi» kitabında qoyunçuluqla bağlı hay (qrabar) dilinə türklərdən keçmiş *koy, qoç, qoçqar, pənir* sözləri də əks olunmuşdur. Qırğız

---

1108 Kalankatlı, I. 26; «Alban tarixi» əsərinin ayrı-ayrı nüsxələrində həmin qanunu təsdiqləyənlərin adı müxtəlif formalarda yazılmışdır: «Bu sənədə möhür basdılar: elbəyin fərmandarı Mutsin (Mutsik), minbaşı Mirharik (Mirhorik), boy başçıları: Marut (Maruk, Maru), Tirazq (Tirazd, Tirolq), Sparakos (Sprakos, Asparakos), Şama (Ğama), Bakur, Aradan, Arces (Arşes), Qoç (*kac*) Vartan, Girdımanın sahibi Xors Bermusayn (Bermusan, Germanosan), Xosken (xoskean) buyuruq və Alban elinin digər nahapet və azatları. Alban elbəyi Vaçaqan da bu qanunu öz mbhürü ilə təsdiq etdi» (Kalankatlı, 1983, 94); Mətndəki «*xoskean buyuruq*» sözlərindən birincisi əgər şəxsadı deyilsə, onda həmin sözün hayca «sözçü» anlamına uyğun bütöv deyim «*sözçü buyuruq*» olur.

1109 Əlyazmanın bəzi nüsxələrində bu deyim *ագելեաւն* [aqeleaun] və *ագելուն* [aqelun] şəklində yazılmışdır (Kalankatlı, 1983, 74); Bu deyimdə ayaqyalın > aqyelun > aqelun fonetik dəyişmələri hay dilinin özündə getmişsə, onda *ayaqyalın* sözünün hay (qrabar) dilinə keçdiyini düşünmək olar. Lakin bu da mümkündür ki, əsəri qrabara tərcümə edən *ayaqyalın* sözünün anlamını bilmədiyindən onu ilkin mətndə olduğu kimi saxlamışdır.

1110 Юсифов, 1974; Гејбуллајев, 1990, 51.

elində qıpçaq (azıq) boyunun yaşadığı *Koçkor* bölgəsinin adında görünən *qoçqar* sözü Alban bəyi Xoçkorikin (*koçkar-ik*) adında da vardır.[1111] Qoç sözü isə Qoç Koroğlu deyimində olduğu kimi *kac* (*քաջ*) şəklində «qoçaq, cəsur» anlamında Kaç Vaçaqanın adına qoşulmuşdur. V. Qukasyan Aluen qanununda keçən «qoyun» anlamlı *voçxar* (*ոչխար*) sözünün hay dilində qoçkar > xoçkar > voçxar fonetik dəyişmələrinə uğramasını yazmışdır.[1112] Tərcüməçi hayca «Qoyun buynuzu» anlamlı *Yelcur xoyi* (*Եղջիւր խոյի*) dağadında türklərin *koy* (qoyun) sözünü *xoy* (*խոյ*) şəklində işlətmişdir və pendir sözü də *panir* (*պանիր*) şəklində yazılmışdır.[1113]

Bəzi tədqiqatçılara görə Alban elində işlənən dillərdən biri də guya pers dili imiş. Lakin o dövrün alban yazarı M. Kalankatlı çox aydın yazır ki, Alban elinin katolikosu Viro pers şahı Xosrovun sarayında nəzarət altında 25 il yaşadığı üçün pers dilini öyrənə bilmişdi.[1114] Beləliklə, islamaqədər minil davam etmiş Alban elini quran və azər xalqının, azər dilinin formalaşmasında önəmli çəkisi olan albanların türklüyü şübhə doğurmur. Alban boyadı isə təkcə qədim Azərbaycanda deyil, doğu türklərin içində də yayğın idi. Vaxtilə tanınmış qazax alimi Çokan Valixanov da yazırdı: «Albanlar Böyük jüzün əsas boylarındandır».[1115]

Göründüyü kimi, Güney Qafqazda alban boylarının qurduğu Türk eli on əsrdən artıq yaşadı və bu uzun zaman axarında dövlətin qalxan və zəifləyib enən dövrləri də yaşandı. Alban elinin yarandığı çağda Azərbaycanın quzey və güney vilayətlərinin vahid dövlətə çevrilməsi üçün şərait yaranmışdı. Arazdan quzeydə və güneydə yaşayan protoazər boylarının arasında siyasi sınırlar yox idi, onların bir-birilə sıx etnik əlaqələri vardı Əgər m.ö. IV əsrdə İskəndərin yürüşündən sonra güneydə yaranan Azərbiqanla quzeydə yaranan Alban//Aran elləri ayrı-ayrı dövlətlər kimi yox, vahid dövlət kimi ortaya çıxsaydı, formalaşması bir neçə əsr geri düşən azər xalqı ayrı bir tarix yaşaya bilərdi. Ancaq hər bir insanın alın yazısı olduğu kimi, xalqların da yaşam haqqını, yaşam tarixini, yaşam taleyini bəlirləyən var. Doğrusunu isə dünyanı yaradan Uca Tanrı bilir.

(*III Bitiyin sonu*)

---

[1111] Qəbələ yepiskopu və Vaçaqanın saray keşişi *Manas* (qıpçaq) adını daşıyırdı.

[1112] Гукасян-Асланов, 1986, 28-29.

[1113] Kalankatlı, III. 21; I. 26.

[1114] Eyni qaynaq, II. 14.

[1115] Валиханов, II t. 1985, 377.

ƏDƏBİYAT


*Абаев В. И.* Скифо-европейские изоглоссы. М. 1965

*Абегян М.* История древнеармянской литературы. I т. Ереван, 1948

*Абрамзон С. М.* Из этнической истории киргизов. ТС, 1966

*Авдиев В. И.* История Древнего Востока. Л.1948; 1953

*Агаджанов С. Г.* Средневековые этимологии названия *туркмен*. «Проблемы этногенеза туркменского народа». Ашхабад, 1977

*Агафий.* О царствовании Юстиниана. М.-Л. 1953

*Адонц Н.* Армения в эпоху Юстиниана.СПб.1908; Ереван, 1971

*Адонц Н.* История Армении. Ереван, 1972

*Азерлу М., Мусеви Т., Ямпольский З.* О слове «Азербайджан». ЕА хəб., XXX c. 1974

*Акишев К. А.* Курган Иссык. Искусство саков Казахстана. М. 1978

*Акопян А. А.* Албания - Алуанк в греко-латинских и древнеармянских источниках. Ереван, 1987

*Алиев И.* История Мидии. Б. 1960

*Алиев И.* О скифах и скифском царстве в Азербайджане. ПС, III, 1979

*Алиев И.* Очерк истории Атропатены. Б. 1989

*Алиев И.* Нагорный Карабах: История, факты, события. Б. 1989 а

*Алиев К.* Античная Кавказская Албания. Б. 1992

*Алияров С. С.* Об этногенезе азербайджанского народа (к постановке проблемы). «К проблеме этногенеза азербайджанского народа», Б. 1984

*Аманжолов А. С.* К генезису тюркских рун. ВЯ, №2, 1978

*Антонов Н. К.* Лекции по тюркологии. Якутск, 1976

*Аполлодор.* Мифологическая Библиотека. Л. 1972

*Араратский А.* Жизнь Артемия Араратского. М. 1980

*Аристов Н. А.* Опыт выяснения этнического состава киргиз-казаков Большой Орды и каракиргизов. ЖС, №3-4, 1894

*Аристов Н. А.* Заметки об этническом составе тюркских племен и народностей и сведения об их численности. ЖС, №3-4, 1896

*Армянская география* III века по Р.Х. СПб. 1877

*Артамонов М. И.* К вопросу о происхождении скифов. ВДИ, №2, 1950

*Артамонов М. И.* История Хазар. Л.1962

*Артамонов М. И.* Происхождение скифского искусства. СА, №4,1968

*Арутюнян П. Т.* Борьба армянского и азербайджанского народов в 20-х гг. XVIII века за присоединение к Росии. «Уч. Зап. Ин-та вост. АН СССР», т. III., 1951

*Арутюнян Б. А.* Административное деление закавказских владений сасанидского Ирана согласно труду Елишэ. «Кавказ и Византия», вып. 1, Erevan, 1979

*Арутюнян Н. В.* Биайнили (Урарту). Ереван, 1970

*Арриан.* Поход Александра. М.-Л. 1962

*Арцеховский А. В.* Основы археологии. М. 1955

*Асадов Ф. М.* Арабские источники о тюрках в раннее средневековье. Б. 1993

*Атаниязов С.* Словарь туркменских этнонимов. Ашхабад, 1988

*Афанасьева В. К.* Гильгамеш и Энкиду. М. 1979

*Ахмеров Р. Б.* О клеймах керамических мастеров эллинистического Херсонеса. ВДИ, №3, 1951.

*Ашурбейли С.* Государство Ширваншахов (VI-XVI вв). Б. 1983

*Бабаев И. А.* Города Кавказской Албании в IV в до н.э. - III в н.э. Б. 1990

*Багратиони Т.* История. (История, написанная сыном царя Грузии Георгия XII). СПб. 1848

*Багрянородный К.* Об управлении империей. М. 1989

*Базен Л.* Концепция возраста у древних тюркских народов. ЗТ, 1986

*Бакиханов А.* Гюлистан-и Ирам. Б.1991

*Балаев А., Камбаров И.* К вопросу о «мидийском» языке. АФМ, III, 1991

*Бар-Эбрей.* Всеобщая история. (Пер. Р.А.Гусейнова). Б. 1960

*Бартольд В. В.* Место прикаспийских областей в истории мусульманского мира. Б. 1925

*Бартольд В. В.* Сочинения. I-V т. М. 1968

*Баскаков Н. А.* Введение в изучение тюркских языков. М. 1969

*Баскаков Н. А.* Тюркская лексика в «Слове о полку Игореве». М. 1985

*Бахарлы (Велиев) М. Г.* Население Азербайджана - музей этнографических сокровищ. АНК, 1923

*Бейлис В. М.* К вопросу о конъектурах и о попытках отождествления этнонимов и топонимов в текстах арабских авторов IX-XIII вв. о Восточной Европе. «Восточное историческое источниковедение и специальные исторические дисциплины», вып.1. М. 1989

*Белицкий М.* Забытый мир сумеров. М. 1980

*Бернштам А. Н.* Историческая правда в легенде об Огуз кагане. СЭ, №6, 1935

*Бернштам А. Н.* Очерки истории гуннов. Л. 1951

*Бертагаев* Т. А. Об этимологии *хăн-хаган, хатун* и об их отношении к *хăт*. ТИ, 1976

*Бикерман Э.* Государство Селевкидов. М. 1985

*Бичурин Н. Я. (Иакинф).* Собрание сведений о народах обитавших в Средней Азии в древние времена. М.-Л. (I-III том) 1950, (III том) 1953

*Благова Г. Ф.* Вариантные заимствования *турок~тюрк* в русском языке. ТС, 1972

*Блашкович Й.* Топонимы старотюркского происхождения на территории Словакии. ВЯ, №6, 1972

*Будаев А. Ж.* Скифо-Карачаево-Балкарские лексические схождения. «Вопросы тюркских языков и взаимоотношения их с другими языками». Б. 1972

*Бузанд Ф.* История Армении Фавстоса Бузанда (Пер. *М.А.Геворгяна*). Ереван, 1953

*Буниятов З. М.* О длительности пребывания хазар в Албании в VII-VIII вв. «ЕА хәб.», №1, 1961

*Буниятов З. М.* Государство Хорезмшахов-Ануштегинидов (1097-1231). М. 1986

*Богушь С. С.* История царства Херсонеса Таврийского. СПб.1806
*Борисов А. Я.* Надписи Артаксия (Арташеса), царя Армении. ВДИ, №2, 1946
*Бромлей Ю. В.* Очерки теории этноса. М.1983
*Брук С. И.* Население мира. Этнодемографический справочник. М. 1981
*Валитова А. А.* О некоторых терминах в «Кутадгу Билиг». «Краткие сообщения института народов Азии», №63, М. 1963
*Валиханов Ч.* Собрание сочинений в пяти томах. Том 2. Алма-Ата, 1985
*Вамбери А.* Путешествие по Средней Азии. М. 1874
*Васильев Д. Д.* Тюркская руническая надпись из окрестности Баян-Кола. СТ, №3, 1976
*Велиев С.* Древний, древний Азербайджан. Б.1983
*Вильчевский О. Л.* Курды. Введение в этническую историю курдского народа. М.-Л. 1961
*Виноградов В. Б., Дударев Л. С., Рунич А. П.* Киммерийско-Кавказские связи. «Скифия и Кавказ», Киев, 1980
*Войтов В. Е.* Каменные изваяния из Унгету. ЦА, М. 1987
*Волкова Н. Г.* О названиях азербайджанцев на Кавказе. ОВ,1980
*Волков И. М.* Арамейские документы иудейской колонии на Элефантине V в. до Р. Х. М. 1915
*Востров В. В., Муканов М. С.* Родоплеменной состав и расселение казахов (конец XIV-начало XX в.). Алма-Ата, 1968
*Гадло А. В.* Этническая история Северного Кавказа IV-X вв. Л. 1979
*Гаджиев А. Г.* Древнее население Дагестана. М. 1975
*Галонифонтибус И.* Сведения о народах Кавказа (1404 г.). Б. 1980
*Гамкрелидзе Т. В., Иванов Вяч.Вс.* Индоевропейский язык и индоевропейцы. I-II т. Тбилиси. 1984
*Ганзакецu К.* История Армении. М.1976
*Гарипова Г. Ф.* Исследования по гидронимии Татарстана. М.1991
*Гасанов З. Г.* Царские скифы. 2002
*Гашимова У. Ф.* Одонтологическая характеристика современного населения Азербайджана. ВА, вып. 60, 1979
*Гейбуллаев Г.* К этногенезу азербайджанцев. Б. 1991
*Гельб И. Е.* Опыт изучения письма. М. 1982
*Герни О. Р.* Хетты. М. 1987
*Геродот.* История в девяти книгах. Л. 1972
*Геюшев Р. Б.* Христианство в Кавказской Албании. Б. 1984
*Гёр-оглы.* Туркменский героический эпос. М. 1983
*Гильом де Рубрук.* Путешествие в восточные страны. М. 1957
*Гиоргадзе Г. Г.* К вопросу о локализации и языковой структуре каскских этнических и географических названий. ПС, 1961
*Гош М.* Албанская хроника. (*Перевод З. М. Бунятова*). Б. 1960
*Гракав Б. Н.* Скифы. М. 1971

*Грантовский Э. А.* Ранняя история иранских племен Передней Азии. М. 1970
*Грантовский Э. А.* О распространении иранских племен на территории Ирана. ИИГК, 1971
*Гричан Ю. В.* Новые материалы по изобразительному искусству Горного Алтая. ТВИБИС, 1987
*Грозный Б.* Хеттские народы и языки. ВДИ, №2, 1938
*Грязнов М. П.* К вопросу о сложении культур скифо-сарматского типа связи с открытием кургана Аржан. КСИА, вып.154, 1978
*Гукасян В., Асланов В.* Исследования по истории азербайджанского языка дописьменного периода. Б. 1986
*Гумбатов К. Н.* Забытые курганы. Происхождение азербайджанских тюрков. Б. 1998
*Гумилев Л. Н.* Хунну. М. 1960
*Гумилев Л. Н.* Открытие Хазарии. М. 1966; 2001 (II basqı)
*Гумилев Л. Н.* Тысячелетие вокруг Каспия. Б. 1999
*Гумилев Л. Н.* Древние тюрки. М. 1993
*Гусейнов Р. А.* Сирийские источники об Азербайджане. Б.1964
*Дандамаев М. А.* Иран при первых Ахеменидах. М. 1963
*Дандамаев М. А., Луконин В. Г.* Культура и экономика Древнего Ирана. М. 1980
*Дандамаев М. А.* Сакские матросы. «İranica antiqua», vol. XVII. Gent, 1982
*Дандамаев М. А.* Политическая история Ахеменидской державы. М. 1985
*Даниелян О. А.* Бронзовые кинжалы из памятников Ходжалы-Кедабекской культуры. АММ, X т. 1987
*Дашкевич Я. Р.* Армянские колонии на Украине в источниках и литературе XV-XIX веков. Ереван,1962
*Дашкевич Я. Р.* О создании корпуса древнерусских сообщений, посвященных тюркским народам. СТ, №6, 1984
*Дебец Г. Ф.* О принципах классификации человеческих рас. СЭ, № 4, 1956
*Дмитриева Л. В.* Этимологии географических апелятивов в тюркских и других алтайских языках. АЭ, 1984
Документы на половецком языке XVI в. М.1967
*Доманский Я. В.* Древняя художественная бронза Кавказа. М.1984
*Дорн Б.* Известия о хазарах восточного историка Табари. «Журнал Мин. Н.П.», ч. XLIII, № 78
*Дэвлет М. А.* Петроглифы Мугур-Саргола. М. 1980
*Дьяконов И. М.* История Мидии. М.-Л. 1956
*Дьяконов И. М.* Языки древней Передней Азии. М. 1967
*Дьяконов И. М.* Восточный Иран до Кира. ИИГК, 1971
*Дьяконов И. М.* К методике исследований по этнической истории («киммерийцы»). ЭПИЦАД, 1981
*Дьяконов И. М.* К праистории армянского языка. ИФЖ, № 3, 1983
*Дьяконов И. М.* Значение Эблы для истории и языкознания. ДЭ, М. 1985

*Дьяконов И. М.* Люди города Ура. М.1990
*Дьяконов И. М.* Архаические мифы Востока и Запада. М. 1990 а
*Дьяконов М. М.* Очерк истории древнего Ирана. М. 1961
*Джавахишвили А. И.* Строительное дело и архитектура поселений Южного Кавказа V-III тысячелетий до н.э. Тбилиси, 1973
*Джавахишвили И. А.* Основные историко-этнологические проблемы истории Грузии, Кавказа и Ближнего Востока древнейшей эпохи. ВДИ, № 4, 1939
*Джалалян Х. Е.* Краткая история страны Албанской (1702-1722). Б. 1989
*Джалилов Ф. А.* Гугары. «Ономастика Узбекистана». II вып. Ташкент, 1989.
*Джапаридзе О. М.* К этнической истории грузинских племен: По данным археологии. Тбилиси, 1976
*Джафаров Г.* О терминах третьей-десятой ступени родства по нисходящей линии в азербайджанском языке и их словообразовании. ЕЯ, № 2, 1971
*Джафаров Г. Ф.* Связи Азербайджана со странами Передней Азии в эпоху поздней бронзы и раннего железа. Б. 1984
*Джафаров Ю. Г.* Гунны и Азербайджан. Б. 1985; 1993
*Дёрфер Г.* Базисная лексика и алтайская проблема. ВЯ, №4, 1981
*Дульзон А. П.* Общее название реки у кетоязычных народов. «Уч.зап. Дальневосточного ун-та», вып 5, 1962
*Дюмезиль Ж.* Скифы и нарты. М. 1990
*Егоров В. Л.* Историческая география Золотой Орды XIII-XIV вв. М. 1985
*Еремян С. Т.* Нашествие киммерийцев и скифских племен и борьба Урарту и Ассирии против кочевников. ИФЖ, №2, 1968 (hay dilində)
*Еремян С. Т.* Шапотрена Птолемея в связи с историей скифского царства Прикаспийского побережья. Тбилиси,1966
*Еремян С. Т.* Страна «Махелония» надписи Кааба-и Зардушт. ВДИ, №4, 1967
*Есаян С. А., Погребова М. Н.* Скифские памятники Закавказья. М. 1985
*Есаян С. А.* Древняя культура племен Северо-Восточной Армении. Ереван, 1976
*Заблоцка Ю.* История Ближного Востока в древности. М. 1989
*Закиев М. З.* Татары. Проблемы истории и языка. Казань, 1995
*Закиев М. З.* Этногенез и основные вехи развития булгаро-татар в контексте «Запад-Восток». «Очерки по истории татарской культуры», Казань, 2001
*Захиди А. И.* Слова тюркского происхождения в современном арабском языке. АКД, Б. 1967
*Зифельдт-Симумяги А. Р.* К вопросу о языке хазар. СТ, №6, 1988
*Ибн Хордадбех.* Книга путей и стран. Б. 1986
*Иванов В. В.* Древневосточные связи этрусского языка. ДВ, 1988
*Исмаилов Г. С.* Археологическое исследование древнего поселения Баба-Дервиш. Б. 1977
*Исмизаде О. Ш.* Ялойлутепинская култура. Б. 1956
*Йакут ал-Хамави.* Му'джам ал-Булдан. (Сведения об Азербайджане). Б. 1983

*Кайдаров А. Т., Койчубаев Е. К.* К лингвистическому обьяснению топонима *казак.* «Вестник АН Каз.ССР, №2 (310), Алма-Ата, 1971

*Казвини Х.* Нузхат ал-Кулуб (Пер.*З. М. Буниятова и И. П. Петрушевского*). Б.1983.

*Канева И.* Сумерский язык. Санкт-Петербург. 1996

*Каланкатуаци М.* История страны Алуанк. Ереван, 1984

*Калинина Т. М.* Сведения ранних ученых Арабского халифата. М. 1988

*Канакерци З.* Хроника. М. 1969

*Канзакеци К.* История. Б. 1946

*Капанцян Гр.* Хайаса - колыбель армян. Этногенез армян и их начальная история. Ереван, 1947

*Каргалов В. В.* На степной границе. М. 1974

*Каримуллин А.* Прототюрки и индейцы Америки. По следам одной гипотезы. М. 1995

*Кармышева Б. Х., Кармышева Дж. Х.* Что такое Арка-Юрт? ОВ, 1980

*Карпов Г. И.* Историко-этнографические материалы по Туркмении и Ирану. «Изв. Туркм.филиала АН СССР», №3-4, 1945

*Касумова С. Ю.* Южный Азербайджан в III-VII вв. Б. 1983

*Касумова С. Ю.* Азербайджан в III-VII вв. Б. 1993

*Керам К.* Боги, гробницы, ученые. М. 1986

*Кестлер А.* Тринадцатое колено. Крушение империи Хазар и ее наследие. М. 2001

*Киланава Б. И.* К этногенезису грузин. (Роль фактов индоевропейских и тюркских языков в изучении этнонимов *картвел-и, егр-и, ибер-и, колх-и*). АФМ, 1983

*Кленгель-Брант Э.* Вавилонская Башня. М. 1991

*Климов Г. А.* Введение в кавказское языкознание. М. 1986

Клинописные тексты из Кюл-тепе. М. 1968

*Ковалевская В. Б.* Кавказ и Аланы. М. 1984

*Козырева Н. В.* Древняя Ларса. М. 1988

*Коковцов П. К.* Еврейско-хазарская переписка в Х в. Л. 1932

*Колосовская Ю. К.* К вопроу об агафирсах. ЭНБИСП, 1984

*Кононов А. Н.* Грамматика языка тюркских рунических памятников. Л. 1980

*Кораблев И. Ш.* Ганнибал. М. 1981

*Короглы Х. Г.* Огузский героический эпос. М. 1976

*Короглы Х. Г.* Депегёз и Полифем. СТ, №4, 1989

*Котович В. Г.* О местоположении раннесредневековых городов Варачана, Беленджера и Таргу. ДД, 1974

*Крамер С. Н.* История начинается в Сумере. М. 1965; 1991 (II basqı)

*Крамер С. Н.* Сумеры. Первая цивилизация на Земле. М. 2002

*Крымский А. Е.* Страницы из истории Северного или Кавказского Азербайджана (классическая Албания). Сб. «С. Ф. Ольденбургу», Л. 1934

*Крупнов Е. И.* Древняя история Северного Кавказа. М. 1960

*Ксенофонтов Г. В.* Эллэйада. Материалы по мифологии и легендарной истории якутов. М. 1977
*Ксенофонтов Г.* Хрестес. Шаманзм и христианство. Иркутск, 1929
*Ксенофонт.* Киропедия. М. 1976
*Ксенофонт.* Анабасис. Греческая история. М. 2003
*Кубарев В. Д.* Древнетюркские изваяния Алтая. Новосибирск, 1984
*Кубарев В. Д.* Курганы Уландрыка. Новосибирск, 1987
*Кузеев Р. Г.* Происхождение башкирского народа. М. 1974
*Латышев В. В.* Известия древних писателей греческих и латинских о Скифии и Кавказе. Ч. I-II, СПб., 1904-1906; ВДИ, 1947-1949; №2, 1952
*Липин Л. А.* Аккадский (Вавилоно-ассирийский) язык. Вып.II, Словарь. Л. 1957
*Лызлов А. И.* Скифская история. М. 1787
*Лесков А. М.* Курганы: находки, проблемы. Л. 1981
*Луконин В. Г.* Древний и ранневековый Иран. Очерки истории и культуры. М. 1987
*Мавродин В.* О появлении огнестрельного оружия на Руси. «Вестник Ленинградского университета», №3, 1946
*Маккуин Дж. Г.* Хетты и их современники в Малой Азии. М. 1983
*Малов С. Е.* Древние и новые тюркские языки. «Известия АН СССР», ОЛЯ, т. XI, вып. 2, 1952
*Малявкин А. Г.* Историческая география Центральной Азии. Новосибирск, 1981
*Малявкин А. Г.* Уйгурские государства в IX-XII вв. Новосибирск, 1983
*Малявкин А. Г.* Танские хроники о государствах Центральной Азии. Новосибирск, 1989
*Мамедов А.* Теоретические проблемы восстановления первичных корней в тюркских языках. АФМ, II, 1984
*Мамедов Т. М.* Албания и Атропатена по древнеармянским источникам. Б. 1977
*Мамедов Т.* Кавказская Албания. Б. 1993
*Мамедов Н. Х.* Значение данных талышского языка в изучении истории азербайджанского языка дописьменного периода. СТ, № 6, 1984
*Мамедова Ф.* «История Албан» Моисея Каланкатуйского как источник по общественному строю раннесредневековой Албании. Б. 1977
*Мамедова* Ф. Политическая история и историческая география Кавказской Албании. Б.1986
*Манандян Я. А.* Круговой путь Помпея в Закавказье. ВДИ, №4, 1939
*Манандян Я. А.* О некоторых проблемах истории древней Армении и Закавказья. Ереван, 1944
*Манандян Я. А.* О некоторых спорных проблемах истории и географии древней Армении. Ереван, 1956
*Марр Н. Я.* Избранные труды. III т. М. 1943
*Марко Поло.* Книга. М. 1955
*Марков Г. Е.* Кочевники Азии. М. 1976
*Мартиросян А. А.* Город Тейшебаини. Ереван, 1961

*Мартынов А. И.* Археология СССР. М. 1982
*Массон В. М.* Средняя Азия и Древний Восток. М-Л. 1964 а
*Массон В. М.* Поселение Джейтун. Л. 1971
*Массон В. М.* Первые цивилизации. Л. 1989
*Массон В. М.,Сарианиды В. И.* Среднеазиатская терракота эпохи бронзы. М. 1973
*Меликишвили Г. А.* Некоторые вопросы истории Маннейского царства. ВДИ, №1(27), 1949
*Меликишвили Г. А.* Наири-Урарту. Тбилиси, 1954
*Меликишвили Г. А.* К истории древней Грузии. Тбилиси, 1959
*Меликишвили Г. А.* О некоторых наименованиях металлов в древневосточных и Кавказских языках. ВДИ, №4, 1968
*Меликишвили Г. А.* Урартские клинообразные надписи. М. 1960; ВДИ, №3-4, 1971
*Меликсет-Бек Л. М.* Хазары по древнеармянским источникам в связи с проблемой Моисея Хоренского. ИПИКНВ, 1960
*Мен-да бэй-лу.* М. 1975
*Менгес К. Г.* Восточные элементы в «Слове о польку Игореве». М. 1979
*Мещанинов И. И.* Халдоведение. История древнего Вана. Б. 1927
*Мещанинов И. И.* К анализу имени Эримена. «Язык и мышление», I т. Л. 1933
*Мещанинов И. И.* Аннотированный словарь урартского (биайнского) языка. Л. 1978
*Мизиев И. М.* Шаги к истокам этнической истории Центрального Кавказа. Нальчик,1986
*Мизиев И. М.* История рядом. Нальчик, 1990
*Микеладзе Т. К.* Исследование по истории древнейщего населения Колхиды и юго-восточного Причерноморья XV-IV вв. до н. э. (АДД), Тбилиси, 1969
*Минорский В. Ф.* История Ширвана и Дербенда X-XI веков. М. 1963
*Мирзазаде Ч. Х.* О некоторых названиях Каспийского моря. ОК, 1976
*Мирзоев М.* К ранней истории касситско-вавилонского царства (нач. XVI- сер. XV вв. до н.э.). ТП, №1, 1997
*Мирзоев М.* Взаимоотнешения касситской Вавилонии с соседними государствами в XIV-XII вв. до н.э. ТП, №2, 1997
*Михаил Сириец.* Хроника. (перевод *Р. А. Гусейнова*). Б. 1960
*Молчанова О. Т.* Об елементе *ман* в топонимии Центра. «Топонимия Центральной Росии», М. 1974
*Молчанова О. Т.* Топонимический словарь Горного Алтая. Горно-Алтайск, 1979
*Моммзен.* Римская история. I-III т. М. 1887.
*Мровели Л.* Жизнь картлийских царей: Извлечение сведений об абхазах, народах Северного Кавказа и Дагестана. (Перевод и комментарии *Г. В. Цулая*). М. 1979
*Муравьев С.Н.* Пять античных свидетельств в пользу «птолемеевой» трансгрессии Каспия. ДГНТ СССР, 1986
*Мурзаев Э. М.* Избранная тюркская географическая лексика. ОВ, 1980
*Мурзаев Э. М.* Словарь народных географических терминов. М. 1984
*Мусаев К. М.* Лексикология тюркских языков. М. 1984

*Мухаммадиев А. Г.* Древние монеты Поволжья. Казань, 1990
*Нейхарт А. А*. Скифский рассказ Геродота в отечественной историографии. Л. 1982
*Немировский А. И.* Этруски. От мифа к истории. М. 1983
*Неру Дж.* Взгляд на всемирную историю. 1 т. М. 1981
*Никифоров Н. Я.* Аносский сборник Собрание сказок алтайцев Г.Н. Потанин. Омск, 1915
*Никонов В. А*. Этнонимия. «Этнонимы», М.1970
*Новосельцев А. П.* К вопросу о политической границе Армении и Кавказской Албании в античный период. «Кавказ и Византия», №1, Ереван, 1979
*Новосельцев А. П.* Хазарское государство и его роль в истории Восточной Европы и Кавказа. М. 1990
*Нуриев Э.* О названиях некоторых рек южного склона Большого Кавказа. АОП, 1990
*Овидий*. Скорбные элегии. Письма с Понта. М. 1978
*Оппенхейм А.* Древняя Месопотамия. М. 1990
*Ошанин Л. В., Зезенкова В. М.* Вопросы этногенеза народов Средней Азии в свете данных антропологии. Ташкент, 1953
*Пайазат А.* Ключ халдского языка. Эривань 1936 (hay və rus dilində)
*Пигулевская Н. В*. Сирийские источники по истории народов СССР. М.-Л. 1941
*Пиотровский Б. Б.* О происхождении армянского народа. Ереван, 1946
*Пиотровский Б. Б.* Кармир-Блур. I-II, Ереван, 1950-1952
*Пиотровский Б. Б.* Ванское царство (Урарту). М. 1959
*Плано Карпини.* История монголов. М. 1957
*Плетнева С. А*. Хазары. М. 1976; 1986 (II basqı)
*Плетнева С. А*. На славяно-хазарском пограничье. М. 1989
*Плетнева С. А*. Половцы. М. 1990
*Плутарх*. Сравнительные жизнеописания. II т. М. 1963
*Плутарх.* Сочинения. М. 1983
*Плутарх.* Избранные жизнеописания. I-II тт. М. 1987
*Плутарх.* Застольные беседы. М. 1990
*Погребова М. Н.* Закавказье и его связи с Передней Азией в скифское время. М.1984
*Подосинов А. В.* Произведения Овидия как источник по истории Восточной Европы и Закавказья (Тексты, перевод, комментарий). М.1985
*Покровский М. Н.* Русская история с древнейших времен. I т. М. 1933
*Полиевктов М. А.* Европейские путешественники XIII-XVIII веков по Кавказу. Тифлис, 1935
*Потанин Г. Н.* Очерки Северо-Западной Монголии. СПб. 1881
*Потапов Л. П.* Лук и стрела в шаманстве у алтайцев. СЭ, 1934
*Прокопий Кесарийский.* О постройках. ВДИ, №4, 1939
*Пуллиблэнк Э. Дж.* Язык сюнну. ЗТ, вып. I, 1986
*Рагозина З. А.* История Востока. С.Пб. (ili göstərilmir)
*Радлов В. В.* Из Сибири. М.1989

*Раевский Д. С.* Искусство и мифы скифов. «Курьер ЮНЕСКО», М. 1977
*Раевский Д. С.* Модель мира скифской культуры. М. 1985
*Райс Т. Т.* Скифы. Строители степных пирамид. М. 2003
*Рыбаков Б. А.* Язычество древних славян. М. 1981
*Руденко С. И.* Исскуство Алтая и Передей Азии. М. 1961
*Рюмин В. А.* Краткий исторический и этнографический очерки Азербайджана. АНК,1923
*Савина В. И.* Этнонимы в топонимии Ирана. ОВ, М. 1980
*Самойлович А. Н.* Туркология и новое учение о языке. «АН СССР, ХЛВ, Акад. Н. Я. Марру», М-Л. 1935
*Сарианиди В. И.* Афганистан: сокровища безымянных царей. М.1983
*Саркисян Г. Х.* Моисей Хоренский и Давид Непобедимый (Опыт установления источниковедческой связи). «Кавказ и Византия», вып. 1, Ереван, 1979
*Саркисян Д. Н.* Страна Шубриа. «Хурриты и Урарты» 3 т. Ереван, 1989
*Седловская А. Н.* Этноним *савара*. «Этнонимы». М.1970
*Серебренников Б. А., Гаджиева Н. З.* Сравнително-историческая грамматика тюркских языков. Б.1979
*Сергеев В. С.* История древней Греции. М. 1948
*Симокатта Ф.* (Феофилакт Симокатта. История). М. 1957
*Страбон.* География в 17 книгах. М. 1994
*Струве В. В.* Этюды по истории Северного Причерноморья, Кавказа и Средней Азии. Л. 1968
*Струве В. В.* Ономастика раннединастического Лагаша. М.1984
*Сулейменов О.* Аз и Я. Алма-Ата, 1975
*Сумбатзаде А. С.* Азербайджанцы - этногенез и формирование народа. Б.1990
*Сэмюэльс Р.* По тропам еврейской истории. М.1991
*Тацит К.* Анналы. Малые произведения. Л.1969
*Тацит К.* История. Л. 1969
*Тер-Мкртичян Л. Х.* Армянские источники о Средней Азии V-VII вв. М.1979
*Тер-Мкртичян Л. Х.* Армянские источники о Средней Азии VIII-XVIII вв. М.1985
*Техов Б. В.* Скифы в Центральном Кавказе в VII-VI вв. до н.э. М.1980
*Тит Ливий*. История Рима от основания города. I т. М.1989
*Толстова Л. С.* Некоторые вопросы исторической ономастики хорезмского оазиса. ЭИ,1971
*Толстов С. П.* По следам древнехорезмийской цивилизации. М.-Л. 1948
*Тохтасьев С. Р.* Киммерийская топонимия. I. ЭНБИСП, 1984
*Тревер К. В.* Очерки по истории культуры древней Армении (II в.до н.э.- IV в н.э.). М-Л.1953
*Тревер К. В.* Очерки по истории и культуре Кавказской Албании (IV в до н.э.-VII в. н.э.). М.-Л.1959
*Трубачев О. Н.* Названия рек правобережной Украины. М.1968

*Трубачев О. Н.* «Старая Скифия» (Ἀρχαίη Σκυθίη) Геродота (IV, 99) и славяне. Лингвистический аспект. ВЯ, №4, 1979

*Трубачев О. Н.* İNDOARİKA в северном причерноморье. ВЯ, №2,1981

*Трубецкой В. В.* Бахтияры (расселение, хозяйство, общественные отношения). «Этнические процессы и состав населения в странах Передней Азии», М.1963

*Тугушева Л. Ю.* Уйгурская версия биографии Сюань-Цзана. М.1991

*Тумашева Д.Г.,Ахметов Ф.В.* Етнические группы Сибирских татар по языковым и фольклорным данным. «Этногенез и этническая история тюркских народов Сибири и сопредельных территорий». Омск, 1983

*Тураев Б. А.* История древнего Востока. I-II т., Л. 1935-1936

*Фасмер М.* Этимологический словарь русского языка. I-IV т. М. 1964, 1967, 1971, 1973

*Фахрутдинов Р. Г.* Очерки по истории Волжсой Булгарии. М.1984

*Федоров Я. А., Федоров Г. С.* Ранние тюрки на Северном Кавказе. М.1978

*Федоров Я. А.* Историческая этнография Северного Кавказа. М.1983

*Фитуни А. П.* История народных легенд о кладе Александра Македонского в Ширване. ООИА, №4, Б. 1927

*Фрай Р.* Наследие Ирана. М. 1972

*Фридрих И.* История письма. М.1979

*Хабичев М. А.* К гидронимике Карачая и Балкарии. Нальчик, 1982

*Халатьянц Г.* Армянские аршакиды в «Истории Армении» Моисея Хоренского. М. 1908

*Халилов Дж. А.* Материальная культура Кавказской Албании. Б.1985

*Хасан-Джалалян Е.* Краткая история страны Албанской (1702-1722). Б. 1989

*Хачатрян Т. С.* Древняя культура Ширака. Ереван, 1975

*Хожение* за три моря Афанасия Никитина. Л. 1986

*Хоренаци М.* (Исторія Арменіи Моисея Хоренскаго). М. 1858

*Худяков Ю. С.* Вооружение енисейских кыргызов VI-XII вв. Новосибирск, 1980

*Худяков Ю. С.* Вооружение средневековых кочевников Южной Сибири и Центральной Азии. Новосибирск, 1986

*Чебоксаров Н. Н., Чебоксарова И. А.* Народы. Расы. Культуры. М. 1985

*Членова Н. Л.* Происхождение и ранная история племен тагарской культуры. М. 1967

*Цулая Г. В.* Грузинское летописное предание о «нашествии хазар» и его параллели в фольклоре народов Кавказа. «Кавказ и Византия», вып. 5, Ереван, 1987

*Шайхулов А. Г.* Структура и идиографическая парадигматика односложных корневых основ в кыпчакских языках Урало-Поволжья в котинууме ареальной, межтюркской и обшетюркской лексики. Уфа, 2000

*Шаниязов К. Ш.* К этнической истории узбекского народа: Историко-этнографическое исследование на материалах кипчакского компонента. Ташкент, 1974

*Шилейко В. К.* Вотивные документы надписи сумерийских правителей. Петрог., 1916

*Шипова Е. Н.* Словарь тюркизмов в русском языке. Алма-Ата, 1976

*Ширакаци А.* Космография. Ереван, 1962

*Штаерман Е. М.* Социальные основы религии древнего Рима. М. 1987

*Щербак А. М.* О характере лексических взаимосвязей монгольских и тунгусо-маньчжурских языков. ВЯ, №3, 1966

*Эвлия Челеби.* Книга путешествия. II-III вып. М. 1979-1983

*Энеолит* СССР. М. 1982

*Энгельс Ф.* Происхождение семьи, частной собственности и государства. М. 1982

*Энико Сий.* Курс венгерского языка. Будапешт, 1981

*Эпос* о Гильгамеше. М.-Л. 1961

*Яйленко В. П.* Архаическая Греция и Ближний Восток. М. 1990

*Ямпольский З. И.* К изучению древнего пути из Каспийского моря по реке Куре через Грузию к Черному морю. «Тр. Ин-та истории АН Груз. ССР», т. II, 1956

*Юсифов Ю. Б.* Хозяйственные документы из Суз и хронология ранних Ахеменидов. ВДИ, 1958, №3

*Юсифов Ю. Б.* Элам. Социально-экономическая история. М. 1968

*Юсифов Ю. Б.* О языках древнейших насельников Азербайджана. АФМ, 1983

*Юсифов Ю. Б.* О языковых элементах тюркского происхождения у албанского историка. СТ, №2, 1974

*Юсифов Ю. Б.* Ранние контакты Месопотамии с северо-восточными странами. Приурмийская зона. ВДИ, №1, 1987

*Юсифов Ю. Б.* К истории тюркских этносов в Передней Азии. ТП, №2, 1999

---

*Аббасов И.* Азәрбајҹан фолклору XIX әср ермәни мәнбәләриндә. Б. 1977

*Асланов В. И.* XII әсрә гәдәрки азәрбајҹан дили һаггында. АФМ, I, 1983

*Атаниязов С.* Туркменистаннын географик адларынын дүшүндиришли сөзлиги. Ашгабат,1980 (türkmən dilində)

*Бајрамов А.* Гәдим Оғуз елләринин - Ағбаба, Шөрәјел вә Пәмбәк бөлкәләринин јер-јурд адлары (топонимләри). Сумгајыт, 1996

*Баһарлы (Вәлијев) М. Һ.* Азәрбајҹан. (Физики-ҹоғрафи, етногр., игтис. очерк).Б.1993

*Бекмырадов А.* Андалып хем огузнамачылык дәби. Ашгабат, 1987 (türkmən dilində)

*Билгамыс дастаны.* (Тәрҹүмә едән *И.Өмәроғлу*, «Сон сөз» - *Ф.Ағасыоғлу*). Б.1999

*Будагов Б. Ә.* Түрк улусларынын јер јаддашы. Б. 1994

*Бүнјадов* З. Азәрбајҹан VII-IX әсрләрдә. Б. 1989

*Вәлијев В.* Фолклоршүнаслығын бәзи мәсәләләри. «ЕӘ», №6, 1979

*Вәлиханлы Н. М.* IX-XII әср әрәб ҹоғрафијашүнас-сәјјаһлары Азәрбајҹан һаггында. В. 1974

*Ворошил (Гукасјан).* Гафгаз Албанијасы. Б. 1993

*Гашгај С.* Манна дөвләти. Б. 1993

*Гејбуллајев Г.* Гарабағ. Етник вә сијаси тарихинә даир. Б. 1990

*Гејбуллајев Г.* Гәдим түркләр вә Ермәнистан. Б. 1992

*Гејбуллајев Г.* Азәрбајҹан түркләринин тәшәккүлү тарихиндән. Б. 1994

*Гош М.* Албан салнамәси. (*З. М. Бүнјадовун* тәрҹүмәси). Б. 1993

*Гукасјан В. Л.* Азәрбајҹан дилинин тәшәккүл тарихинә даир гејдләр. АФМ, I, 1983
*Гурбан Р.* Азәри, Атропатен, Азәрбајҹан сөзләри һаггында. «ЕА хәб.», 1968
*Дәмирчизадә Ә. М.* Азәри әдәби дили тарихи. Б. 1967
*Дониёров Х., Jўлдошев Б.* «Ҳазар» топонимининг этимологияси ва унинг «минг» этноними билан боғликлиги ҳакида. ОУ, 1989 (özbək dilində)
*Ејвазова Р.* Әфганыстанда түрк мәншәли топонимләр. Б. 1995
*Әбдірахманов А.* Топонимика жəне Этимология. Алмааты, 1975 (qazax dilində)
*Әләкбәрли Ә.* Аббасгулу бәј Шадлински. Б.1996
*Әләкбәрли Ә.* Гәрби Азәрбајҹан. Ведибасар маһалы. Б. 2000
*Әлибәјзадә Е.* Азәрбајҹан халгынын мәнәви тарихи. Б. 1998
*Әлизадә С.* Азәрбајҹан вә түрк фолклорунун гәдим гајнағы. АФМ, III, 1991
*Әлијаров С. С.* «Китаби-Дәдәм Горгуд»: Әлјазмалары үзәриндә чалышмалар. (I мәгалә). АФМ, III, 1991
*Әлијева Н.* Азәрбајҹан Јагут әл-Һәмәвинин әсәрләриндә. Б. 1999
*Әлијев В.* Ҝәмигаја абидәләри. В. 1992
*Әлијев К., Әлијева Ф.* Азәрбајҹан антик дөврдә. Б. 1997
*Әскәр Р.* Иглимдән-иглимә, тәгвимдән-тәгвимә. Б. 1987
*Әскәр Ә., Гыпчаг М.* Түрк саваш сәнәти. Б. 1996
*Әһмәдов Т.* Азәрбајҹан палеотопонимијасы. Б. 1985
*Заһиди А. И.* Мүасир әрәб дилиндә түрк мәншәли сөзләр. Б. 1977
*Зәкиев М. З.* Төрки-татар этногенезы. Казан-Мәскәү, 1998 (tatar dilində)
*Зејналов Ф. Р.* Түркологијанын әсаслары. Б. 1981
*Зәринәзадә Һ.* Фарс дилиндә Азәрбајҹан сөзләри. Б. 1962
*Ибн әл-Әсир.* Әл-Камил фи-т-Тарих. Б. 1959
*Ибраһимов (Шаһин) Т. Ә.* Гашгајлар. Б. 1988
*Јусифов Ј. Б.* Гәдим Шәрг тарихи. Б. 1993
*Јусифов Ј. Б.* Гәдим Азәрбајҹан тарихинин тарихшүнаслығы: Аратта дөвләтинин тарихшүнаслығы. (I-II мәгалә), ТП, №1, №2, 1997
*Каланкатуклу М.* Албанија тарихи. (*З. Бүјадовун* тәрҹүмәси). Б. 1993
*Ҝәнҹәви Н.* Хосров вә Ширин. Б. 1981
*Ҝөјүшов Р.* Азәрбајҹан археолоҝијасы. Б. 1986
*Маһмудов М.* VI әср әрәб ше'риндә ишләнмиш бир азәрбајҹан сөзү. АФМ, 1983
*Маннай-оол М. Х.* Тываның археологтуг тураскаалдары. Кызыл, 1964 (tuva dilində)
*Мәликов И. С.* Хатт - үмумтүрк дил паралелләри. АФМ, II, 1984
*Мәммәдәлијев В. М.* Гуранда үмумтүрк мәншәли сөзләр. АФМ, I, 1983
*Мәммәдов А. М.* Азәрбајҹан дилинин еркән тарихинә даир материаллар (Сумер-түрк лексик паралелләри). АФМ, I, 1983
*Мәммәдов Т.* Азәрбајҹан тарихиндән гопарылмыш сәһифәләр. «Резонанс» гәзети №5, 1998
*Мәммәдов Ч.* Гәдим танры адлары (I. Гуд теоними). АОП, II, 1988

*Мәммәдов Ч.* «Гут» сөзүнүн мәншәјинә даир. «Азәрбајчан дилчилијинин актуал проблемләри», Б.1989

*Мәшәдијев Г. И.* Загафгазијанын Азәрбајчан топонимләри. Б. 1990

*Мәрчани Ш.* Мөстәфадел-әхбар фи әхвали Казан вә Болгар.Казан,1989 (tatar dilində)

*Мурадова Ф. М.* Гобустан тунч дөврүндә. Б. 1979

*Нафасов Т.* Ўзбекистон топонимларининг изохли луғати. Тошкент, 1988 (özbək dilində)

*Нәфиси С.* Азәрбајчан гәһрәманы Бабәк Хүррәмидин. Б. 1990.

*Новрузов М.* Ордубад топониминин етимолокијасы. АОП, I, 1987

*Оғузнамәләр.* (Һазырлајан *Нәриманоғлу К., Уғур Ф.*). Б. 1993

*Өкәл Б.* Бөјүк Һун империјасы. I-II ч. В. 1992

*Рамазанов Ј.* Азәрбајчан дилиндә јазыб-јарадан ермәни ашыглары. Б. 1977

*Рәшидәддин Ф.* Оғузнамә. (*Рәһилә Шүкүрованын* тәрчүмәси). Б. 1992

*Рәчәбов Ә., Мәммәдов Ј.* Орхон-Јенисеј абидәләри. Б. 1993

*Рзајев Н.* Мөчүзәли гәринәләр. Б. 1984

*Рзајев Н.* Гајалар данышыр. Б. 1985

*Рүстәмли Ә.* Гәдим оғуз јурду Зәнкәзурда түрк мәншәли јер-јурд адлары. Б.1998

*Сејидбәјли Е. М.* Кәнкәрли елинин мәншәји һаггында тарихи-етнографик мәлумат. «Әлјазмалар хәзинәси», VII чилд, Б.1986

*Сејидов М.* Азәрбајчан мифик тәфәккүрүнүн гајнаглары. Б.1983

*Сејидов М.* Азәрбајчан халгынын сојкөкүнү дүшүнәркән. «Улдуз», №12, 1985

*Сејидов М.* Азәрбајчан халгынын сојкөкүнү дүшүнәркән. Б.1989

*Сүмәр Ф.* Оғузлар. Б. 1992

*Тантәкин Һ.* Короғлу сурәтинин мәншәји мәсәләсинә даир. «ЕА хәб.», №2, 1983

*Тантәкин Һ.* «Гилгамыш» дастанынын нағыл версијасы. «Улдуз», №8, 1980

*Теһрани Ә.* Китаби-Дијарбәкријјә. Б. 1998

*Фазили А.* Азәрбајчанын гәдим вә илк орта әсрләр тарихи Иран тарихшүнаслығында. Б. 1984

*Фазили А.* Атропатена (ер.әв. IV - ер.VII әсри). Б. 1992

*Фәттах Н.* Шәҗәрә. Казан, 1990 (tatar dilində)

*Худијев Н.* Азәрбајчан әдәби дили тарихи. Б. 1995

*Һачыјев Т. И.* Азәрбајчан әдәби дили тарихи. Б. 1976

*Һәмзә Вәли.* Нүвәди китабәләри. Б. 1998

*Һомер.* Одиссеја (тәрчүмәчи *Ә.Зијатај*). Б. 1977

*Һомер.* Илиада (тәрчүмәчи *М. Рзагулузадә*). Б. 1978

*Чаһанкиров М.* Азәрбајчан милли әдәби дилинин тәшәккүлү. I һиссә. Б.197

*Чәлилов Ф. А.* Азәрбајчан дили морфонолокијасындан очеркләр. Б.1985

*Чәлилов Ф. А.* Сага әфсанәсиндә кечән адлар. «Әдәбијат вә инчәсәнәт», №51, 1985 а

*Чәлилов Ф. А.* Көктүркчәдә бәзи диалект хүсусијәтләри. «Түрк дилләринин тарихи вә диалектолокијасы проблемләри», АДУ-нун нәшри, Б.1986

*Чәлилов Ф. А.* Гәдим түрк бојлары: *Гамәр* етноними. АОП, I, 1986; «Елм вә һәјат» журналы, №7, 1987

*Чəлилов Ф. А.* Азəрбајчан дилинин морфонолокијасы. Б.1988

*Чəлилов Ф. А.* Протоазəр теонимлəри «Азəрбајчан тарихи үзрə гајнагларын өјрəнилмə проблемлəри», Б.1988 а

*Чəлилов Ф. А.* Гəдим аз~ас етноними. АОП, II, 1988 b

*Чəлилов Ф. А.* Дил аилəси вə дил иттифагы. «Үмумидилчилик фəнлəринин тəдриси проблемлəри», АПИ нəшри, Б.1989

*Чəлилов Ф. А.* Гылынч култу. «Кəнчлик» журналы, №11, 1989 а

*Чəлилов Ф. А.* Гəдим *гашгај* етноними. АОП, III, 1990

*Чəфəров Ч. И.* Азəрбајчан халгынын улу сојкөкү. Аслар кимдир? Б.1999

*Ширəлијев М.* Азəрбајчан диалектолокијасынын əсаслары. Б.1968

---

*Abû'l-Farac Gregory.* Abû`l-Farac tarihi (Türkceye çev. *Ö. R. Doğrul*), I-II c. Ankara, 1987

*Acaroğlu M. T.* Bulgaristanda türkce yer adları kılavuzu. Ankara, 1988

*Açaryan Hr.* Hay dilində türkcə alınma sözlər. Moskva-Vağarşabad, 1902 (hay dilində)

*Aqatangeɫay* Patmutun Hayots. Tphɫis, 1909 (hay dilində)

*Aqatangeɫos.* Hayots patmutyun. Yerevan, 1983 (hay dilində)

*Akbulut Y.* Bingöl tarihi. Ankara, 1995

*Akinyan N.* S. Maştots vardapet. Vienna, 1949 (hay dilində)

*Ayda. A.* Türklerin ilk ataları. Ankara,1987

*Azər xalqı.* (*F. Ağasıoğlu.* Seçmə yazılar). B. 2000

*Bağramyan R. H.* «Kitabi Dədə-Qorqud»da hay sözləri. İFJ, №1,1974 (hay dilində)

*Balkan K.* Die Sprache der Kassiten. New-Haven, 1954

*Balkan K.* Eski Önasyada kut (veya gut) halkının dili ile eski türkce arasındakı benzerlik. ERDEM, cilt: 6/1, sayı 16, 1990 (ayrıbasım, 1992)

*Barton G.A.* The Royal İnscriptions of Sumer and Akkad. 1929

*Bartucz. A* magyar ember. Budapest,1938

*Bayçarov S. Ya.* Avrupanın eski türk runik abideleri (Çeviren *M. Duranlı*), Ankara, 1996

*Baykara T.* Türklügün en eski zamanları. «Türkler», I, 2002

*Bayram S.* Kaynaklara göre Güney-Doğu Anadoluda prototürk izleri. İstanbul, 1988

*Bayramov İ.* Qərbi Azərbaycanın türk mənşəli toponimləri. B. 2002

*Belck C.* Das Reich die Mannëer. «Verhandlungen der Berliner Gesellschaft für Anthropologie, Ethnologie und Urgeschichte», 1884

*Berghe V. L.* Archeologie de l'İran ancien. Leiden, 1959

*Berlin A.* Enmerkar and Ensuchkeshdanna. Philadelrhia, 1979

*Berta A.* Türkce kökenli macar kavim adları (çeviri: *N. Demir, E.Yılmaz*). Ankara, 2002

*Bəydili C.* Türk mifoloji sözlüyü. B. 2003

*Biswas A.* The Political History of the Hunas in İndia. New Delhi, 1973

*Blok R.* The Ancient civilization of the Etruscans. Barrie and Rockliff. London, 1969

*Bokovenko N.* Tagar kültürü. «Türkler», I cild, 2000

*Brandenstein W.* Die Herkunft der Etrüsker. Leipziq, 1937.

*Caferoğlu A.* Azerbaycan edebiyatı. TDE, 1991
*Canaşia S. N.* Əsərləri. I c. Tbilisi, 1949; II c. Tbilisi, 1952 (gürcü dilində)
*Candar A.* Kimmerler. «Ülkü» dergisi, şubat, 1935
*Cahiz* (*Ebû 'Osmân 'Amr b. Bahr Maxbûb el-Câhiz*). Manâkib Cund el-Xilâfa ve Fażâ'il el-Etrâk (Çevirən: *Ramazan Şeşen*), Ankara,1988
*Celilov F. A.* Dastanın tercümesi. «Türk edebiyatı» dergisi, sayı 145, İstanbul, 1985
*Celilov F. A.* Morfonolojik rekonstrüksiyon ve etimoloji. «Türk dili ve edebiyatı araştırmaları dergisi», VII. Ege Üniversitesi, İzmir, 1993
*Celilov F. A.* Kassi dilinde türkizmler. «Atatürkçü düşünce», sayı 44, Ankara, 1997
*Cəfərzadə İ. M.* Qobustan. Qayaüstü rəsmlər. B.1999
*Cəfərov Ə.* İnsanlığın səhəri. B. 1994.
*Çay A. M., Durmuş İ.* İskitler. «Türkler», I, 2002
*Çay A. M.* Türk milli kültüründe hayvan motifleri. I. Ankara, 1990
*Çapar Ö.* Phrigia ve Demir devrinde Anadolu kavimleri. «Ankara universitesi Dil ve Tarih-Coğrafya fakültesi dergisi», c. XXXI, sayı 1-2, Ankara, 1987
*Çeçen A.* Türk devletleri. İstanbul, 1986
*Çetinkaya N.* Iğdır tarihi. İstanbul 1996
*Çilingiroğlu A.* Urartu krallığı tarihi ve sanatı. İzmir, 1997
*Çiğ M. İ.* Sumerli Ludingirra. Geçmişe dönük bilimkurgu. (III basım). İstanbul, 2000
*Gabain A. von.* Vom Sinn symbolischer Farbenzeichnung. AO, t.15, №1-3. Budapest,1962
*Gadd J.C.* The Dynasty of Agade and the Gutian İnvasion. «The Cambridge Ancient History», Revised edition of volumes 1-2, Cambridg University, Press, 1963
*Galton H.* Der Einfluss des Altaischen auf die Entstehung des Slawischen. Wiesb., 1997
*Garstang J., Gurney O.R.* The geography of the Hittite Empire. London, 1959
Geschichte der Ugresellschaft. (von einem Autorenkollektiv unter Leitung von *Henz Grünert*). Berlin, 1982
*Gelb J.* Hurrians and Subarians. Chicago, 1944
*Godard A.* Le Trésor de Ziwiye. Haarlem, 1950
*Godard A.* L'Art de l'İran. Paris, 1962
*Golden P. B.* Khazar studies. Vol.1. Budapest, 1980
*Gostony C. G.* Dictionnaire d'étymologie sumérienne et grammaire comparée. Paris, 1975
*Göyalp Z.* Türkçülügün esasları. İstanbul, 1976
*Göyalp Z.* Türk töresi. İstanbul, 1977
*Gültepe N.* İlk türk devletlerinde bürokrasi. «Türkler», I, 2002
*Gürün Kamuran.* Türkler ve Türk devletleri tarihi. (II baskı), Ankara, 1984
*Gülensoy T.* Altay dillerindeki akrabalık adları üzerine notlar. TDAY, 1973-1974
*Günaltay Ş.* Türk tarihinin ilk devirlerinden Yakın Şark. Elam ve Mezopotamiya. Ankara, 1987
*Ghirshman R.* Fouilles de Sialk pres de Kashan 1933, 1934, 1937 vv. I-II. (Musee du Louvre, Ser. Arch.), Paris, 1938-1939

*Ghirshman R.* L'İran des origines à l'İslam. Paris, 1951

*Grayson A.K.* Assyrian Royal İnskriptions. Wiesbaden, vol.I, 1972; vol.II. 1976

*Grelot P.* Dokuments araméens d'Egypte. Paris,1972

*Cameron G.G.* History of Early İran. Chicago, 1936

*Clauson G.* Turkish and Mongolian studies. London, 1961

*Codex Cumanicus*. Edit by G. Kunn. Budapest, 1981 (təkrar nəşri)

*Cohen S.* Enmekar and the Lord of Aratta. (Dissertation). University of Pennsylvania, 1973

*Conteneau G.* La Civilisation des Hittites et des Hourrites du Mitanni. Paris, 1948

*Cooper J. S.* Reconstructing History from Ancient İnscriptions: The Lagash-Umma Border Conflict Sources from the Ancient Near East. Vol.2 F.1. Undena Publications. Malibu, 1983

*Cowley A. E.* Aramaic papyri of The fifth centuri B. C. Oxford, 1923

*Chapot V.* La frontière de l `Euphrate de Rompèe à la conquête arabe. Paris, 1907

*Qəlbinur P.* Təbabət poeziyanın fəlsəfi əyarı kimi və ya maye işıq. B. 2002

*Danişmend İ. H.* Türklük meseleleri. İstanbul, 1966

*Décsy G.* The Turkic Protolanguage. A Computational Reconstruction. Bloomington, İndiana: Eurolingua, 1988

*Deimel A.* Sumerishes Lexikon. Rom. 1925-1947

*De Groot J. M.* Die Hunnen der vorchristlichen Zeit. Berlin-Leipzig, 1921

*Diakonoff İ. M., Kashkai S. M.* Geograpihical Names According to Urartian Texts. «Réportoire Géograrhique des Textes Cuéiformes», Band 9. Wiesbaden, 1981

*Dirr A.* Einführung in das Studium der kaukasischen Sprachen. Leipzig,1928

*Divitçioğlu S.* Kök türkler. İstanbul, 2000

*Doğan İ.* Doğu Avropadaki Göktürk (runik) işaretli yazıtlar. Ankara, 2000

*Doğan İ.* Kafkasyadaki Göktürk (runik) işaretli yazıtlar. Ankara, 2000 a

*Donuk A.* Türkce «il» (devlet) deyimi hakkında. TDA, №35, 1985

*Donuk A.* Eski türk devletlerinde idari-askeri ünvan ve terimler. İstanbul,1988

*Doerfer G.* Türkische und mongolische Elemente im Neupersischen. Wiesbaden, Bd.I. 1963; Bd. II. 1965; Bd. III. 1967; Bd. IV. 1975

*Doerfer G.* Güney Sibirya türkleri edebiyatı. TDE, 1991

*Dossin G.* Archives Royales de Mari. C.I. (Corresrondance de Samsi-Addu). Paris, 1950

*Dunand M.* Biblia Grammata. Beyrouth, 1945

*Durmuş İ.* İskitler (Sakalar). Ankara, 1993

*Dyson R.H.* Archaeological Serap Glimpses of History of Ziwiye. «Expedition»,v.3.1963

*Dyson R.H.* Problems in the Relativ Chronology on İran. «Chronologies in Old Wold Archaeology». Chicago-London. 1965.

*Eberhard W.* Çinin Şimal komşuları. Ankara,1942

*Eberhard W.* Eski Çin kültürü ve türkler. «Türkler», I c. 2000

*Ebü Dülef.* Ebü Dülefin risalesinden türk ülkeleriyle ilgili kısmın tercümesi (hazırlayan *Ramazan Şeşen*). «İbn Fadlan» kitabına əlavə.

*Elçibey E.* Tolunoğulları devleti (868-905). İstanbul, 1997
*Elter A.* İtinerarstudien. Bonn, 1908
*Erol A.* Şarkılarla, şiirlerle, türkülerle və tarihi örneklerle adlarımız. Ankara, 1989
*Ertem H.* Boğazköy metinlerinde geçen coğrafya adları dizini. (Çivi yazılı metin yerleri ve Biblioqrafya ile birlikte). Ankara, 1973
*Erzen A.* Doğu Anadolu ve Urartular. Ankara, 1984
*Ələkbərli Ə.* Qərbi Azərbaycan. II c. (Zəngibasar, Gərnibasar, Qırxbulaq mahalı). B. 2002
*Əliyev V.* Azərbaycan toponimiyası. B.1999
*Əskər R.* Qutadğu bilig. B. 2003
*Əhmədli F.* Xızı rayonunun toponimiyası. B. 2000
*İbn el-Fakîh.* Kitâb el-büldan. İCGT, 1985
*İbn Havkal.* Sûret el-arz. İCGT, 1985
*İbn Rusteh*. el-aʿlâk el-nefîse. İCGT, 1985
*İdrîsî.* Nüzhet el-müştâk fî ihtirâk el-âfâk. İCGT, 1985
*İbn Fadlan* Seyahatnamesi (hazırlayan *Ramazan Şeşen*). İstnbul,1975
*İnan A.* Tarihte ve bugün şamanizm. Materialler ve araştırmalar. Ankara, 1972
*İnayet A.* Doğrudan ve dolaylı olarak çinceye geçen türkce kelimeler üzerine (əlyazması).
*İnayet A.* Türkçede çince kaynaklı gösterilen bazı kelimeler üzerine. $TD_1$ №7, 1999
*İstaxri.* Mesâlik el-memâlik. İCGT, 1985
*Halis (Ataksoy).* Diyarbakır tarihinde Komuk Eli. İstanbul, 1988
*HalloW.W.* Gutium. RLA, vol. 3. 1957-1971
*Hančar Fr.* Kaukasus - Luristan. «Eurasia-Septentrionalis antiqua», IX. Helsinki, 1934
*Harmatta J.* Avarların dili sorununa dair. Doğu Avrupada türk oyma yazılı kitabeler. (Türkceye çeviren *Hicran Akın*). Ankara, 1988
*Hassan Ü.* Eski türk toplumu üzerine incelemeler. İstanbul, 2000
*Hinz W.* Das Reish Elam. Stuttqart, 1964
*Hermann A.* Die Saken und der Skythenzug des Dareios. «Archiv für Orientforschung» I, 1933
*Herodotos.* Herodot tarihi (çeviren *Muntekim Ökmen*). İstanbul,1983
*Herzfeld E.* Archaelogische Mitteilungen aus İran, I-V. Berlin, 1929-1933
*Herzfeld E.* İran in the Ancient East. London - New York, 1941
*Herzfeld E.* Zoroaster and his World, I-II. Princeton, 1947
*Herzfeld E.* The Persian Empire. Wiesbaden, 1968
*Həsənov H. Ə.* Türkşünaslığın bəzi problemləri. «Azərbaycan» jurnalı, №8, 2002
*Hübschmann H.* Die altarmenischen Ortsnamen. Mit einer Karte. «Zeitschrift für İndogermanische sprach und Altertumskunde». Bd.16. Strassburq, 1904
*Hüsing G.* Vorgeschichte und Wanderungen der Parsawa. «Mitteilungen der Anthropologischen Gesellschaft in Wien», Bd.60, 1930
*Xudiyev N.* Xalqın tarixi haqqı: dilimiz, varlığımız. B. 2003
*Falkenstein A.* Das Sumerische. «Handbuch der Orientalistik». Abt.1. Bd.2. Leiden, 1959

*Feher G.* Bulgar türkleri tarihi. Ankara, 1984

*Folsom F.* The language book. New York, 1963

*Forde C. D.* Habitat, Ekonomy and Society. ACİTE, 1963

*Forrer E.* Die Provinzeinteilunq der Assyrischen Reiches. Leipzig, 1920

*Friedrich J.* Hethitisches Wörterbuch. (C.Winter. Universitëtsverlag). Heidelberg, 1952

*Jacobsen T.* The Sumerian King List. AS, 11. Chicago,1939

*Jacobsen T.* The Treasure of Darkness. «A History of Mesopotamian Religion», New Haven-London, 1976

*Junge J.* Saka studien. Leipzig, 1939

*Justi F.* İranisches Namenbuch. Marbupg, 1895

*Kalankatlı.* (*Կաղանկատուացի Մ.*) *Պատմութիւն Աղուանից աշխարհի. Երեվան,*1983

*Karatay O.* Hırvat ulusunun oluşumu. Erken Ortaçağda türk-hırvat ilişkileri. Ankara, 2000

*Kafesoğlu İ.* Türk milli kültürü. (VI baskı). İstanbul, 1989

*Kent R.* Old Persian grammar text lexikon. New Haven, 1950

*Kluge F.* Etymologisches wörterbuch der Deutschen sprache. Berlin - New York, 1975

*Kınal F.* Eski Anadolu tarihi.(II baskı), Ankara,1987

*Kırzıoğlu M. F.* Kars tarihi. I c. İstanbul, 1953

*Kırzıoğlu M. F.* Kürtlerin türklügü. Ankara, 1968

*Kırzıoğlu M. F.* 1593 yılı Osmanlı vilayet tahrir defterinde anılan Gence-Karabağ sancakları *ulus* və *oymakları.* «Atatürk Üniversitesi Edebiyat fakültesi araştırma dergisi», sayı: 10. Ankara, 1979

*Kırzıoğlu M. F.* Yukarı-Kür ve Çoruk boylarında kıpçaklar. Ankara,1992

*Kırzıoğlu N. G.* Altaylardan Tunaboyuna. Türk dünyasında ortak motifler. Ankara, 1995.

*Kitapçı Z.* Orta Doğuda türk askeri varlığının ilk zuhuru. İstanbul, 1987

*Koca S.* Eski türklerde devlet geleneyi ve teşkilatı. «Türkler», II, 2002

*Koşay H. Z.* Erzurum ve çevresinin dip tarihi. Ankara, 1984

*Koşay H. Z.* Revue des Etudes Sud-East Euroreenn es, C. XX. Buxarest, 1982

*Kutadgu Bilig*. I c. Metin. (R.R.Arat), 3 baskı. Ankara,1991

*Kuzgun Ş.* Hazar ve Karay türkleri. Ankara,1993

*Kothe H.* Pseudoscythen. Klio,1967

*Kowalski T.* Les Turks dans le ŠŠāh-nāme. «Rocznik Orientalistyczny», tom. XV, Krakóv, 1949; (Şahnamede türkler. Çeviren *H.Güngör*), «Erciyez Univ. dergisi», №1, 1984

*König F. W.* Älteste Geschichte der Meder und Perser. Leipzig, 1934 («Der Alte Orient», Bd. XXXIII, Ht.3/4).

*König F. W.* Die Elamischen Königsinschriften. Graz,1965

*Köçərli T.* Qarabağ. B. 2002

*Landsberger B*. Ön Asya kadim tarihinin esas meseleleri. (İkinci Türk Tarihi Kongresi, *bildiriler*), İstanbul, 1937; (Almancadan tərcüməsi: *Balkan*, 1992).

*Łazaray Pharpetsoy* Patmutun Hayots ev Tułt ar Vahan Mamikonean. Tphłis, 1904

*Le Goq A.* Köktürkische aus Turfan. Manuskriptfragmente in Köktürkischen Runen aus Toyoq und İdi-qut-Schahri (Oase von Turfan). SPAW, Berlin, 1909

*Li Y.-S.* Türk dillerinde akrabalık adları. İstanbul, 1999.

*Litvinsky B. A.* The Hephthalite Emprie. Paris, 1996

*Liu Mau-Tsai.* Die Chinesischen Nachricten zur Geschichte der Ost-Türken (T'u-küe). I., Wiesbaden, 1958

*Ligeti L.* Bilinmeyen İç Asya (Macar dilində çevirən *S. Karatay*). Ankara, 1986

*Livia K. Sz.* Az Etruszkok nyomaban. Corvina Kiado, (macar dilində)

*Mahmud S. A.* - ۱۳۶۴, اراز محمد سا رلی· ترکستان درتاریخ · تهران

*Markwart J.* Das İtinerër von Artaxata nach Armastica auf der römischen Weltkarte. Wien,1928

*Markwart J.* A Catalogue of the provincial capitals of Ērānshahr. Pahlavi text, version and commentary. (Ed. by G. Messiena), Roma, 1931

*Maşkur M. J.* The history of Urartu nation and the discovery of an Urartu inscription in İranian Azerbaijan. Tehran, 1953

*Memiş E.* Eskiçağda türkler. Konya, 2002

*Miller K.* İtineraria Romana, Römische Reisewege an der Hand der Tabula Peutingeriana. Sht.1916

*Minns E. H.* Skythians and Creeks. New York, 1971

*Mirza Bala.* Azerbaycan tarihinde Türk Albanya. Ankara, 1951

*Mirzəyev M.* Qədim Azərbaycan-Mesopotamiya əlaqələrinə dair (Mesopotamiyada kuti hakimiyətinin başlanğıcından III Ur sülaləsinin sonuna qədər). TP, №2, 2003

*Movsısı Xorenatsoy* Patmutun Hayots. Tphłis,1913 (hay dilində)

*Moravcsik G.* Bizantinoturcica. I-II. Berlin, 1983

*Monguş B. Kenin-Lopsan.* Tuvaların eski gelenekleri. (II), $TD_1$ sayı 8, 1999

*Muscarella O.W.* Hasanlu in the Ninth Centry B/C. And its Relation with other cultural centers of the Near East. «Chronologies in Old World Archaeology», AJA, 75, 3, 1971

*Negahban E.O.* A Preliminary Report on Marlik Excavations. Tehran, 1964

*Nemet F.* Türk dillerinde yıldız adları ve Ülker kelimesinin menşei. VT, B.1971

*Nemeth G.* Türklügün eski çağı. «Türkler», I, 2002

*Nyberg N. S.* Die Religionen des alten İran. Leipzig, 1938

*Oliva P.* Sparta and Her Social Problems. Pragua, 1971

*Orkun H. N.* Eski türk yazıtları. Ankara, 1994

*Öcal S.* Devlet kuran kahramanlar. İstanbul, 1987

*Ögel B.* Büyük Hun imperatorluğu tarihi. I, Ankara, 1981

*Ögel B.* Türk kültürünün gelişme çağları. (III baskı),İstanbul, 1988

*Ögel B.* İslamiyetden önce Türk kültür tarihi. (Orta Asya kaynak ve buluntularına göre), III baskı, Ankara, 1988 a

*Ögel B.* Türk kültür tarihine giriş.I-X cild. (III baskı), Ankara 1991

*Ögel B.* Devlet Meclisi ve Kurultay. «Türkler», II, 2002

*Pallotino M.* Testimonia linguae etruscae. Firenze, 1968

*Perkins A.L.* The Comparative Archaeology of Early Mesopotamia. Chicago, 1957
*Piriyev V.* Azərbaycanın tarixi coğrafiyası. B. 2002
*Phavstos Buzandatsoy* Patmutun Hayots. Venetik, 1933 (hay dilində)
*Pfiffig A.* Studien zu den Agramer Mumienbinden. Wien, 1963
*Porfirogent K.* (*Baqrənorodnıy Konstantin.* Ob upravlenii imperiey). M.1989
*Priskos.* Grek seyyahı Priskosa (V asır) göre Avrupa hunları. (Çeviren *Ali Mehmetoğlu*), İstanbul, 1995
*Pritsak O.* Türk-slav ortak yaşamı: Güney-doğu Avrupanın türk köçebeleri. «Türklər», II.
*Procopius.* History of the Wars. Secret Nistory and Buildings. New York,1967
*Procopii Caesariensis.* De Aedificiis. VDİ, №4, 1939
*Purpirar N.* On iki əsr süküt. Əhəmənilərin zühuru. I kitab, (Farscadan çevirən: *Güntay Cavanşir*), B. 2002
*Rasonyi Laszlo.* Tarihte türklük. (IV baskı), Ankara, 1996.
*Rathbun T. A.* An analysis of the skeletal material excavated at Hasanlu, İran. «Universiti of Kanzas», 1964.
*Rësënen M.* Versuch eines etymologischen würterbuchs der Türksprachen. Helsinki.1969
*Rəşidəddin F.* Oğuznamə. (Hazırlayan *Osmanlı İ.*). B. 2003
*Reinach Th.* Mithridate Eupator. Paris, 1890
*Römer W.H. Ph.* Einführung in die Sumerologie. Nijmegen, 1982
*Riemschneider K.* Lehrbuch des Akkadischen. Leipzig, 1978
*Sebeosi* yepiskoposi patmutyun. Yerevan, 1939 (hay dilində)
*Sever H.* Asur siyasi tarihinin ana devreleri. «Ankara universitesi Dil ve Tarih-Coğrafya fakültesi dergisi», c.XXXI, sayı 1-2, Ankara, 1987
*Sevin V.* Hakkari taşları. Çıplak savaşçıların gizemi. İstanbul, 2005
*Sevim A.* Suriya-Filistin Selçuklu devleti tarihi. Ankara, 1989
*Sevim A., Merçil E.* Selçuklu devletleri tarihi. Ankara, 1995
*Sertkaya O. F.* Göktürk tarihinin meseleleri. Ankara, 1995
*Sousa A.* History of Mesopotamian civilization. Vol.1. Baghdad, 1983
*Speiser E.A.* Mesopotamian Origtns. The Basic Population of the Near East. Philad. 1930
*Sulimirski T.* Scythian Antiquies in Westen Asia.«Artibus Asiae», v.17, №3-4, Askona,1954
*Sulimirski T.* The Gimmerian problem. «Bul.İnst.Archeol.Univ.», №2, London, 1959
*Sümer F.* Safavi devletinin kuruluşu ve gelişmesinde Anadolu türklerinin rolü. Ankara,1976
*Sümer F.* Selcuqlu tarihinde igdişler. TDA, №35, 1985
*Strange G. L.* The lands of Eastern Caliphate. 1905 (3-cü basqı,1966)
*Stawiski B.* Kunst der Kuschan. Leipzig, 1979
*Şaig O.* Necati Luğal armağanı. Ankara, 1968
*Şecere-i Terākime.* Ebulgazi Bahadır Han. Türkmenlerin Soykütüğü (haz. *Z.K.Ölmez*), Ankara,1996
*Şəcərei-Tərakimə.* Əbulqazi Bahadır xan.Türkmənlərin soy kitabı (haz. *İ.M.Osmanlı*), B. 2002
*Şeşen R.* İslam coğrafiyaçılarına göre türkler ve türk ülkeleri. Ankara, 1985

*Şeşen R.* Ebu Dülefin «Risale»sinden türk ülkeleriyle ilgili kısmın tercümesi. («İbn Fadlan» kitabında, 1975)

*Şeşen R.* Mervezinin eserinin türklerle ilgili babının tercümesi. («İbn Fadlan», 1975)

*Shiratori K.* Kağan ünvanının menşeyi. «Belleten», IX, 36. 1945

*Taberi.* Milletler ve hükumdarlar tarihi. I-III t. İstanbul, 1991

*Tanrıverdi Ə.* «Kitabi-Dədə Qorqud»da şıxs adları. B.1999

*Tantəkin H.* Sehirli nağılların onqon və əsatiri surətləri. (*Əlyazma*), B. 1984

*Tantəkin H.* Kuşan-Azərbaycan mədəniyət birgəliyi. (*Əlyazma*) B. 1986

*Tantəkin H.* Tarixi saxtalaşdıranlara tutarlı cavab. «Qurtuluş» qəzeti, №3, 1991

*Tarcan H.* Ön-Türk tarihi. İstanbul, 1998

*Tahirzadə Ə.* Nadir şah Əfşar. B. 2002

*Tahirzadə Ə.* Ağaməhəmməd şah Qacar. B. 2002

*Tekin T.* Tuna bulqarları ve dilleri. Ankara, 1987

*Tekin T.* Volqa bulqar kitabeleri ve Volqa bulqarcası. Ankara, 1988

*Tekçe E. F.* Pazırık. Altaylardan bir halının öyküsü. Ankara, 1993.

*Togan A. Z. V.* Umumi Türk Tarihine giriş. I c. (III baskı), İstanbul,1981

*Tosun T., Yalvaç K.* Sumer dili ve grameri. 1cilt. (Sumerceden örnekler). Ankara,1981

*Tosun T., Yalvaç K.* Sumer, Babil, Assur kanunları ve Ammi-Şaduqa fermanı. Ankara,1989

*Tuna O. N.* Sümer ve türk dillerinin tarihi ilgisi ile türk dilinin yaşı meselesi. Ankara,1990

*Turan O.* Doğu Anadolu Türk devletleri tarihi. (II baskı), İstanbul, 1980

*Turan O.* Türk cihan hakimiyeti mefkuresi tarihi. I c. İstanbul,1998

*Thakur U.* The Hunas in İndia. Varanasi, 1967

*Thompson E. A.* The Huns. Oksford, 1996

*Uzunçarşılı İ. H.* Anadolu beylikleri ve Akkoyunlu, Karakoyunlu devletleri. Ankara, 1988

*Yazıcı M.* Tarihte 128 Türk devleti ile 318 devlet - 356 hükumet başkanlarının özellikleri (m.ö. 220-m.s.1990). Ankara, 1990

*Yavuz E.* Tarih boyunca türk kavimleri. Ankara, 1968

*Vəlixanlı N.* Ərəb Xilafəti və Azərbaycan. B.1993

*Westenholz A.* The Old Akkadian Empire in Contemporary Opinion. «Rower and Propaganda: A Simposium on Ancient Empires». Paris, 1979

*Wilcke C. W.* Das Lugalbandaepos. Wiesbaden, 1969

*Woolley L.* A Forgotten Kinqdom. Penguin Books. 1953

*Zadok R.* The Elamite Onomasticon. Napoli,1984

*Zehtabi M.* - (İran türklərinin əski tarixi) دوقتور محمد تقی زهتابی . ایران تورکلریذین اسکی تاریخی. تبریز-۱۳۷۷

*Zekiyev M.* Ön ve Orta Asya, Kafkasya, Karadenizin kuzeyi, İdil-Ural ve Batı Sibiryadakı eski türkler. «Türkler», №1, 2002

*Zeynalov Ə.* Azərbaycan bayatıları Qafqaz regionunda. B. 2001

## QISALTMALAR

АВИИУ - *Дьяконов И.М.* Ассиро - Вавилонские источники по истории Урарту. ВДИ, №2-3, 1951

Акты - Акты, собранные Кавказскою Археографическою Комиссиею. (Архив Главного Управления Наместника Кавказского), Тифлис

АДД - Автореферат докторской диссертации

АИОСК - Античные источники о Северном Кавказе.(Сост. В.Аталиков). Нальчик, 1990

АЗА - Археология зарубежной Азии. М. 1986

АКД - Автореферат кандидатской диссертации

АНК - Азербайджанский настольный календарь. Б. 1923

ВА - Вопросы антропологии

ВДИ - Вестник древней истории

ВПФ - В преддверии философии (*Франкфорт Г.,Франкфорт Г.А., Уилсон Дж., Якобсен Т.*). М. 1984

ВТД - Восточный Туркестан в древности и раннем средневековье. М.1988

ВЯ - Вопросы языкознания

ДА - Древняя Анатолия. М.1985.

ДВ - Древний Восток. Этнокультурные связи. М. 1988

ДГНТ СССР - Древнейшие государства на территориии СССР. М.

ДГС - Древнескандинавские географические сочинения . М. 1986

ДД - Древность Дагестана. Махачкала, 1974

ДЭ - Древняя Эбла. М. 1985

ДТС - Древнетюркский словарь. Л. 1969

ИАН - История армянского народа. Ереван, 1980

ИГА - Историческая география Азербайджана (Ред. *Буниятов З.М.*). Б.1987

ИД - История Дагестана. I т. М.1967

ИДВ - История Древнего Востока. М.

ИДВ ЫЫ - История Древнего Востока. Часть II. (Передняя Азия). М.1988

ИДМ - История Древнего мира. I-III т. М. 1982-1983

ИИ - История Ирана. М. 1977

ИИГК - История Иранского государства и культуры. М. 1971

ИИН СССР - История искусства народов СССР. Т.1. М. 1971

ИНСК - История нородов Северного Кавказа с древнейших времен до конца XVIII в. М.1988

ИПО 1988 - История первобытного общества. Эпоха классообразования. М.1988

ИПОДГ - Искусство первобытного общества и древнейших государств на территории СССР. М. 1971

ИУ - История Узбекистана в источниках. Ташкент, 1984

ИФЖ - Историко-филологический журнал. АН Арм. ССР, Ереван

ЖС - Живая старина. СПб.

ЗТ - Зарубежная тюркология. I т. Древние тюркские языки и литературы. М. 1986

КТИК - Клинописные тексты из Кюль-тепе. Письма и документы торгового объединения в Малой Азии XIV в. до н. э. (Транскрипция, перевод, вводная статья, комментарий и глоссарий *Н.Б. Янковской*). М.1968.

КЦ - Картлис цховреба. I т. Тбилиси, 1955

МОД - Межгосударственные отношения и дипломатия на древнем Востоке. М. 1987

МПИДА - Материалы по истории Древней Армении. Ереван, 1935

МПИКНК - Материалы по истории кочевых народов в Китае II-V вв. (Перевод с китайского, введение и примечания *В.С.Таскина*). Вып.1. Сюнну. М. 1989; Вып. 2. Цзе. М. 1990

МЭ - Младшая Эдда. Л. 1970

НАА - Народы Азии и Африки

ОВ - Ономастика Востока. М. 1980

ОИТИИЯ - Опыт историко-типологического исследования иранских языков. 1 т. М. 1975

ООИА - Общества обследования и изучения Азербайджана. Б.

ОК - Ономастика Кавказа. Махачкала, 1976

ОСА - Ономастика Средней Азии. М. 1978

ОУ - Ономастика Узбекистана. Ташкент, 1989

ПВЛ - Повест временных лет. I т. М-Л., 1950

ПОА - Путешественники об Азербайджане. I т. Б. 1961

СА - Советская археология

СИ - Современный Иран. Справочник. М.1957

СМОМПК - Сборник материалов для описания местностей и племен Кавказа

СТ - Советская тюркология

СЭ - Советская этнография

ТДЯК - Тюркско-Дагестанские языковые контакты. Махачкала, 1982

ТИ - Тюркологические исследования. М.1976; М.-Л.1963; Фрунзе,1986

ТУ - Топонимика Урарту (*Арутюнян Н.В.*). Ереван, 1985

УКН - Урартские клинообразные надписи (*Меликишвили Г.А*). М. 1960

Хоренаци - Исторiа Арменiи Моисея Хоренскаго. М.1858

ХПИДВ - Хрестоматия по истории Древнего Востока. М.1963; (I-II) 1980

ЦА - Центральная Азия. (Новые памятники письменности и искусства). М.1987

ЭИАСА - Этнография и археология Средней Азии. М.1979

ЭСТЯ - Этимологический словарь тюркских языков. М. 1974-1980

Этимология - Этимология. (АН СССР). М. 1965-1987

Этнонимы - Этнонимы. М.1970

Этнос - Этнос в доклассовом и раннеклассовом обществе. М. 1982

ЯАИА - Языки Азии и Африки. М. II т.1978; III т. 1979

ЯСКД - Языки Северного Кавказа и Дагестана. М.-Л. 1935

---

Алб.т. - *Моисеј Каланкатуклу*. Албанија тарихи. *Мхитар Гош*. Албан салнамәси. (Тәрҹүмә вә шәрһләр акад. *З.Бүнјадовундур*). Б.1993

АММ - Азәрбајҹанын мадди мәдәнијәти

АОП - Азәрбајҹан ономастикасы проблемләринә даир конфрансын материаллары. АПУ нәшри, Б. I (1987), II (1988), III (1990), IV (1992)

АСЕ - Азәрбајҹан Совет енсиклопедијасы (ред. *Р.Рза*). I, 1970

АТ 1994 - Азәрбајҹан тарихи.Ән гәдим заманлардан XX әсрәдәк, I ч. (ред. *З.Бүнјадов, Ј.Јусифов*). Б. 1994.

АТ 1998 - Азәрбајҹан тарихи. I ч. «Елм», Б. 1998

АТГ - Azərbaycan tarixi üzrə qaynaqlar (red. *S.Əliyarlı və F.Mahmudov*), B.1989

АФМ - Азәрбајҹан филолокијасы мәсәләләри. Азәрб. ЕА-нын нәшри.

ГБ - Гутадгу-Билик. (*Баласагунлу Ј.* Хошбәхтлијә апаран елм). Б.1994

ТП - Тарих вә онун проблемләри (Елми-нәзәри, методик журнал), Бакы

ЕА хәб. - Азәрб. ЕА-ын хәбәрләри. (Дил-әдәб.-инҹәс. вә иҹт. елмләр серијасы)

---

AA - Artibus Asiae. Askona

ADD - Assyrian Deeds and Documents (*Johns C.H.W.*). Cambridge, 1898-1922

ARAB - Ancient Records of Assyria and Babylonia (*Luckenbill D.*). I-II. Chicago, 1926-1927

ARI - Assyrian Royal İnscriptions (*Grayson A.K.*).Vol. I-II. Wiesbaden, 1972, 1976

ARM - Archives Royales de Mari.

AS - Assyrological Studies. Chicaqo.

AT 1996 - Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci illərə qədər. (red. S. Əliyarov). B. 1996

Azer.MKS - Monuments of Azerbaijan material culture series. №1-9 (History museum)

BA - Belträge zur Assyriologie und Semitischen Sprachwissenschaft (*Billerbeck A., Delitzsche F.*). Band VI, Leipzig, 1909

Belleten - Türk Tarih Kurumu, Belleten.

Qalakənd - Kalakent früheisenzeitliche grabfrunde aus dem Transkaukasischen gebiet von Kirovabad/Jelisavetopol (*Nagel W., Strommenger E.*). Berlin, 1985; (azərcə tərcüməsi) B. 1999

GNAUT - Geographical Names According to Urartian Texts (*Diakonoff İ. M. and Kashkai S. M.*). «Repertoire Geograpihique des Textes Cuneiformes», Band 9. Wiesbaden, 1981

EƏ - Elmi əsərlər.Dil və ədəbyat seriyası. Bakı Dövlət universiteti.

EG - Etruscan Glossary. (Compilation and translations from French, İtalian and Latin by *Rick Mc Callister* and *Silvia Mc Callister-Castillo*), 1999

ERDEM - Atatürk Kültür, Dil ve Tarih Yüksek Kurumu yayınları. Ankara.

ETL - Ermənistan və ətraf bölgələrin toponimlər lüğəti (*Hakopyan T.X., Melik-Baxşiyan St.T., Barseqyan O.X.*). I c. Yerevan, 1986 (hay dilində)

ETHNİC Pr. - Ethnic problems of the history of Cental Asia in the early period. (Proceedings of the international symposium. Dushanbe, 1977). Moskva, 1981

DAFİ - Cahiers de la «Delegation Archeologue Française en İran». №4, 1974

DKA - Die Kunst Aserbaidshans vom 4. bis zum 18. Jahrhundert (*Bretanizki L., Weimarn B., Brentjes B.*). Koehler & Amelang. Leipzig, 1988

DTCF - Dil, Tarih, Coğrafya fakültesi. Ankara

İA - İslam Ansiklopedisi. (Milli eğitim basımevi), İstanbul

İCGT - İslam coğrafyaçılarına göre türkler ve türk ülkeleri (*Şeşen R.*). Ankara,1985

Karnamaq - Kārnāmaq ī Ardaxşīr ī Pabaqān. (Kniqa deəniy Ardaşira, sına Papaka. Transkripüiə teksta, perevod so srednepersidskoqo, vvedenie i kommentariy *O. M. Çunakovoy*). M. 1987

KAH, I, II - «Keilschriftte aus Assur historischen İnhalts». Ht 1, 2, Leipzig, 1911, 1922

KB - Keilinschriftliche Bibliothek (*Schrader E.*). (I-II), Berlin, 1889-1890

KB (Çeviri) - Kutadgu Bilig. II. Çeviri (*Arat R.R*). Ankara, 1988

KB (Metin) - Kutadgu Bilig. I. Metin. (*Arat R.R*). Ankara, 1991

KCN - *M. Neşri.* Kitāb-i Cihan-Nümā, I c. Ankara, 1987

KDQ - Kitabi Dədə Qorqud (*Araslı H.*) B.1938; 1962; (*Ergin M.*) I-II c. Ankara

Kİ - Kars ili. I sayı (özel sayı). Çıldır, Ardahan, Hanak, Posof. Ankara, 1965

HA - Historia Azerbajdzanu (*Baranavski B., Baranovski K.*). Wroclaw,1987

HB - Historia Bulgarii (*Tadeusz Wasilewski*). Wroclaw,1988

HG - Historia Gruzji (*Baranowski B., Baranowski K.*). Wroclaw,1987

HWC - Hanyu Wailaici Cidian. (*Çin dilində alınma sözlər lüğəti*). Şanxay, 1984

MAD - Materials for Assyrian Dictionary

MK - *M. Kaşgari.* Divanü lugat-it-türk tercümesi (çeviren *Besim Atalay*). I-IV t.

ML - 'Ali-Şir Nevāyi. Muhākemetü'l-Luğateyn (haz. *F.S.Barutçu-Özönder*)

OAC - Osmanlı Arşivinde Oymak, Aşiret və Cemaatlar (*D.Türkay*), İstanbul, 1979

PBS - Publications of the Babilonian Section (Univ. Museum of Pennsylvania).

PB - Pəhləvi-fars-hay-rus-ingilis lüğəti.İrəvan,1965 (hay dilində)

RLA - Reallexikon der Assyriologie.

SAA - *Ciovanni B.Lanfranchi and Simo Parola.*The Correspondence of Sarqon II, Part II. «State Archives of Assyria», vol. V. Helsinki Un.Press, 1990

SDG - *Tosun M., Yalavaç K.* Sumer dili ve grameri.1 c. Ankara, 1981

Siyasətnamə - *Nizamülmülk.* Siyasətnamə. B. 1987

SPAW - Sitzungsberichte der Preussischen Akademie der Wissenschaften. Ph.-his.

SRD - Scriptores rerum danicarum medii aevi. - Ed. J. Langebek et al. Hafniae, 1773-1878; (I-X tomların latın dilinə tərcüməsi ilə)

| | |
|---|---|
| TDA | - Türk Dünyası Araştırmaları. İstanbul |
| TDAY | - Türk dili araşdırmaları yıllığı - Belleten. Ankara. |
| TD | - Türk dili. (Türk Dil Kurumunun «Dil ve Edebiyat Dergisi»), Ankara |
| $TD_1$ | - Türk dünyası. (Türk Dil Kurumunun «Dil ve Edebiyat Dergisi»), Ankara |
| TDE | - Türk dünyası edebiyatı (Hazırlayan *H. Açıkgöz*). İstanbul, 1991 |
| T.II | - Toponimika, II. Tbilisi, 1980 (gürcü dilində) |
| TMBİDA | - Türk milli bütünlüğü içerisinde Doğu Anadolu. (Hazırlayan: *B. Ögel, H. D. Yıldız, M. F. Kırzıoğlu, M. Eröz, B. Kodaman, M. A. Çay*) Ankara, 1986 |
| TP | - Tarix və onun problemləri. (Nəzəri, elmi, metodik jurnal), B. |
| Türkler | - I-XXVI cild. (Yeni Türkiye Araştırma ve Yayın Merkezi), Ankara, 2002 |
| Vekayi | - *Gazi Zahirüddin Muhammed Babur*. Vekayi (Baburun hatiratı). I-II c. Ankara, 1987 |
| ZDMG | - Zeitschrift der Deutschen Morgenlandischen Gesellschaft. Leipzig-Wiesbaden. |